Sadiq Qurbanov

# **Neft və davamlı inkişaf:**
# Azərbaycanın enerji strategiyası

***3 cilddə***

# **III cild**

"Əsrin müqaviləsi"nə dair rəsmi sənədlər

**BAKI–2025**

**Müəllif:** **Sadiq Qurbanov**
Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri, t.ü.f.d., dos.

**Baş məsləhətçi:** akademik **Xoşbəxt Yusifzadə**
**Asif Zeynalov**
"GL Group"un baş icraçı direktoru

**Rəyçilər:** **Arif Həşimov**
Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi
Fizika İnstitutunun baş direktoru, akademik

**Urxan Ələkbərov**
Azərbaycan Respublikasının Prezidenti yanında Dövlə İdarəçilik
Akademiyasının rektoru, akademik

**Redaktorlar:** **Zakir İsmayılov**
**Səməd Vəkilov**

**Sadiq Qurbanov. Neft və davamlı inkişaf: Azərbaycanın enerji strategiyası. "Əsrin müqaviləsi"sinə dair rəsmi sənədlər.** *3 cilddə. III cild. - Bakı, 2025. - 768 s.*

*Bu kitabda Azərbaycan hökuməti ilə xarici şirkətlər arasında danışıqlar prosesinin mərhələləri və tərəflərin mövqelərinin uzlaşdırılması sahəsində meydana çıxan problemlər, Azərbaycanın bölgədəki müxtəlif geosiyasi maraqların tarazlaşdırılması və öz mənafelərini qorumaq üçün göstərdiyi səylər, habelə neft müqavilələrinin mətni sistemli şəkildə ardıcıl olaraq verilmişdir. Eyni zamanda, "Əsrin müqaviləsi"ndən sonra Azərbaycan hökumətinin neft-qaz sahəsində imzalamış olduğu digər müqavilələr də öz əksinini tapmışdır. Azərbaycan Respublikası Prezidentinin imzaladığı Qanun, Fərman, Sərəncamlar və Nazirlər Kabinetinin qərarları xronoloji ardıcıllıqla verilib.*

*Neft və qaz boru kəməri marşrutları Bakı–Qroznı–Novorossiysk neft kəməri (Şimal marşrutu), Bakı–Supsa neft kəməri (Qərb İxrac Boru Kəməri), Heydər Əliyev adına "Bakı–Tbilisi–Ceyhan" əsas ixrac boru kəməri, Bakı–Tbilisi–Ərzurum boru xətti (Qaz kəməri) və Cənub Qaz Dəhlizi: TANAP (Trans Anadolu Qaz Boru Kəməri), TAP (Trans Adriatik Boru Xətti) xətləri haqqında geniş məlumat verilmişdir.*

*1994-cü ildən başlayaraq Xəzər dənizində neft-qaz hasilatına dair hər il Bakıda Beynəlxalq sərgi və konfranslar keçirilir. Bu sərgilərdə dünyanın bir çox ölkəsinin, o cümlədən Azərbaycanın neft və qaz hasilatı ilə, neft-mədən avadanlığı istehsalı ilə məşğul olan bir çox şirkətlər yaxından iştirak edirlər. Kitabda "XƏZƏRNEFTQAZ" Beynəlxalq sərgi və konfransların xronologiyası öz əksini tapır.*

# MÜNDƏRİCAT

AZƏRBAYCANDA İKİ MİLYARD TON NEFT HASİL OLUNMASI MÜNASİBƏTİLƏ TƏNTƏNƏLİ MƏRASİM KEÇİRİLİB ........ 25
PREZİDENT İLHAM ƏLİYEVİN NİTQİ ........ 25

PREZİDENT İLHAM ƏLİYEVİN DAVOSDA "LUKOİL" ŞİRKƏTİNİN PREZİDENTİ İLƏ GÖRÜŞÜ OLUB ........ 34

PREZİDENT İLHAM ƏLİYEV "CHEVRON" ŞİRKƏTİNİN VİTSE-PREZİDENTİ İLƏ GÖRÜŞÜB ........ 35

PREZİDENT İLHAM ƏLİYEV DAVOSDA ABŞ-nin "BLACK ROCK" ŞİRKƏTİNİN TƏSİSÇİSİ İLƏ GÖRÜŞÜB ........ 36

PREZİDENT İLHAM ƏLİYEV DAVOSDA OPEC-in BAŞ KATİBİ İLƏ GÖRÜŞÜB ........ 37

PREZİDENT İLHAM ƏLİYEV SƏUDİYYƏ ƏRƏBİSTANININ ENERGETİKA, SƏNAYE və TƏBİİ SƏRVƏTLƏR NAZİRİ İLƏ GÖRÜŞÜB ........ 38

PREZİDENT İLHAM ƏLİYEV AVROPA KOMİSSİYASININ ENERJİ BİRLİYİ ÜZRƏ VİTSE-PREZİDENTİ İLƏ GÖRÜŞÜB ........ 39

PREZİDENT İLHAM ƏLİYEV "BP" ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU İLƏ GÖRÜŞÜB ........ 40

PREZİDENT İLHAM ƏLİYEV DAVOSDA "STATOİL" ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU İLƏ GÖRÜŞÜB ........ 41

DAVOS FORUMU ÇƏRÇİVƏSİNDƏ "NEFT VƏ QAZ SƏNAYESİ SİYASƏTİ ÜZRƏ LİDERLƏRİN TOPLANTISI" ADLI SESSİYA KEÇİRİLİB ........ 42

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA KOMİSSİYASININ ENERJİ BİRLİYİ ÜZRƏ VİTSE-PREZİDENTİ MAROŞ ŞEFÇOVİÇ İLƏ GÖRÜŞÜB ........ 43

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN TÜRKİYƏNİN ENERGETİKA və TƏBİİ SƏRVƏTLƏR NAZİRİ İLƏ GÖRÜŞÜ OLUB ........ 44

BAKIDA CƏNUB QAZ DƏHLİZİ MƏŞVƏRƏT ŞURASI ÇƏRÇİVƏSİNDƏ NAZİRLƏRİN DÖRDÜNCÜ TOPLANTISI KEÇİRİLİB ........ 45
PREZİDENT İLHAM ƏLİYEVİN NİTQİ ........ 45

PREZİDENT İLHAM ƏLİYEV OPEC-in BAŞ KATİBİ İLƏ GÖRÜŞÜB ........ 52

PREZİDENT İLHAM ƏLİYEV LONDONDA "BP" ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU İLƏ GÖRÜŞÜB ........ 54

PREZİDENT İLHAM ƏLİYEV ABŞ DÖVLƏT KATİBİNİN KÖMƏKÇİSİNİN ENERJİ MƏSƏLƏLƏRİ ÜZRƏ MÜAVİNİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL EDİB ........ 55

PREZİDENT İLHAM ƏLİYEV QAZ İXRAC EDƏN ÖLKƏLƏR FORUMUNUN BAŞ KATİBİNİ QƏBUL EDİB ........ 56

SƏNGƏÇAL TERMİNALINDA CƏNUB QAZ DƏHLİZİNİN RƏSMİ AÇILIŞ MƏRASİMİ KEÇİRİLİB ........ 57
PREZİDENT İLHAM ƏLİYEVİN NİTQİ ........ 57

PREZİDENT İLHAM ƏLİYEV XXV YUBİLEY BEYNƏLXALQ "XƏZƏR NEFT və QAZ – 2018" SƏRGİSİ İLƏ TANIŞ OLUB ........ 65

PREZİDENT İLHAM ƏLİYEV TÜRKİYƏNİN ƏSKİŞƏHƏR ŞƏHƏRİNDƏ "BP" ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU İLƏ GÖRÜŞÜB ........ 69

TÜRKİYƏNİN ƏSKİŞƏHƏR ŞƏHƏRİNDƏ TANAP LAYİHƏSİNİN AÇILIŞ MƏRASİMİ KEÇİRİLİB ........ 70
PREZİDENT İLHAM ƏLİYEVİN ÇIXIŞI ........ 70

SUMQAYIT KİMYA SƏNAYE PARKINDA "SOCAR POLYMER" LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ İNŞA EDİLƏN POLİPROPİLEN ZAVODUNUN AÇILIŞI OLUB ........ 74
PREZİDENT İLHAM ƏLİYEVİN ÇIXIŞI ........ 74

"ÜMİD–BABƏK" TƏBİİ QAZ YATAQLARININ İŞLƏNİLMƏSİNDƏ "TOTAL"IN İŞTİRAK İMKANLARI MÜZAKİRƏ OLUNUB ........ 77

PREZİDENT İLHAM ƏLİYEV "TOTAL" ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORUNU QƏBUL EDİB ........ 78

TÜRKİYƏNİN İZMİR ŞƏHƏRİNDƏ "STAR" NEFT EMALI ZAVODUNUN AÇILIŞ MƏRASİMİ OLUB ........ 79
PREZİDENT İLHAM ƏLİYEVİN ÇIXIŞI ........ 82

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İLƏ "BP" QRUPUNUN BAŞ İCRAÇI DİREKTORUNUN GÖRÜŞÜ OLUB ........ 85

PREZİDENT İLHAM ƏLİYEV DAVOSDA RUSİYANIN "LUKOİL" ŞİRKƏTİNİN PREZİDENTİ İLƏ GÖRÜŞÜB ........ 86

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ "TOTAL" ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORUNUN GÖRÜŞÜ OLUB ........ 87

PREZİDENT İLHAM ƏLİYEV "EQUİNOR" ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU İLƏ GÖRÜŞÜB ........ 88

PREZİDENT İLHAM ƏLİYEVİN TÜRKİYƏNİN ENERGETİKA və TƏBİİ SƏRVƏTLƏR NAZİRİ İLƏ GÖRÜŞÜ OLUB ........ 89

PREZİDENT İLHAM ƏLİYEV ABŞ DÖVLƏT KATİBİNİN ENERJİ DİPLOMATİYASI ÜZRƏ MÜAVİNİNİN MÜŞAVİRİ İLƏ GÖRÜŞÜB ........ 90

PREZİDENT İLHAM ƏLİYEV AVROPA İNVESTİSİYA BANKININ VİTSE-PREZİDENTİ İLƏ GÖRÜŞÜB ........ 91

PREZİDENT İLHAM ƏLİYEVİN DÜNYA BANKININ CƏNUBİ QAFQAZ ÜZRƏ REGİONAL DİREKTORU İLƏ GÖRÜŞÜ OLUB ........ 92

BAKIDA CƏNUB QAZ DƏHLİZİ MƏŞVƏRƏT ŞURASI ÇƏRÇİVƏSİNDƏ NAZİRLƏRİN BEŞİNCİ TOPLANTISI KEÇİRİLİB ........ 93
PREZİDENT İLHAM ƏLİYEVİN NİTQİ ........ 93

PREZİDENT İLHAM ƏLİYEV OPEC-in BAŞ KATİBİNİ QƏBUL EDİB ........ 99

PREZİDENT İLHAM ƏLİYEV SƏUDİYYƏ ƏRƏBİSTANININ ENERGETİKA, SƏNAYE və TƏBİİ SƏRVƏTLƏR NAZİRİNİ QƏBUL EDİB ........ 101

PREZİDENT İLHAM ƏLİYEV BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN ENERJİ və SƏNAYE NAZİRİNİ QƏBUL EDİB ........ 103

PREZİDENT İLHAM ƏLİYEV XXVI BEYNƏLXALQ "XƏZƏR NEFT VƏ QAZ – 2019" SƏRGİ və KONFRANSININ AÇILIŞINDA İŞTİRAK EDİB ........ 104
PREZİDENT İLHAM ƏLİYEVİN NİTQİ ........ 104

PREZİDENT İLHAM ƏLİYEV "BP"nin DİREKTORLAR ŞURASININ SƏDRİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL EDİB ........ 110

PREZİDENT İLHAM ƏLİYEV "ƏSRİN MÜQAVİLƏSİ"nin 25 İLLİYİ və NEFTÇİLƏR GÜNÜ MÜNASİBƏTİLƏ KEÇİRİLƏN MƏRASİMDƏ İŞTİRAK EDİB ........ 111
PREZİDENT İLHAM ƏLİYEVİN NİTQİ ........ 111

TÜRKİYƏNİN İPSALA QƏSƏBƏSİNDƏ TANAP QAZ KƏMƏRİNİN AVROPA İLƏ BİRLƏŞƏN HİSSƏSİNİN AÇILIŞ MƏRASİMİ KEÇİRİLİB ........ 117
PREZİDENT İLHAM ƏLİYEVİN ÇIXIŞI ........ 117

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "BP" QRUPUNUN BAŞ İCRAÇI DİREKTORUNU QƏBUL EDİB ........ 121

AZƏRBAYCANIN "NAXÇIVAN" və "QOŞADAŞ" YATAQLARININ RUSİYANIN "LUKOİL" ŞİRKƏTİ İLƏ BİRGƏ İŞLƏNİLMƏSİ BARƏDƏ QƏRAR QƏBUL OLUNUB ........ 123

DAVOSDA PREZİDENT İLHAM ƏLİYEV İLƏ OPEC-in BAŞ KATİBİ MƏHƏMMƏD BARKİNDONUN GÖRÜŞÜ OLUB ........ 124

DAVOSDA "AZƏRİ–ÇIRAQ–GÜNƏŞLİ" YATAQLAR BLOKUNUN İŞLƏNİLMƏSİ ÜZRƏ YENİ LAYİHƏYƏ DAİR MÜZAKİRƏLƏR APARILIB ........ 126

PREZİDENT İLHAM ƏLİYEV ABŞ DÖVLƏT KATİBİNİN ENERJİ DİPLOMATİYASI ÜZRƏ MÜAVİNİNİN MÜŞAVİRİNİ QƏBUL EDİB ........ 127

BAKIDA CƏNUB QAZ DƏHLİZİ MƏŞVƏRƏT ŞURASI ÇƏRÇİVƏSİNDƏ NAZİRLƏRİN VI TOPLANTISI KEÇİRİLİB ........ 129
PREZİDENT İLHAM ƏLİYEVİN NİTQİ ........ 130

PREZİDENT İLHAM ƏLİYEV "QARABAĞ" YATAĞININ DAYAQ BLOKUNUN DƏNİZƏ YOLA SALINMASI MƏRASİMİNDƏ İŞTİRAK EDİB ........ 138

PREZİDENT İLHAM ƏLİYEV "ABŞERON" YATAĞININ DƏNİZ ƏMƏLİYYATLARININ TƏMƏLQOYMA MƏRASİMİNDƏ İŞTİRAK EDİB ........ 144

PREZİDENT İLHAM ƏLİYEVİN RƏSMİ FACEBOOK SƏHİFƏSİNDƏ NEFTÇİLƏR GÜNÜ İLƏ BAĞLI PAYLAŞIM EDİLİB ........ 164

**AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVLƏ TÜRKMƏNİSTAN PREZİDENTİ QURBANQULU BERDİMƏHƏMMƏDOV ARASINDA VİDEOKONFRANS FORMATINDA GÖRÜŞ KEÇİRİLİB** ..... **165**
PREZİDENT İLHAM ƏLİYEVİN ÇIXIŞI ..... 165

**PREZİDENT İLHAM ƏLİYEV CƏNUB QAZ DƏHLİZİ MƏŞVƏRƏT ŞURASI ÇƏRÇİVƏSİNDƏ NAZİRLƏRİN VİDEOKONFRANS FORMATINDA VII İCLASINDA ÇIXIŞ EDİB** ..... **171**
PREZİDENT İLHAM ƏLİYEVİN ÇIXIŞI ..... 171

**PREZİDENT İLHAM ƏLİYEV "BP" QRUPUNUN BAŞ İCRAÇI DİREKTORUNU QƏBUL EDİB** ..... **177**

**PREZİDENT İLHAM ƏLİYEV "TOTAL ENERGİES" ŞİRKƏTİNİN KƏŞFİYYAT və HASİLAT ÜZRƏ PREZİDENTİNİ QƏBUL EDİB** ..... **179**

**PREZİDENT İLHAM ƏLİYEV TÜRKİYƏNİN ENERGETİKA və TƏBİİ SƏRVƏTLƏR NAZİRİNİ QƏBUL EDİB** ..... **180**

**BAKIDA CƏNUB QAZ DƏHLİZİ MƏŞVƏRƏT ŞURASI ÇƏRÇİVƏSİNDƏ NAZİRLƏRİN VIII TOPLANTISI KEÇİRİLİB** ..... **181**
PREZİDENT İLHAM ƏLİYEVİN ÇIXIŞI ..... 181

**PREZİDENT İLHAM ƏLİYEV AVROPA İTTİFAQININ ENERGETİKA MƏSƏLƏLƏRİ ÜZRƏ KOMİSSARININ BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL EDİB** ..... **187**

**PREZİDENT İLHAM ƏLİYEV BAKI ENERJİ HƏFTƏSİ ÇƏRÇİVƏSİNDƏ 27-ci BEYNƏLXALQ XƏZƏR NEFT VƏ QAZ SƏRGİSİNİN RƏSMİ AÇILIŞ MƏRASİMİNDƏ İŞTİRAK EDİB** ..... **189**
PREZİDENT İLHAM ƏLİYEVİN ÇIXIŞI ..... 189

**PREZİDENT İLHAM ƏLİYEV "BP" QRUPUNUN BAŞ İCRAÇI DİREKTORUNU QƏBUL EDİB** ..... **196**

**AZƏRBAYCAN İLƏ AVROPA İTTİFAQI ARASINDA ENERJİ SAHƏSİNDƏ STRATEJİ TƏRƏFDAŞLIĞA DAİR ANLAŞMA MEMORANDUMU İMZALANIB** ..... **197**

**PREZİDENT İLHAM ƏLİYEVİN AVROPA KOMİSSİYASININ PREZİDENTİ İLƏ GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ KEÇİRİLİB** ..... **198**

**AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV VƏ AVROPA KOMİSSİYASININ PREZİDENTİ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞ EDİBLƏR** ..... **200**
PREZİDENT İLHAM ƏLİYEVİN BƏYANATI ..... **200**

**SOFİYADA YUNANISTAN–BOLQARISTAN QAZ İNTERKONNEKTORUNUN AÇILIŞ MƏRASİMİ KEÇİRİLİB** ..... **202**
PREZİDENT İLHAM ƏLİYEVİN ÇIXIŞI ..... 202

**PREZİDENT İLHAM ƏLİYEV "AZƏRİ–MƏRKƏZİ–ŞƏRQİ" PLATFORMASININ DAYAQ BLOKUNUN DƏNİZƏ YOLA SALINMASI MƏRASİMİNDƏ İŞTİRAK EDİB** ..... **204**

**BUXARESTDƏ YAŞIL ENERJİ İLƏ BAĞLI STRATEJİ TƏRƏFDAŞLIQ HAQQINDA SAZİŞİN İMZALANMASINA DAİR PLENAR İCLAS KEÇİRİLİB** ........ **207**
PREZİDENT İLHAM ƏLİYEVİN ÇIXIŞI........ 207

**BAKIDA CƏNUB QAZ DƏHLİZİ MƏŞVƏRƏT ŞURASI ÇƏRÇİVƏSİNDƏ NAZİRLƏRİN 9-cu və YAŞIL ENERJİ MƏŞVƏRƏT ŞURASI ÇƏRÇİVƏSİNDƏ NAZİRLƏRİN 1-ci İCLASLARININ AÇILIŞI OLUB** ........ **209**
PREZİDENT İLHAM ƏLİYEVİN ÇIXIŞI........ 209

**PREZİDENT İLHAM ƏLİYEV AVROPA İTTİFAQI KOMİSSARININ BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL EDİB** ........ **215**

**PREZİDENT İLHAM ƏLİYEV İTALİYANIN ƏTRAF MÜHİT və ENERJİ TƏHLÜKƏSİZLİYİ NAZİRİNİ QƏBUL EDİB** ........ **217**

**PREZİDENT İLHAM ƏLİYEV "AZƏRİ–MƏRKƏZİ–ŞƏRQİ" PLATFORMASININ ÜST MODULLARININ DƏNİZƏ RƏMZİ YOLA SALINMASI MƏRASİMİNDƏ İŞTİRAK EDİB** ........ **219**

**SOFİYADA BOLQARISTAN, RUMINİYA, MACARISTAN, SLOVAKİYANIN ÖTÜRÜCÜ SİSTEM OPERATORLARI və SOCAR ARASINDA ANLAŞMA MEMORANDUMU İMZALANIB** ........ **222**
PREZİDENT İLHAM ƏLİYEVİN ÇIXIŞI........ 223

**SOFİYADA SOCAR-ın BOLQARISTANDAKI OFİSİNİN AÇILIŞI OLUB** ........ **226**

**PREZİDENT İLHAM ƏLİYEV "TOTAL ENERGİES" ŞİRKƏTİNİN KƏŞFİYYAT və HASİLAT ÜZRƏ PREZİDENTİNİ QƏBUL EDİB** ........ **227**

**AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ DÖVLƏT KATİBİNİN ENERJİ EHTİYATLARI ÜZRƏ KÖMƏKÇİSİNİ QƏBUL EDİB** ........ **228**

**PREZİDENT İLHAM ƏLİYEV BAKI ENERJİ HƏFTƏSİ ÇƏRÇİVƏSİNDƏ 28-ci BEYNƏLXALQ XƏZƏR NEFT və QAZ SƏRGİSİNİN RƏSMİ AÇILIŞ MƏRASİMİNDƏ İŞTİRAK EDİB** ........ **229**
PREZİDENT İLHAM ƏLİYEVİN ÇIXIŞI........ 230

**AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV OPEC-in BAŞ KATİBİNİ QƏBUL EDİB** ........ **235**

**PREZİDENT İLHAM ƏLİYEV "TOTAL ENERGİES" ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORUNU QƏBUL EDİB** ........ **236**

**PREZİDENT İLHAM ƏLİYEV "BP" ŞİRKƏTİNİN İDARƏ HEYƏTİNİN SƏDRİNİ QƏBUL EDİB** ........ **237**

**NİŞ ŞƏHƏRİNDƏ SERBİYA–BOLQARISTAN QAZ İNTERKONNEKTORUNUN AÇILIŞ MƏRASİMİ KEÇİRİLİB** ........ **239**
PREZİDENT İLHAM ƏLİYEVİN ÇIXIŞI........ 240

**BAKIDA CƏNUB QAZ DƏHLİZİ MƏŞVƏRƏT ŞURASI ÇƏRÇİVƏSİNDƏ NAZİRLƏRİN 10-cu və YAŞIL ENERJİ MƏŞVƏRƏT ŞURASI ÇƏRÇİVƏSİNDƏ NAZİRLƏRİN 2-ci İCLASLARI KEÇİRİLİB ........ 243**
PREZİDENT İLHAM ƏLİYEVİN ÇIXIŞI........243

**PREZİDENT İLHAM ƏLİYEV "BP"NİN YENİ BAŞ İCRAÇI DİREKTORUNU QƏBUL EDİB ........ 249**

**PREZİDENT İLHAM ƏLİYEV TÜRKİYƏNİN ENERGETİKA və TƏBİİ SƏRVƏTLƏR NAZİRİNİ QƏBUL EDİB........ 250**

**PREZİDENT İLHAM ƏLİYEV BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN SƏNAYE və QABAQCIL TEXNOLOGİYALAR NAZİRİNİ QƏBUL EDİB ........ 252**

**PREZİDENT İLHAM ƏLİYEV BAKI ENERJİ HƏFTƏSİ ÇƏRÇİVƏSİNDƏ 29-cu "CASPİAN OİL&GAS" və 12-ci "CASPİAN POWER" SƏRGİLƏRİNİN RƏSMİ AÇILIŞ MƏRASİMİNDƏ İŞTİRAK EDİB ........ 254**
PREZİDENT İLHAM ƏLİYEVİN ÇIXIŞI........255

**AZƏRBAYCAN RESPUBLİKASINDA DƏNİZ NEFT və QAZ YATAQLARININ İŞLƏNİLMƏSİNİN SÜRƏTLƏNDİRİLMƏSİ HAQQINDA ........ 261**

**XƏZƏRİN AZƏRBAYCAN SEKTORUNDA NEFT YATAQLARININ BİRGƏ İŞLƏNMƏSİ HAQQINDA XARİCİ NEFT ŞİRKƏTLƏRİ KONSORSİUMU İLƏ DANIŞIQLARIN YEKUNLARI BARƏDƏ........ 262**

**XƏZƏR DƏNİZİNİN AZƏRBAYCAN SEKTORUNDA "AZƏRİ", "ÇIRAQ" YATAQLARININ və "GÜNƏŞLİ" YATAĞININ DƏRİNLİKDƏ YERLƏŞƏN HİSSƏSİNİN BİRGƏ İŞLƏNMƏSİ və NEFT HASİLATININ PAY BÖLGÜSÜ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT NEFT ŞİRKƏTİ İLƏ "AMOKO KASPİAN Sİ PETROLEUM LİMİTED", "BP EKSPLOREYŞN (KASPİAN Sİ) LİMİTED", "DELTA NİMİR XƏZƏR LİMİTED", "DEN NORSKE STATS OLYESELSKAP A.S." LUKOYL SƏHMDAR CƏMİYYƏTİ, "MAKDERMOTT AZƏRBAYCAN İNK.", "PENNZOYL KASPİAN KORPOREYŞN", "REMKO XƏZƏR ENERCİ LİMİTED", "TÜRKİYE PETROLLERİ A.O." və "YUNOKAL XƏZƏR Ltd." ARASINDA SAZİŞİN QƏBUL və TƏSDİQ EDİLMƏSİ, ONUN HƏYATA KEÇİRİLMƏSİNƏ İCAZƏ VERİLMƏSİ BARƏDƏ........ 267**
AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ MƏCLİSİ........267

**"XƏZƏR DƏNİZİNİN AZƏRBAYCAN SEKTORUNDA "AZƏRİ", "ÇIRAQ" YATAQLARININ və "GÜNƏŞLİ" YATAĞININ DƏRİNLİKDƏ YERLƏŞƏN HİSSƏSİNİN BİRGƏ İŞLƏNİLMƏSİ və HASİLATIN PAY BÖLGÜSÜ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT NEFT ŞİRKƏTİ İLƏ XARİCİ NEFT ŞİRKƏTLƏRİNİN KONSORSİUMU ARASINDA 1994-cü İL SENTYABRIN 20-də BAĞLANMIŞ SAZİŞ" İLƏ ƏLAQƏDAR AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT NEFT ŞİRKƏTİ İLƏ TÜRKİYE PETROLLERİ A.O. ARASINDA 1995-ci İL 12 APREL TARİXLİ ALQI-SATQI HAQQINDA MÜQAVİLƏNİN və ONA ƏLAVƏ EDİLMİŞ SƏNƏDLƏRİN BƏYƏNİLMƏSİ və QANUNUN QÜVVƏYƏ MİNMƏSİ HAQQINDA........ 270**

**XƏZƏR DƏNİZİNİN AZƏRBAYCAN SEKTORUNDA "AZƏRİ", "ÇIRAQ" YATAQLARINDAN VƏ "GÜNƏŞLİ" YATAĞININ DƏRİNLİKDƏ YERLƏŞƏN HİSSƏSİNDƏN ÇIXARILAN İLKİN NEFTİN İXRACINA AİD SƏNƏDLƏRİN BƏYƏNİLMƏSİ və TƏSDİQ OLUNMASI HAQQINDA ........ 273**

XƏZƏR DƏNİZİNİN AZƏRBAYCAN SEKTORUNDA "AZƏRİ", "ÇIRAQ" YATAQLARININ və "GÜNƏŞLİ" YATAĞININ DƏRİNLİKDƏ YERLƏŞƏN HİSSƏSİNDƏN ÇIXARILAN İLKİN NEFTİN QƏRB MARŞRUTU İLƏ İXRACINA AİD SƏNƏDLƏRİN TƏSDİQ OLUNMASI VƏ BƏYƏNİLMƏSİ HAQQINDA ..... 275

"AZƏRİ", "ÇIRAQ" YATAQLARININ və "GÜNƏŞLİ" YATAĞININ DƏRİNLİKDƏ YERLƏŞƏN HİSSƏSİNİN BİRGƏ İŞLƏNMƏSİ ÜZRƏ LAYİHƏDƏ AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT NEFT ŞİRKƏTİNİN İŞTİRAK PAYI İLƏ BAĞLI BƏZİ MƏSƏLƏLƏRİN TƏNZİMLƏNMƏSİ HAQQINDA ..... 277

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİ ..... 279

MÜQAVİLƏNİN İMZALANMASI MƏRASİMİNDƏ AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN NİTQİ ..... 280

MÜQAVİLƏNİN İMZALANMA MƏRASİMİNDƏ AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT NEFT ŞİRKƏTİNİN PREZİDENTİ NATİQ ƏLİYEVİN ÇIXIŞI ..... 288

XƏZƏR DƏNİZİNİN AZƏRBAYCAN SEKTORUNDA "QARABAĞ" PERSPEKTİV STRUKTURUNUN və ONU ƏHATƏ EDƏN ƏRAZİNİN KƏŞFİYYATINA, İŞLƏNMƏSİNƏ və HASİLATIN PAY BÖLGÜSÜNƏ DAİR AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT NEFT ŞİRKƏTİ İLƏ "LUKOYL İNTERNEŞNL LTD", "ACİP AZƏRBAYCAN B.V.", "LUKACİP N.V.", "PENNZOYL KASPİAN DEVELOPMENT KORPOREYŞN" VƏ "ARDNŞ-nin ORTAQ KOMMERSİYA ŞİRKƏTİ" ARASINDA SAZİŞİN QƏBUL və TƏSDİQ EDİLMƏSİ, ONUN HƏYATA KEÇİRİLMƏSİNƏ İCAZƏ VERİLMƏSİ BARƏDƏ ..... 296

AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ MƏCLİSİ ..... 296

XƏZƏR DƏNİZİNİN AZƏRBAYCAN SEKTORUNDA QARABAĞ STRUKTURUNUN və ONA BİTİŞİK SAHƏLƏRİNİN KƏŞFİYYATI və İŞLƏNMƏSİ HAQQINDA ..... 299

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİ ..... 300

MÜQAVİLƏNİN İMZALANMA MƏRASİMİNDƏ AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN ÇIXIŞI ..... 301

XƏZƏR DƏNİZİNİN AZƏRBAYCAN SEKTORUNDA "ŞAHDƏNİZ" PERSPEKTİV SAHƏSİNİN KƏŞFİYYATI, İŞLƏNMƏSİ və HASİLATIN PAY BÖLGÜSÜ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT NEFT ŞİRKƏTİ İLƏ ARDNŞ-nin KOMMERSİYA ORTAQ ŞİRKƏTİ, "BP EKSPLOREYŞN (AZƏRBAYCAN) LİMİTED", "ELF PETROLEUM AZƏRBAYCAN B.V.", "LUKOYL İNTERNƏŞNL LTD", "OYL İNDASTRİZ İNCİNİRİNƏ ƏND KONSTRAKŞN", "STATOYL–AZƏRBAYCAN A.S.", "TÖRKİŞ PETROLEUM OVERSİZ KOMPANİ LİMİTED" ŞİRKƏTLƏRİ ARASINDA SAZİŞİN QƏBUL və TƏSDİQ EDİLMƏSİ, HƏYATA KEÇİRİLMƏSİNƏ İCAZƏ VERİLMƏSİ BARƏDƏ ..... 306

AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ MƏCLİSİ. ..... 306

XƏZƏR DƏNİZİNİN AZƏRBAYCAN SEKTORUNDA "ŞAHDƏNİZ" PERSPEKTİV SAHƏSİNİN KƏŞFİYYATI, İŞLƏNMƏSİ və HASİLATIN PAY BÖLGÜSÜ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT NEFT ŞİRKƏTİ İLƏ ARDNŞ KOMMERSİYA ORTAQ ŞİRKƏTİ, "BP EKSPLOREYŞN (AZƏRBAYCAN) LİMİTED", "ELF PETROLEUM AZƏRBAYCAN B.V.",

"LUKOYL İNTERNƏŞNL LTD", "OYL İNDASTRİZ İNCİNİRİNƏ ƏND KONSTRAKŞN", "STATOYL AZƏRBAYCAN A.S.", "TÖRKİŞ PETROLEUM OVERSİZ KOMPANİ LİMİTED" ŞİRKƏTLƏRİ ARASINDA SAZİŞİN QƏBUL və TƏSDİQ EDİLMƏSİ, HƏYATA KEÇİRİLMƏSİNƏ İCAZƏ VERİLMƏSİ BARƏDƏ ........ 309

XƏZƏR DƏNİZİNİN AZƏRBAYCAN SEKTORUNDA "ŞAHDƏNİZ" YATAĞININ KƏŞFİYYATI və İŞLƏNMƏSİ HAQQINDA ........ 312

MÜQAVİLƏNİN İMZALANMA MƏRASİMİNDƏ AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN ÇIXIŞI ........ 313

XƏZƏR DƏNİZİNİN AZƏRBAYCAN SEKTORUNDAKI "ƏŞRƏFİ", "DAN ULDUZU" PERSPEKTİV STRUKTURLARININ və ONLARA BİTİŞİK SAHƏNİN KƏŞFİYYATI, İŞLƏNMƏSİ VƏ HASİLATIN PAY BÖLGÜSÜ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT NEFT ŞİRKƏTİ İLƏ "AMOKO NORD ABŞERON PETROLEUM LİMİTED", "YUNOKAL İSTERN NEMİSFİR EKSPLOREYŞN LTD", "İTOÇU OYL EKSPLOREYŞN (KASPİAN) İNK.", "DELTA OYL KOMPANİ (AZƏRBAYCAN) LTD", ARDNŞ ORTAQ NEFT ŞİRKƏTİ ARASINDA SAZİŞİN QƏBUL və TƏSDİQ EDİLMƏSİ, HƏYATA KEÇİRİLMƏSİNƏ İCAZƏ VERİLMƏSİ BARƏDƏ ........ 319

AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ MƏCLİSİ ........ 319

XƏZƏR DƏNİZİNİN AZƏRBAYCAN SEKTORUNDA "ƏŞRƏFİ", "DAN ULDUZU" PERSPEKTİV STRUKTURLARININ KƏŞFİYYATI və İŞLƏNİLMƏSİ LAYİHƏSİNƏ DAİR AZƏRBAYCAN RESPUBLİKASI İLƏ "AMOKO NORD ABŞERON PETROLEUM LİMİTED", "YUNOKAL XƏZƏR LİMİTED", "DELTA OYL KOMPANİ LİMİTED", "İTOÇU OYL EKSPLOREYŞN (KASPİAN) İNK." ŞİRKƏTLƏRİ ARASINDA DANIŞIQLAR APARILMASI və SAZİŞ BAĞLANMASI SƏLAHİYYƏTİNİN VERİLMƏSİ BARƏDƏ ........ 322

MÜQAVİLƏNİN İMZALANMA MƏRASİMİNDƏ AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN NİTQİ ........ 323

XƏZƏR DƏNİZİNİN AZƏRBAYCAN SEKTORUNDA "LƏNKƏRAN-DƏNİZ" və "TALIŞ-DƏNİZ" PERSPEKTİV STRUKTURLARININ DAXİL OLDUĞU DƏNİZ BLOKUNUN KƏŞFİYYATI, İŞLƏNMƏSİ VƏ HASİLATIN PAY BÖLGÜSÜ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT NEFT ŞİRKƏTİ İLƏ "ELF PETROLEUM AZƏRBAYCAN B.V.", ARDNŞ-nin ORTAQ NEFT ŞİRKƏTİ, "TOTAL EKSPLOREYŞN ƏND PRODAKŞN AZƏRBAYCAN" ARASINDA SAZİŞİN QƏBUL VƏ TƏSDİQ EDİLMƏSİ, HƏYATA KEÇİRİLMƏSİNƏ İCAZƏ VERİLMƏSİ BARƏDƏ ........ 330

AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ MƏCLİSİ ........ 330

"XƏZƏR DƏNİZİNİN AZƏRBAYCAN SEKTORUNDA "LƏNKƏRAN-DƏNİZ", "TALIŞ-DƏNİZ" PERSPEKTİV STRUKTURLARININ KƏŞFİYYATI, İŞLƏNMƏSİ və HASİLATIN PAY BÖLGÜSÜNƏ DAİR XARİCİ NEFT ŞİRKƏTLƏRİ İLƏ DANIŞIQLARIN YEKUNLAŞMASI HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI ........ 333

MÜQAVİLƏNİN İMZALANMA MƏRASİMİNDƏ AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN BƏYANATI ........ 334

"XƏZƏR DƏNİZİNDƏ "D-222" PERSPEKTİV AZƏRBAYCAN BLOKUNUN KƏŞFİYYATI, İŞLƏNMƏSİ VƏ HASİLATIN PAY BÖLGÜSÜNƏ DAİR AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT NEFT ŞİRKƏTİ İLƏ "LUKOYL İNTERNƏŞNL GMBH", ARDNŞ-nin ORTAQ NEFT ŞİRKƏTİ ARASINDA SAZİŞİN QƏBUL və TƏSDİQ EDİLMƏSİ, HƏYATA KEÇİRİLMƏSİNƏ İCAZƏ VERİLMƏSİ BARƏDƏ" AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU ........ 337

AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ MƏCLİSİ ........ 337

"XƏZƏR DƏNİZİNDƏ "D-222" PERSPEKTİV AZƏRBAYCAN BLOKUNUN KƏŞFİYYATI, İŞLƏNMƏSİ VƏ HASİLATIN PAY BÖLGÜSÜNƏ DAİR" SAZİŞƏ AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİNİN TƏMİNATI VƏ ÖHDƏLİKLƏRİ HAQQINDA ........ 339

XƏZƏR DƏNİZİNİN AZƏRBAYCAN SEKTORUNDA "OĞUZ" DƏNİZ BLOKUNUN KƏŞFİYYATI, İŞLƏNMƏSİ və HASİLATIN PAY BÖLGÜSÜ BARƏDƏ AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT NEFT ŞİRKƏTİ İLƏ "MOBİL EKSPLOREYŞN ƏND PRODYUSİNQ AZƏRBAYCAN İNK." və ARDNŞ-nin ORTAQ NEFT ŞİRKƏTİ ARASINDA SAZİŞİN QƏBUL və TƏSDİQ EDİLMƏSİ, HƏYATA KEÇİRİLMƏSİNƏ İCAZƏ VERİLMƏSİ HAQQINDA ........ 341

AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ MƏCLİSİ ........ 341

XƏZƏR DƏNİZİNİN AZƏRBAYCAN SEKTORUNDA "OĞUZ" DƏNİZ BLOKUNUN KƏŞFİYYATI və İŞLƏNMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI ........ 343

"XƏZƏR DƏNİZİNİN AZƏRBAYCAN SEKTORUNDA "OĞUZ" DƏNİZ BLOKUNUN KƏŞFİYYATI, İŞLƏNMƏSİ və HASİLATIN PAY BÖLGÜSÜ HAQQINDA" SAZİŞƏ AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİNİN TƏMİNATI və ÖHDƏLİKLƏRİ HAQQINDA ........ 344

XƏZƏR DƏNİZİNİN AZƏRBAYCAN SEKTORUNDA "ABŞERON" DƏNİZ BLOKUNUN KƏŞFİYYATI, İŞLƏNMƏSİ VƏ HASİLATIN PAY BÖLGÜSÜ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT NEFT ŞİRKƏTİ İLƏ "ŞEVRON OVERSİZ EKSPLOREYŞN LİMİTED", ARDNŞ-NİN ORTAQ NEFT ŞİRKƏTİ ARASINDA SAZİŞİN QƏBUL və TƏSDİQ EDİLMƏSİ, HƏYATA KEÇİRİLMƏSİNƏ İCAZƏ VERİLMƏSİ BARƏDƏ ........ 346

AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ MƏCLİSİ ........ 346

XƏZƏR DƏNİZİNİN AZƏRBAYCAN SEKTORUNDA "ABŞERON" DƏNİZ BLOKUNUN KƏŞFİYYATI VƏ İŞLƏNMƏSİ HAQQINDA ........ 349

"XƏZƏR DƏNİZİNİN AZƏRBAYCAN SEKTORUNDA "ABŞERON" DƏNİZ BLOKUNUN KƏŞFİYYATI, İŞLƏNMƏSİ və HASİLATIN PAY BÖLGÜSÜ HAQQINDA" SAZİŞƏ AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİNİN TƏMİNATI və ÖHDƏLİKLƏRİ HAQQINDA ........ 350

MÜQAVİLƏNİN İMZALANMA MƏRASİMİNDƏ AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN NİTQİ ........ 351

XƏZƏR DƏNİZİNİN AZƏRBAYCAN SEKTORUNDA "NAXÇIVAN" PERSPEKTİV STRUKTURUNUN KƏŞFİYYATI, İŞLƏNMƏSİ və HASİLATIN PAY BÖLGÜSÜ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT NEFT ŞİRKƏTİ İLƏ "EKSSON EKSPLOREYŞN ƏND PRODAKŞN AZƏRBAYCAN LİMİTED", ARDNŞ-nin ORTAQ NEFT ŞİRKƏTİ ARASINDA SAZİŞİN QƏBUL və TƏSDİQ EDİLMƏSİ, HƏYATA KEÇİRİLMƏSİNƏ İCAZƏ VERİLMƏSİ BARƏDƏ AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU ........ 354

AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ MƏCLİSİ ........ 354

XƏZƏR DƏNİZİNİN AZƏRBAYCAN SEKTORUNDA "NAXÇIVAN" PERSPEKTİV STRUKTURUNUN KƏŞFİYYATI və İŞLƏNMƏSİ HAQQINDA ........ 356

"XƏZƏR DƏNİZİNİN AZƏRBAYCAN SEKTORUNDA "NAXÇIVAN" PERSPEKTİV STRUKTURUNUN KƏŞFİYYATI, İŞLƏNMƏSİ və HASİLATIN PAY BÖLGÜSÜ HAQQINDA" SAZİŞƏ AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİNİN TƏMİNATI və ÖHDƏLİKLƏRİ HAQQINDA ........ 357

XƏZƏR DƏNİZİNİN AZƏRBAYCAN SEKTORUNDA "KÜRDAŞI" DƏNİZ BLOKUNUN KƏŞFİYYATI, İŞLƏNMƏSİ və HASİLATIN PAY BÖLGÜSÜ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT NEFT ŞİRKƏTİ İLƏ "ACİP AZƏRBAYCAN B.V.", "MİTSUİ OYL EKSPLOREYŞN KO. LTD", "TÖRKİŞ PETROLEUM OVERSİZ KOMPANİ LTD", AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT NEFT ŞİRKƏTİNİN ORTAQ NEFT ŞİRKƏTİ VƏ "REPSOL EKSPLORASİON S.A." ARASINDA SAZİŞİN QƏBUL və TƏSDİQ EDİLMƏSİ, HƏYATA KEÇİRİLMƏSİNƏ İCAZƏ VERİLMƏSİ BARƏDƏ AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU ........ 359

AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ MƏCLİSİ ........ 359

XƏZƏR DƏNİZİNİN AZƏRBAYCAN SEKTORUNDA "KÜRDAŞI" DƏNİZ BLOKUNUN KƏŞFİYYATI və İŞLƏNMƏSİ HAQQINDA ........ 361

"XƏZƏR DƏNİZİNİN AZƏRBAYCAN SEKTORUNDA "KÜRDAŞI" DƏNİZ BLOKUNUN KƏŞFİYYATI, İŞLƏNMƏSİ və HASİLATIN PAY BÖLGÜSÜ HAQQINDA" SAZİŞƏ AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİNİN TƏMİNATI və ÖHDƏLİKLƏRİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI ........ 362

MÜQAVİLƏNİN İMZALANMA MƏRASİMİNDƏ AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN NİTQİ ........ 363

AZƏRBAYCAN RESPUBLİKASI "CƏNUB-QƏRBİ QOBUSTAN" BLOKUNA DAXİL OLAN ÜÇ SAHƏNİN ("ŞIXZƏGİRLİ", "ŞEYTANUD" , "BÜRGÜT", "DONQUZDUQ", "NARDARAN", "İLXIÇI", "QƏRBİ HACIVƏLİ", "SUNDİ", "ŞƏRQİ HACIVƏLİ", "TURAĞAY", "KƏNİZƏDAĞ", "QƏRBİ DUVANNI", "DUVANNI", "SOLAXAY" və "DAŞGİL" YATAQLARININ) KƏŞFİYYATI, İŞLƏNMƏSİ və HASİLATIN PAY BÖLGÜSÜ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT NEFT ŞİRKƏTİ İLƏ "KOMONVELS QOBUSTAN LİMİTED", "YUNİON TEKSAS QOBUSTAN LİMİTED" və ARDNŞ-nin ORTAQ NEFT ŞİRKƏTİ ARASINDA SAZİŞİN QƏBUL və TƏSDİQ EDİLMƏSİ, HƏYATA KEÇİRİLMƏSİNƏ İCAZƏ VERİLMƏSİ BARƏDƏ AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU ........ 369

AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ MƏCLİSİ ........ 369

"CƏNUB-QƏRBİ QOBUSTAN" BLOKUNA DAXİL OLAN ÜÇ SAHƏNİN ("ŞIXZƏGİRLİ", "ŞEYTANUD", "BÜRGÜT", "DONQUZDUQ", "NARDARAN", "İLXIÇI", "QƏRBİ HACIVƏLİ", "SUNDİ", "ŞƏRQİ HACIVƏLİ", "TURĞAY", "KƏNİZƏDAĞ", "QƏRBİ DUVANNI", "DUVANNI", "SOLAXAY" və "DAŞGİL" YATAQLARININ) KƏŞFİYYATI və İŞLƏNMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI ........ 372

"AZƏRBAYCAN RESPUBLİKASI "CƏNUB-QƏRBİ QOBUSTAN"ın "ŞIXZƏGİRLİ", "ŞEYTANUD", "BÜRGÜT", "DONQUZDUQ", "NARDARAN", "İLXIÇI", "QƏRBİ HACIVƏLİ", "SUNDİ", "ŞƏRQİ HACIVƏLİ", "TORAĞAY", "KƏNİZƏDAĞ", "QƏRBİ DUVANNI", "DUVANNI", "SOLAXAY" və "DAŞGİL" YATAQLARININ DAXİL OLDUĞU ÜÇ BLOKUN KƏŞFİYYATI, İŞLƏNMƏSİ və HASİLATIN PAY BÖLGÜSÜ HAQQINDA" SAZİŞƏ AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİNİN TƏMİNATI və ÖHDƏLİKLƏRİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI ........ 373

XƏZƏR DƏNİZİNİN AZƏRBAYCAN SEKTORUNDA "İNAM" PERSPEKTİV STRUKTURUNUN DAXİL OLDUĞU DƏNİZ BLOKUNUN KƏŞFİYYATI, İŞLƏNMƏSİ VƏ HASİLATIN PAY BÖLGÜSÜ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT NEFT ŞİRKƏTİ İLƏ "AMOKO İNAM PETROLEUM KOMPANİ", "MONUMENT RESORSEZ (KASPİAN) LİMİTED", "SENTRAL FYUEL KASPİAN Sİ LİMİTED" və ARDNŞ-NİN ORTAQ NEFT ŞİRKƏTİ ARASINDA SAZİŞİN QƏBUL və TƏSDİQ EDİLMƏSİ, HƏYATA KEÇİRİLMƏSİNƏ İCAZƏ VERİLMƏSİ BARƏDƏ ........ 375

AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ MƏCLİSİ ........ 375

XƏZƏR DƏNİZİNİN AZƏRBAYCAN SEKTORUNDA YERLƏŞƏN "İNAM" PERSPEKTİV STRUKTURUNUN DAXİL OLDUĞU DƏNİZ BLOKUNUN KƏŞFİYYATI və İŞLƏNMƏSİ HAQQINDA ........ 378

"XƏZƏR DƏNİZİNİN AZƏRBAYCAN SEKTORUNDA "İNAM" PERSPEKTİV STRUKTURUNUN DAXİL OLDUĞU DƏNİZ BLOKUNUN KƏŞFİYYATI, İŞLƏNMƏSİ və HASİLATIN PAY BÖLGÜSÜ HAQQINDA" SAZİŞƏ AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİNİN TƏMİNATI və ÖHDƏLİKLƏRİ HAQQINDA ........ 379

MÜQAVİLƏNİN İMZALANMA MƏRASİMİNDƏ AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN NİTQİ ........ 380

AZƏRBAYCAN RESPUBLİKASINDA "MURADXANLI", "CƏFƏRLİ" və "ZƏRDAB" NEFT YATAQLARININ DAXİL OLDUĞU BLOKUN BƏRPASI, KƏŞFİYYATI, İŞLƏNMƏSİ və HASİLATIN PAY BÖLGÜSÜ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT NEFT ŞİRKƏTİ və "RAMKO ENERCİ (MURADXANLI) LİMİTED" və ARDNŞ-nin ORTAQ NEFT ŞİRKƏTİ ARASINDA SAZİŞİN QƏBUL və TƏSDİQ EDİLMƏSİ, HƏYATA KEÇİRİLMƏSİNƏ İCAZƏ VERİLMƏSİ BARƏDƏ AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU ........ 383

AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ MƏCLİSİ ........ 383

"MURADXANLI", "CƏFƏRLİ" və "ZƏRDAB" NEFT YATAQLARININ DAXİL OLDUĞU BLOKUN REABİLİTASİYASI, KƏŞFİYYATI və İŞLƏNMƏSİ HAQQINDA ........ 385

"AZƏRBAYCAN RESPUBLİKASINDA "MURADXANLI", "CƏFƏRLİ" və "ZƏRDAB" NEFT YATAQLARININ DAXİL OLDUĞU BLOKUN REABİLİTASİYASI, KƏŞFİYYATI, İŞLƏNMƏSİ və HASİLATIN PAY BÖLGÜSÜ HAQQINDA" SAZİŞƏ AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİNİN TƏMİNATI və ÖHDƏLİKLƏRİ HAQQINDA ........ 386

XƏZƏR DƏNİZİNİN AZƏRBAYCAN SEKTORUNDA "ARAZ", "ALOV" və "ŞƏRQ" PERSPEKTİV STRUKTURLARININ DAXİL OLDUĞU KƏŞFİYYAT BLOKUNUN KƏŞFİYYATI, İŞLƏNMƏSİ və HASİLATIN PAY BÖLGÜSÜ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT NEFT ŞİRKƏTİ İLƏ "BP EKSPLOREYŞN (AZƏRBAYCAN) LİMİTED", "STATOYL AZƏRBAYCAN ALOV A.S." və ARDNŞ-nin ORTAQ NEFT ŞİRKƏTİ ARASINDA SAZİŞİN QƏBUL və TƏSDİQ EDİLMƏSİ, HƏYATA KEÇİRİLMƏSİNƏ İCAZƏ VERİLMƏSİ BARƏDƏ ........ 388

AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ MƏCLİSİ ........ 388

XƏZƏR DƏNİZİNİN AZƏRBAYCAN SEKTORUNDA YERLƏŞƏN "ARAZ", "ALOV" və "ŞƏRQ" PERSPEKTİV STRUKTURLARININ DAXİL OLDUĞU KƏŞFİYYAT BLOKUNUN KƏŞFİYYATI və İŞLƏNMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI ........ 390

"XƏZƏR DƏNİZİNİN AZƏRBAYCAN SEKTORUNDA "ARAZ", "ALOV" və "ŞƏRQ" PERSPEKTİV STRUKTURLARININ DAXİL OLDUĞU KƏŞFİYYAT BLOKUNUN KƏŞFİYYATI, İŞLƏNMƏSİ və HASİLATIN PAY BÖLGÜSÜ HAQQINDA" SAZİŞƏ AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİNİN TƏMİNATI və ÖHDƏLİKLƏRİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI ........ 391

AZƏRBAYCAN RESPUBLİKASINDA "KÜRSƏNGİ" və "QARABAĞLI" NEFT YATAQLARININ DAXİL OLDUĞU BLOKUN BƏRPASI, KƏŞFİYYATI, İŞLƏNMƏSİ və HASİLATIN PAY BÖLGÜSÜ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT NEFT ŞİRKƏTİ İLƏ "FRONTERA RESORSES AZƏRBAYCAN KORPOREYŞN", "DELTA/HESS (K&K) LİMİTED" və ARDNŞ-nin ORTAQ NEFT ŞİRKƏTİ ARASINDA SAZİŞİN QƏBUL və TƏSDİQ EDİLMƏSİ, HƏYATA KEÇİRİLMƏSİNƏ İCAZƏ VERİLMƏSİ ........ 393

AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ MƏCLİSİ ........ 393

"KÜRSƏNGİ" və "QARABAĞLI" NEFT YATAQLARI DAXİL OLAN BLOKUN KƏŞFİYYATI və İŞLƏNMƏSİ HAQQINDA ........ 396

"AZƏRBAYCAN RESPUBLİKASINDA "KÜRSƏNGİ" və "QARABAĞLI" NEFT YATAQLARININ DAXİL OLDUĞU BLOKUN REABİLİTASİYASI, KƏŞFİYYATI, İŞLƏNMƏSİ VƏ HASİLATIN PAY BÖLGÜSÜ HAQQINDA" SAZİŞƏ AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİNİN TƏMİNATI və ÖHDƏLİKLƏRİ HAQQINDA ........ 397

XƏZƏR DƏNİZİNİN AZƏRBAYCAN SEKTORUNDA "ATƏŞGAH", "YANAN TAVA", "MUĞAN-DƏNİZ" PERSPEKTİV STRUKTURLARININ DAXİL OLDUĞU DƏNİZ BLOKUNUN KƏŞFİYYATI, İŞLƏNMƏSİ və HASİLATIN PAY BÖLGÜSÜ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT NEFT ŞİRKƏTİ və "CAPAN PETROLEUM EKSPLOREYŞN KO. LTD-nin ORTAQ ŞİRKƏTİ", "İNDONEZİYA PETROLEUM LTD-nin ORTAQ ŞİRKƏTİ", "İTOÇU OYL EKSPLOREYŞN KO., LTD", "TEYSEKİ KONTİNENTAL ŞELF DEVELOPMENT KO., LTD" və ARDNŞ-nin ORTAQ NEFT ŞİRKƏTİ ARASINDA SAZİŞİN QƏBUL və TƏSDİQ EDİLMƏSİNƏ, HƏYATA KEÇİRİLMƏSİNƏ İCAZƏ VERİLMƏSİ BARƏDƏ AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU ........ 399

AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ MƏCLİSİ ........ 399

XƏZƏR DƏNİZİNİN AZƏRBAYCAN SEKTORUNDA "ATƏŞGAH", "YANAN TAVA" və "MUĞAN-DƏNİZ" PERSPEKTİV STRUKTURLARININ DAXİL OLDUĞU DƏNİZ BLOKUNUN KƏŞFİYYATI və İŞLƏNMƏSİ HAQQINDA ........ 402

"XƏZƏR DƏNİZİNİN AZƏRBAYCAN SEKTORUNDA "ATƏŞGAH", "YANAN TAVA" və "MUĞAN-DƏNİZ" PERSPEKTİV STRUKTURLARININ DAXİL OLDUĞU DƏNİZ BLOKUNUN KƏŞFİYYATI, İŞLƏNMƏSİ və HASİLATIN PAY BÖLGÜSÜ HAQQINDA" SAZİŞƏ AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİNİN TƏMİNATI və ÖHDƏLİKLƏRİ HAQQINDA ........ 403

MÜQAVİLƏNİN İMZALANMA MƏRASİMİNDƏ AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN NİTQİ ........ 404

XƏZƏR DƏNİZİNİN AZƏRBAYCAN SEKTORUNDA YERLƏŞƏN "SAVALAN", "DALĞA", "LERİK-DƏNİZ" və "CƏNUB" PERSPEKTİV STRUKTURLARININ DAXİL OLDUĞU DƏNİZ BLOKUNUN KƏŞFİYYATI və İŞLƏNMƏSİ HAQQINDA ........ 409

XƏZƏR DƏNİZİNİN AZƏRBAYCAN SEKTORUNDA "ZƏFƏR" və "MƏŞƏL" PERSPEKTİV STRUKTURLARININ DAXİL OLDUĞU KƏŞFİYYAT BLOKUNUN KƏŞFİYYATI, İŞLƏNMƏSİ və HASİLATIN PAY BÖLGÜSÜ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT NEFT ŞİRKƏTİ İLƏ "EKSON EKSPLOREYŞN ƏND PRODAKŞN KASPİAN Sİ LİMİTED", "KONOKO (U.K.) LİMİTED" və ARDNŞ-nin ORTAQ NEFT ŞİRKƏTİ ARASINDA SAZİŞİN QƏBUL və TƏSDİQ EDİLMƏSİ, HƏYATA KEÇİRİLMƏSİNƏ İCAZƏ VERİLMƏSİ BARƏDƏ ........ 411

AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ MƏCLİSİ ........ 411

XƏZƏR DƏNİZİNİN AZƏRBAYCAN SEKTORUNDA YERLƏŞƏN "ZƏFƏR" və "MƏŞƏL" PERSPEKTİV STRUKTURLARININ DAXİL OLDUĞU DƏNİZ BLOKUNUN KƏŞFİYYATI və İŞLƏNMƏSİ HAQQINDA ........ 413

"XƏZƏR DƏNİZİNİN AZƏRBAYCAN SEKTORUNDA "ZƏFƏR" və "MƏŞƏL" PERSPEKTİV STRUKTURLARININ DAXİL OLDUĞU KƏŞFİYYAT BLOKUNUN KƏŞFİYYATI, İŞLƏNMƏSİ və HASİLATIN PAY BÖLGÜSÜ HAQQINDA" SAZİŞƏ AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİNİN TƏMİNATI və ÖHDƏLİKLƏRİ HAQQINDA ........ 414

MÜQAVİLƏNİN İMZALANMA MƏRASİMİNDƏ AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN NİTQİ ........ 415

AZƏRBAYCAN RESPUBLİKASINDA "PADAR" SAHƏSİ və ONA BİTİŞİK PERSPEKTİV STRUKTURLARIN DAXİL OLDUĞU BLOKUN KƏŞFİYYATI, İŞLƏNMƏSİ və HASİLATIN PAY BÖLGÜSÜ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT NEFT ŞİRKƏTİ İLƏ "KURA VALLEY DEVELOPMENT KOMPANİ LTD. (MONKRİF OYL)" və ARDNŞ-nin ORTAQ NEFT ŞİRKƏTİ ARASINDA SAZİŞİN QƏBUL və TƏSDİQ EDİLMƏSİ, HƏYATA KEÇİRİLMƏSİNƏ İCAZƏ VERİLMƏSİ BARƏDƏ ........ 419

AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ MƏCLİSİ ........ 419

AZƏRBAYCAN RESPUBLİKASINDA "PADAR" SAHƏSİ və ONA BİTİŞİK PERSPEKTİV STRUKTURLARIN DAXİL OLDUĞU BLOKUN KƏŞFİYYATI və İŞLƏNMƏSİ HAQQINDA ........ 421

"AZƏRBAYCAN RESPUBLİKASINDA "PADAR" SAHƏSİ və ONA BİTİŞİK PERSPEKTİV STRUKTURLARIN DAXİL OLDUĞU BLOKUN KƏŞFİYYATI, İŞLƏNMƏSİ və HASİLATIN PAY BÖLGÜSÜ HAQQINDA" SAZİŞƏ AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİNİN TƏMİNATI və ÖHDƏLİKLƏRİ HAQQINDA ........ 422

AZƏRBAYCAN RESPUBLİKASINDA "MİŞOVDAĞ" və "KƏLAMƏDDİN" NEFT YATAQLARININ DAXİL OLDUĞU BLOKUN BƏRPASI, KƏŞFİYYATI, İŞLƏNMƏSİ və

HASİLATIN PAY BÖLGÜSÜ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT NEFT ŞİRKƏTİ (ARDNŞ) İLƏ "KARASU DEVELOPMENT KOMPANİ (KDK)", "PET OYL PETROLEUM ƏND PRODAKTS İNTERNEYŞNL EKSPLOREYŞN ƏND PRODAKŞN İNKORPOREYTED (PET OYL)" və ARDNŞ-nin ORTAQ NEFT ŞİRKƏTİ (ONŞ) ARASINDA SAZİŞİN QƏBUL və TƏSDİQ EDİLMƏSİ, HƏYATA KEÇİRİLMƏSİNƏ İCAZƏ VERİLMƏSİ BARƏDƏ ........ 424

AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ MƏCLİSİ ........ 424

AZƏRBAYCAN RESPUBLİKASINDA "MİŞOVDAĞ" və "KƏLAMƏDDİN" NEFT YATAQLARININ DAXİL OLDUĞU BLOKUN BƏRPASI, KƏŞFİYYATI və İŞLƏNMƏSİ HAQQINDA ........ 427

"AZƏRBAYCAN RESPUBLİKASINDA "MİŞOVDAĞ" və "KƏLAMƏDDİN" NEFT YATAQLARININ DAXİL OLDUĞU BLOKUN BƏRPASI, KƏŞFİYYATI, İŞLƏNMƏSİ və HASİLATIN PAY BÖLGÜSÜ HAQQINDA" SAZİŞƏ AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİNİN TƏMİNATI və ÖHDƏLİKLƏRİ HAQQINDA ........ 428

MÜQAVİLƏNİN İMZALANMA MƏRASİMİNDƏ AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN NİTQİ ........ 429

AZƏRBAYCAN RESPUBLİKASINDA "ZIĞ" və "HÖVSAN" NEFT YATAQLARININ DAXİL OLDUĞU BLOKUN BƏRPASI, KƏŞFİYYATI, İŞLƏNMƏSİ və HASİLATIN PAY BÖLGÜSÜ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT NEFT ŞİRKƏTİ (ARDNŞ) İLƏ "LUKOYL OVERSİZ ABŞERON LTD. (LUKOYL)" və ARDNŞ-nin ORTAQ NEFT ŞİRKƏTİ (ONŞ) ARASINDA SAZİŞİN QƏBUL və TƏSDİQ EDİLMƏSİ, HƏYATA KEÇİRİLMƏSİNƏ İCAZƏ VERİLMƏSİ BARƏDƏ ........ 434

AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ MƏCLİSİ: ........ 434

AZƏRBAYCAN RESPUBLİKASINDA "ZIĞ" və "HÖVSAN" NEFT YATAQLARININ DAXİL OLDUĞU BLOKUN BƏRPASI, KƏŞFİYYATI və İŞLƏNMƏSİ HAQQINDA ........ 436

"AZƏRBAYCAN RESPUBLİKASINDA "ZIĞ" və "HÖVSAN" NEFT YATAQLARININ DAXİL OLDUĞU BLOKUN BƏRPASI, KƏŞFİYYATI, İŞLƏNMƏSİ və HASİLATIN PAY BÖLGÜSÜ HAQQINDA" SAZİŞƏ AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİNİN TƏMİNATI və ÖHDƏLİKLƏRİ HAQQINDA ........ 437

AZƏRBAYCAN RESPUBLİKASINDA "PİRSAAT NEFT YATAĞI və ONA BİTİŞİK SAHƏLƏR DAXİL OLDUĞU BLOKUN BƏRPASI, KƏŞFİYYATI, İŞLƏNMƏSİ və HASİLATIN PAY BÖLGÜSÜ HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT NEFT ŞİRKƏTİ, "ŞENQLİ OYLFİLD ŞENQ DA QRUP KOMPANİ" və ARDNŞ-NİN ORTAQ NEFT ŞİRKƏTİ ARASINDA SAZİŞİN QƏBUL və TƏSDİQ EDİLMƏSİ, HƏYATA KEÇİRİLMƏSİNƏ İCAZƏ VERİLMƏSİ BARƏDƏ ........ 439

AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ MƏCLİSİ ........ 439

"PİRSAAT" NEFT YATAĞININ və BİTİŞİK ƏRAZİLƏRİN DAXİL OLDUĞU BLOKUN BƏRPASI, KƏŞFİYYATI, İŞLƏNMƏSİ və HASİLATIN PAY BÖLGÜSÜ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI ........ 441

AZƏRBAYCAN RESPUBLİKASINDA "PİRSAAT" NEFT YATAĞININ və BİTİŞİK ƏRAZİLƏRİN DAXİL OLDUĞU BLOKUN BƏRPASI, KƏŞFİYYATI, İŞLƏNMƏSİ və HASİLATIN PAY BÖLGÜSÜ HAQQINDA" SAZİŞƏ AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİNİN TƏMİNATI və ÖHDƏLİKLƏRİ HAQQINDA ........ 442

XƏZƏR DƏNİZİNİN AZƏRBAYCAN SEKTORUNDA "ABŞERON" DƏNİZ BLOKUNUN KƏŞFİYYATI, İŞLƏNMƏSİ və HASİLATIN PAY BÖLGÜSÜ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT NEFT ŞİRKƏTİ, TOTAL E&P ABSHERON B.V. və ARDNŞ-nin ORTAQ NEFT ŞİRKƏTİ ARASINDA SAZİŞİN QƏBUL və TƏSDİQ EDİLMƏSİ, HƏYATA KEÇİRİLMƏSİNƏ İCAZƏ VERİLMƏSİ BARƏDƏ ........ 444

AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ MƏCLİSİ ........ 444

AZƏRBAYCAN RESPUBLİKASINDA "KÜROVDAĞ" YATAĞININ DAXİL OLDUĞU BLOKUN BƏRPASI, İŞLƏNMƏSİ və HASİLATIN PAY BÖLGÜSÜ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT NEFT ŞİRKƏTİ, QLOBAL ENERCİ AZƏRBAYCAN LİMİTED və ARDNŞ-nin ORTAQ NEFT ŞİRKƏTİ ARASINDA SAZİŞİN QƏBUL və TƏSDİQ EDİLMƏSİ, HƏYATA KEÇİRİLMƏSİNƏ İCAZƏ VERİLMƏSİ BARƏDƏ ........ 446

AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ MƏCLİSİ ........ 446

AZƏRBAYCAN RESPUBLİKASINDA "NEFTÇALA", "XILLI", "DUROVDAĞ-BABAZANAN" NEFT YATAQLARININ və "MUĞAN" MONOKLİNALIN CƏNUB-QƏRB QANADININ DAXİL OLDUĞU BLOKUN BƏRPASI, İŞLƏNMƏSİ və HASİLATIN PAY BÖLGÜSÜ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT NEFT ŞİRKƏTİ, NEFTÇALA İNVESTMENTS LİMİTED və ARDNŞ-nin ORTAQ NEFTİ ŞİRKƏTİ ARASINDA SAZİŞİN QƏBUL və TƏSDİQ EDİLMƏSİ, HƏYATA KEÇİRİLMƏSİNƏ İCAZƏ VERİLMƏSİ BARƏDƏ ........ 448

AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ MƏCLİSİ ........ 448

XƏZƏR DƏNİZİNİN AZƏRBAYCAN SEKTORUNDA "BAHAR" YATAĞININ və "QUM-DƏNİZ" YATAĞININ DAXİL OLDUĞU BLOKUN KƏŞFİYYATI, BƏRPASI, İŞLƏNMƏSİ və HASİLATIN PAY BÖLGÜSÜ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT NEFT ŞİRKƏTİ, BAHAR ENERCİ LİMİTED və ARDNŞ-nin ORTAQ NEFT ŞİRKƏTİ ARASINDA SAZİŞİN QƏBUL və TƏSDİQ EDİLMƏSİ, HƏYATA KEÇİRİLMƏSİNƏ İCAZƏ VERİLMƏSİ BARƏDƏ AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU ........ 450

AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ MƏCLİSİ ........ 450

XƏZƏR DƏNİZİNİN AZƏRBAYCAN SEKTORUNDA XARİCİ ŞİRKƏTLƏRLƏ BİRGƏ İŞLƏNƏN NEFT YATAQLARINDAN İLKİN NEFTİN ÇIXARILMASI GÜNÜNÜN QEYD OLUNMASI HAQQINDA ........ 452

AZƏRBAYCAN RESPUBLİKASINDA "BALAXANI–SABUNÇU–RAMANA" və "KÜRDƏXANI" NEFT YATAQLARININ DAXİL OLDUĞU BLOKUN BƏRPASI, İŞLƏNMƏSİ və HASİLATIN PAY BÖLGÜSÜ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT NEFT ŞİRKƏTİ, UQE-LANSER PTİ. LTD VƏ ARDNŞ-nin ORTAQ NEFT ŞİRKƏTİ ARASINDA SAZİŞİN QƏBUL və TƏSDİQ EDİLMƏSİ, HƏYATA KEÇİRİLMƏSİNƏ İCAZƏ VERİLMƏSİ BARƏDƏ ........ 454

AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ MƏCLİSİ ........ 454

XƏZƏR DƏNİZİNİN AZƏRBAYCAN SEKTORUNDA "ŞƏFƏQ–ASİMAN" DƏNİZ BLOKUNUN KƏŞFİYYATI, İŞLƏNMƏSİ və HASİLATIN PAY BÖLGÜSÜ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT NEFT ŞİRKƏTİ, "BP" EKSPLOREYŞN (AZƏRBAYCAN) LİMİTED və ARDNŞ-İN ORTAQ NEFT ŞİRKƏTİ ARASINDA SAZİŞİN QƏBUL və TƏSDİQ EDİLMƏSİ, HƏYATA KEÇİRİLMƏSİNƏ İCAZƏ VERİLMƏSİ BARƏDƏ ........ 456

AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ MƏCLİSİ ........ 456

"XƏZƏR DƏNİZİNİN AZƏRBAYCAN SEKTORUNDA "ÜMİD" YATAĞININ VƏ "BABƏK" PERSPEKTİV STRUKTURUNUN DAXİL OLDUĞU DƏNİZ BLOKUNUN KƏŞFİYYATI və

İŞLƏNMƏSİ HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT NEFT ŞİRKƏTİ İLƏ SOCAR UMİD OİL AND GAS LİMİTED ŞİRKƏTİ ARASINDA RİSK XİDMƏT SAZİŞİNİN və ONA ƏLAVƏ OLUNMUŞ "XƏZƏR DƏNİZİNİN AZƏRBAYCAN SEKTORUNDA "ÜMİD" YATAĞININ və "BABƏK" PERSPEKTİV STRUKTURUNUN DAXİL OLDUĞU DƏNİZ BLOKUNUN KƏŞFİYYATI və İŞLƏNMƏSİ ÜZRƏ NEFT-QAZ ƏMƏLİYYATLARININ APARILMASI HAQQINDA" "SOCAR UMİD OİL AND GAS LİMİTED" ŞİRKƏTİ İLƏ "UMİD", "BABƏK EKSPLOREYŞN END PRODAKŞN" ŞİRKƏTİ ARASINDA MÜQAVİLƏNİN QƏBUL və TƏSDİQ EDİLMƏSİ, HƏYATA KEÇİRİLMƏSİNƏ İCAZƏ VERİLMƏSİ BARƏDƏ .................... 458

"XƏZƏR DƏNİZİNİN AZƏRBAYCAN SEKTORUNDA "AZƏRİ", "ÇIRAQ" YATAQLARININ və "GÜNƏŞLİ" YATAĞININ DƏRİNLİKDƏ YERLƏŞƏN HİSSƏSİNİN BİRGƏ İŞLƏNMƏSİ və HASİLATIN PAY BÖLGÜSÜ HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT NEFT ŞİRKƏTİ İLƏ "AZƏRBAYCAN (ACG) LİMİTED", "BP" EKSPLOREYŞN (KASPİAN Sİ) LİMİTED", "ŞEVRON XƏZƏR LTD.", "EKSON AZƏRBAYCAN LİMİTED", "İNPEKS SAUSVEST KASPİAN Sİ LTD.", "İTOÇU OYL EKSPLOREYŞN (AZƏRBAYCAN) İNK.", "ONGC VİDEŞ LİMİTED", "STATOYL ABŞERON AS", "TÜRKİYE PETROLLERİ A.O." ARASINDA SAZİŞİN QƏBUL və TƏSDİQ EDİLMƏSİ, HƏYATA KEÇİRİLMƏSİNƏ İCAZƏ VERİLMƏSİ BARƏDƏ .................... 461

"XƏZƏR DƏNİZİNİN AZƏRBAYCAN SEKTORUNDA "ƏŞRƏFİ–DAN ULDUZU–AYPARA" SAHƏSİNİN KƏŞFİYYATI, İŞLƏNMƏSİ VƏ HASİLATIN PAY BÖLGÜSÜ HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT NEFT ŞİRKƏTİ İLƏ "STATOYL AZƏRBAYCAN - "ƏŞRƏFİ–DAN ULDUZU–AYPARA B.V." və SOCAR-ın ORTAQ NEFT ŞİRKƏTİ ARASINDA SAZİŞİN QƏBUL və TƏSDİQ EDİLMƏSİ, HƏYATA KEÇİRİLMƏSİNƏ İCAZƏ VERİLMƏSİ BARƏDƏ .................... 464

"XƏZƏR DƏNİZİNİN AZƏRBAYCAN SEKTORUNDA "QARABAĞ" NEFT YATAĞININ İŞLƏNMƏSİ İLƏ ƏLAQƏDAR" AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT NEFT ŞİRKƏTİ İLƏ "STATOYL AZƏRBAYCAN QARABAĞ BV" və "SOCAR QARABAĞ LLSİ" ARASINDA RİSK XİDMƏT SAZİŞİNİN QƏBUL və TƏSDİQ EDİLMƏSİ, HƏYATA KEÇİRİLMƏSİNƏ İCAZƏ VERİLMƏSİ BARƏDƏ .................... 466

"XƏZƏR DƏNİZİNİN AZƏRBAYCAN SEKTORUNDA "D-230" PERSPEKTİV KƏŞFİYYAT BLOKUNUN KƏŞFİYYATI, İŞLƏNMƏSİ və HASİLATIN PAY BÖLGÜSÜ HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT NEFT ŞİRKƏTİ İLƏ "BP EKSPLOREYŞN (AZƏRBAYCAN) LİMİTED" ŞİRKƏTİ VƏ SOCAR-ın ORTAQ NEFT ŞİRKƏTİ ARASINDA SAZİŞİN QƏBUL və TƏSDİQ EDİLMƏSİ, HƏYATA KEÇİRİLMƏSİNƏ İCAZƏ VERİLMƏSİ BARƏDƏ .................... 468

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ İLƏ TÜRKMƏNİSTAN HÖKUMƏTİ ARASINDA XƏZƏR DƏNİZİNDƏ "DOSTLUQ" YATAĞININ KARBOHİDROGEN RESURSLARININ BİRGƏ KƏŞFİYYATI, İŞLƏNMƏSİ və MƏNİMSƏNİLMƏSİ HAQQINDA ANLAŞMA MEMORANDUMUNUN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ .................... 470

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ İLƏ TÜRKMƏNİSTAN HÖKUMƏTİ ARASINDA XƏZƏR DƏNİZİNDƏ "DOSTLUQ" YATAĞININ KARBOHİDROGEN RESURSLARININ BİRGƏ KƏŞFİYYATI, İŞLƏNMƏSİ və MƏNİMSƏNİLMƏSİ HAQQINDA .................... 471

BAKI–NOVOROSSİYSK NEFT KƏMƏRİ (ŞİMAL MARŞRUTU) .................... 474

TEXNİKİ PARAMETRLƏRİ VƏ ÜMUMİ MƏLUMAT .................... 474

"AZƏRBAYCAN RESPUBLİKASI İLƏ RUSİYA FEDERASİYASI ARASINDA AZƏRBAYCAN NEFTİNİN RUSİYA FEDERASİYASI ƏRAZİSİNDƏN TRANZİTİ HAQQINDA" MÜQAVİLƏNİN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ .................... 476

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN RESPUBLİKAMIZDA ÇIXARILACAQ İLKİN NEFTİN RUSİYA ƏRAZİSİ VASİTƏSİLƏ NƏQLİNƏ DAİR SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİNDƏ ÇIXIŞI ........ 477

AZƏRBAYCAN NEFTİNİN BAKI–QROZNI–TİXORETSK–NOVOROSSİYSK KƏMƏRİ İLƏ NƏQL OLUNMASI HAQQINDA AZƏRBAYCAN, RUSİYA və İÇKERİYA ÇEÇEN RESPUBLİKASI ARASINDA SAZİŞ İMZALANDIQDAN SONRA RUSİYA FEDERASİYASININ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL EDƏRKƏN AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN ÇIXIŞI ........ 479

XƏZƏR DƏNİZİNİN AZƏRBAYCAN SEKTORUNDA "AZƏRİ", "ÇIRAQ" YATAQLARININ VƏ "GÜNƏŞLİ" YATAĞININ DƏRİNLİKDƏ YERLƏŞƏN HİSSƏSİNDƏN ÇIXARILAN İLKİN NEFTİN QƏRB MARŞRUTU İLƏ İXRACINA AİD SƏNƏDLƏRİN TƏSDİQ OLUNMASI və BƏYƏNİLMƏSİ HAQQINDA ........ 481

2005-ci İL FEVRALIN 14-də MOSKVA ŞƏHƏRİNDƏ İMZALANMIŞ AZƏRBAYCAN RESPUBLİKASI İLƏ RUSİYA FEDERASİYASI ARASINDA İQTİSADİ ƏMƏKDAŞLIQ ÜZRƏ HÖKUMƏTLƏRARASI KOMİSSİYANIN DOQQUZUNCU İCLASININ PROTOKOLUNUN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ ........ 483

AZƏRBAYCAN RESPUBLİKASI İLƏ RUSİYA FEDERASİYASI ARASINDA İQTİSADİ ƏMƏKDAŞLIQ ÜZRƏ HÖKUMƏTLƏRARASI KOMİSSİYANIN DOQQUZUNCU İCLASININ PROTOKOLU ........ 484

"AZƏRBAYCAN RESPUBLİKASI İLƏ RUSİYA FEDERASİYASI ARASINDA AZƏRBAYCAN NEFTİNİN RUSİYA FEDERASİYASI ƏRAZİSİNDƏN TRANZİTİ HAQQINDA MÜQAVİLƏ" ÜZRƏ SƏLAHİYYƏTLİ ORQAN MÜƏYYƏN EDİLMƏSİ BARƏDƏ ........ 501

BAKI–SUPSA NEFT KƏMƏRİ (QƏRB İXRAC BORU KƏMƏRİ) ........ 502
- TEXNİKİ PARAMETRLƏRİ VƏ ÜMUMİ MƏLUMAT ........ 502

AZƏRBAYCAN RESPUBLİKASI İLƏ GÜRCÜSTAN ARASINDA NEFT-QAZ SƏNAYESİ SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ HAQQINDA MÜQAVİLƏNİN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ ........ 505

KARBOHİDROGENLƏRİ NƏQLETMƏNİN BƏZİ MÖVCUD OBYEKTLƏRİNİN (VASİTƏLƏRİNİN) TƏKMİLLƏŞDİRİLMƏSİ və MODERNLƏŞDİRİLMƏSİ, YENİ NƏQLETMƏ OBYEKTLƏRİNİN (VASİTƏLƏRİNİN) İŞLƏNİB HAZIRLANMASI və BU CÜR OBYEKTLƏRİN (VASİTƏLƏRİN) KÖMƏYİ İLƏ KARBOHİDROGENLƏRİN GÜRCÜSTAN ƏRAZİSİNDƏN KƏNARA NƏQL OLUNMASI HAQQINDA ........ 506

BAKI–SUPSA NEFT KƏMƏRİNİN AÇILIŞINA HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİMDƏ AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN NİTQİ ........ 511

HEYDƏR ƏLİYEV ADINA BAKI–TBİLİSİ–CEYHAN NEFT KƏMƏRİ ........ 516
- LAYİHƏNİN BAZA XARAKTERİSTİKASI ........ 516

ƏSAS İXRAC NEFT KƏMƏRİ MARŞRUTUNUN SEÇİLMƏSİ İLƏ ƏLAQƏDAR İŞÇİ QRUPUNUN YARADILMASI HAQQINDA ........ 519

BAKI–TBİLİSİ–CEYHAN MARŞRUTUNUN MÜƏYYƏNLƏŞDİRİLMƏSİNİ NƏZƏRDƏ TUTAN ANKARA BƏYANNAMƏSİNİN İMZALANMASI MƏRASİMİNDƏ AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN ÇIXIŞI ........ 520

ANKARA BƏYANNAMƏSİ ........ 523

**"XAM NEFTİN AZƏRBAYCAN RESPUBLİKASI, GÜRCÜSTAN və TÜRKİYƏ RESPUBLİKASININ ƏRAZİLƏRİ İLƏ BAKI–TBİLİSİ–CEYHAN ƏSAS İXRAC BORU KƏMƏRİ VASİTƏSİLƏ NƏQL EDİLMƏSİNƏ DAİR AZƏRBAYCAN RESPUBLİKASI, GÜRCÜSTAN və TÜRKİYƏ RESPUBLİKASI ARASINDA SAZİŞ"İN İMZALANMASI MƏRASİMİNDƏ AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN NİTQİ ........ 525**

**AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ İLƏ ƏSAS İXRAC BORU KƏMƏRİ İŞTİRAKÇILARI ARASINDA TRANZİT ƏRAZİSİNƏ MALİK ÖLKƏNİN HÖKUMƏTİ İLƏ SAZİŞ"İN və BAKI–TBİLİSİ–CEYHAN XAM NEFT KƏMƏRİ LAYİHƏSİNİN MÜHƏNDİS İŞLƏRİ və LAYİHƏLƏŞDİRİLMƏSİ ÜÇÜN MALİYYƏLƏŞDİRMƏ və ƏMƏKDAŞLIQ SAZİŞİ"NİN İMZALANMASI MƏRASİMİNDƏ AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN NİTQİ ........ 527**
- YEKUN NİTQİ ........ 529

**BAKI–TBİLİSİ–CEYHAN ƏSAS İXRAC BORU KƏMƏRİNİN TƏMƏLİNİN QOYULMASI MƏRASİMİ ........ 532**
- AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN NİTQİ ........ 533
- TÜRKİYƏ PREZİDENTİ ƏHMƏD NECDƏT SEZƏRİN NİTQİ ........ 538
- GÜRCÜSTAN PREZİDENTİ EDUARD ŞEVARDNADZENİN NİTQİ ........ 540
- ABŞ-NİN ENERGETİKA NAZİRİ SPENSER ABRAHAMIN ÇIXIŞI ........ 542
- TƏBRİK MƏKTUBLARI ........ 543
- AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ, ZATİ-ALİLƏRİ CƏNAB HEYDƏR ƏLİYEVƏ ........ 545
- AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ, ZATİ-ALİLƏRİ CƏNAB HEYDƏR ƏLİYEVƏ ........ 546
- AZƏRBAYCAN BEYNƏLXALQ ƏMƏLİYYAT ŞİRKƏTİNİN PREZİDENTİ DEVİD VUDVORDUN ÇIXIŞI ........ 547
- ARDNŞ-NİN PREZİDENTİ NATİQ ƏLİYEVİN ÇIXIŞI ........ 550
- GƏLƏCƏK NƏSİLLƏRƏ ........ 554
- AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN YEKUN SÖZÜ ........ 555

**BAKI–TBİLİSİ–CEYHAN ƏSAS İXRAC BORU KƏMƏRİNİN TƏMƏLİNİN QOYULMASI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN ADINDAN DÖVLƏT BAŞÇILARININ və NÜMAYƏNDƏ HEYƏTLƏRİNİN ŞƏRƏFİNƏ TƏŞKİL EDİLMİŞ RƏSMİ ZİYAFƏT ........ 558**
- AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN NİTQİ ........ 558
- TÜRKİYƏ PREZİDENTİ ƏHMƏD NECDƏT SEZƏRİN NİTQİ ........ 560
- AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN NİTQİ ........ 562
- GÜRCÜSTAN PREZİDENTİ EDUARD ŞEVARDNADZENİN NİTQİ ........ 563
- AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN NİTQİ ........ 564

**ATƏT-İN İSTANBUL SAMMİTİNDƏ BAKI–TBİLİSİ–CEYHAN ƏSAS İXRAC BORU KƏMƏRİNİN MÜDAFİƏSİ ÜÇÜN DÖVLƏTLƏRARASI RAZILAŞMA ........ 566**
- AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN NİTQİ ........ 567

**BAKI–TBİLİSİ–CEYHAN ƏSAS İXRAC BORU KƏMƏRİ LAYİHƏSİNDƏ AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT NEFT ŞİRKƏTİNİN İŞTİRAK PAYININ MALİYYƏLƏŞDİRİLMƏSİ HAQQINDA ........ 569**

**İXRAC NEFT və QAZ BORU KƏMƏRLƏRİNİN TƏHLÜKƏSİZLİYİNİN TƏMİN EDİLMƏSİ HAQQINDA ........ 572**

**"BAKI–TBİLİSİ–CEYHAN" ƏSAS İXRAC BORU KƏMƏRİNİN TİKİLMƏSİ və İSTİSMARA VERİLMƏSİ TƏDBİRLƏRİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI ........ 575**

**XAM NEFTİN AZƏRBAYCAN RESPUBLİKASI, GÜRCÜSTAN VƏ TÜRKİYƏ CÜMHURİYYƏTİNİN ƏRAZİLƏRİ İLƏ "BAKI–TBİLİSİ–CEYHAN" ƏSAS İXRAC BORU KƏMƏRİ VASİTƏSİLƏ NƏQL EDİLMƏSİNƏ DAİR AZƏRBAYCAN RESPUBLİKASI, GÜRCÜSTAN və TÜRKİYƏ CÜMHURİYYƏTİ ARASINDA SAZİŞİN və HƏMİN SAZİŞƏ ƏLAVƏ EDİLMİŞ SƏNƏDLƏRİN,**

İSTANBUL BƏYANNAMƏSİNİN və XAM NEFTİN AZƏRBAYCAN RESPUBLİKASI, GÜRCÜSTAN VƏ TÜRKİYƏ CÜMHURİYYƏTİNİN ƏRAZİLƏRİ İLƏ NƏQL EDİLMƏSİNƏ DAİR AZƏRBAYCAN RESPUBLİKASI, TÜRKİYƏ CÜMHURİYYƏTİ və GÜRCÜSTAN ARASINDA SAZİŞƏ DƏYİŞİKLİKLƏR EDİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI, GÜRCÜSTAN və TÜRKİYƏ CÜMHURİYYƏTİ ARASINDA PROTOKOLUN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ ........ 578

XƏZƏR DƏNİZİNİN AZƏRBAYCAN SEKTORUNDA YERLƏŞƏN "AZƏRİ–ÇIRAQ–GÜNƏŞLİ" və "ŞAHDƏNİZ" YATAQLARININ İŞLƏNMƏSİ, BAKI–TBİLİSİ–CEYHAN ƏSAS İXRAC BORU KƏMƏRİ və "ŞAHDƏNİZ" YATAĞINDAN TƏBİİ QAZIN İXRAC BORU KƏMƏRİNİN LAYİHƏLƏRİNİN HƏYATA KEÇİRİLMƏSİ İLƏ ƏLAQƏDAR TƏXİRƏSALINMAZ TƏDBİRLƏR HAQQINDA ........ 580

BAKI–TBİLİSİ–CEYHAN ƏSAS İXRAC BORU KƏMƏRİ LAYİHƏSİNİN MALİYYƏLƏŞDİRİLMƏSİ İLƏ ƏLAQƏDAR SƏNƏDLƏRİ AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN İMZALAMAQ SƏLAHİYYƏTİNİN VERİLMƏSİ HAQQINDA ........ 583

HEYDƏR ƏLİYEV ADINA BAKI–TBİLİSİ–CEYHAN ƏSAS İXRAC NEFT BORU KƏMƏRİ: FAKTLAR VƏ RƏQƏMLƏR ........ 584

- TEXNİKİ GÖSTƏRİCİLƏR ........ 584
- KOMMERSİYA GÖSTƏRİCİLƏRİ ........ 585
- MONİTORİNQ ........ 586
- BTC KO.-NUN SƏHMDARLARI ........ 587

BAKI–TBİLİSİ–CEYHAN (BTC) İXRAC BORU KƏMƏRİ XRONİKA (SENTYABR 1994 – İYUL 2006) ........ 588

BAKI–TBİLİSİ–ƏRZURUM BORU XƏTTİ ........ 596

XƏZƏR DƏNİZİNİN AZƏRBAYCAN SEKTORUNDA YERLƏŞƏN "ŞAHDƏNİZ" YATAĞINDAN TƏBİİ QAZIN DÜNYA BAZARLARINA İXRACININ TƏŞKİL EDİLMƏSİ İLƏ ƏLAQƏDAR MƏSƏLƏLƏRİN HƏLL OLUNMASI ÜÇÜN İŞÇİ QRUPUNUN YARADILMASI HAQQINDA ........ 598

TƏBİİ QAZIN AZƏRBAYCAN RESPUBLİKASI və GÜRCÜSTAN ƏRAZİLƏRİNDƏ və BU ƏRAZİLƏRİN HÜDUDLARINDAN KƏNARDA CƏNUBİ QAFQAZ BORU KƏMƏRİ SİSTEMİ VASİTƏSİLƏ TRANZİTİ, NƏQL EDİLMƏSİ və SATIŞINA DAİR AZƏRBAYCAN RESPUBLİKASI və GÜRCÜSTAN ARASINDA SAZİŞİN VƏ HƏMİN SAZİŞƏ ƏLAVƏ EDİLMİŞ SƏNƏDLƏRİN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ ........ 600

"ŞAHDƏNİZ" YATAĞINDAN ƏLDƏ OLUNACAQ TƏBİİ QAZIN BAKI–TBİLİSİ–ƏRZURUM MARŞRUTU İLƏ NƏQLİNƏ DAİR AZƏRBAYCAN RESPUBLİKASI İLƏ GÜRCÜSTAN ARASINDA SAZİŞİN İMZALANMA MƏRASİMİNDƏ AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN BƏYANATI ........ 602

AZƏRBAYCAN RESPUBLİKASI İLƏ GÜRCÜSTAN ARASINDA BİRGƏ BƏYANATIN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ ........ 605

- BİRGƏ BƏYANAT ........ 365

AZƏRBAYCAN RESPUBLİKASININ 1996-cı İL 4 OKTYABR TARİXLİ 160-IQ QANUNU İLƏ QƏBUL və TƏSDİQ EDİLMİŞ, HƏYATA KEÇİRİLMƏSİNƏ İCAZƏ VERİLMİŞ 1996-cı İL 4 İYUN TARİXLİ "XƏZƏR DƏNİZİNİN AZƏRBAYCAN SEKTORUNDA "ŞAHDƏNİZ" PERSPEKTİV SAHƏSİNİN KƏŞFİYYATI, İŞLƏNMƏSİ və HASİLATIN PAY BÖLGÜSÜ

**HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT NEFT ŞİRKƏTİ İLƏ ARDNŞ-nin KOMMERSİYA ORTAQ ŞİRKƏTİ, "BP EKSPLOREYŞN (AZƏRBAYCAN) LİMİTED", "ELF PETROLEUM AZƏRBAYCAN B.V.", "LUKOYL İNTERNƏŞNL LTD", "OYL İNDASTRİZ İNCİNİRİNQ ƏND KONSTRAKŞN", "STATOYL–AZƏRBAYCAN A.S.", "TÖRKİŞ PETROLEUM OVERSİZ KOMPANİ LİMİTED" ŞİRKƏTLƏRİ ARASINDA SAZİŞ"in və CƏNUBİ QAFQAZ BORU KƏMƏRİ (BAKI–TBİLİSİ–ƏRZURUM) LAYİHƏSİNİN HƏYATA KEÇİRİLMƏSİ İLƏ ƏLAQƏDAR SƏNƏDLƏRİ İMZALAMAQ SƏLAHİYYƏTİNİN VERİLMƏSİ HAQQINDA ........................ 609**

**CƏNUB QAZ DƏHLİZİ: TANAP, TAP ........ 611**
AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI ........ 612

**CƏNUB QAZ DƏHLİZİ HAQQINDA BİRGƏ BƏYANNAMƏNİN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU ........ 614**
CƏNUB QAZ DƏHLİZİ HAQQINDA BİRGƏ BƏYANNAMƏ ........ 614

**AZƏRBAYCAN TƏBİİ QAZININ DÜNYA BAZARINA CƏNUB QAZ DƏHLİZİ VASİTƏSİLƏ NƏQLİ İLƏ ƏLAQƏDAR TƏDBİRLƏR HAQQINDA ........ 616**
**"ŞAHDƏNİZ"QAZ-KONDENSAT YATAĞININ İSTİSMARININ İKİNCİ MƏRHƏLƏSİ və CƏNUB QAZ DƏHLİZİNİN YARADILMASINA DAİR DİGƏR LAYİHƏLƏRLƏ BAĞLI BƏZİ TƏDBİRLƏR HAQQINDA ........ 620**

**"AZƏRBAYCAN TƏBİİ QAZININ DÜNYA BAZARINA CƏNUB QAZ DƏHLİZİ VASİTƏSİLƏ NƏQLİ İLƏ ƏLAQƏDAR TƏDBİRLƏR HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 2013-cü İL 29 OKTYABR TARİXLİ 15 NÖMRƏLİ SƏRƏNCAMINDA DƏYİŞİKLİK EDİLMƏSİ BARƏDƏ ........ 622**

**SƏNGƏÇAL TERMİNALINDA CƏNUB QAZ DƏHLİZİNİN RƏSMİ AÇILIŞ MƏRASİMİ KEÇİRİLİB. PREZİDENT İLHAM ƏLİYEV MƏRASİMDƏ İŞTİRAK EDİB ........624**

**TÜRKİYƏNİN ƏSKİŞƏHƏR ŞƏHƏRİNDƏ TANAP LAYİHƏSİNİN AÇILIŞ MƏRASİMİ KEÇİRİLİBAZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MƏRASİMDƏ İŞTİRAK EDİB ........ 640**
PREZİDENT İLHAM ƏLİYEVİN ÇIXIŞI ........ 640
PREZİDENT RƏCƏB TAYYİB ƏRDOĞANIN ÇIXIŞI ........ 645

**BAKIDA CƏNUB QAZ DƏHLİZİ MƏŞVƏRƏT ŞURASI ÇƏRÇİVƏSİNDƏ NAZİRLƏRİN BEŞİNCİ TOPLANTISI KEÇİRİLİB. AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TOPLANTIDA İŞTİRAK EDİB ........ 649**
PREZİDENT İLHAM ƏLİYEVİN NİTQİ ........ 649
KOMİSSAR GÜNTER OTTİNGERİN ÇIXIŞI ........ 654

**TÜRKİYƏNİN İPSALA QƏSƏBƏSİNDƏ TANAP QAZ KƏMƏRİNİN AVROPA İLƏ BİRLƏŞƏN HİSSƏSİNİN AÇILIŞ MƏRASİMİ KEÇİRİLİB ........ 659**
PREZİDENT İLHAM ƏLİYEVİN ÇIXIŞI ........ 659
PREZİDENT RƏCƏB TAYYİB ƏRDOĞANIN ÇIXIŞI ........ 662

**BAKIDA "ƏSRİN MÜQAVİLƏSİ"nin 20 İLLİYİNƏ və "CƏNUB" QAZ DƏHLİZİNİN TƏMƏLİNİN QOYULMASINA HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİM KEÇİRİLİB ........ 668**
PREZİDENT İLHAM ƏLİYEVİN ÇIXIŞI ........ 668

**PREZİDENT İLHAM ƏLİYEV BAKIDA CƏNUB QAZ DƏHLİZİ MƏŞVƏRƏT ŞURASI ÇƏRÇİVƏSİNDƏ NAZİRLƏRİN GÖRÜŞÜNDƏ İŞTİRAK EDİB ..... 690**
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ ..... 690

**BAKIDA "CƏNUB QAZ DƏHLİZİ" MƏŞVƏRƏT ŞURASI ÇƏRÇİVƏSİNDƏ NAZİRLƏRİN İKİNCİ TOPLANTISI KEÇİRİLİB ..... 704**
PREZİDENT İLHAM ƏLİYEVİN NİTQİ ..... 704

**BAKIDA CƏNUB QAZ DƏHLİZİ MƏŞVƏRƏT ŞURASI ÇƏRÇİVƏSİNDƏ NAZİRLƏRİN ÜÇÜNCÜ TOPLANTISI KEÇİRİLİB ..... 713**
PREZİDENT İLHAM ƏLİYEVİN NİTQİ ..... 713

**BAKIDA CƏNUB QAZ DƏHLİZİ MƏŞVƏRƏT ŞURASI ÇƏRÇİVƏSİNDƏ NAZİRLƏRİN VI TOPLANTISI KEÇİRİLİB. AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TOPLANTIDA İŞTİRAK EDİB ..... 722**
PREZİDENT İLHAM ƏLİYEVİN NİTQİ ..... 723
AVROPA KOMİSSİYASININ NÜMAYƏNDƏSİ KLAUS-DİTER BORXARDTIN ÇIXIŞI ..... 730

**PREZİDENT İLHAM ƏLİYEV CƏNUB QAZ DƏHLİZİ MƏŞVƏRƏT ŞURASI ÇƏRÇİVƏSİNDƏ NAZİRLƏRİN VİDEOKONFRANS FORMATINDA VII İCLASINDA ÇIXIŞ EDİB ..... 733**
PREZİDENT İLHAM ƏLİYEVİN ÇIXIŞI ..... 733

**BAKIDA CƏNUB QAZ DƏHLİZİ MƏŞVƏRƏT ŞURASI ÇƏRÇİVƏSİNDƏ NAZİRLƏRİN VIII TOPLANTISI KEÇİRİLİB. AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TOPLANTIDA İŞTİRAK EDİB ..... 749**
PREZİDENT İLHAM ƏLİYEVİN ÇIXIŞI ..... 750

**"XƏZƏRNEFTQAZ" ..... 760**

**İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT ..... 766**

# AZƏRBAYCANDA İKİ MİLYARD TON NEFT HASİL OLUNMASI MÜNASİBƏTİLƏ TƏNTƏNƏLİ MƏRASİM KEÇİRİLİB

*8 oktyabr 2017-ci il*

## Prezident İlham Əliyev mərasimdə iştirak edib

Noyabrın 8-də Bakıda, Heydər Əliyev Mərkəzində Azərbaycanda iki milyard ton neft hasil olunması münasibətilə təntənəli mərasim keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak edib.

Dövlətimizin başçısı mərasimdə nitq söylədi.

### PREZİDENT İLHAM ƏLİYEVİN NİTQİ

– Hörmətli neftçilər.

– Xanımlar və cənablar.

Bu gün ölkəmizin həyatında çox əlamətdar bir gündür. Bu gün Azərbaycanda 2 milyard ton neft hasil edilibdir. Bu münasibətlə Azərbaycan neftçilərini və bütün Azərbaycan xalqını təbrik edirəm.

Bu, tarixi bir hadisədir. Azərbaycan neftçiləri bütün dövrlərdə Azərbaycan xalqına xidmət etmişlər. Müstəqillik dövründə onların zəhməti hesabına Azərbaycan böyük iqtisadi potensial yarada bilmişdir. Neftçi Azərbaycanda çox şərəfli və hörmətli peşədir, həmişə belə olub, bu gün də belədir. Mən Azərbaycan neftçilərinin Azərbaycanın ümumi inkişafında rolunu çox yüksək qiymətləndirirəm.

Azərbaycan neftin vətənidir, Azərbaycanda bunu hər kəs bilir. İndi dünya ictimaiyyəti də bunu bilir ki, dünyada sənaye üsulu ilə ilk dəfə neft 1846-cı ildə Azərbaycanda çıxarılmışdır və o vaxt Azərbaycan dünya neftinin əsas hissəsini təmin edirdi. Tarixdə ilk dəfə olaraq XX əsrin ortalarında dənizdə də neft Azərbaycan neftçiləri tərəfindən çıxarılmışdır və bu da tarixi hadisədir. Azərbaycan neftçiləri sovet dövründə Xəzərin bütün neft-

qaz yataqlarının aşkar olunmasında əsas rol oynamışlar, Rusiya Federasiyasında yeni neft yataqlarının kəşfində onların rolu çox böyükdür. Təsadüfi deyil ki, "İkinci Bakı", "Üçüncü Bakı" adlandırılan yerlər var ki, bu yerlər Azərbaycan neftçilərinin adı ilə bağlıdır. Neftçilərimiz xarici ölkələrdə də işləyirdi, oraya ezam olunmuşdular. Əlbəttə ki, bu, Azərbaycanda neft sənayesində çalışan insanların peşəkarlığını, fədakarlığını göstərir.

Azərbaycan dünyada neft ölkəsi kimi tanınır. Bu gün isə qaz ölkəsi kimi tanınır. Müstəqillik dövründə bu istiqamətdə çox önəmli addımlar atılmışdır. Sovet dövründə də Azərbaycan neftçiləri Sovet İttifaqının ümumi inkişafına çox böyük töhfələr vermişlər. O vaxt Azərbaycan müttəfiq respublikalar arasında ikinci respublika idi ki, donor kimi tanınırdı. Yəni biz ümumittifaq büdcəsinə daha çox vəsait ayırırdıq, nəinki alırdıq. Əlbəttə ki, Azərbaycan neftçilərinin bu sahədə payı çox böyük idi.

1971-ci ildə Ulu öndər Heydər Əliyevin iştirakı ilə Azərbaycanda 1 milyardıncı ton neftin hasilatının qeyd edildiyi təntənəli mərasim keçirilmişdir. 1970-1980-ci illərdə Heydər Əliyev Azərbaycan Respublikasının ümumi inkişafına çox böyük töhfə vermişdir, o cümlədən neft sənayesinin inkişafı üçün çox böyük addımlar atılmışdır. O vaxt neft hasilatının artırılması, yeni qurğuların işə düşməsi, dərin özüllər zavodunun məhz Azərbaycanda tikilməsi, neftayırma zavodunun rekonstruksiyası və digər önəmli hadisələr Azərbaycanın neft potensialını böyük dərəcədə möhkəmləndirmişdir. O illərdə yaradılmış potensial, xüsusilə dərin özüllər zavodunun fəaliyyəti bu gün də bizim neft potensialımızı gücləndirir. Əgər vaxtilə bu zavod Azərbaycanda yox, başqa bir yerdə tikilsəydi, o zaman bizim müstəqillik dövründə xarici tərəfdaşlarla işlərimiz ləng gedə bilərdi. Dərin özüllər zavodu bugünkü bizim neft strategiyamızın həyata keçirilməsində xüsusi rol oynayır.

Heydər Əliyev Azərbaycandan gedəndən sonra bütün sahələrdə olduğu kimi, neft-qaz sahəsində də tənəzzül yavaş-yavaş özünü büruzə verməyə başlamışdı və 1990-cı illərin ərəfəsində artıq neft hasilatı ilə bağlı problemlər yaradılmışdı. Müstəqilliyimizin ilk illərində bu problemlər daha da dərinləşdi. Müstəqilliyimizin ilk illəri bizim üçün çox ağır keçirdi, ölkə idarəolunmaz vəziyyətə düşmüşdü. Ölkəni idarə edənlər öz məsuliyyətini dərk edə bilmədilər, səriştəsiz, bir çox hallarda savadsız kadrlar qabağa çəkildi, ölkə xaosa büründü, anarxiya hökm sürürdü, Bakıda və digər şəhərlərdə qanunsuz silahlı birləşmələr meydan oxuyurdu və bütün bu xoşagəlməz hadisələr nəticədə vətəndaş müharibəsinə gətirib çıxardı. Yenə də Heydər Əliyev öz tarixi missiyasını icra etdi. Azərbaycanı bu böyük bəlalardan qurtardı, Azərbaycana sabitlik gətirdi, Azərbaycan inkişaf yoluna qədəm qoydu. Məhz 1993-cü ildən başlayaraq Azərbaycan bu günə qədər inkişaf yolu ilə gedir.

Ancaq Azərbaycan iqtisadiyyatına, Azərbaycan sənayesinə, o cümlədən neft sənayesinə vurulmuş zərbələr də çox ağır idi. Bugünkü mərasimdə Azərbaycanın tanınmış

neftçiləri, veteranlar, o illəri yaxşı xatırlayan insanlar əyləşiblər. Onlar çox yaxşı bilirlər ki, Azərbaycan neft sənayesinin 1990-cı illərin əvvəlində vəziyyəti necə idi. Bu vəziyyətdən biz çıxış yolu axtarmalı, tapmalı idik və Heydər Əliyev neft strategiyası yeganə çıxış yolu idi. 1994-cü ildə "Əsrin kontraktı"nın imzalanması bu sahədə dönüş yaratdı. "Əsrin kontraktı"nın imzalanması tarixi hadisədir. O vaxt Azərbaycan gənc müstəqil dövlət idi və bayaq qeyd etdiyim kimi, çox ağır çağırışlarla üz-üzə qalmışdı, iqtisadiyyat, demək olar ki, tamamilə dağıdılmışdı, sənaye istehsalı iflic vəziyyətdə idi, inflyasiya min faizlərlə ölçülürdü, kütləvi işsizlik hökm sürürdü, yoxsulluq dərəcəsi artırdı. Belə bir vəziyyətdə Azərbaycana xarici sərmayəni gətirmək, doğrudan da, böyük müdriklik və uzaqgörənlik tələb edirdi və Heydər Əliyev neft strategiyası bax bu çağırışlara cavab verdi. Xarici tərəfdaşlarla 1994-cü ildə imzalanmış "Əsrin kontraktı" bizim üçün bir çıxış yolu idi, bizə bir güc verdi, nəfəs verdi, investisiya gətirdi. Azərbaycan dünyada özünü tanıtdıra bilmişdir. Azərbaycana ilk növbədə ölkəmizin neft-qaz sektoruna böyük şirkətlər tərəfindən maraq artmışdır və bu maraq praktiki işlərə gətirib çıxarmışdır.

Mən o illəri yaxşı xatırlayıram. Dövlət Neft Şirkətinin bir qrup rəhbər işçisi 1994-cü ildə danışıqlar aparmaq üçün Amerikanın Hyuston şəhərinə ezam edilmişdi. Orada bir aydan çox danışıqlar aparıldı. Xoşbəxt müəllim o danışıqların çox fəal iştirakçısıdır. Bu danışıqlar nəticəsində sentyabr ayında kontrakt imzalandı. Bu kontrakt o vaxt üçün ən məqbul və əlverişli şərtlərlə imzalanmışdı. Biz bunu elə o vaxt – 1994-cü ildə deyirdik. O vaxt bizdə kontraktın şərtlərini təhlil edə biləcək mütəxəssislər, demək olar ki, yox idi. Ancaq biz deyirdik və bilirdik ki, Azərbaycanın maraqları maksimum dərəcədə təmin edildi və bugünkü reallıq onu göstərir.

Bu gün bu kontrakt qüvvədədir. Kontrakt nəticəsində Azərbaycana milyardlarla dollar sərmayə qoyulubdur. Kontraktın icrası nəticəsində minlərlə, on minlərlə Azərbaycan mütəxəssisi təlim alıb, təhsil alıb və bu gün konsorsiumun işçilərinin mütləq əksəriyyəti Azərbaycan vətəndaşlarıdır. Kontrakt nəticəsində Azərbaycanda böyük infrastruktur layihələri, böyük tikinti işləri icra edilib və ölkə iqtisadiyyatı milyardlarla, on milyardlarla dollar gəlir gətiribdir.

1994-cü il Azərbaycanın neft sənayesində dönüş nöqtəsi idi, "Əsrin kontraktı"nın tarixi əhəmiyyəti artıq həyatda özünü sübut etdi və eyni zamanda bu, bir yol açdı. Göstərdi ki, gənc müstəqil dövlət olan Azərbaycan xarici tərəfdaşlarla düzgün iş qura, öz milli maraqlarını müdafiə edə bilər. Beləliklə, bizə olan maraq artdı, maraq artdıqca ölkəmizə sərmayə qoyuluşu da artmağa başladı. Bir çox kontraktlar imzalanmışdır, mən onların arasında "Şahdəniz" kontraktını xüsusilə qeyd etməliyəm. 1996-cı ildə imzalanmış bu kontrakt indi Azərbaycanın və Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində müstəsna rol oynayır.

Neftçilər yaxşı bilirlər ki, o vaxt prinsipcə qaz yataqlarına dünyada o qədər də böyük maraq göstərilmirdi. Çünki bu, aşağıgəlirli sahə hesab olunurdu və o vaxt enerji təhlükəsizliyi haqqında, ümumiyyətlə, söhbət aparılmırdı. “Şahdəniz” yatağının müxtəlif parametrləri təhlil edilərkən bir sıra mütəxəssislər bəzən belə qənaətə gəlirdilər ki, bu, iqtisadi cəhətdən o qədər də çox cəlbedici layihə deyil. Ancaq həyat onu göstərdi ki, bu, iqtisadi cəhətdən çox cəlbedici layihədir və bu layihə ölkəmizin iqtisadi, siyasi potensialının güclənməsində çox müsbət rol oyanmışdır.

Bu gün Azərbaycan dünyada neft və qaz hasil edən ölkə kimi tanınır. Bizim dünyadakı rolumuz, gücümüz artır və bunun təməlində Heydər Əliyev neft strategiyası dayanır. 1990-cı illərdə neft sənayesi ilə bağlı bir çox tarixi hadisələr baş verdi. Mən xüsusilə Bakı–Tbilisi–Ceyhan neft kəmərinin işə düşməsini qeyd etməliyəm. Ulu öndər Heydər Əliyev öz əlləri ilə bu kəmərin təməlini qoydu və 2006-cı ildə biz bu kəməri istifadəyə verdik. 2007-ci ildə Bakı–Tbilisi–Ərzurum qaz kəməri işə düşdü ki, bu gün bizim qaz ixracımızın əsas infrastruktur layihəsidir və bu kəmər əsasında bu gün Cənubi Qafqaz, Cənub Qaz Dəhlizi layihələri icra edilir. 1990-cı illərdə Bakı–Novorossiysk və Bakı–Supsa neft kəmərlərinin biri təmir olundu, digəri yenidən tikildi. Yəni o vaxt neft infrastrukturunun əsası qoyuldu və 2000-ci illərdə də bu proses davam etdirildi.

Hazırda Bakıda ən müasir qazma qurğuları, platformalar inşa edilir. “Şahdəniz–2” üçün bütün tikinti işləri Azərbaycanda icra edilmişdir. Azərbaycanın minlərlə, bəlkə də, on minlərlə vətəndaşı bu işlərə cəlb edilmişdir. Dünyanın ən böyük neft-qaz terminalı – Səngəçal terminalı da bizim böyük sərvətimizdir. Neft əməliyyatlarının aparılması üçün bizim gəmiqayırma zavodumuzda istənilən növ gəmilər istehsal olunur. Onlardan biri – bu nəhəng gəmiyə “Xankəndi” adını vermişik – bu yaxınlarda istifadəyə verildi.

Bir sözlə, bu gün “Əsrin kontraktı”nın nəticələri, sadəcə olaraq, Neft Fonduna gələn gəlirlərlə ölçülmür. Bunun çox geniş və çox böyük təsiri olub və bu gün də var. Biz “qara qızıl”ı insan kapitalına çevirə bildik. Biz neft gəlirlərimizdən çox səmərəli şəkildə istifadə etdik və bu gün dünya miqyasında bu, xüsusilə qeyd edilir. Bir çox ölkələrin zəngin neft yataqları var, ancaq o ölkələr səfalət içindədir, yoxsulluq şəraitində yaşayırlar. O ölkələrdə sabitlik pozulur, neft o ölkələrə fəlakət gətirir. Azərbaycanda isə neft rifah, inkişaf, sabitlik, güc gətirir. Bu gün bizim müstəqil ölkə kimi yaşamağımızda, iqtisadi potensialımızın formalaşmasında neft-qaz amili çox böyük rol oynayır. Bunu hər kəs bilməlidir.

Azərbaycanın timsalında eyni zamanda göstərilir ki, dövlət və xarici sərmayədarlar birlikdə necə iş qurmalıdırlar? Bu iş hansı prinsiplər əsasında qurulmalıdır? Burada da Azərbaycan bir nümunədir. Çünki biz tərəfdaşlarımızla, xüsusilə əsas strateji investor olan “BP” şirkəti ilə çox sağlam zəmində, qarşılıqlı dəstək, qarşılıqlı inam, qarşılıqlı maraqlar

əsasında əməkdaşlıq qurmuşuq. Həm investorlar, Azərbaycana milyard dollarlarla vəsait qoyan konsorsiumlar, həm də Azərbaycan dövləti böyük gəlir əldə edir. Burada hər iki tərəf fayda götürür və uğurlu əməkdaşlığın təməlində məhz bu dayanır.

Mən bu gün "BP" şirkətinin Azərbaycandakı fəaliyyətini xüsusilə qeyd etmək istərdim. İyirmi üç ildir ki, "BP" bizim tərəfdaşımızdır və aparıcı layihələrimizdə bizimlə bərabər çox fəal rol oynayır. Demək istəyirəm ki, bütövlükdə çıxarılmış 2 milyard ton neftin təxminən 700 milyon tonu müstəqillik dövründə, onun 460 milyon tonu isə konsorsium tərəfindən hasil edilib. Ona görə qoy bizim ictimaiyyət bir daha bilsin ki, xarici tərəfdaşlar, xüsusilə "BP" şirkəti Azərbaycanın inkişafında, Azərbaycanın iqtisadi potensialının güclənməsində nə qədər böyük rol oynamışdır. Bir daha demək istəyirəm ki, bunun da təməlində dövlətlə xarici tərəfdaşlar arasındakı əməkdaşlıq dayanır.

"BP"–SOCAR əməkdaşlığı bu gün bir çox ölkələr üçün nümunədir. "Əsrin kontraktı", "Şahdəniz" yatağı üzrə imzalanmış və icra edilən kontrakt eyni zamanda Dövlət Neft Şirkətini böyük beynəlxalq şirkətə çevirib. Yəni bir neçə il bundan əvvəl mənim tərəfimdən qarşıya məqsəd qoyulmuşdur ki, SOCAR böyük beynəlxalq neft şirkətinə çevrilməlidir. Biz bu məqsədlə SOCAR-ın fəaliyyətini genişləndirdik, bir çox müəssisələr SOCAR-a verildi. Bu gün həm ölkə daxilində, həm xaricdə Azərbaycan Dövlət Neft Şirkətinin çox böyük fəaliyyəti var. Bizim xaricə qoyduğumuz investisiyalar milyard dollarla ölçülür. Təkcə Türkiyədəki layihələrə 20 milyard dollara yaxın sərmayə qoyulması nəzərdə tutulub ki, onun təxminən yarısı artıq yatırılıb. Digər ölkələrdə – Avropa ölkələrində, yaxın qonşuluqda SOCAR-ın çox böyük işləri, sərmayəsi var. Azərbaycan dövləti SOCAR-ın fəaliyyətini dəstəkləyir. Bu bizim iqtisadi gücümüzü artırır, bizə gələcəkdə yeni mənbələrdən böyük həcmdə valyuta axını da təmin ediləcəkdir. Mən hazırda ölkə daxilində icra edilən iki layihəni – SOCAR polimer və karbamid zavodlarının tikintisini qeyd etmək istərdim. Bu iki layihənin ölkəmizin qeyri-neft sektorunun inkişafında çox böyük əhəmiyyəti var. Hər iki layihə qrafik üzrə icra edilir və əminəm ki, gələn il istifadəyə veriləcək.

Beləliklə, Heydər Əliyev neft strategiyası bu gün yeni istiqamətlərlə zənginləşdirilmişdir. Bu strategiya bu gün Azərbaycanın ümumi inkişafına çox böyük dəstək verir. Hazırda biz yeni layihələr üzərində işləyirik. Bildiyiniz kimi, Cənub Qaz Dəhlizi uğurla icra edilir. Bu da dünya miqyasında nəhəng layihədir. Sərmayə qoyuluşu 40 milyard dollara bərabərdir və bütün işlər qrafik üzrə gedir. "Şahdəniz–2" və Cənubi Qafqaz kəməri, demək olar ki, 100 faiz, TANAP 80 faizdən çox icra edilibdir. Beləliklə, biz Cənub Qaz Dəhlizi layihəsini də uğurla icra edirik, əminəm ki, tam icra edəcəyik.

Bu il "Əsrin kontraktı"nın uzadılması ilə bağlı yeni saziş imzalanmışdır. Bu da tarixi hadisədir. 2050-ci ilə qədər daha yaxşı şərtlərlə kontrakt imzalanıb. Bu kontraktın icrası

nəticəsində Azərbaycana 3,6 milyard dollar, sadəcə olaraq, bonus şəklində veriləcəkdir. Dövlət Neft Şirkətinin payı 11 faizdən 25 faizə qaldırılıbdır. SOCAR eyni zamanda operator funksiyasını daşıyacaq və mənfəət neftinin 75 faizi 2050-ci ilə qədər, yəni kontraktın bütün müddəti ərzində Azərbaycana qalacaq.

Bu bir daha onu göstərir ki, bizim çox böyük və zəngin təbii resurslarımız var. Yaxşı yadımdadır ki, biz Bakı–Tbilisi–Ceyhan neft kəmərini inşa edərkən o vaxt işimizə maneçilik törətmək istəyən qüvvələr var idi. Bizə qarşı kampaniyalar, şər-böhtan kampaniyası aparılırdı. Ortaya süni bir ekoloji mövzu qoyulmuşdu ki, guya burada ekologiya pozulacaq. Halbuki baxın, bu gün Bakının vaxtilə çirklənmiş yerlərində biz parklar saldıq, cənnət yaratdıq. Elə Bibiheybət yatağının – ən qədim neft yatağının əvvəlki görüntüləri necə idi, indiki görüntüləri necədir. Əvvəlki görüntülər bir fəlakət mənzərəsi idi. Bu gün isə bu, Bakının ən gözəl parklarından biridir. Yəni biz ekoloji vəziyyətin yaxşılaşdırılmasına da çox böyük vəsait qoyuruq. Amma o vaxt bunu bəhanə gətirərək istədilər işimizi əngəlləsinlər.

İkinci bir mövzu neft ehtiyatları ilə bağlı idi. Deyirdilər ki, Azərbaycanda neft yoxdur, Bakı–Tbilisi–Ceyhan kəmərini tikmək lazım deyil, bu, heç vaxt özünü doğrultmayacaq. Bax biz artıq 1997-ci ildən başlayaraq konsorsiumla birlikdə 20 il ərzində nefti hasil edirik. Qeyd etdiyim kimi, konsorsium ancaq "Azəri–Çıraq–Günəşli"dən 460 milyon ton neft hasil edib. Lakin bundan da çox təsdiqlənmiş ehtiyat var. Kontraktın 2050-ci ilə qədər uzadılması onu göstərir ki, bizim kifayət qədər neftimiz var, qoy heç kim narahat olmasın. Eyni mövzunu qazla bağlamaq istəyirdilər, yenə də bədxahlar, bizi istəməyən qüvvələr şayiə yayırdılar ki, Azərbaycanda qaz yoxdur. Ancaq bu gün "Şahdəniz–2" layihəsi reallıqdır. Qeyd etməliyəm ki, bizim təsdiq edilmiş, dəqiqləşdirilmiş neft ehtiyatlarımız 1,5 milyard tondur, proqnoz isə 2 milyard tondur. Təsdiq edilmiş qaz ehtiyatlarımız 2,6 trilyon kubmetrdir, proqnoz təqribən 3-4 trilyon kubmetrə bərabərdir. "Azəri–Çıraq" yatağının işlənilməsi onu göstərir ki, biz həmişə çox konservativ rəqəmlər ortaya qoyuruq. Mən yaxşı xatırlayıram ki, 1994-cü ildə kontrakt imzalananda "Azəri–Çıraq–Günəşli" yataqlarının ehtiyatları 511 milyon tona bərabər səviyyədə hesablanmışdı. Hətta mən o vaxt Dövlət Neft Şirkətində gənc bir işçi kimi təəccüb edirdim ki, bunu necə dəqiqliklə hesablaya bilərlər – 511. Niyə 510 yox, 512 yox, 511? Əlbəttə ki, bu, bir şərti rəqəm idi. Ancaq bugünkü hesablamalar onu göstərir ki, yataqların ehtiyatı minimum ən azı iki dəfədən çoxdur. Çünki o 511 şərti rəqəminin 462-si artıq çıxarılıb. 2050-ci ilə qədər də, görün, nə qədər neft olacaq?

Ona görə əminəm ki, bizim proqnozlarımız həyatda öz təsdiqini tapacaq. Çünki mövcud ehtiyatların qiymətləndirilməsini biz çox konservativ şəkildə aparırıq. "Azəri–Çıraq–Günəşli" yatağı minimum 2050-ci ilə qədər işləyəcək. "Şahdəniz" yatağı əminəm

ki, minimum 100 il bundan sonra fəaliyyət göstərəcək. Hazırda biz Abşeron yatağından yaxın gələcəkdə qaz hasilatını gözləyirik. "Ümid", "Babək" yataqlarının çox böyük perspektivləri var. Gələn ildən Dövlət Neft Şirkəti bu yataqlarda da çox fəal iş aparacaqdır. Müəyyən işlər aparılır. Daha da böyük həcmdə işlər aparılacaqdır.

Bizim maliyyə vəziyyətimiz çox sabitdir, çox müsbətdir. Heç bir problemimiz yoxdur. Bu məsələdə də bədhaqlar bizi gözdən salmağa çalışırlar ki, guya Azərbaycanın maliyyə vəziyyəti yaxşı deyil. Bizim maliyyə vəziyyətimiz bir çox ölkələr üçün nümunə ola bilər. Biz ancaq bu ilin doqquz ayında valyuta ehtiyatlarımızı 4,5 milyard dollar artırmışıq. İlin sonunadək hələ nə qədər artacaqdır. Bizim xarici borcumuz ümumi daxili məhsulun 18 faizini təşkil edir. Bu, bir çox ölkələr üçün arzuolunan, möcüzə kimi səslənən bir rəqəmdir. Bizim iqtisadi uğurlarımızı aparıcı iqtisadi Forum olan Davos qiymətləndirir. Dünya miqyasında 35-ci yerdəyik. Bizim heç bir maliyyə problemimiz, çətinliyimiz yoxdur. Neft sənayesinə gələn il də böyük vəsait ayrılacaq. Əlbəttə, Dövlət Neft Şirkəti özü də pul qazanır. Ancaq dövlət həmişə bu şirkəti dəstəkləyir və dəstəkləməlidir. Çünki bu bizim strateji aktivimizdir, strateji sərvətimizdir.

Bu gün Azərbaycan enerji təhlükəsizliyi məsələlərini tam şəkildə təmin edib. Biz vaxtilə xaricdən qaz alırdıq, indi xaricə satırıq. Elektrik enerjisi alırdıq, indi onu satırıq. İndi nefti satırıq, neft məhsullarını satırıq. Biz böyük həcmdə qaz satacağıq və ölkəmizə daha çox pul gələcək. Biz bu vəsaitdən də çox səmərəli və şəffaf şəkildə istifadə edirik. Bildiyiniz kimi, neftdən əldə olunan bütün gəlirlər Dövlət Neft Fondunda şəffaf şəkildə saxlanılır. Bu da beynəlxalq auditdən keçən, dünyanın ən şəffaf neft fondlarından biridir. Biz o vəsaiti ölkə üçün vacib olan layihələrə ayırırıq. Həm ehtiyatı artırırıq, həm ən vacib sosial və infrastruktur layihələrinə bu vəsaitdən istifadə edirik. Əlbəttə ki, Azərbaycan Milli Məclisi bu xərcləri təsdiq edəndən sonra. Onların arasında köçkünlərin problemlərinin həllidir, – 100-ə yaxın şəhərcik salınıb, – məktəblərdir, infrastruktur layihələridir, əlbəttə ki, neft sənayesinin inkişafı ilə bağlı olan layihələrdir, xüsusilə nəhəng qazma qurğusunun tikintisi də Dövlət Neft Fondunun xətti ilə maliyyələşdirilmişdir. Bakı–Tbilisi–Qars dəmir yolu məhz o mənbədən maliyyələşdirilmişdir.

Biz bu yaxınlarda Bakı–Tbilisi–Qars dəmir yolunun açılışını qeyd etdik. Bu, böyük tarixi nailiyyətdir. Bu dəmir yolunun istifadəyə verilməsi Azərbaycan xalqı və dövləti qarşısında tarixi xidmətdir. Biz bunu bu gün də bilirik, bunu gələcəkdə də hər kəs daha çox görəcək və hiss edəcək. Bunun da maliyyə mənbəyi haradan gəlib? Dövlət Neft Fondundan. Dövlət Neft Fonduna haradan gəlib? Neftçilərin zəhməti hesabına. Əgər Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum tikilməsəydi, o dəhliz açılmasaydı, vəsaitimiz olmasaydı, biz bunu necə tikə bilərdik? Mən prezident vəzifəsinə seçiləndən, demək olar ki, dərhal sonra bu layihə ilə məşğul olmağa başlamışam. Görürdüm ki,

burada böyük çətinliklər var. İlk növbədə maliyyə çətinliyi və texniki məsələlərin həlli. Çünki ölkələr arasında bir çox razılaşmalar əldə olunmalı idi. O vaxt biz bunu həll etdik. Bu layihə ilə bağlı siyasi əngəllər törədilməyə başlandı. Əgər maliyyə imkanlarımız olmasaydı, biz Bakı–Tbilisi–Qarsı hansı pulla tikə bilərdik? Çünki bu yolun böyük hissəsi Azərbaycan ərazisindən keçir – 504 kilometr. Gürcüstan ərazisindən 200 kilometrdən çox hissəsi keçir ki, orada da maliyyə və texniki məsələləri Azərbaycan həll edir. Yolun uzunluğu təxminən 850 kilometrə yaxındır. Yəni ancaq səmərəli fəaliyyət nəticəsində, şəffaf Neft Fondunda saxlanılan vəsait hesabına və neftçilərin zəhməti sayəsində biz buna nail ola bilmişik.

Bu gün Azərbaycan çiçəklənən bir dövlətdir. Hara baxsan, göz oxşayır. Bakı dünyanın ən gözəl şəhərlərindən biridir. Bizim bütün şəhərlərimiz abadlaşır. Əsrlər boyu insanları incidən bütün problemlər həll olunur. Qazlaşdırma, içməli su, elektrik, yollar – biz bunu nəyin hesabına edirik? Gəlirlər hesabına. Gəlirlərin əsas mənbəyi haradır? Azərbaycan neftçilərinin zəhməti hesabına çıxarılan neftdir. Azərbaycan vətəndaşları bunu həmişə bilməlidirlər. Biz bu gün haqlı olaraq qeyri-neft sektorundan danışırıq və bu sahədə böyük işlər görülür. Dayanıqlı inkişaf üçün qeyri-neft sektoru inkişaf etməlidir. Çünki bu, ölkə iqtisadiyyatının şaxələndirilməsinə xidmət göstərir və bu sahədə çox böyük nailiyyətlər var. Mən dəfələrlə demişəm ki, prioritet istiqamət qeyri-neft sektorudur. Nə üçün? Çünki mən hesab edirəm ki, neft-qaz sektorunda əldə edilmiş bütün nəticələr proqram üzrə gedir və nəyi əldə etmək istəmişiksə, onu da əldə etmişik. Bir dənə də olsun icra edilməmiş və qrafikdən çıxmış layihə yoxdur. Ona görə, təbii ki, qeyri-neft sektoru prioritetdir. Ancaq ölkə iqtisadiyyatı, ölkəmizin gələcək inkişafı üçün neft sənayesi, neft-qaz sektoru həmişə həlledici rol oynayacaq.

Biz bu gün iqtisadi müstəqilliyi təmin etmişik. İqtisadi müstəqillik siyasi müstəqilliyin əsasıdır. Əgər biz kimdənsə asılı olsaq, heç vaxt müstəqil siyasət apara bilmərik, heç vaxt öz prinsipial mövqeyimizi indiki qədər ifadə edə bilmərik. İqtisadi müstəqillik siyasi müstəqilliyə gətirib çıxardı ki, bu gün Azərbaycan dünya miqyasında müstəqil siyasət aparan nadir ölkələrdən biridir. İqtisadi müstəqillik isə neftçilərin zəhməti hesabına təmin edilir. Ona görə hər kəs bilməlidir ki, hələ uzun illər bundan sonra ölkəmizin neft-qaz sektoru bizim üçün əsas dayaq olacaqdır. Ona görə Azərbaycan dövləti və neftçilər bundan sonra da bütün səylərini qoymalıdırlar ki, biz bu sektoru inkişaf etdirək.

Bir milyardıncı ton neftin hasil edilməsi münasibətilə 1971-ci ildə Heydər Əliyevin sədrliyi ilə Opera və Balet Teatrında təntənəli mərasim keçirilmişdir. Bu gün müstəqil Azərbaycanda, Ulu öndərin adını daşıyan bu möhtəşəm Mərkəzdə biz 2 milyardıncı ton neftin hasilatını qeyd edirik. Müstəqillik ən böyük sərvətimizdir. Ancaq müstəqillik dövründə Azərbaycan böyük zirvələrə çata bildi. Ancaq müstəqillik dövründə xalq öz

təbii sərvətlərinin sahibi oldu. Hesab edirəm ki, bugünkü mərasimin Ulu öndərin adını daşıyan Mərkəzdə keçirilməsi həm təbiidir – çünki bu bizim əsas toplantı salonumuzdur, əsas mərkəzimizdir – həm də rəmzi xarakter daşıyır. Çünki Heydər Əliyevin həm 1970–1980-ci illərdə, həm də 1990-cı illərdə göstərdiyi xidmətlər bu gün Azərbaycan reallıqlarını təmin edir. Biz isə öz növbəmizdə bundan sonra da Azərbaycanın neft-qaz sənayesinin inkişafı üçün əlimizdən gələni əsirgəməyəcəyik.

Əziz dostlar, mən bir daha sizi bu tarixi hadisə münasibətilə ürəkdən təbrik edirəm. Azərbaycan neftçilərinə eşq olsun!

***

Sonra SOCAR-ın birinci vitse-prezidenti Xoşbəxt Yusifzadə çıxış etdi.

Prezident İlham Əliyevin Sərəncamı ilə Azərbaycan Respublikasının neft sənayesi sahəsində uzunmüddətli səmərəli fəaliyyətinə görə Xoşbəxt Yusifzadə birincidərəcəli "Əmək" ordeni ilə təltif olundu.

Dövlətimizin başçısı ordeni Xoşbəxt Yusifzadəyə təqdim etdi.

Sonda Azərbaycanın neft sənayesinin tarixinə həsr edilən videoçarx nümayiş olundu.

**"Xalq qəzeti"**
*9 noyabr 2017-ci il, № 247, s.1-4*

## PREZİDENT İLHAM ƏLİYEVİN DAVOSDA "LUKOİL" ŞİRKƏTİNİN PREZİDENTİ İLƏ GÖRÜŞÜB

*22 yanvar 2018-ci il*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 22-də Davosda Rusiyanın "LUKoil" şirkətinin prezidenti Vahid Ələkbərov ilə görüşüb.

Görüşdə "LUKoil" şirkətinin Azərbaycandakı uğurlu fəaliyyəti müzakirə olundu. Bu şirkətin 20 ildən çoxdur ki, ölkəmizə sərmayələr qoyduğu qeyd edildi. "LUKoil"–SOCAR əlaqələrinin uğurla inkişaf etdiyi bildirildi və gələcək əməkdaşlığın istiqamətləri ilə bağlı fikir mübadiləsi aparıldı.

**"Xalq qəzeti"**
*23 yanvar 2018, № 15, s.2*

## PREZİDENT İLHAM ƏLİYEV "CHEVRON" ŞİRKƏTİNİN VİTSE-PREZİDENTİ İLƏ GÖRÜŞÜB

*22 yanvar 2018-ci il*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanvarın 22-də Davosda "Chevron" şirkətinin korporativ biznes inkişafı üzrə vitse-prezidenti Cey Prayer ilə görüşü olub.

Cey Prayer "Azəri–Çıraq–Günəşli" yataqlarının birgə işlənilməsini nəzərdə tutan müqavilənin müddətinin uzadılması münasibətilə Prezident İlham Əliyevi təbrik etdi. "Chevron" şirkəti ilə Azərbaycan arasında tərəfdaşlığın yüksək səviyyədə olduğunu deyən Cey Prayer bu əməkdaşlığın gələcəkdə də uğurla davam edəcəyinə əminliyini ifadə etdi.

Prezident İlham Əliyev Azərbaycanda əlverişli investisiya mühitinin yaradıldığını, ölkəmizin etibarlı tərəfdaş olduğunu bir daha vurğuladı.

**"Xalq qəzeti"**
*23 yanvar 2018, № 15, s.2*

## PREZİDENT İLHAM ƏLİYEV DAVOSDA ABŞ-NİN "BLACK ROCK" ŞİRKƏTİNİN TƏSİSÇİSİ İLƏ GÖRÜŞÜB

*22 yanvar 2018-ci il*

Yanvarın 22-də Davosda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dünyanın ən böyük investisiya qurumu olan ABŞ-nin "Black Rock" şirkətinin təsisçisi, müşahidə şurasının sədri və icraçı direktoru Lourens Fink ilə görüşü olub.

Lourens Fink rəhbərlik etdiyi şirkət barədə Prezident İlham Əliyevə məlumat verdi. O, hazırda 30-dan çox ölkədə 70-dən artıq ofisi olan "Black Rock" şirkətinin 6,3 milyard ABŞ dolları investisiya portfeli ilə dünyanın ən böyük investisiya şirkəti olduğunu bildirdi.

Azərbaycanda qeyri-neft sektorunun inkişafının, bu sahədə həyata keçirilən islahatların maraqla izlənildiyini deyən Lourens Fink ümidvar olduğunu bildirdi ki, yaxın illərdə Azərbaycan Respublikası "Black Rock" şirkətinin təkcə investor qismində deyil, həm də investisiya hədəfi qismində də çıxış edəcək. Lourens Fink yaxın zamanlarda Azərbaycana səfər edəcəyini və ölkəmizin investisiya imkanları ilə bir daha tanış olacağını məmnunluqla bildirdi.

Prezident İlham Əliyev Azərbaycan Dövlət Neft Fondu ilə "Black Rock" şirkəti arasında yaranan əməkdaşlığın məmnunluq doğurduğunu bildirdi. Dövlətimizin başçısı son illər ölkəmizdə iqtisadiyyatın müxtəlif sahələrində həyata keçirilən səmərəli islahatlardan danışdı. Prezident İlham Əliyev Azərbaycanın liderliyi və təşəbbüsü ilə həyata keçirilən qlobal layihələr, o cümlədən Cənub Qaz Dəhlizi, Bakı–Tbilisi–Qars dəmir yolu, eləcə də Ələt azad ticarət zonası layihələrindən danışdı, bu layihələrin investisiya qoyuluşu üçün çox səmərəli olduğunu bildirdi.

**"Xalq qəzeti"**
*23 yanvar 2018-ci il, № 15, s.2*

## PREZİDENT İLHAM ƏLİYEV DAVOSDA OPEC-İN BAŞ KATİBİ İLƏ GÖRÜŞÜB

*23 yanvar 2018-ci il*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 23-də Davosda Neft İxrac edən Ölkələr Təşkilatının (OPEC) baş katibi Məhəmməd Barkindo ilə görüşüb.

Məhəmməd Barkindo görüşdə dedi: "Biz Azərbaycanın OPEC və qeyri-OPEC ölkələrinin bir araya gətirilməsi və 2016-cı ilin dekabrında bununla bağlı tarixi qərarın qəbul edilməsində fəal liderlik rolunu yüksək qiymətləndiririk".

Prezident İlham Əliyev, öz növbəsində, Məhəmməd Barkindonun OPEC-in baş katibi kimi fəaliyyətinin biznes ictimaiyyəti və ölkələrin gözləntilərinin reallaşmasında mühüm rol oynadığını vurğuladı. Dövlətimizin başçısı Azərbaycanın bundan sonra da OPEC ilə uğurlu əməkdaşlıq həyata keçirəcəyinə əminliyini ifadə edərək Məhəmməd Barkindonu ölkəmizə səfərə dəvət etdi. OPEC-in baş katibi dəvəti minnətdarlıqla qəbul etdi.

**"Xalq qəzeti"**
*24 yanvar 2018-ci il, № 16, s.2*

## PREZİDENT İLHAM ƏLİYEV SƏUDİYYƏ ƏRƏBİSTANININ ENERGETİKA, SƏNAYE VƏ TƏBİİ SƏRVƏTLƏR NAZİRİ İLƏ GÖRÜŞÜB

*23 yabvar 2018-ci il*

Yanvarın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Davosda Səudiyyə Ərəbistanının energetika, sənaye və təbii sərvətlər naziri Xəlid Əl Falih ilə görüşü olub.

Xəlid Əl Falih Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz Al Səudun salamlarını və rəğbət hissini dövlətimizin başçısına çatdırdı. O, Kralın Azərbaycan Prezidentinin bu yaxınlarda ona göndərdiyi məktubdan böyük məmnunluq hissi keçirdiyini bildirdi.

Prezident İlham Əliyev məktubunda Krala və Səudiyyə Ərəbistanına dərin hörmətini ifadə etdiyini, ölkələrimiz arasında tərəfdaşlıq və əməkdaşlığın genişləndirilməsinə hazır olduğunu vurğuladı. Ölkələrimiz arasında siyasi münasibətlərin yüksək səviyyədə olduğunu deyən dövlətimizin başçısı əməkdaşlığın genişləndirilməsi üçün perspektivlərin, iqtisadi, enerji təhlükəsizliyi və ticarət sahələrində əməkdaşlıq üçün yaxşı imkanların mövcudluğunu bildirdi. Söhbət zamanı OPEC çərçivəsində əməkdaşlıqdan və SOCAR və "Saudi Aramco" şirkətləri arasında işbirliyindən danışıldı. Prezident İlham Əliyev Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz Al Səudun salamlarına görə təşəkkür etdi, onun da salamlarını Səudiyyə Ərəbistanının Kralına çatdırmağı xahiş etdi.

**"Xalq qəzeti"**
*24 yanvar 2018-ci il, № 16, s.2*

## PREZİDENT İLHAM ƏLİYEV AVROPA KOMİSSİYASININ ENERJİ BİRLİYİ ÜZRƏ VİTSE-PREZİDENTİ İLƏ GÖRÜŞÜB

*24 yanvar 2018-ci il*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 24-də Davosda Avropa Komissiyasının enerji birliyi üzrə vitse-prezidenti Maroş Şevçoviç ilə görüşüb.

Görüşdə Cənub Qaz Dəhlizi layihəsinin icrası ilə bağlı görülən işlər barədə fikir mübadiləsi aparıldı, bu ilin fevralında Bakıda Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin növbəti toplantısının keçiriləcəyi qeyd olundu.

Söhbət zamanı TANAP və TAP kəmərlərinin maliyyələşdirilməsi, TANAP qaz kəmərinin bu il ərzində istismara verilməsi, "Şahdəniz–2" yatağından ilk qazın hasil olunması ilə bağlı məsələlər müzakirə edildi.

**"Xalq qəzeti"**
*25 yanvar 2018-ci il, № 17, s.1*

## PREZİDENT İLHAM ƏLİYEV "BP" ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU İLƏ GÖRÜŞÜB

*24 yanvar 2018-ci il*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 24-də Davosda "BP" şirkətinin baş icraçı direktoru Robert Dadli ilə görüşüb.

Görüşdə "Azəri", "Çıraq", "Günəşli" yataqlarının işlənilməsini nəzərdə tutan müqavilənin uzadılmasının əhəmiyyəti vurğulandı. Bu il "Şahdəniz–2" yatağından ilk qazın hasil olunacağı, TANAP kəmərinin istismara veriləcəyi bildirildi.

Söhbət zamanı Azərbaycanda neft hasilatının perspektivləri ilə bağlı məsələlər müzakirə olundu.

Prezident İlham Əliyev Robert Dadlini Bakıya səfərə dəvət etdi.

**"Xalq qəzeti"**
*25 yanvar 2018-ci il, № 17, s.2*

## PREZİDENT İLHAM ƏLİYEV DAVOSDA "STATOİL" ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU İLƏ GÖRÜŞÜB

*24 yanvar 2018-ci il*

Yanvarın 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Davosda "Statoyl" şirkətinin baş icraçı direktoru Eldar Saetre ilə görüşüb.

Görüşdə "Statoyl" şirkətinin 25 ildir ölkəmizdə uğurla fəaliyyət göstərdiyi qeyd olundu. "Azəri", "Çıraq", "Günəşli", həmçinin "Qarabağ" və "Dan ulduzu" yataqları üzrə əməkdaşlığın perspektivləri müzakirə edildi. Gələcəkdə əməkdaşlığın daha da inkişaf etdirilməsi ilə bağlı fikir mübadiləsi aparıldı.

**"Xalq qəzeti"**
*25 yanvar 2018-ci il, № 17, s.2*

## DAVOS FORUMU ÇƏRÇİVƏSİNDƏ "NEFT VƏ QAZ SƏNAYESİ SİYASƏTİ ÜZRƏ LİDERLƏRİN TOPLANTISI" ADLI SESSİYA KEÇİRİLİB

*24 yanvar 2018-ci il*

### Prezident İlham Əliyev sessiyada iştirak edib

Yanvarın 24-də Davosda Dünya İqtisadi Forumu çərçivəsində "Neft və qaz sənayesi siyasəti üzrə liderlərin toplantısı" adlı sessiya keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sessiyada iştirak edib.

Dövlət və hökumət başçıları ilə yanaşı, dünyanın aparıcı enerji şirkətlərinin rəhbərlərinin, mütəxəssislərin və alimlərin də qatıldığı sessiyada neft və qaz sənayesinin perspektivləri barədə fikir mübadiləsi aparılıb.

**"Xalq qəzeti"**
*25 yanvar 2018il, № 17, s.1*

# AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA KOMİSSİYASININ ENERJİ BİRLİYİ ÜZRƏ VİTSE-PREZİDENTİ MAROŞ ŞEFÇOVİÇ İLƏ GÖRÜŞÜB

*15 fevral 2018-ci il*

Fevralın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Avropa Komissiyasının enerji birliyi üzrə vitse-prezidenti, Cənub Qaz Dəhlizi Məşvərət Şurasının həmsədri Maroş Şefçoviç ilə görüşüb.

Görüşdə Prezident İlham Əliyev Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin dördüncü toplantısında iştirakına və tədbirdə dediyi xoş sözlərə görə Maroş Şefçoviçə minnətdarlığını bildirdi. Dövlətimizin başçısı vurğuladı ki, bu toplantı Cənub Qaz Dəhlizi layihəsinin inkişafında yeni mərhələdir. Azərbaycan Prezidenti Cənub Qaz Dəhlizinin icrasına verdiyi dəstəyə görə Maroş Şefçoviçə və eləcə də Avropa İnvestisiya Bankına layihənin maliyyələşməsində dəstəyi ilə əlaqədar minnətdarlığını ifadə etdi.

Avropa Komissiyasının enerji birliyi üzrə vitse-prezidenti, Məşvərət Şurasının həmsədri Maroş Şefçoviç bu toplantıda və Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində keçirilən əvvəlki toplantılarda iştirakından məmnunluğunu bildirdi. Maroş Şefçoviç layihənin icrasında böyük inkişafın olduğunu dedi.

**"Xalq qəzeti"**
*16 fevral 2018-ci il, № 36, s.3*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN TÜRKİYƏNİN ENERGETİKA VƏ TƏBİİ SƏRVƏTLƏR NAZİRİ İLƏ GÖRÜŞÜB

*15 fevral 2018-ci il*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 15-də Türkiyənin energetika və təbii sərvətlər naziri Berat Albayrak ilə görüşüb.

Görüşdə ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi bildirildi. Azərbaycanın və Türkiyənin TANAP, TAP, Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum, Bakı–Tbilisi–Qars kimi irimiqyaslı layihələri birlikdə uğurla həyata keçirdikləri qeyd olundu.

Türkiyənin enerji və təbii sərvətlər naziri Berat Albayrak Prezident Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev ötən ilin sentyabrında Bakıda "Əsrin müqaviləsi"nin müddətinin uzadılması mərasimində Berat Albayrak ilə görüşünü xatırladı və TANAP layihəsinin icrasının artıq yekunlaşmaqda olduğunu vurğuladı. Dövlətimizin başçısı tezliklə "Şahdəniz–2" yatağından qazın hasil olunmasına və borulara ötürülməsinə başlanılacağını bildirdi.

Nazir Berat Albayrak "Əsrin müqaviləsi"nin müddətinin uzadılmasının əhəmiyyətini xüsusi vurğulayaraq, Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin dördüncü toplantısının önəmini qeyd etdi. O, ötən ay TANAP layihəsinin icrası çərçivəsində sınaq işlərinə başlanıldığını dedi.

Dövlətimizin başçısı Prezident Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə dövlətinin başçısına çatdırmağı xahiş etdi.

**"Xalq qəzeti"**
*16 fevral 2018-ci il, № 36, s.3*

## BAKIDA CƏNUB QAZ DƏHLİZİ MƏŞVƏRƏT ŞURASI ÇƏRÇİVƏSİNDƏ NAZİRLƏRİN DÖRDÜNCÜ TOPLANTISI KEÇİRİLİB

*15 fevral 2018-ci il*

### Azərbaycan Prezidenti İlham Əliyev toplantıda iştirak edib

Fevralın 15-də Bakıda, Heydər Əliyev Mərkəzində Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin dördüncü toplantısı keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev toplantıda iştirak edib.

Tədbirdə həmçinin Cənub Qaz Dəhlizinin iştirakçısı olan ölkələrin energetika nazirləri və müxtəlif qurumların təmsilçiləri, o cümlədən Avropa Komissiyasının enerji birliyi üzrə vitse-prezidenti, Məşvərət Şurasının həmsədri Maroş Şefçoviç iştirak ediblər.

Əvvəlcə birgə foto çəkdirildi.

Azərbaycan Prezidenti İlham Əliyev toplantıda nitq söylədi.

**PREZİDENT İLHAM ƏLİYEVİN NİTQİ**

– Əziz xanımlar və cənablar.

– Əziz dostlar.

Azərbaycana xoş gəlmisiniz. Şadam ki, təklifimizi qəbul etmisiniz və Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin dördüncü toplantısında iştirak edirsiniz. Bu gün biz ötən il ərzində görülən işləri nəzərdən keçirəcəyik və əlbəttə ki, gələcək planlarımız barədə danışacağıq. Şadam ki, qonaqlarımız arasında köhnə və yeni dostlarımız var. Mən xüsusilə Cənub Qaz Dəhlizi Məşvərət Şurasının hər bir toplantısında iştirak edən Avropa Komissiyasının vitse-prezidenti cənab Şefçoviçi salamlamaq istərdim. Avropa Komissiyasının bu layihənin həyata keçirilməsinə dəstəyi çox mühümdür.

Bu gün mən həmçinin yüksək səviyyəli nümayəndələri – burada bizimlə birlikdə olan ABŞ və Birləşmiş Krallıq hökumətlərinə təkcə Cənub Qaz Dəhlizi layihəsinə deyil, 1990-

cı illərdə Azərbaycanın təşəbbüskarı olduğu enerji təhlükəsizliyi ilə bağlı digər layihələrə verdiyi davamlı dəstəyə görə minnətdarlığımı ifadə etmək istərdim. Xüsusilə Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum neft-qaz layihələri ABŞ və Birləşmiş Krallıq hökumətləri tərəfindən güclü şəkildə dəstəklənib. Bu dəstək davam edir və onu göstərir ki, bu ölkələrlə yaxın tərəfdaşlığımız, əlaqələrimiz bizim hamımıza öz məqsədlərimizə çatmağa kömək edir. Əlbəttə ki, mən Cənub Qaz Dəhlizinə üzv olan ölkələrdən – Gürcüstan, Türkiyə, Yunanıstan, Bolqarıstan, Albaniya, İtaliyadan olan tərəfdaşlarımızı, yüksək səviyyəli hökumət rəsmilərini, həmçinin tərəfdaşlarımızı, böyük komandanın gələcək üzvlərini salamlamaq istərdim. Mən artıq onları böyük komandanın üzvləri hesab edə bilərəm, çünki biz artıq Bosniya və Herseqovina, Xorvatiya və Monteneqro ilə anlaşma memorandumları imzalamışıq. Şadam ki, bugünkü toplantıda bizə dost ölkələr olan Rumıniya və Türkmənistandan nümayəndələr ilk dəfə olaraq iştirak edirlər. Onların bu toplantıda iştirakı, həmçinin bizim layihəmizə böyük əhəmiyyət verdiklərini nümayiş etdirir.

Sözsüz ki, "Şahdəniz", TANAP və TAP-a üzv olan şirkətlərin və maliyyə institutlarının güclü əzmi olmadan layihənin icrası mümkün olmazdı. Mən verdikləri töhfələrə, əzm və maliyyə dəstəyinə görə şirkətlərin və dünyanın aparıcı maliyyə institutlarının nümayəndələrini alqışlayıram. Əslində, sizin Şuranın toplantısında iştirakınız onu göstərir ki, biz hamımız üçün mühüm əhəmiyyət kəsb edən qlobal layihələr, enerji təhlükəsizliyi, enerji şaxələndirilməsi layihələri və regionumuzda beynəlxalq əməkdaşlığı gücləndirəcək layihələr həyata keçirən çox güclü və səmərəli komanda yaratmağa müvəffəq olmuşuq.

2015-ci ildə Azərbaycan Cənub Qaz Dəhlizi Məşvərət Şurasının yaradılması təşəbbüsü ilə çıxış etdi, çünki biz səylərimizi əlaqələndirməyə böyük ehtiyacın olduğunu aydın başa düşürdük. Əvvəlki illərdə Azərbaycan qonşu ölkələr olan Gürcüstan və Türkiyə ilə birlikdə mühüm enerji layihələri həyata keçirib. Lakin bu dəfə daha çox ölkə və şirkət cəlb olunmuşdu, ona görə də bizim əlaqələndirməyə, maksimum səmərəliliyə ehtiyacımız var idi. Mən çox şadam ki, Avropa Komissiyası bu təşəbbüsü dərhal dəstəklədi və dördüncü toplantı Avropa Komissiyası və Azərbaycan tərəfindən təşkil olunub. Mən layihənin həyata keçirilməsinə verdiyi böyük töhfəyə görə bir daha cənab Şefçoviçə xüsusi minnətdarlığımı bildirmək istərdim.

Biz artıq dördüncü dəfədir görüşürük. Bu əməkdaşlıq formatı artıq səmərəli olduğunu və çox yaxşı nəticələrə yol açacağını sübut edib. Cənub Qaz Dəhlizi layihəsi Azərbaycanın indiyədək çox uğurlu olan və Azərbaycana öz iqtisadiyyatını şaxələndirməyə kömək edən enerji strategiyasının əsas elementlərindən biridir. Biz enerji ehtiyatlarından istifadə edərək qeyri-neft sektoru, insan kapitalı və infrastruktura investisiya yatırmışıq, bununla da iqtisadiyyatımızın uzunmüddətli davamlı inkişafını təmin etmişik. Sözsüz

ki, bizim əvvəlki illərdə Azərbaycanda həyata keçirdiyimiz layihələr Cənub Qaz Dəhlizinin reallaşdırılması üçün güclü bünövrə yaradıb. Bizim enerji strategiyamız müstəqilliyimizin bərpasından bir qədər sonra başlanıb və artıq 3 il sonra – 1994-cü ildə Azərbaycan "BP"nin rəhbərliyi ilə dünyanın aparıcı neft şirkətləri konsorsiumu ilə müqavilə imzaladı və layihənin və investisiyaların həcmini nəzərə alaraq bu müqavilə dərhal "Əsrin müqaviləsi" adını aldı. Ötən ilin fevralında Bakıda sonuncu görüşümüzdən sonra keçən dövr ərzində biz eyni yataqla bağlı "Əsrin müqaviləsi"nin uzadılmasına dair yeni müqavilə imzaladıq. Hazırda layihənin müddəti 2050-ci ilədək uzadılıb. Qarşıdakı onilliklər ərzində biz dünyanın ən böyük neft yataqlarından biri olan "Azəri–Çıraq–Günəşli"dəki sabit və davamlı inkişafdan faydalanacağıq.

1994-cü il faktiki olaraq bizim tariximizdə, Azərbaycanda və dünyada neftin inkişafı tarixində dönüş nöqtəsi oldu. Bu həmçinin Azərbaycanı dünya ictimaiyyətinə təqdim etdi, iqtisadiyyatımıza, xüsusilə də ilkin mərhələdə neft və qaz sektoruna nəhəng investisiyaların qoyulması üçün qapı açdı və Azərbaycanın etibarlı tərəfdaş olduğunu və investorlar üçün maksimum dərəcədə əlverişli investisiya mühiti yaratmaq iqtidarında olduğunu nümayiş etdirdi. Mən, sadəcə olaraq, xatırlatmaq istərdim ki, bizim bütün əsas neft və qaz müqavilələrimiz parlamentimiz tərəfindən ratifikasiya olunur və qanun kimi imzalanır. Bu da investorların investisiyalarına maksimum təminat verir. İki il keçəndən sonra – 1996-cı ildə "Şahdəniz" qaz kondensatı layihəsi üzrə müqavilə imzalandı və hazırda "Şahdəniz" hələ ki Cənub Qaz Dəhlizi üçün yeganə resurs mənbəyidir. Bu da bizim tariximizdə mühüm hadisə oldu, çünki bu bizə yenidən milyardlarla investisiya cəlb etməyə kömək etdi və Azərbaycan neft istehsal və ixrac edən ölkədən qaz istehsal və ixrac edən ölkəyə də çevrildi. Bu gün bu iki əsas enerji layihəsi regional əməkdaşlıqla bağlı məsələlərdə mühüm rol oynayır. Bu, regionları və qitələri birləşdirən əsas kəmər infrastrukturunun tikintisini stimullaşdırdı. Bu gün bu iki meqalayihə regionda və Avropada enerji təchizatını şaxələndirməyə kömək edir. Sonra dənizə çıxışı olmayan ölkə kimi beynəlxalq bazarlara çıxışımız olmadığından biz kəmərlər tikməli olduq və bunun üçün bizim artıq regional əməkdaşlığa ehtiyacımız yarandı. Düşünürəm ki, bu da planlarımızı yaxşı nümayiş etdirdi. Beləliklə, Bakı ilə Gürcüstanın Supsa dəniz limanını birləşdirən ilk kəmər 1990-cı illərin sonunda açılaraq xam neft nəql edən kəmərlə Xəzər dənizi ilə Qara dəniz arasında ilk bağlantı yaratdı. Lakin bu, yetərli deyildi, çünki bizim neft ehtiyatlarımızın tam şəkildə işlənməsi üçün bu kəmərin tutumu kifayət etmirdi. Bu səbəbdən də əsas neft kəmərinin tikintisi planlaşdırıldı və 2006-cı ildə Xəzər dənizi ilə Aralıq dənizini birləşdirən Bakı–Tbilisi–Ceyhan neft kəmərinin uğurlu açılışı oldu. Hazırda Bakı–Tbilisi–Ceyhan neft kəməri təkcə Azərbaycandan deyil, Xəzər dənizinin o biri tərəfində olan – Xəzərin şərq sahillərindəki yataqlardan neft nəql etməklə artıq Azərbaycanı tranzit ölkəyə, tranzitdə etibarlı tərəfdaşa çevirir.

2007-ci il də bizim tariximizdə mühüm il olub. Çünki Azərbaycan ilk dəfə qaz ixracatçısı oldu. Bakı–Tbilisi–Ərzurum qaz kəmərinin açılışından sonra bizim qazımız Gürcüstan və Türkiyə bazarlarına ixrac olunmağa başladı və bu, eyni zamanda “Şahdəniz” yatağının işlənilməsinin ikinci mərhələsi və Cənub Qaz Dəhlizi layihəsi üçün bünövrə yaratdı. Biz “Şahdəniz” yatağının işlənilməsinin yeni mərhələsi üçün yeni imkanların yaradılması yollarını müzakirə edirik. Əlbəttə ki, bizim qazımızı Türkiyə və Avropaya ixrac etmək üçün diametri daha böyük olan kəmərə ehtiyacımız var idi və 2012-ci ildə İstanbulda Azərbaycan və Türkiyə Trans-Anadolu – TANAP kəmərinin tikintisi üzrə tarixi sənəd imzaladı. Düşünürəm ki, bu tarix regional inkişaf, əməkdaşlıq bizim ölkələrimiz üçün iqtisadi faydalara güclü təsir göstərəcək. Çünki bu da müasir tarixdə dönüş nöqtəsi oldu. TANAP Cənub Qaz Dəhlizinin fundamental elementlərindən biridir və 2012-ci il faktiki olaraq, “Şahdəniz–2”yə əsas investisiyalara qapı açdı. Çünki bundan sonra – 2013-cü ildə “Şahdəniz–2”yə investisiya yatırmaqla bağlı qərar qəbul olundu. TANAP olmadan bu, mümkün olmazdı. 2013-cü il Trans-Adriatik kəmərinin TANAP layihəsinin davamı kimi seçildiyi il oldu. Beləliklə, bu, görülən işlərin qısa tarixçəsidir. Əlbəttə, bu tarixçə onu göstərir ki, biz 20 ildən çoxdur, Cənub Qaz Dəhlizinin həyata keçirilməsi istiqamətində irəliləyirik. Bu 20 il uğur, nailiyyətlər, inkişaf, transformasiya və regional əməkdaşlıq illəri olub.

Bu gün bizim artıq təkcə Azərbaycan, Gürcüstan, Türkiyə kimi üç ənənəvi müttəfiqi deyil, daha çox ölkəni əhatə edən güclü regional əməkdaşlıq formatımız var. Ötən görüşümüzdən sonra keçən dövr ərzində Cənub Qaz Dəhlizinin həyata keçirilməsində əhəmiyyətli irəliləyiş əldə olunub. Mən sizin və Azərbaycan xalqının diqqətinə bəzi rəqəmləri çatdıracağam. Çünki bu masa arxasında əyləşənlər bizim hansı mərhələdə olduğumuzu yaxşı bilirlər. Lakin mən demək istərdim ki, son bir ildə layihənin icrası çox uğurlu olub. Biz Cənub Qaz Dəhlizinin 4 elementinin hamısı ilə bağlı yaxşı irəliləyişə nail olmuşuq. “Şahdəniz–2” yatağı üzrə işlərin 99 faizdən çoxunu tamamlamışıq. Müqayisə üçün, bir il əvvəl bu rəqəm 90 faiz olub. Cənubi Qafqaz Boru Kəməri ilə bağlı işlərin təxminən 95 faizi tamamlanıb, bir il əvvəl bu rəqəm 90 faiz olub. TANAP-ın icrası 95 faizə yaxınlaşır, bir il əvvəl bu, 70 faizə yaxın olub. TAP-ın icrası bir il əvvəlki 34 faizlə müqayisədə 70 faizə yaxın, ola bilsin ki, 66-67 faiz tamamlanıb. Beləliklə, bu, həqiqətən də, çox mühüm inkişafdır. Bu onu göstərir ki, 2017-ci il, bəlkə də, layihənin icrasında həlledici il olub və hazırda biz yekunlaşmağa çox yaxınıq. Mən həmçinin bildirmək istərdim ki, 20 il bundan əvvəl Azərbaycan, Gürcüstan və Türkiyə arasında yaradılmış regional əməkdaşlıq, həqiqətən də, regionumuzda və Avropada enerji sahəsində inkişafda mühüm rol oynayıb. Çünki bu regional əməkdaşlıq təkcə nəhəng, genişmiqyaslı enerji layihələrinin həyata keçirilməsinə yol açmayıb, həm də regionumuzda sabitlik,

proqnozlaşdırılma imkanı və çox səmimi əməkdaşlıq yaradıb. Eyni zamanda bu bizə diqqəti digər nəqliyyat layihələrinə cəmləşdirməyə imkan verib. 2017-ci ilin fevralında sonuncu görüşümüzdən sonra keçən dövrdə regionda başqa mühüm bir hadisə baş verdi. Ötən il oktyabrın sonunda Bakıda biz təkcə üç ölkə arasında deyil, həm də Asiya və Avropa arasında yeni dəmir yolu əlaqəsi olan yeni layihənin – Bakı–Tbilisi–Qarsın açılışını etdik. Bu artıq Asiyadan Avropaya ən qısa yoldur, yüklərin daşınmasına sərf olunan zamanı iki dəfədən çox azaldır və artıq şirkətlərə xidmətlər göstərir. Əminəm ki, onlar bu layihəni ciddi şəkildə əsas prioritetlərindən biri hesab edəcəklər. Bu gün artıq yüklərin artması onu göstərir ki, Bakı–Tbilisi–Qars yeni İpək Yolu layihəsinin çox mühüm elementi olacaq. Sözsüz ki, burada, Qafqazda, Gürcüstan, Türkiyə və Azərbaycan arasında güclü regional əməkdaşlıq olmasaydı, neft-qaz layihələri həyata keçirilməsəydi, Bakı–Tbilisi–Qars, bəlkə də, reallıq üçün deyil, sadəcə, tarix üçün bir layihə olacaqdı. Bu bizim əldə etdiyimiz real nəticədir. Bu gün biz artıq geniş komanda ilə bu masa arxasında əyləşərkən görürük ki, Cənub Qaz Dəhlizinin üzvü olan ölkələr arasında eyni əməkdaşlığı yarada bilərik. Bu artıq baş verir və tərəfdaş ölkələrdən yüksək səviyyəli nümayəndə heyətlərinin iştirakı, həqiqətən də, bunu nümayiş etdirir. Hələ ki "Şahdəniz" Cənub Qaz Dəhlizi üçün yeganə resurs mənbəyidir. Lakin düşünürəm və əminəm ki, gələcəkdə biz Azərbaycanda əlavə həcmdə resurslara malik olacağıq. Çünki bu gün biz beynəlxalq tərəfdaşlarımızla fəal şəkildə yeni layihələr, Xəzər dənizinin Azərbaycan sektorundakı yeni qaz yataqları üzərində işləyirik. Xüsusilə tezliklə, ola bilsin ki, bir neçə ilə, bəlkə də, bundan az müddətdə hasilata başlanacaq "Abşeron" yatağı, çox böyük qaz ehtiyatı olan "Ümid" və "Babək" yataqları ilə bağlı Azərbaycan xarici şirkətlərlə fəal danışıqlar aparır.

Tezliklə beynəlxalq əməkdaşlığa cəlb olunacağına ümid bəslədiyimiz başqa bir yataq "Qarabağ" adlanır. Həmçinin böyük qaz potensialı olan iki yataq – "Dan ulduzu" və "Əşrəfi". Beləliklə, Azərbaycanın təsdiq olunmuş qaz ehtiyatları "Şahdəniz" yatağından iki dəfədən artıq çoxdur – 2,6 trilyon kubmetr qaza bərabərdir və əminəm ki, daha çox olacaq. Çünki bizim təcrübəmiz onu göstərir ki, ilkin olaraq gözlənilən ehtiyatlar əvvəlkindən xeyli çox olur. Məsələn, 1994-cü ildə "Əsrin müqaviləsi" imzalananda "Azəri–Çıraq–Günəşli" yataqlarının ehtiyatları 500 milyon tondan bir qədər çox qiymətləndirilirdi. Təvazökarlıqla desək, hazırda bu rəqəm iki dəfə çox – 1 milyard tona yaxındır. Düşünürəm və ümid edirəm ki, qaz yataqlarında da eyni mənzərənin şahidi olacağıq. Ona görə də Azərbaycan qarşıdakı onilliklərdə dünya bazarlarına enerji ehtiyatlarının etibarlı, uzunmüddətli təchizatçısı olacaq. Bu gün Azərbaycan nefti bəzi Avropa ölkələrinin neft istehlakının üçdəbiri və ya daha çox, hətta 40 faizini təşkil edir. Azərbaycan öz qaz ehtiyatları ilə Avropa bazarına daxil olmağa hazırdır.

Cənub Qaz Dəhlizi enerji təhlükəsizliyi layihəsidir. Biz milli təhlükəsizlikdən danışarkən, əlbəttə ki, hazırda enerji təhlükəsizliyi ən vacib elementlərdən biridir. Cənub

Qaz Dəhlizi enerji şaxələndirilməsi layihəsidir, bizdə bu, marşrutların və mənbələrin şaxələndirilməsidir. Bu, əsl şaxələndirmədir. Çünki təkcə marşrutların şaxələndirilməsi bizimkindən bir qədər fərqlidir. Cənub Qaz Dəhlizi enerji sahəsində əməkdaşlıq layihəsidir və əməkdaşlığın necə olmalı olduğunu göstərir. Əməkdaşlıq yalnız o zaman mümkündür ki, bütün tərəflər ondan faydalansın. Bu səbəbdən, başlanğıcda bizim əsas məqsədimiz istehsalçılar, tranzit ölkə və istehlakçılar arasında yaxşı balansın tapılmasıdır. Yalnız bu halda biz uğur qazana bilərik və layihənin uğurlu icrası bizim doğru yolda olduğumuzu göstərir. İstehsalçıların və ya istehsalçının – hələ ki cəmi bir istehsalçı var – Azərbaycanın, tranzit ölkələrin və istehlakçıların maraqları tam şəkildə nəzərə alınır və Cənub Qaz Dəhlizi cəlb olunmuş bütün ölkələrdə bir neçə milyardlıq investisiyalara yol açır. Bu, minlərlə yeni iş yeri deməkdir. Bu təkcə enerji deyil, həm də nəqliyyat infrastrukturuna, nəqliyyat infrastrukturuna investisiya yatırılması deməkdir. Cənub Qaz Dəhlizi marşrut boyunca yerləşən və Cənub Qaz Dəhlizinin üzvü olan ölkələrin bir çox hissələrinin qazlaşdırılmasına gətirib çıxaracaq. Bütün bunlar inkişaf, sabitlik, proqnozlaşdırılma imkanı deməkdir və əməkdaşlığa yol açır. Çünki bu gün Cənub Qaz Dəhlizinin üzvü olan ölkələr Azərbaycanın çox yaxın tərəfdaşlarıdır. Azərbaycan artıq bu ölkələrin böyük əksəriyyəti ilə strateji tərəfdaşlığa dair bəyannamələr imzalayıb. Hazırda biz Avropa İttifaqı ilə danışıqlar aparırıq və yeni tərəfdaşlıq sazişi də Azərbaycanla Avropa İttifaqı arasında əməkdaşlıq üçün yeni format yaradacaq.

Əlbəttə ki, əvvəlki layihələrlə yanaşı, Cənub Qaz Dəhlizi layihəsi ölkəmizə yeni faydalar verir. Azərbaycan iqtisadiyyatı şaxələndirmək, insan kapitalına investisiya yatırmaq, iqtisadiyyatı tamamilə dəyişmək üçün öz enerji ehtiyatlarından səmərəli şəkildə istifadə edib. Hazırda ümumi daxili məhsulun mütləq əksəriyyəti özəl sektorun payına düşür. Son 15 ildə iqtisadiyyatımız 3 dəfədən çox, ümumi daxili məhsul 3,2 dəfə artıb. Biz işsizlik və yoxsulluğu azaltmaq üçün enerji ehtiyatlarından düzgün şəkildə istifadə etməyə müvəffəq olmuşuq. Son 15 ildə əhalimizin 1,5 milyon nəfər artmasına baxmayaraq, işsizlik səviyyəsi çox aşağı – 5 faizdir. Yoxsulluq səviyyəsi 5,4 faizdir, savadlılıq səviyyəsi 100 faizə yaxındır.

Biz iqtisadiyyatı şaxələndirmək üçün insan kapitalına investisiya yatırmışıq, iş yerləri açmışıq, müasir infrastruktur layihələri yaratmışıq. 2018-ci il yanvar ayının nəticələri göstərir ki, iqtisadiyyatımız, əsasən, qeyri-enerji sektorunda inkişaf edir. Burada iqtisadi artım 4 faizə yaxın olub. Yanvarda sənayemizin qeyri-enerji sektorunda iqtisadi artım 8,7 faiz olub. Azərbaycanın valyuta ehtiyatları ümumi daxili məhsula bərabərdir. Düşünürəm ki, iqtisadiyyatın şaxələndirilməsinin ən yaxşı göstəricisi Davos Dünya İqtisadi Forumunun qiymətləndirməsidir. Son qiymətləndirmə göstərir ki, Azərbaycan rəqabət qabiliyyətinə görə dünyada 35-ci yerdədir. İnkişaf etməkdə olan ölkələr arasında

inklüziv inkişaf indeksinə görə Azərbaycan 3-cü yerdədir. Bizdən əvvəl yalnız 30 inkişaf etmiş ölkə və 2 inkişaf etməkdə olan ölkə var. Bu o deməkdir ki, biz rəqabətlilik və inkişafa görə 33-cü və 35-ci yerdəyik. Bu bizim enerji amili ilə dəstəklənən siyasətimizin göstəricisi və siyasətimizin nəticəsidir. Sözsüz ki, biz Azərbaycanda yeni enerji inkişafı ilə bağlı tərəfdaşlarımızla fəal şəkildə işləməyə davam edəcəyik. Lakin eyni zamanda qonaqlarımıza məlumat vermək istərdim ki, əlbəttə, bizim üçün ən vacibi qeyri-enerji sektorudur. Bütün bunlar qısaca olaraq ölkəmiz və tərəfdaşlarımız üçün layihənin faydaları haqqında məlumat idi və onu göstərir ki, Avropanın uzunmüddətli enerji layihəsi olan Cənub Qaz Dəhlizi layihəsi ölkələrimizə müsbət nəticələr verəcək. Bir daha bizimlə birlikdə olduğunuza görə təşəkkür etmək istərdim. Fürsətdən istifadə edərək sizi gələn il Məşvərət Şurasının beşinci toplantısına dəvət etmək istərdim. Düşünürəm ki, həmin vaxta qədər Cənub Qaz Dəhlizinin 3 mühüm seqmenti artıq işə salınmış olacaq və bizim qazımız öz bazarlarına çıxış əldə edəcək.

**“Xalq qəzeti”**
*16 fevral 2018-ci il, № 36, s.1-2*

## PREZİDENT İLHAM ƏLİYEV OPEC-İN BAŞ KATİBİ İLƏ GÖRÜŞÜB

*18 mart 2018-ci il*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 18-də Neft İxrac edən Ölkələr Təşkilatının (OPEC) baş katibi Məhəmməd Barkindo ilə görüşüb.

OPEC-in baş katibi Məhəmməd Barkindo səfərə dəvətə görə minnətdarlığını bildirdi və Azərbaycan Respublikasının Prezidenti ilə görüşündən məmnunluğunu ifadə etdi. Prezident İlham Əliyev Məhəmməd Barkindo ilə Davosda görüşünü məmnunluqla xatırlayaraq qeyd etdi ki, OPEC-in baş katibinin dünyada ilk dəfə neftin hasil olunduğu Azərbaycana səfəri böyük önəm daşıyır.

Məhəmməd Barkindo xoş sözlərə görə minnətdarlığını bildirərək Azərbaycanın neft sənayesinin beşiyi olduğunu vurğuladı və dedi ki, hər bir neftçi gəlib öz gözləri ilə Bakını görməlidir.

Dövlətimizin başçısı İlham Əliyev Məhəmməd Barkindonun səfərinin Azərbaycanın tarixi yerləri və müasir inkişafı ilə tanış olmaq üçün yaxşı imkan yaratdığını dedi.

Prezident İlham Əliyev Azərbaycan ilə OPEC arasında əməkdaşlığın uğurla inkişaf etdiyini bildirdi və ölkəmizin hasilatla bağlı üzərinə düşən öhdəlikləri tam şəkildə yerinə yetirdiyini vurğuladı. Dövlətimizin başçısı neftin qiymətinin sabit saxlanması istiqamətində Məhəmməd Barkindonun və OPEC-in səmərəli, həmçinin koordinə edilmiş səylərini yüksək qiymətləndirdi, bunu eyni zamanda birgə fəaliyyətin yaxşı nəticəsi kimi dəyərləndirdi.

Məhəmməd Barkindo OPEC və qeyri-OPEC üzvlərinin bir araya gəlməsində Prezident İlham Əliyevin rolunu xüsusi qeyd etdi, Azərbaycanın OPEC və qeyri-OPEC üzvlərinin əməkdaşlığı üzrə bəyanatın formalaşmasına gətirib çıxaran yüksək səviyyəli texniki komitəyə həmsədrliyini yüksək qiymətləndirdi. Ölkəmizin üzərinə düşən bütün

öhdəlikləri tam şəkildə yerinə yetirdiyini deyən qonaq bunun Azərbaycanın bu razılaşmaya nə dərəcə sadiq qaldığının göstəricisi olduğunu bildirdi. Qeyd etdi ki, bu təkcə neft hasil edən yox, hətta istehlakçı ölkələrin marağındadır. Bu işin nəticələrini artıq neft sənayesində və dünya bazarlarında görmək mümkündür.

Söhbət zamanı əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

Sonda xatirə şəkli çəkildi.

**AZƏRTAC**
*18 mart 2018-ci il*

## PREZİDENT İLHAM ƏLİYEV LONDONDA "BP" ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU İLƏ GÖRÜŞÜB

*26 aprel 2018-ci il*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri xanım Tereza Meyin dəvəti ilə bu ölkəyə səfəri başlayıb.

Aprelin 26-da Prezident İlham Əliyev Londonda "BP" şirkətinin baş icraçı direktoru Robert Dadli ilə görüşüb.

Görüşdə "Şahdəniz" layihəsi üzrə görülən işlər, həmçinin bu ilin iyununda TANAP layihəsinin açılışı ilə bağlı fikir mübadiləsi aparıldı. "Şəfəq–Asiman" strukturu üzrə imzalanmış hasilatın pay bölgüsü sazişi əsasında görülən işlərin intensivləşdirilməsinin əhəmiyyəti qeyd edildi.

Söhbət zamanı Azərbaycan ilə "BP" şirkəti arasında uzun illərdir davam edən əməkdaşlığın hazırkı səviyyəsindən məmnunluq ifadə olundu.

**AZƏRTAC**
*26 aprel 2018-ci il*

## PREZİDENT İLHAM ƏLİYEV ABŞ DÖVLƏT KATİBİNİN KÖMƏKÇİSİNİN ENERJİ MƏSƏLƏLƏRİ ÜZRƏ MÜAVİNİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL EDİB

*29 may 2018-ci il*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 29-da ABŞ Dövlət katibinin köməkçisinin enerji məsələləri üzrə müavini Sandra Oudkirkin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Dövlətimizin başçısı ABŞ Dövlət katibinin köməkçisinin enerji məsələləri üzrə müavini Sandra Oudkirkin Cənub Qaz Dəhlizinin rəsmi açılışında və XXV Beynəlxalq Neft və Qaz Sərgisində iştirak etdiyinə görə minnətdarlığını bildirdi. Amerika Birləşmiş Ştatlarının bu tədbirlərdə belə yüksək səviyyədə təmsil olunmasından məmnunluğunu ifadə edən Prezident İlham Əliyev qlobal enerji layihələrinin reallaşdırılmasında ABŞ hökumətinin dəstəyini yüksək qiymətləndirdi və ölkələrimizin uzun illər həyata keçirdiyi tərəfdaşlıq əlaqələrinin çox yaxşı nəticələr verdiyini dedi. Dövlətimizin başçısı Cənub Qaz Dəhlizinin rəsmi açılış mərasimini ölkələrimiz arasında uğurlu əməkdaşlığın yaxşı göstəricisi kimi dəyərləndirdi. Prezident İlham Əliyev Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə göndərdiyi məktuba görə təşəkkürünü bildirdi və ABŞ Prezidentinin həmin məktubda əməkdaşlığımızın mühüm istiqamətlərindən olan enerji sahəsində əlaqələrin inkişafı barədə ifadə etdiyi fikirlərin münasibətlərimizin yüksək səviyyəsinin nümunəsi olduğunu vurğuladı.

Cənub Qaz Dəhlizinin rəsmi açılış mərasiminə dəvətə görə minnətdarlığını bildirən ABŞ Dövlət katibinin köməkçisinin enerji məsələləri üzrə müavini Sandra Oudkirk ölkələrimiz arasında energetika sahəsində möhkəm əsaslara söykənən əlaqələrin həyata keçirildiyini və bu əlaqələrin regionda əməkdaşlığın genişləndirilməsi, həm də eyni zamanda Avropanın enerji təchizatının şaxələndirilməsi işinə verdiyi töhfəni yüksək qiymətləndirdi.

Görüşdə Azərbaycan Respublikası ilə ABŞ arasında ikitərəfli münasibətlərin siyasi, iqtisadi, enerji, təhlükəsizlik sahələrində uğurla inkişaf etdiyi vurğulandı, əlaqələrimizin bundan sonra genişlənəcəyinə əminlik ifadə olundu.

**AZƏRTAC**
*29 may 2018-ci il*

## PREZİDENT İLHAM ƏLİYEV QAZ İXRAC EDƏN ÖLKƏLƏR FORUMUNUN BAŞ KATİBİNİ QƏBUL EDİB

*29 may 2018-ci il*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 29-da Qaz İxrac Edən Ölkələr Forumunun baş katibi Yuri Sentyurini qəbul edib.

Dövlətimizin başçısı Qaz İxrac Edən Ölkələr Forumunun baş katibi Yuri Sentyurinə Cənub Qaz Dəhlizinin rəsmi açılış mərasimində iştirakına görə minnətdarlığını bildirdi.

Qaz İxrac Edən Ölkələr Forumunun baş katibi Yuri Sentyurin Cənub Qaz Dəhlizinin rəsmi açılışının əhəmiyyətini qeyd etdi və bu tədbirə dəvətə görə minnətdarlığını bildirdi. O, Bakıya bu səfəri zamanı inanılmaz inkişafın şahidi olduğunu qeyd etdi.

Dövlətimizin başçısı Azərbaycan ilə Qaz İxrac Edən Ölkələr Forumu arasında uğurlu əməkdaşlıq həyata keçirildiyini vurğuladı.

Yuri Sentyurin Azərbaycanın Qaz İxrac Edən Ölkələr Forumuna müşahidəçi qismində qoşulmasından keçən dövr ərzində ölkəmizin təşkilatın fəaliyyətinin gücləndirilməsinə öz töhfəsini verdiyini xüsusi qeyd etdi.

Söhbət zamanı əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

**AZƏRTAC**
*29 may 2018-ci il*

## SƏNGƏÇAL TERMİNALINDA CƏNUB QAZ DƏHLİZİNİN RƏSMİ AÇILIŞ MƏRASİMİ KEÇİRİLİB

*29 may 2018-ci il*

### Prezident İlham Əliyev mərasimdə iştirak edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 29-da Səngəçal terminalında Cənub Qaz Dəhlizinin rəsmi açılış mərasimində iştirak edib.

Həmçinin XXV yubiley Beynəlxalq Neft və Qaz sərgisinin də açılışı olub, mərasim sərginin keçirildiyi Bakı Ekspo Mərkəzində canlı yayımlanıb.

Dövlətimizin başçısı mərasimdə nitq söylədi.

**PREZİDENT İLHAM ƏLİYEVİN NİTQİ**

– Hörmətli xanımlar və cənablar.

– Əziz dostlar.

Bu gün ölkəmizin tarixində çox əlamətdar bir gündür, tarixi bir gündür. Bu gün Cənub Qaz Dəhlizinin rəsmi açılışı günüdür. Bu gün münasibətilə sizi və bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm.

Biz bu günü burada – Səngəçal terminalının ərazisində qeyd edirik. Səngəçal terminalı dünyanın ən böyük neft-qaz terminalıdır və məhz burada dörd il bundan əvvəl Cənub Qaz Dəhlizinin təməli qoyulmuşdur. Eyni zamanda onu da qeyd etməliyəm ki, bu gün Bakı Ekspo Mərkəzində XXV Xəzər Neft-Qaz Sərgisi öz işinə başlayıb və sərgidə iştirak edən yoldaşlar bu gün bu mərasimdə də iştirak etmiş kimi sayıla bilərlər. Mən onları da salamlayıram. Bildirmək istəyirəm ki, 25 il ərzində ilk dəfədir ki, Xəzər Neft-Qaz Sərgisinin açılışı sərgi yerində yox, Səngəçal terminalında baş verir.

Xəzər Neft-Qaz Sərgisinin Azərbaycanın enerji siyasətinin reallaşmasında çox böyük rolu olmuşdur. İlk sərgi 1994-cü ildə keçirilmişdir. O vaxt Azərbaycan gənc müstəqil

dövlət idi və riskli dövlət kimi sayılırdı. Bu sərginin Azərbaycana investisiya qoyuluşu üçün çox önəmli rolu olmuşdur. Ötən 25 il ərzində bu sərgi dünya miqyasında çox mötəbər sərgi kimi tanınır və sərgidə iştirak edən şirkətlərin, ölkələrin sayı getdikcə artmaqdadır.

Qeyd etdiyim kimi, 4 il bundan əvvəl bu ərazidə Cənub Qaz Dəhlizinin təməli qoyulub. O zaman mən tam əmin idim ki, bu layihə uğurla, vaxtında icra ediləcək, baxmayaraq ki bu çox nəhəng və texniki-iqtisadi cəhətdən çox mürəkkəb bir layihədir. Bu layihə geniş beynəlxalq əməkdaşlıq tələb edən bir layihə idi. İlk dəfə olaraq Azərbaycan belə genişmiqyaslı beynəlxalq iqtisadi və siyasi əməkdaşlığı tələb edən layihəyə start vermişdir, onun təşəbbüskarı olmuşdur. Cənub Qaz Dəhlizinin rəsmi açılışı onu göstərir ki, biz qarşımıza qoyduğumuz bütün hədəflərə çatdıq və bu gün ölkəmizin həyatında neft-qaz sənayesinin inkişafında yeni dövr başlayır.

Dünən Azərbaycan xalqı Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyini təntənəli şəkildə qeyd etmişdir. Bu da tarixi hadisə idi. Çünki ilk dəfə olaraq 1918-ci ildə müsəlman aləmində demokratik respublika yaradılmışdır. Biz haqlı olaraq fəxr edirik ki, bu respublikanı məhz Azərbaycan xalqı yaratmışdır. Dünən təntənəli mərasimdə çıxış edərkən bildirdim ki, əgər 1920-ci ildə müstəqillik əldən verilməsəydi və Azərbaycan Xalq Cümhuriyyəti süqut etməsəydi, bu gün Azərbaycan, bəlkə də, dünyanın ən inkişaf etmiş və ən zəngin ölkələrindən biri ola bilərdi. Çünki bizim təbii ehtiyatlarımız, zəngin neft ehtiyatlarımız çox böyük imkanlar açır. Ancaq Azərbaycan müstəqilliyini itirdi və ondan əvvəlki dövrdə Azərbaycan müstəqil olmadığı üçün Azərbaycan xalqı öz təbii ehtiyatlarından bəhrələnə bilməmişdir.

Dünya neftinin tarixi Azərbaycandan başlayır. 1846-cı ildə dünya miqyasında ilk dəfə olaraq sənaye üsulu ilə neft məhz Azərbaycanda, Bakıda hasil edilmişdir. O tarixi anı əks etdirən abidə şəhərimizin mərkəzində bir neçə il bundan əvvəl ucaldılıb. O vaxt – XIX əsrin ikinci yarısında və XX əsrin əvvəlində Azərbaycan dünya neft hasilatının əksəriyyətini təmin edirdi. Ancaq Azərbaycan xalqı bundan bəhrələnə bilibmi?! Əlbəttə ki, yox. O illərin şəkillərinə, statistik məlumatlarına baxmaq kifayətdir ki, hər kəs görsün ki, xalq səfalət içərisində yaşayırdı, yoxsulluq hökm sürürdü, heç bir sənaye inkişafından söhbət getmirdi. Sadəcə olaraq, Azərbaycan resurs mənbəyi idi və Azərbaycandan çıxarılan "qara qızıl" Azərbaycan xalqının inkişafına xidmət etmirdi. Bizim neftimiz tükənirdi. Neftdən əldə edilən gəlir Azərbaycan xalqının rifahına yönəldilmirdi və eyni zamanda biz Abşeron yarımadasında böyük ekoloji problemlərlə üzləşmişdik. Bu problemləri bu gün müstəqil dövlətimiz həll edir.

Bu gün müstəqil Azərbaycan və bizim uğurlu neft-qaz siyasətimiz göstərir ki, ancaq müstəqillik şəraitində, müstəqillik dövründə Azərbaycan xalqı öz təbii ehtiyatlarından

istifadə edə bilər, ancaq müstəqillik dövründə Azərbaycan uğurla inkişaf edə bilər. Bu gün biz müstəqil dövlət kimi ayaqda möhkəm dayanmışıq, ölkə qarşısında duran bütün vəzifələri uğurla icra edirik, belə nəhəng layihələri tərəfdaşlarımızla birlikdə icra edirik və Avropanın enerji xəritəsini yenidən tərtib edirik.

Sovet İttifaqı dağılanda Azərbaycan 1991-ci ildə öz dövlət müstəqilliyini bərpa etdi. Ancaq müstəqilliyimizin ilk iki ili çox ağır keçmişdir. Ölkə, demək olar ki, idarəolunmaz vəziyyətdə idi, xaos, anarxiya, böhran hökm sürürdü, neft sənayesi tamamilə tənəzzülə uğramışdı, vətəndaş müharibəsinə start verilmişdi. Yəni ölkə çox böyük təhlükələrlə üzləşmişdi və müstəqilliyimizin ilk iki ili formal xarakter daşıyırdı. Çünki Azərbaycan müstəqil siyasət apara bilmirdi.

1993-cü ildə Azərbaycan xalqı Heydər Əliyevə müraciət edərək onu hakimiyyətə dəvət etdi, prezident vəzifəsinə seçdi və ondan sonra Azərbaycanın uğurlu inkişaf dövrü başlamışdır. Biz tarixə baxsaq, görərik ki, məhz o vaxtdan bu günə qədər Azərbaycan inamla inkişaf edir, ölkə qarşısında duran bütün vəzifələr uğurla icra edilir və ölkə iqtisadiyyatının əsas hissəsini təşkil edən neft-qaz sektorumuz da inkişaf edir.

Qeyd etdiyim kimi, 1994-cü ildə birinci Xəzər Neft-Qaz Sərgisi təşkil edilmişdir. Azərbaycanın dünyada zəngin resurslara malik ölkə kimi tanıdılmasında bu sərginin çox böyük rolu olmuşdur. 1994-cü il sentyabrın 20-də “Əsrin kontraktı” imzalanmışdır. “Azəri–Çıraq–Günəşli” neft yataqları dünyanın ən böyük neft yataqlarından biridir və 24 il bundan əvvəl imzalanmış “Əsrin kontraktı”nın müddəti keçən il 2050-ci ilə qədər uzadıldı. Yəni bu özlüyündə onu göstərir ki, həmin yataqda nə qədər böyük neft ehtiyatları var. “Əsrin kontraktı” Azərbaycana nəfəs verdi, ölkəmizin canlanmasına xidmət göstərdi. İlk dəfə olaraq Xəzər dənizi xarici şirkətlər üçün açıldı. Biz o xarici şirkətləri dəvət etdik və bu gün “Əsrin kontraktı”nın icrası çox uğurla gedir və bu kontraktın imzalanmasından sonra Azərbaycanın iri neft strategiyası icra olunmağa başlamışdır.

Mən o tarixi günləri yaxşı xatırlayıram. Çünki həmin vaxt mən Dövlət Neft Şirkətinin vitse-prezidenti kimi bu işlərlə bilavasitə məşğul idim. O vaxt Azərbaycanın neft strategiyası müəyyən olundu və bu gün biz bu strategiyanın, görülən işlərin bəhrəsini görürük.

1994-cü ildən sonra ikinci böyük kontrakt “Şahdəniz” qaz yatağı üzrə imzalanmışdır. Onu da qeyd etməliyəm ki, bu kontrakt 1996-cı il iyunun əvvəlində məhz Xəzər Neft-Qaz Sərgisinin keçirildiyi gündə imzalanmışdır. Beləliklə, Azərbaycan dünyaya özünü nəinki neft ölkəsi, həm də qaz ölkəsi kimi təqdim etdi. Onu da yaxşı xatırlayıram ki, o vaxt dünyada enerji təhlükəsizliyi məsələlərində qaz amili o qədər də ciddi rol oynamırdı. Hətta qaz yataqlarının işlənilməsi o qədər də böyük maraq doğurmurdu. Çünki mənfəət neft yataqları ilə müqayisədə daha aşağı idi. Ona görə bu layihəyə investorları cəlb etmək

o qədər də asan məsələ deyildi. Ancaq bu gün bu tarixi gündə Cənub Qaz Dəhlizinin açılışını qeyd edərkən biz görürük ki, bu nə qədər vaxtında atılmış və müdrik addımdır. "Şahdəniz" qaz yatağı Cənub Qaz Dəhlizinin əsas resurs bazasıdır.

1997-ci ildə isə "Əsrin kontraktı"nın icrası nəticəsində "Çıraq" platformasından ilk neft çıxarılmışdır. Bu tarixi videokadrlar artıq göstərilir və doğrudan da, tarixi bir gün idi. İlk dəfə olaraq xarici şirkətlər tərəfindən Xəzərdə yeni yataqdan neft hasil edilmişdir.

Azərbaycan açıq dənizlərə çıxışı olmayan bir ölkədir. Ona görə neft kəmərləri tikilməli idi və 1999-cu ildə artıq birinci neft kəməri – Bakı–Supsa kəməri istifadəyə verilmişdir. Yəni bu onu göstərir ki, biz bu böyük işləri nə qədər qısa müddət ərzində görmüşük. Bu işlər həm böyük maliyyə vəsaiti tələb edirdi, həm də texniki cəhətdən çox çətin layihələr idi. Onu da deməliyəm ki, 1999-cu ildə bizim hələ böyük vəsaitimiz də yox idi. Ondan sonra Bakı–Tbilisi–Ceyhan neft kəməri istifadəyə verildi. Ona görə bu layihələrin həyata keçirilməsi, doğrudan da, böyük səy, böyük müdriklik tələb edirdi. Bakı–Supsa neft kəmərinin istifadəyə verilməsi ilə biz tarixdə ilk dəfə Xəzər dənizini Qara dənizlə neft kəməri ilə bağlamışıq.

Ondan sonra 2002-ci ildə artıq biz "Azəri–Çıraq" yatağından böyük neft gözləyərkən məhz burada – Səngəçal terminalının ərazisində Bakı–Tbilisi–Ceyhan neft kəmərinin təməlini qoyduq. Bu kəmər 2006-cı ildə istifadəyə verildi və bu gün Azərbaycan xalqına, bütün dost ölkələrə xidmət edir. Bu gün Bakı–Tbilisi–Ceyhan neft kəməri vasitəsilə nəinki Azərbaycan nefti, eyni zamanda digər ölkələrin nefti də nəql edilir. Xəzərin şərq sahilində digər ölkələr tərəfindən hasil edilən neft artıq bu kəmər vasitəsilə dünya bazarlarına çıxarılır. Azərbaycan bu gün eyni zamanda etibarlı tranzit ölkə kimi qonşu ölkələrə öz imkanlarını təqdim edir.

2007-ci ildə isə Bakı–Tbilisi–Ərzurum qaz kəməri istifadəyə verildi. Bu da çox önəmli layihədir. Bu layihə olmadan "Şahdəniz" yatağının işlənməsi mümkün deyildi. Beləliklə, ilk dəfə olaraq 2007-ci ildə Azərbaycan qazı Gürcüstana və Türkiyəyə nəql edilməyə başlamışdır. O günü də mən çox yaxşı xatırlayıram. Ceyhandakı mərasimi də yaxşı xatırlayıram. Bu gün buraya gələrkən bütün o tarixi anlar, o günlər bir daha mənim yaddaşımda oyandı və bir daha mən demək istəyirəm ki, doğrudan da, bunlar tarixi nailiyyətlərdir.

"Şahdəniz" yatağının gələcək işlənilməsi ilə bağlı addımlar atılmağa başlanıldı. Əlbəttə, biz hamımız yaxşı bilirdik ki, böyük həcmdə Azərbaycan qazını dünya bazarlarına çıxarmaq üçün qaz kəməri lazımdır. Beləliklə, Cənub Qaz Dəhlizinin yaradılması ilə bağlı praktiki işlərə start verildi. Çox ciddi işlər, danışıqlar aparıldı və nəhayət, 2012-ci ildə Azərbaycan ilə Türkiyə arasında TANAP – Trans-Anadolu qaz kəməri üzrə müqavilə imzalandı. Beləliklə, Cənub Qaz Dəhlizinin reallaşmasına güclü təkan verildi. TANAP

layihəsi Cənub Qaz Dəhlizinin önəmli hissəsidir. Biz gələn ay TANAP layihəsinin istifadəyə verilməsini də qeyd edəcəyik. Qeyd etdiyim kimi, 2014-cü il sentyabrın 20-də – o da çox rəmzi məna daşıyır, çünki “Əsrin kontraktı” 1994-cü il sentyabrın 20-də imzalanmışdır – 20 ildən sonra Cənub Qaz Dəhlizinin təməli qoyulmuşdur. Bu gün biz bu layihənin rəsmi açılışını qeyd edirik və bu, doğrudan da, böyük və tarixi hadisədir.

Cənub Qaz Dəhlizi nəhəng infrastruktur layihəsidir. Bu layihənin icra edilməsinə 40 milyard dollardan çox sərmayə qoyulubdur və qoyulur. Azərbaycanın təsdiq edilmiş qaz ehtiyatları 2,6 trilyon kubmetrə bərabərdir. Əminəm ki, bundan böyük həcmdə resurslarımız var. Gələcək kəşfiyyat və istismar işləri, əminəm ki, bunu təsdiqləyəcək.

Bu layihələrin həyata keçirilməsi beynəlxalq əməkdaşlıq olmadan mümkün olmazdı. Mən ilk növbədə regional əməkdaşlıq haqqında danışmaq istərdim. Azərbaycan, Gürcüstan və Türkiyə Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum və digər önəmli layihələri, o cümlədən nəqliyyat sahəsində Bakı–Tbilisi–Qars layihəsini icra edərkən artıq çox güclü üçtərəfli regional əməkdaşlıq formatı yaratmışlar. Ona görə bu layihələrin icra edilməsində bu üç ölkənin birgə səyləri xüsusi yer tutur. Mən bu gün fürsətdən istifadə edərək həm Türkiyə, həm Gürcüstan rəhbərliyinə əməkdaşlığa görə təşəkkürümü bildirmək istəyirəm. Mən bu gün Amerika Birləşmiş Ştatlarının hökumətinə təşəkkürümü bildirmək istəyirəm. Çünki Amerika Birləşmiş Ştatları bütün layihələrimizdə bizə böyük dəstək olub, bizə kömək göstərib, həm siyasi dəstək, həm mənəvi dəstək. Əlbəttə, bu layihələr böyük resurslar tələb edir və maliyyə resurslarının böyük hissəsi banklar tərəfindən verilir. Amerika hökumətinin bu işdə çox böyük səyləri olub. Biz bu dəstəyi, o cümlədən Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum və Cənub Qaz Dəhlizi layihələrinin reallaşmasında həmişə hiss etmişik və hiss edirik. Bu dəstək bu layihələrin icra edilməsində çox böyük rol oynamışdır.

Böyük Britaniya hökuməti də həmişə bizim yanımızda olub. Bildiyiniz kimi, “BP” şirkəti energetika sahəsində bizim əsas investorumuzdur. Böyük Britaniya hökuməti bu layihələrin reallaşmasında həmişə bizə dəstək göstərmişdir, biz bu dəstəyi bu gün də hiss edirik. Keçən ay Londonda Baş nazir xanım Mey və mənim iştirakımla “BP” ilə SOCAR arasında növbəti kontrakt imzalanmışdır. Bu bizim strateji əlaqələrimizi bir daha əks etdirir.

Avropa İttifaqı bu layihənin icrasında çox önəmli rol oynamışdır. Hələ 2011-ci ildə Bakıda Avropa İttifaqı ilə Azərbaycan arasında Cənub Qaz Dəhlizi haqqında Birgə Bəyannamə imzalanmışdır. Bu illər ərzində biz daim Avropa İttifaqının dəstəyini hiss etmişik. Azərbaycanın və Avropa İttifaqının təşəbbüsü ilə son dörd il ərzində Bakıda hər il Cənub Qaz Dəhlizinin Məşvərət Şurasının iclasları keçirilir. 2015-ci ildən bu günə qədər Avropa İttifaqı bu toplantılarda ən yüksək səviyyədə təmsil olunur. Avropa İttifaqı ilə Azərbaycanın əməkdaşlıq formatında energetika sektoru, təbii ki, çox böyük yer tutur.

Bu layihələrin həyata keçirilməsi maliyyə institutlarının maliyyəsi olmadan mümkün olmazdı. Mən bugünkü mərasimdə bizə dəstək olan beynəlxalq səviyyədə tanınmış banklara da öz təşəkkürümü bildirmək istəyirəm. Onlar da bizə inanır və öz maliyyə resurslarını ayırırlar. Onlar da əmindirlər, biz də əminik ki, Azərbaycan etibarlı tərəfdaş kimi bütün borcları vaxtında qaytarır və qaytaracaq.

Bir sözlə, geniş beynəlxalq əməkdaşlıq çərçivəsində həyata keçirilən bu layihə, əminəm ki, gələcəkdə nəinki energetika sahəsində, bütün başqa sahələrdə Avropada və bizim bölgədə əməkdaşlığın dərinləşməsinə xidmət göstərəcək.

Cənub Qaz Dəhlizinin icrasında yeddi ölkə iştirak edir. Mən o ölkələrin adlarını bu gün çəkmək istərdim – Azərbaycan, Gürcüstan, Türkiyə, Bolqarıstan, Yunanıstan, Albaniya, İtaliya. Bax geniş beynəlxalq əməkdaşlıq yaradılıb.

Eyni zamanda üç Balkan ölkəsi – Bosniya və Herseqovina, Xorvatiya və Monteneqro tərəfdaşlar kimi, əminəm ki, növbəti mərhələdə bu layihəyə qoşulacaqlar. Cənub Qaz Dəhlizinin qolları olmalıdır. Biz ixrac imkanlarımızı genişləndirmək istəyirik. Bilirik ki, Avropada da Azərbaycan qazına tələbat var. Biz də istəyirik, daha çox qazı Avropaya sataq, çünki Avropa bazarı bizim üçün ən əlverişli bazardır.

Cənub Qaz Dəhlizi enerji təhlükəsizliyi məsələlərinin həllinə də kömək göstərəcək. Bu gün enerji təhlükəsizliyi ilə bağlı məsələlər dünya gündəliyində çox ciddi dayanır və ölkələrin milli təhlükəsizliyi, o cümlədən enerji təhlükəsizliyindən böyük dərəcədə asılıdır.

Cənub Qaz Dəhlizi enerji resurslarının şaxələndirilməsi işində də çox önəmli layihədir və hesab edirəm ki, əvəzolunmaz layihədir. Bu layihədə biz həm mənbələrin, həm marşrutların şaxələndirilməsini görürük. Çünki ancaq bu təqdirdə biz tam mənada enerji resurslarının şaxələndirilməsi haqqında danışa bilərik. Sadəcə olaraq, yeni marşrutların açılması və eyni mənbədən qidalanması tam mənada enerji şaxələndirilməsi məsələsi deyil. Biz isə, sözün əsl mənasında, enerji şaxələndirilməsi layihəsini icra edirik. Azərbaycan qazı yeni mənbədir və Cənub Qaz Dəhlizi yeni enerji damarıdır, Avropanın enerji təhlükəsizliyini yenidən tərtib edən layihədir. Bu layihənin həyata keçirilməsində iştirak edən bütün tərəflərin maraqları təmin edilib. Bu da çox önəmlidir. Burada maraqlar balansı gözlənilib.

Hasilatçı ölkə Azərbaycan, tranzit ölkələr, o cümlədən Azərbaycan və başqa ölkələr və istehlakçı ölkələr – hansılar ki Azərbaycan qazını alternativ qaz kimi alacaqlar – beləliklə, onlar üçün enerji təhlükəsizliyi məsələləri daha da dolğun şəkildə, tam şəkildə təmin ediləcək. Yəni maraqlar balansı olmasaydı, bu layihə həyata keçirilə bilməzdi. Bizim enerji siyasətimizlə bağlı yanaşmamız məhz bundan ibarətdir. Biz qarşılıqlı faydalı əməkdaşlığı təmin etməliyik.

İştirak edən bütün tərəflər, şirkətlər, ölkələr öz mənfəətini götürməlidirlər – həm siyasi, həm təhlükəsizlik, həm iqtisadi. Şirkətlər öz mənfəətini götürməlidir və Azərbaycan resursların sahibi kimi, əlbəttə ki, öz mənfəətini götürür və götürəcək.

Çıxışımın sonunda bu layihələrin ölkəmiz üçün nə qədər böyük fayda gətirdiyini qeyd etmək istərdim. Bu gün Azərbaycan ayaqda möhkəm duran bir ölkədir, müstəqil ölkədir, müstəqil siyasət aparan ölkədir, güclü iqtisadiyyata malik olan bir ölkədir. Son 15 il ərzində Azərbaycan iqtisadiyyatı, ümumi daxili məhsul üç dəfədən çox artmışdır. Ölkə iqtisadiyyatına son 15 il ərzində 230 milyard dollardan çox sərmayə qoyulmuşdur.

Azərbaycanda xarici dövlət borcu çox aşağı səviyyədədir, ümumi daxili məhsulumuzun cəmi 20 faizini təşkil edir. Bizim valyuta ehtiyatlarımız xarici borcumuzdan 4-5 dəfə çoxdur. Yəni biz istənilən vaxtda bütün borcları rahatlıqla ödəyə bilərik. Azərbaycanda son 15 il ərzində yoxsulluq səviyyəsi təxminən 50 faizdən 5,4 faizə düşüb, işsizlik 5 faiz səviyyəsindədir. Bu onu göstərir ki, qara qızıl, neft və qaz insan kapitalına çevrilib. Onu göstərir ki, bizim siyasətimiz ondan ibarət olmuşdur ki, biz neft-qaz əməliyyatlarından əldə olunan gəlirləri cəmiyyətdə bərabər, ədalətli şəkildə bölək və ölkə iqtisadiyyatının inkişafı üçün lazım olan layihələrə yönəldək. Dünya Davos İqtisadi Forumu Azərbaycan iqtisadiyyatını dünya miqyasında rəqabət qabiliyyətliliyinə görə 35-ci yerə layiq görüb. Bu onu göstərir ki, biz iqtisadi şaxələndirmə siyasətini uğurla aparırıq. Neftdən əldə edilmiş gəlirlər iqtisadiyyatın qeyri-neft sektoruna yönəlib. Davos Forumunun hesablamalarına əsasən, inkişafda olan ölkələr arasında inklüziv inkişaf indeksinə görə Azərbaycan üçüncü yerdədir. Bu işlərin təməlində bizim uğurlu neft-qaz siyasətimiz dayanır. Ancaq eyni zamanda və böyük dərəcədə bu işlərin təməlində düşünülmüş siyasət dayanır. Bir çox ölkələr var ki, onların bizdən qat-qat böyük neft resursları, neft hasilatı var. Ancaq ölkələrin uğurlu inkişafını təbii resurslar həll etmir. Düşünülmüş siyasət, xalq-iqtidar birliyi, şəffaflıq, bütün azadlıqların təmin edilməsi, düzgün iqtisadi siyasət və regional əməkdaşlıq uğurlu inkişafın əsas amilləridir.

Bu gün bu tarixi gündə mən bu tarixi məqamları bir daha sizin və Azərbaycan xalqının diqqətinə çatdırmaq istərdim. Çünki bugünkü günün təməli məhz o illərdə qoyulub. Sadəcə olaraq, biz bütün bu işləri ardıcıllıqla görmüşük. Bu gün bizim ölkəmizin həyatında çox əlamətdar tarixi bir gündür. Bu gündə mən Cənub Qaz Dəhlizinə uzun və uğurlu ömür arzulayıram.

Sağ olun.

* * *

Sonra "Şahdəniz–2" və Cənub Qaz Dəhlizi layihələri haqqında videoçarx təqdim olundu.

Qeyd edək ki, Xəzərin Azərbaycan sektorunda yerləşən "Şahdəniz" yatağı bu vaxtadək Azərbaycanda aşkar edilmiş ən böyük qaz yatağıdır. Bu nəhəng yataq təxminən 860 kvadrat kilometr ərazini əhatə edir və onun ilkin geoloji qaz ehtiyatı 1,2 trilyon kubmetrdir. "Şahdəniz–2" layihəsi çərçivəsində hasil olunacaq qaz Cənub Qaz Dəhlizi ilə ötürüləcək. Qaz təxminən 3500 kilometr uzunluğunda boru kəməri vasitəsilə Gürcüstan, Türkiyə, Yunanıstan, Bolqarıstan, Albaniya və İtaliya ərazisinə nəql olunacaq. Türkiyəyə ilk qaz bu il, Avropaya isə 2020-ci ildə çatacaq.

Prezident İlham Əliyev Cənub Qaz Dəhlizinin rəsmi açılışını etdi.

Bununla da Azərbaycan daha bir tarixi nailiyyətə imza atdı. Cənub Qaz Dəhlizinin əsas seqmentlərindən olan TANAP boru kəməri gələn ay istismara veriləcək. Qaz ixracı nəticəsində ölkəmizin gəlirləri artacaq, Azərbaycanın beynəlxalq mövqeyi daha da güclənəcək.

Sonda xatirə şəkilləri çəkdirildi.

**"Xalq qəzeti"**
*30 may 2018-ci il, № 120, s.4-5*

## PREZİDENT İLHAM ƏLİYEV XXV YUBİLEY BEYNƏLXALQ "XƏZƏR NEFT VƏ QAZ – 2018" SƏRGİSİ İLƏ TANIŞ OLUB

*29 may 2018-ci il*

Mayın 29-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakı Ekspo Mərkəzində XXV yubiley Beynəlxalq "Xəzər Neft və Qaz – 2018" sərgisi ilə tanış olublar.

Dövlətimizin başçısına və xanımına sərgi barədə məlumat verildi.

Bildirildi ki, bu il "Xəzər Neft və Qaz" sərgisinin yubileyi sərginin keçirildiyi ilk gündən bu tədbiri dəstəkləyən və onun təşəbbüskarı olan Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illik yubileyinə təsadüf edir. Birinci sərgi 1994-cü ildə, elə həmin ilin sentyabr ayında Xəzər hövzəsində karbohidrogen ehtiyatlarının genişmiqyaslı işlənilməsinin əsas istiqamətlərini müəyyən edən və ölkəmizin neft tarixində yeni səhifə açan "Əsrin müqaviləsi"nin imzalanması ərəfəsində keçirilib. O vaxtdan etibarən "Xəzər Neft və Qaz" sərgisi neft, qaz və energetika sahəsinin aparıcı mütəxəssislərinin görüşdüyü, əməkdaşlığa dair saziş və müqavilələrin imzalandığı platformaya çevrilib. Ötən dövrdə sərgilərdə dünyanın 70-dən çox ölkəsini təmsil edən təxminən 7500 şirkət iştirak edib. Hər il sərginin açılış mərasimində Prezident İlham Əliyevin iştirak etməsi bu beynəlxalq tədbirin yüksək statusunu bir daha təsdiq edir.

Builki sərgidə 38 ölkədən 312 neft-qaz şirkəti iştirak edir. Belarus, İtaliya və Rusiya tədbirdə milli qruplarla təmsil olunur.

Fransanı builki sərgidə dünyada böyük nüfuza malik "Total" şirkəti ilə təmsil edir. "Total" Azərbaycanda kəşfiyyat və hasilat işlərinə 1996-cı ildə başlayıb. 2009-cu ilin fevralında şirkət SOCAR ilə Xəzər dənizinin dərin sulu sahəsində yerləşən "Abşeron" bloku üzrə hasilat və pay bölgüsü sazişi imzalayıb. 2011-ci ildə şirkət tərəfindən qazma işləri aparılıb və kifayət qədər karbohidrogen ehtiyatları aşkarlanıb. Bu kəşf "Total"ın Azərbaycandakı fəaliyyətinin yeni mərhələsinin başlanmasına imkan verib.

Norveçin "Statoyl" şirkəti yeni strategiyaya uyğun olaraq fəaliyyətini artıq "Equinor" adı ilə davam etdirir. Bu şirkət 1992-ci ildə Azərbaycan bazarına daxil olub. Həmin

vaxtdan ölkəmiz bu şirkətin beynəlxalq inkişafında mühüm rol oynayıb. Belə ki, şirkətin Xəzərdəki nəhəng layihələrdə aparılan planlaşdırma, işlənmə və əməliyyat proseslərində rolu hər iki tərəf üçün mənfəətli olub. Azərbaycan üçün yeni neft-qaz hasilatı dövrü başlayıb, şirkət isə geniş beynəlxalq enerji arenasında etibarlı tərəfdaş kimi tanınıb.

"SOCAR Polymer" investisiya layihəsi son 40 il ərzində öz növünə və miqyasına görə Azərbaycanın neft-kimya sənayesində həyata keçirilən ilk layihədir. Şirkətin polipropilen və yüksək sıxlıqlı polietilen qurğuları Sumqayıt Kimya Sənaye Parkının ərazisində tikilir. Bu il istismara verildikdən sonra zavodlar hər il 180 min ton polipropilen və 120 min ton yüksək sıxlıqlı polietilen istehsal edəcək.

Özbəkistanın "Uzbeknefteqaz" korporasiyası mütəmadi olaraq sərgidə iştirak edir. Bu qurum 200-dən çox şirkəti, o cümlədən 20 birgə müəssisəni, 6 səhmdar cəmiyyəti və bir sıra digər təşkilatları birləşdirən müasir, çoxpilləli korporasiyadır. Holdinqin hazırkı strukturu istehsal və texnologiyanın bütün mərhələlərini əhatə edən qarşılıqlı əlaqəli və yaxşı işlənmiş layihələri səmərəli idarə etməyə imkan verir.

Sərgidə iştirak edən yerli "Baku Steel Company" MMC Qafqazın ən böyük metallurgiya zavodudur. Hazırda zavodun istehsal gücü 180 min ton olmaqla 114-245 diametrli tikişsiz, qoruyucu və ümumi təyinatlı borular istehsal edir. Şirkət Rusiya, İran, Türkiyə, Qazaxıstan, Gürcüstan, Ukrayna, Türkmənistan və digər ölkələrə öz məhsullarını ixrac edir.

SOCAR-ın stendi ilə tanışlıq zamanı dövlətimizin başçısına şirkətin layihələri barədə məlumat verildi. Bildirildi ki, SOCAR bir sıra uğurlu sosial və ekoloji proqramlar həyata keçirir. Mayın 29-da rəsmi açılış mərasimi keçirilən Cənub Qaz Dəhlizi layihəsində fəal tərəfdaşlardan olan SOCAR müasir dövrdə ölkəmizin neft strategiyasının uğurla reallaşmasına töhfə verir.

SOCAR-ın stendində Azərbaycanın neft emalı və neft kimyası müəssisələri, neft və qaz ixracı marşrutları, həmçinin sərmayələr barədə geniş məlumatlar yer alıb. Bu layihələrin başa çatması Azərbaycan iqtisadiyyatının daha da şaxələndirilməsinə mühüm töhfə olacaq, həmçinin ölkəyə əlavə valyuta həcmlərinin axınını təmin etməklə yeni iş yerlərinin yaradılmasına, respublikamızda və region ölkələrində sürətli iqtisadi inkişafa təkan verəcək.

Onu da deyək ki, SOCAR son 15 ildə ümumilikdə 126,8 milyon ton neft, 92 milyard kubmetr qaz hasil edib, 2 milyon metrdən çox qazma işi həyata keçirib. Bundan əlavə, SOCAR-ın təlim və təhsil proqramları yüksək ixtisaslı kadrların hazırlanmasında mühüm rol oynayıb.

Növbəti dəfə sərgidə iştirak edən "Türkiyə Petrolları" "Əsrin müqaviləsi"nə start veriləndən Azərbaycanda geniş fəaliyyət göstərir. Bu qurum Azərbaycanda bundan sonra

da reallaşdırılacaq layihələrdə yaxından iştirak etməyə və sərmayə yatırmağa hazırdır. Ümumilikdə, Türkiyə Azərbaycanın enerji sektorunda həyata keçirilən layihələrdə ölkəmizlə hərtərəfli və uğurlu əməkdaşlıq edir.

"BP" şirkəti də uzun illərdir ki, Azərbaycanda neft-qaz sənayesində uğurla fəaliyyət göstərir. Ötən dövrdə Azərbaycan Hökuməti ilə tərəfdaşlıq çərçivəsində "BP"nin əməliyyatçısı olduğu dünya səviyyəli layihələr – "Azəri–Çıraq–Günəşli", "Şahdəniz", "Bakı–Tbilisi–Ceyhan" və Cənub Qaz Dəhlizi layihələri uğurla icra olunub. Ötən dövrdə "Azəri–Çıraq–Günəşli" layihəsi üzrə 33 milyard dollardan çox sərmayə qoyulub. 3,3 milyard barel neft və təqribən 32 milyard kubmetrdən çox səmt qazı hasil edilib.

Xəzərin Azərbaycan sektorundakı "Şahdəniz" yatağı isə "BP"nin bu vaxtadək aşkar etdiyi ən böyük qaz yatağıdır. "Şahdəniz bravo" platforması ilə canlı bağlantı zamanı işəsalma üzrə rəis Elxan Dalqılıcov görülən işlərlə bağlı dövlətimizin başçısına məlumat verdi. Bildirildi ki, "Şahdəniz–2" layihəsinin uğurla həyata keçirilməsində bu platforma önəmli rol oynayır.

Prezident İlham Əliyev "BP"nin əməkdaşlarına uğurlar arzuladı.

İranın Təhsil, Tədqiqat və Mədəniyyət üzrə Akademik Mərkəzi də sərgidə iştirak edir. Bu mərkəz İranda yerli neft sənayesi üçün tələb olunan texnologiyaların hazırlanması sahəsində fəaliyyətə başlayan ilk təşkilatdır. Mərkəz mexaniki avadanlıqlar, qazma qurğuları, kiçik diametrli elastik nasos-kompressor boruları və digər məhsullar üzrə məsləhət verir.

Sərgidə təmsil olunan Bakı Rusiya İxrac Mərkəzinin stendi ziyarətçilər tərəfindən maraqla qarşılanır. Burada Rusiya müəssisələri haqqında ətraflı məlumatlar almaq mümkündür.

Rusiyada aparıcı müəssisə olan "REP Holding" mexaniki intiqallı qabaqcıl maşınların layihələndiricisi, istehsalçısı və dəstləşdiricisidir.

"Global Energy Azerbaijan" şirkəti də ölkəmizdə uğurla fəaliyyət göstərir. Onun tərəfindən istismar edilən 10 neft yatağı Abşeron yarımadasında, digər neft yataqları isə Azərbaycanın Aran iqtisadi rayonunda yerləşir.

"Schulumberger" şirkəti dünyada neft-qaz sənayesi üçün kollektorların xarakteristikası, eləcə də qazma, hasilat və emal üzrə texnologiyaların aparıcı təchizatçısıdır. Şirkət hasilatdan tutmuş sənayedə mövcud olan məhsul və xidmətlərin ən geniş çeşidini təchiz edir.

Məlumat verildi ki, "Halliburton" şirkəti enerji sektorunda fəaliyyət göstərən ən böyük məhsul və xidmət təchizatçılarından biridir. Şirkət karbohidrogenlərin axtarılması və geoloji məlumatların idarə edilməsi ilə yanaşı, qazma işləri və layihələrin qiymətləndirilməsi, quyuların tikilməsi və digər xidmətlərin göstərildiyi müddətdə istehsalın optimallaşdırılmasına maksimum dərəcədə töhfə verməklə dünyanın neft və qaz sektorunda önəmli rol oynayır.

BOTAŞ-EQUİNER “Belneftekhim” şirkəti xam neft hasilatı, neftayırma və daşıma, neft məhsullarının satışı ilə məşğul olan müəssisə və təşkilatlardan, kimya və neft-kimya, bir sıra elmi-tədqiqat və təkmilləşdirmə, tikinti, texniki baxış təşkilatlarından, eləcə də xarici bazarlarda geniş nümayəndəlik şəbəkəsindən ibarətdir. Şirkət 500-dən çox adda xam neft və kimyəvi məhsul istehsal edir. Şirkətin tərkibinə xam neftin kəşfiyyatı, hasilatı və daşınması, həmçinin neftayırma və neft məhsullarının satışı ilə məşğul olan müəssisələr daxildir.

Diqqətə çatdırıldı ki, “Saipem” şirkəti neft-qaz bazarında quruda və dənizdə qazma xidmətləri, həmçinin mühəndislik, təchizat, boru kəmərlərinin inşası və quraşdırılması, mürəkkəb layihələrin icrası üzrə dünya liderlərindəndir. Şirkət çətin şəraitdə uzaq sahələrdə və dərin sularda əməliyyat aparmaq uçun xüsusi imkanlara malikdir.

Sərgi təşkilatçıları Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva ilə xatirə şəkli çəkdirdilər.

Sonra dövlətimizin başçısı və xanımı sərgi və konfransın xatirə kitabını imzaladılar.

Azərbaycanın ilk beynəlxalq ixtisaslaşmış “Xəzər Neft və Qaz” sərgi və konfransının 25 illik yubileyi münasibətilə nadir poçt markaları buraxılıb. Marka növlərindən birində “Xəzər Neft və Qaz” sərgisinin yubiley loqotipi və rəmzi neft platforması təsvir edilib. Digər markada isə Xəzərin sahilində Bakını təsvir edən rəsm əsərinin reproduksiyası verilib. Bundan əlavə, birinci sərgiyə həsr olunmuş poçt zərfi və xüsusi poçt ştempeli hazırlanıb.

Prezident İlham Əliyev poçt markalarına möhür vurdu.

Sərgi təşkilatçıları adından dövlətimizin başçısına və birinci xanıma xatirə hədiyyələri təqdim olundu.

Sonra Prezident İlham Əliyev “Xəzər Neft və Qaz” sərgi-konfransının 25 illiyi münasibətilə Azərbaycanın nailiyyətlərinin təbliğində və xarici ölkələrlə əməkdaşlığının möhkəmləndirilməsində xidmətlərinə görə “ITE Group Plc” şirkətinin baş məsləhətçisi Endryu Vuda və “ITE Group Plc” şirkətinin regional direktoru Strahan Edvard Corc Dankana “Dostluq” ordenini təqdim etdi.

Dövlətimizin başçısı “Xəzər Neft və Qaz” sərgi-konfransının 25 illiyi münasibətilə və ölkəmizdə sərgilərin təşkilindəki xidmətlərinə görə “İTECA Caspian” şirkətinin icraçı direktoru Fərid Məmmədova “Tərəqqi” medalını təqdim etdi.

Sonda xatirə şəkilləri çəkdirildi.

**“Xalq qəzeti”**

*30 may 2018, № 120, s.7*

## PREZİDENT İLHAM ƏLİYEV TÜRKİYƏNİN ƏSKİŞƏHƏR ŞƏHƏRİNDƏ “BP” ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU İLƏ GÖRÜŞÜB

*12 iyun 2018-ci il*

İyunun 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyənin Əskişəhər şəhərində “BP” şirkətinin baş icraçı direktoru Robert Dadli ilə görüşüb.

Görüşdə TANAP layihəsinin açılışının əhəmiyyəti vurğulandı, BP–SOCAR əməkdaşlığının uğurla həyata keçirildiyi qeyd edildi.

Söhbət zamanı əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

**AZƏRTAC**
*12 iyun 2018-ci il*

## TÜRKİYƏNİN ƏSKİŞƏHƏR ŞƏHƏRİNDƏ TANAP LAYİHƏSİNİN AÇILIŞ MƏRASİMİ KEÇİRİLİB

*12 iyun 2018-ci il*

### Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə iştirak edib

İyunun 12-də Türkiyənin Əskişəhər şəhərində TANAP qaz kəmərinin istifadəyə verilməsi münasibətilə təntənəli mərasim keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak edib.

TANAP qaz kəmərinin istifadəyə verilməsi mərasimi bu möhtəşəm layihə haqqında videoçarxın nümayişi ilə başladı.

Qeyd edək ki, TANAP layihəsi Xəzər dənizinin Azərbaycan sektorundakı "Şahdəniz–2" yatağından və Xəzərin digər sahələrindən hasil edilən təbii qazın Türkiyəyə və Avropaya nəqlini nəzərdə tutur. Cənub Qaz Dəhlizinin əsas seqmentlərindən biri olan TANAP Gürcüstandan və Türkiyənin 20 vilayətindən keçərək Yunanıstan sərhədinə qədər uzanır. Layihə ilə bağlı Azərbaycan ilə Türkiyə arasında Anlaşma Memorandumu 2011-ci il dekabrın 24-də, Trans-Anadolu təbii qaz boru kəməri sisteminə dair Saziş isə 2012-ci il iyunun 26-da İstanbulda imzalanıb və hər iki ölkənin müvafiq qanunverici orqanları tərəfindən təsdiqlənib. TANAP layihəsi təbii qazın "Şahdəniz", eyni zamanda Azərbaycanın digər yataqlarından Avropa bazarlarına nəql edilməsi potensialına görə mühüm siyasi və iqtisadi əhəmiyyətə malikdir.

Mərasimin əvvəlində SOCAR-ın prezidenti Rövnəq Abdullayev və Türkiyənin enerji və təbii sərvətlər naziri Berat Albayrak çıxış etdilər.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev çıxış etdi.

#### PREZİDENT İLHAM ƏLİYEVİN ÇIXIŞI

– Əziz qardaşım, hörmətli Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan.

Hörmətli prezidentlər.

Xanımlar və cənablar.

İlk növbədə qardaş Türkiyə torpağında yenidən olmağımdan məmnunluğumu ifadə etmək istərdim. Biz Azərbaycanda Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğanın liderliyi ilə əldə edilmiş uğurlara çox sevinirik. Prezident Ərdoğanın yorulmaz fəaliyyəti nəticəsində Türkiyə dünya çapında böyük gücə çevrildi. Türkiyə o ölkədir ki, dünya gündəliyini müəyyən edir. Biz Azərbaycanda buna sevinirik. Türkiyənin gücü bizim gücümüzdür və bizim gücümüz birliyimizdədir. Biz uzun illərdir ki, bu birliyi nümayiş etdiririk. Bu gün dünyada bir-birinə bu qədər yaxın olan, bir-birini bu qədər dəstəkləyən ikinci ölkələr tapmaq çox çətindir. Türkiyə–Azərbaycan birliyi, qardaşlığı həm ölkələrimiz üçün, həm xalqlarımız üçün, bölgəmiz üçün, Avrasiya üçün önəmli amildir.

Bu gün TANAP-ın istismara verilməsi Türkiyə–Azərbaycan qardaşlığının növbəti təzahürüdür. TANAP Türkiyə ilə Azərbaycanın növbəti zəfəridir. TANAP tarixi layihədir. Bu gün biz XXI əsrin enerji tarixini birlikdə yazırıq. Bu tarix işbirliyi tarixidir, bu tarix sabitlik tarixidir. Enerji layihələrimiz bölgəmizə sabitlik gətirir. Bu layihələrdə iştirak edən bütün ölkələr, bütün şirkətlər fayda görür, xalqlar fayda görür. TANAP kimi nəhəng layihənin həyata keçirilməsi Türkiyə–Azərbaycan liderlərinin birgə güclü siyasi iradəsi nəticəsində mümkün olmuşdur.

Bu, birgə həyata keçirdiyimiz birinci layihə deyil. Biz bundan əvvəl – 2006-cı ildə Bakı–Tbilisi–Ceyhan neft kəmərinin açılışını qeyd etdik. 2007-ci ildə Bakı–Tbilisi–Ərzurum qaz kəmərinin açılışını birlikdə etdik. Keçən il Bakı–Tbilisi–Qars dəmir yolunun açılışını birlikdə etdik. Bütün bu açılış mərasimlərində əziz qardaşım Rəcəb Tayyib Ərdoğanla birlikdə iştirak etmişik. Bu gün bu tarixi gündə də biz birlikdəyik. Bu onu göstərir ki, bizim təşəbbüsümüzlə irəli sürülən istənilən layihə həyatda öz əksini tapır. Çünki bunun arxasında düşünülmüş siyasət, güclü iradə və bizim qardaşlığımız dayanır.

Azərbaycan qazının Avropa qitəsinə böyük həcmdə ötürülməsi haqqında son illər ərzində bir çox müzakirələr aparılmış və bir çox tədbirlər keçirilmişdir. Ancaq əfsuslar olsun ki, onların heç bir nəticəsi olmamışdır. Belə olan halda Türkiyə və Azərbaycan qərara gəldilər ki, biz özümüz yeni bir layihəni irəli sürək və bunun adını da biz birlikdə qoyduq – TANAP. TANAP üzrə anlaşmanı 2012-ci ildə İstanbul şəhərində Rəcəb Tayyib Ərdoğan və mən imzaladıq. O gün həmin imzalanma mərasimində biz bugünkü günü görmək arzumuzu ifadə etdik və Allah bizə bunu nəsib etdi. Biz bu illər ərzində böyük işlər gördük. TANAP layihəsinin icrası həm texniki, həm maliyyə cəhətdən çox mürəkkəb bir işdir. Ancaq bunu biz çox böyük müvəffəqiyyətlə icra etdik. Bu gün TANAP-ın istismara verilməsi qonşu və dost ölkələr üçün gözəl imkanlar yaradır. TANAP yeddi ölkəni, bir çox şirkətləri birləşdirir. Cənub Qaz Dəhlizinin ayrılmaz hissəsi olan TANAP bu gün və gələcəkdə enerji təhlükəsizliyi məsələlərinin həlli üçün əvəzolunmaz infrastruktur

layihəsidir. Cənub Qaz Dəhlizinin rəsmi açılış mərasimi iki həftə bundan öncə – mayın 29-da Bakıda təşkil edilmişdir. Cənub Qaz Dəhlizi dörd böyük layihədən ibarətdir. “Şahdəniz–2” qaz yatağının işlənilməsi – o yatağın ehtiyatları 1,2 trilyon kubmetrdir – Cənubi Qafqaz Kəməri, TANAP və TAP layihəsi. Bu dörd layihənin üçü artıq reallaşıb, başa çatıb. TAP da 72 faiz icra olunub. Əminəm ki, yaxın iki il ərzində TAP layihəsi də tamamlanacaq və beləliklə, Avropanın 40 milyard dollar sərmayə tələb edən ən böyük infrastruktur layihəsi olan Cənub Qaz Dəhlizi icra edilmiş olacaqdır. Bu tarixi nailiyyət bizə imkan verəcək ki, Azərbaycanın zəngin qaz ehtiyatları Türkiyə və Avropa bazarlarına qısa və təhlükəsiz yolla, şaxələndirilmiş formada çatdırılsın.

Cənub Qaz Dəhlizi enerji təhlükəsizliyi layihəsidir. Enerji təhlükəsizliyi isə hər bir ölkənin milli təhlükəsizliyi məsələsidir. Cənub Qaz Dəhlizinin önəmi məhz bundadır – enerji təhlükəsizliyi və enerji resurslarının şaxələndirilməsi. Cənub Qaz Dəhlizi vasitəsilə Azərbaycan qazı yeni yollarla Türkiyəyə və Avropa bazarlarına çıxarılacaqdır. Cənub Qaz Dəhlizi həm yeni yollar, həm də yeni mənbə layihəsidir. Bu, sözün əsl mənasında, enerji şaxələndirilməsi məsələsinə xidmət göstərir.

Bu böyük işlərin icrasında SOCAR, BOTAŞ və “BP” şirkətləri iştirak ediblər, onlar TANAP-ın səhmdarlarıdır. Mən onlara öz təşəkkürümü bildirmək istəyirəm. Bu işlərdə iştirak etmiş bütün şirkətlərə təşəkkürümü bildirmək istəyirəm ki, onlar bu böyük işi yüksək keyfiyyətlə və qısa müddət ərzində görə bildilər. Cənub Qaz Dəhlizi Avrasiyada yeni əməkdaşlıq, işbirliyi formatını təşkil edir. Əgər işimizin əvvəlində – 2000-ci illərin əvvəllərində Azərbaycan–Gürcüstan–Türkiyə üçtərəfli əməkdaşlıq formatı yaranmışdırsa, bu gün qeyd etdiyim kimi, yeddi ölkə bu layihədə iştirak edir. Daha üç ölkə bizim gələcək tərəfdaşlarımız kimi bu layihədə iştirak edəcək. Biz çalışmalıyıq ki, Azərbaycan qazının Avropa qitəsinə çatdırılması istiqamətində daha böyük işlər görək və bizim əhatə dairəmiz daha geniş olsun.

Bir daha demək istəyirəm ki, bu gün tarixi bir gündür. Bu günün mümkünlüyü ancaq və ancaq güclü siyasi iradə nəticəsində olmuşdur. Türkiyə–Azərbaycan birliyi, qardaşlığı olmasaydı, bu layihə kağız üzərində qala bilərdi. Əlbəttə, bir daha demək istəyirəm, Türkiyənin xarici sərmayə üçün çox gözəl ölkə kimi özünü təqdim etməsi imkan verdi ki, Türkiyəyə böyük yatırımlar qoyulsun. Son illər ərzində təkcə Azərbaycan tərəfindən Türkiyə iqtisadiyyatına 13 milyard dollardan çox sərmayə qoyulubdur, növbəti illərdə bu rəqəm 20 milyard dollara çatacaqdır.

Bu gözəl hadisə münasibətilə sizi, xalqlarımızı, bizim bütün dostlarımızı ürəkdən təbrik etmək istəyirəm, TANAP-a yaxşı yol arzulayıram. Sağ olun.

* * *

Daha sonra Şimali Kipr xalqının lideri Mustafa Akıncı, Serbiya Prezidenti Aleksandr Vuçic, Ukrayna Prezidenti Petro Poroşenko və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan çıxış etdilər.

Sonra TANAP kəmərinə qazın verilməsi mərasimi oldu.

Xatırladaq ki, uzunluğu 1805 kilometr olan TANAP boru kəmərinin diametri 56 və 48 düym, Mərmərə dənizi boyunca isə 36 düym təşkil edir. Kəmərin dəniz səviyyəsindən maksimal hündürlüyü 2700 metr yüksəklikdə yerləşir. Kəmərdən Türkiyə qazpaylama sisteminə iki qol ayrılıb və onun maksimum illik ötürücülük qabiliyyəti 31 milyard kubmetrdir. Layihənin ilkin mərhələsində illik ötürücülük qabiliyyəti 16 milyard kubmetr qaz təşkil edəcək.

Sonda birgə foto çəkdirildi.

**AZƏRTAC**

*12 iyun 2018-ci il*

## SUMQAYIT KİMYA SƏNAYE PARKINDA "SOCAR POLYMER" LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ İNŞA EDİLƏN POLİPROPİLEN ZAVODUNUN AÇILIŞI OLUB

*18 iyul 2018-ci il*

### Azərbaycan Prezidenti İlham Əliyev və İtaliya Prezidenti Sercio Mattarella açılışda iştirak ediblər

İyulun 18-də Sumqayıt Kimya Sənaye Parkının ərazisində "SOCAR Polymer" layihəsi çərçivəsində inşa edilən polipropilen zavodunun açılışı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və ölkəmizdə rəsmi səfərdə olan İtaliya Respublikasının Prezidenti Sercio Mattarella açılış mərasimində iştirak ediblər.

President İlham Əliyev və Prezident Sercio Mattarella tədbirdə çıxış etdilər.

**PREZİDENT İLHAM ƏLİYEVİN ÇIXIŞI**

– Hörmətli İtaliya Prezidenti cənab Sercio Mattarella.

Hörmətli qonaqlar.

Xanımlar və cənablar.

Bu gün ölkəmizin həyatında çox əlamətdar bir gündür. Bu gün Sumqayıtda yeni böyük sənaye müəssisəsinin açılışına toplaşmışıq. Bu münasibətlə sizi və bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm.

Bu mərasimdə bizimlə bərabər İtaliya Prezidenti cənab Sercio Mattarella iştirak edir. Buna görə, cənab Prezident, Sizə minnətdaram. İtaliya Prezidentinin bu mərasimdə iştirakı müəssisənin əhəmiyyətini daha da artırır. Eyni zamanda bu müəssisənin yaradılması İtaliya–Azərbaycan dostluğunun təzahürüdür. Çünki bu böyük sənaye müəssisəsi beynəlxalq əməkdaşlıq nəticəsində yaranmışdır. İtaliya şirkəti "Maire Tecnimont" bütün inşaat işlərini yüksək səviyyədə aparmış və gözəl bir əsər yaratmışdır.

Polipropilen zavodunun istifadəyə verilməsi və ilin sonunda polietilen zavodunun istifadəyə verilməsi nəticəsində Azərbaycanın ixrac potensialı böyük dərəcədə artacaq. Hər iki zavodda hər il 300 min ton məhsul istehsal olunacaq və məhsulun 70 faizi xarici bazarlara ixrac ediləcək. Beləliklə, Azərbaycan idxaldan asılılığı tamamilə aradan götürəcək və ölkəmizin böyük həcmdə qeyri-neft ixracı yaradılacaqdır.

Bizim iqtisadi sahədə və sənaye istehsalı sahəsində məqsədimiz məhz bundan ibarətdir. Biz bu zavodun timsalında Azərbaycanda son illər ərzində aparılan uğurlu iqtisadi və sənaye siyasətini görürük. Ən yüksək texnologiyalara malik olan zavod bu gün fəaliyyət göstərir. Zavodda yüzlərlə iş yeri yaradılır, daha dəqiq desəm, 500-dən çox yeni iş yeri yaradılacaqdır. İdxaldan asılılıq tamamilə aradan götürülür, gözəl ixrac imkanlarımız yaradılır. Kadr hazırlığı çox yüksək səviyyədə öz həllini tapmışdır. Azərbaycanın qeyri-neft sektorunun inkişafına zavodun çox böyük dəstəyi olacaqdır. Əminəm ki, zavodun fəaliyyəti nəticəsində minlərlə, bəlkə də, on minlərlə yeni iş yeri yaradılacaq. Çünki bu zavodda buraxılan xammaldan hazır məhsul istehsal olunacaq və Azərbaycan o məhsulun da idxalından asılılığı aradan götürəcək. Yəni bu böyük sənaye müəssisəsinin timsalında biz siyasətimizi, aparılan işlərin nəticələrini görürük.

2015-ci ildə – mən o günü yaxşı xatırlayıram – zavodun təməli qoyulub və qısa müddət ərzində nəhəng sənaye müəssisəsi yaradılıb. Deyə bilərəm ki, Azərbaycanın müasir tarixində bu ölçüdə və bu səviyyədə sənaye müəssisəsi tikilməmişdir. Düzdür, bizim neft-qaz sektorunda böyük inşaat işlərimiz həyata keçirilmişdir – böyük platformalar, qazma qurğuları, ancaq qeyri-neft sektorunda bu ən böyük sənaye müəssisəsidir və ən son texnologiyalara malik olan müəssisədir.

Mən fürsətdən istifadə edərək italiyalı tərəfdaşlarımıza bir daha öz təşəkkürümü bildirmək istəyirəm. Əminəm ki, onlar bundan sonra da Azərbaycanda uğurla fəaliyyət göstərəcəklər və belə böyük sənaye müəssisələrinin yaradılması gələcəkdə də aparılacaq, çünki buna böyük ehtiyac var.

Azərbaycan öz sənaye potensialını müasirləşdirir, gücləndirir. Azərbaycanda sənayeləşmə siyasəti çox uğurla gedir. Bu ilin altı ayında qeyri-neft sənayemiz 8,8 faiz artmışdır. Bu, görülən işlərin nəticəsidir. Bu zavodun və ilin sonunda polietilen zavodunun istifadəyə verilməsindən sonra bizim sənaye potensialımız daha da artacaqdır.

Azərbaycanda çox gözəl sərmayə iqlimi vardır. Son 15 il ərzində Azərbaycana 250 milyard dollara yaxın sərmayə qoyulub və biz bu zavodun timsalında bunu görürük. Xarici banklar öz maliyyə dəstəyini göstərmişdir. Bu zavodun fəaliyyətində ən müasir xarici texnologiyalar tətbiq olunacaq. Bu zavodun tikintisini məşhur İtaliya şirkəti təmin edib.

Bu gün Prezident Sercio Mattarellanın Azərbaycana rəsmi səfəri başlamışdır. Bu, tarixi səfərdir, çünki ilk dəfədir ki, İtaliya Prezidenti Azərbaycana səfər edir. Səfər zamanı

apardığımız danışıqlar və fikir mübadiləsi İtaliya–Azərbaycan əlaqələrinin nə qədər yüksək səviyyədə olmasını əyani şəkildə sübut edir. Biz, sözün əsl mənasında, strateji tərəfdaşıq. Biz dostuq. Bizi birləşdirən bir çox layihələr, ortaq maraqlar var. Bu gün bütün bu məsələlər müzakirə olundu. Sabah biz cənab Prezident Sercio Mattarella ilə birlikdə İtaliya və Azərbaycan iş adamları ilə görüşəcəyik, onlara da öz sözümüzü deyəcəyik. Əlbəttə, onlar da bütün bu hadisələri izləyir və görürlər ki, siyasi əlaqələr yüksək səviyyədədir. Beləliklə, biznes dairələri üçün çox gözəl imkanlar açılır. Əminəm ki, həm İtaliya, həm Azərbaycan şirkətləri bu imkanlardan istifadə edib bizim ticarət dövriyyəsinin şaxələndirilməsi istiqamətində önəmli addımlar atacaq.

Bu gün mən artıq rəsmi danışıqlar zamanı qeyd etdim ki, İtaliya bizim üçün bir nömrəli ticarət tərəfdaşıdır. Bu, əlbəttə ki, çox müsbət haldır. Amma biz istəyirik ki, bizim ticarət əlaqələrimiz çoxşaxəli olsun, bir çox sahələri əhatə etsin və buna nail olacağıq.

Bizim gələcək sənaye inkişafımızla bağlı planlarımız, əminəm ki, həyata keçiriləcək. Bir çox yeni, ən yüksək texnologiyalara cavab verən sənaye müəssisələri yaradılacaqdır. Ona görə İtaliya şirkətlərinin Azərbaycanda fəaliyyəti üçün gələcəkdə də geniş meydan, geniş imkanlar olacaqdır.

Mən İtaliya Prezidenti cənab Sercio Mattarellanı bir daha salamlayıram. Qeyd etməliyəm ki, bu müəssisə Sumqayıt şəhərində yaradılır. Sumqayıt şəhərinə ilk dəfədir ki, aparıcı Avropa dövlətinin Prezidenti gəlir. Bu, Sumqayıtın tarixi üçün də çox əhəmiyyətli məsələdir. Sumqayıt indi müasir sənaye şəhəridir. Cənubi Qafqazda Bakıdan sonra ikinci sənaye şəhəridir. Sumqayıt sovet vaxtında kimya sənayesi şəhəri kimi yaradılmışdır. Sumqayıtın çox ciddi ekoloji problemləri var idi. Mən cənab Prezidentə bu barədə məlumat verdim. Ekoloji vəziyyət, havanın çirklənməsi insanları çox narahat edirdi. Bütün bunlara son qoyuldu. Bu gün müasir müstəqil Azərbaycanda ən yüksək ekoloji standartlar təmin edilir və Sumqayıt indi ekoloji inkişaf baxımından ölkəmizin ən qabaqcıl yerlərində qərarlaşıb. Bu zavodun sumqayıtlılar üçün də böyük əhəmiyyəti olacaq. Sumqayıtda yaradılacaq böyük sənaye klasterində minlərlə, on minlərlə insan işləyəcək və beləliklə, şəhərin inkişafı da uğurla gedəcək.

İtaliya Prezidentinin bu zavodun açılışında iştirakı bizi fərəhləndirir. Bu, doğrudan da, gözəl hadisədir. Bu, əsl dostluq rəmzidir. Mən İtaliya Prezidentini və onunla bərabər mərasimdə iştirak etmək üçün gəlmiş bütün qonaqları salamlayıram. Zavoda uğurlar arzulayıram. Sağ olun.

**AZƏRTAC**
*18 iyul 2018-ci il*

## "ÜMİD–BABƏK" TƏBİİ QAZ YATAQLARININ İŞLƏNİLMƏSİNDƏ "TOTAL"IN İŞTİRAK İMKANLARI MÜZAKİRƏ OLUNUB

*19 iyul 2018-ci il*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 19-da Parisdə "Total" şirkətinin sədri və baş icraçı direktoru Patrik Puyane ilə görüşüb.

Görüşdə "Abşeron" qaz-kondensat yatağının işlənilməsi və inkişafı ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

Xəzərin Azərbaycan sektorundakı "Ümid–Babək" təbii qaz yataqlarının işlənilməsində "Total" şirkətinin iştirak etməsi imkanları müzakirə olundu.

**AZƏRTAC**
*19 iyul 2018-ci il*

## PREZİDENT İLHAM ƏLİYEV "TOTAL" ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORUNU QƏBUL EDİB

*14 sentyabr 2018-ci il*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 14-də "Total" şirkətinin baş icraçı direktoru Patrik Puyaneni qəbul edib.

Görüş zamanı "Total" şirkəti ilə SOCAR arasında neft-qaz sahəsində əməkdaşlığın perspektivləri, "Abşeron" yatağının birgə işlənilməsi çərçivəsində hazırkı işlərin gedişi, neft-qaz strukturunda digər yataqların birgə işlənilməsi imkanları ilə bağlı məsələlər müzakirə edildi.

**AZƏRTAC**
*14 sentyabr 2018-ci il*

## TÜRKİYƏNİN İZMİR ŞƏHƏRİNDƏ "STAR" NEFT EMALI ZAVODUNUN AÇILIŞ MƏRASİMİ OLUB

*19 oktyabr 2018-ci il*

### Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan mərasimdə iştirak ediblər

Oktyabrın 19-da Türkiyənin İzmir şəhərində "Star" neft emalı zavodunun açılış mərasimi keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan mərasimdə iştirak ediblər.

Azərbaycan Prezidenti İlham Əliyevi Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan qarşıladı.

Prezidentlər terrasdan "Star" neft emalı zavodunun ərazisini seyr etdilər.

Dövlət başçıları idarəetmə ofisi ilə tanış oldular.

Prezidentlərə "Star" neft emalı zavodunda görülən işlər barədə məlumat verildi.

Bildirildi ki, "Star" zavodunun ümumi neft emalı gücü 10 milyon ton təşkil edəcək və müəssisənin əsas xammal tədarükçüsü kimi Azərbaycan Respublikası Dövlət Neft Şirkəti – SOCAR çıxış edir. SOCAR-ın 6,3 milyard dollar kapitalla Türkiyənin İzmir şəhərinin Əliağa rayonunda, "Petkim" neft-kimya kompleksinin ərazisində inşa etdiyi bu zavodda avqustdan etibarən sınaq məqsədilə xam neft emalına başlanılıb. Zavoda ilk neft yükü məhz Azərbaycandan olmaqla 80 min ton "Azeri Light" markalı neft çatdırılıb. Zavod 5 milyon ton dizel yanacağı istehsal etmək imkanına malikdir və Türkiyənin idxalının 40 faizə düşməsinə səbəb olacaq. Həmçinin mayeləşdirilmiş qazın idxal səviyyəsi də 70 faizə enəcək. "Star" neftin qiymətindən asılı olaraq hər il 6-8 milyard dollarlıq ticarət həcmi formalaşdıracaq. Layihənin həyata keçirilmə müddətində burada 19 min 500 işçi çalışıb. Zavod istehsala başladığı zaman 1100 nəfər yeni iş yeri ilə təmin olunacaq.

"Star" neft emalı zavodunda hər il 10 milyon ton xam neft emal ediləcək. Zavodda ildə 1,6 milyon ton nafta, 1,6 milyon ton təyyarə yanacağı, 4,8 milyon ton az kükürdlü

dizel yanacağı, 700 min ton neft koksu, 420 min ton qarışıq ksilen və 160 min ton kükürd istehsal olunacaq. Zavod "Petkim" neft-kimya kompleksinin nafta və qarışıq ksilenə olan tələbatını tam ödəyəcək.

Onu da deyək ki, SOCAR 19,5 milyard dollarlıq investisiya paketi ilə Türkiyə tarixində ən böyük xarici sərmayəçidir. Bundan əlavə, "Star" neft emalı zavodu Türkiyədə özəl sektorun bir nöqtəyə qoyduğu ən böyük investisiya layihəsidir. Bu müəssisə Türkiyədə iqtisadiyyatın və sənayenin inkişafına töhfə verməklə strateji məhsulların istehsalında əhəmiyyətli rola malikdir. Belə ki, o, Türkiyənin idxaldan asılılığını azaltmaqla ölkə iqtisadiyyatına 1,5 milyard dollar əlavə gəlir qazandıracaq.

Xatırladaq ki, "Star" neft emalı zavodunun təməli 2011-ci il oktyabrın 25-də Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən qoyulub.

"Star" neft emalı zavodunun açılış mərasiminin aparıcısı 6,3 milyard dollar dəyərində olan və bu gün reallaşan 4 nəhəng layihənin əhəmiyyəti haqqında ətraflı məlumat verdi.

Sonra layihənin əhəmiyyəti haqqında videoçarx nümayiş olundu.

SOCAR-ın prezidenti **Rövnəq Abdullayev** mərasimdə iştirak edən Azərbaycan və Türkiyə prezidentləri İlham Əliyevə və Rəcəb Tayyib Ərdoğana layihənin həyata keçirilməsinə verdikləri dəstəyə görə təşəkkürünü bildirdi. Ulu öndər Heydər Əliyevin "**Azərbaycan–Türkiyə** dostluğu əbədi və sarsılmazdır" sözlərini xatırladan Rövnəq Abdullayev diqqətə çatdırdı ki, müxtəlif layihələrə yatırılan sərmayələr nəticəsində SOCAR Türkiyənin ən böyük investoruna çevrilib.

"Star" neft emalı zavodu haqqında və burada istehsal ediləcək məhsullar barədə danışan SOCAR-ın prezidenti yaxın gələcəkdə Petkimdə yeni əhəmiyyətli layihənin reallaşdırılmasına başlanılacağını qeyd edərək dedi:

– Bu gün açılışına toplaşdığımız layihələrin memarları olan və iştirakları ilə bizi şərəfləndirən prezidentlərimiz cənab İlham Əliyevə və cənab Rəcəb Tayyib Ərdoğana sonsuz minnətdarlığımı bildirirəm. Zati-alilərinin dəstəyi, himayəsi olmasaydı, bu layihəni daim diqqət mərkəzində saxlamasaydılar, dəyərli tövsiyələrlə bizə doğru yol göstərməsəydilər bu uğur qazanılmazdı.

Türkiyənin energetika və təbii sərvətlər naziri **Fatih Dönməz** Türkiyə–Azərbaycan dostluğunun və işbirliyinin rəmzi olan bu hadisənin önəmindən danışaraq iki ölkə arasında qardaşlığın möhkəm bağlara əsaslandığını vurğuladı. Azərbaycan və Türkiyə prezidentlərinin dəstəyi ilə ölkələrimizin enerji sahəsində əhəmiyyətinin daha da artdığını deyən energetika və təbii sərvətlər naziri "Star" neft emalı zavodunun verəcəyi faydanı qeyd etdi. Bu zavodun Avropa, Yaxın Şərq və Afrika bölgələrində ən böyük müəssisələrdən biri olduğunu deyən Fatih Dönməz həyata keçirilən layihələrin Azərbaycanın və Türkiyənin bölgədəki gücünü daha da artıracağını vurğulayaraq dedi:

– Böyük və güclü Türkiyə hədəfimizə gedən yolda Azərbaycanı yanımızda görmək bizi son dərəcə məmnun edir. Biz eyni köklər üzərində böyüyən ulu bir çinarın budaqlarıyıq. Həmin çinarın kölgəsi həyata keçirdiyimiz layihələrlə bu gün Qafqazdan Avropayadək bir çox ölkəyə qədər uzandı.

"Türkiyə və Azərbaycan birlikdə XXI əsrin enerji tarixini yazır", – deyən Fatih Dönməz Azərbaycanın müstəqilliyinin 27-ci ildönümü münasibətilə təbriklərini də çatdırdı.

Türkiyənin xəzinə və maliyyə naziri **Berat Albayrak** TANAP layihəsinin açılışından 4 ay sonra dünyaya örnək olacaq daha bir önəmli layihənin açılışına toplaşdıqlarını qeyd edərək Türkiyə və Azərbaycan arasındakı dostluğu və birliyi dünya üçün nümunə adlandıraraq dedi:

– Bu gün burada yaranan mənzərə dünyanın içində olduğu bədbinliyə, qeyri-müəyyənliyə ən gözəl həll formasını təqdim edir. Dünya Türkiyə ilə Azərbaycan arasındakı dostluğu, birliyi örnək götürməlidir. Qarşılıqlı uzaqgörənliklə ortaq hədəflərə doğru həmrəyliklə hərəkət etdikdə regional və qlobal sabitliyə, əmin-amanlığa necə böyük töhfə verməyin mümkün olduğu bu mənzərə sayəsində çox aydın görünür. Bu gün bu mənzərə dünyaya ölkələrin öz maraqlarını, iqtisadi sabitliklərini təmin etmələrinin yolunun himayəçilikdən və onu artırmaqdan, ticarət müharibələri aparmaqdan yox, həmrəylikdən, rəqabətlilik mühitindən, güclü əməkdaşlıqdan keçdiyini çox aydın şəkildə ortaya qoyur.

Türkiyə Böyük Millət Məclisinin sədri **Binəli Yıldırım** iki ölkənin ağıl, iradə və güc birliyi ilə reallaşan layihənin icrası münasibətilə təbriklərini çatdırdı, Türkiyə–Azərbaycan işbirliyinin əbədi olacağını vurğulayaraq dedi:

– Türkiyə–Azərbaycan münasibətlərini əbədiyyətə daşıyacaq bu və bu qəbildən ortaq layihələrimizlə qürur duyuruq. Bakı–Tbilisi–Qars, Bakı–Tbilisi–Ceyhan, TANAP, "Star" neft emalı zavodu və buna bənzər böyük olduğu qədər də strateji əhəmiyyət daşıyan bu layihələr təkcə **Azərbaycan–Türkiyə** qardaşlığını inkişaf etdirmir, eyni zamanda bütün Qafqazın, Orta Asiyanın və hətta Avropanın enerji təhlükəsizliyinə də böyük töhfə verir. Ölkələrimizin iqtisadiyyatına böyük fayda verəcək neft emalı zavodunun İzmirimizə, Türkiyəmizə xeyirli-uğurlu olmasını diləyirəm.

Türkiyə–Azərbaycan dostluğunun və qardaşlığının ən önəmli tərəfini, həmçinin qarşılıqlı yatırımların, dünya səviyyəli enerji və nəqliyyat sahələrində əməkdaşlığın təşkil etdiyini deyən Türkiyə Böyük Millət Məclisinin sədri Ulu öndər Heydər Əliyevin, Türkiyənin və Azərbaycanın dövlət başçıları Rəcəb Tayyib Ərdoğanın və İlham Əliyevin imzaladığı sənədlərlə iki ölkə arasında münasibətlərin daha da möhkəmləndiyini vurğuladı.

Ölkələrimiz arasında 1991-ci ildən etibarən 200-dən çox müqavilə, protokol və digər sənədlər imzalandığını diqqətə çatdıran Binəli Yıldırım dedi:

– Mərhum Prezident Heydər Əliyevin, hörmətli Prezident İlham Əliyevin təşəbbüsü və dəstəyi ilə imzalanan bu müqavilələr əlaqələrimizi "Bir millət, iki dövlət" anlayışına bir addım da yaxınlaşdırıb. Bölgəmiz və dünya iqtisadiyyatı üçün də böyük əhəmiyyət kəsb edən bu əsərlər məhz iki ölkənin bu anlayışının nəticəsidir.

Açılış mərasiminin dəyərli bir ildönümü ilə üst-üstə düşdüyünü, Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illik yubileyinə təsadüf etdiyini deyən Binəli Yıldırım bu münasibətlə bir daha təbriklərini çatdırdı.

Mərasimdə Azərbaycanın və Türkiyənin imza atdığı mühüm layihələr barədə video-çarx nümayiş etdirildi.

Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə çıxış etdi.

**PREZİDENT İLHAM ƏLİYEVİN ÇIXIŞI**

– Hörmətli Türkiyə Cümhuriyyətinin Prezidenti, əziz qardaşım Rəcəb Tayyib Ərdoğan.

Əziz dostlar.

Bu gün Türkiyə–Azərbaycan qardaşlıq əlaqələrinin tarixində çox gözəl və əlamətdar bir gündür. Biz "Star Rafineri"nin açılışına toplaşmışıq. Xatırlayıram ki, 7 il bundan əvvəl əziz qardaşım Rəcəb Tayyib Ərdoğanla burada, Əliağada "Star"ın təməlini qoyduq və bu gün bu nəhəng layihənin açılışını bərabər edirik. Bu bir daha onu göstərir ki, biz qarşımıza qoyduğumuz bütün hədəflərə uğurla çatırıq. Bir daha onu göstərir ki, belə nəhəng layihələrin icrası üçün Türkiyə və Azərbaycan liderlərində güclü siyasi iradə var. Bu layihənin həyata keçməsinin əsas səbəbi Türkiyə–Azərbaycan dostluğu, qardaşlığıdır.

Mən yenidən qardaş Türkiyə torpağında olmağımdan çox məmnunam. Deməliyəm ki, bu il bu səfər mənim Türkiyəyə üçüncü səfərimdir. Əziz qardaşım Rəcəb Tayyib Ərdoğan bu il Azərbaycana iki dəfə səfər etmişdir. Bu səfərlərin sayı özlüyündə bir göstəricidir və onu göstərir ki, bu gün Türkiyə–Azərbaycan əlaqələri ən yüksək səviyyədədir. Bu da təbiidir, çünki əsrlər boyu biz birlikdə yaşamışıq, bir yerdə olmuşuq. Tarixin bəzi məqamları bizi bir-birimizdən ayırıb, amma bu, müvəqqəti xarakter daşıyırdı. Biz yüz il bundan əvvəl birlikdə idik, ondan əvvəlki dövrdə də birlikdə idik, bu gün də bir yerdəyik.

Mən qeyd etməliyəm ki, bu il Azərbaycan Xalq Cümhuriyyətinin 100-cü ildönümü münasibətilə əziz qardaşım Rəcəb Tayyib Ərdoğanla Bakıda ötən ay keçirilmiş möhtəşəm hərbi paradda iştirak etdik. Bu hərbi paradda Türkiyə və Azərbaycan əsgərləri çiyin-çiyinə Bakının ən böyük meydanı olan Azadlıq meydanından şərəflə keçmişlər. 1918-ci ilin 15 sentyabrı tarixi bir gündür. Məhz o gündə Bakı şəhəri Nuru paşanın komandanlığı altında Qafqaz İslam Ordusu və yeni yaradılmış Azərbaycan Milli Ordusu tərəfindən işğaldan azad edilmişdir.

Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması tarixi hadisə idi. Çünki ilk dəfə olaraq müsəlman aləmində Cümhuriyyət yaranmışdır. Ancaq Bakı, bizim qədim tarixi şəhərimiz işğal altında idi. Yeni yaradılmış hökumət Gəncə şəhərində fəaliyyət göstərirdi. Nuru paşanın komandanlığı altında Qafqaz İslam Ordusunun Gəncədən Bakıya möhtəşəm yürüşü və hərbi zəfəri nəticəsində Bakı işğalçılardan azad edildi və öz sahibinə, Azərbaycan xalqına qaytarıldı. O gündən bir neçə gün sonra Bakı Azərbaycan Xalq Cümhuriyyətinin paytaxtı elan edilmişdir. Bu, unudulmaz tarixdir və yüz il o tarixdən sonra Türkiyə və Azərbaycan prezidentlərinin iştirakı ilə Bakıda təşkil edilmiş möhtəşəm mərasim bizim birliyimizi bir daha göstərdi. Göstərdi ki, bizim birliyimiz sarsılmazdır, bizim birliyimiz əbədidir, yüz il bundan əvvəl biz bir yerdə idik, bu gün də bir yerdəyik.

Onu da qeyd etməliyəm ki, dünən biz Azərbaycanda müstəqilliyimizin bərpasının 27-ci ildönümünü qeyd etdik. Azərbaycanın müstəqilliyini ilk tanıyan ölkə Türkiyə olmuşdur. Bu tarix çox şərəfli tarixdir. O gündən bu günə qədər biz daim bir yerdəyik. Siyasi əlaqələrimiz ən yüksək zirvəyə qalxmışdır. İqtisadi sahədə çox böyük işlər görmüşük. Həm Türkiyə, həm Azərbaycan iqtisadi baxımdan sürətlə inkişaf edən ölkələrdir. Fürsətdən istifadə edərək, qardaş türk xalqını əziz qardaşım Rəcəb Tayyib Ərdoğanın liderliyi ilə əldə edilmiş bütün uğurlar münasibətilə ürəkdən təbrik etmək istəyirəm. Türkiyə Prezident Ərdoğanın liderliyi sayəsində dünya miqyasında böyük gücə çevrildi. Türkiyə dünya miqyasında söz sahibidir. Bölgədə və dünyada Türkiyə ilə hesablaşırlar, Türkiyənin mövqeyi bir çox hallarda həlledici rol oynayır. Bu bizi çox sevindirir. Çünki Türkiyənin gücü bizim gücümüzdür. Türkiyə nə qədər güclü olarsa, biz də bir o qədər güclü olacağıq. Bizim gücümüz birliyimizdədir. Bu gün Azərbaycan və Türkiyə dünya miqyasında qardaşlıq, həmrəylik nümunəsi göstərirlər. Mən dünyada ikinci ölkələr tanımıram ki, Türkiyə və Azərbaycan qədər bir-birinə bağlı olsunlar. Bu bizim böyük sərvətimizdir. Məhz bu dostluq, qardaşlıq duyğuları əsasında biz nəhəng layihələri gerçəkləşdiririk.

"Star Rafineri"nin yaradılması üçün Azərbaycan 6,3 milyard dollar yatırım edib. Növbəti mərhələdə əlavə 700 milyon dollar yatırım ediləcəkdir. Bu bizim xaricə qoyduğumuz ən böyük yatırımımızdır və bu, təbiidir. Eyni zamanda biz digər önəmli layihələri birlikdə həyata keçirdik. Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum, TANAP neft-qaz kəmərlərinin, Cənub Qaz Dəhlizinin, Bakı–Tbilisi–Qars dəmir yolunun yaradılması – bunların hər biri özlüyündə nəhəng bir layihədir və nəinki ölkələrimiz, xalqlarımız üçün, bölgə, dünya, Avrasiya üçün çox böyük önəm daşıyır. Türkiyə və Azərbaycan birgə səylərlə güclü siyasi iradə nümayiş etdirərək Avrasiyanın enerji və nəqliyyat xəritəsini yenidən cızır. Bunu biz edirik və bu yeni xəritələrin altında bizim imzamız var. Bütün bunları biz birgə səylərlə etdik. Bütün bu layihələr böyük maliyyə yatırımı tələb edən

layihələrdir. Burada artıq qeyd edildi ki, biz qardaş ölkələrin iqtisadiyyatına böyük sərmayə yatırmışıq. Təkcə Əliağaya qoyulan sərmayə 10 milyard dollara yaxındır və gələcəkdə bu rəqəm daha da artacaq.

Bir sözlə, bu gün "Star Rafineri"nin açılışı timsalında biz birliyimizin, həmrəyliyimizin, dostluğumuzun əlamətini görürük. Əminəm ki, bundan sonra da Türkiyə və Azərbaycan yalnız uğurlar yolu ilə gedəcək.

Mən bu fürsətdən istifadə edərək qardaş Türkiyə xalqına daim tərəqqi və rifah arzulayıram. Sağ olun.

***

Dövlət başçıları zavodun açılışını etdilər.

Sonra birgə foto çəkdirildi.

Daha sonra prezidentlər "Əliağa–SOCAR"ın baş ofisinin binası ilə tanış oldular.

Prezident İlham Əliyevə və Prezident Rəcəb Tayyib Ərdoğana burada yaradılan şərait barədə məlumat verildi. Ofis binası ən müasir avadanlıqla təchiz olunub. Burada İKT-nin ən son yenilikləri tətbiq edilib.

Ofis binasında xatirə şəkli çəkdirildi.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan baş ofisin muzeyi ilə tanış oldular.

Burada "Star" neft emalı zavodunun tikintisi və bu çərçivədə görülən işlər, müəssisənin Azərbaycan və Türkiyə iqtisadiyyatına töhfələri barədə geniş məlumat verilir. Bundan əlavə, SOCAR-ın fəaliyyəti və bu şirkətin Türkiyədə icra etdiyi layihələrdən ətraflı bəhs olunur.

**AZƏRTAC**

*19 oktyabr 2019-cu il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İLƏ "BP" QRUPUNUN BAŞ İCRAÇI DİREKTORUNUN GÖRÜŞÜ OLUB

*22 yanvar 2019-cu il*

Yanvarın 22-də Davosda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "BP" qrupunun baş icraçı direktoru Robert Dadli ilə görüşü olub.

Görüşdə Azərbaycan ilə "BP" şirkəti arasında əməkdaşlığın inkişafından məmnunluq ifadə olundu, "Azəri–Çıraq–Günəşli", "Şəfəq", "Asiman", "Abşeron" və digər yataqlar üzrə əməkdaşlıq məsələləri müzakirə edildi.

**AZƏRTAC**
*22 yanvar 2019-ci il*

## PREZİDENT İLHAM ƏLİYEV DAVOSDA RUSİYANIN "LUKOİL" ŞİRKƏTİNİN PREZİDENTİ İLƏ GÖRÜŞÜB

*22 yanvar 2019-cu il*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 22-də Davosda Rusiyanın "LUKoil" şirkətinin prezidenti Vahid Ələkbərov ilə görüşüb.

Görüşdə "LUKoil" şirkətinin Azərbaycanda həyata keçirdiyi layihələr və onların icrası ilə bağlı məsələlərdən, əməkdaşlığın perspektivlərindən danışılıb.

**AZƏRTAC**
*22 yanvar 2019-ci il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ "TOTAL" ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORUNUN GÖRÜŞÜ OLUB

*22 yanvar 2019-cu il*

Yanvarın 22-də Davosda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Fransanın "Total" şirkətinin baş icraçı direktoru Patrik Puyannenin görüşü olub.

Görüşdə "Total" şirkətinin Azərbaycanda reallaşdırdığı layihələr, o cümlədən "Abşeron" layihəsinin uğurla həyata keçirilməsi, əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

**AZƏRTAC**
*22 yanvar 2019-ci il*

## PREZİDENT İLHAM ƏLİYEV "EQUİNOR" ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU İLƏ GÖRÜŞÜB

*23 yanvar 2019-cu il*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 23-də Davosda "Equinor" (keçmiş "Statoyl") şirkətinin baş icraçı direktoru Eldar Saetre ilə görüşüb.

Görüşdə "Azəri–Çıraq–Günəşli" yataqlar bloku ilə bağlı SOCAR-la "Equinor" şirkəti arasında əməkdaşlıq məsələləri müzakirə olundu.

Dövlətimizin başçısı "Equinor"un Azərbaycanda fəaliyyətini davam etdirməsindən məmnunluğunu bildirdi.

Söhbət zamanı "Qarabağ", "Əşrəfi", "Dan ulduzu" perspektiv layihələri və "Dədə Qorqud" qurğusunun təmiri ilə bağlı fikir mübadiləsi aparıldı.

**AZƏRTAC**
*23 yanvar 2019-ci il*

## PREZİDENT İLHAM ƏLİYEVİN TÜRKİYƏNİN ENERGETİKA VƏ TƏBİİ SƏRVƏTLƏR NAZİRİ İLƏ GÖRÜŞÜ OLUB

*20 fevral 2019-cu il*

Fevralın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının energetika və təbii sərvətlər naziri Fatih Dönməz ilə görüşü olub.

Fatih Dönməz görüşə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı.

Cənub Qaz Dəhlizinin əhəmiyyətini xüsusi qeyd edən Fatih Dönməz Türkiyənin bu layihənin ilk mərhələsindən Azərbaycanın yanında olduğunu vurğuladı. O, Cənub Qaz Dəhlizi layihəsinin icrasının uğurla davam etdirildiyini bildirdi. İndiyədək TANAP layihəsinin və "Star" neft emalı zavodunun açıldığını xatırladan Fatih Dönməz belə layihələrin gələcəkdə də davam etdiriləcəyinə əminliyini bildirdi.

Prezident İlham Əliyev Türkiyənin Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin beşinci toplantısında yüksək səviyyədə iştirakına görə minnətdarlığını bildirdi. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla birlikdə imzalanan bu layihənin təməlinin TANAP ilə qoyulduğunu vurğulayan dövlətimizin başçısı onun tarixi əhəmiyyətini qeyd etdi, TANAP-ın rəsmi açılışını xatırlatdı. Dövlətimizin başçısı Türkiyə ilə birlikdə bu layihənin qısa müddətdə başa çatdırılmasının böyük nailiyyət olduğunu vurğuladı.

Türkiyə–Azərbaycan əməkdaşlığının bütün sahələrdə, o cümlədən enerji sahəsində də böyük nəticələrə gətirib çıxardığını qeyd edən Prezident İlham Əliyev məmnunluqla bildirdi ki, indiyədək 1 milyard kubmetrdən çox qaz yeni xətt vasitəsilə Türkiyəyə çatdırılıb. "Star" neft emalı zavodunun fəaliyyətə başlamasının önəmini vurğulayan Prezident İlham Əliyev bildirdi ki, bir neçə milyard dollarlıq sərmayə bu gün artıq nəticə verir.

Prezident İlham Əliyev Cənub Qaz Dəhlizi layihəsinin başa çatdırılması üzrə işlərin uğurla davam etdirildiyini söylədi.

Dövlətimizin başçısı Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə Prezidentinə çatdırmağı xahiş etdi.

**AZƏRTAC**
*20 fevral 2019-ci il*

## PREZİDENT İLHAM ƏLİYEV ABŞ DÖVLƏT KATİBİNİN ENERJİ DİPLOMATİYASI ÜZRƏ MÜAVİNİNİN MÜŞAVİRİ İLƏ GÖRÜŞÜB

*20 fevral 2019-cu il*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 20-də ABŞ Dövlət katibinin enerji diplomatiyası üzrə müavininin müşaviri xanım Sandra Oudkirk ilə görüşüb.

Görüşdə Prezident İlham Əliyev Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin beşinci toplantısında layihənin uğurlu icrası ilə bağlı səmərəli müzakirələrin aparıldığını vurğuladı. Dövlətimizin başçısı ötən il bir neçə mühüm layihənin icrasının başa çatdırıldığını qeyd edərək bugünkü toplantıda yeni tərəflərin də təmsil olunduqlarını vurğuladı. Bildirdi ki, bu, layihəyə artan marağın göstəricisidir.

Dövlətimizin başçısı ABŞ Prezidenti Donald Trampın Cənub Qaz Dəhlizi layihəsinə göstərdiyi dəstəyin yüksək qiymətləndirildiyini qeyd etdi.

ABŞ Dövlət katibinin enerji diplomatiyası üzrə müavininin müşaviri xanım Sandra Oudkirk 2018-ci ildə layihənin uğurlu icrası istiqamətində mühüm nailiyyətlərin əldə olunduğunu dedi. O, ötən il bu layihə çərçivəsində yeni xətlə Türkiyəyə ilk dəfə olaraq 1 milyard kubmetr qazın çatdırıldığını vurğuladı.

Görüşdə bərpaolunan və alternativ enerji, eləcə də digər sahələrdə Azərbaycan ilə ABŞ arasında əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsi aparıldı.

**AZƏRTAC**
*20 fevral 2019-ci il*

## PREZİDENT İLHAM ƏLİYEV AVROPA İNVESTİSİYA BANKININ VİTSE-PREZİDENTİ İLƏ GÖRÜŞÜB

*20 fevral 2019-cu il*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 20-də Avropa İnvestisiya Bankının vitse-prezidenti Vazil Hudak ilə görüşüb.

Prezident İlham Əliyev Cənub Qaz Dəhlizi Məşvərət Şurası toplantılarının təşkilinin yaxşı ənənəyə çevrildiyini vurğulayaraq bu mühüm tədbirlərdə planlaşdırılan hədəflərə nail olunduğunu qeyd etdi.

Avropa İnvestisiya Bankının vitse-prezidenti Vazil Hudak Cənub Qaz Dəhlizi layihəsinin uğurlu icrasında Məşvərət Şurasının toplantılarının önəmini vurğuladı. O, Avropa İttifaqının əsas maliyyə strukturu olan bu bankın Cənub Qaz Dəhlizi layihəsinə maliyyə dəstəyi göstərməsinin əhəmiyyətini qeyd etdi. Regionda Azərbaycanın iştirakı ilə həyata keçirilən irimiqyaslı nəqliyyat layihələrinə toxunan Vazil Hudak Avropa İnvestisiya Bankının bu kimi nəqliyyat və digər layihələrin də maliyyələşdirilməsində maraqlı olduğunu ifadə etdi.

Layihəyə verdiyi dəstəyə görə minnətdarlığını bildirən Prezident İlham Əliyev qeyd etdi ki, bu, bankın bölgədə maliyyələşdirdiyi ən böyük layihələrdən biridir. Cənub Qaz Dəhlizinin dayanıqlı layihə olduğunu xatırladan Prezident İlham Əliyev bu kreditlərin Avropa İnvestisiya Bankının və Avropa İttifaqının layihəyə dəstəyini nümayiş etdirdiyini bildirdi.

**AZƏRTAC**
*20 fevral 2019-ci il*

# PREZİDENT İLHAM ƏLİYEVİN DÜNYA BANKININ CƏNUBİ QAFQAZ ÜZRƏ REGİONAL DİREKTORU İLƏ GÖRÜŞÜ OLUB

*20 fevral 2019-cu il*

Fevralın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktoru xanım Mersi Tembon ilə görüşü olub.

Görüşdə dövlətimizin başçısı Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin beşinci toplantısı kimi vacib tədbirdə iştirakına görə Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktoru xanım Mersi Tembona təşəkkürünü bildirdi. Prezident İlham Əliyev Dünya Bankının Cənub Qaz Dəhlizi layihəsinə və Azərbaycanın reallaşdırdığı digər layihələrə verdiyi davamlı dəstəyə görə minnətdarlığını ifadə etdi. Bu əməkdaşlığı yüksək qiymətləndirən Azərbaycan Prezidenti Dünya Bankı ilə işbirliyinin uzunmüddətli və məhsuldar olduğunu bildirdi.

Cənub Qaz Dəhlizi layihəsinin icrasının uğurla davam etdirilməsindən məmnunluğunu ifadə edən dövlətimizin başçısı ötən il layihənin icrasında mühüm irəliləyişlərin olduğunu və bunun bu il də davam etdirildiyini dedi.

Davosda Dünya Bankının baş icraçı direktoru xanım Kristalina Georgiyeva ilə görüşünü xatırladan dövlətimizin başçısı həmin görüşdə gələcək əməkdaşlıq haqqında geniş müzakirələrin aparıldığını bildirdi.

Xanım Mersi Tembon Dünya Bankının baş icraçı direktoru xanım Kristalina Georgiyevanın salamlarını dövlətimizin başçısına çatdırdı. O, Prezident İlham Əliyevin Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin beşinci toplantısındakı dərin məzmunlu nitqində mühüm məsələlərə toxunduğunu vurğuladı. Xanım Mersi Tembon Dünya Bankının baş icraçı direktorunun Davosda Prezident İlham Əliyev ilə görüşdən dərin təəssüratla ayrıldığını bildirdi. Mersi Tembon Azərbaycan ilə Dünya Bankı arasında aparılan müzakirələrdə əksini tapan məsələlərin həyata keçirilməsi istiqamətində ardıcıl tədbirlərin reallaşdırıldığını dedi.

Prezident İlham Əliyev xanım Kristalina Georgiyevanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarının Dünya Bankının baş icraçı direktoruna çatdırılmasını xahiş etdi.

**AZƏRTAC**
*20 fevral 2019-ci il*

# BAKIDA CƏNUB QAZ DƏHLİZİ MƏŞVƏRƏT ŞURASI ÇƏRÇİVƏSİNDƏ NAZİRLƏRİN BEŞİNCİ TOPLANTISI KEÇİRİLİB

*20 fevral 2019-cu il*

## Azərbaycan Prezidenti İlham Əliyev toplantıda iştirak edib

Fevralın 20-də Bakıda, Heydər Əliyev Mərkəzində Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin beşinci toplantısı keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev toplantıda iştirak edib.

Tədbirdə Cənub Qaz Dəhlizinin iştirakçısı olan ölkələrin energetika nazirləri və müxtəlif qurumların təmsilçiləri, o cümlədən Avropa Komissiyasının büdcə və insan resursları üzrə komissarı, Məşvərət Şurasının fəaliyyətdə olan həmsədri Günter Ottinger iştirak ediblər.

Azərbaycan Prezidenti İlham Əliyev toplantıda nitq söylədi.

### PREZİDENT İLHAM ƏLİYEVİN NİTQİ

– Hörmətli xanımlar və cənablar.

Hörmətli qonaqlar, hörmətli dostlar.

Azərbaycana xoş gəlmisiniz, sizi görməyə çox şadam, Cənub Qaz Dəhlizi Məşvərət Şurasının beşinci toplantısında iştirakınıza görə sizə təşəkkür edirəm.

Biz 2015-ci ildə bu mühüm prosesə start verdik və Azərbaycan belə bir əməkdaşlıq formatının təşəbbüskarı oldu. Bu təşəbbüs Avropa Komissiyası tərəfindən də dəstəkləndi və beləliklə, bu proses başlandı. Biz belə toplantıların və bu nəhəng layihənin irəli aparılması ilə bağlı görülməli işlərə dair geniş müzakirələrin faydasını görürük. Mən Avropa Komissiyasına bu prosesdə fəal iştiraka görə təşəkkürümü bildirmək istəyirəm. Azərbaycan və Avropa Komissiyası bu şuranın həmtəşkilatçılarıdır və bizim

sıx əməkdaşlığımız yaxşı nəticələr verir. Böyük məmnuniyyətlə komissar Ottingeri salamlayıram. O, vaxtilə Avropa İttifaqının enerji məsələləri üzrə komissarı olub və Avropa İttifaqı ilə Azərbaycan arasında enerji məsələləri üzrə əməkdaşlığın möhkəmlənməsi və Cənub Qaz Dəhlizi layihəsinin irəliləməsində mühüm rol oynayıb. Bu, həqiqətən də, vahid komanda işidir və ildən-ilə biz bunun nəticəsini görürük.

Mən Azərbaycanın təşəbbüskarı olduğu bütün enerji layihələrinin, xüsusilə də Cənub Qaz Dəhlizinin reallaşdırılmasında göstərilən davamlı dəstəyə görə Amerika Birləşmiş Ştatları hökumətinə minnətdarlığımı bildirirəm. Mən ABŞ və Böyük Britaniyanın yüksək səviyyəli nümayəndələrini salamlayıram. Əminəm ki, sizin töhfəniz sayəsində bu toplantının gözəl nəticələri olacaq. Mən eyni zamanda Cənub Qaz Dəhlizi layihəsinin həyata keçirilməsində iştirak edən qonşularımız Türkiyə və Gürcüstan, habelə Avropa ölkələrindən Bolqarıstan, Yunanıstan, Albaniya və İtaliyadan olan nümayəndələri salamlayıram. Biz artıq bu layihənin reallaşdırılmasına məsul olan bir komandayıq.

Bildiyiniz kimi, Azərbaycan Bosniya və Herseqovina, Xorvatiya və Monteneqro ilə Avropada enerji sahəsində əməkdaşlığın genişləndirilməsinə dair anlaşma memorandumu imzalayıb. Bunun nəticəsində biz Azərbaycanın enerji resurslarının nəqlinin şaxələndirilməsi üçün müasir və yeni infrastruktur şəbəkəsi yaradacağıq və mən həmin dövlətlərin nümayəndələrini də burada salamlayıram. İllik toplantılarımızda iştirak edən qonaqlarımızın sayı artır. Mənə verilən məlumata görə, burada Macarıstan, Rumıniya, Serbiya, San-Marino və Türkmənistandan olan nümayəndələr iştirak edirlər və şadam ki, bu layihəyə maraq göstərən dövlətlərin sayı artmaqdadır.

Əlbəttə, burada şirkətləri də qeyd etmək lazımdır, çünki onların fəal iştirakı olmadan bu nəhəng layihəni reallaşdırmaq mümkünsüz olardı. Mən SOCAR və "BP" arasında olan sıx strateji tərəfdaşlığı xüsusi qeyd etmək istəyirəm. "BP" şirkəti bizim strateji tərəfdaşımız və investorumuzdur, o, Azərbaycanda 25 ildir ki, fəaliyyət göstərir. "BP" Azərbaycanda enerji layihələrinin icrası ilə bağlı böyük səylər göstərir və onun yatırdığı sərmayələr tərəfimizdən yüksək qiymətləndirilir. Biz Azərbaycanda enerji sahəsinin inkişafı ilə bağlı bir sıra vacib layihələr üzərində çalışırıq.

Beynəlxalq maliyyə qurumlarının güclü dəstəyi olmadan bizim birgə səylərimiz faydalı olmazdı. Bu gün toplantımızda dünyanın aparıcı maliyyə qurumlarının – Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnkişaf Bankı və Avropa İnvestisiya Bankının nümayəndələri iştirak edirlər. Fürsətdən istifadə edərək bu layihə ilə bağlı maliyyə töhfəsinə və bizə olan etimada görə sizlərə təşəkkür edirəm. Bizim nə qədər böyük təşəbbüs və nəhəng layihəni həyata keçirdiyimizi təsvir etmək üçün, zənnimcə, bu toplantıda iştirak edənlərin siyahısını səsləndirmək kifayət edər.

Cənub Qaz Dəhlizi ümumi marağımızı əks etdirən və qarşılıqlı surətdə əhəmiyyətli layihədir. Bu, Azərbaycanın 1994-cü ildə təməli qoyulmuş enerji strategiyasının tər-

kib hissəsidir. O zaman Azərbaycan nəhəng "Azəri–Çıraq–Günəşli" neft yatağı ilə bağlı beynəlxalq neft şirkətlərindən ibarət konsorsiumla müqavilə imzaladı. Bu bizim beynəlxalq enerji şirkətləri ilə əməldaşlığımızın başlanğıcı idi. O vaxt Azərbaycan öz təbii resurslarını beynəlxalq əməkdaşlıq üçün əlçatan etdi. İlk dəfə beynəlxalq sərmayələr Xəzər dənizinə yatırıldı və 1994-cu il, əslində, Azərbaycanın inkişafı baxımından da dönüş nöqtəsi oldu. Azərbaycan o zaman yalnız üç il idi ki, gənc müstəqil dövlət idi və iqtisadi vəziyyət çox çətin idi. Ölkəni xarici sərmayə üçün açaraq biz milyardlarla dollarlıq sərmayə cəlb edə bildik. On minlərlə yeni iş yerləri açdıq, Azərbaycanın münbit sərmayə mühitinə malik dövlət olduğunu nümayiş etdirdik. Bunun nəticəsində neftdən gələn gəlirləri iqtisadiyyatın şaxələndirilməsi və müasir infrastrukturun yaradılmasına yönəltdik. Bu gün isə biz artıq qeyri-neft sektorunun inkişafına diqqət yetiririk. Bu bizim üçün prioritetdir. Ancaq enerji sektoru bundan sonra da Azərbaycanın iqtisadiyyatının aparıcı sahəsi və regional əməkdaşlığın mühüm komponentlərindən biri olacaq.

1996-cı ildə "Şahdəniz" qaz yatağı ilə bağlı müqavilə imzalanmışdır ki, həmin yataq Cənub Qaz Dəhlizinin əsas resurs mənbəyidir. Ümidvaram ki, bu, yeganə mənbə olmayacaq, ancaq hazırda bu belədir. Bu, nəhəng bir qaz yatağıdır və onun təbii ehtiyatları artıq hasil və ixrac olunur.

Bizim enerji sahəsinin xronologiyasına nəzər salsaq, görərik ki, tədricən məqsədimizə çatmışıq. Məqsəd enerji resurslarının nəqlinin şaxələndirilməsi və bunun üçün müasir infrastrukturun yaradılması idi. Bu baxımdan 1990-cı illərin sonunda Xəzər və Qara dənizi birləşdirən Bakı–Supsa neft kəmərinin istifadəyə verilməsi enerji resurslarının nəqli və şaxələndirilməsi baxımından vacib məsələ idi. Daha sonra – 2006-cı ildə Bakı–Tbilisi–Ceyhan kəməri istifadəyə verildi. Bu, tarixi hadisə idi. Bu nəhəng layihə sayəsində şirkətlər daha çox sərmayə qoymaq və daha çox neft çıxarmaq imkanı əldə etdi. Biz isə ixracımızı mümkün qədər artırdıq və bu gün Bakı–Tbilisi–Ceyhan vasitəsilə digər ölkələrə də neft nəql edilir.

Azərbaycan neft ehtiyatlarının nəqli baxımından vacib tranzit ölkədir və əlbəttə ki, Azərbaycanın regiondakı rolu artmaqdadır. 2007-ci ildə Bakı–Tbilisi–Ərzurum qaz kəmərinin açılışı oldu və ilk dəfə olaraq Azərbaycan beynəlxalq bazarlara təbii qaz nəql edən dövlətə çevrildi. Çünki o vaxta qədər biz təbii qazı idxal edirdik. Yəni biz əsas enerji layihəsi olan Cənub Qaz Dəhlizi istiqamətində davamlı olaraq irəliləmişik və bu gün bu layihənin icrası artıq reallıqdır. Xatırlayıram ki, 2012-ci ildə Azərbaycan və Türkiyə TANAP layihəsi ilə bağlı müqavilə imzaladı və bu, Cənub Qaz Dəhlizinin başlanğıc nöqtəsi idi. Bir il sonra – 2013-cü ildə "Şahdəniz–2" layihəsi üzrə sərmayə qərarı qəbul edildi və elə həmin ildə Trans-Adriatik boru kəməri TANAP-ın davamı olaraq seçildi. Bütün bunlar onu nümayiş etdirir ki, biz tərəfdaşlarımızla sıx əməkdaşlıq edirik. Biz vahid komanda şəklində çalışmağımız nəticəsində uğurdan bəhs edə bilərik.

Ötən ilin fevral ayındakı sonuncu görüşümüzdən sonra iki mühüm tədbir keçirildi – biri Azərbaycanda, digəri isə Türkiyədə. May ayında Cənub Qaz Dəhlizinin, iyunda isə TANAP-ın rəsmi açılışları baş tutdu. Bunlar "Şahdəniz" yatağının istismarı və Cənub Qaz Dəhlizinin həyata keçirilməsi baxımından mühüm hadisələr idi. Bu gün biz bu nəhəng enerji layihəsinin yekunlaşdırılmasına yaxınıq. Onun dörd elementindən üçü artıq hazırdır və istifadə olunur. TANAP layihəsinin istifadəyə verilməsindən sonra 1 milyard kubmetr qazın Türkiyə bazarına ixracı bizi məmnun edir.

Trans-Adriatik boru kəmərinin inşasında da böyük irəliləyiş var. Ötən ilin fevral ayında şura qarşısında çıxışımda TAP-ın hazırlığının 67 faiz səviyyəsində olduğunu qeyd etmişdim. İndi isə son göstəricilərə görə bu rəqəm 87 faizdir. Yəni bir ildə biz böyük irəliləyişə nail olmuşuq, işlər uğurla gedir və ümidvaram ki, gələn il biz yeni nəticələr haqqında danışacağıq.

Cənub Qaz Dəhlizi enerji şaxələndirilməsi layihəsidir. Enerji resurslarının şaxələndirilməsi istehsalçı, istehlakçı və tranzit ölkələr üçün çox vacibdir. Hesab edirəm ki, biz burada yaxşı balans tapa bilmişik – yəni istehsalçı olan Azərbaycan, istehlakçı və tranzit dövlətlər arasında. Maraqların balansı bu layihənin uğurunu şərtləndirir. Çünki biz bir-birimizin ehtiyac və narahatlıqlarını anlamağa çalışırıq. Çalışmışıq ki, bir-birimizi dəstəkləyək, zənnimcə, bu işdə uğurlu olmuşuq və belə toplantıların əhəmiyyəti olduqca böyükdür. Çünki biz il ərzində görülən işləri nəzərdən keçirir, eyni zamanda gələcək addımlarımızı planlaşdırır və işimizin irəlilədilməsi məqsədilə il ərzində ikitərəfli və çoxtərəfli görüşlər, məsləhətləşmələr və konfranslar keçiririk. Bir daha qeyd edirəm ki, Cənub Qaz Dəhlizi enerji şaxələndirilməsi layihəsidir. Çünki o həmçinin nəqliyyat marşrutlarını və mənbələri şaxələndirir. Azərbaycan Avropaya enerji resurslarının nəqli baxımından yeni mənbədir və təbii ki, yeni kəmərlər inşa etməklə biz enerji marşrutlarını şaxələndiririk. Yəni bu, tam şaxələndirmədir, əslində, bu, Avropanın enerji xəritəsini dəyişdirir və beləliklə, Cənub Qaz Dəhlizinin əhəmiyyəti artır.

Əlbəttə ki, Cənub Qaz Dəhlizi enerji təhlükəsizliyi layihəsidir. Biz yaxşı anlayırıq ki, enerji təhlükəsizliyi olmadan milli təhlükəsizliyin təmin edilməsi çətinləşir. Enerji təhlükəsizliyi hər bir dövlətin milli təhlükəsizliyinin ayrılmaz bir hissəsidir. O dövlətlər ki xarici enerji mənbələrindən asılıdır, onlar əmin olmalıdırlar, bu marşrut dayanıqlı və uzunmüddətli olacaq. Onlar özlərinin gələcəyini və sənaye inkişafını planlaşdırmalıdır. Eyni zamanda təbii sərvətlərlə zəngin olan istehsalçı dövlətlər etibarlı bazarlar olmadan öz məqsədlərinə çata bilməzlər. Beləliklə, bu, enerji təhlükəsizliyi, enerji şaxələndirilməsi və geniş beynəlxalq əməkdaşlıq layihəsidir.

Bu gün toplantının formatı onu nümayiş etdirir ki, biz çox geniş beynəlxalq əməkdaşlıq formatını yarada bilmişik. Maliyyə qurumları, şirkətlər və ölkələrin bir amalı var. Biz bu

layihənin reallaşdırılmasına inanırıq və hesab edirik ki, hər birimiz üçün bu, uzunmüddətli uğur hekayəsi olacaqdır.

Azərbaycanın qaz ehtiyatlarına gəldikdə, təsdiq edilmiş ehtiyatlarımız 2,6 trilyon kubmetrdir. Əlbəttə ki, "Şahdəniz" Azərbaycanın əsas qaz yatağıdır. Lakin eyni zamanda hazırda istismar prosesində olan digər yataqlar da var və düşünürəm ki, tezliklə biz "Abşeron" yatağından yaxşı nəticələr əldə edəcəyik. Əminəm ki, ən yaxın gələcəkdə biz oradan qaz hasil etməyə başlayacağıq. Böyük qaz ehtiyatına malik "Ümid", "Babək" yataqları və digər yataqlar da çox ümidvericidir. Ona görə də mən əminəm ki, "Şahdəniz" Cənub Qaz Dəhlizi üçün yeganə resurs mənbəyi olmayacaq və yataqlarımızdan nə qədər çox qaz hasil edilsə, tərəfdaşlarımızı təchiz etmək və haqqında danışdığımız təchizat şəbəkəsini şaxələndirmək üçün daha çox potensial olacaq.

Əlbəttə ki, enerji əməkdaşlığı layihələri digər sahələrdəki əməkdaşlıqda da çox mühüm rol oynayır. Mən xüsusilə nəqliyyatı qeyd edərdim. Bu gün Azərbaycan Avrasiyanın nəqliyyat mərkəzinə çevrilir. Şərq-Qərb, Şimal-Cənub nəqliyyat dəhlizləri bizim ölkəmizin ərazisindən keçir. Biz müasir nəqliyyat infrastrukturuna böyük həcmdə investisiya yatırmışıq. Bakı dəniz limanı, Avropa ilə Asiyanı birləşdirən Bakı–Tbilisi–Qars dəmir yolu, magistral yollar, Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi, hava limanları – bütün bunlar bizim neft və qaz satışından əldə etdiyimiz gəlirlər sayəsində mümkün olub. Beləliklə, biz gəlirləri əlavə gəlir gətirəcək və ümumi işə xidmət edəcək sektorlara yönəltmişik. Çünki nəqliyyat layihələri, eləcə də enerji layihələri ölkələri birləşdirir. Ölkələr əlaqəli, qarşılıqlı şəkildə bir-birindən asılı olur və hər kəs mənfəət əldə edir. Ona görə də biz enerji təhlükəsizliyi layihələrinin faydasını digər sahələrdə görürük.

Əlbəttə ki, Azərbaycanın uğurlu enerji inkişafı bizə özümüzü dünyaya etibarlı ölkə, etibarlı tərəfdaş, xarici investisiyaları 100 faiz qoruyan ölkə kimi təqdim etməyə imkan verib. Bizim enerji şirkətləri ilə bütün müqavilələrimiz parlament tərəfindən ratifikasiya olunur və qüvvəyə minir. Bu səbəbdən də investorlar 100 faiz əmin olurlar ki, bu müqavilələrdə bir söz belə dəyişdirilməyəcək. Bu, etimad yaradır. Bu həmçinin bizə digər sektorlara milyardlarla investisiya cəlb etməyə imkan verib.

Azərbaycana yatırılmış investisiyaların ümumi həcmi 250 milyard dollara yaxındır. Bunun yarısı xarici investisiyalardır. Bu bizə iqtisadiyyatımızı şaxələndirməyə, islahatları uğurla həyata keçirməyə, yaxşı biznes mühiti yaratmağa imkan verib. Dünya Bankının sonuncu "Doing Business" hesabatına əsasən. Azərbaycan 25-ci yerdədir. Beləliklə, biz möhtəşəm uğur qazanmışıq və biznes mühiti nöqteyi-nəzərindən 10 ən islahatçı ölkədən biriyik.

Enerji resursları və gəlirlərindən düzgün istifadə sayəsində biz infrastruktura, sosial infrastruktura böyük həcmdə investisiya yatırmağa, əhalinin yaşayış səviyyəsini

qaldırmağa nail olmuşuq. Ona görə də bu layihə bizim üçün, əminəm ki, hamımız üçün olduqca mühüm əhəmiyyət kəsb edir.

Şadam ki, bu gün biz uğurlar, nəticələr barədə danışa bilirik və sözsüz ki, bu gün biz gələcək planlar barədə də danışacağıq.

Sizə uğurlar arzulayıram. Bizimlə birgə olduğunuza görə sizə təşəkkür edirəm.

***

Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin beşinci toplantısı işini plenar sessiya ilə davam etdirib.

**AZƏRTAC**
*20 fevral 2019-cu il*

# PREZİDENT İLHAM ƏLİYEV OPEC-İN BAŞ KATİBİNİ QƏBUL EDİB

*16 mart 2019-cu il*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 16-da Neft İxrac edən Ölkələr Təşkilatının (OPEC) baş katibi Məhəmməd Barkindonu qəbul edib.

Dövlətimizin başçısı Məhəmməd Barkindoya dəvəti qəbul etdiyinə və "OPEC plus" ölkələrinin iclasında iştirakına görə minnətdarlığını bildirdi. Prezident İlham Əliyev Bakının dünyada neftin vətəni olduğunu vurğulayaraq tədbirin paytaxtımızda keçirilməsinin rəmzi xarakter daşıdığını dedi. Dövlətimizin başçısı Azərbaycan tərəfinin bu tədbirin Bakıda keçirilməsi ilə bağlı təklifinin şəxsən Məhəmməd Barkindo və təşkilatın üzv dövlətləri tərəfindən qəbul edilməsini yüksək qiymətləndirdi. Prezident İlham Əliyev "OPEC plus"un yeni bir format olduğunu nəzərə alaraq bu formatda ilk tədbirlərdən birinin ölkəmizdə keçirilməsinin əhəmiyyətini qeyd etdi və bunu Azərbaycana olan dostluq və etimadın göstəricisi kimi dəyərləndirdi. Dövlətimizin başçısı "OPEC plus" ölkələrinin iclasının uğurla keçəcəyinə, bunun da öz növbəsində neftin qiymətinin sabitləşdirilməsi işinə xidmət edəcəyinə və bu qiymətin neftin istehsalçıları, istehlakçıları, şirkətlər və ölkələr üçün məqbul olacağına əminliyini ifadə etdi.

OPEC-in baş katibi Məhəmməd Barkindo ilk növbədə dəvətə görə dövlətimizin başçısına minnətdarlığını bildirdi. O hələ 1846-cı ildə dünyada ilk dəfə sənaye üsulu ilə neftin Bakıda hasil olunduğunu vurğulayaraq tədbir iştirakçılarının Azərbaycana gəlişini bir ziyarət kimi dəyərləndirdi. Məhəmməd Barkindo qeyd etdi ki, Prezident İlham Əliyev "OPEC plus" formatında iclasın keçirilməsi təşəbbüsü ilə çıxış edən ilk dövlət başçısıdır. O, Prezident İlham Əliyev tərəfindən bu təşəbbüsün üç il bundan əvvəl Davosda irəli sürüldüyünü məmnunluqla xatırladı. Azərbaycan Prezidentinin bu təşəbbüsünün artıq reallığa çevrildiyini qeyd edən Məhəmməd Barkindo bu işdə Prezident İlham Əliyevin baxışlarını və liderliyini yüksək qiymətləndirdi. O, ümumiyyətlə, "OPEC plus" formatında əməkdaşlığın başlandığı ilk gündən Azərbaycanın bu proseslərdə fəal iştirak etdiyini vurğuladı.

Xoş sözlərə görə minnətdarlığını bildirən Prezident İlham Əliyev bir neçə il bundan əvvəl Davosda “OPEC plus” əməkdaşlıq formatı ilə bağlı təşəbbüsünü xatırlayaraq həmin vaxtdan bu günə kimi həyata keçirilən əməkdaşlıqdan məmnunluğunu ifadə etdi.

Söhbət zamanı Azərbaycan ilə OPEC arasında uğurlu əməkdaşlığın həyata keçirildiyi qeyd olundu, Cənub Qaz Dəhlizinin müvəffəqiyyətlə reallaşmaqda olduğu bildirildi.

**AZƏRTAC**

*16 mart 2019-cu il*

## PREZİDENT İLHAM ƏLİYEV SƏUDİYYƏ ƏRƏBİSTANININ ENERGETİKA, SƏNAYE VƏ TƏBİİ SƏRVƏTLƏR NAZİRİNİ QƏBUL EDİB

*16 mart 2019-cu il*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 16-da Səudiyyə Ərəbistanı Krallığının energetika, sənaye və təbii sərvətlər naziri Xalid Əbdüləziz Əl Falihi qəbul edib.

Dövlətimizin başçısı Bakıda "OPEC plus" ölkələrinin iclasında iştirak etdiyinə görə Xalid Əbdüləziz Əl Falihə minnətdarlığını bildirdi. Prezident İlham Əliyev Azərbaycanın neftin sənaye üsulu ilə istehsalının vətəni olduğunu vurğulayaraq bu tədbirin Bakıda keçirilməsinin xüsusi məna daşıdığını qeyd etdi. Dövlətimizin başçısı "OPEC plus" formatında əməkdaşlığın dünyada neftin qiymətinin balanslaşdırılmasında mühüm rol oynadığını vurğuladı.

Nazir Xalid Əbdüləziz Əl Falih ilk növbədə İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz Al Səudun salamlarını dövlətimizin başçısına çatdırdı. O, Azərbaycanın "OPEC plus" formatında fəal iştirak etdiyini bildirərək ölkəmizdə tədbir iştirakçılarına göstərilən qonaqpərvərliyi yüksək qiymətləndirdi. Xalid Əbdüləziz Əl Falih Prezident İlham Əliyevin "OPEC plus" formatının yaradılmasında liderlik rolunu yüksək dəyərləndirərək bu formatda Azərbaycanın çox fəal iştirakçı olduğunu qeyd etdi. İkitərəfli münasibətlərə toxunan Xalid Əbdüləziz Əl Falih ölkəsinin Azərbaycanın ərazi bütövlüyünün və təcavüz nəticəsində pozulmuş suverenliyinin bərpası işinə tam sadiq olduğunu vurğuladı. O qeyd etdi ki, Azərbaycanın möhkəmlənməsi, iqtisadi inkişafı və iqtisadiyyatının şaxələndirilməsi istiqamətində gedən işlər Səudiyyə Ərəbistanında böyük maraqla izlənilir. Xalid Əbdüləziz Əl Falih bu həftə Səudiyyə Ərəbistanı Krallığından Azərbaycana gələn nümayəndə heyətlərinin Azərbaycan hökumətinin və biznes qurumlarının nümayəndələri ilə məhsuldar görüşlər keçirdiyini vurğuladı.

Xoş sözlərə görə minnətdarlığını bildirən Prezident İlham Əliyev Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz Al Səudun salamlarına görə təşəkkürünü bildirdi, onun da salamlarını Səudiyyə Ərəbistanının Kralına çatdırmağı xahiş etdi.

Ölkələrimiz arasında ikitərəfli münasibətlərin yüksək səviyyədə olduğunu deyən Prezident İlham Əliyev Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı Azərbaycanın ədalətli mövqeyinə Səudiyyə Ərəbistanı Krallığının göstərdiyi davamlı dəstəyi yüksək qiymətləndirdi və bunu dostluq münasibətlərinin təzahürü kimi dəyərləndirdi. İki ölkə arasında siyasi sahədə əlaqələrin inkişafından məmnunluğunu ifadə edən Prezident İlham Əliyev Azərbaycanda və Səudiyyə Ərəbistanında hazırda iqtisadiyyatın şaxələndirilməsi üzrə böyük işlərin həyata keçirildiyini qeyd etdi və bunun iqtisadi əməkdaşlığımızın genişləndirilməsi üçün yaxşı imkanlar yaratdığını dedi. Dövlətimizin başçısı Səudiyyə Ərəbistanından Azərbaycana gələn turistlərin sayının artdığını qeyd edərək bunun ölkələrimizin və xalqlarımızın bir-birinə daha da yaxınlaşması işinə xidmət etdiyini vurğuladı. Xoş sözlərə görə minnətdarlığını bildirən Prezident İlham Əliyev qeyd etdi ki, Səudiyyə Ərəbistanı Krallığından Azərbaycana gələn insanlar xalqımızın qonaqpərvərliyinin və dostluq münasibətinin şahidi olurlar.

Görüşdə Azərbaycan ilə Səudiyyə Ərəbistanı arasında ikitərəfli münasibətlərin müxtəlif istiqamətlərdə, o cümlədən enerji sahəsində uğurla inkişaf etdiyi bildirildi, Səudiyyə Ərəbistanı Krallığının "Saudi Aramco" şirkətinin Bakıda ofisinin açılması yüksək qiymətləndirildi, əməkdaşlığımızın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

**AZƏRTAC**
*16 mart 2019-cu il*

# PREZİDENT İLHAM ƏLİYEV BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN ENERJİ VƏ SƏNAYE NAZİRİNİ QƏBUL EDİB

*18 mart 2019-cu il*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 18-də Birləşmiş Ərəb Əmirliklərinin enerji və sənaye naziri Süheyl Məhəmməd əl-Məzruini qəbul edib.

Azərbaycana səfərindən məmnun olduğunu bildirən Süheyl Məhəmməd əl-Məzrui Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Əlahəzrət Şeyx Xəlifə bin Zayed Al Nəhyanın, Birləşmiş Ərəb Əmirliklərinin vitse-prezidenti, Baş naziri və Dubay Əmiri Əlahəzrət Şeyx Məhəmməd bin Rəşid Al Məktumun və Əbu-Dabinin vəliəhdi Şeyx Məhəmməd Bin Zayed Əl Nəhyanın salamlarını dövlətimizin başçısına çatdırdı.

Dövlətimizin başçısı Azərbaycan ilə Birləşmiş Ərəb Əmirlikləri arasında ikitərəfli münasibətlərin yüksək səviyyədə olduğunu bildirərək, əməkdaşlığın yeni sahələri, o cümlədən turizm sahəsini əhatə etməsindən məmnunluğunu bildirdi. Birləşmiş Ərəb Əmirliklərindən Azərbaycana gələn turistlərin sayının artdığını bildirən Prezident İlham Əliyev bunu dostluq əlaqələrimizin təzahürü kimi dəyərləndirdi və qonaqların xalqımızın qonaqpərvərliyinin şahidi olduğunu vurğuladı.

Azərbaycanla münasibətlərin ölkəsinin xarici siyasətinin gündəliyində duran ən önəmli istiqamətlərdən biri olduğunu deyən Birləşmiş Ərəb Əmirliklərinin enerji və sənaye naziri Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda geniş investisiya imkanları yaradılmasının ölkəsində yüksək qiymətləndirildiyini bildirdi.

Söhbət zamanı "OPEC plus" formatında Bakıda keçirilən tədbirlərin əhəmiyyətinə toxunuldu, Azərbaycan ilə Birləşmiş Ərəb Əmirlikləri arasında enerji, neft-qaz, neft-kimya, bərpa olunan enerji, müxtəlif iqtisadi layihələr sahəsində əməkdaşlıqla bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Əlahəzrət Şeyx Xəlifə bin Zayed Al Nəhyanın və Birləşmiş Ərəb Əmirliklərinin vitse-prezidenti, Baş naziri və Dubay Əmiri Əlahəzrət Şeyx Məhəmməd bin Rəşid Al Məktumun və Əbu-Dabinin vəliəhdi Şeyx Məhəmməd bin Zayed Əl Nəhyanın salamlarına görə minnətdarlığını bildirən dövlətimizin başçısı onun da salamlarını Birləşmiş Ərəb Əmirliklərinin Prezidentinə, vitse-prezidenti, Baş naziri və Dubay Əmirinə və Əbu-Dabinin vəliəhdinə çatdırmağı xahiş etdi.

**AZƏRTAC**
*18 mart 2019-cu il*

## PREZİDENT İLHAM ƏLİYEV XXVI BEYNƏLXALQ "XƏZƏR NEFT VƏ QAZ – 2019" SƏRGİ VƏ KONFRANSININ AÇILIŞINDA İŞTİRAK EDİB

*29 may 2019-cu il*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 29-da Bakı Sərgi Mərkəzində XXVI Beynəlxalq "Xəzər Neft və Qaz – 2019" sərgi və konfransının, həmçinin IX Xəzər Beynəlxalq energetika və alternativ enerji sərgisinin açılışında iştirak edib.

Dövlətimizin başçısı açılış mərasimində nitq söylədi.

### PREZİDENT İLHAM ƏLİYEVİN NİTQİ

– Hörmətli xanımlar və cənablar.

Əziz dostlar.

Bu gün Xəzər Neft-Qaz Sərgisi öz işinə başlayır. Bu münasibətlə sizi təbrik edirəm. Bu çox əlamətdar hadisədir. Bu sərgi dünya miqyasında çox önəmli beynəlxalq tədbirlərdən biridir.

Bu sərgi 26-cı dəfədir keçirilir və sərgiyə maraq azalmır. Çünki bu il sərgidə 30-dan çox ölkədən 300-ə yaxın şirkət iştirak edir və bu çox gözəl göstəricidir. İyirmi altı il ərzində sərgi dünyanın neft şirkətlərinin diqqətini cəlb edir. Bu onu göstərir ki, Azərbaycanın neft-qaz resursları bu gün və gələcəkdə xarici şirkətlər üçün böyük maraq kəsb edəcək.

Mən birinci sərgini xüsusilə qeyd etmək istərdim. 1994-cü ildə keçirilmiş birinci sərgi Azərbaycanı dünyaya təqdim etdi, Azərbaycanın zəngin neft-qaz resursları haqqında dünyaya məlumat verdi. Çünki o vaxt Azərbaycan haqqında məlumat çox məhdud idi, bizim ölkəmiz gənc müstəqil dövlət idi, müstəqilliyinin ilk illərini yaşayırdı. Əlbəttə, dünyada, xüsusilə neft-qaz aləmində Azərbaycanın potensialı haqqında məlumat, demək olar ki, yox idi. Sərginin keçirilməsi, Azərbaycana diqqətin cəlb edilməsi gələcəkdə Azərbaycanın neft-qaz sektorunun inkişafı üçün çox önəmli rol oynadı. Mən bunu nəzərə alaraq sərginin iştirakçılarına bir daha minnətdarlığımı bildirmək istəyirəm.

Çünki onların bu qərarı, Bakıda bu sərginin keçirilməsi və ondan sonra uzun illər ərzində bizimlə əməkdaşlıq etmələri, əlbəttə ki, təqdirəlayiq bir haldır.

1994-cü ildə ilk sərgi keçiriləndə ölkəmizdə vəziyyət tam fərqli idi. Azərbaycan çox ağır iqtisadi vəziyyətdə idi, siyasi müstəvidə sabitlik təzə-təzə bərpa edilmişdi. Çünki müstəqilliyimizin ilk illəri ölkəmiz, xalqımız üçün çox ağır keçmişdir. Vətəndaş müharibəsi, torpaqlarımızın işğal altına düşməsi, iqtisadi, siyasi böhran, demək olar ki, ölkəmizin inkişafına böyük zərbə vurmuşdu, ölkəmizin inkişafı ilə bağlı aydın təsəvvür yox idi. Əlbəttə, zəngin neft-qaz resurslarına malik olan ölkə üçün yeganə çıxış yolu sabitliyin bərpası və neft resurslarından səmərəli istifadə edilməsi idi ki, sərmayə qoyuluşu gəlsin və ölkəmizin iqtisadi potensialı artsın. 1994-cü ildə sərgidən yaranan mənfəət, o cümlədən siyasi mənfəət bu gün də bizə imkan verir ki, həm neft-qaz sektorumuzu, həm də, ümumiyyətlə, ölkəmizi inkişaf etdirək.

Müasir neft siyasətimiz Heydər Əliyevin adı ilə bağlıdır. Çünki məhz o, Azərbaycan rəhbərliyinə gələndən sonra ölkəmizdə vəziyyət sabitləşdi, Azərbaycan inkişaf yoluna qədəm qoydu və xarici investorlar bizə inandı. Çünki o vaxt bu inam əsas şərt idi. Bu inam olmasaydı, Azərbaycana heç kim böyük sərmayə qoymazdı. Çünki Azərbaycan o vaxt çox riskli bir ölkə kimi tanınırdı və investorları buraya cəlb etmək üçün böyük səylər göstərilmişdir. 1994-cü ilin sentyabr ayında "Azəri–Çıraq–Günəşli" neft yataqları üzrə imzalanmış kontrakt, demək olar ki, bizim inkişafımıza çox böyük təkan verdi. Təsadüfi deyil ki, bu kontraktın miqyasına və əhəmiyyətinə görə ona "Əsrin kontraktı" adı verilmişdir. "Əsrin kontraktı"nın imzalanmasından sonra Azərbaycana böyük həcmdə sərmayə qoyuluşu başlamışdır və eyni zamanda ondan sonra digər kontraktlar da imzalandı. "Əsrin kontraktı"nın çox böyük əhəmiyyəti var. Bu gün də bu əhəmiyyət kifayət qədər böyükdür. İki il bundan əvvəl kontraktın müddəti uzadıldı, 2050-ci ilə qədər bu kontrakt qüvvədə olacaq. Yəni bu o deməkdir ki, Azərbaycanın neft-qaz resursları, eləcə də "Azəri–Çıraq–Günəşli" yataqlarından çıxarılacaq neft-qaz bundan sonra da uzun illər ərzində Azərbaycan xalqına, dövlətinə xidmət göstərəcək.

Onu da bildirməliyəm ki, sərginin "Şahdəniz" qaz-kondensat yatağı üzrə imzalanmış Sazişə də çox böyük dəstəyi olmuşdur. Çünki o Saziş məhz 1996-cı ildə keçirilmiş sərgi zamanı imzalanmışdır. O vaxt "Şahdəniz" yatağına xarici investorları cəlb etmək o qədər də asan məsələ deyildi. Çünki xarici şirkətlərin əsas hissəsi neft yataqlarına daha böyük maraq göstərirdi. Çünki mənfəət baxımından əlbəttə ki, bu daha cəlbedicidir. Qaz yataqlarına isə maraq o qədər də böyük deyildi. O vaxt bütövlükdə qaz amili enerji təhlükəsizliyi baxımından o qədər də böyük əhəmiyyət kəsb etmirdi. Buna görə "Şahdəniz" yatağı üzrə imzalanmış kontraktın da ölkəmiz üçün çox böyük faydası oldu və bu gün biz bunun xeyrini görürük. Çünki bu gün "Şahdəniz"dən çıxarılan qaz həm

daxili bazara göndərilir, eyni zamanda bizim ixrac potensialımızı artırır. "Şahdəniz" bu gün Cənub Qaz Dəhlizinin resurs bazasıdır. Məhz "Şahdəniz" yatağının mövcudluğuna, yatağın işlənilməsinə görə bu gün nəhəng Cənub Qaz Dəhlizi layihəsi icra edilir.

"Azəri–Çıraq–Günəşli" və "Şahdəniz" yataqları üzrə imzalanmış kontraktlar tarixi əhəmiyyət daşıyır. Ondan sonra da kontraktlar imzalanmışdır. Onların bəzilərinə xitam verildi. Çünki biz beynəlxalq təcrübədə də kifayət qədər tez-tez bu vəziyyətlə rastlaşırıq ki, qazma işləri aparılır, amma kifayət qədər mənbə aşkar olunmur. Amma yenə də deyirəm, "Şahdəniz" və "Azəri–Çıraq–Günəşli" bizim neft-qaz sektorumuzun əsas hissəsini təşkil edir.

Əlbəttə ki, növbəti mərhələdə neft-qaz kəmərlərinin tikintisi məsələsi gündəliyə çıxmışdır və bu məsələ də uğurla həll olundu. Hesab edirəm ki, bu da tarixi layihədir. 2006-2007-ci illərdə nəhəng neft-qaz kəmərlərinin istifadəyə verilməsindən sonra Azərbaycanın böyük ixrac imkanları olmuşdur və Xəzər dənizindən çıxarılan neft-qaz həm daxili bazara, həm də ki, xarici bazarlara göndərilməyə başlanmışdır.

"Əsrin kontraktı"nın əhəmiyyəti eyni zamanda onda idi ki, ilk dəfə olaraq Xəzər dənizinə xarici neft şirkətləri dəvət olundu və onlar Xəzər dənizinin zəngin neft-qaz yataqlarının işlənilməsi ilə məşğul olmağa başladılar. İxrac neft-qaz kəmərlərinin tikintisindən sonra, əlbəttə ki, Azərbaycan yeni mərhələyə qədəm qoydu və digər yataqlar üzrə danışıqlar aparılmağa başlanmışdır. Onların bir neçəsi artıq qüvvədədir və hesab edirəm ki, yaxın illərdə biz yeni yataqlardan enerji resurslarımızı hasil edəcəyik.

Cənub Qaz Dəhlizinin reallaşması tarixi hadisədir. Bu nəhəng infrastruktur layihəsi həm ölkəmiz, həm də digər ölkələr üçün böyük əhəmiyyət daşıyır. Cənub Qaz Dəhlizinin reallaşması üçün bir çox önəmli addımlar atılmışdır və əlbəttə ki, burada beynəlxalq əməkdaşlıq xüsusi yer tutur. Çünki əgər genişmiqyaslı beynəlxalq əməkdaşlıq olmasaydı, bu nəhəng layihəni icra etmək mümkün olmazdı. 2012-ci ildə Azərbaycan ilə Türkiyə arasında imzalanmış TANAP layihəsi Cənub Qaz Dəhlizinin önəmli hissəsidir. Keçən il – düz bir il bundan əvvəl mayın 29-da Səngəçal terminalında Cənub Qaz Dəhlizinin rəsmi açılışı olmuşdur. Beləliklə, bu böyük layihənin icrası istiqamətində çox önəmli addımlar atılmışdır. Bildiyiniz kimi, Cənub Qaz Dəhlizi dörd hissədən ibarətdir. Onlardan üçü artıq reallaşıb, dördüncü layihə də uğurla icra edilir. Keçən il TANAP-ın istifadəyə verilməsindən sonra Azərbaycan öz qaz resurslarını xarici bazarlara daha böyük həcmdə ixrac etməyə başlamışdır. Beləliklə, Cənub Qaz Dəhlizinin reallaşması üçün çox önəmli şərait yaradılmış və addımlar atılmışdır.

Azərbaycan bir çox xarici enerji şirkətləri ilə uğurlu əməkdaşlıq aparır və bu əməkdaşlığın böyük tarixçəsi var. Hər bir şirkətlə əməkdaşlıq aparmaq bizim üçün çox önəmlidir, ancaq mən xüsusilə "BP" şirkətini qeyd etmək istərdim. Çünki "BP" şirkəti

bizim strateji tərəfdaşımızdır, strateji investordur. Biz 25 ildir ki, əməkdaşlıq edirik. Bu əməkdaşlıq həm ölkəmiz, həm də şirkət üçün çox uğurludur. Hesab edirəm ki, bu əməkdaşlıq nümunəvi xarakter daşıyır və bu əməkdaşlığın gözəl gələcəyi var. Çünki qeyd etdiyim kimi, təkcə "Azəri–Çıraq–Günəşli" yatağı üzrə işlər ən azı 2050-ci ilə qədər aparılacaqdır. "Şahdəniz" qaz-kondensat yatağının işlənilməsi də bundan sonra onilliklər ərzində aparılacaqdır. Beləliklə, bizim strateji tərəfdaşlığımızın çox gözəl perspektivləri vardır.

Biz bu layihələri, əlbəttə ki, o cümlədən xarici maliyyə resurslarının hesabına icra etdik. Həm öz vəsaitimizi qoyduq, həm də beynəlxalq maliyyə qurumlarından kredit şəklində vəsait aldıq. Bu münasibətlə bu qurumların Azərbaycana dəstəyi haqqında danışmaq istərdim. Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnkişaf Bankı, Avropa İnvestisiya Bankı – dünyanın bu aparıcı maliyyə qurumları Cənub Qaz Dəhlizinin reallaşmasına öz maliyyə vəsaitini ayırıb və beləliklə, layihənin icrası üçün çox önəmli dəstək vermiş olublar. Eyni zamanda bu kreditlərin ayrılması Azərbaycanın uğurlu gələcəyinə inamın təzahürüdür.

Biz bu layihənin həyata keçirilməsi üçün Avropa İttifaqı ilə əməkdaşlıq aparırıq. 2011-ci ildə Avropa İttifaqı ilə Azərbaycan arasında Cənub Qaz Dəhlizi ilə əlaqədar Birgə Bəyannamə qəbul edilmişdir. Bizim təşəbbüsümüzlə hər il Bakıda Cənub Qaz Dəhlizinin Məşvərət Şurası keçirilir. Bu ilin fevral ayında 5-ci toplantı keçirilmişdir. Bu toplantılarda həm görülmüş işlərə yekun vurulur, eyni zamanda ən önəmlisi odur ki, görüləcək işlər haqqında danışılır. Əlbəttə, biz əminik ki, bu nəhəng layihənin uğurla icra edilməsinə nail olacağıq. Çünki bu gün həm beynəlxalq əməkdaşlıq baxımından, həm də maliyyə resursları baxımından bu layihənin reallaşması üçün heç bir problem qalmır.

Mən bir qədər əvvəl beynəlxalq əməkdaşlıq haqqında fikirlərimi bildirdim. Bir daha demək istəyirəm, çünki belə nəhəng layihələri biz ancaq beynəlxalq əməkdaşlıq çərçivəsində həll edə bilərik. Çünki əgər o olmasa, o layihələri icra etmək mümkün olmaz. Neft-qaz kəmərləri, investisiya qoyuluşu, beynəlxalq maliyyə qurumlarının iştirakı və əlbəttə ki, birgə səylərimiz nəticəsində biz buna nail ola bilmişik. Hesab edirəm ki, Azərbaycan bu məsələ ilə bağlı istədiyinə tam nail ola bildi.

Sirr deyil ki, bu gün enerji təhlükəsizliyi məsələləri böyük əhəmiyyət daşıyır. Enerji təhlükəsizliyi məsələləri ölkələrin milli təhlükəsizliyi məsələləridir. Bu baxımdan Azərbaycan tərəfindən reallaşan və bizim təşəbbüsümüzlə həyata keçirilən layihələr həm ölkəmizin, həm də bir çox ölkələrin enerji təhlükəsizliyini təmin edir. Bu gün Azərbaycan nefti və qazı dünya bazarlarına müxtəlif yollarla ixrac edilir. Enerji təhlükəsizliyi və enerji resurslarının şaxələndirilməsi məsələləri bu gün çox böyük əhəmiyyət daşıyan məsələlərdir. Ölkəmizin bu sahədəki rolu qiymətləndirilir. Azərbaycan bu məsələlərlə bağlı ardıcıl və uğurlu siyasət aparır.

Ölkə iqtisadiyyatı üçün bu layihələrin çox böyük əhəmiyyəti var. Çünki təsəvvür edin, əgər 1994-cü ildə "Əsrin kontraktı" imzalanmasaydı və Azərbaycan öz zəngin neft-qaz resurslarını dünya bazarlarına ixrac etməsəydi, bizim iqtisadi vəziyyətimiz tam fərqli ola bilərdi. Ona görə bu layihələr ölkə iqtisadiyyatına çox böyük təkan vermişdir. Azərbaycanda biznes mühitinin yaxşılaşdırılması, kadr hazırlığı üçün yeni imkanlar yaradılmışdır. Bu gün Azərbaycanda fəaliyyət göstərən xarici şirkətlərdə və neft-qaz əməliyyatlarında iştirak edənlərin mütləq əksəriyyəti Azərbaycan vətəndaşlarıdır. Gözəl təlim və təhsil almış gənc Azərbaycan mütəxəssisləri bu gün ölkəmiz üçün çox böyük işlər görürlər. Kadr hazırlığı, biznes mühitinin yaxşılaşdırılması, beynəlxalq əməkdaşlıq – bütün bunlar bu layihələrin nəticəsində mümkün olmuşdur və ölkəmizə böyük fayda vermişdir.

Dövlət Neft Fondunun yaradılması və Dövlət Neft Fondunun xətti ilə ən vacib məsələlərin həlli – bu da uğurlu neft siyasətimizin nəticəsində olmuşdur. Yüzdən çox köçkün şəhərciyi Dövlət Neft Fondunun xətti ilə inşa edilmişdir. Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi və infrastruktur layihələrinə investisiya qoyuluşu da məhz bu layihələrlə bağlıdır. Biz son illər ərzində əsas infrastruktur layihələrimizi icra etdik və bu istiqamətdə işlər davam etdirilir. Həm yol tikintisi, həm qazlaşdırma, həm də elektrik enerjisi ilə bağlı olan məsələlər Azərbaycanda uğurla icra edilir. Qazlaşdırma 95 faizə çatıb. Əgər kifayət qədər qaz resurslarımız olmasaydı, bu mümkün olmazdı. Yəni bu layihələrin icrası və ümumiyyətlə, Azərbaycanın əsası Heydər Əliyev tərəfindən qoyulmuş neft strategiyasının icrası tamamilə yeni bir vəziyyət yaratmış və ölkəmiz sürətlə inkişaf etməyə başlamışdır. Biz neftdən əldə edilən gəlirləri qeyri-neft sektorunun inkişafına, insan kapitalına qoymağa başlamışıq. Üç mindən çox məktəb, 600-dən çox tibb ocağının tikilməsi, yenilənən infrastruktur, sosial layihələrin, vətəndaşların sosial problemlərinin həlli – bütün bunların təməlində bizim uğurlu neft siyasətimiz dayanır. Bu gün isə ölkə qarşısında duran əsas vəzifə neft-qaz amilindən asılılığı azaltmaq və qeyri-neft sektorunu inkişaf etdirməkdir. Bu istiqamətdə də önəmli addımlar atılır. Dünya Bankının son hesabatında biznes mühitinə görə Azərbaycan dünya miqyasında 25-ci yerdədir. Yəni bu onu göstərir ki, biz bu gün iqtisadiyyatın şaxələndirilməsi istiqamətində çox önəmli addımlar atırıq. Eyni zamanda bilməliyik ki, neft-qaz sektoru bundan sonra da ölkə iqtisadiyyatında çox önəmli rol oynayacaqdır.

Mən bu gün Azərbaycan neftçilərinin əməyini qeyd etmək istərdim. Azərbaycanda neftçi peşəsi həmişə böyük hörmətə malik olub, bu gün də bu belədir. Azərbaycan neftçiləri ölkəmizin uğurlu inkişafı üçün çox böyük işlər görürlər, qəhrəmanlıq göstərirlər, ağır şəraitdə, dənizdə ölkəmizin qüdrətini artırırlar.

Bugünkü Azərbaycan reallıqları onu göstərir ki, biz düzgün yoldayıq. 1994-cü ildə başlanmış və uğurla davam etdirilən neft-qaz siyasətimiz bu gün Azərbaycanın reallıqlarını

şərtləndirən əsas amillərdən biridir. Bu gün Bakı şəhəri dünyanın ən gözəl şəhərlərindən biridir. Biz regional inkişaf proqramını uğurla icra edirik. Əlbəttə, bundan sonra da çalışmalıyıq ki, büdcəmizi daha çox qeyri-neft sektorunun hesabına təmin edək və buna yaxınlaşırıq. Ancaq onu da bilməliyik ki, neft-qaz sektoru bizim üçün prioritet sektor olaraq qalacaqdır.

Mən sərginin keçirilməsi münasibətilə sizi bir daha təbrik etmək istəyirəm. Sərginin təşkilatçılarına təşəkkürümü bildirmək istəyirəm. Sərgiyə uğurlar arzulayıram. Sağ olun.

**AZƏRTAC**
*29 may 2019-cu il*

# PREZİDENT İLHAM ƏLİYEV "BP"NİN DİREKTORLAR ŞURASININ SƏDRİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL EDİB

*5 sentyabr 2019-cu il*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 5-də "BP"nin Direktorlar Şurasının sədri Helqe Lundun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Görüşdə Azərbaycan ilə "BP" arasında uzun illər ərzində uğurlu əməkdaşlığın həyata keçirildiyi qeyd olundu, neft və qaz sənayesinin inkişafının Azərbaycan iqtisadiyyatının şaxələndirilməsindəki rolu vurğulandı, Bakıda və regionlarda böyük infrastruktur layihələrinin reallaşdırıldığının önəmi qeyd edildi.

Sonuncu dəfə 2014-cü ildə Azərbaycana səfər etdiyini deyən "BP"nin Direktorlar Şurasının sədri Helqe Lund ötən dövr ərzində Bakıda gedən böyük inkişaf proseslərinin şahidi olduğunu dedi. Sentyabrın 20-də "Əsrin müqaviləsi"nin 25 illiyinin qeyd ediləcəyini vurğulayan qonaq bu layihənin Azərbaycanın inkişafındakı rolunu xüsusi qeyd etdi.

Söhbət zamanı Xəzərin Azərbaycan sektorunda əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

**AZƏRTAC**
*5 sentyabr 2019-cu il*

## PREZİDENT İLHAM ƏLİYEV "ƏSRİN MÜQAVİLƏSİ"NİN 25 İLLİYİ VƏ NEFTÇİLƏR GÜNÜ MÜNASİBƏTİLƏ KEÇİRİLƏN MƏRASİMDƏ İŞTİRAK EDİB

*20 sentyabr 2019-cu il*

Sentyabrın 20-də Heydər Əliyev Mərkəzində "Əsrin müqaviləsi"nin 25 illiyi və Neftçilər Günü münasibətilə mərasim keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak edib.

Dövlətimizin başçısı tədbirdə nitq söylədi.

### PREZİDENT İLHAM ƏLİYEVİN NİTQİ

– Hörmətli xanımlar və cənablar, əziz dostlar.

Bu gün Azərbaycanda çox əlamətdar bir gündür. Bu gün biz Neftçilər gününü qeyd edirik. Bütün Azərbaycan neftçilərini peşə bayramı münasibətilə ürəkdən təbrik edirəm, onlara yeni uğurlar, yeni qələbələr arzulayıram.

Neftçi peşəsi Azərbaycanda həmişə çox hörmətli peşə olub. Bu gün də belədir, sabah da belə olacaq. Azərbaycan neftçiləri ölkəmizin iqtisadi qüdrətinin artırılması istiqamətində çox böyük işlər görüblər, böyük töhfələr veriblər. Bu gün Azərbaycanın neft-qaz sektoru öz yeni inkişaf dövrünü yaşayır.

Bildiyiniz kimi, dünyada sənaye üsulu ilə ilk neft məhz Azərbaycanda hasil edilmişdir. Bu gün şəhərimizin mərkəzində dünyanın ilk neft quyusu bir turizm obyekti kimi fəaliyyət göstərir. O gündən bu günə qədər Azərbaycanda böyük həcmdə neft hasil edilmişdir. Bildiyiniz kimi, dəniz yataqlarından da dünya miqyasında ilk neft Azərbaycanda hasil edilmişdir və bu gün biz Azərbaycan neft sənayesinin yeni mərhələsinin şahidiyik.

Bu gün Azərbaycan nefti müstəqil Azərbaycan dövlətinə xidmət göstərir. Biz hamımız yaxşı xatırlayırıq ki, "Əsrin kontraktı"nın imzalanması ölkəmizin yeni mərhələyə qədəm qoymasına şərait yaratdı. 1990-cı illərin əvvəllərində gənc müstəqil Azərbaycan dövləti çox böyük çətinliklərlə, çağırışlarla üz-üzə qalmışdı. Ovaxtkı hakimiyyətin səriştəsizliyi,

yarıtmaz fəaliyyəti, xəyanətkar addımları ölkəmizi uçurum kənarına qoymuşdu. 1991–1993-cü illər ağır faciəli illər kimi tariximizdə qalacaq. Ölkəmizi böhran bürümüşdü – siyasi, iqtisadi böhran, sənaye iflic vəziyyətdə idi. İqtisadi sahədə yaşanan tənəzzül gənc müstəqil ölkənin inkişafı üçün çox böyük maneələr törədirdi.

Azərbaycan xalqı özünə xas müdriklik nümayiş etdirərək 1993-cü ildə Ulu öndər Heydər Əliyevə üz tutub, onu hakimiyyətə dəvət etmişdir. O gündən bu günə qədər Azərbaycan sabitlik dövrü yaşayır, Azərbaycan inkişaf yolu ilə gedir. 1993-cü ildən bu günə qədər aparılan islahatlar, görülmüş işlər Azərbaycanı dünya miqyasında uğurla inkişaf edən ölkə kimi tanıdır. O vaxt iqtisadi və siyasi sahədə yaşanan böhran böyük təhlükə mənbəyi idi. Heydər Əliyevin cəsarəti, uzaqgörənliyi, fədakarlığı Azərbaycanı bütün bəlalardan qoruya bilmişdir. Vətəndaş müharibəsinə son qoyuldu, Azərbaycan islahatlar yoluna qədəm qoydu. Müstəqil dövlətin Konstitusiyası qəbul edildi. Qeyri-qanuni silahlı birləşmələr tərk-silah edildi, ölkədə qayda-qanun yaradıldı. Əlbəttə ki, ölkəmizin gələcək inkişafı ilə bağlı ciddi addımlar atılmalı idi və "Əsrin kontraktı"nın imzalanması bu addımlar sırasında xüsusi yer tutur.

"Əsrin kontraktı"nın imzalanması tarixi hadisədir. Bu kontraktın faydasını bu gün Azərbaycan dövləti, Azərbaycan xalqı görür. Təsəvvür etmək çətindir ki, əgər "Əsrin kontraktı" imzalanmasaydı, Azərbaycan o vaxt nəyin hesabına öz iqtisadi inkişafını təmin edə bilərdi. Biz nəyin hesabına uğurla inkişaf edə bilərdik. "Əsrin kontraktı"nın bizim müstəqil tariximizdə xüsusi yeri, xüsusi rolu var. Bu kontraktın imzalanması da asan məsələ deyildi. Uzun müddət ərzində aparılan danışıqlar nəticə vermirdi. Əlbəttə, hər iki tərəf çalışırdı ki, özü üçün daha əlverişli və məqbul şərtləri əldə etsin. Hesab edirəm ki, biz "Əsrin kontraktı"nın timsalında beynəlxalq əməkdaşlığın müsbət tərəfini görürük. Çünki həm sərmayə qoyan tərəf – investorlar, həm də ki, Azərbaycan dövləti maraqlar balansını taparaq ən məqbul şərtlərlə özləri üçün bu kontraktı imzaladılar. Əgər investorları kontraktların şərtləri qane etməsə, onda, əlbəttə ki, heç bir kontraktın imzalanmasından söhbət gedə bilməz. Eyni zamanda Azərbaycan dövlətinin maraqları da tam şəkildə təmin edildi. Bu gün kontraktın icrasının nəticəsi olan yenilənən, müasirləşən, güclənən Azərbaycan bu sözlərimin əyani sübutudur.

Mən danışıqların son mərhələsini yaxşı xatırlayıram. Amerikanın Hyuston şəhərində bir aydan çox danışıqlar gedirdi. Bu danışıqlar həlledici rol oynamışdır. Kontraktın qüvvəyə minməsi Azərbaycanı yeni inkişaf yoluna çıxardı və bu gün "Əsrin kontraktı" bizim neft sənayemizin inkişafında öz rolunu oynayır. İki il bundan əvvəl kontraktın müddətinin 2050-ci ilə qədər uzadılması göstərir ki, 1994-cü ildə nə qədər düzgün qərar qəbul edilmişdir.

"Əsrin kontraktı" Ulu öndər Heydər Əliyevin neft strategiyasının tərkib hissəsidir, onun başlanğıcıdır. Məhz Heydər Əliyevin cəsarəti, müdrikliyi sayəsində Azərbaycan

özünü dünyaya təqdim edə bildi. Tarixdə ilk dəfə xarici şirkətlər Xəzər dənizində neft-qaz yataqlarının işlənilməsində iştirak etməyə başlamışlar. "Əsrin kontraktı"nın imzalanması nəticəsində on minlərlə yeni iş yeri yaradılmışdır. Azərbaycanda minlərlə şirkət bu kontraktın icrasında podratçı kimi fəaliyyət göstərir. Yəni "Əsrin kontraktı"nın çox böyük faydası var.

Eyni zamanda o vaxt Azərbaycan dünyada riskli bir ölkə kimi tanınırdı. Ermənistanın ölkəmizin torpaqlarını işğal etməsi, gedən vətəndaş müharibəsi, iqtisadi çətinliklər, bir daha demək istəyirəm ki, Azərbaycanı investisiya üçün əlverişli ölkə kimi təqdim edə bilməzdi. O vaxt Ulu öndər Heydər Əliyevin xidmətlərindən biri də o olmuşdu ki, investorları inandıra bilmişdi və Dövlət Neft Şirkətinin rəhbərliyi – bizim dostumuz rəhmətlik Natiq Əliyev, Xoşbəxt Yusifzadə, Valeh Ələsgərov, mən və digər əməkdaşlar çalışırdıq investorları inandıraq ki, Azərbaycana sərmayə qoymaq olar, sərmayə qoymaq lazımdır və Azərbaycana bu gün sərmayə qoyan sabah böyük fayda görəcək. Belə də oldu. "Əsrin kontraktı"nın icrasına qoyulmuş sərmayə artıqlaması ilə qaytarıldı. Xarici investorlar milyardlarla dollar gəlir əldə etdilər. Azərbaycan dövləti yüz milyard dollardan çox gəlir əldə etdi.

Yəni bir daha demək istəyirəm ki, bu, dünya təcrübəsində özünə layiqli yer tutan kontraktdır. Çünki həm dövlətin, həm də investorların maraqları təmin olundu. Eyni zamanda neftdən əldə edilmiş gəlirlər ölkəmizin sürətli inkişafına şərait yaratdı. Biz dünyada neft sənayesində gedən işlərdən xəbərdarıq. Bir çox hallarda neft xoşbəxtlik gətirmir, faciə gətirir, qarşıdurma gətirir, qeyri-bərabərlik gətirir, ədalətsizlik gətirir. Azərbaycanın timsalında neft xeyir gətirib. Çünki neftdən əldə edilmiş gəlirlər ümumi inkişafımıza sərmayə kimi qoyuldu. Sosial məsələlərin həlli üçün şərait yaratdı. Ölkəmizin beynəlxalq mövqelərinin möhkəmləndirilməsi üçün imkan yaratdı. Müasirləşən şəhərlər, abadlaşan kəndlər, ölkədə gedən quruculuq, abadlıq – bütün bunların təməlində bizim neft sənayemiz dayanır.

Biz, əlbəttə ki, bu gün iqtisadi sahədə şaxələndirmə yolunu seçmişik. Yəni neftdən asılılığı aşağı salmağa çalışırıq, qeyri-neft sektorunu inkişaf etdiririk. Ancaq bilməliyik ki, bu gün və sabah ölkəmizin aparıcı sektoru neft-qaz sektorudur. Bu gün və sabah ölkəmizin uğurlu inkişafı üçün bizim qəhrəman neftçilərimizin əməyi əvəzolunmazdır. Məhz bizim neftçilərimiz bu gün Azərbaycanın qüdrətini, inkişafını təmin edirlər. Ona görə neft-qaz sektorunun bundan sonra da uğurla inkişafı prioritet məsələlərdən biridir. Mən yenə də bunu ona görə deyirəm ki, biz iqtisadi inkişafla bağlı apardığımız siyasəti təbii olaraq qeyri-neft sektoru üzərində qururuq. Ancaq bilməliyik ki, əgər neft sektoru inkişaf etməsə, bizim qeyri-neft sektorumuz bu gün ölkəmizin tələbatını ödəyə bilməz.

"Əsrin kontraktı"nın imzalanmasından sonra xarici şirkətlər anladılar ki, Azərbaycana sərmayə qoymaq olar və sərmayə qoymaq lazımdır. Yaxşı xatırlayıram, bir çox xarici şirkət

Azərbaycana üz tutub, təkliflərini irəli sürüb və bizimlə əməkdaşlıq etmək haqqında öz niyyətini ifadə etmişdir. Beləliklə, “Əsrin kontraktı”ndan sonra onlarla kontrakt, 40-a yaxın pay bölgüsü sazişi imzalandı. Düzdür, onların bir hissəsinə xitam verildi. Çünki orada kəşfiyyat işlərində lazımi həcmdə neft-qaz resursları tapılmadı. Ancaq digər layihələr bu gün qüvvədədir və bizim qüdrətimizi daha da artırır. Xüsusilə “Şahdəniz” qaz-kondensat yatağının işlənilməsini qeyd etmək istərdim. “Şahdəniz” üzrə kontrakt “Əsrin kontraktı”ndan iki il sonra – 1996-cı ildə imzalandı. O vaxt dünya enerji aləmində qaz yataqları o qədər də böyük əhəmiyyət kəsb etmirdi. Bu gün təbii qaz enerji təhlükəsizliyi üçün həlledici məsələdir. Ancaq o vaxt belə deyildi. Ona görə “Şahdəniz” üzrə kontraktın imzalanması da tarixi hadisədir. Bu gün “Şahdəniz” Cənub Qaz Dəhlizinin əsas resurs bazasıdır. “Şahdəniz” qaz-kondensat yatağı dünyanın ən böyük yataqlarından biridir. “Azəri–Çıraq–Günəşli” və “Şahdəniz” yataqları eyni əhəmiyyətə malikdir.

Ondan sonra neft-qaz kəmərləri inşa edilməyə başlamışdır. Bakı–Novorossiysk kəməri yenidən quruldu. Bakı–Supsa kəməri 1999-cu ildə işə salındı. Bakı–Tbilisi–Ceyhan, – hansı ki, Ulu öndər Heydər Əliyev özü şəxsən bu kəmərin təməlini qoymuşdu, – 2006-cı ildə biz tərəfdən uğurla başa çatdırıldı. 2007-ci ildə Bakı–Tbilisi–Ərzurum qaz kəməri istifadəyə verildi və Azərbaycan öz təbii qazını ixrac etməyə başladı. 2012-ci ildə Azərbaycan və Türkiyə arasında TANAP qaz kəməri üzrə saziş imzalanmışdır. “Şahdəniz” yatağının tam miqyasda işlənilməsi üçün bu hadisənin xüsusi yeri vardır. Keçən il biz böyük təntənə ilə həm TANAP-ı, həm Cənub Qaz Dəhlizini rəsmi şəkildə açdıq və bu gün TANAP uğurla fəaliyyət göstərir.

Bütün bunlar bizim tariximizdir. Əlbəttə, bu gün bu məclisdə bir çıxışda neft-qaz sənayesi sahəsində görülmüş bütün işləri sadalamaq qeyri-mümkündür. Buna, bəlkə də, saatlar, günlər lazımdır. Qazma qurğularının Azərbaycanda tikintisi, on minlərlə Azərbaycan vətəndaşının işlə təmin edilməsi, ölkəmizə gələn gəlirlərdən düzgün istiqamətdə istifadə edilməsi, yəni bütün bunlar bugünkü reallıqlardır.

Bu gün Azərbaycanın uğurlu inkişafı timsalında biz məhz o illərdə atılmış addımların təzahürünü görürük. Görürük ki, Ulu öndər Heydər Əliyevin bütün başqa xidmətləri ilə bərabər, bu sahədə xalq qarşısında, dövlət qarşısında göstərdiyi xidmətlər ən yüksək qiymətə layiqdir. Biz – onun davamçıları bu sahədə öz işlərimizi davam etdiririk. Bu gün yeni kontraktlar imzalanır, Azərbaycanın neft-qaz sənayesinə böyük maraq var. Azərbaycan beynəlxalq əməkdaşlıq sahəsində, enerji sahəsində böyük uğurlar əldə edib. Mən fürsətdən istifadə edərək bizim strateji tərəfdaşımızın – “BP” şirkətinin fəaliyyətini qeyd etmək istərdim. Bizim əsas strateji layihələrimizdə “BP” əsas tərəfdaşımızdır. Həm “Azəri–Çıraq–Günəşli” yatağının, həm “Şahdəniz” yatağının işlənilməsində, TANAP-da və yeni imzalanmış digər kontraktlar əsasında bizim əməkdaşlığımız uzunmüddətlidir, artıq 25 il tarixi var. Bu əməkdaşlıq bundan sonra ən azı 25-30 il davam edəcəkdir.

Bir məsələni də qeyd etmək istəyirəm. "Əsrin kontraktı"nın ölkəmiz üçün, xalqımız üçün çoxşaxəli faydası var. Ancaq onlardan biri də kadr hazırlığıdır. Xatırlayıram, 1994-cü ildə kontraktın üzərində iş aparılarkən xüsusi qeyd edirdik ki, biz istəyirik kontraktda Azərbaycan vətəndaşlarının işə cəlb olunması məsələsi göstərilsin. Biz istəyirdik ki, bu, bir öhdəlik kimi konsorsiumun şirkətləri üzərinə qoyulsun ki, Azərbaycan mütəxəssisləri tədricən bütün əsas vəzifələrdə işləsinlər və belə də oldu. Əlbəttə ki, birinci illərdə xarici mütəxəssislər çoxluq təşkil edirdi. Ancaq xarici şirkətlər və Azərbaycan tərəfindən aparılmış təlim kursları çox güclü kadr potensialı yaratdı. Mənə verilən məlumata görə, bu gün bu təlimlərdən keçmiş mütəxəssislər "BP" şirkətinin nəinki Azərbaycanda, bir çox ölkələrdə önəmli layihələrində iştirak edirlər, önəmli vəzifələrdə çalışırlar. Bu gün "Azəri–Çıraq–Günəşli" neft yatağının işlənilməsində çalışanların 90 faizdən çoxu Azərbaycan vətəndaşıdır, yəni bunu biz təmin etdik. Bu çox böyük sərvətdir. Neft, qaz tükənən sərvətlərdir. İntellektual potensial, bilik, savad, səriştə, təcrübə isə dəyişməz sərvətdir. Bu təlimlərdən keçmiş Azərbaycan vətəndaşları, mütəxəssisləri bu gün çox böyük işlər görürlər, ölkəmizin inkişafına böyük töhfə verirlər. Neftdən əldə edilmiş gəlirlər ölkə iqtisadiyyatının inkişafında istifadə olundu. Biz bunu o istiqamətə yönəltdik. İnfrastruktur tamamilə yeniləndi. Yadınıza salın, 1994-cü ildə bizim infrastrukturumuz nə vəziyyətdə idi, bu gün nə vəziyyətdədir. O vaxt hətta Bakı şəhərinin yarısı təbii qaz ala bilmirdi. Rayonlarda bundan söhbət gedə bilməzdi. Bu gün Azərbaycanda qazlaşdırma 96 faizdir. Biz ən ucqar dağ kəndlərinə qaz xətləri çəkmişik və bu proses davam etdirilir. Mən Dövlət Neft Şirkətinə tapşırıq vermişəm ki, bu işlər dayanmasın. Düzdür, 96 faiz çox böyük rəqəmdir. Nadir hallarda ölkələrdə bu dərəcədə qazlaşdırma aparılır. Amma biz bunu davam etdirməliyik. O illərdə ölkəmizin yarısı işıqsız qalırdı. Bakı şəhərinin özündə işıq çatışmırdı. Hətta bəzi hallarda saat 12-də televiziya kanalları da fəaliyyətini dayandırırdı ki, vətəndaşlar elektrikdən az istifadə etsinlər. Çünki elektrik çatışmırdı. Artıq 3 min meqavata yaxın yeni generasiya gücləri yaradılıb və biz nəinki özümüzü təmin edirik, ixrac da edirik.

Yollar bərbad vəziyyətdə idi. Davos Dünya İqtisadi Forumunun hesablamalarına əsasən, bu gün Azərbaycan yolları keyfiyyətinə görə dünya miqyasında 34-cü yerdədir. İçməli su böyük problem idi. Bu gün əhalinin 75 faizi dayanıqlı içməli su ilə təmin edilir və bu proses davam etdirilir.

Məcburi köçkünlər üçün yüzdən çox şəhərcik salındı. Çadır şəhərciklərini biz hələ 2007-ci ildə ləğv etdik. Nəyin hesabına? Neft Fondunun hesabına. Neft Fonduna vəsait haradan gəlir? "Əsrin kontraktı"nın icrasından. Biz yüz minlərlə köçkünə yeni evlər verdik, yeni mənzillər təqdim etdik. Şəhid ailələrinə, müharibə veteranlarına edilən güzəştlər, verilən müavinətlər, mənzillər, minik avtomobilləri. Yəni "Əsrin kontraktı"nın

çox böyük faydası var və biz vəsaitdən düzgün istifadə etdik. Neft Fondunun gəlirlərindən yalnız büdcə çərçivəsində istifadə etmək mümkündür. Yəni Azərbaycan vətəndaşları Milli Məclisdə öz təmsilçiləri vasitəsilə bu vəsaitin bölgüsündə iştirak edirlər.

Sosial infrastruktur tamamilə yenidən quruldu, 3200-dən çox məktəb, 640-dan çox xəstəxana tikildi və təmir olundu, idman qurğuları inşa edildi. Azərbaycan kosmik dövlətə çevrildi. Bizim 3 peykimiz var. Biz gəlirlərdən istifadə edərək dövlət borcumuzu aşağı səviyyədə saxlayırıq. Bu, ümumi daxili məhsulun cəmi 19 faizini təşkil edir. Bizim valyuta ehtiyatlarımız xarici borcumuzdan beş dəfə artıqdır. Bu hansı ölkələrdə ola bilər? Var, amma bu ölkələrin sayı o qədər də çox deyil.

"Əsrin kontraktı"nın faydasından çox danışmaq olar. Bundan sonra da neftin satışından əldə ediləcək gəlirlər ilk növbədə sosial məsələlərə, infrastruktur layihələrinə, iqtisadiyyatın şaxələndirilməsinə yönəldiləcək ki, Azərbaycanın uzunmüddətli və dayanıqlı inkişafı təmin edilsin.

Mən bu gözəl tarix – "Əsrin kontraktı"nın 25 illiyi və Neftçilər günü münasibətilə bir daha sizi təbrik etmək istəyirəm. Azərbaycan neftçilərinə yeni uğurlar, yeni qələbələr arzulayıram. Sağ olun.

***

Sonda "BP"nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Counz Prezident İlham Əliyevə "Əsrin müqaviləsi"nin 25 illiyi münasibətilə "Azəri–Çıraq–Günəşli" yatağını simvolizə edən markaların toplusunu hədiyyə etdi.

**AZƏRTAC**

*20 sentyabr 2019-cu il*

## TÜRKİYƏNİN İPSALA QƏSƏBƏSİNDƏ TANAP QAZ KƏMƏRİNİN AVROPA İLƏ BİRLƏŞƏN HİSSƏSİNİN AÇILIŞ MƏRASİMİ KEÇİRİLİB

*30 noyabr 2019-cu il*

### Prezident İlham Əliyev mərasimdə iştirak edib

Noyabrın 30-da Türkiyənin Ədirnə vilayətinin İpsala qəsəbəsində TANAP qaz kəmərinin Avropa ilə birləşən hissəsinin açılış mərasimi keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak edib.

Əvvəlcə Cənub Qaz Dəhlizinin ən mühüm seqmentlərindən biri və Avropanın enerji təhlükəsizliyində mühüm amil olan TANAP – Trans-Anadolu qaz boru kəməri layihəsinin icrasına həsr olunmuş videoçarx nümayiş etdirildi.

SOCAR-ın prezidenti Rövnəq Abdullayev və Türkiyənin Enerji və Təbii Sərvətlər naziri Fatih Dönməz TANAP layihəsinin əhəmiyyətindən danışdılar.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə çıxış etdi.

#### PREZİDENT İLHAM ƏLİYEVİN ÇIXIŞI

– Hörmətli Türkiyə Respublikasının Prezidenti, əziz qardaşım Rəcəb Tayyib Ərdoğan.

Hörmətli dövlət və hökumət başçıları.

Əziz dostlar.

İlk növbədə qardaşım Rəcəb Tayyib Ərdoğana məni bu tarixi mərasimə dəvət etdiyi və göstərdiyi qonaqpərvərlik üçün dərin təşəkkürümü bildirmək istəyirəm. Qardaş Türkiyə torpağında yenidən olmağımdan çox məmnunam.

Bu gün tarixi gündür. Bu gün dörd il bundan əvvəl birlikdə təməlini qoyduğumuz TANAP Avropa sərhədinə çatdı. Bu münasibətlə hamımızı ürəkdən təbrik edirəm. Əminəm ki, TANAP-ın ömrü uzun olacaq, TANAP Türkiyə və Azərbaycan xalqlarına, digər qonşu xalqlara fayda və tərəqqi verəcəkdir.

Dörd il əvvəl Qars şəhərində əziz qardaşım Prezident Ərdoğanla birlikdə TANAP-ın təməlini qoyduq. Ancaq TANAP-a aparan yol 2012-ci ildə başlamışdır. Tarixi İstanbul sazişi nəticəsində TANAP-ın yaşıl işığı yandırıldı. Tarixi İstanbul anlaşması Türkiyə və Azərbaycanın birgə siyasi iradəsi nəticəsində mümkün olmuşdur. Çünki TANAP haqqında bu qərarın qəbul edilməsinə qədər Azərbaycan qazının Türkiyə və ondan sonra Avropaya nəql edilməsi ətrafında bir neçə il çox böyük mübahisələr və müzakirələr aparılmışdır, ancaq heç bir nəticə verməmişdir. Belə olan halda əziz qardaşım Rəcəb Tayyib Ərdoğanla birlikdə qərara gəldik ki, bizə lazım olan bu nəhəng layihəni özümüz həyata keçirək və belə də oldu. Bu gün bu layihəyə qoşulan "BP" şirkəti bizim tərəfdaşımızdır. Ancaq əsas texniki və maliyyə yükünü Azərbaycan və Türkiyə öz üzərinə götürmüşdür.

TANAP-a qədər apardığımız birgə işlər TANAP-a yol açdı. Çünki əgər 2006-cı ildə Bakı–Tbilisi–Ceyhan neft kəməri istismara verilməsəydi, bu gün TANAP haqqında danışmaq mümkün olmazdı. Bakı–Tbilisi–Ceyhan neft boru xəttinin təməlini çağdaş Azərbaycan dövlətinin lideri Heydər Əliyev öz əlləri ilə qoymuşdur və 2006-cı ildə əziz qardaşım, Prezident Ərdoğanla birlikdə Ceyhanda Bakı–Tbilisi–Ceyhan neft boru xəttini istismara verdik. Bu günə qədər Bakı–Tbilisi–Ceyhan boru xətti ilə Türkiyə və dünya bazarlarına Azərbaycanın və başqa dövlətlərin 450 milyon tondan çox nefti nəql edilmişdir. Bunun böyük hissəsini – 400 milyon tondan çoxunu Azərbaycan, 27 milyon tonunu Türkmənistanın, 12 milyon tonunu Qazaxıstanın, 7 milyon tonunu Rusiya nefti təşkil edir. Yəni bir sözlə, Bakı–Tbilisi–Ceyhan nəinki Azərbaycanın, digər ölkələrin nefti üçün də gözəl bir infrastruktur layihəsi oldu və bu gün də uğurla fəaliyyət göstərir. 2007-ci ildə yenə də əziz qardaşımla Bakı–Tbilisi–Ərzurum qaz boru xəttinin açılışını etdik və bu da TANAP-a yol açan digər layihə idi. Qeyd etdiyim kimi, 2015-ci ildə Qarsda TANAP-ın inşası başlamışdır. Fürsətdən istifadə edərək TANAP-ın inşasında iştirak etmiş bütün insanlara dərin təşəkkürümü bildirmək istəyirəm. Onların fədakarlığı və peşəkarlığı bu nəhəng layihənin vaxtında istismara verilməsində böyük rol oynamışdır.

TANAP Cənub Qaz Dəhlizinin bir hissəsidir. Cənub Qaz Dəhlizi nəhəng infrastruktur layihəsidir, maliyyə dəyəri 38 milyard dollardır və dörd layihədən ibarətdir. Onlardan üçü – "Şahdəniz" və Cənubi Qafqaz Boru Kəməri istifadəyə verilib, bu gün isə TANAP tam istifadəyə verilir. Dördüncü layihə olan TAP-ın icrası artıq 90 faizi keçib. Əminəm ki, TAP da vaxtında istismara veriləcək. Beləliklə, Avrasiyada ən böyük infrastruktur layihələrindən biri olan Cənub Qaz Dəhlizi vaxtında istismara veriləcəkdir.

Bildirməliyəm ki, bu layihələrin həyata keçirilməsi Türkiyə–Azərbaycan birgə siyasi iradəsinin məhsuludur, eyni zamanda biz bunu digər ölkələrin iştirakı və özəl şirkətlərin maliyyə dəstəyi ilə reallaşdırdıq. Bu gün Cənub Qaz Dəhlizi özündə 7 ölkəni birləşdirir

və bu artıq beynəlxalq əməkdaşlıq layihəsidir. Bu layihə ölkələr arasında körpülər yaradacaq və daha böyük anlaşmaya yol açacaq. Bu layihədə iştirak edən 7 ölkə – onlardan üçü Avropa İttifaqının üzvüdür – bundan sonra uzun illər birlikdə çalışacaq və bunun faydasını bölüşəcəklər. Yəni bu layihə əməkdaşlıq, sabitlik, uzunmüddətli anlaşma gətirir. Yəni bu layihələrə, sadəcə olaraq, enerji layihələri kimi baxmaq düzgün olmaz. Onu da bildirməliyəm ki, bizim enerji layihələrimiz digər layihələrə də yol açdı. İki il bundan əvvəl əziz qardaşım, Prezident Ərdoğanla birlikdə Bakıda Bakı–Tbilisi–Qars dəmir yolunun açılışını qeyd etdik. Hazırda Bakı–Tbilisi–Qars dəmir yolu vasitəsilə həm Azərbaycanın, həm Orta Asiya ölkələrinin, həm də Əfqanıstanın və Çinin yükləri daşınır. Bu dəmir yolu qitələri birləşdirir. Necə ki bizim boru xətlərimiz. Digər layihə elektrik enerjisinin ötürülməsidir. Artıq Azərbaycan Gürcüstana və Türkiyəyə elektrik enerjisini ixrac edir. Əgər enerji layihələri, yaşadığımız bölgədə sabitlik, qarşılıqlı dəstək, anlaşma olmasaydı, bunların biri də həyata keçməzdi.

Türkiyə–Azərbaycan dostluğu, qardaşlığı gündən-günə möhkəmlənir. Mən bu gün dünya miqyasında ikinci belə ölkələr tanımıram ki, Türkiyə və Azərbaycan qədər bir-birinə yaxın olsun. Bizim aramızdakı ticarət dövriyyəsi artır. Bu ilin 9 ayında ticarət dövriyyəmiz 40 faizdən çox artıb və 3,4 milyard dollara çatıbdır. Qarşılıqlı yatırımlar bizim qardaşlığımızı göstərir və eyni zamanda onu göstərir ki, biz bir-birimizə güvənirik. Bir-birimizin iqtisadiyyatına dəstək veririk. Türkiyə bu günə qədər Azərbaycan iqtisadiyyatına 12 milyard dollardan çox vəsait yatırıb. Azərbaycan isə Türkiyəyə 17,5 milyard dollar sərmayə qoyub və bu yatırımlar bizim xalqlarımızın rifah halını yaxşılaşdırır.

Eyni zamanda Türkiyə bu gün xarici sərmayələr üçün açıq ölkədir və çox məqbul yerdir. Əziz qardaşım, Prezident Ərdoğanın liderliyi sayəsində Türkiyə həm iqtisadi, həm də siyasi sahədə böyük uğurlara imza atıb. Biz əvvəlki dövrü yaxşı xatırlayırıq. O vaxt Türkiyə Beynəlxalq Valyuta Fondunun və başqa maliyyə qurumlarının borcundan yaxa qurtara bilmirdi, asılı vəziyyətdə idi. İqtisadi asılılıq istər-istəməz siyasi asılılığa gətirib çıxara bilər. Məhz Prezident Ərdoğan tərəfindən aparılan düşünülmüş iqtisadi siyasət nəticəsində Türkiyə bu asılılıqdan yaxasını qurtara bildi və bu gün çox güclü iqtisadiyyat kimi dünya miqyasında öz sözünü deyir. Bu gün Türkiyə dünya miqyasında güc mərkəzidir. Nəinki yerləşdiyi bölgədə, dünyada Türkiyənin sözünün çəkisi artır, imkanı genişlənir və hər kəs bilməlidir, heç kim unutmamalıdır ki, bu qardaş ölkə buna görə kimə borcludur.

Tarixdə liderlərin rolu haqqında kifayət qədər kitablar yazılıb, elmi əsərlər yaradılıb və müxtəlif fərziyyələr, fikirlər var. Onların hər biri qəbuldur. Ancaq tarix göstərir ki, liderin rolu bir çox hallarda həlledici olur, bu, danılmazdır. Bu gün möhkəm Türkiyə və

onun lideri inkişafı, sabitliyi təcəssüm etdirir və gələcəyə nikbinliklə baxmaq üçün imkan yaradır. Biz buna sevinirik. Çünki Türkiyənin gücü bizim gücümüzdür, Türkiyənin uğuru bizim uğurumuzdur və biz birlikdə bundan sonra da iki qardaş ölkə kimi çiyin-çiyinə irəliyə gedəcəyik. Bizim qarşımızda bütün üfüqlər açıqdır. Həyata keçirdiyimiz bu nəhəng layihələr bizim gücümüzü göstərir və bizim gücümüzü artırır. İqtisadi güc nəticədə siyasi gücə çevrilir.

TANAP və Cənub Qaz Dəhlizi eyni zamanda enerji təhlükəsizliyi layihəsidir. Bu gün dünya miqyasında enerji təhlükəsizliyi haqqında danışılır və bu məsələ dünyanın gündəliyini zəbt etmişdir. Hesab edirəm ki, burada çox gözəl əməkdaşlıq formatı yaradılıb. İstehsalçı ölkə Azərbaycan, tranzit ölkələri və istehlakçı ölkələr birlikdə çalışır. Bizim mənafeyimiz də birdir, gəlirimiz də ədalətli şəkildə bölünür. Bir daha demək istəyirəm ki, bütün bu layihələr bölgədəki sabitliyi möhkəmləndirir.

Mən əminəm ki, bundan sonra da birgə həyata keçirəcəyimiz bütün layihələr TANAP kimi, Bakı–Tbilisi–Ceyhan kimi, Bakı–Tbilisi–Ərzurum kimi, Bakı–Tbilisi–Qars kimi uğurlu olacaq, Türkiyə və Azərbaycan birlikdə gələcəyə inamla addımlayacaq.

Yaşasın Türkiyə–Azərbaycan dostluğu, qardaşlığı!

**AZƏRTAC**
*30 noyabr 2019-cu il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "BP" QRUPUNUN BAŞ İCRAÇI DİREKTORUNU QƏBUL EDİB

*11 dekabr 2019-cu il*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 11-də "BP" qrupunun baş icraçı direktoru Robert Dadlini qəbul edib.

Qəbula görə dövlətimizin başçısına minnətdarlığını bildirən **Robert DADLİ dedi:**

– Cənab Prezident, bizə vaxt ayırdığınız üçün Sizə təşəkkür edirəm.

**Prezident İlham ƏLİYEV dedi:**

– Sizi yenidən görməyə şadam. Azərbaycana yenidən xoş gəlmisiniz. Mənə məlumat verilib ki, siz gələn il vəzifənizi tərk edəcəyinizlə bağlı açıqlama vermisiniz. Bu imkandan istifadə edərək Azərbaycanda biznesin inkişafına verdiyiniz töhfəyə görə sizə minnətdarlığımı bildirmək istərdim. Biz sizinlə bir neçə dəfə birgə layihələrimiz barədə müzakirələr aparmışıq və bildiyimə görə, "BP"nin prioritetləri siyahısında bu layihələr ən yüksək mövqedədir. Bilirsiniz ki, "BP" ilə əməkdaşlığımız strateji əhəmiyyətə malikdir. Mən dəfələrlə ictimai qaydada bu barədə açıqlamalar vermişəm. Çox şadam və fəxr edirəm ki, bu 25 illik tərəfdaşlıq eyni məqsədi olan və bu məqsədlərə çatmaq üçün səmərəli addımlar atmış dostların tərəfdaşlığı olub. Bu çox vacibdir. Bəzən məqsədlər müəyyənləşdirilir, lakin onlara necə çatmaq aydın olmur. Bizim nümunəmizdə 1990-cı illərin əvvəllərinin çox çətin geosiyasi vəziyyətində birlikdə tarixi layihələri həyata keçirə bildik. Bakı–Tbilisi–Ceyhan neft kəməri, "Azəri–Çıraq–Günəşli" yataqlar blokunun inkişafı, Bakı–Tbilisi–Ərzurum qaz kəməri və bu yaxınlarda tamamlanan TANAP. Bu layihələrin hər birinin Azərbaycan üçün tarixi əhəmiyyəti var. Azərbaycanın bugünkü sürətli inkişafı bizim enerji sektorundan əldə etdiyimiz gəlirlər olmadan mümkün olmazdı. Bütün bu illər ərzində biz, həqiqətən də, tərəfdaşlar kimi çalışdıq, bir-birimizi dəstəklədik, bir-birimizin problemlərinə anlayış göstərdik. Düşünürəm ki, bu, dünyada nadir bir təcrübədir. Hazırda biz bütün vacib layihələrin tamamlanmasına yaxınıq. Mən TANAP-ın Avropa ilə birləşən hissəsinin açılış mərasimində iştirakımdan şadam. İndi tamamlanmasına yaxın olduğumuz TAP-ın üzərində işləməyimiz lazımdır – 90 faizi artıq tamamlanıb, həmçinin "BP"nin digər layihələri. Çünki bizim əməkdaşlığımız davam

edəcək. “Azəri–Çıraq–Günəşli”nin işlənilməsinin 2050-ci ilə qədər uzadılmasından sonra biz əlavə olaraq aktiv 30 il və daha çox əməkdaşlıq edəcəyik. Beləliklə, bu, indikindən daha da strateji olacaq.

Cənab prezident, bir daha sizə şəxsən verdiyiniz töhfələrə, tərəfdaşlığınıza görə minnətdarlığımı bildirmək istərdim. Sizə uğurlar arzulayıram və əziz qonağımız kimi gələcəkdə sizi daha çox görməyə ümid edirəm.

**Robert DADLİ dedi:**

– Təşəkkür edirəm, cənab Prezident. Bu, Azərbaycanın enerji tarixində çox mühüm hadisədir. Demək istəyirəm ki, onlardan biridir. Sizin uzaqgörən atanız və Siz bunun əsasını qoyarkən bir neçə ölkəni mürəkkəb regionda bir araya gətirdiniz. Yüksək texnologiyalar neft sektoru ilə yanaşı, təbii qaz sektoruna da cəlb edildi və irəlidə hələ də daha çox kəşfiyyat işləri və layihələr var. Fikrimcə, bunlar bir neçə ölkənin sərhədlərini aşmaqla dünyanın ən mürəkkəb layihələridir. Təsəvvür etsək ki, Yer kürəsinin elə bir yeri yoxdur ki, misal üçün, Azərbaycandan Gürcüstan, Türkiyə, Yunanıstan, Albaniya və İtaliyaya gedən boru kəmərinin ekvivalentini orada tapmaq olsun. Məncə, Azərbaycandan başqa heç bir ölkə bunu edə bilməzdi. Bu illər ərzində bütün bu ən mürəkkəb ideyaların reallığa çevrilməyini görmək baxımından Sizinlə və Sizin komanda ilə – Rövnəq və Elşadla birgə işləmək şəxsən mənim üçün çox xoş oldu. Bu, möhtəşəmdir. “BP”dəki insanların uzun illər boyunca əzmkarlığı çox diqqətəlayiqdir. Cənab Prezident, mən çox məmnunam – “BP”də 40 illik fəaliyyətimdən, 10 ilə yaxın baş icraçı direktor olmağımdan və indi də estafeti rahat şəkildə Bernard Luniyə təhvil verməyimdən məmnunam. Bernard çox yaxşı işləyəcək və Azərbaycandakı işlərimizə eyni dərəcədə bağlıdır.

**AZƏRTAC**

*11 dekabr 2019-cu il*

# AZƏRBAYCANIN "NAXÇIVAN" VƏ "QOŞADAŞ" YATAQLARININ RUSİYANIN "LUKOİL" ŞİRKƏTİ İLƏ BİRGƏ İŞLƏNİLMƏSİ BARƏDƏ QƏRAR QƏBUL OLUNUB

*21 yanvar 2020-ci il*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 21-də Davosda Rusiyanın "LUKoil" şirkətinin prezidenti Vahid Ələkbərov ilə görüşüb.

Görüşdə Azərbaycanın "Naxçıvan", "Qoşadaş" yataqlarının "LUKoil" şirkəti ilə birgə işlənilməsi məsələsi müzakirə olundu və bu barədə qərar qəbul edildi.

Söhbət zamanı perspektiv strukturlar və SOCAR–"LUKoil" əməkdaşlığı ətrafında fikir mübadiləsi aparıldı.

**AZƏRTAC**
*21 yanvar 2020-ci il*

## DAVOSDA PREZİDENT İLHAM ƏLİYEV İLƏ OPEC-İN BAŞ KATİBİ MƏHƏMMƏD BARKİNDONUN GÖRÜŞÜ OLUB

*21 yanvar 2020-ci il*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 21-də Davosda Neft İxrac edən Ölkələr Təşkilatının (OPEC) baş katibi Məhəmməd Barkindo ilə görüşüb.

Prezident İlham Əliyevin beş il bundan əvvəl Dünya İqtisadi Forumunda çıxışını xatırladan **Məhəmməd Barkındo** dedi:

– Cənab Prezident, xatırlayırsınızsa, beş il bundan əvvəl bu Dünya İqtisadi Forumunda Siz OPEC-ə üzv olan bütün ölkələrin və OPEC-ə üzv olmayan ölkələrin bir araya gəlməsi və birlikdə çalışması ilə bağlı çağırış edən dünya liderlərindən birincisi olmusunuz. Belə bir təşəbbüslə əvvəllər heç kim çıxış etməmişdir. Siz uzaqgörənsiniz, çox qətiyyətlisiniz. Bizim hamımızın bir araya gəlməsi və birlikdə çalışmağımız üçün buradakı qlobal platformadan istifadə edərək hamımıza çağırış etdiniz. Çünki Siz də dediyiniz kimi, biz hamımız eyni vəziyyətdə idik. Çünki biz hamımız eyni nefti istehsal edirdik və onu eyni bazarlara satırdıq. O zaman bazarda qiymətlər 80 faizdən çox aşağı düşmüşdü.

**Prezident İlham Əliyev:** Bəli, neftin qiyməti 30 dollar ətrafında idi.

**Məhəmməd Barkindo:** Biz ən pis vəziyyətin şahidi idik. Cənab Prezident, Sizin uzaqgörən rəhbərliyiniz, çağırışınız nəticəsində biz işləməyə başladıq. Biz 2016-cı il dekabrın 10-da, daha dəqiq, 12 ay müddətində əməkdaşlıq bəyannaməsini 24 ölkə ilə imzaladıq.

**Prezident İlham Əliyev:** Tamamilə doğrudur.

**Məhəmməd Barkindo:** Tarixdə ilk dəfə idi, bu baş verirdi. Sizin rəhbərliyiniz, Sizin baxışınız sayəsində biz bunu etdik. Biz bunu heç vaxt unutmayacağıq, cənab Prezident. Bu bizim üçün çox önəmlidir və Sizin də qeyd etdiyiniz kimi, ötən beş ildə biz Azərbaycanla çox sıx işləmişik və Azərbaycan qəbul edilmiş bütün qərarlara sadiq qalmışdır.

**Prezident İlham Əliyev:** Xoş sözlərinizə görə təşəkkür edirəm. Bunu xatırladığınız üçün sizə minnətdaram. Həmin gün burada – Davosda mənə bu məsələ ilə bağlı nə etmək lazım olduğu barədə sual verildi və mən bu təklifi irəli sürdüm. Bu təklifi ciddi nəzərə aldığına görə OPEC-ə minnətdaram və biz, həqiqətən, çox nadir tərəfdaşlıq

formatını yaratdıq. Hesab edirəm ki, bu formata malik olan, lakin təkcə format yox, eyni zamanda qərarları səmərəli icra edən başqa belə bir beynəlxalq təşkilat yoxdur. Bəzən hətta bir təşkilat daxilində razılığa gəlmək mümkün olmur. Lakin OPEC-ə üzv olan və üzv olmayan ölkələr, böyük və kiçik neft istehsalçıları birləşdilər. Çünki bu bizim ümumi məqsədimiz idi. Lakin əlbəttə ki, sizin rəhbərliyiniz olmasaydı, bizim səylərimiz nəticəsiz qalardı, çünki siz təşkilatın rəhbəri olaraq nəinki bütün prosesləri əlaqələndirdiniz, həm də prosesə rəhbərlik etdiniz. Düşünürəm və əminəm ki, uğurun səbəblərindən biri də bütün ölkələrin sizə böyük etimad göstərməsi idi. Bu çox mühüm amil idi. Beləliklə, bizdə bütün mühüm elementlərin birləşməsi var idi. Təşkilat tərəfindən güclü rəhbərlik, həmçinin təşkilata üzv dövlətlərin və üzv olmayan dövlətlərin arasında çox ciddi əməkdaşlıq var idi. Mən bilirəm, hətta bəzi üzv ölkələr arasında hasilatın müəyyən dərəcədə azalmasına nail olmaq asan deyildi. Əlbəttə ki, çox səmərəli monitorinq prosesi, həmçinin etimad məsələsi var idi. Mən düşünürəm ki, bu prosesin bütün üzvləri hazırda sözlərinə əməl etməyə çalışırlar. Çünki etimadı qorumaq lazımdır. Həmçinin mən OPEC+ formatında görüşlərin birinin Bakıda keçirilməsi ilə bağlı təşəbbüsə görə sizə minnətdarlığımı bildirmək istəyirəm. Mən sizi dəvət etdim və siz bu dəvəti qəbul etdiniz. Biz əməkdaşlığımızın gücləndirilməsini səbirsizliklə gözləyirik. Azərbaycan artıq OPEC üzvü kimi özünü göstərir. Əminəm ki, bu belə də davam edəcək.

**AZƏRTAC**
*21 yanvar 2020-ci il*

## DAVOSDA "AZƏRİ–ÇIRAQ–GÜNƏŞLİ" YATAQLAR BLOKUNUN İŞLƏNİLMƏSİ ÜZRƏ YENİ LAYİHƏYƏ DAİR MÜZAKİRƏLƏR APARILIB

*22 yanvar 2020-ci il*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 22-də Davosda "BP" şirkətinin baş icraçı direktoru Robert Dadli ilə görüşüb.

Görüşdə TANAP layihəsinin artıq istifadəyə verildiyi, TAP-ın isə bu ilin axırınadək hazır olacağı qeyd edildi.

Söhbət zamanı "Azəri–Çıraq–Günəşli" yataqlar blokunun işlənilməsinin növbəti mərhələsi üzrə yeni layihəyə dair müzakirələr aparıldı. Prezident İlham Əliyev bunun çox mühüm layihə olduğunu bildirdi.

Dövlətimizin başçısı bu ilin fevralında Bakıda Cənub Qaz Dəhlizi Məşvərət Şurasının nazirlər səviyyəsində görüşünün keçiriləcəyini qeyd etdi.

Robert Dadli "BP"nin öz fəaliyyətində ətraf mühitin qorunmasına daha böyük əhəmiyyət verəcəyini dedi.

**AZƏRTAC**
*22 yanvar 2020-ci il*

## PREZİDENT İLHAM ƏLİYEV ABŞ DÖVLƏT KATİBİNİN ENERJİ DİPLOMATİYASI ÜZRƏ MÜAVİNİNİN MÜŞAVİRİNİ QƏBUL EDİB

*26 fevral 2020-ci il*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 26-da ABŞ Dövlət katibinin enerji diplomatiyası üzrə müavininin müşaviri Kurt Donnellinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Qonaqları salamlayan **Prezident İlham Əliyev** dedi:

– Xoş gəlmisiniz. Sizi görməyə çox şadıq.

**Kurt Donnelli:** Biz də Sizi görməyə şadıq.

**Prezident İlham Əliyev**: Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin toplantısında iştirakınıza görə sizə təşəkkür edirəm. Bu, həqiqətən də, yaxşı ənənəyə çevrilib. Biz hər il nəticələri nəzərdən keçirir və gələcək işləri planlaşdırırıq. Biz artıq yekun mərhələyə yaxınlaşan Cənub Qaz Dəhlizi layihəsinin ildən-ilə çox mühüm icrasını müşahidə edirik. Ümidvaram ki, bu ilin sonunadək bütün işlər tam yekunlaşacaq. Bildiyiniz kimi, biz layihənin açılışını mərhələli şəkildə etmişik. 2018-ci ildə Bakıda təntənəli mərasim təşkil etdik və Cənub Qaz Dəhlizinin istismara verildiyini rəsmi olaraq elan etdik. Sonra, əlbəttə ki, TANAP-la bağlı çox mühüm tədbir oldu. Ötən ilin noyabrında TANAP artıq Avropa sərhədinə çatdı. Bu bizə "Şahdəniz" və digər qaz yataqlarından daha çox təbii qaz ixrac etməyə imkan verəcək. Çünki bizim planımız fəaliyyətimizi genişləndirmək və hələ ki kəşfiyyat mərhələsində və ya yekun hazırlıq mərhələsində olan digər yataqlardan hasilat səviyyəsini artırmaqdır.

Beləliklə, bütün işlər qrafikə uyğun gedir. Mən bu mühüm layihənin icrasında göstərdiyi davamlı dəstəyə görə ABŞ hökumətinə minnətdarlığımı bildirmək istərdim. Bilirəm ki, Prezident Tramp şəxsən prosesdə iştirak edir. Onun fəal təmasları və iştirakı bizim əvvəllər üzləşdiyimiz müəyyən çətinliklərin öhdəsindən gəlməkdə çox yardımçı oldu. Hazırda biz heç bir başqa maneə görmürük. Qarşıdakı yol çox aydındır. Əminəm ki, səmərəli əməkdaşlığımız gələcəkdə davam edəcək, çünki ABŞ hökuməti bizim istər neft

və qaz kəmərləri, istərsə də enerji potensialımızın inkişafı ilə bağlı layihələrimizi hər zaman çox dəstəkləyib. Bir daha xoş gəlmisiniz.

ABŞ Dövlət katibinin enerji diplomatiyası üzrə müavininin müşaviri Kurt Donnelli ilk dəfə Bakıya 2004-cü ildə gəldiyini, ötən dövr ərzində paytaxtımızda həyata keçirilən böyük inkişaf proseslərinin şahidi olduğunu vurğuladı. Cənub Qaz Dəhlizinin əhəmiyyətinə toxunan Kurt Donnelli bu layihənin tamamlanma mərhələsinə daxil olması münasibətilə Prezident İlham Əliyevə təbriklərini çatdırdı. Kurt Donnelli Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində Bakıda keçiriləcək nazirlərin altıncı toplantısının əhəmiyyətinə toxundu və bu formatda aparılan müzakirələrin önəmini qeyd etdi.

Görüşdə son dövrlərdə Azərbaycanda alternativ enerji mənbələrinin inkişafına dair fikir mübadiləsi aparıldı.

**AZƏRTAC**
*26 fevral 2020-ci il*

## BAKIDA CƏNUB QAZ DƏHLİZİ MƏŞVƏRƏT ŞURASI ÇƏRÇİVƏSİNDƏ NAZİRLƏRİN VI TOPLANTISI KEÇİRİLİB

### Azərbaycan Prezidenti İlham Əliyev toplantıda iştirak edib

*28 fevral 2020-ci il*

Fevralın 28-də Bakıda, Heydər Əliyev Mərkəzində Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin VI toplantısı keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev toplantıda iştirak edib.

Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin toplantısına hər dəfə Azərbaycan ev sahibliyi edir, bu isə ölkəmizin layihədə aparıcı rolunu təsdiqləyən mühüm amillərdən biridir. Dörd seqmentdən – "Şahdəniz Mərhələ-II", Cənubi Qafqaz Boru Kəməri, TANAP və TAP qaz boru kəmərlərindən ibarət olan layihə çərçivəsində 2018-ci ilin mayında Səngəçal terminalında Cənub Qaz Dəhlizinin rəsmi açılışı olub. Həmin ilin iyununda isə TANAP qaz boru kəməri istifadəyə verilib, ötən il isə TANAP Avropa sərhədinə çatdırılıb. Beynəlxalq maliyyə qurumlarının, ABŞ, Böyük Britaniya və Avropa İttifaqının dəstək verdiyi bu layihənin sonuncu seqmenti olan TAP-ın inşası isə davam edir. Yeddi ölkənin – Azərbaycan, Gürcüstan, Türkiyə, Albaniya, Yunanıstan, Bolqarıstan və İtaliyanın iştirak etdiyi, uzunluğu 3500 kilometr, ümumi dəyəri isə təxminən 40 milyard dollar olan Cənub Qaz Dəhlizi Avropanın enerji təhlükəsizliyində strateji amildir.

Əvvəlcə toplantının iştirakçıları birgə foto çəkdirdilər.

Azərbaycanın energetika naziri **Pərviz Şahbazov** dedi:

– Zati-aliləri, cənab Prezident.

İcazə verin, biz – Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin altıncı toplantısının iştirakçıları Cənub Qaz Dəhlizi layihəsinə göstərdiyiniz davamlı dəstəyə görə Sizə dərin minnətdarlığımızı bildirək. Sizin təşəbbüsünüz sayəsində təsis edilmiş Məşvərət Şurası rəhbərliyiniz və tövsiyələriniz əsasında səmərəli və çoxtərəfli əməkdaşlıq formatı kimi illər ötdükcə Cənub Qaz Dəhlizi layihəsinin icrasına mühüm töhfələr vermişdir. Məşvərət Şurasının toplantılarında tərəfinizdən qaldırılan məsələlər, Sizin

aydın strateji baxışınız və qətiyyətli mövqeyiniz 2020-ci ilin sonunadək Cənub Qaz Dəhlizini tamamlamaq üçün bizim əlaqələndirilmiş işimizdə əsas amillər olaraq qalmağa davam etmişdir.

Cənab Prezident, Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin altıncı toplantısında açılış nitqi ilə çıxış etmək üçün Sizə söz vermək bizə böyük şərəfdir. Buyurun, söz Sizindir.

Dövlətimizin başçısı toplantıda nitq söylədi.

**PREZİDENT İLHAM ƏLİYEVİN NİTQİ**

– Təşəkkür edirəm.

Hörmətli xanımlar və cənablar, hörmətli qonaqlar, Azərbaycana xoş gəlmisiniz. Mən Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin altıncı toplantısında iştirak etmək üçün buraya təşrif buyurmuş bütün qonaqları görməyimə çox şadam. Əvvəla, mən bu gün bizimlə birlikdə bu toplantıda iştirak edən nümayəndələrin hökumətlərinə illik altıncı toplantıda iştirak etmək məqsədilə yüksək səviyyəli nümayəndələrini göndərdiyi üçün təşəkkürümü bildirmək istəyirəm.

Bu əməkdaşlıq formatının təşəbbüskarı olaraq Azərbaycan böyük qürur hissi keçirir ki, illər ərzində Məşvərət Şurası nəhəng Cənub Qaz Dəhlizi layihəsinin icrasında bizim səylərimizi gücləndirən çox səmərəli işçi mexanizmə çevrilmişdir. Biz bütün tərəfdaşlarımıza ilk növbədə Cənub Qaz Dəhlizinin üzvləri olan tərəfdaş ölkələrə – Gürcüstan, Türkiyə, Yunanıstan, Bolqarıstan, Albaniya və İtaliyaya minnətdarıq. Bu ölkələr Azərbaycana çox yaxındırlar və mən bu ölkələrin dövlət və hökumət başçıları ilə çoxsaylı görüşlərimi xatırlayıram. Yalnız bu ilin iki ayında Türkiyə, İtaliya və Gürcüstanın dövlət və hökumət başçıları ilə görüşlərim, həmçinin bizim yaxın əməkdaşlığımızı nümayiş etdirir. Üç gün bundan əvvəl Türkiyə Prezidenti bizim qonağımız idi. Biz bu baxımdan nələrə nail olduğumuzu və gələcək planları müzakirə etdik. Bir həftə bundan əvvəl İtaliyaya dövlət səfəri çərçivəsində bu ölkənin Prezidenti və Baş naziri ilə görüşlərim zamanı biz bu mühüm layihəni müzakirə etdik. Yanvar ayının sonunda Gürcüstanın Baş naziri ilə keçirdiyim görüş bizə nailiyyətləri nəzərdən keçirməyə və gələcək addımlarımızı planlaşdırmağa imkan yaratmışdır. Hesab edirəm, Cənub Qaz Dəhlizi layihəsinin üzv ölkələrindən ibarət bu nadir tərkib onu nümayiş etdirir ki, ümumi amal ölkələri birləşdirə bilər. Əminəm ki, Cənub Qaz Dəhlizi layihəsi tamamlanandan sonra bizim çoxtərəfli əməkdaşlığımız digər sahələrdə davam edəcək.

Mən həmçinin Birləşmiş Krallıq və Amerika Birləşmiş Ştatları hökumətlərinə Azərbaycanın təşəbbüskarı olduğu layihələrə davamlı dəstək göstərdiklərinə görə təşək-

kürümü bildirmək istəyirəm. Bu proses 1990-cı illərin ortasından başlamışdır. O zaman Azərbaycan öz neft və qaz potensialını xarici investorlar üçün açıq elan etdi. Azərbaycan Xəzər regionunda xarici şirkətlərə sərmayə yatırmaq və Xəzər dənizində neft əməliyyatlarını aparmaq imkanını verən ilk ölkə idi. Ötən 25 ildən artıq müddət ərzində Amerika Birləşmiş Ştatları və Birləşmiş Krallığın hökumətləri Azərbaycanla sıx tərəfdaşlıq edərək Bakı–Tbilisi–Ceyhan neft kəməri, Bakı–Tbilisi–Ərzurum qaz xətti və Cənub Qaz Dəhlizi kimi nəhəng layihələrin icrasına böyük töhfələr vermişdir.

Mən tərəfdaş ölkələrimizin yüksəksəviyyəli nümayəndələrini görməyə çox şadam. Mən həmçinin Avropa Komissiyasına minnətdarlığımı bildirmək istəyirəm. 2011-ci ildə Avropa Komissiyası və Azərbaycan burada – Bakıda Cənub Qaz Dəhlizi layihəsi üzrə Birgə Bəyannamə imzaladılar və bu, faktiki olaraq həmin layihənin icrasının başlanğıc mərhələsi oldu. Həmin Bəyannamədə biz açıq-aydın bəyan etdik ki, bu, strateji layihədir və layihənin icrası üçün səylərimizi əsirgəməyəcəyik. Mən 2011-ci ildə Bakıda bu sənədi birgə imzaladığımız Avropa Komissiyasının sabiq prezidenti cənab Barrozuya şəxsi minnətdarlığımı bildirmək istəyirəm. O, Azərbaycana iki dəfə səfər etmişdir. Həmçinin Azərbaycana iki dəfə səfər etmiş və sonuncu dəfə keçən ilin iyulunda təşrif buyurmuş, Avropa İttifaqı ilə Azərbaycan arasında enerji sahəsində əməkdaşlığın gücləndirilməsində çox önəmli rol oynamış Avropa İttifaqı Şurasının sabiq prezidenti cənab Tuska da təşəkkürümü bildirmək istəyirəm. Həmçinin Avropa Komissiyasının sabiq komissarı cənab Ottingerə də çox minnətdar olduğumuzu qeyd etmək istəyirəm. O bu layihənin icrasına yaxından cəlb edilmiş Avropa İttifaqının ilk komissarı olmuşdur. Həmçinin vitse-prezident Şevçoviçi qeyd etmək istəyirəm, o, indi vitse-prezident vəzifəsində işini davam etdirir, lakin digər sektorlara cəlb olunub. Amma Cənub Qaz Dəhlizi üzərində işləyərkən o, həmişə illik toplantılarda bizimlə birlikdə idi və əməkdaşlığımız konkret nəticələrə gətirib çıxarmışdır. Əlbəttə ki, mən bizə bu layihəni icra etməyə kömək göstərmiş beynəlxalq maliyyə institutlarını da qeyd etmək istəyirəm. Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnkişaf Bankı, Avropa İnvestisiya Bankı və digər banklar, həmçinin özəl banklar. Onların dəstəyi olmadan layihənin icrası mümkünsüz olardı. Başqa sözlə, biz çox nadir əməkdaşlıq formatını müəyyən etdik. Əlbəttə ki, Azərbaycan layihənin təşəbbüskarı, investoru və ev sahibi olaraq bu təşəbbüsə start verdi. Bu təşəbbüs bizim qonşularımız Türkiyə və Gürcüstan tərəfindən dəstəklənmişdir. Bu ölkələrlə biz əvvəllər enerji resurslarının nəqli və infrastrukturu üzrə mühüm layihələr icra etmişik. Sonra bu təşəbbüs yeni tərəfdaşlar – onlardan üçü Avropa İttifaqının üzvü olan İtaliya, Yunanıstan və Bolqarıstan, həmçinin Albaniya tərəfindən dəstəklənmişdir. Sonra isə yeni və potensial tərəfdaşlar – anlaşma

memorandumlarını imzaladığımız ölkələr olan Bosniya və Herseqovina, Xorvatiya və Monteneqro bu təşəbbüsə qoşulmuşdur. Həmçinin bu gün bu masada biz Macarıstan, Rumıniya, Serbiya və Türkmənistanın nümayəndələrini görürük və onların burada iştirakı bu layihəyə maraqlarının olduğunu nümayiş etdirir. Hesab edirəm ki, qarşıdan gələn illərdə biz əməkdaşlığımızı gücləndirəcəyik və ola bilsin, bütün ölkələr arasında daha geniş əməkdaşlıq formatını yaradacağıq və hətta ola bilsin, burada iştirak etməyən ölkələr gələn ilin fevral ayında bizə qoşulacaq.

Fürsətdən istifadə edərək hamınızı gələn ilin fevralında qonağımız olaraq buraya dəvət etmək istəyirəm. Çünki hesab edirəm ki, TAP-ın tikintisinin tamamlanması bizim komanda işimizin sonu demək deyil. Düşünürəm ki, gələn ilin fevral ayında burada – Bakıda bir çox məsələləri nəzərdən keçirmək lazımdır. Sonra da biz gələcək üçün strategiyamızı hazırlayacağıq. Keçən ilin fevral ayında biz 2018-ci ilin iyununda Türkiyə bazarına çatan TANAP-ın hissəsinin uğurla tamamlanması barədə məlumat verdik. Bu dəfə isə biz qürur hissi ilə artıq Türkiyə-Yunanıstan sərhədinə çatmış TANAP-ın tamamlandığını bildiririk. Bu bizim meqalayihəmizin icrasında çox mühüm mərhələdir. Bu gün Cənub Qaz Dəhlizi layihəsinin tamamlanması vəziyyətinin çox yüksək olduğu və sizə də yaxşı məlum olduğu kimi, TAP layihəsinin təqribən 92 faiz tamamlandığı bir vaxtda ümid edirəm ki, bu ilin sonuna kimi biz Cənub Qaz Dəhlizi layihəsinin açılışını qeyd edəcəyik.

Əlbəttə, bütün səylərimiz çox konkret nəticələr verdikdən sonra geriyə baxdıqda bizim qarşımızda – Azərbaycanın qarşısında müstəqillik illərimizin əvvəlində hansı çağırışların olduğunu hətta təsəvvürümüzə gətirmək belə çətindir və bir gün, 30 ildən daha az müddətdə ölkənin beynəlxalq tərəfdaşları ilə birlikdə belə böyük uğura nail olacağını və dünya ölkələrini maraqlandıran, dünya miqyasında layihələrin təşəbbüskarı olacağını, tərəfdaşları ilə birlikdə onları uğurla icra edəcəyini təsəvvür etmək mümkün deyildi. Bu layihələrin hər biri – Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum, "Azəri–Çıraq–Günəşli", "Şahdəniz", digər kəşfiyyat və hasilat layihələri, Cənub Qaz Dəhlizi – mən həmçinin Bakı–Tbilisi–Qars kimi nəqliyyat layihəsini də buraya əlavə edərdim – onların hər biri strateji əhəmiyyətə malikdir. Onların hər biri ölkəmiz və xalqımız, bu layihədə iştirak edən bütün ölkələr üçün dayanıqlı, uğurlu və əminəm ki, çiçəklənən inkişafı təmin edəcəkdir.

Lakin 1991-ci ildə vəziyyət tamamilə fərqli idi. Sovet İttifaqının dağılması nəticəsində Azərbaycan müstəqilliyini bərpa etmişdi. Lakin əfsuslar olsun ki, ölkə öz xalqı üçün normal həyat şəraitini təmin edə bilməmişdir. Tam yoxsulluq var idi, iqtisadiyyat durğunluq vəziyyətində idi. Bir çox mürəkkəbliklərə və böyük itkilərə gətirib çıxaran xaotik bir vəziyyət var idi. 1992-ci ildə vəziyyət daha da pisləşdi. O zaman hərbi çevriliş

nəticəsində Xalq Cəbhəsi hakimiyyətə gəldi. Deyərdim ki, o zaman fəlakət vaxtı idi. Çünki birillik hakimiyyət Azərbaycanı uçuruma gətirdi. İqtisadiyyat tamamilə məhv edilmişdi, geniş vüsət almış korrupsiya faktiki olaraq bizim yeni əldə etdiyimiz dövlətçiliyimizi pozan amil idi. İnflyasiyanın səviyyəsi 1000 faizdən artıq idi. Ermənistanın işğalı, 1 milyondan çox qaçqın və məcburi köçkün – hesab edirəm ki, o zaman biz adambaşına düşən qaçqınların sayına görə birinci yerdə idik – var idi. Ermənistan qüvvələrinin bizim ərazilərimizin bir hissəsini işğal etdiyi zaman Xalq Cəbhəsi hökuməti vətəndaş müharibəsinə, bu korrupsioner rejim azərbaycanlılar arasında müharibəyə başladı. Əldə edilmiş dövlətçilik yenidən risk altında idi. Azərbaycan xalqı bu antimilli rejimi məhv edəndə və Heydər Əliyevi Bakıya dəvət edəndə müdriklik və cəsarət nümayiş etdirdi. 1993-cü ilin oktyabrından, Heydər Əliyev prezident seçiləndən sonra Azərbaycan sabitlik, inkişaf və tərəqqi yoluna qədəm qoymağa başladı. Beləliklə, həmin vaxtdan bəri ölkəmiz siyasi, iqtisadi və sosial sabitik vəziyyətində yaşayır. Regionumuzdakı və dünyadakı vəziyyətə nəzər yetirərkən biz yeni münaqişələr, yeni qarşıdurmalar görürük. Əfsuslar olsun ki, münaqişələrin sayı artmaqdadır. Hesab edirəm ki, sabit və təhlükəsiz mühitdə yaşayış bizim siyasətimizin əsas nailiyyətlərindən biridir.

Əlbəttə ki, dövləti qurmaq üçün əsas yollardan biri güclü iqtisadiyyatın yaradılması idi və xarici investisiyalar olmadan bu mümkün deyildi. Ona görə də investisiya yatırmaq üçün xarici şirkətləri cəlb etməyimiz çox aydın idi, lakin haraya investisiya yatırılmalı idi? Xarici şirkətlərin maraq göstərə biləcəyi yeganə sahə neft sahəsi idi. Lakin Azərbaycan çox riskli ölkə hesab olunurdu, burada xarici şirkətlərin nümayəndələri özlərini çox narahat hiss edirdilər, onlar üçün hətta qala biləcəkləri normal hotellər mövcud deyildi. Əlbəttə ki, bu vəziyyətdə investisiyaları cəlb etmək asan vəzifə deyildi. Lakin biz bunu edə bildik və 1994-cü ilin sentyabr ayında "Azəri–Çıraq–Günəşli" yataqları üzrə müqavilə Azərbaycan və xarici şirkətlərdən ibarət konsorsium tərəfindən imzalandı. Bu bizim tərəqqiyə, çiçəklənməyə və inkişafa doğru yolumuzun əvvəli idi.

Ona görə də Azərbaycanın müasir tarixində neft amili həlledici rol oynayıb. Keçmişdə – Azərbaycan müstəqil olmadığı zaman, bildiyiniz kimi, ilk dəfə neft Bakıda çıxarılıb və dünyadakı ilk quyu, bəlkə də, buradan 10 kilometr məsafədə yerləşir. Lakin xalqımız bundan faydalana bilmirdi. Çünki Azərbaycanın müstəqil olmadığı zamanlarda 1 milyard tondan çox neft hasil edilmişdir. Əgər həmin vaxt Azərbaycan müstəqil olsa idi, biz bu gün dünyada ən varlı və çiçəklənən ölkələrdən biri ola bilərdik. Lakin həmin təbii sərvətlər Azərbaycan xalqının maraqlarına xidmət etmirdi. Yalnız biz müstəqil olduqdan sonra bu baş verdi. Bu günün Azərbaycanı bunun aydın nümunəsidir. Ona görə də 1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanması təkcə kommersiya layihəsi deyildi. Bu bizim üçün həyatda qalmaq layihəsi idi. Bu bizim üçün dövlətçiliyimizi, iqtisadiyyatımızı

gücləndirmək, insanlarımızın daha yaxşı həyatını təmin etmək layihəsi idi. Bunlar hamısı baş verdi. Bizim nümunəmizdə neft lənət deyildi. Neft uğur qazanmaq, güclü ölkə qurmaq, insanlara normal həyat vermək, sabitlik, təhlükəsizlik, qonşularımızla harmoniyada yaşamaq üçün vasitələrdən, ən vacib vasitələrdən biri idi. Bundan sonra Azərbaycana maraq artdı və 1996-cı ildə "Şahdəniz" sazişi imzalandı. Həmin vaxt qaz ölkələrin enerji təhlükəsizliyində o qədər də vacib amil deyildi. Ona görə də "Şahdəniz" sazişinin imzalanması 1994-cü ildə "Azəri–Çıraq–Günəşli" kontraktının imzalanması qədər vacib hesab olunmurdu. Lakin bu günün reallıqları onu göstərir ki, onu vaxtında etmək necə də müdrik addım olub. Daha sonra 1997-ci ildə müqavilədə müəyyən edilmiş ərazidən ilk neft çıxarıldı. Bu baxımdan, düşünürəm ki, bu da rekord idi. Çünki adətən, xarici investorlarla müqavilənin imzalanması ilə ilk karbohidrogen ehtiyatlarının çıxarılması arasında vaxt 3 ildən çox olur. Bizdə isə bu, 3 il oldu və bu bizə imkan verdi ki, iqtisadiyyatın digər sektorlarına investisiya yatırmağa başlayaq. 2002-ci ildə əsas neft boru kəmərinin tikintisi ilə bağlı qərar artıq həyata keçirilmişdi. Çünki Bakı–Tbilisi–Ceyhan kəmərinin praktiki tikintisi başlamışdı. Bundan əvvəl bizim neftimizi Rusiya, Gürcüstan və Qara dəniz limanlarına çatdıran iki boru kəməri Bakı–Novorossiysk və Bakı–Supsa artıq istifadəyə verilmişdi. Ona görə də Bakı–Tbilisi–Ceyhanın 2006-cı ildə açılışı ölkəmizin inkişafında digər bir mərhələ idi. Çünki ondan sonra biz gəlirlər əldə etməyə, infrastruktura və insan kapitalına investisiya yatırmağa başladıq. 2007-ci ildə isə Azərbaycan ilk dəfə beynəlxalq qaz ixracatçısına çevrildi, Bakı–Tbilisi–Ərzurum qaz boru xətti açıldı. Biz hesab edirik ki, planlaşdırdıqlarımızın əksəriyyəti uğurla yerinə yetirildi. Lakin qarşımızda yeni çağırışlar var idi. Biz "Şahdəniz"in, "Şahdəniz–2" layihəsinin tam miqyasda işlənilməsinə başlamalı idik. Əsas qaz boru xətti sistemi olmadan bu, imkansız idi. Ona görə də konsorsium tərəfdaşlarla razılığa gəlmək, yekun investisiya qərarı vermək üçün bizi gözləyirdi və biz buna nail olduq. 2012-ci ildə Azərbaycan və Türkiyə Trans-Anadolu boru kəmərinin – TANAP-ın tikintisi ilə bağlı müqavilə imzaladı. Bundan əvvəl qeyd etdiyim kimi, biz 2011-ci ildə Avropa Komissiyası ilə birgə bəyannamə imzaladıq. Bundan sonra beynəlxalq konsorsium "Şahdəniz–2" ilə bağlı yekun investisiya qərarını verdi və uğurla aparılmış tikintiyə praktiki olaraq start verildi. 2018-ci ildə biz artıq Bakıda – Səngəçal terminalında Cənub Qaz Dəhlizinin rəsmi açılışını etdik və iyunda TANAP-la qaz Türkiyə bazarına çatdı. Artıq dediyim kimi, ötən ilin noyabrında TANAP Avropa sərhədlərinə çatdı. TAP-ın icrası artıq 92 faiz tamamlanıb. Beləliklə, bu bizim hamımızın uğur hekayəsidir.

Düşünürəm ki, Məşvərət Şurası bu layihənin həyata keçirilməsində çox vacib rol oynayıb. Çünki biz hər il təkcə Bakıda görüşmürük. İl ərzində çoxsaylı görüşlər, məsləhətləşmələr keçirilir və layihəni irəliyə aparmaq üçün vacib qərarlar verilir. Azərbaycan

bu müddət ərzində həm də etibarlı tranzit ölkəyə çevrildi. Təkcə təchizatçı deyil, həm də tranzit ölkəyə çevrildi. Xəzərin şərq sahillərində yerləşən ölkələr beynəlxalq bazarlara öz karbohidrogen ehtiyatlarını Azərbaycan ərazisindən nəql edirlər. Həmçinin Rusiya şirkətləri tərəfindən bu ölkənin Xəzər dənizi sektorundan çıxarılan neft bizim sistemimiz – Bakı–Tbilisi–Ceyhan vasitəsilə beynəlxalq bazarlara nəql edilir. Beləliklə, biz artıq tranzit ölkəyik. Tranzit ölkə kimi rolumuz, əminəm ki, artacaq. Bu həmçinin Azərbaycanın nəqliyyat sektorunun sürətli inkişafını stimullaşdırmışdır. Bu gün bu sektor çox müasir və səmərəlidir, Avrasiya nəqliyyat qovşağı kimi mövqelərimizi gücləndirməyə kömək edəcək. Xəzərdəki ən böyük donanma bizə məxsusdur, 200-dən çox gəmimiz var. Hazırda həm bizim, həm də konsorsium üçün zəruri gəmilər istehsal edən çox müasir gəmiqayırma zavodumuz var. Biz 6 beynəlxalq hava limanı tikmişik. Onlardan biri – Heydər Əliyev Beynəlxalq Aeroportu 5 ulduza layiq görülmüş hava limanıdır. Bu, dünyadakı beşulduzlu 10 hava limanından biridir. Biz dəmir yolu sistemimizi müasirləşdirmişik və bu proses davam etməkdədir. Davos Dünya İqtisadi Forumunun qiymətləndirməsinə əsasən, Azərbaycan dəmir yollarının səmərəliliyinə görə dünyada 12-ci yerdədir. Azərbaycan hava yollarının səmərəliliyinə görə dünyada 11-ci yerdədir. Yolların keyfiyyətinə görə biz dünyada 27-ci yerdəyik. İnfrastrukturun keyfiyyətinə görə isə 34-cü yerdəyik. Beləliklə, nəqliyyat sektorunun inkişafı çox sürətli olub.

Hazırda Azərbaycan Şərq-Qərb, Şimal-Cənub nəqliyyat dəhlizlərinin yaradılmasında iştirak edən və fəal investisiya yatıran yeganə ölkədir. Əslində, bu gün biz artıq ölkəmizdən keçən Şimal-Qərb nəqliyyat dəhlizi və hələ ki istismara verilməyən, lakin potensialı olan Cənub-Qərb nəqliyyat dəhlizi barədə danışırıq. Həmçinin demək istərdim ki, "Azəri–Çıraq–Günəşli" və "Şahdəniz" Azərbaycanın yeganə böyük sərvəti deyil. Baxmayaraq ki onlar, həqiqətən də, böyük sərvətdir. Çünki Azərbaycanın və "BP"nin müqavilənin müddətinin 2024-ci ildən 2050-ci ilə qədər uzadılması ilə bağlı müqaviləni imzalaması faktı onu göstərir ki, "Azəri–Çıraq–Günəşli"nin potensialı, həqiqətən də, böyükdür. Əgər əvvəllər yatağın neft potensialını 500 milyon ton ehtimal edirdiksə, hazırda bu, 1 milyard tondan qat-qat çoxdur. Əminəm, yeni texnologiyalar imkan verəcək ki, biz daha çox neft hasil edə bilək.

Bizim təsdiqlənmiş qaz ehtiyatlarımız 2,6 trilyon kubmetrdir. Proqnozlaşdırılan ehtiyatlar 3 trilyon kubmetr civarındadır. Ona görə də Azərbaycan 100 ildən çox müddət üçün karbohidrogen ehtiyatlarının etibarlı təchizatçısı olacaq. Bu gün ənənəvi tərəfdaşlarımızla, – "Şahdəniz", "Azəri–Çıraq–Günəşli" konsorsiumlarına rəhbərlik edən və strateji tərəfdaşımız olan "BP" ilə "D 2030" adlandırılan layihə üzərində çalışırıq. Bu, 2018-ci ildə qüvvəyə minib. "BP" ilə birlikdə biz "Şəfəq– Asiman" qaz yatağı üzərində

çalışırıq və ilk quyu çox tezliklə qazılmalıdır. Biz "BP" ilə, həmçinin "Dayazsulu" adlandırılan layihə üzərində çalışırıq. Bu layihənin aşkar edilməyən yataqlar baxımından böyük potensialı var, çünki o, sahilə çox yaxın yerləşir və bizim ənənəvi hasilatımız dənizdə aparılırdı. Gələn il biz "Total"la 300 milyard kubmetr qaz potensialı olan "Abşeron" yatağından qaz hasilatına başlayacağıq. SOCAR fəal şəkildə "Ümid–Babək" yatağının işlənilməsi ilə məşğuldur. Hazırda "Ümid" yatağının gündəlik hasilatı 3 milyon kubmetr qazdır. Bu yatağın potensialı 200 milyard kubmetrdən çoxdur. "Equinor"la birlikdə biz "Qarabağ yatağı" üzərində çalışırıq. Mənə verilən məlumata görə, kəşfiyyat quyusu çox tezliklə qazılmalıdır. Beləliklə, bunların hamısı Azərbaycanın gələcək potensialının göstəricisidir. Üstəgəl, "Azəri–Çıraq–Günəşli"də böyük həcmdə dərin qaz yataqları var və SOCAR ilə "BP" arasında bu istiqamətdə danışıqlar çox uğurla gedir. Ümid edirəm ki, tezliklə biz razılığa gələ biləcəyik. Beləliklə, bunlar hamısı, beynəlxalq bazarlarda iştirakımızın genişləndirilməsi, şaxələnmiş üsullarla karbohidrogen ehtiyatlarımızın ixracı və xalqımız üçün daha yaxşı şəraitin yaradılmasından ibarət olan strateji məqsədlərimizin həyata keçirilməsinə töhfə verəcək. Bu bizim məqsədimizdir və dövlətçiliyimizin gücləndirilməsidir.

Biz həmçinin sərvətlərin ədalətli bölgüsü üzərində fəal işləyirdik. Çünki neft hasil edən bir sıra ölkələrdə varlı və yoxsullar arasındakı fərq çox yüksəkdir. Ona görə də bizim əsas məqsədimiz dediyimiz kimi, nefti – "qara qızıl"ı insan kapitalına çevirmək olub. Son 16 ildə Azərbaycanda yoxsulluq səviyyəsinin təxminən 50 faizdən 4,8 faizə düşməsi faktı onu göstərir ki, iqtisadi inkişaf və neft-qaz layihələri insanlara daha yaxşı həyat sürməyə kömək edib. Bu müddət ərzində bizim iqtisadiyyatımız 3,4 dəfə artıb. Bu, dünya rekordudur. Son 16 ildə xarici ticarətimiz 6,4 dəfə artıb. Bizim birbaşa xarici borcumuz ümumi daxili məhsulun yalnız 17 faizini təşkil edir. Sərbəst konvertasiya olunan valyuta ehtiyatlarımız xarici borcdan 6 dəfə çoxdur. Başqa sözlə, biz xarici borcu istədiyimiz vaxt bağlaya bilərik.

Beləliklə, bunlar əsas iqtisadi məlumatlardır. Sonda onu əlavə etmək istərdim ki, Dünya Bankı "Doing Business" hesabatında Azərbaycanı ən islahatçı 20 ölkədən biri hesab edir. Bu ilin yanvarında Azərbaycan ilə Davos Dünya İqtisadi Forumu arasında Bakıda "Davos Dördüncü Sənaye İnqilabı Mərkəzinin yaradılması haqqında niyyət protokolu" imzalandı. Bu, Qafqaz və Mərkəzi Asiyanı əhatə edəcək regional mərkəzdir. Azərbaycan ona görə seçildi ki, çünki bizim sənayemiz, qeyri-neft sənayemiz sürətlə inkişaf edir. Təkcə ötən il qeyri-neft sənayesində inkişaf təxminən 14-15 faiz idi. Bu il ümid edirik ki, artım daha çox və ya eyni səviyyədə olacaq.

Əlbəttə, neft və qaz layihələrindən danışarkən biz həmişə enerji təhlükəsizliyindən danışırıq. Azərbaycan özü və qonşuları üçün enerji təhlükəsizliyini təmin edən ölkədir.

Enerji resurslarının şaxələndirilməsi ən vacib məsələlərdən biridir. Burada, əlbəttə, mənbələrin şaxələndirilməsi ən vacib məsələdir. Bizim nümunəmizdə isə mənbələrin və marşrutların şaxələndirilməsindən söhbət gedir. Həmçinin düşünürəm ki, bizim uğurumuzun əsas səbəblərdən biri maraqların balansıdır – hasilatçılar, tranzit ölkələr və istehlakçılar arasındakı balans. Əminəm ki, aramızdakı bu müsbət əməkdaşlıq formatı davam edəcək. Məşvərət Şurasına uğurlar arzu edirəm. Çox sağ olun.

**AZƏRTAC**
*28 fevral 2020-ci il*

## PREZİDENT İLHAM ƏLİYEV "QARABAĞ" YATAĞININ DAYAQ BLOKUNUN DƏNİZƏ YOLA SALINMASI MƏRASİMİNDƏ İŞTİRAK EDİB

*10 avqust 2020-ci il*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 10-da Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodunda "Qarabağ" yatağının dayaq blokunun dənizə yola salınması mərasimində iştirak edib.

Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti Rövnəq Abdullayev və "BOS Şelf" şirkətinin baş direktoru İxtiyar Axundov Prezident İlham Əliyevə görülən işlər barədə məlumat verdilər.

Bildirildi ki, "Qarabağ" dayaq bloku SOCAR-ın "BOS Şelf" şirkəti tərəfindən Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodunda tikilib. Qurğu neft-qaz kəşfiyyatı və hasilatı üçün nəzərdə tutulur. Dayaq bloku "Qarabağ" yatağında quraşdırılacaq stasionar dəniz özülünün üst hissəsini və göyərtə meydançasını saxlamaq məqsədilə şəbəkə tipli metal konstruksiya şəklində hazırlanıb. Bu blok dənizdə suyun dərinliyi 182 metr olan sahədə quraşdırılacaq. Dayaq blokunun quraşdırılması "Qarabağ" yatağının dərin qatlarında neft və qaz hasilatının həyata keçirilməsində böyük rol oynayacaq.

Dövlətimizin başçısı dayaq blokunun dənizə yola salınmasını bildirən düyməni basdı.

Qeyd edək ki, "Qarabağ" layihəsi üzrə hazırlanan dayaq bloku SOCAR-ın tarixində həm ölçülərinə, həm də çəkisinə görə hazırlanan ən böyük sualtı konstruksiyadır. "STB-1" daşıma barjına yüklənəcək konstruksiyanın ümumi çəkisi 16 min tondur. Blokun tikintisi iki il ərzində aparılıb. Konstruksiyanın hazırlanması prosesində mühüm amillərdən biri də yerli mütəxəssislərin iştirakıdır. Belə ki, dayaq blokunun tikintisində çalışanların 95 faizi yerli mütəxəssislər olub.

"Qarabağ" yatağı Xəzər dənizinin cənub hövzəsində, Abşeron arxipelaqının şimal hissəsində yerləşir. Yataqda 1997-1998-ci illərdə Xəzər Beynəlxalq Neft Şirkəti konsorsiumu tərəfindən qazma işləri aparılıb. 2020-ci ildə SOCAR-ın və "Equinor" şirkətinin birgə qazma əməliyyatı vasitəsilə bu yataq məhz neft yatağı kimi kəşf edilib. "Qarabağ" yatağı

60 milyon ton neft ehtiyatına malikdir. Yataqda 6 neft, 3 qaz və 3 suvurucu quyunun qazılması nəzərdə tutulur. "Qarabağ" yatağı Azərbaycanın ən zəngin karbohidrogen yataqlarından biridir.

Bu yatağın istismara verilməsi Azərbaycanın neft strategiyasının daha uğurla reallaşdırılmasına və ölkəmizin neft gəlirlərinin artmasına böyük töhfə olacaq.

Dayaq bloku ilə tanışlıqdan sonra Prezident İlham Əliyev Azərbaycan Televiziyasına müsahibə verib.

**– Cənab Prezident, bu gün "Qarabağ" yatağının dayaq bloku dənizə yola salınır. Bu mühüm hadisənin əhəmiyyəti barədə nə deyə bilərsiniz?**

– Bu çox əlamətdar hadisədir. Bu gün "Qarabağ" yatağının dəniz işlərinə start verilir. Bu, yatağın işlənməsində çox önəmli mərhələdir. Bu nəhəng qurğu Azərbaycan mütəxəssisləri tərəfindən ölkəmizdə inşa edilibdir və bu gün artıq dənizə yola salınır. Əminəm ki, özülün üst hissəsi də vaxtında tikiləcək və beləliklə, biz "Qarabağ" yatağının tammiqyaslı işlənməsinə başlayacağıq.

1990-cı illərdə Heydər Əliyev neft strategiyasının icrası nəticəsində pay bölgüsü haqqında kontrakt imzalanmışdır. 1990-cı illərdə bu yataqda 3 quyu qazılmışdır. Lakin xarici tərəfdaşlar "Qarabağ" yatağının səmərəliliyinə inanmamışdılar, kontrakta xitam verilmiş və "Qarabağ" yatağı tərk edilmişdi. Ancaq bizim mütəxəssislər tam əmin idilər ki, bu yatağın çox böyük potensialı var və həyat bunu təsdiqlədi. Bu il qazılmış dördüncü quyu səmərəli oldu və beləliklə, yataq tam kəşf edilmişdir.

Onu da bildirməliyəm ki, bu, müstəqillik dövründə Azərbaycanda kəşf edilmiş birinci neft yatağıdır. Çünki "Azəri", "Çıraq", "Günəşli" yataqları sovet dövründə kəşf edilmişdir. "Şahdəniz" və "Abşeron" yataqları qaz-kondensat yataqlarıdır. Neft yatağı olaraq bu, birinci yataqdır və bu nəhəng qurğu Xəzər dənizində inşa edilmiş ən böyük qurğudur. Ona görə bu layihənin əhəmiyyəti haqqında çox danışmaq olar. Əlbəttə ki, bu bizim uğurlu siyasətimizin nəticəsidir. Çünki artıq 1994-cü ildən başlayaraq xarici neft şirkətlərinin Azərbaycanda böyük həcmdə sərmayə qoymalarına baxmayaraq, bu günə qədər Azərbaycanın neft-qaz sənayesinə, neft-qaz potensialına xarici investorlar tərəfindən maraq azalmır, əksinə, artır. Əminəm ki, növbəti illərdə "Qarabağ" və digər yataqlar uğurla istismar ediləcək və ölkəmizə böyük fayda verəcək.

**– Bu böyük qurğu çox mürəkkəb və nəhəng konstruksiyaya malikdir. Qurğunun mühəndis-texnoloji xarakteristikalarının önəmini necə qiymətləndirirsiniz?**

– Bəli, bu, doğrudan da, çox mürəkkəb konstruksiyadır və qurğunun çəkisi 16 min tondan çoxdur, hündürlüyü təqribən 190 metrə yaxındır. Nəzərə alsaq ki, "Qarabağ" yatağının yerləşdiyi ərazi Xəzər dənizində çox dərin hissəyə aiddir, əlbəttə ki, belə nəhəng qurğunun tikintisinə böyük tələbat var idi. Onu da bildirməliyəm ki, "Qarabağ" yatağında

suyun dərinliyi 180 metrdir və hesab edirəm ki, məhz buna görə sovet vaxtında bu yataqdan neft-qaz çıxarılmamışdır. Çünki sovet dövründə bizim belə texnologiyalarımız olmamışdır, “Azəri”, “Çıraq” və “Günəşli” yataqlarının dərin hissəsi də toxunulmaz qalmışdır, müstəqillik dövrü üçün qalmışdır. Əks təqdirdə, quru yataqlarda olduğu kimi dəniz yataqlarımız da tam boşaldılacaqdı və müstəqil Azərbaycanın inkişafı üçün enerji resursları qalmayacaqdı. Ona görə “Qarabağ” yatağının aşkarlanması və sonra yataqda işlərin görülməməsi, əlbəttə ki, müstəqil Azərbaycan üçün böyük hədiyyə olmuşdur. Məhz bu gün aparılan siyasət nəticəsində biz bu işləri görə bilirik. Odur ki bu, texnoloji baxımdan, mühəndislik baxımından çox nəhəng və çox mürəkkəb bir konstruksiyadır. Şadam ki, bunu Azərbaycan mütəxəssisləri inşa ediblər. Görülmüş işlərin mütləq əksəriyyəti Azərbaycan mütəxəssisləri, fəhlələri tərəfindən icra olunubdur.

Onu da bildirməliyəm ki, hazırda dərin özüllər zavodunda 5 minə yaxın insan çalışır. Bu nəhəng qurğunun və digər layihələrdə istifadə olunan qurğuların tikintisi burada məşğulluğu tam təmin edir. Mən indi maraqlandım, məlumat verildi ki, burada işləyənlərin orta əməkhaqqı təqribən 1200-1500 manat ətrafındadır və çox böyük peşəkarlıq tələb edən bir müəssisədir. Ona görə bu qurğu bir daha bizim qüdrətimizi göstərir. Bu, sırf Azərbaycan istehsalıdır və Azərbaycan dövlətinə, Azərbaycan xalqına xidmət edəcəkdir.

– **Bəs “Qarabağ” yatağından hasilat nə vaxt gözlənilir?**

– Əgər hər şey plan üzrə getsə, hesab edirəm ki, iki ildən sonra – 2022-ci ilin sonunda ilk qaz və ilk neft çıxarılmalıdır. “Qarabağ” yatağının neft potensialı 60 milyon ton səviyyəsində qiymətləndirilir. Ancaq mən tam əminəm ki, işlənmə dövründə bu rəqəm artacaq. Bunu deməyə əsas verən odur ki, “Qarabağ” yatağı “Azəri”, “Çıraq, və “Günəşli” yataqlarının yanında yerləşir, məsafə o qədər də böyük deyil. Xatırlayıram, “Azəri”, “Çıraq”, “Günəşli” yataqları üzrə kontrakt 1994-cü ildə hazırlanarkən o vaxt xarici tərəfdaşlar bu yataqların potensialını 511 milyon ton neft həcmində dəyərləndirmişdilər. Ancaq həyat onu göstərdi və bu gün bu təsdiq olunub ki, “Azəri, “Çıraq, “Günəşli” yataqlarının potensialı 1 milyard ton neftdən çoxdur. Ona görə bu və digər geoloji amillər deməyə əsas verir ki, “Qarabağ” neft yatağında daha böyük həcmdə təbii ehtiyatlar var. Hasilata gəldikdə isə bu yataqdan ildə ən azı 1,5 milyon ton neft və 1,5–1,8 milyard kubmetr qaz hasil ediləcək. Əlbəttə ki, Azərbaycanda neft hasilatının sabit qalması və qaz hasilatının artırılması üçün bunun böyük faydası olacaqdır.

– **Hazırda Azərbaycanda digər nəhəng neft-qaz layihələri də həyata keçirilir. Onların icra vəziyyəti hansı səviyyədədir?**

– Deyə bilərəm ki, bütün layihələr uğurla icra edilir. Bu gün bu barədə mənə kiçik təqdimat edildi. Bildiyiniz kimi, “Azəri”, “Çıraq” və “Günəşli” yataqlarının işlənilməsi

üzrə bütün işlər plan üzrə gedir. Burada inşa edilən yeni platforma onu göstərir ki, bu yataqların uzunmüddətli işlənməsi artıq reallıqdır. Bildiyiniz kimi, kontraktın müddəti uzadılıb və Azərbaycan bundan böyük fayda götürür, bizə bir neçə milyard dollar dəyərində bonus ödənilib.

"Azəri", "Çıraq" və "Günəşli" yataqlarında hasilatın sabit saxlanması, əlbəttə ki, bizim üçün vacib məsələdir. Eyni zamanda Azərbaycan ictimaiyyəti onu da bilməlidir ki, bizim qaz potensialımızın önəmli hissəsi "Azəri", "Çıraq" və "Günəşli" yataqları hesabına formalaşır. Çünki orada hasil olunan qaz ümumi sistemimizə daxil edilir. Ona görə "Azəri–Çıraq–Günəşli" ilə bağlı bütün işlər plan üzrə gedir və bu yataq bizim əsas gəlir mənbəyimizdir. Bunu hər kəs bilməlidir.

Eyni zamanda "Şahdəniz–2" layihəsi uğurla icra edilir. Bu, dünyanın ən böyük qaz-kondensat yataqlarından biridir. Bildiyiniz kimi, "Şahdəniz–2"nin tammiqyaslı işlənilməsi bizə əlavə 16 milyard kubmetr qaz verəcək. Həm öz tələbatımızı ödəyəcəyik, həm də ki, ixrac üçün böyük həcm yaranacaqdır.

Gələn il "Abşeron" qaz-kondensat yatağından ilk qazın hasilatı gözlənilir. "Abşeron" yatağının işlənilməsinin iki mərhələsi olacaqdır. Birinci mərhələ nəticəsində 1,5 milyard kubmetr qaz hasil ediləcək və bu qaz Azərbaycanda istehlak olunacaq. Çünki artan sənaye potensialımız diktə edir ki, bizə əlavə resurslar lazımdır. Ona görə 1,5 milyard kubmetr qaz ölkə daxilində istehlak olunacaq. Biz "Abşeron" yatağının ikinci mərhələsinin başlanmasına da yaxınlaşırıq. Orada hasilat, yəqin ki, 3-4 dəfə artıq olacaqdır. Bu da bizim qaz potensialımıza müsbət təsir göstərəcəkdir.

"Şəfəq–Asiman" yatağı üzrə işlər qrafik üzrə gedir. İndi qazma işləri aparılır. Bu yatağın da çox böyük potensialı var. Əlbəttə, qazma işləri ehtiyatların dəqiq həcmini göstərəcək. Ancaq yadımdadır ki, hələ Neft Şirkətində işlədiyim dövrdə bizim mütəxəssislər orada təqribən 400–500 milyard kubmetr həcmində qaz ehtiyatının mövcudluğunu qeyd etmişdilər. Hər halda, hesab edirəm ki, qazma işləri yaxın gələcəkdə başa çatacaq və bu haqda daha dəqiq məlumat olacaqdır.

Əlbəttə, indi bizim əsas diqqətimiz Cənub Qaz Dəhlizinin başa çatmasına yönəldilib. Bu layihə də uğurla icra edilir. Bunun dördüncü və sonuncu layihəsi olan TAP artıq başa çatmaq üzrədir. Beləliklə, hesab edirəm ki, bir neçə aydan sonra Azərbaycan dövlətinin təşəbbüsü ilə və genişmiqyaslı beynəlxalq əməkdaşlıq nəticəsində 3500 kilometr uzunluğunda olan, bir-birinə bağlı üç qaz kəmərinin inşası tam başa çatacaqdır və Azərbaycan qazı artıq Avropa məkanına çatdırılacaq. Beləliklə, Cənub Qaz Dəhlizi tam istismara veriləcək. Bu bizim üçün çox önəmli və hesab edirəm ki, tarixi hadisədir. Çünki bu imkan verir ki, "Şahdəniz" yatağının tam işlənilməsi təmin edilsin.

Eyni zamanda onu da bildirməliyəm ki, Cənub Qaz Dəhlizi inşa olunmadan investor buraya və heç bir başqa layihəyə vəsait qoymazdı, yaxud da tərəddüd edərdi. Çünki

məsələn, "Abşeron" qaz-kondensat yatağından çıxarılacaq qazın ixracı üçün yol olmalıdır, həmçinin "Qarabağ" yatağından və digər yataqlardan çıxarılacaq təbii qazın da. Ona görə Cənub Qaz Dəhlizinin əhəmiyyəti təkcə "Şahdəniz" layihəsi ilə məhdudlaşmır. Bu layihə icra olunmadan bizim enerji siyasətimiz yarımçıq qala bilərdi. Amma bu gün bizim enerji siyasətimiz ölkəmizin maraqlarını tam təmin edir. "Şahdəniz" yatağı ən azı yüz il bundan sonra Azərbaycanı və tərəfdaş ölkələri qazla təchiz edəcəkdir. Eyni zamanda biz ixrac coğrafiyamızı genişləndirmək əzmindəyik. "Şahdəniz" qazı Gürcüstan, Türkiyə, Bolqarıstan, Yunanıstan və İtaliyaya çatdırılacaq. Əgər Albaniyada qaz şəbəkəsi yaranarsa, Albaniya da bizim təbii tərəfdaşımız olacaqdır, biz oraya da qaz ixrac edə bilərik. Digər qonşu ölkələrə – Balkan bölgəsində yerləşən ölkələrə Azərbaycan qazının verilməsi mümkündür.

Ona görə Cənub Qaz Dəhlizi bizim tarixi nailiyyətimizdir və bunun başa çatmasına az vaxt qalır. Bir daha demək istəyirəm ki, bizim bütün yataqlarımızda görülən işlər məqsədyönlü şəkildə aparılır. Bir layihə o biri layihəni şərtləndirir. Əgər 1994-cü ildə "Azəri–Çıraq–Günəşli" üzrə kontrakt imzalanmasaydı, heç bir başqa layihədən söhbət gedə bilməzdi. Əgər "Şahdəniz" üzrə kontrakt imzalanmasaydı, bu gün biz nəinki başqa ölkələrin, öz enerji təhlükəsizliyimizi belə təmin edə bilməzdik. Çünki "Şahdəniz" bizim üçün əsas mənbədir. Biz bütün bu işləri görməklə Avrasiyanın yeni enerji xəritəsini tərtib edirik və Azərbaycan uzun müddət bundan sonra bir çox ölkələr üçün strateji tərəfdaş olaraq qalacaqdır.

– **Cənab Prezident, bu dayaq blokunun göndərildiyi yataq hamımız üçün doğma və əziz olan Qarabağın adını daşıyır. Bunungla bağlı fikirlərinizi bölüşməyi xahiş edərdik.**

– Hesab edirəm ki, bu, rəmzi məna daşıyır. Çünki bildiyiniz kimi, Azərbaycan xarici tərəfdaşlarla bir çox yataqlar üzrə kontraktlar imzalamışdır. Ancaq heç də onların hamısı səmərə verməmişdir. Artıq bir çoxlarının icrası dayandırılıb, onların icrasına xitam verilib, qazılmış quyular ümidlərimizi doğrultmayıb. "Qarabağ" yatağının işlənməsinə gəldikdə, mən bir daha demək istəyirəm, hər zaman əminlik var idi ki, burada böyük potensial, böyük neft və qaz ehtiyatları vardır. Ancaq bayaq qeyd etdiyim kimi, 1990-cı illərdə üç quyu qazılmışdı, xarici tərəfdaş artıq bəyan etmişdi ki, bu, gələcək investisiya səmərəsiz olacaq və beləliklə, "Qarabağ" yatağı tərk edilmişdir. Biz, əslində, heç nə itirmədik. Çünki Azərbaycan o kəşfiyyat dövründə öz üzərinə heç bir maliyyə öhdəliyi götürməmişdi. Əksinə, hətta uğursuz nəticə də nəticədir, bizə əlavə geoloji məlumat veribdir. Bu gün Azərbaycan vaxtilə – 1990-cı illərdə tərk edilmiş "Qarabağ" yatağına qayıdır və bu, nəhəng dayaq bloku bunun əyani sübutudur.

Eyni zamanda 1990-cı illərin əvvəllərində Azərbaycanın ovaxtkı rəhbərliyi – AXC–Müsavat cütlüyü torpaqlarımızın işğal altına düşməsinə imkan yaratdı. Yəni onların xə-

yanəti, satqınlığı, fərariliyi nəticəsində torpaqlarımız işğal altına düşmüşdür. Azərbaycan – əgər belə analogiya aparmaq mümkündürsə – Qarabağı tərk etmişdi. Biz 2016-cı ildə torpaqlarımızın bir hissəsini qaytardıq, işğalçıları o torpaqlardan qovduq və o ərazilərə həyat qayıtdı, vətəndaşlar qayıtdı, Azərbaycan qayıtdı. Əminəm ki, Azərbaycan öz doğma torpağına, Qarabağ torpağına qayıdacaq. Bizim ərazi bütövlüyümüz tam bərpa ediləcək, necə ki bu gün biz vaxtilə tərk edilmiş "Qarabağ" yatağına qayıdırıq, eyni qaydada biz doğma Qarabağ torpağımıza da qayıdacağıq. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!

**– Çox sağ olun, cənab Prezident. Minnətdarıq.**

– Sağ olun.

**AZƏRTAC**
*10 avqust 2020-ci il*

# PREZİDENT İLHAM ƏLİYEV "ABŞERON" YATAĞININ DƏNİZ ƏMƏLİYYATLARININ TƏMƏLQOYMA MƏRASİMİNDƏ İŞTİRAK EDİB

*19 sentyabr 2020-ci il*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 19-da Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodunda "Abşeron" yatağının dəniz əməliyyatlarının təməlqoyma mərasimində iştirak edib.

Prezident İlham Əliyevə "Abşeron" yatağında quraşdırılacaq dayaq blokları və digər sualtı qurğular barədə məlumat verildi

Bildirildi ki, "Abşeron" yatağında quraşdırılacaq dörd əsas dayaq bloku və digər sualtı qurğular SOCAR-ın "BOS Şelf" şirkəti tərəfindən tikilib. Tikinti işlərinə ümumi çəkisi 10 min tona yaxın olan əsas və köməkçi dayaq bloklarının, körpülərin, estakadaların, məşəl sisteminin, sualtı qurğuların, boru xəttinin, modulların inşası və quraşdırılması daxildir. "Abşeron" layihəsi üzərində iş zamanı "BOS Şelf" şirkəti Azərbaycanda ilk dəfə bütün mühəndislik, təchizat, tikinti, quraşdırma işlərini həyata keçirməklə layihənin tam təminatla təhvil verilməsi üsulunu tətbiq edib. Yataqdan qazın hasilatı üçün quraşdırılacaq platforma öz növünə görə nadirdir. Belə ki, platformanı kənardan, yəni Neft Daşlarında yerləşdirilən moduldan idarə etmək üçün innovativ həll yolları işlənilib hazırlanıb. "Abşeron" layihəsində Xəzərdə ilk dəfə "boru içində boru" texnologiyası tətbiq olunacaq.

Sonra "Abşeron" yatağının dəniz əməliyyatlarının təməlinin qoyulmasını bildirən düymə basıldı.

Qeyd edək ki, Xəzər dənizinin Azərbaycan sektorunda suyun 500 metr dərinliyində yerləşən "Abşeron" yatağının ehtiyatları 350 milyard kubmetr qaz və 45 milyon ton kondensat həcmində qiymətləndirilir. Yatağın istismarı Azərbaycanın təbii qaza artmaqda olan daxili tələbatının təmin edilməsinə əhəmiyyətli töhfə verəcək.

Daha sonra Prezident İlham Əliyev Azərbaycan Televiziyasına, İctimai Televiziyaya və "Real" Televiziyasına müsahibə verdi.

**– Cənab Prezident, bu gün ölkəmizin neft-qaz sektorunun inkişafında növbəti mühüm hadisənin – "Abşeron" yatağının dəniz əməliyyatlarının təməlqoyma mərasiminin şahidi oluruq. Bu layihənin əhəmiyyətini necə qiymətləndirirsiniz?**

– Bu, doğrudan da, çox əhəmiyyətli hadisədir. Çünki bu gün faktiki olaraq "Abşeron" qaz-kondensat yatağının yeni mərhələsi başlayır və əminəm ki, bu mərhələ də uğurlu olacaq. Beləliklə, Azərbaycan öz neft-qaz strategiyasında önəmli hadisəyə, önəmli addıma imza atacaqdır.

"Abşeron" yatağının tarixi bir qədər fərqlidir. Çünki ilk dəfə "Abşeron" qaz yatağı üzrə kontrakt xarici tərəfdaşlarla hələ 1990-cı illərin sonlarında imzalanmışdır. Mən o günləri yaxşı xatırlayıram və bizim "Abşeron" yatağı ilə əlaqədar böyük ümidlərimiz var idi. Çünki bizim geoloqlarımız, xüsusilə Xoşbəxt Yusifzadə tam əmin idi ki, bu yataqda kifayət qədər böyük qaz ehtiyatları vardır. Bir də ki, "Abşeron" yatağı üzrə kontrakt "Şahdəniz" qaz-kondensat yatağı üzrə kontraktdan sonra imzalanmışdır və əslində, bu onu göstərirdi ki, Azərbaycan artıq neft ölkəsindən qaz ölkəsinə keçid alır.

Ancaq əfsuslar olsun ki, müəyyən müddətdən sonra birinci kontrakta xitam verildi. Onun da səbəbi ondan ibarət idi ki, qazılan kəşfiyyat quyusu boş çıxdı. Xatırlayıram, o vaxt bizim görkəmli geoloqumuz Xoşbəxt Yusifzadə demişdi ki, quyunun yeri düzgün seçilməmişdir və xarici tərəfdaşları inandırmağa çalışırdı ki, onlar öz iş proqramına bir qədər düzəlişlər etsinlər. Ancaq əfsuslar olsun ki, onun sözünə baxmadılar. Halbuki Xəzər dənizini Xoşbəxt Yusifzadə qədər tanıyan ikinci adam dünyada yoxdur. Ancaq heç bir nəticə əldə olunmadı və xarici şirkət bu yatağı tərk etdi. Yenə də deyirəm, biz tam əmin idik ki, burada çox böyük qaz ehtiyatları vardır. Şadam ki, "Total" şirkəti eyni fikrə gəldi və SOCAR-la müvafiq sənədlər imzalandı. Ondan sonra praktiki işlər aparıldı və böyük qaz-kondensat yatağı aşkarlandı. Bu önəmli hadisə – yatağın aşkarlanması ilə əlaqədar ilk xəbəri mənə Xoşbəxt müəllim vermişdir. Beləliklə, bizim neft-qaz potensialımızın inkişafı üçün çox böyük resurs əldə edildi. Bu yataqda 350-360 milyard kubmetr qaz ehtiyatları vardır. Amma mən hesab edirəm ki, daha çox olacaq. Çünki artıq bizdə olan təcrübə onu göstərir ki, ehtimal olunan resurslardan daha böyük resurslar üzə çıxır və 100 milyon ton kondensat – bu da xam neftə bərabər olan bir məhsuldur. Beləliklə, Azərbaycan bundan sonra da etibarlı qaz təchizatçısı olacaqdır. Onu da bildirməliyəm ki, "Abşeron"un birinci mərhələsində çıxarılacaq qaz daxili tələbatlara istiqamətləndiriləcək. Çünki buna da ehtiyac var. Artan əhali, artan sənaye bunu tələb edir. İkinci mərhələdə hasil olunacaq qaz isə ixrac yolu ilə dünya bazarlarına çıxarılacaq. Çünki artıq bu yatağın tam işlənməsi mərhələli yollarla öz həllini tapacaq.

Eyni zamanda bizim neft hasilatımızın sabit qalması üçün bu yatağın böyük önəmi var. Çünki 100 milyon ton kondensat – bu da Bakı–Tbilisi–Ceyhan ixrac boru xətti

ilə dünya bazarlarına çıxarılacaq. Beləliklə, "Azəri–Çıraq–Günəşli"də mövcud olan və davam edən təbii hasilat tənəzzülünü "Abşeron" yatağı bir qədər kompensasiya edəcək.

Ona görə bu, növbəti böyük hadisədir. Bütün bu qurğular Azərbaycanda istehsal olunub. Mən keçən ay burada olarkən "Qarabağ" dayaq blokunun dənizə göndərilməsini qeyd edirdim. Artıq bu blok burada bizim qarşımızdadır, dənizdədir və bu gün növbəti dayaq bloklarının dənizə göndərilməsi, əlbəttə ki, çox əhəmiyyətli hadisədir. Əminəm ki, qrafik üzrə iki ildən sonra "Abşeron" yatağından ilk qaz və kondensat çıxarılacaqdır.

**– Cənab Prezident, qarşıdan neftçilərin peşə bayramı gəlir. Bu münasibətlə ürək sözlərinizi eşitmək istərdik.**

– Mən neftçiləri qarşıdan gələn peşə bayramları münasibətilə təbrik etmək və onlara yeni uğurlar arzulamaq istəyirəm. Neftçilər hər zaman Azərbaycanda böyük hörmətə layiq insanlar olub. Bu gün də belədir və neftçilərin əməyi əsl qəhrəmanlıqdır. Neftçi peşəsi həm hörmətli peşədir, eyni zamanda riskli, təhlükəli peşədir və bir daha demək istəyirəm ki, onların əməyi əsl qəhrəmanlıqdır.

Eyni zamanda ölkəmizin uğurlu inkişafında neftçilərin çox böyük rolu vardır. Bu gün ölkə iqtisadiyyatının əsas hissəsi neft-qaz sektoru ilə bağlıdır və bu, sonrakı uzun illərdə də belə olacaq. Söhbət ondan getmir ki, digər sektorlar inkişaf etmir, edir, ancaq nə qədər inkişaf etsə də, yaxın gələcəkdə neft-qazdan əldə olunan gəlirlərin yerini tuta bilməyəcək. Eyni zamanda bizim yeni layihələrimiz – bu gün "Abşeron", bir ay əvvəl "Qarabağ", digər layihələrin icrası bundan sonra da neft-qaz amilinin önəmli rolunu təsdiqləyəcək. Ona görə ölkəmizin uğurlu gələcəyi neftçilərin peşəsindən, onların nailiyyətlərindən böyük dərəcədə asılı olacaqdır. Çox şadam ki, mənim də həyatımın 9 ili Azərbaycan Dövlət Neft Şirkətində keçibdir. O illərdə əldə etdiyim təcrübə mənim üçün çox qiymətlidir və çox gözəl xatirələrim var. Əldə etdiyim təcrübə, biliklər bu gün mənə kömək göstərir. Mən şirkətin vitse-prezidenti kimi xarici əlaqələrə rəhbərlik edirdim və əsas kontraktların hazırlanmasında, imzalanmasında fəal rol oynayırdım. Çox şadam ki, mən bizim görkəmli neftçilərimizlə bir yerdə işləmişəm. Əfsanəvi neftçi Qurban Abbasov – bax bu nəhəng kran gəmisi onun adını daşıyır. Onunla birlikdə işləmişəm. O çox prinsipial mövqeyi olan, çox bilikli, peşəkar və cəsarətli adam idi. Belə adamla, sadəcə, təmasda olmaq, bir yerdə işləmək böyük təcrübədir. Biz müntəzəm olaraq Dövlət Neft Şirkətinin şurasında görüşürdük, məsələləri müzakirə edirdik. Söz düşmüşkən deyə bilərəm və hesab edirəm ki, neftçi Qurban dünyada bir nömrəli neftçi sayılmalıdır.

Eyni zamanda Xoşbəxt Yusifzadə ilə, bizim əfsanəvi neftçi-geoloqla birlikdə işləmişik. Dövlət Neft Şirkətinin köhnə binasında bizim iş otaqlarımız da yanbayan idi, ikimizin bir qəbul otağımız var idi. Ona görə hər gün görüşürdük və bu gün də görüşürük. Şadam ki, Xoşbəxt müəllim bugünkü mərasimdə iştirak edir və bizimlə birlikdə düyməni basıb. Çünki "Abşeron" yatağının işlənməsində onun çox böyük rolu var.

Bu gün neftçilər də görürlər ki, onların əməyi Azərbaycan xalqının maraqlarına xidmət edir və bu onlar üçün də çox önəmlidir. Çünki onlar bilirlər ki, bu gün və bundan sonra ölkəmizin həm siyasi, həm iqtisadi nailiyyətləri böyük dərəcədə neft-qaz amilinə söykənir. Belə olan halda bu onları daha da ruhlandırır. Bir daha demək istəyirəm, mən hər zaman fəxr etmişəm ki, həyatımın 9 ili Dövlət Neft Şirkətində keçib və neftçilərin həmkarı kimi onları ürəkdən təbrik edirəm, yeni uğurlar arzulayıram.

**– Cənab Prezident, Azərbaycan qədim neft diyarıdır. Ölkəmizdə uzun illər – həm çar Rusiyası dövründə, həm Sovetlər dövründə, həm də indiki müstəqillik dövründə neft hasil olunub. O dövrlərdə və müstəqillik dövründə neft amilinin rolunu necə xarakterizə edərdiniz?**

– Bəli, Azərbaycan o ölkədir ki, XIX əsrin ortalarında ilk dəfə sənaye üsulu ilə neft hasil edilibdir. XX əsrin ortalarında tarixdə ilk dəfə dəniz yataqlarından neft Azərbaycanda hasil edilibdir. Ancaq əgər biz tarixə baxsaq, görərik ki, o vaxt Azərbaycanda çıxarılan neft Azərbaycan xalqının maraqlarına xidmət etmirdi. Çünki çar Rusiyası dövründə varlılar varlanırdı, amma kasıblar daha da ağır vəziyyətə düşürdü, insanların əməyi çox ağır idi. Bir daha deyirəm, Azərbaycanda çıxarılan neft Azərbaycan xalqının maraqlarına xidmət etmirdi.

Əgər biz o vaxt müstəqil ölkə olsaydıq, mən tam əminəm ki, Azərbaycan dünyanın ən zəngin ölkəsinə çevrilə bilərdi. Ancaq biz müstəqil deyildik. Düzdür, o vaxt zəngin neft maqnatları, onlar əldə etdikləri gəlirlərin bir hissəsini xeyriyyəçiliyə sərf edirdilər, xüsusilə Hacı Zeynalabdin Tağıyev, Muxtarov, Əsədullayev. Tağıyev, bildiyiniz kimi, Bakıya Şollar su kəmərini çəkdirmişdir, eyni zamanda təhsilə böyük əhəmiyyət verirdi. Çünki görürdü ki, Azərbaycan gəncləri təhsildən kənarda qalırlar və beləliklə, gələcəkdə onların inkişafı və yüksək yerlərə çıxması problemli ola bilər. Ona görə hesab edirəm ki, Azərbaycanın neft maqnatları arasında onun xüsusi rolu vardır. Bizim ailəyə də onun köməyi dəymişdir. Mənim babam Əziz Əliyev qədim Azərbaycan torpağı olan İrəvan xanlığı ərazisində kasıb ailədə doğulmuşdu və oxumaq istəyirdi. Ancaq oxumaq üçün pulu yox idi. O vaxt o, Hacı Zeynalabdin Tağıyevə məktub ünvanlamışdı və xahiş etmişdi ki, ona maddi kömək göstərsin. O, həkim olmaq istəyirdi. Təbii ki, Tağıyev onu tanımırdı, ancaq bir vətənpərvər, xeyirxah insan kimi ona pul göndərdi və o pul hesabına Əziz Əliyev Sankt-Peterburq Hərbi Tibb Akademiyasına daxil oldu, orada oxudu, gözəl həkim, görkəmli dövlət xadimi oldu. Onu da bildirməliyəm ki, İkinci Dünya müharibəsi zamanında o, Dağıstana birinci katib vəzifəsinə göndərilmişdir və müharibə illərində Dağıstana rəhbərlik etmişdir. O vaxt dağıstanlıları da digər Qafqaz xalqları kimi sürgün etmək üçün planlar var idi. Demək olar ki, bu qərar artıq sovet rəhbərliyi tərəfindən verilmişdi. Məhz Əziz Əliyevin fəaliyyəti, onun çox cəsarətli addımları nəticəsində

dağıstanlılar bu bəladan xilas ola bildilər. Bu gün onun xatirəsi Dağıstanda yaşayır, onun şərəfinə abidə ucaldılıb.

Yəni o vaxt bizim bu zəngin neft maqnatlarımız bu işləri görürdülər. Ancaq əlbəttə ki, onlar hər bir insana kömək edə bilməzdilər. Bir də ki, o vaxt Bakının neft maqnatları arasında ermənilər də kifayət qədər çox idi. Onlar da Azərbaycanda qazanılan pulları bir çox hallarda Azərbaycan xalqının maraqlarına zidd işlərə yönəldirdilər. Beləliklə, çar Rusiyası dövründə Azərbaycan xalqının neftdən gəliri sıfır səviyyəsində idi.

Sovet dövründə – o vaxt əgər 1920-ci ildə Azərbaycan öz dövlət müstəqilliyini əldən verməsəydi, hesab edirəm ki, yenə də ən zəngin ölkələrin birinə çevrilərdi. Çünki o vaxt da Azərbaycanda çıxarılan neft dünya neft bazarında əksəriyyət təşkil edirdi. Ancaq 1920-ci ildə müstəqillik əldən getdi və Azərbaycan nefti yenə də Azərbaycan xalqına kömək etmirdi. O vaxt – xüsusilə müharibə illərində neft mədənlərində işləyən insanlar çox ağır şəraitdə yaşayırdılar, gecə-gündüz çalışırdılar. Bir rəqəmi gətirə bilərəm ki, müharibə zamanı Azərbaycanda rekord səviyyədə neft hasil edilmişdir – 23 milyon ton. Yəni cəmi bir-iki il ərzində neft hasilatı təqribən iki dəfədən çox artırıldı. O vaxt müasir texnologiyalar yox idi, bu artım daha çox insan əməyinin istismarı nəticəsində baş verirdi. Deyə bilərəm ki, bizim ailədə də bu öz təsirini göstərdi. Çünki mənim digər babam Əlirza Əliyev pul qazanmaq üçün Naxçıvandan Bakıya gəlirdi və aylarla neft mədənlərində işləyirdi. Bu onun səhhətinə çox mənfi təsir göstərmişdi və məhz buna görə gənc yaşlarında vəfat etdi.

Yəni o vaxt Azərbaycan nefti istismar edilirdi. İkinci Dünya müharibəsində sovet ordusunun Qələbəsində Azərbaycan neftçilərinin xüsusi, müstəsna əməyi vardır. Çünki o vaxt Sovet İttifaqında yanacağın 80 faizi, sürtkü yağlarının 90 faizi Azərbaycan tərəfindən təmin edilirdi, Azərbaycanda hərbi texnika istehsal olunurdu. Bu müharibədə 300 mindən çox Azərbaycan nümayəndəsi həlak oldu. Ancaq görün, Sovet İttifaqı dağılanda biz hansı vəziyyətlə üzləşmişdik: dağılmış neft infrastrukturu. Bu gün mənə edilən təqdimatda göstərilir ki, Neft Daşlarına yeni həyat veriləcək. Çünki "Abşeron" yatağı Neft Daşları ilə bağlı olacaq. Amma Neft Daşları hansı vəziyyətdə idi o vaxt. Mən xatırlayıram, Neft Daşlarına Prezident kimi ilk dəfə 2004-cü ildə gedəndə ağır vəziyyət idi. Bütün platformalar çürümüşdü, dağılmışdı. Burada işləmək böyük çətinlik, böyük təhlükə yaradırdı. Bunu biz əldə etdik. Neft hasilatı aşağı düşmüşdü, faktiki olaraq qaz hasilatı ölkəmizin tələbatını ödəmirdi. Bakının yarısı qazsız qalmışdı, o ki qaldı, rayonlara, orada, ümumiyyətlə, qaz deyilən şey yox idi. Deməli, iqtisadi vəziyyət ağır idi.

Hələ Sovet İttifaqının son illərində Azərbaycana qarşı böyük ədalətsizliklər edildi. Xüsusilə Azərbaycan xalqının cəlladı Qorbaçov və onun dəstəsi Azərbaycana nifrətlə yaşayırdı. Nəinki azərbaycanlılara, bütün müsəlmanlara böyük nifrət hissi var idi, mən

bunu dəqiq bilirəm. Bunun nəticəsində Heydər Əliyev Siyasi Bürodan uzaqlaşdırılandan iki həftə sonra ermənilər Dağlıq Qarabağı Azərbaycandan ayırıb Ermənistana birləşdirmək haqqında iddia qaldırdılar. Heydər Əliyev amili imkan vermirdi ki, onlar baş qaldırsın. Ancaq Qorbaçovun yaxın ətrafı, demək olar ki, ermənilərdən ibarət idi və bu əsassız iddiaya qarşı lazımi addımlar atılmadı. Əksinə, o vaxt Qorbaçov hakimiyyəti 100 faiz ermənilərin tərəfini tutdu və Dağlıq Qarabağı Azərbaycandan ayırmaq üçün ilk addımlar məhz o vaxt atıldı. Azərbaycanda bəziləri, yəqin ki, bunu xatırlamır, ya da bilmir, amma bu tarixi bilmək lazımdır. O vaxt sovet rəhbərliyi qərar qəbul etdi ki, Dağlıq Qarabağda xüsusi komitə yaradılsın və o komitəyə Qorbaçovun köməkçisi Volski təyin edildi. Volski qatı ermənipərəst insan idi və orada işlədiyi dövrdə əlindən gələni edirdi ki, Azərbaycanın tarixi irsi Dağlıq Qarabağ ərazisindən silinsin. Azərbaycanlılar o vaxt Dağlıq Qarabağın bəzi yerlərindən zorla çıxarıldı. Xankəndidə ilk etnik təmizləmə siyasətinin təzahürləri üzə çıxdı və demək olar ki, azərbaycanlılar Xankəndidən qovuldular, Volski orada otura-otura. Yəni beləliklə, Dağlıq Qarabağın Azərbaycandan ayrılması üçün imkan yaradıldı.

Əfsuslar olsun ki, Azərbaycan rəhbərliyi o vaxt buna, sadəcə, tamaşaçı kimi yanaşırdı, öz səsini ucaltmamışdı, öz sözünü deməmişdi. Özünü çox qorxaqcasına aparırdı, mərkəzlə münasibətləri korlamaq istəmirdi. O vaxt Azərbaycana rəhbərlik edən insanlar Azərbaycan xalqına xəyanət etmişdilər. Ondan sonra Qanlı Yanvar faciəsi. Cəllad Qorbaçov dinc insanlara meydan oxudu, Azərbaycan xalqının qanı töküldü. Ondan sonra Xocalı soyqırımı. Xocalı soyqırımını vəhşi erməni dəstələri ilə birlikdə törədən Sovet İttifaqının 366-cı alayı olmuşdur. Bəli, o alayda xidmət edənlərin böyük əksəriyyəti ermənilər idi. Ancaq bu, Sovet İttifaqının alayı idi və azərbaycanlılara qarşı etnik təmizləmə işlərində, Xocalı soyqırımında, torpaqlarımızın işğal altına düşməsində onların həlledici rolu olmuşdur. Yoxsa ermənilər təkbaşına bizim torpaqlarımızı işğal edə bilməzdilər.

Yəni biz bütün bunları gördük. Azərbaycan İkinci Dünya müharibəsində Sovet İttifaqının qələbəsinə əvəzolunmaz töhfə vermişdir – həm arxa cəbhədə, həm də ön cəbhədə. Bu yaxınlarda Rostov vilayətində Sambek yüksəkliklərinin azad edilməsi mərasimi keçirilmişdir. Mən Rostov qubernatoruna çox minnətdaram ki, bu hadisə zamanı azərbaycanlıların qəhrəman əməyi və fədakarlığı orada qeyd edilmişdir. Eyni zamanda Rusiyanın dövlət televiziyası – “Rossiya-1” kanalı məndən bu məsələ ilə bağlı müsahibə almışdı. Çünki Sambek yüksəkliklərini və Rostov vilayətini faşistlərdən təmizləyən məhz azərbaycanlılar olub – 416-cı Taqanroq diviziyası. O diviziyada xidmət edənlərin sayı təqribən 12 minə yaxın idi. Ancaq onların mütləq əksəriyyəti – 11 mindən çoxu azərbaycanlılar idi. Diviziyanın tərkibi üç dəfə yenidən formalaşdırılırdı, çünki həlak olanlar həddindən artıq çox idi. Rostovu faşistlərdən təmizlədilər, Mozdokda faşistləri

Bakı tərəfə keçməyə qoymadılar. Yoxsa Bakını zəbt edəcəkdilər. Bunu biz etmişik, qəhrəman Azərbaycan xalqı. Azərbaycan zabiti Məcidov Brandenburq qapısının üstünə Qələbə bayrağını sancmışdır. Amma tarixi kitablarda bu, var? Yoxdur. Kimdən soruşsan, mütləq əksəriyyət bunu bilmir. Nə üçün? Çünki azərbaycanlıların qəhrəmanlığı tarixdən silinirdi.

O vaxt Moskvada oturanlar – Mikoyanlar və ona oxşar anti-Azərbaycan ünsürlər hər vəchlə çalışırdılar ki, azərbaycanlıların qəhrəmanlığını gizlətsinlər. Əfsanəvi partizan Mehdi Hüseynzadəyə Sovet İttifaqı Qəhrəmanı adı müharibədən neçə il sonra verildi, özü də Azərbaycan tərəfinin təkidi ilə. Mən Sloveniyada olarkən onun məzarını ziyarət etdim. Orada böyük mərasim keçirdik. Orada onunla birlikdə vuruşan sloveniyalıları gördüm. Onlar göz yaşları tökürdü. Mən onlarla söhbət edirdim, çünki onların təəssüratları çox maraqlı idi. Deyirdilər ki, belə bir qəhrəman insan dünyaya gəlməmişdi. Yəni o gizlədilirdi, danılırdı şüurlu şəkildə.

Ona görə biz bunu Sovet İttifaqı dağılanda gördük. İndi baxın, müstəqillik dövründə – hələ 30 ili tamam olmayıb – biz necə böyük işlər görürük. Bu gün Azərbaycan nefti tam şəkildə Azərbaycan xalqının maraqlarına xidmət edir və nəinki nəhəng neft-qaz sahəsində, bütün başqa sahələrdə də. İndi Azərbaycan bütün reytinqlərdə ən qabaqcıl yerlərdədir. Azərbaycanda aparılan infrastruktur siyasəti, infrastruktur layihələrinin icrası nümunə kimi göstərilir. Sovet vaxtında bizim dağ rayonlarımızda qaz xətləri yox idi. Daşkəsən, Gədəbəy, Lerikə ilk qaz xətlərini biz çəkdirdik. O vaxt Azərbaycan qazı başqa respublikalara nəql edilirdi, ancaq respublikanın bəzi yerlərində qaz yox idi. İndi qazlaşdırma 96 faizdir. Bu gün biz infrastruktur layihələrinin təhlilinə verilən qiymətə görə dünyada qabaqcıl yerlərdəyik. Davos Forumu avianəqliyyat, dəmir yolu nəqliyyatı sahələrində Azərbaycanı 11-12-ci yerlərə layiq görüb. Yol infrastrukturunun keyfiyyətinə görə dünyada 27-ci yerdəyik. Bizim digər sosial infrastruktur layihələrimiz – müstəqillik dövründə 3700 məktəb tikilib və təmir edilib. Amma müstəqilliyə qədər o məktəblər nə gündə idi. 700-dən çox xəstəxana tikilib və ən müasir avadanlıqla təchiz edilib. Biz kosmik dövlətə çevrildik, biz nəhəng neft-qaz layihələri icra edirik. Təkcə iqtisadiyyat və sənaye sahəsində yox, baxın, idman sahəsində, Olimpiya Oyunlarında medalların sayına görə 14-cü yerdəyik. Sovet dövründə bunu təsəvvür etmək mümkün idimi? Əgər o vaxt kimsə desəydi ki, bunların biri mümkündür, bəlkə də, ona gülərdilər. Budur müstəqilliyin üstünlüyü. Biz azad, müstəqil ölkədə yaşayırıq, öz taleyimizin sahibiyik. Bizim təbii resurslarımız xalqımızın maraqlarına xidmət edir.

Biz neft gəlirlərini çox səmərəli yollarla yerləşdirmişik, onları qoruyuruq və ordumuzu gücləndiririk. Ona görə müstəqilliyin üstünlükləri göz qabağındadır. Əgər kimsə hansısa nostalgiyaya görə keçmiş dövrləri məhəbbətlə xatırlayırsa, biz o adamlara tutarlı cavablar

verməliyik. Müstəqilliyə qarşı çıxan və onu aşağılamağa çalışan hər bir fərd dövlətimizə xəyanət edir. Müstəqillik bizim əsas dəyərimizdir və biz nə qədər güclü olsaq, nə qədər qüdrətli olsaq, müstəqilliyimiz o qədər də möhkəm olacaqdır.

– **Cənab Prezident, ölkəmizdə neft hasilatı ciddi ekoloji problemlər meydana gətirmişdir. Hazırda isə Sizin göstərişinizlə ekoloji vəziyyətin yaxşılaşdırılması və ətraf mühitin qorunması istiqamətində genişmiqyaslı işlər həyata keçirilir. Bununla bağlı nə deyə bilərsiniz?**

– Bəli, tamamilə haqlısınız. Bu, doğrudan da, ciddi məsələdir. Çünki o vaxt Bakı, Abşeron yarımadası, Sumqayıt şəhəri ekoloji fəlakət zonaları kimi təqdim edilirdi və faktiki olaraq ekoloji fəlakət mövcud idi. İndi bir çox hadisələr yaddan çıxır. Ancaq bizim neftlə ən çox çirklənmiş ərazimiz Bibiheybət buxtası idi. İndi Bibiheybət buxtası gözəl parklar, istirahət zonalarına çevrilib. Bibiheybət qəsəbəsi indi faktiki olaraq yenidən qurulub. Yəni Bibiheybət buxtası ekoloji fəlakət zonası idi və o görüntülər, yəqin ki, bir çoxlarının xatirindədir. Digər ekoloji fəlakət zonası Balaxanı və onun neft mədənləri idi. İndi baxın, Balaxanı gözəl bir qəsəbəyə çevrilibdir və orada işlər artıq tamamlanmaq üzrədir. Mən özüm gedib baş çəkəcəyəm və baxıb görəcəyəm ki, mənim göstərişlərim necə yerinə yetirilir. Təkcə Balaxanı yox, bütün qəsəbələr. Mən demişəm, Bakının bütün qəsəbələri abadlaşdırılmalıdır, orada insanlar üçün daha yaxşı şərait yaradılmalıdır, insanları narahat edən bütün problemlər həll olunmalıdır və bu qəsəbələr estetik cəhətdən müasir səviyyəyə uyğun olmalıdır. Qəsəbələrdə bütün tarixi abidələr bərpa edilməlidir və biz bu qəsəbələrə yeni həyat verəcəyik. Balaxanı zibilxanasını yadımıza salaq. Oradan çıxan tüstülər bütün şəhəri bürüyürdü və zəhər idi. Mən bu məsələ ilə məşğul olmağa başlayanda bəziləri deyirdilər ki, bunu söndürmək mümkün deyil. Çünki o, altdan yanır və orada qazlar əmələ gəlir, çox təhlükəli yerdir, yaxın düşmək olmaz. Bəziləri deyirdi ki, gəlin bunun üstündə sarkofaq tikək. Yəni belə cəfəng təkliflər var idi. Amma biz bunun da yolunu tapdıq. Tamamilə təmizləndi. İndi orada gözəl park salınıb və zibilyandırma zavodu fəaliyyətə başlayıb. Onun yanında növbəti ekoloji fəlakət zonasının – Böyükşor gölü – bir hissəsi təmizləndi. O da ekoloji fəlakət idi, çünki açıq neft rezervuarı idi, eyni zamanda bütün kanalizasiya suları da oraya axıdılırdı. Amma indi orada bulvar salınıbdır və o gölə quşlar qonur.

Digər layihələr. İndi Qara şəhəri yadımıza salaq. Artıq o anlayış yoxdur, onun yerində Ağ şəhər var. “Ağ şəhər” şəhərsalma layihəsini biz icra edəndə orada təqribən ən azı iki metr torpaq layı çıxarıldı. O da bütün neft çöküntüləri idi, qudron idi, zəhər idi. Onun yanında “Azərneftyağ” neft emalı zavodu yerləşir. Artıq onun da fəaliyyəti başa çatmaq üzrədir. Çünki iki ildən sonra Heydər Əliyev adına Neftayırma Zavodunda yenidənqurma başa çatacaq, “Avro-5” benzin istehsal olunacaq. Beləliklə, havanı ən çox çirkləndirən

nəqliyyat vasitələri də təmiz benzinlə təmin ediləcək və "Azərneftyağ" Neft Emalı Zavodu söküləcək. Bütün o rezervuarlar, qurğular söküləcək, ora böyük park olacaq. Həmçinin yod-brom zavodu. Bəziləri bilmir, o da aeroport yolunda yerləşirdi, o da bir zəhər idi. Biz oranı da utilizasiya etdik, oradakı çöküntüləri poliqona daşıdıq. Yaxud da ki, Sumqayıt şəhərinin ekoloji vəziyyətinə baxın. Əvvəllər Sumqayıtın yanından keçəndə hər kəs pəncərəni bağlayırdı ki, o üfunət iyi, o zəhər girməsin maşına. Amma bu gün Sumqayıt elə bil kurort şəhəridir. Sənaye potensialı möhkəmləndirilməklə orada müasir təmizləyici qurğular quraşdırıldı, sənaye parkları yaradıldı. Sumqayıt Sovet İttifaqında, bəlkə də, ən çirklənmiş şəhər sayılırdı, bu gün ən təmiz şəhərlərdən biridir. Bütün bunları biz etmişik. Çünki bu bizim xalqımızın həyatıdır, uşaqlarımızın, gələcək nəslin sağlamlığıdır. Amma çar Rusiyası dövründə, sovet dövründə buna fikir verilirdimi? Xeyr. Ancaq plan, ancaq hasilat, ancaq istismar, neft ver, qaz ver. Bəs insanların həyatı, onların yaşayışı, onların sağlamlığı? Ona görə bizim üçün bu, ön plandadır.

Mən Prezident seçiləndən sonra demişdim, ilk bəyanatlardan biri idi ki, "qara qızıl"ı insan kapitalına çevirməliyik, insanlara xidmət etməliyik. Biz bu sahədə ilk növbədə insan amilini nəzərə almalıyıq. Çünki neft bizim üçün məqsəd deyil, daha yaxşı həyat yaratmaq, daha yaxşı ölkə qurmaq, daha yaxşı şərait yaratmaq üçün vasitədir və bunu edirik.

Ekoloji layihələr hələ ki bitməyib, hələ görüləsi işlər çoxdur. Hazırda Abşeron yarımadasında neft gölməçələrinin təmizlənməsi işi gedir. Mən tapşırıq vermişəm ki, bütün neft mədənlərində təmizləmə işləri aparılsın, orada ağaclar əkilsin, necə ki burada, Bibiheybətdə. Biz ekoloji fəlakət zonalarını ekoloji cənnət zonalarına çevirməliyik, bunu edirik və edəcəyik.

**– Cənab Prezident, neft-qaz sektorunda ölkəmizdə həyata keçirilən layihələrin icra vəziyyəti hansı səviyyədədir?**

– Layihələrin icrası uğurla gedir. Bizim əsas gəlir mənbəyimiz "Azəri", "Çıraq", "Günəşli" yataqlarıdır. Orada işlər plan üzrə gedir. İndi orada "Mərkəzi–Şərqi Azəri" adlanan yeni layihə icra edilir. Bu layihənin dəyəri təqribən 7 milyard dollara yaxındır. Bu layihənin icrası nəticəsində yeni mənbələrdən hasilat artacaq və təbii ki, enmənin kompensasiyasını təmin edəcəkdir.

"Azəri", "Çıraq", "Günəşli" yataqlarında hazırda 120-dən çox quyu fəaliyyətdədir və eyni zamanda bu yataqların çox zəngin qaz ehtiyatları vardır. Ona şərti olaraq "dərin qaz" deyilir və indi "dərin qaz"ın işlənməsi ilə əlaqədar Dövlət Neft Şirkəti öz tərəfdaşları ilə müvafiq işlər aparır. "Şahdəniz–2" layihəsi icradadır. Artıq TANAP xətti ilə Türkiyəyə ötürülən qazın həcmi ildən-ilə artır. Əgər bir il bundan əvvəl Türkiyə bazarında Azərbaycan qazı 4-cü, 5-ci yerdə idisə, hazırda birinci yerdəyik və bu həm

bizim üçün, həm də Türkiyə üçün çox önəmlidir. Çünki qaz hər bir ölkənin enerji təhlükəsizliyini təmin edir. Bu gün Türkiyəyə qaz qardaş ölkədən gəlir və bu qazın həcminin artırılması istiqamətində əlavə addımlar atılacaq. "Abşeron" yatağında ikinci fazadan çıxarılacaq qaz da TANAP xətti ilə Türkiyəyə ötürüləcək və digər bazarlara ötürülə bilər. Eyni zamanda "Qarabağ" yatağının işlənilməsi ilə əlaqədar işlər plan üzrə gedir. Hazırda burada gördüyümüz dayaq bloku dənizə göndəriləcək və ümid edirəm ki, bir-iki ildən sonra "Qarabağ" yatağından ilk neft hasil olunacaq. Bu yatağın özəlliyi odur ki, orada neft ehtiyatları daha çoxdur və bizim hasilatımızın sabit saxlanması üçün bunun böyük əhəmiyyəti var. Digər çox perspektivli layihə "Dayazsulu Abşeron" adlanır və bu layihənin də perspektivi çox böyükdür. Bir neçə aydan sonra o yataqlarda ilk qazma işləri aparılacaq. Ümid edirəm ki, biz orada da böyük neft ehtiyatı aşkar edəcəyik. SOCAR-ın təkbaşına iştirak etdiyi "Ümid–Babək" layihələrində də işlər plan üzrə gedir. Onlar da çox perspektivli layihələrdir və bizim planımızda bu layihələrin investisiya tutumunu, hasilatını artırmaqdır. Çünki yenə də deyirəm, həm daxili tələbat üçün bizə daim enerji resursları lazımdır və ixrac potensialımız da təmin ediləcək. Digər layihələr də var, hansılar ki böyük ümidlər verir. Amma bütövlükdə deyə bilərəm ki, baxmayaraq "Əsrin kontraktı" 1994-cü ildə imzalanıb və o vaxtdan bu günə qədər bir çox kontraktlar imzalanıb və artıq 26 il keçib, Azərbaycanın neft potensialına dünyada maraq azalmır, əksinə, artır.

**– Cənab Prezident, mənim sualım Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlıdır. Danışıqların hazırkı vəziyyətini necə qiymətləndirirsiniz?**

– Mən danışıqların hazırkı vəziyyətini mənfi qiymətləndirirəm. Hesab edirəm ki, Azərbaycan xalqı mənimlə tam razıdır. Bilirsiniz, mən hər zaman, bütün dövrlərdə Azərbaycan xalqına həqiqəti demişəm və hesab edirəm ki, bu, yeganə düzgün siyasətdir. Xalq bilməlidir, nələr baş verir, hansı yerdəyik, nədir bizim siyasətimiz? Mən çıxışlarımda və media nümayəndələri ilə görüşlərimdə aktual məsələlərə aydınlıq gətirirəm və hesab edirəm ki, bu çox vacibdir. Çünki vətəndaşlar bilməlidirlər və düzgün təhlil aparmaq üçün onlar düzgün məlumat əldə etməlidirlər. Danışıqlar faktiki olaraq getmir. Mən demişəm ki, biz imitasiya naminə danışıqlarda iştirak etməyəcəyik. O demək deyil ki, biz danışıqlardan imtina edirik, ancaq o deməkdir ki, biz Ermənistanın özünə görə bic siyasətinə qoşulmaq istəmirik. Bu görüntü naminə aparılan danışıqlarda iştirakımız o görüntünün mahiyyətinə uyğun olacaqdır. Faktiki olaraq Ermənistan rəhbəri danışıqlar prosesini pozub, pozur yox, pozub. Çünki onların cəfəng bəyanatları, təxribat xarakterli addımları danışıqları mənasız edir. Əfsuslar olsun ki, Ermənistanın indiki rəhbərliyi bu məsuliyyəti dərk etmir. Onlar bu addımların nəyə gətirib çıxara biləcəyini də düzgün təhlil edə bilmirlər. Halbuki Ermənistanda rasional düşüncəli insanlar, siyasətçilər var. O

siyasətçilər özləri artıq bu məsələni qaldırırlar və Ermənistan ictimaiyyətinə öz fikirlərini çatdırırlar ki, Ermənistanın bugünkü rəhbərliyi Ermənistanı uçuruma aparır. Siz bilirsiniz ki, iki il bundan əvvəl Ermənistanda dövlət çevrilişi baş verəndə Azərbaycan buna neytral qaldı. Yəni biz vəziyyətdən istifadə edib nəyisə əldə etmək fikrində olmadıq. Biz hesab edirdik ki, bu, labüd idi. Çünki Ermənistanın bundan əvvəlki hakimiyyəti erməni xalqında ancaq nifrət hissi doğururdu və faktiki olaraq bu hərbi-kriminal rejim Ermənistanı tamamilə bərbad vəziyyətə salmışdı. Xüsusilə nəzərə alsaq ki, yeni hakimiyyət iqtidara gələndən sonra çox ümidverici bəyanatlar verməyə başlamışdır ki, bu məsələni həll etmək istəyirlər, əvvəlki hakimiyyəti tənqid edirdi, bizə qeyri-rəsmi kanallarla müsbət siqnallar göndərirdi, vaxt istəyirdi. Biz də ümidlərlə yaşayırdıq ki, bəli, yeni hakimiyyət bütün başqa sahələrdə də, bu sahədə də yenilik gətirəcək və əvvəlki yanlış siyasətə düzəliş edəcək. Xüsusilə mənim Ermənistanın Baş naziri ilə Düşənbədəki məlum görüşlərimdən sonra bu fikir daha da möhkəmləndi. O vaxt məndən xahiş olundu ki, onlara vaxt verilsin, Ermənistanda daxili vəziyyət ağırdır, çətindir, keçmiş hakimiyyətin nümayəndələri revanş almaq istəyirlər və bu da danışıqlar prosesinə çox mənfi təsir göstərəcək. Onlar danışıqlara meyillidir, məsələni həll etmək istəyirlər və xahiş edilirdi ki, atəşkəs rejimi möhkəmlənsin. Mənim isə sözüm o idi ki, biz ciddi danışıqlar aparmalıyıq və o təqdirdə, əlbəttə, atəşkəs rejimi daha da möhkəm olacaqdır. O görüşdən sonra hər iki tərəf razılıq əsasında ayrı-ayrı açıqlamalar verdi. Açıqlamaların əsas mahiyyəti ondan ibarət idi ki, biz görüşdük, yəni qeyri-formal, qeyri-rəsmi görüş keçirdik, razılaşdıq ki, danışıqlar prosesi sürətləndirilsin və atəşkəs rejimi möhkəmləndirilsin. Çünki bu iki mövqe daim vəhdət təşkil etməlidir. Əks təqdirdə, bu, status-kvonun möhkəmləndirilməsi demək olacaqdır, buna isə biz heç vaxt razı ola bilmərik. Müəyyən müddət ərzində Minsk qrupunun həmsədrləri də ümidlərlə yaşayırdılar və gəlib gedəndə, görüşlər əsnasında ümidlərlə dolu fərziyyələr irəli sürürdülər. Ancaq keçən il Ermənistan Baş nazirinin səsləndirdiyi cəfəng fikirlər danışıqlar prosesinə ciddi zərbə vurdu. "Qarabağ Ermənistandır" deməklə nəinki o yalanı bütün dünyaya yaydı və bu da davam edir, eyni zamanda danışıqlar prosesini mənasız edir. Əgər o hesab edirsə ki, Qarabağ Ermənistandır, onda nə barədə danışmaq olar? Əgər o belə hesab edirsə ki, Qarabağ Ermənistandır – halbuki bütün dünya bu cəfəng fikri rədd edib – onda hansı sülh müqaviləsindən söhbət gedə bilər? Yəni bu, siyasi təxribat idi.

İkinci siyasi təxribat o idi ki, Azərbaycan Ermənistanla yox, Dağlıq Qarabağla danışıqlar aparmalıdır. Bu da formatı dəyişdirmək deməkdir və buna, əlbəttə ki, biz heç vaxt razı ola bilmərik. Çünki bu oyuncaq kriminal xunta rejimi ilə heç bir təmasımız ola bilməz. Eyni zamanda Minsk qrupunun həmsədrləri də buna, əlbəttə ki, heç vaxt razı ola bilməzdilər. Düzdür, onlar diplomatdırlar və çalışırlar ki, diplomatik leksikonu dilə gətirsinlər, ancaq

hesab edirəm, Ermənistan tərəfinə artıq deyildi ki, bu kimi açıqlamalar ziyanlıdır və onların özləri üçün də problemlər yaradır. Faktiki olaraq bu açıqlamalar onu deməyə əsas verir ki, Ermənistan danışıqlardan çıxıb, biz yox, Ermənistan. Belə olan halda biz duraq deyək ki, gəlin danışıqlara başlayaq, yaxud da davam edək, bu, sadəcə, məsuliyyətsizlik olar. Özümüz özümüzü aldatmamalıyıq, xalqımızı aldatmamalıyıq. Danışıqlar getmir və bu, pandemiyaya görə baş vermir. Əlbəttə, pandemiya müdaxilə edib, amma pandemiyasız da danışıqlar getmir. Siyasi cəhətdən bu qüsurlu və ziyanlı bəyanatlar danışıqlar üçün yer qoymur. İndi baxın onların digər addımlarına. Ermənistan tərəfindən qanunsuz məskunlaşdırma aparılır. Bu bütün beynəlxalq konvensiyalara ziddir. Onların ağlı çatmır, təcrübəsi, bilikləri yoxdur – onlar bunu nümayişkaranə göstərirlər. Bu, Cenevrə Konvensiyasına tamamilə ziddir, bu, cinayətdir. İşğal edilmiş torpaqlara haradansa insan gətirib qanunsuz məskunlaşdırmaq cinayətdir. Bunu Paşinyan rejimi şüurlu şəkildə edir. Bu, təxribatdır, bizi təxribata çəkirlər. İnternetdə göstərirlər ki, Livandan hansısa erməni ailəsi gəlibdir, orada hansısa iş görür. Ondan başqa, bizim qədim tarixi şəhərimiz Şuşada o qondarma rejimin qondarma, dırnaqarası rəhbərinin guya andiçmə mərasimini keçirirlər. Bu, növbəti təxribatdır. Bu bizə qarşı açıq təhqirdir. Onlar hesab edirlər ki, biz buna dözəcəyik? Bunu, bu təxribatı kim edir? Onlar edir. Biz heç bir təxribat etmirik. Biz öz mövqeyimizdə dayanmışıq. Ermənistanın Baş naziri bizə 7 şərt qoyur. Birincisi, sən kimsən ki, bizimlə şərt dilində danışırsan?! Əgər biz onunla şərt dili ilə danışmaq istəsək, onun siyasi ömrü çox çəkməyəcək. Mən demişəm ki, biz bu cəfəng şərtləri rədd edirik. Amma bizim bir şərtimiz var, onlar bizim torpaqlarımızdan qeyd-şərtsiz və tam çıxmalıdırlar, necə ki bu, BMT Təhlükəsizlik Şurasının qətnamələrində öz əksini tapır. Orada hansısa komediya tipli təlimlər keçirirlər. Yəni hər bir addım bizə qarşı açıq təxribatdır. İyul təxribatı. O da artıq silahlı təxribatdır və heç kimə sirr deyil ki, bunu Ermənistan başlayıb. Artıq Minsk qrupunun həmsədr ölkələrinin birinin yüksək vəzifəli rəsmisi bunu açıq bildirib. Mən o vaxt da demişəm, bu gün də deyirəm, bizim Ermənistan ərazisində heç bir hərbi hədəfimiz yoxdur və əgər istəsəydik, biz Ermənistan ərazisinə keçə bilərdik, bizim tam hərbi imkanlarımız var idi. Amma biz bunu etmədik. Çünki bizim hərbi siyasət konsepsiyamızda bu, yoxdur, əgər bizə qarşı ciddi təxribat törədilməsə. Əgər törədilərsə, onda bizim üçün heç bir məhdudiyyət olmayacaq, bunu hər kəs bilsin, heç bir məhdudiyyət. Əgər onlar beynəlxalq hüququ yerə vururlarsa, biz niyə beynəlxalq hüququ gözləməliyik, biz də yerə vuracağıq, amma axırı pis olacaq onlar üçün. İyul təxribatından sonra avqust təxribatı. Mülki vətəndaşlara qarşı terror aktları, hərbçilərimizə qarşı hərbi təxribat törətmək üçün diversiya qrupu göndərildi və o diversiya qrupunun başçısı tutuldu. O, ifadələr verir, etiraf edir, adlar çəkir, kim göndərib, necə göndərib. Yəni bu, çoban deyil, bu, yolunu azmış hansısa uşaq deyil.

Yoxsa onlar bütün casuslarını çoban və dəli adlandırırlar. Bizdə onlardan artıq 5-6-sı var. Hamısı da dəli, hamısı da çoban? Belə çıxır ki, yəni Ermənistanda çobanlar və dəlilər əksəriyyət təşkil edir? Buna da çoban demək istəyirdilər, amma daha deyə bilmirlər. Bu təxribatı kim edir? Bizmi diversiya qrupu göndərmişik? Yox, onlar göndəriblər. Bizmi iyul hadisələrini törətmişik? Yox, onlar. Bizmi onların vətəndaşlarını öldürmüşük? Yox, onlar. Ermənistan tərəfində mülki şəxslər arasında bir dənə də qurban yox idi. Amma bizim 76 yaşlı ağsaqqal həlak oldu, nə qədər ev dağıldı. Ona görə bu təxribatlar faktiki olaraq o siyasətin məntiqi nəticəsidir. Məqsəd danışıqları pozmaq, ondan sonra bizi ittiham etmək və status-kvonu dəyişməz saxlamaqdır. Budur onların məqsədi. Ona görə hesab edirlər ki, bunu edə biləcəklər, hesab edirəm ki, səhv edirlər. Bunu nə qədər tez anlasalar, onlar üçün bir o qədər yaxşı olacaqdır.

**– Cənab Prezident, Ermənistan iyul ayında dövlət sərhədində hərbi təxribat törətdi və Azərbaycan Ordusu tərəfindən layiqli cavabını aldı. İşğalçının təxribatları bu gün də davam etməkdədir. Sizcə, Ermənistanın bütün bunları törətməkdə məqsədi nədir?**

– Hesab edirəm ki, bu təxribatın məqsədlərindən biri haqqında mən öz fikirlərimi ətraflı söylədim. Digər məqsəd ondan ibarət idi ki, Paşinyan çevriliş nəticəsində hakimiyyətə gələndən bir ay sonra uğurlu Günnüt əməliyyatı keçirildi. Günnüt əməliyyatı onların növbəti məğlubiyyəti idi. Düzdür, o vaxt, sözün düzü, əməliyyat artıq keçiriləndən sonra mən göstəriş verdim ki, bu əməliyyat haqqında geniş məlumat verməyin. Çünki biz erməni rəhbərliyindən fərqli olaraq piar üçün yox, mahiyyət üçün işləyirik. Bizə mahiyyət lazımdır. Biz o əməliyyatı keçirdik. Naxçıvan Əlahiddə Ümumqoşun Ordusu çox böyük məharətlə, peşəkarlıqla bir itki vermədən önəmli strateji yüksəklikləri aldı, mövqelərimizi möhkəmləndirdik. Ermənilər ayılıb gördülər ki, biz artıq oradayıq. Cürət etmədilər, qorxdular ki, bizi oradan çıxarmağa cəhd etsinlər. Artıq Ermənistandan Dağlıq Qarabağa gedən yol da bizim gözümüzün qabağındadır. Onlar bunu unutmasınlar. Biz görürük, hansı maşınlar keçir, necə keçir. Onlar bunu gizlədirdilər. Çünki Paşinyan təzə gəlmişdi və gələn kimi belə acı məğlubiyyət, alçaldıcı məğlubiyyət. Onlar da gizlədirdilər. Mən də hesab edirdim ki, gizlədirlər, biz də gizlədək. Birincisi, nəyə lazımdır? Biz istədiyimizə nail olmuşuq. İkincisi, yenə də deyirəm, biz istəmədik ki, bu yolla əvvəlki hakimiyyətin əlinə bir arqument verək. Çünki o vaxt Ermənistanda vəziyyət lap ağır idi, indi də sabit deyil. Əgər o vaxt bu, dərhal bilinsəydi, ola bilər ki, hansısa daxili revanş hissləri üzə çıxa bilərdi. Amma sonra ondan əvvəlki hakimiyyətin jurnalistləri gəlib gördülər ki, onların kəndinin başında Azərbaycan əsgərləri oturublar və onlara baxırlar. Yavaş-yavaş başladılar bu mövzunu istismar etməyə. Sonra artıq bu üzə çıxanda mən də dedim ki, indi açıqlama verin, nə etmişik, qoy hamı bilsin. Oraya çəkiliş qrupu da getdi, çəkilişlər etdi. Siz də orada olmusunuz, görmüsünüz.

Yəni ikinci məqsəd Paşinyan üçün hər hansı bir qələbənin qazanılması idi. İyul hadisələrini onlar məhz belə planlaşdırmışdılar. Çünki onlar bilirdilər ki, bizim dövlət sərhədinin böyük hissəsində sərhəd qoşunları yerləşib. Bu da bizim niyyətimizi göstərir. Onu göstərir ki, bizim artıq o sərhəddə ordu yox, sərhədin böyük hissəsində sərhədçilər yerləşir. Hesab edirlər ki, onlar rahatlıqla oradan keçib hansısa torpağı zəbt edə bilərlər. Ondan sonra belə raportlar verə bilərlər ki, onlar Azərbaycan torpağını işğal ediblər. Necə ki onların müdafiə naziri demişdi ki, yeni ərazilər uğrunda yeni müharibə olacaq. O da təxribatın bir təzahürüdür. Amma o da alınmadı. Bir santimetr belə girə bilmədilər. Biz onlara sarsıdıcı zərbələr endirdik. O zərbələrin bəziləri internetdə göstərildi. Dəqiq atəşlə onların dayaq məntəqələri məhv edildi. Bir daha demək istəyirəm ki, artıq Ermənistan ərazisinə keçmək üçün bizə heç bir hərbi maneə yoxdur. Mənə gün ərzində dəfələrlə məlumat verilirdi. Mənim bir sözümlə Azərbaycan Ordusu keçib oturacaqdı Ermənistanın ərazisində. Amma getmədik. Biz məsuliyyətli ölkəyik. Bu, birincisi. İkincisi, bizim hələ ki Ermənistan ərazisində hər hansı bir məqsədimiz yoxdur. Ancaq əgər bu təxribatlar davam etsə, əlbəttə ki, biz öz siyasətimizə yenidən baxacağıq.

Bu da alınmadı. İndi də onlar o məğlubiyyəti qələbə kimi qələmə vermək istəyirlər. Amma sual olunur, əgər bu, qələbədirsə, haradadır bu qələbə? Nədir onda bu qələbə? Bu, birincisi. İkincisi, əgər bu, qələbədirsə, onda siz niyə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına (KTMT) müraciət edirsiniz? Niyə hay-küy qaldırırsınız? Niyə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatını cəlb etmək istəyirsiniz? Hesab edirəm ki, onların təxribatının səbəblərindən biri məhz zondaj aparmaq idi ki, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatında onların müttəfiqlərinin reaksiyası nə olacaq? Çünki onlar yeni böyük müharibəyə hazırlaşırlar. Bizdə operativ kəşfiyyat məlumatı var. Biz bilirik, ətrafımızda nələr baş verir. Bilirik və bilməliyik. Bizim xüsusi xidmət orqanları çox səmərəli işləyirlər. Bu qədər deyə bilərəm. Bundan artıq deyə bilmərəm. Ona görə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatını, öz müttəfiqlərini bu işlərə cəlb etmək üçün zondaj aparılır. O da alınmadı. Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı heç bir bəyanat da vermədi, bir şərh verdi. Ondan sonra gördülər ki, onların səyləri puça çıxdı və çəkildilər kənara. İndi yenə də əfsanələr uydururlar ki, onlar böyük qələbə qazanıblar. Amma reallıq bundan ibarətdir.

Bu bir daha onu göstərir ki, Ermənistan təcavüzkar dövlətdir. Onların Azərbaycana, azərbaycanlılara qarşı olan nifrəti bax bu çirkin siyasətdə də özünü göstərir. Bir daha demək istəyirəm və onlara xəbərdarlıq etmək istəyirəm ki, əgər öz çirkin planlarından əl çəkməsələr, onlar üçün nəticələr çox ağır olacaq. Onlar yeni müharibəyə hazırlaşırlar. Onların təmas xəttinə yaxın qüvvələrinin cəmləşməsi baş verir. Biz hər şeyi görürük, hər şeyi izləyirik. Onların bütün hərəkətlərini izləyirik. Əlbəttə ki, özümüzü müdafiə

edəcəyik. Necə ki Tovuzda özümüzü müdafiə etdik, bütün başqa istiqamətlərdə özümüzü müdafiə edəcəyik. Onlar üçün Tovuz hadisələri növbəti dərs oldu. Əgər yeni dərs almaq istəyirlərsə, biz buna hazırıq

**– Cənab Prezident, iyul ayında törədilən bu təxribat zamanı və ondan sonrakı dövrdə yerli və xarici mətbuatda Rusiya və Serbiyadan Ermənistana silah göndərilməsi barədə məlumatlar yayıldı. Bu məsələ ilə bağlı bir daha Sizin münasibətinizi öyrənmək istərdik.**

– Birincisi, bir daha demək istəyirəm ki, Ermənistan bizim üçün daim təhlükə mənbəyidir. Ona görə Ermənistanla əlaqədar olan bütün hadisələri biz izləməliyik və bilməliyik. Sual yarana bilər, biz haradan bilmişik ki, Serbiyadan və Rusiyadan onlara silahlar göndərildi? Xüsusilə Serbiyadan göndərildi. Bunu biz, əlbəttə ki, etibarlı mənbələrdən öyrənmişik. O ölkələrə bu məsələ ilə bağlı diplomatik kanallarla siqnallar göndərildi. Eyni zamanda hər iki ölkənin prezidentləri ilə də mənim telefon söhbətim oldu və mən narahatlığımı ifadə etdim. Onu bildirdim ki, Azərbaycan cəmiyyətində bu, bir çox suallar doğurur. Xüsusilə bu yüklərin daşınmasının intensiv xarakter alması eyni zamanda toqquşmaların dayandırılmasından dərhal sonra baş verməsi və iyul ayından sentyabr ayına qədər davam etməsi. Artıq bu da faktdır. Ona görə məsuliyyətli ölkə kimi mən hesab etdim ki, bu məsələni mütləq aydınlaşdırmalıyam. Mən, ümumiyyətlə, hesab edirəm ki, əgər hansısa problem, sual, narahatlıq varsa, niyə biz bunu gizlətməliyik? Biz bunu dilə gətirməliyik və bunu da etdik. Telefon danışıqları ilə əlaqədar Prezidentin Mətbuat Xidməti müvafiq açıqlamalar dərc etdi. Hesab edirəm ki, oradakı məlumat kifayətdir.

Əlbəttə ki, bu bizi çox narahat edir. Çünki Ermənistan Azərbaycana qarşı hərbi təcavüz edib. Ermənistan terrorizmə sponsorluq edən ölkədir. Silahların göndərilməsinin intensiv xarakter alması, əlbəttə ki, bizi ciddi narahat edir. Çünki bu silahlar bizə qarşı istifadə olunur. Bu silahlarla bizim uşaqlarımız, insanlarımız vurulur, həlak olur. Ona görə bu məsələ də hər bir başqa məsələ kimi diqqət mərkəzindədir. Biz bundan sonra da vəziyyətə nəzarət edəcəyik.

Söz düşmüşkən onu da bildirməliyəm ki, mən bu hadisələrdə Gürcüstan hökumətinin fəaliyyətini yüksək qiymətləndirmək istəyirəm. Bilirsiniz ki, Gürcüstan öz ərazisindən Ermənistana silahların daşınmasına imkan vermədi. Məhz buna görə Xəzəryanı ölkələrin əraziləri və hava sahələri vasitəsilə yük təyyarələri Ermənistana silahlar daşıyır. Gürcüstan özünü çox etibarlı tərəfdaş kimi apardı. Ona görə mən Gürcüstan hökumətinə təşəkkürümü bildirirəm. Deyə bilərəm ki, Gürcüstan hökumətinin simasında biz etibarlı tərəfdaş və dost görürük. Hökumətlərarası əlaqələr gündən-günə möhkəmlənir. Bir çox önəmli layihələr icra edilir. Bu yaxınlarda bizim xarici işlər nazirimiz Gürcüstana

rəsmi səfər edəcək. Bu onun xarici işlər naziri kimi Gürcüstana ilk səfəri olacaq. İndi səfərin proqramı hazırlanır. Bir çox məsələlər var. Bizi həm tarixi əlaqələr bağlayır, həm ortaq maraqlar. Bu gün Gürcüstan və Azərbaycan arasındakı əlaqələr və inkişaf edən əməkdaşlıq hər iki ölkənin maraqlarına xidmət edir. Mən bir daha demək istəyirəm ki, Gürcüstan Hökuməti və Azərbaycan Hökuməti bir-biri ilə sıx təmasdadır və bu davam edəcəkdir.

Ancaq o da həqiqətdir ki, Ermənistan və Gürcüstanda yaşayan ermənilər, eyni zamanda gürcü familiyaları altında gizlənən etnik ermənilər hər vəchlə çalışırlar ki, Gürcüstan–Azərbaycan əlaqələrinə zərbə vursunlar. Gürcüstanda keçən il baş vermiş bəzi təxribat xarakterli hadisələrin mənbəyi də dünya erməniliyidir. Onların əsas məqsədi Gürcüstan–Azərbaycan əlaqələrini pozmaqdır. Amma buna nail olmayacaqlar. Çünki yenə də deyirəm, biz etibarlı tərəfdaşıq və bütün məsələləri açıq şəkildə müzakirə edirik. Azərbaycan hər zaman Gürcüstanın yanında olub. Mən indi bu tarixi faktları sadalamaq istəmirəm. Ancaq Azərbaycan hər zaman Gürcüstanda inkişafın, rifahın, sabitliyin tərəfdarı olubdur. Amma baxın, Ermənistan özünü necə aparır? Gürcüstanda yaşayan bəzi yerli ermənilər Ermənistan rəhbərliyinin təhriki ilə orada qızışdırıcı fəaliyyətlə məşğuldurlar. Onlar separatizmə meyil göstərirlər. Orada altdan-altdan təxribat xarakterli işlər görürlər, ideoloji iş aparırlar. Amma Ermənistan Gürcüstana qarşı səmimi münasibət göstərir? Xeyr, göstərmir. Onlar gürcü kilsələrinə əsassız iddialar edirlər. Ermənilərin yaşadıqları bölgədə tarixi abidələri erməniləşdirirlər. Orada Gürcüstanın dövlət rəmzlərinə lazımi hörmət göstərmirlər. Eyni zamanda Ermənistan BMT və digər beynəlxalq təşkilatlarda həmişə Gürcüstanın əleyhinə səs verib. Ərazi bütövlüyü məsələlərində həmişə Gürcüstanın əleyhinə olub. Necə ola bilər? Sən bu ölkənin ərazi bütövlüyünü tanımırsan. Eyni zamanda əminəm, gürcü xalqı unutmayıb ki, Abxaziyada gedən müharibədə erməni Baqramyan batalyonu hansı vəhşilikləri törətmişdir, kimin tərəfindən vuruşub və bu gün kimin tərəfindədir? Abxaziyada yaşayan və hakimiyyətin artıq böyük hissəsini zəbt etmiş ermənilər. Azərbaycan isə bütün dövrlərdə Gürcüstanın yanında olub. Bütün beynəlxalq təşkilatlarda Gürcüstanın ərazi bütövlüyü ilə əlaqədar birmənalı mövqe göstərib və göstərəcəkdir. Fərq bundadır. Əlbəttə, bu gün Gürcüstan xalqı, hesab edirəm ki, yaxşı bilir, kim onun dostudur, kim onun düşmənidir.

**– Bildiyimiz kimi, Ermənistan bir sıra müsəlman ölkələri ilə sıx təmas qurmaq istiqamətində addımlar atır və bu, haqlı olaraq Azərbaycan ictimaiyyətində kəskin reaksiya doğurur. Hətta bu yaxınlarda Misir rəhbərliyi bu ölkədə səfərdə olan Ermənistanın xarici işlər nazirini də qəbul etdi. Bütün bunlar müsəlman həmrəyliyinə nə dərəcədə mənfi təsir göstərir?**

– Çox mənfi təsir edir. Azərbaycan ictimaiyyəti haqlı olaraq öz narahatlığını ifadə edir. Biz dövlət səviyyəsində də bu narahatlığı ifadə edirik. Bildiyiniz kimi, Azərbaycan islam

həmrəyliyi işində həmişə çox fəal olub, ölkəmizdə bir çox tədbirlər keçirilib. Biz həmişə çalışmışıq ki, müsəlman ölkələrinə kömək göstərək, beynəlxalq təşkilatlarda həmişə müsəlman ölkələrinin maraqlarını müdafiə etmişik, həm səsvermə zamanı, eyni zamanda əgər hansısa beynəlxalq təşkilata müsəlman ölkəsi öz namizədliyini irəli sürübsə, həmişə onu dəstəkləmişik. Yəni bu həmrəylik sözdə yox, əməldə olmalıdır. Biz o ölkələrdənik ki, əməldə islam həmrəyliyinə daim öz xarici siyasətimizdə böyük yer ayırmışıq. Mənim xarici siyasət istiqamətləri ilə çıxışlarımda siz bunu görə bilərsiniz. Əsas prioritetlərdən biri müsəlman ölkələri ilə əlaqələrdir. Çünki biz müsəlman dünyasının bir hissəsiyik. Bizi BMT-də ən çox dəstəkləyən ölkələr də müsəlman ölkələridir. İslam Əməkdaşlıq Təşkilatı Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həmişə düzgün mövqe sərgiləyir. Bir çox qətnamələr qəbul edilib. Tovuz təxribatı ilə əlaqədar da həmçinin. Ona görə müsəlman ölkələrinin Ermənistanla hər hansı yaxınlaşmasına biz həmişə çox həssas yanaşırıq. Çünki Ermənistan bizim torpağımızı zəbt edib. Eyni zamanda müsəlman ölkələri də bilməlidirlər ki, Ermənistan işğal edilmiş torpaqlarda müsəlman dini abidələrinə qarşı soyqırımı törədib. Baxın, bizim məscidlərimiz nə gündədir? Məgər müsəlman ölkələrində bilmirlər ki, ermənilər bizim yarıdağılmış məscidlərdə heyvan, donuz, inək saxlayırlar. Bu, müsəlman aləminə edilən təhqir deyilmi? Ona görə hər bir müsəlman ölkəsinin rəsmi şəxsi erməni rəsmisinin Azərbaycan xalqının qanına batmış əlini sıxanda bu görüntüləri göz önünə gətirsin. Eyni zamanda mənə verilən məlumata görə, Ermənistanın xarici işlər naziri Misirdə hansısa dini liderlə görüşüb. Yaxşı, o dini liderə deyən olmadı ki, bu adamlar müsəlman məscidlərini təhqir edib, bütün müsəlman dünyasını təhqir edib. Biz dəqiq bilirik, erməni rəsmiləri Avropada olarkən avropalıların yenə də bunlara münasibətinin müsbət olması üçün onların əsas arqumenti o olur ki, biz müsəlmanların əhatəsində yaşayırıq. Bizim üç qonşumuz müsəlman ölkələridir. Biz burada, bu bölgədə xristianlığı qoruyan xalqıq. Bizim ətrafımızda olan müsəlman ölkələri düşməndir. Bəli, Türkiyəni və Azərbaycanı Ermənistan düşmən sayır. Ancaq İranla əlaqələrində həmişə riyakarcasına dostluq haqqında danışır. Bəs necə ola bilər? Belə də dostluq olar? Müsəlman məscidlərini dağıdırsan, sökürsən, orada inək, donuz saxlayırsan, təhqir edirsən, müsəlmanların heysiyyətinə toxunursan, sonra isə gəlib deyirsən ki, biz dost olaq? Mən belə dostluğu başa düşmürəm. Mən dəfələrlə müsəlman ölkələrinin rəhbərlərinə həm ikitərəfli formatda, həm çoxtərəfli formatda, həm də rəsmi çıxışlarımda müraciət etmişəm və demişəm ki, onlar bu məsələni nəzərə alsınlar.

Yenə də deyirəm, Ermənistan sıradan olan ölkə deyil. Ermənistan o ölkədir ki, islamofobiya onların dövlət siyasətidir. Onlar uşaqları müsəlmanlara qarşı nifrət ruhunda yetişdirirlər, bu ideologiyanı uşaqlara aşılayırlar.

Ona görə biz öz prinsipial mövqeyimizdə qalacağıq. Bu məsələni həmişə diqqətdə saxlayacağıq. Bütün müsəlman ölkələrinin rəhbərlərinə bir daha demək istəyirəm,

Ermənistan sizin dostunuz deyil. İkincisi, Ermənistanda hansı maraqlar ola bilər? Bu ölkə uğursuz ölkədir. Bunun bir beynəlxalq adı da var – "Fail state". Uğursuz ölkədir. İqtisadiyyat çöküb, bazar məhdud, əhali azalır, hər hansı bir investisiya üçün cəlbedici deyil. Heç bir ölkəyə investisiya qoymur. Nəqliyyat dalanıdır bu ölkə. Hansı marağı ola bilər? Hansısa vəziyyətə görə, kiməsə acıq vermək üçün əgər belə addımlar atılırsa, bunlar ancaq təəssüf doğurur.

**– Ermənistanın Azərbaycana qarşı iyul ayında törətdiyi təxribatla bağlı Türkiyə birmənalı şəkildə haqlı mövqeyimizi müdafiə etdi və həmişə olduğu kimi bu dəfə də Azərbaycanın yanında olduğunu bildirdi. Bundan sonra Azərbaycan–Türkiyə birgə hərbi təlimləri keçirildi və bu, Ermənistanda böyük qorxu, bəzi ölkələrdə isə narahatlıq doğurdu. Bununla bağlı nə deyə bilərsiniz?**

– İlk növbədə mənim əziz qardaşım Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana bir daha təşəkkürümü bildirmək istəyirəm. Tovuz hadisələrindən sonra onun birmənalı, açıq və kəskin açıqlamaları bizi çox məmnun etdi, Azərbaycan xalqını sevindirdi. Bir daha göstərdi ki, Türkiyə hər zaman Azərbaycanın yanındadır. Bu, növbəti Türkiyə–Azərbaycan birliyinin, qardaşlığının təzahürü idi. Eyni zamanda digər rəsmi şəxslər – Türkiyə Böyük Millət Məclisinin sədri, Türkiyənin müdafiə naziri, xarici işlər naziri, bizim digər qardaşlarımız Azərbaycana dəfələrlə həmrəylik, dəstək nümayiş etdirmişlər. Bu bir daha onu göstərir ki, Türkiyə ədalətin, haqqın, öz qardaşlarının tərəfindədir. Biz də həmişə Türkiyənin yanındayıq və bütün məsələlərdə – bunu artıq Türkiyədə də bilirlər, Azərbaycanda da bilirlər, dünyada da bilirlər – Türkiyənin yanında olacağıq, bir yerdə olacağıq. Bizim birliyimiz böyük sərvətimizdir. Türkiyə ilə bizi ortaq tarix, ortaq etnik köklər, din, dil, mədəniyyət birləşdirir. Bu, böyük sərvətdir. Biz bu sərvətin təməli üzərində möhkəm əlaqələr qurmuşuq, bütün sahələrdə – siyasi, iqtisadi, enerji, nəqliyyat, mədəniyyət, hərbi sahələrdə. Məhz buna görə son vaxtlar bizim aramızda ticarət dövriyyəsi sürətlə artır. Azərbaycan xarici ölkələr arasında ən çox investisiyanı Türkiyəyə qoyub, Türkiyə də ən çox xarici investisiyanı Azərbaycana qoyub və bu proses davam etdirilir. İnsanlar arasındakı əlaqələr ən yüksək səviyyədədir. Ona görə bu hadisələr bir daha bu reallıqları bütün dünyaya göstərdi. Onsuz da həm Türkiyədə, həm də Azərbaycanda biz bunu bilirdik. Hər il bizim əlaqələrimiz möhkəmlənir, hər il bu ikitərəfli formata əlavə mövzular daxil edilir. Bu gün elə bir sahə yoxdur ki, biz orada birgə işləməyək və bir-birimizə dəstək göstərməyək.

O ki qaldı təlimlərə, onu da deməliyəm ki, bu təlimlər müntəzəm olaraq keçirilir. Hər il Azərbaycan hərbçilərinin xarici ölkələrlə birgə keçiriləcək təlimlər planı təsdiq edilir. Bütün bu təlimlər plan əsasında həyata keçirilir. Deməliyəm ki, son illər ərzində Prezident Rəcəb Tayyib Ərdoğanın və mənim birgə göstərişimizlə təlimlərin sayı ciddi şəkildə artmışdır.

Keçən il 10-dan çox birgə təlim keçirilmişdir, həm Türkiyədə, həm Azərbaycanda, o cümlədən "TurAz Qartalı" təlimi birinci dəfə keçirilmir. Hər zaman "TurAz Qartalı" keçiriləndə Türkiyədən "F16"lar Azərbaycana gəlirdi və bizim təyyarələrlə, pilotlarımızla birlikdə birgə təlimlər keçirirdik. Naxçıvanda təlimlər keçirilmişdir və təlimlərin birində Türkiyənin müdafiə naziri iştirak etmişdir. Yəni burada qeyri-adi bir şey yoxdur. Bəli, bu, Tovuz hadisələrinə təsadüf edib. Bu, təsadüfidir, ya təsadüfi deyil, Ermənistan özü baş çıxarsın. Amma bu təlimlər bir daha birliyimizi göstərir. Əlbəttə, Ermənistan rəhbəri də yaxşı bilir ki, Azərbaycan–Ermənistan dövlət sərhədinin Naxçıvan istiqamətindən İrəvana təqribən 70-80 kilometr məsafə var. Bunu onlar bilirlər və bu onları qorxuya salır. Hesab edirəm ki, onlar bu qorxudan psixoloji stres keçirirlər. Çünki bizdə olan məlumata görə, daha qapı qalmayıb döyməsinlər ki, vay, bunlar təlim keçirirlər, biz necə olacağıq? Yəni öz acizliyini, necə deyərlər, öz gücsüzlüyünü göstərməklə. Prinsip etibarilə onların siyasətinin əsas qayəsi özlərini alçaltmaqdır, özlərindən məzlum, yazıq xalq imici düzəltməkdir, ağlaşmaqdır və ondan-bundan nə isə imtiyaz, ianə, qrant, kömək qoparmaqdır. Artıq bu, insanların psixologiyasına da müdaxilə edilib. Bu da onu göstərir ki, bu ölkə müstəqil deyil, ləyaqətli siyasət apara bilmir, asılı vəziyyətdədir. Ona-buna nökərlik etmək heç kimə, necə deyərlər, yaraşıq gətirmir. Müstəqillik Ermənistanda formal xarakter daşıyır. Sən necə müstəqil ölkəsən ki, öz qərarını qəbul edə bilmirsən. Necə müstəqil ölkəsən ki, səni idarə edən Sorosdur. Paşinyan Soros rejiminin məhsuludur. Bu gün Ermənistanda söz sahibi Sorosdur. Baxın, Paşinyanın hakimiyyət komandasının tərcümeyi-halına. Hamısı ya Sorosdan, ya "Transperensy"dən, ya da ki, o biri insan hüquqları təşkilatlarındandır. Onlar bu gün Ermənistanda baş vermiş despotik hərəkətlərə göz yumurlar. Ermənistanda bir jurnalist aclıq edib həbsxanada ölüb, heç bir təşkilat məsələ qaldırmayıb. İndi Ermənistanda iki prezident məsuliyyətə cəlb edilib, cinayət işi açılıb, iki keçmiş prezident, sırf onların siyasi fəaliyyətlərinə görə, bunu hər kəs bilir, buna göz yumulur. Əsas müxalifət partiyasının liderinin deputat toxunulmazlığı götürülüb, buna heç bir reaksiya vermirlər. Avropa Şurası niyə susur? Ermənistan üzrə məruzəçilər niyə susurlar? "Freedom House", "Human Rights Watch", "Amnesty International" niyə susur? Sorosa görə. Soros Ermənistanın başçısıdır. Soros həmin bu dırnaqarası hüquq müdafiəsi təşkilatlarının sponsorudur. Onların sponsoru birdir.

Beləliklə, bu təlimlərə qayıdarkən bir daha demək istəyirəm ki, təlimlər keçirilir və nə qədər lazımdır keçiriləcək. Bu təlimlər bizə lazımdır, Türkiyəyə lazımdır, regional sabitliyə lazımdır. Çünki Ermənistan regional sabitlik üçün təhdiddir. Ermənistan Türkiyəyə qarşı ərazi iddiası irəli sürüb. Onların konstitusiyasında bu öz əksini tapıb, təsbit edilibdir. Ermənistan indi Sevr müqaviləsini canlandırmaq istəyir. Halbuki ağlı başında olan hər bir tarixçi, siyasətçi qətiyyən buna imkan verməz. Çünki onların sonu

olacaq. İndi sən burada səfalət içində, özü də özünə aid olmayan yerlərdə dövlət qurmuş balaca bir ölkə Türkiyə boyda ölkəyə qarşı necə iddia qaldıra bilərsən, necə ittiham edə bilərsən. Sən, heç olmasa, öz potensialına və Türkiyənin potensialına bax. Amma onların Azərbaycana və Türkiyəyə, bizim xalqımıza olan nifrəti, o irrasional düşüncəni, necə deyərlər, təhlükəli məcraya istiqamətləndirir.

Beləliklə, bizim Türkiyə ilə sıx əlaqələrimiz bundan sonra da inkişaf edəcək – Ulu öndər Heydər Əliyev demişkən, "Bir millət, iki dövlət" prinsipi əsasında. Bütün məsələlərdə bir yerdəyik, hər bir məsələdə bir-birimizin yanındayıq.

**– Cənab Prezident, Siz "Qarabağ" yatağının dayaq blokunun dənizə yola salınması mərasimində qeyd etmişdiniz: "Necə ki bu gün biz vaxtilə tərk edilmiş "Qarabağ" yatağına qayıdırıq, eyni qaydada biz doğma Qarabağ torpağımıza da qayıdacağıq". Əminik ki, o gün uzaqda deyil.**

– Bəli, biz mütləq öz torpaqlarımıza qayıdacağıq. Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır, tarixi Azərbaycan torpağıdır. 1990-cı illərin əvvəllərində, o vaxt Azərbaycanda hakimiyyətdə olmuş insanların xəyanəti, satqınlığı nəticəsində biz Dağlıq Qarabağı müvəqqəti olaraq itirdik. Mən bugünkü müsahibədə müstəqilliyə qədər bəzi məqamları dilə gətirdim ki, Azərbaycan ictimaiyyəti bu hadisələri unutmasın, gənc nəsil də bunu bilsin. Dağlıq Qarabağ bizim qədim, tarixi torpağımızdır və biz mütləq o torpaqlara qayıdacağıq. Dağıdılmış bütün tarixi abidələri, evləri bərpa edəcəyik. Küçələrə Azərbaycan adlarını verəcəyik, adları dəyişdirilmiş kəndlərə öz əsl adlarını qaytaracağıq. Biz mütləq bunu edəcəyik. Çünki haqq-ədalət bizim tərəfimizdədir. Bizim başqa ölkələrin torpağında gözümüz yoxdur, öz torpağımızı da heç kimə verən deyilik. Bu gün mövcud olan Ermənistan tarixi Azərbaycan torpaqlarında yaradılıbdır. Bu haqda kifayət qədər tarixi sənədlər var. İkinci erməni dövlətinin yaradılmasına biz heç vaxt imkan verməyəcəyik. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır! Sağ olun.

**AZƏRTAC**
*19 sentyabr 2020-ci il*

## PREZİDENT İLHAM ƏLİYEVİN RƏSMİ "FACEBOOK" SƏHİFƏSİNDƏ NEFTÇİLƏR GÜNÜ İLƏ BAĞLI PAYLAŞIM EDİLİB

*20 sentyabr 2020-ci il*

Prezident İlham Əliyevin rəsmi "Facebook" səhifəsində Neftçilər günü ilə bağlı paylaşım edilib.

Paylaşımda deyilir: "Neftçi peşəsi hörmətli, eyni zamanda riskli, təhlükəli peşədir, onların əməyi əsl qəhrəmanlıqdır. Ölkəmizin uğurlu inkişafında neftçilərin çox boyük rolu vardır".

**AZƏRTAC**
*20 sentyabr 2020-ci il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVLƏ TÜRKMƏNİSTAN PREZİDENTİ QURBANQULU BERDİMƏHƏMMƏDOV ARASINDA VİDEOKONFRANS FORMATINDA GÖRÜŞ KEÇİRİLİB

*21 yanvar 2021-ci il*

Yanvarın 21-də Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında Xəzər dənizində "Dostluq" yatağının karbohidrogen resurslarının birgə kəşfiyyatı, işlənilməsi və mənimsənilməsi haqqında Anlaşma Memorandumunun imzalanması ilə bağlı Azərbaycan Prezidenti İlham Əliyevlə Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov arasında videokonfrans formatında görüş keçirilib.

Türkmənistan və Azərbaycan prezidentləri görüşdə çıxış etdilər.

### PREZİDENT İLHAM ƏLİYEVİN ÇIXIŞI

– Hörmətli cənab Prezident, hörmətli Qurbanqulu Məlikquluyeviç. Sizi görməyimə çox şadam. Təəssüf edirəm ki, bu gün qardaş Türkmənistanda keçirilən mərasimdə iştirak edə bilmədim, lakin aydındır ki, pandemiya səbəbindən bu hələ mümkün deyil. Bununla belə, bu gün biz videokonfrans formatında yenidən görüşmək, mühüm məsələləri müzakirə etmək, bizim qardaşlıq, dostluq münasibətlərinin xarakterini və ruhunu əks etdirən əlamətdar sənədin imzalanmasında iştirak etmək imkanına malikik. Qəti əminəm ki, ölkələrimiz arasında bütün səviyyələrdə, ilk növbədə Prezidentlər səviyyəsində sıx siyasi qarşılıqlı fəaliyyət olmasaydı, bugünkü sənədin imzalanması mümkün olmazdı.

Hörmətli Qurbanqulu Məlikquluyeviç, Sizinlə birlikdə səy göstərmişik ki, ölkələrimizin müvafiq strukturları məhz Prezidentlərin onlara göstərdiyi kimi – əməkdaşlıq, dostluq, qarşılıqlı dəstək və qarşılıqlı maraqların düzgün başa düşülməsi ruhunda işləsinlər. Ona görə də mən bugünkü sənədi tarixi sənəd adlandırardım, çünki Azərbaycan və Türkmənistan ilk dəfə olaraq Xəzər dənizindəki yatağın mənimsənilməsi üzrə

birgə işə başlayır və bu yataq, həmin yataqdakı iş ölkələrimizi və xalqlarımızı daha da yaxınlaşdıracaq, həm Türkmənistan, həm də Azərbaycan xalqlarına xeyir gətirəcək.

Son illərdə ölkələrimiz arasında münasibətlər çox müsbət dinamikaya malikdir. Ali səviyyədə qarşılıqlı səfərlərimizin xronologiyasına nəzər salmaq kifayətdir. Son 3 ildə Türkmənistan və Azərbaycan prezidentlərinin 5 qarşılıqlı səfəri olub. Bu səfərlər çərçivəsində 50-dən çox sənəd imzalanıb. Müqayisə üçün deyim ki, bizim qarşılıqlı münasibətlərimizin bütün tarixi ərzində 100-dən çox sənəd imzalanıb, onların yarısı son 3 ildə imzalanıb. Ən sevindirici hal ondan ibarətdir ki, bütün bu sənədlər, o cümlədən enerji sahəsində əməkdaşlığa dair əldə etdiyimiz razılaşmalar yerinə yetirilir. Bugünkü imzalama Xəzərin karbohidrogen resurslarının mənimsənilməsində yeni səhifə açır. Bu layihə ölkələrimizin, habelə qonşularımızın enerji təhlükəsizliyinin möhkəmlənməsinə şərait yaradacaq. Bu layihə ixrac üçün böyük imkanlar açır, ona görə də xalqlarımızın rifahının yüksəlməsinə şərait yaradacaq.

İkitərəfli qarşılıqlı fəaliyyət məsələlərinə də toxunmaq istərdim. Siz bu barədə danışdınız. Mən Sizin sözlərinizi tamamilə dəstəkləyirəm ki, biz beynəlxalq strukturlarda bir-birimizi fəal dəstəkləyirik. Fürsətdən istifadə edib Sizi və bütün qardaş türkmən xalqını keçən il qeyd etdiyiniz Türkmənistanın neytrallığının yubileyi münasibətilə təbrik etmək istərdim. Bir daha qeyd etməliyəm ki, Azərbaycan BMT Baş Assambleyasının Türkmənistanın əbədi neytrallığı barədə Qətnaməsinin həmmüəllifi olub. Qoşulmama Hərəkatının sədri kimi Azərbaycanın fəaliyyətini qiymətləndirdiyinizə görə də Sizə təşəkkürümü bildirirəm. Sədrlik çərçivəsində bizim təşəbbüsləri, xüsusən Qoşulmama Hərəkatının Zirvə görüşünün, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Sammitinin, həmçinin BMT Baş Assambleyasının koronavirusa qarşı mübarizə məsələləri üzrə xüsusi sessiyasının keçirilməsi təşəbbüslərini dəstəklədiyinizə görə Sizə təşəkkürümü bildirirəm. Belə qarşılıqlı dəstək bizim münasibətlərimizin ruhunu və xarakterini əks etdirir. Əminəm ki, biz milli maraqlarımızın təmin edilməsi üçün gələcəkdə də beynəlxalq arenada fəal qarşılıqlı əlaqə saxlayacağıq.

Hörmətli Qurbanqulu Məlikquluyeviç, nəqliyyat sahəsində əməkdaşlığımızı Siz artıq qeyd etdiniz. Bu əməkdaşlıq həm bizim ölkələr, həm də qonşularımız üçün böyük perspektivlər açır. Türkmənistan və Azərbaycan nəqliyyat infrastrukturunun, məhz sıx qarşılıqlı əlaqəli şəkildə işləyən və bizim ərazilərimizdən keçməklə yüklərin tranzitini təmin edən, habelə Azərbaycan ilə Türkmənistan arasında əmtəə dövriyyəsi imkanlarını artıran müasir beynəlxalq dəniz limanları yaradılması layihələrini bir növ sinxronlaşdırıblar. Əminəm ki, ölkələrimiz arasında nəqliyyat-logistika sahəsində əməkdaşlıq bizim regionda yaranmış yeni şərait və yeni nəqliyyat yollarının açılması imkanları nəzərə alınmaqla daha yüksək səviyyəyə çatacaq. Düşünürəm ki, bu bizim bütün tərəfdaşlarımız və qonşularımız üçün əlavə imkanlar yaradacaq.

Türkmənistanın nəqliyyat-logistika potensialının möhkəmlənməsi işində Sizin şəxsi xidmətlərinizi xüsusi qeyd etmək istərdim. Ona görə ki tranzitlə bağlı məsələlərdə qonşu ölkələrlə qarşılıqlı fəaliyyət olmasa, nəticə əldə etmək mümkün deyil. Bu gün bizim nəqliyyat-logistika infrastrukturunun yüksək səviyyəsini qeyd etməyimiz Türkmənistanın və Azərbaycanın bu sahədə məqsədyönlü fəaliyyətinə dəlalət edir. Bu bizim regionda və hətta bu regiondan uzaqda – Avrasiya məkanında yerləşən bütün ölkələr üçün çox böyük imkanlar yaradır. Ona görə ki nəqliyyat sferası da enerji sferası kimi, ölkələri birləşdirir. Bir daha demək istəyirəm, bu gün bizim bu Memorandumu imzalamağımız əlamətdar hadisədir, onun müsbət nəticələri olacaq.

Sizin dediyiniz regional əməkdaşlıq məsələsinə də toxunmaq istərdim. Azərbaycan, Türkmənistan və Türkiyə arasında, həmçinin Azərbaycan, Əfqanıstan və Türkmənistan arasında üçtərəfli əməkdaşlıq formatı artıq mövcuddur. Bu əməkdaşlıq konkret nəticəyə, biznes fəaliyyəti, iri infrastruktur layihələrinin reallaşdırılması üçün daha əlverişli şərait yaradılmasına yönəlib.

Hörmətli Qurbanqulu Məlikquluyeviç, əlbəttə, Sizin müdrik rəhbərliyinizlə Türkmənistanın durmadan inkişaf etməsini xüsusi qeyd etmək istərdim. Siz öz ölkənizi inamla inkişaf, sosial həyatın ən mühüm məsələlərinin həlli, dövlətinizin sərhədləri ilə məhdudlaşmayan infrastruktur layihələrinin həyata keçirilməsi yolu ilə irəli aparırsınız. Həmhüdud dövlətlərdə də Sizin investisiya siyasətiniz barədə bilirəm. Bunsuz Lapis-Lazuli layihəsini bu gün reallaşdırmaq mümkün olmazdı. Mən bilmirəm, bəlkə də, çoxları bilmir ki, bu gün Əfqanıstandan yüklərin Türkmənistana, Azərbaycana və daha sonra digər ölkələrə çatdırılmasını təmin edən dəmir yolu məhz Türkmənistanın qonşu Əfqanıstanda investisiyalara dair müdrik siyasəti nəticəsində inşa edilib. Buna görə də bu gün qeyd etmək istərdim ki, məhz region ölkələri ilə əməkdaşlığa bizim ümumi yanaşmalarımız və həm bizim üçün, həm də qonşularımız üçün vacib məsələlərin həlli tamamilə yeni reallıqlar yaradır.

Siz qeyd etdiyiniz kimi, Xəzər mehriban qonşuluq dənizi, əməkdaşlıq dənizidir. Əminəm ki, Xəzər ölkələrimiz arasında təbii sərhəd olduğuna baxmayaraq, bundan sonra da ölkələrimizi və xalqlarımızı birləşdirəcək. Fürsətdən istifadə edib Sizdən xahiş etmək istərdim ki, qardaş Türkmənistan xalqına ən xoş arzularımı, firavanlıq, inkişaf, sülh və rifah diləklərimi çatdırasınız.

Diqqətinizə görə sağ olun.

**Prezident Qurbanqulu Berdiməhəmmədov:** Məzmunlu çıxışınıza, Türkmənistanın və onun xalqına ünvanlanan xoş sözlərinizə görə Sizə təşəkkür edirəm.

İndi isə biz Sizin razılığınızla, Türkmənistan ilə Azərbaycan Respublikası arasında mühüm tarixi sənədin imzalanması mərasiminə başlayırıq.

***

Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında Xəzər dənizində "Dostluq" yatağının karbohidrogen resurslarının birgə kəşfiyyatı, işlənilməsi və mənimsənilməsi haqqında Anlaşma Memorandumu imzalandı.

Sənədi Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov və Türkmənistan Nazirlər Kabinetinin sədr müavini, xarici işlər naziri Rəşid Meredov imzaladılar.

***

**Prezident Qurbanqulu Berdiməhəmmədov** dedi:

– Hörmətli İlham Heydər oğlu, ilk növbədə Sizi və bizim bütün azərbaycanlı qardaşlarımızı tarixi sənədin – Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında Xəzər dənizində "Dostluq" yatağının karbohidrogen resurslarının birgə kəşfiyyatı, işlənilməsi və mənimsənilməsi haqqında Anlaşma Memorandumunun imzalanması münasibətilə təbrik edirəm. Ölkələrimizin və xalqlarımızın həyatında, həqiqətən, əlamətdar olan bu hadisə dostluğun və əməkdaşlığın möhkəmləndirilməsinə istiqamətlənib. Uzun illər ərzində Türkmənistan və Azərbaycan iki müstəqil dövlət kimi ən geniş istiqamətlər spektri üzrə münasibətləri ardıcıl olaraq inkişaf etdirirlər. Qeyd etmək lazımdır ki, ikitərəfli səmərəli əlaqələrin əsasını ən yüksək dövlət səviyyəsində qurulan açıq, konstruktiv və səmimi siyasi dialoq təşkil edir. Sizinlə mütəmadi görüşlərimizin gedişində siyasi-diplomatik, ticari-iqtisadi, mədəni-humanitar və sair sahələrdə ikitərəfli tərəfdaşlığa dair mühüm mövzular müzakirə edilir. Sözsüz ki, belə əlaqələrin nəticələri iki dövlətin hökumət və xarici siyasət idarələrinin sonrakı fəaliyyətinin predmetinə çevrilir. Mən bu kontekstdə Türkmənistanın və Azərbaycanın dövlət strukturlarının, yəni Prezidentlər səviyyəsində əldə olunan razılaşmaların icrasına məsuliyyət daşıyan qurumların fəaliyyətinin aktivləşdirilməsini məmnuniyyətlə qeyd etmək istərdim. Bu öz növbəsində hər iki tərəfi Türkmənistan–Azərbaycan əməkdaşlığında böyük potensial imkanlardan istifadəyə yönəlmiş yeni ideyaların və təşəbbüslərin axtarılmasına və icrasına stimullaşdırmalıdır. İmzalanmış Memorandumun əhəmiyyəti məsələsinə qayıdaraq Sizin diqqətinizi bir daha ona yönəltmək istərdim ki, bu sənəd strateji istiqamətdə – enerji sahəsində Türkmənistan–Azərbaycan tərəfdaşlığında prinsipcə yeni mərhələ açır. Bunun üçün zəruri olan hər şey – həm siyasi iradə, həm texniki və texnoloji təchizatın yüksək səviyyəsi, yüksək ixtisaslı kadrlar və neft-qaz sahəsində zəngin iş təcrübəsi var. Lakin Xəzərdə birgə uğurlu fəaliyyətin əsas rəhni əsrlər boyu Türkmənistan və Azərbaycan xalqlarında mövcud olan möhkəm qardaşlıq telləridir. Burada Xəzər regionunda möhkəm sülh, mehriban qonşuluq, qarşılıqlı anlaşma və

əməkdaşlıq şəraiti yaradılmasına Türkmənistanın və Azərbaycanın töhfəsini və səyini xüsusi vurğulamaq istəyirəm. Məhz bizim iki ölkənin yüksək siyasi və diplomatik fəallığı nəticəsində son onilliklərdə Xəzəryanı dövlətlərin mütəmadi əsasda Zirvə görüşlərinin və digər yüksək forumlarının keçirilməsi mümkün olub, Xəzəryanı ölkələrin indiki və gələcək tələblərinə cavab verən, Xəzər dənizində təhlükəsizlik, iqtisadiyyat və ekologiya kimi mühüm sahələrdə çoxtərəfli qarşılıqlı fəaliyyətin əsas parametrlərini müəyyən edən beynəlxalq hüquqi baza yaradılıb. Fikrimcə, bu, çox cəhətdən Türkmənistan ilə Azərbaycan arasında qarşılıqlı anlaşmanın yüksək səviyyəsi və Xəzər problemlərinə aid bütün məsələlərin həllinə bizim yanaşmalarımızın ümumiliyi sayəsində mümkün olub.

Mən Türkmənistan–Azərbaycan münasibətlərinin vəziyyətini bütövlükdə çox yüksək qiymətləndirirəm, ikitərəfli qarşılıqlı fəaliyyətin və tərəfdaşlığın səmərəliliyini və müsbət dinamikasını qeyd etmək istəyirəm.

Hörmətli İlham Heydər oğlu, Sizi bugünkü tarixi hadisə münasibətilə bir daha təbrik edirəm. Sizə bir daha möhkəm cansağlığı, çoxşaxəli dövləti fəaliyyətinizdə gələcək uğurlar, qardaş Azərbaycana sülh, xoşbəxtlik və firavanlıq arzu edirəm. Diqqətinizə görə bir daha təşəkkür edirəm. Əlbəttə, Azərbaycan Respublikasının Prezidenti, Zati-aliləri İlham Heydər oğlu Əliyevə bir daha söz vermək istərdim. Buyurun, qardaş.

**Prezident İlham Əliyev** dedi:

– Sağ ol, əziz qardaş. Artıq qeyd etdik ki, bu gün bizim münasibətlərimizdə tarixi gündür. Əminəm ki, bugünkü imzalanma mərasimi regional əməkdaşlığın inkişafı üçün çox müsbət səmərəyə malik olacaq. Siz artıq qeyd etdiniz ki, Xəzəryanı ölkələrin əməkdaşlığı da çox dinamik, qarşılıqlı anlaşma və qarşılıqlı dəstək ruhunda inkişaf edir, bunun nəticəsində Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiya imzalanıb. Xəzəryanı ölkələr xoş məram, siyasi iradə nümayiş etdiriblər. Çoxillik uzun diskussiyalardan sonra enerji resurslarının mənimsənilməsi, habelə Xəzərin qorunması üzrə birgə fəaliyyət üçün ölkələrə yeni imkanlar açan Konvensiya razılaşdırılıb. Biz birgə səylərimizlə bundan sonra da xalqlarımıza bu qədər nemətlər bəxş edən bu nadir su hövzəsini qorumaq üçün nə lazımdırsa, etməliyik. Bu gün imzalanma prosesini müşahidə edərək düşündüm ki, əcdadlarımız bugünkü mərasimi görsəydilər, yəqin ki, şad olardılar. Necə deyərlər, onların ruhu şaddır. Onlar bizə görə, iki qardaş xalqın əl-ələ, çiyin-çiyinə birlikdə inamla irəliləməsinə, bir-birini dəstəkləməsinə, öz xalqlarının gələcəyi naminə əməkdaşlıq etməsinə, bununla da ölkələrimizin hələ illər boyu, onilliklər boyu davamlı inkişafını təmin etmələrinə görə qürur duyardılar.

Bu gün onu da qeyd etmək istərdim ki, bugünkü mərasim ölkələrimizin müstəqilliyinin, suverenliyinin, iqtisadi potensialının möhkəmləndirilməsi üzrə çoxillik gərgin fəaliyyətinin nəticəsidir. Bu gün Türkmənistan və Azərbaycan beynəlxalq arenada tam

əsasla müstəqil xarici və daxili siyasət barədə danışa bilən ölkələrdir. Təəssüf ki, artıq bu gün dünyada belə hallara az-az rast gəlirik. Bizim ölkələrimiz özlərini tamamilə təmin edən ölkələrdir. Onlar istər beynəlxalq kreditlərdən, istər xarici köməkdən, istərsə də xarici təsirin hər hansı başqa formalarından və növlərindən asılı deyil. Bu ölkələr öz milli, mənəvi, əxlaqi ənənələrinə möhkəm sadiqdirlər. Bu bizi irəliyə aparan əsasdır.

Bu gün Türkmənistan və Azərbaycan nisbətən gənc müstəqil dövlətlərdir. Bizim müstəqil dövlətlərə çevrilməyimizdən hələ 30 il keçməyib, lakin bu illər ərzində çox böyük uğurlar qazana bilmişik. Məsələn, bu gün inamla irəliləyirik, sosial rifah, iqtisadi inkişaf, qlobal transmilli layihələr sahəsində çox mühüm məsələləri həll edirik. Ölkələrimiz investisiyalar üçün açıqdır. Xarici şirkətlər həm Türkmənistana, həm də Azərbaycana inamla böyük vəsait yatırırlar. Ona görə ki əmindirlər, onların vəsaitləri qorunacaq, bizim ölkələrdə siyasi sabitliyə əmindirlər, o da bu gün ən mühüm inkişaf amilidir. Sabitlik olmadan inkişaf mümkün deyil. Sabitlik tərəqqiyə, rifaha, investisiyalara, ən iri beynəlxalq şirkətlərin diqqətinə və bununla da ölkələrin beynəlxalq aləmdə rolunun, onların təsirinin möhkəmlənməsinə gətirib çıxarır. Bu gün ölkələrimizin həm tarixi, həm də mədəni baxımdan oxşarlığı, ortaq köklərimiz, ortaq dilimiz, ortaq dinimiz barədə danışarkən biz, əlbəttə, bütün bu müsbət cəhətləri belə səmərəli əməkdaşlığa transformasiya etmişik. Beləliklə, bu gün biz, sadəcə, Xəzərdə bir yataq haqqında Memorandum imzalamırıq, bu gün biz münasibətlərimizin gələcək uğurlu inkişafında çox mühüm addım atırıq.

Hörmətli Qurbanqulu Məlikquluyeviç, Sizi təbrik etmək, qardaş türkmən xalqına bir daha ən xoş arzularımı bildirmək, Sizə möhkəm cansağlığı, təşəbbüslərinizdə uğurlar arzu etmək istərdim. Abadlıq, şəhərsalma sahəsində çox böyük səylərinizi də qeyd etmək istərdim. Mən bilirəm ki, Siz həm Aşqabadda, həm də digər şəhərlərdə şəhərsalma layihələrinə şəxsən rəhbərlik edirsiniz. Buna görə də Sizin dostlarınız, qardaşlarınız kimi Aşqabada gələndə biz ürəkdən sevinirik ki, müasir, gözəl, sakinlər üçün rahat şəhər yaradılıb. Bu Sizin ölkənin inkişafına yönəlmiş çoxillik səylərinizin və öz xalqınıza bağlılığınızın, ona sədaqətinizin nəticəsidir. Sonda bizim birliyimizi bir növ təsdiqləyərək Türkmənistanda da aydın başa düşüləcək sözləri demək istəyirəm – yaşasın Azərbaycan–Türkmənistan dostluğu!

**Prezident Qurbanqulu Berdiməhəmmədov**: Çıxışınıza görə çox sağ olun, qardaş!

**Prezident İlham Əliyev:** Sağ olun.

**AZƏRTAC**

*21 yanvar 2021-ci il*

## PREZİDENT İLHAM ƏLİYEV CƏNUB QAZ DƏHLİZİ MƏŞVƏRƏT ŞURASI ÇƏRÇİVƏSİNDƏ NAZİRLƏRİN VİDEOKONFRANS FORMATINDA VII İCLASINDA ÇIXIŞ EDİB

*11 fevral 2021-ci il*

Fevralın 11-də Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin videokonfrans formatında VII iclası keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iclasda çıxış edib.

**PREZİDENT İLHAM ƏLİYEVİN ÇIXIŞI**

– Hörmətli komissar Simson.

Hörmətli komissar Varhelyi.

Xanımlar və cənablar.

Əziz dostlar.

Cənub Qaz Dəhlizi Məşvərət Şurasının VII iclası videokonfrans vasitəsilə keçirilir. Bu, pandemiyanın nəticəsində yaranmış yeni reallıqdır. Buna baxmayaraq, əminəm ki, bizim birgə fəaliyyətimizin nəticəsi hər zaman olduğu kimi əhəmiyyətli olacaqdır. Məşvərət Şurasının ilk iclası mənim xatirimdədir. O zaman biz birgə işimizə yeni başlamışdıq və bu gün keçmişə nəzər saldıqda mühüm nailiyyətlərin şahidi oluruq. Yeri gəlmişkən, hər il Bakıda toplaşarkən biz görülən işləri nəzərdən keçirir və gələcək addımlarımızı planlaşdırırıq.

Şadam ki, bugünkü iclasda iştirak edən ölkələrin sayı əvvəlkindən artıqdır. Hazırda burada 18 ölkə, 19 şirkət və 5 aparıcı beynəlxalq maliyyə təsisatı iştirak edir. Biz vahid komanda olaraq çalışırıq və hesab edirəm ki, bu bizim uğurumuzun başlıca səbəbidir.

Əlbəttə, əvvəlcə hər birimizi Cənub Qaz Dəhlizinin inşasının başa çatdırılması münasibətilə təbrik etmək istəyirəm. Ötən ilin sonuncu günü əlamətdar olmuşdur. Cənub Qaz Dəhlizinin sonuncu seqmenti olan TAP layihəsinin yekunlaşdırılması tarixi nailiyyətdir.

Əminəm ki, bizim birgə fəaliyyətimiz davam edəcəkdir, çünki yeni plan və ideyalarımız var. Həmin plan və ideyalar bugünkü iclasda mütləq müzakirə ediləcəkdir.

Mən bütün tərəfdaşlarımıza təşəkkürümü bildirmək istəyirəm. Bu nəhəng layihənin inşasında iştirak edən dövlətlər – Gürcüstan, Türkiyə, Bolqarıstan, Yunanıstan, Albaniya və İtaliya hökumətlərinə minnətdaram. Avropa Komissiyasına təşəkkür edirəm, çünki Azərbaycan və Avropa Komissiyası 10 il əvvəl Bakıda Cənub Qaz Dəhlizinə dair Birgə Bəyanat imzalamışdır. Bu bizim fəaliyyətimizin başlanğıc nöqtəsi idi. Bu 10 il ərzində biz Avropa Komissiyası ilə fəal şəkildə əməkdaşlıq etmişik və Azərbaycan və Avropa Komissiyası Məşvərət Şurasının həmsədrləridir.

Mən ABŞ və Böyük Britaniya hökumətlərinə təşəkkürümü bildirmək istəyirəm. Tərəfdaşlarımız olan hər iki ölkənin hökuməti bizim bütün təşəbbüslərimizi hər zaman dəstəkləmiş, Azərbaycan və onun qonşuları və tərəfdaşları ilə birlikdə əvvəllər də uğurla həyata keçirdiyi müxtəlif nəhəng layihələrin icrası zamanı bizə çox güclü dəstək vermişdir.

Əlbəttə, şirkətlər bu layihəyə güclü sadiqlik nümayiş etdirməsəydi, onun reallaşması mümkünsüz olardı. Burada, həqiqətən də, bu nəhəng enerji layihəsinin həyata keçirilməsi ilə bağlı vahid ideya ətrafında toplaşmış şirkətlərdən ibarət böyük bir qrup mövcuddur. Bu mənada mən Azərbaycan və "BP" arasında strateji tərəfdaşlığın əhəmiyyətini xüsusi vurğulamaq istəyirəm. "BP" bizim strateji tərəfdaşımızdır, 27 ildir ki, Azərbaycanda fəaliyyət göstərən şirkətdir və qarşıda hələ neçə onilliklər ərzində əməkdaşlığımız var. Buraya Azərbaycanda neft və qaz sahəsi, o cümlədən resursların nəqli ilə bağlı bütün əhəmiyyətli layihələr daxildir.

Buradan aparıcı beynəlxalq maliyyə təsisatlarına – Dünya Bankına, Avropa Yenidənqurma və İnkişaf Bankına, Asiya İnkişaf Bankına, Avropa İnvestisiya Bankına və Asiya İnfrastruktur İnvestisiya Bankına təşəkkürümü bildirmək istəyirəm. Bu beş böyük beynəlxalq maliyyə institutu layihədə iştirak etmiş və onun həyata keçirilməsinə mühüm töhfələr vermişdir.

Bu bir daha onu nümayiş etdirir ki, komanda şəklində aparılan iş yaxşı nəticə verir. Biz əhəmiyyətli irəliləyişə nail olmuşuq. Cənub Qaz Dəhlizi enerji təhlükəsizliyi və enerjinin şaxələndirilməsi layihəsidir. Bu gün enerji təhlükəsizliyi bütün ölkələrin milli təhlükəsizlik məsələsidir. Enerjinin şaxələndirilməsi də istehlakçı və istehsalçı ölkələr üçün vacibdir. Beləliklə, zənnimcə, biz misilsiz əməkdaşlıq formatına nail olmuşuq. Düzgün hesablanmış maraqlar balansı var ki, burada istehsalçı olan Azərbaycanın maraqları tranzit və istehlakçı ölkələrin maraqları ilə üst-üstə düşür. Məhz bunun nəticəsində bəzilərinin o qədər də real hesab etmədikləri bir layihənin həyata keçirilməsi mümkün olmuşdur.

Cənub Qaz Dəhlizi layihəsinə nəzər saldıqda, onun bir çox parametrlər üzrə çox nadir olduğunu görə bilərik. Onun uzunluğu 3500 kilometrdir və layihə 7 ölkəni birləşdirir.

Həmin ölkələr arasında sıx əməkdaşlıq olmasa idi, onu reallaşdırmaq mümkünsüz olardı. Boru xətti çox mürəkkəb coğrafi məkanlardan, hündürlüyü 2500 metr olan dağlardan, 100 kilometrdən artıq hissəsi isə Adriatik dənizinin dibindən keçir. Cənub Qaz Dəhlizi mövcud olan ən yüksək ekoloji standartlara cavab verir və bu həmin layihənin planlaşdırılması və icrası zamanı bizim üçün başlıca şərt olmuşdur.

Layihənin dəyərinə gəldikdə, ilkin olaraq dəyər 44,6 milyard dollar məbləğində hesablanmışdı. Lakin səmərəli idarəçilik və düzgün planlaşdırma nəticəsində layihənin dəyəri 33 milyard dollara enmişdir. Bunun özü əhəmiyyətli bir nailiyyətdir. Çünki adətən, tikinti layihələrinin icrası zamanı dəyər azalmır, əksinə, artır. Onu da qeyd etmək istəyirəm ki, Azərbaycan layihəyə 10 milyard dollar həcmində əhəmiyyətli maliyyə töhfəsi vermişdir və biz Cənub Qaz Dəhlizinin həyata keçirilməsinin hər dörd seqmentində – "Şahdəniz", Cənubi Qafqaz boru kəməri, TANAP və TAP-da iştirak etmişik. Bunların hamısı bizim komanda şəklində işləməyimizin təzahürüdür.

Bir daha 10 il əvvəl Bakıda Avropa Komissiyasının ozamankı prezidenti cənab Barrozu və mənim tərəfimdən imzalanmış Birgə Bəyanatın əhəmiyyətini vurğulamaq istərdim. Cənub Qaz Dəhlizinə dair Birgə Bəyanatın imzalanması, həqiqətən də, əlamətdar hadisə idi. Ancaq həmin bəyanatın imzalanması artıq əldə edilmiş irəliləyişə görə mümkün olmuşdur. O zaman – 1994-cü ildə Azərbaycan fəal şəkildə dünyanın aparıcı enerji şirkətləri ilə işləməyə başlamış və "Əsrin müqaviləsi" imzalanmışdır. Bu bizim enerji strategiyamızın reallaşdırılması istiqamətində atılmış vacib addım idi.

Tərəfdaşlarımıza bəzi mühüm tarixi nailiyyətləri xatırlatmaq istəyirəm. 1994-cü il bizim bütün nəhəng layihələrimiz üçün başlanğıc nöqtəsi hesab oluna bilər. 1996-cı ildə Azərbaycan və beynəlxalq enerji şirkətlərindən ibarət konsorsium "Şahdəniz" yatağı ilə bağlı müqavilə imzalamışdır. Hazırda həmin yataq Cənub Qaz Dəhlizinin yeganə təbii ehtiyat mənbəyidir, ancaq əminəm ki, digər yataqlardan da əlavə qaz həcmləri olacaqdır. 1997-ci ildə xarici şirkətlər tərəfindən Xəzərdə ilk neftin hasil edilməsi reallığa çevrilmişdir. Azərbaycan Xəzər dənizində fəaliyyət göstərmək üçün xarici neft şirkətlərini dəvət edən ilk ölkə olmuşdur. Daha sonra 1999-cu ildə biz Bakıdan Gürcüstanın Supsa liman şəhərinədək uzanan boru kəmərini istifadəyə verdik. Bu, gələcək sərmayə qoyuluşu baxımından çox vacib idi, çünki buna qədər bizim dünya bazarına çıxışımız yox idi. Azərbaycan dənizə çıxışı olmayan ölkədir. Bu səbəbdən bizim boru kəmərlərinə ehtiyacımız var idi və beləliklə, 1999-cu ildəki nailiyyətimiz əhəmiyyətli dəyişiklik yaratdı.

Daha sonra biz 2006-cı ildə istifadəyə verilmiş Bakı–Tbilisi–Ceyhan əsas neft boru kəməri ilə bağlı işlərimizi planlaşdırmağa başladıq. Bu, Xəzər dənizinin Aralıq dənizi ilə birləşdirilməsi demək idi. Biz artıq təchizat marşrutlarının şaxələndirilməsinə nail olduq. 2007-ci ildə biz Azərbaycandan Gürcüstana, oradan isə Türkiyəyə uzanan qaz

boru kəmərinin inşasını başa çatdırdıq. Bunun özü də tarixdə bir ilk idi – Azərbaycan qonşu ölkələri təbii qaz ilə təmin etməyə başladı. Nəhayət, 2012-ci ildə, Avropa İttifaqı ilə bəyanatın imzalanmasından bir il sonra biz Azərbaycan və Türkiyə arasında TANAP layihəsinin inşası ilə bağlı müqavilə imzaladıq. Bu, Cənub Qaz Dəhlizinin həyata keçirilməsi baxımından çox mühüm hadisə idi. 2018-ci ildə TANAP-ın icrası başa çatdıqdan sonra – 2020-ci ildə TAP layihəsi də yekunlaşdırılmışdır.

Bunların hər biri əhəmiyyətli nailiyyətlərdir. Bu gün keçmişə nəzər saldıqda görürük ki, bütün bu nailiyyətlər olmasaydı, bir-birimizi təbrik etdiyimiz bugünkü mərasim mümkünsüz olardı. Ancaq biz gələcəyə baxmalıyıq. Biz böyük nailiyyətlər əldə etmişik, lakin əminəm ki, bu gün Məşvərət Şurasının toplantısı çərçivəsində iştirakçılar gələcək planlarımızı müzakirə edəcəklər. Azərbaycana gəldikdə, biz enerji resurslarımızı inkişaf etdirməyə davam edəcəyik. Hazırda kəşfiyyat və hasilat mərhələsində olan bir neçə yataqla bağlı çox ümidverici perspektivlər var. Xüsusilə 400 milyard kubmetr qaz ehtiyatına malik olan "Babək" yatağını qeyd edə bilərəm. "Abşeron" qaz-kondensat yatağının 350 milyard kubmetr ehtiyatı var və ümid edirəm ki, orada hasilat gələn il başlayacaqdır. Digəri isə "Ümid" yatağıdır ki, orada ən azı 200 milyard kubmetr təbii qaz ehtiyatı mövcuddur. Bunlar təsdiqlənmiş ehtiyata malik olan yataqlardır ki, onlar Xəzər dənizinin Azərbaycana məxsus sektorunda qaz hasilatına töhfə verəcəkdir. Kəşfiyyat mərhələsində olan digər layihələr də var və biz növbəti illərdə yeni kəşflərin olacağına ümid edirik. Beləliklə, şaxələndirilmiş bu neft-qaz kəmərləri şəbəkəmizin hasilat gücünün artırılmasına xidmət edəcəkdir.

Birgə planlarımıza gəldikdə, əminəm ki, bu gün siz İonik-Adriatik boru kəmərinə dair məsələləri müzakirə edəcəksiniz. Əlbəttə, TAP-ın başa çatdırılması İonik-Adriatik boru kəmərinin inşasına imkan yaradır. Biz Qərbi Balkan ölkələri ilə anlaşma memorandumlarını artıq imzalamışıq. İonik-Adriatik boru kəməri həyata keçirildikdən sonra biz təchizat marşrutlarımızı şaxələndirmək imkanı əldə edəcəyik və Qərbi Balkan dövlətləri üçün də yeni imkanlar yaradacağıq.

Şaxələndirmə haqqında danışarkən qeyd etməliyik ki, bizim layihə yalnız marşrutların deyil, həm də mənbələrin şaxələndirilməsindən ibarətdir. Bu olduqca vacib məsələdir və real şaxələndirmə deməkdir. Azərbaycan qazı Avropa üçün yeni, etibarlı və uzunmüddətli mənbədir. Çünki bizim təsdiqlənmiş təbii qaz ehtiyatımız 2,6 trilyon kubmetr təşkil edir və yeni məlumatlara görə, bu həcm daha da artıq ola bilər. "Azəri–Çıraq–Günəşli" yatağında "dərin qaz" adlanan layihəni də nəzərə alsaq, bizim potensialın mənzərəsi daha da aydın olar.

Sizlərə daha bir vacib tədbirlə bağlı məlumat vermək istərdim. Bu da Azərbaycan və Türkmənistan arasında "Dostluq" yatağına dair Anlaşma Memorandumunun imza-

lanmasıdır. Bu yataq azərbaycanlı geoloq və neftçilər tərəfindən sovet dövründə kəşf edilmişdir. Yəni kəşf edilmiş yataqdır. Bu yatağın işlənilməsinə dair baza prinsiplərinin hazırlanması üçün çox vaxt tələb edildi və biz onu "Dostluq" adlandırdıq. Bu, Xəzər hövzəsində çox əlamətdar hadisədir. Bu ilin yanvar ayında həmin memorandum imzalandı və əminəm ki, tezliklə biz bütün şərtləri razılaşdıraraq yekun müqaviləni imzalayacağıq. Bu, Xəzər dənizi və onun hüdudlarından kənarda gələcək enerji əməkdaşlığı üçün də çox faydalı olacaqdır.

Onu da qeyd etmək istəyirəm ki, Azərbaycan artıq Xəzər dənizinin şərq sahilində olan enerji ehtiyatlarının nəqli üçün etibarlı tranzit ölkəyə çevrilib. Uzun illərdir ki, biz Xəzərin şərqində yerləşən tərəfdaşlarımız üçün Bakı–Tbilisi–Ceyhan boru kəməri və ölkəmizin dəmir yolu sistemi vasitəsilə vacib nəqliyyat marşrutları üzrə təchizatı təmin edirik. Yəni Azərbaycan özünü etibarlı tranzit ölkə kimi təsdiq etmişdir.

Diqqətinizə çatdırmaq istədiyim digər bir məqam bizim bərpa edilən enerjiyə dair planlarımızla bağlıdır. Biz hazırda dünyanın aparıcı enerji şirkətləri ilə danışıqlar mərhələsindəyik. Biz artıq onların ikisi ilə inşaat üçün zəruri sənədləri imzalamışıq. Bunların biri günəş, digəri isə külək enerjisi stansiyalarıdır ki, onların toplam gücü 440 meqavatdır. Bu layihələr 100 faiz xarici sərmayə hesabına icra olunacaq. Azərbaycanın sərmayə mühiti olduqca münbitdir. Dünya Bankının hesabatına görə, Azərbaycan biznes fəaliyyəti üçün imkanlar baxımından 30 aparıcı dövlət sırasındadır. Bərpa olunan enerji sahəsinə sərmayələrin cəlb edilməsi bizim bərpa olunan enerji mənbələrinə dair strategiyamıza və potensialımıza uyğundur.

Bununla yanaşı, işğal edilmiş ərazilərimizin azad olunmasından sonra həmin ərazilərdə günəş, külək və su ehtiyatları vasitəsilə elektrik enerjisinin istehsalı üçün yeni imkanlar yaranmışdır. Bu baxımdan mən ölkələrinizdən olan şirkətləri bizim tərəfdaşlarımız olmağa dəvət edirəm. Mən artıq rəsmi olaraq azad edilmiş əraziləri "yaşıl enerji" ilə təmin ediləcək bölgə elan etmişəm. Biz artıq master-plan üzərində çalışırıq və nəhəng su, günəş və külək potensialından istifadə edərək həmin layihələri icra edəcəyik.

Daha bir layihə bütün azad olunmuş ərazilərdə "ağıllı şəhərlər"in yaradılmasıdır ki, bununla bağlı da hazırlıq işləri gedir. İşğaldan azad olunmuş ərazilərin Ermənistan tərəfindən darmadağın edilməsini nəzərə alsaq, bu, böyük bir çağırışdır, lakin biz bunun öhdəsindən qısa müddət ərzində gəlmək və keçmiş köçkünlərimizi doğma torpaqlarına qaytarmaq məsələsinə sadiqik. Bununla da ölkənin imkanlarını, əzmini və gələcəyə baxışını nümayiş etdirmək niyyətindəyik.

Hesab edirəm ki, böyük neft və qaz potensialına sahib, xam neft və neft məhsullarının, təbii qaz və elektrik enerjisi ixracatçısı olan Azərbaycan böyük məsuliyyət nümayiş etdirməli və "yaşıl enerji"yə fəal şəkildə sərmayə yatırmalıdır. Biz məhz bununla məşğuluq.

Bununla bağlı planlarımı bölüşdüm və əminəm ki, onlar həyata keçiriləcəkdir. Sadəcə olaraq, tərəfdaş və dostlarımızı məlumatlandırmaq istədim ki, belə imkanlar da mövcuddur.

Artıq dediyim kimi, Cənub Qaz Dəhlizinin başa çatdırılmasını qeyd etdiyimiz bir vaxtda biz gələcəyə baxmalı, yeni plan və ideyalar üzərində işləməliyik. Ümid edirəm ki, pandemiya bitdikdən sonra biz yenidən Bakıda görüşə biləcəyik, çünki Bakı ənənəvi olaraq Məşvərət Şurasının toplantılarının keçirildiyi şəhərdir. Fürsətdən istifadə edərək birgə fəaliyyətimizi davam etdirmək üçün sizi gələn il Bakıya səfərə dəvət edirəm. Diqqətinizə görə sağ olun.

**AZƏRTAC**

*11 fevral 2021-ci il*

## PREZİDENT İLHAM ƏLİYEV "BP" QRUPUNUN BAŞ İCRAÇI DİREKTORUNU QƏBUL EDİB

*11 noyabr 2021-ci il*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 11-də "BP" qrupunun baş icraçı direktoru Bernard Lunini qəbul edib.

"BP" qrupunun baş icraçı direktoru Bernard Luni son görüşdən keçən dövr ərzində Azərbaycanın əldə etdiyi uğurlar münasibətilə dövlətimizin başçısını təbrik etdi. Təbriklərə görə minnətdarlığını bildirən Prezident İlham Əliyev Cənub Qaz Dəhlizi ilə bağlı əldə edilmiş birgə uğurlar münasibətilə Bernard Lunini təbrik etdi və bu layihənin Azərbaycanla "BP" şirkətinin birgə səyləri nəticəsində əldə olunduğunu bir daha vurğuladı.

Bildirildi ki, "BP" şirkəti Azərbaycanla, o cümlədən SOCAR şirkəti ilə dünyada ən güclü tərəfdaşlıq əlaqələrinə malikdir. Öz növbəsində Azərbaycanın da ən möhkəm tərəfdaşlığı "BP" şirkəti ilədir. Qeyd edildi ki, ölkəmizin bu şirkətlə qarşılıqlı inama əsaslanan əməkdaşlığının zəngin tarixi və parlaq gələcəyi var.

Söhbət zamanı "BP" şirkətinin bərpa olunan enerjiyə göstərdiyi marağın Azərbaycanın enerji strategiyasına uyğun gəldiyi qeyd edildi, bu sahədə "BP" ilə əməkdaşlığın genişlənməsi məsələlərinin nəzərdən keçirildiyi bildirildi. "BP" şirkətinin işğaldan azad edilmiş ərazilərdə bərpa olunan enerji ilə bağlı planlarının əhəmiyyətinə toxunularaq bunun həmin ərazilərdə ölkəmizin bəyan etdiyi kimi, yaşıl enerji ərazisinə transformasiya etmək işinə xidmət edəcəyinə ümidvarlıq ifadə olundu. Qeyd edildi ki, bu işlər böyük potensiala malikdir, xüsusilə nəzərə alınsa ki, Azərbaycan qonşu ölkələrlə şaxələndirilmiş enerji bağlantılarına malikdir və ölkəmizdə tələbatdan artıq enerji istehsal olunur.

Bernard Luni xalqımızın Ümummilli lideri Heydər Əliyevin Azərbaycanın faydası naminə karbohidrogen ehtiyatlarının inkişafı ilə bağlı təşəbbüslərini xatırladaraq, hazırda Prezident İlham Əliyevin enerji keçidi məsələsi ilə bağlı baxışlarına görə təbriklərini çatdırdı.

"BP" qrupunun baş icraçı direktoru Bernard Luni Azərbaycanın ətraf mühitin mühafizəsi sahəsində səylərini yüksək qiymətləndirərək ölkəmizin bu istiqamətdə dünya-

nın aparıcı dövlətləri sırasında olduğunu dedi və bildirdi ki, Azərbaycanda ətraf mühitin standart və qaydalarının qorunması bir çox inkişaf etmiş ölkələrdən daha güclüdür. Öz növbəsində, Prezident İlham Əliyev Azərbaycanda ətraf mühitin mühafizəsi istiqamətində həyata keçirilən genişmiqyaslı tədbirlərdən danışdı.

Söhbət zamanı əməkdaşlığın perspektivləri ilə bağlı məsələlər müzakirə edildi.

**AZƏRTAC**
*11 noyabr 2021-ci il*

## PREZİDENT İLHAM ƏLİYEV "TOTAL ENERGİES" ŞİRKƏTİNİN KƏŞFİYYAT VƏ HASİLAT ÜZRƏ PREZİDENTİNİ QƏBUL EDİB

*7 dekabr 2021-ci il*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 7-də "Total Energies" şirkətinin kəşfiyyat və hasilat üzrə prezidenti Arnaud Breuillacı qəbul edib.

Görüşdə Arnaud Breuillacın fəaliyyətinin başa çatması qeyd edildi. Dövlətimizin başçısı onun ölkəmizlə "Total" şirkəti arasında əməkdaşlığa töhfə verdiyini vurğuladı.

Arnaud Breuillac fəaliyyətinə verilən qiymətə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi.

Söhbət zamanı təxminən bir ildən sonra "Abşeron" yatağında hasil olunacaq birinci qazın ölkəmizdə sənayenin inkişafı və əhalinin artımı ilə bağlı qaza olan daxili tələbatın ödənilməsi, ixrac potensialının artırılması və yeni bazarlara çıxışın əldə edilməsi, Avropanın enerji təhlükəsizliyinin təmin olunması işinə xidmət edəcəyinə ümidvarlıq ifadə olundu.

Görüşdə ölkəmizlə "Total" şirkəti arasında əlaqələr, o cümlədən bərpaolunan enerji sahəsində əməkdaşlığın perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.

**AZƏRTAC**
*7 dekabr 2021-ci il*

## PREZİDENT İLHAM ƏLİYEV TÜRKİYƏNİN ENERGETİKA VƏ TƏBİİ SƏRVƏTLƏR NAZİRİNİ QƏBUL EDİB

*21 dekabr 2021-ci il*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 21-də Türkiyə Respublikasının energetika və təbii sərvətlər naziri Fatih Dönməzi qəbul edib.

Nazir Fatih Dönməz Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı. Prezident İlham Əliyev Türkiyənin dövlət başçısının salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Rəcəb Tayyib Ərdoğana çatdırmağı xahiş etdi.

Görüşdə Azərbaycanla Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə daim inkişaf etdiyi vurğulandı, enerji sahəsində əməkdaşlığın ötən illərdə olduğu kimi davam etdirilməsi məmnunluqla qeyd edildi.

Söhbət zamanı Azərbaycan və Türkiyənin birgə həyata keçirdikləri qlobal enerji layihələrinin əhəmiyyəti qeyd olundu, nazir Fatih Dönməzin səfərinin enerji sahəsində əməkdaşlığın inkişaf perspektivlərinin müzakirəsi üçün yaxşı imkan olduğu bildirildi.

Görüşdə Bakıda keçiriləcək **Azərbaycan–Türkiyə 1-ci Enerji Forumunun** ölkələrimiz arasında energetika sahəsində əməkdaşlığın genişləndirilməsi, yeni istiqamətlərin müəyyənləşdirilməsi, konkret layihələrin müzakirəsi üçün yeni bir platforma olduğu bildirildi.

**AZƏRTAC**
*21 dekabr 2021-ci il*

## BAKIDA CƏNUB QAZ DƏHLİZİ MƏŞVƏRƏT ŞURASI ÇƏRÇİVƏSİNDƏ NAZİRLƏRİN VIII TOPLANTISI KEÇİRİLİB

*4 fevral 2022-ci il*

### Azərbaycan Prezidenti İlham Əliyev toplantıda iştirak edib

Fevralın 4-də Bakıda, "Gülüstan" sarayında Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin VIII toplantısı keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev toplantıda iştirak edib.

Azərbaycan Prezidenti İlham Əliyev tədbirdə çıxış etdi.

**PREZİDENT İLHAM ƏLİYEVİN ÇIXIŞI**

– Sabahınız xeyir, əziz dostlar, hörmətli komissar Simson, hörmətli komissar Varhelyi.

Hörmətli qonaqlar, xanımlar və cənablar.

Hamınızı Azərbaycanda salamlamaq istəyirəm və bizi ziyarət etdiyiniz üçün sizə təşəkkürümü bildirirəm.

Bildiyiniz kimi, keçən il iclasımız videokonfrans vasitəsilə olmuşdu. Lakin pandemiya ilə bağlı bəzi narahatçılıqlara baxmayaraq, çox şadam ki, siz iclasda şəxsən iştirak etmək qərarını verdiniz. Eyni zamanda təəssüf hissi ilə demək istəyirəm ki, iclasın bəzi iştirakçılarının koronavirusa yoluxması aşkar olunub və buna görə də onlar bu gün fiziki olaraq burada iştirak edə bilmirlər. Mən onlara möhkəm cansağlığı, tezliklə sağalmalarını arzulayıram. Əminəm ki, Azərbaycan həkimləri onların mümkün olduğu qədər tez normal həyata qayıtması üçün hər şey edəcəklər.

Qeyd etdiyim kimi, keçən il iclas videokonfrans formatında keçirildi. Bu gün biz qarşılıqlı əlaqəmizin ənənəvi formatını bərpa edirik. Əlbəttə ki, belə format təkcə önümüzdə olan əhəmiyyətli məsələləri həll etmək üçün yox, eyni zamanda ikitərəfli və çoxtərəfli təmaslar qurmaq üçün daha yaxşı imkanlar yaradır. Hər ilin fevral ayında biz ənənəvi olaraq əvvəlki ildə görülmüş işləri nəzərdən keçiririk və gələcək addımlarımızı planlaşdırırıq.

Qeyd etmək istəyirəm ki, Məşvərət Şurasının hər bir iclasında müəyyən nailiyyətlər əldə edilmişdir. Hər il biz müəyyən yeni nailiyyətlər haqqında məlumat verirdik. Biz çox şadıq və özümüzü təbrik edə bilərik ki, bu dəfə biz Cənub Qaz Dəhlizinin uğurla tamamlanması haqqında məlumat verə bilərik. Biz çox şadıq ki, 2020-ci ilin sonuncu günü – dekabrın 31-də, yeri gəlmişkən, bu, Dünya Azərbaycanlılarının Həmrəyliyi Günüdür – azərbaycanlılar üçün mühüm olan bu gündə biz Cənub Qaz Dəhlizinin sonuncu hissəsi olan TAP layihəsinin tamamlanması haqqında məlumat verdik. Əlbəttə ki, mən layihədə iştirak edən bütün tərəflərə minnətdarlığımı bildirmək istəyirəm, ilk növbədə isə Avropa Komissiyasına. Avropa Komissiyası və Azərbaycan həmtəşkilatçı olaraq və bütün ölkələr, şirkətlər və beynəlxalq maliyyə institutlarının Məşvərət Şurasının iclasında səylərinin koordinatorları olaraq il ərzində bu layihənin həyata keçirilməsində çox mühüm rol oynamışdır. Bu gün iki komissarın burada olması faktı buna dəlalət edir. Həmçinin mən regionda enerji təhlükəsizliyi layihələrinə dəstək verdiyi üçün Prezident Şarl Mişelə minnətdarlığımı bildirmək istəyirəm və minnətdarlığımı ona çatdırmağınızı xahiş edirəm. Eyni zamanda Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşdırılması prosesində şəxsən iştirak etdiyinə görə də ona minnətdarlığımı bildirirəm. Həmçinin Cənub Qaz Dəhlizi layihəsinin iştirakçıları olan ölkələrin hökumətlərinə də təşəkkürümü bildirmək istəyirəm – Türkiyəyə, Gürcüstana, Yunanıstana, Bolqarıstana, Albaniyaya və İtaliyaya. Biz, həqiqətən də, bir komanda olaraq çalışdıq.

Hesab edirəm ki, milli səviyyədə koordinasiya bizə bu nəhəng layihəni – XXI əsrin ən böyük layihələrindən biri olan Cənub Qaz Dəhlizini icra etməyə kömək etdi. Onun dəyəri 33 milyard ABŞ dollarıdır. Eyni zamanda, əlbəttə ki, biz enerji şirkətlərinin, tikinti şirkətlərinin, investorların fəal iştirakı olmadan uğur qazana bilməzdik. Bu gün onlar buradadırlar. Əlbəttə, onların, eləcə də beynəlxalq maliyyə institutlarının töhfəsi çox dəyərli idi. Cənub Qaz Dəhlizi layihəsi həm də müasir tarixdə çox azsaylı layihələrdən biridir ki, onun icrasına bütün aparıcı beynəlxalq maliyyə institutları öz töhfəsini vermişdir – Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnkişaf Bankı, Avropa İnvestisiya Bankı, Asiya İnfrastruktur və İnvestisiya Bankı. Beləliklə, aparıcı beynəlxalq maliyyə institutları bu layihənin icrası üçün kredit və maliyyə vəsaiti ayırdı. İndi biz bütün nöqteyi-nəzərlərdən mürəkkəb olan bu layihənin yüksək səmərəliliklə tamamlanmasına görə, həqiqətən də, fərəhlənə bilərik.

Əlbəttə, biz gələcəyə baxmalıyıq və mən əminəm ki, bugünkü iclasda iştirakçılar ənənəvi əməkdaşlıq sahələrini, gələcək planlarımızı müzakirə edəcək. Çünki hamımızın bildiyi kimi, əlavə qaz mənbəyinə tələbat artmaqdadır. Eyni zamanda bərpa olunan enerji mənbələri ilə bağlı məsələlər də müzakirə olunacaq. Azərbaycan öz "yaşıl enerji" siyasətinə münasibətdə çox işlər görür. Dediyim kimi, yeni mənbələrdən qaz üçün tələbat

artır. Cənub Qaz Dəhlizi layihəsinin tamamlanmasından sonra Azərbaycan beynəlxalq bazarlara, o cümlədən Avropa bazarlarına ixracı artıra bilib. Keçən il Azərbaycan 19 milyard kubmetr təbii qaz ixrac edib – Türkiyəyə 8,5 milyard, İtaliyaya, demək olar ki, 7 milyard kubmetr. Yerdə qalan həcm komandanın başqa üzv ölkələrinə – Gürcüstana, Yunanıstana və Bolqarıstana ixrac olunub. Əminəm ki, komandamızın üzvü olan Albaniya da öz qazpaylayıcı şəbəkəsini tamamlayan kimi Azərbaycan qazını əldə edəcək.

Həmçinin o faktı vurğulaya bilərik ki, bugünkü iclasda keçən illə müqayisədə daha çox sayda ölkə və şirkətlər iştirak edir. Yeni iştirakçılarımız var və bu da onu göstərir ki, yeni bazarlarda Azərbaycan qazına ehtiyac var. Biz hazırıq, çünki Azərbaycan həmişə beynəlxalq bazarlara enerji resurslarının etibarlı təchizatçısı olmuşdur.

Biz neft ixracatına 2006-cı ildən başlamışıq, artıq uzun illərdir. Təchizatda heç bir fasilə olmamışdır, müqavilə şərtləri pozulmamışdır, enerji siyasəti arxasında heç bir siyasi gündəm yox idi. Bizim enerji siyasətimiz həmişə çox açıq, şəffaf, biznes və nəticələrə hesablanmış olub, əməkdaşlığa və qarşılıqlı dəstəyə gətirib çıxarıb. İndi isə mən qaz alan ölkələrin bazarlarında Azərbaycan qazının payı ilə əlaqədar son məlumatlara baxanda görürəm ki, bu ölkələrin bəziləri qaz istehlakının 80 faizini, digərləri isə 15-20 faizini Azərbaycandan alırlar və bu göstəricilər artır. Çünki biz hasilatı artırmağı planlaşdırırıq. Bu il biz keçən illə müqayisədə daha çox ixrac edəcəyik – böyük potensial var, xüsusilə indi, qaz bazarındakı vəziyyətin sabit olmamasını nəzərə alaraq. Həmçinin qiymətlər də çox dəyişkəndir.

Hesab edirəm ki, yeni nəticələrin necə əldə olunması üçün biz gələcəyimizi koordinasiya və xoşməramlı şəkildə birlikdə planlaşdırmalıyıq. Azərbaycanın isbat edilmiş qaz ehtiyatı məlumdur: 2,6 trilyon kubmetr. Əlbəttə ki, ən böyük yataq "Şahdəniz"dir – bir trilyon kubmetr. Əminəm ki, daha çox olacaq. Çünki neft və qaz yataqlarının işlənilməsi ilə bağlı təcrübəmizə baxsanız görərsiniz ki, biz həmişə yolumuzun əvvəlində gözlənildiyindən daha böyük həcmdə ehtiyatları görürük. Bunlar yeni yataqların kəşfi və yeni texnologiyalar sayəsində mümkün olmuşdur. Çünki bu gün bu sahədə texnologiya sürətlə inkişaf edir. Buna görə də mən əminəm ki, Azərbaycanın isbat edilmiş qaz ehtiyatları daha da çox olacaq. Dediyim kimi, "Şahdəniz" Azərbaycanda əsas qaz yatağıdır və bu vaxtadək Cənub Qaz Dəhlizinə töhfə verən yeganə yataqdır. Lakin digər layihələr üzərində də iş gedir. Ümid edirik ki, ən böyük qaz kondensatı yataqlarından biri olan "Abşeron"da tezliklə hasilata başlanılacaq. Ola bilsin, bir ildən də az müddətdə. İş mərhələlərlə aparılacaq. "Abşeron"da birinci mərhələdə 1,5 milyard kubmetr qaz hasil olunacaq. Bu, böyük bir həcm deyil. Lakin düşünürəm ki, bəzi ölkələr üçün əhəmiyyətli göstəricidir. Bu bizim də artan tələbatımızı qarşılaya bilər və həmçinin ixrac imkanlarını da təmin edə bilər.

Yaxşı nəticə verəcəyinə ümid bəslədiyimiz digər böyük bir yataq "Babək"dir. Onun təxmin olunan qaz ehtiyatı 400 milyard kubmetrdir. "Ümid" yatağının qaz ehtiyatı ən

azından 200 milyard kubmetrdir. Əlbəttə ki, bizim çoxdan istismarda olan neft-qaz yataqlarımızdan biri – “Azəri–Çıraq–Günəşli”dən böyük gözləntilərimiz var. Onun tezliklə istismara veriləcəyinə ümid etdiyim dərin qaz hissəsində yüz milyardlarla kubmetr qaz olacaq və düşünürəm ki, qısa zamanda hasil edilə biləcək. Beləliklə, bu bizim bugünkü potensialımızdır. Bizi 4 ölkə, 4 qonşumuzla birləşdirən şaxələndirilmiş qaz nəqli şəbəkəsinə malik olmaqla, əsas ixrac marşrutu – Cənub Qaz Dəhlizi tamamlanandan sonra, düşünürəm ki, bizim planlarımız həyata keçiriləcək. Lakin əlbəttə ki, biz bu komanda işini davam etdirməliyik. Cənub Qaz Dəhlizi layihəsi başa çatıb, bizim işimiz isə davam edir. Əminəm ki, biz yeni nəticələr əldə edəcəyik.

Həmçinin demək istərdim ki, ilk növbədə əhalinin sayının artması ilə əlaqədar bizim daxili tələbatımız da artır. Azərbaycanın demoqrafik vəziyyəti çox müsbətdir. Eyni zamanda sənaye artır. Ötən il bizdə qeyri-enerji əsaslı sənayedə rekord artım göstəricisi qeydə alınıb. Sənayemizin bu sektoru, demək olar ki, 20 faiz artıb. Əlbəttə ki, bizim öz tələbatımızı qarşılamaq üçün daha çox qaza ehtiyacımız var. Həmçinin ümidvaram ki, 2020-ci ildə Vətən müharibəsi ərzində işğaldan azad edilən ərazilərimizi qazlaşdırmaq üçün çox tezliklə bizim əlavə həcmdə qaza ehtiyacımız olacaq. Bu, tamamilə dağıdılmış böyük bir ərazidir. Bütün infrastruktur dağıdılıb. Bu ərazi 10 min kvadratkilometrdən çoxdur. Siz bizim qarşımızda necə çağırış olduğunu təsəvvürünüzə gətirə bilərsiniz. Biz artıq bu ildən etibarən keçmiş məcburi köçkünlərimizi geri qaytarmağı planlaşdırırıq. Ona görə də, bizim öz istehlakımız üçün əlavə qaza ehtiyacımız olacaq. Burada biz bərpaolunan enerji mənbələri ilə bağlı diqqətimizi cəmləşdirdiyimiz çox mühüm bir məqama gəlirik. Yeri gəlmişkən, Azərbaycan dünyanın xam neft, təbii qaz, neft-kimya məhsulları, neft məhsulları və elektrik enerjisi ixrac edən az sayda ölkələrindən biridir. Azərbaycanın elektrik enerjisi potensialı, əsasən, daxili istehlaka hesablanıb.

Biz elektrik enerjisi infrastrukturuna böyük həcmdə investisiya yatırmışıq və deyə bilərəm ki, Davos Dünya İqtisadi Forumunun qiymətləndirməsinə əsasən enerjiyə əlçatanlıq reytinqində biz dünyada ikinci yerdəyik. Beləliklə, biz böyük həcmdə vəsait yatırmışıq və elektrik enerjisi xətlərini, demək olar ki, tamamilə müasirləşdirmişik, yeni elektrik stansiyaları tikmişik. Misal üçün, tezliklə biz Qobu qəsəbəsində, demək olar ki, 400 meqavat gücündə yeni elektrik stansiyasının açılışını edəcəyik. Ötən ay bu zalda biz tamamilə əcnəbi investor, enerji bazarında tanınmış, Səudiyyə Ərəbistanının “ACWA Power” şirkəti tərəfindən maliyyələşdiriləcək ilk böyük bərpaolunan enerji mənbəyi layihəsinin – 240 meqavat gücündə külək elektrik stansiyasının təməlqoyma mərasimini qeyd etdik.

Mən həmçinin demək istərdim ki, bizim elektrik enerjimizə regional bazarda da ehtiyac var, bəlkə də, biz daha uzağa, Avropaya qədər gedə bilərik. Çünki bu gün biz

dörd qonşu ölkəyə – Türkiyə, Rusiya, Gürcüstan və İrana elektrik enerjisi ixrac edirik. Həcm artır. Bizim Azərbaycanda bərpaolunan enerji mənbəyimiz nə qədər çox olsa, biz ixrac üçün daha çox qaza qənaət edəcəyik. Məsələn, mənim indicə qeyd etdiyim elektrik stansiyası – külək elektrik stansiyası ilə biz 200 və ya 300 milyon kubmetr qaza qənaət edəcəyik. Bu, yaxşı göstəricidir və istehlakı böyük olmayan ölkələr üçün ciddi dəyişiklik ola bilər. Beləliklə, bizim "yaşıl enerji" strategiyamız hazırda təkcə qiymətləndirilmə deyil, həm də planlamanın yekun mərhələsindədir.

Bizim işğaldan azad edilmiş ərazilər üçün xüsusi proqramımız var. Energetika Nazirliyimiz aparıcı beynəlxalq şirkətlərlə birlikdə artıq Qarabağ və Şərqi Zəngəzurda "yaşıl enerji" zonası üçün konseptual proqnoz hazırlayıb. Biz artıq Qarabağ və Şərqi Zəngəzurda bərpaolunan mənbələrin potensialının beynəlxalq qiymətləndirməsini aparmışıq və ilkin rəqəmlər çox ümidvericidir. Külək enerjisində potensial təxminən 7200 meqavat, günəş enerjisində potensial isə 2000 meqavatdan çoxdur. Yeri gəlmişkən, sizi məlumatlandırmaq istərdim ki, bizim neft-qaz sahəsində strateji tərəfdaşımız olan "BP" işğaldan azad edilmiş ərazilərdə, xüsusilə Cəbrayıl rayonunda işləməyə böyük maraq göstərir. Biz artıq orada 200 meqavatdan çox gücə malik bərpaolunan enerji mənbəyinin tikintisi ilə bağlı "BP" ilə danışıqlar mərhələsindəyik.

Mən həmçinin demək istərdim ki, hazırda bizim Energetika Nazirliyi bərpaolunan enerjiyə investisiyaların yatırılması ilə bağlı aparıcı beynəlxalq enerji şirkətləri ilə fəal danışıqlar mərhələsindədir. Bizdə bununla bağlı böyük ruh yüksəkliyi var. Düşünürəm ki, bu, Azərbaycanda "yaşıl enerji"nin inkişafına dair bizim daxili strategiyamızın bir hissəsi olmaqla yanaşı, ixracdan əldə olunan gəlirlər üçün əlavə mənbə ola bilər və enerji mənbələri idxal edən ölkələr üçün də faydalı olacaq. Bizim həmçinin Xəzər dənizinin qiymətləndirilməsinə dair xüsusi proqramımız var. İlkin rəqəmlər göstərir ki, Xəzər dənizinin texniki potensialı 150 min meqavatdan çoxdur. Artıq biz bu potensialın inkişafı ilə bağlı aparıcı beynəlxalq enerji şirkətlərindən müəyyən ilkin təkliflər almışıq. Düşünürəm ki, bu çox təbii olacaq. Çünki Azərbaycan artıq uzun illərdir özünü etibarlı enerji mənbəyi kimi sübut edib.

Qeyd etdiyim kimi, biz hər növ enerji mənbələri ixrac edirik. Biz ölkə daxilində olan və bizi bütün qonşularımızla birləşdirən elektrik xətlərini şaxələndirmişik. Bizim yaxınlığımızda ixrac bazarları, özü də artan ixrac bazarları var. Məsələn, iqtisadiyyatı artan, əhalisi artan Türkiyə kimi ölkə, düşünürəm ki, bizim üçün əsas bazardır, həmçinin əhalisi eynilə artan İran. Mən Qara dənizin dibi ilə Mərkəzi Avropanı bizim regionumuzla birləşdirən elektrik xətlərinin çəkilməsi ilə bağlı müəyyən planlardan xəbərdaram. Azərbaycan Gürcüstanın elektrik enerjisi təchizatçısı olaraq burada iştirak edə bilər. Bizim burada, həqiqətən də, böyük potensialımız var.

Biz çox fəal işləyirik, üzərimizə düşəni edirik. Eyni zamanda şadam ki, Avropa Komissiyası ilə bizim Energetika Nazirliyimiz arasında buna həsr olunmuş xüsusi sessiya keçirilməsi üçün razılıq əldə olunub. Bunu, həqiqətən də, təqdir etməyə dəyər. Başqa sözlə, Cənub Qaz Dəhlizi tamamlanıb, lakin bizim işimiz davam edir. Biz bir komanda kimi işləməyə davam etməliyik.

Mən bir daha məmnunluğumu ifadə etmək istərdim ki, bu dəfə daha çox iştirakçımız var. Enerji təhlükəsizliyi və enerji şaxələndirilməsi ilə bağlı məsələlərin nə dərəcədə mühüm olduğunu sübut etməyə ehtiyac yoxdur. Biz hamımız bunu başa düşürük. Əlbəttə ki, Azərbaycan nəhəng neft-qaz ehtiyatları və bərpaolunan enerji potensialına malik ölkə olduğundan, sözsüz ki, biz öz məsuliyyətimizi başa düşürük. Sizə deyə bilərəm ki, biz daha yaxşı imkanlar yaratmaq üçün gələcəkdə də məsuliyyətli şəkildə davranacağıq. Bundan əlavə, həmçinin demək istərdim ki, bizim birgə yürütdüyümüz enerji siyasəti enerji şaxələndirilməsi və enerji təhlükəsizliyi məsələlərinin də hüdudlarını aşır. Çünki bu, ölkələr arasında yeni bağlantılar yaradır və əlaqələrin inkişafına kömək edir, bu prosesə cəlb olunmuş bütün ölkələr arasında qarşılıqlı etimad səviyyəsinin artırılmasına kömək edir.

Beləliklə, bizim gördüyümüz işlərin çox sayda müsbət nəticələri var. Bir daha qeyd edim ki, biz bu yola çıxanda işlərin necə olacağı çox aydın deyildi. Biz əməkdaşlığın yeni formatına qədəm qoymuşduq, bu ölkələrin bəziləri ilə bizim heç vaxt bu formatda əməkdaşlığımız olmamışdı. Lakin bu, uğurlu oldu. Çünki biz səmimi, açıq və vicdanlı idik və eyni məqsədimiz var idi. Məqsədimiz budur, layihələr müxtəlif ola bilər, lakin əməkdaşlığın ruhu bizə planlaşdırdığımız hər şeyə nail olmağa kömək edəcək.

Bir daha bizimlə birlikdə olduğunuz üçün təşəkkür edirəm. Məşvərət Şurasının iclasına uğurlar arzulayıram. Sağ olun.

**AZƏRTAC**
*4 fevral 2022-ci il*

## PREZİDENT İLHAM ƏLİYEV AVROPA İTTİFAQININ ENERGETİKA MƏSƏLƏLƏRİ ÜZRƏ KOMİSSARININ BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL EDİB

*4 fevral 2022-ci il*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 4-də Bakıda keçirilən Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin VIII toplantısında iştirak edən Avropa İttifaqının energetika məsələləri üzrə komissarı xanım Kadri Simsonun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

Dövlətimizin başçısı Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin VIII toplantısında iştirakına və dəyərli çıxışına görə Avropa İttifaqının energetika məsələləri üzrə komissarı Kadri Simsona təşəkkürünü bildirdi.

Prezident İlham Əliyev Avropa İttifaqı ilə enerji sahəsində əməkdaşlığa dair birgə bəyanatın imzalanmasından 10 ildən artıq müddətin keçdiyini qeyd etdi. Avropa İttifaqı ilə Azərbaycan arasında bu sahədə həyata keçirilən əməkdaşlığın yeni mərhələyə qədəm qoyduğunu və bunun Cənub Qaz Dəhlizi çərçivəsində də davam etdirildiyini bildirdi. Bu layihənin birgə əməkdaşlıq və əlaqələndirmə şəraitində uğurla başa çatdırıldığını dedi.

Dövlətimizin başçısı Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində aparılan müzakirələrin ikitərəfli və çoxtərəfli əsasda enerji sahəsində əməkdaşlıq üzrə yeni ideya və planların müzakirəsi baxımından əhəmiyyətini vurğuladı.

Bu toplantının Cənub Qaz Dəhlizi xətti ilə qazın Avropa İttifaqına çatdırılmasından bir il sonrakı dövrə, həm Avropa İttifaqı, həm də Azərbaycanın yeni "yaşıl enerji" strategiyasına keçidi mərhələsinə və hazırda dünya qaz bazarında baş verən qiymət dəyişmələri və digər tendensiyalar şəraitinə təsadüf etdiyini bildirən Prezident İlham Əliyev bu baxımdan tədbirdə aparılan müzakirələrin önəmini qeyd etdi.

Dövlətimizin başçısı Avropa İttifaqı ilə Azərbaycan arasında yeni saziş üzrə danışıqların uğurla aparıldığını bildirdi və bu danışıqların da tezliklə başa çatdırılacağına ümidvar olduğunu ifadə etdi.

Avropa İttifaqının energetika məsələləri üzrə komissarı Kadri Simson Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin VIII toplantısının keçirilməsinə görə

Prezident İlham Əliyevə minnətdarlığını bildirdi. Cənub Qaz Dəhlizinin Avropa İttifaqının enerji təhlükəsizliyinin təmin olunmasında rolunu qeyd edən Kadri Simson Avropa İttifaqının enerji təminatının şaxələndirilməsinə böyük əhəmiyyət verdiyini dedi və bu xüsusda Cənub Qaz Dəhlizinin önəmini vurğuladı.

Görüşdə Avropa İttifaqı ilə Azərbaycan arasında enerji, o cümlədən “yaşıl enerji” sahəsində əməkdaşlığın inkişaf etdirilməsi ilə bağlı fikir mübadiləsi aparıldı. Dövlətimizin başçısı qeyd etdi ki, Azərbaycan alternativ və bərpaolunan enerji konsepsiyasını inkişaf etdirir və ölkəmizdə bu sahə xarici sərmayədarları cəlb edir.

**AZƏRTAC**

*4 fevral 2022-ci il*

## PREZİDENT İLHAM ƏLİYEV BAKI ENERJİ HƏFTƏSİ ÇƏRÇİVƏSİNDƏ 27-Cİ BEYNƏLXALQ XƏZƏR NEFT VƏ QAZ SƏRGİSİNİN RƏSMİ AÇILIŞ MƏRASİMİNDƏ İŞTİRAK EDİB

*1 iyun 2022-ci il*

Bakı Ekspo Mərkəzində Bakı Enerji Həftəsi çərçivəsində 27-ci Beynəlxalq Xəzər Neft və Qaz Sərgisinin rəsmi açılış mərasimi keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Dövlətimizin başçısı açılış mərasimində çıxış edib.

**PREZİDENT İLHAM ƏLİYEVİN ÇIXIŞI**

– Hörmətli xanımlar və cənablar.

Əvvəlcə mən pandemiya səbəbindən ikiillik fasilədən sonra Xəzər Neft və Qaz Sərgisinin yenidən başlanmasına görə təşkilatçılara təşəkkürümü bildirmək istərdim. Şadam ki, bu gün bütün dünyadan gəlmiş qonaqlarımız buraya toplaşıblar. Ümid edirəm ki, Neft və Qaz Sərgisində və Bakı Enerji Həftəsində keçiriləcək müzakirələr enerji təhlükəsizliyi və enerji ehtiyatlarının şaxələndirilməsi kimi mühüm məsələlərlə bağlı dialoqu gücləndirəcək.

Azərbaycan müstəqillik illərində öz enerji təhlükəsizliyinə sərmayə yatırıb, daxili bazarda tələbatı tam təmin edib və sayı artan ölkələrin enerji təhlükəsizliyində get-gedə daha mühüm rol oynamağa çalışır. Müstəqilliyimizin ilk illərində vəziyyət belə olmayıb. Həmçinin bildirmək istərdim ki, artıq 27-ci dəfə keçirilən Xəzər Neft və Qaz Sərgi və Konfransı qlobal enerji şirkətlərinin o vaxt müstəqilliyini yenicə qazanmış, bir çox çətinliklərlə üzləşmiş, ərazisinin əhəmiyyətli hissəsi işğal olunmuş və bir çox çağırışlarla üzləşmiş Azərbaycana diqqətinin cəlb edilməsində çox əhəmiyyətli rol oynayıb.

Bu səbəbdən Xəzər Neft və Qaz Sərgisi təşkilatçılarının rolu, həqiqətən, çox vacib idi ki, diqqəti və sərmayələri cəlb etmək mümkün olsun. Bu konfransın keçirildiyi ilk ildən

etibarən Azərbaycan özünün dünyaya açıq olduğunu elan etdi. Biz elan etdik ki, Xəzər dənizini əməkdaşlıq və sərmayələr məkanı kimi görmək istəyirik. Xəzərin neft və qaz yataqlarına yatırılan ilk xarici sərmayələr bizim tərəfdən və tərəfdaşlarımız tərəfindən təmin edilmişdir.

Lakin söylədiyim kimi, həmin vaxt enerji təhlükəsizliyi tam təmin edilməmişdi. Elektrik enerjisinin və qazın təchizatında fasilələr yaranırdı. Enerjinin verilməsi dayanırdı. Biz ürəkdən çalışmağa başladıq ki, öz enerji təhlükəsizliyimizi təmin edək. Bu iş icra olundu. Eyni zamanda paralel olaraq biz neft hasilatını artırmaq və beynəlxalq bazarlara çatdırmaq məqsədilə beynəlxalq sərmayədarlarla, dünyanın aparıcı enerji şirkətləri ilə fəal işləyirdik.

Ötən əsrin sonunda, fikrimcə, mühüm hadisə baş verdi. Azərbaycandan Gürcüstanın Qara dənizdəki Supsa limanına gedən birinci neft boru kəmərinin açılışı baş tutdu. Bunun sayəsində biz ixraca başlaya bildik və bir çox ölkələrin tələbatlarını təmin etdik. Eyni zamanda biz tərəfdaşlarımızla birgə qaz yataqlarının, xüsusən də dünyada ən iri qaz yataqlarından biri sayılan "Şahdəniz" yatağının kəşfiyyatına başladıq. 2007-ci ildə Bakı–Tbilisi–Ərzurum qaz boru kəməri istismara verildi, Azərbaycan qazı ilk dəfə olaraq Türkiyənin və Gürcüstanın regional bazarlarına nəql olunmağa başladı. Bir il əvvəl – 2006-cı ildə isə biz Xəzər dənizini Aralıq dənizi ilə birləşdirən Bakı–Tbilisi–Ceyhan neft boru kəmərinin tikintisinə müvəffəq olduq. Həmin vaxt və indi də, fikrimcə, o, əlamətdar hadisə idi. Bu, neftin beynəlxalq bazarlara çıxarılmasında yeni marşrut və mənbə idi. Həmin vaxtdan etibarən Bakı–Tbilisi–Ceyhan və Azərbaycanın bütün digər enerjinin nəql olunması infrastrukturu hər hansı fasilə olmadan istismar edilir. Bu, əlbəttə ki, proqnozlaşdırmanın, etibarlılığın və bu cür nəhəng, texniki və maliyyə baxımından çətin infrastruktur layihələrin icrasında bacarığımızın təzahürüdür. Həmçinin bu layihələr çox mürəkkəb siyasi mühitdə həyata keçirilmişdir.

Bu, regional enerji təhlükəsizliyi məsələlərinə aid olan mühüm tarixi hadisə idi. Əlbəttə ki, o, Azərbaycan ilə onun qonşuları – Türkiyə və Gürcüstan arasında regional əməkdaşlığı gücləndirdi. Bununla belə, planlarımız bundan da böyük idi. Təbii ki, biz Azərbaycanın nəhəng qaz ehtiyatlarını istifadə etmək istəyirdik və əlbəttə, bu məqsədlə bizə yeni boru kəməri lazım idi. Mən deyərdim, XXI əsrin boru kəməri – Cənub Qaz Dəhlizinə ehtiyac duyulurdu. Cənub Qaz Dəhlizinin 2020-ci ilin sonuncu günündə uğurla tamamlanması ümumi iradəmizi, komanda daxilində işləmək və böyük uğurları qazanmaq bacarığımızı nümayiş etdirir. Bir çox ölkələri keçən, dənizin dibindən tutmuş uca dağ zirvələrinə qədər gedən 3500 kilometrlik vahid boru kəmərləri sistemi qüdrətimizin və dostluğumuzun təzahürüdür. Buna görə Azərbaycanın ilkin mərhələdə başlatdığı enerji layihələri regional əməkdaşlıq üçün çərçivə yaratdı və onlar hazırda qlobal enerji layihələrinə çevrilib.

Cənub Qaz Dəhlizi fərəhlənə biləcəyimiz layihədir. Eyni zamanda o bizə nəhəng “Şahdəniz” qaz-kondensat yatağında hasilatı artırmağa imkan yaradır. Bu artıq baş verdi. Cəmi bir il beş aydır ki, Azərbaycan həmin tamamilə yeni müasir infrastrukturdan öz qaz ehtiyatlarının nəqlində istifadə edir. Avropa qitəsində təbii sərvətlərimizlə bağlı fəaliyyətimizin genişləndirilməsi həm bizim, həm də tərəfdaşlarımız üçün zəruridir. Biz hasilatın və ixracımızın artırılmasına müvəffəq olduq. Ötən il Azərbaycan 22 milyard kubmetr təbii qaz ixrac etmişdir. Bu il, gözlənilir ki, bu rəqəm 24 milyard kubmetr olacaq. Gələn il daha da çox olacaq. Göstəricilər hasilat işlərindən və Azərbaycanın Xəzərdəki sektorunda yerləşən digər yataqların istismarından asılı olaraq fərqli ola bilər. Bizim qaz potensialımız yalnız “Şahdəniz”lə məhdudlaşmır. Digər yataqlar da çox perspektivlidir. Gələn il onların bəzilərində hasilat başlayacaq. Bu, enerji təhlükəsizliyinə mühüm töhfə olacaq. Xüsusən də indiki dövrə gəldikdə, Azərbaycanın karbohidrogenlərinə olan tələbat heç zaman görünmədiyi kimi böyükdür. Məsuliyyətli ölkə kimi biz bunu nəzərə alırıq və müxtəlif səbəblərə görə çətinliklərlə üzləşən ölkələri dəstəkləməyə çalışırıq. Hazırda Azərbaycanın müvafiq strukturları sayı artan ölkələrlə daim təmasdadır.

Cənub Qaz Dəhlizinin icrası ilə məşğul olduğumuz zaman biz boru kəməri ərazisindən keçən ölkələrlə, eləcə də beynəlxalq maliyyə təsisatları, enerji şirkətləri, aparıcı ölkələrin hökumətləri və Avropa Komissiyası ilə çox sıx əməkdaşlıq qurmuşuq. Cənub Qaz Dəhlizi Məşvərət Şurasının hər ilin fevralında Bakıda keçirilən illik toplantısı həmin komanda işinin bariz nümunəsidir. Bu il fevralın 4-də Cənub Qaz Dəhlizi Məşvərət Şurasının illik toplantısı keçirildiyi zaman biz anladıq ki, planlarımızın ən böyük hissəsi artıq icra olunub və Cənub Qaz Dəhlizi artıq işləyir. İndi isə bizə, sadəcə, işləmək, yeni körpülər salmaq, yeni əlaqələr qurmaq, interkonnektorlar yaratmaq və Avropanın qaz bazarında fəaliyyətimizi genişləndirmək qalır.

Əlbəttə ki, hazırda – iyunun 1-də söhbət apardığımız zaman vəziyyət tamamilə fərqlidir və Azərbaycan qazına olan tələbat sürətlə artır. Təbii ki, biz bunu nəzərə almalıyıq. Lakin eyni zamanda potensial istehlakçılar anlamalıdırlar ki, bir il ərzində qazı böyük həcmdə hasil etmək mümkün deyil. Bunun üçün bizə müqavilələr lazımdır. Biz danışıqlara başlamalı və onları sürətləndirməliyik. Biz ənənəvi tərəfdaşlar və sərmayədarla, eləcə də enerji şirkətləri ilə çalışmalıyıq ki, hasilat artsın. Həmçinin biz mövcud qurğuları genişləndirməliyik. Bu məsələləri biz gələn illərdə planlaşdırmırdıq, çünki Cənub Qaz Dəhlizi, artıq söylədiyim kimi, üç boru kəmərindən ibarət vahid boru kəmərləri sistemidir. Onun sonuncu hissəsinin – Trans-Adriatik boru kəmərinin buraxıcılıq qabiliyyəti 10 milyard kubmetrdir. İndi isə biz onun genişləndirilməsi haqqında düşünürük, çünki buna ehtiyac var. Əlbəttə, bu, vaxt və çoxlu maliyyə vəsaitlərini, o cümlədən sıx əlaqələndirməni, əməkdaşlığı və bütün iştirakçı ölkələrlə fəal dialoqu tələb

edəcək. Biz buna hazırıq. Azərbaycanın Energetika Nazirliyi və Dövlət Neft Şirkəti artıq bütün təlimatlarını alıblar və onlar fəal danışıqlar aparırlar.

Yeri gəlmişkən, Bakı Enerji Həftəsi gözəl fürsət olacaq, çünki həmin mühüm məsələlərin müzakirəsi üçün qonaqlarımız arasında bir çox ölkələrdən yüksək səviyyəli rəsmilər var. Eyni zamanda, əlbəttə, biz Cənub Qaz Dəhlizinin komanda üzvləri, o cümlədən hökumətləri ilə fəal dialoqu davam etdirməliyik. Mən Cənub Qaz Dəhlizində iştirak edən ölkələrin – Türkiyənin, Gürcüstanın, Bolqarıstanın, Yunanıstanın, Albaniyanın, İtaliyanın hökumətlərinə fəal əməkdaşlıq etdiklərinə görə təşəkkürümü bildirmək istəyirəm. Hazırda yeni çağırışların və tələbatların olduğunu nəzərə alaraq, əlbəttə, biz artıq digər potensial istehlakçı ilə danışıqlar prosesindəyik. Lakin bunun üçün yalnız bizim səylər kifayət olmayacaq. Avropada infrastruktur, yeni interkonnektorların tikintisinə yatırımlar olmalıdır və yeni şərtlər üzərində razılıq əldə edilməlidir. Çünki hamımız bilirik ki, qaz biznesində siz birincisi, qazı satırsınız, müqaviləni imzalayırsınız, sonra isə sərmayə yatıraraq hasilata başlayırsınız.

Lakin bütün söylədiklərimin məqsədi ümumi vəziyyəti öz nöqteyi-nəzərimizdən təqdim etməkdən ibarət idi. Bununla belə, eyni zamanda biz prosesin sürətləndirilməsi üçün əlimizdən gələni edəcəyik və bu artıq başlayıb.

Mən həmçinin Birləşmiş Ştatların və Birləşmiş Krallığın hökumətlərinə təşəkkürümü bildirmək istərdim. Onlar enerji siyasətimizin və fəaliyyətimizin bütün mərhələlərində bizə hər zaman böyük dəstək veriblər. Biz həmin böyük dəstəklə bu nəticələrə nail ola bildik. Mən həmçinin beynəlxalq maliyyə təsisatlarına – Dünya Bankına, Avropa Yenidənqurma və İnkişaf Bankına, Asiya İnkişaf Bankına, Avropa İnvestisiya Bankına, Asiyanın İnfrastruktur və İnvestisiya Bankına, yəni Cənub Qaz Dəhlizini maliyyələşdirmiş bütün banklara təşəkkürümü bildirmək istəyirəm. Ümid edirəm ki, onlar həmçinin bizim yeni planlarımızın həyata keçirilməsinə, xüsusilə də Trans-Adriatik boru kəmərinin genişləndirilməsinə də maliyyə dəstəyi verəcəklər. Həmçinin biz TANAP-ın genişləndirilməsi haqqında da düşünə bilərik. Çünki mən artıq dediyim kimi, Azərbaycan qazına tələbat artır, bunun üçün potensial var, siyasi iradə var. Beləliklə, biz təbii qazın nəqli ilə bağlı infrastruktur imkanlarımızın potensial tələbatın səviyyəsinə gətirilməsi üçün vaxt itirməməliyik. Burada yalnız TAP deyil, həm də Cənubi Qafqaz boru kəməri və TANAP sürətli qaydada genişləndirilməlidir və biz bunun üzərində çalışırıq.

Bundan əlavə, mən Azərbaycan və Avropa Komissiyası arasında məhsuldar əməkdaşlığı qeyd etmək istəyirəm. Bu da Cənub Qaz Dəhlizi layihəsinin icrasında vacib rol oynayıb və gələcək planlarımızın reallaşdırılmasında da mühüm rol oynayacaq. Biz bununla bağlı Avropa Komissiyası ilə daimi təmasdayıq və cari ilin fevral ayının əvvəlində Bakıda Avropa İttifaqının enerji məsələləri üzrə komissarı və bizim energetika naziri

arasında aparılmış müzakirələr nəticəsində Avropa İttifaqı və Azərbaycan arasında enerji dialoqunu yaratdıq. Gündəlik olduqca genişdir, buraya neft və qaz kimi ənənəvi sahələr daxildir. Bununla yanaşı, elektrik enerjisi, bərpaolunan enerji, hidrogen və enerjinin səmərəliliyi məsələləri də gündəmdədir. Hesab edirəm, geniş spektrli mövzular və bu məsələlərdə fəal əməkdaşlıq bizə imkan verəcək ki, ixrac üçün daha çox qaz həcmlərimiz olsun.

Çünki bizim gündəlikdə duran növbəti planımız yenilənən enerjidir və artıq bu sahədə işlər görülür. Bu sahədə Azərbaycan çox gözəl nəticələr nümayiş etdirir. Çünki biz artıq özümüzü etibarlı ölkə olaraq təsdiq etmişik, eləı bir ölkə ki, öz öhdəliklərinə hörmət edir. Qeyd etmək istəyirəm ki, hasilatın pay bölgüsünə dair 1994-cü ildə xarici şirkətlərlə imzalanmış ilk sazişdən bu günə qədər müqavilələrdə bir söz belə dəyişdirilməyib. Bu isə bizim mövqeyimizin təzahürüdür. Biz öz öhdəliklərimizə hörmət edirik və tərəfdaşlarımızdan öz öhdəliklərinə hörmət etməyi gözləyirik.

Beləliklə, etibarlılıq vacib amil idi. İkincisi isə, əlbəttə ki, Azərbaycanda olan siyasi və iqtisadi sabitlik, neft, qaz və elektrik enerjisi ilə bağlı infrastrukturun yaradılmasında gözəl nəticələrimizdir. Yeri gəlmişkən, Azərbaycan təkcə neft və qaz deyil, eyni zamanda elektrik enerjisi ixrac edən ölkədir. Nəhəng potensial və təcrübə – bütün bu amillər mühüm enerji şirkətlərini cəlb etməyə və yenilənən enerjiyə investisiya yatırmağa imkan verib.

Bu il biz artıq dünyanın aparıcı enerji şirkətləri olan "ACWA Power" və "Masdar" şirkətləri ilə iki təməlqoyma mərasimi keçirmişik. Hazırda biri günəş, digəri isə külək olmaqla, iki elektrik stansiyası inşa olunur ki, onların birgə istehsal gücü 470 meqavatdır. Gələn il bu iki stansiya istifadəyə veriləcəkdir və bu yalnız başlanğıcdır. Çünki biz artıq yenilənən enerji sahəsində bir çox aparıcı enerji şirkətləri ilə fəal danışıqlar mərhələsindəyik.

Xəzər dənizinin nəhəng potensialı var və artıq bu hesablama aparılıb. Mənə verilən məlumata görə, Xəzər dənizinin Azərbaycan sektorunun potensialı 150 min meqavat təşkil edir, yəni bu, nəhəng həcmdir.

Eyni zamanda İkinci Qarabağ müharibəsi nəticəsində işğaldan azad olunan ərazilərin, xüsusilə də Kəlbəcər və Laçının potensialının 9-10 min meqavat olduğunu hesab edirik. Burada söhbət külək və günəş enerjisindən gedir. Buraya hidroelektrik enerjini əlavə etsək, hansı ki onun da böyük potensialı var, buraya daha 1000 meqavat və ya artıq güc əlavə etmək olar.

Bütün bunlar bizim hökumətimiz tərəfindən ciddi şəkildə nəzərdən keçirilir və bərpaolunan enerjiyə nə qədər çox sərmayə qoyulacaqsa, bir o qədər qaza qənaət ediləcək və ixrac olunacaq, bu, təbiidir.

Beləliklə, bütün bu amillərin vəhdəti, o cümlədən enerjinin səmərəliliyi və bizim şəbəkəmizdə itkilərin aradan qaldırılması Azərbaycandan qaz ixracının artırılması ilə nəticələnəcək. Bu bizim hədəfimizdir və əminəm ki, biz buna nail olacağıq. Çünki bu günədək planlaşdırdıqlarımızın hamısı reallaşıb. Yalnız neft və qaz sahəsində yox, hökumətimiz bütün planlarına nail olub. Biz bütün bunlara maksimal dərəcədə səmərəliliklə nail olmuşuq.

Ənənəvi Xəzər Neft-Qaz Sərgisi və Konfransında, həmçinin Bakı Enerji Həftəsi çərçivəsində bütün bu vacib məsələlər müzakirə ediləcəkdir. Neft təchizatı həcminin artırılması müzakirə olunacaq. Bu gün artıq Azərbaycan digər ölkələr üçün vacib tranzit imkanlarını təqdim edir. Bu potensialdan da maksimum dərəcədə istifadə oluna bilər. Təəssüf ki, bu günədək bu potensialdan tam istifadə edilməyib. Təəssüf ki, Azərbaycanın mühüm tranzit ölkəsi qismində potensialı təchizatçılar tərəfindən düzgün qiymətləndirilməmişdir.

Hesab edirəm ki, bu gün artıq onlar fikirlərini dəyişiblər. Çünki hər kəs anlayır ki, şaxələndirmə enerji təhlükəsizliyinin başlıca amillərindəndir. Biz isə enerji strategiyamızın həyata keçirilməsinin ilk günündən etibarən şaxələndirmə üzərində çalışmışıq. Bunun nəticəsində bizim şaxələndirilmiş ixrac marşrutlarımız var – müxtəlif istiqamətə uzanan 3 neft boru kəməri və 4 qaz boru kəmərimiz mövcuddur. Elektrik enerjisi xətlərinə gəldikdə isə biz 4 qonşu ölkəyə elektrik enerjisi ixrac edirik və Avropaya elektrik enerjisi ixrac etməyi planlaşdırırıq.

Biz Zəngəzur dəhlizinin fəaliyyətinə start vermək istəyirik. Bu da yalnız yüklər üçün deyil, elektrik enerjisi üçün mühüm ixrac marşrutu ola bilər. Biz işlərə başlamışıq və bu istiqamətdə investisiya ilə bağlı artıq praktiki addımlar atırıq. Beləliklə, hər bir məsələdə şaxələndirmə vacibdir.

Bu səbəbdən vaxtilə Azərbaycanın etibarlı tranzit ölkəsi kimi potensialını düzgün qiymətləndirməyənlər fikirlərini dəyişəcəklər. Biz artıq müəyyən eyhamlar görürük və biz buna hazırıq. Biz köməyə ehtiyacı olan hər kəsə yardım etməyə hazırıq. Bunun üçün bizdə siyasi iradə var. Hər zaman bizim siyasətimiz körpülər qurmaqdan və əməkdaşlığı gücləndirməkdən ibarət olub.

Bundan əlavə, biz zəruri infrastruktura malikik: yeni dəniz limanı, bütün istiqamətlərlə bizi birləşdirən dəmir yolu, avtomobil yolları və hava limanları. Azad olunmuş ərazilərdə üç yeni hava limanımız olacaq. Onlardan biri artıq istifadəyə verilib. Beləliklə, Azərbaycan 9 beynəlxalq hava limanına sahib olacaq. Nəhayət, ölkəmizin coğrafi yerləşməsi, yəni neft və qaz sahəsində əməkdaşlıqla bağlı planlar qurarkən Azərbaycanın tranzit potensialı nəzərə alınmalıdır.

Burada söylədiklərim beynəlxalq tərəfdaşlarımız üçün də önəmlidir. Burada SOCAR və “BP” arasında strateji tərəfdaşlığı xüsusi vurğulamaq istərdim. Bizim üçün neft və qaz

sahəsində "BP" strateji tərəfdaş və aparıcı investordur. Mən çox məmnunam ki, "BP" bərpaolunan enerji sahəsinə maraq göstərir. Hazırda SOCAR və "BP" azad olunmuş Cəbrayıl rayonunda 200 meqavatdan artıq gücə malik elektrik enerjisi stansiyasının inşasını müzakirə edir və ümidvaram ki, tezliklə yaxşı nəticələr olacaq.

Perspektiv planlarımıza gəldikdə, onların reallaşdırılması ənənəvi enerji tərəfdaşlarımızın iştirakı olmadan mümkün olmazdı. Biz bu mühüm dövrdə – dünyada geosiyasi vəziyyətin bir neçə ay bundan öncə ilə müqayisədə kəskin şəkildə fərqli olduğu bir vaxtda istənilən ölkədən olan hər bir şirkətlə əməkdaşlıq etməyə hazırıq.

Burada qeyd etdiklərimin hamısı daxili inkişafımız üçün də çox əhəmiyyətlidir. Enerji amili, enerji diplomatiyası və bütün layihələr bizim iqtisadi potensialımızı gücləndirir, bizə imkan yaradır ki, cəsarətli islahatlarla yanaşı, neft-qaz sektorundan əldə etdiyimiz gəlirlər iqtisadiyyatımızın qeyri-neft sektoruna yönəldilsin. Biz bunun nəticəsini görürük və diqqətinizə cari ilin bəzi göstəricilərini təqdim etmək istəyirəm. Bu il ümumi daxili məhsul 7.2 faiz artıb. Qeyri-neft sektorunda artım 11.5 faiz, qeyri-neft sənayesində artım 15 faizdən artıq olub. Bütün bunlar islahatların və topladığımız gəlirlərin yönləndirilməsinin təzahürüdür.

Yəni şaxələndirmə yalnız enerji təchizatına aid deyil. Bu bizim iqtisadiyyatımızın şaxələndirilməsidir və biz buna nail oluruq. Hesab edirəm ki, bu gün Azərbaycanda biznes mühiti tamamilə lazımi səviyyədədir və Azərbaycan xarici investisiya üçün olduqca cəlbedici ölkələrdəndir. Dediyim kimi, birincisi, bizim neft-qaz sahəsində nəhəng təcrübəmiz var, biz ənənəvi şirkətlərlə tərəfdaşlığımıza böyük dəyər veririk. Biz heç vaxt imza atdığımız müqavilənin bir sözünü belə dəyişməmişik. Biz sürətlə inkişaf edirik və əlbəttə ki, Qarabağda və Zəngəzurda aparılan yenidənqurma işləri iqtisadi potensialımızı artıracaqdır.

Xarici borcumuzun aşağı səviyyədə olması – ümumi daxili məhsulun yalnız 12.5 faizini təşkil etməsi də münbit iqtisadi şərait yaradır. Biz əlavə kreditlər götürə bilərik, sadəcə, bunu etmirik, çünki buna ehtiyac yoxdur. Biz xarici borcumuzu ümumi daxili məhsulun 10 faizi səviyyəsinə salmaq istəyirik və bununla bağlı hökumətə göstəriş vermişəm.

Bununla yanaşı, görsək ki, Azərbaycan üçün vacib olan qlobal əhəmiyyətli layihələr var, əlbəttə, biz ənənəvi tərəfdaşlarımıza, aparıcı maliyyə institutlarına müraciət edəcəyik ki, bizə dəstək olsunlar. Bizim bununla bağlı Cənub Qaz Dəhlizi və digər layihələrdə təcrübəmiz var.

Biz bu gözəl tədbir üçün darıxmışdıq və artıq dediyim kimi, bu, regionun aparıcı beynəlxalq enerji tədbiridir. Mən bir daha qonaqlarımıza bizimlə olduqlarına görə təşəkkür edirəm və Bakı Enerji Həftəsinin işinə uğurlar diləyirəm. Sağ olun.

**AZƏRTAC**

*1 iyun 2022-ci il*

## PREZİDENT İLHAM ƏLİYEV "BP" QRUPUNUN BAŞ İCRAÇI DİREKTORUNU QƏBUL EDİB

*24 iyun 2022-ci il*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 24-də "BP" qrupunun baş icraçı direktoru Bernard Lunini qəbul edib.

Görüşdə "BP" şirkətinin SOCAR ilə uzun illər uğurlu əməkdaşlıq həyata keçirdiyi vurğulandı. Şirkətin bundan sonra da ölkəmizdə fəaliyyət göstərmək niyyəti ifadə olundu.

"BP"nin Azərbaycanda yaşıl enerji növlərinə keçidlə bağlı verdiyi töhfə qeyd edildi. Şirkət tərəfindən Cəbrayılda inşa ediləcək 240 meqavatlıq günəş elektrik stansiyasının əhəmiyyətinə toxunuldu, bununla bağlı iyunun 4-də Şuşada "BP" ilə imzalanmış sənədin önəmi vurğulandı.

Söhbət zamanı gələcək planlar barədə fikir mübadiləsi aparıldı.

**AZƏRTAC**
*24 iyun 2022-ci il*

# AZƏRBAYCAN İLƏ AVROPA İTTİFAQI ARASINDA ENERJİ SAHƏSİNDƏ STRATEJİ TƏRƏFDAŞLIĞA DAİR ANLAŞMA MEMORANDUMU İMZALANIB

*18 iyun 2022-ci il*

İyulun 18-də Azərbaycan ilə Avropa İttifaqı arasında "Azərbaycan Respublikası ilə Avropa Komissiyası tərəfindən təmsil olunan Avropa İttifaqı arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu" imzalanıb.

Sənədi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Avropa Komissiyasının Prezidenti xanım Ursula Fon der Lyayen imzalayıblar.

**AZƏRTAC**
*18 iyul 2022-ci il*

## PREZİDENT İLHAM ƏLİYEVİN AVROPA KOMİSSİYASININ PREZİDENTİ İLƏ GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ KEÇİRİLİB

*18 iyun 2022-ci il*

İyulun 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Avropa Komissiyasının Prezidenti xanım Ursula Fon der Lyayen ilə geniş tərkibdə görüşü keçirilib.

Dövlətimizin başçısı Avropa Komissiyasının Prezidentini qarşıladı.

Sonra birgə foto çəkdirildi.

**Görüşdə çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev dedi:**

– Xoş gəlmisiniz, xanım Prezident. Sizi görməyimə çox şadam. Səfərinizə görə minnətdaram. Səfəriniz, həqiqətən, ikitərəfli əməkdaşlığımızın vacibliyini nümayiş etdirir. Çox şadıq ki, Avropa İttifaqı ilə Azərbaycan arasında əlaqələr ikitərəfli əməkdaşlıq, eləcə də Şərq Tərəfdaşlığı çərçivəsində çox uğurla inkişaf edir. Bizim siyasi münasibətlərin inkişafı baxımından, sözün əsl mənasında, çox yaxşı nailiyyətlərimiz var. Çox fəal siyasi təmaslar mövcuddur. Bilirsiniz ki, Avropa İttifaqı bizim əsas ticari tərəfdaşımızdır. Əminəm ki, gələn illərdə icrasını planlaşdırdığımız layihələr ticari əməkdaşlığımızı genişləndirəcək. Əlbəttə ki, enerji sahəsində əməkdaşlıq hər zaman gündəliyimizdə üstün yer tutub. Bu gün xüsusən də belədir. Hesab edirəm ki, çox yaxşı nəticələrimiz, nailiyyətlərimiz var. Bu ilin əvvəlində xanım komissarın səfərindən sonra biz enerji dialoqunu başlamışıq. Fikrimcə, bu həmçinin qarşılıqlı marağın çox yaxşı əlamətidir.

Enerji təhlükəsizliyinə aid məsələlər birmənalı olaraq bu gün qlobal gündəlikdə ən üstün məsələlərdən biridir. Lakin bundan başqa, biz təhsil, daşımalar və bütün digər sahələrdə əməkdaşlığı genişləndirməkdə maraqlıyıq. Azərbaycan ilə Avropa İttifaqı arasında yeni sazişə aid hazırda müzakirə etdiyimiz məsələlər potensial əməkdaşlığımızın bütün sahələrini əhatə edir. Əminəm ki, səfəriniz zamanı biz bu və digər məsələləri müzakirə edəcəyik. Həmçinin bizi bu gün çox mühüm mərasim gözləyir və o, enerji sahəsində yeni geniş əməkdaşlığın başlanmasından xəbər verəcək.

Xoş gəlmisiniz. Sizə uğurlu səfər arzulayıram.

***

**Avropa Komissiyasının Prezidenti xanım Ursula Fon der Lyayen dedi:**

– Çox sağ olun. Səmimi qəbula görə çox sağ olun, cənab Prezident. Həqiqətən, söylədiyiniz kimi, bizim aramızda uzunmüddətli tərəfdaşlıq var. Şərq Tərəfdaşlığı xüsusi olaraq Azərbaycanı əhatə edir. Əla münasibətləri daha da dərinləşdirmək istəyirik. Bu gün imzalayacağımız Anlaşma Memorandumuna nəzər salsaq, qeyd etməliyəm ki, ilk növbədə həmin sənəd nümayəndələrimizin apardığı əla işin nəticələrinə əsaslanır. Orada enerji sektorunda etibarlı tərəfdaşlıq, eləcə də orta və uzun perspektivdə bərpaolunan enerji məsələləri xüsusi qeyd edilir. Bir sözlə, sənəd bu gün təfərrüatla müzakirə etdiyimiz bütün məsələləri əhatə edir. Əlbəttə ki, Sizin də söylədiyiniz kimi, Anlaşma Memorandumundan başqa, Avropa İttifaqı ilə Azərbaycan arasında saziş də nəzərdə tutulur. Bunu elə indicə xarici işlər naziri ilə müzakirə etdik – həmin sazişə yeni təkan verək, daha irəliyə gedək və qalan məsələləri müzakirə edək.

**AZƏRTAC**

*18 iyul 2022-ci il*

# AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV VƏ AVROPA KOMİSSİYASININ PREZİDENTİ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞ EDİBLƏR

*18 iyun 2022-ci il*

İyulun 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Avropa Komissiyasının Prezidenti xanım Ursula Fon der Lyayen mətbuata bəyanatlarla çıxış ediblər.

Əvvəlcə dövlətimizin başçısı bəyanatla çıxış edib.

**PREZİDENT İLHAM ƏLİYEVİN BƏYANATI**

– Hörmətli xanım Prezident.

Hörmətli xanımlar və cənablar.

Əvvəlcə mən Avropa Komissiyasının xanım Prezidentini və Avropa İttifaqının nümayəndə heyətini Azərbaycanda salamlamaq istərdim. Bu gün bizim geniş əhatəli və qarşılıqlı maraq doğuran məsələlərə aid çox yaxşı müzakirəmiz baş tutdu. Biz bu gün gündəliyimizdə dayanan bütün məsələləri əhatə etdik. Avropa İttifaqı ilə Azərbaycan arasında enerji sahəsində strateji tərəfdaşlığa dair Anlaşma Memorandumunun imzalanması mərasimi oldu. Enerji sahəsində apardığımız fəal əməkdaşlığın on beş ildən artıq tarixi var. Bugünkü Memorandum aramızda imzalanmış birinci sənəd deyil. Biz 2006-cı ildə Anlaşma Memorandumunu və 2011-ci ildə Cənub Qaz Dəhlizi ilə bağlı Birgə Bəyannaməni imzalamışıq. Bir sözlə, yaxşı tarixçəmiz və nailiyyətlərimiz var.

Azərbaycanın başlatdığı və Avropa İttifaqının, o cümlədən tərəfdaşlarımızın dəstəklədiyi enerji layihələri Avropanın enerji xəritəsini tamamilə dəyişir. Biz neft hasilatı ilə başladıq. Sonra qaz hasilatına keçdik. Xəzər dənizini Qara dəniz və Aralıq dənizi ilə birləşdirən neft kəmərini çəkdik. Əlbəttə ki, 3500 kilometr uzunluğu olan Cənub Qaz Dəhlizi boru kəməri sistemlərini inteqrasiya etdi və bununla təbii qazımız Avropa qitəsinə çatdırılır. İki ildən az müddətdə Cənub Qaz Dəhlizi tam gücü ilə işləyir. Bütün seqmentlər istismar olunur. Biz bu əməkdaşlığın müsbət faydasını artıq görürük. Enerji təhlükəsizliyi məsələləri bu gün heç zaman olmadığı qədər vacibdir. Azərbaycan ilə Avropa İttifaqı

arasında enerji sahəsində uzunmüddətli, proqnozlaşdırılan və çox etibarlı əməkdaşlıq, təbii ki, böyük nailiyyətdir.

Bu il biz Azərbaycan ilə Avropa İttifaqı arasında bir çox sahələri əhatə edən, o cümlədən neft, qaz və bərpaolunan enerji mənbələrini, hidrogeni, enerji səmərəliliyini və digər məsələləri nəzərdə tutan enerji dialoquna başlamışıq. Azərbaycanda bərpaolunan enerjinin istehsalı sahəsində böyük potensial Avropa İttifaqı tərəfindən artıq yüksək dəyərləndirilir. Biz külək və günəş enerjisinə artıq sərmayə qoyuluşu prosesinə başlamışıq. Potensialımızla bağlı artıq ilkin qiymətləndirməni aparmışıq. Deyə bilərəm ki, Qarabağın və Şərqi Zəngəzurun azad olunmuş ərazilərində günəş və külək enerjisinin potensialı 9200 meqavatdır. Xəzər dənizində külək enerjisinin potensialı isə 157 qeqavata bərabərdir. Bir sözlə, bizim nəhəng resurs ehtiyatlarımız var. Bundan əlavə, əlbəttə ki, gələn illər ərzində istifadə edəcəyimiz yeni qaz yataqlarımız var. Bununla qazın hasilatını artıracağıq. Biz bərpaolunan enerjidən istifadə edərək ixrac üçün daha çox qazı təmin edəcəyik. Bu, səylərimiz sayəsində yaradılmış və Avropa İttifaqının dəstəklədiyi çox üstün vəziyyətdir.

Bu gün imzalanan Memorandum gələcək üçün bir növ yol xəritəsidir. Nəzərə alsaq ki, əvvəlcə planlaşdırdığımız bütün məsələlər tərəfimizdən icra olunub, əminəm, bundan sonra da böyük uğurlara imza atacağıq. Bu gün müzakirə etdiyimiz digər məsələlər sırasında şəbəkələrin qurulması məsələsi oldu. Azərbaycanın coğrafi mövqeyini və müasir daşımalar infrastrukturunu nəzərə alaraq, biz potensialımız arasında şəbəkənin qurulması üzərində daha fəal çalışmalıyıq. Burada, Xəzərin qərb sahilində Azərbaycanın Xəzərdə ən iri ticarət donanması, müasir infrastruktur, gəmiqayırma imkanları, yeni dəniz limanı, bütün qonşularımızla bizi birləşdirən dəmir yolları var. Buna görə də münasibətlərimizdə şəbəkənin enerji qədər vacib olmasına yönələn birgə səylərə böyük ehtiyac duyulur. Əlbəttə ki, gündəliyimiz çox genişdir. Biz Azərbaycan ilə Avropa İttifaqı arasında yeni saziş üzərində işləyirik. Bunu elə indicə xanım Prezidentlə müzakirə etdik və ümidvarıq ki, gələn ay bunu başa çatdıra bilərik. Bu, ikitərəfli əməkdaşlığımıza mühüm töhfə olacaqdır. Biz Şərq Tərəfdaşlığı Proqramı çərçivəsində ikitərəfli qaydada işləyirik. Avropa İttifaqı Azərbaycan üçün əsas ticari tərəfdaşdır. Planlarımızın icrası, əlbəttə ki, ticari dövriyyəni xalqlarımızın rifahı naminə artıracaq. Əminəm ki, Avropa İttifaqı ilə Azərbaycan arasında münasibətlərin böyük gələcəyi var və planlaşdırdığımız bütün məsələlərin həllinə nail olacağıq.

Xanım Prezident, bizimlə olduğunuza görə bir daha təşəkkür edirik və Sizə Bakıda xoş səfər arzulayıram.

**AZƏRTAC**
*18 iyul 2022-ci il*

## SOFİYADA YUNANISTAN–BOLQARISTAN QAZ İNTERKONNEKTORUNUN AÇILIŞ MƏRASİMİ KEÇİRİLİB

*1 oktyabr 2022-ci il*

### Prezident İlham Əliyev mərasimdə iştirak edib

Oktyabrın 1-də Bolqarıstan Respublikasının paytaxtı Sofiya şəhərində Yunanıstan–Bolqarıstan Qaz İnterkonnektorunun (IGB) açılış mərasimi keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak edib.

Bolqarıstan Prezidenti Rumen Radev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi, digər ölkələrin dövlət və hökumət başçılarını qarşıladı.

Yunanıstan–Bolqarıstan Qaz İnterkonnektorunun texniki göstəriciləri, layihənin əhəmiyyəti barədə videoçarx nümayiş etdirildi.

Sonra çıxışlar oldu.

Dövlətimizin başçısı mərasimdə çıxış etdi.

#### PREZİDENT İLHAM ƏLİYEVİN ÇIXIŞI

– Təqdimata görə çox sağ olun.

Hörmətli Bolqarıstan Prezidenti Radev.

Hörmətli Avropa Komissiyasının Prezidenti xanım Ursula Fon der Lyayen.

Hörmətli prezidentlər və baş nazirlər.

Xanımlar və cənablar.

Əvvəlcə Bolqarıstan Prezidenti Radevə bu tarixi mərasimdə iştirak etmək üçün dəvətə görə təşəkkürümü bildirmək istəyirəm. Yunanıstan–Bolqarıstan Qaz İnterkonnektoru layihəsi Avropanın enerji təhlükəsizliyinin möhkəmləndirilməsində və qaz təchizatının şaxələndirilməsində mühüm rol oynayacaq. Enerji təhlükəsizliyi hər bir ölkənin milli təhlükəsizliyinin bir hissəsidir. Dünyada cari geosiyasi vəziyyət bunu bir daha sübuta yetirir. Təxminən iki ildir ki, Azərbaycan qazı Avropa bazarlarına çıxarılır və indi isə o, Bolqarıstana daxil olur.

Avropanın enerji xəritəsini dəyişmiş Cənub Qaz Dəhlizi qitə üzrə ən böyük infrastruktur layihələrindən biridir. Azərbaycan Cənub Qaz Dəhlizini başlayan tərəf olmaqdan qürur hissi duyur. Cənub Qaz Dəhlizi qazı istehlakçılara yeni marşrutla, o cümlədən yeni mənbədən nəql edir. Bu vaxta qədər yeganə mənbə Xəzərin Azərbaycan sektorunda yerləşən "Şahdəniz" qaz yatağı olmuşdur. Lakin Azərbaycanın bir neçə digər qaz yatağında hasilat bu yaxınlarda başlayacaq və təchizat həcmlərinin artırılmasına töhfə verəcəkdir.

Uzun illər Azərbaycan beynəlxalq bazarda və ilk növbədə Avropa bazarında etibarlı neft təchizatçısı olub. İndi isə etibarlı qaz təchizatçısına çevrilir. Xanım Prezidentin bərpaolunan enerji barədə dedikləri ilə bağlı bildirmək istərdim ki, bu həmçinin bizim iyul ayında Avropa Komissiyası ilə Azərbaycan arasında imzaladığımız Enerji sahəsində strateji tərəfdaşlığa dair Anlaşma Memorandumunun bir hissəsidir. Beləliklə, əminəm ki, bu yaxınlarda Azərbaycan Avropa üçün etibarlı elektrik enerjisi təchizatçısına çevriləcəkdir. Külək enerjisi sahəsində təkcə Xəzər dənizində təsdiq edilmiş potensialımızın həcmi 157 qeqavatdır. Hazırda biz avropalı tərəfdaşlarımızla bu enerjinin Avropa qitəsinə çatdırılması barədə müzakirələr aparırıq.

Ötən il qaz ixracımız təxminən 19 milyard kubmetr təşkil etmişdir. Onun 8,2 milyard kubmetri Avropaya nəql olunmuşdur. Bu isə əvvəlki illə müqayisədə 40 faiz artım deməkdir. Bu il biz ixracımızı 22 milyard kubmetrə qədər artıracağıq və onun 11,5 milyard kubmetri Avropa istehlakçılarına çatdırılacaqdır. Artıq söylədiyim kimi, bu ilin iyul ayında biz xanım Prezident Ursula Fon der Lyayenin Azərbaycana səfəri zamanı Avropa Komissiyası ilə Anlaşma Memorandumu imzaladıq. Bu çox əhatəli sənəddir, ona əsasən, 2027-ci ilə qədər biz təbii qazın təchizat həcmini ən azı iki dəfə artırmağı planlaşdırırıq və bunu etməyə tam potensialımız var.

Biz TANAP-ın 16 milyard kubmetrdən 32 milyard kubmetrə, TAP-ın isə 10 milyard kubmetrdən 20 milyard kubmetrə qədər genişləndirilməsi ilə bağlı tərəfdaşlarımızla artıq məsləhətləşmələrə başlamışıq. Çünki bu olmadan əlavə təchizatı təmin etmək çətin olacaq.

Sonda mən Bolqarıstan, Yunanıstan xalqlarını və hamımızı bu tarixi mərasim, belə bir mühüm layihənin tamamlanması münasibətilə təbrik etmək istərdim və Yunanıstan–Bolqarıstan Qaz İnterkonnektoruna uzun və uğurlu fəaliyyət arzu edirəm.

Sağ olun.

**AZƏRTAC**
*1 oktyabr 2022-ci il*

# PREZİDENT İLHAM ƏLİYEV "AZƏRİ–MƏRKƏZİ–ŞƏRQİ" PLATFORMASININ DAYAQ BLOKUNUN DƏNİZƏ YOLA SALINMASI MƏRASİMİNDƏ İŞTİRAK EDİB

*13 dekabr 2022-ci il*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 13-də Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodunda "Azəri–Mərkəzi–Şərqi" platformasının dayaq blokunun dənizə yola salınması mərasimində iştirak edib.

"BP"nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Counz, Azərbaycan Dövlət Neft Şirkətinin – SOCAR-ın prezidenti Rövşən Nəcəf dövlətimizin başçısına layihə üzrə görülən işlər barədə məlumat verdilər, videoçarx nümayiş olundu.

Bildirildi ki, "Azəri–Mərkəzi–Şərqi" layihəsi üzrə yekun investisiya qərarı 2017-ci ildə "Azəri–Çıraq–Günəşli" (AÇG) üzrə Hasilatın Pay Bölgüsü Sazişinin (HPBS) 2049-cu ilə qədər uzadılmasından sonra AÇG tərəfdaşlarının ilk böyük investisiya qərarıdır. Dəyəri 6 milyard dollar olan layihəyə yeni dəniz platforması və gündəlik 100 min barelədək hasilat gücündə digər qurğular daxildir. Layihənin istismar müddəti ərzində ümumilikdə 300 milyon barelədək neft hasil olunacağı proqnozlaşdırılır.

Bu layihə çərçivəsində dənizdə suyun dərinliyinin təxminən 140 metr olan sahəsində, "Mərkəzi Azəri" və "Şərqi Azəri" platformalarının arasında 48 şaxtadan ibarət yeni hasilat, qazma və yaşayış platforması quraşdırılacaq. Layihəyə həmçinin yataqdaxili yeni sualtı boru kəmərləri də daxildir. Bu xətlər platformadan hasil ediləcək neft və qazın Səngəçal terminalına ötürülməsi üçün mövcud AÇG "Faza 2" sualtı ixrac kəmərlərinə qoşulacaq.

"Azəri–Mərkəzi–Şərqi" platformasının dayaq blokunun çəkisi 16 min ton, hündürlüyü 153 metrdir. Bu qurğuya biri suvurma, biri neft ixracı, biri də qaz ixracı üçün nəzərdə tutulmuş üç dik boru daxildir. Dayaq bloku suyun 137 metr dərinliyində quraşdırılacaq.

**"BP"nin regional prezidenti Qəri Counz dedi:** Bu hər iki tərəfdə yerləşən nəhəng çənlərin idarəetmə modullarıdır. Hər tərəfində belə üç çən var. Olduqca nəhəng qurğudur.

**Prezident İlham Əliyev:** Bəli, həqiqətən də, möhtəşəmdir. Video çox əhatəli idi. Sıfırdan nəhəng infrastruktur qurğusu yaradılıb.

**Qəri Counz:** Burada – zavodda gördüyünüz hər şey poladdan hazırlanıb.

**Prezident İlham Əliyev:** Bəli, bu da ən böyük nailiyyətlərdən biridir. Çünki başlanğıcda bu heç də belə deyildi. Lakin bir müddət sonra bütün inşaat işləri burada həyata keçirildi. Bu, əhəmiyyətli nailiyyətdir. Bundan başqa, bir neçə gün əvvəl "Akademik Xoşbəxt Yusifzadə" tankerini istismara verərkən biz faktiki olaraq bütün gələcəyimizə, neft-qaz layihələrinə mühüm töhfə vermiş bu ərazinin, zavodun keçmişi ilə bağlı xatirələrimizi bölüşdük. Çünki əgər o, 1970–1980-ci illərin sonunda yaradılmasaydı, hasilata başlamaq daha çox vaxt aparardı.

**SOCAR-ın birinci vitse-prezidenti Xoşbəxt Yusifzadə:** Bəli, burada dərin özüllər zavodu Heydər Əliyevin sayəsində tikildi. O olmasaydı, zavodu burada tikməyəcəkdilər.

**Qəri Counz:** Görüləcək çox iş var. Bilirsiniz ki, biz "Şahdəniz"də də dərində qazma işləri aparırıq. Çox maraqlıdır. Növbəti 30 il, bəlkə də, son 30 ildən daha da maraqlı olacaq.

**Prezident İlham Əliyev:** Bəli, xüsusilə beynəlxalq bazarlarda təbii qaza olan böyük tələbatı nəzərə alsaq, bu, düşünürəm ki, əsl vaxtında olacaq. Əlbəttə ki, potensialımıza dair böyük gözləntilər var. Biz həmişə bilirdik bizim nə qədər ehtiyatımız var. Ümid edirəm ki, qazmaya başlayanda "Azəri–Çıraq–Günəşli"də olduğu kimi, bu yataq da böyüyəcək. Praktik nəticələr ilkin proqnozdan ən azı iki dəfə artıq oldu. Bütün infrastrukturun, daşıma infrastrukturunun hazır olduğunu nəzərə alaraq hesab edirəm ki, mümkün olduğu qədər çox hasil etmək üçün səy göstərmək baxımından, Azərbaycan xalqına və beynəlxalq tərəfdaşlarımıza xidmət göstərmək üçün bu, həqiqətən də, tarixi fürsətdir.

**Qəri Counz:** Bu bizim məqsədimizdir.

**Rövşən Nəcəf:** Tərəfdaşlarla müzakirə etdiyimiz ideya ondan ibarət idi ki, tərəfdaş olmaq, sadəcə, mənfəət və xərclərin bölüşməsi deyil. Eyni zamanda bilik və yeni texnologiyaların mübadiləsidir. Ona görə biz daha yaxşı nəticə əldə etmək üçün yeni mütəxəssisləri, yeni fikirləri və yenilikləri bir araya gətiririk.

Sonra Prezident İlham Əliyev, SOCAR-ın birinci vitse-prezidenti Xoşbəxt Yusifzadə və "BP"nin regional prezidenti Qəri Counz dayaq blokunun dənizə yola salınmasını bildirən düyməni basdılar.

**Prezident İlham Əliyev:** Bizim daha bir vacib mərasimimiz var. Qəri Counz təqribən iki ay yarım əvvəl "Dostluq" ordeni ilə təltif edilib. Hesab edirəm ki, bu gün həmin ordeni təqdim etmək üçün ən yaxşı fürsətdir.

**Qəri Counz:** Cənab Prezident, bu mənim üçün gözlənilməz oldu. Sizə çox təşəkkür edirəm.

**Prezident İlham Əliyev:** Siz buna, həqiqətən, layiqsiniz. Bu sizin Azərbaycanın neft-qaz sənayesinin inkişafına verdiyiniz mühüm töhfəniz, dostluğunuz və Azərbaycanın

yaxşı sakini olduğunuza görədir. Siz, demək olar ki, vətəndaşımızsınız və xalqımızın təməl ehtiyaclarını anlayırsınız. Bizimlə Şuşaya səfər etdiyinizə və bütün heyətinizin gördüyü işlərə görə sizi məmnuniyyətlə təltif etdim. Təltif sentyabrın 19-da olub, ancaq mən fürsət gözləyirdim və zənnimcə, bu gün əla gündür. Bu nəhəng qurğunun önündə sizə bu ordeni təqdim edirəm.

**Qəri Counz:** Çox təşəkkür edirəm. Bu mənim üçün böyük şərəfdir. Şəxsən öz adımdan və bütün “BP” heyəti adından Sizə minnətdarlığımı bildirirəm.

Prezident İlham Əliyev “Dostluq” ordenini “BP”nin regional prezidenti Qəri Counza təqdim etdi.

**AZƏRTAC**

*13 dekabr 2022-ci il*

# BUXARESTDƏ YAŞIL ENERJİ İLƏ BAĞLI STRATEJİ TƏRƏFDAŞLIQ HAQQINDA SAZİŞİN İMZALANMASINA DAİR PLENAR İCLAS KEÇİRİLİB

*17 dekabr 2022-ci il*

## Azərbaycan Prezidenti İlham Əliyev iclasda çıxış edib

Dekabrın 17-də Buxarestdə "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"in imzalanması mərasimi ilə bağlı plenar iclas keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev plenar iclasda iştirak edib.

Rumıniya Prezidenti Klaus Yohannis Prezident İlham Əliyevi, Avropa Komissiyasının Prezidenti xanım Ursula Fon der Lyayeni, Gürcüstanın Baş naziri İrakli Qaribaşvilini və Macarıstanın Baş naziri Viktor Orbanı qarşıladı.

Sonra dövlətimizin başçısı iclasda çıxış etdi.

### PREZİDENT İLHAM ƏLİYEVİN ÇIXIŞI

– Hörmətli həmkarlar.

Xanımlar və cənablar.

Əvvəlcə, məni bu cür mühüm tədbirə dəvət etdiyinə və ev sahibliyinə görə Prezident Yohannisə təşəkkürümü bildirmək istəyirəm. Bu gün imzalanacaq yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Sazişin icrası Avropanın enerji təhlükəsizliyinə verəcəyimiz ümumi töhfə olacaqdır. Bu Saziş yaşıl enerji dəhlizinin yaradılması istiqamətində atılan mühüm addımdır.

Mən Avropa Komissiyasının Prezidenti xanım Ursula Fon der Lyayenə enerji təhlükəsizliyi və şaxələndirilməsi layihələrində Azərbaycana verdiyi davamlı dəstəyinə görə xüsusi minnətdarlığımı vurğulamaq istərdim.

Bu ilin iyulunda xanım Fon der Lyayenin Azərbaycana səfəri zamanı biz Azərbaycan ilə Avropa İttifaqı arasında enerji sahəsində strateji tərəfdaşlığa dair Anlaşma Memorandumunu imzaladıq və biz həmin sənədin icrasına artıq başlamışıq. Ötən il Azərbaycanın Avropa İttifaqı bazarına təbii qaz ixracı 8,2 milyard kubmetr təşkil etmişdir, bu il 11,3 milyard kubmetrdir. Növbəti il onun həcmi ən azı 11,6 milyard kubmetr olacaq. Gələn il Azərbaycandan ixrac ediləcək təbii qazın ümumi həcmi təxminən 24 milyard kubmetr olacaq. Müqayisə üçün, 2021-ci ildə o, 19 milyard kubmetr təşkil edirdi.

Dünən Dövlət Neft Şirkəti və "Romqaz" 2023-cü il yanvarın 1-dən Azərbaycandan Rumıniyaya qazın təchizatı barədə müqavilə imzaladılar. Beləliklə, Azərbaycan özünün qaz təchizatının coğrafiyasını Avropa bazarına qədər genişləndirir. Bu hamı üçün uduşlu vəziyyətdir, çünki Avropaya öz enerji təhlükəsizliyinin qorunması üçün qaz lazımdır, Azərbaycanın isə özünün nəhəng enerji resursları üçün etibarlı bazara ehtiyacı var.

Bu gün biz Avropaya digər enerji körpüsünü salmağa başlayırıq. Ölkəmiz Avropanın mühüm elektrik enerjisi, əsasən, yaşıl enerji təchizatçısına çevrilməyi planlaşdırır. Azərbaycanın bərpaolunan enerji potensialına gəldikdə, quruda külək və günəş enerjisinin həcmi 27 qiqavatdan çoxdur, Xəzər dənizinin Azərbaycan sektorunda isə külək enerjisi 157 qiqavat təşkil edir. Ölkəmizin strateji investorlarının biri ilə biz 2027-ci ilə qədər 3 qiqavat külək və 1 qiqavat günəş enerjisini istehsal etməyi planlaşdırırıq. Onların 80 faizi ixrac olunacaq. Biz 2037-ci ilə qədər ən azı 6 qiqavatlıq əlavə gücləri yaratmağı planlaşdırırıq.

Beləliklə, yalnız təkcə bir qlobal enerji şirkəti Azərbaycanda 10 qiqavat yaşıl enerjinin istehsalına yatırımlar etməyi planlaşdırır. İki gün əvvəl Azərbaycanın Energetika Nazirliyi digər qlobal enerji şirkəti ilə çərçivə sazişini imzalayıb. Həmin şirkət Azərbaycanda 12 qiqavata qədər külək və günəş enerjisinin istehsalına sərmayə qoymağı planlaşdırır. Beləliklə, Azərbaycan ixracının birinci mərhələsində ən azı 3 qiqavatlıq əlavə ötürmə gücü yaradılacaqdır.

Məqsədlərimizə nail olmaq üçün biz səmərəli surətdə çalışmalıyıq. Azərbaycan, Gürcüstan, Macarıstan, Rumıniya Avropa İttifaqı ilə sıx əməkdaşlıq və əlaqələndirmə şəraitində bir komanda kimi işləməlidirlər. Mən hamımıza uğurlar arzulayıram.

Sağ olun.

**AZƏRTAC**

*17 dekabr 2022-ci il*

# BAKIDA CƏNUB QAZ DƏHLİZİ MƏŞVƏRƏT ŞURASI ÇƏRÇİVƏSİNDƏ NAZİRLƏRİN 9-CU VƏ YAŞIL ENERJİ MƏŞVƏRƏT ŞURASI ÇƏRÇİVƏSİNDƏ NAZİRLƏRİN 1-Cİ İCLASLARININ AÇILIŞI OLUB

*3 fevral 2023-cü il*

## Azərbaycan Prezidenti İlham Əliyev açılışda iştirak edib

Fevralın 3-də Bakıda, "Gülüstan" sarayında Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 9-cu və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 1-ci iclaslarının açılışı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılışda iştirak edib.

Dövlətimizin başçısı tədbirdə çıxış edib.

### PREZİDENT İLHAM ƏLİYEVİN ÇIXIŞI

– Hörmətli Prezident Yohannis,

Hörmətli komissar Simson,

Hörmətli qonaqlar, xanımlar və cənablar.

Əvvəlcə mən Rumıniya Prezidentini salamlamaq istəyirəm. O, Azərbaycana rəsmi səfərə gəlib və bugünkü mühüm tədbirdə iştirakına görə təşəkkürümü bildirirəm. Bu bir daha onu göstərir ki, Rumıniya enerji təhlükəsizliyi məsələlərinə böyük diqqət yetirir və bizim gələcək ümumi addımlar strateji tərəfdaş olan ölkələrimiz arasında əlaqələndirmə nəticəsində atılacaqdır.

Mən xüsusi olaraq xanım komissar Simsona təşəkkürümü bildirmək istəyirəm ki, o bizim bütün təşəbbüslərimizə davamlı dəstək verib və Cənub Qaz Dəhlizi Məşvərət Şurasının toplantısının çox fəal həmsədri olub və bu mühüm layihənin uğurlu icrasına töhfə verib.

Biz bu gün artıq doqquzuncu dəfədir ki, toplaşırıq və əlbəttə, bir çox məsələlər haqqında danışmalıyıq, həmişə etdiyimiz kimi, görülən işləri nəzərdən keçirməliyik və ən vacibi, gələcək addımlarımızı planlaşdırmalıyıq.

Cənub Qaz Dəhlizi Məşvərət Şurasının səkkizinci toplantısından sonra dünyada çox şey dəyişibdir. O toplantı bir il öncə burada keçirilmişdi. Dünya dəyişib, enerji təhlükəsizliyi məsələlərinin hər bir ölkə üçün əhəmiyyəti daha da artır və adətən, görüşlərdə söylədiyimiz kimi enerji təhlükəsizliyi, həqiqətən, milli təhlükəsizlik məsələsidir. Yeni marşrutların qurulmasına və yeni mənbələrin cəlb olunmasına gəldikdə, bütün bunlar birgə səylərimizlə edilmişdir və indi, görünür, bu, heç vaxt görünmədiyi kimi vacibdir. Yaxşı haldır ki, biz hər bir şeyi vaxtında etdik, vaxt itirmədik. Baxmayaraq ki Cənub Qaz Dəhlizi layihəsinin icrasında müəyyən yubanmalar oldu, lakin biz onu mümkün qədər tez başa çatdırmağa çox sadiq idik. İndi isə biz artıq onun genişləndirilməsi haqqında danışırıq.

Cənub Qaz Dəhlizi iki ildən bir az çox vaxt əvvəl açıldı. Bu gün biz artıq TANAP-ın 16 milyard kubmetrdən 30 milyard kubmetrə qədər genişləndirilməsini nəzərdən keçiririk və TAP-ın 10 milyard kubmetrdən 20 milyard kubmetrə genişləndirilməsi haqqında danışırıq. Bu, alternativ enerji mənbəyinə böyük ehtiyac duyulduğunu göstərir. Bu, enerji təchizatının davamlı şaxələndirilməsinin zəruriliyini nümayiş etdirir. Biz buna hazırıq. Ona görə əvvəlki illərdə birgə səylərimizlə görülmüş bütün işlər bu gün bizim səlahiyyətimizdədir və bizim heyətimiz daha da böyüyür, bu gün bu zalda daha çox bayraqlarımız və hörmətli qonaqlarımız var.

Ötən il bir neçə vacib hadisə oldu. Bu da bizim enerji təhlükəsizliyi sahəsində ümumi öhdəliyimizi nümayiş etdirir. Əvvəlcə mən mühüm bir sənədi qeyd etmək istərdim. O sənəd ötən ilin iyulunda Bakıda Avropa Komissiyasının rəhbəri xanım Ursula Fon der Lyayen və mənim tərəfimdən imzalanmış enerji sahəsində Strateji Tərəfdaşlıq haqqında Memorandumdur və o, əslində, gələcək planlarımız üçün aydın yol xəritəsidir. Avropaya qaz ixracımızı 2027-ci ilə qədər iki dəfə artırmağı planlaşdırırıq və bu, mümkündür, çünki bizim resurslarımız var. Bizim qarşılıqlı siyasi iradəmiz və çox yüksək səviyyədə etimadımız mövcuddur. Cənub Qaz Dəhlizi layihəsinin uğurla həyata keçirilməsinin mühüm amillərindən biri, təbii ki, həll olunmalı texniki və bəzən siyasi məsələlərdən başqa, yüksək səviyyədə qarşılıqlı etimaddır və mən bunu qarşılıqlı həmrəylik adlandırardım. Məhz bu halda əgər kiminsə nəyə isə ehtiyacı olanda biz dərhal dəstək verməyə çalışırıq. Hesab edirəm ki, bu, gələcək işlərdə bizi istiqamətləndirəcək tərəfdaşlığın yaxşı ruhudur. Xüsusən indi, Cənub Qaz Dəhlizinin Məşvərət Şurası çərçivəsində, biz ilk olaraq Yaşıl Enerji Məşvərət Şurasını keçirəcəyik.

Digər mühüm bir hadisə isə Yunanıstanla Bolqarıstan arasında interkonnektorun açılması idi. Bu, Cənub Qaz Dəhlizi layihəsi və müəyyən dərəcədə onun şaxələndirilməsi

sayəsində oldu və nəticədə bizim üçün təbii qazımızın artıq Bolqarıstana təchizini başlamaq imkanını yaratdı. Həmçinin biz bu genişləndirmə və interkonnektorlar vasitəsilə qonşu ölkələrə də dəhlizin genişləndirilməsini nəzərdə tuturuq.

Təbii ki, dekabr ayı enerji təhlükəsizliyi üçün çox vacib idi, çünki iki mühüm hadisə baş tutdu. Birincisi, biz Azərbaycan və Rumıniya qaz təchizatı haqqında saziş imzaladıq və qaz təchizatı bu yaxınlarda başlayacaq. Beləliklə, Rumıniya həmin Cənub Qaz Dəhlizində iştirak edən ölkələr heyətinə qoşulur və biz həmçinin Yaşıl Enerjinin İstehsalı və Nəqli sahəsində Sazişi Azərbaycan, Gürcüstan, Macarıstan və Rumıniya arasında imzaladıq. Bu, səylərimiz üçün əlavə əməkdaşlıq imkanını yaradacaq enerji təhlükəsizliyində bir növ yeni səhifə açacaq. Bir sözlə, bunlar vacib hadisələr idi.

Əgər bu il haqqında danışsaq, yanvar ayında biz Azərbaycan ilə Macarıstan arasında qaz təchizatı sahəsində Anlaşma Memorandumunu imzaladıq və beləliklə, heyətimizə üzv olan ölkələrin sayı artır. Bütün bunlar ilk növbədə cəlb edilmiş ölkələrlə sıx siyasi münasibətlər, fəal əlaqələndirmə və Avropa Komissiyası ilə Azərbaycanın bu təşəbbüslərə səmərəli rəhbərliyi sayəsində mümkün olmuşdur. Bu həmçinin Avropa İttifaqı ilə Azərbaycan arasında başlamış və rəsmi çərçivəyə salınmış enerji dialoqunu da nümayiş etdirdi. Həmin dialoq təbii qazı, elektrik enerjisini, hidrogeni və yaşıl hidrogeni əhatə edir. Hesab edirəm, bu, əməkdaşlığımızın çox nadir və səmərəli formatıdır.

Avropaya qaz təchizatının artırılması ilə bağlı Avropa Komissiyası ilə imzalanmış Anlaşma Memorandumundan dərhal sonra Azərbaycandan daha çox qazın təchiz edilməsi məqsədilə əlavə imkanların yaradılması üçün fəal şəkildə işləməyə başladıq. Hazırda yeni yataqlardan bu il gözlədiyimiz hasilata, eləcə də mövcud "Şahdəniz" yatağında hasilatın artırılmasına əlavə olaraq – bu, birmənalı olaraq baş tutur – biz həmçinin ölkə daxilində enerji səmərəliliyi üzərində işləyirik. Biz itkilərin azaldılması proqramı, o cümlədən elektrik enerji və təbii qazın kombinasiyası əsasında daxili istehlak proqramı üzərində çalışırıq. Beləliklə, Azərbaycanda elektrik enerjisinin istehsalında istifadə olunan təbii qaza ixrac məqsədilə daha çox qənaət etmiş olarıq.

Təbii qaz ixracı artır – 2021-ci ildə təxminən 19 milyard kubmetr, ötən il isə 22,6 milyard kubmetr olmuşdur. Biz bu il onun 24,5 milyard kubmetr olmasını gözləyirik. Bu o deməkdir ki, Avropa Komissiyası ilə Anlaşma Memorandumu uğurla icra olunur. Biz nəinki hasilatı, o cümlədən ixracı artırırıq və həmçinin onun coğrafiyasını genişləndiririk. Əminəm ki, layihəyə qoşulmuş ölkələr bu gün bunun faydasını artıq görürlər və görəcəklər. Həmçinin digər bağlantılar və potensial interkonnektorlar vasitəsilə biz Avropada daha çox ölkələri bu layihəyə qoşa biləcəyik.

Təbii qaz resurslarına gəldikdə, mən artıq dəfələrlə bildirmişəm ki, təbii qaz ehtiyatları bizə və tərəfdaşlarımıza ən azı 100 il üçün bəs edəcək. Əlbəttə ki, biz gələcəyə doğru

baxırıq və bu gün yaşıl enerji ilə bağlı Məşvərət Şurasının ilk iclası da olacaq. Heyət nisbətən kiçikdir – cəmi 4 ölkə var.

Bu gün komandamızda yalnız dörd iştirakçı ölkə olsa da, bu sayın artma potensialı var, çünki biz düşünürük ki, yalnız hökumətlər deyil, şirkətlər də bu mühüm təşəbbüsdə iştirak etməyə maraq göstərəcəklər. Məşvərət Şurasının ilk iclasında, sözsüz ki, konseptual məsələlər həllini tapmalıdır: öz fəaliyyətimizi necə quracağıq, hər iştirakçı ölkənin məsuliyyəti nədən ibarət olacaq, özəl şirkətlər necə cəlb olunacaq? Bu, şirkətlərdən ibarət konsorsiummu olacaq, yoxsa hər bir iştirakçı dövlət öz suveren ərazisində üzərinə düşən işi özü yerinə yetirəcək? Bütün bu məsələləri müzakirə etmək və razılaşdırmaq tələb olunur. Çünki məsələ yalnız Azərbaycandakı quru və dəniz yataqlarında bərpaolunan enerjinin istehsalı, yaxud Gürcüstanla sərhədimizə qədər yeni ötürücü elektrik xəttinin çəkilməsi ilə deyil, habelə Qara dənizin dibi ilə elektrik kabelinin çəkilməsi ilə bağlıdır.

Buna görə də biz planlarımızı düzgün qurmalı və kimlərin potensial investor ola biləcəyini bilməliyik. Əlbəttə ki, biz beynəlxalq maliyyə qurumları ilə də əməkdaşlığımızı davam etdirəcəyimizə ümid edirik. Fürsətdən istifadə edərək tərəfdaşlarımız olan ölkələrin hökumətlərinə minnətdarlığımı bildirmək istərdim. Bu ölkələr Türkiyə, Gürcüstan, Yunanıstan, Bolqarıstan, Albaniya, İtaliya və yeni tərəfdaşlarımız olan Rumıniya, Moldova və Macarıstandır.

Davamlı dəstəyinə və əla rəhbərliyinə görə Avropa Komissiyasına xüsusi təşəkkürümü bildirirəm. Həmçinin ABŞ və Böyük Britaniya hökumətlərinə dərin təşəkkürümü bildirmək istərdim. Çünki onlar təşəbbüsümüzü davamlı dəstəkləmiş, eləcə də investisiya və maliyyə imkanları da daxil olmaqla geniş əməkdaşlıq üçün güclü bünövrə təmin etmişlər.

Bu prosesdə iştirak edən şirkətlər, xüsusilə SOCAR və “BP” bir-biri ilə strateji əlaqələr qurmuş iki aparıcı şirkətdir. Bu əlaqələr ən azı 30 il də davam edəcəkdir. Bu gün aramızda nümayəndələrinin iştirak etdiyi aparıcı maliyyə qurumları da vardır. Bunlar Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Avropa İnvestisiya Bankı, Asiya İnfrastruktur və İnvestisiya Bankı, Beynəlxalq Maliyyə Korporasiyasıdır. Yəni bütün aparıcı maliyyə qurumları bizimlədir. Biz ümidvarıq ki, səmərəli əməkdaşlığımızı bərpaolunan enerji sahəsində də davam etdirəcəyik.

Bu gün biz Azərbaycanda “Masdar” və “ACWA Power” kimi investorlarla birlikdə günəş və külək enerjisinin istehsalı ilə bağlı iki sərmayə layihəsini həyata keçiririk. Bu layihələrin ümumi həcmi 470 meqavatdır. Həmçinin bu yaxınlarda “BP” şirkəti ilə birlikdə bir layihənin icrasına başlayacağıq. Bu, işğaldan azad olunmuş Cəbrayıl rayonunun ərazisində inşa ediləcək 240 meqavatlıq elektrik stansiyası olacaqdır. Yəni cəmi 710 meqavat. Hər şey plan üzrə gedərsə, təxminən bir il və ya ilyarım ərzində biz bu

həcmdə bərpaolunan enerji istehsal edəcəyik. Bu isə yüz milyonlarla kubmetr qaza ixrac məqsədləri üçün qənaət etməyə imkan verəcəkdir.

Bərpaolunan enerji ilə bağlı planlarımıza gəldikdə, artıq qeyd etdiklərimə əlavə olaraq deyə bilərəm ki, hələ ki üç əsas enerji şirkəti ilə aramızda razılaşdırılmış və imzalanmış anlaşma memorandumu var. Onlara uyğun olaraq həm quruda, həm də dənizdə 25 qiqavat bərpaolunan günəş və külək enerjisi istehsal ediləcəkdir. Bu həcmin 10 qiqavatı "Masdar" şirkəti, 12 qiqavatı "Fortescue" şirkəti tərəfindən istehsal olunacaqdır. "ACWA Power" şirkəti isə bugünkü mərasimdə imzalanmış və hazırda icra olunan razılaşmaya əlavə olaraq 2,5 qiqavat enerjinin istehsalı üzrə öhdəlik götürəcəkdir. Bu, həqiqətən də, çox böyük potensialdır.

Qara dənizin dibi ilə çəkiləcək elektrik kabelinə gəldikdə isə iş planımızı mərhələli şəkildə və Avropanın şərtləri ilə əlaqəli şəkildə qurmaq tələb olunur. Bu həmçinin Avropa qitəsində potensial əməkdaşlıq imkanlarımızı daha geniş miqyasda müəyyən etmək üçün lazımdır. Əminəm ki, Rumıniya və Macarıstan yaşıl enerjini qəbul edəcək son məntəqələr olmayacaqdır.

Azərbaycan həmçinin çox böyük yaşıl enerji potensialına malikdir. Bu artıq təsdiq olunmuş faktdır. Yalnız dənizdə külək enerjisinin potensialı 157 qiqavatdır, quruda külək və günəş enerjisinin potensialı 27 qiqavatdır, iki ildən də artıq müddət əvvəl Vətən müharibəsi zamanı azad etdiyimiz torpaqlarda 10 qiqavata yaxındır. Biz həmçinin Naxçıvan Muxtar Respublikasında böyük bərpaolunan enerji potensialı müəyyən etmişik. Hazırda 500 meqavatlıq günəş elektrik stansiyasının tikintisinin mümkünlüyü ilə bağlı danışıqlar aparılır. Düşünürəm ki, bu potensial daha artıq olacaqdır. Yəni hazırda əlimizdə olan imkanlar bunlardan ibarətdir.

Qazın paylanması ilə əlaqədar yaxşı uğurlarımız var. Biz yaşıl enerji ilə bağlı saziş imzalamışıq. Biz həmçinin təbii qaz və bərpaolunan enerji imkanları arasında səmərəliliyin artırılmasına əsaslanan qarşılıqlı əlaqə yaratmalı və bunu vahid paket çərçivəsində etməliyik. Bizim güclü siyasi iradəmiz və əlbəttə ki, fəaliyyətimizin uğurlu tarixçəsi var. Bizim müxtəlif formatlarda və müxtəlif ölkələrlə birgə həyata keçirdiyimiz bütün layihələr – istər Bakı–Tbilisi–Ceyhan neft boru kəməri, istər Bakı–Tbilisi–Ərzurum qaz boru kəməri, istərsə də Cənub Qaz Dəhlizi – hamısı uğurlu olmuşdur.

Əminəm ki, Avropa qitəsində həm təbii qaz, həm də bərpaolunan enerji istehsalı ilə bağlı gələcək planlarımız uğurlu olacaqdır. Bunun üçün işimizi komanda şəklində davam etdirməli, bir-birimizi davamlı surətdə dəstəkləməliyik. Əminəm ki, gələn ilin fevralında Bakıda baş tutacaq növbəti görüşümüzdə biz yeni nailiyyətlərimiz barədə danışacağıq.

Diqqətinizə görə təşəkkür edirəm!

***

Qeyd edək ki, tədbirlərdə Avropa İttifaqının, Türkiyə, İtaliya, ABŞ, Böyük Britaniya, Gürcüstan, Macarıstan, Rumıniya, Bolqarıstan, Yunanıstan, Albaniya, Moldova, Monteneqro, Serbiya, Ukrayna və Xorvatiyanın yüksək səviyyəli nümayəndələri iştirak edirlər.

İclaslarda enerji şirkətlərindən SOCAR, "BP", BOTAŞ, TANAP, TAP, TPAO, TAQA, Bulgargaz EAD, Bulgartransgaz, İCGB, Fluxys, ROMGAZ SA, SACE, Desfa, Total Energies, FGSZ Ltd, SNAM, Uniper, Petronas, ACWA Power, Masdar, Fortescue Future Industries, WindEurope, SolarPower Europe, maliyyə təsisatlarından isə Dünya Bankı, Beynəlxalq Maliyyə Korporasiyası, Avropa Yenidənqurma və İnkişaf Bankı, Avropa İnvestisiya Bankı, Asiya İnfrastruktur və İnvestisiya Bankı, Asiya İnkişaf Bankı və digər qurumlar təmsil olunub.

**AZƏRTAC**
*3 fevral 2023-cü il*

# PREZİDENT İLHAM ƏLİYEV AVROPA İTTİFAQI KOMİSSARININ BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL EDİB

*3 fevral 2023-cü il*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 3-də Bakıda Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 9-cu və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 1-ci iclaslarında iştirak edən Avropa İttifaqının energetika məsələləri üzrə komissarı xanım Kadri Simsonun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

Dövlətimizin başçısı tədbirdə iştirakına görə Kadri Simsona təşəkkürünü bildirdi. Prezident İlham Əliyev ötən ilin iyulunda Avropa Komissiyasının Prezidenti xanım Ursula Fon der Lyayenin ölkəmizə səfəri zamanı Azərbaycan ilə Avropa İttifaqı arasında imzalanan enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumunun əhəmiyyətini vurğuladı.

Dövlətimizin başçısı Avropa İttifaqı ilə Azərbaycan arasında imzalanmış enerji sahəsində strateji tərəfdaşlıq haqqında sənədə uyğun olaraq, ölkəmizin qaz istehsalını 2027-ci ilədək artırmaq niyyətində olduğunu və Aİ-yə üzv ölkələr arasında qurulan interkonnektorlar vasitəsilə yeni bazarlara çıxış imkanlarının yarandığını diqqətə çatdırdı.

Prezident İlham Əliyev Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində Yaşıl enerji üzrə nazirlərin 1-ci iclasının, həmçinin Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan arasında nazirlər səviyyəsində görüşün keçiriləcəyini qeyd etdi.

Ölkəmizin bərpaolunan enerji sahəsində böyük resurslarının olduğunu vurğulayan dövlətimizin başçısı Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan arasında imzalanmış sənədin də ölkəmizin bərpaolunan mənbələrdən əldə edilən elektrik enerjisinin Avropa bazarına çıxarılması üçün böyük perspektivlər vəd etdiyini bildirdi.

Azərbaycan Prezidenti Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində aparılacaq müzakirələr nəticəsində yeni təşəbbüslərin və ideyaların yaranacağına ümidvar olduğunu qeyd etdi.

Kadri Simson Azərbaycan ilə Avropa İttifaqı arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumuna görə təşəkkürünü ifadə etdi və Azərbaycanın Avropa İttifaqına üzv ölkələrin qaza tələbatının ödənilməsində oynadığı rolunun, enerji təhlükəsizliyinə verdiyi töhfələrinin yüksək qiymətləndirildiyini diqqətə çatdırdı. Qonaq dedi ki, hazırda Aİ məkanında enerji təhlükəsizliyi baxımından gərgin zamanda Azərbaycanın dəstəyi və yardımı yüksək qiymətləndirilir. Energetika məsələləri üzrə komissar bildirdi ki, Aİ Azərbaycanla təbii qaz, yaşıl enerji sahələrində əlaqələri genişləndirməkdə maraqlıdır, həmçinin Azərbaycanla elektrik enerjisi ilə bağlı əməkdaşlıq imkanlarını yüksək qiymətləndirərək onu nəzərdən keçirir və bu istiqamətdə də əməkdaşlığa hazırdır.

Söhbət zamanı Azərbaycan ilə Avropa İttifaqı arasında müxtəlif sahələrdə əməkdaşlığın perspektivlərinə dair fikir mübadiləsi aparıldı. Avropa İttifaqının Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşdırılmasına verdiyi töhfəsinin və Brüssel sülh prosesinin əhəmiyyəti vurğulandı.

**AZƏRTAC**
*3 fevral 2023-cü il*

## PREZİDENT İLHAM ƏLİYEV İTALİYANIN ƏTRAF MÜHİT VƏ ENERJİ TƏHLÜKƏSİZLİYİ NAZİRİNİ QƏBUL EDİB

*3 fevral 2023-cü il*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 3-də Bakıda Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 9-cu və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 1-ci iclaslarında iştirak edən İtaliya Respublikasının ətraf mühit və enerji təhlükəsizliyi naziri Cilberto Piketto Fratini qəbul edib.

Dövlətimizin başçısı 2020-ci ildə İtaliyaya dövlət səfərini, həmçinin ötən ilin sentyabrında rəsmi səfərini xatırladı, İtaliyanın Prezidenti və digər yüksək rəsmi şəxsləri ilə görüşlərini məmnunluqla qeyd etdi. Prezident İlham Əliyev imzalanmış sənədlərə əsasən Azərbaycan–İtaliya əməkdaşlığının strateji tərəfdaşlıq ruhunda inkişaf etdiyini bildirdi, ölkələrimiz arasında siyasi dialoqun yüksək səviyyədə olduğunu dedi.

İtaliya ilə Azərbaycan arasında əməkdaşlığın yalnız enerji sahəsini deyil, çox geniş sahələri əhatə etdiyi bildirildi, elm və təhsil sahəsində əməkdaşlıq xüsusi qeyd olundu. Diqqətə çatdırıldı ki, ADA Universiteti ilə İtaliya universitetləri arasında imzalanmış sənədə uyğun olaraq, Bakıda İtaliya–Azərbaycan Universitetinin açılması mühüm əhəmiyyət daşıyır.

Eyni zamanda Azərbaycanın işğaldan azad olunmuş ərazilərində İtaliya şirkətlərinin fəal çalışdıqları vurğulandı. Diqqətə çatdırıldı ki, Azərbaycanla İtaliya arasında əməkdaşlıq bütün sahələrdə dostluq və qarşılıqlı anlaşma əsasında inkişaf edir. Həmçinin iki ölkə arasında enerji sahəsində əməkdaşlığın vacib komponenti olan TAP layihəsinin əhəmiyyəti qeyd edildi.

İtaliyalı nazir öz növbəsində qəbula görə təşəkkürünü bildirdi və Cənub Qaz Dəhlizi Məşvərət Şurasının nazirlər toplantısı çərçivəsində aparılan müzakirələrin əhəmiyyətini qeyd etdi. Nazir ölkələrimiz arasında münasibətlərin strateji tərəfdaşlıq xarakteri daşıdığını vurğuladı, Azərbaycanın İtaliyanın enerji təhlükəsizliyinin təmin olunmasında vacib rol oynadığını dedi.

Cilberto Piketto Fratin yaxın gələcəkdə TAP layihəsinin ötürücülük qabiliyyətinin artırılmasının əhəmiyyətini qeyd etdi, İtaliyanın Azərbaycandan qaz idxalının artırılmasında maraqlı olduğunu bildirdi. Qonaq Azərbaycanın böyük bərpaolunan enerji potensialına malik olduğunu deyərək İtaliya şirkətlərinin gələcəkdə bu sahədə də ölkəmizlə əməkdaşlıq etmək niyyətində olduqlarını diqqətə çatdırdı.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparıldı.

**AZƏRTAC**
*3 fevral 2023-cü il*

## PREZİDENT İLHAM ƏLİYEV "AZƏRİ–MƏRKƏZİ–ŞƏRQİ" PLATFORMASININ ÜST MODULLARININ DƏNİZƏ RƏMZİ YOLA SALINMASI MƏRASİMİNDƏ İŞTİRAK EDİB

*4 aprel 2023-cü il*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 4-də Bayıl tikinti-quraşdırma sahəsində "Azəri–Mərkəzi–Şərqi" platformasının üst modullarının dənizə rəmzi yola salınması mərasimində iştirak edib.

"BP"nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Counz və "Azəri–Mərkəzi–Şərqi" layihəsinin Baş direktoru Nil Filips dövlətimizin başçısına layihə üzrə görülən işlər barədə məlumat verdilər.

Bildirildi ki, "Azəri–Mərkəzi–Şərqi" layihəsi üzrə yekun investisiya qərarı 2017-ci ildə "Azəri–Çıraq–Günəşli" (AÇG) üzrə Hasilatın Pay Bölgüsü Sazişinin (HPBS) 2049-cu ilə qədər uzadılmasından sonra AÇG tərəfdaşlarının ilk böyük investisiya qərarıdır. Dəyəri 6 milyard dollar olan layihəyə yeni dəniz platforması və gündəlik 100 min barelədək hasilat gücündə digər qurğular daxildir. Layihənin istismar müddəti ərzində ümumilikdə 300 milyon barelədək neftin hasil olunacağı proqnozlaşdırılır.

Bu layihə çərçivəsində dənizdə suyun dərinliyinin təxminən 140 metr olan sahəsində – "Mərkəzi Azəri" və "Şərqi Azəri" platformalarının arasında 48 şaxtadan ibarət yeni hasilat, qazma və yaşayış platforması quraşdırılacaq. Layihəyə həmçinin yataqdaxili yeni sualtı boru kəmərləri də daxildir. Bu xətlər platformadan hasil ediləcək neft və qazın Səngəçal terminalına ötürülməsi üçün mövcud AÇG "Faza 2" sualtı ixrac kəmərlərinə qoşulacaq.

Bundan əlavə, laya vurulan suları "Mərkəzi Azəri" kompressor və suvurma platformasından "Azəri–Mərkəzi–Şərqi" qurğularına nəql etmək məqsədilə "Azəri–Mərkəzi–Şərqi" və "Şərqi Azəri" platformaları arasında suvurma boru xətti olacaq.

Məlumat verildi ki, "Azəri–Mərkəzi–Şərqi" platformasının üst modullarına neft və qaz emalı qurğuları, inteqrasiya edilmiş qazma qurğusu, qaz kompressoru və yaşayış blokları daxildir. Modulların layihələndirilmiş çəkisi 19 min 600 tondur.

Üst modullar Bayılda yerləşən tikinti-quraşdırma sahəsində "Azfen" şirkəti tərəfindən yerli infrastruktur və resurslardan istifadə olunmaqla inşa edilib. Hazırda tikinti işlərinin və istismar sınaqlarının son mərhələsi həyata keçirilir və bu sınaqların artıq 95 faizi tamamlanıb.

Üst modulların tikinti işlərinin kulminasiya nöqtəsi Xəzərdə "BP"nin ilk dəfə icra etdiyi "qaldırma və sürüşdürmə" əməliyyatı olub. Bu əməliyyat zamanı iki nəhəng qazma modulu təhlükəsiz və səmərəli şəkildə lazımi yüksəkliyə qaldırılaraq relslərlə sürüşdürmə üsulu ilə "Azəri–Mərkəzi–Şərqi" platformasının üst tikililər blokunun üzərinə yerləşdirilib.

Layihənin pik dövründə üst modulların tikintisi işlərinə 4400 nəfərədək işçi cəlb edilib və onların 90 faizindən çoxu Azərbaycan vətəndaşı olub.

Sonra görülən işlərlə bağlı videoçarx nümayiş olundu.

Platforma Səngəçal terminalından, yəni uzaq məsafədən idarə ediləcək. İdarəetmə mexanizminə avtomatlaşdırılmış innovativ sistem daxil edilib.

Yeni "Azəri–Mərkəzi–Şərqi" platformasının əməliyyatlar üzrə meneceri Fuad İsmayılov: Salam, hörmətli cənab Prezident. Biz hazırda platformanın yaşayış blokunda əməliyyatların idarə olunması mərkəzindəyik. Bu mərkəzin əsas iş prinsipi Səngəçal terminalındakı idarəetmə otağında və platforma arasında rabitə əlaqələri kəsildikdə və fövqəladə vəziyyətdə bütün əməliyyatları buradan təşkil etməkdir.

Cənab Prezident, onu da fəxrlə qeyd etmək istəyirəm ki, bu, "BP" şirkətinin dünyada ilk dəfə olaraq tətbiq etdiyi uzaq məsafədən idarəedilən platformasıdır. Hazırda bizim əməkdaşımız Səngəçal terminalındakı əsas idarəetmə otağından Sizi salamlayacaq.

**Baş operator Seyidağa Kərimli:** Salam, hörmətli cənab Prezident. Mən Səngəçal terminalındakı yeni "Azəri–Mərkəzi–Şərqi" platformasının əsas idarəetmə otağının baş operatoruyam. Hazırda buradan bütün əməliyyatlarımızın idarə olunduğu nəzarət otağındayam. Burada tətbiq olunan texnologiya ən müasir, sınaqdan keçmiş və beynəlxalq standartlara uyğundur.

Cənab Prezident, "BP" şirkətinin dünyada ilk dəfə olaraq tətbiq etdiyi uzaq məsafədən idarə prinsipi çərçivəsində əsas idarəetmə otağımız dəniz platformasından, ümumiyyətlə, qaz quyularının istismarı, alınmış xam neft və qazın ilkin ayrılması və nəqli prosesləri daxil olmaqla, bütün əməliyyatların idarə edilməsi üçün layihələndirilmişdir. Diqqətinizə görə minnətdaram.

**Prezident İlham Əliyev:** Təbrik edirəm. Sizə uğurlar.

**Əməkdaşlar:** Çox sağ olun. Təşəkkür edirik.

Prezident İlham Əliyev və "BP"nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Counz "Azəri–Mərkəzi–Şərqi" platformasının üst modulları qurğusunun dənizə rəmzi yola salınmasını bildirən düyməni basdılar.

Bildirildi ki, tikinti işlərinin və istismar sınaqlarının 2023-cü ilin ikinci rübündə tamamlanacağı gözlənilir. Həmin vaxt qurğu STB-1 daşıma barjına yüklənəcək, dənizə göndəriləcək və AÇG yatağı sahəsindəki dayaq blokunun üzərinə quraşdırılacaq. Tikinti işlərinin və istismar sınaqlarının dənizdə həyata keçirilən hissəsi tamamlandıqdan sonra "Azəri–Mərkəzi–Şərqi" platformasından ilk neftin 2024-cü ilin əvvəllərində əldə olunması üçün birinci quyunun qazılmasına başlanacaq.

Xatırladaq ki, "Azəri–Mərkəzi–Şərqi" platformasının dayaq bloku ötən il dekabrın 13-də Prezident İlham Əliyevin iştirakı ilə dənizə yola salınıb.

Bütün istismar sınaqları bitdikdən sonra dayaq bloku dənizə yola salınıb və suyun 137 metr dərinliyində öz daimi yerinə quraşdırılaraq üst modulları qəbul etməyə artıq hazırdır.

Qeyd edək ki, "Azəri–Mərkəzi–Şərqi" layihəsi üzrə tikinti işləri 2019-cu ildə başlanıb və iş həcminin 85 faizi artıq tamamlanıb. Layihənin pik dövründə tikinti işlərinə 8500 nəfərdən çox işçi cəlb edilib.

Sonda xatirə şəkli çəkdirildi.

**AZƏRTAC**
*4 aprel 2023-cü il*

## SOFİYADA BOLQARISTAN, RUMINİYA, MACARISTAN, SLOVAKİYANIN ÖTÜRÜCÜ SİSTEM OPERATORLARI VƏ SOCAR ARASINDA ANLAŞMA MEMORANDUMU İMZALANIB

*25 aprel 2023-cü il*

### Azərbaycan Prezidenti İlham Əliyev imzalanma mərasimində iştirak edib

Aprelin 25-də Sofiyada "Bulgartransgaz" (Bolqarıstan), "Transgaz" (Rumıniya), FGSZ (Macarıstan) və "Eustream" (Slovakiya) və Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti (SOCAR) arasında əməkdaşlığın təşviqi ilə bağlı Anlaşma Memorandumu"nun imzalanması mərasimi keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Bolqarıstan Respublikasının Prezidenti Rumen Radev imzalanma mərasimində iştirak ediblər.

Anlaşma Memorandumunu Azərbaycanın energetika naziri Pərviz Şahbazov, Bolqarıstanın energetika naziri Rosen Hristov, Macarıstanın xarici işlər və ticarət naziri Peter Siyarto, Rumıniyanın energetika naziri Virgil-Daniel Popesku və Slovakiyanın iqtisadiyyat naziri Karel Hirman imzaladılar.

İmzalanma mərasimində Avropa İttifaqının energetika məsələləri üzrə komissarı xanım Kadri Simsonun videomüraciəti dinlənildi. Xanım Kadri Simson imzalanmış Anlaşma Memorandumunun regiona əlavə qaz təchizatı baxımından alternativ marşrutlar üçün çərçivə təmin edəcəyini vurğuladı, bu məsələdə Azərbaycanın roluna toxunaraq dedi: "Azərbaycan Avropa İttifaqının etibarlı tərəfdaşı olduğunu sübuta yetirdi. Bu qış enerji təchizatının təhlükəsizliyini təmin etmək üçün Azərbaycan tərəfindən enerji təchizatı həlledici olmuşdur. Komissiya Xəzər dənizindən təbii qazın Mərkəzi və Şərqi Avropaya çatdırılması üçün alternativ marşrutların təmin edilməsi üzrə əlavə səyləri dəstəkləyir".

Sonra çıxışlar oldu.

***

Azərbaycan dövlətinin başçısı mərasimdə çıxış etdi.

**PREZİDENT İLHAM ƏLİYEVİN ÇIXIŞI**

– Hörmətli Prezident Radev.

Hörmətli nazirlər, xanımlar və cənablar.

Əvvəlcə, mən bu təşəbbüsə görə Prezident Radevə təşəkkürümü bildirmək istərdim. Bu, enerji resurslarının daha da şaxələndirilməsi, o cümlədən enerji təhlükəsizliyinin gücləndirilməsi istiqamətində vaxtında atılan çox mühüm addımdır. Altı ay əvvəl mən Bolqarıstana rəsmi səfər etdim. Beləliklə, altı ay keçdikdən sonra yenə buradayam. Həmin vaxt, biz Yunanıstan ilə Bolqarıstan arasında interkonnektor vasitəsilə inteqrasiya mərasimində iştirak etdik. Bu layihə Azərbaycanın təbii qaz təchizatının coğrafiyasını genişləndirmək imkanını yaratdı. Bu layihə Avropada enerji təhlükəsizliyinin gücləndirilməsinə artıq töhfə verir. Bir ay əvvəl Prezident Radev Azərbaycanda bizim qonağımız oldu. Bu, həqiqətən, ölkələrimiz arasında əməkdaşlıq səviyyəsini göstərir. O, siyasi dialoqun dinamikasını nümayiş etdirir və göstərir ki, Bolqarıstan və Azərbaycan nəinki strateji tərəfdaş, o cümlədən əsl dost ölkələrdir.

Bu gün imzalanmış Anlaşma Memorandumu icra olunduqdan sonra Avropada enerji təhlükəsizliyini birmənalı olaraq gücləndirəcək və Azərbaycan üçün daha çox Avropa ölkəsinə daha çox qazı ixrac etməyə fürsət yaradacaq. Bu gün Enerji Komissarı xanım Simsonun, Avropa Komissiyasının digər rəsmilərinin və dostlarımızın artıq qeyd etdiyi kimi, Azərbaycan Avropanın, mən deyərdim ki, nəinki enerji, o cümlədən bir sıra digər sahələrdə də etibarlı tərəfdaşıdır. Sizə məlumat vermək istəyirəm ki, Avropa İttifaqının 9 üzv dövləti ilə Azərbaycan "Strateji Tərəfdaşlıq haqqında" Bəyannamə və ya Sazişlərə imza atıb və qəbul edib. Bu o deməkdir ki, Avropa İttifaqına üzv dövlətlərin üçdəbiri Azərbaycanın strateji tərəfdaşıdır və bu tərəfdaşlığın çox güclü gələcəyi var.

Əminəm ki, bu gün keçirilən mühüm mərasim əməkdaşlığımızın gücləndirilməsində atılan növbəti addım olacaq. Ötən ilin iyul ayında Azərbaycan və Avropa Komissiyası "Enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu"nu imzaladılar. Onun əsasında, biz 2027-ci ilə qədər Avropa İttifaqı bazarına qaz təchizatımızı iki dəfə artırmağı planlaşdırırıq. 2021-ci ildə biz Avropaya 8 milyard kubmetr qazı çatdırdıq, bu il isə 12 milyard kubmetri hədəfləyirik. Beləliklə, həmin həcm bu il üçün planlaşdırdığımız 24,5 milyard kubmetr səviyyəsində ümumi qaz ixracımızın təxminən yarısını təşkil edəcək. Təbii ki, qaz hasilatı və ixracımız artacaq. Çünki biz hasilatı mövcud qaz yataqlarında artıracağıq və gələn illərdə isə yeni yataqlarda təbii qazın hasilatını

gözləyirik. Bu gün Azərbaycan qazı Gürcüstana, Türkiyəyə, Yunanıstana, Bolqarıstana və İtaliyaya ixrac edilir. Bu ildən başlayaraq qaz Rumıniyaya da çatdırılır. Əgər bütün lazımi interkonnektorlar olarsa, bu ilin sonundan etibarən biz Macarıstana və Slovakiyaya qaz təchizatına başlamağı planlaşdırırıq.

Biz yerli qazpaylayıcı sistemin qurulması məqsədilə Albaniya ilə danışıqlar prosesindəyik. Çünki Cənub Qaz Dəhlizi Albaniyanın ərazisindən keçir. Eyni zamanda Slovakiya “Həmrəylik Halqası”nın üzvü kimi, əminəm ki, yaxın vaxtlarda enerji sahəsində bizim tərəfdaşımıza çevriləcək. Biz qaz təchizatımızın coğrafiyasını 6 ölkədən, ən azı 10 ölkəyə qədər genişləndirəcəyik. Mən “ən azı” ona görə deyirəm ki, fikrimcə, bu, planların sonu deyil. Biz Avropanın qaz bazarında fəaliyyətimizi daha da genişləndirməyi planlaşdırırıq. Tərəfdaşlardan ibarət güclü komandanı yaratmaq kimi bu təşəbbüsdə Bolqarıstan Prezidenti cənab Radevin xüsusi rolunu qeyd etmək istərdim. Əminəm ki, “Həmrəylik Halqası” birgə geniş planlarımızın icrasında mühüm rol oynayacaq.

Mən həmçinin Sizə bildirmək istərdim ki, təbii qaz Azərbaycanın Avropaya ixrac etdiyi yeganə enerji məhsulu deyil. İyirmi ildən artıqdır ki, biz xam nefti ixrac edən iri təchizatçı kimi etibarlı tərəfdaşıq. Neft-kimya məhsulları və elektrik enerjisi, həmçinin ixracımızın bir hissəsidir. Mən həmçinin enerji inkişaf yolunu xatırlatdığına görə Slovakiyanın nazirinə təşəkkürümü bildirmək istəyirəm. Tam həqiqətdir ki, Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra üç ildən az müddətdə, 1994-cü ildə müqavilə imzaladı. Sonradan həmin müqavilə “XX əsrin müqaviləsi” adlandırıldı. Ölkəmiz ilk dəfə olaraq Xəzər dənizində nefti hasil və ixrac etmək məqsədilə xarici neft şirkətlərini dəvət etdi. Bir sözlə, bu gün biz XXI əsrin layihəsini həyata keçiririk və onun miqyası genişlənir.

Enerji sahəsində etibarlı tərəfdaş kimi Azərbaycan bütün hədəflərə nail olmaq üçün bu istiqamətdə addımları davam etdirməyə birmənalı olaraq hazırdır. Eyni zamanda mən sizə bildirmək istəyirəm ki, üç əsas enerji infrastrukturu layihəsinin uğurlu tamamlanmasından sonra, yəni iki neft boru kəməri – biri Xəzərdən Aralıq dənizinə, digəri isə Xəzərdən Qara dənizə gedən boru kəməri və uzunluğu 3500 kilometr olan Cənub Qaz Dəhlizindən sonra, hazırda biz Azərbaycanın bərpaolunan enerjinin istehsalı və ixracı mənbəyinə çevrilməsi üzərində çalışırıq. Azərbaycan 25 qiqavatdan artıq bərpaolunan enerjinin istehsalı məqsədilə bərpaolunan enerji sahəsində aparıcı beynəlxalq şirkətlərlə müqavilələri və anlaşma memorandumlarını imzalayıb. İlk külək və günəş enerjisi stansiyalarının tikintisi başlayıb. Azərbaycanda bərpaolunan enerjinin hesablanmış potensialı təxminən 200 qiqavatdır. Bu həcmə Xəzər dənizinin Azərbaycan sektorunda 157 qiqavat da aiddir. Əlbəttə ki, yaşıl enerjinin əsas ixrac istiqaməti Avropadır.

Beləliklə, biz fəal enerji diplomatiyamızı davam etdiririk. Neft meqalayihələrindən tutmuş, hazırda qaz, sonra yaşıl hidrogenə qədər layihələr var. Bütün bunlardan əlavə,

bizim aramızda güclü ötürmə xətləri olacaq və bu, tamamilə yeni vəziyyət yaradacaq. Bir sözlə, biz Avrasiyanın enerji xəritəsini yenidən cızırıq.

Yekun olaraq hamımızı Anlaşma Memorandumunun imzalanması münasibətilə təbrik etmək istəyirəm və birgə planımızın ən yaxın vaxtlarda icrasına ümid edirəm. Sağ olun.

***

Qeyd edək ki, Anlaşma Memorandumu Azərbaycandan Avropaya əlavə qazın tədarükü üçün 4 ötürücü sistem operatoru ilə SOCAR arasında əməkdaşlığın istiqamətlərini müəyyən edir. Əlavə qaz tədarükü "Həmrəylik halqası" adlandırılan Bolqarıstan, Rumıniya, Macarıstan və Slovakiyanın təkmilləşdirilmiş ötürücü şəbəkə sistemləri vasitəsilə həyata keçiriləcək.

**AZƏRTAC**
*25 aprel 2023-cü il*

## SOFİYADA SOCAR-IN BOLQARISTANDAKI OFİSİNİN AÇILIŞI OLUB

*25 aprel 2023-cü il*

Aprelin 25-də Sofiyada SOCAR-ın Bolqarıstan Respublikasındakı ofisinin açılışı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Bolqarıstan Respublikasının Prezidenti Rumen Radev açılış mərasimində iştirak ediblər.

Dövlət başçıları ofis binasının rəsmi açılışını bildirən lenti kəsdilər, burada yaradılan şəraitlə tanış oldular.

Binada ofis əməkdaşlarının fəaliyyəti üçün hər cür şərait yaradılıb.

Qeyd edək ki, enerji sahəsində əməkdaşlıq sürətlə inkişaf edən Azərbaycan–Bolqarıstan əlaqələrində mühüm yer tutur. Azərbaycan Prezidenti İlham Əliyevin Bolqarıstana sonuncu – 2022-ci il 30 sentyabr – 1 oktyabr tarixli rəsmi səfəri və həmin səfər çərçivəsində Yunanıstan–Bolqarıstan qaz interkonnektorunun istismara verilməsi ölkələrimiz arasında enerji sahəsində əməkdaşlıqda tamamilə yeni səhifə açdı. Dövlətimizin başçısının bugünkü səfəri zamanı Bolqarıstan, Rumıniya, Macarıstan, Slovakiyanın ötürücü sistem operatorları və SOCAR arasında Anlaşma Memorandumunun imzalanması isə enerji resurslarının nəqlinin daha da şaxələndirilməsi, o cümlədən enerji təhlükəsizliyinin gücləndirilməsi istiqamətində vaxtında atılan çox mühüm addımdır. Bütün bunlar SOCAR-ın Bolqarıstandakı fəaliyyətinin genişləndirilməsi zərurətini yaradır. Bolqarıstanın tənzimləyici qurumu artıq "SOCAR Trading"ə Avropa ərazisində təbii qaz ticarəti ilə məşğul olmaq üçün lisenziyanı təsdiqləyib. SOCAR-ın Bolqarıstandakı ofisinin açılması şirkətin Avropa bazarında fəaliyyətinin daha da genişləndirilməsinə mühüm töhfə verəcək.

**AZƏRTAC**
*25 aprel 2023-cü il*

## PREZİDENT İLHAM ƏLİYEV "TOTAL ENERGİES" ŞİRKƏTİNİN KƏŞFİYYAT VƏ HASİLAT ÜZRƏ PREZİDENTİNİ QƏBUL EDİB

*11 may 2023-cü il*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 11-də "Total Energies" şirkətinin kəşfiyyat və hasilat üzrə prezidenti Nikolas Terrazı qəbul edib.

Görüşdə SOCAR ilə "Total Energies" arasında uzun illər ərzində uğurlu əməkdaşlığın həyata keçirildiyi bildirildi. "Abşeron" qaz yatağında yaxın aylarda nəzərdə tutulan hasilatın başlanılması məsələsi müzakirə olundu.

Nikolas Terraz "Total Energies" şirkətinin Azərbaycanla əməkdaşlığa sadiqliyini və davamlı marağını vurğulayaraq ölkəmizdəki fəaliyyətlərini genişləndirmək niyyətində olduqlarını bildirdi.

Söhbət zamanı ənənəvi neft və qaz sahəsində əməkdaşlıqdan əlavə bərpaolunan enerji istehsalı sahəsində də mümkün layihələr barədə fikir mübadiləsi aparıldı.

**AZƏRTAC**
*11 may 2023-cü il*

# AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ DÖVLƏT KATİBİNİN ENERJİ EHTİYATLARI ÜZRƏ KÖMƏKÇİSİNİ QƏBUL EDİB

*31 may 2023-cü il*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 31-də ABŞ Dövlət katibinin enerji ehtiyatları üzrə köməkçisi Cefri Pyattı qəbul edib.

Cefri Pyatt Bakıda Enerji Həftəsinin əhəmiyyətini qeyd etdi. Qonaq Avropanın Enerji təhlükəsizliyinin təmin olunmasında Azərbaycanın liderlik rolunu yüksək qiymətləndirdi.

Prezident İlham Əliyev Cefri Pyattın bu tədbirdə iştirakının önəminə toxunaraq ABŞ hökumətinin Azərbaycanın enerji sahəsində irəli sürdüyü təşəbbüsləri daim dəstəklədiyinə görə minnətdarlığını bildirdi. Dövlətimizin başçısı ölkəmizin uzun illər ABŞ ilə enerji sahəsində fəal sürətdə əməkdaşlıq həyata keçirdiyini və genişmiqyaslı birgə layihələri uğurla reallaşdırdığını qeyd etdi. Azərbaycan Prezidenti bu xüsusda ABŞ hökumətinin TAP layihəsinə verdiyi dəstəyi vurğuladı.

Görüşdə Azərbaycanın bölgənin enerji təhlükəsizliyinə verdiyi töhfə, ölkəmizdə bərpaolunan enerji sektorunun inkişafı istiqamətində sürətlə həyata keçirilən layihələr barədə fikir mübadiləsi aparıldı.

Söhbət zamanı Azərbaycanın enerji təchizatında sabitləşdirici rol oynadığı xüsusi vurğulandı, ölkəmizin Orta Dəhliz çərçivəsində enerji və qeyri-enerji məhsulları üçün dayanıqlı tranzit və nəqliyyat imkanlarının yaradılması məsələsinə toxunuldu.

**AZƏRTAC**
*31 may 2023-cü il*

# PREZİDENT İLHAM ƏLİYEV BAKI ENERJİ HƏFTƏSİ ÇƏRÇİVƏSİNDƏ 28-Cİ BEYNƏLXALQ XƏZƏR NEFT VƏ QAZ SƏRGİSİNİN RƏSMİ AÇILIŞ MƏRASİMİNDƏ İŞTİRAK EDİB

*31 may 2023-cü il*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 31-də Bakı Ekspo Mərkəzində Bakı Enerji Həftəsi çərçivəsində 28-ci Beynəlxalq Xəzər Neft və Qaz – "Caspian Oil&Gas" və 11-ci Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji – "Caspian Power" sərgilərinin açılışında iştirak edib. Tədbirin moderatoru, Böyük Britaniyanın "ICA Group" şirkətinin İdarə Heyətinin məsləhətçisi Rassel Teylor çıxış edərək dedi:

– Hörmətli Zati-aliləri cənab Prezident Əliyev.

Xanımlar və cənablar.

Hörmətli qonaqlar.

Burada Bakı Enerji Həftəsinin təşkilat komitəsi adından sizi salamlayıram. Bu il 320 fərqli şirkət 35 ölkəni təmsil edir və bu da toplam olaraq keçən ilin sərgisi ilə müqayisədə 25-30 faiz artım deməkdir. Budəfəki Bakı Enerji Həftəsi eyni zamanda önəmli bir hadisə ilə – Azərbaycanın Ümummilli lideri Heydər Əliyevin yubileyi ilə üst-üstə düşür. Prezident Əliyev 2023-cü ili "Heydər Əliyev İli" elan edib və buna görə də bütün sərgilərdə, əlbəttə ki, bu mövzuya ayrıca xüsusi bir diqqət yetiriləcəkdir. Sərgi çərçivəsində Ulu öndərin 100 illik yubileyinə həsr olunmuş stendimiz də vardır.

Əlbəttə ki, biz böyük məmnuniyyətlə Azərbaycan Respublikasının Energetika Nazirliyinə təşəkkürümüzü, həmçinin SOCAR-a – Azərbaycan Dövlət Neft Şirkətinə də minnətdarlığımızı bildiririk. Bakı Enerji Həftəsinə dəstəyinizə görə minnətdaram.

Hörmətli Zati-aliləri, biz eyni zamanda bu tədbiri dəstəklədiyinizə görə Sizə ayrıca minnətdarıq. Ənənəvi olaraq açılış mərasimində iştirakınız bu önəmi bir daha vurğulayır və bütövlükdə enerji sahəsinə olan bir töhfədir.

Xanımlar və cənablar, mən sizin hər birinizə uğurlar və bu həftə ərzində məhsuldar görüşlər arzulayıram, təşəkkür edirəm. İndi isə sözü Zati-aliləri, cənab Prezidentə verirəm. Buyurun, cənab Prezident.

***

Dövlətimizin başçısı açılış mərasimində çıxış etdi.

**PREZİDENT İLHAM ƏLİYEVİN ÇIXIŞI**

– Hörmətli xanımlar və cənablar.

Hörmətli qonaqlar.

Bakı Enerji Həftəsinə xoş gəlmisiniz. Əvvəlcə bu mühüm tədbirin təşkilatçılarına öz təşəkkürümü bildirirəm. Artıq qeyd edildiyi kimi, 30 ildir – 1994-cü ildən etibarən Xəzər neft-qaz sərgisi Azərbaycana öz potensialını beynəlxalq investorlara təqdim etməyə imkan yaradır. Biz 1994-cü ildə neft strategiyamızın – Ulu öndər Heydər Əliyevin neft strategiyasının astanasındaydıq. Bu il biz müasir Azərbaycanın yaradıcısı Ulu öndərin 100 yaşını qeyd edirik. 1994-cü ildə ilk neft-qaz sərgisi keçirildi və həmin il məhz "Əsrin müqaviləsi" imzalandı ki, o, ölkəmizdə vəziyyəti kökündən dəyişdi, sərmayələr cəlb edildi, geniş iqtisadi sabitlik təmin olundu və əlbəttə ki, Azərbaycanın firavan gələcəyinin təməli qoyuldu.

1994-cü ildə Birinci Qarabağ müharibəsi başa çatdı, atəşkəs imzalandı və ondan bir neçə ay sonra "Əsrin müqaviləsi" imzalandı. Yəni o zaman Azərbaycan olduqca riskli bir məkan sayılırdı, müstəqilliyini yeni əldə etmişdi, müstəqilliyimizin 3 yaşı var idi və əlbəttə ki, bir çox insan Azərbaycan haqqında məlumata malik deyildi, ölkəmizin harada yerləşdiyini bilmirdi və ölkəmiz keçid dövründə idi, sovet sistemindən bazar iqtisadiyyatına keçid dövrünü yaşayırdı. Bununla yanaşı, ərazilərimizin işğalı, bir milyondan artıq qaçqın və köçkün, vətəndaş qarşıdurması – bütün bunlar, əlbəttə ki, sərmayəçiləri bir növ qorxudurdu. Ona görə də bir çox səylər tələb edildi ki, biz tərəfdaşlarımızı buraya dəvət edə bilək. Məsələn, bizim "BP" kimi 30 illik tərəfdaşımızı və ilk konsorsiumun ovaxtkı üzvlərini də buraya dəvət etmək üçün olduqca böyük səylər lazım oldu. Bizim neft kəmərlərimiz yox idi, infrastrukturumuz yox idi, hətta ölkədə mülki infrastruktur da geridə qalmışdı. Ona görə də 1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanması yeganə addım idi ki, o, Azərbaycana dayanıqlı inkişaf, iqtisadi müstəqillik və bunun nəticəsində də siyasi müstəqillik gətirdi.

Xəzər Neft-Qaz Sərgisi 1994-cü ildə təşkil ediləndə ilk tədbir idi ki, Azərbaycanı dünyanın beynəlxalq enerji ictimaiyyətinə təqdim etdi. Biz təşkilatçılara davamlı dəstəyə görə təşəkkür edirik, eyni zamanda onu da vurğulamaq istəyirəm və hesab edirəm ki, Bakı Enerji Həftəsi enerji sahəsində aparıcı beynəlxalq tədbirdir. Mənim sözümün

təsdiqi o ola bilər ki, kimlər bu tədbirə öz məktublarını ünvanlayır – ABŞ Prezidenti Co Bayden və Böyük Britaniyanın Baş naziri Sunak. Bu onun göstəricisidir ki, bizim bu tədbir qlobal əhəmiyyətə malikdir. Bu fürsətdən istifadə edərək, mən ABŞ Prezidentinə, Böyük Britaniyanın Baş nazirinə və onların buradakı nümayəndələrinə təşəkkürümü bildirmək istəyirəm ki, bizə xoş sözlər göndəriblər və onların sözləri bizi ruhlandırır.

Biz 30 il ərzində enerji sahəsində uğurlu əməkdaşlıq edirik. Bu gün isə artıq bu sahələr şaxələndirilir, ABŞ və Böyük Britaniya hökumətləri hər zaman bizim bütün təşəbbüslərimizi dəstəkləyiblər ki, Azərbaycan öz resurslarını inkişaf etdirə bilsin. Əvvəlcə bu, neftə aid idi, indi isə qaz sahəsi burada söhbət mövzusudur. Biz nəhəng enerji infrastrukturu yaratmışıq ki, bu, Avrasiyanın enerji xəritəsini dəyişdirib. Bu gün Azərbaycan istehsalçı olaraq həm tranzit ölkələr, həm də istehlakçılar üçün daha təhlükəsiz şərait yaradıb. Bu gün enerji təhlükəsizliyi, əlbəttə ki, milli təhlükəsizliyə bərabərdir və hətta milli təhlükəsizlik gündəliyində ən başlıca yeri tutur.

Bununla yanaşı, mən Avropa İttifaqının burada nümayəndəsini görməyə şadam. Bildiyiniz kimi, Avropa İttifaqı ilə Azərbaycan ötən ilin iyulunda enerji sahəsində strateji tərəfdaşlığa dair Anlaşma Memorandumu imzalayıb. Bu, uğurla icra edilir. Biz artıq enerji dialoqumuzu başlamışıq, uğurla davam edir. Biz Avropa İttifaqı ilə bərabər, Cənub Qaz Dəhlizi Məşvərət Şurasının üzvləriyik, o hər il fevral ayında Bakı şəhərində baş tutur. O da çox böyük əhəmiyyətə malikdir ki, bizim bütün səylərimiz əlaqələndirilir. Cənub Qaz Dəhlizi artıq istifadəyə veriləndən sonra belə, bu gün bizim yeni vəzifələrimiz var. Ona görə də Avropa İttifaqı ilə Azərbaycanın əməkdaşlığının müsbət məqamları olduqca çoxdur və gələcək potensial da olduqca genişdir.

Biz özümüzü enerji sahəsində nəhəng transformasiya prosesinin tərkib hissəsi hesab edirik. Azərbaycan çalışır ki, bu məsələdə geridə qalmasın, əslində, lider, aparıcı ölkə olsun. Burada söhbət yenilənən, bərpaolunan enerjidən gedir. Mən çox şadam ki, yenilənən enerji ilə bağlı şirkətlər bu gün burada olduqca böyük çoxluq təşkil edir. Əminəm ki, illər keçdikcə bu şirkətlərin sayı artacaq. Yəni biz tərəfdaşlarımızla birlikdə neft kəmərləri inşa etdik, neft yataqlarına sərmayə qoyduq, daha sonra qaz infrastrukturu inşa etdik. Cənub Qaz Dəhlizi bizim birgə tarixi nailiyyətimizdir, 3500 kilometrdən artıq neft kəmərlərindən ibarət bir sistemdir və o, enerji təhlükəsizliyi və enerji şaxələndirilməsində müstəsna rol oynayır.

Mən hər il Xəzər Neft-Qaz Sərgisində çıxış edəndə deyirdim ki, enerji təhlükəsizliyi təkcə marşrutların şaxələndirilməsi deyil, bu, mənbələrin şaxələndirilməsidir. Bu gün hamı bunu artıq aydın görür ki, bizim halda bu hər iki məsələdir – həm marşrutlar şaxələndirilir, həm də mənbələr şaxələndirilir. Bizim bu işə çox sadiq olan bir heyətimiz var – beynəlxalq maliyyə institutları, biz hər birimiz vahid komanda kimi çalışırıq ki,

enerji təhlükəsizliyini gücləndirək, bir-birimizə müəyyən çətinliklərin öhdəsindən gəlmək üçün dəstək olaq. Onlar situativ çətinliklər və ya strateji çətinliklər ola bilər. Biz bu işdə bir yerdəyik. Mən çox fəxr edirəm ki, Avropa İttifaqının liderləri Azərbaycanı etibarlı tərəfdaş və ümumavropa qaz təchizatçısı adlandırır. Bu çox vacib bir məsələdir.

Sonuncu Bakı Enerji Həftəsindən bu günə qədər keçirilən tədbirlərə nəzər salsaq, görərik ki, bu gün daha çox Avropa ölkəsi Azərbaycanla əməkdaşlıq edir. Mən sonuncu sərgidən bu yana bir neçə mühüm nailiyyəti qeyd edə bilərəm. İyulda biz Avropa İttifaqı ilə enerji sahəsində strateji tərəfdaşlığa dair Anlaşma Memorandumunu imzaladıq. Bizim planımız ondan ibarətdir ki, 2027-ci ilə qədər Avropa bazarına qaz təchizatımızı iki dəfə artıraq. Bu olduqca real rəqəmdir. Bizim qaz təchizatımızın dinamikasına nəzər salsaq, görərik ki, ötən il 8 milyard kubmetr idi, bu il 12 milyard kubmetr nəql edəcəyik. Bu bizim ümumi ixracımızın yarısıdır və 2027-ci il üçün biz bu rəqəmi 20 milyarda çatdıracağıq. Bunun üçün mənbələr artıq var, onlardan biri bizim nəhəng "Şahdəniz" yatağımızdır, digər yataq "Abşeron"dur. Ümid edirəm ki, olduqca qısa bir zamanda "Abşeron"dan çox yaxşı xəbərlər alacağıq. Oradan çox qısa bir zamanda ilk qaz alacağımıza dair xəbər gözləyirik.

Biz strateji tərəfdaşımız olan "BP" şirkəti ilə dərin qatlardan qaz hasilatı üzrə layihələr həyata keçiririk. Bütün işlər plana uyğun getsə, gələn ilin sonuna qədər biz böyük dərinlikdən ilk qaz alacağıq. Digər layihələrimiz var ki, biz bazara əlavə qaz həcmi çıxara biləcəyik. Eyni zamanda enerji səmərəliliyi və bərpaolunan enerji məsələsi – bizim Avropa İttifaqı ilə bu barədə də dialoqumuz olub. Bunun nəticəsində biz elektrik enerjisinin istehsalı üçün qaza qənaət edəcəyik və həmin qazı artıq beynəlxalq bazarlara çıxaracağıq.

Digər vacib tədbirlərdən biri Yunanıstan–Bolqarıstan interkonnektorunun açılışı idi. Mən həmin tədbirdə iştirak etdim. Bunun nəticəsində artıq Azərbaycan Bolqarıstana da qaz nəql edəcək. Biz Bolqarıstan vasitəsilə digər ölkələrə də qazın nəqli imkanlarını nəzərdən keçiririk və tezliklə qonşu ölkələrə də bizim qazımız nəql ediləcək. Rumıniya artıq bu əməkdaşlıq formatının üzvüdür. Hər şey plana uyğun – yəni bu ilin sonuna qədər – getsə və bütün interkonnektorlar vaxtında inşa edilsə, bizim qazımız Macarıstana və Serbiyaya nəql ediləcək. Bununla da bizim qaz ixracımızın coğrafiyası genişlənəcəkdir.

Ötən ilin dekabr ayında Buxarest şəhərində yaşıl enerjiyə dair digər bir mühüm tədbir keçirildi. Azərbaycan, Gürcüstan, Macarıstan, Rumıniya bir araya gəldi və Avropa Komissiyasının Prezidenti də həmin tədbirdə iştirak etdi. Orada yaşıl enerjiyə və transmissiyaya dair müvafiq sənəd imzalandı. Əminəm ki, bu, qlobal əhəmiyyətə malik bir layihə olacaqdır. Bu layihə daha çox ölkələr və şirkətlər cəlb edəcəkdir. Biz artıq təşkilat komitəsinin ilk iclasını keçirdik və razılıq əldə olundu. Belə ki, layihə çərçivəsində Xəzər dənizinin Azərbaycan sektorundan əldə olunacaq külək enerjisini ötürücü xətlər və Qara

dənizin dibi ilə çəkiləcək sualtı kabel vasitəsilə Avropa bazarlarına nəqli nəzərdə tutulur.

Biz indi elə bir mərhələdəyik ki, layihənin texniki-iqtisadi əsaslandırılması həyata keçirilir. Hesab edirik ki, bu layihə çərçivəsində ən azı 4 qiqavat "yaşıl enerji"ni Avropaya nəql edə biləcəyik ki, bu da bizim əlavə töhfəmiz olacaq.

Digər mühüm tədbirlərdən biri bu ilin aprel ayında Sofiya şəhərində keçirilib, Bolqarıstan Prezidentinin təşəbbüsü ilə. Bu, "Həmrəylik Halqası" adlandırılan layihədir. Bu layihəyə Azərbaycan, Bolqarıstan, Macarıstan, Rumıniya və Slovakiya daxildir. Bu da elə bir layihədir ki, orada əlavə interkonnektorlar inşa ediləcək. Yəni Avropa İttifaqının yüksəkrütbəli məmurları Azərbaycanı ümumavropa qaz təchizatçısı adlandırırsa, bu, tamamilə doğrudur.

Bizim təchizatın coğrafiyası, əminəm ki, genişlənməkdə davam edəcək. Çünki Azərbaycan qazına ehtiyac artmaqdadır. Son il yarım ərzində bizə 10-dan artıq ölkə müraciət edib ki, təchizatın həcmini artıraq və ya həmin ölkələrə təchizata başlayaq. Əlbəttə, biz bütün dostlarımızın ehtiyaclarını ödəməyə çalışırıq. Sərmayələri də əlaqələndirməliyik ki, bazar imkanları nəzərə alınsın. Onu da vurğulayım ki, bu işdə beynəlxalq maliyyə institutlarının dəstəyinə ehtiyacımız var. Bilirik ki, bu gün "yaşıl enerjiyə" gəldikdə, bəzi beynəlxalq maliyyə institutları neft-qaz sahəsini maliyyələşdirməyi dayandırıb. Amma mən hesab edirəm ki, biz bir balaca realist olmalıyıq. Çünki qaz və neft təchizatı olmadan enerji təhlükəsizliyi tam olaraq təmin edilə bilməz.

Bərpaolunan enerji haqqında danışarkən deyim ki, Azərbaycanın nəhəng potensialı var. Onun artıq ilkin hesablaması aparılıb, 157 qiqavat həcm yalnız Xəzər dənizində var. Quruda isə bizim potensialımız çox böyükdür. Beynəlxalq investorlarla imzalanmış iki müqavilə növbəti bir il, ya da ilyarım ərzində 500 meqavata yaxın "yaşıl enerji" əldə etməyə imkan verəcək.

Ümumilikdə saziş və memorandumları nəzərə alsaq, biz artıq 25 qiqavatlıq sazişlər imzalamışıq. Əlbəttə, anlaşma memorandumu imzalamaq o demək deyil ki, o, dərhal reallaşacaq və müqavilə olacaq. Ancaq biz elə şirkətlərlə anlaşma memorandumları imzalamışıq ki, onlar bərpaolunan enerji sahəsində qlobal liderlərdir. Ona görə də bunların real müqaviləyə çevrilməsi ehtimalı olduqca yüksəkdir. Ancaq imzalanan memorandumların yarısı belə reallaşsa, bu olduqca böyük rəqəm olacaqdır və Azərbaycanın özünün daxili istehlakından iki dəfə artıq olacaqdır. Yəni dediyim kimi, biz bu gün enerji istehsalı üçün istifadə etdiyimiz böyük qaz həcminə qənaət edəcəyik və onu da beynəlxalq bazara çıxaracağıq.

Əlbəttə, görüləcək işlər çoxdur, TANAP genişlənməlidir, TAP genişlənməlidir. Bizim digər Avropa boru kəmərlərinə də çıxışımız olmalıdır və Balkanlarda belə bir çıxışımız olmalıdır. Avropada interkonnektorların sayı mütləq artırılmalıdır. Bütün

bu məsələlər əlaqələndirilmiş şəkildə həyata keçirilməlidir. Çünki biz burada böyük sərmayə qoymalıyıq. Ona görə biz əmin olmalıyıq ki, hasil etdiyimiz əlavə qazın, planlaşdırmadığımız həcmlərin – biz ancaq artan tələbatı nəzərə alaraq bunu hasil edirik – real alıcısı olacaqdır. Ona görə də biz bu komanda işini davam etdirməliyik. Dediyim kimi, Cənub Qaz Dəhlizi layihəsi artıq başa çatsa da, Məşvərət Şurasının işi hər il fevral ayında Bakıda davam edir. Növbəti toplantı üzümüzə gələn fevral ayında Bakıda keçiriləcəkdir. Çünki artıq yeni iştirakçılarımız var, yeni ideyalarımız var, planlarımız var. Biz bunları reallaşdırdıqca bütün işlərimiz uğurla gedəcəkdir. Diqqətinizə görə təşəkkür edirəm.

***

Qeyd edək ki, “Caspian Oil&Gas” Sərgisi artıq 28 ildir ki, neft, qaz və enerji sektorunda əhəmiyyətli əməkdaşlıq üçün mühüm platformaya çevrilib. Hər il Azərbaycan Prezidentinin açılış mərasimində iştirakı isə sərginin yüksək statusunu bir daha təsdiqləyir.

Həmçinin tədbirin bir çox ölkələrdən olan şirkətləri, yüksək səviyyəli qonaqları, dövlət xadimlərini və beynəlxalq enerji ekspertlərini Bakıya toplaması təsadüfi deyil. Azərbaycan paytaxtı artıq bir müddətdir ki, nüfuzlu tədbirlərin təşkil edildiyi, mühüm qərarların və əməkdaşlıq məsələlərinin müzakirə edildiyi məkana çevrilib. Bu gün Azərbaycan yalnız özünün deyil, digər ölkələrin də enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayır. Bu baxımdan da sərgilərin böyük əhəmiyyəti vardır.

Azərbaycanda beynəlxalq sərgilərin keçirilməsi təşəbbüsü Ümummilli lider Heydər Əliyev tərəfindən irəli sürülüb. Ulu öndər 1994-cü ildən təşkil edilən sərgilərə daim dəstək verib. Bu il xalqımız müasir Azərbaycanın qurucusu Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyini qeyd edir. Bu əlamətdar hadisə Bakı Enerji Həftəsinin proqramında da öz əksini tapır. Həftə çərçivəsində Ulu öndər Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr edilmiş poçt markası buraxılıb. Sərgidə Ümummilli liderin 100 illik yubileyinə həsr olunmuş xüsusi stend də nümayiş edilir.

Bakı Enerji Həftəsi çərçivəsində iyunun 3-dək davam edəcək sərgilərdə 38 ölkədən 331 şirkət iştirak edir.

**AZƏRTAC**
*31 may 2023-cü il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV OPEC-İN BAŞ KATİBİNİ QƏBUL EDİB

*19 iyun 2023-cü il*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 19-da Neft İxrac edən Ölkələr Təşkilatının (OPEC) Baş katibi Haysam Əl-Qaysı qəbul edib.

Haysam Əl-Qays ilk növbədə Səudiyyə Ərəbistanı Krallığının energetika naziri, Şahzadə Əbdül Əziz bin Salman Əl-Səudun salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Şahzadə Əbdül Əziz bin Salman Əl-Səuda çatdırmağı xahiş etdi.

Görüşdə Azərbaycanla OPEC+ ölkələri arasında uğurlu əməkdaşlığın həyata keçirildiyi qeyd edildi. Baş katib vurğuladı ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan OPEC+ formatı yaranan ilk gündən bu əməkdaşlığa böyük töhfə verir və buna görə o, dövlətimizin başçısına minnətdarlığını bildirdi.

Eyni zamanda bu gün qlobal neft bazarında OPEC+ formatında fəaliyyətin roluna toxunuldu, indiyədək bu bazarda sabitliyin əldə edilməsinin məhz bu formatda həyata keçirilən fəaliyyət nəticəsində mümkün olduğu xüsusi qeyd edildi.

Söhbət zamanı bu gün "fossil" yanacaqlar sahəsində mövcud olan məsələlər müzakirə edildi, gələcəkdə bu sahəyə investisiyaların ayrılmasının vacibliyi bildirildi. Dünya iqtisadiyyatının artması nəticəsində ümumilikdə enerjiyə çoxalan tələbat nəzərə alınaraq, bu sahəyə son zamanlarda investisiyaların azaldılmasının müəyyən narahatlıq doğurduğu qeyd olundu.

Görüşdə dünyada yaşıl enerji sahəsində əldə edilən irəliləyişlərlə bərabər, ənənəvi yanacağın oynadığı vacib rol vurğulandı. Ənənəvi enerji sahəsində ətraf mühitə zərərin azaldılması baxımından yeni texnologiyaların tətbiqinin xüsusi əhəmiyyət daşıdığı bildirildi.

Söhbət zamanı əməkdaşlığın perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.

**AZƏRTAC**
*19 iyun 2023-cü il*

## PREZİDENT İLHAM ƏLİYEV "TOTAL ENERGİES" ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORUNU QƏBUL EDİB

*31 avqust 2023-cü il*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 31-də "Total Energies" şirkətinin baş icraçı direktoru Patrik Puyanneni qəbul edib.

Görüşdə "Abşeron" yatağında hasilatın başlanılması vurğulandı və layihənin parametrləri barədə dövlətimizin başçısına ətraflı məlumat verildi. Qeyd edildi ki, hasilat quyusu ən məhsuldar və ən aşağı karbon tullantılarına malik quyudur. Bu da yatağın potensialının zənginliyinin və perspektivinin aydın göstəricisidir.

Söhbət zamanı "Total Energies" şirkətinin Azərbaycanda fəaliyyətinin genişləndirilməsi, o cümlədən "Abşeron" yatağının tam işlənmə mərhələsinə keçməsi barədə fikir mübadiləsi aparıldı, şirkət tərəfindən layihələrdə iştirakla bağlı maraq ifadə olundu. Ölkə ərazisində, o cümlədən Naxçıvanda bərpaolunan enerji layihələrinin həyata keçirilməsi perspektivi və potensialı müzakirə edildi.

**AZƏRTAC**

*31 avqust 2023-cü il*

## PREZİDENT İLHAM ƏLİYEV "BP" ŞİRKƏTİNİN İDARƏ HEYƏTİNİN SƏDRİNİ QƏBUL EDİB

*20 sentyabr 2023-cü il*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 20-də "BP" şirkətinin İdarə Heyətinin sədri Helqe Landı qəbul edib.

Görüşdə "BP" şirkətinin hasilat və əməliyyatlar üzrə icraçı vitse-prezidenti Qordon Birrel və 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi"nin imzalanmasında iştirak edən şirkətin sabiq baş icraçı direktoru Lord Con Filip Braun iştirak ediblər.

Söhbət zamanı 20 sentyabrın – "Əsrin müqaviləsi"nin imzalandığı günün önəmi qeyd edildi, bunun ölkəmizin inkişaf tarixində çox mühüm bir səhifə olduğu vurğulandı. Prezident İlham Əliyev "Əsrin müqaviləsi"nin imzalandığı və Azərbaycanda neft işçilərinin peşə bayramı kimi qeyd edilən Neftçilər günündə bu görüşdə "BP" şirkətinin rəhbərliyinin, həmçinin tarixi müqavilənin birbaşa iştirakçısı və uzun illər "BP" şirkətinin rəhbəri olan Lord Con Filip Braunun iştirakını yüksək qiymətləndirərək, Azərbaycan ilə şirkət arasında həyata keçirilən uzunmüddətli sıx, səmərəli və strateji əməkdaşlığın tarixinə toxundu. Dövlətimizin başçısı bunu investorlar və investisiya qoyulan ölkə arasında olan əməkdaşlığın yaxşı nümunəsi kimi dəyərləndirdi və bu əməkdaşlığın qarşılıqlı inam, etimad və faydaya əsaslandığını məmnunluqla qeyd etdi.

Prezident İlham Əliyev Azərbaycanın keçdiyi çətin və tarixi sınaq dövründə ölkədə iqtisadi inkişaf yolunun əsasının qoyulmasında 1994-cü ildə imzalanan "Əsrin müqaviləsi"nin xüsusi rolunu vurğuladı.

Ölkəmizin sosial-iqtisadi nailiyyətlərində neft-qaz sektorunun xüsusi önəminə toxunan dövlətimizin başçısı Azərbaycanın təşəbbüsü və iştirakı ilə həyata keçirilmiş və nəzərdə tutulan regional və qlobal miqyaslı layihələrdən danışdı.

"BP" şirkətinin sabiq baş icraçı direktoru Lord Con Filip Braun "Əsrin müqaviləsi"nin imzalandığı həmin çətin dövrdə məhz Ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etməsi sayəsində investisiya qoyuluşu üçün mövcud risklərin dəf edildiyini və beləliklə, bunun nəticəsində bu mühüm müqavilənin imzalandığını böyük məmnunluqla xatırladı. Şirkətin nümayəndələri ölkəmizin mürəkkəb dövründə "Əsrin müqaviləsi"nin

Ümummilli liderin qətiyyətli və məharətli siyasəti nəticəsində ərsəyə gəldiyini vurğuladılar, Azərbaycanın enerji ehtiyatlarının inkişafında bu müqavilənin rolundan bəhs etdilər.

Onlar qeyd etdilər ki, müasir dövrdə Azərbaycanın neft-qaz yataqlarının işlənilməsinə Ulu öndər Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi dövrlərdə yaradılan infrastruktur böyük töhfə verib və irimiqyaslı layihələrin qısa müddətdə həyata keçirilməsini şərtləndirib. Vurğulandı ki, ölkəmizdə icra olunan layihələrdə tətbiq edilən mühəndislik, ətraf mühitin qorunması və digər standartlar "BP"nin fəaliyyət göstərdiyi dünyanın digər bölgələrindəki standartlar səviyyəsindədir və ya onlardan da üstündür. Bu da ölkəmizin neft-qaz sahəsində zəngin insan kapitalının mövcudluğu hesabına mümkün olub.

Azərbaycanın dünyanın ən qədim neft-qaz sənayesinə malik olduğunu deyən qonaqlar bu sənayenin ən müasir səviyyəyə çatdırılmasında ölkəmizin beynəlxalq enerji şirkətləri ilə əməkdaşlığına və strateji baxışına toxundular.

Söhbət zamanı "BP" şirkətinin Azərbaycanda neft-qaz və enerji sahələrində gələcək layihələrdə də maraqlı olduğu vurğulandı, yeni sərmayə qoyuluşu imkanları müzakirə edildi. Qlobal enerji keçidi nəzərə alınaraq, "BP"nin Azərbaycanda olan tərəfdaşlarla, o cümlədən SOCAR ilə əməkdaşlıqda, yeni bərpaolunan enerji layihələrinin həyata keçirilməsində maraqlı və qətiyyətli olduğu bir daha diqqətə çatdırıldı.

Görüşdə əməkdaşlığın perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.

Sonda Lord Con Filip Braun Ulu öndərlə olan xatirə fotosunu dövlətimizin başçısına təqdim etdi.

**AZƏRTAC**
*20 sentyabr 2023-cü il*

## NİŞ ŞƏHƏRİNDƏ SERBİYA–BOLQARISTAN QAZ İNTERKONNEKTORUNUN AÇILIŞ MƏRASİMİ KEÇİRİLİB

*10 dekabr 2023-cü il*

### Prezident İlham Əliyev mərasimdə iştirak edib

Dekabrın 10-da Serbiyanın Niş şəhərində Serbiya–Bolqarıstan Qaz İnterkonnektorunun açılış mərasimi keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiç və Bolqarıstan Respublikasının Prezidenti Rumen Radev mərasimdə iştirak ediblər.

Əvvəlcə Serbiya–Bolqarıstan Qaz İnterkonnektorunun texniki göstəricilərindən və layihənin əhəmiyyətindən bəhs edən videoçarx nümayiş etdirildi.

Mərasim iştirakçılarını salamlayan **Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiç** dedi:

– Əziz Prezident Əliyev, hörmətli Prezident Radev, mən bu gün çıxış edə bilməyəcəyəm. Bizim ölkədə qəribə qanunlar qəbul olunub ki, sən öz ölkəndə nə isə etmisənsə, seçkilərdən bir ay öncə artıq bu layihələri tərifləyə və ölkəni daha da inkişaf etdirmək üçün danışa bilməzsən.

Sizə "Xoş gəlmisiniz" deyirəm və Serbiyada olduğunuz üçün sonsuz təşəkkürümü bildirirəm. Mən bizim enerji nazirimizdən xahiş edəcəyəm ki, o çıxış etsin. O bizim partiyanın üzvü deyil və seçkilərdə, siyahılarda adı yoxdur. Bizim avropalı qonaqlar bugünlük bağışlasınlar. Mən bütün həmin qanunlara hörmət edəcəyəm. Narahat olmayın, həmin qanunlara baxmayaraq, biz qələbə qazanacağıq. Bu, böyük qələbə olacaq və bizim hamımızın birgə qələbəsi olacaq. Buna görə çox sağ olun.

***

Dövlətimizin başçısı mərasimdə çıxış etdi.

**PREZİDENT İLHAM ƏLİYEVİN ÇIXIŞI**

– Hörmətli cənab Prezident Vuçiç, hörmətli cənab Prezident Radev, hörmətli xanım nazir, xanımlar və cənablar!

İlk növbədə dəvətə və qonaqpərvərliyə görə dostum Aleksandara təşəkkürümü bildirmək istəyirəm. Yenidən gözəl ölkənizdə olmağımdan çox məmnunam. Bildirməliyəm ki, mən keçən il Serbiyaya rəsmi səfər etmişdim. Ondan bir ay sonra Prezident Vuçiç Azərbaycana səfər etmişdir. Bu gün yenə də sizin gözəl ölkənizdəyəm. Bu bir daha onu göstərir ki, Serbiya–Azərbaycan əlaqələri sürətlə və dinamik şəkildə inkişaf edir. Biz strateji tərəfdaşıq, çünki strateji tərəfdaşlıq haqqında Bəyannamə imzalanmışdır və sözdə, sənəddə və əməldə bu yüksək statusa sadiqliyimizi göstəririk.

Əfsuslar olsun ki, Prezident Vuçiçə bu gün rəsmi tədbirdə çıxış etmək üçün müəyyən məhdudiyyətlər tətbiq edilib, onun qeyd etdiyi kimi, qəbul edilmiş qanuna görə. Ancaq buna baxmayaraq, bizim söhbət etmək üçün imkanımız olacaq. Sadəcə olaraq, onu bildirmək istəyirəm ki, bizim Aleksandarla şəxsi dostluq münasibətlərimiz böyük dərəcədə Serbiya–Azərbaycan əlaqələrinin inkişafına xidmət etmişdir. O, ölkəsi üçün çox böyük işlər görür. Onun liderliyi ilə Serbiya uğurla inkişaf edir, müstəqil siyasət aparır. O siyasət ki, Serbiya xalqının və dövlətinin maraqlarına cavab verir. Biz də dostları kimi onun uğurlarına həmişə sevinirik və əməli addımlarla, konkret işlərlə ikitərəfli gündəliyimizi genişləndiririk.

Əminəm ki, bugünkü tədbir və açılışdan sonra interkonnektorun fəaliyyəti Serbiyanın sənaye inkişafına böyük töhfə verəcəkdir. Mən bilirəm ki, Prezident Vuçiçin ölkəsinin sənaye potensialının inkişafı ilə bağlı çox genişmiqyaslı planları var. O planların böyük hissəsi həyata keçirilib. Gələcək planların həyata keçirilməsi üçün, əlbəttə, enerji resursları lazımdır və şaxələndirilmiş təchizat şəbəkəsi də təbii ki, qurulmalıdır.

Eyni sözləri dostum, Prezident Radev haqqında da deyə bilərəm. Bolqarıstanla da bizi strateji tərəfdaşlıq Sazişi bağlayır. Bu il mən Bolqarıstana və Prezident Radev Azərbaycana səfərlər etmişik. Bu da onu göstərir ki, münasibətlərimiz çox dinamikdir, dostluq və strateji tərəfdaşlıq üzərində qurulub.

Yəni deyə bilərəm ki, bugünkü mərasim dostluq mərasimidir, strateji tərəfdaşlıq mərasimidir. Əlbəttə ki, hər iki prezidenti bugünkü açılış münasibətilə ürəkdən təbrik etmək istəyirəm. Bu, Serbiya və Bolqarıstanın enerji təhlükəsizliyinə böyük töhfə verə biləcək layihədir. Eyni zamanda Azərbaycan xalqını təbrik etmək istəyirəm. Çünki Azərbaycanın qaz ixracı coğrafiyası daha da genişlənir. Hazırda biz təbii qazımızı səkkiz ölkəyə ixrac edirik, Serbiya doqquzuncu ölkədir. Bu doqquz ölkənin yeddisi Avropa ölkəsidir və təbii ki, bugünkü mərasim – interkonnektorun fəaliyyətə başlaması Avropanın enerji təhlükəsizliyinə də önəmli töhfə verəcəkdir.

Bildirməliyəm ki, keçən il Avropa İttifaqı ilə Azərbaycan arasında enerji sahəsində strateji tərəfdaşlıq üzrə Anlaşma Memorandumu imzalanmışdır və bu memorandum icra edilir. Bu memoranduma görə, Azərbaycan 2027-ci ilə qədər Avropaya göndərilən qazın həcmini iki dəfə artırmalıdır. Artıq rəqəmlər onu göstərir ki, biz inamla bu hədəfə doğru gedirik. 2021-ci ildə bizim Avropa məkanına qaz ixracımız 8 milyard kubmetrdən bir qədər çox olmuşdursa, bu il bu, təxminən 12 milyard kubmetrə çatacaq. Bu da Azərbaycanın ümumi qaz ixracının 50 faizini təşkil edir.

Bizim çox genişmiqyaslı başqa planlarımız var. Azərbaycanın bütövlükdə enerji strategiyası uğurla icra edilir. Bizim tərəfimizdən irəli sürülmüş və icra edilmiş layihələr Avropanın və Asiyanın – Avrasiyanın enerji xəritəsini böyük dərəcədə yenidən tərtib etmişdir. Bakı–Tbilisi–Ceyhan, Bakı–Supsa neft kəmərləri bu gün Azərbaycan neftini Aralıq dənizinin və Qara dənizin bazarlarına çatdırır. Cənub Qaz Dəhlizi – uzunluğu 3500 kilometr olan nəhəng infrastruktur layihəsi Avropanın enerji təhlükəsizliyinə çox böyük töhfə verir. Təsadüfi deyil ki, Avropa Komissiyası, onun yüksəkvəzifəli şəxsləri Azərbaycanı etibarlı tərəfdaş və Pan-Avropa qaz təchizatçısı kimi dəyərləndirirlər. Onu da bildirməliyəm ki, – bu sözləri əminəm ki, dostum Rumen də təsdiq edə bilər, – bizim Bolqarıstana qaz təchizatımız iki il bundan əvvəl başlamışdır. 2021-ci ildə 270 milyon kubmetr qaz təchiz edilmişdir. Keçən il 500 milyon kubmetrdən bir qədər çox. Bu il isə bu rəqəm 1 milyard kubmetrə yaxın olacaqdır.

Azərbaycan sözün əsl mənasında etibarlı tərəfdaşdır, dostluq ənənələrinə həmişə sadiqdir və dostluğu yüksək qiymətləndirir. Məhz dostluq, qarşılıqlı anlaşma, strateji tərəfdaşlıq üzərində qurulmuş əlaqələr bir çox ölkələrin maraqlarını təmin edir və qaz sahəsində əməkdaşlıq, eyni zamanda genişmiqyaslı regional əməkdaşlığa da güclü zəmin yaradır. Xəzər dənizi, Qara dəniz, Aralıq dənizi, Avropa məkanı və Azərbaycan, Avropa İttifaqı əlaqələri – bütün bu istiqamətlər müsbət məcrada inkişaf edir və bizim gələcək planlarımız da bu istiqamətlərə xidmət göstərəcəkdir.

Gələcək planlarımız, təbii ki, qaz təchizatının coğrafiyasını daha da genişləndirməkdir və gələcəkdə Avropa məkanında yeni yaradılacaq interkonnektorlar vasitəsilə yeni ölkələrin bazarlarına çıxmaqdır. Bizim əsas hədəfimiz bərpaolunan enerji növləri ilə bağlıdır və 10 qiqavat bərpaolunan enerji növlərinin yaradılması üzrə Azərbaycan tərəfindən investorlarla sazişlər və anlaşma memorandumları imzalanmışdır.

Bir neçə gün bundan əvvəl yenə də biz növbəti dostluq təzahürünün şahidi olmuşuq. Həm Serbiya, həm Bolqarıstan, həm Şərqi Avropa qrupuna daxil olan digər ölkələr Azərbaycanın namizədliyini dəstəkləyərək COP 29 konfransının Azərbaycanda, Bakıda keçirilməsinə izn verdilər, öz dəstəyini göstərdilər. Bu bir daha həm dostluğumuzun nümunəsidir, eyni zamanda onu göstərir ki, baxmayaraq, Azərbaycanın zəngin neft

və qaz resursları var, biz gələcəyimizi təmiz yaşıl enerjinin istehsalında və ixracında görürük. Əminəm ki, gün gələcək və buna oxşar mərasim yaşıl enerji layihələri ilə bağlı keçiriləcəkdir.

Bir daha əziz dostum Aleksandara dəvətə görə təşəkkürümü bildirmək istəyirəm və hamımıza uğurlar arzulayıram. Sağ olun.

***

Sonda prezidentlər İlham Əliyev, Aleksandar Vuçiç, Rumen Radev və Aİ-nin daimi nümayəndəliyinin rəhbəri Emmanuel Jofre Serbiya–Bolqarıstan Qaz İnterkonnektorunu işə saldılar.

**AZƏRTAC**
*10 dekabr 2023-cü il*

# BAKIDA CƏNUB QAZ DƏHLİZİ MƏŞVƏRƏT ŞURASI ÇƏRÇİVƏSİNDƏ NAZİRLƏRİN 10-CU VƏ YAŞIL ENERJİ MƏŞVƏRƏT ŞURASI ÇƏRÇİVƏSİNDƏ NAZİRLƏRİN 2-Cİ İCLASLARI KEÇİRİLİB

*1 mart 2024-cü il*

## Prezident İlham Əliyev tədbirdə iştirak edib

Martın 1-də Bakıda, "Gülüstan" sarayında Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 10-cu və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 2-ci iclasları keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Dövlətimizin başçısı tədbirdə çıxış edib.

### PREZİDENT İLHAM ƏLİYEVİN ÇIXIŞI

– Hörmətli Baş nazir cənab Rama.

Hörmətli komissar xanım Simson.

Hörmətli qonaqlar.

Xanımlar və cənablar.

İlk növbədə Baş nazir Edi Ramanı salamlamaq və bu vacib tədbirdə bizimlə birlikdə olduğuna görə minnətdarlığımı bildirmək istərdim. Azərbaycan və Albaniya iki dost ölkədir. Biz müxtəlif sahələrdə fəal əməkdaşlıq edirik. Bizim olduqca fəal siyasi dialoqumuz var. Bizim cənab Baş nazirlə istər Azərbaycan, istər Albaniya, istərsə də müxtəlif beynəlxalq tədbirlər çərçivəsindəki görüşlərimizin müntəzəm gündəliyi var. Biz bir-birimizi beynəlxalq təsisatlarda dəstəkləyir, habelə enerji təhlükəsizliyi məsələlərində fəal çalışırıq. Albaniya Cənub Qaz Dəhlizi layihəsinin həyata keçirilməsində çox vacib rol oynayıb və TAP heyətinin üzvü qismində vacib rol oynamaqda davam edir. Hazırda

isə biz enerji əməkdaşlığımızın müxtəlif aspektlərini müzakirə edirik. Əminəm ki, cənab Baş nazirlə bugünkü müzakirəmiz zamanı gündəlikdə duran bütün məsələləri əhatə edəcəyik.

Mən həmçinin xanım komissar Simsona da növbəti dəfə ölkəmizə səfər etdiyinə görə minnətdarlığımı ifadə etmək istərdim. Bildiyiniz kimi, Azərbaycan Respublikasının energetika naziri və xanım Simson Cənub Qaz Dəhlizi Məşvərət Şurasının həmsədrləridir. Onlar genişlənməkdə olan böyük heyətin bir araya gətirilməsi və əlbəttə, Avropa İttifaqının bütün planlarımızın reallaşdırılmasında yer alması baxımından vacib rol oynayırlar. Enerjinin şaxələndirilməsi və enerji təhlükəsizliyi məsələlərində Azərbaycan–Avropa İttifaqı əməkdaşlığı yeni təchizat coğrafiyasının yaradılmasına xidmət etmişdir.

Məşvərət Şurasının ötən illərdəki toplantıları zamanı biz həmişə enerji təhlükəsizliyi məsələlərini müzakirə etmişik. Azərbaycanın burada mövqeyi hər zaman ardıcıl olub – biz bunu hər bir ölkənin milli təhlükəsizlik məsələsi hesab edirik. Biz şaxələndirmə haqqında danışarkən mövqeyimiz hər zaman dəyişməz olub və bu gün də belədir – şaxələndirmə yalnız marşrutlara deyil, həm də mənbələrə şamil edilməlidir.

Bu gün Avrasiyadakı geosiyasi vəziyyət məhz bizim gördüyümüz işlərin nə dərəcədə düzgün olduğunu sübut edir. Azərbaycana gəldikdə, Cənub Qaz Dəhlizi tamamilə yeni marşrutdur. Bu gün ona artıq bir çox marşrutlar – interkonnektorlar əlavə edilib. Azərbaycan qazı yeni mənbədir. Yəni biz burada, bu formatda, təşəbbüskarı olduğumuz bu layihədə enerjinin şaxələndirilməsi məsələlərinin tam şəkildə əhatə edildiyini görürük.

Burada, "Gülüstan" sarayında sonuncu – bir il əvvəlki görüşümüzdən bu yana bir neçə mühüm hadisə baş verib. Bildiyiniz kimi, adətən, Məşvərət Şurasının toplantıları zamanı bu qrup görülmüş işləri və qarşıda duran məsələlərin həlli baxımından görüləcək əlavə tədbirləri nəzərdən keçirir. Ən başlıcası isə atılacaq birgə addımları planlaşdırır.

Ötən il baş verən vacib hadisələrdən biri Xəzər dənizinin Azərbaycana məxsus sektorunda, "Abşeron" qaz-kondensat yatağında təbii qazın kommersiya hasilatı oldu. Bu, "Şahdəniz"dən sonra ikinci nəhəng qaz ehtiyatlarının kəşfi deməkdir. "Abşeron" qaz-kondensat yatağı bizim gələcək şaxələndirmə layihələrimizin resurs bazasını təşkil edəcək. "Abşeron" layihəsinin ilk fazası artıq təsdiq edilib. Biz orada illik hasilatın 1.5 milyard kubmetr həcmində olmasını gözləyirik. İkinci faza ilə bağlı razılıq əldə edildikdən sonra daha 4-5 milyard kubmetr həcm əlavə ediləcəkdir ki, onun böyük əksəriyyəti beynəlxalq bazarlara nəql olunacaq.

Növbəti nailiyyət hesab etdiyim bir hadisə Azərbaycanın daha iki ölkə – Macarıstana və Serbiyaya qaz nəql etməsi oldu. Beləliklə, bizim Avropaya qaz təchizatımızın coğrafiyası genişlənmiş oldu. Bu gün Azərbaycan 8 ölkəyə qaz nəql edir ki, onlardan altısı Avropa ölkəsidir. Ötən il Avropada istifadəyə verilmiş interkonnektor layihələrinin təməlində

ilk növbədə Cənub Qaz Dəhlizi layihəsi dayanır. İkincisi isə onlar bizə Avropada mümkün qədər çox məntəqələri əhatə etməklə bağlı səylərimizi davam etdirməyə imkan verəcəkdir.

Azərbaycan qazına mövcud tələbat var, ixtiyarımızda mənbələr var və nəqliyyat marşrutlarımız yerindədir. Yeri gəlmişkən, onu da deyim ki, ötən il ərzində türkiyəli dostlarımızla fəal kommunikasiya nəticəsində biz Türkiyə vasitəsilə Trans-Balkan boru kəməri sistemindən istifadə etmək razılığına gəldik. Bu isə şaxələndirmə layihəsi daxilində növbəti şaxələndirmə deməkdir. Daha artıq alternativlər və seçimlər ola bilər. Çünki onların hər biri enerjinin şaxələndirilməsi, enerji təhlükəsizliyinin maksimum səmərəliliklə təmin olunması kimi vahid məqsədə xidmət edir.

Hesab edirəm ki, Azərbaycan etibarlı tərəfdaş olduğunu artıq sübut edib. Bizim sözümüz imzamız qədər dəyərlidir. Əminəm ki, qarşımıza qoyduğumuz bütün planlar həyata keçiriləcəkdir, çünki təkcə keçən ilin göstəriciləri bunun sübutudur.

Bizim enerji layihələrimizlə bağlı daha bir məqam ondan ibarətdir ki, dost Birləşmiş Ərəb Əmirliklərini təmsil edən ADNOC şirkəti Abşeron layihəsinin səhmdarı oldu. Biz bunu alqışlayırıq: "Heyətimizə xoş gəlmisiniz". Bu, əlavə maliyyələşmə, təcrübə deməkdir və beynəlxalq əməkdaşlığı genişləndirəcəkdir. Bizimlə birgə çalışmaq arzusunda olan enerji şirkətlərindən çoxsaylı müraciətlər daxil olur. Bu müraciətlər həmin şirkətlərin fəaliyyət göstəricilərinə və bizim enerji gündəliyimizə əsasən nəzərdən keçirilir.

Gələcək planlarımıza gəldikdə, əlbəttə, bu gün biz onları geniş müzakirə edəcəyik. Mən onlardan yalnız bir neçəsini səsləndirmək istərdim. İlk növbədə biz gələn ilin ilk rübündən etibarən "Azəri–Çıraq–Günəşli" dərin qaz layihəsi çərçivəsində təbii qazın hasilatını gözləyirik. Bu çox böyük ehtiyata malik olmaqla ümidverici strukturdur. Uzun illərdir ki, "Azəri–Çıraq–Günəşli" bizim neft ixracımızın əsas mənbəyidir. Hazırda kəşfiyyata başlanılması ilə bağlı tərəfdaşlarımızla razılığa gəlmişik və bu, əlavə töhfə olacaqdır. İlkin mərhələdə hasilat təqribən yarım milyard kubmetr olacaq, ancaq bir neçə il ərzində bu rəqəm 3-4 dörd dəfə artacaqdır. Bu, "Şahdəniz" və "Abşeron" yataqlarından hasil ediləcək həcmlərlə yanaşı, yeni mənbə olacaqdır.

Bununla yanaşı, bizim "Ümid" qaz-kondensat yatağının ikinci fazasının işlənilməsi ilə bağlı planlarımız var ki, potensial olaraq oradan da 3-4 il ərzində 2-3 milyard kubmetr qaz əldə etmək olar.

Beləliklə, bütün bu planlar tamamilə realdır, onlar müfəssəl təhlilə, məlumata, informasiyaya və bizim maliyyə resurslarına, habelə investorlarla razılaşmalarımıza əsaslanır. Layihələrin bəziləri investorlarla birlikdə icra olunacaq, bəziləri isə SOCAR-ın özü tərəfindən həyata keçiriləcək. Bütün bunlar onu göstərir ki, potensial var və artmaqdadır. Uzun illərdir ki, ortalıqda yayılan və Avropa istehlakçılarının artmaqda olan

ehtiyaclarını ödəmək üçün "Azərbaycanda kifayət qədər qaz yoxdur" kimi bütün şayiələr bir daha onu göstərdi ki, onlar tamamilə əsassızdır və bizim potensialımızın qarşısını almaq, beynəlxalq birliyə və istehlakçılara yanlış mesaj göndərmək üçün Azərbaycana qarşı yürüdülən kampaniyanın bir hissəsi idi.

Azərbaycan həmçinin yaşıl enerjiyə keçid prosesində iştirak edir. Bu il Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" elan olunmuşdur. Bizim bərpaolunan enerji layihələrimiz yüksək göstəricilər nümayiş etdirir. Ötən görüşümüzdən bəri sizə məlumat vermək istəyirəm ki, bu layihələr arasında keçən ilin oktyabr ayında Azərbaycanda açılışını etdiyimiz ilk böyük Günəş Elektrik Stansiyası yer alır və bu stansiyanın gücü 230 meqavatdır. Bu stansiya bərpaolunan enerji sahəsində aparıcı şirkətlərdən biri "Masdar" tərəfindən inşa olunmuşdur və bu yalnız başlanğıcdır. İmzalanmış müqavilələrə və anlaşma memorandumlarına əsasən 2030-cu ilədək biz 5 min meqavata qədər, yəni 5 qiqavat günəş və külək enerjisi istehsal etməyi planlaşdırırıq.

Bizim əsas investorlarımız Birləşmiş Ərəb Əmirliklərindən "Masdar" və Səudiyyə Ərəbistanından olan "ACWA Power" şirkətləridir. Həmçinin digər ölkələrdən olan şirkətlər də bizimlə çalışır. Bizim bərpaolunan enerji ehtiyatları baxımından nəhəng pontensialımız var, istər Xəzər dənizində, istərsə də qurudakı potensial olsun. Bildiyimiz kimi, biz "Qara Dəniz Yaşıl Kabel" layihəsi ilə Avropaya yaşıl enerjinin önəmli ixracatçılarından biri olmağı nəzərdə tuturuq.

Artıq qərara alınıb ki, bu layihə inteqrasiya edilmiş layihə olmaqla Xəzər dənizindəki külək dəyirmanlarından yeni ötürücü xətlərlə Qara dənizin dibi ilə Avropaya gedəcək. Beləliklə, bunlar bizim planlardır. Əlbəttə ki, bərpaolunan enerji mənbələrimiz nə qədər çox olsa, indi elektrik enerjisi istehsalı üçün istifadə etdiyimiz təbii qaza daha çox qənaət etmiş olacağıq.

Bu da Cənub Qaz Dəhlizinə əlavə bir töhfə olacaqdır. Cənub Qaz Dəhlizi artıq 3 ildir ki, fəaliyyətdədir, bu layihə, həqiqətən də, uğur hekayəsidir. Bu, Avrasiyada ən böyük infrastruktur layihələrindən biridir. Uzunluğu 3500 kilometr olan inteqrasiya edilmiş boru kəməri sistemi olan bu layihə enerji təhlükəsizliyi və əməkdaşlıq layihəsidir. Çünki Cənub Qaz Dəhlizinin keçdiyi marşrut boyunca yerləşən bütün ölkələr arasında əməkdaşlıq olmasa, bu layihənin həyata keçirilməsi mümkün olmazdı.

Beləliklə, biz indi vacib bir məqama gəlirik. Bu məqamın tərəfdaşlıq və əməkdaşlığın qurulması üçün enerjinin və qazıntı yanacağının bir alət və vasitə olduğunu görürük. Qazıntı yanacağı məsələsi ilə bağlı sonuncu məqam. Biz indi qazıntı yanacağının bir növ yalnız problem yaradan bir məsələ olması meylini görürük. Biz ədalətli olmalıyıq və eyni zamanda neft və təbii qaz ehtiyatları ilə zəngin olan ölkələrə münasibətdə ədalətli olmalıyıq. Bu ölkələrin günahı deyil ki, onlarda neft və qaz var. Onlar buna görə

günahlandırılmamalı və onlara qarşı ayrı-seçkilik olmamalıdır. Hesab edirəm ki, qazıntı yanacağına malik olan ölkələrin fəaliyyəti onların ətraf mühitin müdafiəsi, yaşıl enerjiyə keçid məsələlərini necə həll etdikləri baxımından qiymətləndirilməlidir. Yalnız bundan sonra, ədalətli təhlildən sonra bu ölkələr barədə mühakimə yürütmək olar. Əks təqdirdə, biz neft və qaz istehsal edən ölkələr və bu resurslara malik olmayan ölkələr arasında sanki ayırıcı xətlər görəcəyik.

Bu məsələ haqqında danışarkən, əlbəttə, burada – bu masada dünyanın aparıcı maliyyə institutlarının nümayəndələrinin olduğunu nəzərə alaraq diqqətinizi maliyyələşmə məsələsinə yönəltmək istəyirəm. Cənub Qaz Dəhlizinin genişlənməsinin və təbii qaza aid istənilən digər layihənin maliyyələşməsi elə bir şəkildə aparılmalıdır ki, bizim əsas hədəfimizə mane olmasın.

Avropada Azərbaycan qazına böyük tələbat var idi və olmaqda qalır. Bizə bir çox ölkələr müraciət etmişdir, dediyim kimi, artıq altı ölkə bizim təbii qazı alır. Əlavə bir neçə ölkə ilə danışıqlar aparılır. Qaza tələbat var və bizim resurslarımız var, bizim infrastrukturumuz var. Hesab edirəm ki, Avropa maliyyə institutlarından maliyyələşmə, ən azından bu layihənin maliyyələşməsi real yanaşmaya əsaslanmalıdır və ümumi hal almış qazıntı yanacağına qarşı meyillərin kölgəsi altına düşməməlidir.

Biz hamımız nələrin baş verdiyini bilirik. Azərbaycan, qeyd etdiyimiz kimi, yaşıl enerjiyə keçid prosesinin aktiv fazasındadır. Lakin eyni zamanda heç kim bu faktı dana bilməz ki, ən azından yaxın gələcəkdə qazıntı yanacağı olmadan dünya inkişaf edə bilməz.

Sonuncu məsələ, Azərbaycana COP 29-a sahiblik edən ölkə olmaq şərəfi nəsib olmuşdur. Keçən ilin dekabrında qərar qəbul olunan kimi biz dərhal, yalnız bir səbəbdən müxtəlif QHT-lər və media təşkilatlarının hücumuna məruz qaldıq. Çünki bizim neftimiz var və bu bizim ən böyük nöqsanımız hesab olunmuşdur. Baxmayaraq ki qeyd etdiyim kimi, bu, qüsur deyil, Allahdan bir hədiyyədir. Lakin bizə hücum edərək dedilər ki, necə ola bilər qazıntı yanacağı ilə zəngin olan bir ölkə COP-a ev sahibliyi edə bilər. Gəlin bu məsələyə başqa bir bucaq altında baxaq. Bəli, bizim kifayət qədər neftimiz, kifayət qədər qazımız var. Biz növbəti 100 il ərzində bərpaolunan enerji resursları olmadan yaşaya bilərik. Bizim bütün ehtiyatlarımız təsdiq edilib və hər kəs bunu bilir.

Lakin iqlim dəyişikliyi ilə bağlı olan bu qlobal tədbirə ev sahibliyi etmək istəyimizin olması faktı bizim iradəmizi nümayiş etdirir. Bizə buna görə hücum edilməməlidir, biz təqdir edilməliyik. Biz heç bir yanlış iş görməmişik, lakin qərar qəbul olunan kimi bizə qarşı dərhal əlaqələndirilmiş, konsolidasiya olunmuş və çox ədalətsiz hücum edildi.

Əvvəlki illərdə Azərbaycana qarşı çoxlu hücumlar olmuşdur, biz buna adət etmişik, biz özümüzü müdafiə edə bilərik. Lakin mən sizə, sadəcə, məlumat vermək istəyirəm ki, COP 29-un Azərbaycanda təşkil edilməsi qərarı – yekdil qərar – beynəlxalq birliyin

ölkəmizə hörmətinin əlamətidir və bizim tədbirə ev sahibliyi etmək, bu işə töhfə vermək istəyimiz yaşıl gündəliyimizi nümayiş etdirir.

Bununla da çıxışımı burada bitirirəm. Bir daha bizimlə bir yerdə olduğunuz üçün təşəkkür edirəm. Fürsətdən istifadə edərək hamınızı COP 29-a aparan bu mühüm yolda bizim tərəfdaşımız olmağa dəvət etmək istəyirəm. Təşəkkür edirəm.

***

Qeyd edək ki, toplantıda Azərbaycan və Avropa İttifaqı daxil olmaqla 23 ölkə, 6 beynəlxalq təşkilat, 44 şirkət təmsil olunub. Tədbirdə nazirlər, nazir müavinləri və digər yüksək səviyyəli nümayəndələr iştirak ediblər.

Toplantı açılış sessiyasından sonra işini “Cənub Qaz Dəhlizi və Yaşıl Enerji üzrə Nazirlər sessiyası”, “Cənub Qaz Dəhlizi sessiyası: Gələcəyə baxış” və “COP 29 fonunda yaşıl enerji sessiyası: bərpaolunan enerjinin imkanlarından istifadə” mövzularında plenar sessiyalarla davam etdirib.

Həmçinin Məşvərət Şurası çərçivəsində “Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan hökumətləri arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş”in icrası məqsədilə nazirlərin 6-cı iclası və “Dənizdə külək enerjisindən istifadənin inkişafı” üzrə Azərbaycan–Avropa İttifaqı dəyirmi masası keçirilib.

Tədbir çərçivəsində yaşıl enerji sahəsində sənədlər imzalanıb.

Xatırladaq ki, Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlər toplantısı 2015-ci ilin fevral ayından etibarən keçirilir və bu il tədbirin 10 ili tamam olur.

**AZƏRTAC**
*1 mart 2024-cü il*

# PREZİDENT İLHAM ƏLİYEV "BP"NİN YENİ BAŞ İCRAÇI DİREKTORUNU QƏBUL EDİB

*13 mart 2024-cü il*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 13-də "BP" şirkətinin yeni baş icraçı direktoru Mürrey Aukinklosu qəbul edib.

Mürrey Aukinklos İlham Əliyevi prezident seçkilərində qələbəsi münasibətilə təbrik etdi.

Dövlətimizin başçısı təbrikə görə minnətdarlığını bildirdi.

Bakıya səfərindən məmnunluğunu ifadə edən qonaq Azərbaycanın 30 ildə qazandığı nailiyyətlər münasibətilə də təbriklərini çatdırdı, bu müddətdə ölkəmizdə enerji resurslarından əldə olunan gəlirlərin iqtisadiyyatımızın inkişafına yönəldilməsinin önəmini vurğuladı. Mürrey Aukinklos Azərbaycan ilə "BP"nin əməkdaşlığını məmnunluqla qeyd etdi.

Prezident İlham Əliyev uzun illər ərzində ölkəmizin "BP" ilə səmərəli əməkdaşlıq həyata keçirdiyini dedi. Dövlətimizin başçısı 1994-cü ildə imzalanan "Əsrin müqaviləsi"nin önəmini vurğulayaraq, həmin dövrdən başlayaraq Azərbaycan ilə "BP" arasında strateji tərəfdaşlığın həyata keçirildiyini qeyd etdi. Azərbaycan Prezidenti ölkəmizdə enerji resurslarının istehsalından əldə olunan gəlirlərin iqtisadi, sosial və bütün digər sahələrin inkişafına səmərəli surətdə yönəldildiyini bildirdi.

Görüşdə ölkəmizlə əməkdaşlığın nəticələrindən biri olaraq Azərbaycanın bölgənin bir sıra və Avropa dövlətlərinin enerji təhlükəsizliyinə, xüsusilə dayanıqlı qaz təchizatına töhfəsinə toxunuldu, yeni dövrdə ölkəmizin karbohidrogen enerji resursları ilə yanaşı, bərpaolunan enerji mənbələrinin potensialı qeyd edildi, o cümlədən işğaldan azad edilmiş ərazilərimizdə bu il "BP" şirkəti tərəfindən bu istiqamətdə layihənin həyata keçiriləcəyi vurğulandı.

Söhbət zamanı "BP" ilə SOCAR arasında gələcək əməkdaşlıq məsələləri müzakirə olundu.

**AZƏRTAC**

*13 mart 2024-cü il*

## PREZİDENT İLHAM ƏLİYEV TÜRKİYƏNİN ENERGETİKA VƏ TƏBİİ SƏRVƏTLƏR NAZİRİNİ QƏBUL EDİB

*4 iyun 2024-cü il*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 4-də Türkiyə Respublikasının energetika və təbii sərvətlər naziri Alparslan Bayraktarı qəbul edib.

Görüşdə Bakı Enerji Həftəsi çərçivəsində keçirilən 29-cu Beynəlxalq Xəzər Neft və Qaz və 12-ci Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji sərgilərinin önəmi qeyd edildi.

Dövlətimizin başçısı 1996-cı il iyunun 4-də "Şahdəniz" yatağına dair Sazişin imzalandığını xatırlayaraq, məhz bu gün Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) ilə Türkiyənin BOTAŞ şirkəti arasında təbii qaz təchizatı, nəqli və tranziti sahəsində bir sıra müqavilələr imzalanmasının böyük önəm daşıdığını dedi.

Alparslan Bayraktar qeyd etdi ki, Azərbaycan və Türkiyə dövlət başçılarının liderliyi ilə ölkələrimiz bir çox mühüm layihələr həyata keçirib və əməkdaşlığımız genişlənir. O, xüsusilə enerji sahəsinə toxunaraq, Türkiyə Petrolları (TPAO), BOTAŞ və SOCAR-ın əməkdaşlığının həm Türkiyənin daxili bazarı, həm də sənayesinin inkişafı üçün əhəmiyyətini vurğuladı. Qonaq SOCAR-ın Türkiyədə böyük sərmayədar olduğunu deyərək, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin qardaş ölkədəki fəaliyyətini məmnunluq hissi ilə qeyd etdi. O, Avropanın enerji təhlükəsizliyində Azərbaycanın roluna toxundu.

Alparslan Bayraktar ölkəmizin Prezidenti İlham Əliyevin rəhbərliyi ilə böyük inkişafa nail olduğunu deyərək, Azərbaycanın enerji, o cümlədən bərpaolunan enerji sahəsində də uğurlar qazandığını qeyd etdi, ölkələrimizin bu istiqamətdə əməkdaşlığının bundan sonra da genişlənəcəyinə əminliyini bildirdi.

Qonaq Azərbaycan və Türkiyə prezidentlərinin iştirakı ilə ötən il Naxçıvan bölgəsində Azərbaycanda və Türkiyədə bərpaolunan enerji mənbələrindən istehsal edilən elektrik enerjisinin ötürülməsi sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumunun imzalanmasının və İğdır-Naxçıvan qaz kəmərinin təməlinin qoyulmasının önəmini bir daha qeyd etdi və bu layihənin 2024-cü ildə yekunlaşacağına ümidvar olduğunu dedi.

Dövlətimizin başçısı Türkiyə Prezidentinin bugünkü tədbirlə bağlı məktubuna görə minnətdarlığını bildirdi.

Prezident İlham Əliyev İğdır–Naxçıvan qaz kəmərinin təməlinin qoyulmasından qısa müddət sonra Naxçıvanda boru kəmərinin hazır vəziyyətdə olacağını məmnunluqla qeyd etdi. Dövlətimizin başçısı bu layihənin Naxçıvanın elektrik enerjisi istehsalı və təbii qazla təchizatı baxımından çox önəmli layihə olduğunu dedi.

Enerji sahəsində əməkdaşlığımızın geniş gündəliyə malik olduğunu qeyd edən Azərbaycan Prezidenti bu gündəliyin təbii qaz, neft, bərpaolunan enerji növləri, Türk Petrollarının SOCAR ilə birlikdə başqa ölkələrdə birgə fəaliyyəti və digər sahələri əhatə etdiyini vurğuladı.

Ölkələrimiz arasında enerji sahəsində nəhəng layihələrin həyata keçirildiyini deyən dövlətimizin başçısı **Azərbaycan–Türkiyə** birliyinin bütün sahələrdə olduğu kimi, enerji məsələsində də özünü göstərdiyini qeyd etdi.

Prezident İlham Əliyev hazırda Azərbaycan təbii qazının 8 ölkəyə ixrac edilməsinin əhəmiyyətinə toxundu və bu sahədə əməkdaşlığın gələcəkdə daha da genişlənəcəyinə əminliyini bildirdi.

**AZƏRTAC**
*4 iyun 2024-cü il*

## PREZİDENT İLHAM ƏLİYEV BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN SƏNAYE VƏ QABAQCIL TEXNOLOGİYALAR NAZİRİNİ QƏBUL EDİB

*4 iyun 2024-cü il*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 4-də Birləşmiş Ərəb Əmirliklərinin sənaye və qabaqcıl texnologiyalar naziri Sultan Əhməd Əl-Cabiri qəbul edib.

Dövlətimizin başçısı ölkələrimiz arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini qeyd edərək, Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Əl Nəhyanın bu ilin əvvəlində Azərbaycana rəsmi səfərinin əhəmiyyətinə toxundu. Prezident İlham Əliyev bu gün Neftçala, Biləsuvar Günəş elektrik stansiyalarının və Abşeron–Qaradağ Külək Elektrik Stansiyasının təməlinin qoyulmasını dostluq və qardaşlıq münasibətlərimizin nümayişi kimi dəyərləndirdi. Dövlətimizin başçısı təməlqoyma mərasiminin iyunun 4-də keçirilməsinin rəmzi xarakter daşıdığını deyərək, məhz 1996-cı ilin bu günündə "Şahdəniz" yatağına dair sazişin imzalandığını qeyd etdi. Azərbaycan Prezidenti günəş və külək stansiyalarının təməlinin qoyulmasının təkcə enerji sahəsində deyil, ümumilikdə ölkəmizin inkişafında yeni bir mərhələ olacağına əminliyini bildirdi.

Dövlətimizin başçısı əməkdaşlığımızın genişlənməsində şəxsən Prezident Şeyx Məhəmməd bin Zayed Əl Nəhyanın və Birləşmiş Ərəb Əmirlikləri Hökumətinin verdiyi töhfəni yüksək qiymətləndirdi.

Prezident İlham Əliyev bərpaolunan enerji sahəsində Birləşmiş Ərəb Əmirliklərinin Azərbaycanla əməkdaşlıq etməsinin önəmini vurğuladı, qazıntı yanacağı layihələri və COP 29 ilə bağlı Birləşmiş Ərəb Əmirliklərinin verdiyi dəstəyə görə minnətdarlığını bildirdi. Azərbaycan Prezidenti bütün bunların ölkələrimiz arasında güclü tərəfdaşlıq işinə xidmət etdiyini və dostluq əlaqələrimizin göstəricisi olduğunu dedi.

Sultan Əhməd Əl-Cabir Bakıya səfərindən, 29-cu Beynəlxalq Xəzər Neft və Qaz və 12-ci Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji sərgilərində iştirak və burada çıxış etməsindən, həmçinin təməlqoyma mərasimində iştirakından böyük məmnunluq hissi keçirdiyini vurğuladı. Qonaq qeyd etdi ki, Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti həmişə bildirir ki, o, ölkələrimiz arasında tərəfdaşlıq əlaqələrini daha da möhkəmləndirmək əzmindədir. Sultan Əhməd Əl-Cabir ölkəsinin daim Azərbaycan ilə bir yerdə olacağını dedi.

**AZƏRTAC**

*4 iyun 2024-cü il*

# PREZİDENT İLHAM ƏLİYEV BAKI ENERJİ HƏFTƏSİ ÇƏRÇİVƏSİNDƏ 29-CU "CASPİAN OİL&GAS" VƏ 12-Cİ "CASPİAN POWER" SƏRGİLƏRİNİN RƏSMİ AÇILIŞ MƏRASİMİNDƏ İŞTİRAK EDİB

*4 iyun 2024-cü il*

İyunun 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakı Ekspo Mərkəzində Bakı Enerji Həftəsi çərçivəsində keçirilən 29-cu Beynəlxalq Xəzər Neft və Qaz – "Caspian Oil&Gas" və 12-ci Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji – "Caspian Power" sərgilərinin rəsmi açılış mərasimində iştirak edib.

Tədbirin moderatoru, **Böyük Britaniyanın "ICA Group" şirkətinin İdarə Heyətinin məsləhətçisi Stiven Murtay çıxış edərək dedi**:

– Zati-aliləri cənab Prezident.

Hörmətli qonaqlar.

Xanımlar və cənablar.

Bakı Enerji Həftəsinə xoş gəlmisiniz. Artıq 30 ildir ki, biz bu tədbiri keçiririk. Dinamik inkişafı ilə fərqlənən Bakı şəhərində toplaşdığımız bir zamanda enerji sektorunda innovasiya, tərəqqi və əməkdaşlığın artıq üç onilliyini qeyd edirik.

Bu toplantı təkcə ötən nailiyyətlərimizi ifadə etməklə kifayətlənmir, həm də sənaye sektorunu və dünyanı şəkilləndirəcək gələcək nailiyyətlər üçün körpü rolunu oynayır. Bakı Enerji Həftəsinin dünya ictimaiyyəti üçün nə qədər vacib əhəmiyyətə malik olduğunu söyləsək, mübaliğə etmiş sayılmarıq. Bu, enerjinin inkişafına, dayanıqlılığa və bizi daha parlaq, daha səmərəli gələcəyə doğru istiqamətləndirən beynəlxalq tərəfdaşlığın inkişaf etdirilməsinə davamlı sadiqliyimizin təzahürüdür.

Otuz il öncə Bakı Enerji Həftəsi Xəzər Neft və Qaz Sərgisi kimi işə başlamış və müasir müstəqil Azərbaycanın enerji sektoruna səyahətinin ilk günləri kimi xatirələrdə

qalmışdır. Göründüyü kimi, bu il 30 illiyi qeyd olunan məşhur "Əsrin müqaviləsi"nin imzalanmasından bir qədər əvvəl buna ilkin olaraq təşəbbüs göstərilmişdi. O vaxtdan bəri tədbir dünyanın hər bir guşəsindən enerji ekspertləri üçün əsas toplantı mərkəzinə çevrilib, geniş silsilə mövzuları və yenilikləri əks etdirməklə əhatə dairəsini daha da genişləndirib.

İqlim dəyişikliyinə qarşı qlobal mübarizədə beynəlxalq birliyi dəstəkləmək üçün 2024-cü ilin Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi cəsarətli bir addım olub. Bu mövzu Bakı Enerji Həftəsinin gündəliyində daha geniş yer tutacaq.

Azərbaycanın COP 29-a ev sahibliyi edən ölkə kimi seçilməsi bizi çox məmnun edib. Bu, ölkənin mütərəqqi siyasətinin və qlobal miqyasda artan nüfuzunun bir daha göstəricisidir, iqlim dəyişikliyi üzrə məsələlərin həlli, eləcə də dayanıqlılıqla bağlı təşəbbüslərdə ön sırada olmağın bizim üçün nə dərəcədə əhəmiyyətli olduğunu bir daha ortaya qoyur.

Azərbaycan Respublikasının Prezidentinə, Azərbaycan Hökumətinə, Energetika Nazirliyinə göstərdikləri dəstəyə, habelə SOCAR-a səmimi təşəkkürümüzü bildiririk. Bakı Enerji Həftəsinə verdiyimiz dəstək bu tədbirin Azərbaycanın daha parlaq, daha səmərəli gələcəyə doğru strategiyasının əhəmiyyətli bir komponentinə çevrilməsinə kömək edəcəkdir.

Təşəkkür edirəm və tədbirdə xoş vaxt keçirməyi arzulayıram.

İndi isə sözü Zati-aliləri, cənab Prezidentə verirəm. Buyurun, cənab Prezident.

***

Dövlətimizin başçısı açılış mərasimində çıxış etdi.

**PREZİDENT İLHAM ƏLİYEVİN ÇIXIŞI**

– Sabahınız xeyir, xanımlar və cənablar.

Əvvəlcə bütün qonaqlarımızı salamlamaq istəyirəm. Azərbaycana xoş gəlmisiniz. Əvvəla, təşkilatçılara minnətdarlığımı bildirmək istəyirəm. Artıq qeyd edildiyi kimi, Xəzər Neft və Qaz Sərgisi otuz il bundan əvvəl 1994-cü ildə fəaliyyətə başlayaraq,

Azərbaycanın enerji sektoruna birbaşa xarici investisiyaların cəlb edilməsində mühüm rol oynamışdır. O vaxtdan bəri bu tədbir daha böyük tədbirə çevrilib və enerji siyasətinin bütün əsas seqmentlərini – neft, qaz, kəşfiyyat və hasilatı, emal və nəqliyyatı və əlbəttə ki, yaşıl enerjini əhatə etdiyinə görə indi onun adı Bakı Enerji Həftəsidir.

Otuz il bundan əvvəl Azərbaycan, əlbəttə ki, başqa bir ölkə idi. Biz müstəqillik yolunda ilk addımlarımızı atırdıq və bu, çətinliklər, çağırışlar və faciəvi hadisələrlə dolu olan bir dövr idi. Əfsuslar olsun ki, 1991-ci ilin oktyabrında müstəqilliyimizin bərpası qonşu Ermənistanın təcavüzü və torpaqlarımızın, demək olar ki, iyirmi faizinin işğalı ilə müşayiət olundu.

Həmin dövrdə adambaşına düşən məcburi köçkünlərin sayına görə biz, bəlkə də, dünyada birinci yerdə idik və ya birincilərdən biri idik. Hər səkkiz nəfərdən biri məcburi köçkün idi. Bu, həqiqətən də, çətin dövr idi və biz humanitar fəlakətlə üzləşdik. İrəliyə getmək üçün yol yalnız investisiyaların cəlb edilməsindən ibarət idi, lakin Azərbaycan çox riskli ölkə hesab olunurdu. Söhbət təkcə Birinci Qarabağ müharibəsi və işğaldan yox, həm də daxili münaqişələrdən gedir. 1993-cü ilin vətəndaş müharibəsi, əslində, ölkəni uçuruma aparırdı.

Buraya iqtisadi çətinlikləri, min faiz səviyyəsində olan inflyasiyanı, sənayemizin durğunluğunu və enerji resurslarının qıtlığını əlavə edə bilərik. Bizdə elektrik enerjisi və təbii qaz qıtlığı var idi – bir neçə onilliklər ərzində enerji resurslarına görə məşhur olan bir ölkədə. Çar Rusiyası və Sovetlər İttifaqı dönəmində Azərbaycan bu sahədə təkcə regional yox, qlobal miqyasda lider idi. Lakin müstəqillik böyük bir enerji böhranı ilə müşayiət olundu.

Beləliklə, 1993-cü il dönüş nöqtəsi oldu. Heydər Əliyevin 1993-cü ilin oktyabrında Prezident seçilməsi ölkənin tarixində yeni səhifə açdı və söhbət təkcə ölkənin enerji seqmentindən getmir. İrimiqyaslı iqtisadi islahatlar, yeni demokratik Konstitusiyanın qəbul edilməsi, senzuranın ləğvi və əlbəttə ki, iqtisadiyyatımızın ən cəlbedici sektoru olan enerji sektoruna investisiyaları cəlb etmək cəhdləri.

Bu tədbir, əslində, ölkənin potensialının ilk beynəlxalq təqdimatı idi. Artıq qeyd edildiyi kimi, birinci Xəzər Neft və Qaz Sərgisinin keçirilməsindən bir neçə ay sonra – 1994-cü il sentyabrın 20-də “Əsrin müqaviləsi” imzalandı. Bu da ölkənin transformasiyasında dönüş nöqtəsi oldu. Biz investorlarımızla çox məhsuldar münasibətlər qura bildik. Məhz bunun nəticəsidir ki, “BP” şirkəti otuz ildir bizim strateji tərəfdaşımızdır və bundan sonra da ən azından otuz il ərzində strateji tərəfdaşımız olaraq qalacaq. 1994-cü ildə Birləşmiş

Krallıqdan "BP" və ABŞ-dan "Amoco" beynəlxalq neft şirkətləri konsorsiumuna rəhbərlik edirdilər və onlar bizə etibar etdilər.

Dediyim kimi, bura çox riskli bir ölkə idi, investorlar həmişə siyasi çətinliklərə və geosiyasətə qarşı həssasdırlar. Lakin onlar hökumətə və xalqa etibar etdilər. Qeyd etdiyim kimi, SOCAR və yaradılmış konsorsium arasında çox etibarlı əməkdaşlıq var idi.

Bu məhz belə başladı və üç il müddətində "Çıraq" platformasından ilk neft hasil olundu. Bu, neft sahəsinin tarixində çox əlamətdar və rekord bir hadisə idi. Müqavilənin imzalanmasından hasilata qədər cəmi üç il vaxt ötdü və sonra Qara dəniz limanlarına gedən iki boru xətti istismara verildi. 1999-cu ildə onların hər ikisi artıq işlək idi. Sonra çox çətin relyef şəraitində və region ölkələrinin və şirkətlərinin güclü əməkdaşlığı ilə uzunluğu 1700 kilometrdən artıq olan Bakıdan Ceyhana gedən əsas neft ixrac boru kəməri ərsəyə gəldi.

Bu bizim iqtisadiyyatımıza sanki bir nəfəs verdi və bizim iqtisadiyyatımızın necə inkişaf etməsinə nəzər salsanız, onun enerji siyasətimizlə koordinasiyasını görərsiniz. Sonra Azərbaycan özünü artıq etibarlı tərəfdaş kimi sübut etdi və iqtisadiyyatımızın müxtəlif sahələrinə və əlbəttə ki, enerji sektoruna əlavə investisiyalar yatırıldı.

Bu gün 4 iyun tarixi, sadəcə, iyirmi il bundan əvvəl neft və qaz sərgisində "Şahdəniz" müqaviləsinin imzalanması ilə yadda qalmayacaqdır. Bu gün həmçinin qardaş BƏƏ-dən olan "Masdar" şirkəti tərəfindən inşa ediləcək üç günəş və külək enerjisi elektrik stansiyalarının təməlqoyma mərasiminin keçirilməsi ilə də yadda qalacaq. Bu, Azərbaycanın və onun beynəlxalq tərəfdaşlarının qazıntı yanacağından bərpaolunan enerji resurslarına transformasiyasını nümayiş etdirir və qazıntı yanacağının uzun illər ərzində təkcə bizim üçün yox, həm də tərəfdaşlarımız üçün mühüm əhəmiyyət kəsb edəcəyini bildirir.

Beləliklə, "Şahdəniz" Azərbaycanda qaz qıtlığına son qoydu. Çünki ondan əvvəl biz təbii qazı idxal edirdik, indi onu ixrac edirik və bizim ixracımız artır, çox güman ki, bu il 24 milyard kubmetrdən artıq olacaq. Səkkiz ölkə Azərbaycandan qaz alır və Azərbaycan qaz təchizatında etibarlı tərəfdaş olduğunu bir çox ölkələrə sübut etdi. Bir neçə ay bundan öncə keçirilmiş Cənub Qaz Dəhlizinin Məşvərət Şurasının toplantısında Avropa Komissiyası Azərbaycanı ümum-Avropa qaz təchizatçısı adlandırdı və bu, həqiqətdir. Çünki bizim təbii qazı alan səkkiz ölkədən altısı Avropa ölkəsidir. Qaz təchizatımızın coğrafiyası, əlbəttə ki, artacaq. Hazırda öz enerji təhlükəsizliyini təmin etmək üçün Azərbaycan təbii qazına ehtiyacı olan bir neçə əlavə ölkə ilə danışıqların aktiv fazası gedir.

Dəfələrlə dediyimiz kimi, enerji təhlükəsizliyi milli təhlükəsizliyin ayrılmaz hissəsidir. İdxaldan asılı olan ölkələr, əlbəttə ki, ən etibarlı və uzunmüddətli tərəfdaşlar və müqavilələr axtarır. Onlar Azərbaycanın simasında məhz bunu əldə edirlər. Bizim sözümüz imzamız qədər dəyərlidir. Son 30 il ərzində imzalanmış bütün müqavilələr tam şəkildə icra olunub. Onların hamısı parlament tərəfindən ratifikasiya olunub və qanun şəklində imzalanıb. Orada bir söz belə dəyişilməyib. Bu etibar onilliklər ərzində qazanılıb. Bunun nəticəsidir ki, biz bu gün bərpaolunan enerji sahəsində növbəti sürətli inkişafın şahidiyik.

Bir az sonra iştirak edəcəyimiz mərasim haqqında danışarkən qeyd etdim ki, bu, sadəcə, başlanğıcdır. Yeri gəlmişkən, ötən ilin oktyabrında “Masdar” şirkəti 230 meqavat gücündə günəş elektrik stansiyasını istifadəyə verib. İndi isə daha 1 qiqavat enerji həcmi əlavə edilir.

Hazırda iki layihə işlənilməkdədir – onlardan biri inşaat mərhələsindədir, digərinin tikintisi isə tezliklə başlanacaq. Bununla da Azərbaycanın bərpaolunan enerji potensialı 2 qiqavata yaxın olacaqdır. Buraya təkcə günəş və külək enerjisi daxildir. Qarabağ və Şərqi Zəngəzurda hidroelektrik stansiyalarla bağlı gördüyümüz işləri əlavə etsək görərik ki, 2027-ci ilədək 2 qiqavat həcmində bərpaolunan enerjinin əldə edilməsi tamamilə real hədəfdir. Bir daha təkrar edirəm ki, bu, sadəcə, başlanğıcdır.

Yeri gəlmişkən, Qarabağ və Şərqi Zəngəzurun azad olunmuş ərazilərinin nəhəng hidroelektrik potensialı var. 2020-ci ilin noyabrında həmin ərazilər azad ediləndən sonra orada 270 meqavat həcmində hidroelektrik stansiyalar istifadəyə verilib. 3-5 il ərzində bu rəqəm 500 meqavata çatacaqdır. Beləliklə, bərpaolunan enerjinin 1 qiqavat həcmi bizə yarım milyard kubmetr qaza qənaət etməyə imkan verəcək ki, bazarın bu qaza ehtiyacı var və bu ehtiyac davam edəcəkdir.

Bu gün, həqiqətən də, əlamətdar gündür. Bakı Neft və Qaz Sərgisində qaz müqaviləsinin imzalanmasından 28 il sonra, 1 qiqavat həcmində bərpaolunan enerji ilə bağlı artıq imzaladığımız müqavilələr nəticəsində bu gün təməlqoyma mərasimi baş tutacaqdır. Artıq qeyd etdiyim kimi, bu, sadəcə, başlanğıcdır, çünki potensialımız nəhəngdir. Bizim tərəfdaşlarımız qlobal səviyyədə aparıcı şirkətlərdir və dediyim ki, “Masdar” yaşıl enerjiyə keçid sahəsində ən öndə gedən şirkətdir.

Hesab edirəm ki, BƏƏ-dən bir il sonra Azərbaycanın COP 29-a ev sahibliyi etməsi heç də təsadüf deyil. BƏƏ-nin bizə ötürdüyü miras olduqca dəyərlidir. Birincisi, mən dostum nazir Sultan əl-Cabiri təbrik etmək istəyirəm və salamlarımı qardaşım, BƏƏ Prezidenti Şeyx Məhəmməd bin Zahid Əl-Nəhyana çatdırmağı xahiş edirəm. Həmçinin COP

istiqamətində irəlilədiyimiz bu mürəkkəb yolda qardaşımın dostluğuna, tərəfdaşlığına və dəyərli tövsiyələrinə görə təşəkkürümü bildirirəm.

Bu, asan iş deyil, lakin biz buna hazırıq. Dəfələrlə dediyim kimi, neft və qaz ehtiyat-larına sahib olduğumuza görə bizi heç kəs günahlandıra bilməz. Bunu bizə Allah yetirib. Bizim işimizə bu ehtiyatların mövcudluğu əsasında deyil, onlardan hansı şəkildə istifadə etdiyimizə görə qiymət verilməlidir. Biz bu sərvəti müxtəlif vasitələrlə cəmiyyətə yönəltmişik, biz inklüziv cəmiyyət qura bilmişik, biz yoxsulluğu 50 faizdən 5 faizə endirə bilmişik, biz xarici borcumuzu təxminən 100 faizdən 7,7 faizə endirməyə müvəffəq olmuşuq.

Yəni bizə qiymət verilən zaman bütün bu amillər nəzərə alınmalıdır. Bununla yanaşı, COP-a ev sahibliyi etmək kimi məsuliyyətli vəzifəni üzərimizə götürərkən biz bunun həm üstünlüklərini, həm də müəyyən çətinliklərini tam şəkildə dərk edirik. Ancaq biz bu məsələyə sadiqik.

Azərbaycanda iqlim dəyişikliyi Xəzər dənizinin sahilinə nəzər salarkən görünür. İldən-ilə biz dənizin geri çəkildiyinin şahidi oluruq və bunun səbəbi iqlim dəyişikliyi və insanların qeyri-rasional fəaliyyətidir. Çünki Xəzər dənizini qidalandıran mənbə çaylar sərhədlərimizin hüdudları kənarındadır. Bizim bununla bağlı məsuliyyətimiz sıfra bərabərdir və heç bir ciddi tədbirlər görülməzsə, biz böyük bir fəlakətlə üzləşəcəyik. Biz dənizi əlavə su həcmləri ilə təmin etmək üçün yeni bəndlər və su toplanması üçün anbarlar inşa edirik. Lakin Xəzər dənizini qidalandıran əsas mənbələr Azərbaycanda deyil.

İqlim dəyişikliyi hər bir ölkə üçün çağırışdır. Biz proaktiv addımlar atdıq və hazırda tərəfdaşlarımızla birgə çalışırıq. Biz BƏƏ və növbəti COP-a ev sahibliyi edəcək Braziliya ilə birlikdə "Troyka" təsis etmişik. Qoşulmama Hərəkatının keçmiş sədri qismində biz 120 ölkə ilə birlikdə bu təsisat və Avropa İttifaqı arasında körpülərin qurulmasına çalışırıq. Avropa İttifaqına 10 üzv dövlət ilə Azərbaycan arasında strateji tərəfdaşlıq haqqında bəyannamə imzalanıb. Biz hazırda inkişafda olan kiçik ada dövlətləri ilə fəal işləyirik. Onların dəstəklənməsi məqsədilə xüsusi fondun yaradılmasını planlaşdırırıq.

Azərbaycan üçün iqlim dəyişikliyi problemdir, onlar üçün isə bu, ekzistensional təhlükədir. Beləliklə, biz maksimal dərəcədə məsuliyyət nümayiş etdirməyə və eyni zamanda beynəlxalq ictimaiyyətin müxtəlif komponentləri arasında körpülər qurmağa çalışırıq. Hesab edirəm ki, COP 29 çərçivəsində maliyyə məsələləri ilə yanaşı, əldə edə biləcəyimiz ən böyük nəticə qarşılıqlı ittihamlara son qoyulması olacaqdır. Biz baş verənlərə görə bir-birimizi günahlandırmağı dayandırmalı, səylərimizi səfərbər etməli,

iddialardan əl çəkməli və diqqətimizi övladlarımız və nəvələrimizin yaşamağa davam edəcəyi bu planetdəki həyatla bağlı gündəliyimizə yönəltməliyik.

Xanımlar və cənablar, bir daha Azərbaycana xoş gəlmisiniz. Bu gün, həqiqətən, tarixi bir gündür. Artıq qeyd etdiyim kimi, iyunun 4-ü tariximizdə "Şahdəniz" müqaviləsinin imzalanması, həmçinin yaşıl keçidlə bağlı təməlqoyma mərasimi ilə yadda qalacaqdır. Əlbəttə ki, bu vacib toplantı hər zaman yeni ideyalar, yeni təmaslar, yeni müqavilələr ilə nəticələnir və əminəm ki, budəfəki Bakı Enerji Həftəsində mühüm nəticələr əldə ediləcək.

Sizə ən xoş arzularımı çatdırır və fürsətdən istifadə edərək, hər birinizi bu ilin noyabrında COP 29-da qonağımız olmağa dəvət edirəm.

Diqqətinizə görə sağ olun.

**AZƏRTAC**
*4 iyun 2024-cü il*

# AZƏRBAYCAN RESPUBLİKASINDA DƏNİZ NEFT VƏ QAZ YATAQLARININ İŞLƏNİLMƏSİNİN SÜRƏTLƏNDİRİLMƏSİ HAQQINDA

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Respublikanın dəniz neft və qaz yataqlarının kəşfində və işlənməsində xarici neft şirkətlərinin iştirakı barədə Azərbaycan Respublikası Dövlət Neft Şirkəti rəhbərliyinin məlumatını nəzərə alaraq **qərara alıram:**

1. Xarici neft şirkətləri ilə AMOKO, Britiş Petroleum (Statoyl, Penzoyl) Remko, Yunokal, Mak Dermott, Türk Neft Şirkəti] aparılan danışıqların əsas istiqamətləri barədə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin təklifləri bəyənilsin.
2. Azərbaycan Respublikası Dövlət Neft Şirkətinə yuxarıda adları çəkilən xarici neft şirkətləri ilə birlikdə "Azəri" və "Çıraq" yataqlarının kəşfinə və işlənməsinə dair danışıqların aparılması, müqavilənin hazırlanması və bağlanması səlahiyyəti verilsin.
3. Azərbaycan Respublikası Dövlət Neft Şirkətinə tapşırılsın ki, iki həftə müddətinə "Günəşli" yatağında neft hasilatının sabitləşdirilməsi proqramını hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

**Heydər Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 4 fevral 1994-cü il, № 56*

## XƏZƏRİN AZƏRBAYCAN SEKTORUNDA NEFT YATAQLARININ BİRGƏ İŞLƏNMƏSİ HAQQINDA XARİCİ NEFT ŞİRKƏTLƏRİ KONSORSİUMU İLƏ DANIŞIQLARIN YEKUNLARI BARƏSİNDƏ

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

"Azərbaycanda dəniz neft və qaz yataqlarının işlənilməsinin sürətləndirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 1994-cü il 4 fevral tarixli sərəncamında ifadə edilmiş prinsiplərə uyğun olaraq Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti "AMOKO Kaspian Si Petroleum ltd", "BP Eksploreyşn (Kaspian Si)-ltd", "Den Norske Stats Olyeselskap a.c.", "LUKoyl" Səhmdar Cəmiyyəti, "Mak Dermott Azərbaycan ink", "Pennzoyl Kaspian Korporeyşn", "Remko Xəzər Enerji ltd", "Türk Petrolleri a.o.", "Yunokal Xəzər ltd" şirkətlərinin daxil olduqları xarici neft şirkətləri konsorsiumu ilə Xəzər dənizinin Azərbaycan sektorunda "Çıraq", "Azəri" yataqlarının, habelə "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi haqqında Sazişin bağlanması barəsində üç ildən artıq davam edən danışıqları başa çatdırmışdır. Həmin yataqların neft ehtiyatı 500 milyon tondan artıq qiymətləndirilir.

Dövlət Neft Şirkətinin Azərbaycan Respublikası Prezidentinə təqdim etdiyi məruzədə hazırlanmış Sazişin layihəsi Azərbaycan Respublikası üçün iqtisadi cəhətdən səmərəli və münasib variant kimi səciyyələndirilir. Qeyd edilir ki, yataqların işlənməsi üçün lazım olan investisiyaların 80 faizi konsorsium tərəfindən qoyulacaq, Saziş qüvvəyə mindikdən sonra ilk neft 18 ay ərzində çıxarılacaq, neft hasilatına əsas yataqlarda 48 aydan gec olmayaraq başlanacaq və Azərbaycan neftinin beynəlxalq bazara səmərəli yolla çıxarılmasını təmin edən neft kəmərinin tikintisi isə 54 ay ərzində başa çatdırılacaqdır. Sazişə görə Azərbaycan neft yataqlarının istismarına nəzarət və istismarın idarə edilməsi hüquqlarını özündə saxlayır.

Bu prosesdə Azərbaycanın gəliri üç mənbədən alınacaqdır: təbii ehtiyatların mülkiyyətçisi hüququndan irəli gələn gəlirlər; yataqlar işlənməsinə investisiya qoyuluşlarında iştirak ilə bağlı gəlirlər; respublika büdcəsinə konsorsiumun gəlirinin dörddə bir hissəsi məbləğində vergi ayırmaları. Bunlar hamısı gəlirli neftin 80 faizinin Azərbaycana çat-

dırılmasını təmin edəcəkdir. Əlavə olaraq neft ilə birgə çıxan və ehtiyatları 55 milyard kubmetr həcmində qiymətləndirilən səmt qazı da Azərbaycanın mülkiyyətini təşkil edəcəkdir. Konsorsiumla bağlanan Sazişin əhatə etdiyi sahədə 90 milyard kubmetr həcmində qiymətləndirilən azal qaz yataqlarının istismarı Azərbaycanın müstəsna səlahiyyətində saxlanılır və bu da Sazişin iqtisadi səmərəsini daha da artırır.

Neft yataqlarının birgə işlənməsi 30 il müddətinə nəzərdə tutulmuşdur. Bu XXI əsrin astanasında Azərbaycan Respublikasında xalqın iqtisadi və sosial rifahının təməlini qoyacaq, real nəticələr isə yaxın illər ərzində əldə ediləcəkdir. Bazar iqtisadiyyatına keçid şəraitində on milyardlarla valyuta mədaxili bütün iqtisadiyyatın və hər şeydən əvvəl neft sənayesinin elmi və istehsal-texniki bazasının keyfiyyətcə yeniləşməsini təmin edəcəkdir. Uzun müddət durğunluq vəziyyətində olmuş neftmaşınqayırma, neft emalı və neft kimyası sənayesinə yeni təkan veriləcəkdir, bu da ümumi iqtisadi göstəricilərin artımı ilə yanaşı, kadr potensialının möhkəmlənməsinə kömək edəcək, yeni iş yerlərinin yaradılmasına imkan veriləcəkdir. Azərbaycan sənayesi suyun dərinliklərində olan karbohidrogen yataqlarının istismarı sahəsində qabaqcıl xarici təcrübəyə yiyələnəcəkdir, bu da gələcəkdə belə yataqlardan müstəqil istifadəyə imkan verəcəkdir.

Əldə edilən mənfəət Azərbaycan iqtisadiyyatının bir çox sahələrində yüksək texnologiyalara keçilməsini təmin edəcək, o cümlədən infrastrukturun yerləşdirilməsinə imkan verəcəkdir. İri neft şirkətlərinin Azərbaycan Respublikasında uğurlu işi xaricdən dövlətimizə etimadı möhkəmləndirəcək və şübhəsiz ki, yeni xarici investisiyaların cəlb edilməsinə zəmin yaradacaqdır. Yuxarıda göstərilənləri rəhbər tutaraq, Xəzərin Azərbaycan sektorunda neft yataqlarının birgə işlənməsi haqqında xarici neft şirkətləri konsorsiumu ilə Saziş layihəsini Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinin məruzəsində müsbət qiymətləndirilməsini nəzərə alaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinin məruzəsi və Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və hasil olunan neftin pay şəklində bölüşdürülməsi haqqında Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə "AMOKO Kaspian Si Petroleum ltd", "BP Eksploreyşn (Kaspian Si)-ltd", "Den Norske Stats Olyeselskap a.c.", "LUKoyl" Səhmdar Cəmiyyəti, "Mak Dermott Azərbaycan ink", "Pennzoyl Kaspian Korporeyşn", "Remko Xəzər Enerji ltd", "Türk Petrolleri a.o.", "Yunokal Xəzər ltd" şirkətləri arasında Sazişin layihəsi bəyənilsin.

2. Dövlət Neft Şirkətinin prezidenti Natiq Əliyevə tapşırılsın ki, Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay şəklində bölüşdürülməsi

haqqında Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə "AMOKO Kaspian Si Petroleum ltd", "BP Eksploreyşn (Kaspian Si)-ltd", "Den Norske Stats Olyeselskap a.c.", "LUKoyl" Səhm-dar Cəmiyyəti, "Mak Dermott Azərbaycan ink", "Pennzoyl Kaspian Korporeyşn", "Remko Xəzər Enerji ltd", "Türk Petrolleri a.o.", "Yunokal Xəzər ltd" şirkətləri arasında Sazişi imzalasın.

**Heydər Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 14 sentyabr 1994-cü il, № 206*

***Birinci müqavilə:*** **Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə xarici neft şirkətləri konsorsiumunun Xəzər dənizinin Azərbaycan sektorunda *"Azəri"*, *"Çıraq"* yataqlarının, habelə *"Günəşli"* yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi haqqında**

| | |
|---|---|
| *Müqavilənin imzalandığı yer:* | *Bakı şəhəri, "Gülüstan" sarayı* |
| *İmzalanma tarixi:* | *29 sentyabr 1994-cü il* |
| *Ratifikasiya tarixi:* | *12 dekabr 1994-cü il* |
| *Nəzərdə tutulmuş sərmayələr:* | *11 500 000 000 $* |
| *Proqnozlaşdırılmış ehtiyatlar:* | *630 mln. ton neft* |

## İmzalanma tarixinə tərəflərin iştirak payı



## Tərəflərin bugünkü tarixə iştirak payı




**İştirakçı dövlətlər:** ABŞ, Böyük Britaniya, Rusiya, Türkiyə, Norveç, Səudiyyə Ərəbistanı və Azərbaycan

# XƏZƏR DƏNİZİNİN AZƏRBAYCAN SEKTORUNDA "AZƏRİ", "ÇIRAQ" YATAQLARININ VƏ GÜNƏŞLİ" YATAĞININ DƏRİNLİKDƏ YERLƏŞƏN HİSSƏSİNİN BİRGƏ İŞLƏNMƏSİ VƏ NEFT HASİLATININ PAY BÖLGÜSÜ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT NEFT ŞİRKƏTİ İLƏ "AMOKO KASPİAN Sİ PETROLEUM LİMİTED", "BP EKSPLOREYŞN (KASPİAN Sİ) LİMİTED", "DELTA NİMİR XƏZƏR LİMİTED", "DEN NORSKE STATS OLYESELSKAP A.S.", "LUKOYL" SƏHMDAR CƏMİYYƏTİ, "MAKDERMOTT" AZƏRBAYCAN İNK., "PENNZOYL KASPİAN KORPOREYŞN", "REMKO XƏZƏR ENERCİ LİMİTED", "TÜRKİYE PETROLLERİ A.O.", "YUNOKAL XƏZƏR L.T.D." ARASINDA SAZİŞİN QƏBUL VƏ TƏSDİQ EDİLMƏSİ, ONUN HƏYATA KEÇİRİLMƏSİNƏ İCAZƏ VERİLMƏSİ BARƏDƏ

## Azərbaycan Respublikasının Qanunu

Xəzər dənizinin Azərbaycan sektorunun neft yataqlarının birgə işlənməsi haqqında xarici neft şirkətləri konsorsiumu ilə danışıqların yekunları barəsində Azərbaycan Respublikası Prezidentinin 1994-cü il 14 sentyabr tarixli fərmanına uyğun olaraq, Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə xarici neft şirkətləri konsorsiumunun Xəzər dənizinin Azərbaycan sektorunda "Çıraq", "Azəri" yataqlarının, habelə "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi haqqında Saziş 1994-cü il sentyabrın 20-də imzalanmışdır.

**AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİ**

Azərbaycan Respublikası qanunvericiliyində Sazişin əhatə etdiyi məsələlərin tam və müasir tələblərə uyğun olaraq imzalandığını, karbohidrogen ehtiyatları haqqında

Azərbaycan Respublikası qanunlarının olmadığını və həmin Sazişin şərtlərinə görə qanunvericilik orqanı tərəfindən təsdiq edildikdən sonra Sazişin qanun olmasını,

bu Qanun Azərbaycan Respublikasının Konstitusiyasına (Əsas Qanununa) tam uyğun olduğunu nəzərə alaraq,

habelə Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktına və Azərbaycan Respublikası Konstitusiyasına (Əsas Qanununa) əsasən **qərara alır:**

1. Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə "AMOKO KASPİAN Sİ PETROLEUM LİMİTED", "BP EKSPLOREYŞN (KASPİAN Sİ) LİMİTED", "DELTA NİMİR XƏZƏR LİMİTED", "DEN NORSKE STATS OLYESELSKAP a.s.", "LUKoyl SƏHMDAR CƏMİYYƏTİ", "MakDERMOTT AZƏRBAYCAN İNK.", "PENNZOYL KASPİAN KORPOREYŞN", "REMKO XƏZƏR ENERCİ LİMİTED", "TÜRKİYE PETROLLERİ A.O.", "YUNOKAL XƏZƏR L.T.D" arasında Saziş qəbul və təsdiq edilir, onun həyata keçirilməsinə icazə verilir.

2. Sazişin, əsasən, Azərbaycan Respublikası Nazirlər Kabineti adından və onun tapşırığı ilə Azərbaycan Respublikasının Baş naziri vəzifələrini icra edənin 1994-cü il noyabrın 11-də imzaladığı Azərbaycan Respublikası hökumətinin təminatı və öhdəlikləri barədə sənəd qəbul və təsdiq edilir, onun həyata keçirilməsinə icazə verilir.

3. Bu Qanun qüvvəyə mindikdən sonra Saziş və 1994-cü il noyabrın 15-də imzalanmış Azərbaycan Respublikası hökumətinin təminatı və öhdəlikləri barədə sənəd qanun olurlar, habelə onlar Sazişdə konkret surətdə başqa cür göstərilmiş hallar istisna edilməklə və Sazişin qüvvədə olduğu müddət ərzində Azərbaycan Respublikasının müddəaları bu Sazişə və təminatlar barədə sənədə uyğun gəlməyən və ya zidd olan hər hansı başqa mövcud və ya qəbul oluna biləcək qanundan, fərmandan, yaxud inzibati sərəncamdan (və ya onun bir hissəsindən) üstün tutulurlar.

4. Bu qanun qüvvəyə mindikdən sonra Sazişdə nəzərdə tutulan konkret sahəsinin istənilən hissəsi barəsində əvvəllər bağlanmış hər hansı saziş, konkret və ya bu cür başqa sənədlər verilə bilən bütün digər hüquq və vəzifələr ləğv edilir, habelə bu Qanun qüvvəyə mindikdən sonra Sazişin şərtlərinə müvafiq surətdə və qüvvədə olduğu bütün müddət ərzində Sazişin xarici pay iştirakçılarına konkret sahəsində neft-qaz əməliyyatları aparmaq üçün müstəsna hüquq verilir.

5. Azərbaycan Respublikası Nazirlər Kabineti, nazirlikləri, dövlət komitələri, baş idarələri və digər dövlət orqanları Sazişdən irəli gələn hüquq və öhdəliklərin yerinə yetirilməsi üçün Sazişin iştirakçılarına və Birgə Əməliyyat Şirkətinə bütün lisenziyaların, Gömrük icazələrinin, vizaların, başqa səlahiyyətlərin və sanksiyaların verilməsini təmin edirlər.

6. Sazişə hər hansı əlavələr, düzəlişlər, dəyişikliklər edilməsi və ya Sazişin öz qüvvəsini itirməsi yalnız Sazişin tərəflərinin yazılı razılığı ilə, yaxud Sazişin şərtlərinə və müddəalarına uyğun olaraq həyata keçirilirlər.

7. Bu Qanun imzalandığı gündən qüvvəyə minir.

**Heydər Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 2 dekabr 1994-cü il, № 933*

# XƏZƏR DƏNİZİNİN "AZƏRBAYCAN SEKTORUNDA "AZƏRİ", "ÇIRAQ" YATAQLARININ VƏ "GÜNƏŞLİ" YATAĞININ DƏRİNLİKDƏ YERLƏŞƏN HİSSƏSİNİN BİRGƏ İŞLƏNİLMƏSİ VƏ HASİLATIN PAY BÖLGÜSÜ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT NEFT ŞİRKƏTİ İLƏ XARİCİ NEFT ŞİRKƏTLƏRİNİN KONSORSİUMU ARASINDA 1994-CÜ İL SENTYABRIN 20-DƏ BAĞLANMIŞ SAZİŞ İLƏ ƏLAQƏDAR AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT NEFT ŞİRKƏTİ İLƏ "TÜRKİYE PETROLLERİ A.O." ARASINDA 1995-Cİ İL 12 APREL TARİXLİ ALQI-SATQI HAQQINDA MÜQAVİLƏNİN VƏ ONA ƏLAVƏ EDİLMİŞ SƏNƏDLƏRİN BƏYƏNİLMƏSİ VƏ QANUNUN QÜVVƏYƏ MİNMƏSİ HAQQINDA

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

1994-cü il sentyabrın 20-də imzalanmış və 1994-cü il dekabrın 12-dən qüvvəyə minmiş, həmin Saziş haqqında 1994-cü il 2 dekabr tarixli 933 nömrəli Azərbaycan Respublikası Qanunu ilə təsdiq edilmiş Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənilməsi və hasilatın pay bölgüsü haqqında Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə (bundan sonra "ARDNŞ" adlanacaq) "AMOKO Kaspian Si Petroleum Limited", "BP Eksploreyşn (Kaspian Si) Limited", "Delta Nimir Xəzer Limited", "Den Norske Stats Olyeselskap A.S." şirkətləri, "LUKoyl" səhmdar cəmiyyəti, "Mak-Dermott Azərbaycan, İNK", "Pennzoyl Kaspian korporeyşn", "Remko Xəzər enerji Limited", "Türkiye Petrolleri A.O.", "YUNokal Xəzər LTD" arasında Sazişə uyğun olaraq (bundan sonra "Saziş" adlanacaq) ARDNŞ və "Türkiye Petrolleri A.O." (bundan sonra TPAO adlanacaq) 1995-ci il aprelin 12-də Alqı-satqı haqqında Müqavilə imzalamışlar və sonradan ona düzəlişlər edilməklə Müqaviləyə əlavələr şəklində: Kontrakt hüquqlarının başqasına verilməsi haqqında sənəd, TPAO şirkətinin hüquq və öhdəliklərinin

“Türkiyə Petrolleri İnterneyşnl Kompani Limited” (bundan sonra “TPİK” adlanacaq) şirkətinə verilməsinə aid Tədiyə məhsulunun verilməsi haqqında Müqavilə (bundan sonra “Verilmə müqaviləsi” adlanacaq), habelə Azərbaycan Respublikası Hökumətinin Zəmanət və öhdəliklərinin layihə sənədi (bundan sonra birlikdə “Müqavilə” adlanacaq) daxil edilmişdir. Müqaviləyə uyğun olaraq ARDNŞ Saziş üzrə pay iştirakı hüquqlarının 5%-ini (beş faizini) maliyyələşdirməyi öhdəsinə götürmüş, ARDNŞ isə TPAO şirkətinə satmağı, TPAO isə ARDNŞ-dən bunu satın almağı öhdəsinə götürmüşdür. Bundan əlavə, Müqaviləyə uyğun olaraq TPİK Tədiyyə məhsulunun verilməsi haqqında Müqaviləyə görə hüquq varisi kimi Saziş üzrə ARDNŞ-nin özündə saxladığı pay iştirakının 5%-ini (beş faizini) TPAO şirkətinin hüquq varisi olan TPİK-ə maliyyə xərclərinin əvəzini Müqaviləyə uyğun olaraq ödəməyi öhdəsinə götürmüşdür.

Azərbaycan Respublikasının mənafelərinə cavab verdiyini və xarici neft şirkətlərinin konsorsiumu tərəfindən Sazişin şərtlərinə uyğun olaraq pay iştirakının verilməsinin bəyənildiyini nəzərə alaraq **qərara alıram:**

1. ARDNŞ ilə TPAO arasında 1995-ci il aprelin 12-də imzalanmış Alqı-satqı haqqında Müqavilə və ona düzəlişlər, Müqaviləyə əlavə edilmiş Kontrakt hüquqlarının verilməsi haqqında sənəd, Tədiyə məhsulunun verilməsi haqqında Müqavilə, habelə Verilmə müqaviləsinin TPİK şirkətinə yenidən verilməsi haqqında sənəd bəyənilsin və bu sənədlərin həyata keçirilməsinə icazə verilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, Azərbaycan Respublikası hökumətinin Zəmanət və öhdəliklərini imzalasın. Hökumətin bu Fərman ilə bəyənilən Zəmanəti Azərbaycan Respublikasının Baş naziri tərəfindən imzalanır və gecikmədən ardıcıl olaraq Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə təsdiq edilir.

3. Bu Fərman qüvvəyə mindikdən sonra, Müqavilə və Hökumətin zəmanəti Müqavilənin qüvvədə olduğu bütün müddət ərzində Azərbaycan Respublikasında tam qanuni qüvvəyə malikdir və qüvvədə olan və gələcəkdə qəbul ediləcək bütün digər fərmanlar, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarları və ya digər aktları, habelə Azərbaycan Respublikasının hər hansı nazirliyinin, baş idarəsinin, başqa mərkəzi və yerli icra hakimiyyəti orqanının aktları bu Fərmana, Müqaviləyə və ya hökumətin Zəmanətinə uyğun deyildirsə, yaxud bunların hər hansı bir müddəasına ziddirsə, yaxud da

bunların dəyişdirilməsinə və ya ləğv edilməsinə səbəb olarsa, bu Fərman, Müqavilə və hökumətin Zəmanəti üstün tutulur.

4. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə və ARDNŞ-ə tapşırılsın ki, yuxarıda göstərilən Müqavilənin həyata keçirilməsi üçün bütün lazımi tədbirləri görsünlər.

5. Bu Fərman imzalandığı andan qüvvəyə minir.

**Heydər Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 20 iyun 1995-ci il*

## XƏZƏR DƏNİZİNİN AZƏRBAYCAN SEKTORUNDA "AZƏRİ", "ÇIRAQ" YATAQLARINDAN VƏ "GÜNƏŞLİ" YATAĞININ DƏRİNLİKDƏ YERLƏŞƏN HİSSƏSİNDƏN ÇIXARILAN İLKİN NEFTİN İXRACINA AİD SƏNƏDLƏRİN BƏYƏNİLMƏSİ VƏ TƏSDİQ OLUNMASI HAQQINDA

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Dövlət Neft Şirkəti və xarici neft şirkətləri arasında Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlarından və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında Sazişə ("Saziş") uyğun olaraq, bu Sazişə müvafiq surətdə ilkin neft hasilatına və ixrac olunmasına dair Layihə ilə əlaqədar ilkin neftin şimal istiqamətində ixrac olunmasına aid Boru kəmərinin ötürmə qabiliyyəti və istismarı barədə Sazişin, Razılaşmaların əsaslarının, Nəqletməyə yardım Haqqında Müqavilənin ("Sazişlər") bağlanması ilə əlaqədar **qərara alıram:**

1. İlkin neftin hasilatına və ixracına dair Layihə bəyənilsin.
2. Azərbaycan Respublikası Nazirlər Kabineti Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti və Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti tərəfindən hazırlanmış və razılaşdırılmış Nəqletməyə yardım haqqında Müqaviləni təsdiq etsin və Azərbaycan Respublikasının Baş naziri tərəfindən imzalandıqdan sonra onun həyata keçirilməsi üçün lazımi tədbirlər görülsün.
3. Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinə Boru kəmərinin ötürmə qabiliyyəti və istismarı barədə Sazişin və Razılaşmaların əsaslarının imzalanmasına və yerinə yetirilməsinə aid səlahiyyətlər verilsin.
4. Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlarından və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti və xarici neft şirkətləri arasında bağlanmış Sazişin və bu Sazişin tərkib hissəsi olan Azərbaycan Respublikası

Hökumətinin Təminatı və Öhdəliklərinin (o cümlədən, Ekson Azərbaycan Limited şirkətinə verdiyi Təminat və Öhdəliklərin) müddəaları bu sərəncamın 2-ci və 3-cü bəndlərində adları çəkilən “Sazişlərə” müvafiq dərəcədə tətbiq edilsin.

5. Azərbaycan Respublikası bütün mərkəzi və yerli icra hakimiyyəti orqanlarına, dövlət müəssisələrinə və təşkilatlarına tapşırılsın ki, Sazişlərdə ifadə olunan şərtlərin tam həyata keçirilməsinə kömək göstərmək üçün bütün lazımi tədbirləri görsünlər.

6. Bu Sərəncam imzalandığı andan qüvvəyə minir.

**Heydər Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 29 dekabr 1995-ci il, № 252*

# XƏZƏR DƏNİZİNİN AZƏRBAYCAN SEKTORUNDA "AZƏRİ", "ÇIRAQ" YATAQLARININ VƏ "GÜNƏŞLİ" YATAĞININ DƏRİNLİKDƏ YERLƏŞƏN HİSSƏSİNDƏN ÇIXARILAN İLKİN NEFTİN QƏRB MARŞRUTU İLƏ İXRACINA AİD SƏNƏDLƏRİN TƏSDİQ OLUNMASI VƏ BƏYƏNİLMƏSİ HAQQINDA

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında Azərbaycan Respublikası Dövlət Neft Şirkəti və xarici neft şirkətləri arasında bağlanmış Sazişə, İlkin neft hasilatı barəsində Layihə ilə bağlı Qərb Marşrutuna aid Boru kəmərinin ötürmə qabiliyyəti və istismarı barədə Sazişə və Sazişin əsasları haqqında sənədə (Sazişlər) uyğun olaraq **qərara alıram:**

1. İlkin neftin hasilatına dair Layihə bəyənilsin.

2. Neft və qaz nəqli üçün bəzi mövcud obyektlərin təkmilləşdirilməsi və təmin edilməsi, Neft və qaz nəqletmə üçün yeni Obyektlərin (Vasitələrin inşası və belə Obyektlərlə) Vasitələrlə Gürcüstan ərazisindən kənara neft və qaz nəql edilməsi haqqında Azərbaycan Respublikası ilə Gürcüstan Respublikası arasında hökumətlərarası Saziş layihəsi bəyənilsin.

3. Azərbaycan Respublikası Dövlət Neft şirkətinə Qərb marşrutuna dair Boru kəmərinin ötürmə qabiliyyəti və istismarı barədə Saziş və Sazişin əsasları barədə sənəd imzalamaq və həyata keçirmək səlahiyyəti verilsin.

4. Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında Azərbaycan Respublikası Dövlət Neft Şirkəti və xarici neft şirkətləri arasında bağlanmış Sazişin müddəaları və Sazişin tərkib hissəsi olan Azərbaycan Respublikası hökumətinin Təminat və Öhdəlikləri (Azərbaycan Respublikası hökumətinin Ekson Azərbaycan

Limited şirkətinə verdiyi Təminatlar və Öhdəliklər daxil olmaqla) 3-cü bənddə qeyd olunan Sazişlərə müvafiq dərəcədə tətbiq edilsin.

5. Azərbaycan Respublikasının bütün mərkəzi və yerli icra hakimiyyəti orqanlarına, dövlət müəssisələrinə və təşkilatlarına tapşırılsın ki, Sazişlərdə göstərilən şərtlərə tam əməl olunmasına kömək göstərmək üçün bütün lazımi tədbirləri görsünlər.

6. Bu Sərəncam imzalandığı andan qüvvəyə minir.

**Heydər Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 7 mart 1996-cı il, № 288*

# "AZƏRİ", "ÇIRAQ" YATAQLARININ VƏ "GÜNƏŞLİ" YATAĞININ DƏRİNLİKDƏ YERLƏŞƏN HİSSƏSİNİN BİRGƏ İŞLƏNMƏSİ ÜZRƏ LAYİHƏDƏ AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT NEFT ŞİRKƏTİNİN İŞTİRAK PAYI İLƏ BAĞLI BƏZİ MƏSƏLƏLƏRİN TƏNZİMLƏNMƏSİ HAQQINDA

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikasının 1994-cü il 2 dekabr tarixli 933 nömrəli Qanunu ilə təsdiq edilmiş 1994-cü il 20 sentyabr tarixli "Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə "AMOKO KASPİAN Sİ PETROLEUM LİMİTED", "BP EKSPLOREYŞN (KASPİAN Sİ) LİMİTED", "DELTA NİMİR XƏZƏR LİMİTED", "DEN NORSKE STATS OLYESELSKAP a.s.", "LUKoyl SƏHMDAR CƏMİYYƏTİ", "MakDERMOTT AZƏRBAYCAN INK.", "PENNZOYL KASPİAN KORPOREYŞN", "REMKO XƏZƏR ENERCİ LİMİTED", "TÜRKİYE PETROLLERİ A.O.", "YUNOKAL XƏZƏR LTD" arasında Saziş"ə (bundan sonra "Saziş") əsasən, hasil edilən mənfəət karbohidrogenlərinin 10 faizi Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin iştirak payına düşür.

"Azərbaycan Respublikası Dövlət Neft Fondunun yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 29 dekabr tarixli 240 nömrəli Fərmanına əsasən, Azərbaycan Respublikasının payına düşən xam neftin və qazın satışından əldə edilən gəlirlərin Azərbaycan Respublikası Dövlət Neft Fondunun vəsaitinin formalaşma mənbələrindən biri kimi müəyyən edilməsi ilə əlaqədar 2003-cü ilədək Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Sazişdəki iştirak payına düşən xam neftin satışından əldə edilmiş 10231243624 ABŞ dolları məbləğində gəlirlər Azərbaycan Respublikası Dövlət Neft Şirkəti tərəfindən Azərbaycan Respublikası Dövlət Neft Fonduna köçürülmüşdür.

Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 7 fevral tarixli 849 nömrəli Fərmanına əsasən, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin iştirakçısı olduğu layihələrdə onun iştirak payına düşən gəlirlərin Azərbaycan Respublikası Dövlət Neft Fondunun vəsaitinin formalaşma mənbələrindən istisna edildiyini nəzərə alaraq **qərara alıram:**

Azərbaycan Respublikasının Dövlət Neft Fonduna tapşırılsın ki, Saziş üzrə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin 10 faiz iştirak payına düşən və 2003-cü ilədək Azərbaycan Respublikası Dövlət Neft Fondunun hesabında toplanmış 10231243624 ABŞ dolları məbləğində vəsaitin Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin hesabına köçürülməsini təmin etsin.

2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 16 may 2007-ci il*

## AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

## Qərar № 385

*Bakı şəhəri,*
*11 noyabr 1994-cü il*

**Xəzərin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında Sazişə Azərbaycan Respublikası hökumətinin təminatı və öhdəlikləri haqqında**

Azərbaycan Respublikasının dəniz neft və qaz yataqlarının işlənməsini sürətləndirmək haqqında Azərbaycan Respublikası Prezidentinin 1994-cü il 4 fevral tarixli 56 nömrəli Sərəncamına əsasən, Dövlət Neft Şirkətinin xarici neft şirkətləri ilə danışıqları başa çatdıraraq, "Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında Saziş"i 1994-cü il 20 sentyabr tarixində imzaladığını nəzərə alaraq, Nazirlər Kabineti **qərara alır:**

Göstərilən Sazişin 5 nömrəli əlavəsində qeyd olunmuş Azərbaycan Respublikası Hökumətinin təminatı və öhdəlikləri təsdiq edilsin.

**Fazil Quliyev**
*Baş Nazir vəzifəsini icra edən*

# MÜQAVİLƏNİN İMZALANMASI MƏRASİMİNDƏ AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN NİTQİ

*"Gülüstan" sarayı,*
*20 sentyabr 1994-cü il*

– Xanımlar və cənablar, hörmətli qonaqlar!

Bu gün Azərbaycan Respublikasının həyatında tarixi bir hadisə baş verir. Xəzərin Azərbaycan Respublikasına aid sektorunda "Azəri", "Çıraq" neft yataqlarının və "Günəşli" neft yatağının bir hissəsinin müştərək işlənməsi haqqında Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə xarici ölkələrin neft şirkətləri arasında üç il davam edən danışıqlar sona çatmış və müştərək işlər aparılması üçün müqavilənin layihəsi hazırlanıb təqdim edilmişdir.

Bu gün biz Azərbaycanın paytaxtında, Bakıda, bu gözəl "Gülüstan" sarayında müqavilənin imzalanması mərasiminə toplaşmışıq. Müqavilənin imzalanması ilə əlaqədar olaraq Bakıya xarici ölkələrdən dövlət nümayəndələri, qonaqlar gəlmişlər. Bakıya, bu mərasimdə iştirak etməyə gələn qonaqlarımızın hamısını ürəkdən salamlayır, onlara "Xoş gəlmisiniz" deyirəm.

Azərbaycan Dövlət Neft Şirkətinin xarici ölkələrin neft şirkətləri ilə apardığı danışıqlar bu ölkələrin dövlət və hökumətlərinin himayəsi altında olmuş və onlar tərəfindən dəstəklənmişdir. Müqavilənin imzalanması mərasiminə xarici ölkələrin nümayəndə heyətləri gəlmişlər. Bu mərasimdə iştirak edən Amerika Birləşmiş Ştatlarının, Rusiya Federasiyasının, Böyük Britaniya Krallığının, Türkiyə Cümhuriyyətinin, Norveçin nümayəndə heyətlərini ürəkdən salamlayır, onlara "Xoş gəlmisiniz!" deyirəm.

Bu tarixi mərasimdə iştirak edən Türkiyə Cümhuriyyətinin dövlət naziri hörmətli Nəcməddin Cövhərini salamlayıram. Böyük Britaniya Krallığının energetika naziri hörmətli cənab Timoti Eqqarı salamlayıram. ABŞ energetika nazirinin müavini hörmətli cənab Uilyam Uaytı salamlayıram. Norveç dövləti sənaye və energetika nazirinin birinci müavini hörmətli cənab Qunnar Mirvantı salamlayıram. Rusiya Federasiyasının Yanacaq və Energetika Nazirliyi Baş İdarəsinin rəisi hörmətli cənab Stanislav Puqaçı salamlayıram.

Bu mərasimdə iştirak etmək üçün zəhmət çəkib Bakıya gələn və bizim sıralarımızda olan Böyük Britaniya parlamentinin üzvlərini, İngiltərə-Azərbaycan Dostluğu Cəmiyyətinin nümayəndə heyətini salamlayıram. Bizim mərasimdə iştirak edən İslam İnkişaf Bankının prezidenti hörmətli cənab Osam Cəfər Fakihi salamlayıram. Azərbaycandakı diplomatik korpusun nümayəndələrini, hörmətli səfirləri, beynəlxalq təşkilatların nümayəndələrini və rəhbərlərini salamlayıram.

Azərbaycan Dövlət Neft Şirkəti xarici ölkələrin neft şirkətləri ilə və onların sonradan birləşdikləri konsorsium ilə üç il müddətində danışıqlar aparmış, müqavilənin layihəsini birlikdə hazırlamışlar. Bu böyük neft şirkətlərinin nümayəndə heyətləri bizim bugünkü mərasimdə iştirak edirlər. Mən onları ürəkdən salamlayıram. “AMOKO” şirkətinin prezidenti cənab Uilyam Laurini salamlayıram. “BP” şirkətinin nümayəndə heyətini, onun başçısı, şirkətin prezidenti cənab Con Braunu salamlayıram. “Statoyl” şirkətinin nümayəndə heyətini, onun başçısı cənab Yohan Nik Voldu salamlayıram. “LUKoyl” şirkətinin nümayəndə heyətini, onun başçısı, şirkətin prezidenti cənab Vahid Ələkbərovu salamlayıram. “Mak Dermott” şirkətinin nümayəndə heyətini, onun başçısı cənab Uilyam Vitnisi salamlayıram. “Pennzoyl” şirkətinin nümayəndə heyətini, onun başçısı, şirkətin prezidenti cənab Tomas Hamiltonu salamlayıram. “Remko” şirkətinin nümayəndə heyətini, onun başçısı, şirkətin prezidenti Stiven Remponu salamlayıram. “Türkiyə Petrolleri” şirkətinin nümayəndə heyətini, onun başçısı cənab Sidqi Səncəri salamlayıram. “Yunokal” şirkətinin nümayəndə heyətini, onun başçısı, şirkətin prezidenti cənab Con Ameli salamlayıram. “Delta intənəşnl” şirkətinin nümayəndə heyətini, onun başçısı, şirkətin prezidenti cənab Fateh əl-Albanı salamlayıram.

Hörmətli xanımlar və cənablar!

Neft Azərbaycan Respublikasının və Azərbaycan xalqının ən böyük milli sərvətidir. Azərbaycan qədim dövrlərdən neft diyarıdır, neft və qaz kimi təbii sərvətlərə malikdir. Buna görə də Azərbaycanı Odlar diyarı adlandırırlar. Azərbaycanda neft çıxarılması, ondan istifadə edilməsi, neftin emal olunması böyük tarixə malikdir. 1847-ci ildə Azərbaycanda–Bakıda, Bibiheybətdə ilk dəfə olaraq neft fontan vurmuşdur. Azərbaycanda neftin sənaye üsulu ilə çıxarılması prosesi də o vaxtdan başlanmışdır. 1872-ci ildə Nobel qardaşları Bakıda ilk neft şirkəti yaratmışlar və bununla da Azərbaycan neftindən istifadə etmək üçün, xarici ölkələrin firmaları, xarici kapital ölkəmizə gəlməyə başlamışdır.

Beləliklə, XIX əsrin ikinci yarısında bir sıra dünya ölkələri, inkişaf etmiş dövlətlərin firmaları Azərbaycanda, Bakıda neft çıxarılmasına böyük maraq göstərmişlər. Həmin əsrin sonundan etibarən Bakı neftinin çıxarılması üçün bir çox xarici ölkələrin şirkətləri fəaliyyətə başlamışlar. 1872-ci ildə Azərbaycanda 26 min ton neft çıxarılmışdır. Cari əsrin əvvəlində, 1900-cü ildə Azərbaycanda artıq 10 milyon ton neft hasil olunmuşdur

ki, bu da Rusiyada çıxarılan neftin 95 faizini, dünyada çıxarılan neftin isə 50 faizini təşkil etmişdir. XX əsrin birinci 20 ilində də Azərbaycanda xarici ölkələrin neft şirkətləri və yerli sahibkarlar Bakı neftinin çıxarılması, emalı üçün çox böyük fəaliyyət göstərmişlər və Azərbaycanda neft sənayesi inkişaf etmişdir.

Bu dövrü şərti olaraq Azərbaycanda neft sənayesi tarixinin birinci mərhələsi adlandırmaq olar. Həmin dövrdə Bakı neftindən bütün dünyada istifadə edilmişdir. Azərbaycan nefti xarici ölkələrin şirkətlərinə böyük mənfəət gətirmişdir. Azərbaycanda böyük sahibkarlar meydana çıxmış, onlar külli miqdarda mənfəət əldə etmişlər. Həmin dövrdə Azərbaycan neft sənayesinin inkişafı Bakının, ümumiyyətlə, Azərbaycanın inkişafına böyük təkan vermişdir. Azərbaycanın paytaxtı Bakı böyük sənaye şəhərinə çevrilmiş və o vaxtlar Rusiya imperatorluğunun ərazisində ən iri sənaye mərkəzlərindən biri olmuşdur. Qədim tarixə malik olan Bakımız həmin dövrdə yeni sima kəsb etmiş, genişlənmiş, gözəlləşmişdir və burada o vaxtın tələblərinə uyğun müasir binalar, istehsal müəssisələri, zavodlar, digər sənaye obyektləri tikilmişdir. Bu gün biz həmin mərhələdə görülmüş işləri layiqincə qiymətləndirməli və Azərbaycanın, Bakının inkişafında neftimizin böyük rol oynadığını qeyd etməliyik.

1918-ci ildə ölkəmizdə demokratik dövlət yaradılmış, Azərbaycan öz müstəqilliyini əldə etmiş, iki ilə yaxın müddətdə müstəqil dövlət kimi yaşamış, bu dövlət xalqımıza mənsub olan sərvətlərdən onun rifahı naminə istifadə edilməsi üçün səylər göstərmişdir. Lakin təəssüflər olsun ki, bu səylər istənilən nəticəni verməmişdir. Çünki 1920-ci ildə Azərbaycan demokratik dövləti süquta uğramışdır.

Həmin il Azərbaycanda sovet sosialist hakimiyyəti qurulmuşdur. Bundan sonra 70 il ərzində Azərbaycan həmin quruluş şəraitində, Sovet İttifaqının tərkibində olmuşdur. Azərbaycan xalqının ən böyük sərvəti olan neftdən Sovet İttifaqının mənafeyi naminə istifadə edilmişdir. Həmin dövrü neft sənayesinin həyatında ikinci dövr adlandırmaq olar. Bu dövrdə Azərbaycanın neft sənayesi sürətlə inkişaf etmişdir. Sovet İttifaqının sənayesinin və iqtisadi qüdrətinin, sənaye potensialının inkişafı üçün Azərbaycanın neft sənayesi çox lazımlı olduğuna görə buraya böyük səylər yönəldilmişdir. Odur ki, Azərbaycanda neft sənayesinin inkişafında mühüm nailiyyətlər qazanılmışdır.

O dövrdə Azərbaycan neftçilərinin böyük ordusu yaranmışdır. Azərbaycan neft və qaz sənayesi sürətlə inkişaf etmiş, böyük müəssisələr inşa olunmuşdur. Neft sahəsində böyük elm ocaqları, elmi-tədqiqat institutları yaradılmışdır. Neft sənayesi üçün yüksək səviyyəli mütəxəssislər hazırlamaq məqsədi ilə institut, indi Neft Akademiyası adlandırılan institut açılmışdır. Azərbaycan neftçiləri, mütəxəssisləri, alimləri, bir sözlə neft sahəsində

çalışan bütün adamlar respublikanın neft sənayesinin inkişafı üçün fədakarcasına işləmiş, Azərbaycanın tarixinə şanlı səhifələr yazmışlar.

Dediyim kimi, Azərbaycan neftindən onun özünün deyil, bütün Sovet İttifaqının inkişaf etməsi üçün istifadə olunmuşdur. 1941–1945-ci illərin ikinci dünya müharibəsi dövründə Azərbaycan nefti bütün ölkədə çıxarılan neftin 75 faizini təşkil etmişdir. Həm də Azərbaycanın neft sənayesi, bizim neftçilərimiz bütün dünya üçün təhlükəli olan alman faşizminin məğlubiyyətə uğradılmasında, məhv edilməsində böyük xidmət göstərmişlər.

Sovet İttifaqının hər yerində yeni neft yataqlarının aşkara çıxarılmasında, onların istismar edilməsində Azərbaycanın neft sahəsində çalışan alimlərinin, mütəxəssislərinin, neftçilərimizin güclü fəaliyyəti olmuşdur.

Təsadüfi deyildir ki, onların səyləri və əməyi sayəsində Sovet İttifaqı ərazisində aşkara çıxarılan yeni neft yataqları "İkinci Bakı", "Üçüncü Bakı" və "Dördüncü Bakı" adlandırılmışdır. Rusiyanın ən böyük neft yataqları olan Sibir, Tümen yataqlarının kəşf və istismar olunmasında, orada böyük neft və qaz komplekslərinin yaradılmasında Azərbaycan neftçilərinin əvəzsiz xidmətləri var və indiyədək də onlar həmin bölgələrdə çalışan neftçilərin əksəriyyətini təşkil edirlər.

Bu gün mən bütün bu məlumatları qonaqlarımıza çatdırmağı, Azərbaycan xalqına bir daha xatırlatmağı lazım bilirəm. Çünki bunların hamısı Azərbaycan xalqının fəxridir, şöhrətidir, xalqımızın, neftçilərimizin dünya iqtisadiyyatına göstərdikləri böyük xidmətlərdən xəbər verir.

Azərbaycan neftçilərinin böyük nailiyyətlərindən biri də ondan ibarətdir ki, onlar Xəzərdə neft çıxarılması üçün çox çalışmışlar. Bu sahədə istər 1920-ci illərin əvvəllərində, istərsə də 1930-cu illərdə bir çox addımlar atılmış, lakin Xəzər dənizində bol neft çıxarılmasına 1949-cu il noyabrın 7-dən başlanmışdır. Həmin gün Xəzərin indi Neft Daşları adlandırdığımız sahəsində neft quyusu ilk dəfə fontan vurmuşdur.

Azərbaycanın dəniz neftçilərinin təcrübəsi ötən 45 il ərzində istər keçmiş Sovet İttifaqında, istərsə də dünyanın bir çox ölkələrində dənizin dərin qatlarından neft çıxarılması üçün örnək olmuşdur. Azərbaycan alimlərinin, neftçilərinin bu sahədə xidmətləri böyükdür. Bildiyiniz kimi, üç il bundan qabaq xalqımız öz azadlığını əldə etmiş, Azərbaycan müstəqil respublika olmuşdur. Azərbaycan xalqı öz taleyinin sahibinə çevrilmişdir. Xalqımız öz təbii sərvətlərindən özü istədiyi kimi istifadə etmək imkanları qazanmışdır. Beləliklə, Azərbaycanın həyatında yeni dövr başlanmışdır. Neft sənayemizin tarixində də şərti olaraq üçüncü mərhələnin bünövrəsi qoyulmuşdur. İndi biz yeni mərhələdə müstəqil Azərbaycan Respublikasının iradəsini ifadə edərək onun öz təbii sərvətlərindən istifadə etməsi üçün lazımi tədbirlər görürük. Son üç il ərzində xarici ölkələrin neft şirkətləri ilə danışıqlar aparılmış və sazişlər əldə edilmişdir.

Bu gün, bu tarixi gündə, Azərbaycanda neftin sənaye üsulu ilə hasil və emal edilməsinə başlandığı dövrdən təxminən 150 il sonra mən Azərbaycan neftçilərinin bütün nəsillərinə, respublikamızın neft sahəsində çalışan alimlərinin, mütəxəssislərinin, mühəndislərinin və fəhlələrinin hamısına bu dövrdə təbii sərvətlərimizi çıxarıb xalqımızın rifahının müəyyən qədər yaxşılaşmasına səy göstərdiklərinə görə, fədakar əməklərinə görə, böyük elmi kəşflərinə görə təşəkkürümü bildirirəm və onları indiyədək qazandıqları nailiyyətlər münasibətilə ürəkdən təbrik edirəm.

Azərbaycanda neftin sənaye üsulu ilə istehsalına başlandığı vaxtdan indiyədək ölkəmizin ərazisində yerin təkindən – quruda və suda 1 milyard 325 milyon ton neft çıxarılmışdır. Xəzərin Azərbaycana aid hissəsində 45 ildə 400 milyon ton neft hasil edilmişdir. Bu müddətdə, eyni zamanda, 400 milyard kubmetrədək qaz çıxarılmışdır. Bütün bunlar böyük nailiyyətlərdir və gələcəkdə Azərbaycan Respublikasının iqtisadiyyatının, neft sənayesinin inkişafı üçün böyük əsas və təməldir.

Biz ötən dövrlərdə nə qədər çox neft çıxarsaq da, nə qədər böyük nailiyyətlər əldə etsək də, bir həqiqəti nəzərə çarpdırmalıyıq ki, son vaxtlaradək, yəni Azərbaycanın müstəqilliyi əldə olunan dövrədək xalqımız heç vaxt öz təbii sərvətlərinin sahibi olmamışdır. 1920-ci ilə qədər neftimiz həm xarici neft şirkətləri tərəfindən, həm də Azərbaycanın öz sahibkarları tərəfindən hasil edilsə də, Azərbaycanın, xüsusən Bakının inkişafı üçün böyük işlər görülsə də, xalq bu sərvətin sahibi deyildi.

1920-ci ildən başlayaraq Azərbaycanın həyatında çox böyük dəyişikliklər baş vermişdir. Azərbaycan iqtisadiyyatı inkişaf etdirilmiş, respublikada nəhəng sənaye potensialı, elmi potensial yaradılmış, neft sənayemiz böyük tarixi yol keçmişdir. Ancaq yenə də Azərbaycan öz neftinin yeganə və tam sahibi olmamışdır. Bütün bu sərvətlərimiz özümüzə yox, sovet dövlətinə məxsus olmuşdur. İndi isə biz yeni bir mərhələdə yaşayırıq. Azərbaycan Respublikası müstəqil dövlətdir. Azərbaycan xalqı öz təbii sərvətlərinin sahibidir. Bu sərvətlərdən necə istifadə edilməsini xalqımızın özü sərbəst surətdə müəyyənləşdirir.

Neft yataqlarımızın müştərək işlənməsi haqqında Azərbaycan Dövlət Neft Şirkəti ilə xarici ölkələrin aparıcı neft şirkətləri arasında danışıqlar üç il ərzində məhz bu prinsiplər əsasında aparılmışdır. Şübhəsiz, danışıqlar hamar yolla getməmişdir. Burada çətinliklər də olmuşdur, enişlər və yoxuşlar da. Lakin danışıqlar, nəhayət, başa çatdırılmışdır. Xarici ölkələrin zəngin təcrübəli böyük neft şirkətlərinin Azərbaycan neftinə marağı təbii haldır və biz bunu məmnuniyyətlə qəbul etmişik. Elə özümüz də buna böyük maraq göstərmişik və göstəririk.

Keçmiş dövrlərdən fərqli olaraq, indi bu məsələlər barədə Azərbaycan Respublikası hər bir ölkə ilə, o cümlədən bu neft şirkətlərinin mənsub olduqları ölkələrlə, xarici dövlət-

lərin neft şirkətləri ilə müstəqil surətdə danışıqlar aparır və danışıqlarda öz prinsiplərinin qəbul edilməsinə çalışır. Xəzərin Azərbaycana aid sektorundakı "Azəri" və "Çıraq" neft yataqlarının, "Günəşli" neft yatağının bir hissəsinin müştərək işlənməsi haqqında müqavilə Azərbaycan Dövlət Neft Şirkəti ilə xarici ölkələrin neft şirkətləri arasında danışıqlar nəticəsində, nəhayət, hazırlanıb başa çatdırılmışdır. Bu müqavilə mənə, Azərbaycan prezidentinə təqdim edilmişdir. Sizə məlum olduğu kimi, sentyabrın 14-də müqavilənin layihəsi təhlil edildikdən sonra mən onun Azərbaycan Dövlət Neft Şirkəti tərəfindən imzalanması haqqında fərman vermişəm. Xarici ölkələrin neft şirkətləri də layihənin imzalanması haqqında qərar qəbul etmişlər. Bu şirkətlərin mənsub olduqları ölkələrin dövlət rəhbərləri də xeyir-dua vermişlər. Bütün bunların nəticəsində indi biz buraya, müqavilənin imzalanması mərasiminə toplaşmışıq.

Açıq demək istəyirəm, müqavilədə Azərbaycan tərəfinin istək və arzularının heç də hamısı öz əksini tapmamışdır. Lakin biz başa düşürük ki, hər hansı bir müqavilə hər iki tərəfin mənafelərini təmin etməlidir. Qərb neft şirkətlərinin konsorsiumu öz mənafelərini təmin etməyə çalışmış, Azərbaycan Dövlət Neft Şirkəti isə Azərbaycan Respublikasının milli mənafelərini təmin etməyə səy göstərmişdir. Deyə bilərəm ki, görülən böyük və gərgin işin nəticəsində, tərəflərin məsələyə yüksək məsuliyyətlə yanaşması nəticəsində, nəhayət, hər iki tərəfin mənafelərinə cavab verən layihə hazırlanmışdır. Ona görə də mən bu gün imzalanacaq müqaviləni Azərbaycan Respublikasının indisi və gələcəyi üçün iqtisadi baxımdan mənfəətli hesab edirəm və onun imzalanmasına qərar vermişəm.

Biz belə bir addım atmaqla Azərbaycanın dünya üçün, dünya iqtisadiyyatı üçün açıq ölkə olduğunu nümayiş etdiririk. Biz bu müqaviləni imzalamaqla Azərbaycan Respublikasının suveren hüquqlarının bərqərar olduğunu, Azərbaycanın tam müstəqil dövlət olduğunu, xalqımızın öz sərvətlərinə özünün sahib olduğunu dünyaya bir daha nümayiş etdiririk. Biz müqaviləni imzalamaqla Azərbaycan Respublikası ilə dünyanın inkişaf etmiş dövlətləri, onların ən böyük şirkətləri arasında əlaqələr yaradır, Azərbaycan iqtisadiyyatının dünya iqtisadiyyatına, azad bazar iqtisadiyyatına qoşulması üçün əsas yaradırıq. Biz bu müqaviləni imzalamaqla dünyaya bir daha nümayiş etdiririk ki, müstəqil Azərbaycan Respublikası demokratik və hüquqi dövlətdir. Azərbaycanda demokratik prinsiplərin bərqərar olması və inkişaf etməsi üçün geniş meydan açılmışdır. Azərbaycan Respublikası bazar iqtisadiyyatı yolu ilə getmək əzmindədir. Bu müqavilənin imzalanması bazar iqtisadiyyatının Azərbaycanda həyata keçirilməsi üçün ilk böyük addımdır. Biz bu müqaviləni imzalamaqla xarici ölkələrdən Azərbaycana investisiya qoyulması üçün böyük yol açırıq, digər sahələrdə çalışan şirkətlərin də Azərbaycanda fəaliyyət göstərməsi üçün zəmin yaradırıq, müstəqil Azərbaycan Respublikasının iqtisadiyyatında və ictimai-siyasi həyatında hökm sürən sabitliyi dünyaya bir daha nümayiş etdiririk. Biz bu

müqaviləni imzalamaqla müqavilədə iştirak edən şirkətlərin mənsub olduqları böyük ölkələrlə: Amerika Birləşmiş Ştatları, Rusiya, İngiltərə, Türkiyə, Norveç kimi dövlətlərlə dostluq əlaqələrinin, iqtisadi əməkdaşlığın və ümumiyyətlə, bütün sahələrdə əlaqələrin möhkəmlənəcəyinə ümid bəsləyirik.

Beləliklə, müqavilənin imzalanması üçün gözəl şərait yaranmışdır və biz bu gün böyük bir hadisənin şahidiyik. Müqavilənin imzalanması Azərbaycan Respublikasının həyatında, iqtisadiyyatında və xüsusən neft sənayesində yeni bir mərhələ açır. Müqavilə 30 il müddətinə bağlanır. Deməli, qarşımızda uzun bir yol var və böyük işlər, böyük vəzifələr durur. Müqaviləni hazırlayanlar yaxşı bilirlər, lakin mən buraya toplaşanlara, bütün Azərbaycan xalqına bəyan etmək istəyirəm ki, bu müqavilənin bağlanması nə qədər çətin idisə, onun həyata keçirilməsi ondan da çətin olacaqdır. Müqavilənin hər iki tərəf üçün, o cümlədən Azərbaycan xalqı üçün, müstəqil Azərbaycan Respublikası üçün mənfəəti və müsbət nəticələri onun ardıcıl surətdə icrasından asılıdır. Müqavilə ikitərəfli hərəkət olan yola bənzəyir: gərək hər iki tərəf eyni sürətlə hərəkət etsin. Şübhəsiz ki, burada xarici neft şirkətlərinin üzərinə çox böyük vəzifələr düşür. Ümidvar olduğumu bildirmək istəyirəm ki, həmin şirkətlər və onların mənsub olduqları ölkələrin dövlət orqanları bu müqavilənin həyata keçirilməsi üçün vaxtında lazımi tədbirlər görəcəklər.

Azərbaycan Respublikasının üzərinə düşən vəzifələr daha çətin, daha ağırdır. Bilirsiniz ki, Azərbaycan iqtisadiyyatı ağır böhran içərisindədir. Neft sənayesində də böyük çətinliklər yaranmışdır. Məhz bu böhrandan çıxmaq, Azərbaycan iqtisadiyyatını inkişaf etdirmək, xalqımızın rifahını qısa müddətdə lazımi səviyyəyə qaldırmaq üçün hamı əl-ələ verib müqavilənin həyata keçirilməsinə çalışmalıdır. Ümidvaram ki, Azərbaycanın qəhrəman və təcrübəli neftçiləri, alimləri, mütəxəssisləri, iqtisadiyyatımızda bu sahə ilə məşğul olan şəxslər, bir sözlə, hamı bu vəzifəni ən böyük, ən şərəfli vəzifə kimi qəbul edib, onun həyata keçirilməsinə çalışacaqdır. Mən Azərbaycan Prezidenti kimi, bu müqavilənin imzalanmasına qərar verərək öz məsuliyyətimi hiss edirəm, sizə söz verirəm ki, onun həyata keçirilməsi üçün əlimdən gələni əsirgəməyəcəyəm.

Bu gün bu təntənəli və möhtəşəm mərasimdə mən Azərbaycan neftçilərini, Azərbaycan xalqını, bütün Azərbaycan vətəndaşlarını bu əlamətdar tarixi hadisə münasibətilə təbrik edirəm. Azərbaycan Dövlət Neft Şirkətinin bu sahədə çalışan nümayəndə heyətinin əməyini, ümumiyyətlə, şirkətin bu sahədə gördüyü işləri qiymətləndirirəm və onları nail olduqları müvəffəqiyyətlər münasibətilə təbrik edirəm. Bu müqavilənin hazırlanıb başa çatdırılması üçün böyük işlər görmüş olan xarici ölkələrin neft şirkətləri konsorsiumunun rəhbərlərini, həmin şirkətlərin işçilərinin hamısını ürəkdən təbrik edir, onlara xoş arzularımı yetirir və əmin olduğumu bildirmək istəyirəm ki, əməkdaşlığımız uğurlu olacaqdır.

Xarici neft şirkətlərinin mənsub olduqları ölkələrin: ABŞ-ın, Rusiyanın, Böyük Britaniyanın, Türkiyənin, Norveçin dövlət və hökumət başçılarını bu hadisə münasibətilə ürəkdən təbrik edirəm.

Biz bu müqavilə əsasında sıx birləşir, böyük əməkdaşlığa başlayırıq və mən şübhə etmirəm ki, əməkdaşlığımız uğurlu olacaqdır, buna maneçilik törədən bütün qüvvələr dəf ediləcəkdir, müstəqil Azərbaycan Respublikası öz taleyinin, öz sərvətlərinin sahibi kimi, bu əməkdaşlıq sayəsində dünya birliyində, dünya iqtisadi birliyində öz layiqli yerini tutacaqdır.

Sizi, bu mərasimə toplaşanları, bütün bu məsələlərə müsbət maraq göstərənlərin hamısını bir daha ürəkdən təbrik edir, müqavilənin imzalanması üçün xeyir-dua verirəm. Xeyirli olsun, uğurlu olsun. Azərbaycan xalqının xoşbəxt gələcəyi naminə bu müqavilənin bu gün burada imzalanmasını ürəkdən təbrik edirəm. Sağ olun.

## MÜQAVİLƏNİN İMZALANMA MƏRASİMİNDƏ AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT NEFT ŞİRKƏTİNİN PREZİDENTİ NATİQ ƏLİYEVİN ÇIXIŞI

### "Əsrin müqaviləsi" və Azərbaycan

Azərbaycan neft və qaz yataqlarının sənaye üsulu ilə işlənməsi 140 il bundan əvvəl başlamışdır. 1911-ci il-də dünya neft hasilatının təqribən yarısını Azərbaycan nefti təşkil etmişdir.

Əsrin əvvəllərində bizim neft sənayeçilərimiz dünya bazarlarında Avropanın və Şimali Amerikanın neft şirkətləri ilə uğurlu rəqabət aparırdılar. Eyni zamanda həmin illərdə xarici sərmayədarlar Azərbaycanda neftçıxarmanın, neftayırmanın, neft maşınqayırmasının, nəqliyyat kommunikasiyalarının inkişafına böyük kömək göstərirdilər.

Birinci dünya müharibəsi qurtaranda Rusiya imperiyası parçalanandan sonra Azərbaycan müstəqil inkişaf yoluna qədəm qoydu. Tarixin gedişi cəmi 23 ay ömür sürmüş Azərbaycan Demokratik Respublikasını bu imkandan hərtərəfli istifadə etməyə qoymadı, lakin indi ölkəmizin və onun vətəndaşlarının tərəqqisi naminə dövlətçiliyin, demokratik təsisatların bərqərar olunub möhkəmlənməsi üçün yenidən real şərait yaranmışdır.

Hazırda Azərbaycan Respublikasının neft sənayesi öz inkişafının keyfiyyətcə yeni mərhələsindədir ki, bu da, bir tərəfdən, ən əvvəl respublikanın 1991-ci ildə müstəqillik əldə etməsi, digər tərəfdən, çox böyük neft və qaz yataqlarının aşkar edilməsi, onların mənimsəmək üçün geniş perspektivlər açılması sayəsində mümkün olmuşdur. Lakin bir sıra obyektiv səbəblər üzündən son illər Azərbaycanda neft hasilatı xeyli azalmışdır və deməliyik ki, bu ölkənin siyasi-iqtisadi vəziyyətini, onun maliyyə-texniki imkanlarını güzgüdə olduğu kimi əks etdirir.

Azərbaycan iqtisadiyyatına xarici sərmayələrin geniş miqyasda cəlb edilməsinə hələ 1990-cı ildə, keçmiş SSRİ-nin mövcud olduğu dövrdə başlanmışdır, həm də qeyd edilməlidir ki, keçmiş SSRİ-nin ərazisində bu işə ilk dəfə bizim respublikamız Xəzər dənizində Azəri neft və qaz yatağının işlənməsinə dair tender elan etməklə başlamışdır.

Lakin onda da və Azərbaycan siyasi müstəqillik əldə edəndən sonra da dəqiq strategiya, möhkəm siyasi iradə və sarsılmaz qətiyyətin olmaması, həmçinin daxili və xarici qarşıdurmalar bu prosesi müvəffəqiyyətlə başa çatdırmağa imkan vermədi. Təqribən üç il davam edən danışıqlar 1993-cü ildə, əslində, çıxılmaz vəziyyətə düşdü.

1994-cü ilin fevralından başlayaraq həmin ilin dekabrınadək ardıcıl surətdə həm yeni, çox məsul qərarlar qəbul etmək, həm də konkret əməli işlər görmək lazım gəldi ki, təkcə bizim respublikamız üçün deyil, eləcə də digər dövlətlər, o cümlədən Azərbaycanla həmsərhəd dövlətlər üçün böyük və prinsipial əhəmiyyətə malik sənəd – Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının işlənməsi və neft hasilatının pay bölgüsü haqqında Saziş onun bütün iştirakçıları tərəfindən razılaşdırılıb imzalansın və Azərbaycan Parlamenti tərəfindən təsdiq edilsin. Son mərhələdə altı dövləti – ABŞ-ı, Böyük Britaniyanı, Rusiyanı, Norveçi, Türkiyəni və Səudiyyə Ərəbistanını təmsil edən "AMOKO", "BP", "Pennzoyl", "Yunokal", "Statoyl", "Mak Dermott", "LUKoyl", "Türkiye Petrolleri Anonim Ortaqlığı", "Delta" və "Remko" kimi güclü şirkətlərin daxil olduğu xarici neft şirkətləri konsorsiumu ilə üç ildən çox aparılan danışıqlar 1994-cü il sentyabrın 20-də Bakıda Sazişin təntənəli şəkildə imzalanması mərasimi ilə başa çatdı. Mərasimdə danışıqların iştirakçıları ilə yanaşı, şirkətləri konsorsiuma daxil olan ölkələrin hamısının nümayəndə heyətləri də iştirak edirdilər.

Sazişin imzalanması yolu keşməkeşli olmuşdur. Ermənistanla elan edilməmiş müharibə vəziyyətində olan, daxili siyasi çəkişmələrə məruz qalan respublikamız tərəflərin iqtisadi mənafelərinin ədalətli tarazlığını tapmaqla yanaşı, bəlkə də daha mühüm addım atmalı, daha ciddi siyasi qərar qəbul etməli idi: Azərbaycan qapılarını bütün ölkələrin sərmayədarlarının üzünə geniş açmaq, onu çoxtərəfli beynəlxalq əməkdaşlıq meydanına çevirmək.

Biz möhkəm və qəti əminik ki, inkişaf etmiş bazar iqtisadiyyatına malik olan, dünyanın bütün bölgələri ilə iqtisadi əlaqələr saxlayan demokratik, güclü, çiçəklənən dinc Azərbaycan məhz bu yolla yaranacaqdır.

Xəzər dənizinin Azərbaycan sektorunda ümumi sahəsi 432.4 kvadrat kilometr olan "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında Saziş respublikanın siyasi və iqtisadi həyatında unikal hadisədir, Azərbaycan xalqının sosial vəziyyətinin yaxşılaşdırılmasında və maddi rifahının yüksəldilməsində son dərəcə mühüm rol oynamalıdır.

Bu yataqlarda güman edilən neft ehtiyatları 511 milyon ton, səmt qazı ehtiyatları 70 milyard kubmetrdir. Sazişə uyğun olaraq gözlənilən 55 milyard kubmetr səmt qazı təmənnasız, haqqı ödənilmədən Azərbaycana verilir və müqavilənin iqtisadi cəhətdən qiymətləndirilməsində nəzərə alınmır. 90 milyard kubmetr həcmində qeyri-səmt qazına

gəlincə, şərtləşdirildiyinə görə yataqların qaz laylarının işlənməsi hökumətin icazəsinə əsasən həmin konsorsiumla bağlanmalı olan ayrıca sazişdə nəzərdə tutulacaqdır.

Yataqların işlənməsi bu Saziş Milli Məclis tərəfindən təsdiq olunandan sonra 30 illik bir dövrü əhatə edəcəkdir. Onun birinci mərhələsində qiymətləndirmə dövrünün gedişində minimum proqrama uyğun olan məcburi işlər görülməlidir. Həmin işlər müqavilənin qüvvəyə mindiyi tarixdən sonra 18 aydan gec olmayaraq “Çıraq-1” platformasından (bundan əvvəl ARDNŞ-nin qüvvəsi ilə tikilmiş, xarici şirkətlərin rekonstruksiya edib modernləşdirəcəkləri və lazım bildikləri qaydada istifadə edəcəkləri platforma) ilkin neft hasilatının təmin olunmasına imkan verəcəkdir. İkinci mərhələ yataqların tammiqyaslı işlənməsinə keçiddir ki, bu da qüvvəyəminmə tarixindən sonra 48 ay ərzində birinci platformanın tikilib qurtarmasını, ilk quyunun qazılıb istifadəyə verilməsini, beləliklə, müvafiq neft layının işlənməyə başlanmasını nəzərdə tutur. Üçüncü mərhələdə, qüvvəyəminmə tarixindən məhz 54 ay keçəndən sonra xam neftin əsas ixracat boru kəmərinə verilməsinə başlamaq planlaşdırılır. Yataqların işlənməsinə başçılıq etmək Rəhbər Komitəyə həvalə olunmuşdur. Rəhbər Komitəyə bərabər nisbət əsasında sazişin iştirakçısı olan tərəflərin hərəsindən 10 nümayəndə daxildir. Komitənin sədrini Azərbaycan tərəfi təyin edir, katib isə podratçı tərəfindən onun Rəhbər Komitəyə seçdiyi nümayəndələr arasından təyin olunur. Rəhbər Komitənin müzakirəsinə verilən hər hansı məsələyə dair qərar qəbul edilərkən həm ARDNŞ, həm də Podratçı bir səsə malikdir. Müqavilədə nəzərdə tutulmuşdur ki, Azərbaycanda neftə daxili tələbatın ödənilməsi zərurəti yarananda xarici şirkətlər özlərinə məxsus neftin 10 faizini respublikaya sata bilərlər. Üstəlik, ARDNŞ Əsas ixracat boru kəmərinin son məntəqəsindəki nöqtədə xam neftin Podratçıya məxsus payından daha 10 faizə qədərini satın almaq hüququna malikdir.

Sazişdə Xarici şirkətlərin 300 milyon dollar məbləğində bonus ödəmələri nəzərdə tutulur. Bonus aşağıdakı mərhələlərlə ödənilməlidir:

50 faizi – Sazişin Qüvvəyə minmə tarixindən 30 gün sonra;

25 faizi – orta sutkalıq debit 40.000 barelə çatdırılandan sonra;

25 faizi – ixracat boru kəməri işləməyə başlayandan sonra.

Müqaviləyə görə məsrəflərin ödənilməsi hesabı təqvim kvartalı əsasında aparılır – ümumi hasilat həcmindən birinci növbədə istismar məsrəfləri, sonra isə qalan xam neftin 50 faizdən çox olmayan həcmindən əsaslı məsrəflər ödənilir. Ödənilməmiş məsrəflər tam ödəniləndək sonrakı dövrlərə keçirilməklə, Libor +4% dərəcəsi ilə faizlə hesablanır. İstismar məsrəfləri və əsaslı məsrəflər ödəniləndən sonra qalan xam neft kapital qoyuluşunun tam səmərəliliyinin real norması dinamikasına əsaslanan şkalalar əsasında tərəflər arasında bölüşdürülür.

Podratçı tərəflərin mənfəətindən Sazişin müvafiq maddələrinə uyğun olaraq 25 faiz həcmində vergi tutulacaqdır. Müqavilənin ARDNŞ texniki proqramından və baza şkalasından istifadə edilməklə aparılan təhlili göstərir ki, onun əsas iqtisadi nəticələri belədir: yataqların işlənməsinin bütün dövrü ərzində əsaslı məsrəflər 7,5 milyard dollar (1993-cü ilin qiymətləri ilə) təşkil edəcək, qeyri-rentabelli illər çıxılmaqla neft hasilatı 504 milyon ton və istismar məsrəfləri 5,8 milyard dollar olacaq, neftin bir tonu 133 dollara satılarsa, ümumi gəlirin 49,7 faizi Azərbaycanın payına, 12,8 faizi xarici tərəfdaşların payına düşəcəkdir.

Mənfəət nefti bu nisbətlə bölüşdürüləcəkdir – Azərbaycana 80 faiz, digər tərəflərə 20 faiz. Bu zaman inflyasiya nəzərə alınmadan daxili mənfəət norması ümumən layihə dövründə 24 faizə çatacaqdır. Sazişin iqtisadi mexanizmi tərəflərin mənafelərinin qarşılıqlı uyğun gəlməsini təmin edir.

Podratçı tərəflər bu Sazişə əsasən Podratçının götürdüyü bütün öhdəliklər üçün ümumi və fərdi məsuliyyət daşıyırlar. Öz növbəsində Saziş Azərbaycan Respublikasının və İngiltərənin qanunları üçün ümumi hüquq prinsiplərinə, hər hansı məsələ barəsində ümumi prinsiplər olmadığı hallarda isə Kanadanın Alberta əyalətinin ümumi hüquqi prinsiplərinə uyğun olaraq tənzim və təfsir edilir. Bundan başqa Sazişin əsas müddəalarında nəzərdə tutulmuşdur ki, tərəflərin iqtisadi mənafelərinin pozulduğu halda mənafelər ya Sazişə müvafiq düzəlişlər keçirilməsi, ya da meydana çıxan itkilərin, ziyanların və ya zəruri ödənilməsi yolu ilə tarazlanıb bərpa edilməlidir.

Sazişin şərtlərinə görə Podratçı tərəflər bu Sazişdəki paylarının hamısını və ya bir qismini sərbəst surətdə özlərinin ortaq şirkətlərinə vermək hüququna malikdirlər, üçüncü tərəflərə vermək üçün isə hökmən ARDNŞ-nin razılığı gərəkdir.

Sazişə görə Podratçı neft-qaz əməliyyatlarını lazımi səmərə ilə və təhlükəsizlik qaydalarına əməl etməklə aparmağı, beynəlxalq neft sənayesinin hamılıqla qəbul olunmuş standartlarına riayət etməyi və ətraf mühitin ümumi tarazlığının hər hansı potensial pozuntusu hallarını minimuma endirməkdən ötrü yuxarıda göstərilən standartlara uyğun olaraq bütün ağlabatan tədbirləri görməyi öhdəsinə götürür.

Bununla birlikdə, bu uzunmüddətli layihənin həyata keçirilməsi xarici sərmayədarların hüquqi cəhətdən müdafiə olunmasını, onlar üçün maksimum dərəcədə əlverişli "sərmayədarlıq iqlimi" yaradılmasını tələb edir. Respublika bunu əsas tutaraq 1994-cü il dekabrın 2-də Azərbaycan Parlamentinin iclasında müqaviləyə qanun qüvvəsi verməklə onun xarici iştirakçılarının hüquq və vəzifələrini hüquqi cəhətdən təsdiq etməklə yanaşı, həm də Azərbaycan hökuməti adından təminat vermişdir ki, tam bir sıra güzəştlər və əlavə imtiyazlar müəyyənləşdiriləcəkdir, o cümlədən:

- qüvvədə olduğu bütün müddət ərzində müqavilənin şərtlərinin iqtisadi sabitliyi;
- xarici iştirakçıların hüquqlarının və əmlakının müsadirə edilməsi, milliləşdirilməsi və ya hər hansı digər yollarla özgəninkiləşdirilməsi imkanlarının aradan qaldırılması;
- Azərbaycanda qanunvericilik dəyişiklikləri nəticəsində itirilmiş hüquqların və yaxud əmlakın tam kompensasiyasına təminat verilməsi;
- Müqavilənin gedişində həyata keçirilən neft-qaz əməliyyatlarına daxil olan maddi ehtiyatların, maşınların, avadanlığın və materialların sərbəst ixrac (idxal) rejimi qoyulması;
- lazımi lisenziyaların və icazələrin alınmasında hər cür kömək göstərilməsi;
- neft-qaz əməliyyatlarının həyata keçirmək üçün mövcud olan və lazım gələn infrastruktura sərbəst buraxılışın təmin edilməsi.

Müqavilənin sayəsində bazar iqtisadiyyatına keçid şəraitində on milyardlarla dollar valyuta varidatı neft sənayesinin və onunla bağlı sənaye sahələrinin: uzun müddət durğunluq vəziyyətində olan neft maşınqayırma və kimya sənayesinin maliyyə, elmi və istehsal-texniki bazasının keyfiyyətcə yeniləşməsini təmin edəcəkdir. Lakin müqavilənin iqtisadi əhəmiyyəti bunlarla məhdudlaşmır və aşağıdakı çox mühüm işlərə də güclü təkan veriləcəkdir:

- müqavilənin həyata keçirilməsi prosesində ixracat boru kəmərinin tikilməsi və Azərbaycan neftinin dünya bazarına çıxarılması təmin ediləcəkdir ki, bu da digər yataqların daha sərfəli iqtisadi şərtlərlə işlənməsinə imkan verəcəkdir;
- beynəlxalq maliyyə təşkilat və təsisatlarında Azərbaycanın kredit ödəmək qabiliyyəti yüksələcəkdir;
- Müqavilə neft sənayesi ilə bağlı sahələrə, infrastruktura külli miqdarda sərmayə qoymaq proseslərinə səbəb olacaq və çox vaxt əsas müqavilənin həcmindən xeyli artıq olur;
- Azərbaycan öz valyuta ehtiyatlarına malik olacaqdır ki, bu da ona özünün investisiya və iqtisadi siyasətini aparmasına imkan verəcəkdir;
- Azərbaycanın dünya iqtisadi birliyinə, dünya bazarına daxil olması və inteqrasiyası prosesi sürətlənəcək, bazar münasibətləri, rəqabət güclənəcək, mallara və xidmətlərə tələbat artacaqdır;
- tətbiq olunan texnika və texnologiyanın səviyyəsi yüksələcək, respublika sənayesi və iqtisadiyyatının üstünlük təşkil edən sahələri əsaslı surətdə rekonstruksiya ediləcək və modernləşdiriləcək, ixracat məhsulları arasında rəqabət aparmaq qabiliyyətinə malik məhsul istehsalına istiqamətləndiriləcək, xeyli miqdarda yeni iş yerləri yaradılacaqdır.

Müqavilənin həyata keçirilməsinə başlanmışdır. Bu üç nəhəng yatağın işlənməsi ilə əlaqədar meydana çıxan məsələlərdə mehmanxana-restoran biznesindən tutmuş

Xəzərdə platforma tikilməsindən, konkret elmi-tədqiqat işləri və s. görülməsinədək yardımçı podrat əsasında hər cür xidmətlər göstərməyə can atan müxtəlif şirkətlərin nümayəndələri Azərbaycanın paytaxtı Bakıya gəlirlər.

Ayrıca qeyd etmək lazımdır ki, Xəzər dənizinin Azərbaycan sahilindən dünyanın neft və neft məhsulları satışı bazarlarına çıxış yolu olan limanlaradək ixracat boru kəmərinin tikintisi layihəsi Azərbaycan Respublikasının, eyni zamanda bir sıra qonşu dövlətlərin, iri neft və podrat şirkətlərinin siyasi, iqtisadi, sosial mənafelərinin nəzərə alınmasını tələb edən son dərəcə mürəkkəb kompleks vəzifədir. Bu barədə qərar qəbul edilərkən (çoxları onu birinci növbədə boru kəməri xəttinin seçilməsi ilə bağlayır) həm siyasi, həm də iqtisadi amillər əsas götürülməli, eləcə də çoxtonnajlı tankerlərin Bosfor və Dardanel boğazlarından keçməsi, Qara dənizdə ixrac nefti terminallarının imkanlarının məhdudluğu, ekoloji fəlakətlər baş verməsi ehtimalı, boru kəmərinin son nöqtəsinin dünya istehlak bazarlarına maksimum yaxınlığının sərfəli olması kimi problemlər nəzərə alınmalıdır. Əlbəttə, güman edilən marşrutun keçəcəyi ölkələrin təqdimi və gələcək qanunvericiliyinə münasibətdə üstün rol oynamalı olacaq hökumətlərarası sazişlər bağlanmalıdır. Eyni zamanda boru kəməri şirkətinin gələcək statusu müəyyənləşdirilməli, kəmərin keçəcəyi ölkələrin ona münasibəti məsələləri və buradan irəli gələn müvafiq qarşılıqlı öhdəliklər hökumətlərarası sazişlərdə öz həllini tapmalıdır. Bu cür sazişlərdə sığorta, vergi, boru kəmərinin təhlükəsizliyi və ətraf mühitin mühafizəsi, lokal qanunvericilik normalarının dəyişməsinin mümkünlüyü şəraitində boru kəməri şirkətinin sabit fəaliyyət göstərməsinə təminat məsələlərinin tənzimlənməsi nəzərdə tutulmalıdır. Bu sahədə ikitərəfli və çoxtərəfli Sazişlər bağlamaq, həmçinin istər ikitərəfli, istərsə də çoxtərəfli əməkdaşlıq formalarını əlaqələndirmək olar. Bütün hallarda siyasi risk maksimum dərəcədə aradan qaldırılmalı, istər ixracat boru kəməri layihəsinin iştirakçıları olan ölkələr arasında, istərsə də gələcək hüquqi şəxslə ixracat boru kəməri layihəsi ölkəsi və ya iştirakçı ölkələr arasında münaqişə və mübahisələrin həlli mexanizmi işlənib hazırlanmalıdır. Bütün tərəflər üçün məqbul olan arbitraj əməliyyatı mexanizmi də hazırlamaq və razılaşdırmaq, həmçinin hüquqi şəxs üçün əlverişli olan milli və millətlərarası sahəsində tədbirlər görmək lazımdır. Bütün bu tədbirlər istər boru kəmərinin tikilməsi və istismarı prosesində, istərsə də onun maliyyələşdirilməsi zamanı əlverişli şərait yaranmasını təmin etməlidir. Layihənin maliyyələşdirilməsi xüsusi əhəmiyyətə malikdir. Bu məsələnin araşdırılmasına başlanmışdır. Ona maraq çox güclüdür. Beynəlxalq Maliyyə Korporasiyası, Dünya bankı, Avropa Rekonstruksiya və İnkişaf Bankı kimi iri maliyyə təsisatları, müxtəlif ölkələrin bankları və s. ixracat

boru kəmərinə böyük maraq göstərirlər. Qeyd etmək lazımdır ki, qapımız potensial sərmayədarların üzünə açıqdır və onun geniş perspektivləri vardır.

Müqavilənin imzalanması və onunla bağlı layihələrin həyata keçirilməsi kəşf edilmiş və gələcəkdə kəşf ediləcək nəhəng neft-qaz ehtiyatlarına malik Respublikamızın qədəm qoyduğu böyük yolun ancaq başlanğıcıdır. Bu ehtiyatların kəşfi və işlənməsi xarici sərmayələrin cəlb edilməsinin konkret, dəqiq strategiyası olmasını tələb edir. Biz belə bir strategiyanı müəyyənləşdirmişik. Dövlət Neft Şirkətində mövcud beynəlxalq praktikaya uyğun olaraq neft-qaz ehtiyatları kəşfiyyatının və işlənməsinin blok-lisenziya sisteminə keçid sahəsində məqsədyönlü iş aparılır.

Təbiidir ki, bu iş gələcəkdə davam etdiriləcəkdir. Eyni zamanda müştərək müəssisələrin müxtəlif formalarını yaratmaq, respublikada mövcud olan istehsal qurğularının əsasında xarici tərəfdaşların iştirakı ilə müvafiq infrastruktur formalaşdırmaq üçün təsirli tədbirlər görülür.

Məqsəd birdir – Azərbaycanın malik olduğu imkanlardan tam istifadə etmək.

***İkinci müqavilə:*** **Xəzər dənizinin Azərbaycan sektorunda *"Qarabağ"* strukturunun və ona bitişik sahələrin kəşfiyyatı və işlənməsi haqqında**

| | |
|---|---|
| *Müqavilənin imzalandığı yer:* | *Bakı şəhəri, "Gülüstan" sarayı* |
| *İmzalanma tarixi:* | *10 noyabr 1995-ci il* |
| *Ratifikasiya tarixi:* | *23 fevral 1996-cı il* |
| *Proqnozlaşdırılmış ehtiyatlar:* | *50-100 mln. ton neft* |

**İmzalanma tarixinə tərəflərin iştirak payı**




**Tərəflərin bugünkü tarixə iştirak payı**




**İştirakçı dövlətlər:** ABŞ, Rusiya, İtaliya və Azərbaycan
*(Müqavilə 23 fevral 1999-cu ildə ləğv olunub.)*

# XƏZƏR DƏNİZİNİN AZƏRBAYCAN SEKTORUNDA “QARABAĞ” PERSPEKTİV STRUKTURUNUN VƏ ONU ƏHATƏ EDƏN ƏRAZİNİN KƏŞFİYYATINA, İŞLƏNMƏSİNƏ VƏ HASİLATIN PAY BÖLGÜSÜNƏ DAİR AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT NEFT ŞİRKƏTİ İLƏ “LUKOYL İNTERNEŞNL LTD”, “ACİP AZƏRBAYCAN B.V.”, “LUKACİP N.V.”, “PENNZOYL KASPİAN DEVELOPMENT KORPOREYŞN” VƏ “ARDNŞ ORTAQ KOMMERSİYA ŞİRKƏTİ” ARASINDA SAZİŞİN QƏBUL VƏ TƏSDİQ EDİLMƏSİ, ONUN HƏYATA KEÇİRİLMƏSİNƏ İCAZƏ VERİLMƏSİ BARƏDƏ

## Azərbaycan Respublikasının Qanunu

Xəzər dənizinin Azərbaycan sektorunda “Qarabağ” strukturunun və ona bitişik sahələrin kəşfiyyatı və işlənməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 1995-ci il 4 avqust tarixli Sərəncamına uyğun olaraq Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti (ARDNŞ) ilə LUKoyl İNTERNEŞNL LTD, ACİP AZƏRBAYCAN B.V., LUKAcip N.V., PENNZOYL KASPİAN DEVELOPMENT KORPOREYŞN və ARDNŞ ORTAQ KOMMERSİYA ŞİRKƏTİ arasında Saziş 1995-ci il noyabrın 10-da imzalanmışdır.

**AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ MƏCLİSİ**

Azərbaycan Respublikasının qanunvericiliyində Sazişin əhatə etdiyi məsələlərin tam və müasir tələblərə uyğun olaraq nizamlanmadığını, karbohidrogen ehtiyatları haqqında Azərbaycan Respublikası qanunlarının olmadığını və həmin Sazişin şərtlərinə görə qanunvericilik orqanı tərəfindən təsdiq edildikdən sonra Sazişin qanun olmasını, bu Qanunun Azərbaycan Respublikasının Konstitusiyasına tam uyğun olduğunu nəzərə alaraq, habelə Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktına və Azərbaycan Respublikasının Konstitusiyasına əsasən **qərara alır:**

1. Xəzər dənizinin Azərbaycan sektorunda "Qarabağ" perspektiv strukturunun və onu əhatə edən ərazinin kəşfiyyatına, işlənməsinə və hasilatın pay bölgüsünə dair Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə LUKoyl İNTERNEŞNL LTD, ACİP AZƏRBAYCAN B.V., LUKAcıp N.V., PENNZOYL KASPİAN DEVELOPMENT KORPOREYŞN və ARDNŞ ORTAQ KOMMERSİYA ŞİRKƏTİ arasında Saziş (bundan sonra "Saziş" adlanacaq) qəbul və təsdiq edilir, onun həyata keçirilməsinə icazə verilir.

2. Sazişə əsasən Azərbaycan Respublikası Nazirlər Kabineti adından və onun tapşırığı ilə Azərbaycan Respublikası Baş nazirinin 1996-cı il yanvarın 24-də imzaladığı Azərbaycan Respublikasının hökumət təminatları və öhdəlikləri barədə sənəd (bundan sonra "Hökumət təminatı" adlanacaq) qəbul edilir və onun həyata keçirilməsinə icazə verilir.

Hökumət təminatı və ARDNŞ Ortaq Kommersiya Şirkəti Direktorlar Şurasının qərarı ilə əlaqədar Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə LUKoyl İNTERNEŞNL LTD, ACİP AZƏRBAYCAN B.V., LUKAcip N.V, PENNZOYL KASPİAN DEVELOPMENT KORPOREYŞN və ARDNŞ ORTAQ KOMMERSİYA ŞİRKƏTİ arasında "Qarabağ" strukturunun kəşfiyyatına, işlənməsinə və hasilatın pay bölgüsünə dair Sazişə əlavə (bundan sonra "Əlavə" adlanacaq) qəbul və təsdiq edilir, onun həyata keçirilməsinə icazə verilir.

3. Bu Qanun qüvvəyə mindikdən sonra Saziş, Hökumət təminatı və Əlavə qanun olurlar, habelə onlar Sazişdə konkret surətdə başqa cür göstərilmiş hallar istisna edilməklə, Sazişin qüvvədə olduğu müddət ərzində Azərbaycan Respublikasında müddəaları bu Sazişə, Hökumət təminatına və Əlavəyə uyğun gəlməyən və ya zidd olan hər hansı başqa mövcud və ya qəbul oluna biləcək qanunlardan, fərmanlardan, yaxud inzibati sərəncamlardan (və ya onların hissələrindən) üstün tutulurlar.

4. Bu Qanun qüvvəyə mindikdən sonra Sazişdə nəzərdə tutulan kontrakt sahəsinin istənilən hissəsi barəsində əvvəllər bağlanmış hər hansı saziş, kontrakt və ya bu cür başqa sənədlə verilə bilən bütün digər hüquq və vəzifələr ləğv edilir, habelə bu Qanun qüvvəyə mindikdən sonra Sazişin, Hökumət təminatının və Əlavənin şərtlərinə müvafiq surətdə və qüvvədə olduğu bütün müddət ərzində Sazişin xarici pay iştirakçılarına kontrakt sahəsində neft-qaz əməliyyatları aparmaq üçün müstəsna hüquq verilir.

5. Bu Qanun qüvvəyə mindikdən sonra Podratçının (və ya onun hüquqi varislərinin) Saziş, Hökumət təminatları və Əlavə üzrə əldə etdiyi hüquqlar və mənafelər Podratçının qabaqcadan razılığı olmadan dəyişdirilmir, düzəldilmir və ya azaldılmır. Azərbaycan Respublikasının hər hansı müqaviləsi, hökumətlərarası sazişi, qanunu və ya fərmanı Sazişin, Hökumət təminatının, yaxud Əlavənin müddəalarına uyğun gəlmədikdə və

ya zidd olduqda, yaxud Saziş sahəsi üzərində yurisdiksiyada, vergi qanunvericiliyində və ya qaydalarında hər hansı dəyişikliklər olmaqla, Podratçının Saziş, Hökumət təminatları və Əlavə üzrə hüquqlarına və ya mənafelərinə mənfi təsir göstərdikdə Azərbaycan Respublikası bunun nəticəsində hər hansı mənfəətin itirilməsi, iqtisadi şəraitin pisləşməsi, zərər və ya itki dəyməsi müqabilində Podratçıya (və ya onun hüquqi varislərinə) kompensasiya ödəyir.

6. Sazişdən irəli gələn hüquq və öhdəliklərin yerinə yetirilməsi üçün Sazişin iştirakçılarına, Saziş və Əlavə əsasında yaradılmış əməliyyat şirkətlərinə bütün lazımi lisenziyalar, gömrük icazələri, vizalar, başqa səlahiyyətlər və sanksiyalar verilir.

7. Sazişə və ya Əlavəyə hər hansı əlavələr, düzəlişlər, dəyişikliklər yalnız Sazişin və Əlavənin tərəflərinin yazılı razılığı ilə edilir.

8. Bu Qanun dərc olunduğu gündən qüvvəyə minir.

**Heydər Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 13 fevral 1996-cı il, № 24-IQ*

# XƏZƏR DƏNİZİNİN AZƏRBAYCAN SEKTORUNDA QARABAĞ STRUKTURUNUN VƏ ONA BİTİŞİK SAHƏLƏRİNİN KƏŞFİYYATI VƏ İŞLƏNMƏSİ HAQQINDA

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Xəzər dənizinin Azərbaycan sektorunda Qarabağ strukturunun və ona bitişik sahələrin xarici neft şirkətləri ilə birlikdə kəşfiyyatı və işlənməsi barədə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin təkliflərini nəzərə alaraq **qərara alıram**:

1. Xəzər dənizinin Azərbaycan sektorunda Qarabağ strukturunun və ona bitişik sahələrin xarici neft şirkətləri – LUKoyl, Acip, LUKAcip və Pennzoyl ilə birlikdə kəşfiyyatı və işlənməsinin əsas prinsipləri barədə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin təklifləri bəyənilsin.
2. Azərbaycan Respublikası Dövlət Neft Şirkətinə yuxarıda adları çəkilən xarici neft şirkətləri ilə birlikdə Xəzər dənizinin Azərbaycan sektorunda Qarabağ strukturunun və ona bitişik və sahələrinin kəşfinə və işlənməsinə dair danışıqların aparılması, müqavilənin hazırlanması və bağlanması səlahiyyəti verilsin.

**Heydər Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 4 avqust 1995-ci il, № 205*

## AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİ

### Qərar № 8

**"Xəzər dənizinin Azərbaycan sektorunda Qarabağ strukturunun və ona bitişik sahələrin birgə kəşfiyyatı və işlənməsi haqqında" Sazişə Azərbaycan Respublikası hökumətinin təminatı və öhdəlikləri haqqında**

Xəzər dənizinin Azərbaycan sektorunda Qarabağ sektorunun və ona bitişik sahələrin birgə kəşfiyyatı və işlənməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 1995-ci il 4 avqust tarixli 205 nömrəli Sərəncamına əsasən, Dövlət Neft Şirkəti Pennzoyl Kaspian Development Korporeyşn, LUKoyl İnterneşnl Ltd., Acip, Azərbaycan, B.V., LUKAcip N.V. xarici neft şirkətləri ilə danışıqları başa çatdıraraq "Xəzər dənizinin Azərbaycan sektorunda Qarabağ sektorunun və ona bitişik sahələrin birgə kəşfiyyatı və işlənməsi haqqında" Sazişi 1995-ci il 10 noyabr tarixində imzaladığını nəzərə alaraq, Azərbaycan Respublikası Nazirlər Kabineti qərara alır:

Göstərilən Sazişin 5 nömrəli əlavəsində qeyd olunmuş Azərbaycan Respublikası hökumətinin təminatı və öhdəlikləri təsdiq edilsin.

**Fazil Quliyev**
*Baş Nazir*
*Bakı şəhəri, 14 yanvar 1996-cı il*

## MÜQAVİLƏNİN İMZALANMA MƏRASİMİNDƏ AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN ÇIXIŞI

*"Gülüstan" sarayı,*
*11 iyul 1995-ci il*

– Hörmətli xanımlar və cənablar, hörmətli qonaqlar!

Bu gün Azərbaycanda, Bakıda, bu möhtəşəm "Gülüstan" sarayında yeni bir əlamətdar hadisə baş verir. Azərbaycan Respublikasının Xəzər dənizinin sektorunda yerləşən neft yataqlarından birinin – "Qarabağ" neft yatağının bir neçə xarici ölkənin neft şirkətləri ilə müştərək istifadə olunması üçün müqavilənin imzalanması mərasiminə toplaşmışıq. Bu münasibətlə Azərbaycana qonaqlar gəlibdir. Xarici şirkətlərin mənsub olduğu ölkələrin yüksək səviyyəli hökumət nümayəndə heyətləri, xarici şirkətlərin nümayəndə heyətləri və digər qonaqlar bura toplaşıblar. Bu təntənəli mərasimdə hazırda Azərbaycanda fəaliyyət göstərən xarici şirkətlərin rəhbərləri, səfirlər də iştirak edirlər. Mən bu mərasimdə iştirak edən qonaqları və bura toplaşanların hamısını ürəkdən salamlayıram və deyirəm: Siz Azərbaycan Respublikasına xoş gəlmisiniz!

Bu müqaviləni hazırlayıb imzalamağa təqdim edən şirkətlər Rusiyanın "LUKoyl", ABŞ-ın "Pennzoyl", İtaliyanın "ACİP" və Azərbaycan Dövlət Neft Şirkətidir. Bu müqavilənin imzalanması üçün təşkil olunmuş təntənəli mərasimdə iştirak etmək üçün respublikamıza gəlmiş Rusiya Federasiyası hökumətinin nümayəndə heyətinin başçısı, Rusiyanın Energetika naziri Yuri Şafraniki ürəkdən salamlayıram.

Amerika Birləşmiş Ştatlarının hökumət nümayəndə heyətinin və nümayəndə heyətinin başçısı, ABŞ-ın energetika nazirinin müavini Çarlz Kortisi ürəkdən salamlayıram.

İtaliyanın hökumət nümayəndə heyətini və nümayəndə heyətinin başçısı İtaliyanın Sənaye naziri Alberto Klonu ürəkdən salamlayıram.

Bu müqavilənin hazırlanmasında xüsusi fəaliyyət göstərmiş Rusiyanın "LUKoyl" şirkətini və onun prezidenti Vahid Ələkbərovu salamlayıram.

İtaliyanın "ACİP" şirkətini və onun prezidenti Qumleylo Moskatonu salamlayıram.

Azərbaycanda bir neçə ildir ki, fəaliyyət göstərən və hazırda öz işinin nəticələrini nümayiş etdirən ABŞ-ın "Pennzoyl" şirkətinin prezidenti Tom Hamiltonu salamlayıram.

Sizin hamınızı, Azərbaycana gəlmiş bütün qonaqları bir daha salamlayıram və əmin olduğumu bildirmək istəyirəm ki, bugünkü mərasimimiz – çox tarixi əhəmiyyət kəsb edən bir müqavilənin imzalanması mərasimi müvəffəqiyyətlə başa çatacaqdır.

Bu gün burada görülən iş müstəqil Azərbaycan Respublikasında həyata keçirdiyimiz tədbirlərin davamıdır. Müstəqil Azərbaycan Respublikası öz təbii sərvətlərinin sahibidir və bu sərvətlərdən istədiyi kimi istifadə etmək imkanına malik olaraq, onlardan Azərbaycan xalqının iqtisadi inkişafı və xalqımızın rifahı naminə xarici ölkələrin şirkətləri ilə müştərək istifadə etməyi lazımlı yol hesab edir və bu yol ilə də gedir. Bu yol Azərbaycan Respublikasının iqtisadiyyatının dünyaya açıq olduğunu göstərir, eyni zamanda respublikamızın demokratiya, bazar iqtisadiyyatı yolu ilə getdiyini göstərir. Müstəqil Azərbaycan Respublikası həyatının bütün sahələrində demokratiyanın inkişaf etdirilməsinə çalışır. Biz dövlət quruculuğunda, ölkənin ictimai-siyasi həyatında, həm də iqtisadi sahədə demokratiyanın inkişaf etdirilməsi istiqamətində fəaliyyət göstəririk. Biz bu prinsiplərə söykənərək respublikamızın iqtisadiyyatını dünya iqtisadiyyatı ilə daha sıx əlaqələndirməyə və müştərək işlər görməyə çalışırıq. Biz bunu Azərbaycan Respublikası iqtisadiyyatının inkişaf etdirilməsi üçün ən səmərəli yol hesab edirik.

Bu sahədə görülən işlər artıq öz nəticəsini verir. Bir il bundan öncə respublikamızda, Bakıda Azərbaycanın Xəzər dənizindəki sektorunda üç neft yatağının: "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının dünyanın böyük neft şirkətləri ilə müştərək istifadə edilməsi üçün böyük müqavilə imzalanıbdır. Həmin müqaviləni imzalamış 11 şirkət dünyanın altı ölkəsinə mənsubdur. Bu, müqavilənin beynəlxalq xarakter daşımasının əyani sübutudur.

Məlumdur ki, bu müqavilənin imzalanması yolu asan olmamışdır. Biz çox böyük maneələrlə rastlaşmışdıq, çoxlu çətinliklərlə üzləşmişdik. Ancaq bütün bunlar bizim tutduğumuz yolla irəli getməyimizin qarşısını ala bilmədi. Biz bu maneələrin hamısının öhdəsindən gələrək nəhayət, keçən ilin sentyabrında indi "Əsrin müqaviləsi" adlandırılan müqaviləni imzalamağa nail olduq. Bu müqavilənin imzalanmasından sonra keçən bir il Azərbaycan Respublikasının həyatında o qədər asan bir mərhələ olmayıbdır. Biz böyük sınaqlardan keçdik. İşimizi pozmağa cəhd edən daxili və xarici qüvvələrin qarşısını ala bildik.

Bu bir il müddətində Azərbaycanın həyatında çox faciəli, qorxulu, təhlükəli hadisələr baş vermişdir. Biz dövlət çevrilişi cəhdləri ilə rastlaşdıq – onların qarşısı alındı, terror aktları ilə rastlaşdıq – onların qarşısı alındı, təxribat aktları ilə rastlaşdıq – onların qarşısı alındı, xaricdən bizim ölkəmizə təzyiq göstərən qüvvələrin güclü hərəkətləri ilə rastlaşdıq – onların qarşısı alındı. Bu gün Azərbaycan öz müstəqil siyasətini müvəffəqiyyətlə həyata keçirir.

Müqavilə imzalandıqdan sonra bunun həyata keçirilməsinə şübhə edənlər də vardı, ona bədbin əhvali-ruhiyyə ilə yanaşanlar da vardı və bu müqavilənin yerinə yetirilməsinə

birbaşa maneçilik edənlər də vardı. Ancaq bunlar da müqavilənin həyata keçirilməsinə mane ola bilmədilər. Mən bu gün məmnuniyyət hissi ilə deyə bilərəm ki, bu il oktyabrın 9-da konsorsiumun beynəlxalq əməliyyat komitəsinin iclasında aparılan müzakirə və qəbul edilmiş qərar sübut edir ki, ötən il bağladığımız müqavilə əməli surətdə həyata keçirilir və öz nəticələrini verir. Müqavilənin həyata keçirilməsi üçün bu il 100 milyon ABŞ dollarına qədər vəsaitdən istifadə edilib və gələn il üçün 600 milyon dollar həcmində büdcə təsdiq olunubdur. Müqavilədə nəzərdə tutulmuş iş qrafiki də vaxtında yerinə yetirilir. 1996-cı ilin sonunda layihəyə əsasən "Çıraq" neft yatağında ilkin neft hasil olunacaqdır. Bu neftin ixracı üçün neft kəmərlərinin çəkilib başa çatdırılması haqqında da qərarlar qəbul edilibdir.

Konsorsium ilkin neftin ixracı üçün iki neft kəmərinin çəkilməsini lüzumlu hesab edibdir. Onlardan biri Rusiyanın ərazisindən Qara dənizə – Novorossiysk limanına, digəri isə Gürcüstan ərazisindən Qara dənizə – Supsa limanına çəkiləcəkdir. Qeyd etmək istəyirəm ki, bu qərar respublikamızda və digər ölkələrdə: Rusiyada, Gürcüstanda, Amerika Birləşmiş Ştatlarında, bu şirkətlərin mənsub olduğu Qərb ölkələrində çox bəyənilibdir və ən müvafiq qərar kimi yüksək qiymətləndirilibdir.

Ötən bir il müddətində görülən işlər və onların nəticələri əyani surətdə nümayiş etdirir ki, biz doğrudan da bu işləri görməyə qadirik və xarici ölkələrin neft şirkətləri ilə birlikdə, onları təmsil edən dövlətlərlə birlikdə biz Azərbaycanın təbii sərvətlərindən səmərəli istifadə edə bilərik. Şübhəsiz ki, bütün bunlar həm bu müqavilədə, konsorsiumda iştirak edən şirkətlərin, həm də onların mənsub olduğu ölkələrin respublikamızda, Azərbaycan Dövlət Neft Şirkəti ilə qarşılıqlı fayda prinsipləri əsasında qurulubdur. Bütün bunlar, nəhayət, bu gün yeni bir yatağın – "Qarabağ" neft yatağının müştərək istifadə olunması üçün imzalanacaq müqavilənin həyata keçirilməsinə əlverişli şərait yaradır. Qeyd etdiyim kimi, "Qarabağ" neft yatağının müştərək istifadə olunmasında Rusiyanın "LUKoyl", İtaliyanın "ACİP", Amerika Birləşmiş Ştatlarının "Pennzoyl" şirkətləri müştərək surətdə iştirak edirlər. Dünyanın bu böyük ölkələrinin tanınmış neft şirkətlərinin burada, Azərbaycanda müştərək iş görmək üçün bir araya gəlməsi, bir müqavilə ətrafında toplaşması iqtisadi əhəmiyyətdən əlavə çox böyük siyasi əhəmiyyət də daşıyır. Bu onu göstərir ki, Rusiya, Amerika Birləşmiş Ştatları, İtaliya və Azərbaycan, doğrudan da, iqtisadi sahədə səmərəli əməkdaşlıq edə bilərlər və bu gün bu sahədə böyük bir addım atırlar.

"Qarabağ" neft yatağı zəngin yataqdır. Onun gözəl gələcəyi var. Müqavilənin əsas prinsipləri ondan ibarətdir ki, bu neft yatağından müştərək istifadə olunmasından müqavilədə iştirak edən şirkətlərin hamısı istənilən səviyyədə fayda götürəcəkdir. Proqnozlara görə, "Qarabağ" neft yatağından 85 milyon tondan 150 milyon tona qədər

neft hasil olunması gözlənilir. Bu müqavilənin iqtisadi səmərəliliyi 18 faizdir və hətta ondan da yüksəkdir.

Qeyd etdiyim kimi, hər bir şirkət bu müqavilədən fayda götürəcəkdir. Nəzərdə tutulmuş proqnozlar həyata keçərsə, müqavilədən əldə olunan daxili gəlirin təxminən 65 faizdən 80 faizə qədər hissəsi Azərbaycan Dövlət Neft Şirkətinə çatacaqdır.

Bu müqavilə "Qarabağ" neft yatağının 25 il müddətində işlənməsini nəzərdə tutur. Bu yataqdan ilkin neft 2003-cü ildə hasil edilməyə başlanacaqdır.

Beləliklə, bu müqavilə gələcəyə yönəldilibdir. Biz bu gün Azərbaycanın cari məsələlərini, respublikamızın ağır böhran vəziyyətindən çıxarılması məsələlərini həll edərkən üzümüzü irəliyə tuturuq, gələcəyə baxırıq, ölkəmizin gələcəyi haqqında düşünürük. Müstəqil Azərbaycanın gələcəkdə daha qüdrətli, böyük iqtisadi potensiala malik dövlət olması haqqında fikirləşirik. Eyni zamanda, bu müqavilənin imzalanması və onun 25 il müddətində həyata keçirilməsi Azərbaycan Respublikasını, ölkəmizin iqtisadiyyatını Amerika Birləşmiş Ştatlarının, Rusiyanın, İtaliyanın iqtisadiyyatı ilə sıx bağlayır. Bu böyük ölkələrlə Azərbaycan arasında olan əməkdaşlıq və dostluq əlaqələrinin inkişaf etdirilməsi üçün yaxşı zəmin yaradır.

Bu müqavilənin layihəsi bir neçə aydır ki, mütəxəssislər, alimlər və ekspertlər tərəfindən işlənib hazırlanır. Həmin məsələ mənim şəxsi nəzarətim altında olubdur. Bu ilin avqustunda mən təqdim olunan materiallar əsasında, nəhayət, bu müqavilənin imzalanması üçün sərəncam vermişəm. Mən çox məmnunam ki, görülən işlər artıq öz nəticəsini veribdir və bu gün biz bu müqavilənin imzalanması mərasiminə toplaşmışıq.

Hörmətli xanımlar və cənablar, mən sizin hamınızı bu əlamətdar hadisə münasibətilə təbrik edirəm. Bu müqavilənin uğurlu, xeyirli olmasına əmin olduğumu bildirmək istəyirəm. Müqaviləni imzalamaq üçün hazırlamış şəxsləri öz qələmlərini götürüb onu imzalamağa dəvət edirəm.

Diqqətinizə görə təşəkkür edirəm.

***Üçüncü müqavilə:*** **Xəzər dənizinin Azərbaycan sektorunda** *"Şahdəniz"* **perspektiv sahəsinin kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında**

| | |
|---|---|
| *Müqavilənin imzalandığı yer:* | *Bakı şəhəri, "Gülüstan" sarayı* |
| *İmzalanma tarixi:* | *04 iyun 1996-cı il* |
| *Ratifikasiya tarixi:* | *17 oktyabr 1996-cı il* |
| *Nəzərdə tutulmuş sərmayələr:* | *4 000 000 000* |
| *Proqnozlaşdırılmış ehtiyatlar:* | *Təxminən 100 mln. ton neft və 750 mlrd. kubmetr qaz* |

## İmzalanma tarixinə tərəflərin iştirak payı




## Tərəflərin bugünkü tarixdə iştirak payı




**İştirakçı dövlətlər:** Böyük Britaniya, Norveç, Türkiyə, Rusiya, Fransa, İtaliya, İran və Azərbaycan

# XƏZƏR DƏNİZİNİN AZƏRBAYCAN SEKTORUNDA ŞAHDƏNİZ PERSPEKTİV SAHƏSİNİN KƏŞFİYYATI, İŞLƏNMƏSİ VƏ HASİLATIN PAY BÖLGÜSÜ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT NEFT ŞİRKƏTİ İLƏ ARDNŞ KOMMERSİYA ORTAQ ŞİRKƏTİ, "BP EKSPLOREYŞN (AZƏRBAYCAN) LİMİTED", ELF PETROLEUM AZƏRBAYCAN B.V., LUKOYL İNTERNƏŞNL LTD, OYL İNDASTRİZ İNCİNİRİNƏ ƏND KONSTRAKŞN, STATOYL AZƏRBAYCAN A.S., TÖRKİŞ PETROLEUM OVERSİZ KOMPANİ LİMİTED ŞİRKƏTLƏRİ ARASINDA SAZİŞİN QƏBUL VƏ TƏSDİQ EDİLMƏSİ, HƏYATA KEÇİRİLMƏSİNƏ İCAZƏ VERİLMƏSİ BARƏDƏ

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikası Prezidentinin "Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən Şahdəniz yatağının kəşfiyyatı və işlənməsi haqqında" 1995-ci il 4 oktyabr tarixli 222 saylı Sərəncamına və "Xəzər dənizinin Azərbaycan sektorunda Şahdəniz perspektiv sahəsinin kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsünə dair xarici neft şirkətləri ilə danışıqların yekunlaşması haqqında" 1996-cı il 2 iyun tarixli 461 saylı Fərmanına uyğun olaraq 1996-cı il iyunun 4-də Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ("ARDNŞ") ilə ARDNŞ Kommersiya Ortaq Şirkəti ("KOŞ"), BP Eksploreyşn (Azərbaycan) Limited ("BP"), Elf Petroleum Azərbaycan B.V. ("Elf"), LUKoyl İnternəşnl LTD ("LUKoyl"), Oyl İndastriz İncinirinq ənd Konstrakşn ("OİİK"), Statoyl Azərbaycan A.S. ("Statoyl"), Törkiş Petroleum Oversiz Kompani Limited ("TPAO") şirkətləri arasında Xəzər dənizinin Azərbaycan sektorunda Şahdəniz perspektiv sahəsinin kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında Saziş imzalanmışdır.

### AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ MƏCLİSİ

Azərbaycan Respublikasının qanunvericiliyində Sazişin əhatə etdiyi məsələlərin tam və müasir tələblərə uyğun olaraq nizamlanmadığını;

Azərbaycan Respublikasının yeni Mülki Məcəlləsinin və karbohidrogen ehtiyatları haqqında qanunların olmadığını;

Sazişin şərtlərinə görə onun qanunverici orqan tərəfindən təsdiqindən sonra Qanun olduğunu;

bu Qanunun Azərbaycan Respublikasının Konstitusiyasına tam uyğun olduğunu nəzərə alaraq, "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktına və Azərbaycan Respublikasının Konstitusiyasına əsasən **qərara alır:**

1. Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə ARDNŞ Kommersiya Ortaq Şirkəti, "BP Eksploreyşn (Azərbaycan) Limited", Elf Petroleum Azərbaycan B.V., LUKoyl İnternəşnl LTD, Oyl İndastriz İnciniring ənd Konstrakşn, Statoyl Azərbaycan A.S., Törkiş Petroleum Oversiz Kompani Limited şirkətləri arasında Xəzər dənizinin Azərbaycan sektorunda Şahdəniz perspektiv sahəsinin kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında Saziş (bundan sonra "Saziş" adlanacaq) qəbul və təsdiq edilsin, onun həyata keçirilməsinə icazə verilsin.

2. Sazişlə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1996-cı il 12 iyul tarixli qərarı ilə "BP Eksploreyşn (Azərbaycan) Limited", Elf Petroleum Azərbaycan B.V., LUKoyl İnternəşnl LTD, Oyl İndastriz İnciniring ənd Konstrakşn, Statoyl Azərbaycan A.S., Törkiş Petroleum Oversiz Kompani Limited şirkətlərinə verdiyi Azərbaycan Respublikası hökumətinin təminatları və öhdəlikləri (bundan sonra "Hökumət təminatı" adlanacaq) qəbul edilsin və onların həyata keçirilməsinə icazə verilsin.

3. Bu Sazişin əsas mətninə edilmiş on (10) Əlavə, habelə ARDNŞ KOŞ-un yaradılmasına və OİİK-in ana şirkətinə dair Qoşmalar (bundan sonra "Əlavələr" adlanacaq) qəbul edilsin və onların həyata keçirilməsinə icazə verilsin.

4. Bu Qanun qüvvəyə mindikdən sonra Saziş, Hökumət təminatı və Əlavələr Qanun olurlar. Sazişdə konkret surətdə başqa hallar göstərilməyibsə, Saziş, Hökumət təminatı və Əlavələr Sazişin qüvvədə olduğu müddət ərzində Azərbaycan Respublikasının Sazişə, Hökumət təminatına və Əlavələrə uyğun gəlməyən və ya zidd olan hər hansı mövcud və ya qəbul oluna biləcək qanunlarının, fərmanlarının, yaxud inzibati sərəncamlarının (və ya onların hissələrinin) müddəalarından üstün tutulur.

5. Bu Qanun qüvvəyə mindikdən sonra Kontrakt sahəsinin Sazişdə nəzərdə tutulan hər hansı hissəsi barədə əvvəllər bağlanmış hər hansı saziş, kontrakt ilə və ya bu cür başqa sənədlə verilə bilən bütün digər hüquq və vəzifələr ləğv edilir, habelə bu Qanun qüvvəyə mindikdən sonra Sazişin, Hökumət təminatının və Əlavələrin şərtlərinə müvafiq surətdə və qüvvədə olduğu bütün müddət ərzində Sazişin pay iştirakçılarına Kontrakt sahəsində neft-qaz əməliyyatları aparmaq üçün müstəsna hüquq verilir.

6. Bu Qanun qüvvəyə mindikdən sonra Podratçının (və ya onun hüquqi varislərinin) Saziş, Hökumət təminatı və Əlavələr üzrə əldə etdiyi hüquqlar və mənafelər Podratçının qabaqcadan razılığı olmadan dəyişdirilə, düzəldilə və ya azaldıla bilməz.

7. Sazişdən irəli gələn hüquq və öhdəliklərin yerinə yetirilməsi üçün Sazişin iştirakçılarına bütün lazımi lisenziyalar, gömrük icazələri, vizalar, başqa səlahiyyətlər və sanksiyalar verilir.

8. Sazişə və ya Əlavələrə hər hansı əlavələr, düzəlişlər, dəyişikliklər yalnız Sazişin və Əlavələrin tərəflərinin yazılı razılığı ilə edilir.

9. Bu Qanım dərc olunduğu gündən qüvvəyə minir.

**Heydər Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 4 oktyabr 1996-cı il, № 160-IQ*

# XƏZƏR DƏNİZİNİN AZƏRBAYCAN SEKTORUNDA "ŞAHDƏNİZ" PERSPEKTİV SAHƏSİNİN KƏŞFİYYATI, İŞLƏNMƏSİ VƏ HASİLATIN PAY BÖLGÜSÜ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT NEFT ŞİRKƏTİ İLƏ ARDNŞ KOMMERSİYA ORTAQ ŞİRKƏTİ, "BP EKSPLOREYŞN (AZƏRBAYCAN) LİMİTED", ELF PETROLEUM AZƏRBAYCAN B.V., LUKOYL İNTERNƏŞNL LTD, OYL İNDASTRİZ İNCİNİRİNƏ ƏND KONSTRAKŞN, STATOYL AZƏRBAYCAN A.S., TÖRKİŞ PETROLEUM OVERSİZ KOMPANİ LİMİTED ŞİRKƏTLƏRİ ARASINDA SAZİŞİN QƏBUL VƏ TƏSDİQ EDİLMƏSİ, HƏYATA KEÇİRİLMƏSİNƏ İCAZƏ VERİLMƏSİ BARƏDƏ

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

**Xəzər dənizinin Azərbaycan sektorunda "Şahdəniz" perspektiv sahəsinin kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsünə dair xarici neft şirkətləri ilə danışıqların yekunlaşması haqqında**

Azərbaycan neft sənayesinin böhran vəziyyətində olması, neft hasilatının aşağı düşməsi yeni neft yataqlarının kəşfi və istifadəsi zərurətini yaratmışdır. Əhalinin və sənayenin təbii qazla təchizatı sahəsində xüsusilə ağır vəziyyət əmələ gəlmişdir. Bununla əlaqədar, ehtiyatları əsasən təbii qazdan ibarət olan Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Şahdəniz" yatağının işlənilməsi və gələcəkdə istifadə edilməsi zəruri hesab edilmişdir. "Xəzər dənizinin Azərbaycan sektorunda "Şahdəniz" sahəsinin kəşfiyyatı və işlənməsinə dair" Azərbaycan Respublikası Prezidentinin 1995-ci il 4 oktyabr tarixli 222 nömrəli Sərəncamı ilə Azərbaycan Respublikası Dövlət Neft Şirkəti və "BP Eksploreyşn (Azərbaycan) Limited", Statoyl Azərbaycan A.S., Törkiş Petroleum Oversiz Kompani Limited şirkətləri tərəfindən əvvəlcədən razılaşdırılmış kəşfiyyat, işlənmə və hasilatın pay bölgüsünə dair Sazişin əsas prinsipləri bəyənilmiş və Azərbaycan Respublikası Dövlət Neft Şirkətinə gələcək danışıqların aparılması və Sazişin hazırlanması üçün səlahiyyətlər verilmişdir.

Danışıqlar zamanı Rusiyanın "LUKoyl İnternəşnl", Fransanın "Elf Petroleum Azərbaycan B.V." və İranın "Oyl İndastris İnciniring ənd Konstrakşn" şirkətləri Sazişə qoşulmuşlar.

"Şahdəniz" perspektiv sahəsi qaz kondensat xüsusiyyətlidir, onun qaz ehtiyatı 400 milyard kubmetr, qaz kondensatı – 200 milyon ton və neft ehtiyatı – 100 milyon ton müəyyənləşdirilmişdir.

Dövlət Neft Şirkətinin Azərbaycan Respublikası Prezidentinə təqdim etdiyi məruzədə hazırlanmış Saziş layihəsi Azərbaycan Respublikası üçün iqtisadi cəhətdən səmərəli və münasib variant kimi səciyyələndirilir. Qeyd edilir ki, perspektiv sahənin kəşfi və işlənməsi üçün lazım olan sərmayələrin 90%-i xarici şirkətlər tərəfindən qoyulacaq, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin payına düşən 10%-i isə "Elf Petroleum Azərbaycan B.V." şirkəti maliyyələşdirəcəkdir.

Layihənin əsasını Şahdəniz perspektiv sahəsinin kəşfi, əgər yataq açılarsa, onun birgə işlənilməsi və hasil olunan neftin pay şəklində bölüşdürülməsi təşkil edir. Bu halda yatağın birgə işlənilməsi müddəti 30 (otuz) il davam edəcəkdir.

Kəşfiyyat dövrü 3 (üç) ildir və bu müddət ərzində operatorun əsas öhdəliyi kontrakt sahəsində 3 (üç) ölçülü seysmik kəşfiyyatın aparılması və ən azı 2 (iki) kəşfiyyat quyusunun qazılmasından ibarətdir.

Sazişin iqtisadi modeli elə qurulmuşdur ki, ehtiyat karbohidrogenlər gözlənildiyindən artıq olarsa, bu halda Azərbaycanın gəlir payı daha yüksək templə artacaqdır. Yataqdan çıxarılacaq 34 milyard kubmetr səmt qazı da pulsuz olaraq Azərbaycana qaldığı üçün layihənin iqtisadi səmərəsi daha da yüksələcəkdir.

Sazişə görə Azərbaycan dövləti neft yatağının istismarına nəzarət və istismarın idarə edilməsi hüquqlarını özündə saxlayır və respublikanın gəliri aşağıdakı mənbələrdən təmin olunacaqdır: təbii ehtiyatların mülkiyyətçisi hüququndan irəli gələn gəlirlər; yataqların işlənilməsinə sərmayə qoyuluşlarında iştirak ilə bağlı gəlirlər; gəlirin vergisiz bölünmə sxeminin tətbiqi nəticəsində əldə olunan gəlirlər və sonradan qaytarılması nəzərdə tutulmayan mükafatlar (bonuslar).

Sazişin həyata keçirilməsi nəticəsində açılan yataqdan alınan təbii və səmt qazı respublikanın bu məhsula olan tələbatını tam ödəməyə imkan verəcək, gəlir neftindən respublikaya daxil olan valyuta mədaxili hesabına iqtisadiyyatın və əhalinin sosial vəziyyətinin daha da yaxşılaşdırılması, neft-qaz sənayesinin və onun infrastrukturunun inkişafı üçün zəmin yaranacaqdır.

Xarici neft şirkətləri ilə yeni bir konsorsiumun yaranması və onun Azərbaycanda uğurlu işi beynəlxalq aləmdə dövlətimizə yaranan etimadı daha da möhkəmləndirəcək

və şübhəsiz ki, yeni texnika və texnologiyanın, xarici sərmayələrin cəlb edilməsinə səbəb olacaqdır.

Hazırda, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti Natiq Əliyev tərəfindən təqdim edilmiş məruzəyə görə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin apardığı danışıqlar yekunlaşmış, bu sahədə mövcud olan beynəlxalq normalara və beynəlxalq təcrübəyə uyğun, Azərbaycan Respublikasının və xarici partnyorların maraqlarını eyni dərəcədə nəzərə alan Saziş layihəsi hazırlanmışdır.

Yuxarıda qeyd olunanları rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Dövlət Neft Şirkəti və "BP Eksploreyşn (Azərbaycan) Limited", "Elf Petroleum Azərbaycan B.V.", "LUKoyl İnternəyşnl", "Statoyl Azərbaycan A,S.", "Törkiş Petroleum Oversiz Kompani Limited", "Oyl İndastris İnciniringq end Konstrakşn" şirkətləri arasında Xəzər dənizinin Azərbaycan sektorunda Şahdəniz perspektiv sahəsinin kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsünə dair Sazişin layihəsi bəyənilsin.

2. Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti Natiq Əliyevə Azərbaycan Respublikası Dövlət Neft Şirkəti və "BP Eksploreyşn (Azərbaycan) Limited", "Elf Petroleum Azərbaycan B.V.", "LUKoyl İnternəyşnl", "Statoyl Azərbaycan A.S.", "Törkiş Petroleum Oversiz Kompani Limited", "Oyl İndastris İnciniringq ənd Konstrakşn" şirkətləri arasında Xəzər dənizinin Azərbaycan sektorunda "Şahdəniz"perspektiv sahəsinin kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsünə dair Sazişi imzalamaq tapşırılsın.

**Heydər Əliyev**

*Azərbaycan Respublikasının Prezidenti*

*Bakı şəhəri, 2 iyun 1996-cı il*

# XƏZƏR DƏNİZİNİN AZƏRBAYCAN SEKTORUNDA "ŞAHDƏNİZ" YATAĞININ KƏŞFİYYATI VƏ İŞLƏNMƏSİ HAQQINDA

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən Şahdəniz yatağının xarici neft şirkətləri ilə birlikdə kəşfiyyatının və işlənməsinin əsas prinsipləri barədə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin təklifini qəbul edərək **qərara alıram:**

1. Azərbaycan Respublikası Dövlət Neft Şirkətinə xarici neft şirkətləri ilə birlikdə Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən Şahdəniz yatağının kəşfiyyatına və işlənməsinə dair danışıqların aparılması, müqavilənin hazırlanması və bağlanması səlahiyyəti verilsin.
2. Şahdəniz yatağının kəşfiyyatı və işlənməsi barədə Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə xarici neft şirkətləri arasında müqavilə bağlandıqdan sonra baxılmaq üçün Azərbaycan Respublikası Prezidentinə təqdim edilsin.

**Heydər Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 4 oktyabr 1995-ci il, № 222*

# MÜQAVİLƏNİN İMZALANMA MƏRASİMİNDƏ AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN ÇIXIŞI

*"Gülüstan" sarayı,*
*4 iyun 1996-cı il*

– Hörmətli xanımlar və cənablar!

Hörmətli qonaqlar!

Bu gün, iyulun 4-ü Azərbaycan Respublikasının həyatında neft və qaz sənayesinə həsr olunmuşdur. Azərbaycanda, Bakıda biz bu gün səhər böyük beynəlxalq neft-qaz sərgisi açdıq. Ardıcıl olaraq, dalbadal üç ildir ki, Azərbaycanda belə böyük neft-qaz sərgisi təşkil olunur, açılır və bu sərginin iştirakçılarının sayı ilbəil artır, sərginin miqyası genişlənir.

Biz hamımız bu gün eyni fikrə gəldik ki, beynəlxalq neft-qaz sərgisi bundan sonra Azərbaycanda hər il açılacaq, fəaliyyət göstərəcək və bu, bir ənənəyə çevriləcəkdir. Bu, Azərbaycan Respublikasında zəngin neft-qaz yataqlarının bundan sonra da işlənməsi üçün respublikamıza göstərilən maraqdır, eyni zamanda neft ölkəsi kimi Azərbaycana verilən yüksək qiymətdir. Eyni zamanda bu, müstəqil Azərbaycan Respublikasının dünya ölkələri, şirkətləri ilə müstəqil əlaqə qurmasını nümayiş etdirən əlamətdar bir hadisədir.

Azərbaycanda neft qədim zamanlardan hasil olunur. Azərbaycan hələ ötən əsrlərdən dünyada neft ölkəsi kimi məşhurlaşmışdır. Ancaq son illərə qədər ölkəmizin həyatında belə sərgi heç vaxt olmamışdı.

Bu gün bu möhtəşəm "Gülüstan" sarayına biz yeni bir əlamətdar hadisə münasibətilə yığışmışıq. Xəzər dənizinin Azərbaycan sektorundakı "Şahdəniz"neft-qaz yatağının müştərək işlənməsi barədə Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə dünyanın bir neçə böyük neft şirkəti arasında müqavilənin imzalanması mərasiminə toplaşmışıq.

Son iki il ərzində üçüncü dəfədir ki, biz böyük neft müqaviləsini imzalayırıq. Üçüncü dəfədir ki, bu əlamətdar hadisə münasibətilə buraya – "Gülüstan" sarayına toplaşırıq. 1994-cü il sentyabrın 20-də Bakıda imzalanmış böyük neft müqaviləsi – Azərbaycan Respublikası ilə dünyanın nüfuzlu neft şirkətləri arasında müqavilə artıq yaşayır, işləyir və öz nəticələrini verir. "Əsrin müqaviləsi" adlandırılan bu müqavilə Xəzər dənizinin

Azərbaycana məxsus olan sektorundakı "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının müştərək işlənməsi ilə əlaqədardır.

Xəzər dənizinin Azərbaycana aid sektorundakı "Qarabağ" neft yatağının müştərək işlənməsi və istifadə olunması üçün keçən ilin noyabrında ARDNŞ dünyanın bir neçə böyük neft şirkəti ilə ikinci neft müqaviləsini imzalamışdır. Bu müqavilə də işləyir, yaşayır və ümidvaram ki, öz nəticələrini verəcəkdir.

Bu gün imzalanmaq üçün hazırlanmış müqavilə Xəzər dənizinin Azərbaycana məxsus sektorundakı "Şahdəniz"qaz-neft yatağının müştərək işlənməsinə, istifadə edilməsinə həsr olunmuşdur. "Şahdəniz"yatağı Azərbaycanın geoloqları, alimləri, neftçiləri tərəfindən açılmış, kəşf edilmiş çox zəngin yataqlardan biridir. Bu yataq geoloqlarımıza, alimlərimizə hələ on illər bundan əvvəl məlum olmuş, 80-ci illərdə açılmışdır. Nəhayət, biz bu yataqdan əməli surətdə istifadə edilməsi üçün böyük bir addım atırıq.

Deyilənlərə görə, təxminən 1990-cı ildə Dövlət Neft Şirkəti tərəfindən Azərbaycanın qaz ilə təchizatını təmin etmək üçün "Şahdəniz"yatağında bir quyunun qazılmasına başlanmış, verilən məlumata görə, təxminən 2 min metr dərinliyə qədər qazılmış, ancaq vəsaitin, imkanların olmamasından bu iş davam etdirilməmiş və başlı başına buraxılmışdır. 1992-ci ilin sentyabrında Azərbaycan hökuməti "Şahdəniz"yatağının işlənməsi ilə əlaqədar Böyük Britaniya Krallığının "Britiş Petroleum" və Norveçin "Statoyl" şirkətləri ilə müqavilə imzalamışdır. Bu müqavilədə həmin yatağın birgə işlənməsi üçün danışıqlar aparılması və yatağın işlənməyə hazırlanması barədə "Britiş Petroleum" və "Statoyl" şirkətlərinə xüsusi səlahiyyətlər verilmişdir. Bu iki şirkət alyans yaradaraq işə başlamış, sonra həmin alyansa Türkiyənin "Türk petrolları" şirkəti də qoşulmuş, onlar bu işləri öz imkanları çərçivəsində aparmışlar.

Son illərdə ARDNŞ ölkəmizin iqtisadiyyatını inkişaf etdirmək məqsədi ilə Azərbaycan Respublikasının neft-qaz ehtiyatlarından, mövcud yataqlardan səmərəli istifadə edilməsi üçün lazımi işlər görmüşdür. Azərbaycan Dövlət Neft Şirkəti, alimlərimiz, geoloqlarımız, neftçilərimiz "Şahdəniz"yatağında son illər müəyyən tədqiqatlar aparmış, işlər görmüşlər. Bunların nəticəsində, 1995-ci ilin oktyabrında ARDNŞ "Şahdəniz"yatağının dünyanın böyük neft şirkətləri ilə birlikdə, müştərək işlənməsini zəruri hesab etmiş və bu barədə təklif irəli sürmüşdür. Həmin təklif əsasında bu sahədə iş görülməsi üçün mən onlara həm səlahiyyət, həm də lazımi tapşırıqlar vermişəm. Aparılan işlər nəticəsində Azərbaycan Dövlət Neft Şirkəti "Şahdəniz" yatağının dünyanın bir sıra neft şirkətləri ilə birgə işlənməsi, istifadə olunması haqqında müqavilə layihəsi hazırlayıb mənə təqdim etmişdir. Bu müqavilə layihəsini hazırlayarkən, "Şahdəniz" yatağından əməli surətdə istifadə edilməsi üçün tədbirlər görərkən, ARDNŞ "Britiş Petroleum", "Statoyl", "Türk petrolları" şirkətləri ilə bərabər, dünyanın başqa neft şirkətlərinin də

bu neft yatağının işlənməsinə cəlb edilməsi haqqında təkliflər irəli sürmüş və bu təklifin həyata keçirilməsinə nail olmuşdur. Beləliklə, bu neft-qaz yatağının işlənməsinə Rusiya Federasiyasının “LUKoyl”, Fransanın “Elf akiten” şirkətləri və İran İslam Respublikasının neft şirkəti də qoşulmuşdur. Hazırlanmış müqavilə Azərbaycan Dövlət Neft Şirkəti ilə Böyük Britaniyanın “Britiş Petroleum”, Norveçin “Statoyl”, Türkiyənin “Türk petrolları”, Rusiyanın “LUKoyl”, Fransanın “Elf akiten” şirkətləri və İranın neft şirkəti arasında müştərək iş görmək barədə müqavilədir.

Mən bu neft-qaz yatağının və eyni zamanda bu müqavilənin bir neçə göstəricisi haqqında da söhbət açmaq istəyirəm. Verilən məlumatlara görə, “Şahdəniz” yatağından 400 milyard kubmetr qaz çıxarılması, 200 milyon ton qaz-kondensat əldə olunması və 100 milyon ton neft hasil edilməsi gözlənilir. Beləliklə, bu, çox böyük bir sərvətə malik olan neft-qaz yatağıdır və belə bir yatağın işlənməsi və istifadə edilməsi, şübhəsiz ki, həm Azərbaycan Respublikasına, həm də bu müqavilənin iştirakçısı olan şirkətlərə, həmin şirkətlərin mənsub olduğu ölkələrə çox böyük fayda verəcəkdir.

Müqavilədə nəzərdə tutulmuş layihəni həyata keçirmək üçün dörd milyard ABŞ dolları məbləğində vəsait qoyulması planlaşdırılmışdır və müqavilə 30 il müddətində yerinə yetiriləcəkdir. Beləliklə, bu müqavilə həm Azərbaycan Respublikası üçün, həm də müqavilənin həyata keçirilməsində iştirak edəcək şirkətlər və onların mənsub olduğu ölkələr üçün iqtisadi cəhətdən çox səmərəlidir.

Bütün bu göstəriciləri nəzərə alaraq mən bu müqaviləni bəyənmişəm və həmin layihə əsasında müqavilənin imzalanması haqqında fərman vermişəm. Məhz bunların da nəticəsində biz bu gün buraya bu müqavilənin imzalanması mərasiminə toplaşmışıq.

Mən məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, Azərbaycanın yeni neft-qaz yatağının istifadə olunmasında bizimlə artıq bir neçə il əməkdaşlıq edən Böyük Britaniya Krallığının hökuməti və bu ölkənin “Britiş Petroleum” şirkəti yenə də bizimlə bir yerdədir. Bu baxımdan mən Böyük Britaniya Krallığının Energetika və Sənaye naziri cənab Timoti Eqqarı xüsusi salamlayıram və onun bu işlərdə xidmətlərini qeyd edirəm. Mən bunu xüsusi qeyd edirəm ki, biz bu işlərə başlayarkən – ilk müqaviləni imzaladıqdan indiyədək cənab Timoti Eqqar bizimlə birlikdədir və bu gün də bu tədbirdə iştirak edir.

Azərbaycan ilə Norveç arasında əməkdaşlıq da çox sabit xarakter daşıyır. Norveçin “Statoyl” şirkəti bizim birinci böyük müqavilənin iştirakçısı idi və bu gün də yenidən bu müqavilənin fəal iştirakçısıdır. Bu münasibətlə mən Norveç hökumətinin Azərbaycana olan diqqətini, marağını və Norveç dövlətinin, hökumətinin nümayəndəsi, Sənaye və Energetika naziri cənab Stoltenberqin burada olmasını xüsusi qeyd edirəm. O, sərgidə iştirak edirdi və vacib məsələ olduğu üçün indi öz ölkəsinə qayıtmalı oldu. Ancaq o, bizimlə bərabərdir. “Statoyl” şirkətinin rəhbərləri və Norveçin Sənaye və Energetika

Nazirliyinin nümayəndələri də indi burada bizimlə birlikdədirlər, bu müqavilənin imzalanmasında iştirak edirlər. Mən onları salamlayıram.

Xəzər dənizinin Azərbaycana məxsus neft-qaz yataqlarının dünya şirkətləri ilə müştərək işlənməsi prosesinə başlayarkən biz ilk əvvəldən indiyədək Rusiya Federasiyası ilə əməkdaşlıq edirik. 1993-cü ilin oktyabrında Rusiya Federasiyasının Yanacaq və Energetika naziri cənab Yuri Şafranik böyük nümayəndə heyəti ilə Azərbaycanda olmuşdur. Xəzər dənizinin Azərbaycana məxsus olan sektorundakı neft yataqlarının müştərək işlənməsi haqqında o vaxt biz Azərbaycan Respublikasının hökuməti ilə Rusiya Federasiyasının hökuməti arasında saziş imzalamışıq. Rusiya Federasiyası və onun böyük neft şirkəti "LUKoyl" bizim indiyədək imzaladığımız müqavilələrin hamısının – 1994-cü ilin sentyabrında imzalanmış müqavilənin, 1995-ci ilin noyabrında "Qarabağ" neft yatağının birgə işlənməsi ilə əlaqədar imzalanmış müqavilənin üzvüdür. Rusiya Federasiyasının "LUKoyl" şirkəti bu gün "Şahdəniz" yatağının müştərək işlənməsi barədə hazırlanmış müqavilənin də üzvüdür. Mən bunu çox müsbət hal hesab edirəm. Mən bunu Azərbaycan ilə Rusiya arasında olan iqtisadi əməkdaşlığın nümayişi kimi qeyd edirəm. Bu münasibətlə Azərbaycana gəlmiş nümayəndə heyətini və xüsusən Rusiyanın Yanacaq və Energetika nazirinin birinci mavini cənab Vladimir Kostyunini xüsusi salamlayıram.

Bu gün imzalanan müqavilənin xüsusiyyətlərindən biri də odur ki, neft-qaz sənayesi sahəsində biz yeni ölkələrlə əməkdaşlığa başlayırıq. Həmin ölkələrdən biri Fransadır, bu ölkənin məşhur "Elf Agiten" şirkətidir. Mən Fransa ilə bu sahədəki əməkdaşlığımızı müsbət qiymətləndirirəm və bundan məmnun olduğumu bildirmək istəyirəm. Bu münasibətlə Fransadan Azərbaycana gəlmiş nümayəndə heyətini və xüsusən nümayəndə heyətinin başçısı, Fransa Respublikasının Sənaye və Energetika nazirinin müavini cənab Gi Arleti və "Elf Agiten" şirkətinin prezidenti cənab Filip Jafreni xüsusi salamlayıram.

Mən qeyd etdim və bir daha bildirmək istəyirəm ki, Türkiyə Cümhuriyyətinin "Türk petrolları" şirkəti neft-qaz sənayesi sahəsində bizimlə sıx əməkdaşlıq edir. Onlar "Şahdəniz" yatağı barədə müqavilənin işlənib hazırlanmasında "Britiş Petroleum" və "Statoyl" şirkətləri ilə birgə bir neçə ildir ki, məşğuldurlar. Məhz bunların nəticəsində "Türk petrolları" şirkəti indi imzalanan müqavilənin fəal iştirakçısıdır. Türkiyədən bizə daim yüksək səviyyəli nümayəndələr gəlir. Hörmətli səfir bu gün bildirdi ki, Türkiyənin daxili vəziyyəti ilə əlaqədar Enerji naziri bu gün buraya gələ bilməyibdir. Ancaq biz onu da burada hesab edirik. Biz Türkiyəni həmişə öz yanımızda hiss edirik. Bu gün mən Türkiyə Cümhuriyyətinin və onun "Türk petrolları" şirkətinin müqavilədə iştirak etməsini xüsusi qeyd edirəm. Türkiyə Cümhuriyyətindən Azərbaycana gəlmiş nümayəndə heyətini,

“Türk petrolları” şirkətinin prezidenti cənab Sidqi Səncəri və Türkiyədən gəlmiş qonaqlarımızın hamısını salamlayıram.

İran Azərbaycanın yaxın qonşusu, dostudur. Azərbaycan ilə İran arasında əməkdaşlıq günü-gündən inkişaf edir. İndi biz İran ilə neft-qaz sənayesi sahəsində də əməkdaşlığımızı genişləndiririk. Qeyd etmək istəyirəm ki, bizim bu əməkdaşlığımız var. Xəzər dənizinin İran sektorunda Azərbaycan neftçiləri iki quyu qazmaq barədə sifariş alıblar və orada işləyirlər. Biz bunu İran ilə əməkdaşlığımızın bir nümunəsi hesab edirik. Xəzər dənizində İranın öz sektoru var. Amma, eyni zamanda, Xəzər dənizinin Azərbaycan sektorunda olan “Şahdəniz” yatağının işlənməsinə İranın da cəlb edilməsini mən müsbət bir hadisə kimi qeyd edirəm. Güman edirəm ki, bu, əməkdaşlığımızı daha da inkişaf etdirəcəkdir. Bu gün imzalanan müqavilədə İran İslam Cümhuriyyətinin OİEK şirkəti də iştirak edir. Mən İran İslam Cümhuriyyətindən gələn qonaqlarımızı salamlayıram, milli neft şirkətinin birinci vitse-prezidenti cənab Seyid Mehdi Hüseyni və OİEK şirkətinin prezidenti cənab Seyid Əli Əkbər Haşimini salamlayıram.

İmzalanmaq üçün təqdim olunan müqavilə Azərbaycanın neft yatağında yeddi ölkənin şirkətlərinin müştərək işi üzərində qurulubdur: Azərbaycan Respublikası, Böyük Britaniya Krallığı, Norveç, Rusiya, Türkiyə, Fransa, İran. Bu çox əlamətdar bir haldır.

Mən sizi, bütün Azərbaycan xalqını bu əlamətdar hadisə münasibətilə, yeni neft müqaviləsinin imzalanması münasibətilə ürəkdən təbrik edirəm və ümidvar olduğumu bildirmək istəyirəm ki, iqtisadi əməkdaşlıq, iqtisadiyyatın inkişaf etdirilməsi sahəsində atdığımız bu böyük addım Azərbaycan xalqının rifahı naminə yeni uğurlar gətirəcəkdir.

Bu müqavilənin imzalanması münasibətilə bu salona toplaşanları, xarici ölkələrdən gəlmiş qonaqlarımızı, xarici ölkələrin Azərbaycandakı səfirlərini, beynəlxalq təşkilatların ölkəmizdəki nümayəndələrini, bütün qonaqlarımızı ürəkdən salamlayıram. Ümidvar olduğumu bildirmək istəyirəm ki, biz gələcəkdə belə böyük hadisələrin yenə də şahidi olacağıq.

Hamınızı bir daha təbrik edirəm. Hesab edirəm ki, müqavilənin imzalanmasına başlamaq olar. Buyurun.

***Dördüncü müqavilə:* Xəzər dənizinin Azərbaycan sektorundakı *"Əşrəfi", "Dan Ulduzu"* perspektiv strukturlarının və onlara bitişik sahənin kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında**

| | |
|---|---|
| *Müqavilənin imzalandığı yer:* | *Bakı şəhəri, "Gülüstan" sarayı* |
| *İmzalanma tarixi:* | *14 dekabr 1996-cı il* |
| *Ratifikasiya tarixi:* | *7 mart 1997-ci il* |
| *Nəzərdə tutulmuş sərmayələr:* | |
| *Proqnozlaşdırılmış ehtiyatlar:* | *100 mln. ton neft* |

## İmzalanma tarixinə tərəflərin iştirak payı




## Tərəflərin bugünkü tarixə iştirak payı




**İştirakçı dövlətlər:** ABŞ, Böyük Britaniya, Yaponiya, Səudiyyə Ərəbistanı və Azərbaycan

*(Müqavilə 7 mart 1997-ci ildə ləğv edilib.)*

# XƏZƏR DƏNİZİNİN AZƏRBAYCAN SEKTORUNDAKI "ƏŞRƏFİ", "DAN" ULDUZU PERSPEKTİV STRUKTURLARININ VƏ ONLARA BİTİŞİK SAHƏNİN KƏŞFİYYATI, İŞLƏNMƏSİ VƏ HASİLATIN PAY BÖLGÜSÜ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT NEFT ŞİRKƏTİ İLƏ AMOKO NORD ABŞERON PETROLEUM LİMİTED, YUNOKAL İSTERN NEMİSFİR EKSPLOREYŞN LTD, İTOÇU OYL EKSPLOREYŞN (KASPİAN) İNK., DELTA OYL KOMPANİ (AZƏRBAYCAN) LTD, ARDNŞ ORTAQ NEFT ŞİRKƏTİ ARASINDA SAZİŞİN QƏBUL VƏ TƏSDİQ EDİLMƏSİ, HƏYATA KEÇİRİLMƏSİNƏ İCAZƏ VERİLMƏSİ BARƏDƏ

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikası Prezidentinin "Xəzər dənizinin Azərbaycan sektorundakı "Əşrəfi", "Dan Ulduzu" perspektiv strukturlarının kəşfiyyatı və işlənməsi haqqında" 29 noyabr 1996-cı il tarixli 452 saylı Sərəncamına uyğun olaraq 1996-cı il dekabrın 14-də Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ("ARDNŞ") ilə AMOKO Nord Abşeron Petroleum Limited ("AMOKO"), Yunokal İstern Hemisfır Eksploreyşn LTD ("Yunokal"), İtoçu Oyl Eksploreyşn (Kaspian) İnk. ("İtoçu"), Delta Oyl Kompani (Azərbaycan) LTD ("Delta"), ARDNŞ-nin Ortaq Neft Şirkəti ("ONŞ") arasında Xəzər dənizinin Azərbaycan sektorundakı "Əşrəfi", "Dan Ulduzu" perspektiv strukturunun və onlara bitişik sahənin kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında Saziş imzalanmışdır.

**AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ MƏCLİSİ**

Azərbaycan Respublikasının qanunvericiliyində Sazişin əhatə etdiyi məsələlərin tam və müasir tələblərə uyğun olaraq nizamlanmadığını;

Azərbaycan Respublikasının yeni Mülki Məcəlləsinin və karbohidrogen ehtiyatları haqqında Azərbaycan Respublikası qanunlarının olmadığını;

Sazişin şərtlərinə görə onun qanunverici orqan tərəfindən təsdiqindən sonra Qanun olmasını;

bu Qanunun Azərbaycan Respublikasının Konstitusiyasına tam uyğun olduğunu nəzərə alaraq,

Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktına və Azərbaycan Respublikasının Konstitusiyasına əsasən **qərara alır:**

1. Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə AMOKO Nord Abşeron Petroleum Limited, Yunokal İstern Hemisfir Eksploreyşn LTD, İtoçu Oyl Eksploreyşn (Kaspian) İnk., Delta Oyl Kompani (Azərbaycan) LTD, ARDNŞ-nin Ortaq Neft Şirkəti arasında Xəzər dənizinin Azərbaycan sektorundakı "Əşrəfi", "Dan Ulduzu" perspektiv strukturlarının və onlara bitişik sahənin kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında Saziş (bundan sonra "Saziş" adlanacaq) qəbul və təsdiq edilsin, onun həyata keçirilməsinə icazə verilsin.

2. Sazişlə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin 30 yanvar 1997-ci il tarixli qərarı ilə AMOKO Nord Abşeron Petroleum Limited, Yunokal İstern Hemisfır Eksploreyşn LTD, İtoçu Oyl Eksploreyşn (Kaspian) İnk., Delta Oyl Kompani (Azərbaycan) LTD şirkətlərinə verdiyi Azərbaycan Respublikası Hökumətinin təminatı və öhdəlikləri (bundan sonra "Hökumət təminatı" adlanacaq) qəbul edilsin və onun həyata keçirilməsinə icazə verilsin.

3. Sazişin əsas mətninə edilmiş on iki (12) Əlavə, ARDNŞ Ortaq Neft Şirkətinin yaradılmasına dair Qoşma, habelə bu Qoşmaya I Əlavə (bundan sonra "Əlavələr" adlanacaq) qəbul edilsin və onların həyata keçirilməsinə icazə verilsin.

4. Bu Qanun qüvvəyə mindikdən sonra Saziş, Hökumət təminatı və Əlavələr Qanun olurlar. Sazişdə konkret surətdə başqa hallar göstərilməyibsə, Saziş, Hökumət təminatı və Əlavələr Sazişin qüvvədə olduğu müddət ərzində bu Sazişə, Hökumət təminatına və Əlavələrə uyğun gəlməyən və ya zidd olan Azərbaycan Respublikasının hər hansı başqa mövcud və ya qəbul oluna biləcək qanunlarının, fərmanlarının, yaxud inzibati sərəncamlarının (və ya onların hissələrinin) müddəalarından üstün tutulur.

5. Bu Qanun qüvvəyə mindikdən sonra Sazişdə nəzərdə tutulan kontrakt sahəsinin istənilən hissəsi barəsində əvvəllər bağlanmış hər hansı saziş, kontrakt və ya bu cür başqa sənədlə verilə bilən bütün digər hüquq və vəzifələr ləğv edilir, habelə bu Qanun qüvvəyə mindikdən sonra Sazişin, Hökumət təminatının və Əlavələrin şərtlərinə müvafiq surətdə və qüvvədə olduğu bütün müddət ərzində Sazişin pay iştirakçılarına kontrakt sahəsində neft-qaz əməliyyatları aparmaq üçün müstəsna hüquq verilir.

6. Bu Qanun qüvvəyə mindikdən sonra Podratçının (və ya onun hüquqi varislərinin) Saziş, Hökumət təminatları və Əlavələr üzrə əldə etdiyi hüquqlar və mənafelər Podratçının qabaqcadan razılığı olmadan dəyişdirilə, düzəldilə və ya azaldıla bilməz.

7. Sazişdən irəli gələn hüquq və öhdəliklərin yerinə yetirilməsi üçün Sazişin iştirakçılarına bütün lazımi lisenziyalar, gömrük icazələri, vizalar, başqa səlahiyyətlər və sanksiyalar verilir.

8. Sazişə və ya Əlavələrə hər hansı əlavələr, düzəlişlər, dəyişikliklər yalnız Sazişin və Əlavələrin tərəflərinin yazılı razılığı ilə edilir.

9. Bu Qanun dərc olunduğu gündən qüvvəyə minir.

**Heydər Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 25 fevral 1997-ci il, № 251-IQ*

# XƏZƏR DƏNİZİNİN AZƏRBAYCAN SEKTORUNDA "ƏŞRƏFİ", "DAN ULDUZU"PERSPEKTİV STRUKTURLARININ KƏŞFİYYATI VƏ İŞLƏNİLMƏSİ LAYİHƏSİNƏ DAİR AZƏRBAYCAN RESPUBLİKASI İLƏ "AMOKO NORD ABŞERON PETROLEUM LİMİTED", "YUNOKAL XƏZƏR LİMİTED", "DELTA OYL KOMPANİ LİMİTED", "İTOÇU OYL EKSPLOREYŞN (KASPİAN) İNK." ŞİRKƏTLƏRİ ARASINDA DANIŞIQLAR APARILMASI VƏ SAZİŞ BAĞLANMASI SƏLAHİYYƏTİNİN VERİLMƏSİ BARƏDƏ

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. Xəzər dənizinin Azərbaycan sektorunda "Əşrəfi", "Dan ulduzu" perspektiv strukturlarının kəşfiyyatı və işlənilməsi layihəsinə dair Azərbaycan Respublikası adından "AMOKO Nord Abşeron Petroleum Limited", "YUNOKAL Xəzər Limited", "Delta Oyl Kompani Limited", "İtoçu Oyl Eksploreyşn (Kaspian) İnk." şirkətləri arasında danışıqlar aparılması və Saziş bağlanması səlahiyyəti Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinin prezidenti Natiq Əliyevə verilsin.

2. Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinə tapşırılsın ki, bu sərəncamın birinci bəndində göstərilən məsələyə dair Azərbaycan Respublikası adından səlahiyyətin Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinin prezidenti Natiq Əliyevə verilməsi barədə tərəf müqabillərinə müvafiq bildiriş göndərsin.

**Heydər Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 29 noyabr 1996-cı il*

## MÜQAVİLƏNİN İMZALANMA MƏRASİMİNDƏ AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN NİTQİ

*"Gülüstan" sarayı,*
*14 dekabr 1996-cı il*

– Hörmətli xanımlar və cənablar!

Hörmətli qonaqlar!

Bu gün Azərbaycan Respublikasının həyatında yeni bir əlamətdar hadisə baş verir. Azərbaycanın neft yataqlarının xarici ölkələrin neft şirkətləri ilə müştərək işlənməsi və istifadə olunması ilə əlaqədar yeni bir neft müqaviləsi imzalanır.

Bu hadisə Azərbaycan Respublikasının neft yataqlarının, təbii sərvətlərinin birgə işlənməsi və ölkəmizin iqtisadiyyatını inkişaf etdirmək, xalqımızın rifah halını yüksəltmək üçün atılan daha bir dəyərli addımdır. Bu hadisə Azərbaycan Respublikasının iqtisadiyyatını inkişaf etdirmək üçün aparılan kompleks tədbirlərin, ölkəmizdə bazar iqtisadiyyatı prinsiplərinin həyata keçirilməsinin yeni bir təzahürüdür. Bu hadisə Azərbaycan Respublikasının dünya iqtisadiyyatına açıq olduğunu və dünya iqtisadiyyatı ilə bağlılığa daim cəhd göstərdiyini bir daha nümayiş etdirir. Bunlar hamısı birlikdə Azərbaycan Respublikasını inkişaf etdirmək, xalqımızın rifah halını yaxşılaşdırmaq üçün atılan addımlardır. Eyni zamanda bu, Azərbaycan Respublikasının iqtisadi siyasət sahəsində tutduğu strateji yolun davamıdır və ölkəmizin təbii sərvətlərindən, dünyanın qabaqcıl texnologiyasından səmərəli istifadə olunması üçün dünyanın başqa şirkətləri ilə sıx əməkdaşlıq etməyimizin yeni bir təzahürüdür.

Biz bu sahədə tutduğumuz yola sadiqik. 1994-cü ilin sentyabrında Xəzərin Azərbaycan sektorundakı neft və qaz yataqlarının müştərək istifadə olunması barədə dünyanın çox iri və ən nüfuzlu neft şirkətləri ilə böyük bir müqavilə imzalanmışdır. Bu gün məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, iki il bundan əvvəl imzalanmış müqavilə həyata keçirilir, artıq o öz müsbət nəticələrini verir. Həmin müqavilənin həyata keçirilməsi üçün yaradılmış Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti bu müddətdə xeyli iş görübdür və yaxşı nəticələr əldə edibdir.

Bu ilin sentyabrında Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin hesabatını dinləyərkən məlum oldu ki, nəzərdə tutulan proqram vaxtlı-vaxtında və ardıcıl surətdə həyata keçirilir. Beynəlxalq Əməliyyat Şirkəti tərəfindən hazırlanmış, modernləşdirilmiş, bərpa edilmiş "Dədə Qorqud" yarımdalma qazma qurğusu bu ilin avqust ayında istifadəyə verilmiş və bu quyu vasitəsilə "Çıraq" neft yatağında qısa müddətdə – 69 gün ərzində böyük bir quyu qazılmış, yaxşı nəticələr əldə olunmuşdur, Verilən məlumatlar onu göstərir ki, qazılan quyudan alınan nəticələr bizim nəzərdə tutduğumuz, gözlədiyimiz proqnozlardan da daha yüksəkdir. İndi orada ikinci quyunun qazılmasına başlanır və bu gün daha qətiyyətlə demək olar ki, o da öz müsbət nəticəsini verəcəkdir. Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti qazma işləri ilə bərabər, hasil olunan neftin ixracı ilə bağlı tədbirlər də həyata keçirir.

Bildiyiniz kimi, ilkin neftin ixracı üçün iki neft kəmərinin tikilməsi barədə qərar qəbul olunmuşdur. Bu kəmərlərin biri Şimal istiqaməti ilə Rusiya ərazisindən Qara dənizdəki Novorossiysk limanına, ikincisi isə Qərb istiqamətində – Gürcüstan ərazisindən Qara dənizin Supsa limanına gedən kəmərdir.

Bu ilin sonunda 1997-ci ilin ilk günlərində birinci neft kəməri, yeni Rusiya ərazisindən Şimala, Novorossiysk limanına gedən neft kəməri tamamilə hazır olacaqdır və Azərbaycandan bu kəmər vasitəsilə neft nəql etmək mümkün olacaqdır. Qərb istiqamətində neft kəmərinin inşasına 1997-ci ilin əvvəlində başlanacaq və Beynəlxalq Əməliyyat Şirkətinin verdiyi məlumata görə bu iş 1998-ci ilin sonunda başa çatacaqdır.

Beləliklə, 1994-cü ildə imzalanmış neft müqaviləsi əsasında hasil olan ilkin neftin ixracı məsələləri tamamilə həll edilibdir.

Bu ilin sentyabrında biz Beynəlxalq Əməliyyat Şirkətinin məlumatı əsasında geniş müzakirə aparmışıq, mən onların hesabatını dinləmişəm. Beynəlxalq Əməliyyat Şirkəti məlumat veribdir ki, "Əsrin müqaviləsi"nin proqramı əsasında 1997-ci ilin avqustunda "Çıraq" yatağından neft hasil ediləcək və bu məhsul ixrac üçün hazır olacaqdır.

Beləliklə, 1994-cü ildə imzaladığımız neft müqaviləsinin son iki il müddətində yüksək səmərəli olduğunun şahidiyik və bunlar indən sonra da bu istiqamətdə hərəkət etməyə bizdə daha da çox inam yaradır.

Bildiyiniz kimi, 1995-ci ilin noyabrında Azərbaycan Respublikasının Xəzər dənizindəki sektorunda olan "Qarabağ" neft yatağının müştərək istifadə edilməsi üçün ikinci bir müqavilə imzalanmışdır. İndi bu müqavilə də işləyir, həyata keçirilir. Xəzərin Azərbaycan sektorunda olan "Şahdəniz" neft və qaz yatağının müştərək işlənməsi üçün bu il iyunun 4-də üçüncü müqavilə imzalanıbdır.

Bu gün isə biz bu istiqamətdə hərəkətimizi davam etdirərək dördüncü neft müqaviləsinin imzalanmasına toplaşmışıq. Bu müqavilə Xəzərin Azərbaycan sektorundakı "Dan

ulduzu" və "Əşrəfi" yataqlarının müştərək istifadə edilməsinə həsr olunubdur. Bu zəngin neft yataqları Azərbaycan Respublikasının alimləri, geoloqları, neftçiləri, mütəxəssisləri tərəfindən hələ 1970-ci illərdə kəşf olunmuş, açılmışdır. Bundan sonra həmin yataqların istifadə olunması üçün bəzi cəhdlər göstərilmişdir. 1982–1985-ci illərdə bu yataqlardan istifadə etmək üçün müəyyən addımlar atılmış, ancaq bu məsələ o vaxt başa çatdırıla bilməmişdir.

"Dan ulduzu"və "Əşrəfi" neft yataqlarının istifadə olunması üçün 1992-ci ildə Amerika Birləşmiş Ştatlarının "AMOKO" və "YUNOKAL" şirkətləri ilə danışıqlar başlanmışdır. O vaxtdan indiyədək həm danışıqlar, həm da bu yataqların istifadə olunmasına hazırlıq aparılmışdır. 1996-cı ildə bu işlər son mərhələyə çatmışdır. Bu yataqlardan müştərək istifadə olunması, bu məsələnin konkret həll edilməsi üçün 1996-cı ildə həm Azərbaycan Dövlət Neft Şirkəti, həm də Amerika Birləşmiş Ştatlarının "AMOKO" və "YUNOKAL" neft şirkətləri tərəfindən təkliflər irəli sürülmüşdür. Bu təkliflərin səmərəliliyi, Azərbaycan Respublikası üçün faydası, əhəmiyyəti və bütün iqtisadi, texniki göstəriciləri bir neçə dəfə müzakirə edilmiş, təhlil olunmuşdur.

Bütün bunlardan sonra mən bu təklifləri bəyənmişəm, "Dan ulduzu" və "Əşrəfi" neft yataqlarında bundan sonra iş görmək, bu yataqların istifadəsinə əməli surətdə başlamaq barədə Azərbaycan Dövlət Neft Şirkətinin verdiyi təklif əsasında müvafiq sərəncam imzalamışam, danışıqların son mərhələsinin həyata keçirilməsi üçün Respublika Dövlət Neft Şirkətinə səlahiyyətlər vermişəm.

Bütün bunların nəticəsində Azərbaycan Dövlət Neft Şirkəti Amerika Birləşmiş Ştatlarının "AMOKO" və "YUNOKAL" şirkətləri ilə birlikdə "Dan ulduzu"və "Əşrəfi" neft yataqlarının istifadə olunması üçün müqavilənin layihəsini hazırlayıb təqdim etmişdir. Bu layihəyə baxıldıqdan sonra, yenə də deyirəm, bütün göstəricilərinə görə onun respublikamız üçün səmərəli olduğunu nəzərə alaraq, mən bu müqavilənin imzalanması barədə lazımi qərar qəbul etmişəm.

Qeyd etdiyim kimi, 1992-ci ildən indiyə qədər "Dan ulduzu"və "Əşrəfi" neft yataqlarının istifadə olunması üçün Amerika Birləşmiş Ştatlarının "AMOKO" və "YUNOKAL" şirkətləri ilə birgə iş, danışıqlar aparılıbdır. Son mərhələdə bu yataqlara başqa neft şirkətləri də maraq göstəriblər. Mən məmnuniyyətlə qeyd edirəm ki, Yaponiya Azərbaycan iqtisadiyyatına son illər günü-gündən daha çox maraq göstərir. Yaponiyanın şirkətləri Azərbaycana gəlib, respublikamızın imkanlarını öyrənirlər və ölkəmizlə müştərək iş görmək haqqında bir neçə təklif irəli sürüblər. O cümlədən, Yaponiyanın böyük "İTOÇU" şirkəti Azərbaycan Respublikasının neft və qaz yataqlarına maraq göstərmiş və bu barədə ciddi addımlar atmışdır.

Yaponiyanın "İTOÇU" şirkətinin ABŞ-ın "PENNZOYL" və "MAKDERMOTT" şirkətləri ilə apardığı danışıqlar nəticəsində o, 1996-cı ildə bizim əvvəl imzaladığımız neft

müqavilələrinə daxil olmuşdur. Biz bunu bəyənmişik və buna razılıq vermişik. İndi "Dan ulduzu"və "Əşrəfi" neft yataqlarının işlənməsi ilə əlaqədar aparılan danışıqlar prosesində Yaponiyanın "İTOÇU" şirkəti bu neft yataqlarında da müəyyən hissə almaq və bu müqavilənin iştirakçısı olmaq barədə bizə müraciət etmişdir. Biz bu müraciəti qəbul etmişik və Yaponiyanın "İTOÇU" şirkəti də indi bu müqavilənin üzvüdür.

Bildiyiniz kimi, Səudiyyə Ərəbistanının "DELTA" şirkəti Amerika Birləşmiş Ştatlarının "YUNOKAL" şirkəti ilə daim əməkdaşlıq edir. 1994-cü ildə imzalanmış neft müqaviləsində "DELTA" şirkətinin də özünə müvafiq hissəsi var. Səudiyyə Ərəbistanının "DELTA" şirkəti "Dan ulduzu" və "Əşrəfi" neft yataqlarının istifadə olunması üçün hazırlanan neft müqaviləsində də iştirak edir və onun da burada özünəməxsus hissəsi var. Beləliklə, "Dan ulduzu" və "Əşrəfi" neft yataqlarının müştərək işlənməsi, istifadə olunması və neft hasil edilməsi üçün hazırlanmış müqavilə Azərbaycan Dövlət Neft Şirkəti ilə Amerika Birləşmiş Ştatlarının "AMOKO", "YUNOKAL", Yaponiyanın "İTOÇU" və Səudiyyə Ərəbistanın "DELTA" şirkətləri tərəfindən yaradılmış konsorsium ilə bağlanır.

Xəzərin Azərbaycan sektorunda olan "Dan ulduzu" və "Əşrəfi" neft yataqları bizim neft yataqlarımızdandır. Proqnozlara görə bu yataqlardan 150 milyon ton neft hasil etmək mümkün olacaqdır. Bu müqavilələri həyata keçirmək üçün hazırlanmış layihənin yerinə yetirilməsi üçün təxminən iki milyard Amerika dolları sərmayə qoyulması nəzərdə tutulur. Bütün bu sərmayə Azərbaycan ilə neft müqaviləsi imzalayan şirkətlər tərəfindən qoyulacaqdır. Müqavilənin müddəti 25 ildir.

Şübhəsiz ki, bu göstəricilərin hamısı ilkin xarakter daşıyır, bunlar müəyyən qədər dəyişilə bilər. Amma mən hesab edirəm ki, onların dəyişilməsi bu göstəricilərin artması istiqamətində olacaqdır. Beləliklə, mən qeyd etdiyim kimi, bu müqavilə hər cəhətdən səmərəli bir müqavilədir. O, Azərbaycan Respublikasının milli mənafeyinə, ölkəmizin iqtisadiyyatına çox faydalı olan bir müqavilədir. Eyni zamanda o, Azərbaycan Respublikası ilə müştərək iş görmək istəyən və bu müqaviləni imzalayan xarici ölkələrin neft şirkətləri üçün faydalı və səmərəli olan bir müqavilədir.

Bu müqavilə bir daha onu nümayiş etdirir ki, Azərbaycan dünyanın bütün ölkələri, respublikamıza maraq göstərən şirkətləri, korporasiyaları ilə əməkdaşlıq etmək yolu ilə gedir. Bu gün mən qeyd etmək istəyirəm ki, biz bundan sonra da bu yolla gedəcəyik. Mən əməkdaşlıq sayəsində Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında yaranmış dostluq əlaqələrinin xüsusi əhəmiyyətini qeyd edirəm.

Bilirsiniz ki, Amerika Birləşmiş Ştatlarının neft şirkətləri Azərbaycan Respublikasının təbii sərvətlərinə, o cümlədən neft və qaz yataqlarına maraq göstərən ilk şirkətlərdir. Xüsusən Amerika Birləşmiş Ştatlarının "AMOKO" şirkəti hələ 1990-cı illərin əvvəllərində Azərbaycana gələn ilk şirkətdir. Bu gün məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki,

Amerika Birləşmiş Ştatlarının "AMOKO" və digər şirkətləri Azərbaycanın bu sahədə gördüyü işlərin təşəbbüskarlarındandır. Artıq bu əməkdaşlıq geniş miqyas alıbdır. Bu əməkdaşlığı nəinki Amerika Birləşmiş Ştatlarının özəl şirkətləri, həm də bu ölkənin hökuməti, Prezident cənab Bill Klinton və digər yüksək vəzifəli şəxslər daim dəstəkləyirlər və bu əməkdaşlığın indən sonra da daim inkişaf etməsi üçün səy göstərirlər.

Bildirmək istəyirəm ki, Amerika Birləşmiş Ştatlarının Prezidenti cənab Bill Klinton ilə, vitse-prezident cənab Albert Qor ilə mənim görüşlərimdə və danışıqlarımda bütün başqa məsələlərlə yanaşı, Amerika – Azərbaycan iqtisadi əməkdaşlığının inkişaf etdirilməsi və xüsusən Xəzərin Azərbaycan sektorunun enerji ehtiyatlarından müştərək istifadə edilməsi məsələsi həmişə diqqət mərkəzində olmuşdur. Məhz bunların nəticəsidir ki, Amerika Birləşmiş Ştatlarında Azərbaycan Ticarət Palatası və Azərbaycanda Amerika Birləşmiş Ştatlarının Ticarət Palatası yaradılmışdır. Dünən biz Amerika Birləşmiş Ştatlarının Azərbaycanda Ticarət Palatasının işə başlaması mərasimində birlikdə iştirak etdik.

Mən bu əməkdaşlığı yüksək qiymətləndirirəm və ümidvar olduğumu bildirmək istəyirəm ki, bizim əməkdaşlığımız bundan sonra günü-gündən genişlənəcək və inkişaf edəcəkdir. Mən bununla yanaşı, bütün başqa ölkələrlə də iqtisadi əməkdaşlığın Azərbaycan üçün çox əhəmiyyətli olduğunu qeyd etmək istəyirəm. Azərbaycandan çox uzaqda yerləşən, iqtisadi cəhətdən inkişaf etmiş və böyük imkanlara malik olan Yaponiyanın və onun iri şirkətlərinin Azərbaycana marağını mən bir daha xüsusi qeyd edirəm. Hesab edirəm ki, bizim bu sahədə əməkdaşlığımız səmərəli ola bilər və mən onun çox müsbət gələcəyinə inanıram.

Mən qeyd etmək istəyirəm ki, özəl şirkətlərlə birbaşa əməkdaşlığımız, eyni zamanda dövlətlərin bu əməkdaşlığa böyük maraq göstərməsi, yardım etməsi, beləliklə, bizim dövlətlərarası əməkdaşlığımızın inkişaf etməsinin əsasını yaradır. Məhz buna görə də həmişə – artıq dördüncü dəfədir ki, bu müqavilələrin imzalanması mərasimində şirkətlərin rəhbərləri ilə yanaşı, ölkələrin hökumət nümayəndələri də iştirak edirlər.

Bu gün bu müqavilənin imzalanması mərasimi münasibətilə Azərbaycana Amerika Birləşmiş Ştatlarından, Yaponiyadan, başqa ölkələrdən qonaqlar gəliblər. Mən bütün qonaqları səmimi qəlbdən salamlayıram və onların hamısına "Xoş gəlmisiniz" deyirəm.

Mən Amerika Birləşmiş Ştatlarının hökumət nümayəndə heyətinin rəhbəri cənab Jan Kalitskini salamlayıram. Amerika Birləşmiş Ştatlarının böyük neft şirkətlərinin başçıları – "AMOKO" şirkətinin prezidenti cənab Don Steysini, "YUNOKAL"-ın vitse-prezidenti cənab Marti Milleri salamlayıram. Mən Yaponiya hökuməti nümayəndə heyətinin rəhbəri cənab Toşiro Tzunakini və "İTOÇU" korporasiyasının "Enerji kemikl" qrupunun prezidenti cənab Kocu Nocimanı salamlayıram.

Mən Səudiyyə Ərəbistanının "DELTA" şirkətinin prezidenti, yaxın dostumuz Bədr əl-Əybəni salamlayıram. Böyük bir neft müqaviləsinin imzalanması Azərbaycan ictimaiyyətində, respublikamızda fəaliyyət göstərən xarici ölkələrin nümayəndəliklərində geniş maraq doğurur. Bu, xarici ölkələrdən Azərbaycana gəlmiş qonaqlarda da böyük maraq doğurur. Onların bir çoxu bizim bu mərasimdə, bu gün "Gülüstan" sarayında iştirak edir.

Bu mərasimdə iştirak edən xarici ölkələrin Azərbaycandakı səfirlərini, beynəlxalq təşkilatların respublikamızdakı nümayəndəliklərinin başçılarını, Azərbaycana gəlmiş bütün xarici qonaqları və Azərbaycan ictimaiyyətinin bu mərasimdə iştirak edən nümayəndələrinin hamısını ürəkdən salamlayıram.

Azərbaycanda dördüncü neft müqaviləsinin imzalanması çox sevindirici haldır, əlamətdar bir hadisədir. Bu hadisə münasibətilə "Gülüstan" sarayına toplaşanları və Azərbaycan Respublikasının vətəndaşlarını, xalqımızı ürəkdən təbrik edirəm.

Hörmətli dostlar, beləliklə, "Dan ulduzu" və "Əşrəfi" neft yataqlarının istifadə olunması üçün son illər aparılan böyük və gərgin iş başa çatıb, bu yataqların istifadə olunması üçün hazırlanmış neft müqaviləsi bizə təqdim edilibdir. Hesab edirəm ki, onu bu təntənəli mərasimdə imzalamaq artıq mümkündür. Mən şirkət rəhbərlərini və müqaviləni imzalayacaq şəxsləri bu mərasimə başlamağa dəvət edirəm.

İmzalama mərasimi başlanmazdan əvvəl bir məlumatı da sizə çatdırmaq istəyirəm. Amerika Birləşmiş Ştatlarının vitse-prezidenti cənab Albert Qor ilə mənim dünən telefon danışığım olmuşdur. Bizim telefon danışığımızda Amerika Birləşmiş Ştatları ilə Azərbaycanın əlaqələri haqqında bir çox məsələlər müzakirə edilmişdir. Vitse-prezident cənab Albert Qor dünən Azərbaycanda Amerika Birləşmiş Ştatlarının Ticarət Palatasının açılmasından məmnun olduğunu bildirmişdir.

Cənab Albert Qor bu gün Amerika Birləşmiş Ştatlarının "AMOKO" və «YUNOKAL» şirkətləri ilə və başqa şirkətlərlə Azərbaycan Dövlət Neft Şirkəti arasında imzalanacaq müqavilə haqqında xoş arzularını bildirmiş və bu münasibətlə öz təbrikini çatdırmışdır. Amerika Birləşmiş Ştatlarının vitse-prezidenti cənab Albert Qorun bu müqavilənin imzalanması münasibətilə bu mərasimə göndərdiyi təbriki və salamları məmnuniyyətlə sizə çatdırıram.

Bir daha təbrik edirəm və sizi müqaviləni imzalamağa dəvət edirəm. Sağ olun.

***Beşinci müqavilə:*** **Xəzər dənizinin Azərbaycan sektorunda *"Lənkəran-dəniz"* və *"Talış-dəniz"* perspektiv strukturlarının daxil olduğu dəniz blokunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında**

| | |
|---|---|
| *Müqavilənin imzalandığı yer:* | *Paris, "Yelisey" sarayı* |
| *İmzalanma tarixi:* | *13 yanvar 1997-ci il* |
| *Ratifikasiya tarixi:* | *30 iyun 1997-ci il* |
| *Nəzərdə tutulmuş sərmayələr:* | *1540000000 $* |
| *Proqnozlaşdırılmış ehtiyatlar:* | *100 mln. ton neft* |

## İmzalanma tarixinə podratçı tərəflərin iştirak payı




## Podratçı tərəflərin bugünkü tarixə iştirak payı




**İştirakçı dövlətlər:** Fransa, Almaniya və Azərbaycan
*(Müqavilə 2001-ci ilin dekabrında ləğv olunub.)*

# XƏZƏR DƏNİZİNİN AZƏRBAYCAN SEKTORUNDA "LƏNKƏRAN-DƏNİZ" VƏ "TALIŞ-DƏNİZ" PERSPEKTİV STRUKTURLARININ DAXİL OLDUĞU DƏNİZ BLOKUNUN KƏŞFİYYATI, İŞLƏNMƏSİ VƏ HASİLATIN PAY BÖLGÜSÜ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT NEFT ŞİRKƏTİ İLƏ ELF PETROLEUM AZƏRBAYCAN B. V., ARDNŞ-NİN ORTAQ NEFT ŞİRKƏTİ, TOTAL EKSPLOREYŞN ƏND PRODAKŞN AZƏRBAYCAN ARASINDA SAZİŞİN QƏBUL VƏ TƏSDİQ EDİLMƏSİ, HƏYATA KEÇİRİLMƏSİNƏ İCAZƏ VERİLMƏSİ BARƏDƏ

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikası Prezidentinin "Xəzər dənizinin Azərbaycan sektorunda "Lənkəran-dəniz", "Talış-dəniz" perspektiv strukturlarının kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsünə dair xarici neft şirkətləri ilə danışıqların yekunlaşması haqqında" 1997-ci il 10 yanvar tarixli 463 saylı Sərəncamına uyğun olaraq 1997-ci il yanvarın 13-də Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ("ARDNŞ") ilə Eif Petroleum Azərbaycan B.V. (Fransa), Total Eksploreyşn ənd Prodakşn Azərbaycan (Fransa) və ARDNŞ-nin Ortaq Neft Şirkəti arasında Xəzər dənizinin Azərbaycan sektorunda "Lənkəran-dəniz" və "Talış-dəniz" perspektiv strukturlarının daxil olduğu dəniz blokunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında Saziş imzalanmışdır.

Sonradan bu Sazişə Demineks Azərbaycan Petroleum QrabH, Fina Neftqaz S.A. və Oyl İndastriz İnjinirinq ənd Kontrakşn şirkətləri qoşulmuşdur.

**AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ MƏCLİSİ**

Azərbaycan Respublikasının qanunvericiliyində Sazişin əhatə etdiyi məsələlərin tam və müasir tələblərə uyğun olaraq nizamlanmadığını;

Azərbaycan Respublikasının yeni Mülki Məcəlləsinin və karbohidrogen ehtiyatları haqqında Azərbaycan Respublikası qanunlarının olmadığını;

Sazişin şərtlərinə görə onun qanunverici orqan tərəfindən təsdiqindən sonra Qanun olmasını;

bu Qanunun Azərbaycan Respublikasının Konstitusiyasına tam uyğun olduğunu nəzərə alaraq,

Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktına və Azərbaycan Respublikasının Konstitusiyasına əsasən **qərara alır:**

1. Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ("ARDNŞ") ilə Elf Petroleum Azərbaycan B.V. (Fransa), Total Eksploreyşn ənd Prodakşn Azərbaycan (Fransa) və ARDNŞ-nin Ortaq Neft Şirkəti arasında Xəzər dənizinin Azərbaycan sektorunda "Lənkəran-dəniz" və "Talış-dəniz" perspektiv strukturlarının daxil olduğu dəniz blokunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında Saziş (bundan sonra "Saziş" adlanacaq) qəbul və təsdiq edilsin, onun həyata keçirilməsinə icazə verilsin.

2. Sazişlə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1997-ci il 5 iyun tarixli 57 saylı qərarı ilə Elf Petroleum Azərbaycan B.V., Total Eksploreyşn ənd Prodakşn Azərbaycan, Demineks Azərbaycan Petroleum QmbH, Fina Neftqaz S.A. və Oyl İndastriz İnjinirinq ənd Kontrakşn şirkətlərinə verdiyi Azərbaycan Respublikası Hökumətinin təminatı və öhdəlikləri (bundan sonra "Hökumət təminatı" adlanacaq) qəbul edilsin və onun həyata keçirilməsinə icazə verilsin.

3. Sazişin əsas mətninə edilmiş on (10) Əlavə, ARDNŞ Ortaq Neft Şirkətinin yaradılmasına dair Qoşma, bu Qoşmaya I Əlavə, habelə ikinci Qoşma (bundan sonra "Əlavələr" adlanacaq) qəbul edilsin və onların həyata keçirilməsinə icazə verilsin.

4. Bu Qanun qüvvəyə mindikdən sonra Saziş, Hökumət təminatı və Əlavələr Qanun olurlar. Sazişdə konkret surətdə başqa hallar göstərilməyibsə, Saziş, Hökumət təminatı və Əlavələr Sazişin qüvvədə olduğu müddət ərzində bu Sazişə, Hökumət təminatına və Əlavələrə uyğun gəlməyən və ya zidd olan Azərbaycan Respublikasının hər hansı başqa mövcud və ya qəbul oluna biləcək qanunlarının, fərmanlarının, yaxud inzibati sərəncamlarının (və ya onların hissələrinin) müddəalarından üstün tutulur.

5. Bu Qanun qüvvəyə mindikdən sonra Sazişdə nəzərdə tutulan kontrakt sahəsinin istənilən hissəsi barəsində əvvəllər bağlanmış hər hansı saziş, kontrakt və ya bu cür başqa sənədlə verilə bilən bütün digər hüquq və vəzifələr ləğv edilir, habelə bu Qanun qüvvəyə mindikdən sonra Sazişin, Hökumət təminatının və Əlavələrin şərtlərinə müvafiq surətdə və qüvvədə olduğu bütün müddət ərzində Sazişin pay iştirakçılarına kontrakt sahəsində neft-qaz əməliyyatları aparmaq üçün müstəsna hüquq verilir.

6. Bu Qanun qüvvəyə mindikdən sonra Podratçının (və ya onun hüquqi varislərinin) Saziş, Hökumət təminatları və Əlavələr üzrə əldə etdiyi hüquqlar və mənafelər Podratçının qabaqcadan razılığı olmadan dəyişdirilə, düzəldilə və ya azaldıla bilməz.

7. Sazişdən irəli gələn hüquq və öhdəliklərin yerinə yetirilməsi üçün Sazişin iştirakçılarına bütün lazımi lisenziyalar, gömrük icazələri, vizalar, başqa səlahiyyətlər və sanksiyalar verilir.

8. Sazişə və ya Əlavələrə hər hansı əlavələr, düzəlişlər, dəyişikliklər yalnız Sazişin və Əlavələrin tərəflərinin yazılı razılığı ilə edilir.

9. Bu Qanun dərc olunduğu gündən qüvvəyə minir.

**Heydər Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 13 iyun 1997-ci il, № 327-IQ*

# XƏZƏR DƏNİZİNİN AZƏRBAYCAN SEKTORUNDA "LƏNKƏRAN-DƏNİZ", "TALIŞ-DƏNİZ" PERSPEKTİV STRUKTURLARININ KƏŞFİYYATI, İŞLƏNMƏSİ VƏ HASİLATIN PAY BÖLGÜSÜNƏ DAİR XARİCİ NEFT ŞİRKƏTLƏRİ İLƏ DANIŞIQLARIN YEKUNLAŞMASI HAQQINDA

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Fransanın "Elf akiten"və "Total" şirkətləri ilə Azərbaycan Dövlət Neft Şirkətinin "Lənkəran-dəniz" və "Talış-dəniz" perspektiv strukturlarının kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsünə dair apardığı danışıqların yekunlaşmasını, həmin strukturların işlənilməsinin Azərbaycanın iqtisadiyyatı üçün mühüm əhəmiyyət kəsb etdiyini və Azərbaycan Dövlət Neft Şirkətinin müvafiq təqdimatını nəzərə alaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti tərəfindən təqdim edilmiş "Xəzər dənizinin Azərbaycan sektorunda "Lənkəran-dəniz" və "Talış-dəniz" perspektiv strukturlarının kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında" Sazişin layihəsi bəyənilsin.
2. Azərbaycan Respublikasının adından Fransanın "Elf akiten" və "Total" şirkətləri ilə "Xəzər dənizinin Azərbaycan sektorunda "Lənkəran-dəniz" və "Talış-dəniz" perspektiv strukturlarının kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında" Sazişin imzalanması səlahiyyəti Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinin prezidenti Natiq Əliyevə verilsin.
3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**Heydər Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 10 yanvar 1997-ci il*

## MÜQAVİLƏNİN İMZALANMA MƏRASİMİNDƏ AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN BƏYANATI

*"Yelisey" sarayı,*
*13 yanvar 1997-ci il*

Hörmətli cənab Prezident! Hörmətli xanımlar və cənablar!

Mən Fransa Prezidentinin dəvəti ilə Fransada, Parisdə rəsmi səfərdə olmağımdan böyük məmnunluq hissi keçirirəm.

Mənim burada olmağımdan, elə bu salonda mərhum Prezident Fransua Mitteranla Fransa ilə Azərbaycan arasında dostluq və əməkdaşlıq haqqında saziş imzalamağımızdan ötən üç il ərzində ölkələrimizin münasibətlərində müəyyən uğurlar əldə edilmişdir. Lakin hesab edirəm ki, bu, azdır. Bu imkandan, cənab Prezident Jak Şirak ilə olan söhbətimizdən istifadə edərək mən Fransa ilə Azərbaycan arasında əlaqələrin daha da yaxşılaşdırılmasına və genişləndirilməsinə səy göstərdiyimizi izah etdim. Sevinirəm ki, bu barədə rəyimiz yekdildir və ümidvaram ki, bu görüş, söhbətlərimiz və danışıqlarımız Fransa-Azərbaycan münasibətlərinin sürətlə inkişafı üçün dönüş nöqtəsi olacaqdır.

Dağlıq Qarabağ üstündə Ermənistan–Azərbaycan münaqişəsi probleminə dair Fransa prezidenti ilə mənim fikir mübadiləmiz çox faydalı, və hesab edirəm, gərəkli oldu. Biz regionumuzda sülhün bərqərar olmasını, Ermənistan ilə Azərbaycan arasında sülh yaranmasını, Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi, Ermənistan silahlı birləşmələrinin işğal etdikləri Azərbaycan ərazilərinin azad olunması və Ermənistan silahlı birləşmələri tərəfindən öz yerlərindən zorla qovulmuş bir milyondan artıq Azərbaycan vətəndaşının yurdlarına qayıtması şərti ilə münaqişənin tamamilə aradan qaldırılmasını istəyirik. Biz ümid edirik ki, bu baxımdan ATƏT-in üzvü olan ölkələrlə, Minsk qrupuna, Minsk konfransına daxil olan ölkələrlə əməkdaşlıq, Fransa ilə əməkdaşlıq həmin silahlı münaqişəyə tamamilə son qoyulması üçün mühüm amildir.

Azərbaycanın "Lənkəran-dəniz" və "Talış-dəniz" neft yataqlarının birgə işlənməsi və istifadəsi haqqında Azərbaycan Dövlət Neft Şirkəti ilə Fransanın ən iri "Elf akiten"və "Total" şirkətləri arasında bu gün 25 il müddətinə imzalanmış müqavilə Azərbaycanın Fransa ilə öz əlaqələrini dərinləşdirmək və genişləndirmək səyini sübut edir. Yeri gəl-

mişkən deyim ki, "Elf akiten" şirkəti 1996-cı ilin iyununda beynəlxalq neft şirkətlərinin imzaladıqları bir müqavilədə də iştirak edir. İndiki müqavilə Fransanın "Elf akiten" şirkətinin iştirak etdiyi ikinci müqavilədir.

Mən sevinirəm ki, bu müqavilə Parisdə, Yelisey sarayında, Prezidentin, mənim dostum cənab Jak Şirakın iştirakı ilə imzalanmışdır və əminəm ki, bu müqavilə həm Fransanın, həm də Azərbaycanın iqtisadiyyatına böyük fayda gətirəcəkdir.

Bu müqavilənin imzalanması münasibətilə sizi təbrik edirəm. Fransa xalqına, Fransa Respublikasına, onun prezidentinə səadət və xoşbəxtlik diləyirəm! Mersi Boku.

***Altıncı müqavilə:* Xəzər dənizində *Yalama /D-222/* perspektiv *"Azərbaycan"* blokunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsünə dair**

| | |
|---|---|
| *Müqavilənin imzalandığı yer:* | *Moskva, Kreml* |
| *İmzalanma tarixi:* | *3 iyul 1997-ci il* |
| *Ratifikasiya tarixi:* | *10 dekabr 1997-ci il* |
| *Nəzərdə tutulmuş sərmayələr:* | *1500000000 $* |
| *Proqnozlaşdırılmış ehtiyatlar:* | *100 mln. ton neft* |

**İmzalanma tarixinə tərəflərin iştirak payı**




**Tərəflərin bugünkü tarixə iştirak payı**




**İştirakçı dövlətlər:** Rusiya və Azərbaycan

# XƏZƏR DƏNİZİNDƏ D-222 PERSPEKTİV AZƏRBAYCAN BLOKUNUN KƏŞFİYYATI, İŞLƏNMƏSİ VƏ HASİLATIN PAY BÖLGÜSÜNƏ DAİR AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT NEFT ŞİRKƏTİ İLƏ LUKOYL İNTERNƏŞNL GMBH", ARDNŞ-NİN ORTAQ NEFT ŞİRKƏTİ ARASINDA SAZİŞİN QƏBUL VƏ TƏSDİQ EDİLMƏSİ, HƏYATA KEÇİRİLMƏSİNƏ İCAZƏ VERİLMƏSİ BARƏDƏ

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikası Prezidentinin "Xəzər dənizində D-222 perspektiv Azərbaycan blokunun kəşfiyyatı və işlənməsi haqqında" 1997-ci il 25 iyun tarixli 603 nömrəli Sərəncamına uyğun olaraq 1997-ci il iyulun 3-də Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə LUKoyl İnternəşnl GmbH və ARDNŞ-nin Ortaq Neft Şirkəti arasında Xəzər dənizində D-222 perspektiv Azərbaycan blokunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü barədə Saziş imzalanmışdır.

**AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ MƏCLİSİ**

Azərbaycan Respublikasının qanunvericiliyində Sazişin əhatə etdiyi məsələlərin tam və müasir tələblərə uyğun olaraq nizamlanmadığını;

Azərbaycan Respublikasının yeni Mülki Məcəlləsinin və karbohidrogen ehtiyatları haqqında Azərbaycan Respublikası qanunlarının olmadığını;

Sazişin şərtlərinə görə onun qanunverici orqan tərəfindən təsdiqindən sonra Qanun olmasını;

bu Qanunun Azərbaycan Respublikasının Konstitusiyasına tam uyğun olduğunu nəzərə alaraq,

Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktına və Azərbaycan Respublikasının Konstitusiyasına əsasən **qərara alır:**

1. Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə LUKoyl İnternəşnl GmbH və ARDNŞ-nin Ortaq Neft Şirkəti arasında Xəzər dənizində D-222 perspektiv Azərbaycan blokunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü barədə Saziş (bundan sonra "Saziş" adlanacaq) qəbul və təsdiq edilsin, onun həyata keçirilməsinə icazə verilsin.

2. Sazişlə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin

1 oktyabr 1997-ci il tarixli 115 nömrəli sərəncamı ilə LUKoyl İnternəşnl GmbH şirkətinə verdiyi Azərbaycan Respublikası Hökumətinin təminatı və öhdəlikləri (bundan sonra "Hökumət təminatı" adlanacaq) qəbul edilsin və onun həyata keçirilməsinə icazə verilsin.

3. Sazişin əsas mətninə edilmiş on (10) Əlavə, ARDNŞ Ortaq Neft Şirkətinin yaradılmasına dair Qoşma, bu Qoşmaya I Əlavə qəbul edilsin və onların həyata keçirilməsinə icazə verilsin.

4. Bu Qanun qüvvəyə mindikdən sonra Saziş, Hökumət təminatı və Əlavələr Qanun olurlar. Sazişdə konkret surətdə başqa hallar göstərilməyibsə, Saziş, Hökumət təminatı və Əlavələr Sazişin qüvvədə olduğu müddət ərzində bu Sazişə, Hökumət təminatına və Əlavələrə uyğun gəlməyən və ya zidd olan Azərbaycan Respublikasının hər hansı başqa mövcud və ya qəbul oluna biləcək qanunlarının, fərmanlarının, yaxud inzibati sərəncamlarının (və ya onların hissələrinin) müddəalarından üstün tutulur.

5. Bu Qanun qüvvəyə mindikdən sonra Sazişdə nəzərdə tutulan kontrakt sahəsinin istənilən hissəsi barəsində əvvəllər bağlanmış hər hansı saziş, kontrakt və ya bu cür başqa sənədlə verilə bilən bütün digər hüquq və vəzifələr ləğv edilir, habelə bu Qanun qüvvəyə mindikdən sonra Sazişin, Hökumət təminatının və Əlavələrin şərtlərinə müvafiq surətdə və qüvvədə olduğu bütün müddət ərzində Sazişin pay iştirakçılarına kontrakt sahəsində neft-qaz əməliyyatları aparmaq üçün müstəsna hüquq verilir.

6. Bu Qanun qüvvəyə mindikdən sonra Podratçının (və ya onun hüquqi varislərinin) Saziş, Hökumət təminatları və Əlavələr üzrə əldə etdiyi hüquqlar və mənafelər Podratçının qabaqcadan razılığı olmadan dəyişdirilə, düzəldilə və ya azaldıla bilməz.

7. Sazişdən irəli gələn hüquq və öhdəliklərin yerinə yetirilməsi üçün Sazişin iştirakçılarına bütün lazımi lisenziyalar, gömrük icazələri, vizalar, başqa səlahiyyətlər və sanksiyalar verilir.

8. Sazişə və ya Əlavələrə hər hansı əlavələr, düzəlişlər, dəyişikliklər yalnız Sazişin və Əlavələrin tərəflərinin yazılı razılığı ilə edilir.

9. Bu Qanun dərc olunduğu gündən qüvvəyə minir.

**Heydər Əliyev**

*Azərbaycan Respublikasının Prezidenti*

*Bakı şəhəri, 4 noyabr 1997-ci il, № 387-IQ*

# "XƏZƏR DƏNİZİNDƏ "D-222" PERSPEKTİV AZƏRBAYCAN BLOKUNUN KƏŞFİYYATI, İŞLƏNMƏSİ VƏ HASİLATIN PAY BÖLGÜSÜNƏ DAİR" SAZİŞƏ AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİNİN TƏMİNATI VƏ ÖHDƏLİKLƏRİ HAQQINDA

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 25 iyun tarixli 603 nömrəli Sərəncamına əsasən, Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti və LUKoyl İnternəşnl GmbH xarici neft şirkəti arasında "Xəzər dənizində "D-222" perspektiv Azərbaycan blokunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsünə dair" Sazişin 1997-ci il iyulun 3-də imzalandığını nəzərə alaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Göstərilən Sazişin 5-ci əlavəsində qeyd olunmuş Azərbaycan Respublikası Hökumətinin təminatı və öhdəlikləri təsdiq edilsin.

(Azərbaycan Respublikasının Baş naziri yanında 1997-ci il sentyabrın 30-da keçirilmiş iclasın 5 nömrəli protokolu).

**A.Rasizadə**
*Azərbaycan Respublikasının Baş Baziri*
*Bakı şəhəri, 1 oktyabr 1997-ci il, № 115*

***Yeddinci müqavilə:*** **Xəzər dənizinin Azərbaycan sektorunda "*Oğuz*" dəniz blokunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü barədə**

| | |
|---|---|
| *Müqavilənin imzalandığı yer:* | *Vaşinqton, Ağ ev* |
| *İmzalanma tarixi:* | *1 avqust 1997-ci il* |
| *Ratifikasiya tarixi:* | *5 dekabr 1997-ci il* |
| *Nəzərdə tutulmuş sərmayələr:* | *800 000 000 $* |
| *Proqnozlaşdırılmış ehtiyatlar:* | *75 mln. ton neft* |

## İmzalanma tarixinə tərəflərin iştirak payı




## Tərəflərin bugünkü tarixə iştirak payı




**İştirakçı dövlətlər:** ABŞ və Azərbaycan

# XƏZƏR DƏNİZİNİN AZƏRBAYCAN SEKTORUNDA "OĞUZ" DƏNİZ BLOKUNUN KƏŞFİYYATI, İŞLƏNMƏSİ VƏ HASİLATIN PAY BÖLGÜSÜ BARƏDƏ AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT NEFT ŞİRKƏTİ İLƏ MOBİL EKSPLOREYŞN ƏND PRODYUSİNQ AZƏRBAYCAN İNK. VƏ ARDNŞ-NİN ORTAQ NEFT ŞİRKƏTİ ARASINDA SAZİŞİN QƏBUL VƏ TƏSDİQ EDİLMƏSİ, HƏYATA KEÇİRİLMƏSİNƏ İCAZƏ VERİLMƏSİ HAQQINDA

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikası Prezidentinin "Xəzər dənizinin Azərbaycan sektorunda "Oğuz" dəniz blokunun kəşfiyyatı və işlənməsi haqqında" 1997-ci il 18 iyul tarixli 621 saylı Sərəncamına uyğun olaraq 1997-ci il avqustun 1-də Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə Mobil Eksploreyşn ənd Prodyusinq Azərbaycan İnk. və ARDNŞ-nin Ortaq Neft Şirkəti arasında Xəzər dənizinin Azərbaycan sektorunda "Oğuz" dəniz blokunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü barədə Saziş imzalanmışdır.

**AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ MƏCLİSİ**

Azərbaycan Respublikasının qanunvericiliyində Sazişin əhatə etdiyi məsələlərin tam və müasir tələblərə uyğun olaraq nizamlanmadığını;

Azərbaycan Respublikasının yeni Mülki Məcəlləsinin və karbohidrogen ehtiyatları haqqında Azərbaycan Respublikası qanunlarının olmadığını;

Sazişin şərtlərinə görə onun qanunverici orqan tərəfindən təsdiqindən sonra Qanun olmasını;

bu Qanunun Azərbaycan Respublikasının Konstitusiyasına tam uyğun olduğunu nəzərə alaraq,

Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktına və Azərbaycan Respublikasının Konstitusiyasına əsasən **qərara alır:**

1. Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə Mobil Eksploreyşn ənd Prodyusinq Azərbaycan İnk. və ARDNŞ-nin Ortaq Neft Şirkəti arasında Xəzər dənizinin Azərbaycan sektorunda "Oğuz" dəniz blokunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü barədə Saziş (bundan sonra "Saziş" adlanacaq) qəbul və təsdiq edilsin, onun həyata keçirilməsinə icazə verilsin.

2. Sazişlə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1997-ci il 1 oktyabr tarixli 114 saylı qərarı ilə Mobil Eksploreyşn ənd Prodyusinq Azərbaycan İnk. şirkətinə verdiyi Azərbaycan Respublikası Hökumətinin təminatı və öhdəlikləri (bundan sonra "Hökumət təminatı" adlanacaq) qəbul edilsin və onun həyata keçirilməsinə icazə verilsin.

3. Sazişin əsas mətninə edilmiş on (10) Əlavə, ARDNŞ Ortaq Neft Şirkətinin yaradılmasına dair Qoşma, bu Qoşmaya I Əlavə (bundan sonra "Əlavələr" adlanacaq) qəbul edilsin və onların həyata keçirilməsinə icazə verilsin.

4. Bu Qanun qüvvəyə mindikdən sonra Saziş, Hökumət təminatı və Əlavələr Qanun olurlar. Sazişdə konkret surətdə başqa hallar göstərilməyibsə, Saziş, Hökumət təminatı və Əlavələr Sazişin qüvvədə olduğu müddət ərzində bu Sazişə, Hökumət təminatına və Əlavələrə uyğun gəlməyən və ya zidd olan Azərbaycan Respublikasının hər hansı başqa mövcud və ya qəbul oluna biləcək qanunlarının, fərmanlarının, yaxud inzibati sərəncamlarının (və ya onların hissələrinin) müddəalarından üstün tutulur.

5. Bu Qanun qüvvəyə mindikdən sonra Sazişdə nəzərdə tutulan kontrakt sahəsinin istənilən hissəsi barəsində əvvəllər bağlanmış hər hansı saziş, kontrakt və ya bu cür başqa sənədlə verilə bilən bütün digər hüquq və vəzifələr ləğv edilir, habelə bu Qanun qüvvəyə mindikdən sonra Sazişin, Hökumət təminatının və Əlavələrin şərtlərinə müvafiq surətdə və qüvvədə olduğu bütün müddət ərzində Sazişin pay iştirakçılarına kontrakt sahəsində neft-qaz əməliyyatları aparmaq üçün müstəsna hüquq verilir.

6. Bu Qanun qüvvəyə mindikdən sonra Podratçının (və ya onun hüquqi varislərinin) Saziş, Hökumət təminatları və Əlavələr üzrə əldə etdiyi hüquqlar və mənafelər Podratçının qabaqcadan razılığı olmadan dəyişdirilə, düzəldilə və ya azaldıla bilməz.

7. Sazişdən irəli gələn hüquq və öhdəliklərin yerinə yetirilməsi üçün Sazişin iştirakçılarına bütün lazımi lisenziyalar, gömrük icazələri, vizalar, başqa səlahiyyətlər və sanksiyalar verilir.

8. Sazişə və ya Əlavələrə hər hansı əlavələr, düzəlişlər, dəyişikliklər yalnız Sazişin və Əlavələrin tərəflərinin yazılı razılığı ilə edilir.

9. Bu Qanun dərc olunduğu gündən qüvvəyə minir.

**Heydər Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 4 noyabr 1997-ci il, № 397 – IQ*

# XƏZƏR DƏNİZİNİN AZƏRBAYCAN SEKTORUNDA "OĞUZ" DƏNİZ BLOKUNUN KƏŞFİYYATI VƏ İŞLƏNMƏSİ HAQQINDA

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Xəzər dənizinin Azərbaycan sektorunda "Oğuz" blokunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsünə dair Sazişin əsas kommersiya prinsipləri və müddəaları üzrə Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə "Mobil" Şirkəti arasında ümumi razılığın əldə edilməsi barədə Azərbaycan Dövlət Neft Şirkətinin təklifini qəbul edərək **qərara alıram:**

1. Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinə "Mobil" Şirkəti ilə birlikdə Xəzər dənizinin Azərbaycan sektorunda "Oğuz" blokunun kəşfiyyatı, işlənməsi və pay bölgüsünə dair Sazişin hazırlanması və bağlanması səlahiyyəti verilsin.
2. Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti Xəzər dənizinin Azərbaycan sektorunda "Oğuz" blokunun kəşfiyyatı, işlənməsi və pay bölgüsünə dair Saziş hazırlandıqdan sonra onu baxılmaq üçün Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

**Heydər Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 18 iyul 1997-ci il, № 621*

# "XƏZƏR DƏNİZİNİN AZƏRBAYCAN SEKTORUNDA "OĞUZ" DƏNİZ BLOKUNUN KƏŞFİYYATI, İŞLƏNMƏSİ VƏ HASİLATIN PAY BÖLGÜSÜ HAQQINDA" SAZİŞƏ AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİNİN TƏMİNATI VƏ ÖHDƏLİKLƏRİ HAQQINDA

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

Azərbaycan Respublikası Prezidentinin "Xəzər dənizinin Azərbaycan sektorunda "Oğuz" dəniz blokunun kəşfiyyatı və işlənməsi haqqında" 1997-ci il 18 iyul tarixli 623 nömrəli Sərəncamına əsasən, Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti və Mobil Eksploreyşn ənd Prodakşn İnk. xarici neft şirkəti arasında "Xəzər" dənizinin Azərbaycan sektorunda "Oğuz" dəniz blokunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında" Sazişin 1997-ci il avqustun 1-də imzalandığını nəzərə alaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Göstərilən Sazişin 5-ci əlavəsində qeyd olunmuş Azərbaycan Respublikası Hökumətinin təminatı və öhdəlikləri təsdiq edilsin.

(Azərbaycan Respublikasının Baş naziri yanında 1997-ci il sentyabrın 30-da keçirilmiş iclasın 5 nömrəli protokolu).

**A.Rasizadə**
*Azərbaycan Respublikasının Baş Naziri*
*Bakı şəhəri, 1 oktyabr 1997-ci il, № 114*

***Səkkizinci müqavilə:* Xəzər dənizinin Azərbaycan sektorunda *"Abşeron"* dəniz blokunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında**

| | |
|---|---|
| *Müqavilənin imzalandığı yer:* | *Vaşinqton, Ağ ev* |
| *İmzalanma tarixi:* | *1 avqust 1997-ci il* |
| *Qüvvəyə minmə tarixi:* | *5 dekabr 1997-ci il* |
| *Proqnozlaşdırılmış sərmayələr:* | *3 500 000 000 $* |
| *Proqnozlaşdırılmış ehtiyatlar:* | *150-300 mln. ton neft* |

## İmzalanma tarixinə tərəflərin iştirak payı




## Tərəflərin bugünkü tarixə iştirak payı




**İştirakçı dövlətlər:** ABŞ, Fransa və Azərbaycan

# XƏZƏR DƏNİZİNİN AZƏRBAYCAN SEKTORUNDA "ABŞERON" DƏNİZ BLOKUNUN KƏŞFİYYATI, İŞLƏNMƏSİ VƏ HASİLATIN PAY BÖLGÜSÜ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT NEFT ŞİRKƏTİ İLƏ ŞEVRON OVERSİZ EKSPLOREYŞN LİMİTED, ARDNŞ-NİN ORTAQ NEFT ŞİRKƏTİ ARASINDA SAZİŞİN QƏBUL VƏ TƏSDİQ EDİLMƏSİ, HƏYATA KEÇİRİLMƏSİNƏ İCAZƏ VERİLMƏSİ BARƏDƏ

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikası Prezidentinin "Xəzər dənizinin Azərbaycan sektorunda "Abşeron" dəniz blokunun kəşfiyyatı və işlənməsi haqqında" 1997-ci il 18 iyul tarixli 619 saylı Sərəncamına uyğun olaraq 1997-ci il avqustun 1-də Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə Şevron Oversiz Eksploreyşn Limited (ABŞ) və ARDNŞ-nin Ortaq Neft Şirkəti arasında Xəzər dənizinin Azərbaycan sektorunda "Abşeron" dəniz blokunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında Saziş imzalanmışdır.

**AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ MƏCLİSİ**

Azərbaycan Respublikasının qanunvericiliyində Sazişin əhatə etdiyi məsələlərin tam və müasir tələblərə uyğun olaraq nizamlanmadığını;

Azərbaycan Respublikasının yeni Mülki Məcəlləsinin və karbohidrogen ehtiyatları haqqında Azərbaycan Respublikası qanunlarının olmadığını;

Sazişin şərtlərinə görə onun qanunverici orqan tərəfindən təsdiqindən sonra Qanun olmasını;

bu Qanunun Azərbaycan Respublikasının Konstitusiyasına tam uyğun olduğunu nəzərə alaraq,

Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktına və Azərbaycan Respublikasının Konstitusiyasına əsasən **qərara alır:**

1. Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə Şevron Oversiz Eksploreyşn Limited, ARDNŞ-nin Ortaq Neft Şirkəti arasında Xəzər dənizinin Azərbaycan sektorunda "Abşeron" dəniz blokunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında Saziş (bundan sonra "Saziş" adlanacaq) qəbul və təsdiq edilsin, onun həyata keçirilməsinə icazə verilsin.

2. Sazişlə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1997-ci il 1 oktyabr tarixli 113 saylı qərarı ilə Şevron Oversiz Eksploreyşn Limited şirkətinə verdiyi Azərbaycan Respublikası Hökumətinin təminatı və öhdəlikləri (bundan sonra "Hökumət təminatı" adlanacaq) qəbul edilsin və onun həyata keçirilməsinə icazə verilsin.

3. Sazişin əsas mətninə edilmiş on (10) Əlavə, ARDNŞ Ortaq Neft Şirkətinin yaradılmasına dair Qoşma, bu Qoşmaya I Əlavə, habelə Xəzər dənizinin Azərbaycan sektorunda "Abşeron" dəniz blokunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında Sazişə iştirak payının verilməsi haqqında Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti və Şevron Oversiz Eksploreyşn Limited, ARDNŞ-nin Ortaq Neft Şirkəti, Total Eksploreyşn ənd Prodakşn Azərbaycan arasında ikinci Qoşma (bundan sonra "Əlavələr" adlanacaq) qəbul edilsin və onların həyata keçirilməsinə icazə verilsin.

4. Bu Qanun qüvvəyə mindikdən sonra Saziş, Hökumət təminatı və Əlavələr Qanun olurlar. Sazişdə konkret surətdə başqa hallar göstərilməyibsə, Saziş, Hökumət təminatı və Əlavələr Sazişin qüvvədə olduğu müddət ərzində bu Sazişə, Hökumət təminatına və Əlavələrə uyğun gəlməyən və ya zidd olan Azərbaycan Respublikasının hər hansı başqa mövcud və ya qəbul oluna biləcək qanunlarının, fərmanlarının, yaxud inzibati sərəncamlarının (və ya onların hissələrinin) müddəalarından üstün tutulur.

5. Bu Qanun qüvvəyə mindikdən sonra Sazişdə nəzərdə tutulan kontrakt sahəsinin istənilən hissəsi barəsində əvvəllər bağlanmış hər hansı saziş, kontrakt və ya bu cür başqa sənədlə verilə bilən bütün digər hüquq və vəzifələr ləğv edilir, habelə bu Qanun qüvvəyə mindikdən sonra Sazişin, Hökumət təminatının və Əlavələrin şərtlərinə müvafiq surətdə və qüvvədə olduğu bütün müddət ərzində Sazişin pay iştirakçılarına kontrakt sahəsində neft-qaz əməliyyatları aparmaq üçün müstəsna hüquq verilir.

6. Bu Qanun qüvvəyə mindikdən sonra Podratçının (və ya onun hüquqi varislərinin) Saziş, Hökumət təminatları və Əlavələr üzrə əldə etdiyi hüquqlar və mənafelər Podratçının qabaqcadan razılığı olmadan dəyişdirilə, düzəldilə və ya azaldıla bilməz.

7. Sazişdən irəli gələn hüquq və öhdəliklərin yerinə yetirilməsi üçün Sazişin iştirakçılarına bütün lazımi lisenziyalar, gömrük icazələri, vizalar, başqa səlahiyyətlər və sanksiyalar verilir.

8. Sazişə və ya Əlavələrə hər hansı əlavələr, düzəlişlər, dəyişikliklər yalnız Sazişin və Əlavələrin tərəflərinin yazılı razılığı ilə edilir.

9. Bu Qanun dərc olunduğu gündən qüvvəyə minir.

**Heydər Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 11 noyabr 1997-ci il, № 398 – IQ*

# XƏZƏR DƏNİZİNİN AZƏRBAYCAN SEKTORUNDA "ABŞERON" DƏNİZ BLOKUNUN KƏŞFİYYATI VƏ İŞLƏNMƏSİ HAQQINDA

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Xəzər dənizinin Azərbaycan sektorunda "Abşeron" dəniz blokunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsünə dair Sazişin əsas kommersiya prinsipləri və müddəaları üzrə Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə "Şevron Oversiz Eksploreyşn Limited" Şirkəti arasında ümumi razılığın əldə edilməsi barədə Azərbaycan Dövlət Neft Şirkətinin təklifini qəbul edərək **qərara alıram:**

1. Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinə "Şevron Oversiz Eksploreyşn Limited" Şirkəti ilə birlikdə Xəzər dənizinin Azərbaycan sektorunda "Abşeron" dəniz blokunun kəşfiyyatı, işlənməsi və pay bölgüsünə dair Sazişin hazırlanması və bağlanması səlahiyyəti verilsin.
2. Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti Xəzər dənizinin Azərbaycan sektorunda "Abşeron" dəniz blokunun kəşfiyyatı, işlənməsi və pay bölgüsünə dair Saziş hazırlandıqdan sonra onu baxılmaq üçün Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

**Heydər Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 18 iyul 1997-ci il, № 619*

# "XƏZƏR DƏNİZİNİN AZƏRBAYCAN SEKTORUNDA "ABŞERON" DƏNİZ BLOKUNUN KƏŞFİYYATI, İŞLƏNMƏSİ VƏ HASİLATIN PAY BÖLGÜSÜ HAQQINDA" SAZİŞƏ AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİNİN TƏMİNATI VƏ ÖHDƏLİKLƏRİ HAQQINDA

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

Azərbaycan Respublikası Prezidentinin "Xəzər dənizinin Azərbaycan sektorunda "Abşeron" dəniz blokunun kəşfiyyatı və işlənməsi haqqında" 1997-ci il 18 iyul tarixli 619 nömrəli Sərəncamına əsasən, Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti və Şevron Oversiz Eksploreyşn Limited, Total Eksploreyşn ənd Prodakşn Azərbaycan xarici neft şirkətləri arasında "Xəzər dənizinin Azərbaycan sektorunda "Abşeron" dəniz blokunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında" Sazişin 1997-ci 11 avqustun 1-də imzalandığını nəzərə alaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Göstərilən Sazişin 5-ci əlavəsində qeyd olunmuş Azərbaycan Respublikası Hökumətinin təminatı və öhdəlikləri təsdiq edilsin.

(Azərbaycan Respublikasının Baş naziri yanında 1997-ci il sentyabrın 30-da keçirilmiş iclasın 5 nömrəli protokolu).

**A.Rasizadə**
*Azərbaycan Respublikasının Baş Naziri*
*Bakı şəhəri, 1 oktyabr 1997-ci il, № 113*

# MÜQAVİLƏNİN İMZALANMA MƏRASİMİNDƏ AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN NİTQİ

*"Ağ ev"in Ruzvelt zalı,*
*1 avqust 1997-ci il*

– Hörmətli cənab vitse-prezident!

Hörmətli nazirlər, hörmətli dostlar!

Bu gün Amerika-Azərbaycan əlaqələrində tarixi hadisə baş verir. Azərbaycan Prezidenti ilk dəfə Amerika Birləşmiş Ştatlarına rəsmi səfərə gəlibdir. Bizim çox səmərəli danışıqlarımız olubdur və bu gün səhərdən Prezident cənab Bill Klinton ilə və onun ətrafında olan şəxslərlə mehriban şəraitdə çox səmərəli danışıqlar aparmışıq. Bu danışıqlarımızda eyni zamanda Amerika-Azərbaycan iqtisadi əlaqələrinin daha da genişləndirilməsini müzakirə etmişik. Bu sahədə böyük imkanlar var və bunlardan daha da səmərəli istifadə etmək lazımdır. Biz indiyə qədər bu imkanları yaratmışıq çünki 1994-cü ilin sentyabrında ilk böyük müqavilə **"Əsrin müqaviləsi"** adlanan müqavilə imzalamışıq və bu müqavilədə Amerika Birləşmiş Ştatlarının beş böyük şirkəti iştirak edir. Məmnuniyyət hissi ilə qeyd edirəm ki, bu müqavilə əməli surətdə həyata keçirilir və konsorsiumun fəaliyyəti nəticəsində bu ilin sentyabrında ilkin neft əldə olunacaqdır.

Nefti xaricə – Qərbə, dünya bazarına çıxarmaq üçün iki neft kəməri tikilir. Üçüncü böyük neft kəmərinin tikilməsinə də bu yaxınlarda başlanacaqdır.

Mən bu gün burada, Vaşinqtonda, Ağ evdə iftixar hissi ilə deyirəm ki, Azərbaycan neftçiləri əlli il bundan öncə Xəzər dənizində ilk neft yataqlarını açıb istismar etməyə başlayıblar. XX əsrin sonunda Azərbaycan Xəzər dənizinin böyük, zəngin neft yataqlarını bütün dünyaya təqdim edibdir. Çox məmnuniyyət hissi ilə qeyd edirəm ki, bu işlərdə Amerika Birləşmiş Ştatlarının böyük şirkətləri fəal iştirak edirlər. Biz dərk edirik ki, xarici investisiyanın Azərbaycana gəlməsi, iqtisadiyyatımızın dünya iqtisadiyyatı ilə bağlanması və xüsusən Amerika Birləşmiş Ştatları ilə güclü iqtisadi əlaqələr qurulması Azərbaycan xalqının gözəl gələcəyinə xidmət edir.

Eyni zamanda bu iqtisadi əlaqələr, Amerikanın böyük neft şirkətlərinin və digər şirkətlərinin Azərbaycanda indi geniş fəaliyyət göstərməsi Amerika–Azərbaycan əla-

qələrinin bütün sahələrdə genişlənməsinə, inkişafına kömək edir. Məmnuniyyət hissi ilə qeyd edirəm ki, ABŞ Prezidenti cənab Bill Klinton bu problemlərə xüsusi əhəmiyyət verir və bu məsələlərin həlli üçün çox ciddi tədbirlər görür. Biz bu məsələlərdə vitse-prezident cənab Albert Qor ilə də çox sıx əməkdaşlıq edirik və bu işlərin həyata keçirilməsində onun da çox böyük xidmətləri var.

ABŞ-ın Energetika Nazirliyi ilə bizim əlaqələrimiz yaxşıdır və bunların inkişaf etdirilməsi üçün müqavilə imzalanacağından məmnunam. Amerika Birləşmiş Ştatlarının Dövlət katibi xanım Olbrayt bu əlaqələrin inkişafında xüsusi xidmətlər göstərmişdir. Ümidvaram ki, Amerikanın Ticarət Nazirliyi ilə də yaranan əlaqələr bütün iqtisadiyyatımızın inkişafına xidmət edəcəkdir.

Çox böyük neft müqavilələrinin burada, Ağ evdə, Amerikanın rəhbərlərinin iştirakı ilə imzalanması tarixi hadisədir. Biz bunu yüksək qiymətləndirir və hesab edirik ki, Ağ evdə imzalanan müqavilələr uğurlu olacaqdır. Mən sizi bu münasibətlə təbrik edirəm və imzalanan müqavilələrin uğurlu olmasını arzulayıram. Sağ olun.

***Doqquzuncu müqavilə:*** **Xəzər dənizinin Azərbaycan sektorunda *"Naxçıvan"* perspektiv strukturunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında**

| | |
|---|---|
| *Müqavilənin imzalandığı yer:* | *Vaşinqton, Ağ ev* |
| *İmzalanma tarixi:* | *1 avqust 1997-ci il* |
| *Ratifikasiya tarixi:* | *5 dekabr 1997-ci il* |
| *Nəzərdə tutulmuş sərmayələr:* | *5 000 000 000 $* |
| *Proqnozlaşdırılmış ehtiyatlar:* | *75 mln. ton neft* |

**İmzalanma tarixinə tərəflərin iştirak payı**




**Tərəflərin bugünkü tarixə iştirak payı**




**İştirakçı dövlətlər:** ABŞ və Azərbaycan

# XƏZƏR DƏNİZİNİN AZƏRBAYCAN SEKTORUNDA "NAXÇIVAN" PERSPEKTİV STRUKTURUNUN KƏŞFİYYATI, İŞLƏNMƏSİ VƏ HASİLATIN PAY BÖLGÜSÜ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT NEFT ŞİRKƏTİ İLƏ EKSSON EKSPLOREYŞN ƏND PRODAKŞN AZƏRBAYCAN LİMİTED, ARDNŞ-NİN ORTAQ NEFT ŞİRKƏTİ ARASINDA SAZİŞİN QƏBUL VƏ TƏSDİQ EDİLMƏSİ, HƏYATA KEÇİRİLMƏSİNƏ İCAZƏ VERİLMƏSİ BARƏDƏ

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikası Prezidentinin "Xəzər dənizinin Azərbaycan sektorunda "Naxçıvan" perspektiv strukturunun kəşfiyyatı və işlənməsi haqqında" 1997-ci il 18 iyul tarixli 620 saylı Sərəncamına uyğun olaraq 1997-ci il avqustun 1-də Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə Eksson Eksploreyşn ənd Prodakşn Azərbaycan Limited (ABŞ) və ARDNŞ-nin Ortaq Neft Şirkəti arasında Xəzər dənizinin Azərbaycan sektorunda "Naxçıvan" perspektiv strukturunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında Saziş imzalanmışdır.

**AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ MƏCLİSİ**

Azərbaycan Respublikasının qanunvericiliyində Sazişin əhatə etdiyi məsələlərin tam və müasir tələblərə uyğun olaraq nizamlanmadığını;

Azərbaycan Respublikasının yeni Mülki Məcəlləsinin və karbohidrogen ehtiyatları haqqında Azərbaycan Respublikası qanunlarının olmadığını;

Sazişin şərtlərinə görə onun qanunverici orqan tərəfindən təsdiqindən sonra Qanun olmasını;

bu Qanunun Azərbaycan Respublikasının Konstitusiyasına tam uyğun olduğunu nəzərə alaraq,

Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktına və Azərbaycan Respublikasının Konstitusiyasına əsasən **qərara alır:**

1. Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə Eksson Eksploreyşn ənd Prodakşn Azərbaycan Limited, ARDNŞ-nin Ortaq Neft Şirkəti arasında Xəzər dənizinin Azərbaycan sektorunda "Naxçıvan" perspektiv strukturunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında Saziş (bundan sonra "Saziş" adlanacaq) qəbul və təsdiq edilsin, onun həyata keçirilməsinə icazə verilsin.

2. Sazişlə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1997-ci il 1 oktyabr tarixli 116 saylı qərarı ilə Eksson Eksploreyşn ənd Prodakşn Azərbaycan Limited şirkətinə verdiyi Azərbaycan Respublikası Hökumətinin təminatı və öhdəlikləri (bundan sonra "Hökumət təminatı" adlanacaq) qəbul edilsin və onun həyata keçirilməsinə icazə verilsin.

3. Sazişin əsas mətninə edilmiş on bir (11) Əlavə, ARDNŞ Ortaq Neft Şirkətinin yaradılmasına dair Qoşma, bu Qoşmaya 1 Əlavə (bundan sonra "Əlavələr" adlanacaq) qəbul edilsin və onların həyata keçirilməsinə icazə verilsin.

4. Bu Qanun qüvvəyə mindikdən sonra Saziş, Hökumət təminatı və Əlavələr Qanun olurlar. Sazişdə konkret surətdə başqa hallar göstərilməyibsə, Saziş, Hökumət təminatı və Əlavələr Sazişin qüvvədə olduğu müddət ərzində bu Sazişə, Hökumət təminatına və Əlavələrə uyğun gəlməyən və ya zidd olan Azərbaycan Respublikasının hər hansı başqa mövcud və ya qəbul oluna biləcək qanunlarının, fərmanlarının, yaxud inzibati sərəncamlarının (və ya onların hissələrinin) müddəalarından üstün tutulur.

5. Bu Qanun qüvvəyə mindikdən sonra Sazişdə nəzərdə tutulan kontrakt sahəsinin istənilən hissəsi barəsində əvvəllər bağlanmış hər hansı saziş, kontrakt və ya bu cür başqa sənədlə verilə bilən bütün digər hüquq və vəzifələr ləğv edilir, habelə bu Qanun qüvvəyə mindikdən sonra Sazişin, Hökumət təminatının və Əlavələrin şərtlərinə müvafiq surətdə və qüvvədə olduğu bütün müddət ərzində Sazişin pay iştirakçılarına kontrakt sahəsində neft-qaz əməliyyatları aparmaq üçün müstəsna hüquq verilir.

6. Bu Qanun qüvvəyə mindikdən sonra Podratçının (və ya onun hüquqi varislərinin) Saziş, Hökumət təminatları və Əlavələr üzrə əldə etdiyi hüquqlar və mənafelər Podratçının qabaqcadan razılığı olmadan dəyişdirilə, düzəldilə və ya azaldıla bilməz.

7. Sazişdən irəli gələn hüquq və öhdəliklərin yerinə yetirilməsi üçün Sazişin iştirakçılarına bütün lazımi lisenziyalar, gömrük icazələri, vizalar, başqa səlahiyyətlər və sanksiyalar verilir.

8. Sazişə və ya Əlavələrə hər hansı əlavələr, düzəlişlər, dəyişikliklər yalnız Sazişin və Əlavələrin tərəflərinin yazılı razılığı ilə edilir.

9. Bu Qanun dərc olunduğu gündən qüvvəyə minir.

**Heydər Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 14 noyabr 1997-ci il, № 403-IQ*

# XƏZƏR DƏNİZİNİN AZƏRBAYCAN SEKTORUNDA "NAXÇIVAN" PERSPEKTİV STRUKTURUNUN KƏŞFİYYATI VƏ İŞLƏNMƏSİ HAQQINDA

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Xəzər dənizinin Azərbaycan sektorunda "Naxçıvan" perspektiv strukturunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsünə dair Sazişin əsas kommersiya prinsipləri və müddəaları üzrə Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə "Ekson" Şirkəti arasında ümumi razılığın əldə edilməsi barədə Azərbaycan Dövlət Neft Şirkətinin təklifini qəbul edərək **qərara alıram:**

1. Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinə "Ekson" Şirkəti ilə birlikdə Xəzər dənizinin Azərbaycan sektorunda "Naxçıvan" perspektiv strukturunun kəşfiyyatı, işlənməsi və pay bölgüsünə dair Sazişin hazırlanması və bağlanması səlahiyyəti verilsin.
2. Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti Xəzər dənizinin Azərbaycan sektorunda "Naxçıvan" perspektiv strukturunun kəşfiyyatı, işlənməsi və pay bölgüsünə dair Saziş hazırlandıqdan sonra onu baxılmaq üçün Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

**Heydər Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 18 iyul 1997-ci il, № 620*

# “XƏZƏR DƏNİZİNİN AZƏRBAYCAN SEKTORUNDA “NAXÇIVAN” PERSPEKTİV STRUKTURUNUN KƏŞFİYYATI, İŞLƏNMƏSİ VƏ HASİLATIN PAY BÖLGÜSÜ HAQQINDA” SAZİŞƏ AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİNİN TƏMİNATI VƏ ÖHDƏLİKLƏRİ HAQQINDA

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

Azərbaycan Respublikası Prezidentinin “Xəzər dənizinin Azərbaycan sektorunda “Naxçıvan” perspektiv strukturunun kəşfiyyatı və işlənməsi haqqında” 1997-ci il 18 iyul tarixli 620 nömrəli Sərəncamına əsasən, Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti və Ekson Eksploreyşn ənd Prodakşn Azərbaycan Limited xarici neft şirkəti arasında “Xəzər dənizinin Azərbaycan sektorunda “Naxçıvan” perspektiv strukturunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında” Sazişin 1997-ci il avqustun 1-də imzalandığını nəzərə alaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Göstərilən Sazişin 5-ci əlavəsində qeyd olunmuş Azərbaycan Respublikası Hökumətinin təminatı və öhdəlikləri təsdiq edilsin.

(Azərbaycan Respublikasının Baş naziri yanında 1997-ci il sentyabrın 30-da keçirilmiş iclasın 5 nömrəli protokolu).

**A.Rasizadə**
*Azərbaycan Respublikasının Baş Naziri*
*Bakı şəhəri, 1 oktyabr 1997-ci il, № 116*

***Onuncu müqavilə:*** **Xəzər dənizinin Azərbaycan sektorunda *"Kürdaşı"* dəniz blokunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında**

| | |
|---|---|
| *Müqavilənin imzalandığı yer:* | *Bakı, "Gülüstan" sarayı* |
| *İmzalanma tarixi:* | *2 iyun 1998-ci il* |
| *Ratifikasiya tarixi:* | *30 iyul 1998-ci il* |
| *Nəzərdə tutulmuş sərmayələr:* | *2 000 000 000 $* |
| *Proqnozlaşdırılmış ehtiyatlar:* | *90-120 mln. ton neft* |

## İmzalanma tarixinə tərəflərin iştirak payı




## Tərəflərin bugünkü tarixə iştirak payı




**İştirakçı dövlətlər:** ABŞ, Böyük Britaniya, Kanada, İtaliya, Yaponiya, Səudiyyə Ərəbistanı, Türkiyə və Azərbaycan

# XƏZƏR DƏNİZİNİN AZƏRBAYCAN SEKTORUNDA KÜRDAŞI DƏNİZ BLOKUNUN KƏŞFİYYATI, İŞLƏNMƏSİ VƏ HASİLATIN PAY BÖLGÜSÜ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT NEFT ŞİRKƏTİ İLƏ ACIP AZƏRBAYCAN B.V., MİTSUİ OYL EKSPLOREYŞN KO. LTD, TÖRKİŞ PETROLEUM OVERSİZ KOMPANİ LTD, AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT NEFT ŞİRKƏTİNİN ORTAQ NEFT ŞİRKƏTİ VƏ REPSOL EKSPLORASİON S.A. ARASINDA SAZİŞİN QƏBUL VƏ TƏSDİQ EDİLMƏSİ, HƏYATA KEÇİRİLMƏSİNƏ İCAZƏ VERİLMƏSİ BARƏDƏ

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikası Prezidentinin "Xəzər dənizinin Azərbaycan sektorunda Kürdaşı dəniz blokunun kəşfiyyatı və işlənməsi haqqında" 23 sentyabr 1997-ci il tarixli 672 nömrəli Sərəncamına uyğun olaraq 1998-ci il iyunun 2-də Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ("ARDNŞ") ilə Acip Azərbaycan B.V. ("Acip"), Mitsui Oyl Eksploreyşn Ko. LTD ("MOEKO"), Törkiş Petroleum Oversiz Kompani LTD ("TROK"), ARDNŞ-nin Ortaq Neft Şirkəti arasında Saziş imzalanmışdır.

1998-ci il iyunun 5-də bu Sazişə Repsol Eksplorasion S.A. ("Repsol") da qoşulmuşdur.

**AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ MƏCLİSİ**

Azərbaycan Respublikasının qanunvericiliyində Sazişin əhatə etdiyi məsələlərin tam və müasir tələblərə uyğun olaraq nizamlanmadığını;

Azərbaycan Respublikasının yeni Mülki Məcəlləsinin olmadığını;

Sazişin şərtlərinə görə onun qanunverici orqan tərəfindən təsdiqindən sonra Qanun olmasını;

bu Qanunun Azərbaycan Respublikasının Konstitusiyasına tam uyğun olduğunu nəzərə alaraq,

Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktına və Azərbaycan Respublikasının Konstitusiyasına əsasən **qərara alır:**

1. Xəzər dənizinin Azərbaycan sektorunda Kürdaşı dəniz blokunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə Acip Azərbaycan B.V., Mitsui Oyl Eksploreyşn Ko. LTD, Törkiş Petroleum Oversiz Kompani LTD, Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinin Ortaq Neft Şirkəti və Repsol Eksplorasion S.A. arasında Saziş (bundan sonra "Saziş" adlanacaq) qəbul və təsdiq edilsin, onun həyata keçirilməsinə icazə verilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 29 iyun 1998-ci il tarixli qərarı ilə Sazişdə iştirak edən Podratçılara verilən Azərbaycan Respublikası Hökumətinin təminatı və öhdəlikləri (bundan sonra "Hökumət təminatı" adlanacaq) qəbul edilsin və onun həyata keçirilməsinə icazə verilsin.

3. Sazişin əsas mətninə edilmiş on (10) Əlavə, ARDNŞ Ortaq Neft Şirkətinin yaradılmasına dair Qoşma, habelə bu Qoşmaya 1 Əlavə (bundan sonra "Əlavələr" adlanacaq) qəbul edilsin və onların həyata keçirilməsinə icazə verilsin.

4. Bu Qanun qüvvəyə mindikdən sonra Saziş, Hökumət təminatı və Əlavələr Qanun olurlar. Sazişdə konkret surətdə başqa hallar göstərilməyibsə, Saziş, Hökumət təminatı və Əlavələr Sazişin qüvvədə olduğu müddət ərzində bu Sazişə, Hökumət təminatına və Əlavələrə uyğun gəlməyən və ya zidd olan Azərbaycan Respublikasının hər hansı başqa mövcud və qəbul oluna biləcək qanunlarının, fərmanlarının, yaxud inzibati sərəncamlarının (və ya onların hissələrinin) müddəalarından üstün tutulur.

5. Bu Qanun qüvvəyə mindikdən sonra Sazişdə nəzərdə tutulan kontrakt sahəsinin istənilən hissəsi barəsində əvvəllər bağlanmış hər hansı saziş, kontrakt və ya bu cür başqa sənədlə verilə bilən bütün digər hüquq və vəzifələr ləğv edilir, habelə bu Qanun qüvvəyə mindikdən sonra Sazişin, Hökumət təminatının və Əlavələrin şərtlərinə müvafiq surətdə və qüvvədə olduğu bütün müddət ərzində Sazişin pay iştirakçılarına kontrakt sahəsində neft-qaz əməliyyatları aparmaq üçün müstəsna hüquq verilir.

6. Bu Qanun qüvvəyə mindikdən sonra Podratçının (və ya onun hüquqi varislərinin) Saziş, Hökumət təminatları və Əlavələr üzrə əldə etdiyi hüquqlar və mənafelər Podratçının qabaqcadan razılığı olmadan dəyişdirilə, düzəldilə və ya azaldıla bilməz.

7. Sazişdən irəli gələn hüquq və öhdəliklərin yerinə yetirilməsi üçün Sazişin iştirakçılarına bütün lazımi lisenziyalar, gömrük icazələri, vizalar, başqa səlahiyyətlər və sanksiyalar verilir.

8. Sazişdə və ya Əlavələrdə hər hansı düzəlişlər, dəyişikliklər yalnız Sazişin və Əlavələrin tərəflərinin yazılı razılığı ilə edilir.

9. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

**Heydər Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 7 iyul 1998-ci il, № 519-IQ*

# XƏZƏR DƏNİZİNİN AZƏRBAYCAN SEKTORUNDA "KÜRDAŞI" DƏNİZ BLOKUNUN KƏŞFİYYATI VƏ İŞLƏNMƏSİ HAQQINDA

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Xəzər dənizinin Azərbaycan sektorunda "Kürdaşı" blokunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsünə dair Sazişin əsas kommersiya prinsipləri və müddəaları üzrə Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə "Acip" Şirkəti arasında ümumi razılığın əldə edilməsi barədə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin təklifini qəbul edərək **qərara alıram:**

1. Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinə "Acip" Şirkəti ilə birlikdə Xəzər dənizinin Azərbaycan sektorunda "Kürdaşı" blokunun kəşfiyyatı, işlənməsi və pay bölgüsünə dair Sazişin hazırlanması və bağlanması səlahiyyəti verilsin.
2. Azərbaycan Respublikası Dövlət Neft Şirkəti Xəzər Dənizinin Azərbaycan sektorunda "Kürdaşı" blokunun kəşfiyyatı, işlənməsi və pay bölgüsünə dair Saziş hazırlandıqdan sonra onu baxılmaq üçün Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

**Heydər Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 23 sentyabr 1997-ci il, № 672*

# "XƏZƏR DƏNİZİNİN AZƏRBAYCAN SEKTORUNDA "KÜRDAŞI" DƏNİZ BLOKUNUN KƏŞFİYYATI, İŞLƏNMƏSİ VƏ HASİLATIN PAY BÖLGÜSÜ HAQQINDA" SAZİŞƏ AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİNİN TƏMİNATI VƏ ÖHDƏLİKLƏRİ HAQQINDA

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 23 sentyabr tarixli 672 nömrəli Sərəncamına əsasən, Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ("ARDNŞ") və Acip Azərbaycan B.V. ("Acip"), Mitsui Oyl Eksploreyşn Ko. Ltd. ("MOEKO"), Törkiş Petroleum Oversiz Kompani Ltd. ("TROK"), Repsol Eksplorasion S.A. ("Repsol") xarici neft şirkətləri arasında "Xəzər dənizinin Azərbaycan sektorunda "Kürdaşı" dəniz blokunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında" Sazişin 1998-ci il iyunun 2-də imzalandığını nəzərə alaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Göstərilən Sazişin 5-ci əlavəsində qeyd olunmuş Azərbaycan Respublikası Hökumətinin təminatı və öhdəlikləri təsdiq edilsin.

(Azərbaycan Respublikası Baş nazirinin yanında 1998-ci il 26 iyun tarixində keçirilmiş iclasın 2 nömrəli protokolu).

**A.Rasizadə**
*Azərbaycan Respublikasının Baş Naziri*
*Bakı şəhəri, 29 iyun 1998-ci il, № 144*

# MÜQAVİLƏNİN İMZALANMA MƏRASİMİNDƏ AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN NİTQİ

*"Gülüstan" sarayı,*
*2 iyun 1998-ci il*

– Hörmətli xanımlar və cənablar!

Hörmətli qonaqlar!

Bu gün Azərbaycanda böyük bir gündür. Azərbaycanda, Bakıda dalbadal beşinci ildir ki, beynəlxalq "Xəzərneftqaz" sərgisi keçirilir. Bu gün biz bu sərginin açılışında sizinlə birlikdə iştirak etmişik, ötən beş il müddətində sərginin nə qədər inkişaf etməsinin şahidi olmuşuq. Beş il müddətində sərginin iştirakçıları 1994-cü ildəki 120 şirkətdən 1998-ci ildə 400 şirkətə çatmışdır. Bu gün açılan sərgidə 29 ölkənin şirkətləri təmsil olunur. Ancaq məsələ təkcə şirkətlərin sayının artması ilə əlaqədar deyildir. Bu gün biz sərginin eksponatları ilə tanışlıq zamanı gördük ki, ötən bu illər ərzində dünyanın neft şirkətləri, xüsusən bu sərgidə təmsil olunan və neft, qaz sənayesi ilə əlaqədar şirkətlər texnika, texnologiya sahəsində nə qədər inkişaf ediblər.

Bu işlərin əsası 1994-cü ilin mayında qoyulubdur. Həmin o il – 1994-cü il dörd il bundan əvvəl Azərbaycan öz təbii sərvətlərindən səmərəli istifadə etmək, dünyanın iqtisadi cəhətdən inkişaf etmiş ölkələri ilə əlaqələr qurmaq üçün, respublikamıza məxsus neft və qaz yataqlarından dünyanın böyük neft şirkətləri ilə birlikdə səmərəli istifadə etmək məqsədi ilə çox böyük və cəsarətli addım atmışdır.

Dörd il bundan əvvəl sentyabrın 20-də Azərbaycanda, Bakıda, bu möhtəşəm "Gülüstan" sarayında Azərbaycan Dövlət Neft Şirkəti dünyanın 11 neft şirkətinin yaratdığı konsorsiumla böyük bir müqavilə imzalamışdır. O vaxt bu müqaviləyə "Əsrin müqaviləsi" adı verilmişdir.

Bu müqavilə əsasında Xəzərin Azərbaycan sektorunda "Azəri", "Çıraq" neft yataqlarında və "Günəşli" yatağının dərin hissəsində müştərək iş görülməyə başlandı. Ötən illərdə müştərək işlər sayəsində yaxşı nəticələr əldə olunmuşdur. Azərbaycan Beynəlxalq

Əməliyyat Şirkəti çox səmərəli fəaliyyət göstərir və bunun nəticəsində "Çıraq" neft yatağında müasir texnikaya və texnologiyaya əsaslanan çox gözəl bir platforma yaranıbdır. Aparılan qazma işləri nəticəsində keçən ilin noyabr ayında ilkin neft hasil olunubdur. Ancaq bu platformanı qurmaq, quyular qazmaq və neft əldə etməklə bərabər, hasil ediləcək neftin istifadə olunması üçün neft və qaz kəmərləri çəkilibdir, Səngəçalda böyük bir neft terminalı tikilibdir, böyük infrastruktur yaranıbdır. "Çıraq" yatağından hasil olunan neft borular vasitəsilə Səngəçal terminalına çatdırılır, oradan isə tikilmiş və istifadəyə verilmiş Bakı-Novorossiysk neft kəməri vasitəsilə dünya bazarlarına ixrac olunur.

Bizim gördüyümüz işlər əvvəlcədən nəzərdə tutulduğundan da çox yaxşı nəticələr veribdir. "Çıraq" neft yatağında bu günədək beş quyu qazılıbdır. Həmin beş quyudan gündə 9 min ton neft hasil olunur.

Bu gün səhər sərginin açılışı zamanı mən bəyan etdim ki, dörd quyu qazılıbdır və gündə 7 min ton neft hasil olunur. Amma indi deyirəm ki, beş quyu qazılıbdır və gündə 9 min ton neft hasil edilir. Mən səhv etmirəm. Səhər də düz demişəm, indi də düz deyirəm. Səhər dediyim sözlər məndə olan dünənki məlumatlara əsaslanırdı. Bu gün isə sərgini gəzərkən, Beynəlxalq Əməliyyat Şirkətinin rəhbərləri ilə görüşərkən onlar böyük sevinclə bildirdilər ki, beşinci quyu da qazılıb istismara verilibdir və həmin quyudan gündə 2 min ton neft alınır. Mən ona görə deyirəm ki, gündə 9 min ton neft hasil edilir. Görürsünüz, quyular nə qədər sürətlə qazılır ki, hətta mən onların qazılıb istifadəyə verilməsi haqqında vaxtında məlumat ala bilmirəm. Bu, sevindirici haldır.

Xatirinizdədir, 1994-cü ildə biz müqaviləni imzalayanda ayrı-ayrı ölkələrdən, yerlərdən bu işin əleyhinə çıxanlar çox oldu. Bəziləri də hesab edirdilər ki, bu müqavilə imzalanıbsa da işləməyəcək, nəticə verməyəcəkdir. Çünki hansı ölkələrsə, kimsə bu müqavilələrin mövcud olmasını istəmirdilər. Bəziləri isə bizə deyirdilər ki, siz bu yolla nahaq gedirsiniz, çünki Qərb şirkətlərinin xasiyyəti belədir ki, onlar gəlib müqaviləni bağlayırlar, yatağı ələ keçirirlər, amma ondan sonra işləmirlər. Onlar onu saxlayırlar, nə vaxt lazım olsa, onda da işlədirlər.

Ancaq bu gün sevinc hissi ilə demək olar ki, bütün bu bədxah fikirlərin hamısı bədxah fikirlər kimi də qaldı. Biz müqaviləni cəsarətlə imzaladıq və onun həyata keçirilməsinə səmərəli işlə nail olduq. Biz bu gün bunun nəticələrini gördük. Müqavilə imzalanarkən həmin neft yataqlarından 510 milyon ton neft gözlənilirdi. Bu, müqavilədə də öz əksini tapıbdır. İndi isə məlumat verirlər ki, həmin yataqlardan 630 milyon ton neft gözlənilir. Güman edirəm ki, bir ildən sonra bu rəqəm dəyişiləcək və daha da artacaqdır.

Ancaq biz bu müqaviləni yerinə yetirərək, eyni zamanda, bu təcrübədən istifadə edərək Xəzərin Azərbaycan sektorunda olan başqa neft yataqlarında da dünyanın böyük neft şirkətləri ilə müştərək iş görmək üçün lazımi tədbirlər həyata keçiririk. Bunların nəticəsində biz ötən illər ərzində – birinci müqavilədən sonra əlavə 8 böyük müqavilə imzaladıq. Bu müqavilələrin hər birinin çox böyük perspektivi vardır. Onların əksəriyyəti üzrə artıq əməli iş aparılır. Məsələn, bu gün sərgidəki görüşlərim zamanı "Şahdəniz", "Qarabağ", "Lənkəran-dəniz", "Talış-dəniz" yataqlarında görülən işlər barədə mənə məlumat verdilər.

Xəzərin Azərbaycan sektorundakı yataqlardan gözlənilən neftin miqdarı daha da artır. Məhz buna görə də biz Qərb istiqamətində Bakı-Supsa marşrutunun, ikinci neft kəmərinin tikilməsi ilə məşğuluq. Əminəm ki, 1999-cu ilin əvvəlində bu neft kəməri hazır olacaqdır. Bu müddətdə biz əsas neft kəmərinin – böyük neft borusunun tikilməsi məsələləri ilə ciddi məşğuluq. Hesab edirəm ki, bu ilin sentyabr ayında bu barədə son qərar qəbul olunacaqdır. Azərbaycan dövləti, hökuməti bütün mümkün marşrutların hamısını təhlil edərək hesab edir ki, Bakı-Ceyhan ən əlverişli marşrutdur. Güman edirəm ki, biz bu ilin sonunadək bu sahədə də əməli işə başlayacağıq.

Ancaq Xəzərin Azərbaycan sektorundakı yataqların çoxu hələ işlənilməyibdir. Bu neft yataqlarında Azərbaycan Dövlət Neft Şirkəti ilə müştərək iş görmək üçün dünyanın bir çox ölkələrindən xeyli neft şirkətləri respublikamıza fəal surətdə müraciət edirlər. Yenə də bildirmək istəyirəm ki, belə müraciətlər çoxdur. Ona görə də Azərbaycan Dövlət Neft Şirkəti indi tender keçirmək, müsabiqə aparmaq imkanına malikdir. Nəticədə ən yüksək iqtisadi göstəricilər təklif edən şirkətlər Xəzərin Azərbaycan sektorunda və ölkəmizin quruda olan yataqlarında müştərək iş görmək hüququ qazanırlar.

Mən tam əsasla deyə bilərəm ki, Azərbaycan Respublikasının son illər bu sahədə apardığı işlər Xəzər dənizinin dünya iqtisadiyyatı üçün nə qədər əhəmiyyətli, Xəzər dənizi hövzəsinin neft və qaz yataqları ilə nə qədər zəngin olduğunu açıq göstərmişdir. Mən hesab edirəm ki, bu, müstəqil Azərbaycan Respublikasının ən böyük nailiyyətidir.

Azərbaycan qədim neft diyarıdır və dünyada ilk dəfə neft fontanı bizim ölkəmizdə olubdur. Dənizdə, suyun dibində olan neft yataqlarının istifadə edilməsində, neft hasilatında da Azərbaycan birinci yerdədir. 50 il bundan əvvəl – 1949-cu ildə Xəzərdə, Neft daşları adlanan yerdə böyük neft yataqları açılıb istifadəyə verilmişdir və bununla da bütün dünyaya bəyan edilmişdir ki, dənizdə, suyun dibindən neft və qaz hasil etmək mümkündür. Bir daha qeyd edirəm ki, indi – XX əsrin sonunda Azərbaycan Xəzər dənizinin böyük potensialını, yəni mineral ehtiyatlar, neft və qaz potensialını aşkara çıxararaq dünyaya bəyan edibdir.

Bizə yaxşı məlumdur ki, Xəzərin digər sektorlarında da zəngin neft və qaz yataqları vardır. Xəzəryanı hər bir ölkə özünə məxsus olan sektorlarda bu neft və qaz yataqlarını istifadə edib işlədə bilər. Məmnuniyyətlə qeyd edirəm ki, artıq bu işlərə başlanıbdır. Azərbaycan isə Xəzərin ona məxsus olan sektorunda öz iş dairəsini genişləndirir və vaxtilə kəşf olunmuş yataqlarından indi müştərək istifadə edilməsi üçün əməli tədbirlər görür.

Bununla bərabər, Azərbaycanın ərazisinin quru yerlərində də ölkəmizin hələ çox zəngin neft yataqları vardır. Hesab edirik ki, Azərbaycanın yer altında olan neft və qaz məhsulunun hələ tam əksəriyyəti çıxarılmayıbdır. Ona görə də Azərbaycanın quru yerlərində olan yataqlarından da dünyanın neft şirkətləri ilə müştərək istifadə edilməsi indi böyük əhəmiyyətə malikdir. Biz bu sahədə də təkliflər alırıq və onların əsasında da müəyyən işlər görürük.

Bütün bu işlərin nəticəsində bu gün biz buraya, üç neft yatağı ilə əlaqədar müqavilələrin, sənədlərin imzalanması mərasiminə toplaşmışıq. Onlardan biri Xəzərin Azərbaycan sektorunda olan "Kürdaşı" neft yatağıdır. Bu, çox zəngin neft yatağıdır. İlkin məlumatlara görə, buradan 100 milyon tondan artıq neft çıxarılması proqnozlaşdırılır. Şübhəsiz ki, orada qaz da vardır. Azərbaycan neftçiləri, alimləri, geoloqları tərəfindən bu neft yatağı təxminən 1940-1950-ci illərdə kəşf olunubdur. Vaxtilə orada müəyyən işlər aparılıbdır. Sonra həmin işləri davam etdirməyə imkan olmayıbdır. Bu yatağa dünyanın bir çox böyük neft şirkətləri maraq göstəriblər. Verilən təkliflərin təhlili nəticəsində Azərbaycan Dövlət Neft Şirkəti bu yataq üzrə müqavilənin layihəsini hazırlayıbdır. Bu yataqda işlər Azərbaycan Dövlət Neft Şirkəti ilə bərabər İtaliyanın "Acip", Yaponiyanın "Mitsui" və Türkiyənin "Türkiyə Petrolları Anonim Ortaqlığı" şirkəti şirkətləri ilə yaranan konsorsium vasitəsilə aparılacaqdır. Bunun üçün müəyyən müqavilə layihəsi hazırlanıbdır və bu gün burada bu müqavilə imzalanacaqdır.

Mən qeyd etdim ki, Azərbaycanın quru ərazisində olan neft yataqlarına da çox böyük maraq vardır. Bunlardan biri Cənub-Qərbi Qobustan ərazisində yerləşən yataqlardır. Verilən təkliflər əsasında "Cənub-Qərbi Qobustan" yatağının müştərək işlənilməsi üçün də müqavilə layihəsi hazırlanıbdır. Burada Azərbaycan Dövlət Neft Şirkəti ilə Amerika Birləşmiş Ştatlarının "Yunion Teksas", Böyük Britaniyanın və Kanadanın "Komonvels Oyl ənd Qaz" şirkətləri birlikdə iş görmək haqqında qərar qəbul ediblər.

Azərbaycanın quruda yerləşən çox zəngin yataqlarından biri də "Kürsəngi-Qarabağı"dır. Bu yataqda da Azərbaycan Dövlət Neft Şirkəti Amerika Birləşmiş Ştatlarının "Frontera Resorses", "Amerada Hess" və Səudiyyə Ərəbistanının "Delta" şirkətləri ilə birlikdə konsorsium yaradıb müştərək iş görmək üçün lazımi sənəd hazırlamışlar.

Məlumdur ki, ölkəmizin bütün neft yataqları Azərbaycan xalqına, dövlətinə mənsubdur. Ona görə də bunlar hamısı Azərbaycan Dövlət Neft Şirkətinin sərəncamındadır. Xarici şirkətlərlə hər bir belə müştərək iş görmək üçün, şübhəsiz ki, Azərbaycan dövlətinin xüsusi sərəncamı, qərarı olmalıdır.

Mən bu təkliflərə baxmışam, onları Azərbaycan üçün səmərəli hesab edirəm. Ona görə də bu təkliflər əsasında dediyim yataqlarda müştərək iş görülməsi üçün lazımi qərarlar qəbul etmişəm.

Mən bir daha qeyd etmək istəyirəm ki, Azərbaycan öz təbii sərvətlərindən istifadə etməsi ilə əlaqədar apardığı strateji siyasət Azərbaycanın milli mənafeyinə tamamilə cavab verən siyasətdir.

Biz müxtəlif ölkələrin neft şirkətlərinin Azərbaycan Dövlət Neft Şirkəti ilə respublikamızda müştərək iş görməsini səmərəli hesab edirik. Şübhəsiz ki, bu hər iki tərəf üçün – həm ayrı-ayrı ölkələrdən gəlib respublikamızda iş görmək istəyən şirkətlər və onların təmsil etdiyi ölkələr üçün, həm də Azərbaycan üçün eyni dərəcədə faydalıdır. Biz bunların nəticəsində Azərbaycana xarici ölkələrdən böyük miqyasda investisiya gəlməsinə, dövlətimizə məxsus təbii sərvətlərdən səmərəli istifadə etməyə, respublikamızın neft və qaz sənayesinə müasir texnikanın və texnologiyanın gəlməsinə nail oluruq. Bunlar hamısı ali məqsədə – Azərbaycan xalqının, respublikamızın vətəndaşlarının rifahının yaxşılaşmasına xidmət edir.

Mən bu prinsipləri rəhbər tutaraq bu barədə qərarlar qəbul edirəm. Bu gün burada təqdim olunan müqavilələr haqqında da qərar qəbul etmişəm və onların bu gün imzalanmasını məqsədəuyğun hesab edirəm.

Beləliklə, biz dünyanın böyük neft şirkətləri ilə, bir çox ölkələrlə iqtisadi əlaqələrin inkişaf etməsi sahəsində yeni addımlar atırıq. Mən ümidvaram ki, bu addımlar uğurlu olacaqdır. Mən bu münasibətlə sizi təbrik edirəm. Sağ olun.

***On birinci müqavilə: "Cənub-Qərbi Qobustan"*** **blokuna daxil olan üç sahənin ("Şıxzəgirli, Şeytanud, Bürgüt, Donquzduq, Nardaran, İlxıçı, Qərbi Hacıvəli, Sundi, Şərqi Hacıvəli, Turğay, Kənizədağ, Qərbi Duvannı, Duvannı, Solaxay və Daşgil" yataqlarının) kəşfiyyatı və işlənməsi haqqında**

| | |
|---|---|
| *Müqavilənin imzalandığı yer:* | *Bakı şəhəri, "Gülüstan" sarayı* |
| *İmzalanma tarixi:* | *2 iyun 1998-ci il* |
| *Ratifikasiya tarixi:* | *27 noyabr 1998-ci il* |
| *Nəzərdə tutulmuş sərmayələr:* | *250 000 000 $* |
| *Proqnozlaşdırılmış ehtiyatlar:* | *30-60 mln. ton neft* |

**İmzalanma tarixinə tərəflərin iştirak payı**




**Tərəflərin bugünkü tarixə iştirak payı**




**İştirakçı dövlətlər:** ABŞ, Böyük Britaniya, Kanada və Azərbaycan

# AZƏRBAYCAN RESPUBLİKASI CƏNUB-QƏRBİ QOBUSTAN BLOKUNA DAXİL OLAN ÜÇ SAHƏNİN ("ŞIXZƏGİRLİ, ŞEYTANUD , BÜRGÜT, DONQUZDUQ, NARDARAN, İLXIÇI, QƏRBİ HACIVƏLİ, SUNDİ, ŞƏRQİ HACIVƏLİ, TURAĞAY, KƏNİZƏDAĞ, QƏRBİ DUVANNI, DUVANNI, SOLAXAY" VƏ DAŞGİL" YATAQLARININ) KƏŞFİYYATI, İŞLƏNMƏSİ VƏ HASİLATIN PAY BÖLGÜSÜ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT NEFT ŞİRKƏTİ İLƏ KOMONVELS QOBUSTAN LİMİTED, YUNİON TEKSAS QOBUSTAN LİMİTED VƏ ARDNŞ-NİN ORTAQ NEFT ŞİRKƏTİ ARASINDA SAZİŞİN QƏBUL VƏ TƏSDİQ EDİLMƏSİ, HƏYATA KEÇİRİLMƏSİNƏ İCAZƏ VERİLMƏSİ BARƏDƏ

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikası Prezidentinin "Cənub-Qərbi Qobustan blokuna daxil olan üç sahənin ("Şıxzəgirli, Şeytanud , Bürgüt, Donquzduq, Nardaran, İlxıçı, Qərbi Hacıvəli, Sundi, Şərqi Hacıvəli, Turağay, Kənizədağ, Qərbi Duvannı, Duvannı, Solaxay" və "Daşgil" yataqlarının) kəşfiyyatı və işlənməsi haqqında" 1998-ci il 17 aprel tarixli 785 saylı Sərəncamına uyğun olaraq 1998-ci il iyunun 2-də Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti (ARDNŞ) ilə Komonvels Qobustan Limited ("Komonvels"), Yunion Teksas Qobustan Limited ("Yunion Teksas") və ARDNŞ-nin Ortaq Neft Şirkəti ("ONŞ") arasında Saziş imzalanmışdır.

**AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ MƏCLİSİ**

Azərbaycan Respublikasının qanunvericiliyində Sazişin əhatə etdiyi məsələlərin tam və müasir tələblərə uyğun olaraq nizamlanmadığını;

Azərbaycan Respublikasının yeni Mülki Məcəlləsinin olmadığını;

Sazişin şərtlərinə görə onun qanunverici orqan tərəfindən təsdiqindən sonra Qanun olmasını;

bu Qanunun Azərbaycan Respublikasının Konstitusiyasına tam uyğun olduğunu nəzərə alaraq,

Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktına və Azərbaycan Respublikasının Konstitusiyasına əsasən **qərara alır:**

1. “Azərbaycan Respublikası Cənub-Qərbi Qobustan blokuna daxil olan üç sahənin (“Şeytanud”, “Bürgüt”, “Donquzduq”, “Nardaran”, “İlxıçı”, “Qərbi Hacıvəli”, “Sundi”, “Şərqi Hacıvəli”, “Turağay”, “Kənizədağ”, “Qərbi Duvannı”, “Duvannı”, “Solaxay” və “Daşgil” yataqlarının) kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında” Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə Komonvels Qobustan Limited, Yunion Teksas Qobustan Limited və ARDNŞ-nin Ortaq Neft Şirkəti arasında Saziş (bundan sonra “Saziş” adlanacaq) qəbul və təsdiq edilsin, onun həyata keçirilməsinə icazə verilsin.
2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 11 sentyabr tarixli 185 saylı qərarı ilə Sazişdə iştirak edən Podratçılara verilən Azərbaycan Respublikası Hökumətinin təminatı və öhdəlikləri (bundan sonra “Hökumət təminatı” adlanacaq) qəbul edilsin və onun həyata keçirilməsinə icazə verilsin.
3. Sazişin əsas mətninə edilmiş doqquz (9) Əlavə, ARDNŞ Ortaq Neft Şirkətinin yaradılmasına dair Qoşma, habelə bu Qoşmaya 1 Əlavə (bundan sonra “Əlavələr” adlanacaq) qəbul edilsin və onların həyata keçirilməsinə icazə verilsin.
4. Bu Qanun qüvvəyə mindikdən sonra Saziş, Hökumət təminatı və Əlavələr Qanun olurlar. Sazişdə konkret surətdə başqa hallar göstərilməyibsə, Saziş, Hökumət təminatı və Əlavələr Sazişin qüvvədə olduğu müddət ərzində bu Sazişə, Hökumət təminatına və Əlavələrə uyğun gəlməyən və ya zidd olan Azərbaycan Respublikasının hər hansı başqa mövcud və ya qəbul oluna biləcək qanunlarının, fərmanlarının, yaxud inzibati sərəncamlarının (və ya onların hissələrinin) müddəalarından üstün tutulur.
5. Bu Qanun qüvvəyə mindikdən sonra Sazişdə nəzərdə tutulan kontrakt sahəsinin istənilən hissəsi barəsində əvvəllər bağlanmış hər hansı saziş, kontrakt və ya bu cür başqa sənədlə verilə bilən bütün digər hüquq və vəzifələr ləğv edilir, habelə bu Qanun qüvvəyə mindikdən sonra Sazişin, Hökumət təminatının və Əlavələrin şərtlərinə müvafiq surətdə və qüvvədə olduğu bütün müddət ərzində Sazişin pay iştirakçılarına kontrakt sahəsində neft-qaz əməliyyatları aparmaq üçün müstəsna hüquq verilir.
6. Bu Qanun qüvvəyə mindikdən sonra Podratçının (və ya onun hüquqi varislərinin) Saziş, Hökumət təminatları və Əlavələr üzrə əldə etdiyi hüquqlar və mənafelər Podratçının qabaqcadan razılığı olmadan dəyişdirilə, düzəldilə və ya azaldıla bilməz.

7. Sazişdən irəli gələn hüquq və öhdəliklərin yerinə yetirilməsi üçün Sazişin iştirakçılarına bütün lazımi lisenziyalar, gömrük icazələri, vizalar, başqa səlahiyyətlər və sanksiyalar verilir.

8. Sazişə və ya Əlavələrə hər hansı düzəlişlər, dəyişikliklər yalnız Sazişin və Əlavələrin tərəflərinin yazılı razılığı ilə edilir.

9. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

**Heydər Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 13 noyabr 1998-ci il, № 538 – IQ*

# CƏNUB-QƏRBİ QOBUSTAN BLOKUNA DAXİL OLAN ÜÇ SAHƏNİN (ŞIXZƏGİRLİ, ŞEYTANUD, BÜRGÜT, DONQUZDUQ, NARDARAN, İLXIÇI, QƏRBİ HACIVƏLİ, SUNDİ, ŞƏRQİ HACIVƏLİ, TURĞAY, KƏNİZƏDAĞ, QƏRBİ DUVANNI, DUVANNI, SOLAXAY VƏ DAŞGİL YATAQLARININ) KƏŞFİYYATI VƏ İŞLƏNMƏSİ HAQQINDA

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Cənub-Qərbi Qobustan blokuna daxil olan üç sahənin (Şıxzəgirli, Şeytanud, Bürgüt, Donquzduq, Nardaran, İlxıçı, Qərbi Hacıvəli, Sundi, Şərqi Hacıvəli, Turğay, Kənizədağ, Qərbi Duvannı, Duvannı, Solaxay və Daşgil yataqlarının) kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsünə dair Sazişin əsas kommersiya prinsipləri və müddəaları üzrə Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə Komonvels Qobustan Limited və Yunion Teksas Qobustan Limited arasında ümumi razılığın əldə edilməsi barədə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin təklifini qəbul edərək **qərara alıram:**

1. Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinə Komonvels Qobustan Limited və Yunion Teksas Qobustan Limited şirkətləri ilə birlikdə Cənub-Qərbi Qobustan blokuna daxil olan üç sahənin (Şıxzəgirli, Şeytanud, Bürgüt, Donquzduq, Nardaran, İlxıçı, Qərbi Hacıvəli, Sundi, Şərqi Hacıvəli, Turğay, Kənizədağ, Qərbi Duvannı, Duvannı, Solaxay və Daşgil yataqlarının) kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsünə dair Sazişin hazırlanması və bağlanması səlahiyyəti verilsin.
2. Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti Cənub-Qərbi Qobustan blokuna daxil olan üç sahənin (Şıxzəgirli, Şeytanud, Bürgüt, Donquzduq, Nardaran, İLxıçı, Qərbi Hacıvəli, Sundi, Şərqi Hacıvəli, Turğay, Kənizədağ, Qərbi Duvannı, Duvannı, Solaxay və Daşgil yataqlarının) kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsünə dair Saziş hazırlandıqdan sonra onu baxılmaq üçün Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

**Heydər Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 17 aprel 1998-ci il, № 785*

# AZƏRBAYCAN RESPUBLİKASI CƏNUB-QƏRBİ QOBUSTANIN "ŞIXZƏGİRLİ", "ŞEYTANUD", "BÜRGÜT", "DONQUZDUQ", "NARDARAN", "İLXIÇI", "QƏRBİ HACIVƏLİ", "SUNDİ", "ŞƏRQİ HACIVƏLİ", "TORAĞAY", "KƏNİZƏDAĞ", "QƏRBİ DUVANNI", "DUVANNI", "SOLAXAY" VƏ "DAŞGİL" YATAQLARININ DAXİL OLDUĞU ÜÇ BLOKUN KƏŞFİYYATI, İŞLƏNMƏSİ VƏ HASİLATIN PAY BÖLGÜSÜ HAQQINDA" SAZİŞƏ AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİNİN TƏMİNATI VƏ ÖHDƏLİKLƏRİ HAQQINDA

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 17 aprel tarixli 785 nömrəli Sərəncamına əsasən, Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ("ARDNŞ") və Komonvels Qobustan Limited ("Komonvels"), Yunion Teksas Qobustan Limited ("Yunion Teksas") xarici neft şirkətləri arasında "Azərbaycan Respublikası Cənub-Qərbi Qobustanın "Şıxzəgirli", "Şeytanud" , "Bürgüt", "Donquzduq", "Nardaran", "İlxıçı", "Qərbi Hacıvəli", "Sundi", "Şərqi Hacıvəli", "Torağay", "Kənizədağ", "Qərbi Duvannı", "Duvannı", "Solaxay" və "Daşgil" yataqlarının daxil olduğu üç blokun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında" Sazişin 1998-ci il iyunun 2-də imzalandığını nəzərə alaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Göstərilən Sazişin 5-ci əlavəsində qeyd olunmuş Azərbaycan Respublikası Hökumətinin təminatı və öhdəlikləri təsdiq edilsin.

(Azərbaycan Respublikası Baş nazirinin yanında 1998-ci il avqustun 31-də keçirilmiş iclasın 3 nömrəli protokolu)

**A.Rasizadə**
*Azərbaycan Respublikasının Baş Naziri*
*Bakı şəhəri, 11 sentyabr 1998-ci il, № 185*

***On ikinci müqavilə:*** **Xəzər dənizinin Azərbaycan sektorunda *"İnam"* perspektiv strukturunun daxil olduğu dəniz blokunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında**

| | |
|---|---|
| *Müqavilənin imzalandığı yer:* | *London şəhəri* |
| *İmzalanma tarixi:* | *21 iyul 1998-ci il* |
| *Ratifikasiya tarixi:* | *28 dekabr 1998-ci il* |
| *Nəzərdə tutulmuş sərmayələr:* | *3 750 000 000 $* |
| *Proqnozlaşdırılmış ehtiyatlar:* | *150-250 mln. ton neft* |

## İmzalanma tarixinə tərəflərin iştirak payı




## Tərəflərin bugünkü tarixə iştirak payı




**İştirakçı dövlətlər:** ABŞ, Böyük Britaniya, Rusiya və Azərbaycan

# XƏZƏR DƏNİZİNİN AZƏRBAYCAN SEKTORUNDA "İNAM" PERSPEKTİV STRUKTURUNUN DAXİL OLDUĞU DƏNİZ BLOKUNUN KƏŞFİYYATI, İŞLƏNMƏSİ VƏ HASİLATIN PAY BÖLGÜSÜ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT NEFT ŞİRKƏTİ İLƏ AMOKO İNAM PETROLEUM KOMPANİ, MONUMENT RESORSEZ (KASPİAN) LİMİTED, SENTRAL FYUEL KASPİAN Sİ LİMİTED VƏ ARDNŞ-NİN ORTAQ NEFT ŞİRKƏTİ ARASINDA SAZİŞİN QƏBUL VƏ TƏSDİQ EDİLMƏSİ, HƏYATA KEÇİRİLMƏSİNƏ İCAZƏ VERİLMƏSİ BARƏDƏ

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikası Prezidentinin "Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "İnam" perspektiv strukturunun daxil olduğu dəniz blokunun kəşfiyyatı və işlənməsi haqqında" 1998-ci il 17 iyun tarixli 828 saylı Sərəncama uyğun olaraq 1998-ci il iyulun 21-də Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ("ARDNŞ") ilə AMOKO İnam Petroleum Kompani ("AMOKO"), Monument Resorsez (Kaspian) Limited ("Monument"), Sentral Fyuel Kaspian Si Limited ("SFK") və ARDNŞ-nin Ortaq Neft Şirkəti ("ONŞ") arasında Saziş imzalanmışdır.

**AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ MƏCLİSİ**

Azərbaycan Respublikasının qanunvericiliyində Sazişin əhatə etdiyi məsələlərin tam və müasir tələblərə uyğun olaraq nizamlanmadığını;

Azərbaycan Respublikasının yeni Mülki Məcəlləsinin olmadığını;

Sazişin şərtlərinə görə onun qanunverici orqan tərəfindən təsdiqindən sonra Qanun olmasını;

bu Qanunun Azərbaycan Respublikasının Konstitusiyasına tam uyğun olduğunu nəzərə alaraq,

Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktına və Azərbaycan Respublikasının Konstitusiyasına əsasən **qərara alır:**

1. Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "İnam" perspektiv strukturunun daxil olduğu dəniz blokunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında" Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə AMOKO İnam Petroleum Kompani, Monument Resorsez (Kaspian) Limited, Sentral Fyuel Kaspian Si Limited və ARDNŞ-nin Ortaq Neft Şirkəti arasında Saziş (bundan sonra "Saziş" adlanacaq) qəbul və təsdiq edilsin, onun həyata keçirilməsinə icazə verilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 11 sentyabr tarixli 184 saylı qərarı ilə Sazişdə iştirak edən Podratçılara verilən Azərbaycan Respublikası Hökumətinin təminatı və öhdəlikləri (bundan sonra "Hökumət təminatı" adlanacaq) qəbul edilsin və onun həyata keçirilməsinə icazə verilsin.

3. Sazişin əsas mətninə edilmiş on bir (11) Əlavə, 2 (iki) Qoşma, habelə birinci Qoşmaya 1 Əlavə (bundan sonra "Əlavələr" adlanacaq) qəbul edilsin və onların həyata keçirilməsinə icazə verilsin.

4. Bu Qanun qüvvəyə mindikdən sonra Saziş, Hökumət təminatı və Əlavələr Qanun olurlar. Sazişdə konkret surətdə başqa hallar göstərilməyibsə, Saziş, Hökumət təminatı və Əlavələr Sazişin qüvvədə olduğu müddət ərzində bu Sazişə, Hökumət təminatına və Əlavələrə uyğun gəlməyən və ya zidd olan Azərbaycan Respublikasının hər hansı başqa mövcud və ya qəbul oluna biləcək qanunlarının, fərmanlarının, yaxud inzibati sərəncamlarının (və ya onların hissələrinin) müddəalarından üstün tutulur.

5. Bu Qanun qüvvəyə mindikdən sonra Sazişdə nəzərdə tutulan kontrakt sahəsinin istənilən hissəsi barəsində əvvəllər bağlanmış hər hansı saziş, kontrakt və ya bu cür başqa sənədlə verilə bilən bütün digər hüquq və vəzifələr ləğv edilir, habelə bu Qanun qüvvəyə mindikdən sonra Sazişin, Hökumət təminatının və Əlavələrin şərtlərinə müvafiq surətdə və qüvvədə olduğu bütün müddət ərzində Sazişin pay iştirakçılarına kontrakt sahəsində neft-qaz əməliyyatları aparmaq üçün müstəsna hüquq verilir.

6. Bu Qanun qüvvəyə mindikdən sonra Podratçının (və ya onun hüquqi varislərinin) Saziş, Hökumət təminatı və Əlavələr üzrə əldə etdiyi hüquqlar və mənafelər Podratçının qabaqcadan razılığı olmadan dəyişdirilə, düzəldilə və ya azaldıla bilməz.

7. Sazişdən irəli gələn hüquq və öhdəliklərin yerinə yetirilməsi üçün Sazişin iştirakçılarına bütün lazımi lisenziyalar, gömrük icazələri, vizalar, başqa səlahiyyətlər və sanksiyalar verilir.

8. Sazişə və ya Əlavələrə hər hansı düzəlişlər, dəyişikliklər yalnız Sazişin və Əlavələrin tərəflərinin yazılı razılığı ilə edilir.

9. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

**Heydər Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 1 dekabr 1998-ci il, № 558-IQ*

## XƏZƏR DƏNİZİNİN AZƏRBAYCAN SEKTORUNDA YERLƏŞƏN "İNAM" PERSPEKTİV STRUKTURUNUN DAXİL OLDUĞU DƏNİZ BLOKUNUN KƏŞFİYYATI VƏ İŞLƏNMƏSİ HAQQINDA

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "İnam" perspektiv strukturunun daxil olduğu dəniz blokunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsünə dair Sazişin əsas kommersiya prinsipləri və müddəaları üzrə Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə Amerika Birləşmiş Ştatlarının AMOKO Kaspian Si Petroleum Limited, Böyük Britaniyanın Monument Resorses (Kaspian) Limited və Rusiya Federasiyasının Sentrel Fyuel Kaspian Si Limited şirkətləri arasında ümumi razılığın əldə edilməsi barədə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin təklifini qəbul edərək **qərara alıram:**

1. Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinə AMOKO Kaspian Si Petroleum Limited, Monument Resorses (Kaspian) Limited və Sentral Fyuel Kaspian Si Limited şirkətləri ilə birlikdə "İnam" perspektiv strukturunun daxil olduğu dəniz blokunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsünə dair Sazişin hazırlanması və bağlanması səlahiyyəti verilsin.
2. Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti "İnam" perspektiv strukturunun daxil olduğu dəniz blokunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsünə dair Saziş hazırlandıqdan sonra onu baxılmaq üçün Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

**Heydər Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 17 iyun 1998-ci il, № 828*

# “XƏZƏR DƏNİZİNİN AZƏRBAYCAN SEKTORUNDA “İNAM” PERSPEKTİV STRUKTURUNUN DAXİL OLDUĞU DƏNİZ BLOKUNUN KƏŞFİYYATI, İŞLƏNMƏSİ VƏ HASİLATIN PAY BÖLGÜSÜ HAQQINDA” SAZİŞƏ AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİNİN TƏMİNATI VƏ ÖHDƏLİKLƏRİ HAQQINDA

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 17 iyun tarixli 828 nömrəli Sərəncamına əsasən, Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti (“ARDNŞ”) və AMOKO İnam Petroleum Kompani (“AMOKO”), Monument Resorses (Kaspian) Limited (“Monument”), Sentral Fyuel Kaspian Si Limited (“SFK”) xarici neft şirkətləri arasında “Xəzər dənizinin Azərbaycan sektorunda “İnam” perspektiv strukturunun daxil olduğu dəniz blokunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında” Sazişin 1998-ci il iyulun 21-də imzalandığını nəzərə alaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Göstərilən Sazişin 5-ci əlavəsində qeyd olunmuş Azərbaycan Respublikası Hökumətinin təminatı və öhdəlikləri təsdiq edilsin.

(Azərbaycan Respublikası Baş nazirinin yanında 1998-ci il avqustun 31-də keçirilmiş iclasın 3 nömrəli protokolu)

**A.Rasizadə**
*Azərbaycan Respublikasının Baş Naziri*
*Bakı şəhəri, 11 sentyabr 1998-ci il, № 184*

## MÜQAVİLƏNİN İMZALANMA MƏRASİMİNDƏ AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN NİTQİ

*London,*
*21 iyul 1998-ci il*

– Hörmətli Baş nazir!

Sizə birinci növbədə, məni Böyük Britaniyaya rəsmi səfərə dəvət etdiyinizə görə minnətdarlığımı bildirirəm. Ölkənizdə apardığım və bu gün Sizinlə apardığımız çox-sahəli, ətraflı və dərin məzmunlu danışıqlar ölkələrimiz arasındakı əlaqələrin inkişaf etməsi üçün çox yaxşı əsas yaratdı.

Biz Birləşmiş Krallıqla Azərbaycan arasında bütün sahələrdə əlaqələrin inkişaf etdirilməsi istiqamətində son dörd ildə yaxşı nailiyyətlər əldə etmişik. Bütün bunlar ölkələrimizin əməkdaşlığı üçün böyük perspektivlər açır.

Cənab Baş nazir, biz Sizinlə birlikdə gələcəyin əsasını qoyuruq. Bizim indicə imzaladığımız siyasi bəyannamə çox böyük əhəmiyyət daşıyır və mən bunu yüksək qiymətləndirirəm. Dünyanın ən böyük dövlətlərindən biri olan Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı ilə Azərbaycan arasında belə əlaqələrin yaranması və belə bir siyasi bəyannamənin imzalanması Azərbaycan üçün çox böyük siyasi əhəmiyyət kəsb edir.

Bu gün Sizin və mənim iştirakımızla imzalanmış iqtisadi sazişlər, sənədlər Azərbaycan ilə Birləşmiş Krallığın əlaqələrinin gələcək inkişafı üçün çox yaxşı əsas yaradır. Eyni zamanda, bunlar hamısı yeni müstəqillik əldə etmiş, demokratiya, tərəqqi, bazar iqtisadiyyatı yolu ilə gedən Azərbaycan üçün çox əhəmiyyətlidir.

Sizin ölkənizin, xalqınızın böyük tarixi nailiyyətləri vardır. XX əsrin ikinci yarısında, İkinci Dünya müharibəsi başa çatdıqdan sonra Sizin ölkəniz bütün sahələrdə böyük tərəqqi əldə etmişdir. Biz Sizin bütün sahələrdəki təcrübənizdən istifadə edirik. Biz Azərbaycanda hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu prosesi apararaq, bazar iqtisadiyyatını yaradıb inkişaf etdirərək Sizin təcrübənizdən istifadə etməyə çalışırıq.

Xəzərin Azərbaycan sektorundakı zəngin yataqların və ümumiyyətlə Azərbaycanın ərazisində olan neft yataqlarının Birləşmiş Krallığın böyük neft şirkətləri ilə birgə

işlənilməsi bizim üçün çox əhəmiyyətlidir. Birləşmiş Krallığın yüksək texnikaya, texnologiyaya, zəngin təcrübəyə malik şirkətləri və Azərbaycanın təbii sərvətləri, bizim yüksək səviyyəli kadrlarımız bu işləri gələcəkdə birlikdə görəcəklər.

Mən bəyan edirəm ki, bu gün imzaladığımız siyasi bəyannamədə – Azərbaycan Respublikası ilə Böyük Britaniya və Şimali İrlandiya arasında dostluq münasibətləri və tərəfdaşlıq haqqında birgə bəyannamədə əks olunmuş bütün müddəaların hamısının həyata keçirilməsinə çalışacaq, Birləşmiş Krallıq–Azərbaycan əməkdaşlığını daim irəliyə doğru aparacağıq.

Mən Sizi təbrik edirəm. Azərbaycan haqqında və mənim haqqımda söylədiyiniz xoş sözlərə görə Sizə minnətdarlığımı bildirirəm. Sağ olun.

***On üçüncü müqavilə:* Azərbaycan Respublikasında *"Muradxanlı"*, *"Cəfərli"* və *"Zərdab"* neft yataqlarının daxil olduğu blokun bərpası, kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında**

| | |
|---|---|
| *Müqavilənin imzalandığı yer:* | *London şəhəri* |
| *İmzalanma tarixi:* | *21 iyul 1998-ci il* |
| *Qüvvəyə minmə tarixi:* | *27 noyabr 1998-ci il* |
| *Proqnozlaşdırılmış sərmayələr:* | *700 000 000 $* |
| *Proqnozlaşdırılmış ehtiyatlar:* | *50-80 mln. ton neft* |

## İmzalanma tarixinə tərəflərin iştirak payı




## Tərəflərin bugünkü tarixə iştirak payı




**İştirakçı dövlətlər:** Böyük Britaniya və Azərbaycan
*(Müqavilə 2001-ci ilin dekabrında ləğv edilmişdir.)*

# AZƏRBAYCAN RESPUBLİKASINDA "MURADXANLI", "CƏFƏRLİ" VƏ "ZƏRDAB" NEFT YATAQLARININ DAXİL OLDUĞU BLOKUN BƏRPASI, KƏŞFİYYATI, İŞLƏNMƏSİ VƏ HASİLATIN PAY BÖLGÜSÜ HAQINDA AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT NEFT ŞİRKƏTİ VƏ RAMKO ENERCİ (MURADXANLI) LİMİTED VƏ ARDNŞ-NİN ORTAQ NEFT ŞİRKƏTİ ARASINDA SAZİŞİN QƏBUL VƏ TƏSDİQ EDİLMƏSİ, HƏYATA KEÇİRİLMƏSİNƏ İCAZƏ VERİLMƏSİ BARƏDƏ

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında "Muradxanlı", "Cəfərli" və "Zərdab" neft yataqlarının daxil olduğu blokun reabilitasiyası, kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında» 1998-ci il 17 iyun tarixli 829 saylı Sərəncamına uyğun olaraq 1998-ci il iyulun 21-də Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ("ARDNŞ") ilə Ramko Enerci (Muradxanlı) Limited ("Ramko") və ARDNŞ-nin Ortaq Neft Şirkəti ("ONŞ") arasında Saziş imzalanmışdır.

**AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ MƏCLİSİ**

Azərbaycan Respublikasının qanunvericiliyində Sazişin əhatə etdiyi məsələlərin tam və müasir tələblərə uyğun olaraq imzalanmadığını;

Azərbaycan Respublikasının yeni Mülki Məcəlləsinin olmadığını;

Sazişin şərtlərinə görə onun qanunverici orqan tərəfindən təsdiqindən sonra Qanun olmasını;

bu Qanunun Azərbaycan Respublikasının Konstitusiyasına tam uyğun olduğunu nəzərə alaraq,

Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktına və Azərbaycan Respublikasının Konstitusiyasına əsasən **qərara alır:**

1. "Azərbaycan Respublikasında "Muradxanlı", "Cəfərli" və "Zərdab" neft yataqlarının daxil olduğu blokun bərpası, kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında" Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti və Ramko Enerci (Muradxanlı) Limited və ARDNŞ-nin Ortaq Neft Şirkəti arasında Saziş (bundan sonra "Saziş" adlanacaq) qəbul və təsdiq edilsin, onun həyata keçirilməsinə icazə verilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 11 sentyabr tarixli 186 saylı qərarı ilə Sazişdə iştirak edən Podratçılara verilən Azərbaycan Respublikası Hökumətinin təminatı və öhdəlikləri (bundan sonra "Hökumət təminatı" adlanacaq) qəbul edilsin və onun həyata keçirilməsinə icazə verilsin.

3. Sazişin əsas mətninə edilmiş on bir (11) Əlavə, ARDNŞ Ortaq Neft Şirkətinin yaradılmasına dair Qoşma, habelə bu Qoşmaya 1 Əlavə (bundan sonra "Əlavələr" adlanacaq) qəbul edilsin və onların həyata keçirilməsinə icazə verilsin.

4. Bu Qanun qüvvəyə mindikdən sonra Saziş, Hökumət təminatı və Əlavələr Qanun olurlar. Sazişdə konkret surətdə başqa hallar göstərilməyibsə, Saziş, Hökumət təminatı və Əlavələr Sazişin qüvvədə olduğu müddət ərzində bu Sazişə, Hökumət təminatına və Əlavələrə uyğun gəlməyən və ya zidd olan Azərbaycan Respublikasının hər hansı başqa mövcud və ya qəbul oluna biləcək qanunlarının, fərmanlarının, yaxud inzibati sərəncamlarının (və ya onların hissələrinin) müddəalarından üstün tutulur.

5. Bu Qanun qüvvəyə mindikdən sonra Sazişdə nəzərdə tutulan kontrakt sahəsinin istənilən hissəsi barəsində əvvəllər bağlanmış hər hansı saziş, kontrakt və ya bu cür başqa sənədlə verilə bilən bütün digər hüquq və vəzifələr ləğv edilir, habelə bu Qanun qüvvəyə mindikdən sonra Sazişin, Hökumət təminatının və Əlavələrin şərtlərinə müvafiq surətdə və qüvvədə olduğu bütün müddət ərzində Sazişin pay iştirakçılarına kontrakt sahəsində neft-qaz əməliyyatları aparmaq üçün müstəsna hüquq verilir.

6. Bu Qanun qüvvəyə mindikdən sonra Podratçının (və ya onun hüquqi varislərinin) Saziş, Hökumət təminatları və Əlavələr üzrə əldə etdiyi hüquqlar və mənafelər Podratçının qabaqcadan razılığı olmadan dəyişdirilə, düzəldilə və ya azaldıla bilməz.

7. Sazişdən irəli gələn hüquq və öhdəliklərin yerinə yetirilməsi üçün Sazişin iştirakçılarına bütün lazımi lisenziyalar, gömrük icazələri, vizalar, başqa səlahiyyətlər və sanksiyalar verilir.

8. Sazişə və ya Əlavələrə hər hansı düzəlişlər, dəyişikliklər yalnız Sazişin və Əlavələrin tərəflərinin yazılı razılığı ilə edilir.

9. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

**Heydər Əliyev**

*Azərbaycan Respublikasının Prezidenti*

*Bakı şəhəri, 20 noyabr 1998-ci il, № 539 – IQ*

## “MURADXANLI”, “CƏFƏRLİ” VƏ “ZƏRDAB” NEFT YATAQLARININ DAXİL OLDUĞU BLOKUN REABİLİTASİYASI, KƏŞFİYYATI VƏ İŞLƏNMƏSİ HAQQINDA

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Muradxanlı, Cəfərli və Zərdab neft yataqlarının daxil olduğu blokun reabilitasiyası, kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsünə dair Sazişin əsas kommersiya prinsipləri və müddəaları üzrə Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə Böyük Britaniyanın RAMKO şirkəti arasında ümumi razılığın əldə edilməsi barədə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin təklifini qəbul edərək **qərara alıram:**

1. Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinə RAMKO şirkəti ilə birlikdə Muradxanlı, Cəfərli və Zərdab neft yataqlarının daxil olduğu blokun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsünə dair Sazişin hazırlanması və bağlanması səlahiyyəti verilsin.
2. Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti Muradxanlı, Cəfərli və Zərdab neft yataqlarının daxil olduğu blokun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsünə dair Saziş hazırlandıqdan sonra onu baxılmaq üçün Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

**Heydər Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 17 iyun 1998-ci il, № 829*

# "AZƏRBAYCAN RESPUBLİKASINDA "MURADXANLI", "CƏFƏRLİ" VƏ "ZƏRDAB" NEFT YATAQLARININ DAXİL OLDUĞU BLOKUN REABİLİTASİYASI, KƏŞFİYYATI, İŞLƏNMƏSİ VƏ HASİLATIN PAY BÖLGÜSÜ HAQQINDA" SAZİŞƏ AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİNİN TƏMİNATI VƏ ÖHDƏLİKLƏRİ HAQQINDA

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 17 iyun tarixli 829 nömrəli Sərəncamına əsasən, Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ("ARDNŞ") və Ramko Enerci (Muradxanlı) Limited ("Ramko") xarici neft şirkəti arasında "Azərbaycan Respublikasında "Muradxanlı", "Cəfərli" və "Zərdab" neft yataqlarının daxil olduğu blokun reabilitasiyası, kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında" Sazişin 1998-ci il iyulun 21-də imzalandığını nəzərə alaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Göstərilən Sazişin 5-ci əlavəsində qeyd olunmuş Azərbaycan Respublikası Hökumətinin təminatı və öhdəlikləri təsdiq edilsin.

(Azərbaycan Respublikası Baş nazirinin yanında 1998-ci il avqustun 31-də keçirilmiş iclasın 3 nömrəli protokolu)

**A.Rasizadə**

*Azərbaycan Respublikasının Baş Naziri*

*Bakı şəhəri, 11 sentyabr 1998-ci il, № 186*

***On dördüncü müqavilə:* Xəzər dənizinin Azərbaycan sektorunda *"Araz"*, *"Alov"* və *"Şərq"* perspektiv strukturlarının daxil olduğu kəşfiyyat blokunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında**

| | |
|---|---|
| *Müqavilənin imzalandığı yer:* | *London şəhəri* |
| *İmzalanma tarixi:* | *21 iyul 1998-ci il* |
| *Ratifikasiya tarixi:* | *23 mart 1999-cu il* |
| *Nəzərdə tutulmuş sərmayələr:* | *9 000 000 000 $* |
| *Proqnozlaşdırılmış ehtiyatlar:* | *150-300 mln. ton neft* |

**İmzalanma tarixinə tərəflərin iştirak payı**




**Tərəflərin bugünkü tarixə iştirak payı**




**İştirakçı dövlətlər:** ABŞ, Böyük Britaniya, Türkiyə, Kanada və Azərbaycan

# XƏZƏR DƏNİZİNİN AZƏRBAYCAN SEKTORUNDA "ARAZ", "ALOV" VƏ "ŞƏRQ" PERSPEKTİV STRUKTURLARININ DAXİL OLDUĞU KƏŞFİYYAT BLOKUNUN KƏŞFİYYATI, İŞLƏNMƏSİ VƏ HASİLATIN PAY BÖLGÜSÜ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT NEFT ŞİRKƏTİ İLƏ BİPİ EKSPLOREYŞN (AZƏRBAYCAN) LİMİTED, STATOYL AZƏRBAYCAN ALOV A.S. VƏ ARDNŞ-NİN ORTAQ NEFT ŞİRKƏTİ ARASINDA SAZİŞİN QƏBUL VƏ TƏSDİQ EDİLMƏSİ, HƏYATA KEÇİRİLMƏSİNƏ İCAZƏ VERİLMƏSİ BARƏDƏ

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikası Prezidentinin "Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Araz", "Alov" və "Şərq" perspektiv strukturlarının daxil olduğu kəşfiyyat blokunun kəşfiyyatı və işlənməsi haqqında" 1998-ci il 19 iyun tarixli 836 saylı Sərəncamına uyğun olaraq 1998-ci il iyulun 21-də Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ("ARDNŞ") ilə BiPi Eksploreyşn (Azərbaycan) Limited ("BiPi"), Statoyl Azərbaycan Alov a.s. ("Statoyl") və ARDNŞ-nin Ortaq Neft Şirkəti ("ONŞ") arasında Saziş imzalanmışdır.

**AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ MƏCLİSİ**

Azərbaycan Respublikasının qanunvericiliyində Sazişin əhatə etdiyi məsələlərin tam və müasir tələblərə uyğun olaraq nizamlanmadığını;

Azərbaycan Respublikasının yeni Mülki Məcəlləsinin və karbohidrogen ehtiyatları haqqında Azərbaycan Respublikasının Qanununun olmadığını;

Sazişin şərtlərinə görə onun qanunverici orqan tərəfindən təsdiqindən sonra Qanun olmasını;

bu Qanunun Azərbaycan Respublikasının Konstitusiyasına tam uyğun olduğunu nəzərə alaraq,

Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktına və Azərbaycan Respublikasının Konstitusiyasına əsasən **qərara alır:**

1. "Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Araz", "Alov" və "Şərq" perspektiv strukturlarının daxil olduğu kəşfiyyat blokunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında" Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə BiPi Eksploreyşn (Azərbaycan) Limited, Statoyl Azərbaycan Alov a.s. və ARDNŞ-nin Ortaq Neft Şirkəti arasında Saziş (bundan sonra "Saziş" adlanacaq) qəbul və təsdiq edilsin, onun həyata keçirilməsinə icazə verilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 11 dekabr tarixli 235 saylı qərarı ilə Sazişdə iştirak edən Podratçılara verilən Azərbaycan Respublikası Hökumətinin təminatı və öhdəlikləri (bundan sonra "Hökumət təminatı" adlanacaq) qəbul edilsin və onun həyata keçirilməsinə icazə verilsin.

3. Sazişin əsas mətninə edilmiş on (10) Əlavə, 1 (bir) Qoşma, habelə Qoşmaya 1 (bir) Əlavə (bundan sonra "Əlavələr" adlanacaq) qəbul edilsin və onların həyata keçirilməsinə icazə verilsin.

4. Bu Qanun qüvvəyə mindikdən sonra Saziş, Hökumət təminatı və Əlavələr Qanun olurlar. Sazişdə konkret surətdə başqa hallar göstərilməyibsə, Saziş, Hökumət təminatı və Əlavələr Sazişin qüvvədə olduğu müddət ərzində bu Sazişə, Hökumət təminatına və Əlavələrə uyğun gəlməyən və ya zidd olan Azərbaycan Respublikasının hər hansı başqa mövcud və ya qəbul oluna biləcək qanunlarının, fərmanlarının, yaxud inzibati sərəncamlarının (və ya onların hissələrinin) müddəalarından üstün tutulur.

5. Bu Qanun qüvvəyə mindikdən sonra Sazişdə nəzərdə tutulan kontrakt sahəsinin istənilən hissəsi barəsində əvvəllər bağlanmış hər hansı saziş, kontrakt və ya bu cür başqa sənədlə verilə bilən bütün digər hüquq və vəzifələr ləğv edilir, habelə bu Qanun qüvvəyə mindikdən sonra Sazişin, Hökumət təminatının və Əlavələrin şərtlərinə müvafiq surətdə və qüvvədə olduğu bütün müddət ərzində Sazişin pay iştirakçılarına kontrakt sahəsində neft-qaz əməliyyatları aparmaq üçün müstəsna hüquq verilir.

6. Bu Qanun qüvvəyə mindikdən sonra Podratçının (və ya onun hüquqi vasitələrinin) Saziş, Hökumət təminatları və Əlavələr üzrə əldə etdiyi hüquqlar və mənafelər Podratçının qabaqcadan razılığı olmadan dəyişdirilə, düzəldilə və ya azaldıla bilməz.

7. Sazişdən irəli gələn hüquq və öhdəliklərin yerinə yetirilməsi üçün Sazişin iştirakçılarına bütün lazımi lisenziyalar, gömrük icazələri, vizalar, başqa səlahiyyətlər və sanksiyalar verilir.

8. Sazişə və ya Əlavələrə hər hansı düzəlişlər, dəyişikliklər yalnız Sazişin və Əlavələrin tərəflərinin yazılı razılığı ilə edilir.

9. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

**Heydər Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 18 dekabr 1998-ci il, № 591 – IQ*

# XƏZƏR DƏNİZİNİN AZƏRBAYCAN SEKTORUNDA YERLƏŞƏN "ARAZ, ALOV VƏ ŞƏRQ" PERSPEKTİV STRUKTURLARININ DAXİL OLDUĞU KƏŞFİYYAT BLOKUNUN KƏŞFİYYATI VƏ İŞLƏNMƏSİ HAQQINDA

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Araz, Alov və Şərq" perspektiv strukturlarının daxil olduğu kəşfiyyat blokunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında Sazişin əsas kommersiya prinsipləri və müddəaları üzrə Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə BP (Böyük Britaniya) Statoyl (Norveç) alyansı arasında ümumi razılığın əldə edilməsi barədə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin təklifini qəbul edərək **qərara alıram:**

1. Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinə "BP Statoyl" şirkətlər alyansı ilə birlikdə "Araz, Alov və Şərq" perspektiv strukturlarının daxil olduğu kəşfiyyat blokunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsünə dair Sazişin hazırlanması və bağlanması səlahiyyəti verilsin.
2. Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti "Araz, Alov və Şərq" perspektiv strukturlarının daxil olduğu kəşfiyyat blokunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsünə dair Saziş hazırlandıqdan sonra onu baxılmaq üçün Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

**Heydər Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 19 iyun 1998-ci il, № 836*

# "XƏZƏR DƏNİZİNİN AZƏRBAYCAN SEKTORUNDA "ARAZ", "ALOV" VƏ "ŞƏRQ" PERSPEKTİV STRUKTURLARININ DAXİL OLDUĞU KƏŞFİYYAT BLOKUNUN KƏŞFİYYATI, İŞLƏNMƏSİ VƏ HASİLATIN PAY BÖLGÜSÜ HAQQINDA" SAZİŞƏ AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİNİN TƏMİNATI VƏ ÖHDƏLİKLƏRİ HAQQINDA

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 19 iyun tarixli 836 nömrəli Sərəncamına əsasən, Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ("ARDNŞ") və "BP Eksploreyşn (Azərbaycan) Limited" ("BP"), Statoyl Azərbaycan Alov a.s. ("Statoyl") xarici neft şirkətləri arasında "Xəzər dənizinin Azərbaycan sektorunda "Araz, Alov və Şərq" perspektiv strukturlarının daxil olduğu kəşfiyyat blokunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında" Sazişin 1998-ci il iyulun 20-də imzalandığını nəzərə alaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Göstərilən Sazişin 5-ci əlavəsində qeyd olunmuş Azərbaycan Respublikası Hökumətinin təminatı və öhdəlikləri təsdiq edilsin.

(Azərbaycan Respublikası Baş nazirinin yanında 1998-ci il dekabrın 10-da keçirilmiş iclasın 10 nömrəli protokolu.)

**A.Rasizadə**
*Azərbaycan Respublikasının Baş Naziri*
*Bakı şəhəri, 11 dekabr 1998-ci il, № 235*

***On beşinci müqavilə:*** **Azərbaycan Respublikasında *"Kürsəngi"* və *"Qarabağlı"* neft yataqlarının daxil olduğu blokun bərpası, kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında**

| | |
|---|---|
| *Müqavilənin imzalandığı yer:* | *Bakı şəhəri, "Gülüstan" sarayı* |
| *İmzalanma tarixi:* | *12 dekabr 1998-ci il* |
| *Ratifikasiya tarixi:* | *16 mart 1999-cu il* |
| *Nəzərdə tutulmuş sərmayələr:* | *800 000 000 $* |
| *Proqnozlaşdırılmış ehtiyatlar:* | *30-80 mln. ton neft* |

## İmzalanma tarixinə tərəflərin iştirak payı




## Tərəflərin bugünkü tarixə iştirak payı




**İştirakçı dövlətlər:** Səudiyyə Ərəbistanı, Çin və Azərbaycan

# AZƏRBAYCAN RESPUBLİKASINDA "KÜRSƏNGİ" VƏ "QARABAĞLI" NEFT YATAQLARININ DAXİL OLDUĞU BLOKUN BƏRPASI, KƏŞFİYYATI, İŞLƏNMƏSİ VƏ HASİLATIN PAY BÖLGÜSÜ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT NEFT ŞİRKƏTİ İLƏ FRONTERA RESORSES AZƏRBAYCAN KORPOREYŞN, DELTA/HESS (K&K) LİMİTED VƏ ARDNŞ-NİN ORTAQ NEFT ŞİRKƏTİ ARASINDA SAZİŞİN QƏBUL VƏ TƏSDİQ EDİLMƏSİ, HƏYATA KEÇİRİLMƏSİNƏ İCAZƏ VERİLMƏSİ BARƏDƏ

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikası Prezidentinin "Kürsəngi" və "Qarabağlı" neft yataqlarının daxil olduğu blokun kəşfiyyatı və işlənməsi haqqında 1998-ci il 17 aprel tarixli 784 saylı Sərəncamına uyğun olaraq, 1998-ci il dekabrın 15-də Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ("ARDNŞ") ilə Frontera Resorses Azərbaycan Koporeyşn ("Frontera"). Delta/Hess (K&K) Limited ("Del-ta/Hess") və ARDNŞ-nin Ortaq Neft Şirkəti ("ONŞ") arasında Saziş imzalanmışdır.

**AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ MƏCLİSİ**

Azərbaycan Respublikasının qanunvericiliyində Sazişin əhatə etdiyi məsələlərin tam və müasir tələblərə uyğun olaraq nizamlanmadığını;

Azərbaycan Respublikasının yeni Mülki Məcəlləsinin və karbohidrogen ehtiyatları haqqında Azərbaycan Respublikası Qanununun olmadığını;

Sazişin şərtlərinə görə onun qanunverici orqan tərəfindən təsdiqindən sonra Qanun olmasını;

bu Qanunun Azərbaycan Respublikasının Konstitusiyasına tam uyğun olduğunu nəzərə alaraq,

“Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında” Konstitusiya Aktına və Azərbaycan Respublikasının Konstitusiyasına əsasən **qərara alır:**

1. “Azərbaycan Respublikasında “Kürsəngi” və “Qarabağlı” neft yataqlarının daxil olduğu blokun bərpası, kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında” Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə Frontera Resorses Azərbaycan Korporeyşn, Delta/Hess (K&K) Limited və ARDNŞ-nin Ortaq Neft Şirkəti arasında Saziş (bundan sonra “Saziş” adlanacaq) qəbul və təsdiq edilsin, onun həyata keçirilməsinə icazə verilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 31 mart tarixli 57 saylı qərarı ilə Sazişdə iştirak edən Podratçılara verilən Azərbaycan Respublikası Hökumətinin təminatı və öhdəlikləri (bundan sonra “Hökumət təminatı” adlanacaq) qəbul edilsin və onun həyata keçirilməsinə icazə verilsin.

3. Sazişin əsas mətninə edilmiş 11 (on bir) əlavə, 1 (bir) qoşma, habelə qoşmaya 1 (bir) əlavə (bundan sonra “Əlavələr” adlanacaq) qəbul edilsin və onların həyata keçirilməsinə icazə verilsin.

4. Bu Qanun qüvvəyə mindikdən sonra Saziş, Hökumət təminatı və Əlavələr Qanun olurlar. Sazişdə konkret surətdə başqa hallar göstərilməyibsə, Saziş, Hökumət təminatı və Əlavələr Sazişin qüvvədə olduğu müddət ərzində bu Sazişə, Hökumət təminatına və Əlavələrə uyğun gəlməyən və ya zidd olan Azərbaycan Respublikasının hər hansı başqa mövcud və ya qəbul oluna biləcək qanunlarının, fərmanlarının, yaxud inzibati sərəncamlarının (və ya onların hissələrinin) müddəalarından üstün tutulur.

5. Bu Qanun qüvvəyə mindikdən sonra Sazişdə nəzərdə tutulan kontrakt sahəsinin istənilən hissəsi barəsində əvvəllər bağlanmış hər hansı saziş, kontrakt və ya bu cür başqa sənədlə verilə bilən bütün digər hüquq və vəzifələr ləğv edilir, habelə bu Qanun qüvvəyə mindikdən sonra Sazişin, Hökumət təminatının və Əlavələrin şərtlərinə müvafiq surətdə və qüvvədə olduğu bütün müddət ərzində Sazişin pay iştirakçılarına kontrakt sahəsində neft-qaz əməliyyatları aparmaq üçün müstəsna hüquq verilir.

6. Bu Qanun qüvvəyə mindikdən sonra Podratçının (və ya onun hüquq varislərinin) Saziş, Hökumət təminatları və Əlavələr üzrə əldə etdiyi hüquqlar və mənafelər Podratçının qabaqcadan razılığı olmadan dəyişdirilə, düzəldilə və ya azaldıla bilməz.

7. Sazişdən irəli gələn hüquq və öhdəliklərin yerinə yetirilməsi üçün Sazişin iştirakçılarına bütün lazımi lisenziyalar, gömrük icazələri, vizalar, başqa səlahiyyətlər və sanksiyalar verilir.

8. Sazişə və ya Əlavələrə hər hansı düzəlişlər, dəyişikliklər yalnız Sazişin və Əlavələrin tərəflərinin yazılı razılığı ilə edilir.

9. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

**Heydər Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 16 aprel 1999-cu il, № 655-IQ*

# "KÜRSƏNGİ" VƏ "QARABAĞLI" NEFT YATAQLARI DAXİL OLAN BLOKUN KƏŞFİYYATI VƏ İŞLƏNMƏSİ HAQQINDA

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

"Kürsəngi" və "Qarabağlı" neft yataqları daxil olan blokun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsünə dair Sazişin əsas kommersiya prinsipləri və müddəaları üzrə Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə Frontera Resorses Azərbaycan Korporeyşn arasında ümumi razılığın əldə edilməsi barədə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin təklifini qəbul edərək **qərara alıram:**

1. Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinə Frontera Resorses Azərbaycan Korporeyşn ilə birlikdə "Kürsəngi" və "Qarabağlı" neft yataqları daxil olan blokun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsünə dair Sazişin hazırlanması və bağlanması səlahiyyəti verilsin.
2. Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti "Kürsəngi" və "Qarabağlı" neft yataqları daxil olan blokun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsünə dair Saziş hazırlandıqdan sonra onu baxılmaq üçün Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

**Heydər Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 17 aprel 1998-ci il, № 784*

## "AZƏRBAYCAN RESPUBLİKASINDA "KÜRSƏNGİ" VƏ "QARABAĞLI" NEFT YATAQLARININ DAXİL OLDUĞU BLOKUN REABİLİTASİYASI, KƏŞFİYYATI, İŞLƏNMƏSİ VƏ HASİLATIN PAY BÖLGÜSÜ HAQQINDA" SAZİŞƏ AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİNİN TƏMİNATI VƏ ÖHDƏLİKLƏRİ HAQQINDA

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 17 aprel tarixli 784 nömrəli Sərəncamına əsasən, Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ("ARDNŞ") və Frontera Resorses Azərbaycan Korporeyşn ("Frontera"), Delta/Hess (K&K) Limited ("Delta/Hess") xarici neft şirkətləri arasında "Azərbaycan Respublikasında "Kürsəngi" və "Qarabağlı" neft yataqlarının daxil olduğu blokun reabilitasiyası, kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında" Sazişin 1998-ci il dekabrın 15-də imzalandığını nəzərə alaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Göstərilən Sazişin 5-ci əlavəsində qeyd olunmuş Azərbaycan Respublikası Hökumətinin təminatı və öhdəlikləri təsdiq edilsin.

(Azərbaycan Respublikası Baş nazirinin yanında 1999-cu il martın 31-də keçirilmiş iclasın 3 nömrəli protokolu).

**A.Rasizadə**
*Azərbaycan Respublikasının Baş Naziri*
*Bakı şəhəri, 31 mart 1999-cu il, № 57*

***On altıncı müqavilə:*** **Xəzər dənizinin Azərbaycan sektorunda "*Ataşgah*", "*Yanan Tava*", "*Muğan Dəniz*" perspektiv strukturlarının daxil olduğu dəniz blokunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında**

| | |
|---|---|
| *Müqavilənin imzalandığı yer:* | *Bakı şəhəri, "Gülüstan" sarayı* |
| *İmzalanma tarixi:* | *25 dekabr 1998-ci il* |
| *Qüvvəyə minmə tarixi:* | *17 iyun 1999-cu il* |
| *Proqnozlaşdırılmış sərmayələr:* | *2 300 000 000 $* |
| *Proqnozlaşdırılmış ehtiyatlar:* | *100 mln. ton neft* |

**İmzalanma tarixinə tərəflərin iştirak payı**




**Tərəflərin bugünkü tarixə iştirak payı**




**İştirakçı dövlətlər:** Yaponiya və Azərbaycan

# XƏZƏR DƏNİZİNİN AZƏRBAYCAN SEKTORUNDA "ATƏŞGAH", "YANAN TAVA", "MUĞAN DƏNİZ" PERSPEKTİV STRUKTURLARININ DAXİL OLDUĞU DƏNİZ BLOKUNUN KƏŞFİYYATI, İŞLƏNMƏSİ VƏ HASİLATIN PAY BÖLGÜSÜ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT NEFT ŞİRKƏTİ VƏ CAPAN PETROLEUM EKSPLOREYŞN KO., LTD-NİN ORTAQ ŞİRKƏTİ, İNDONEZİYA PETROLEUM LTD-NİN ORTAQ ŞİRKƏTİ, İTOÇU OYL EKSPLOREYŞN KO., LTD, TEYSEKİ KONTİNENTAL ŞELF DEVELOPMENT KO., LTD VƏ ARDNŞ-NİN ORTAQ NEFT ŞİRKƏTİ ARASINDA SAZİŞİN QƏBUL VƏ TƏSDİQ EDİLMƏSİ, HƏYATA KEÇİRİLMƏSİNƏ İCAZƏ VERİLMƏSİ BARƏDƏ

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikası Prezidentinin "Xəzər dənizinin Azərbaycan sektorunda Atəşgah, Yanan Tava və Muğan Dəniz perspektiv strukturlarının daxil olduğu dəniz blokunun kəşfiyyatı və işlənməsi haqqında" 1998-ci il 3 dekabr tarixli 38 saylı Sərəncamına uyğun olaraq 1998-ci il dekabrın 25-də Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ("ARDNŞ") ilə Capan Petroleum Eksploreyşn Ko., Ltd-nin Ortaq Şirkəti ("CAPEKS"), İndoneziya Petroleum Ltd-nin Ortaq Şirkəti ("İNPEKS"), İtoçu Oyl Eksploreyşn Ko., Ltd ("İTOÇU"), Teyseki Kontinental Şelf Development Ko., Ltd ("TEYKOKU") və ARDNŞ-nin Ortaq Neft Şirkəti ("ONŞ") arasında Saziş imzalanmışdır.

**AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ MƏCLİSİ**

Azərbaycan Respublikasının qanunvericiliyində Sazişin əhatə etdiyi məsələlərin tam və müasir tələblərə uyğun olaraq nizamlanmadığını;

Azərbaycan Respublikasının yeni Mülki Məcəlləsinin və karbohidrogen ehtiyatları haqqında Azərbaycan Respublikası Qanununun olmadığını;

Sazişin şərtlərinə görə onun qanunverici orqan tərəfindən təsdiqindən sonra Qanun olmasını;

bu Qanunun Azərbaycan Respublikasının Konstitusiyasına tam uyğun olduğunu nəzərə alaraq, Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktına və Azərbaycan Respublikasının Konstitusiyasına əsasən **qərara alır:**

1. Xəzər dənizinin Azərbaycan sektorunda Atəşgah, Yanan Tava və Muğan Dəniz perspektiv strukturlarının daxil olduğu dəniz blokunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti və Capan Petroleum Eksploreyşn Ko., Ltd-nin Ortaq Şirkəti, İndoneziya Petroleum Ltd-nin Ortaq Şirkəti, İtoçu Oyl Eksploreyşn Ko., Ltd, Teyseki Kontinental Şelf Development Ko., Ltd və ARDNŞ-nin Ortaq Neft Şirkəti arasında Saziş (bundan sonra "Saziş" adlanacaq) qəbul və təsdiq edilsin, onun həyata keçirilməsinə icazə verilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 29 may tarixli 86 saylı qərarı ilə Sazişdə iştirak edən Podratçılara verilən Azərbaycan Respublikası Hökumətinin təminatı və öhdəlikləri (bundan sonra "Hökumət təminatı" adlanacaq) qəbul edilsin və onların həyata keçirilməsinə icazə verilsin.

3. Sazişin əsas mətninə edilmiş on (10) Əlavə, 1 (bir) Qoşma, habelə Qoşmaya bir (1) Əlavə (bundan sonra "Əlavələr" adlanacaq) qəbul edilsin və onların həyata keçirilməsinə icazə verilsin.

4. Bu Qanun qüvvəyə mindikdən sonra Saziş, Hökumət təminatı və Əlavələr Qanun olurlar. Sazişdə konkret surətdə başqa hallar göstərilməyibsə, Saziş, Hökumət təminatı və Əlavələr Sazişin qüvvədə olduğu müddət ərzində bu Sazişə, Hökumət təminatına və Əlavələrə uyğun gəlməyən və ya zidd olan Azərbaycan Respublikasının hər hansı başqa mövcud və ya qəbul oluna biləcək qanunlarının, fərmanlarının, yaxud inzibati sərəncamlarının (və ya onların hissələrinin) müddəalarından üstün tutulur.

5. Bu Qanun qüvvəyə mindikdən sonra Sazişdə nəzərdə tutulan kontrakt sahəsinin istənilən hissəsi barəsində əvvəllər bağlanmış hər hansı saziş, kontrakt və ya bu cür başqa sənədlə verilə bilən bütün digər hüquq və vəzifələr ləğv edilir, habelə bu Qanun qüvvəyə mindikdən sonra Sazişin, Hökumət təminatının və Əlavələrin şərtlərinə müvafiq surətdə və qüvvədə olduğu bütün müddət ərzində Sazişin pay iştirakçılarına kontrakt sahəsində neft-qaz əməliyyatları aparmaq üçün müstəsna hüquq verilir.

6. Bu Qanun qüvvəyə mindikdən sonra Podratçının (və ya onun hüquqi varislərinin) Saziş, Hökumət təminatları və Əlavələr üzrə əldə etdiyi hüquqlar və mənafelər Podratçının qabaqcadan razılığı olmadan dəyişdirilə, düzəldilə və ya azaldıla bilməz.

7. Sazişdən irəli gələn hüquq və öhdəliklərin yerinə yetirilməsi üçün Sazişin iştirakçılarına bütün lazımi lisenziyalar, gömrük icazələri, vizalar, başqa səlahiyyətlər və sanksiyalar verilir.

8. Sazişə və ya Əlavələrə hər hansı əlavələr, düzəlişlər, dəyişikliklər yalnız Sazişin və Əlavələrin tərəflərinin yazılı razılığı ilə edilir.

9. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

**Heydər Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 11 iyun 1999-cu il, № 681–I*

# XƏZƏR DƏNİZİNİN AZƏRBAYCAN SEKTORUNDA "ATƏŞGAH", "YANAN TAVA" VƏ "MUĞAN DƏNİZ" PERSPEKTİV STRUKTURLARININ DAXİL OLDUĞU DƏNİZ BLOKUNUN KƏŞFİYYATI VƏ İŞLƏNMƏSİ HAQQINDA

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Xəzər dənizinin Azərbaycan sektorunda "Atəşgah", "Yanan Tava" və "Muğan Dəniz" perspektiv strukturlarının daxil olduğu dəniz blokunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsünə dair Sazişin əsas kommersiya prinsipləri və müddəaları üzrə Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə Capan Neyşnl Oyl Korporeyşn, Capan Petroleum Eksploreyşn Ko., İtoçu Oyl Eksploreyşn, İndoneziya Petroleum və Teykoku Oyl Ko. şirkətləri arasında ümumi razılığın əldə edilməsi barədə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin məlumatını nəzərə alaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Dövlət Neft Şirkətinə Yaponiya neft şirkətləri ilə birlikdə Xəzər dənizinin Azərbaycan sektorunda "Atəşgah", "Yanan Tava" və "Muğan Dəniz" perspektiv strukturlarının daxil olduğu dəniz blokunun kəşfiyyatı, işlənməsi və pay bölgüsünə dair Sazişi hazırlamaq və bağlamaq səlahiyyəti verilsin.
2. Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti Xəzər dənizinin Azərbaycan sektorunda "Atəşgah", "Yanan Tava" və "Muğan Dəniz" perspektiv strukturlarının daxil olduğu dəniz blokunun kəşfiyyatı, işlənməsi və pay bölgüsünə dair Sazişi hazırladıqdan sonra onu baxılmaq üçün Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

**Heydər Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 3 dekabr 1998-ci il, № 38*

## “XƏZƏR DƏNİZİNİN AZƏRBAYCAN SEKTORUNDA “ATƏŞGAH”, “YANAN TAVA” VƏ “MUĞAN DƏNİZ” PERSPEKTİV STRUKTURLARININ DAXİL OLDUĞU DƏNİZ BLOKUNUN KƏŞFİYYATI, İŞLƏNMƏSİ VƏ HASİLATIN PAY BÖLGÜSÜ HAQQINDA” SAZİŞƏ AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİNİN TƏMİNATI VƏ ÖHDƏLİKLƏRİ HAQQINDA

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 3 dekabr tarixli 38 nömrəli Sərəncamına əsasən Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti (“ARDNŞ”) və Capan Azərbaycan Oyl Ko., Ltd. (“CAOK”), Sausvest Kaspian Si Petroleum, Ltd.(“SVKSP”), İtoçu Oyl Eksploreyşn Ko., Ltd. (“İtoçu”), Teyseki Kontinental Şelf Development Ko., Ltd. (“Teyseki”) xarici neft şirkətləri arasında “Xəzər dənizinin Azərbaycan sektorunda “Atəşgah”, “Yanan Tava” və “Muğan Dəniz” perspektiv strukturlarının daxil olduğu dəniz blokunun kəşfiyyatı işlənməsi və hasilatın pay bölgüsü haqqında” Sazişin 1998-ci il dekabrın 25-də imzalandığını nəzərə alaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Göstərilən Sazişin 5-ci əlavəsində qeyd olunmuş Azərbaycan Respublikası Hökumətinin təminatı və öhdəlikləri təsdiq edilsin.

(Azərbaycan Respublikası Baş nazirinin yanında 1999-cu il mayın 29-da keçirilmiş iclasın 5 nömrəli protokolu).

**A.Rasizadə**
*Azərbaycan Respublikasının Baş Naziri*
*Bakı şəhəri, 29 may 1999-cu il, № 86*

## MÜQAVİLƏNİN İMZALANMA MƏRASİMİNDƏ AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN NİTQİ

*"Gülüstan" sarayı,*
*25 dekabr 1998-ci il*

– Hörmətli xanımlar və cənablar!

Hörmətli qonaqlar!

Biz bu gün Azərbaycanda, Bakıda yeni bir neft müqaviləsinin imzalanması mərasiminə toplaşmışıq. Bugünkü mərasim, imzalanacaq müqavilə Azərbaycan dövlətinin, Prezidentinin neft siyasətinin həyata keçirilməsində növbəti bir addımdır.

Məlumdur ki, Azərbaycan dövləti 1994-cü ildən başlayaraq özünün neft siyasətini həyata keçirir. Bu siyasətin əsas məzmunu və prinsipləri Azərbaycanın zəngin neft və qaz yataqlarının intensiv işlənilməsindən ibarətdir. Müstəqil Azərbaycan dövləti bunun üçün xarici, sərmayələrin cəlb olunması üçün dünyanın böyük neft şirkətləri ilə müştərək iş görməyi ən münasib yol kimi seçmişdir.

Qeyd etdiyim kimi, biz beləliklə bir tərəfdən Azərbaycanın neft və qaz yataqlarının istifadə olunması üçün xarici investisiyanı cəlb edirik və bununla bərabər, dünyanın böyük neft şirkətləri ilə müştərək iş görərək onların təcrübəsindən və onlarda olan müasir texnikadan, texnologiyadan istifadə edilməsini nəzərdə tuturuq.

Biz neft siyasətini planlaşdıraraq, həyata keçirməyə başlayaraq bilirdik və bildiyimizə görə də bunu etmişik ki, o, Azərbaycanın bu günü və gələcəyi üçün çox faydalıdır. Ötən dörd il ərzində görülən işlər və əldə edilən nəticələr bizim neft siyasətimizin Azərbaycan xalqının milli mənafeləri üçün nə qədər faydalı olduğunu indi əyani sübut edir.

Ötən dörd il ərzində 15 müqavilə imzalanıbdır. Bu 15 müqavilədə 14 ölkədən dünyanın 27 böyük neft şirkəti iştirak edir. Bu müqavilələr əməli surətdə həyata keçirilir, böyük işlər görülür. Bunlar hamısı Azərbaycanın iqtisadi inkişafına artıq öz təsirini göstərir.

Biz "Əsrin müqaviləsi" adlanan ilk müqavilənin – 1994-cü il sentyabrın 20-də imzalanmış müqavilənin artıq praktiki nəticələrini görürük. Bir il bundan öncə, 1997-ci il noyabr ayının 12-də "Çıraq" yatağından neft hasil olunmağa başladı. İndi Azərbaycan nefti Bakı-Novorossiysk boru kəməri vasitəsilə dünya bazarına çıxarılır.

Məlumdur ki, birinci müqavilə – "Əsrin müqaviləsi" gözləniləndən də artıq nəticələr verir. "Çıraq" yatağındakı hər quyudan nəzərdə tutulduğundan 3-4 dəfə çox neft alınır. Bu müqavilənin layihəsində 510 milyon ton neft əldə etmək nəzərdə tutulmuşdu. İndi artıq 630 milyon ton neft gözlənilir. Güman edirəm ki, bundan da artıq neft olacaqdır. Digər müqavilələrin də hamısı əməli surətdə həyata keçirilir. Qeyd etdiyim kimi, bunlar Azərbaycan iqtisadiyyatına, ölkəmizin həyatına yeni amillər gətirir.

Xəzərin Azərbaycan sektorundakı neft yataqlarına dünyanın böyük neft şirkətlərinin və iqtisadi cəhətdən inkişaf etmiş ölkələrin marağı günü-gündən artır. Bu ölkələrin içərisində Yaponiya artıq bir neçə il bundan əvvəl Azərbaycanın təbii sərvətlərinin, neft və qaz yataqlarının istifadə edilməsinə maraq göstərmişdir. Yaponiyanın "İtoçu" şirkəti ilk dəfə olaraq birinci konsorsiumda özünə müəyyən bir hissə almışdı. "İtoçu" sonra "Dan Ulduzu", "Əşrəfi" neft yatağından istifadə olunması üçün yaranmış konsorsiumda iştirak etmiş və orada bu layihənin 20 faizini almışdır.

Yaponiyanın "Mitsui" şirkəti Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Kürdaşı" yatağının işlənilməsi üçün yaranmış konsorsiumun iştirakçısıdır, orada onun 15 faiz payı vardır. Yaponiyanın digər neft şirkətləri də Azərbaycana və Azərbaycanın neft, qaz yataqlarına maraq göstərməyə başlayıblar.

Beləliklə, Yaponiya ilə Azərbaycan arasında iqtisadi əməkdaşlıq son illərdə genişlənibdir və çox böyük səmərə kəsb edibdir. Bu ilin fevralında mənim Yaponiyaya rəsmi səfərim zamanı biz çoxsaylı danışıqlar aparmışıq, Yaponiya–Azərbaycan əlaqələrinin inkişaf etdirilməsi üçün bir çox sənədlər imzalamışıq. Bunların içərisində Yaponiya ilə Azərbaycan arasında dostluq və əməkdaşlıq haqqında bəyanatın Yaponiyanın Baş naziri cənab Haşimoto və Azərbaycan Prezidenti imzalamışlar. Bunlarla bərabər, Yaponiyanın hökuməti, işgüzar dairələri, "Eksimbank"ı ilə aparılan danışıqlar nəticəsində Yaponiya hökuməti tərəfindən Azərbaycana böyük kreditlərin verilməsi və ölkəmizin sənayesinin bəzi sahələrinin inkişaf etdirilməsi üçün yardım göstərilməsi haqqında da razılıq əldə olunmuşdur.

Fevral ayında Tokioda respublikamızın "Şimal" elektrik stansiyasının yenidən qurulması və bərpası üçün Yaponiya hökuməti tərəfindən 160 milyon dollar dəyərində güzəştli kredit ayrılması haqqında saziş imzalanmışdır. Azərbaycanın kimya kompleksində etilen istehsal qurğusunun yenidən qurulmasına, modernləşdirilməsinə "Eksimbank"ın 90 milyon dollar həcmində kredit ayırması barədə də saziş imzalanmışdır.

Yaponiya hökuməti ilə bizim apardığımız danışıqlar onu göstərir ki, Azərbaycanın iqtisadiyyatının bir neçə sahəsinin inkişafı ilə əlaqədar da əlavə kreditlərin alınması mümkündür. Biz Yaponiya ilə əlaqələrimizi və xüsusən iqtisadi əlaqələrimizi yüksək qiymətləndiririk, müstəqil Azərbaycana göstərdiyi marağa və maliyyə yardımına görə

Yaponiya hökumətinə təşəkkür edirik. Biz bu istiqamətdə əməkdaşlıq edərək Yaponiyanın bir neçə neft şirkətinin Xəzər dənizinin Azərbaycan sektorundakı bir yataqda müştərək iş görməsi barədə təkliflərini qəbul etmişik.

Bu təkliflər bir il bundan əvvəl verilmişdir. Mən fevral ayında Tokioda rəsmi səfərdə olarkən biz bu barədə həm Yaponiya hökuməti ilə, həm də bu şirkətlərin rəhbərləri ilə çox ətraflı danışıqlar aparmışdıq. Azərbaycan Dövlət Neft Şirkəti ilə Yaponiyanın dörd şirkəti – “Capeks”, “İnpeks”, “İtoçu” və “Teykoku” şirkətləri arasında danışıqlar aparılmış və bunların nəticəsində Xəzərin Azərbaycan sektorundakı “Yanan tava”, “Atəşgah” və “Muğan-dəniz” blokunun müştərək işlənilməsi haqqında razılıq əldə olunmuşdur.

Azərbaycan Dövlət Neft Şirkəti uzun sürən danışıqlardan sonra bu barədə təklifini təqdim etmişdir. Mən bu təklifə baxmışam və onu məqbul hesab etmişəm. Ona görə də bu təklif əsasında Yaponiyanın dörd şirkəti ilə Azərbaycan Dövlət Neft Şirkəti arasında “Yanan tava”, “Atəşgah” və “Muğan-dəniz” neft yatağında müştərək iş görülməsi üçün müqavilənin imzalanması haqqında qərar qəbul etmişəm.

Bu neft yatağı Azərbaycan alimləri, neftçiləri, geoloqları tərəfindən hələ 1950-ci illərdə kəşf olunmuşdur. Sonra Azərbaycan Dövlət Neft Şirkəti 1970-ci illərdə bu yataqda müəyyən işlər görmüş, quyular qazmışdır və həmin yatağın çox perspektivli olması haqqında əsaslı məlumatlar toplanmışdır.

Müqavilə imzalanacaq bu yatağın əhatə etdiyi sahə 510 kvadrat kilometrdir. Həmin yataqdan təxminən 75-90 milyon ton neft alınması gözlənilir. Buraya təxminən 2,3 milyard dollar həcmində sərmayə, kapital qoyulması nəzərdə tutulmuşdur. Bu layihənin 50 faizi Yaponiyanın neft şirkətlərinə, 50 faizi isə Azərbaycan Dövlət Neft Şirkətinə məxsus olacaqdır. Qoyulan xərclərin hamısı Yaponiya şirkətləri tərəfindən həyata keçiriləcəkdir. Bütün göstəricilərinə görə bu müqavilə həm Azərbaycan Dövlət Neft Şirkəti, həm də Yaponiyanın böyük neft şirkətləri üçün faydalıdır.

Yaponiya neft şirkətlərinin nümayəndə heyətləri və Yaponiya hökumətinin nümayəndə heyəti bu müqaviləni imzalamaq üçün Azərbaycana gəlmişlər. Beləliklə, bütün hazırlıq işləri görülübdür, müqavilənin layihəsi hər iki tərəfdən yoxlanılıbdır və imzalanmaq üçün bu mərasimə təqdim olunubdur.

Müqavilənin imzalanması ilə Yaponiya-Azərbaycan iqtisadi əlaqələri daha da genişlənir. Azərbaycan üçün bu, xarici ölkələrin neft şirkətləri ilə imzalanmış sayca 16-cı müqavilə olacaqdır. Dörd Yaponiya şirkəti isə Azərbaycana daxil olacaqdır.

Mən Tokioda apardığım danışıqlar zamanı da bəyan etmişdim, bu gün də bəyan edirəm ki, Yaponiya dünyanın iqtisadi cəhətdən inkişaf etmiş ölkəsidir. Yaponiyanın şirkətləri dünyada elmi-texniki tərəqqinin inkişafında böyük xidmətlər göstərmişlər. Yaponiya bütünlüklə öz iqtisadi siyasəti və iqtisadi göstəriciləri ilə, elmdə, texnikada, sənayedə əldə

etdiyi nailiyyətləri dünya iqtisadiyyatının inkişafına da çox böyük təsir göstərmişdir. Buna görə də biz Yaponiya ilə əməkdaşlığın genişləndirilməsinin tərəfdarıyıq. Biz Yaponiyanın xüsusən neft və qaz sənayesi sahəsindəki şirkətlərinin Azərbaycana gəlməsini alqışlayırıq.

Mən inanıram ki, bugünkü bu müqavilə Yaponiya-Azərbaycan iqtisadi əlaqələrinin inkişaf etməsinə çox böyük kömək göstərəcəkdir. Bu müqavilənin bir xüsusiyyəti də odur ki, burada konsorsium yalnız Yaponiya şirkətlərindən ibarətdir.

İndiyə qədər imzalanmış bütün müqavilələr ayrı-ayrı ölkələrə məxsus olan şirkətlər tərəfindən təşkil edilmiş konsorsiumla Azərbaycan Dövlət Neft Şirkəti arasında imzalanmışdır. Bu müqavilə daha uğurlu ola bilər, çünki konsorsiumun üzvlərinin hamısı Yaponiya şirkətləridir. Onlar bir-birini çox yaxşı tanıyır, bir-biri ilə daha da səmərəli əməkdaşlıq edə bilərlər.

Mən Yaponiyanın şirkətlərini və Yaponiya hökumətinin nümayəndəsini, Azərbaycan Dövlət Neft Şirkətini bu münasibətlə təbrik edirəm və sizi müqavilənin imzalanmasına dəvət edirəm. Buyurun.

***On yeddinci müqavilə:*** **Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən** *"Savalan", "Dalğa", "Lerik Dəniz"* **və** *"Cənub"* **perspektiv strukturlarının daxil olduğu dəniz blokunun kəşfiyyatı və işlənməsi haqqında**

| | |
|---|---|
| *Müqavilənin imzalandığı yer:* | *Vaşinqton, Senatın binası* |
| *İmzalanma tarixi:* | *27 aprel 1999-cu il* |
| *Ratifikasiya tarixi:* | *Ratifikasiya gözlənilir* |
| *Nəzərdə tutulmuş sərmayələr:* | *4 500 000 000 $* |
| *Proqnozlaşdırılmış ehtiyatlar:* | *100-120 mln. ton nef* |

**İmzalanma tarixinə tərəflərin iştirak payı**




**Tərəflərin bugünkü tarixə iştirak payı**




**İştirakçı dövlətlər:** ABŞ və Azərbaycan

# XƏZƏR DƏNİZİNİN AZƏRBAYCAN SEKTORUNDA YERLƏŞƏN "SAVALAN", "DALĞA", "LERİK DƏNİZ" VƏ "CƏNUB" PERSPEKTİV STRUKTURLARININ DAXİL OLDUĞU DƏNİZ BLOKUNUN KƏŞFİYYATI VƏ İŞLƏNMƏSİ HAQQINDA

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Savalan", "Dalğa", "Lerik Dəniz" və "Cənub" perspektiv strukturlarının daxil olduğu dəniz blokunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında Sazişin əsas kommersiya prinsipləri və müddəaları üzrə Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə Amerika Birləşmiş Ştatlarının Mobil şirkəti arasında ümumi razılığın əldə edilməsi barədə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin təklifini qəbul edərək **qərara alıram:**

1. Azərbaycan Respublikası Dövlət Neft Şirkətinə Mobil şirkəti ilə birlikdə "Savalan", "Dalğa", "Lerik Dəniz" və "Cənub" perspektiv strukturlarının daxil olduğu dəniz blokunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında Sazişin hazırlanması və bağlanması səlahiyyəti verilsin.
2. Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti "Savalan", "Dalğa", "Lerik Dəniz" və "Cənub" perspektiv strukturlarının daxil olduğu dəniz blokunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında Saziş hazırlandıqdan sonra onu baxılmaq üçün Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

**Heydər Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 15 mart 1999-cu il, № 109*

***On səkkizinci müqavilə:*** **Xəzər dənizinin Azərbaycan sektorunda *"Zəfər"* və *"Məşəl"* perspektiv strukturlarının daxil olduğu kəşfiyyat blokunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında**

| | |
|---|---|
| *Müqavilənin imzalandığı yer:* | *ABŞ, Senatın binası* |
| *İmzalanma tarixi:* | *27 aprel 1999-cu il* |
| *Ratifikasiya tarixi:* | *8 may 2000* |
| *Nəzərdə tutulmuş sərmayələr:* | *5 000 000 000 $* |
| *Proqnozlaşdırılmış ehtiyatlar:* | *120-150 mln. ton neft* |

## İmzalanma tarixinə tərəflərin iştirak payı




## Tərəflərin bugünkü tarixə iştirak payı




**İştirakçı dövlətlər:** ABŞ və Azərbaycan

# XƏZƏR DƏNİZİNİN AZƏRBAYCAN SEKTORUNDA "ZƏFƏR" VƏ "MƏŞƏL" PERSPEKTİV STRUKTURLARININ DAXİL OLDUĞU KƏŞFİYYAT BLOKUNUN KƏŞFİYYATI, İŞLƏNMƏSİ VƏ HASİLATIN PAY BÖLGÜSÜ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT NEFT ŞİRKƏTİ İLƏ EKSON EKSPLOREYŞN ƏND PRODAKŞN KASPİAN Sİ LİMİTED, KONOKO (U.K.) LİMİTED VƏ ARDNŞ-NİN ORTAQ NEFT ŞİRKƏTİ ARASINDA SAZİŞİN QƏBUL VƏ TƏSDİQ EDİLMƏSİ, HƏYATA KEÇİRİLMƏSİNƏ İCAZƏ VERİLMƏSİ BARƏDƏ

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikası Prezidentinin "Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Zəfər" və "Məşəl" perspektiv strukturlarının daxil olduğu dəniz blokunun kəşfiyyatı və işlənməsi haqqında" 1999-cu il 28 mart tarixli, 110 saylı Sərəncamına uyğun olaraq 1999-cu il aprelin 27-də Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ("ARDNŞ") ilə Ekson Eksploreyşn ənd Prodakşn Kaspian Si Limited ("Ekson") və ARDNŞ-nin Ortaq Neft Şirkəti ("ONŞ") arasında Saziş imzalanmışdır. 2000-ci il fevralın 1-də Konoko (U.K.) Limited ("Konoko") şirkəti bu Sazişə qoşulmuşdur.

**AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ MƏCLİSİ**

Azərbaycan Respublikasının qanunvericiliyində Sazişin əhatə etdiyi məsələlərin tam və müasir tələblərə uyğun olaraq nizamlanmadığını;

Azərbaycan Respublikasının karbohidrogen ehtiyatları haqqında Azərbaycan Respublikası Qanununun olmadığını;

Sazişin şərtlərinə görə onun qanunverici orqan tərəfindən təsdiqindən sonra Qanun olmasını;

bu Qanunun Azərbaycan Respublikasının Konstitusiyasına tam uyğun olduğunu nəzərə alaraq, Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktına və Azərbaycan Respublikasının Konstitusiyasına əsasən **qərara alır:**

1. "Xəzər dənizinin Azərbaycan sektorunda "Zəfər" və "Məşəl" perspektiv strukturlarının daxil olduğu kəşfiyyat blokunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında" Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ("ARDNŞ") ilə Ekson Eksploreyşn ənd Prodakşn Kaspian Si Limited ("Ekson"), Konoko (U.K.) Limited ("Konoko") və ARDNŞ-nin Ortaq Neft Şirkəti ("ONŞ") arasında Saziş (bundan sonra "Saziş" adlanacaq) qəbul və təsdiq edilsin, onun həyata keçirilməsinə icazə verilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 23 mart tarixli, 55 saylı qərarı ilə Sazişdə iştirak edən Podratçılara verilən Azərbaycan Respublikası Hökumətinin təminatı və öhdəlikləri (bundan sonra "Hökumət təminatı" adlanacaq) qəbul edilsin və onların həyata keçirilməsinə icazə verilsin.

3. Sazişin əsas mətninə edilmiş on bir (11) Əlavə, bir (1) Qoşma, habelə Qoşmaya bir (1) Əlavə (bundan sonra "Əlavələr" adlanacaq) qəbul edilsin və onların həyata keçirilməsinə icazə verilsin.

4. Bu Qanun qüvvəyə mindikdən sonra Saziş, Hökumət təminatı və Əlavələr Qanun olurlar. Sazişdə konkret surətdə başqa hallar göstərilməyibsə, Saziş, Hökumət təminatı və Əlavələr Sazişin qüvvədə olduğu müddət ərzində bu Sazişə, Hökumət təminatına və Əlavələrə uyğun gəlməyən və ya zidd olan Azərbaycan Respublikasının hər hansı başqa mövcud və ya qəbul oluna biləcək qanunlarının, fərmanlarının, yaxud inzibati sərəncamlarının (və ya onların hissələrinin) müddəalarından üstün tutulur.

5. Bu Qanun qüvvəyə mindikdən sonra Sazişdə nəzərdə tutulan kontrakt sahəsinin istənilən hissəsi barəsində əvvəllər bağlanmış hər hansı saziş, kontrakt və ya bu cür başqa sənədlə verilə bilən bütün digər hüquq və vəzifələr ləğv edilir, habelə bu Qanun qüvvəyə mindikdən sonra Sazişin, Hökumət təminatının və Əlavələrin şərtlərinə müvafiq surətdə və qüvvədə olduğu bütün müddət ərzində Sazişin pay iştirakçılarına kontrakt sahəsində neft-qaz əməliyyatları aparmaq üçün müstəsna hüquq verilir.

6. Bu Qanun qüvvəyə mindikdən sonra Podratçının (və ya onun hüquq varislərinin) Saziş, Hökumət təminatları və Əlavələr üzrə əldə etdiyi hüquqlar və mənafelər Podratçının qabaqcadan razılığı olmadan dəyişdirilə, düzəldilə və ya azaldıla bilməz.

7. Sazişdən irəli gələn hüquq və öhdəliklərin yerinə yetirilməsi üçün Sazişin iştirakçılarına bütün lazımi lisenziyalar, gömrük icazələri, vizalar, başqa səlahiyyətlər və sanksiyalar verilir.

8. Sazişə və ya Əlavələrə hər hansı əlavələr, düzəlişlər, dəyişikliklər yalnız Sazişin və Əlavələrin tərəflərinin yazılı razılığı ilə edilir.

9. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

**Heydər Əliyev**

*Azərbaycan Respublikasının Prezidenti*

*Bakı şəhəri, 21 aprel 2000-ci il, № 866-IQ*

# XƏZƏR DƏNİZİNİN AZƏRBAYCAN SEKTORUNDA YERLƏŞƏN "ZƏFƏR" VƏ "MƏŞƏL" PERSPEKTİV STRUKTURLARININ DAXİL OLDUĞU DƏNİZ BLOKUNUN KƏŞFİYYATI VƏ İŞLƏNMƏSİ HAQQINDA

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Zəfər" və "Məşəl" perspektiv strukturlarının daxil olduğu dəniz blokunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında Sazişin əsas kommersiya prinsipləri və müddəaları üzrə Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti və Amerika Birləşmiş Ştatlarının Ekson şirkəti arasında ümumi razılığın əldə edilməsi barədə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin təklifini qəbul edərək **qərara alıram:**

I. Azərbaycan Respublikası Dövlət Neft Şirkətinə Ekson şirkəti ilə birlikdə "Zəfər" və "Məşəl" perspektiv strukturlarının daxil olduğu dəniz blokunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında Sazişin hazırlanması və bağlanması səlahiyyəti verilsin.

2. Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti "Zəfər" və "Məşəl" perspektiv strukturlarının daxil olduğu dəniz blokunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında Saziş hazırlandıqdan sonra onu baxılmaq üçün Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

**Heydər Əliyev**

*Azərbaycan Respublikasının Prezidenti*

*Bakı şəhəri, 28 mart 1999-cu il, № 110*

# “XƏZƏR DƏNİZİNİN AZƏRBAYCAN SEKTORUNDA “ZƏFƏR” VƏ “MƏŞƏL” PERSPEKTİV STRUKTURLARININ DAXİL OLDUĞU KƏŞFİYYAT BLOKUNUN KƏŞFİYYATI, İŞLƏNMƏSİ VƏ HASİLATIN PAY BÖLGÜSÜ HAQQINDA” SAZİŞƏ AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİNİN TƏMİNATI VƏ ÖHDƏLİKLƏRİ HAQQINDA

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 28 mart tarixli, 110 nömrəli Sərəncamına əsasən Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti (“ARDNŞ”) və Ekson Eksploreyşn ənd Prodakşn Kaspian Si Limited (“Ekson”), Konoko (U.K.) Limited (“Konoko”) xarici neft şirkətləri arasında “Xəzər dənizinin Azərbaycan sektorunda “Zəfər” və “Məşəl” perspektiv strukturlarının daxil olduğu kəşfiyyat blokunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında” Sazişin 1999-cu il aprelin 27-də imzalandığını nəzərə alaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Göstərilən Sazişin 5-ci əlavəsində qeyd olunmuş Azərbaycan Respublikası Hökumətinin təminatı və öhdəlikləri təsdiq edilsin.

(Azərbaycan Respublikası Baş nazirinin yanında 2000-ci il martın 23-də keçirilmiş iclasın 3 nömrəli protokolu).

**A.Rasizadə**
*Azərbaycan Respublikasının Baş Naziri*
*Bakı şəhəri, 23 mart 2000-ci il, № 55*

## MÜQAVİLƏNİN İMZALANMA MƏRASİMİNDƏ AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN NİTQİ

*ABŞ, Senatın binasında,*
*27 aprel 1999-cu il*

– Hörmətli senator Hatçinson!

Hörmətli nazir Deyli!

Hörmətli nazir müavini, senatorlar, konqresmenlər, xanımlar və cənablar!

Mən sizin hamınızı səmimi qəlbdən salamlayıram və bu gün Amerika Birləşmiş Ştatlarının paytaxtı Vaşinqtonda Konqresin binasında belə bir mərasim keçirilməsindən hədsiz məmnun olduğumu bildirirəm.

Hörmətli senator Hatçinson, mənim haqqımda və Azərbaycan haqqında dediyiniz xoş sözlərə görə Sizə təşəkkür edirəm və bildirmək istəyirəm ki, Siz doğru buyurdunuz ki, mən Amerika Birləşmiş Ştatlarının çox sadiq dostuyam.

Bu mərasimdə nazir Deylinin, senatorların, konqresmenlərin, nazir müavininin və Amerika hökumətinin yüksək səviyyəli nümayəndələrinin iştirak etməsi müqavilələrin imzalanmasına xüsusi qiymət verir. Mən bu gün böyük xoşbəxtlik, iftixar hissləri keçirirəm, ona görə ki, Azərbaycanın 1994-cü ildə dünyaya bəyan etdiyi neft strategiyası ardıcıl surətdə həyata keçirilir və böyük uğurlar qazanır.

1994-cü ilin sentyabr ayında Azərbaycanda böyük bir müqavilə imzalandı. Bu müqaviləyə Amerika Birləşmiş Ştatlarında və dünyada "Əsrin müqaviləsi" adı verildi. Biz bu müqavilə ilə Azərbaycanın Xəzər dənizindəki enerji ehtiyatlarının müştərək istifadə olunması üçün ilk böyük addım atdıq və gələcək üçün böyük perspektivlər açdıq. Böyük sevinc hissi ilə bildirirəm ki, bizim imzaladığımız müqavilə nəzərdə tutulmuş plan, qrafik əsasında həyata keçirilibdir. 1997-ci ilin noyabrında ilkin neft almışıq, onu Bakı-Novorossiysk, Şimal marşrutu ilə ixrac edirik. Bu ilin aprel ayının 17-də isə ikinci – Qərb neft kəmərini istismara verdik. Bakı-Supsa neft kəməri vasitəsilə də nefti dünya bazarlarına ixrac edirik.

Ötən illər ərzində Azərbaycanın neft strategiyası yeni-yeni mərhələlərinə çatıbdır. Biz artıq 16 müqavilə imzalamışıq və onların da əməli surətdə həyata keçirilməsi ilə məşğuluq.

Məmnuniyyətlə qeyd edirəm ki, bütün bu müqavilələrdə Amerika Birləşmiş Ştatlarının neft şirkətləri görkəmli yer tuturlar. Ötən dövrdə onlar Azərbaycana külli miqdarda investisiya qoyublar və Amerika Birləşmiş Ştatlarının neft şirkətləri demək olar ki, Azərbaycanın Xəzər dənizində, Azərbaycanda neft strategiyasının həyata keçirilməsində aparıcı rol oynayırlar.

Neft strategiyamız dünyada böyük əks-səda yaratmış, dünyanın bir çox ölkələrində maraq və müsbət münasibət doğurmuşdur.

Amma eyni zamanda bizə qarşı əks münasibət də, bizim neft strategiyamıza mane olmaq cəhdləri də müşahidə edilmişdir. Biz bu yolda böyük sınaqlardan keçmişik, böyük çətinliklərin öhdəsindən gəlmişik, böyük maneçiliklərin qarşısını almışıq və bu işlərdə Amerika Birləşmiş Ştatları, onun hökuməti, Amerika Birləşmiş Ştatlarının Prezidenti cənab Bill Klinton, ABŞ-ın Energetika Nazirliyi, Ticarət Nazirliyi, digər nazirliklər, Amerika Birləşmiş Ştatlarının Senatı və Konqresi bizə həmişə dəstək vermiş, yardım etmişlər.

Bütün bunlara görə mən bu gün Sizə, Amerika Birləşmiş Ştatlarının Prezidenti cənab Bill Klintona, bizə dəstək verən bütün nazirliklərə, Konqresə, Senata öz təşəkkürümü minnətdarlığımı bildirirəm.

1994-cü ildən sonra bizim neft müqavilələrinin həyata keçirilməsi sahəsində Azərbaycana qoyulan investisiyaların əksəriyyətini Amerika Birləşmiş Ştatlarının neft şirkətləri qoyublar. Azərbaycana bir milyard dollardan artıq Amerika kapitalı gəlibdir və bu müqavilələrlə, onların həyata keçirilməsi üçün nəzərdə tutulmuş investisiyaların ümumi həcmi 50 milyard dollara qədərdir.

Bu gün "Eksson" şirkətinin Azərbaycan Dövlət Neft Şirkəti ilə imzalayacağı müqavilədə Xəzər dənizinin Azərbaycan sektorunda "Zəfər" və "Məşəl" neft yataqlarında iş görmək üçün 5 milyard dollar həcmində investisiya nəzərdə tutulubdur. "Mobil" şirkətinin Azərbaycan Dövlət Neft Şirkəti ilə imzalayacağı müqavilədə Xəzər dənizinin Azərbaycan sektorunda "Savalan", "Dalğa", "Lerik-dəniz" və "Cənub" neft yataqlarında investisiyanın həcmi 4,5 milyard dollar olacaqdır. "Monkrif Oyl" şirkəti isə "Padar" sahəsində quruda olan neft yataqlarında Azərbaycan Dövlət Neft Şirkəti ilə müqavilə imzalayacaqdır. Senator xanım Hatçinson narahat olmasın, onların üzərinə investisiyanın qalmış hissəsi düşür.

Hörmətli dostlar!

Biz 1997-ci ilin avqust ayının 1-də Vaşinqtonda, Ağ evdə Amerika Birləşmiş Ştatlarının şirkətləri ilə Azərbaycan Dövlət Neft Şirkəti arasında dörd müqavilə imzaladıq. Bizim üçün çox əhəmiyyətlidir ki, ikinci dəfə Amerika Birləşmiş Ştatlarının paytaxtı Vaşinqtonda, bu dəfə Konqresin binasında biz yeni üç neft müqaviləsi imzalayırıq.

Bugünkü hadisənin ən maraqlı cəhəti bir də ondan ibarətdir ki, biz neft sahəsindən kənara çıxıb insanlar üçün çox vacib, əhəmiyyətli olan səhiyyə sahəsində də əməkdaşlığa başlayırıq və burada bu gün bir müqavilə imzalanacaqdır ki, Debeyki mərkəzinin Azərbaycanda ürək-damar xəstəliklərinin müalicə edilməsi üçün yeni bir tibb mərkəzinin yaradılması ilə əlaqədar biz işə başlayırıq. Bunlar hamısı Azərbaycan ilə Amerika Birləşmiş Ştatları arasında əlaqələrin ardıcıl surətdə inkişaf etməsini, möhkəmlənməsini və genişlənməsini sübut edir.

Biz Amerika Birləşmiş Ştatları ilə strateji tərəfdaşlıq əlaqələri yaratmışıq və bu əlaqələr çərçivəsində öz işimizi aparır, bu əlaqələri inkişaf etdirməyə çalışırıq. Neft sahəsində imzaladığımız müqavilələr və artıq əldə etdiyimiz nailiyyətlər ölkələrimiz arasında siyasi, iqtisadi, elmi, mədəni sahələrdə də əlaqələrin inkişaf etməsinə böyük imkanlar yaradır. Biz bunlara yüksək qiymət veririk və sizi əmin edirəm ki, biz bu əlaqələrin gələcəkdə də inkişaf etməsi üçün əlimizdən gələni edəcəyik.

Senator Hatçinson Azərbaycan Prezidentini – məni Amerikanın böyük dostu kimi təqdim etdi. Mən həqiqətən dostam və dostluğumdan da şərəf, qürur hissi duyuram. Biz Amerika Birləşmiş Ştatlarını, hörmətli dostlar, sizi özümüzün böyük dostumuz hesab edirik, bu dostluğa sadiqik və sadiq də olacağıq.

Bizim apardığımız siyasət Azərbaycanın müstəqilliyinin daha da möhkəmlənməsini təmin edibdir. Amerika Birləşmiş Ştatları ilə indi mövcud olan əlaqələrimiz Azərbaycanın müstəqil siyasət aparmasını dünyaya nümayiş etdirib və Azərbaycanın müstəqilliyinin daimi, əbədi olduğunu sübut edir. Əmin ola bilərsiniz ki, Azərbaycan Amerika Birləşmiş Ştatlarının dostu, sədaqətli tərəfdaşı kimi öz öhdəliklərinə həmişə sadiq olacaqdır.

Mən sizin hamınızı bugünkü əlamətdar tarixi hadisə münasibətilə təbrik edirəm. Hamınıza cansağlığı və səadət arzulayıram. Amerika xalqına sülh, əmin-amanlıq, onun hökumətinə və dövlətinə yeni-yeni uğurlar arzulayıram. Sağ olun.

***On doqquzuncu müqavilə:* Azərbaycan Respublikasında *"Padar"* sahəsi və ona bitişik perspektiv strukturların daxil olduğu blokun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında**

| | |
|---|---|
| *Müqavilənin imzalandığı yer:* | *ABŞ, Senatın binası* |
| *İmzalanma tarixi:* | *27 aprel 1999-cu il* |
| *Ratifikasiya tarixi:* | *Qüvvəyə minməsi gözlənilir* |
| *Nəzərdə tutulmuş sərmayələr:* | *400 000 000 $* |
| *Proqnozlaşdırılmış ehtiyatlar:* | *120-150 mln. ton neft* |

## İmzalanma tarixinə tərəflərin iştirak payı




## Tərəflərin bugünkü tarixə iştirak payı




**İştirakçı dövlətlər:** Kanada və Azərbaycan

# AZƏRBAYCAN RESPUBLİKASINDA "PADAR" SAHƏSİ VƏ ONA BİTİŞİK PERSPEKTİV STRUKTURLARIN DAXİL OLDUĞU BLOKUN KƏŞFİYYATI, İŞLƏNMƏSİ VƏ HASİLATIN PAY BÖLGÜSÜ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT NEFT ŞİRKƏTİ İLƏ KURA VALLEY DEVELOPMENT KOMPANİ LTD. ("MONKRİF OYL") VƏ ARDNŞ-NİN ORTAQ NEFT ŞİRKƏTİ ARASINDA SAZİŞİN QƏBUL VƏ TƏSDİQ EDİLMƏSİ, HƏYATA KEÇİRİLMƏSİNƏ İCAZƏ VERİLMƏSİ BARƏDƏ

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında "Padar" sahəsi və ona bitişik perspektiv strukturların daxil olduğu blokun kəşfiyyatı və işlənməsi haqqında" 1999-cu il 19 aprel tarixli, 136 saylı Sərəncamına uyğun olaraq, 1999-cu il aprelin 27-də Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ("ARDNŞ") ilə Kura Valley Development Kompani Ltd. ("Monkrif Oyl") və ARDNŞ-nin Ortaq Neft Şirkəti ("ONŞ") arasında Saziş imzalanmışdır.

**AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ MƏCLİSİ**

Azərbaycan Respublikasının qanunvericiliyində Sazişin əhatə etdiyi məsələlərin tam və müasir tələblərə uyğun olaraq nizamlanmadığını;

Azərbaycan Respublikasının karbohidrogen ehtiyatları haqqında Azərbaycan Respublikası Qanununun olmadığını;

Sazişin şərtlərinə görə onun qanunverici orqan tərəfindən təsdiqindən sonra Qanun olmasını;

bu Qanunun Azərbaycan Respublikasının Konstitusiyasına tam uyğun olduğunu nəzərə alaraq.

Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktına və Azərbaycan Respublikasının Konstitusiyasına əsasən **qərara alır:**

1. "Azərbaycan Respublikasında "Padar" sahəsi və ona bitişik perspektiv strukturların daxil olduğu blokun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında" Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ("ARDNŞ") ilə Kura Valley Development Kompani Ltd. ("Monkrif Oyl") və ARDNŞ-nin Ortaq Neft Şirkəti ("ONŞ") arasında Saziş (bundan sonra "Saziş" adlanacaq) qəbul və təsdiq edilsin, onun həyata keçirilməsinə icazə verilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 19 may tarixli, 92 saylı qərarı ilə Sazişdə iştirak edən Podratçılara verilən Azərbaycan Respublikası Hökumətinin təminatı və öhdəlikləri (bundan sonra Hökumət təminatı adlanacaq) qəbul edilsin və onların həyata keçirilməsinə icazə verilsin.

3. Sazişin əsas mətninə edilmiş doqquz (9) Əlavə, bir (1) Qoşma, habelə Qoşmaya bir (1) Əlavə (bundan sonra "Əlavələr" adlanacaq) qəbul edilsin və onların həyata keçirilməsinə icazə verilsin.

4. Bu Qanun qüvvəyə mindikdən sonra Saziş, Hökumət təminatı və Əlavələr Qanun olurlar. Sazişdə konkret surətdə başqa hallar göstərilməyibsə, Saziş, Hökumət təminatı və Əlavələr Sazişin qüvvədə olduğu müddət ərzində bu Sazişə, Hökumət təminatına və Əlavələrə uyğun gəlməyən və ya zidd olan Azərbaycan Respublikasının hər hansı başqa mövcud və ya qəbul oluna biləcək qanunlarının, fərmanlarının, yaxud inzibati sərəncamlarının (və ya onların hissələrinin) müddəalarından üstün tutulur.

5. Bu Qanun qüvvəyə mindikdən sonra Sazişdə nəzərdə tutulan kontrakt sahəsinin istənilən hissəsi barəsində əvvəllər bağlanmış hər hansı saziş, kontrakt və ya bu cür başqa sənədlə verilə bilən bütün digər hüquq və vəzifələr ləğv edilir, habelə bu Qanun qüvvəyə mindikdən sonra Sazişin, Hökumət təminatının və Əlavələrin şərtlərinə müvafiq surətdə və qüvvədə olduğu bütün müddət ərzində Sazişin pay iştirakçılarına kontrakt sahəsində neft-qaz əməliyyatları aparmaq üçün müstəsna hüquq verilir.

6. Bu Qanun qüvvəyə mindikdən sonra Podratçının (və ya onun hüquq varislərinin) Saziş, Hökumət təminatları və Əlavələr üzrə əldə etdiyi hüquqlar və mənafelər Podratçının qabaqcadan razılığı olmadan dəyişdirilə, düzəldilə və ya azaldıla bilməz.

7. Sazişdən irəli gələn hüquq və öhdəliklərin yerinə yetirilməsi üçün Sazişin iştirakçılarına bütün lazımi lisenziyalar, gömrük icazələri, vizalar, başqa səlahiyyətlər və sanksiyalar verilir.

8. Sazişə və ya Əlavələrə hər hansı əlavələr, düzəlişlər, dəyişikliklər yalnız Sazişin və Əlavələrin tərəflərinin yazılı razılığı ilə edilir.

9. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

**Heydər Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 9 iyun 2000-ci il, № 891-IQ*

## AZƏRBAYCAN RESPUBLİKASINDA "PADAR" SAHƏSİ VƏ ONA BİTİŞİK PERSPEKTİV STRUKTURLARIN DAXİL OLDUĞU BLOKUN KƏŞFİYYATI VƏ İŞLƏNMƏSİ HAQQINDA

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikasında "Padar" sahəsi və ona bitişik perspektiv strukturların daxil olduğu blokun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında Sazişin əsas kommersiya prinsipləri və müddəalarına dair Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə Amerika Birləşmiş Ştatlarının Monkrif Oyl Şirkəti arasında ümumi razılığın əldə edilməsi barədə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin təklifini qəbul edərək **qərara alıram:**

1. Azərbaycan Respublikası Dövlət Neft Şirkətinə Monkrif Oyl Şirkəti ilə birlikdə Azərbaycan Respublikasında "Padar" sahəsi və ona bitişik perspektiv strukturların daxil olduğu blokun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında Sazişin hazırlanması və bağlanması səlahiyyəti verilsin.
2. Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti Azərbaycan Respublikasında "Padar" sahəsi və ona bitişik perspektiv strukturların daxil olduğu blokun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında Saziş hazırlandıqdan sonra onu baxılmaq üçün Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

**Heydər Əliyev**
**Azərbaycan** *Respublikasının Prezidenti*
*Bakı şəhəri, 19 aprel 1999-cu il, № 136*

# "AZƏRBAYCAN RESPUBLİKASINDA PADAR SAHƏSİ VƏ ONA BİTİŞİK PERSPEKTİV STRUKTURLARIN DAXİL OLDUĞU BLOKUN KƏŞFİYYATI, İŞLƏNMƏSİ VƏ HASİLATIN PAY BÖLGÜSÜ HAQQINDA" SAZİŞƏ AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİNİN TƏMİNATI VƏ ÖHDƏLİKLƏRİ HAQQINDA

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 19 aprel tarixli, 136 nömrəli Sərəncamına əsasən Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ("ARDNŞ") və Kura Valley Development Kompani Ltd. ("Monkrif") xarici neft şirkəti arasında "Azərbaycan Respublikasında Padar sahəsi və ona bitişik perspektiv strukturların daxil olduğu blokun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında" Sazişin 1999-cu il aprelin 27-də imzalandığını nəzərə alaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Göstərilən Sazişin 5-ci əlavəsində qeyd olunmuş Azərbaycan Respublikası Hökumətinin təminatı və öhdəlikləri təsdiq edilsin.

(Azərbaycan Respublikası Baş nazirinin yanında 2000-ci il aprelin 5-də keçirilmiş iclasın 4 nömrəli protokolu).

**A.Rasizadə**
*Azərbaycan Respublikasının Baş Naziri*
*Bakı şəhəri, 19 may 2000-ci il, № 92*

***İyirminci müqavilə:*** **Azərbaycan Respublikasında *"Mişovdağ"* və *"Kələməddin"* neft yataqlarının daxil olduğu blokun bərpası, kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında**

| | |
|---|---|
| *Müqavilənin imzalandığı yer:* | *ABŞ, Konqresin binasında* |
| *İmzalanma tarixi:* | *12 sentyabr 2000-ci il* |
| *Ratifikasiya tarixi:* | *Ratifikasiya gözlənilir* |
| *Nəzərdə tutulmuş sərmayələr:* | |
| *Proqnozlaşdırılmış ehtiyatlar:* | |

## İmzalanma tarixinə tərəflərin iştirak payı




## Tərəflərin bugünkü tarixə iştirak payı




**İştirakçı dövlətlər:** ABŞ və Azərbaycan

# AZƏRBAYCAN RESPUBLİKASINDA "MİŞOVDAĞ" VƏ "KƏLAMƏDDİN" NEFT YATAQLARININ DAXİL OLDUĞU BLOKUN BƏRPASI, KƏŞFİYYATI, İŞLƏNMƏSİ VƏ HASİLATIN PAY BÖLGÜSÜ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT NEFT ŞİRKƏTİ ("ARDNŞ") İLƏ KARASU DEVELOPMENT KOMPANİ ("KDK"), PET OYL PETROLEUM ƏND PRODAKTS İNTERNEYŞNL EKSPLOREYŞN ƏND PRODAKŞN İNKORPOREYTED ("PET OYL") VƏ ARDNŞ-NİN ORTAQ NEFT ŞİRKƏTİ ("ONŞ") ARASINDA SAZİŞİN QƏBUL VƏ TƏSDİQ EDİLMƏSİ, HƏYATA KEÇİRİLMƏSİNƏ İCAZƏ VERİLMƏSİ BARƏDƏ

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında "Mişovdağ" və "Kələməddin" neft yataqlarının daxil olduğu blokun bərpası, kəşfiyyatı və işlənməsi haqqında" 2000-ci il 14 avqust tarixli, 502 saylı Sərəncamına uyğun olaraq, 2000-ci il sentyabrın 12-də Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ("ARDNŞ") ilə Karasu Development Kompani ("KDK"), Pet Oyl Petroleum ənd Prodakts İnterneyşnl Eksploreyşn ənd Prodakşn İnkorporeyted ("Pet Oyl") və ARDNŞ-nin Ortaq Neft Şirkəti ("ONŞ") arasında Saziş imzalanmışdır.

**AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ MƏCLİSİ**

Azərbaycan Respublikasının qanunvericiliyində Sazişin əhatə etdiyi məsələlərin tam və müasir tələblərə uyğun olaraq nizamlanmadığını;

Azərbaycan Respublikasının karbohidrogen ehtiyatları haqqında Azərbaycan Respublikası Qanununun olmadığını;

Sazişin şərtlərinə görə onun qanunverici orqan tərəfindən təsdiqindən sonra Qanun olmasını;

bu Qanunun Azərbaycan Respublikasının Konstitusiyasına tam uyğun olduğunu nəzərə alaraq,

Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktına və Azərbaycan Respublikasının Konstitusiyasına əsasən **qərara alır:**

1. "Azərbaycan Respublikasında "Mişovdağ" və "Kələməddin" neft yataqlarının daxil olduğu blokun bərpası, kəşfiyyatı və işlənməsi haqqında" Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ("ARDNŞ") ilə Karasu Development Kompani ("KDK"), Pet Oyl Petroleum ənd Prodakts İnterneyşnl Eksploreyşn ənd Prodakşn İnkorporeyted ("Pet Oyl") və ARDNŞ-nin Ortaq Neft Şirkəti ("ONŞ") arasında Saziş (bundan sonra "Saziş" adlanacaq) qəbul və təsdiq edilsin, onun həyata keçirilməsinə icazə verilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 26 sentyabr tarixli, 175 saylı qərarı ilə Sazişdə iştirak edən Podratçılara verilən Azərbaycan Respublikası Hökumətinin təminatı və öhdəlikləri (bundan sonra "Hökumət təminatı" adlanacaq) qəbul edilsin və onların həyata keçirilməsinə icazə verilsin.

3. Sazişin əsas mətninə edilmiş səkkiz (8) Əlavə, bir (1) Qoşma, habelə Qoşmaya bir (1) Əlavə (bundan sonra "Əlavələr" adlanacaq) qəbul edilsin və onların həyata keçirilməsinə icazə verilsin.

4. Bu Qanun qüvvəyə mindikdən sonra Saziş, Hökumət təminatı və Əlavələr Qanun olurlar. Sazişdə konkret surətdə başqa hallar göstərilməyibsə, Saziş, Hökumət təminatı və Əlavələr Sazişin qüvvədə olduğu müddət ərzində bu Sazişə, Hökumət təminatına və Əlavələrə uyğun gəlməyən və ya zidd olan Azərbaycan Respublikasının hər hansı başqa mövcud və ya qəbul oluna biləcək qanunlarının, fərmanlarının, yaxud inzibati sərəncamlarının (və ya onların hissələrinin) müddəalarından üstün tutulur.

5. Bu Qanun qüvvəyə mindikdən sonra Sazişdə nəzərdə tutulan kontrakt sahəsinin istənilən hissəsi barəsində əvvəllər bağlanmış hər hansı saziş, kontrakt və ya bu cür başqa sənədlə verilə bilən bütün digər hüquq və vəzifələr ləğv edilir, habelə bu Qanun qüvvəyə mindikdən sonra Sazişin, Hökumət təminatının və Əlavələrin şərtlərinə müvafiq surətdə və qüvvədə olduğu bütün müddət ərzində Sazişin pay iştirakçılarına kontrakt sahəsində neft-qaz əməliyyatları aparmaq üçün müstəsna hüquq verilir.

6. Bu Qanun qüvvəyə mindikdən sonra Podratçının (və ya onun hüquq varislərinin) Saziş, Hökumət təminatları və Əlavələr üzrə əldə etdiyi hüquqlar və mənafelər Podratçının qabaqcadan razılığı olmadan dəyişdirilə, düzəldilə və ya azaldıla bilməz.

7. Sazişdən irəli gələn hüquq və öhdəliklərin yerinə yetirilməsi üçün Sazişin iştirakçılarına bütün lazımi lisenziyalar, gömrük icazələri, vizalar, başqa səlahiyyətlər və sanksiyalar verilir.

8. Sazişə və ya Əlavələrə hər hansı əlavələr, düzəlişlər, dəyişikliklər yalnız Sazişin və Əlavələrin tərəflərinin yazılı razılığı ilə edilir.

9. Bu Qanun dərc olunduğu gündən qüvvəyə minir.

**Heydər Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 25 oktyabr 2000-ci il, № 950-IQ*

# AZƏRBAYCAN RESPUBLİKASINDA "MİŞOVDAĞ" VƏ "KƏLAMƏDDİN" NEFT YATAQLARININ DAXİL OLDUĞU BLOKUN BƏRPASI, KƏŞFİYYATI VƏ İŞLƏNMƏSİ HAQQINDA

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikasında "Mişovdağ" və "Kələməddin" neft yataqlarının daxil olduğu blokun bərpası, kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında Sazişin əsas kommersiya prinsipləri və müddəalarına dair Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə Amerika Birləşmiş Ştatlarının Monkrif Oyl İnterneşnl İnkorporeyted şirkəti və Türkiyə Cümhuriyyətinin Pet Oyl Petroleum ənd Petroleum Prodakts İnterneyşnl Eksploreyşn ənd Prodakşn İnkorporeyted şirkəti arasında ümumi razılığın əldə edilməsi barədə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin təklifini qəbul edərək **qərara alıram:**

1. Azərbaycan Respublikası Dövlət Neft Şirkətinə Monkrif Oyl İnterneşnl İnkorporeyted şirkəti və Pet Oyl Petroleum ənd Petroleum Prodakts İnterneyşnl Eksploreyşn ənd Prodakşn İnkorporeyted şirkəti ilə birlikdə Azərbaycan Respublikasında "Mişovdağ" və "Kələməddin" neft yataqlarının daxil olduğu blokun bərpası, kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında Sazişin hazırlanması və bağlanması səlahiyyəti verilsin.
2. Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti Azərbaycan Respublikasında "Mişovdağ" və "Kələməddin" neft yataqlarının daxil olduğu blokun bərpası, kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında Saziş hazırlandıqdan sonra onu baxılmaq üçün Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

**Heydər Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 14 avqust 2000-ci il, № 502*

# "AZƏRBAYCAN RESPUBLİKASINDA "MİŞOVDAĞ" VƏ "KƏLAMƏDDİN" NEFT YATAQLARININ DAXİL OLDUĞU BLOKUN BƏRPASI, KƏŞFİYYATI, İŞLƏNMƏSİ VƏ HASİLATIN PAY BÖLGÜSÜ HAQQINDA" SAZİŞƏ AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİNİN TƏMİNATI VƏ ÖHDƏLİKLƏRİ HAQQINDA

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

"Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 14 avqust tarixli, 502 nömrəli Sərəncamına əsasən Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti (ARDNŞ) və Karasu Development Kompani Ltd. (KDK), Pet Oyl Petroleum ənd Petroleum Prodakts İnterneyşnl Eksploreyşn ənd Prodakşn İnkorporeyted (Pet Oyl) xarici neft şirkətləri arasında Azərbaycan Respublikasında Mişovdağ və Kələməddin neft yataqlarının daxil olduğu blokun bərpası, kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında" Sazişin 2000-ci il sentyabrın 12-də imzalandığını nəzərə alaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Göstərilən Sazişin 5-ci əlavəsində qeyd olunmuş Azərbaycan Respublikası Hökumətinin təminatı və öhdəlikləri təsdiq edilsin.

(Azərbaycan Respublikası Baş nazirinin yanında 2000-ci il sentyabrın 26-da keçirilmiş iclasın 7 nömrəli protokolu).

**A.Rasizadə**
*Azərbaycan Respublikasının Baş Naziri*
*Bakı şəhəri, 26 sentyabr 2000-ci il, № 175*

# MÜQAVİLƏNİN İMZALANMA MƏRASİMİNDƏ AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN NİTQİ

*ABŞ Konqresinin "Mənsfild" otağında,*
*12 sentyabr 2000-ci il*

– Hörmətli senator xanım Hatçinson!

Hörmətli senator cənab Qrem!

Hörmətli senator cənab Stivens!

Hörmətli dostlar!

Hörmətli xanımlar və cənablar!

Mən sizin hamınızı burada, Amerika Birləşmiş Ştatlarının paytaxtı Vaşinqtonda, Kapitolidə, bu tarixi binada, tarixi bir təşkilatın yerləşdiyi yerdə səmimi qəlbdən salamlayıram. Sizə həm öz salamımı, həm də bütün müstəqil Azərbaycanın salamını çatdırıram və hamınıza ən xoş arzularımı bildirirəm.

Biz bu gün Amerika Birləşmiş Ştatları ilə Azərbaycan arasındakı əlaqələrin inkişaf etməsi və irəliyə getməsində yeni bir əlamətdar hadisənin şahidiyik. Azərbaycan öz dövlət müstəqilliyini əldə edəndən sonra, 1994-cü ildən etibarən ölkəmizin enerji ehtiyatlarının – həm Xəzər dənizinin Azərbaycan sektorunda olan neft və qaz yataqlarının, həm də quruda olan neft və qaz yataqlarının dünyanın böyük neft şirkətləri ilə, birinci növbədə Amerika Birləşmiş Ştatlarının böyük neft şirkətləri ilə müştərək işlənilməsi prosesinə başlamışıq. İlk addımlarımız çox çətin, ağır olubdur. Böyük müqavimətlərlə, böyük təzyiqlərlə rastlaşıbdır.

Ancaq bunlara baxmayaraq, biz öz iradəmizdən dönməmişik və bu sahədə tutduğumuz yolun doğru olduğunu dərk edərək bu yol ilə getmişik və bu gün də gedirik.

1994-cü il sentyabr ayının 20-də biz, ilk böyük müqavilə imzaladıq. Dünyanın 11 böyük neft şirkəti, – onların əksəriyyətini Amerika Birləşmiş Ştatlarının şirkətləri təşkil edirdilər, – bir yerə toplaşıb konsorsium təşkil etdilər və Azərbaycan dövləti ilə, Azərbaycan Dövlət Neft Şirkəti ilə ilk müqavilə imzaladılar. Bu müqavilə dünyada böyük əks-səda doğurdu,

hay-küyə səbəb oldu və heç bilmirəm, kimsə bu müqavilənin adını "Əsrin müqaviləsi" qoydu. Hər halda bu ifadəni mən ilk dəfə Amerika Birləşmiş Ştatlarının Prezidenti cənab Bill Klintonun bu müqavilə münasibətilə mənə yazdığı məktubda gördüm. Ondan sonra "Əsrin müqaviləsi" adı, demək olar ki, dünyada "vətəndaşlıq" qazandı.

Çətin bir dövr idi. Biz cəmi üç il idi müstəqil dövlət idik. Ermənistan ilə Azərbaycan arasında müharibə gedirdi. Bilirsiniz ki, müharibə Ermənistanın Azərbaycana qarşı torpaq iddiası ilə əlaqədardır və təəssüflər olsun ki, müxtəlif səbəblərdən bu müharibə nəticəsində Ermənistan silahlı qüvvələri Azərbaycan ərazisinin 20 faizini işğal etməyə nail oldular. İşğal olunmuş ərazilərdən bir milyondan artıq azərbaycanlı zorla yerindən-yurdundan çıxarıldı. Onlar indiyə qədər çadırlarda yaşayırlar.

Mən xatırlayıram. 1994-cü il sentyabr ayının 20-də biz bu müqaviləni Bakıda, "Gülüstan" sarayında təntənə ilə imzalayanda o vaxt Azərbaycanda baş nazir olan, amma həqiqətən çox mənfi bir şəxs söyləmişdi ki, biz bunu bir-iki günə cırıb atacağıq. Müqaviləni cırıb ata bilmədilər. Ancaq həmin qüvvələr bu müqavilənin qarşısını almaq üçün, Amerika Birləşmiş Ştatları ilə bizim əlaqələrimizin yaranmasının qarşısını almaq üçün bir həftədən sonra Azərbaycanda silahlı dövlət çevrilişi cəhdi göstərdilər. Ancaq bizim xalqımız müstəqil Azərbaycan dövlətini, onun Prezidentini müdafiə etdi. Silahsız bir milyon vətəndaş Prezident sarayının ətrafına toplaşdı. Ona görə silahlı adamlar bizə heç bir şey edə bilmədilər.

Sonrakı dövrlər də bizim üçün çox çətin idi. Çünki həm Azərbaycanın daxilində olan bəzi qüvvələr, həm də Azərbaycanı öz təsir dairəsində saxlamaq istəyən ölkələr Azərbaycanın Amerika Birləşmiş Ştatları ilə yaranmış və sürətlə inkişaf edən əlaqələrini istəmirdilər, bunun qarşısını almaq istəyirdilər.

Ötən altı il müddətində biz bu yol ilə gedərək çox böyük müqavimətlərlə rastlaşdıq. Əgər bu tarixi sizə danışsam, gərək məni beş-altı saat dinləyəsiniz. Amma mən bunu etmərəm. Sadəcə, onu demək istəyirəm ki, biz bu işləri nə qədər ağır vəziyyətdə başlamışıq. İndi isə biz qalibik. Tutduğumuz yolda çox böyük nailiyyətlər əldə etmişik.

Bu gün 20-ci müqavilə imzalanır. Onlardan bir qismi Azərbaycanda imzalanıbdır. Mən 1997-ci ildə Vaşinqtonda olarkən Ağ evdə dörd müqavilə imzalandı. "Monkrif Oyl" ilə müqavilə keçən il bu binada imzalandı. İndiyədək bunların sayı 19 idi. 20-cisi bu gün imzalanır. Bunların böyük gələcəyi vardır. XXI əsrdə bizim övladlarımız, bizdən sonra gələn nəsil bunlardan çox səmərəli istifadə edəcəkdir. Ancaq indi də biz bunun müsbət nəticələrini görürük.

Bəli, "Çıraq" yatağından ilk neftin alınmasını biz qarşımıza məqsəd qoyduq və 1997-ci ildə oradan ilk neft aldıq. Çox gözəl, müasir bir platforma yaratdıq. Artıq indi orada 10 milyon tondan çox neft hasil olunub və iki boru kəməri ilə – Bakı-Novorosiysk, Bakı-Supsa boru kəmərləri ilə bu nefti birlikdə ixrac edirik.

Əsas ixrac boru kəməri isə “Bakı–Tbilisi–Ceyhan”dır. Bunun üzərində biz bir neçə il işlədik və Amerika Birləşmiş Ştatlarının hökuməti, Prezidenti və nazirləri bu sahədə çox çalışdılar. Nəhayət, biz keçən ilin noyabr ayında İstanbulda, ATƏT-in zirvə görüşü zamanı bu müqaviləni imzaladıq. Dörd respublikanın prezidenti ilə bərabər, Amerikanın Prezidenti cənab Bill Klinton da imzaladı.

Bizim parlamentdə artıq bu müqaviləni ratifikasiya ediblər. İndi biz “Bakı–Tbilisi–Ceyhan” neft kəmərinin tikintisinə başlayırıq. Bu proqramın da qarşısını almaq istəyirlər. Ancaq bizim iradəmiz möhkəmdir. Xüsusən Amerika Birləşmiş Ştatları, onun hökuməti, Konqresi bu proqrama çox böyük əhəmiyyət verir. İndi artıq bizim üçün çətinliklərin qarşısını almaq əvvəlkilərə nisbətən asandır. O vaxt tək idik. Amma indi dünyanın 14 ölkəsini təmsil edən 30 böyük neft şirkəti Azərbaycanda iş görür.

İmzalanmış müqavilələr üzrə Azərbaycana bu sahədə 60 milyard dollara qədər investisiya qoyulacaqdır. Bu işlərin təxminən 30 faizi Amerika Birləşmiş Ştatlarının şirkətlərinə aiddir. Siz bəzi şirkətlərinizi əlinizdə saxlaya bilmədiniz. Çünki “Əsrin müqaviləsi”nin əsasını qoyanlardan biri olan “AMOKO” şirkəti “BP” ilə birləşdi. “Arko”da “BP” ilə birləşdi. Amma bu sizin işinizdir. Biz buna qarışmırıq. Əsas odur ki, biz bu şirkətlərlə əməkdaşlıq edirik. Amma hansı şirkət daha çox başqa şirkəti əlinə alırsa, təbiidir ki, o, hər şeyə nəzarət edir. Dünən öyrəndim ki, “Şevron” şirkəti hələ ki, öz müstəqilliyini qoruyubdur.

Müstəqillik bizim üçün çox müqəddəs anlayışdır. Biz dövlət müstəqilliyini göz bəbəyimiz kimi qoruyuruq və qoruyacağıq. Əgər Azərbaycan öz dövlət müstəqilliyini əldə etməsəydi, indi biz bu cür böyük işlər görə bilməzdik. Mən də Vaşinqtonda, Kapitolidə sizinlə bərabər otura bilməzdim. Azərbaycanın dövlət müstəqilliyi, Azərbaycan-Amerika dostluq, əməkdaşlıq əlaqələri bütün bu müqavilələrin həyata keçirilməsinin əsas təminatıdır.

Son beş ildə Amerika Birləşmiş Ştatlarının şirkətləri Azərbaycana 1 milyard 600 milyon dollar investisiya qoyublar. Bunun 1 milyard 400 milyon dolları neft sektoruna aiddir. Ümumiyyətlə, beş ildə Azərbaycana 5,2 milyard dollar xarici investisiya gəlibdir. Yəni inkişafımız üçün çox gözəl əsas yaratmışıq. Bu işlərimizdə biz Amerika Birləşmiş Ştatlarına arxalanırıq, güvənirik. Hesab edirik ki, Amerika Birləşmiş Ştatlarının dövləti, hökuməti bizi heç vaxt çətinlikdə qoymayacaqlar.

Keçən il biz burada “Monkrif Oyl” şirkəti ilə bir müqavilə imzaladıq. Bu şirkəti mənə təqdim edəndə bir çox mötəbər insanlar şirkət haqqında, onun tarixi barədə çox gözəl fikirlər söylədilər. Bu şirkət bir ailəyə məxsus olan şirkətdir və bu ailə də Amerika Birləşmiş Ştatlarında çox böyük hörmətə malikdir. Bu bizim üçün çox əhəmiyyətlidir. Müqaviləni imzalamaq haqqında təklif gələndə, təbiidir ki, bizim müəyyən suallarımız

var idi. Amma onları da həll etdik və bu gün böyük məmnuniyyətlə ikinci müqavilənin imzalanmasında sizinlə bərabər iştirak edirəm.

“Monkrif Oyl”un həm birinci, həm də ikinci müqaviləsi Azərbaycanın quru sektorunda olan neft yataqlarına aiddir. Bizim mütəxəssislər, geoloqlar hesab edirlər ki. 1848-ci ildən Azərbaycanda sənaye üsulu ilə neft hasil olur. Hələ indiyə qədər Azərbaycanın quru hissəsində neftin 70 faizi hələ çıxarılmayıbdır. Ona görə “Monkrif Oyl” şirkətinin məhz bu yataqlara maraq göstərməsi bizim üçün həm konkret bu fakta görə, həm də gələcək işlərimiz üçün çox əhəmiyyətlidir. Əmin ola bilərsiniz ki, başqa müqavilələrdən fərqli olaraq, mən bu müqavilənin həyata keçirilməsinə xüsusi diqqət verəcəyəm və lazım olan bütün yardımları edəcəyəm.

Mən bu hadisə münasibətilə sizi təbrik edirəm. “Monkrif Oyl” şirkətinə Azərbaycanda böyük uğurlar arzulayıram. Şübhə etmirəm ki, bu gün imzalanmış müqavilənin əməli nəticələrini yaxın vaxtlarda görəcəyik.

Sağ olun. Təşəkkür edirəm.

***İyirmi birinci müqavilə:* Azərbaycan Respublikasında *"Zığ"* və *"Hövsan"* neft yataqlarının daxil olduğu blokun bərpası, kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında**

| | |
|---|---|
| *Müqavilənin imzalandığı yer:* | *Bakı şəhəri, Prezident sarayı* |
| *İmzalanma tarixi:* | *9 yanvar 2001-ci il* |
| *Ratifikasiya tarixi:* | |
| *Nəzərdə tutulmuş sərmayələr:* | |
| *Proqnozlaşdırılmış ehtiyatlar:* | |

**İmzalanma tarixinə tərəflərin iştirak payı**




**Tərəflərin bugünkü tarixə iştirak payı**




**İştirakçı dövlətlər:** Rusiya və Azərbaycan

# AZƏRBAYCAN RESPUBLİKASINDA "ZIĞ" VƏ "HÖVSAN" NEFT YATAQLARININ DAXİL OLDUĞU BLOKUN BƏRPASI, KƏŞFİYYATI, İŞLƏNMƏSİ VƏ HASİLATIN PAY BÖLGÜSÜ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT NEFT ŞİRKƏTİ ("ARDNŞ") İLƏ LUKOYL OVERSİZ ABŞERON LTD. ("LUKOYL") VƏ ARDNŞ-NİN ORTAQ NEFT ŞİRKƏTİ ("ONŞ") ARASINDA SAZİŞİN QƏBUL VƏ TƏSDİQ EDİLMƏSİ, HƏYATA KEÇİRİLMƏSİNƏ İCAZƏ VERİLMƏSİ BARƏDƏ

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında "Zığ" və "Hövsan" neft yataqlarının daxil olduğu blokun bərpası, kəşfiyyatı və işlənməsi haqqında" 2000-ci il 25 dekabr tarixli, 595 saylı Sərəncamına uyğun olaraq 2001-ci il yanvarın 9-da Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ("ARDNŞ") ilə Lukoyl Oversiz Abşeron Ltd. ("LUKoyl") və ARDNŞ-nin Ortaq Neft Şirkəti ("ONŞ") arasında Saziş imzalanmışdır.

**AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ MƏCLİSİ**

Azərbaycan Respublikasının qanunvericiliyində Sazişin əhatə etdiyi məsələlərin tam və müasir tələblərə uyğun olaraq nizamlanmadığını;

Azərbaycan Respublikasının karbohidrogen ehtiyatları haqqında Azərbaycan Respublikası Qanununun olmadığını;

Sazişin şərtlərinə görə onun qanunverici orqan tərəfindən təsdiqindən sonra Qanun olmasını;bu Qanunun Azərbaycan Respublikasının Konstitusiyasına tam uyğun olduğunu nəzərə alaraq, Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktına və Azərbaycan Respublikasının Konstitusiyasına əsasən qərara alır:

1. "Azərbaycan Respublikasında "Zığ" və "Hövsan" neft yataqlarının daxil olduğu blokun bərpası, kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında" Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ("ARDNŞ") ilə Lukoyl Oversiz Abşeron Ltd. ("LUKoyl") və ARDNŞ-nin Ortaq Neft Şirkəti ("ONŞ") arasında Saziş (bundan sonra "Saziş" adlanacaq) qəbul və təsdiq edilsin, onun həyata keçirilməsinə icazə verilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 8 fevral tarixli, 35 saylı qərarı ilə Sazişdə iştirak edən Podratçılara verilən Azərbaycan Respublikası Hökumətinin təminatı və öhdəlikləri (bundan sonra "Hökumət təminatı" adlanacaq) qəbul edilsin və onların həyata keçirilməsinə icazə verilsin.

3. Sazişin əsas mətninə edilmiş on bir (11) Əlavə, 1 (bir) Qoşma, habelə Qoşmaya bir (1) Əlavə (bundan sonra "Əlavələr" adlanacaq) qəbul edilsin və onların həyata keçirilməsinə icazə verilsin.

4. Bu Qanun qüvvəyə mindikdən sonra Saziş, Hökumət təminatı və Əlavələr qanun olurlar. Sazişdə konkret surətdə başqa hallar göstərilməyibsə, Saziş, Hökumət təminatı və Əlavələr Sazişin qüvvədə olduğu müddət ərzində bu Sazişə, Hökumət təminatına və Əlavələrə uyğun gəlməyən və ya zidd olan Azərbaycan Respublikasının hər hansı başqa mövcud və ya qəbul oluna biləcək qanunlarının, fərmanlarının, yaxud inzibati sərəncamlarının (və ya onların hissələrinin) müddəalarından üstün tutulur.

5. Bu Qanun qüvvəyə mindikdən sonra Sazişdə nəzərdə tutulan kontrakt sahəsinin istənilən hissəsi barəsində əvvəllər bağlanmış hər hansı saziş, kontrakt və ya bu cür başqa sənədlə verilə bilən bütün digər hüquq və vəzifələr ləğv edilir, habelə bu Qanun qüvvəyə mindikdən sonra Sazişin, Hökumət təminatının və Əlavələrin şərtlərinə müvafiq surətdə və qüvvədə olduğu bütün müddət ərzində Sazişin pay iştirakçılarına kontrakt sahəsində neft-qaz əməliyyatları aparmaq üçün müstəsna hüquq verilir.

6. Bu Qanun qüvvəyə mindikdən sonra Podratçının (və ya onun hüquqi varislərinin) Saziş, Hökumət təminatları və Əlavələr üzrə əldə etdiyi hüquqlar və mənafelər Podratçının qabaqcadan razılığı olmadan dəyişdirilə, düzəldilə və ya azaldıla bilməz.

7. Sazişdən irəli gələn hüquq və öhdəliklərin yerinə yetirilməsi üçün Sazişin iştirakçılarına bütün lazımi lisenziyalar, gömrük icazələri, vizalar, başqa səlahiyyətlər və sanksiyalar verilir.

8. Sazişə və ya Əlavələrə hər hansı əlavələr, düzəlişlər, dəyişikliklər yalnız Sazişin və Əlavələrin tərəflərinin yazılı razılığı ilə edilir.

9. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

**Heydər Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 12 iyun 2001-ci il, № 143-IIQ*

# AZƏRBAYCAN RESPUBLİKASINDA “ZIĞ” VƏ “HÖVSAN” NEFT YATAQLARININ DAXİL OLDUĞU BLOKUN BƏRPASI, KƏŞFİYYATI VƏ İŞLƏNMƏSİ HAQQINDA

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikasında “Zığ” və “Hövsan” neft yataqlarının daxil olduğu blokun bərpası, kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında Sazişin əsas kommersiya prinsipləri və müddəalarına dair Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə Rusiya Federasiyasının “LUKoyl” Neft Şirkəti” ASC (LUKOYL) arasında ümumi razılığın əldə edilməsi barədə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin təklifini qəbul edərək **qərara alıram:**

1. Azərbaycan Respublikası Dövlət Neft Şirkətinə “LUKoyl” Neft Şirkəti ASC (LUKOYL) ilə birlikdə Azərbaycan Respublikasında “Zığ” və “Hövsan” neft yataqlarının daxil olduğu blokun bərpası, kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında Sazişin hazırlanması və bağlanması səlahiyyəti verilsin.
2. Azərbaycan Respublikası Dövlət Neft Şirkəti Azərbaycan Respublikasında “Zığ” və “Hövsan” neft yataqlarının daxil olduğu blokun bərpası, kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında Saziş hazırlandıqdan sonra onu baxılmaq üçün Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

**Heydər Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 25 dekabr 2000-ci il, № 595*

# "AZƏRBAYCAN RESPUBLİKASINDA "ZIĞ" VƏ "HÖVSAN" NEFT YATAQLARININ DAXİL OLDUĞU BLOKUN BƏRPASI, KƏŞFİYYATI, İŞLƏNMƏSİ VƏ HASİLATIN PAY BÖLGÜSÜ HAQQINDA" SAZİŞƏ AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİNİN TƏMİNATI VƏ ÖHDƏLİKLƏRİ HAQQINDA

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 dekabr tarixli, 595 nömrəli Sərəncamına əsasən Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti (ARDNŞ) və Rusiya Federasiyasının "LUKoyl" Neft Şirkəti ASC (LUKOYL) arasında "Azərbaycan Respublikasında "Zığ" və "Hövsan" neft yataqlarının daxil olduğu blokun bərpası, kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında" Sazişin 2001-ci il yanvarın 9-da imzalandığını nəzərə alaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Göstərilən Sazişin 5-ci əlavəsində qeyd olunmuş Azərbaycan Respublikası Hökuməti–nin təminatı və öhdəlikləri təsdiq edilsin.

(Azərbaycan Respublikası Baş nazirinin yanında 2001-ci il fevralın 8-də keçirilmiş iclasın 1 nömrəli protokolu).

**A.Rasizadə**
*Azərbaycan Respublikasının Baş Naziri*
*Bakı şəhəri, 8 fevral 2001-ci il, № 35*

***İyirmi ikinci müqavilə:*** **Azərbaycan Respublikasında *"Pirsaat"* neft yatağı və ona bitişik sahələr daxil olduğu blokun bərpası, kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında**

| | |
|---|---|
| *Müqavilənin imzalandığı yer:* | |
| *İmzalanma tarixi:* | *6 iyun 2003-cü il* |
| *Ratifikasiya tarixi:* | |
| *Nəzərdə tutulmuş sərmayələr:* | |
| *Proqnozlaşdırılmış ehtiyatlar:* | |

## İmzalanma tarixinə tərəflərin iştirak payı




## Tərəflərin bugünkü tarixə iştirak payı




**İştirakçı dövlətlər:** Çin və Azərbaycan

# AZƏRBAYCAN RESPUBLİKASINDA "PİRSAAT NEFT YATAĞI VƏ ONA BİTİŞİK SAHƏLƏR DAXİL OLDUĞU BLOKUN BƏRPASI, KƏŞFİYYATI, İŞLƏNMƏSİ VƏ HASİLATIN PAY BÖLGÜSÜ HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT NEFT ŞİRKƏTİ, ŞENQ Lİ OYLFİLD ŞENQ DA QRUP KOMPANİ VƏ ARDNŞ-NİN ORTAQ NEFT ŞİRKƏTİ ARASINDA SAZİŞİN QƏBUL VƏ TƏSDİQ EDİLMƏSİ, HƏYATA KEÇİRİLMƏSİNƏ İCAZƏ VERİLMƏSİ BARƏDƏ

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikası Prezidentinin "Pirsaat neft yatağı və ona bitişik ərazilərin daxil olduğu blokun bərpası, kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında" 2003-cü il 21 may tarixli, 1230 saylı Sərəncamına uyğun olaraq, 2003-cü il iyunun 4-də Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ("ARDNŞ") ilə Çin Xalq Respublikasının Şenq Li Oylfild Şenq Da Qrup Kompani ("Şenq Li") və ARDNŞ-nin Ortaq Neft Şirkəti ("ONŞ") arasında Saziş bağlanmışdır.

**AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ MƏCLİSİ**

Azərbaycan Respublikasının qanunvericiliyində Sazişin əhatə etdiyi məsələlərin tam və müasir tələblərə uyğun olaraq nizamlanmadığını;

Azərbaycan Respublikasının karbohidrogen ehtiyatları haqqında Azərbaycan Respublikası Qanununun olmadığını;

Sazişin şərtlərinə görə onun qanunverici orqan tərəfindən təsdiqindən sonra Qanun olmasını;

bu Qanunun Azərbaycan Respublikasının Konstitusiyasına tam uyğun olduğunu nəzərə alaraq,

Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktına və Azərbaycan Respublikasının Konstitusiyasına əsasən **qərara alır:**

1. Azərbaycan Respublikasında "Pirsaat neft yatağı və ona bitişik sahələrin daxil olduğu blokun bərpası, kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında" Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti, Şenq Li Oylfild Şenq Da Qrup Kompani və ARDNŞ-nin Ortaq Neft Şirkəti arasında Saziş (bundan sonra "Saziş" adlanacaq) qəbul və təsdiq edilsin, onun həyata keçirilməsinə icazə verilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 31 iyul tarixli, 97 saylı qərarı ilə Sazişdə iştirak edən Podratçılara verilən Azərbaycan Respublikası Hökumətinin təminatı və öhdəlikləri (bundan sonra "Hökumət təminatı" adlanacaq) qəbul edilsin və onların həyata keçirilməsinə icazə verilsin.

3. Sazişin əsas mətninə edilmiş on (10) Əlavə və bir (1) Qoşma (bundan sonra "Əlavələr" adlanacaq) qəbul edilsin və onların həyata keçirilməsinə icazə verilsin.

4. Bu Qanun qüvvəyə mindikdən sonra Saziş, Hökumət təminatı və Əlavələr qanun olurlar. Sazişdə konkret surətdə başqa hallar göstərilməyibsə, Saziş, Hökumət təminatı və Əlavələr Sazişin qüvvədə olduğu müddət ərzində bu Sazişə, Hökumət təminatına və Əlavələrə uyğun gəlməyən və ya zidd olan Azərbaycan Respublikasının hər hansı başqa mövcud və ya qəbul oluna biləcək qanunlarının, fərmanlarının, yaxud inzibati sərəncamlarının (və ya onların hissələrinin) müddəalarından üstün tutulur.

5. Bu Qanun qüvvəyə mindikdən sonra Sazişdə nəzərdə tutulan kontrakt sahəsinin istənilən hissəsi barəsində əvvəllər bağlanmış hər hansı saziş, kontrakt və ya bu cür başqa sənədlə verilə bilən bütün digər hüquq və vəzifələr ləğv edilir, habelə bu qanun qüvvəyə mindikdən sonra Sazişin, Hökumət təminatının və Əlavələrin şərtlərinə müvafiq surətdə və qüvvədə olduğu bütün müddət ərzində Sazişin pay iştirakçılarına kontrakt sahəsində neft-qaz əməliyyatları aparmaq üçün müstəsna hüquq verilir.

6. Bu Qanun qüvvəyə mindikdən sonra Podratçının (və ya onun hüquq varislərinin) Saziş, Hökumət təminatları və Əlavələr üzrə əldə etdiyi hüquqlar və mənafelər Podratçının qabaqcadan razılığı olmadan dəyişdirilə, düzəldilə və ya azaldıla bitməz.

7. Sazişdən irəli gələn hüquq və öhdəliklərin yerinə yetirilməsi üçün Sazişin iştirakçılarına bütün lazımi lisenziyalar, gömrük icazələri, vizalar, başqa səlahiyyətlər və sanksiyalar verilir.

8. Sazişə və ya Əlavələrə hər hansı əlavələr, düzəlişlər, dəyişikliklər yalnız Sazişin və Əlavələrin tərəflərinin yazılı razılığı ilə edilir.

9. Bu Qanun dərc olunduğu gündən qüvvəyə minir.

**İlham Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 2 dekabr 2003-cü il, № 522-IIQ*

## "PİRSAAT" NEFT YATAĞININ VƏ BİTİŞİK ƏRAZİLƏRİN DAXİL OLDUĞU BLOKUNBƏRPASI, KƏŞFİYYATI, İŞLƏNMƏSİ VƏ HASİLATIN PAY BÖLGÜSÜ HAQQINDA

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

"Pirsaat" neft yatağının və bitişik ərazilərin daxil olduğu blokun bərpası, kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında Sazişin əsas kommersiya prinsipləri və müddəaları üzrə Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə Çin Xalq Respublikasının Şenq Li Oyl Fild Ltd şirkəti arasında ümumi razılığın əldə edilməsi barədə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin təklifini qəbul edərək **qərara alıram:**

1. Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinə "Pirsaat" neft yatağının və bitişik ərazilərin daxil olduğu blokun bərpası, kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə Çin Xalq Respublikasının Şenq Li Oyl Fild Ltd şirkəti arasında Sazişin hazırlanması və imzalanması səlahiyyəti verilsin.
2. Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti "Pirsaat" neft yatağının və bitişik ərazilərin daxil olduğu blokun bərpası, kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə Çin Xalq Respublikasının Şenqli Oyl Fild Ltd şirkəti arasında Sazişin qüvvədə olduğu müddət ərzində həmin Saziş üzrə dövlətin səlahiyyətlərinə aid olan məsələlər üzrə funksiyaları həyata keçirsin.
3. Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti "Pirsaat" neft yatağının və bitişik ərazilərin daxil olduğu blokun bərpası, kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında Saziş hazırlandıqdan sonra onu baxılmaq üçün Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

**Heydər Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 21 may 2003-cü il, № 1230*

# AZƏRBAYCAN RESPUBLİKASINDA "PİRSAAT NEFT YATAĞININ VƏ BİTİŞİK ƏRAZİLƏRİN DAXİL OLDUĞU BLOKUN BƏRPASI, KƏŞFİYYATI, İŞLƏNMƏSİ VƏ HASİLATIN PAY BÖLGÜSÜ HAQQINDA" SAZİŞƏ AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİNİN TƏMİNATI VƏ ÖHDƏLİKLƏRİ HAQQINDA

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 21 may tarixli, 1230 nömrəli Sərəncamına əsasən Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti və Çin Xalq Respublikasının ŞENQLİ OYLFİLD ŞEN DA QRUP KOMPANİ (Şenqli Oyl Fild Ltd) şirkəti arasında "Azərbaycan Respublikasında Pirsaat neft yatağının və bitişik ərazilərin daxil olduğu blokun bərpası, kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında" Sazişin 2003-cü il iyunun 4-də imzalandığını nəzərə alaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Göstərilən Sazişin 5-ci əlavəsində qeyd olunmuş Azərbaycan Respublikası Hökumətinin təminatı və öhdəlikləri təsdiq edilsin.
2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**A.Rasizadə**
*Azərbaycan Respublikasının Baş Naziri*
*Bakı şəhəri, 31 iyul 2003-cü il, № 97*


1994-2003-cü illər Azərbaycanda neft hasilatı
Neftin həcmi min tonla
16000
14000
12000
10000
8000
6000
4000
2000
0
ABƏŞ
ARDNŞ
1994 1995 1996 1997 1998 1999 2000 2001 2002 2003
ABƏŞ 0 0 0 50 2371 4814 5072,8 5897,4 6386,5 6456
ARDNŞ 9562,7 9161,3 9100,3 9021,8 9052,8 8993 8944 9012,1 8945,7 8922,2


1994-2003-cü illər Azərbaycanda qaz hasilatı
Qazın həcmi mln. kub m-lə
7000
6000
5000
4000
3000
2000
1000
0
ABƏŞ
ARDNŞ
1994 1995 1996 1997 1998 1999 2000 2001 2002 2003
ABƏŞ 0 0 0 0 350,8 643,1 643,4 898,9 958,8 1015
ARDNŞ 6379 6644 6305 5964 5239 5356 5015 4648 4192 4192


NEFT VƏ QAZ SƏNAYESİNƏ QOYULAN SƏRMAYƏLƏR, mln. ABŞ dollar ilə
7000
6000
5000
4000
3000
2000
1000
0
1994 1995 1996 1997 1998 1999 2000 2001 2002
illər üzrə
toplanmış

# ƏLAVƏLƏR

# XƏZƏR DƏNİZİNİN AZƏRBAYCAN SEKTORUNDA ABŞERON DƏNİZ BLOKUNUN KƏŞFİYYATI, İŞLƏNMƏSİ VƏ HASİLATIN PAY BÖLGÜSÜ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT NEFT ŞİRKƏTİ, TOTAL E&P ABŞERON B.V. VƏ ARDNŞ-İN ORTAQ NEFT ŞİRKƏTİ ARASINDA SAZİŞİN QƏBUL VƏ TƏSDİQ EDİLMƏSİ, HƏYATA KEÇİRİLMƏSİNƏ İCAZƏ VERİLMƏSİ BARƏDƏ

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikası Prezidentinin "Xəzər dənizinin Azərbaycan sektorunda Abşeron Dəniz Blokunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında" 2008-ci il 17 noyabr tarixli 48 nömrəli Sərəncamına uyğun olaraq, 2009-cu il fevralın 27-də Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ("ARDNŞ") ilə Total E&P Abşeron Bi.Vi.("Total") və ARDNŞ-in Ortaq Neft Şirkəti ("ONŞ") arasında Saziş bağlanmışdır.

**AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ MƏCLİSİ**

Azərbaycan Respublikasının qanunvericiliyində Sazişin əhatə etdiyi məsələlərin tam və müasir tələblərə uyğun olaraq nizamlanmadığını;

Azərbaycan Respublikasının karbohidrogen ehtiyatları haqqında Azərbaycan Respublikası Qanununun olmamasını;

Sazişin şərtlərinə görə onun qanunverici orqan tərəfindən təsdiqindən sonra Qanun olmasını; bu Qanunun Azərbaycan Respublikasının Konstitusiyasına tam uyğun olduğunu nəzərə alaraq,

Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktına və Azərbaycan Respublikasının Konstitusiyasına əsasən **qərara alır:**

1. "Xəzər dənizinin Azərbaycan sektorunda Abşeron Dəniz Blokunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında" Azərbaycan Respublikasının Dövlət Neft

Şirkəti, Total E&P Abşeron Bi.Vi. və ARDNŞ-in Ortaq Neft Şirkəti arasında Saziş (bundan sonra "Saziş" adlanacaq) qəbul və təsdiq edilsin, onun həyata keçirilməsinə icazə verilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 7 aprel tarixli 57 nömrəli qərarı ilə Sazişdə iştirak edən Podratçılara verilən Azərbaycan Respublikası Hökumətinin təminatı və öhdəlikləri (bundan sonra "Hökumət təminatı" adlanacaq) qəbul edilsin və onların həyata keçirilməsinə icazə verilsin.

3. Sazişin əsas mətninə edilmiş on (10) Əlavə və bir (1) Qoşma (bundan sonra "Əlavələr" adlanacaq) qəbul edilsin və onların həyata keçirilməsinə icazə verilsin.

4. Bu Qanun qüvvəyə mindikdən sonra Saziş, Hökumət təminatı və Əlavələr Qanun olurlar. Sazişdə konkret surətdə başqa hallar göstərilməyibsə, Saziş, Hökumət təminatı və Əlavələr Sazişin qüvvədə olduğu müddət ərzində bu Sazişə, Hökumət təminatına və Əlavələrə uyğun gəlməyən və ya zidd olan Azərbaycan Respublikasının hər hansı başqa mövcud və ya qəbul oluna biləcək qanunlarının, fərmanlarının, yaxud inzibati sərəncamlarının (və ya onların hissələrinin) müddəalarından üstün tutulur.

5. Bu Qanun qüvvəyə mindikdən sonra Sazişdə nəzərdə tutulan kontrakt sahəsinin istənilən hissəsi barəsində əvvəllər bağlanmış hər hansı saziş, kontrakt və ya bu cür başqa sənədlə verilə bilən bütün digər hüquq və vəzifələr ləğv edilir, habelə bu Qanun qüvvəyə mindikdən sonra Sazişin, Hökumət təminatının və Əlavələrin şərtlərinə müvafiq surətdə və qüvvədə olduğu bütün müddət ərzində Sazişin pay iştirakçılarına kontrakt sahəsində neft-qaz əməliyyatları aparmaq üçün müstəsna hüquq verilir.

6. Bu Qanun qüvvəyə mindikdən sonra Podratçının (və ya onun hüquq varislərinin) Saziş, Hökumət təminatı və Əlavələr üzrə əldə etdiyi hüquqlar və mənafelər Podratçının qabaqcadan razılığı olmadan dəyişdirilə, düzəldilə və ya azaldıla bilməz.

7. Sazişdən irəli gələn hüquq və öhdəliklərin yerinə yetirilməsi üçün Sazişin iştirakçılarına bütün lazımi lisenziyalar, gömrük icazələri, vizalar, başqa səlahiyyətlər və sanksiyalar verilir.

8. Sazişə və ya Əlavələrə hər hansı əlavələr, düzəlişlər, dəyişikliklər yalnız Sazişin və Əlavələrin tərəflərinin yazılı razılığı ilə edilir.

9. Bu Qanun dərc olunduğu gündən qüvvəyə minir.

**İlham Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 22 may 2009-cu il*

# AZƏRBAYCAN RESPUBLİKASINDA "KÜROVDAĞ" YATAĞININ DAXİL OLDUĞU BLOKUN BƏRPASI, İŞLƏNMƏSİ VƏ HASİLATIN PAY BÖLGÜSÜ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT NEFT ŞİRKƏTİ, QLOBAL ENERCİ AZƏRBAYCAN LİMİTED VƏ ARDNŞ-İN ORTAQ NEFT ŞİRKƏTİ ARASINDA SAZİŞİN QƏBUL VƏ TƏSDİQ EDİLMƏSİ, HƏYATA KEÇİRİLMƏSİNƏ İCAZƏ VERİLMƏSİ BARƏDƏ

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında "Kürovdağ" yatağının daxil olduğu blokun bərpası, işlənməsi və hasilatın pay bölgüsü haqqında" 2008-ci il 17 noyabr tarixli 46 nömrəli Sərəncamına uyğun olaraq, 2009-cu il fevralın 3-də Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ("ARDNŞ") ilə Qlobal Enerci Azərbaycan Limited və ARDNŞ-in Ortaq Neft Şirkəti ("ONŞ") arasında Saziş bağlanmışdır.

**AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ MƏCLİSİ**

Azərbaycan Respublikasının qanunvericiliyində Sazişin əhatə etdiyi məsələlərin tam və müasir tələblərə uyğun olaraq nizamlanmadığını;

Azərbaycan Respublikasının karbohidrogen ehtiyatları haqqında Azərbaycan Respublikası Qanununun olmamasını;

Sazişin şərtlərinə görə onun qanunverici orqan tərəfindən təsdiqindən sonra Qanun olmasını;

bu Qanunun Azərbaycan Respublikasının Konstitusiyasına tam uyğun olduğunu nəzərə alaraq, Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktına və Azərbaycan Respublikasının Konstitusiyasına əsasən **qərara alır:**

1. "Azərbaycan Respublikasında "Kürovdağ" yatağının daxil olduğu blokun bərpası, işlənməsi və hasilatın pay bölgüsü haqqında" Azərbaycan Respublikası Dövlət Neft Şirkəti, Qlobal Enerci Azərbaycan Limited və ARDNŞ-in Ortaq Neft Şirkəti arasında Saziş (bundan sonra "Saziş" adlanacaq) qəbul və təsdiq edilsin, onun həyata keçirilməsinə icazə verilsin.

2.Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 7 aprel tarixli 56 nömrəli qərarı ilə Sazişdə iştirak edən Podratçılara verilən Azərbaycan Respublikası Hökumətinin təminatı və öhdəlikləri (bundan sonra "Hökumət təminatı" adlanacaq) qəbul edilsin və onların həyata keçirilməsinə icazə verilsin.

3.Sazişin əsas mətninə edilmiş doqquz (9) Əlavə və bir (1) Qoşma (bundan sonra "Əlavələr" adlanacaq) qəbul edilsin və onların həyata keçirilməsinə icazə verilsin.

4.Bu Qanun qüvvəyə mindikdən sonra Saziş, Hökumət təminatı və Əlavələr Qanun olurlar. Sazişdə konkret surətdə başqa hallar göstərilməyibsə, Saziş, Hökumət təminatı və Əlavələr Sazişin qüvvədə olduğu müddət ərzində bu Sazişə, Hökumət təminatına və Əlavələrə uyğun gəlməyən və ya zidd olan Azərbaycan Respublikasının hər hansı başqa mövcud və ya qəbul oluna biləcək qanunlarının, fərmanlarının, yaxud inzibati sərəncamlarının (və ya onların hissələrinin) müddəalarından üstün tutulur.

5.Bu Qanun qüvvəyə mindikdən sonra Sazişdə nəzərdə tutulan kontrakt sahəsinin istənilən hissəsi barəsində əvvəllər bağlanmış hər hansı saziş, kontrakt və ya bu cür başqa sənədlə verilə bilən bütün digər hüquq və vəzifələr ləğv edilir, habelə bu Qanun qüvvəyə mindikdən sonra Sazişin, Hökumət təminatının və Əlavələrin şərtlərinə müvafiq surətdə və qüvvədə olduğu bütün müddət ərzində Sazişin pay iştirakçılarına kontrakt sahəsində neft-qaz əməliyyatları aparmaq üçün müstəsna hüquq verilir.

6.Bu Qanun qüvvəyə mindikdən sonra Podratçının (və ya onun hüquq varislərinin) Saziş, Hökumət təminatı və Əlavələr üzrə əldə etdiyi hüquqlar və mənafelər Podratçının qabaqcadan razılığı olmadan dəyişdirilə, düzəldilə və ya azaldıla bilməz.

7.Sazişdən irəli gələn hüquq və öhdəliklərin yerinə yetirilməsi üçün Sazişin iştirakçılarına bütün lazımi lisenziyalar, gömrük icazələri, vizalar, başqa səlahiyyətlər və sanksiyalar verilir.

8.Sazişə və ya Əlavələrə hər hansı əlavələr, düzəlişlər, dəyişikliklər yalnız Sazişin və Əlavələrin tərəflərinin yazılı razılığı ilə edilir.

9.Bu Qanun dərc olunduğu gündən qüvvəyə minir.

**İlham Əliyev**

*Azərbaycan Respublikasının Prezidenti*

*Bakı şəhəri, 22 may 2009-cu il*

# AZƏRBAYCAN RESPUBLİKASINDA “NEFTÇALA”, “XILLI”, “DUROVDAĞ-BABAZANAN” NEFT YATAQLARININ VƏ “MUĞAN” MONOKLİNALIN CƏNUB-QƏRB QANADININ DAXİLİ OLDUĞU BLOKUN BƏRPASI, İŞLƏNMƏSİ VƏ HASİLATIN PAY BÖLGÜSÜ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT NEFT ŞİRKƏTİ, NEFTÇALA İNVESTMENTS LİMİTED VƏ ARDNŞ-İN ORTAQ NEFTİ ŞİRKƏTİ ARASINDA SAZİŞİN QƏBUL VƏ TƏSDİQ EDİLMƏSİ, HƏYATA KEÇİRİLMƏSİNƏ İCAZƏ VERİLMƏSİ BARƏDƏ

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikasında Neftçala, Xıllı, Durovdağ-Babazanan neft yataqlarının və Muğan monoklinalın Cənub-Qərb qanadının daxili olduğu blokun bərpası, işlənməsi və hasilatın pay bölgüsü haqqında” 2008-ci il 17 noyabr tarixli 45 nömrəli Sərəncamına uyğun olaraq, 2009-cu il fevralın 3-də Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti (“ARDNŞ”) ilə Neftçala İnvestments Limited və ARDNŞ-in Ortaq Neft Şirkəti (“ONŞ”) arasında Saziş bağlanmışdır.

**AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ MƏCLİSİ**

Azərbaycan Respublikasının qanunvericiliyində Sazişin əhatə etdiyi məsələlərin tam və müasir tələblərə uyğun olaraq nizamlanmadığını;

Azərbaycan Respublikasının karbohidrogen ehtiyatları haqqında Azərbaycan Respublikası Qanununun olmamasını;

Sazişin şərtlərinə görə onun qanunverici orqan tərəfindən təsdiqindən sonra Qanun olmasını;

bu Qanunun Azərbaycan Respublikasının Konstitusiyasına tam uyğun olduğunu nəzərə alaraq, Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktına və Azərbaycan Respublikasının Konstitusiyasına əsasən **qərara alır:**

1.“Azərbaycan Respublikasında Neftçala, Xıllı, Durovdağ-Babazanan neft yataqlarının və Muğan monoklinalın Cənub-Qərb qanadının daxil olduğu blokun bərpası, işlənməsi və hasilatın pay bölgüsü haqqında” Azərbaycan Respublikası Dövlət Neft Şirkəti, Neftçala İnvestments Limited və ARDNŞ-in Ortaq Neft Şirkəti arasında Saziş (bundan sonra “Saziş” adlanacaq) qəbul və təsdiq edilsin, onun həyata keçirilməsinə icazə verilsin.

2.Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 7 aprel tarixli 55 nömrəli qərarı ilə Sazişdə iştirak edən Podratçılara verilən Azərbaycan Respublikası Hökumətinin təminatı və öhdəlikləri (bundan sonra “Hökumət təminatı” adlanacaq) qəbul edilsin və onların həyata keçirilməsinə icazə verilsin.

3.Sazişin əsas mətninə edilmiş doqquz (9) Əlavə və bir (1) Qoşma (bundan sonra “Əlavələr” adlanacaq) qəbul edilsin və onların həyata keçirilməsinə icazə verilsin.

4.Bu Qanun qüvvəyə mindikdən sonra Saziş, Hökumət təminatı və Əlavələr Qanun olurlar. Sazişdə konkret surətdə başqa hallar göstərilməyibsə, Saziş, Hökumət təminatı və Əlavələr Sazişin qüvvədə olduğu müddət ərzində bu Sazişə, Hökumət təminatına və Əlavələrə uyğun gəlməyən və ya zidd olan Azərbaycan Respublikasının hər hansı başqa mövcud və ya qəbul oluna biləcək qanunlarının, fərmanlarının, yaxud inzibati sərəncamlarının (və ya onların hissələrinin) müddəalarından üstün tutulur.

5.Bu Qanun qüvvəyə mindikdən sonra Sazişdə nəzərdə tutulan kontrakt sahəsinin istənilən hissəsi barəsində əvvəllər bağlanmış hər hansı saziş, kontrakt və ya bu cür başqa sənədlə verilə bilən bütün digər hüquq və vəzifələr ləğv edilir, habelə bu Qanun qüvvəyə mindikdən sonra Sazişin, Hökumət təminatının və Əlavələrin şərtlərinə müvafiq surətdə və qüvvədə olduğu bütün müddət ərzində Sazişin pay iştirakçılarına kontrakt sahəsində neft-qaz əməliyyatları aparmaq üçün müstəsna hüquq verilir.

6.Bu Qanun qüvvəyə mindikdən sonra Podratçının (və ya onun hüquq varislərinin) Saziş, Hökumət təminatı və Əlavələr üzrə əldə etdiyi hüquqlar və mənafelər Podratçının qabaqcadan razılığı olmadan dəyişdirilə, düzəldilə və ya azaldıla bilməz.

7.Sazişdən irəli gələn hüquq və öhdəliklərin yerinə yetirilməsi üçün Sazişin iştirakçılarına bütün lazımi lisenziyalar, gömrük icazələri, vizalar, başqa səlahiyyətlər və sanksiyalar verilir.

8.Sazişə və ya Əlavələrə hər hansı əlavələr, düzəlişlər, dəyişikliklər yalnız Sazişin və Əlavələrin tərəflərinin yazılı razılığı ilə edilir.

9.Bu Qanun dərc olunduğu gündən qüvvəyə minir.

**İlham Əliyev**

*Azərbaycan Respublikasının Prezidenti*

*Bakı şəhəri, 22 may 2009-cu il*

# XƏZƏR DƏNİZİNİN AZƏRBAYCAN SEKTORUNDA "BAHAR" YATAĞININ VƏ "QUM-DƏNİZ" YATAĞININ DAXİL OLDUĞU BLOKUN KƏŞFİYYATI, BƏRPASI, İŞLƏNMƏSİ VƏ HASİLATIN PAY BÖLGÜSÜ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT NEFT ŞİRKƏTİ, BAHAR ENERCİ LİMİTED VƏ ARDNŞ-İN ORTAQ NEFT ŞİRKƏTİ ARASINDA SAZİŞİN QƏBUL VƏ TƏSDİQ EDİLMƏSİ, HƏYATA KEÇİRİLMƏSİNƏ İCAZƏ VERİLMƏSİ BARƏDƏ

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikası Prezidentinin "Xəzər dənizinin Azərbaycan sektorunda "Bahar" yatağının və "Qum-Dəniz" yatağının daxil olduğu blokun kəşfiyyatı, bərpası, işlənməsi və hasilatın pay bölgüsü haqqında" 2009-cu il 25 noyabr tarixli 607 nömrəli Sərəncamına uyğun olaraq, 2009-cu il dekabrın 22-də Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ("ARDNŞ") ilə Bahar Enerci Limited və ARDNŞ-in Ortaq Neft Şirkəti ("ONŞ") arasında Saziş bağlanmışdır.

**AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ MƏCLİSİ**

Azərbaycan Respublikasının qanunvericiliyində Sazişin əhatə etdiyi məsələlərin tam və müasir tələblərə uyğun olaraq nizamlanmadığını;

Azərbaycan Respublikasının karbohidrogen ehtiyatları haqqında Azərbaycan Respublikasının Qanununun olmamasını;

Sazişin şərtlərinə görə onun qanunverici orqan tərəfindən təsdiqindən sonra Qanun olmasını;

bu Qanunun Azərbaycan Respublikasının Konstitusiyasına tam uyğun olduğunu nəzərə alaraq, Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktına və Azərbaycan Respublikasının Konstitusiyasına əsasən **qərara alır:**

1. "Xəzər dənizinin Azərbaycan sektorunda "Bahar" yatağının və "Qum-Dəniz" yatağının daxil olduğu blokun kəşfiyyatı, bərpası, işlənməsi və hasilatın pay bölgüsü haqqında" Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti, Bahar Enerci Limited və ARDNŞ-in Ortaq Neft Şirkəti arasında Saziş (bundan sonra "Saziş" adlanacaq) qəbul və təsdiq edilsin, onun həyata keçirilməsinə icazə verilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 11 fevral tarixli 34 nömrəli qərarı ilə Sazişdə iştirak edən Podratçılara verilən Azərbaycan Respublikası Hökumətinin təminatı və öhdəlikləri (bundan sonra "Hökumət təminatı" adlanacaq) qəbul edilsin və onların həyata keçirilməsinə icazə verilsin.

3. Sazişin əsas mətninə edilmiş on (10) Əlavə və bir (1) Qoşma (bundan sonra "Əlavələr" adlanacaq) qəbul edilsin və onların həyata keçirilməsinə icazə verilsin.

4. Bu Qanun qüvvəyə mindikdən sonra Saziş, Hökumət təminatı və Əlavələr Qanun olurlar. Sazişdə konkret surətdə başqa hallar göstərilməyibsə, Saziş, Hökumət təminatı və Əlavələr Sazişin qüvvədə olduğu müddət ərzində bu Sazişə, Hökumət təminatına və Əlavələrə uyğun gəlməyən və ya zidd olan Azərbaycan Respublikasının hər hansı başqa mövcud və ya qəbul oluna biləcək qanunlarının, fərmanlarının, yaxud inzibati sərəncamlarının (və ya onların hissələrinin) müddəalarından üstün tutulur.

5. Bu Qanun qüvvəyə mindikdən sonra Sazişdə nəzərdə tutulan kontrakt sahəsinin istənilən hissəsi barəsində əvvəllər bağlanmış hər hansı saziş, kontrakt və ya bu cür başqa sənədlə verilə bilən bütün digər hüquq və vəzifələr ləğv edilir, habelə bu Qanun qüvvəyə mindikdən sonra Sazişin, Hökumət təminatının və Əlavələrin şərtlərinə müvafiq surətdə və qüvvədə olduğu bütün müddət ərzində Sazişin pay iştirakçılarına kontrakt sahəsində neft-qaz əməliyyatları aparmaq üçün müstəsna hüquq verilir.

6. Bu Qanun qüvvəyə mindikdən sonra Podratçının (və ya onun hüquq varislərinin) Saziş, Hökumət təminatı və Əlavələr üzrə əldə etdiyi hüquqlar və mənafelər Podratçının qabaqcadan razılığı olmadan dəyişdirilə, düzəldilə və ya azaldıla bilməz.

7. Sazişdən irəli gələn hüquq və öhdəliklərin yerinə yetirilməsi üçün Sazişin iştirakçılarına bütün lazımi lisenziyalar, gömrük icazələri, vizalar, başqa səlahiyyətlər və sanksiyalar verilir.

8. Sazişə və ya Əlavələrə hər hansı əlavələr, düzəlişlər, dəyişikliklər yalnız Sazişin və Əlavələrin tərəflərinin yazılı razılığı ilə edilir.

**İlham Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 27 aprel 2010-cu il*

## XƏZƏR DƏNİZİNİN AZƏRBAYCAN SEKTORUNDA XARİCİ ŞİRKƏTLƏRLƏ BİRGƏ İŞLƏNƏN NEFT YATAQLARINDAN İLKİN NEFTİN ÇIXARILMASI GÜNÜNÜN QEYD OLUNMASI HAQQINDA

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1994-cü il sentyabrın 20-də Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə dünyanın inkişaf etmiş ölkələrinin transmilli neft şirkətləri arasında Xəzər dənizinin Azərbaycan sektorunda Azəri, Çıraq yataqlarının və Günəşli yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında sazişin bağlanması ilə Xəzər dənizi akvatoriyasında yerləşən karbohidrogen yataqlarının geniş miqyaslı istifadəsinin əsası qoyulmuşdur. Həmin dövrdən keçən üç il ərzində ilk neft kontraktı üzrə nəzərdə tutulan proqram tam yerinə yetirilmişdir. İlkin neftin çıxarılması sahəsində görülmüş işlərlə yanaşı, onun sahilə nəqli üçün 179 kilometrlik sualtı boru kəməri çəkilmiş və Səngəçalda yeni müasir terminal tikilmişdir.

İlkin neftin dünya bazarına ixracı məsələləri də həll olunmuşdur. Şimal marşrutu ilə Rusiyanın Qara dəniz sahilindəki Novorossiysk limanınadək uzanan boru kəməri bərpa olunmuş və işə salınmışdır. Qərb marşrutu ilə Gürcüstanın Supsa limanına gedən və ümumi uzunluğu 835 kilometr olan boru kəmərinin çəkilməsi gələn il başa çatacaqdır.

Bütün bunlar Xəzər hövzəsinin enerji ehtiyatlarından istifadə olunmasında yeni mühüm mərhələnin başlandığını nümayiş etdirir. İlk müqavilədən sonra xarici şirkətlərlə perspektivli strukturların və neft-qaz yataqlarının müştərək kəşfiyyatı və işlənməsinə dair daha doqquz iri müqavilə imzalanmışdır.

Beləliklə, hazırda Xəzər dənizinin Azərbaycan sektorunda dünyanın on iki ölkəsini təmsil edən iyirmi neft şirkəti fəal əməkdaşlıq edir.

"Əsrin kontraktı" və son illərdə bağlanmış digər neft kontraktları Azərbaycan Respublikasının dövlət və iqtisadi müstəqilliyinin möhkəmlənməsində, ölkəyə xarici investisiyalar axınının artmasında, iqtisadiyyatın dirçəlməsində və əhalinin rifahının yüksəlməsində, habelə Xəzər dənizinin digər sektorlarında da neft və qaz yataqlarının

işlənməsinin sürətləndirilməsində mühüm rol oynayırlar. Bu, Xəzərin karbohidrogen ehtiyatlarından XXI əsrdə dünya iqtisadiyyatının inkişafı üçün istifadə etmək məqsədi ilə qarşılıqlı surətdə faydalı əməkdaşlığı və tərəfdaşlığı genişləndirməyə və Xəzəryanı ölkələrin dünya iqtisadiyyatına inteqrasiyasının gücləndirilməsinə imkan yaradır.

Xəzər dənizinin zəngin enerji resurslarının xarici şirkətlərlə birgə geniş istifadəsinin beynəlxalq əhəmiyyətini və onun Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafındakı rolunu nəzərə alaraq **qərara alıram:**

1. Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti tərəfindən Xəzər dənizinin Azərbaycan sektorunda ilkin neftin çıxarılması 1997-ci il noyabrın 12-də Bakı şəhərində təntənəli şəkildə qeyd edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti və Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti ilə birlikdə ilkin neftin çıxarılması gününün təntənəli qeyd edilməsinə həsr olunmuş tədbirlər proqramı hazırlansın və onun yerinə yetirilməsini təmin etsin

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**Heydər Əliyev**

*Azərbaycan Respublikasının Prezidenti*

*Bakı şəhəri, 27 oktyabr 1997-ci il, N 681*

# AZƏRBAYCAN RESPUBLİKASINDA "BALAXANI–SABUNÇU–RAMANA" VƏ "KÜRDƏXANI" NEFT YATAQLARININ DAXİL OLDUĞU BLOKUN BƏRPASI, İŞLƏNMƏSİ VƏ HASİLATIN PAY BÖLGÜSÜ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT NEFT ŞİRKƏTİ, UQE-LANSER PTİ. LTD VƏ ARDNŞ-İN ORTAQ NEFT ŞİRKƏTİ ARASINDA SAZİŞİN QƏBUL VƏ TƏSDİQ EDİLMƏSİ, HƏYATA KEÇİRİLMƏSİNƏ İCAZƏ VERİLMƏSİ BARƏDƏ

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında Balaxanı–Sabunçu–Ramana və Kürdəxanı yataqlarının daxil olduğu blokun bərpası, işlənməsi və hasilatın pay bölgüsü haqqında" 2008-ci il 17 noyabr tarixli 47 nömrəli və "Azərbaycan Respublikasında Balaxanı–Sabunçu–Ramana" və "Kürdəxanı" yataqlarının daxil olduğu blokun bərpası, işlənməsi və hasilatın pay bölgüsü haqqında" Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 17 noyabr tarixli 47 nömrəli Sərəncamında dəyişikliklər edilməsi barədə" 2010-cu il 15 yanvar tarixli 683 nömrəli Sərəncamlarına uyğun olaraq, 2010-cu il iyunun 3-də Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ("ARDNŞ") ilə UQE-LANSER PTİ. LTD və ARDNŞ-in Ortaq Neft Şirkəti ("ONŞ") arasında Saziş bağlanmışdır.

**AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ MƏCLİSİ**

Azərbaycan Respublikasının qanunvericiliyində Sazişin əhatə etdiyi məsələlərin tam və müasir tələblərə uyğun olaraq nizamlanmadığını;

Azərbaycan Respublikasının karbohidrogen ehtiyatları haqqında Azərbaycan Respublikası Qanununun olmamasını;

Sazişin şərtlərinə görə onun qanunverici orqan tərəfindən təsdiqindən sonra Qanun olmasını;

bu Qanunun Azərbaycan Respublikasının Konstitusiyasına tam uyğun olduğunu nəzərə alaraq,

Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktına və Azərbaycan Respublikasının Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndinə əsasən **qərara alır:**

1. "Azərbaycan Respublikasında Balaxanı–Sabunçu–Ramana və Kürdəxanı yataqlarının daxil olduğu blokun bərpası, işlənməsi və hasilatın pay bölgüsü haqqında" Azərbaycan Respublikası Dövlət Neft Şirkəti UQE-LANSER PTİ. LTD və ARDNŞ-in Ortaq Neft Şirkəti arasında Saziş (bundan sonra "Saziş" adlanacaq) qəbul və təsdiq edilsin, onun həyata keçirilməsinə icazə verilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 20 avqust tarixli 157 nömrəli qərarı ilə Sazişdə iştirak edən Podratçılara verilən Azərbaycan Respublikası Hökumətinin təminatı və öhdəlikləri (bundan sonra "Hökumət təminatı" adlanacaq) qəbul edilsin və onların həyata keçirilməsinə icazə verilsin.

3. Sazişin əsas mətninə edilmiş doqquz (9) Əlavə və bir (1) Qoşma (bundan sonra "Əlavələr" adlanacaq) qəbul edilsin və onların həyata keçirilməsinə icazə verilsin.

4. Bu Qanun qüvvəyə mindikdən sonra Saziş, Hökumət təminatı və Əlavələr Qanun olurlar. Sazişdə konkret surətdə başqa hallar göstərilməyibsə, Saziş, Hökumət təminatı və Əlavələr Sazişin qüvvədə olduğu müddət ərzində bu Sazişə, Hökumət təminatına və Əlavələrə uyğun gəlməyən və ya zidd olan Azərbaycan Respublikasının hər hansı başqa mövcud və ya qəbul oluna biləcək qanunlarının, fərmanlarının, yaxud inzibati sərəncamlarının (və ya onların hissələrinin) müddəalarından üstün tutulur.

5. Bu Qanun qüvvəyə mindikdən sonra Sazişdə nəzərdə tutulan kontrakt sahəsinin istənilən hissəsi barəsində əvvəllər bağlanmış hər hansı saziş, kontrakt və ya bu cür başqa sənədlə verilə bilən bütün digər hüquq və vəzifələr ləğv edilir, habelə bu Qanun qüvvəyə mindikdən sonra Sazişin, Hökumət təminatının və Əlavələrin şərtlərinə müvafiq surətdə və qüvvədə olduğu bütün müddət ərzində Sazişin pay iştirakçılarına kontrakt sahəsində neft-qaz əməliyyatları aparmaq üçün müstəsna hüquq verilir.

6. Bu Qanun qüvvəyə mindikdən sonra Podratçının (və ya onun hüquq varislərinin) Saziş, Hökumət təminatı və Əlavələr üzrə əldə etdiyi hüquqlar və mənafelər Podratçının qabaqcadan razılığı olmadan dəyişdirilə, düzəldilə və ya azaldıla bilməz.

7. Sazişdən irəli gələn hüquq və öhdəliklərin yerinə yetirilməsi üçün Sazişin iştirakçılarına bütün lazımi lisenziyalar, gömrük icazələri, vizalar başqa səlahiyyətlər və sanksiyalar verilir.

8. Sazişə və ya Əlavələrə hər hansı əlavələr, düzəlişlər, dəyişikliklər yalnız Sazişin və Əlavələrin tərəflərinin yazılı razılığı ilə edilir.

**İlham Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 6 may 2011-ci il*

# XƏZƏR DƏNİZİNİN AZƏRBAYCAN SEKTORUNDA "ŞƏFƏQ-ASİMAN" DƏNİZ BLOKUNUN KƏŞFİYYATI, İŞLƏNMƏSİ VƏ HASİLATIN PAY BÖLGÜSÜ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT NEFT ŞİRKƏTİ, "BP" EKSPLOREYŞN (AZƏRBAYCAN) LİMİTED VƏ ARDNŞ-İN ORTAQ NEFT ŞİRKƏTİ ARASINDA SAZİŞİN QƏBUL VƏ TƏSDİQ EDİLMƏSİ, HƏYATA KEÇİRİLMƏSİNƏ İCAZƏ VERİLMƏSİ BARƏDƏ

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikası Prezidentinin "Xəzər dənizinin Azərbaycan sektorunda Asiman və Şəfəq perspektiv strukturlarının daxil olduğu dəniz blokunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında" 2010-cu il 7 sentyabr tarixli 1089 nömrəli Sərəncamına uyğun olaraq, 2010-cu il oktyabrın 7-də Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ("ARDNŞ") ilə "BP" Eksploreyşn (Azərbaycan) Limited və ARDNŞ-in Ortaq Neft Şirkəti ("ONŞ") arasında Saziş bağlanmışdır.

**AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ MƏCLİSİ**

Azərbaycan Respublikasının qanunvericiliyində Sazişin əhatə etdiyi məsələlərin tam və müasir tələblərə uyğun olaraq nizamlanmadığını;

Azərbaycan Respublikasının karbohidrogen ehtiyatları haqqında Azərbaycan Respublikası Qanununun olmamasını;

Sazişin şərtlərinə görə onun qanunverici orqan tərəfindən təsdiqindən sonra Qanun olmasını;

bu Qanunun Azərbaycan Respublikasının Konstitusiyasına tam uyğun olduğunu nəzərə alaraq, Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktına və Azərbaycan Respublikasının Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndinə əsasən **qərara alır:**

1. "Xəzər dənizinin Azərbaycan sektorunda Şəfəq–Asiman dəniz blokunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında" Azərbaycan Respublikası Dövlət Neft Şirkəti, "BP" Eksploreyşn (Azərbaycan) və ARDNŞ-in Ortaq Neft Şirkəti arasında Saziş (bundan sonra "Saziş" adlanacaq) qəbul və təsdiq edilsin, onun həyata keçirilməsinə icazə verilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 28 mart tarixli 44 nömrəli qərarı ilə Sazişdə iştirak edən Podratçılara verilən Azərbaycan Respublikası Hökumətinin təminatı və öhdəlikləri (bundan sonra "Hökumət təminatı" adlanacaq) qəbul edilsin və onların həyata keçirilməsinə icazə verilsin.

3. Sazişin əsas mətninə edilmiş on (10) Əlavə və bir (1) Qoşma (bundan sonra "Əlavələr" adlanacaq) qəbul edilsin və onların həyata keçirilməsinə icazə verilsin.

4. Bu Qanun qüvvəyə mindikdən sonra Saziş, Hökumət təminatı və Əlavələr Qanun olurlar. Sazişdə konkret surətdə başqa hallar göstərilməyibsə, Saziş, Hökumət təminatı və Əlavələr Sazişin qüvvədə olduğu müddət ərzində bu Sazişə, Hökumət təminatına və Əlavələrə uyğun gəlməyən və ya zidd olan Azərbaycan Respublikasının hər hansı başqa mövcud və ya qəbul oluna biləcək qanunlarının, fərmanlarının, yaxud inzibati sərəncamlarının (və ya onların hissələrinin) müddəalarından üstün tutulur.

5. Bu Qanun qüvvəyə mindikdən sonra Sazişdə nəzərdə tutulan kontrakt sahəsinin istənilən hissəsi barəsində əvvəllər bağlanmış hər hansı saziş, kontrakt və ya bu cür başqa sənədlə verilə bilən bütün digər hüquq və vəzifələr ləğv edilir, habelə bu Qanun qüvvəyə mindikdən sonra Sazişin, Hökumət təminatının və Əlavələrin şərtlərinə müvafiq surətdə və qüvvədə olduğu bütün müddət ərzində Sazişin pay iştirakçılarına kontrakt sahəsində neft-qaz əməliyyatları aparmaq üçün müstəsna hüquq verilir.

6. Bu Qanun qüvvəyə mindikdən sonra Podratçının (və ya onun hüquq varislərinin) Saziş, Hökumət təminatı və Əlavələr üzrə əldə etdiyi hüquqlar və mənafelər Podratçının qabaqcadan razılığı olmadan dəyişdirilə, düzəldilə və ya azaldıla bilməz.

7. Sazişdən irəli gələn hüquq və öhdəliklərin yerinə yetirilməsi üçün Sazişin iştirakçılarına bütün lazımi lisenziyalar, gömrük icazələri, vizalar, başqa səlahiyyətlər və sanksiyalar verilir.

8. Sazişə və ya Əlavələrə hər hansı əlavələr, düzəlişlər, dəyişikliklər yalnız Sazişin və Əlavələrin tərəflərinin yazılı razılığı ilə edilir.

**İlham Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 6 may 2011-ci il*

# “XƏZƏR DƏNİZİNİN AZƏRBAYCAN SEKTORUNDA “ÜMİD” YATAĞININ VƏ “BABƏK” PERSPEKTİV STRUKTURUNUN DAXİL OLDUĞU DƏNİZ BLOKUNUN KƏŞFİYYATI VƏ İŞLƏNMƏSİ HAQQINDA” AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT NEFT ŞİRKƏTİ İLƏ SOCAR UMİD OİL AND GAS LİMİTED ŞİRKƏTİ ARASINDA RİSK XİDMƏT SAZİŞİNİN VƏ ONA ƏLAVƏ OLUNMUŞ “XƏZƏR DƏNİZİNİN AZƏRBAYCAN SEKTORUNDA “ÜMİD” YATAĞININ VƏ “BABƏK” PERSPEKTİV STRUKTURUNUN DAXİL OLDUĞU DƏNİZ BLOKUNUN KƏŞFİYYATI VƏ İŞLƏNMƏSİ ÜZRƏ NEFT-QAZ ƏMƏLİYYATLARININ APARILMASI HAQQINDA” SOCAR UMİD OİL AND GAS LİMİTED ŞİRKƏTİ İLƏ UMİD, BABƏK EKSPLOREYŞN END PRODAKŞN ŞİRKƏTİ ARASINDA MÜQAVİLƏNİN QƏBUL VƏ TƏSDİQ EDİLMƏSİ, HƏYATA KEÇİRİLMƏSİNƏ İCAZƏ VERİLMƏSİ BARƏDƏ

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikası Prezidentinin “Xəzər dənizinin Azərbaycan sektorunda Ümid yatağının və Babək perspektiv strukturunun daxil olduğu dəniz blokunun kəşfiyyatı və işlənməsi haqqında” 2016-cı il 2 may tarixli 2024 nömrəli Sərəncamına uyğun olaraq, 2017-ci il yanvarın 12-də Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti (“SOCAR”) və SOCAR Umid Oil and Gas Limited (“SOCAR Umid”) şirkəti arasında Risk Xidmət Sazişi, SOCAR Umid Oil and Gas Limited (“SOCAR Umid”) şirkəti və Umid, Babək Eksploreyşn end Prodakşn («Podratçı») şirkəti arasında isə neft-qaz əməliyyatlarının aparılması haqqında Müqavilə bağlanmışdır.

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndinə əsasən **qərara alır:**

1. "Xəzər dənizinin Azərbaycan sektorunda Ümid yatağının və Babək perspektiv strukturunun daxil olduğu dəniz blokunun kəşfiyyatı və işlənməsi haqqında" Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə SOCAR Umid Oil and Gas Limited şirkəti arasında Risk Xidmət Sazişi (bundan sonra – Saziş) və ona əlavə olunmuş "Xəzər dənizinin Azərbaycan sektorunda Ümid yatağının və Babək perspektiv strukturunun daxil olduğu dəniz blokunun kəşfiyyatı və işlənməsi üzrə neft-qaz əməliyyatlarının aparılması haqqında" SOCAR Umid Oil and Gas Limited şirkəti ilə Umid, Babək Eksploreyşn end Prodakşn şirkəti arasında Müqavilə (bundan sonra - Müqavilə) qəbul və təsdiq edilsin, onların həyata keçirilməsinə icazə verilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 3 fevral tarixli 26 nömrəli qərarı ilə Sazişə verilən Azərbaycan Respublikası Hökumətinin təminatı və öhdəlikləri (bundan sonra - Hökumət təminatı) qəbul edilsin və onların həyata keçirilməsinə icazə verilsin.

3. Sazişin əsas mətninə edilmiş 5 (beş) və Müqavilənin əsas mətninə edilmiş 9 (doqquz) Əlavə (bundan sonra – Əlavələr) qəbul edilsin və onların həyata keçirilməsinə icazə verilsin.

4. Bu Qanun qüvvəyə mindikdən sonra Saziş, Müqavilə, Hökumət təminatı və Əlavələr Qanun olurlar. Sazişdə və Müqavilədə konkret surətdə başqa hallar göstərilməyibsə, Saziş, Müqavilə, Hökumət təminatı və Əlavələr Sazişin qüvvədə olduğu müddət ərzində bu Sazişə, Müqaviləyə, Hökumət təminatına və Əlavələrə uyğun gəlməyən və ya zidd olan Azərbaycan Respublikasının hər hansı başqa mövcud və ya qəbul oluna biləcək qanunlarının, fərmanlarının, yaxud inzibati sərəncamlarının (və ya onların hissələrinin) müddəalarından üstün tutulur.

5. Bu Qanun qüvvəyə mindikdən sonra Sazişdə və Müqavilədə nəzərdə tutulan kontrakt sahəsinin istənilən hissəsi barəsində əvvəllər bağlanmış hər hansı saziş, kontrakt və ya bu cür başqa sənədlə verilə bilən bütün digər hüquq və vəzifələr ləğv edilir, habelə bu Qanun qüvvəyə mindikdən sonra Sazişin, Müqavilənin, Hökumət təminatının və Əlavələrin şərtlərinə müvafiq surətdə və qüvvədə olduğu bütün müddət ərzində Sazişin və Müqavilənin pay iştirakçılarına kontrakt sahəsində neft-qaz əməliyyatları aparmaq üçün müstəsna hüquq verilir.

6. Bu Qanun qüvvəyə mindikdən sonra Sazişin və Müqavilənin tərəflərinin (və ya onun hüquq varislərinin) Saziş, Müqavilə, Hökumət təminatı və Əlavələr üzrə əldə etdiyi hüquqlar və mənafelər həmin tərəflərin qabaqcadan razılığı olmadan dəyişdirilə, düzəldilə və ya azaldıla bilməz.

7. Sazişdən və Müqavilədən irəli gələn hüquq və öhdəliklərin yerinə yetirilməsi üçün Sazişin və Müqavilənin iştirakçılarına bütün lazımi lisenziyalar, gömrük icazələri, vizalar, başqa səlahiyyətlər və sanksiyalar verilir.

8. Sazişə, Müqaviləyə və ya Əlavələrə hər hansı əlavələr, düzəlişlər, dəyişikliklər yalnız Sazişin, Müqavilənin və Əlavələrin tərəflərinin yazılı razılığı ilə edilir.

**İlham Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 2 may 2017-ci il*

# "XƏZƏR DƏNİZİNİN AZƏRBAYCAN SEKTORUNDA "AZƏRİ", "ÇIRAQ" YATAQLARININ VƏ "GÜNƏŞLİ" YATAĞININ DƏRİNLİKDƏ YERLƏŞƏN HİSSƏSİNİN BİRGƏ İŞLƏNMƏSİ VƏ HASİLATIN PAY BÖLGÜSÜ HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT NEFT ŞİRKƏTİ İLƏ AZƏRBAYCAN (ACG) LİMİTED, "BP" EKSPLOREYŞN (KASPİAN Sİ) LİMİTED, ŞEVRON XƏZƏR, LTD., EKSON AZƏRBAYCAN LİMİTED, İNPEKS SAUSVEST KASPİAN Sİ, LTD., İTOÇU OYL EKSPLOREYŞN (AZƏRBAYCAN) İNK., ONGC VİDEŞ LİMİTED, STATOYL ABŞERON AS, TÜRKİYE PETROLLERİ A.O. ARASINDA SAZİŞİN QƏBUL VƏ TƏSDİQ EDİLMƏSİ, HƏYATA KEÇİRİLMƏSİNƏ İCAZƏ VERİLMƏSİ BARƏDƏ

## Azərbaycan Respublikasının Qanunu

"Xəzər dənizinin Azərbaycan sektorunda Azəri, Çıraq yataqlarının və Günəşli yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə Amoko Kaspian Si Petroleum Limited, BP Eksploreyşn (Kaspian Si) Limited, Delta Nimir Xəzər Limited, Den norske stats olyeselskap a.s., LUKoyl Səhmdar Cəmiyyəti, MakDermott Azərbaycan İnk., Pennzoyl Kaspian Korporeyşn, Remko Xəzər Enerci Limited, Türkiye Petrolleri A.O., Yunokal Xəzər, Ltd arasında Saziş" 1994-cü il sentyabrın 20-də bağlanmış (bundan sonra – 1994-cü il tarixli Saziş) və Azərbaycan Respublikasının 1994-cü il 2 dekabr tarixli 933 nömrəli Qanunu ilə qəbul və təsdiq edilmiş, onun həyata keçirilməsinə icazə verilmişdir.

Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə Azərbaycan (EySiCi) Limited, BP Eksploreyşn (Kaspian Si) Limited, Şevron Xəzər, Ltd., Ekson Azərbaycan Limited, Hess (ACG) Limited, İNPEKS Sausvest Kaspian Si, Ltd., İtoçu Oyl Eksploreyşn (Azərbaycan) İnk, Statoyl Abşeron AS və Türkiye Petrolleri A.O. şirkətləri arasında 1994-cü il tarixli Sazişə əlavə və dəyişikliklər edilməsi haqqında Birinci Qoşma (bundan sonra – Birinci Qoşma) 2011-ci il iyunun 17-də bağlanmış və Azərbaycan Respublikasının 2011-ci

il 24 iyun tarixli 182-IVQ nömrəli Qanunu ilə qəbul və təsdiq edilmiş, onun həyata keçirilməsinə icazə verilmişdir.

1994-cü il tarixli Saziş və Birinci Qoşmanın düzəliş edilməsi və yenidən tərtib edilməsi barədə Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə Azərbaycan (ACG) Limited, “BP” Eksploreyşn (Kaspian Si) Limited, Şevron Xəzər, Ltd., Ekson Azərbaycan Limited, İnpeks Sausvest Kaspian Si, Ltd., İtoçu Oyl Eksploreyşn (Azərbaycan) İnk., ONGC Videş Limited, Statoyl Abşeron AS, Türkiye Petrolleri A.O. arasında aparılmış danışıqların yekunu olaraq 2017-ci il sentyabrın 14-də Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə Azərbaycan (ACG) Limited, “BP” Eksploreyşn (Kaspian Si) Limited, Şevron Xəzər, Ltd., Ekson Azərbaycan Limited, İnpeks Sausvest Kaspian Si, Ltd., İtoçu Oyl Eksploreyşn (Azərbaycan) İnk., ONGC Videş Limited, Statoyl Abşeron AS, Türkiye Petrolleri A.O. arasında “Xəzər dənizinin Azərbaycan sektorunda Azəri, Çıraq yataqlarının və Günəşli yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında” Saziş imzalanmışdır.

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikasının Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

1. “Xəzər dənizinin Azərbaycan sektorunda Azəri, Çıraq yataqlarının və Günəşli yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında” Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə Azərbaycan (ACG) Limited, “BP” Eksploreyşn (Kaspian Si) Limited, Şevron Xəzər, Ltd., Ekson Azərbaycan Limited, İnpeks Sausvest Kaspian Si, Ltd., İtoçu Oyl Eksploreyşn (Azərbaycan) İnk., ONGC Videş Limited, Statoyl Abşeron AS, Türkiye Petrolleri A.O. arasında 2017-ci il sentyabrın 14-də imzalanmış Saziş (bundan sonra - Saziş) qəbul və təsdiq edilsin, onun həyata keçirilməsinə icazə verilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən Sazişdə iştirak edən Podratçı tərəflərə verilən Azərbaycan Respublikası Hökumətinin təminatı və öhdəlikləri (bundan sonra - Hökumət təminatı) qəbul edilsin və onların həyata keçirilməsinə icazə verilsin.

3. Sazişin əsas mətninə edilmiş on beş (15) Əlavə (bundan sonra - Əlavələr) qəbul edilsin və onların həyata keçirilməsinə icazə verilsin.

4. Bu Qanun qüvvəyə mindikdən sonra Saziş, Hökumət təminatı və Əlavələr Qanun olurlar. Sazişdə konkret surətdə başqa hallar göstərilməyibsə, Saziş, Hökumət təminatı və Əlavələr Sazişin qüvvədə olduğu müddət ərzində bu Sazişə, Hökumət təminatına və Əlavələrə uyğun gəlməyən və ya zidd olan Azərbaycan Respublikasının hər hansı

başqa mövcud və ya qəbul oluna biləcək qanunlarının, fərmanlarının, yaxud inzibati sərəncamlarının (və ya onların hissələrinin) müddəalarından üstün tutulur.

5. Bu Qanun qüvvəyə mindikdən sonra Sazişdə nəzərdə tutulan kontrakt sahəsinin istənilən hissəsi barəsində əvvəllər bağlanmış hər hansı saziş, kontrakt və ya bu cür başqa sənədlə verilə bilən bütün digər hüquq və vəzifələr ləğv edilir, habelə bu Qanun qüvvəyə mindikdən sonra Sazişin, Hökumət təminatının və Əlavələrin şərtlərinə müvafiq surətdə və qüvvədə olduğu bütün müddət ərzində Sazişin pay iştirakçılarına kontrakt sahəsində neft-qaz əməliyyatları aparmaq üçün müstəsna hüquq verilir.

6. Bu Qanun qüvvəyə mindikdən sonra Podratçı tərəflərin (və ya onların hüquq varislərinin) Saziş, Hökumət təminatı və Əlavələr üzrə əldə etdiyi hüquqlar və mənafelər Podratçı tərəflərin qabaqcadan razılığı olmadan dəyişdirilə, düzəldilə və ya azaldıla bilməz.

7. Sazişdən irəli gələn hüquq və öhdəliklərin yerinə yetirilməsi üçün Sazişin iştirakçılarına bütün lazımi lisenziyalar, gömrük icazələri, vizalar, başqa səlahiyyətlər və sanksiyalar verilir.

8. Sazişə və ya Əlavələrə hər hansı əlavələr, düzəlişlər, dəyişikliklər yalnız Sazişin və Əlavələrin tərəflərinin yazılı razılığı ilə edilir.

**İlham Əliyev**

*Azərbaycan Respublikasının Prezidenti*

*Bakı şəhəri, 31 oktyabr 2017-ci il*

# "XƏZƏR DƏNİZİNİN AZƏRBAYCAN SEKTORUNDA ƏŞRƏFİ–DAN ULDUZU–AYPARA SAHƏSİNİN KƏŞFİYYATI, İŞLƏNMƏSİ VƏ HASİLATIN PAY BÖLGÜSÜ HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT NEFT ŞİRKƏTİ İLƏ STATOYL AZƏRBAYCAN ƏŞRƏFİ DAN ULDUZU AYPARA BV VƏ SOCAR-IN ORTAQ NEFT ŞİRKƏTİ ARASINDA SAZİŞİN QƏBUL VƏ TƏSDİQ EDİLMƏSİ, HƏYATA KEÇİRİLMƏSİNƏ İCAZƏ VERİLMƏSİ BARƏDƏ

## Azərbaycan Respublikasının Qanunu

2018-ci il mayın 30-da Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ("SOCAR"), Statoyl Azərbaycan Əşrəfi Dan Ulduzu Aypara BV ("Statoyl") və SOCAR-ın Ortaq neft şirkəti ("ONŞ") arasında Saziş bağlanmışdır.

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikasının Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

1. "Xəzər dənizinin Azərbaycan sektorunda Əşrəfi–Dan ulduzu–Aypara sahəsinin kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında" Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə Statoyl Azərbaycan Əşrəfi Dan Ulduzu Aypara BV və SOCAR-ın Ortaq neft şirkəti arasında Saziş (bundan sonra – Saziş) qəbul və təsdiq edilsin, onun həyata keçirilməsinə icazə verilsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən Sazişdə iştirak edən Podratçılara verilən Azərbaycan Respublikası Hökumətinin təminatı və öhdəlikləri (bundan sonra Hökumət təminatı) qəbul edilsin və onların həyata keçirilməsinə icazə verilsin.
3. Sazişin əsas mətninə edilmiş on iki (12) Əlavə və SOCAR-ın Ortaq neft şirkətinin yaradılmasına dair Qoşma (bundan sonra Əlavələr) qəbul edilsin və onların həyata keçirilməsinə icazə verilsin.
4. Bu Qanun qüvvəyə mindikdən sonra Saziş, Hökumət təminatı və Əlavələr Qanun olurlar. Sazişdə konkret surətdə başqa hallar göstərilməyibsə, Saziş, Hökumət təminatı

və Əlavələr Sazişin qüvvədə olduğu müddət ərzində bu Sazişə, Hökumət təminatına və Əlavələrə uyğun gəlməyən və ya zidd olan Azərbaycan Respublikasının hər hansı başqa mövcud və ya qəbul oluna biləcək qanunlarının, fərmanlarının, yaxud inzibati sərəncamlarının (və ya onların hissələrinin) müddəalarından üstün tutulur.

5. Bu Qanun qüvvəyə mindikdən sonra Sazişdə nəzərdə tutulan kontrakt sahəsinin istənilən hissəsi barəsində əvvəllər bağlanmış hər hansı saziş, kontrakt və ya bu cür başqa sənədlə verilə bilən bütün digər hüquq və vəzifələr ləğv edilir, habelə bu Qanun qüvvəyə mindikdən sonra Sazişin, Hökumət təminatının və Əlavələrin şərtlərinə müvafiq surətdə və qüvvədə olduğu bütün müddət ərzində Sazişin pay iştirakçılarına kontrakt sahəsində neft-qaz əməliyyatları aparmaq üçün müstəsna hüquq verilir.

6. Bu Qanun qüvvəyə mindikdən sonra Podratçının (və ya onun hüquq varislərinin) Saziş, Hökumət təminatı və Əlavələr üzrə əldə etdiyi hüquqlar və mənafelər Podratçının qabaqcadan razılığı olmadan dəyişdirilə, düzəldilə və ya azaldıla bilməz.

7. Sazişdən irəli gələn hüquq və öhdəliklərin yerinə yetirilməsi üçün Sazişin iştirakçılarına bütün lazımi lisenziyalar, gömrük icazələri, vizalar, başqa səlahiyyətlər və sanksiyalar verilir.

8. Sazişə və ya Əlavələrə hər hansı əlavələr, düzəlişlər, dəyişikliklər yalnız Sazişin və Əlavələrin tərəflərinin yazılı razılığı ilə edilir.

**İlham Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 29 iyun 2018-ci il*

# “XƏZƏR DƏNİZİNİN AZƏRBAYCAN SEKTORUNDA “QARABAĞ” NEFT YATAĞININ İŞLƏNMƏSİ İLƏ ƏLAQƏDAR” AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT NEFT ŞİRKƏTİ İLƏ STATOYL AZƏRBAYCAN QARABAĞ BV VƏ SOCAR QARABAĞ LLSİ ARASINDA RİSK XİDMƏT SAZİŞİNİN QƏBUL VƏ TƏSDİQ EDİLMƏSİ, HƏYATA KEÇİRİLMƏSİNƏ İCAZƏ VERİLMƏSİ BARƏDƏ

## Azərbaycan Respublikasının Qanunu

2018-ci il mayın 30-da Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti (“SOCAR”), Statoyl Azərbaycan Qarabağ BV (“Statoyl”) və SOCAR Qarabağ LLSi (“SOCAR Qarabağ”) arasında Risk xidməti Sazişi bağlanmışdır.

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikasının Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

1. “Xəzər dənizinin Azərbaycan sektorunda “Qarabağ” neft yatağının işlənməsi haqqında” Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə Statoyl Azərbaycan Qarabağ BV və SOCAR Qarabağ LLSi arasında Risk xidməti Sazişi (bundan sonra – Saziş) qəbul və təsdiq edilsin, onun həyata keçirilməsinə icazə verilsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən Sazişdə iştirak edən Podratçılara verilən Azərbaycan Respublikası Hökumətinin təminatı və öhdəlikləri (bundan sonra - Hökumət təminatı) qəbul edilsin və onların həyata keçirilməsinə icazə verilsin.
3. Sazişin əsas mətninə edilmiş on iki (12) Əlavə (bundan sonra – Əlavələr) qəbul edilsin və onların həyata keçirilməsinə icazə verilsin.
4. Bu Qanun qüvvəyə mindikdən sonra Saziş, Hökumət təminatı və Əlavələr Qanun olurlar. Sazişdə konkret surətdə başqa hallar göstərilməyibsə, Saziş, Hökumət təminatı və Əlavələr Sazişin qüvvədə olduğu müddət ərzində bu Sazişə, Hökumət təminatına və Əlavələrə uyğun gəlməyən və ya zidd olan Azərbaycan Respublikasının hər hansı

başqa mövcud və ya qəbul oluna biləcək qanunlarının, fərmanlarının, yaxud inzibati sərəncamlarının (və ya onların hissələrinin) müddəalarından üstün tutulur.

5. Bu Qanun qüvvəyə mindikdən sonra Sazişdə nəzərdə tutulan kontrakt sahəsinin istənilən hissəsi barəsində əvvəllər bağlanmış hər hansı saziş, kontrakt və ya bu cür başqa sənədlə verilə bilən bütün digər hüquq və vəzifələr ləğv edilir, habelə bu Qanun qüvvəyə mindikdən sonra Sazişin, Hökumət təminatının və Əlavələrin şərtlərinə müvafiq surətdə və qüvvədə olduğu bütün müddət ərzində Sazişin pay iştirakçılarına kontrakt sahəsində neft-qaz əməliyyatları aparmaq üçün müstəsna hüquq verilir.

6. Bu Qanun qüvvəyə mindikdən sonra Podratçının (və ya onun hüquq varislərinin) Saziş, Hökumət təminatı və Əlavələr üzrə əldə etdiyi hüquqlar və mənafelər Podratçının qabaqcadan razılığı olmadan dəyişdirilə, düzəldilə və ya azaldıla bilməz.

7. Sazişdən irəli gələn hüquq və öhdəliklərin yerinə yetirilməsi üçün Sazişin iştirakçılarına bütün lazımi lisenziyalar, gömrük icazələri, vizalar, başqa səlahiyyətlər və sanksiyalar verilir.

8. Sazişə və ya Əlavələrə hər hansı əlavələr, düzəlişlər, dəyişikliklər yalnız Sazişin və Əlavələrin tərəflərinin yazılı razılığı ilə edilir.

**İlham Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 29 iyun 2018-ci il*

# "XƏZƏR DƏNİZİNİN AZƏRBAYCAN SEKTORUNDA D-230 PERSPEKTİV KƏŞFİYYAT BLOKUNUN KƏŞFİYYATI, İŞLƏNMƏSİ VƏ HASİLATIN PAY BÖLGÜSÜ HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT NEFT ŞİRKƏTİ İLƏ "BP" EKSPLOREYŞN (AZƏRBAYCAN) LİMİTED ŞİRKƏTİ VƏ SOCAR-IN ORTAQ NEFT ŞİRKƏTİ ARASINDA SAZİŞİN QƏBUL VƏ TƏSDİQ EDİLMƏSİ, HƏYATA KEÇİRİLMƏSİNƏ İCAZƏ VERİLMƏSİ BARƏDƏ

## Azərbaycan Respublikasının Qanunu

2018-ci il aprelin 26-da Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ("SOCAR"), "BP" EKSPLOREYŞN (AZƏRBAYCAN) LİMİTED ("BP") şirkəti və SOCAR-ın Ortaq Neft Şirkəti ("ONŞ") arasında Saziş bağlanmışdır.

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikasının Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

1. "Xəzər dənizinin Azərbaycan sektorunda D230 perspektiv kəşfiyyat blokunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında" Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə "BP" EKSPLOREYŞN (AZƏRBAYCAN) LİMİTED şirkəti və SOCAR-ın Ortaq Neft Şirkəti arasında Saziş (bundan sonra - Saziş) qəbul və təsdiq edilsin, onun həyata keçirilməsinə icazə verilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən Sazişdə iştirak edən Podratçı tərəflərə verilən Azərbaycan Respublikası Hökumətinin təminatı və öhdəlikləri (bundan sonra – Hökumət təminatı) qəbul edilsin və onların həyata keçirilməsinə icazə verilsin.

3. Sazişin əsas mətninə edilmiş on üç (13) Əlavə və SOCAR-ın Ortaq Neft Şirkətinin yaradılmasına dair Qoşma (bundan sonra – Əlavələr) qəbul edilsin və onların həyata keçirilməsinə icazə verilsin.

4. Bu Qanun qüvvəyə mindikdən sonra Saziş, Hökumət təminatı və Əlavələr Qanun olurlar. Sazişdə konkret surətdə başqa hallar göstərilməyibsə, Saziş, Hökumət təminatı

və Əlavələr Sazişin qüvvədə olduğu müddət ərzində bu Sazişə, Hökumət təminatına və Əlavələrə uyğun gəlməyən və ya zidd olan Azərbaycan Respublikasının hər hansı başqa mövcud və ya qəbul oluna biləcək qanunlarının, fərmanlarının, yaxud inzibati sərəncamlarının (və ya onların hissələrinin) müddəalarından üstün tutulur.

5. Bu Qanun qüvvəyə mindikdən sonra Sazişdə nəzərdə tutulan kontrakt sahəsinin istənilən hissəsi barəsində əvvəllər bağlanmış hər hansı saziş, kontrakt və ya bu cür başqa sənədlə verilə bilən bütün digər hüquq və vəzifələr ləğv edilir, habelə bu Qanun qüvvəyə mindikdən sonra Sazişin, Hökumət təminatının və Əlavələrin şərtlərinə müvafiq surətdə və qüvvədə olduğu bütün müddət ərzində Sazişin pay iştirakçılarına kontrakt sahəsində neft-qaz əməliyyatları aparmaq üçün müstəsna hüquq verilir.

6. Bu Qanun qüvvəyə mindikdən sonra Podratçı tərəflərin (və ya onların hüquq varislərinin) Saziş, Hökumət təminatı və Əlavələr üzrə əldə etdiyi hüquqlar və mənafelər Podratçı tərəflərin qabaqcadan razılığı olmadan dəyişdirilə, düzəldilə və ya azaldıla bilməz.

7. Sazişdən irəli gələn hüquq və öhdəliklərin yerinə yetirilməsi üçün Sazişin iştirakçılarına bütün lazımi lisenziyalar, gömrük icazələri, vizalar, başqa səlahiyyətlər və sanksiyalar verilir.

8. Sazişə və ya Əlavələrə hər hansı əlavələr, düzəlişlər, dəyişikliklər yalnız Sazişin şərtlərinə və müddəalarına uyğun olaraq Sazişin və Əlavələrin tərəflərinin yazılı razılığı ilə edilir.

**İlham Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 12 oktyabr 2018-ci il*

# "AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ İLƏ TÜRKMƏNİSTAN HÖKUMƏTİ ARASINDA XƏZƏR DƏNİZİNDƏ "DOSTLUQ" YATAĞININ KARBOHİDROGEN RESURSLARININ BİRGƏ KƏŞFİYYATI, İŞLƏNMƏSİ VƏ MƏNİMSƏNİLMƏSİ HAQQINDA" ANLAŞMA MEMORANDUMUNUN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikasının Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

"Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında Xəzər dənizində "Dostluq" yatağının karbohidrogen resurslarının birgə kəşfiyyatı, işlənməsi və mənimsənilməsi haqqında" 2021-ci il yanvarın 21-də Aşqabad şəhərində imzalanmış Anlaşma Memorandumu təsdiq edilsin.

**İlham Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 23 fevral 2021-ci il, № 263-VIQ*

## AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ İLƏ TÜRKMƏNİSTAN HÖKUMƏTİ ARASINDAXƏZƏR DƏNİZİNDƏ "DOSTLUQ" YATAĞININ KARBOHİDROGEN RESURSLARININ BİRGƏKƏŞFİYYATI, İŞLƏNMƏSİ VƏ MƏNİMSƏNİLMƏSİ HAQQINDA

### Anlaşma Memorandumu

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Hökuməti və Türkmənistan Hökuməti,

2018-ci il 12 avqust tarixli Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiyanın müddəalarını, beynəlxalq hüququn prinsip və normalarını və Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsini rəhbər tutaraq,

Xəzər dənizində Tərəflərin dövlətlərinin suveren hüquqlarının həyata keçirilməsi məqsədilə,

Xəzər dənizinin dibinin və təkinin mineral resurslarının işlənməsi sahəsində Tərəflər arasında qarşılıqlı faydalı əməkdaşlığın vacibliyini qəbul edərək və karbohidrogen resurslarının kəşfiyyatı, işlənməsi və onların beynəlxalq bazarlara nəqli üzrə layihələrin birgə həyata keçirilməsinə hazırlıqlarını vurğulayaraq, karbohidrogen resurslarının kəşfiyyatı, işlənməsi və onların beynəlxalq bazarlara nəqli üzrə layihələrə xarici investisiyaların uzunmüddətli əsasda səmərəli və qarşılıqlı faydalı şəkildə cəlb olunmasında Tərəflərin maraqlı olduqlarını nəzərə alaraq,

bundan sonra "Dostluq" adlandırılacaq "Kəpəz/Sərdar" yatağının karbohidrogen resurslarının birgə kəşfiyyatı, işlənməsi və mənimsənilməsi məqsədilə. Xəzər dənizinin dibinin təkindən istifadəyə və dibin və təkin resurslarının mənimsənilməsi ilə bağlı digər qanunauyğun təsərrüfat-iqtisadi fəaliyyətlərə olan suveren hüquqların həyata keçirilməsindən çıxış edərək,

ətraf mühitin təhlükəsizliyi və mühafizəsi sahəsində müvafiq beynəlxalq norma və standartlara riayət edilməsinin vacibliyini qəbul edərək, aşağıdakılar barədə **razılığa gəldilər:**

**Maddə 1**

Tərəflər “Dostluq” yatağının karbohidrogen resurslarının birgə kəşfiyyatı, işlənməsi və mənimsənilməsi məqsədilə həmin yatağın coğrafi koordinatlarını müəyyən edəcəklər.

**Maddə 2**

“Dostluq” yatağının karbohidrogen resursları Tərəflər arasında 30 % Azərbaycan Respublikasına, 70 % Türkmənistana nisbətində bölüşdürülür.

“Dostluq» yatağından çıxarılmış, beynəlxalq bazarlara ixrac üçün nəzərdə tutulmuş karbohidrogen resurslarının daşınması Azərbaycan Respublikasının mövcud olan nəqliyyat-tranzit sistemlərinin istifadə edilməsi ilə rəqabət qabiliyyətliliyi şərtləri əsasında və beynəlxalq neft-qaz sənayesində qüvvədə olan normalara və təcrübəyə uyğun olaraq həyata keçirilir.

Bu kontekstdə Tərəflər karbohidrogen resurslarının beynəlxalq bazarlara nəqli sahəsində ən səmərəli beynəlxalq əməkdaşlıq formalarını istifadə edəcəklər.

**Maddə 3**

Tərəflər müddəaları “Dostluq” yatağının karbohidrogen resurslarının birgə kəşfiyyatı, işlənməsi və mənimsənilməsi üzrə Tərəflər arasında əməkdaşlığı tənzimləyəcək hökumətlərarası saziş bağlayacaqlar.

Hökumətlərarası sazişin işlənib hazırlanması və razılaşdırılması məqsədilə Tərəflər birgə işçi qrup yaradırlar. Tərəflər birgə işçi qrupun tərkibinə daxil olacaq öz nümayəndələri barədə diplomatik kanallar vasitəsilə bir-birini məlumatlandıracaqlar.

Birgə işçi qrup mümkün qısa müddət ərzində hökumətlərarası sazişin layihəsini hazırlayacaq və razılaşdıracaqdır.

**Maddə 4**

Tərəflər bu Memorandum və onun həyata keçirilməsi ilə bağlı konfidensial məlumatları digər Tərəfin qabaqcadan yazılı icazəsi olmadan açmamalı, yaymamalı və ya istənilən üçüncü Tərəfə təqdim etməməlidirlər.

**Maddə 5**

Bu Memorandumun müddəaları Tərəflərin dövlətlərinin Xəzər dənizində sektorlarının bölgü xəttinin təyin edilməsini əvvəlcədən müəyyən edən kimi nəzərdən keçirilməməlidir.

**Maddə 6**

Bu Memorandumun tətbiqi və ya həyata keçirilməsi ilə bağlı yarana biləcək istənilən mübahisələr və fikir ayrılıqları Tərəflər arasında danışıqlar və məsləhətləşmələr yolu ilə həll ediləcəkdir.

**Maddə 7**

Bu Memorandum Tərəflərin onun qüvvəyə minməsi üçün tələb olunan dövlətdaxili prosedurların tamamlanması barədə sonuncu yazılı bildirişinin diplomatik kanallar vasitəsilə alınması tarixindən qüvvəyə minir.

Aşqabad şəhərində 2021-ci il 21 yanvar tarixində, Azərbaycan, türkmən və rus dillərində olmaqla, iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər bərabər autentikdir. Bu Memorandumun təfsirində fikir ayrılığı yarandığı təqdirdə, Tərəflər rus dilində olan mətndən istifadə edəcəklər.

**Azərbaycan Respublikası adından** ________________________________*(imza)*

**Türkmənistan Hökuməti adından** ________________________________*(imza)*

# BAKI–NOVOROSSİYSK NEFT KƏMƏRİ
*(Şimal marşrutu)*

**TEXNİKİ PARAMETRLƏRİ VƏ ÜMUMİ MƏLUMAT:**

Bakı–Qroznı–Novorossiysk neft kəməri Xəzər dənizi neftini Qara dəniz sahilində yerləşən Rusiya limanı Novorossiyskə daşımaq üçün nəzərdə tutulan neft kəməri, Şimal marşrutudur.

Ümumi uzunluğu 1347 km, o cümlədən:

– Azərbaycan hissəsi 231 km;

– Rusiya hissəsi 116 km (1983-cü ildə tikilmiş, 1995–1996-cı illərdə ABƏŞ və ARDNŞ tərəfindən hərəkət istiqaməti dəyişdirilmişdir).

Kəmərin maksimum ötürmə qabiliyyəti gündə 105 min bareldir.

Borunun diametri – 720 mm., nasos stansiyalarının miqdarı 12. maksimal daşıma qabiliyyəti ildə 6 mln. ton. Daşıma qabiliyyətini ildə 17 mln. tona qədər artırma ehtimalı var. Neft kəmərinin hərəkət istiqamətinin dəyişdirilməsi ilə bağlı 60 mln. dollarlıq iş görülmüşdür. (Azərbaycan Respublikasının ərazisində) Marşrut Sənqəçal neft terminalından başlanır. Terminalın qiyməti 72 mln. dollar, tutumu 100 000 ton (730 000 min. barr.). Terminal hər birinin tutumu 25 000 ton olan 4 rezervuardan ibarətdir.

Son məntəqə Novorossiysk limanıdır. Liman ildə 34 mln. tona qədər neft və neft məhsullarını daşıma qabiliyyətinə malikdir. Azərbaycan hissəsinin operatoru – ABƏŞ, Rusiya hissəsinin operatoru isə Rusiyanın "Transneft" şirkətidir ki, o həm də mövcud obyektlərin təmir və yenidən qurulmasına, eləcə də yeni obyektlərin tikintisinə sərf olunan xərcləri öz üzərinə götürür. Şimal marşrutu üzrə tariflər:

– Rusiya Federasiyasının ərazisində 1 ton üçün 15,67 dollar;

– Azərbaycan Respublikası ərazisində 1 ton üçün 1,013 dollar.

Azərbaycan neftinin Rusiya ərazisi ilə nəql edilməsi, eləcə də tərəflərin müvafiq fəaliyyət, vəzifə və məsuliyyətləri ***Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında 18 yanvar 1996-cı il Sazişi ilə tənzimlənir.*** Sazişə uyğun olaraq xarici şirkətlər və Rusiya tərəfi ilə aparılan danışıqlar nəticəsində aşağıdakı çoxtərəfli kontraktlar və sənədlər imzalanmışdır ki, burada tərəflərin və öz hökumətlərini təmsil edən təşkilatların qarşılıqlı münasibətlərinin bütün kommersiya və hüquqi aspektləri ətraflı surətdə təsvir edilmişdir:

– Azərbaycan neftinin Rusiya Federasiyasının ərazisindən nəql edilməsi haqqında "Transneft" şirkəti ilə Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti (ABƏŞ) arasında saziş;

– neftin şimal marşrutu ilə eksportu üzrə ARDNŞ, ABƏŞ və xarici şirkətlər – "Əsrin müqaviləsi"nin iştirakçıları arasındakı sazişin əsasları;

– neftin nəql olunmasına kömək edilməsi haqqında Azərbaycan Respublikasının hökuməti ilə ABƏŞ arasında saziş.

Danışıqlar prosesi, bütün hökumətlərarası və başqa lazımi sazişlərin imzalanması və qüvvəyə minməsi qurtardıqdan sonra boru kəmərinin tikintisi və yenidən qurulması başlandı ki, bu da 1997-ci ildə başa çatdı. Lakin işlərin xeyli ahəngsiz getməsi səbəbindən layihədə nəzərdə tutulmuş daşıma gücünə müvəffəq olunmamışdır.

Azərbaycan neftinin vurulması, nəzərdə tutulduğu kimi, 25 oktyabr 1997-ci ildə başlandı və 1999-cu ilin yanvarına kimi 1,5 mln. ton neft vuruldu.

Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (ARDNŞ) Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi 2012-ci ilin noyabr ayında Novorossiysk limanından 174 min 287 ton xam neft ixrac etmişdir.

Bakı-Novorossiysk (neft kəməri) 2013-cü ildən Rusiyanın "Transneft" şirkəti tərəfindən idarə edilir. Neft kəmərlər vasitəsi ilə Novorosiyskə ötürülür və Urals markası ilə tanınır. "Urals" və "Azəri layt" markalı neft arasında qiymət fərqi 2006-cı ilin göstəricilərinə görə $3 təşkil edirdi.

1997-ci ilin yanvarında Rusiya Fedrasiyası ilə Azərbaycan arasında neftin həcmini və ötürülmə müddətini müəyyən edən müqavilə imzalandı. Azərbaycan tərəfi il ərzində 2,5-2,7 milyon ton neftin nəql etməyi öhdəlik götürdü.

SOCAR və "Transneft" şirkətləri 2021-ci ildə bir milyon ton neftin Bakı-Novorossiysk boru kəməri ilə nəqli barədə müqavilə imzalayıb. 2021-ci ilin yanvar-noyabr aylarında bu boru kəməri ilə 1,009 milyon ton Azərbaycan neftinin nəql olunub.



## "AZƏRBAYCAN RESPUBLİKASI İLƏ RUSİYA FEDERASİYASI ARASINDA AZƏRBAYCAN NEFTİNİN RUSİYA FEDERASİYASI ƏRAZİSİNDƏN TRANZİTİ HAQQINDA" MÜQAVİLƏNİN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 1996-cı il yanvarın 18-də Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında imzalanmış "Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında Azərbaycan neftinin Rusiya Federasiyası ərazisindən tranziti haqqında" Müqavilə təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, adı çəkilən Müqavilənin təsdiqi haqqında Rusiya Federasiyasının hökumətinə müvafiq məlumat göndərsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, adı çəkilən Müqavilədən irəli gələn məsələləri həll etsin.

**Heydər Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 29 yanvar 1996-cı il, № 261*

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN RESPUBLİKAMIZDA ÇIXARILACAQ İLKİN NEFTİN RUSİYA ƏRAZİSİ VASİTƏSİLƏ NƏQLİNƏ DAİR SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİNDƏ ÇIXIŞI

*16 fevral 1996-cı il*

– Hörmətli xanımlar və cənablar, möhtərəm qonaqlar!

1994-cü il sentyabrın 20-də Azərbaycan Respublikasının Xəzər dənizindəki sektorunda olan neft yataqlarının müştərək istifadə edilməsi üçün dünyanın böyük neft şirkətləri ilə Azərbaycan Dövlət Neft Şirkəti arasında məlum müqavilə imzalanmışdır. Bu müqavilə imzalandığı andan artıq həyata keçirilir. O vaxtdan indiyə qədər onun əməli surətdə həyata keçirilməsi üçün çox işlər görülübdür. Bilirsiniz ki, müqavilənin həyata keçirilməsi üçün konsorsiumun rəhbər əməliyyat komitəsi yaradılıbdır. Bu rəhbər əməliyyat komitəsi müqavilənin həyata keçirilməsi üçün müvafiq proqram tərtib edibdir. Həmin proqrama görə müqavilənin həyata keçirilməsi nəticəsində "Çıraq" neft yatağının birinci platformasından ilkin neft 1996-cı ilin sonunda hasil edilməlidir. Müqavilədə nəzərdə tutulur ki, ilkin neftin ixracı üçün xüsusi neft kəməri çəkilməlidir və ilkin neft hasil edilən kimi onun ixracı təmin olunmalıdır.

Bu proqramı həyata keçirərkən konsorsiumun rəhbər əməliyyat komitəsi bir çox tədbirlər görübdür və həmin tədbirlərin nəticəsində, o cümlədən Azərbaycan Respublikası rəhbərliyinin bu sahədə irəli sürdüyü təkliflərlə əlaqədar ilkin neftin ixracı üçün iki neft kəmərinin tikilməsi haqqında qərar qəbul edilibdir. 1995-ci il oktyabrın 9-da qəbul olunan qərar əsasən neft kəmərlərinin biri Rusiya ərazisindən Novorossiysk limanına, ikincisi isə Gürcüstan ərazisi ilə Qara dənizdəki Supsa limanına çəkilməlidir.

İlkin neftin ixracı üçün neft kəmərinin çəkilməsi barəsində Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında danışıqlar, məsləhətləşmələr aparılmışdır, və şübhəsiz ki, bu danışıqlarda konsorsiumun rəhbər əməliyyat komitəsi də iştirak etmişdir. Danışıqlar nəticəsində yanvarın 18-də Moskvada Rusiya Federasiyası Hökuməti ilə Azərbaycan Respublikası Hökuməti arasında müvafiq saziş imzalanmışdır. Bu saziş Rusiya

Federasiyasının Baş naziri hörmətli cənab Viktor Çernomırdin tərəfindən imzalanmışdır və Azərbaycan tərəfindən onu mən imzalamışam. İmzalanmış sazişə görə hər iki tərəf – Rusiya Federasiyasının hökuməti və Azərbaycan hökuməti müvafiq qərarlar qəbul etməlidir və bu qərarlar bizim tərəfimizdən qəbul olunubdur. Mən, Azərbaycan Prezidenti müvafiq fərman imzalamışam və Rusiya hökuməti də bu sazişin həyata keçirilməsi üçün müvafiq qərar qəbul etmişdir, bundan sonra sazişin həyata keçirilməsi və saziş əsasında müqavilənin imzalanması üçün şərait yaradıbdır.

Azərbaycan neftinin Rusiya ərazisi ilə Qara dənizin Novorossiysk limanına ixrac edilməsi üçün çəkiləcək neft kəmərinin tikilməsi barədə sazişin imzalanması ilə əlaqədar olaraq bu gün biz bu mərasimə toplanmışıq. Bu münasibətlə Rusiya Federasiyası hökumətinin səlahiyyəti ilə bu sazişi imzalamaq üçün Rusiyanın "Transneft" şirkətinin prezidenti Valeri Dmitriyeviç Çernyayev, bizim konsorsiumun üzvü və Rusiya ilə Azərbaycan arasında neft kəmərinin tikilməsi üçün çox fəaliyyət göstərən Rusiya Federasiyasının "LUKoyl" şirkətinin prezidenti Vahid Ələkbərov Bakıya gəlmişlər. Bu gün bu mərasimə konsorsiumun rəhbər əməliyyat komitəsinə başçılıq edən cənab Terri Adams dəvət olunubdur, konsorsiumun bütün nümayəndələri və Azərbaycanda fəaliyyət göstərən xarici neft şirkətlərinin nümayəndələri də buraya dəvət ediliblər.

Bu gün burada bu sazişin imzalanması böyük və əlamətdar hadisədir. Bu, 1994-cü ilin sentyabr ayında imzalanmış neft müqaviləsinin əməli surətdə həyata keçirilməsi üçün atılan böyük addımdır. Biz buna çox yüksək qiymət veririk və ona görə də bu sazişin imzalanmasını belə mərasimdə aparırıq.

# AZƏRBAYCAN NEFTİNİN BAKI-QROZNI-TİXORETSK-NOVOROSSİYSK KƏMƏRİ İLƏ NƏQL OLUNMASI HAQQINDA AZƏRBAYCAN-RUSİYA-İÇKERİYA ÇEÇEN RESPUBLİKASI ARASINDA SAZİŞ İMZALANDIQDAN SONRA RUSİYA FEDERASİYASININ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL EDƏRKƏN AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN ÇIXIŞI

*Prezident sarayı,*
*11 iyul 1997-ci il*

Xanımlar və cənablar, hesab edirəm ki, biz indi çox mühüm iş gördük. Məlumdur ki, Azərbaycan öz neftini və fövqəlmilli neft şirkətləri konsorsiumunun çıxaracağı nefti ixrac etməkdən ötrü bu neftin şimal marşrutu ilə Qara dəniz sahilindəki Novorossiysk limanınadək nəqli haqqında Rusiya ilə razılaşma əldə edibdir. Bu marşrut İçkeriya Çeçen Respublikasının ərazisindən keçir. Bununla əlaqədar son vaxtlar danışıqlar aparılmış, İçkeriya Çeçen Respublikasının prezidenti cənab Aslan Məshədov Bakıya gəlmişdi. Biz bu məsələni onunla müzakirə etmişik. Mənim Rusiyaya rəsmi səfərim zamanı bu məsələ barəsində Rusiya prezidenti cənab Boris Yeltsin ilə, bu ölkənin digər dövlət və hökumət rəhbərləri ilə danışıqlarımız oldu. Neftin nəqlinə dair əldə etdiyimiz razılaşmaların əməli surətdə reallaşdırılmasına başlaya bilmək üçün Rusiya, Azərbaycan və İçkeriya Çeçen Respublikası arasında üçtərəfli saziş imzalanmasının zəruriliyi haqqında razılığa gəldik. [373-374]

Bu gün, nəhayət, bu, həyata keçdi. Doğrudur, çox geniş danışıqlar aparmaq lazım gəldi, siz özünüz burada olduğunuz müddətdə bunun şahidisiniz. Amma mən şadam ki, bunlar hamısı arxada qaldı, saziş imzalandı. Mən burada iştirak edənlərin hamısını – Rusiya Federasiyasının nümayəndə heyətini, İçkeriya Çeçen Respublikasının nümayəndə heyətini və şübhəsiz ki, Azərbaycan Dövlət Neft Şirkətini təbrik edirəm. Ümidvaram ki, indən belə maneələr olmayacaq, Rusiyanın "Transneft" şirkəti İçkeriya Çeçen Respublikası ərazisində boru kəmərinin dərhal qaydaya salınmasına başlayacaq

və özlərinin bəyan etdikləri kimi, bu işi 20 gün ərzində görəcəklər. Bundan sonra biz neft nəql edə bilərik.

Məlum olduğu kimi, Azərbaycan ərazisində boru kəməri Rusiya sərhədinədək hazırdır və ona neft vurulmuşdur. Biz bu kəmərlə günü sabah neft nəql etməyə hazırıq. Ümidvaram ki, bütün bunlar bir ay ərzində mümkün olacaqdır. Hamınızı təbrik edirəm.

**Əliyev Heydər Əlirza oğlu.** *Müstəqilliyimiz əbədidir: 10-cu kitab. Bakı: Azərnəşr, 2002.- S. 150*

# XƏZƏR DƏNİZİNİN AZƏRBAYCAN SEKTORUNDA "AZƏRİ", "ÇIRAQ" YATAQLARININ VƏ "GÜNƏŞLİ" YATAĞININ DƏRİNLİKDƏ YERLƏŞƏN HİSSƏSİNDƏN ÇIXARILAN İLKİN NEFTİN QƏRB MARŞRUTU İLƏ İXRACINA AİD SƏNƏDLƏRİN TƏSDİQ OLUNMASI VƏ BƏYƏNİLMƏSİ HAQQINDA

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında Azərbaycan Respublikası Dövlət Neft Şirkəti və xarici neft şirkətləri arasında bağlanmış Sazişə, ilkin neft hasilatı barəsində Layihə ilə bağlı Qərb Marşrutuna aid Boru kəmərinin ötürmə qabiliyyəti və istismarı barədə Sazişə və Sazişin əsasları haqqında sənədə (Sazişlər) uyğun olaraq **qərara alıram:**

1. İlkin neftin hasilatına dair Layihə bəyənilsin.

2. Neft və qaz nəqli üçün bəzi mövcud obyektlərin təkmilləşdirilməsi və təmin edilməsi, Neft və qaz nəqletmə üçün yeni Obyektlərin (vasitələrin) inşası və belə Obyektlərlə (vasitələrlə) Gürcüstan ərazisindən kənara neft və qaz nəql edilməsi haqqında Azərbaycan Respublikası ilə Gürcüstan Respublikası arasında hökumətlərarası Saziş layihəsi bəyənilsin.

3. Azərbaycan Respublikası Dövlət Neft şirkətinə Qərb marşrutuna dair Boru kəmərinin ötürmə qabiliyyəti və istismarı barədə Saziş və Sazişin əsasları barədə sənəd imzalamaq və həyata keçirmək səlahiyyəti verilsin.

4. Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin Birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə xarici neft şirkətləri arasında bağlanmış Sazişin müddəaları və Sazişin tərkib hissəsi olan Azərbaycan Respublikası hökumətinin Təminat və Öhdəlikləri (Azərbaycan Respublikası hökumətinin Ekson Azərbaycan

Limited şirkətinə verdiyi Təminatlar və Öhdəliklər daxil olmaqla) 3-cü bənddə qeyd olunan Sazişlərə müvafiq dərəcədə tətbiq edilsin.

5. Azərbaycan Respublikasının bütün mərkəzi və yerli icra hakimiyyəti orqanlarına, dövlət müəssisələrinə və təşkilatlarına tapşırılsın ki, Sazişlərdə göstərilən şərtlərə tam əməl olunmasına kömək göstərmək üçün bütün lazımi tədbirləri görsünlər.

6. Bu Sərəncam imzalandığı andan qüvvəyə minir.

**Heydər Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 7 mart 1996-cı il, № 288*

## 2005-Cİ İL FEVRALIN 14-DƏ MOSKVA ŞƏHƏRİNDƏ İMZALANMIŞ "AZƏRBAYCAN RESPUBLİKASI İLƏ RUSİYA FEDERASİYASI ARASINDA İQTİSADİ ƏMƏKDAŞLIQ ÜZRƏ HÖKUMƏTLƏRARASI KOMİSSİYANIN DOQQUZUNCU İCLASININ PROTOKOLU"NUN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2005-ci il fevralın 14-də Moskva şəhərində imzalanmış "Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın doqquzuncu iclasının Protokolu" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Protokolun həyata keçirilməsi üçün zəruri tədbirlər görsün.

**İlham ƏLİYEV**
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 12 sentyabr 2006-cı il, № 1668*

# AZƏRBAYCAN RESPUBLİKASI İLƏ RUSİYA FEDERASİYASI ARASINDA İQTİSADİ ƏMƏKDAŞLIQ ÜZRƏ HÖKUMƏTLƏRARASI KOMİSSİYANIN DOQQUZUNCU İCLASININ

## Protokolu

*Moskva şəhəri,*
*14 fevral 2005-ci il*

Sədrlik edirdi:
Xristenko V.B. – Rusiya Federasiyasının energetika və sənaye naziri, Komissiyanın Rusiya hissəsinin sədri

Həmsədrlik edirdi:
Abbasov A.A. – Azərbaycan Respublikasının Baş nazirinin birinci müavini, Komissiyanın Azərbaycan hissəsinin sədri

İclasda Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın (bundan sonra – Komissiya) Rusiya və Azərbaycan hissələrinin nümayəndələri və Azərbaycan Respublikası ilə Rusiya Federasiyasının nazirlik, idarə və təşkilatlarının məsul işçiləri iştirak edirdilər.

Təsdiqlənmiş gündəlik (əlavə olunur) üzrə aşağıdakı məsələlər iclasda müzakirə olundu:

**1. Komissiyanın 2004-cü il 7 aprel tarixli səkkizinci iclasının qərarlarının icrasının gedişi barədə**

Komissiya 2004-cü il 7 aprel tarixli səkkizinci iclası Protokolunun icrasının gedişi barədə Tərəflərin məlumatını dinləyib, onun əsas hissəsinin icra olunduğunu, digər hissəsinin isə icranın müxtəlif mərhələlərində olduğunu qeyd edir.

Ötən müddət ərzində Tərəflər ikitərəfli iqtisadi əməkdaşlığın genişləndirilməsi, mövcud problemlərin həlli istiqamətində müəyyən işlər görmüşlər. İmzalanmış sazişlərə

uyğun olaraq konkret layihələr həyata keçirilmiş, humanitar sahədə əməkdaşlığın möhkəmləndirilməsi prosesi davam etmişdir.

Eyni zamanda, Komissiya qeyd edir ki, Tərəflər hələ də iqtisadiyyatın bir sıra sahələrində mövcud imkanlardan, istehsalat və elmi potensialdan və regionlararası əməkdaşlığın imkanlarından tam istifadə etmirlər.

Komissiya qərara aldı:

1.1. Komissiyanın səkkizinci iclasının qərarlarının icrası üzrə həyata keçirilmiş işlər barədə məlumatı, səkkizinci iclas Protokolunun müddəalarının, bu Protokolda əks olunan ayrı-ayrı bəndləri istisna olmaqla, əsasən icra olunduğu nəzərə alınsın.

1.2. Protokolun bir sıra bəndlərinin icrasının Rusiya Federasiyası icra hakimiyyəti strukturlarında baş vermiş dəyişikliklər səbəbindən bir qədər gecikdiyini nəzərə almaqla, Tərəflərin müvafiq idarələri onun indiyədək icra olunmamış bəndlərinin icrası üzrə işi aktivləşdirsinlər.

**2. Rusiya Federasiyasında Azərbaycan Respublikası ilinin keçirilməsi üzrə əsas Tədbirlər Planı haqqında**

(2005-ci il fevral-dekabr)

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2004-cü il 6-7 fevral tarixlərində Rusiya Federasiyasına rəsmi səfəri zamanı "Azərbaycan Respublikası və Rusiya Federasiyasının Moskva Bəyannaməsi"ndə öz əksini tapmış, Rusiyada Azərbaycan ilinin və Azərbaycanda Rusiya ilinin keçirilməsi barədə razılaşma əldə olunmuşdur.

Komissiyanın səkkizinci iclasının Protokolunda qeyd olunmuşdur ki, 2005-ci ildə Rusiya Federasiyasında Azərbaycan Respublikası ili və 2006-cı ildə Azərbaycan Respublikasında Rusiya Federasiyası ili keçiriləcəkdir.

Komissiya qeyd edir ki, Tərəflərin nazirlik, idarə və təşkilatları tərəfindən 2005-ci ildə Rusiya Federasiyasında Azərbaycan Respublikası ilinin keçirilməsi üzrə böyük həcmdə hazırlıq işləri həyata keçirilmiş, əsas tədbirlərin aylıq Planı hazırlanmış, işçi görüşləri və məsləhətləşmələr aparılmışdır.

2005-ci ildə Rusiya Federasiyasında Azərbaycan Respublikası ilinin keçirilməsi Azərbaycan Respublikasının və Rusiya Federasiyasının maraqlarına cavab verir. Bu, dövlətlərarası əməkdaşlığın sürətləndirilməsi, qarşılıqlı anlaşmanın dərinləşdirilməsi, vətəndaşlar, elm, mədəniyyət, təhsil müəssisələri, təsərrüfat subyektləri, sahibkarlıq strukturları arasında əlaqələrin genişləndirilməsi məqsədlərinə uyğundur. Milli il çərçivəsində Tədbirlər çoxtərəfli işgüzar layihələr və ictimai təşəbbüs üçün yeni imkanlar yaradır.

Komissiya qərara aldı:

2.1. Rusiya Federasiyasında Azərbaycan Respublikası ilinin keçirilməsi üzrə əsas Tədbirlər Planının həyata keçirilməsi üçün əhatəli tədbirlər görmək Tərəflərin nazirlik, idarə və təşkilatlarına, Rusiya Federasiyası subyektlərinə tövsiyə olunsun.

2.2. 2006-cı ildə Azərbaycan Respublikasında Rusiya Federasiyası ili keçirilməsi üzrə Tədbirlər Planının hazırlanmasına başlamaq Tərəflərin maraqlı nazirlik, idarə və təşkilatlarına tövsiyə olunsun.

**3. Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında 2010-cu Ilədək olan dövrdə uzunmüddətli iqtisadi əməkdaşlıq Proqramı tədbirlərinin icrasının, ticarət-iqtisadi münasibətlərin vəziyyəti və inkişaf perspektivləri barədə**

Komissiya ticarət-iqtisadi münasibətlərin vəziyyətini nəzərdən keçirərək müəyyən etdi ki, Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında iqtisadi əlaqələr möhkəmlənməkdə və genişlənməkdə davam edir.

Tərəflərin nazirlik, idarə və təşkilatları tərəfindən qarşılıqlı faydalı əməkdaşlığın sahəsini genişləndirməyə imkan verən kompleks tədbirlər həyata keçirilir. 2004-cü il 6-7 aprel tarixlərində Bakı şəhərində qarşılıqlı faydalı fəaliyyət məsələlərinin geniş dairədə müzakirə olunan "Azərbaycan–Rusiya ticarət-iqtisadi münasibətləri: onların inkişaf meylləri və perspektivləri" Forumu baş tutdu.

Forumda sıx istehsalat əlaqələri olan iki ölkənin bir sıra təsərrüfat subyektlərinin nümayəndələri iştirak etmişlər. Ötən dövr ərzində Tərəflərin nazirlik və idarələri tərəfindən Forumda səsləndirilən təkliflər öyrənilmişdir.

Komissiya 2005-ci ilin iyun ayında 9-cu Peterburq beynəlxalq iqtisadi Forumunda Azərbaycan tərəfinin nəzərdə tutulan iştirakını məmnunluq hissi ilə qeyd edir.

Komissiya Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında 2010-cu ilədək olan dövrdə uzunmüddətli iqtisadi əməkdaşlıq Proqramı Tədbirlərinin icrasının iki ölkə arasındakı ticarət-iqtisadi münasibətlərin inkişafına imkan yaratdığını qeyd edir. Belə ki, 2004-cü ildə ticarət dövriyyəsinin həcmi 750 mln. $ keçərək, 2003-cü ilin səviyyəsindən 1,5 dəfə çox olmuşdur.

Qarşılıqlı ixracatın əsasını: Azərbaycandan – neft məhsulları, neftçıxarma və maşınqayırma avadanlıqları, nasoslar, kimya sənayesi və kənd təsərrüfatı istehsalı məhsulları; Rusiyadan təbii qaz, elektrik enerjisi, avtomobillər, gəmilər, metal prokatı, kimya və meşə sənayesi məhsulları təşkil etmişdir.

Azərbaycan və Rusiya partnyorları hökumət, bank, gömrük və digər strukturların dəstəyi ilə iqtisadiyyatın bir çox sahələrində, o cümlədən kənd təsərrüfatı sahəsində əməkdaşlıq edirlər. Təzə meyvə və tərəvəzin Rusiyaya və qarşı tərəfdən Rusiya ərzaq

məhsullarının Azərbaycana ixracı qarşılıqlı faydalı əməkdaşlığın vacib istiqamətlərindən biridir. Son zamanlar bu istiqamətdə problemlərin həlli üçün, o cümlədən tezyetişən tərəvəzlərin Azərbaycandan Rusiya bazarına çıxarılması sxeminin təkmilləşdirilməsi üzrə ciddi tədbirlər görülür.

Rusiya təsərrüfat subyektlərinin Azərbaycan bazarında istehsalat fəaliyyətinə marağı artmaqdadır. Azərbaycan Respublikasında Rusiya sərmayəsinin iştirakı ilə 390 müəssisə və təşkilat, onlardan 171-i birgə, 95-i 100 faiz Rusiya kapitalı ilə və 124 nümayəndəlik və filial qeydə alınmışdır.

Tərəflər Rusiya kapitalının Azərbaycan iqtisadiyyatına cəlb olunmasına və Rusiyanın innovasiya texnologiyalarının, xüsusən kənd təsərrüfatı məhsullarının emalı və istehsalı sahəsində istifadəsinə böyük əhəmiyyət verirlər.

Kosmos sahəsində əməkdaşlıq müvəffəqiyyətlə inkişaf edir. 2004-cü ilin oktyabr ayında Moskva şəhərində FKA nümayəndələri və Rusiya sənayesinin FKA-ANAKA Proqramının koordinatoru ilə peyk naviqasiyasının əsas istiqamətlərini müəyyən edən və torpaqların və daşınmaz əmlak obyektlərinin dövlət kadastrının yaradılması, nəqliyyat vasitələrinin istifadəsi və Azərbaycan Respublikası ərazisində geodeziya işlərinin həyata keçirilməsi məsələlərinin effektiv həllinə imkan verən Azərbaycan Respublikası ərazisinin naviqasiya təminatının birgə konsepsiyasının işlənib hazırlanmasına böyük diqqət yetirilən görüş keçirilmişdir.

2004-cü ilin iyun ayında Bakı şəhərində Azərbaycan TSP və Rusiya TSP arasındakı danışıqlarda ikitərəfli münasibətlərin bundan sonrakı inkişafı məsələləri müzakirə olunmuş, iki ölkənin təsərrüfat birliklərinin son zamanlar fəal inkişaf edən inteqrasiya proseslərində iştirakı perspektivlərinə baxılmış və əməkdaşlıq haqqında müvafiq saziş imzalanmışdır.

Azərbaycan dəniz gəmiçiliyi idarəsinin sifarişi ilə “Krasnoye Sormovo” gəmiqayırma zavodu tərəfindən quru yük gəmisi və dörd tanker, onlardan ikisi – “Prezident Heydər Əliyev” və “Babək” tankerləri 2004-cü ildə istehsal olunmuş və istismara verilmişdir.

Bakı Metropoliteni üçün Mıtişinskiy vaqon zavodundan 75 vaqon alınmışdır.

Azərbaycanda Sərdarov adına zavodda yığılan “KamAZ”ların sayı artır. 2004-cü ilin dekabrından Gəncə avtomobil zavodunda “Oka” avtomobillərinin yığımına başlanmışdır.

Tərəflər ticarət-iqtisadi münasibətlərin intensivləşdirilməsi, ticarət dövriyyəsinin artırılması məqsədilə və Azərbaycan ilə Rusiya iqtisadi strukturlarının müxtəlif nümayəndələrinin işinin koordinasiyası zərurətini nəzərə alaraq, ölkələrində öz ticarət nümayəndəliklərinin açılmasının məqsədəuyğunluğunu qeyd etdilər.

Rusiya tərəfi 2005-ci ilin ilk yarımilində Azərbaycan Respublikasında öz ticarət nümayəndəliyini açmaq niyyəti barədə məlumat verdi.

Komissiya qərara aldı:

3.1. Tərəflər Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında 2010-cu ilədək olan dövrdə uzunmüddətli iqtisadi əməkdaşlıq Proqramı Tədbirlərinin icrası işini davam etdirsinlər.

3.2. Tərəflərin nazirlik, idarə və təşkilatları, Rusiya Federasiyası subyektləri Azərbaycan-Rusiya münasibətlərinin inkişafını nəzərə alaraq, Tədbirlərin dolğunlaşdırılması üzrə əlavə təkliflərini 3 ay müddətində təqdim etsinlər.

3.3. Komissiyanın məsul katibləri Tərəflərin nazirlik, idarə və təşkilatlarının, Rusiya Federasiyası subyektlərinin təqdim etdiyi təklifləri müəyyən olunmuş qaydada razılaşdırsınlar, Komissiyanın qəbul edilmiş müvafiq protokol qərarlarını, struktur dəyişiklikləri ilə əlaqədar, icraçılar və müddətlər üzrə dəyişiklikləri, daxil olmuş yeni təklifləri nəzərə alaraq, tədbirlərə düzəlişlər etsinlər və onları Komissiyanın müzakirəsinə çıxarsınlar.

3.4. Məsul katiblər Tədbirlərə əlavə uzunmüddətli icra bəndləri daxil etsinlər:

elektroenergetikanın inkişafına kömək barədə;

Azərbaycan Respublikasına qaz göndərilməsi barədə;

dövlət sərhədində dəmir yolu məntəqələrinin və avtomobil yollarının abadlaşdırılması işi barədə;

sərhədyanı stansiyalar arasında kommunikasiya əlaqələrinin təşkili barədə;

naviqasiya-informasiya sisteminin pilot layihəsinin işlənib hazırlanması barədə;

tələbə və müəllim kadrlarının, idman növləri üzrə yığma komandaların mübadiləsi barədə.

3.5. Tərəflərin nazirlik, idarə və təşkilatları, Sankt-Peterburq administrasiyası Rusiyada Azərbaycan ili çərçivəsində Azərbaycan Respublikasının təqdimatının 9-cu Peterburq beynəlxalq iqtisadi Forumunda hazırlanması və keçirilməsinə kömək etsinlər.

3.6. Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi və Rusiya Federasiyasının İqtisadi İnkişaf Nazirliyi iki ölkənin müəssisə və təşkilatlarına birbaşa əlaqələrin qurulmasında kömək etsinlər, keçirilən sərgi, yarmarka, seminar və digər tədbirlər barədə operativ məlumatların mübadiləsini davam etdirsinlər.

3.7. 2005-ci ilin sentyabr ayında Moskva şəhərində "Azərbaycan–Rusiya iqtisadi münasibətləri: məqsədlər və perspektivlər" mövzusunda iqtisadi forumun keçirilməsini Azərbaycan Respublikasının İİN, Azərbaycan Respublikasının Rusiya Federasiyasındakı Səfirliyi təmin etsin, Rusiya İİN, Ümumrusiya sərgi mərkəzi və Ümumrusiya Azərbaycanlılar Konqresi isə lazımi kömək göstərsin.

3.8. Rusiya Federasiyasının Sənaye və Energetika Nazirliyi və Azərbaycan Respublikasının Sənaye və Energetika Nazirliyi maşınqayırma və yeyinti sənayesi sahələrində birgə müəssisələrin yaradılması imkanlarını öyrənsinlər.

3.9. "Neftemaş ÜETİ" ASC və "Azneftkimyamaş" ASC neftçıxarma avadanlığının yeni növlərinin işlənib hazırlanması və seriyalarla istehsal olunmasında ikitərəfli əməkdaşlığın genişləndirilməsi imkanlarını, eyni zamanda istifadə olunan avadanlığa servis xidməti imkanlarını öyrənsinlər.

3.10. Rusiya Federasiyasının KTN, Rosselxoz və Azərbaycan Respublikasının KTN:

2001-ci il 24 aprel tarixində imzalanmış qurumlararası Saziş çərçivəsində ikitərəfli əməkdaşlığı fəallaşdırsınlar;

Azərbaycanın kənd təsərrüfatı sənayesi kompleksinin emal müəssisələrinin modernləşdirilməsinə Rusiya işgüzar dairələrinin nümayəndələrinin cəlb olunmasına kömək etsinlər;

Rusiyadan yüksək məhsuldar heyvan cinslərinin Azərbaycanın dövlət damazlıq müəssisələri və fermer təsərrüfatları üçün gətirilməsi imkanlarını öyrənsinlər.

3.11. Azərbaycan Respublikasının KTN Azərbaycan Respublikasının Xızı rayonunda yerləşən Giləzi qarışıq yemlər zavodunun işinin bərpa olunmasında əməkdaşlıq imkanları barədə təkliflərini Rusiya Federasiyasının KTN-nə təqdim etsin.

3.12. Azərbaycanın Müdafiə Nazirliyi və Rusiya FHN fövqəladə halların aradan qaldırılması və qarşısının alınması məsələlərini həll edən kadrların hazırlanmasında daha sıx əməkdaşlıq imkanlarını öyrənsinlər.

3.13. Azərbaycan Milli Aerokosmik Agentliyi və Rusiya Federasiyasının Federal kosmik agentliyi Bakı şəhərinin naviqasiya-informasiya sisteminin hazırlanmasının pilot layihəsini işləyib hazırlasınlar və bu prosesdə azərbaycanlı mütəxəssislərə təlim keçsinlər və nümunəvi naviqasiya texnologiyalarını işləyib hazırlasınlar. Pilot layihənin nəticələri üzrə onların Azərbaycan Respublikasında tətbiqi barədə qərar qəbul edilməsi təklif olunur.

Pilot layihənin maliyyələşdirilməsi Azərbaycan tərəfindən həyata keçirilir.

3.14. "KamAZ" ASC və Gəncə avtomobil zavodu kiçik həcmli "Oka" avtomobillərinin istehsal həcminin artırılması və onların maya dəyərinin aşağı salınması istiqamətində işlərini davam etdirsinlər.

**4. Yanacaq-energetika kompleksləri sahəsində əməkdaşlıq barədə**

Azərbaycan və Rusiya şirkətlərinin yanacaq-energetika kompleksinin inkişafında uğurlu əməkdaşlığı davam edir.

Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında Azərbaycan neftinin Rusiya Federasiyası ərazisindən tranziti barədə 1996-cı il 18 yanvar tarixli Sazişin qüvvəyə mindiyi tarixdən Bakı-Novorossiysk marşrutu üzrə Tərəflər 16 mln. tondan çox neft nəql etmişlər ki, bu da iki ölkənin iqtisadi əməkdaşlığının inkişafına böyük töhfə olmuşdur.

Bununla yanaşı, Tərəflər qeyd edirlər ki, 2002-ci ildən başlayaraq Saziş tranzit həcmləri hissəsi üzrə tam yerinə yetirilmir. Qeyd olunan Sazişə əsasən Azərbaycan neftinin tranzit həcmi 2002-ci ildən başlayaraq ildə 5 mln. tondan az olmamalı idi, lakin son üç il ərzində bu həcm orta hesabla 2.7 mln. ton olmuşdur.

Bununla yanaşı, Azərbaycan tərəfi qeyd edir ki, AK "Transneft" sisteminə daxil olunan Azərbaycan və Novorossiysk limanından yüklənən Rusiya ixrac neftlərinin keyfiyyət göstəricilərindəki fərq azkükürdlü neftin boru xətti ilə ixracının iqtisadi səmərəliliyinin aşağı düşməsinə səbəb olur.

Hazırda "LUKoyl MŞ" ASC Azərbaycan Respublikası ərazisindəki neftqaz yataqlarının işlənməsi layihələrinin bir neçəsində iştirak edir. Şirkət "Şahdəniz"qaz kondensat yatağının işlənməsində fəal iştirak edir. D-222 bloku həm Azərbaycan, həm də Rusiya sektorlarında yerləşən və böyük neft ehtiyatları proqnozlaşdırılan iri perspektiv Yalama strukturunun bir hissəsidir.

Azərbaycan Respublikasına təbii qazın tədarükü həyata keçirilir, 2004-cü ildə tədarük olunan qazın həcmi 4.93 mlrd. kubmetr təşkil etmişdir.

2004-cü ilin dekabr ayında "Qazeksport" və ARDNŞ arasında Rusiya qazının Azərbaycana göndərilməsi barədə kontrakta əlavə imzalanmışdır.

Kontrakta əsasən, 2005-ci ildə Azərbaycan Respublikasına 4.5 mlrd. kubmetr qaz tədarük olunacaq, texniki imkanlar olduqda isə həcm 5.5 mlrd. kubmetrə çatdırılacaq.

2004-cü ilin may ayında Bakı şəhərində "EES Rossii" RAO və "Azərenerji" ASC arasında elektroenergetika sahəsində əməkdaşlıq barədə Memorandum imzalanmışdır. İki ölkənin enerji sistemləri arasında mübadilə olunan elektrik həcmlərinin artırılması imkanları, energetika obyektlərinin bərpası və tikilməsi birgə layihələrində iştirak, üçüncü ölkələrin enerji sistemləri ilə paralel işin təşkili məsələlərinə baxılması və elmi-texniki əməkdaşlıq barədə razılıqlar əldə olunmuşdur.

"EES Rossii" RAO və "Azərenerji" ASC arasında elektroenergetika məsələləri üzrə birgə işçi qrupları təşkil olunmuşdur və fəaliyyət göstərməkdədir.

Azərbaycan Respublikası və Rusiya Federasiyası enerji sistemlərinin paralel iş rejimində qarşılıqlı elektrik enerjisi tədarükü davam etdirilir.

Tərəflər hesab edirlər ki, Boru Metallurgiya Şirkəti (Rusiya Federasiyası) və ARDNŞ (Azərbaycan Respublikası) arasında əməkdaşlıq-ticarət münasibətlərinin genişləndiril-

məsinə və Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında qarşılıqlı faydalı layihələrin həyata keçirilməsinə səbəb olacaqdır.

Azərbaycan Respublikası ərazisində 2001-ci ilin avqust ayından "Rosneftqazstroy" ASC fəaliyyət göstərməkdədir. 2004-cü ilin dekabr ayında ARDNŞ ilə "Rosneftqazstroy" ASC-nin neft-qaz sektoru obyektlərinin tikintisi və yenidən qurulmasında, beynəlxalq təşkilatlar tərəfindən Azərbaycan Respublikası və Rusiya Federasiyası və üçüncü ölkələrin ərazilərində keçirilən tenderlərdə iştirak məqsədilə birgə müəssisəsi yaradılmışdır.

Komissiya qərara aldı:

4.1. Nəzərə alınsın:

Mövcud sazişlərlə Rusiya Federasiyası ərazisindən Azərbaycan neftinin tranziti zamanı onun keyfiyyətinin qorunması məsələsinin tənzimlənməməsinin xəfif azkükürdlü neftin ixracının səmərəliliyini azaltdığı barədə Azərbaycan tərəfinin məlumatı;

Azərbaycan neftinin Rusiya Federasiyası ərazisindən tranziti barədə Azərbaycan tərəfinə daha əvvəl təqdim olunmuş yeni saziş layihəsinə Azərbaycan tərəfinin tezliklə baxması xahişi ilə Rusiya tərəfinin müraciəti.

4.2. "EES Rossii" RAO və "Azərenerji" ASC-nin ikitərəfli əməkdaşlığının inkişaf etdirilməsi, o cümlədən qarşılıqlı elektrik enerjisi tədarükündə maraqlı olduqları qeyd edilsin.

Tərəflər "EES Rossii" RAO və "Azərenerji" ASC arasında yaradılmış birgə işçi qrupları çərçivəsində qarşılıqlı fəaliyyətin davam etdirilməsini məqsədəuyğun hesab edirlər.

4.3. "Qazprom" ASC bağlanmış kontraktlara uyğun olaraq təbii qazın Rusiya Federasiyası ərazisindən təminatlı, fasiləsiz nəqli və Azərbaycan Respublikasına ixracı üzrə işi davam etdirsin.

4.4. Boru Metallurgiya Şirkətinə (Rusiya Federasiyası) və ARDNŞ-yə (Azərbaycan Respublikası) birgə fəaliyyət və əməkdaşlıq haqqında Sazişi işləyib qurtarmaq və imzalamaq tövsiyə edilsin.

**5. Nəqliyyat, informasiya texnologiyaları və rabitə sahələrində əməkdaşlıq barədə**

Tərəflər nəqliyyat sahəsində əməkdaşlığın fəallaşdığını qeyd edirlər.

2004-cü ildən Azərbaycan Respublikası şimal-cənub beynəlxalq nəqliyyat dəhlizinin tamhüquqlu üzvü olmuşdur, bu da yükdaşımaların həcminin, o cümlədən tranzitin artırılmasına zəmin yaratmaqdadır.

2004-cü ilin avqust ayında Mahaçqala şəhərində beynəlxalq avtomobil əlaqəsi məsələləri üzrə Azərbaycan və Rusiya nəqliyyat nazirliklərinin nümayəndə heyətləri arasında danışıqlar keçirilmişdir.

2004-cü ilin 15 oktyabr tarixində Bakı şəhərində hər iki ölkənin nəqliyyat nazirləri tərəfindən nəqliyyat prosedurlarının davamlı asanlaşdırılmasının, tranzit daşımalarının inkişafının, müqavilə-hüquq bazasının möhkəmləndirilməsinin əhəmiyyəti vurğulanan Protokol imzalandı.

Görüş zamanı Tərəflər Azərbaycan və Rusiya arasında avtomobil daşımalarının inkişafı barədə məlumatı mübadilə etmiş və onların artım dinamikasını qeyd etmişlər.

Azərbaycan və Rusiya arasında beynəlxalq avtobus şəbəkəsinin ən əlverişli hala gətirilməsi üzrə aparılmış iş nəticəsində iki ölkə arasında daimi avtobus marşrutları fəaliyyət göstərir.

Bakı-Mahaçqala, Bakı-Rostov, Bakı-Moskva, Bakı-Həştərxan marşrutları üzrə sərnişin qatarlarının hərəkəti davam etdirilir. Sərnişin və yük qatarlarının hərəkətinin asanlaşdırılması üzrə tədbirlər görülməkdədir. Azərbaycan ilə Rusiya arasında aviareyslərin sayı artmaqdadır.

Azərbaycan Respublikası nəqliyyat yük gəmilərinin Rusiya Federasiyası daxili sularından rəsmi naviqasiya müddətlərində keçidi üçün şəraitin yaxşılaşdırılması üzrə iş aparılır.

Qarşılıqlı dəniz daşımaları sahəsində əməkdaşlığın inkişafını nəzərə alaraq, Tərəflər dəniz ticarət gəmiçiliyi sahəsində əməkdaşlıq haqqında sazişin hazırlanmasının aktuallığını qeyd edirlər.

Tərəflər Azərbaycan ilə Rusiya arasında informasiya texnologiyaları sahəsində dinamik inkişaf edən əməkdaşlığı və Tərəflərin informasiya texnologiyaları və rabitə sahəsində əməkdaşlığı haqqında Sazişi imzalamaq imkanlarına baxmağa hazır olduqlarını məmnunluq hissi ilə qeyd etdilər.

Azərbaycan tərəfi Rusiya tərəfinə Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin "Elektron Hökumət" istiqamətində Proqramı haqqında məlumat verdi.

Komissiya qərara aldı:

5.1. Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi və Rusiya Federasiyasının Nəqliyyat Nazirliyi Tərəflərin maraqlı qurum və təşkilatları ilə birgə:

Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizi üzrə dəmir yolu yük daşımalarının həcmlərinin artırılması məsələlərinə baxsın;

bu Protokolun 3.4-cü bəndinin həyata keçirilməsini nəzərə almaqla sərhəd-keçid məntəqəsində texnoloji yoxlama prosesinin qısaldılması imkanlarını öyrənsinlər;

Yalama-Samur sərhəd-keçid məntəqəsindən qatarların hərəkət qrafikinin təmin olunması üzrə tədbirlər görsünlər;

Bakı-Yalama və Mahaçqala-Samur dəmir yolu hissələrində optik-lifli kabelin çəkilməsi prosesini sürətləndirsinlər.

5.2. Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi və Rusiya Federasiyasının Nəqliyyat Nazirliyi qarşılıqlı maraqları nəzərə almaqla 2005-ci ildə Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyası Hökuməti arasında dəniz ticarət gəmiçiliyi sahəsində əməkdaşlıq haqqında saziş layihəsini hazırlasınlar.

5.3. Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi və Rusiya Federasiyasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi iki ölkənin müvafiq strukturları ilə birgə:

rabitə və informasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında sazişin bağlanması imkanlarını;

Xəzər dənizi hövzəsində gəmilərin naviqasiyasının informasiya təminatının birgə layihəsinin hazırlanması imkanlarını;

"Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında mühüm hüquqi məlumatlar üzrə qarşılıqlı fəaliyyətin birgə koordinasiya mərkəzinin" yaradılması layihəsinin hazırlanması imkanlarını nəzərdən keçirsinlər.

5.4. Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi və Rusiya Federasiyasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi Tərəflərin müvafiq strukturları ilə birgə "Rostelekom" ASC-nin Rusiya XİN-in 2004-cü il 22 aprel tarixli 2694-n/4 dsnq nömrəli notasında qeyd olunan trafik məsələlərinin həlli üzrə danışıqlar aparsınlar.

**6. Rusiya Federasiyası subyektləri ilə regional və sərhədyanı əməkdaşlığın genişləndirilməsi barədə**

2004-cü il ərzində Azərbaycan Respublikası və Rusiya Federasiyası subyektləri arasında iqtisadi əlaqələrin möhkəmləndirilməsi üzrə iş aparılmış, nümayəndə heyətlərinin bir çox səfərləri həyata keçirilmiş, ikitərəfli əməkdaşlığın vəziyyəti və perspektivləri müzakirə olunmuşdur.

2004-cü il 24 aprel tarixində Azərbaycan Respublikası Hökuməti və Həştərxan Vilayəti Administrasiyası arasında ticarət-iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq haqqında Saziş imzalanmışdır.

23 iyun tarixində Hökumətlərarası Komissiyanın Azərbaycan Respublikası Hökuməti ilə Moskva Hökuməti arasında əmtəə dövriyyəsinin artırılması yolları, qarşılıqlı faydalı iqtisadi elmi-texniki əlaqələrin inkişafı üzrə müzakirələrin aparıldığı 5-ci iclası keçirilmişdir.

2004-cü ilin 22-23 oktyabr tarixlərində Sverdlovsk Vilayətinin qubernatoru E.Rossellin başçılığı ilə nümayəndə heyətinin səfəri zamanı Azərbaycanda Sverdlovsk Vilayəti Mədəniyyət Günlərinin açılışı oldu. Birgə fəaliyyət nəticəsində Bakı-Yekaterinburq birbaşa dəmir yolu əlaqəsi, "Ural" Ticarət Evi və Boru-Metallurgiya Ticarət Evi, Yekaterinburq şəhərində isə "Azərbaycan" Ticarət Evi fəaliyyətə başladı.

2004-cü ilin 10-11 noyabr tarixlərində Sankt-Peterburqun qubernatoru V. Matviyenkonun Azərbaycana rəsmi səfəri zamanı Azərbaycan Respublikası Hökuməti ilə Sankt-Peterburq Hökuməti arasında ticarət-iqtisadi, elmitexniki və mədəni əməkdaşlıq haqqında Saziş və Hökumət nümayəndə heyətlərinin danışıqlarının Protokolu imzalanmış, işgüzar dairələrin "Biznes-Forumu" keçirilmişdir. Tərəflər 2005-ci ildə Azərbaycanın Ümummilli lideri H.Əliyevin təhsil aldığı binanın üzərində xatirə lövhəsinin açılmasını qərara almışlar.

Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 16 dekabr tarixli sərəncamları ilə Rusiya Federasiyasının Sankt-Peterburq və Yekaterinburq şəhərlərində Azərbaycan Respublikasının baş konsulluqları təsis edilmişdir.

Azərbaycan Respublikasının Rusiya Federasiyası subyektləri ilə müqaviləhüquq bazasının genişləndirilməsi üzrə fəal iş aparılır.

Rusiya tərəfindən Azərbaycan tərəfinə bir sıra Rusiya regionlarının Azərbaycan Respublikası ilə ticarət-iqtisadi əməkdaşlığını fəallaşdırmağa hazır olduqları barədə təkliflər təqdim olunmuşdur.

Sərhədyanı əməkdaşlığın təkmilləşdirilməsi üzrə iş aparılmışdır.

Nəqliyyat strukturlarının nümayəndələri sərhədyanı daşımaların optimallaşdırılması və təşkili üzrə işə rəhbərliyin Rusiya tərəfindən Nəqliyyat Nazirliyinə, Dağıstan Respublikasının yol təsərrüfatı və telekommunikasiya sistemlərinə, Azərbaycan tərəfindən isə Nəqliyyat Nazirliyinin "Avtonəqliyyatservis" departamentinə həvalə olunması barədə razılaşdılar.

Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyasının Dağıstan Respublikası Hökuməti arasında sərhədyanı ticarət və nəqliyyat təminatı sahəsində əməkdaşlıq haqqında Sazişin hazırlanması işi davam etdirilir.

Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası komissiyanın milli hissələri sədrlərinin görüşünün 2003-cü il 28 noyabr tarixli Protokolunun 15-ci bəndinin icrası naminə Tərəflər Azərbaycan-Rusiya sərhədində Samur çayı üzərindən körpünün bərpası və genişləndirilməsi zərurətini təkrar təsdiq edirlər. Eyni zamanda Tərəflər Azərbaycan tərəfinin köhnə körpünün yanında müasir texniki tələblərə cavab verən yeni körpü tikilməsi barədə 2004-cü il 13 dekabr tarixli təklifinə yaxın zamanda baxılmasını məqsədəuyğun hesab edirlər.

Komissiya qərara aldı:

6.1. Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyası subyektləri arasında aparılan iş bəyənilsin, Tərəflərin nazirlik, idarə və təşkilatlarına regional əməkdaşlığın inkişafına hərtərəfli kömək göstərilməsi istiqamətində işi davam etdirmək tövsiyə edilsin.

6.2. Tərəflərin nazirlik, idarə və təşkilatları, Rusiya Federasiyası Həştərxan Vilayətinin Administrasiyası 2005-ci ilin üçüncü kvartalında Rusiya Federasiyası Federal Məclisinin Federasiya Şurasının və Azərbaycan Respublikası Milli Məclisinin rəhbərliyi altında Rusiya-Azərbaycan regional və sərhədyanı əməkdaşlığının vəziyyəti və perspektivləri məsələlərinə həsr olunmuş Beynəlxalq Konfransın keçirilməsinə kömək göstərsinlər.

6.3. Rusiya Federasiyası Başqırdıstan və Tatarıstan Respublikaları, Krasnodar diyarı "Azneftkimyamaş" ASC ilə birgə neftçıxarma avadanlığının və ehtiyat hissələrinin təchizatı, birgə istehsalı və servis xidməti üzrə ikitərəfli əlaqələrin genişləndirilməsi məsələlərinə birgə baxsınlar.

6.4. Tatarıstan Respublikası Hökuməti maraqlı təşkilatların cəlb olunmasına kömək göstərsin, "Azərkimya" DŞ isə kimya və neft-kimya sahəsində layihələrin birgə hazırlanması və həyata keçirilməsində iştirak etsin.

6.5. Azərbaycan Dövlət Xəzər Dəniz Gəmiçiliyi və Həştərxan Vilayəti Administrasiyası maraqlı təşkilatları cəlb etməklə Ola və Bakı limanları arasında avto-bərə əlaqəsinin təşkili, yüklərin tez rəsmiləşdirilməsinin işlənib hazırlanması və tətbiqi, eyni zamanda Ola limanının inkişafında iştirak məqsədilə Azərbaycan gəmiləri tərəfindən daşınacaq yüklərin həcminin artırılması məsələlərinə baxsınlar.

6.6. Azərbaycan Respublikasının Gənclər, İdman və Turizm Nazirliyi:

2005-ci ilin ikinci kvartalında Rusiyanın bir sıra şəhərlərində (Sankt-Peterburq, Nijni-Novqorod, Samara, Tambov, İvanovo, Yekaterinburq, Stavropol və s.) Azərbaycanın turizm imkanlarının təqdimatı, Azərbaycan mətbəxi günlərinin, respublikada fəaliyyət göstərən turizm-istirahət bazaları və mədəniyyət-tarix muzeyləri barədə filmlərin nümayişi üzrə tədbirlər keçirsin;

Azərbaycan Respublikası ilə Rusiya Federasiyasının Stavropol Vilayəti arasında turizm sənayesinin inkişafı çərçivəsində 2005-ci ildə jurnalistlərin və turizm təşkilatları nümayəndələrinin iştirakı ilə qarşılıqlı "məlumat turları" təşkil etsin.

6.7. Azərbaycanın maraqlı təşkilatları və Dağıstan Respublikasının Hökuməti sərhədyanı rayonlarda investisiya mühitinin yaxşılaşdırılması, investorlar üçün inzibati əngəllərin ləğvi, Tərəflərin sərmayələrinin cəlb olunması ilə birgə layihələrin hazırlanması və həyata keçirilməsi, sərhədyanı əməkdaşlığın infrastrukturunun yaradılması üzrə razılaşdırılmış tədbirlər görsünlər.

6.8. 2005-ci ildən Rusiyada Azərbaycan ilinin keçirilməsi çərçivəsində:

Azərbaycan Respublikası nümayəndə heyətlərinin Rusiya Federasiyası subyektlərinə səfər etmələri ilə Stavropol diyarı, Nijni-Novqorod, Novosibirsk, Sverdlovsk, Voronej, Leninqrad vilayətləri administrasiyaları ilə ticarət-iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq haqqında sazişlərin, eyni zamanda Dağıstan Respublikası Hökuməti ilə nəqliyyat təminatı və sərhədyanı ticarət sahəsində əməkdaşlıq haqqında sazişin imzalanması tövsiyə edilsin.

**7. Mülkiyyət və maliyyə məsələlərinin tənzimlənməsi barədə**

Mülkiyyət və maliyyə məsələlərinin tənzimlənməsi üzrə iş davam etdirilir.

Komissiya qeyd edir ki, ötən müddət ərzində Tərəflər Azərbaycan Respublikası Səfirliyinin Moskvada yerləşdirilməsi şərtləri məsələsinin həlli üzrə bir sıra danışıqlar keçirmişlər.

Azərbaycan Respublikasının səfirlik kompleksi binalarına mülkiyyət münasibətləri məsələsinə baxılması məqsədilə Tərəflərin işçi qrupları yaradılmışdır.

İşçi qrupunun Moskva hissəsi tərəfindən Azərbaycan Respublikası Səfirliyinin təqdim etdiyi, səfirlik kompleksinin Leontyevskiy döngəsi, ev 16, Voznesenskiy döngəsi, ev 15 və Qoqolevskiy bulvar, ev31A. ünvanlarında yerləşən binalara hüquqları müəyyən edən sənədlərə və maliyyə sənədlərinə baxılır.

Komissiya qərara aldı:

7.1. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Rusiya Federasiyasının Maliyyə Nazirliyi Tərəflərin səlahiyyətli banklarının iştirakı ilə 2005-ci ilin 1 iyuluna qədər 1992-ci il 1 yanvar tarixinə SSRİ "Vneşekonombank"ında Azərbaycan Respublikasının hüquqi şəxslərinin dondurulmuş valyutalarına dair mövqeyin razılaşdırılması, o cümlədən Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyası Hökuməti arasında 1997-ci ilin əvvəllərinə qarşılıqlı maliyyə tələblərinin tənzimlənməsi haqqında 1997-ci il

3 iyul tarixli Sazişin şərhi ilə bağlı Tərəflər arasında mövcud fikir ayrılıqlarına dair danışıqları yekunlaşdırsınlar.

Nəticələr barədə Komissiya həmsədrlərinə məruzə edilsin.

7.2. Tərəflərin işçi qrupları Azərbaycan Respublikası Səfirliyinin Rusiya Federasiyasında yerləşən Leontiyevskiy döngəsi, ev 16, Voznesenskiy döngəsi, ev 15 və Qoqolevskiy bulvar, ev 31A. ünvanlarında səfirlik kompleksinin yerləşdiyi binalara Azərbaycan Respublikasının mülkiyyət hüquqlarının rəsmiləşdirilməsi məsələsinə dair son qərarın hazırlanması məqsədilə hüquqları müəyyən edən sənədlərə və maliyyə sənədlərinə baxılması işini davam etdirsinlər.

7.3. Tərəflər Azərbaycan infrastrukturlarında "Şelf-7" üzən yarımdalma buruq qurğusunun yenidən qurulmasının sifariş olunmasına "LUKoyl" MMCnin müraciətinə

baxaraq bu təklifi dəstəkləyirlər, bununla yanaşı təsdiq edirlər ki, Azərbaycan Respublikası Hökuməti və ARDNŞ tərəfindən "Şelf-7" ÜYDQ ilə bağlı "LUKoyl" MMC-yə qarşı heç bir mülkiyyət iddiası yoxdur.

7.4. Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi "Teleradio" SC və "Avanqard" ASC (Rusiya) Rusiyanın "ORT" telekanalı proqramlarının Azərbaycan Respublikası ərazisində televiziya texniki avadanlığı vasitəsilə 2003-cü il 3 iyul tarixli Protokola uyğun olaraq yayımlanmasına görə yaranmış borcun ödənilməsi məsələsinin tənzimlənməsi üzrə danışıqları üç ay müddətində həyata keçirsinlər.

**8. Humanitar əməkdaşlıq haqqında**

Komissiya qeyd edir ki, Tərəflər humanitar sahədə ikitərəfli əməkdaşlığın inkişafına xüsusi diqqət yetirirlər. Elm, təhsil, səhiyyə və mədəniyyət sahələrində lazımi hüquqi baza formalaşdırılmışdır.

Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında 2004-2006-cı illər üzrə humanitar əməkdaşlıq Proqramının həyata keçirilməsi çərçivəsində Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə Rusiya Federasiyasının Mədəniyyət Nazirliyi 2004-cü ilin 12 iyun tarixində "2004-2006-cı illər üzrə əməkdaşlıq Proqramı"nı imzalamışlar.

2004-cü ilin iyun ayında Azərbaycan Respublikasında "Rusiya mədəniyyəti günləri" keçirilmiş, məşhur Rusiya kollektivlərinin və ayrı-ayrı ifaçıların, o cümlədən "Kremlyovski balet" Moskva teatrının, N.Babkinanın rəhbərliyi altında "Russkaya pesnya" ansamblının, "Relikt" trionun, Akademik Böyük Teatrın kamera ansamblının çıxışları, "Art-partnyor XXI" Beynəlxalq teatr agentliyinin "Eleonora" və "Aldatma" tamaşaları nümayiş etdirilmişdir.

2004-cü ilin noyabr ayında Bakı şəhərində humanitar proqramın yerinə yetirilməsi məsələsi üzrə Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Rusiya Federasiyasının Xarici İşlər Nazirliyi arasında işgüzar məsləhətləşmələr aparılmışdır.

Bakıda dünyaca məşhur musiqiçi M.Rostropoviçin, Y.Başmetin rəhbərliyi altında "Moskovskiye solistı" kamera orkestrinin, beynəlxalq müsabiqələrin laureatları, məşhur pianoçular D.Matsuyev, A.Volodin və s.-in çıxışları olmuşdur. Azərbaycan Dövlət Filarmoniyasında P.İ.Çaykovski adına Akademik böyük simfonik orkestrin və məşhur skripkaçı, beynəlxalq müsabiqələr laureatı D.Koqanın çıxışları olmuşdur.

Azərbaycan mədəniyyət xadimləri 2004-cü ildə Rusiya Federasiyasında V.Spivakov adına fondun təşkil etdiyi tədbirlərdə, "Moskva dostları qarşılayır" festivalında (may) təmsil olunmuşlar. Moskva televiziya və teatr tamaşalarının "Canlı nağıl" festivalında Dövlət Gənc Tamaşaçılar Teatrının "Anac ördək" tamaşası mükafata layiq görülmüşdür

(iyun); kinemotoqrafçıların VIII Moskva Forumunda (may) və Anapa şəhərində beynəlxalq kinofestivalda (sentyabr) Azərbaycan filmləri nümayiş etdirilmişdir.

Rusiya Tərəfi ilə birgə M.İbrahimbəyovun ssenarisi üzrə "Üç bacı" bədii filminin çəkilişləri aparılmışdır.

Təhsil və səhiyyə sahələrində uğurlu əməkdaşlıq həyata keçirilir. Rusiya Tərəfi hər il Azərbaycan Respublikası vətəndaşlarının Rusiya Federasiyasının ali məktəblərində təhsil almaları üçün kvotalar və dövlət təqaüdü ayırır.

Tərəflər idman tədbirlərində fəal iştirak edirlər. Tərəflərin turizm imkanları ilə tanışlıq istiqamətində iş aparılır.

Komissiya qərara aldı:

8.1. Tərəflər Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında 2004-2006-cı illər üzrə humanitar əməkdaşlıq Proqramının həyata keçirilməsini davam etdirsinlər.

8.2. Azərbaycan Respublikasının və Rusiya Federasiyasının Mədəniyyət və Təhsil Nazirlikləri maraqlı digər təşkilatlarla birgə:

kino sahəsində mütəxəssislər, opera və simfonik orkestr dirijorları, opera tamaşaları rejissorlarının hazırlanması üçün Azərbaycanın istedadlı gənclərinin Rusiya ali məktəblərində təhsil almağa göndərilməsinə;

yaradıcı kollektivlərin rəhbərlərinin (rejissor, dirijor, xormeyster, baletmeyster, rəssam) Moskva və Sankt-Peterburqda təcrübə-assistentura keçmələrinə;

Bakı xoreoqrafiya məktəbinin, mədəniyyətşünas məktəblərinin müəllimlərinə seminar, açıq dərs, ustad dərslərinin keçirilməsi üçün Rusiyanın məşhur müəllimlərinin, musiqiçilərinin, xoreoqraflarının Azərbaycana dəvət olunmalarına kömək etsinlər.

8.3. Tərəflərin Təhsil Nazirlikləri təhsil sahəsində əməkdaşlıq haqqında hökumətlərarası sazişin bağlanmasının məqsədəuyğunluğuna baxsınlar.

8.4. Azərbaycan Respublikasının Gənclər, İdman və Turizm Nazirliyi Azərbaycanın turizm imkanlarının 2005-ci ilin 23-26 mart tarixlərində Moskva şəhərində keçiriləcək "MİTT-2005" beynəlxalq turizm və səyahət sərgisi çərçivəsində nümayiş olunmasını təmin etsin.

**9. Müqavilə-hüquq bazasının vəziyyəti və inkişafı barədə**

Komissiya qeyd edir ki, Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında ikitərəfli müqavilə – hüquq bazasının inkişafı və genişləndirilməsi, qarşılıqlı faydalı münasibətlərin inkişafı üçün böyük əhəmiyyət kəsb edən yeni sənədlərin razılaşdırılması üzrə iş davam etdirilir.

Bugünkü günə ikitərəfli səviyyədə 100-dən artıq saziş imzalanmışdır, onlardan 70-i dövlətlərarası və hökumətlərarası, 30-dan çoxu isə qurumlararası sazişlərdir. Bundan başqa, Hökumətlərarası komissiyanın sədrlərinin görüşlərinin və Komissiya iclaslarının nəticələri əsasında 11 protokol, Rusiya Federasiyası subyektləri ilə isə 29 protokol və saziş imzalanmışdır.

Komissiya qərara aldı:

9.1. Aşağıdakı sənədlərin imzalanmaya hazırlanması üzrə iş davam etdirilsin:

Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyası Hökuməti arasında poçt pul baratları sahəsində əməkdaşlıq haqqında Saziş;

Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyası Hökuməti arasında Qəbələ Radiolokasiya Stansiyasının (RLS "Daryal") statusu, prinsipləri və istifadə şərtləri haqqında 2002-ci il 25 yanvar tarixli Sazişin icrası üzrə səlahiyyətlilərin statusu haqqında Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyası Hökuməti arasında Protokol.

9.2. Tərəflərin müvafiq nazirlik, idarə və təşkilatlarına Komissiya iclaslarında daha əvvəl nəzərdə tutulmuş aşağıdakı saziş layihələrinin imzalanmaya hazırlanması üzrə işlərin fəallaşdırılması tapşırılsın:

hökumətlərarası sazişlər:

kapital qoyuluşunun qarşılıqlı qorunması və təşviqi haqqında;

Azərbaycan Respublikasının Rusiya Federasiyasında və Rusiya Federasiyasının Azərbaycan Respublikasında diplomatik nümayəndəliklərinin yerləşdirilməsi şərtləri haqqında;

birgə kino istehsalı haqqında (Rusiya tərəfinin müzakirəsinə);

gənclər siyasəti sahəsində əməkdaşlıq haqqında (Rusiya tərəfinin müzakirəsinə);

ikitərəfli hərbi-texniki əməkdaşlıq zamanı əldə olunmuş və istifadə olunan intellektual fəaliyyətin nəticələrinə hüquqların qarşılıqlı qorunması haqqında (Rusiya tərəfinin müzakirəsinə).

Qurumlararası:

1992-ci il 1 yanvar tarixinə olan vəziyyət üzrə mövcud topoqrafik-geodezik, kartoqrafiya və aerokosmik materiallarının mübadiləsi haqqında (Rusiya tərəfinin müzakirəsinə);

sərhədyanı dəmir yolu əməkdaşlığı (Rusiya tərəfinin müzakirəsinə).

9.3. Rusiya tərəfi təqaüd təminatı sahəsində vətəndaşların hüquqlarının təmin olunması haqqında (1999-cu il 5 noyabr tarixində imzalanmışdır) və istehsalat kooperasiyası

haqqında (2002-ci il 25 yanvar tarixində imzalanmışdır) hökumətlərarası sazişlərin qüvvəyə minməsi üçün lazım olan dövlətdaxili prosedurların həyata keçirilməsini tezləşdirsin.

9.4. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Rusiya Federasiyasının Xarici İşlər Nazirliyi Tərəflərin maraqlı nazirlik və idarə ilə birgə ikitərəfli münasibətlərin müqavilə-hüquq bazasının inventarlaşdırılmasını davam etdirsinlər.

9.5. Tərəflərin nazirlik və idarələrinə Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında müqavilə-hüquq bazasının genişləndirilməsi və möhkəmləndirilməsi üzrə işin fəallaşdırılması tövsiyə edilsin.

**10. Komissiyanın növbəti iclasının keçirilmə tarixi və yeri barədə**

Komissiyanın 10-cu iclası 2005-ci il oktyabr ayının ilk dekadasında Bakı şəhərində keçirilsin. Komissiyanın məsul katibləri 10-cu iclasın konkret tarixini və gündəliyini işçi qaydada razılaşdırsınlar.

**Azərbaycan Respublikası ilə**
**Rusiya Federasiyası arasında**
**iqtisadi əməkdaşlıq üzrə**
**Hökumətlərarası Komissiyanın**
**Azərbaycan hissəsinin sədri**
**A.A.ABBASOV**

**Azərbaycan Respublikası ilə**
**Rusiya Federasiyası arasında**
**iqtisadi əməkdaşlıq üzrə**
**Hökumətlərarası Komissiyanın**
**Rusiya hissəsinin sədri**
**V.B.XRISTENKO**

# "AZƏRBAYCAN RESPUBLİKASI İLƏ RUSİYA FEDERASİYASI ARASINDA AZƏRBAYCAN NEFTİNİN RUSİYA FEDERASİYASI ƏRAZİSİNDƏN TRANZİTİ HAQQINDA MÜQAVİLƏ" ÜZRƏ SƏLAHİYYƏTLİ ORQAN MÜƏYYƏN EDİLMƏSİ BARƏDƏ

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Prezidentinin 1996-cı il 29 yanvar tarixli, 251 nömrəli Sərəncamı ilə təsdiq edilmiş Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında 1996-cı il 18 yanvar tarixində imzalanmış "Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında Azərbaycan neftinin Rusiya Federasiyası ərazisindən tranziti haqqında" Müqavilədən irəli gələn məsələlərin icrası ilə əlaqədar:

1. "Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında Azərbaycan neftinin Rusiya Federasiyası ərazisindən tranziti haqqında" Müqavilənin icrası ilə əlaqədar Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti səlahiyyətli orqan təyin edilsin.

2. Azərbaycan neftinin Rusiya Federasiyası ərazisindən nəqlini təmin etmək məqsədilə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinə bu Sərəncamın 1-ci bəndində göstərilən Müqaviləyə əsasən Rusiya Federasiyası tərəfindən müvəkkil edilmiş təşkilatla müvafiq müqavilələrin hazırlanması üçün danışıqların aparılması və imzalanması səlahiyyəti verilsin.

3. 1996-cı il 16 fevral tarixində Azərbaycan Respublikası Hökuməti və Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti arasında imzalanmış "Nəqletmə haqqında himayədarlıq" Sazişi qüvvədən düşmüş hesab edilsin.

4. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, "Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında Azərbaycan neftinin Rusiya Federasiyası ərazisindən tranziti haqqında" Müqavilənin icrası ilə əlaqədar Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin səlahiyyətli orqan təyin edilməsi barədə Rusiya Federasiyası Hökumətinə müvafiq bildiriş göndərsin.

5. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 11 noyabr 2008-ci il, № 44*

# BAKI–SUPSA NEFT KƏMƏRİ
*(Qərb ixrac boru kəməri)*

**TEXNİKİ PARAMETRLƏRİ VƏ ÜMUMİ MƏLUMAT:**

**Bakı–Supsa neft kəməri** (Qərb İxrac Boru Kəməri) – Xəzərin Azərbaycan sektorunda hasil edilən neftin Gürcüstandan keçməklə dünya bazarlarına nəqlini həyata keçirir. Xam neft Gürcüstanın Supsa terminalında tankerlərə yüklənərək Bosfor boğazından keçməklə Avropa bazarlarına yola salınır.

Ümumi uzunluğu – 917 km, o cümlədən:

– Azərbaycan hissəsi (Səngəçaldan Gürcüstan sərhədinə qədər) – 492 km;

– Gürcüstan hissəsi (425 km) 1975-ci ildə tikilmiş və 1991-ci ilə qədər Batumi neftayırma zavodunu Gürcüstan yataqlarından çıxan neftlə təchiz etmək üçün istifadə olunmuşdur.

Qərb marşrutunda ümumi uzunluğu 397 km olan köhnə boruların təzələnməsi və yeni boruların salınması tələb olunurdu, buna görə də 1997-ci ildə bərpa işlərinə başlanıldı.

Yenidənqurma işlərindən sonra 1997-ci ilin sonu üçün parametrlər aşağıdakı kimi idi:

Borunun diametri 530 mm, nasos stansiyalarının sayı – 6 və 2 aşağı təzyiqli stansiya.

Təsdiq edilmiş investisiya məbləği 315 mln. dollar, daşıma qabiliyyəti ildə 5,1 mln. ton (bir gündə 100000 barr). ABƏŞ ARDNŞ-yə təsdiqlənmək üçün 580 mln. dollar investisiya məbləği təqdim etmişdir ki, bu da əvvəlki məbləğdən xeyli artıqdır. Bu məbləğ indiyə qədər mübahisə mövzusu olaraq qalır. ARDNŞ hesab edir ki, qərb boru kəmərinin tikintisində büdcədən kənara çıxmaya görə məsuliyyəti ABƏŞ və onun vasitəli podratçıları daşıyır və vəsaitlərin belə israf olunması ödənilmiş məsrəfə aid oluna bilməz.

Neft kəmərinin daşıma qabiliyyətinin ildə 10 mln. tona (gündə 200 000 barr.) qədər artma ehtimalı var ki, bunun üçün də 115 mln. dollar kapital qoyuluşu tələb olunur.

Neft kəməri Səngəçal neft terminalından başlanır, son məntəqə isə 1998-ci ildə Supsada tikilmiş terminaldır. Terminalın tutumu 400 000 tondur (1 138 000 barr.)

Əməliyyatların startı 1998-ci ilin IV rübü üçün nəzərdə tutulmuşdu. Neft kəmərinin işə düşməsi üçün əvvəlcədən çox böyük iş görülmüşdü. Azərbaycan–Gürcüstan hökumətlərarası sazişlərin ABƏŞ, ARDNŞ və başqa maraqlı subyektlərin çoxtərəfli

müqavilələrinin imzalanması nəticəsində qərb marşrutunun tikintisi və yenidən qurulması başlandı.

Qərb marşrutunda sınaq istismarı rejimində 1999-cu ilin yanvarına qədər 1,8 mln. ton (13 mln. barr.) neft vurulmuşdur.

Neft kəmərinin təntənəli açılışı 17 aprel 1999-cu ildə olmuşdur.

Texniki göstəricilərinə görə regionda fərqlənən Qərb boru kəmərinin uzunluğu 827 kilometrdir. Diametri 530 mm olan kəmərin 772 kilometrlik hissəsi yeni polad borulardan çəkilmiş, qalan 55 kilometrlik sahəsi isə əsaslı təmir olunmuşdur. Boru kəmərinin sabit fəaliyyətinin təmin edilməsi üçün 6 nasos və 2 təzyiqazaldan stansiya quraşdırılmışdır. İllik nəqletmə gücü 5,1 milyon ton (gündəlik ötürmə qabiliyyəti 115 min barrel) olan Qərb boru kəmərindən axan neftin qəbul edilməsi məqsədilə Supsa terminalında hər birinin tutumu 250 min barrel (ümumi həcmi 400 min ton) təşkil edən 4 neft çəni tikilmişdir.

Bakı–Supsa neft kəməri Azərbaycan və Gürcüstanın iqtisadi və siyasi inkişafında mühüm rol oynayır. Regionda investisiya qoyuluşunun artmasında, sosial rifahın yüksəlməsində, siyasi sabitliyin təmin olunmasında Qərb boru kəmərinin özünəməxsus yeri var. Onun inşa olunmasında iştirak edən 4 min nəfərdən artıq işçinin 70 faizi Azərbaycan və Gürcüstan vətəndaşları olmuşdur. Boru kəmərinin neft şirkətləri üçün iqtisadi səmərəliliyi müəyyən olunmuş nəqletmə tarifləri ilə şərtlənirdi. Əgər Novorossiysk limanına çıxan Şimal boru kəməri ilə hər ton neftə görə tarif 15, 67 dollar təşkil edirdisə, Bakı-Supsa Qərb ixrac marşrutu ilə 1 ton neftin nəqletmə tarifi 3,14 dollar (1 barrelə görə isə 0,43 dollar) idi. Həmin tranzit tarifinin hər ton neft üçün 1,20 dolları (hər barrel üçün 0,17 dollar) Gürcüstanın, qalanı isə Azərbaycanın payına düşürdü. Beləliklə, Şimal marşrutu ilə müqayisədə daşınma tariflərinin xeyli aşağı olması Qərb boru kəmərinin rəqabət qabiliyyətini ciddi şəkildə artırırdı. Buna görə də Bakı–Supsa ixrac boru kəmərinin istifadə olunması həm xarici neft şirkətləri, həm də Azərbaycan üçün iqtisadi baxımdan sərfəli idi. Hesablamalara görə, neftin Qərb boru kəməri ilə ixrac edilməsi o zamankı qiymətlərlə Azərbaycana ildə 70-100 milyon dollar qənaət etməyə imkan yaradırdı.

Bakı–Supsa boru kəmərinin texniki-iqtisadi baxımdan sərfəli olması ABƏŞ-in bu marşrutun imkanlarından maksimum istifadə etməsini şərtləndirirdi. Lakin 2005-ci ildə "Bakı–Tbilisi–Ceyhan" neft kəmərinin istifadəyə verilməsi və son illərdə "Əsrin müqaviləsi" çərçivəsində hasilatın səviyyəsinin aşağı düşməsi Bakı–Supsa boru kəməri ilə nəql olunan neftin azlmasına səbəb oldu. Əgər 2012-ci ildə Bakı–Supsa marşrutu ilə 4 milyon ton neft ixracı planlaşdırılırdısa, həmin boru xətti ilə nəql olunan neftin həcmi 2 milyon 742 min ton təşkil etdi.

Bu kəmərlə müntəzəm yanacağın tədarükü 2022-ci ilin mart ayında təxirə salınıb. 1-17 aprel tarixlərində görülmüş təmir-sazlama işlərindən sonra neft ixracı yenidən davam etdirilib. Hazırda Bakı–Supsa boru kəməri ilə nəqli prosesi kəsildiyindən bütün Azərbaycan nefti “Bakı–Tbilisi–Ceyhan” boru kəməri ilə ixrac olunur.

Hazırda Qazaxıstan neftinin Bakı–Supsa marşrutu üzrə də nəql edilmə imkanı var. Bu neft kəməri ilə illik 5 milyon tona qədər yanacaq nəql edilə bilər. Azərbaycan Qazaxıstana Bakı–Supsa kəməri vasitəsilə ildə 5 milyon ton Qazaxıstan neftinin nəqlini təklif edib.




***Kəmərin keçdiyi ərazi***

# AZƏRBAYCAN RESPUBLİKASI İLƏ GÜRCÜSTAN ARASINDA NEFT-QAZ SƏNAYESİ SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ HAQQINDA MÜQAVİLƏNİN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

1. 1997-ci il fevralın 18-də Bakı şəhərində imzalanmış Azərbaycan Respublikası ilə Gürcüstan arasında neft-qaz sənayesi sahəsində əməkdaşlıq haqqında Müqavilə təsdiq edilsin.
2. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

**Heydər Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 15 aprel 1997-ci il, № 264-IQ*

# KARBOHİDROGENLƏRİ NƏQLETMƏNİN BƏZİ MÖVCUD OBYEKTLƏRİNİN (VASİTƏLƏRİNİN) TƏKMİLLƏŞDİRİLMƏSİ VƏ MODERNLƏŞDİRİLMƏSİ, YENİ NƏQLETMƏ OBYEKTLƏRİNİN (VASİTƏLƏRİNİN) İŞLƏNİB HAZIRLANMASI VƏ BU CÜR OBYEKTLƏRİN (VASİTƏLƏRİN) KÖMƏYİ İLƏ KARBOHİDROGENLƏRİN GÜRCÜSTAN ƏRAZİSİNDƏN KƏNARA NƏQL OLUNMASI HAQQINDA

## Azərbaycan Respublikası ilə Gürcüstan arasında Saziş

*Tbilisi şəhəri,*
*8 mart 1996-cı il*

Azərbaycan Respublikası hökuməti və Gürcüstan Hökuməti (birlikdə "Hökumətlər", ayrılıqda isə hər biri "Hökumət" adlandırılacaqdır) özlərinin iqtisadi münasibətlərini və qonşu dövlətlər kimi qarşılıqlı əlaqələrini möhkəmləndirmək istəyərək; və Azərbaycan Respublikası Hökumətinin öz ərazisində çıxarılan Karbohidrogenlərin beynəlxalq bazarlara ixrac olunmasının etibarı, təhlükəsiz və səmərəli marşrutunun işlənib hazırlanmasını istədiyini təsdiq edərək; və

Hökumətlərin uzun müddət ərzində karbohidrogenlərin çıxarılması, nəql olunması, saxlanması və ixracı Obyektlərinin (Vasitələrinin) təkmilləşdirilməsini təqdir edib dəstəklədiklərini, özlərinin müvafiq ərazilərində bu cür Obyektlərdən (Vasitələrdən) istifadə edilməsini istədiklərini, buna hazır olduqlarını və çalışdıqlarını təsdiq edərək; və

Layihəyə qoyulan vəsaitin özünü doğrultması üçün etibarlı hüquqi əsas və əlverişli şərait yaradılmasının zəruriliyini nəzərə alaraq, və

Layihənin həyata keçirildiyi təqdirdə Hökumətlərin iqtisadi fayda və digər faydalar əldə edəcəklərini dərk edərək,

Bununla Layihəyə aid aşağıdakı müəyyən məsələlər barəsində **razılığa gəldilər:**

**Maddə 1**

Hər Hökumət

- öz Ərazisində Layihəni təqdir edir və tamamilə dəstəkləyir;
- öz Ərazisində Layihənin həyata keçirilməsinə kömək etmək üçün bütün zəruri tədbirləri görür, Layihənin ləngidilməsinə, məhdudlaşdırılmasına, dayandırılmasına və ya pozulmasına səbəb ola biləcək heç bir hərəkət etmir və belə hərəkətlərə edilməsinə yol vermir;
- Neft şirkətləri ilə Layihəyə aid bağladığı Sazişlərin müddəalarına əməl edir və Sazişlərə əsasən verilən hüquqlara, güzəştlərə, imtiyazlara və azadolunmalara hörmət bəsləyir;
- nəzarəti altında olan dövlət təşkilatlarının Layihəyə aid Sazişlərin icrası üçün qəbul etdikləri öhdəliklərin yerinə yetiriləcəyinə və həmin təşkilatların bu Sazişlərlə müəyyənləşdirilən hüquqlarına, mənafelərinə, güzəştlərinə və azadolunmalarına əməl ediləcəyinə təminat verir; və
- Layihəyə aid Sazişlərin müddəa və şərtlərinin, yaxud bu Sazişlərlə müəyyənləşdirilən güzəştlərin, hüquqların, imtiyazların, azadolunmaların və mənafelərinin dəyişməsinə səbəb ola biləcək heç bir hərəkət etmir və belə hərəkətlər edilməsinə yol vermir.

**Maddə 2**

(1) Malların və xidmətlərin maneəsiz axını prinsipinə uyğun olaraq hər hökumət bununla təminat verir ki, öz Ərazisindəki Obyektlərdən (Vasitələrdən) Karbohidrogenlər axınını kəsmir və ləngitmir, həmçinin bu cür axını kəsməyə, azaltmağa, şərtləndirməyə, yaxud digər tərzdə maneçilik törətməyə səbəb ola biləcək bilavasitə və ya dolayısı ilə hər hansı hərəkətlər etmir, yaxud belə hərəkətlər edilməsinə yol vermir – Obyektlərinin (Vasitələrinin) işi əhalinin sağlamlığı, təhlükəsizliyi, əmlakı və ətraf mühit üçün təhlükə törətdiyi hallar istisna olmaq şərti ilə; belə hallarda bu cür təhlükənin aradan qaldırılması üçün lazım olan müddətdə ağlabatan hərəkətlər edilir (və ya şəraitdən asılı olaraq həmin hərəkətlərdən imtina edilir).

(2) Əgər Hökumət öz Ərazisində Karbohidrogenlərin Obyektlərdən (Vasitələrdən) axınını kəsən, azaldan, şərtləndirən və ya digər tərzdə maneçilik törədən hərəkətlər edirsə və ya belə hərəkətlər edilməsinə yol verirsə, bu hökumət axını kəsən, azaldan, şərtləndirən və maneçilik törədən hərəkətlər, onların səbəbləri və aradan qaldırılması müddətləri haqqında dərhal digər hökumətə məlumat verir, həmçinin yuxarıdakı (1) bəndinə uyğun olaraq, axının bu cür kəsilmələrinin və maneələrinin aradan qaldırılması və öz Ərazisində Karbohidrogenlərin fasiləsiz, azaldılmadan, şərtləndirilmədən və maneəsiz axınının maksimum qısa müddətlərdə bərpa edilməsi üçün hər cür qanuni və ağlabatan səylər göstərir.

**Maddə 3**

(1) Hər Hökumət öz Ərazisində Layihənin etibarlılığının və təhlükəsizliyinin təmin edilməsi üçün hər cür qanuni və ağlabatan səylər göstərir və yuxarıda sadalananları məhdudlaşdırmadan bu məsələlər üçün zəruri olan işçilərin və xidmətlərin təhlükəsizliyinə şərait yaradır.

(2) Hər Hökumət Obyektlər (Vasitələr) tikilməsindən əvvəl və tikintisi zamanı Neft şirkətlərinin xahişi ilə öz Ərazisində, gələcək və ya mövcud Obyektlərinin (Vasitələrinin) yerləşdiyi rayonda minaların və digər partlayıcı maddələrin, yaxud qurğuların axtarışını və onların zərərsizləşdirilməsini və ya təhlükəsiz yerə aparılmasını təşkil edir.

**Maddə 4**

Hər hökumət Layihənin həyata keçirilməsi ilə bağlı işçilərin, nəqliyyat vasitələrinin, avadanlığın və digər əmlakın öz Ərazisinə məhdudiyyət qoyulmadan daxil olması və oradan çıxması hüququnu, həmçinin bu Ərazinin hüdudlarında quru, su, hava yolları ilə məhdudiyyət qoyulmadan hərəkət etməsi hüququnu təmin edir. Bu cür hüquqa Layihə ilə bağlı olan hər hansı məqsədlər üçün hər hökumətin bütün Ərazisində bu işçilərin, nəqliyyat vasitələrinin, avadanlığın və digər əmlakın məhdudiyyət qoyulmadan maneəsiz hərəkət etməsi hüququ daxildir.

**Maddə 5**

Hökumətlər bütün Obyektlərin (Vasitələrin) tikintisində və istismarında neft sənayesinin hamılıqla qəbul edilmiş beynəlxalq normalarına və praktikasına uyğun olan ümumi standartların (o cümlədən texniki normaların, təhlükəsizlik texnikası və ətraf mühitin mühafizəsi normalarının) müəyyənləşdirilməsində Neft şirkətləri ilə əməkdaşlıq edirlər.

**Maddə 6**

(1) Bununla bu Sazişin həyata keçirilməsinə nəzarət etmək və kömək göstərmək üçün hər Hökumətdən bir nümayəndə olmaqla komissiya yaradılır. Bu Saziş qüvvəyə minəndən sonra altmış (60) gün ərzində hər Hökumət özünün ilk nümayəndəsini yazılı şəkildə təyin edir və bu barədə digər Hökumətə məlumat verir. Hər Hökumət öz nümayəndəsini dəyişə bilər və bu barədə onun qərarı digər Hökumətin yazılı məlumat aldığı gün qüvvəyə minir.

(2) Komissiya öz iclaslarını Hökumətlərdən hər hansı birinin xahişi ilə keçirir və bu xahişə cavab olaraq, Hökumətlər bu Sazişlə bağlı meydana çıxa bilən hər hansı

mübahisələrin həlli və ya bu Sazişin təfsirinə, tətbiqinə və ya icrasına aid olan hər hansı məsələni dərhal müzakirə edəcəkləri barədə razılığa gəlirlər.

**Maddə 7**

Bu Saziş imzalandığı tarixdən qüvvəyə minir və Layihəyə aid Sazişlər üzrə bütün öhdəliklər yerinə yetirilənədək qüvvədə qalır.

**Maddə 8**

Bu Sazişdə işlənilən aşağıdakı sözlərin tərifləri belədir:

(1) "Obyektlər (Vasitələr) – Azərbaycan Respublikasının Xəzər dənizi sahilindən Gürcüstan Qara dəniz sahilinədək inteqrallaşdırılmış boru kəməri sisteminin işlənib hazırlanması üçün hökumətlərin müvafiq Ərazilərində Neft şirkətlərinin rekonstruksiya etmək və ya təkmilləşdirmək istədikləri bütün mövcud karbohidrogenləri nəqletmə obyektləri (vasitələri), həmçinin tikmək istədikləri yeni karbohidrogenləri nəqletmə obyektlərin (vasitələrin) hamısı Layihəyə aid Sazişlərdə əhatə edilir.

(2) "Neft şirkətləri" – AMOKO Kaspian Si Petroleum Limited (Britaniyanın Virciniya adalarında təsis edilmiş şirkət), Den Norske Stats Olyesselskap a.s. (Norveçdə təsis edilmiş şirkət), Ekson Azərbaycan Limited (Baham adalarında təsis edilmiş şirkət), LUKoyl S/C (Rusiya Federasiyasında təsis edilmiş cəmiyyət), MakDermott Azərbaycan, İnk. (Panama Respublikasında təsis edilmiş şirkət), Pennzoyl Kaspian Korporeyşn (Britaniyanın Virciniya adalarında təsis edilmiş şirkət), Remko Xəzər Enerci Limited (Şotlandiyada təsis edilmiş şirkət), Azərbaycan Respublikası Dövlət Neft Şirkəti, Türkiyə Petrolleri A.O. (Türkiyədə təsis edilmiş şirkət) və Yunokal, Ltd. (Bermud adalarında təsis edilmiş şirkət) – Layihəyə istər bilavasitə, istərsə də dolayısı ilə kapital qoymaq istəyən şirkətlər və onların müvafiq vasitəçiləri, varisləri və mümkün müvəkkilləri deməkdir.

(3) "Karbohidrogenlər" – xam mineral neft, kondensat və sıxlığından asılı olmayaraq təbii vəziyyətində, yaxud kondensasiya və ya ekstraksiya yolu ilə təbii qazdan alınan maye karbohidrogenlərin bütün növləri (Normal temperatur və təzyiq şəraitində qaz halında olan karbohidrogenlər), o cümlədən maye təbii qazlar, həm-çinin asfalt, bitum, yaxud ozokerit və yuxarıda göstərilənləri qatışığından ibrət hər hansı məhlul (və ya sus-penziya), yaxud yuxarıda göstərilənlərin hər hansı birindən təmizlənmiş və ya əldə edilmiş hər hansı karbo-hidrogen məhsulu deməkdir.

(4) "Layihə" Obyektləri (Vasitələri) tikintisi, istismarı, texniki xidməti, modern-ləşdirilməsi, işlədilməsi, Neft şirkətlərinin Obyektlərdən

(Vasitələrdən) istifadə etmələri ilə bağlı fəaliyyətinin bütün digər növləri, həmçinin Layihəyə aid Saziş-lərdə nəzərdə tutulduğu kimi, Obyektlərin (Vasitələrin) köməyi

ilə Karbohidrogenlərin alınması, idxalı, emalı, nəql edilməsi, saxlanması, boşaldılıb yüklənməsi, təkrar çatdırılması, yola salınması, satışı və ixracı deməkdir.

(5) “Layihəyə aid Sazişlər” – Azərbaycan Respublikasının ərazisindən Karbohidrogenlərin Gürcüstanda Qara dəniz sahilinədək nəql edilməsinə aid bütün Sazişlər – Neft şirkətləri ilə Gürcüstan arasında bağlanmış Ərazi sahibi olan ölkənin Hökumət Sazişi, Boru kəmərinin tikilməsi və istismarı haqqında Neft şirkətləri ilə Gürcüstan Beynəlxalq Neft Korporasiyası arasında bağlanmış Saziş və Boru kəmərini ötürmə qabiliyyəti və istismarı haqqında Neft şirkətləri ilə Azərbaycan Dövlət Neft Şirkəti arasında bağlanmış Saziş deməkdir.

(6) “Ərazi” – Hökumətə aid edildikdə bu Hökumətin yurisdiksiyası altında olan quru ərazisi, bitişik dəniz ərazisi və kontinental şelf, həmçinin beynəlxalq hüququn bu Hökumətin suveren hüquqlarını tanıdığı və ya həyata keçirilməsinə yol verdiyi və ya bu Hökumətin suveren hüquqlarının əslində həyata keçirilmiş olduğu hər hansı zona deməkdir.

**Maddə 9**

Bu Saziş Azərbaycan Respublikasının və Gürcüstanın Ərazilərindən Karbohidrogenlərin nəql edilməsi barəsində Hökumətlər arasında bağlanmış hər hansı əvvəlki protokolu və ya digər sazişi, o cümlədən Karbohidrogenlərin Gürcüstan ərazisindən nəql edilməsi haqqında Hökumətlər arasında bağlanmış 1995-ci il iyun tarixli Protokolu bütünlükdə ləğv edir və qüvvədən salır.

1996-cı il martın 8-də Tbilisi şəhərində Azərbaycan, gürcü və ingilis dillərinin hərəsinin iki orijinal nüsxə-sində imzalanmışdır. Bu Sazişin müddəalarının təfsirində ixtilaflar meydana çıxarsa, ingilis dilindəki mətn əsas götürülür.

YUXARIDA GÖSTƏRİLƏNLƏRİ TƏSDİQ EDƏRƏK, aşağıda imza edənlər bu Sazişi bağladılar.

| | |
|---|---|
| **Azərbaycan Respublikası tərəfindən** | **Gürcüstan tərəfindən** |
| **Prezident Heydər Əliyev** | **Prezident Eduard Şevardnadze** |

# BAKI–SUPSA NEFT KƏMƏRİNİN AÇILIŞINA HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİMDƏ AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN NİTQİ

*Supsa,*
*17 aprel 1999-cu il*

Zati-aliləri, hörmətli Gürcüstan prezidenti Eduard Şevardnadze!

Zati-aliləri, hörmətli Ukrayna prezidenti Leonid Kuçma!

Xanımlar və cənablar, qonaqlar, dostlar!

Mən sizi ürəkdən salamlayıram və bu xoş görüşlə əlaqədar çox böyük sevinc hissi keçirdiyimi bildirirəm. Gürcü xalqına, bütün Gürcüstan vətəndaşlarına səmimi salamımı yetirir, sülh, firavanlıq və tərəqqi arzulayıram.

Bu gün biz tarixi bir hadisənin şahidiyik. Bakı–Supsa neft kəmərinin inşasına dair böyük səmərəli iş başa çatdırılmışdır və biz Azərbaycanın Xəzər nefti yüklənmiş ilk tankerinin dünya bazarlarına yola salınmasını təntənəli şəraitdə qeyd edirik.

Əsrimizin əvvəllərində Bakı-Batumi neft kəməri – Avropada ilk neft kəməri çəkilmişdir. İndi, XX–XXI əsrlərin ayrıcında biz Bakı-Supsa neft kəməri çəkmişik və o, Azərbaycan neftinin dünya bazarlarına ixracını həyata keçirəcəkdir. Bu, Gürcüstanın, Azərbaycanın və Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinə daxil olan neft şirkətlərinin birgə səyləri sayəsində mümkün olmuşdur. Bu, 1995-1996-1997-ci illərdə başlanmış səylərimizin məntiqi nəticəsidir. Bu, Azərbaycanda 1994-cü il sentyabrın 20-də Azərbaycan Dövlət Neft Şirkəti [15-16] ilə dünyanın 9 ölkəsini təmsil edən 11 ən iri neft şirkətləri arasında imzalanmış "Əsrin müqaviləsi"nin praktiki surətdə həyata keçirilməsidir. 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi"nin imzalanması müstəqil Azərbaycanın yeni neft strategiyası və doktrinasının başlanğıcıdır.

Azərbaycan qədim neft və qaz ölkəsidir. 50 il bundan öncə Azərbaycan dünya praktikasında ilk dəfə olaraq dənizin dərinliklərindən sənaye üsulu ilə neft çıxarmağa başlamışdır. 1949-cu ilin noyabrında Xəzər dənizində, Neft Daşlarında güclü neft fontanı vurmuş və bu, dünyaya dənizdə neft hasilatının yeni mərhələsinin başlandığını bildirmişdir.

Bizim zəmanəmizdə Azərbaycan dünyanın bir çox ölkələrinin neft şirkətlərinin iştirakı ilə Xəzər dənizində karbohidrogen xammalı hasilatının təşəbbüsçüsü olmuşdur. 1994-cü ildə imzalanmış "Əsrin müqaviləsi" bu neft doktrinasının həyata keçirilməsinin başlanğıcını qoymuşdur. Bu, asan olmamışdır. Biz müqaviləni imzalamaq, həyata keçirmək üçün böyük sınaqdan çıxmalı, böyük maneələri dəf etməli olmuşuq.

Lakin biz müqavilə imzalandıqdan sonra da böyük çətinliklərlə, hətta faciəli hadisələrlə qarşılaşdıq. Bilin ki, müqavilə imzalandıqdan cəmi bir neçə gün sonra Azərbaycanda ölkəmizin siyasi xadimlərinə qarşı terror aktları keçirildi. Bundan bir neçə gün sonra Azərbaycanda silahlı dövlət çevrilişi cəhdi oldu, onu bəzi ölkələrin xüsusi idarələri və daxili irtica etmişdi.

Ancaq bununla iş qurtarmadı. Bir neçə aydan sonra dövlət çevrilişi cəhdi yenidən təkrar edildi. Sonra bir sıra terror aktları törətməyə cəhd göstərildi. Bütün bunlar məhz onunla bağlı idi ki, müstəqil dövlət olan Azərbaycan müstəqil siyasət aparmağa başlamışdı, Azərbaycan özünün təbii ehtiyatlarından, neft və qaz sərvətlərindən necə istifadə etməyi özü, müstəqil surətdə müəyyənləşdirdi və bunu qərbin neft şirkətləri ilə birlikdə həyata keçirməyi qərara alaraq Azərbaycana və bütün Xəzər hövzəsi məkanına xarici sərmayələrin axınını təmin etmişdi.

Biz bütün çətinlikləri dəf etdik, "Əsrin müqaviləsi" həyata keçirilir. 1997-ci ilin noyabrında biz "Çıraq" yatağından ilk nefti çıxartdıq və onu Bakı–Novorossiysk neft kəməri ilə nəql etməyə başladıq. Bu neft kəməri Rusiya Federasiyası ilə Azərbaycan arasında imzalanmış müqavilə əsasında xüsusi olaraq bunun üçün çəkilmişdi.

Lakin biz hələ onda, neftin dünya bazarlarına ixracı marşrutlarını planlaşdırdığımız vaxtlarda qərb marşrutu üzrə alternativ neft kəmərinə malik olmağı lazım bildik. Açığını deyim ki, bu, bəzi dairələrdə, bəzi ölkələrdə böyük narazılıqla, etirazla qarşılandı. Amma biz öz istədiyimizə nail olduq – Gürcüstan ilə Azərbaycan arasında saziş imzalayaraq Bakı-Supsa neft kəmərini layihələşdirməyə başladıq və bu boru kəmərinin praktiki surətdə inşası üçün işləri təşkil etdik.

Bu gün mən son dərəcə sevinc hissi keçirirəm ki, neftin hasilatına və ixracına dair çox böyük proqramı dörd ildən bir qədər artıq müddətdə reallaşdırmağa müvəffəq ola bilmişik.

Təbii ki, bunların hamısı ümumi səylərin nəticəsidir. Əlbəttə, biz 1994-cü ildə ilk müqaviləni imzalayaraq, bu işi dünyanın bir çox neft şirkətləri ilə davam etdiririk. Dünyanın neft şirkətlərinin dəstəyi, Xəzərdəki, Xəzər dənizinin Azərbaycan sektorundakı təbii ehtiyatlara, karbohidrogen xammalına onların böyük marağı, xarici sərmayələr bu layihənin uğurla həyata keçirilməsini təmin edəcəkdir.

1994-cü ilin sentyabrından sonra ötən dövrdə Azərbaycan Dövlət Neft Şirkəti Xəzər dənizinin Azərbaycan sektorundakı və Azərbaycan ərazisinin quru hissəsindəki neft və qaz yataqlarının birgə işlənilməsi haqqında daha 15 iri müqavilə imzalamışdır. Bu müqavilələrdə dünyanın 14 ölkəsini təmsil edən 32 iri neft şirkəti iştirak edir. Bu, Xəzər dənizinin təbii ehtiyatlarının istismarı üçün sərmayələr cəlb olunması sahəsində apardığımız çox böyük işdir. Biz bu təşəbbüsü göstərməklə Xəzər dənizinin başqa sektorlarında da neft və qaz hasilatı işini stimullaşdırdıq. Qazaxıstan, Türkmənistan, Rusiya, İran sektorlarında böyük iş görülür. Bütün bunlar bizi sevindirir, çünki Xəzər dənizində olduqca böyük neft və qaz ehtiyatları var, bunlar bütün Xəzəryanı ölkələr üçün kifayət edər. Hər ölkə öz sektoruna malikdir və Xəzər dənizindəki öz sektorunda ehtiyatların sahibidir. Azərbaycan öz sektorunun hüdudları daxilində fəaliyyət göstərir, Azərbaycan sektorunda böyük neft və qaz ehtiyatları var.

Neft strategiyamızın həyata keçirilməsinə mane ola bilməyən bəzi düşmən dairələr müxtəlif xəbərlər, fikirlər uydurub yaymağa başladılar ki, demə, Azərbaycan Dünya Birliyinə yalan məlumat verib, Xəzər dənizində güman edildiyi qədər neft yoxdur və guya bəzi neft şirkətləri Xəzər dənizinə və xüsusən Azərbaycan sektoruna marağı itirirlər. Bu yalandır, uydurmadır!

Təbii ki, bu yalan informasiyalar ictimai rəyi dəyişdirə bilməz. Lakin aydın olsun deyə bildirmək istəyirəm ki, imzalanmış 16 müqavilə üzrə Azərbaycana təxminən 50 milyard dollar məbləğində sərmayə qoymaq nəzərdə tutulur. Bu müqavilələrin əhatə etdiyi ərazilərdə neftin həcmi 4 milyard tondan 10 milyard tonadək qiymətləndirilir. Lakin bütün bunlar hələ ilkin rəqəmlərdir. Yeri gəlmişkən, bizdə Xəzərdə və quruda öz istismarını gözləyən neft yataqları hələ çoxdur. Yaxın vaxtlarda Amerikanın neft şirkətləri ilə üç iri müqavilə imzalanması nəzərdə tutulur. Bax, bu, bəzi ölkələrin müxtəlif kütləvi informasiya vasitələrində yayılan uydurma xəbərlərə cavabdır.

Beləliklə, 1994-cü ildə başlanmış işlər artıq öz praktiki nəticələrini verir. Bakı-Supsa neft kəməri, burada tikilmiş gözəl terminal, müvəffəqiyyətlə işləmək və nefti fasiləsiz olaraq vurmaq, onu dünya bazarlarına daşımaq üçün yaradılmış gözəl şərait buna inandırıcı sübutdur.

Bakı-Supsa neft kəməri Gürcüstan ilə Azərbaycan arasında dostluğa, əməkdaşlığa parlaq misaldır. Bizim xalqlarımız həmişə səmərəli və müvəffəqiyyətlə əməkdaşlıq etmişlər. Gürcü və Azərbaycan xalqlarının çoxəsrlik dostluğu bizim əvəzsiz sərvətimizdir. Biz bu dostluğu qoruyur və yeni şəraitdə inkişaf etdirir, genişləndiririk.

Gürcüstanın və Azərbaycanın səmərəli əməkdaşlığına dair misallar çoxdur. Lakin Bakı-Supsa neft kəməri, şübhəsiz ki, indiki mərhələdə bu əməkdaşlığın zirvəsidir.

Bununla yanaşı, əməkdaşlığımızın böyük perspektivi var. Ötən ilin oktyabrında Ankarada biz "Bakı–Tbilisi–Ceyhan" neft kəmərinin inşası haqqında bəyannamə imzalamışıq. Bu iş davam edir. Lap bu yaxınlarda, bir neçə gün öncə Amerika Birləşmiş Ştatlarının strateji tədqiqatlar mərkəzi "Bakı–Tbilisi–Ceyhan" layihəsinin İstanbulda böyük müzakirəsini keçirmişdir. Müzakirədə indi burada olan cənab Morninqstar və cənab Kalitski, Türkiyə və Azərbaycan nümayəndələri iştirak etmişlər. Orada "Bakı–Tbilisi–Ceyhan" neft kəməri inşasının həyata keçirilməsinə dair konkret praktiki tədbirlər haqqında Türkiyə ilə Azərbaycan arasında protokol imzalanmışdır. Müəyyən edilmişdir ki, "Bakı–Tbilisi–Ceyhan" layihəsinin həyata keçirilməsinin növbəti mərhələsinə başlamaq üçün bütün texniki və maliyyə məsələləri üç ay ərzində diqqətlə öyrənilməlidir.

Digər mühüm layihə Türkmənistan qazının Azərbaycan və Gürcüstan vasitəsilə Türkiyəyə nəqli barədədir. Bu haqda saziş ötən ilin oktyabrında Türkiyə ilə Türkmənistan arasında imzalanmışdır və layihə indi həyata keçirilir. Bu layihənin həyata keçirilməsində Gürcüstan da, Azərbaycan da mühüm yer tutur.

Bir sözlə, qarşıda böyük işlər durur. "Bakı–Tbilisi–Ceyhan" neft kəməri, Türkmənistan–Azərbaycan–Gürcüstan–Türkiyə qaz kəməri əməkdaşlığımızı, xüsusən Gürcüstan ilə Azərbaycan arasında əməkdaşlığı təmin edəcək çox iri layihələrdir.

Deməliyəm ki, bütün bu işlərdə biz dostlarımızın dəstəyini, xeyirxah münasibətini görürük. Bu dostların arasında Ukrayna və onun prezidenti çox hörmətli Leonid Daniloviç Kuçma da var. Azərbaycanın, Gürcüstanın Ukrayna ilə əməkdaşlığı, prezident Leonid Daniloviç Kuçmanın bu sahədə fəal səyləri çox mühüm rol oynayır. Bizim səylərimiz sayəsində Xəzər dənizi ilə Qara dəniz iqtisadi cəhətdən birləşir. Qara dənizdə Ukrayna və Gürcüstan, Xəzərdə Azərbaycan, Qazaxıstan, Türkmənistan, Rusiya və digər ölkələr regionumuzun iri layihələrinin həyata keçirilməsi üçün daha sıx birləşməlidirlər.

Bütün bu işlər, indiki halda Bakı-Supsa neft kəməri Qafqazda sabitliyin və sülhün möhkəmlənməsinə mühüm töhfədir. Sülh bizə çox gərəkdir, bizə dinc Qafqaz gərəkdir, bizə sabitlik gərəkdir, biz silahlı münaqişələrə son qoymalı, Qafqaz ölkələri ilə regionumuzu əhatə edən ölkələr arasında ən yaxşı və mehriban münasibətlər yaratmalıyıq. Bununla əlaqədar Bakı–Supsa neft kəməri regionumuzda sabitliyin, sülhün böyük amilidir.

Bütün bu işlərdən danışarkən Xəzər dənizinin karbohidrogen ehtiyatlarından istifadə edilməsinə maraq göstərən dünyanın bir çox ölkələrinin, xüsusən Amerika Birləşmiş Ştatlarının böyük dəstəyini qeyd etməliyəm. Biz 1994-cü ildə "Əsrin müqaviləsi" imzalanarkən aldığımız dəstəyi qiymətləndiririk. Biz Qərb, Bakı-Supsa marşrutunun çəkilişi məsələsinin həlli zamanı aldığımız dəstəyi qiymətləndiririk. Biz indi "Bakı–Tbilisi–Ceyhan" neft kəmərinin inşası barədə aldığımız dəstəyi qiymətləndiririk. Amerika Birləşmiş Ştatları hökumətinin çox böyük səyləri sayəsində Türkmənistan-

Türkiyə Transxəzər qaz kəməri layihəsi reallığa çevrilmişdir. Bu gün biz Amerika Birləşmiş Ştatlarının prezidenti Bill Klintonun bu təntənəli hadisə ilə əlaqədar təbrik göndərməsindən böyük sevinc hissi keçiririk. Hesab edirəm ki, bütün bunlar Gürcüstanın da, Azərbaycanın da, Ukraynanın da Qərb, Avropa ölkələri ilə, Avropa Birliyi, Amerika Birləşmiş Ştatları ilə əməkdaşlığı üçün yaxşı bünövrə qoymuşdur. Biz buna böyük əhəmiyyət veririk və bu əməkdaşlığın daha uğurlu olması üçün gələcək işlərimizdə bütün tədbirləri görəcəyik.

Əziz dostlar, Gürcüstan prezidentini, dostum Eduard Şevardnadzeni, bütün gürcü xalqını, buraya toplaşan bütün dostları bu əlamətdar hadisə münasibətilə ürəkdən təbrik edirəm. Əziz dostlar, sizə xoşbəxtlik, firavanlıq və yeni-yeni uğurlar arzulayıram.

Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətini "Əsrin müqaviləsi"nin həyata keçirilməsində, Bakı-Novorossiysk və Bakı-Supsa neft kəmərlərinin inşasında nail olduğu gözəl nəticələr münasibətilə təbrik edirəm. Qısa müddətdə çox böyük iş görülmüşdür. Qeyd etməliyəm ki, bizim planlarımıza müqavimət göstərən qüvvələr o vaxtlar deyirdilər ki, bu layihə real deyil, həyata keçirilə bilməz. Bu ilin sentyabrında müqavilənin imzalanmasının beş ili tamam olacaq, amma bir baxın, necə böyük iş görülmüşdür və işin bundan sonra da davam etməsi üçün necə böyük bünövrə qoyulmuşdur. Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin konsorsiumuna daxil olan bütün şirkətlər və bu şirkətin rəhbərləri çox sağ olsunlar.

Leonid Daniloviç Kuçmanı burada, Gürcüstanda, eyni zamanda Azərbaycanda, – bunun fərqi yoxdur, eyni şeydir, – ürəkdən salamlayıram. Gürcüstanda olmaq həm də Azərbaycanda olmaq deməkdir. Onu salamlayıram və şadam ki, o, bu hadisəyə böyük diqqət göstərmişdir. Şadam ki, Xəzər dənizinin ehtiyatlarından istifadə barəsində Ukraynanın öz planları var. Hesab edirəm ki, Odessa-Brodı və oradan Polşaya çəkiləcək neft kəməri də reallıqdır və biz bu reallığı nəzərdə tutmalı, onun üzərində işləməliyik. Buna görə də Ukrayna prezidenti hörmətli Leonid Kuçmanın burada olması tamamilə qanunauyğundur və eyni zamanda bizim hamımız üçün fərəhli hadisədir.

Sizin hamınızı ürəkdən təbrik edir və inanıram ki, Bakı-Supsa neft kəməri bütün XXI əsr ərzində yaşayacaq və işləyəcəkdir.

Diqqətinizə görə çox sağ olun, sizin hamınıza möhkəm cansağlığı, xoşbəxtlik və firavanlıq arzu edirəm.

**Əliyev Heydər Əlirza oğlu.** *Müstəqilliyimiz əbədidir: 20-ci kitab. Bakı: Azərnəşr, 2007.- S. 15-17*

# HEYDƏR ƏLİYEV ADINA BAKI–TBİLİSİ–CEYHAN NEFT KƏMƏRİ

## LAYİHƏNİN BAZA XARAKTERİSTİKASI

**Heydər Əliyev adına "Bakı–Tbilisi–Ceyhan" boru xətti** – Azərbaycan neftinin Xəzər dənizindən Türkiyənin Ceyhan limanına, oradan Aralıq dənizi vasitəsilə Avropa bazarlarına nəql edən neft kəməridir.

**Tərəfdaşlar:** "BP", SOCAR, Chevron, Statoil, Türkiye Petrolleri Anonim Ortaklığı, Eni, Total, Itochu, Inpex, ConocoPhillips, Hess Corporation

**Operatoru:** "BP"

Əsas ixrac boru kəmərinin uzunluğu – 1730 km.

Əsas ixrac boru kəmərinin diametri – 1067 mm (42 düym, ayrı-ayrı sahələrdə 36 düym)

– Azərbaycan ərazisi üzrə – 468 km,

– Gürcüstan ərazisi üzrə – 225 km,

– Türkiyə ərazisi üzrə – 1037 km.

– Əsas ixrac boru kəmərinin tikintisinə sərf olunan məbləğ – 4 mlrd. ABŞ dollarıdır, o cümlədən (rəqəmlər təqribidir):

– Türkiyə ərazisi üzrə – 1,4 milyard ABŞ dolları,

– Azərbaycan ərazisi üzrə – 800 milyon ABŞ dolları,

– Gürcüstan ərazisi üzrə – 500 milyon ABŞ dolları.

– Neft kəmərinin razılaşdırılmış ümumi tarif məbləği – 2,58 ABŞ dolları:

– Xəzər neftinin tranzitinə görə Gürcüstan ilk 5 ildə 1 barel üçün 0,12 ABŞ dolları, sonrakı 11 ildə – 0,14 ABŞ dolları və 24 il təşkil edən üçüncü mərhələdə isə minimum 0,17 ABŞ dolları olacaqdır (sonuncu tarif gələcəkdə dəyişə də bilər);

– Xəzər neftinin Türkiyə ərazisi ilə tranziti əsas ixrac boru kəmərinin istismarının ilk mərhələsində 1 barel üçün 0,20 ABŞ dolları, ikinci mərhələdə – 0,30 ABŞ dolları, üçüncü mərhələdə isə 0,37 ABŞ dolları təşkil edəcəkdir.

Tranzitdən gələn gəlirin qalan hissəsi isə əsaslı xərclərin ödənilməsi, nəqliyyat xərcləri, boru kəmərinin işlək vəziyyətdə saxlanması, təmir işləri və s. üçün nəzərdə tutulmuşdur.

“Bakı–Tbilisi–Ceyhan” əsas ixrac boru kəməri ilə ildə 50 milyon ton neftdən az olmayaraq neft daşınması planlaşdırılır. Beləliklə, müqavilənin qüvvədə olmasının 40 ili ərzində Gürcüstanın tranzit neftdən mənfəəti ən azı 2,1 milyard ABŞ dolları olmaqla ölkənin büdcəsinə hər il 52,5 milyon ABŞ dolları daxil olacaqdır ki, bu da öz növbəsində Gürcüstanın indiki büdcəsinin 10%-ini təşkil edir.

Bundan əlavə, ekspertlərin hesablamalarına görə Gürcüstanın ərazisindən 3 ölkədən keçən boru kəmərinin tikintisi üçün lazım olan bütün material və yüklərinin 6%-i daşınacaqdır (hər ton yük üçün 8-10 ABŞ dolları).

Boru kəmərinin ötürmə qabiliyyəti gündə bir milyon barel neftdir. BTC boru kəmərlərinin obyektlərinə daxildir:

1. 8 nasos stansiyası (Azərbaycanda 2, Gürcüstanda 2, Türkiyədə 4)
2. 2 aralıq ərsinburaxma stansiyası
3. 1 təzyiqazaltma stansiyası
4. 101 kiçik siyirtmə

Boru kəmərinin diametri Azərbaycanda və Türkiyədə əsasən 42 düymdür. Gürcüstan ərazisində boru kəmərinin diametri 46 düymdür. Boru kəmərinin diametri Türkiyədə Ceyhan dəniz terminalına enən axırıncı eniş boyu hissədə 34 düymədək azalır.

“Bakı–Tbilisi–Ceyhan” Boru kəməri Kompani (BTC Ko) şirkəti bütövlüklə boru kəmərinin tikintisinə və istismarına cavabdehdir. Bu, 11 səhmdar tərəfindən təşkil olunaraq korporasiya kimi qeydə alınmış birgə müəssisədir, şirkətin ən böyük səhmdarı olan “BP” tərəfindən idarə olunur. BTC boru kəmərinin neftlə doldurulmasına 2005-ci il may ayının 10-da başlanıldı və neft Ceyhan terminalına 2006-cı ilin may ayının 28-də çatdı. Kəmərin doldurulması üçün təxminən 10 milyon barel neft tələb olunurdu. Bu kəmərlə nəql edilmiş ixrac xam nefti yüklənmiş ilk tanker 2006-cı ilin iyun ayının 4-də yola salındı.

Qeyd edək ki, Azərbaycan son illərdə yalnız enerji resurslarının tədarükçüsü deyil, həmçinin etibarlı tranzit mərkəzinə çevrilib. Xəzər dənizinin şərq sahillərində yerləşən dövlətlər öz neft-qaz ehtiyatlarını dünya bazarlarına Azərbaycan ərazisi üzərindən çatdırmaq imkanına sahibdirlər. Eyni zamanda Rusiyanın enerji şirkətləri də bu ölkənin Xəzər sektoru üzrə hasil etdiyi nefti beynəlxalq bazarlara “Bakı–Tbilisi–Ceyhan” boru kəməri ilə ixrac etməyə üstünlük verirlər. 2023-cü ildə Qazaxıstan neftinin BTC marşrutu ilə tədarükü 5,5 dəfə artaraq 1 milyon 392 min tona çatıb.


Atırau
Tixoretsk
Tenqiz
Novorossiysk
Kropotkin
QARA DƏNİZ
XƏZƏR
DƏNİZİ
Batumi
GÜRCÜSTAN
Tblisi
AZƏRBAYCAN
Ermənistan
TÜRKİYƏ
Baki
Türkmənbaşı
Ceyhan
SURİYA

# ƏSAS İXRAC NEFT KƏMƏRİ MARŞRUTUNUN SEÇİLMƏSİ İLƏ ƏLAQƏDAR İŞÇİ QRUPUNUN YARADILMASI HAQQINDA

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

**Əsas** ixrac neft kəməri marşrutunun seçilməsi, onun idarə edilməsi üzrə müvafiq şirkətin yaradılması barədə təkliflər hazırlamaq və sərmayəçilərin, digər əlaqədar təşkilatların iştirakı ilə neft kəmərinin çəkilişi zamanı ortaya çıxan məsələlərin operativ həll edilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Aşağıdakı tərkibdə işçi qrupu yaradılsın:
**Abid Şərifov** – Azərbaycan Respublikası Baş nazirinin müavini *(qrupun sədri)*
**Natiq Əliyev** – Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti
İlham **Əliyev** – **Azərbaycan Respublikası** Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti
**Valeh Ələsgərov** – Azərbaycan Respublikası Dövlət Neft Şirkəti Xarici Sərmayələr İdarəsinin rəisi
**Terri Adams** – **Azərbaycan** Beynəlxalq Əməliyyat **Şirkətinin** prezidenti
**Qreq Piç** – **Azərbaycan** Beynəlxalq **Əməliyyat Şirkətinin vitse-prezidenti**
**Çey Pirson** – Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin ixrac üzrə baş meneceri.

2. Bu sərəncamın birinci bəndi ilə yaradılmış işçi qrupunun sədrinə Azərbaycan Respublikası adından danışıqların aparılması, neft kəməri keçən **ölkələrin dövlət** strukturları və müvəkkil orqanları ilə müqavilələrin hazırlanması səlahiyyəti verilsin.

3. **İşçi qrupuna tapşırılsın ki, əsas ixrac neft kəmərinin çəkilişi ilə əlaqədar sazişlər hazırlandıq**dan sonra onları baxılmaq üçün Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

4. Bu sərəncam imzalandığı gündən qüvvəyə minir.

**Heydər Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 5 sentyabr 1997-ci il*

# "BAKI–TBİLİSİ–CEYHAN" MARŞRUTUNUN MÜƏYYƏNLƏŞDİRİLMƏSİNİ NƏZƏRDƏ TUTAN ANKARA BƏYANNAMƏSİNİN İMZALANMASI MƏRASİMİNDƏ AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN ÇIXIŞI

*Türkiyə Böyük Millət Məclisinin binası,*
*29 oktyabr 1998-ci il*

Türkiyə Cümhuriyyətinin prezidenti hörmətli cənab Süleyman Dəmirəl!

Türkiyə Böyük Millət Məclisinin sədri hörmətli cənab Hikmət Çətin!

Türkiyə Cümhuriyyətinin Baş naziri hörmətli cənab Məsud Yılmaz!

Gürcüstan prezidenti cənab Eduard Şevardnadze!

Qazaxıstan prezidenti cənab Nursultan Nazarbayev!

Özbəkistan prezidenti cənab İslam Kərimov!

Amerika Birləşmiş Ştatlarının energetika naziri cənab Bill Riçardson!

Türkiyə Cümhuriyyətinin 75-ci ildönümü münasibətilə bayram mərasimləri zamanı Ankarada imzaladığımız bəyannamə tarixi əhəmiyyət daşıyır. Bu, birinci növbədə bizim ölkələrimizin, xalqlarımızın milli mənafeyinə cavab verir, milli mənafeyindən irəli gəlir. Eyni zamanda dövlətlərimiz, ölkələrimiz arasında iş birliyinin, əməkdaşlığın yeni bir mərhələsini nümayiş etdirir.

Məlumdur ki, Azərbaycan Respublikası Xəzər dənizinin enerji ehtiyatlarının işlənilməsi və dünya bazarlarına çıxarılması üçün bir neçə il bundan əvvəl əməli işlərə başlamışdır.

1994-cü il sentyabrın 20-də dünyanın nüfuzlu 11 neft şirkəti ilə, konsorsium yaratmış şirkətlərlə böyük bir müqavilə – Xəzər dənizindəki "Azəri", "Çıraq" yataqlarından və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsindən neft və qaz hasil edilməsi haqqında müqavilə imzalanıbdır. Bu müqavilə "Əsrin müqaviləsi" adı alıbdır.

Biz keçən il noyabrın 12-də "Çıraq" neft yatağından ilkin neftin alınmasını qeyd etdik. Hazırda həmin yataqdan gündə 10 min ton neft hasil olunur və dünya bazarlarına çıxarılır. Aparılan işlər nəticəsində yaxın vaxtlarda hasilat 3 dəfə artacaqdır.

Biz 1994-cü ildə bu müqaviləni imzalayarkən Xəzər neftinin dünya bazarlarına çıxarılması üçün bir neçə boru kəməri yaradılmasını nəzərdə tutmuşduq. Onlardan

birincisi Bakı-Novorossiysk marşrutu, ikincisi – ilkin neftin ixracı üçün Bakı-Supsa, Gürcüstan marşrutu və ən əsas, böyük neft kəməri isə – dörd il bundan əvvəl də fikrimiz belə idi – Bakı - Ceyhan marşrutu olmalıdır.

Xəzərin Azərbaycan sektorunda ötən dörd il müddətində bir çox yataqlar barədə 10-dan artıq beynəlxalq konsorsiumla müqavilələr imzalanmış və həmin neft, qaz yataqlarından gələcəkdə böyük neft alınması gözlənilir.

Məlumdur ki, Xəzərin digər ölkələrə – Qazaxıstana, Türkmənistana, Rusiyaya, İrana məxsus sektorlarında da neft yataqları vardır. Məmnuniyyətlə qeyd edirəm ki, bu sektorlarda da, xüsusən Qazaxıstana məxsus sektorda artıq əməli işlər aparılır.

Mərkəzi Asiyanın, Xəzəryanı ölkələrin – Qazaxıstanın, Türkmənistanın, Özbəkistanın ərazilərində də böyük neft və qaz yataqları vardır. Həmin yataqların gələcəkdə işlənilməsi, neftin və qazın dünya bazarlarına çıxarılması üçün yollar araşdırılır.

Bunlar hamısı 1994-cü ildə bizim nəzərdə tutduğumuz Bakı - Ceyhan böyük, əsas neft kəmərinin çəkilməsini bu gün daha [122-123] da reallaşdırır. Məlumdur ki, Qazaxıstanın "Tengiz" yatağında zəngin neft və qaz ehtiyatları vardır. Oradan hasil edilən neftin bir hissəsi artıq Qazaxıstan, Azərbaycan, Gürcüstan respublikalarının ərazilərindən, Xəzər dənizi və Qara dəniz vasitəsilə dünya bazarlarına çıxarılır. Məlumat verirəm ki, bu yolla artıq 2 milyon 500 min ton Qazaxıstan nefti daşınıbdır.

"Tengiz"dəki zəngin neft yataqlarının gələcəkdə işlənilməsi Qazaxıstanın Aktay limanı ilə bizim Bakı limanı arasında bir neft borusu tikilməsi zərurətini də meydana çıxarmışdır. Bütün bunlar hamısı Bakı-Ceyhan əsas neft boru kəmərinin bu gün çox real olduğunu əyani surətdə sübut edir. Ona görə də bu gün burada, Türkiyədə, Ankarada hamımızın birlikdə imzaladığımız bu bəyannamə bizim dörd il müddətində apardığımız işin böyük bir nəticəsidir.

Doğrudur, Bakı–Ceyhan marşrutuna, "Bakı–Tbilisi–Ceyhan" marşrutuna etiraz edənlər və onun həyata keçirilməsinə mane olmaq istəyənlər də vardır. Bəzi şirkətlər kommersiya nöqteyi-nəzərindən bu marşrutun səmərəli olmadığını iddia edirlər. Şübhəsiz ki, bu şirkətlərin kommersiya maraqları da nəzərə alınmalıdır. Biz həmin şirkətlərlə bundan sonra da iş aparacağıq. Ancaq hesab edirəm ki, mərasimdə iştirak edən ölkələrin dövlət başçılarının bu gün ifadə etdikləri siyasi iradə bu proqramın, layihənin həyata keçirilməsinin təməlini qoyur.

Bilirsiniz ki, bu işlərin təməlini, əsasını müstəqil Azərbaycan Respublikası Xəzər dənizindəki enerji ehtiyatlarının birgə işlənilməsi barədə qəbul etdiyi 4 qərarla qoymuşdur. Mən çox məmnunam ki, dörd il bundan əvvəl təməlini qoyduğumuz iş bu gün böyük vüsət almışdır və bu gün burada iştirak edən dövlət başçılarının hamısının birgə iradəsi ilə böyük bir bəyannamənin qəbul olunmasına gətirib çıxarmışdır.

Mən "Bakı–Tbilisi–Ceyhan" neft boru kəmərinin böyük gələcəyinə, uğuruna inanıram. Mən inanıram ki, bu neft borusunun tikilməsi və ondan gələcəkdə istifadə edilməsi bizim ölkələrimiz arasında olan dostluq, əməkdaşlıq, qardaşlıq əlaqələrini daha da yüksəklərə qaldıracaqdır. Eyni zamanda, bunlar hamısı ölkələrimizin dövlət müstəqilliyinin nə qədər vacib olduğunu sübut edir. Biz yalnız dövlət müstəqilliyi əldə edəndən sonra öz təbii sərvətlərimizin sahibi olmuşuq, bunlardan sərbəst surətdə istifadə edirik və hasil edilmiş nefti istədiyimiz vaxt dünya bazarlarına çıxarırıq.

Mən bu gün bəyannamənin imzalanması münasibətilə dost ölkələrin dövlət başçılarını: Türkiyəni, Qazaxıstanı, Gürcüstanı, Özbəkistanı, Amerika Birləşmiş Ştatlarını və Xəzəryanı ölkələrin hamısını təbrik edirəm. Ümidvaram ki, bizim bu gün gördüyümüz iş XXI əsr, gələcək əsrlər üçün böyük töhfələr verəcəkdir. Xeyirli, uğurlu olsun!

**Əliyev Heydər Əlirza oğlu.** *Müstəqilliyimiz əbədidir: 18-ci kitab. Bakı: Azərnəşr, 2006.- S. 58-59*

## ANKARA BƏYANNAMƏSİ

*Ankara,*
*29 oktyabr 1998-ci il*

Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev, Gürcüstan prezidenti Eduard Şevardnadze, Qazaxıstan Respublikasının prezidenti Nursultan Nazarbayev, Türkiyə Respublikasının prezidenti Süleyman Dəmirəl, Özbəkistan Respublikasının prezidenti İslam Kərimov öz ölkələrində neft və qaz ehtiyatlarının hasilatı və istehsalı, bir neçə boru kəməri vasitəsilə bu ehtiyatların dünya bazarlarına təhlükəsiz nəql edilməsi imkanlarını qiymətləndirərək, habelə bu məsələlər barədə təxirə salmadan qərar qəbul edilməsi zəruriliyini nəzərə alaraq bu bəyannaməni imzaladılar.

1. Prezidentlər hesab edirlər ki, onların ölkələrindəki karbohidrogen ehtiyatlarının işlənilməsi Xəzər regionu ölkələrinin və qonşu ölkələrin müstəqilliyinin və təhlükəsizliyinin möhkəmləndirilməsi üçün böyük əhəmiyyət daşıyır. Onlar, həmçinin iqtisadi inkişafın təmin edilməsi, öz xalqlarının həyatının yaxşılaşdırılması üçün iqtisadi və kommersiya cəhətdən əlverişli olan boru kəmərləri vasitəsilə neft və təbii qazın nəql olunmasının zəruriliyini təsdiq etdilər. Prezidentlər daha sonra karbohidrogen ehtiyatlarının sərbəst, sabit şəkildə, ətraf mühitin qorunmasının şərtlərinə uyğun olaraq maneəsiz daşınmasını tələb edən Avropa energetika xartiyasının prinsiplərinə sadiq olduqlarını təsdiq etdilər.

2. Prezidentlər karbohidrogen istehsal edən ölkələrin mənafelərini əsas tutaraq qeyd etdilər ki, kommersiya cəhətdən məqbul və ədalətli olan, ayrı-seçkiliyə yol verməyən Şərq-Qərb dəhlizinin, o cümlədən Xəzər boru kəməri şirkətinin, Transxəzər və Transqafqaz boru kəmərləri sistemlərinin yaradılması Xəzər dənizi regionunda və başqa qonşu ölkələrdə hasil edilən karbohidrogenlərin dünya bazarına çıxarılmasını təmin edən son dərəcə mühüm layihədir.

3. Prezidentlər Azərbaycanın əsas ixrac boru kəməri üzrə qərar qəbul etmək ərəfəsində qətiyyətlə bəyan etmişlər ki, onlar Xəzər-Aralıq dənizi ("Bakı–Tbilisi–Ceyhan") boru kəməri layihəsini əsas ixrac layihəsinə çevirmək barədə qəti qərara gəlmişlər.

4. Onlar həm istehsalçı ölkələr, həm də Xəzər dənizinin hər iki tərəfində yerləşmiş tranzit ölkələr üçün boru kəmərinin açıqlığının, habelə bu xəttin lazımi miqdarda məhsul ilə təmin edilməsinin əhəmiyyətini qeyd etmişlər. Prezidentlər bu məqsəd

naminə müvafiq hökumətlərlə ətraflı və konstruktiv danışıqlar aparmaq, boru kəmərinin yaradılması üçün əlverişli şərtlər təqdim etmək və zəruri maliyyə vəsaitinin ayrılmasını təmin etmək üçün Xəzər regionunda karbohidrogen ehtiyatlarının işlənilməsində iştirak edən şirkətləri, başqa əlaqədar şirkətləri, habelə beynəlxalq maliyyə təsisatlarını dəvət etmişlər.

5. Prezidentlər dünya bazarlarına enerji ehtiyatlarının nəql olunmasına dair layihələr üzərində işləyən xarici və yerli investorların hüquqlarının müdafiəsi haqqında beynəlxalq qanunlara uyğun olaraq Şərq-Qərb enerji dəhlizinin və bu çərçivədə "Bakı–Tbilisi–Ceyhan" neft kəmərinin yaradılması üçün zəruri şəraiti mümkün qədər tez bir zamanda təmin etmək barədə özlərinin müvafiq hakimiyyət orqanlarına göstəriş verəcəklərini öhdələrinə götürdülər. Onlar, həmçinin investorlar üçün əlverişli şərait yaradılması məqsədi ilə lazımi tədbirlər görəcəkləri barədə razılığa gəldilər.

6. Prezidentlər Qara dənizin, Aralıq dənizinin sahillərinin, habelə Türkiyə boğazlarının qorunması üçün səylər göstərilməsinin əhəmiyyətini bir daha vurğuladılar. Prezidentlər, həmçinin qeyd etdilər ki, xüsusilə Türkiyə boğazlarında tanker gəmiçiliyinin potensial artımını nəzərə alaraq, neftin və təbii qazın dünya bazarlarına nəql edilməsi təhlükə yaratmamalı, ətraf mühitə, insanların həyatına, mülkiyyətinə və təhlükəsiz dənizçiliyə mane olmamalıdır.

***Azərbaycan Respublikası adından Heydər Əliyev***
***Gürcüstan adından Eduard Şevarnadze***
***Qazaxıstan Respublikası adından Nursultan Nazarbayev***
***Türkiyə Respublikası adından Süleyman Dəmirəl, Məsud Yılmaz***
Özbəkistan Respublikası adından İslam Kərimov
Şahid sifətində Bill RİÇARDSON, ABŞ-ın energetika üzrə katibi.

**Əliyev Heydər Əlirza oğlu.** *Müstəqilliyimiz əbədidir: 18-ci kitab. Bakı: Azərnəşr, 2006.- S. 60*

# "XAM NEFTİN AZƏRBAYCAN RESPUBLİKASI, GÜRCÜSTAN VƏ TÜRKİYƏ RESPUBLİKASININ ƏRAZİLƏRİ İLƏ "BAKI–TBİLİSİ–CEYHAN" ƏSAS İXRAC BORU KƏMƏRİ VASİTƏSİLƏ NƏQL EDİLMƏSİNƏ DAİR AZƏRBAYCAN RESPUBLİKASI, GÜRCÜSTAN VƏ TÜRKİYƏ RESPUBLİKASI ARASINDA SAZİŞ"İN İMZALANMASI MƏRASİMİNDƏ AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN[1] NİTQİ

*İstanbul, "Çırağan sarayı",*
*18 noyabr 1999-cu il*

Hörmətli prezidentlər!
Hörmətli dostlar!
Hörmətli xanımlar və cənablar!

Mən bu gün böyük iftixar hissi keçirirəm. Ona görə ki, beş il bundan öncə, 1994-cü ilin sentyabr ayında Bakıda imzalanmış "Əsrin müqaviləsi" adlı böyük neft müqaviləsinə, Xəzər dənizinin neft və qaz ehtiyatlarından müştərək istifadə etmək üçün yaranmış konsorsiumun tərkibinə Azərbaycan, Amerika Birləşmiş Ştatları, Avropa ölkələri, Türkiyə və Rusiya daxildirlər və bu müqavilənin imzalanmasından beş il keçəndən sonra həmin müqavilə imzalanarkən nəzərdə tutulmuş "Bakı–Tbilisi–Ceyhan" neft kəmərinin həyata keçirilməsi üçün artıq bu gün bu sənədlər imzalandı.

Məlumdur ki, bu, asan iş deyildi. Bizim qarşımızda çox böyük çətinliklər var idi. "Əsrin müqaviləsi"ni imzalayanda da biz böyük çətinliklərlə rastlaşdıq. Sonra da Bakı–Ceyhan neft kəmərini çəkmək üçün bizim qarşımızda çox böyük maneçiliklər, əleyhimizə çıxanlar var idi. Ancaq biz öz iradəmizi itirmədik, başladığımız işi axıra çatdırdıq.

Bu barədə Türkiyə Cümhuriyyəti ilə Azərbaycan arasında olan əməkdaşlıq xüsusi əhəmiyyət kəsb edir. Ona görə də mən Türkiyə Cümhuriyyətini, Türkiyə xalqını və Türkiyə Cümhuriyyətinin prezidenti, əziz dostum, qardaşım Süleyman Dəmirəli ürəkdən təbrik edirəm.

Biz bu boru xəttini Gürcüstandan keçiririk. Şübhəsiz ki, əgər bu xəttin Gürcüstan ərazisindən keçməsi mümkün olmasaydı, bu baş tutmazdı. Ona görə də Gürcüstan prezidenti cənab Şevardnadzenin də bu məsələnin həll edilməsi üçün çox böyük

səyləri olmuşdur. Mən gürcü xalqını, Gürcüstanı və əziz dostum, qardaşım Eduard Şevardnadzeni ürəkdən təbrik edirəm.

Ancaq onu da bəyan edirəm ki, əgər bu məsələləri həyata keçirmək üçün Amerika Birləşmiş Ştatlarının dəstəyi olmasaydı, biz bunların heç birisini edə bilməzdik.

"Əsrin müqaviləsi"nin imzalanmasından əvvəl müstəqil Azərbaycana qarşı bir il böyük təzyiqlər göstərildi. Bizim qarşımızı almaq istəyirdilər. Məhz Amerika Birləşmiş Ştatlarının, onun prezidenti, hörmətli dostum cənab Bill Klintonun dəstəyi nəticəsində biz 1994-cü ilin sentyabrında "Əsrin müqaviləsi"ni imzaladıq. Amma ondan sonra da problemlərimiz çox oldu. Bakı-Ceyhanı başqa ölkələr qəbul etmirdilər. Ancaq hörmətli cənab prezident Bill Klinton bu məsələ ilə ardıcıl surətdə məşğul olurdu, bizə dəstək, ruh verirdi və Türkiyəni, Azərbaycanı, Gürcüstanı, Xəzəryanı başqa ölkələri bu məsələyə cəlb edirdi, öz hörməti, öz nüfuzu ilə, bu barədə ardıcıl siyasəti ilə biz belə böyük "Əsrin müqaviləsi"nin imzalanmasına nail olduq.

Ona görə də mən, biz hamımız birlikdə Amerika Birləşmiş Ştatlarına, onun prezidenti, əziz dostumuz cənab Bill Klintona təşəkkürümüzü və minnətdarlığımızı bildiririk. Hörmətli cənab prezident Bill Klinton, mən sizi də bu münasibətlə ürəkdən təbrik edirəm.

Bu boru xəttinin, yəni neft kəmərinin istifadə edilməsi layihəsinə indi Qazaxıstan da qoşulubdur. Qazaxıstan da öz neftinin böyük bir hissəsini bu kəmər vasitəsilə keçirəcəkdir.

Biz Azərbaycan olaraq, – Gürcüstan da bunu qəbul edibdir, – bunu qəbul etmişik və üzərimizə düşən bütün öhdəlikləri həyata keçirəcəyik. Hesab edirəm ki, Qazaxıstan bu yolla, bu boru xətti ilə neftin ixracında böyük uğurlar əldə edəcəkdir. Ona görə də mən qazax xalqını və Qazaxıstan prezidenti, əziz dostum Nursultan Nazarbayevi ürəkdən təbrik edirəm.

Mən Türkiyə xalqına, Türkiyənin vətəndaşlarına hörmət və ehtiramımı bildirirəm və onları təbrik edirəm. Beş ildir ki, Türkiyəyə hər dəfə gələndə mənə sual verirdilər: Bakı-Ceyhan boru xətti nə vaxt olacaqdır? Mən də hər dəfə deyirdim ki, olacaqdır, olacaqdır, olacaqdır! Artıq bu gün bu oldu və saziş imzalandı. Hamınızı ürəkdən təbrik edirəm!

**Əliyev Heydər Əlirza oğlu.** *Müstəqilliyimiz əbədidir: 23-cü kitab. Bakı: Azərnəşr, 2008.- S. 74-75*

# “AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ İLƏ ƏSAS İXRAC BORU KƏMƏRİ İŞTİRAKÇILARI ARASINDA TRANZİT ƏRAZİSİNƏ MALİK ÖLKƏNİN HÖKUMƏTİ İLƏ SAZİŞ”İN VƏ “BAKI-TBİLİSİ-CEYHAN” XAM NEFT KƏMƏRİ LAYİHƏSİNİN MÜHƏNDİS İŞLƏRİ VƏ LAYİHƏLƏŞDİRİLMƏSİ ÜÇÜN MALİYYƏLƏŞDİRMƏ VƏ ƏMƏKDAŞLIQ SAZİŞİ”NİN İMZALANMASI MƏRASİMİNDƏ AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN NİTQİ

*Prezident sarayı,*
*17 oktyabr 2000-ci il*

Hörmətli xanımlar və cənablar!

Sabah, oktyabrın 18-də Azərbaycanın dövlət müstəqilliyi haqqında Konstitusiya aktının qəbul olunmasının 9-cu ildönümüdür. 9 il bundan öncə Konstitusiya aktı qəbul olunandan sonra Azərbaycan öz müstəqilliyini əldə edib və 9 ildir ki, müstəqil dövlət kimi yaşayır. Mən bu bayram, Azərbaycanın istiqlaliyyət günü münasibətilə sizi, bütün xalqımızı, vətəndaşlarımızı ürəkdən təbrik edirəm. Azərbaycan xalqına sülh, əmin-amanlıq, rifah, dövlətimizin müstəqilliyinin əbədi olmasını arzulayıram.

Biz bu gün buraya tarixi bir hadisə münasibətilə toplaşmışıq. Məlumdur ki, 1994-cü ilin sentyabr ayında Xəzərin Azərbaycan sektorundakı zəngin neft yataqlarının müştərək işlənilməsi üçün dünyanın bir çox böyük neft şirkətləri ilə ilk müqavilə imzalanmışdır. Biz o vaxtdan bu müqavilənin həyata keçirilməsi ilə məşğuluq. Beləliklə, Azərbaycanın yeni neft strategiyası başlamışdır. 1994-cü ilin sentyabr ayında “Əsrin müqaviləsi”nin imzalanması məhz Azərbaycan xalqının azadlığının, dövlət müstəqilliyinin bəhrəsidir.

Bu gün böyük iftixar hissi ilə deyə bilərik ki, imzalanmış bu neft müqaviləsi ardıcıl surətdə həyata keçirilir, öz nəticələrini verir.

Birinci müqavilə Xəzər dənizinin böyük neft və qaz imkanlarını dünyaya açıbdır. İndi Azərbaycanda 20 böyük neft müqaviləsi imzalanıbdır.

“Əsrin müqaviləsi”ndə – Xəzərin Azərbaycan sektorundakı “Azəri”, “Çıraq” yataqlarının və “Günəşli” yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənilməsi barədə müqavilədə Azərbaycan Dövlət Neft Şirkətinin 11 xarici ölkə neft şirkəti ilə birgə əməkdaşlıq etməsi

nəzərdə tutulurdu. Bu əməkdaşlıq uğurla həyata keçirilir, "Çıraq" yatağından 1997-ci ildə neft hasil olunubdur. Həmin yataqdan alınan neft dünya bazarlarına ixrac edilir. Beləliklə, biz imzaladığımız müqavilənin əməli nəticəsini görürük.

Təbiidir ki, belə bir müqavilənin həyata keçirilməsi zamanı böyük miqdarda neft hasil olunması nəzərdə tutulduğuna görə, bu neftin dünya bazarlarına ixracı da müqavilədə nəzərə alınmalı idi. Ona görə də ilk müqavilədən hasil edilən neftin dünya bazarlarına ixrac olunması üçün müxtəlif neft borularının, o cümlədən "Bakı–Tbilisi–Ceyhan" əsas ixrac boru kəmərinin tikilməsi nəzərdə tutulmuşdu.

Biz xarici neft şirkətləri ilə birlikdə elə o vaxtdan, 1994-cü ildən başlayaraq əsas ixrac neft kəmərinin – Bakı–Ceyhan kəmərinin, sonra biz onu "Bakı–Tbilisi–Ceyhan" adlandırdıq – yaradılması üçün çox işlər gördük.

Məlumdur ki, bu istiqamətdə apardığımız işlər çox böyük müqavimətlərlə, çətinliklərlə rastlaşmışdı. Çoxları belə bir ixrac kəmərinin tikilməsinin real olmadığını bəyan edirdilər. Hər halda, "Bakı–Tbilisi–Ceyhan" neft kəməri ötən illər bütün dünya ictimaiyyətinin nəzər-diqqəti altında olubdur. Lakin biz: Azərbaycan, Türkiyə, Gürcüstan dövlətləri, konsorsiumda iştirak edən neft şirkətləri "Bakı–Tbilisi–Ceyhan" neft kəmərinin tikilməsi işi ilə ardıcıl məşğul olmuşuq, mübarizə aparmışıq və buna da nail olmuşuq.

Gördüyümüz bütün bu işlərin zirvəsini də 1999-cu ilin noyabrında İstanbulda ATƏT-in zirvə görüşü zamanı imzalanmış saziş təşkil edir. Həmin sazişi Azərbaycan Respublikasının prezidenti, Türkiyə Cümhuriyyətinin prezidenti, Gürcüstan prezidenti, Qazaxıstan prezidenti imzalamışlar və o sazişə Amerika Birləşmiş Ştatlarının prezidenti cənab Bill Klinton da öz imzasını qoymuşdur.

Beləliklə, bizim çoxillik işlərimiz belə bir siyasi sənədin qəbul olunması ilə başa çatmışdır. Ancaq ondan sonrakı dövrdən bu günədək o qədər də asan olmamışdır. Çünki "Bakı–Tbilisi–Ceyhan" neft kəmərinin tikilməsi, onun qiyməti, başqa kommersiya-texniki məsələləri ilə əlaqədar müxtəlif fikirlər olmuşdur. Bu, müxtəlif fikirlər hətta konsorsiuma daxil olan şirkətlər arasında da mövcud idi. Ona görə də bu sahədə də çox işlər görmək lazım idi.

Bu işlər Azərbaycan, Türkiyə, Gürcüstan dövlətləri və onların müvafiq orqanları tərəfindən aparılmışdır. Amerika Birləşmiş Ştatlarının dövləti, hökuməti də bu prosesə daim dəstək vermişdir. Bütün texniki, kommersiya məsələləri barəsində razılıqlar əldə edilmişdir. Bunların nəticəsində Azərbaycan Dövlət Neft Şirkəti və Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinə daxil olan şirkətlər birlikdə "Bakı–Tbilisi–Ceyhan" əsas ixrac neft kəmərinin tikilməsi haqqında kommersiya-texniki sazişlər hazırlamışdır. Bu gün biz bu sazişlərin imzalanması üçün buraya toplaşmışıq.

Nəzərdə tutulur ki, həmin sazişlər bu gün Azərbaycanda, onun paytaxtı Bakıda, sabah Gürcüstanda, Tbilisidə, o biri gün isə Türkiyədə imzalanacaqdır. Təbiidir ki, sazişlərin imzalanması bu sahədə yeni bir mərhələ açacaqdır, "Bakı–Tbilisi–Ceyhan" əsas ixrac neft boru kəmərinin əməli surətdə tikilməsinə başlanacaqdır.

**YEKUN NİTQİ**

Hörmətli xanımlar və cənablar, dostlar!

Bu gün hamımız həqiqətən eyni fikirdəyik ki, tarixi bir gün yaşayırıq, tarixi dəqiqələr keçiririk.

1994-cü ilin sentyabrında Azərbaycanda ilk neft müqaviləsi imzalananda biz böyük qürur, xoşbəxtlik hissi keçirirdik, bu istiqamətdə Azərbaycanın gözəl gələcəyini görürdük.

Məlumdur ki, buna şübhə ilə yanaşanlar da, inanmayanlar da, mane olanlar da var idi. Azərbaycanın həm daxilində, həm də xaricində bu müqavilə bir tərəfdən qısqanclıq, o biri tərəfdən narazılıq doğurmuşdu. Ancaq Azərbaycan xalqı, hər halda onun tam əksəriyyəti, bu hadisəni tarixi hadisə və müstəqil ölkəmizin gələcəyi üçün ən önəmli, ən mühüm iş kimi qiymətləndirir.

Ondan sonrakı dövr bizim üçün asan olmadı. Biz xaricdən çox təzyiqlərə məruz qaldıq. Bir sıra ölkələrin mətbuatında, qəzetlərində bu barədə müxtəlif fikirlər – əksəriyyəti isə əks fikirlər dərc olunurdu. Beləliklə, bizim gördüyümüz bu işlərə həm beynəlxalq ictimaiyyətdə, həm də Azərbaycanda şübhə yaratmaq istəyirdilər.

Ölkəmizin həm xaricdə, həm də daxildə olan düşmənləri yaxşı dərk edirdilər ki, bu müqavilə Azərbaycanın dövlət müstəqilliyinin möhkəmlənməsi üçün ən mühüm hadisələrdən biridir. Təsadüfi deyil ki, bu müqavilə imzalanandan bir gün sonra Azərbaycana qarşı böyük bir təxribat baş verdi. Respublikamızın Milli Təhlükəsizlik Nazirliyinin təcridxanasında cəza çəkən çox təhlükəli cinayətkar məhbuslar müxtəlif qüvvələrin köməyi ilə oradan çıxarıldı, qaçırıldı və Azərbaycanın daxilində sabitliyin pozulması üçün müəyyən imkanlar yarandı. Bundan bir həftə sonra Azərbaycanda iki dövlət xadiminə, siyasi xadimə qarşı terror baş verdi, onlar qətlə yetirildi.

Bunların məntiqi davamı olaraq, 1994-cü il oktyabrın 3-4-də Azərbaycanda silahlı dövlət çevrilişinə cəhd göstərildi. Biz bu cəhdin qarşısını xalqımızın, millətimizin birliyi, gücü ilə aldıq. Ancaq Azərbaycanın daxili və xarici düşmənləri ölkəmizin bu qədər müstəqil siyasət aparmasına, müstəqil inkişaf etməsinə maneçilik törətməkdən əl çəkmirdilər.

Həmin hadisədən altı ay sonra Azərbaycanda yenidən silahlı dövlət çevrilişinə cəhd göstərildi. Bu həm xaricdən idarə olunurdu, həm də daxildəki cinayətkar qüvvələr tərəfindən təşkil edilmişdi. Çox təəssüflər olsun ki, bu gün müxalifətdə olan bəzi

siyasi partiyalar da həmin dövlət çevrilişinə cəhddə fəal iştirak edirdilər. Biz bu dövlət çevrilişinə cəhdin də qarşısını aldıq. Qan töküldü, şəhidlər verdik, ancaq Azərbaycanın müstəqilliyinin, dövlətçiliyinin əleyhinə çıxan qüvvələri darmadağın etdik.

Sonrakı illərdə də Azərbaycanın qarşısına bir çox çətinliklər çıxmışdı. Bunlar hamısı sizə məlumdur. Bunların hamısının bir səbəbi vardır. Həm xaricdə, həm də daxildə olan düşmənlər görürdülər ki, Azərbaycan müstəqil bir dövlət kimi yaşayır, ölkəmizin müstəqilliyi gündən-günə möhkəmlənir, respublikamızın yeni dövlət neft strategiyası böyük gələcəkdən xəbər verir. Məhz həmin adamlar bunların qarşısını almaq, Azərbaycanı zəiflətmək və ayrı-ayrı cinayətkar qruplar tərəfindən ölkəmizi ələ keçirmək üçün bu cür dəhşətli yollara düşdülər.

Biz ötən illər çox ağır, çətin yollar keçdik, Azərbaycan xalqını bir çox təhlükələrdən xilas etdik və ölkəmizin müstəqilliyini, dövlətçiliyini qoruduq. Azərbaycanın iqtisadiyyatını inkişaf etdirmək üçün dövlət neft strategiyasını ardıcıl surətdə həyata keçirdik.

Burada deyildi ki, "Bakı–Tbilisi–Ceyhan" neft kəmərinin yaradılması da dövlət neft strategiyamızın əsas hissəsini təşkil edir. Bütün təxribatlar, xaricdən bizə qarşı olan təzyiqlər heç bir nəticə vermədi. Son illər isə "Bakı–Tbilisi–Ceyhan" əsas ixrac neft kəmərinin çəkilməsinə qarşı müxtəlif təbliğatlar aparıldı, təxribat hərəkətləri edildi. Amma bizim iradəmiz, müstəqil, demokratik Azərbaycanın iqtisadi, xarici siyasəti və dünyanın böyük dövlətləri, onların neft şirkətləri ilə əməkdaşlığı – bütün bunlar bizi bugünkü günə gətirib çıxardı.

Beləliklə, "Bakı–Tbilisi–Ceyhan" əsas ixrac boru kəməri ağır bir yol keçibdir. Amma bu gün artıq hamı görür ki, biz bu yolu uğurla keçmişik. Biz: Türkiyə Cümhuriyyəti, Gürcüstan, Azərbaycan Amerika Birləşmiş Ştatlarının daimi dəstəyi nəticəsində bu ağır, çətin yolu birlikdə uğurla keçdik və bu gün artıq son sazişlər imzalandı.

İndi yeni mərhələ açılır. Bu gün burada verilən bəyanatlar və xüsusən Devid Vudvordun verdiyi bəyanatlar onu göstərir ki, biz əməli işə başlayırıq, bu əməli iş də uğurla həyata keçiriləcək və 2004-cü ildə "Bakı–Tbilisi–Ceyhan" əsas ixrac neft kəməri ilə Xəzər dənizinin nefti Aralıq dənizinə axacaqdır. Biz buna inanırıq. Biz hamımız birlikdə: Türkiyə, Gürcüstan, Azərbaycan, xarici neft şirkətləri, onların təmsil etdikləri dövlətlər Amerika Birləşmiş Ştatlarının dəstəyi ilə bu proqramı da gələcəkdə uğurla həyata keçirəcəyik.

Bizim bu işlərimizə maneçilik törədənlərə: həm daxildə, həm xaricdə – mən bildirmək istəyirəm ki, qoy onlar müstəqil Azərbaycan dövlətinin son illər, son 7 ildə keçirdiyi ağır, çətin, amma çox uğurlu yolu düzgün qiymətləndirə bilsinlər və özlərinə nəticə çıxarsınlar.

Biz bütün bu işləri Azərbaycanın iqtisadiyyatını inkişaf etdirmək üçün edirik. Biz bütün bu işləri Azərbaycan xalqının rifah halını yaxşılaşdırmaq üçün edirik. Biz bütün

bu işləri Azərbaycana parlaq gələcək yaratmaq üçün edirik. Biz bütün bu işləri müxtəlif dövlətlərlə uzunmüddətli əməkdaşlıq üçün edirik. Ona görə də mən inanıram ki, bizim bütün bu işlərimiz uğurla həyata keçiriləcəkdir.

Mən bu sənədlərin imzalanması münasibətilə Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətini, Azərbaycan Dövlət Neft Şirkətini, Azərbaycan dövlətini, hökumətini, bütün Azərbaycan xalqını təbrik edirəm.

Biz estafeti Gürcüstana, sonra isə Türkiyəyə veririk. Mən cənab Vudvorddan xahiş edirəm ki, bizim salamlarımızı, mənim xüsusi salamımı, hörmət və ehtiramımı Gürcüstanın prezidenti, mənim dostum Eduard Şevardnadzeyə və bütün gürcü xalqına çatdırasınız.

Bizim salamlarımızı və xoş arzularımızı Türkiyə Cümhuriyyətinin prezidenti hörmətli Əhməd Necdət Sezərə, Türkiyə Cümhuriyyətinin Baş naziri hörmətli Bülənd Ecevitə, qardaş türk xalqına çatdırasınız.

Mən hamınızı bir daha təbrik edirəm və bu yolda hamıya uğurlar arzulayıram.

**Əliyev Heydər Əlirza oğlu.** *Müstəqilliyimiz əbədidir: 30-cu kitab.*
*Bakı: Azərnəşr, 2000.- S. 107-109*

## "BAKI–TBİLİSİ–CEYHAN" ƏSAS İXRAC BORU KƏMƏRİNİN TƏMƏLİNİN QOYULMASI MƏRASİMİ[1]

*18 sentyabr 2002-ci il*

Azərbaycan paytaxtı yaxınlığındakı Səngəçal sahil terminalında "Bakı–Tbilisi–Ceyhan" əsas ixrac boru kəmərinin təməlinin qoyulması münasibətilə təntənəli mərasim keçirilmişdir.

Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev, Türkiyə Respublikasının prezidenti Əhməd Necdət Sezər, Gürcüstanın prezidenti Eduard Şevardnadze mərasimdə iştirak etmişlər.

Amerika Birləşmiş Ştatlarının Energetika naziri Spenser Abraham, eləcə də bir çox xarici ölkələrdən gəlmiş qonaqlar da mərasimdə iştirak edirdilər. Prezidentlər və ABŞ-ın Energetika naziri mərasimdən əvvəl avtobusa əyləşərək, Səngəçal terminalının indiki və gələcək ərazisi ilə tanış oldular.

Ali qonaqlara məlumat verildi ki, tikintisinə 1996-cı ildə başlanmış bu terminalın indiki ərazisi 255 hektardır. "Çıraq-1" platformasından sualtı boru kəməri ilə vurulan neft bu terminala qəbul olunur və texniki emaldan keçirilir. Terminalda ümumi tutumu 32 min kubmetr olan 4 çən quraşdırılmışdır. Dəniz yatağından qəbul edilən neft texniki emaldan sonra bu çənlərə – sonra isə nasoslar vasitəsilə ixrac sisteminə vurulur. Hazırda terminalda iki Qərb və Şimal ixrac sistemləri var. İndi, əsasən, Qərb ixrac sistemindən istifadə olunur.

Terminalda quraşdırılmış iki qaz-turbin generatoru onu elektrik enerjisi ilə təmin edir.

Prezidentlərə terminalın gələcək perspektivləri barədə də məlumat verildi. Bildirildi ki, terminalın gücünü artırmaq məqsədi ilə burada tikinti işləri aparılır. Hazırda terminal gündə 140 min barrel xam neft qəbul edə bilir. Gələn ildən etibarən bu, 180 min barrelə çatdırılacaqdır. İndi terminalda aparılan tikinti işlərinə min nəfərə yaxın yerli vətəndaş cəlb olunubdur.

[1] Mərasimdə Milli Məclisin sədri Murtuz Ələsgərov, Baş nazir Artur Rasizadə, Prezidentin İcra Aparatının rəhbəri Ramiz Mehdiyev, Milli Məclis sədrinin və Baş nazirin müavinləri, nazirlər, konsern və şirkətlərin rəhbərləri, xarici ölkələrin Bakıdakı səfirləri, beynəlxalq təşkilatların Azərbaycandakı nümayəndələri və digər rəsmi şəxslər iştirak edirdilər.

Ali qonaqlara mərkəzi idarəetmə məntəqəsi də göstərildi, onun funksiyası və texniki göstəriciləri barədə məlumat verilərək bildirildi ki, terminalda bütün proseslər buradan idarə olunacaqdır.

Belə bir fakt da vurğulandı ki, bütün tikinti işləri qurtardıqdan sonra terminalın ərazisi 800 hektara çatacaq, gündəlik gücü isə 800 min barreldən çox olacaqdır. Beləliklə, o, dünyada ən böyük terminallardan birinə çevriləcəkdir.

**Natiq Əliyev** (*Azərbaycan Dövlət Neft Şirkətinin prezidenti*): Zati-aliləri, Azərbaycan Respublikasının hörmətli prezidenti Heydər Əliyev!

İcazənizlə, bugünkü mərasimi açıq elan edirəm və bildirmək istəyirəm ki, bu tədbirə müxtəlif ölkələrdən çoxsaylı qonaqlar gəlmişdir. Onlar bizimlə tərəfdaş ölkələrin təmsilçiləridir. Ancaq ən böyük qürur hissini ona görə keçiririk ki, bu gün bizimlə bir yerdə sevincimizi bölüşməyə Türkiyə Cümhuriyyətinin prezidenti hörmətli Əhməd Necdət Sezər gəlibdir. Gəlin onu salamlayaq. Azərbaycan Respublikasının, həmişəki kimi, ən əziz qonağı Gürcüstan prezidenti hörmətli Eduard Şevardnadze gəlibdir, onu salamlayaq.

Bizim layihələrə həmişə dəstək verən, siyasi cəhətdən bunu dəstəkləyən Amerika Birləşmiş Ştatları olubdur. Bu gün mərasimə Amerika Birləşmiş Ştatlarının Energetika naziri cənab Spenser Abraham da buyurubdur. Gəlin onu da salamlayaq.

İndi isə bu böyük layihənin əsl memarı, hamımızın sevimlisi olan Azərbaycan Respublikasının prezidenti hörmətli Heydər Əliyevdən xahiş edək ki, öz sözünü desin.

### AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN NİTQİ

Türkiyə Cümhuriyyətinin prezidenti zati-aliləri hörmətli Əhməd Necdət Sezər!

Gürcüstanın prezidenti zati-aliləri hörmətli Eduard Şevardnadze!

Amerika Birləşmiş Ştatlarının Energetika naziri hörmətli Spenser Abraham!

Hörmətli xanımlar və cənablar, qonaqlar!

Mən sizin hamınızı Azərbaycanda səmimi-qəlbdən salamlayıram və bu böyük əhəmiyyət kəsb edən layihənin həyata keçirilməsi münasibətilə bura toplaşanlara təşəkkür edirəm.

Bizim hamımızı, o cümlədən uzaq ölkələrdən Azərbaycana gəlib bu gün bizimlə birlikdə bu şənliyi bölüşənləri buraya toplayan "Bakı–Tbilisi–Ceyhan" əsas ixrac boru kəmərinin inşasına başlanması üçün təməl daşının atılması mərasimidir. Bu böyük layihə artıq bütün dünyada məşhurdur və dünya ictimaiyyəti bir çox illərdir ki, bu layihəni müzakirə edir.

Bu layihənin əsası 1994-cü ildə Azərbaycanın neft strategiyasının həyata keçirilməsinin başlanğıcında, 1994-cü il sentyabr ayının 20-də Azərbaycanda, Bakıda Xəzər dənizinin

Azərbaycan sektorunda olan "Azəri", "Çıraq", "Günəşli" yataqlarının müştərək işlənilməsi üçün Azərbaycan Dövlət Neft Şirkəti ilə dünyanın 11 böyük neft şirkəti arasında müqavilə imzalanarkən qoyulmuşdur. Bu müqavilə dünyaya səs saldı və təsadüfi deyildir ki, ona "Əsrin müqaviləsi" adı verildi. Biz bu müqaviləni imzalayarkən, təbiidir ki, "Azəri–Çıraq–Günəşli" yataqlarından gələcəkdə ildə 50 milyon tondan artıq neft hasil edilməsini nəzərdə tutmuşduq. Ancaq hasil olan neft dünya bazarlarına çıxarılmalıdır. Bunun üçün müxtəlif yollar var idi, müxtəlif marşrutlar var idi. Ancaq biz Azərbaycan olaraq öz dostlarımızla: Türkiyə Cümhuriyyəti ilə, Gürcüstanla və təbiidir ki, bu layihədə iştirak edən şirkətlərlə birlikdə gələcəkdə hasil olunacaq nefti "Bakı–Tbilisi–Ceyhan" boru xətti ilə Türkiyənin Aralıq dənizindəki Ceyhan limanına çatdırmağı qərara aldıq.

Bu qərarın özü də çox mübahisələr doğurdu. Çünki o vaxt həm bizim imzaladığımız müqaviləyə qarşı çıxış edənlər, həm də boru xəttinin məhz "Bakı–Tbilisi–Ceyhan" marşrutu ilə getməsinin əleyhinə çıxanlar var idi. Bunlar məlumdur. Bizə, yəni birinci növbədə Azərbaycana mane olurdular. Çünki neftin sahibi bizik və nefti də haradan ixrac etmək birinci növbədə, bizim hüququmuz idi. Bizə çox təzyiqlər etdilər. O vaxt Azərbaycanda ictimai-siyasi vəziyyət o qədər də sabit deyildi. 1993-cü ildə burada vətəndaş müharibəsi baş vermişdi. Biz onların qarşısını aldıq və müqaviləni imzaladıq. Ancaq müqaviləni imzalayanda hətta bizim daxilimizdə belə, yüksək vəzifəli şəxslər var idi ki, onlar müxtəlif xarici xidmət orqanlarına qulluq edirdilər, bu müqavilənin pozulması haqqında öz fikirlərini söyləmişdilər.

Bunu demək sizin üçün maraqlıdır. Çünki 1994-cü il sentyabrın 20-də biz müqaviləni imzaladıq. Ondan bir gün sonra Azərbaycanın Milli Təhlükəsizlik Nazirliyinin təcrid-xanasından böyük cinayət etmiş 4 nəfəri qaçırdılar. Ondan bir həftə keçdi, Azərbaycan parlamenti sədrinin müavininə terror etdilər, onu öldürdülər. Azərbaycanın əks-kəşfiyyat idarəsinin rəisini, polkovniki öldürdülər. Bu terrorlarla bizi qorxutmaq istədilər. Ancaq biz qorxmadıq. Onlar isə bu işlərini davam etdirirdilər. O vaxt məcburiyyət qarşısında mənimlə burada Baş nazir vəzifəsində çalışan Surət Hüseynov kimi bir şəxs oktyabr ayının 4-də Azərbaycanda silahlı dövlət çevrilişi etməyə başladı. Biz bunun qarşısını aldıq. Birinci növbədə, xalqın bizə dəstəyi ilə, xalqın köməyi ilə. 1995-ci ilin mart ayında yenidən silahlı dövlət çevrilişi etmək istədilər, qarşısını aldıq. Ondan sonra bəzi yerlərdə terror aktları törətmək, körpünü partlatmaq, təxribat etmək istədilər. Zərər çəkdik, amma qarşısını aldıq.

Bilirəm ki, məhz o zaman, "Bakı–Tbilisi–Ceyhan" layihəsi irəliyə sürüləndə mənim dostum Gürcüstan prezidenti Eduard Şevardnadzeyə terror etdilər və o, möcüzə sayəsində sağ-salamat qurtardı.

Bütün bunların hamısı və bizə göstərilən başqa siyasi təzyiqlər, müxtəlif təsirlər ona yönəldilmişdi ki, birincisi, bizim neft müqaviləsini – bu işə Xəzər dənizində ilk dəfə

başladıq – qəbul etmək istəmirdilər. İkincisi isə, "Bakı–Tbilisi–Ceyhan" boru xəttinin çəkilməsinin əleyhinə çıxırdılar. Belə bir şəraitdə biz bunu başladıq, öz iradəmizi ortaya qoyduq və əvvəldən tutduğumuz yol ilə getdik.

1999-cu ildə "Çıraq" yatağından ilk neft aldıq. Biz onu əvvəl Bakı-Novorossiysk kəməri ilə, Rusiyanın Qara dənizdəki Novorossiysk limanı vasitəsilə nəql edirdik. Ancaq bununla bərabər, biz Qərb marşrutu ilə Bakı-Supsa neft kəmərini tikirdik və onu tezliklə istifadəyə verdik. İndi o vaxtdan indiyə qədər hasil edilən neft məhz bu kəmərlə – Qərb xətti ilə nəql olunur.

Ancaq bunların hamısı ilkin neftdən ötrü idi. Bizim nəzərdə tutduğumuz böyük neft üçün isə, yenə də deyirəm, "Bakı–Tbilisi–Ceyhan" lazım idi. Biz ardıcıl surətdə bu layihənin üzərində işləyirdik, çalışırdıq, bütün imkanlarımızdan istifadə edirdik. Türkiyə, Gürcüstan, Azərbaycan burada bərabər idi, birlikdə hərəkət edirdi, bu işlə birlikdə məşğul idi. Ancaq əgər Amerika Birləşmiş Ştatları hökumətinin bizə, Azərbaycana bu barədə köməyi, daimi dəstəyi, məsləhətləri olmasaydı, təbiidir ki, biz buna nail ola bilməzdik.

Təsadüfi deyil ki, 1999-cu ilin noyabr ayında İstanbulda, ATƏT-in zirvə görüşündə biz – Türkiyə, Gürcüstan, Azərbaycan və Qazaxıstan "Bakı–Tbilisi–Ceyhan" əsas ixrac neft kəmərinin inşasına başlamaq üçün anlaşma imzaladıq. Bundan əlavə, bəyanat imzaladıq və Amerika Birləşmiş Ştatlarının prezidenti Bill Klinton öz dövləti adından bu bəyanata qoşuldu, öz imzasını qoydu. Bu da "Bakı–Tbilisi–Ceyhan" boru xəttinin tikilməsinin reallığına gətirib çıxartdı.

Mən bu qısa tarixi sizə deməliyəm. Çünki bilməlisiniz ki, burada 8 il müddətində biz nə işlər görmüşük və hansı çətinliklərdən çıxmışıq, hansı müqavimətlərin, maneələrin qarşısını almışıq.

Nəhayət, son dövrdə "Bakı–Tbilisi–Ceyhan" boru xəttinin inşa edilməsi haqqında bir neçə aydır proseslər gedir. Onun maliyyələşdirilməsi məsələsində də problemlər var idi. Ancaq onlar da həll olundu. İndi Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti, *"BP"* bu işlərə başçılıq edir. Onlar artıq bütün planları hazırlayıblar. Ona görə də bizi buraya təməl daşının qoyulmasına dəvət ediblər.

Mən sizə bildirmək istəyirəm ki, "Bakı–Tbilisi–Ceyhan" boru xəttinin əleyhinə çıxanlar çox vaxt belə söyləyirdilər ki, bu, xəyaldır, mümkün deyil, Azərbaycanda o qədər neft yoxdur, olmayacaqdır. Belə danışıqlar çox idi. Zaman çox keçdiyinə görə bəziləri də bu danışıqlara inanırdılar. Ancaq bunların hamısı əsassız oldu, biz öz işimizi gördük.

Bu yaxın vaxtlarda İstanbulda "Üç dənizin əfsanəsi" adlı konfrans keçirildi. Orada əfsanə haqqında söhbət gedirdi. Mən orada nitq söylədim, dedim, siz burada əfsanədən danışırsınız. Amma mən sizə demək istəyirəm ki, bu, xəyal deyil, əfsanə deyil, üç dəniz: Xəzər dənizi, Qara dəniz, Aralıq dənizi birləşəcəkdir. Bunu birləşdirən də Türkiyə,

Gürcüstan, Azərbaycan, onların həyata keçirdikləri bu layihə və Amerika Birləşmiş Ştatlarının bu məsələyə daimi dəstəyi olmuşdur. Ona görə indi xəyaldan gerçəkliyə gəlib çatmışıq.

Buraya nə qədər vəsait qoyulacaq, nə işlər görüləcəyi barədə sizə məlumatlar veriləcəkdir. Mən bunu demək istəmirəm. Ancaq onu demək istəyirəm ki, bütün bu layihələr Azərbaycanın iqtisadiyyatının inkişafına yönəldilibdir. Bu gün burada "Azəri"-"Çıraq"-"Günəşli" yataqlarının işlənilməsinin ikinci fazası haqqında da sənəd imzalanacaqdır. Bu o deməkdir ki, artıq buraya çox böyük investisiya gələcək, işlər sürətlə gedəcəkdir. Çünki biz hesab edirik ki, 2005-ci ildə "Bakı–Tbilisi–Ceyhan" əsas ixrac neft kəməri tamamilə hazır olacaq və biz hamımız birlikdə buradan Türkiyənin Ceyhan limanına gedəcək və orada Azərbaycan neftinin, Xəzər neftinin Ceyhan limanından yola salınmasının şahidi olacağıq.

Dediyim kimi, "Bakı–Tbilisi–Ceyhan" layihəsinin maliyyələşdirilməsində bəzi problemlər var idi. Azərbaycan bu işə öz payını verdi, biz onun maliyyələşdirilməsinin 25 faizini öz üzərimizə götürdük. Qalan hissəsi ayrı-ayrı şirkətlər arasında bölünübdür. Ancaq maraqlısı budur ki, bu layihəyə 2,5 faizlə "Eni" şirkəti qoşulubdur. Sonra "Total" şirkəti qoşulubdur. Mənə bu gün dedilər ki, 2,5 faizlə Yaponiyanın "İtoçu" şirkəti qoşulubdur və bir də Yaponiyanın "İmpeks" şirkəti məhz dünən 2,5 faizlə buna qoşulubdur. Bu nə deməkdir? O deməkdir ki, bu boru xəttindən təkcə Azərbaycan yox, hamı istifadə etmək istəyir.

Biz vaxtilə İstanbulda anlaşmanı imzalayanda ona Qazaxıstan prezidenti Nursultan Nazarbayev də imzasını qoyub və bildiribdir ki, Qazaxıstan da bu boru xəttindən istifadə edəcəkdir. İndi mən bilirəm ki, xarici şirkətlər Qazaxıstanda çox işləyirlər. Onların bizim "Bakı–Tbilisi–Ceyhan" layihəsinə qoşulması və sərmayə qoyması onu göstərir ki, doğrudan da, Xəzərin başqa sektorlarından neft "Bakı–Tbilisi–Ceyhan" kəməri ilə ixrac olunacaqdır.

Ancaq mən sizə deyirəm ki, təxminən 2007-2008-ci illərdə "Azəri–Çıraq–Günəşli" yataqlarından 50 milyon ton neft hasil olunacaqdır. Ancaq Xəzər dənizində bizim başqa yataqlarımız da var. Biz bir çox şirkətlərlə əməkdaşlıq edirik. 30 ölkənin şirkətləri ilə 21 müqavilə imzalamışıq, iş aparırıq. Əlbəttə, onlar da neft hasil edəcəklər. Biz onlarla birlikdə çalışırıq. Ona görə gələcəkdə hətta "Bakı–Tbilisi–Ceyhan"ın tutumu çatmayacaqdır. Ya onu genişləndirmək, ya da ikinci boru lazım olacaqdır.

Mənim dediyim bu sözlər gələcək üçündür və bu işlər bizim xalqlarımızın gələcəyi üçündür. Bizim bu işlərimiz yalnız və yalnız Azərbaycanın dövlət müstəqilliyi əldə etməsindən sonra mümkün olubdur. Siz bilirsiniz ki, Azərbaycan qədim neft ölkəsidir.

150 il bundan öncə Azərbaycanda sənaye üsulu ilə neft hasilatına başlanıbdır. Ancaq heç vaxt neft Azərbaycan xalqına məxsus olmayıbdır. Xəzər dənizindəki bütün neft və qaz yataqlarının hamısı Azərbaycan alimləri, geoloqları tərəfindən kəşf edilib, ancaq biz bunun sahibi olmamışıq. İndi isə müstəqil dövlətik. Müstəqil dövlət olaraq öz sərvətlərimizin sahibiyik. İstədiyimiz ölkələr ilə əlaqələr qururuq və belə işlər görürük. Amma ikinci boru da növbədədir. 1 trilyon kubmetr ehtiyatı olan "Şahdəniz"yatağından "Bakı–Tbilisi–Ərzurum" qaz kəməri də çəkiləcəkdir.

Beləliklə, boru kəmərlərinin sayı artır. Təbiidir ki, bunlar çox böyük iqtisadi xarakter daşıyır. Ancaq təkcə iqtisadi deyil, hesab edirik ki, bizim gördüyümüz işlər, "Bakı–Tbilisi–Ceyhan" siyasi xarakter daşıyır. Bu layihə və onun həyata keçirilməsi Qafqaz bölgəsində sülhün, əmin-amanlığın, təhlükəsizliyin təminatçısı ola bilər. Bu boru xətti, bu polad boru Azərbaycanı, Gürcüstanı, Türkiyəni bir-biri ilə daha sıx birləşdirəcəkdir.

Biz dost ölkələrik. Türkiyə bizim üçün dost, qardaş ölkədir. Gürcüstan bizim üçün dost, qardaş ölkədir. Eləcə də biz onlar üçün dost, qardaş ölkəyik. Biz çox əlaqələr saxlayırıq. Ancaq bu əlaqələrimizi, necə deyərlər, daha möhkəm tellərlə bağlayırıq. Bu tellərdən biri də "Bakı–Tbilisi–Ceyhan" kəməri olacaqdır. Mən şübhə etmirəm ki, Amerika Birləşmiş Ştatları bu məsələlərdə bizi bundan sonra da dəstəkləyəcəkdir. Ona görə mən bu mərasimdə Türkiyə Cümhuriyyətinə, onun prezidenti hörmətli Əhməd Necdət Sezərə təşəkkür edirəm. Gürcüstana, onun prezidenti hörmətli Eduard Şevardnadzeyə təşəkkür edirəm. Amerika Birləşmiş Ştatlarına, onun prezidenti cənab Corc Buşa təşəkkür edirəm.

Mən bu yaxınlarda cənab Corc Buşdan antiterror koalisiyasında Azərbaycanın fəaliyyətini yüksək qiymətləndirən çox xoş bir məktub aldım. Biz ötən il sentyabrın 11-də ABŞ-da baş vermiş dəhşətli terror hadisəsindən dərhal sonra antiterror koalisiyasına qoşulmuşuq, bu koalisiyada öz vəzifəmizi yerinə yetiririk və bundan sonra da yerinə yetirəcəyik. Beləliklə, biz bu sahədə də Amerika-Azərbaycan əlaqələrini inkişaf etdiririk, daha da yüksəklərə qaldırırıq.

Dünən hörmətli nazir ilə söhbət edəndə o, prezident Buşdan mənə səmimi salamlar, çox xoş sözlər çatdırdı. Bütün bunlara görə, ümumiyyətlə, "Bakı–Tbilisi–Ceyhan" boru xəttinin reallaşmasına dəstəyinə görə Amerika Birləşmiş Ştatlarına, onun xalqına və prezident cənab Buşa təşəkkürümü bildirirəm.

Əziz dostlar!

Əziz qonaqlar!

Mən sizi bir daha ürəkdən salamlayıram, hamınıza cansağlığı arzu edirəm. "Bakı–Tbilisi–Ceyhan" irəliyə gedəcək, gedəcək, gedəcəkdir!

**TÜRKİYƏ PREZİDENTİ ƏHMƏD NECDƏT SEZƏRİN NİTQİ**

Hörmətli cümhur başqanları!

Hörmətli nazirlər, dəyərli qonaqlar!

"Bakı–Tbilisi–Ceyhan" əsas ixrac boru kəmərinin təməlinin qoyulması mərasimində iştirak etməkdən böyük qürur duyuram. Bu tarixi gündə qardaş Azərbaycanı iki illik fasilədən sonra yenidən ziyarət etməkdən də böyük məmnunluq duyduğumu bildirmək istəyirəm.

Şərq–Qərb enerji dəhlizi çərçivəsində "Bakı–Tbilisi–Ceyhan" neft boru kəməri, "Bakı–Tbilisi–Ərzurum" qaz kəməri layihələri və digər layihələr həyata keçirilməkdədir. Şərq–Qərb enerji dəhlizi Xəzəryanı ölkələrin neft və qaz ehtiyatlarının dünya bazarlarına sabit şəkildə, təhlükəsiz çatdırılmasını təmin edəcəkdir. Bu layihələrin həyata keçirilməsinə başlanıldığı vaxtlarda hamımız bunu xəyal kimi qəbul edirdik. Ancaq Türkiyə, Azərbaycan və Gürcüstan müttəfiqlərinin dəstəyi ilə Xəzər dənizinin enerji sərvətlərini Qərbə daşıyacaq Şərq-Qərb enerji dəhlizini təmin etmək üçün hər cür işləri görmüşlər, fəaliyyətlərini inancla, qətiyyətlə göstərmişlər.

Bizim bu qərarımız və qətiyyətimiz artıq bu gün bəhrəsini vermişdir. Dostum hörmətli Heydər Əliyevin "Üç dənizin əfsanəsi" konfransında önəmli çıxışı zamanı bildirdiyi kimi, "Bakı–Tbilisi–Ceyhan" artıq əfsanəliyindən çıxmış, gerçəkliyə çevrilmişdir. Bəli, indi Şərq-Qərb eneji dəhlizi layihəsi geri dönülməz nöqtəyə çatmışdır. Bundan sonra bölgəmizin inkişafına və xalqlarımızın gücünə söykənən yeni əfsanələr tapmalı, bunları reallığa çevirmək üçün birlikdə çalışmalıyıq.

Qafqazda və Xəzər dənizində yeni işbirliyinə başladığımız bu tarixi gündə dostlarım hörmətli Heydər Əliyev və hörmətli Edurad Şevardnadze başda olmaqla, üç ölkənin hökumətlərinin dəyərli rəhbərlərinə, Amerika Birləşmiş Ştatlarının hökumətinə, Azərbaycanın Dövlət Neft Korporasiyasına, Gürcüstanın Beynəlxalq Neft Şirkətinə, Türkiyənin "Botaş" şirkətinə, "Bakı–Tbilisi–Ceyhan" əsas ixrac boru kəmərini həyata keçirən digər şirkətlərə, xüsusilə bu layihəyə əvvəldən inancla dəstək verən ARDNŞ, "Türkiyə Petrolları Anonim Şirkəti"nə, "BP", "Statoyl", "Yunokal", "İtoçu" şirkətlərinə, Şərq-Qərb enerji dəhlizinin həyata keçirilməsində əməyi olan bütün insanlara ürəkdən təşəkkürümü bildirirəm. "Eni" və "Total" şirkətlərinin bu layihəyə qoşulmalarının da böyük məmnunluq doğurduğunu vurğulamaq istəyirəm.

Türkiyə lap əvvəldən Xəzər neftnin və təbii qazının Türkiyə üzərindən Qərb bazarlarına daşınmasının iqtisadi, siyasi və strateji cəhətdən bölgə ölkələri və özü üçün ən doğru seçim olduğunu bildirmiş və bu sahədə böyük fəaliyyət göstərmişdir. Bu layihələrin həyata keçirilməsi, bir tərəfdən, Qafqaz və Orta Asiya ölkələri ilə dünya bazarları arasında

Türkiyə üzərindən keçən təhlükəsiz enerji körpüsü yaradacaq, digər tərəfdən isə, Türkiyə ilə Qərbin enerji təhlükəsizliyini artıracaqdır.

Bölgəmiz üçün başqa bir önəmli cəhət "Bakı–Tbilisi–Ceyhan" əsas ixrac boru kəmərinin ən təhlükəsiz yolla Türkiyə üzərindən keçməsidir. Tarixi İpək Yolunun yenidən bərpa edilməsi layihəsinin də Xəzər hövzəsində yerləşən ölkələr üçün əhəmiyyəti çox böyükdür. Xəzəryanı ölkələr ilə Qərb arasında ticarət körpüsü və siyasi körpü rolunu oynayan bu layihələr bölgə ölkələrinin Qərbə qovuşması üçün önəmli əhəmiyyət daşıyacaqdır.

Bu gün təməlini qoyacağımız "Bakı–Tbilisi–Ceyhan" əsas ixrac boru kəmərinə qoşulması üçün Qazaxıstan hökumətinin fəaliyyətinin uğurla nəticələnəcəyinə inanıram. Qazaxıstan və Türkmənistan Şərq-Qərb enerji dəhlizi layihəsində yer almaqla, Xəzəryanı ölkələrin Qərb iqtisadiyyatına qovuşmasına yardımçı olacaqlar. Qazaxıstanın "Bakı–Tbilisi–Ceyhan" layihəsinə, daha sonra isə Türkmənistanın və Özbəkistanın "Bakı–Tbilisi–Ərzurum" layihələrinə qoşulmaları bölgədə işbirliyinin inkişafı baxımından böyük önəm daşımaqdadır.

Hörmətli cümhur başqanları!

Hörmətli nazirlər!

Dəyərli qonaqlar!

Türkiyə enerji strategiyasını, təhlükəsizliyini diqqətlə həyata keçirməkdədir. Azərbaycanın qazı istər təbii qaz ehtiyatlarımızın artırılması, istərsə də enerji təhlükəsizliyimizin təminatı baxımından strateji önəm daşıyacaqdır. Bu məqsədlə "Bakı–Tbilisi–Ərzurum" boru xəttinin tamamlanmasına, Azərbaycan qazının Türkiyəyə çatdırılmasına xüsusi əhəmiyyət veririk.

Bu fürsətdən istifadə edərək, Türkiyənin bütün qonşu ölkələrdən gələcək qaz kəmərləri üçün keçid yolu olduğunu diqqətə çəkmək istəyirəm. Türkiyə qısa müddət içində Cənubi Avropaya qaz verilməsində tranzit ölkə rolunu oynayacaqdır. Bununla əlaqədar 2002-ci il martın 28-də Türkiyənin "Botaş" və Yunanıstanın "Depo quruluşu" şirkətləri arasında bir anlaşma imzalanmışdır. Bu layihə ilə bağlı hüquqi sənədlər 2002-ci ilin üçüncü rübündə tamamlanacaqdır. Avropa Birliyi Komissiyasının da dəstəklədiyi bu layihə ilə Türkiyə yaxın gələcəkdə Avropanın təbii qazla təminatı üçün, Rusiya, Əlcəzair və Norveçdən sonra, mühüm rolunu oynayacaqdır.

Bir sözlə, boru xətti layihələrinin həyata keçirilməsi regional işbirliyinin qurulmasına, Azərbaycan, Gürcüstan və Türkiyənin iqtisadi inkişafının güclənməsinə, siyasi sabitliyin və demokratiyanın qorunmasına xidmət edəcək və beləliklə, bölgədə və dünyada sülh işinə də kömək edəcəkdir. Bu layihələrin həyata keçirilməsi ilə Azərbaycan, Gürcüstan və Türkiyə arasında yüksək səviyyəyə qalxan çox mühüm, möhkəm, dayanıqlı əlaqələr zəncirinə yeni güclü həlqələr əlavə ediləcəkdir.

Bu duyğu və düşüncələrlə başda hörmətli Əliyev və hörmətli Şevardnadze olmaqla, Şərq-Qərb enerji dəhlizinin gerçəkliyə çevrilməsində əməyi olan hər kəsi bir daha salamlayır, fəaliyyətləri sayəsində siyasi qətiyyətlərini, yolgöstərici xidmətlərini ortaya qoyan Türkiyə Cümhuriyyətinin məndən öncəki cümhur başqanları mərhum Turqut Özalı və hörmətli Süleyman Dəmirəli hörmət və ehtiram duyğuları ilə anıram. Bu böyük layihələrin Azərbaycan, Gürcüstan və Türkiyə xalqları arasındakı dostluq və qardaşlığın daha da möhkəmləndirilməsini, bölgəmizə sülh və əmin-amanlıq gətirməsini diləyirəm.

**GÜRCÜSTAN PREZİDENTİ EDUARD ŞEVARDNADZENİN NİTQİ**

Cənab prezident Heydər Əliyev!
Cənab prezident Əhməd Sezər!
Amerikanın cənab Energetika naziri!
Xanımlar və cənablar, qonaqlar, övladlarımız!

İndi burada baş verənləri bizim gələcək nəsillərimiz görür və minnətdarlıq hissi ilə xatırlacayaqlar. XXI əsr "Bakı–Tbilisi–Ceyhan" əsas ixrac boru kəmərinin tikintisi ilə başlandı. Bu, Azərbaycan, Türkiyə və Gürcüstan dövlətlərinin çoxəsrlik tarixində son dərəcə əhəmiyyətli hadisələrdəndir. Müstəqillik əldə etdikdən ötən 10 ildə Gürcüstan üçün bu, ən böyük nailiyyətlərdəndir. Mənə icazə verin, bu təntənənin səbəbkarına, ümumiyyətlə, bu mühüm layihənin əsas yaradıcısına, Azərbaycan xalqının tanınmış liderinə, xalqımın əsl dostuna, qardaşım Heydər Əliyevə bu sevincli gündə gürcü xalqı adından dərin minnətdarlığımı bildirim. Dəfələrlə demişəm, yaddaşlardan silinməsin deyə bir daha təkrar edirəm – prezident Heydər Əliyevin qəhrəmanlığı, müdrikliyi, mətanəti və qarşısına qoyduğu məqsədinə sarsılmaz sədaqəti olmasaydı, Şərq-Qərb enerji dəhlizi gerçəkləşə bilməzdi.

Bizim bədxahlarımız da məhz bunu istəyirdilər. Ona görə də təxribat aktlarından belə çəkinmirdilər. Ancaq onlar öz məqsədlərinə onda nail ola bilmədilər və gələcəkdə də nail ola bilməyəcəklər.

İcazə verin, prezident Sezərə atəşin salamlarımı yetirim. Şərq-Qərb enerji dəhlizinin tikintisində Türkiyənin rolu mühümdür. O, bölgənin lider dövləti kimi, tarixi vəzifə daşıyır. Onun bu vəzifəsi Azərbaycan və gürcü xalqlarının Avroatlantik məkanına, Dünya Birliyinə inteqrasiyasında öz təzahürünü tapır.

Yeni Böyük İpək Yolu ideyası yarandığı gündən bölgədə həmin ideyanın həyata keçirilməsini təmin edəcək əsas qüvvə məhz Türkiyə oldu. Şərq-Qərb enerji dəhlizini mən yeni Böyük İpək Yolunun onurğası adlandırardım. Qafqaz və Mərkəzi Asiya dövlətlərinin

möhkəmlənməsi, azad seçimə əsaslanan inkişaf yolu ilə getmək imkanı məhz bundan asılıdır. Müasir dünyada bunu Amerika Birləşmiş Ştatları kimi dərindən dərk edənlər azdır. Bu layihəni və bir çox başqa layihələri açıq və gizli maneələrdən keçirən həlledici amil məhz dünyanın lideri olan həmin dövlətin dəstəyidir. Həmin layihələrə qarşı əvvəldən olan şübhələrə baxmayaraq, o öz beynəlxalq sanbalı və nüfuzu ilə bu layihələrin uğurunu təmin etmişdir.

Zərrə qədər şübhə etmirəm ki, "Bakı–Tbilisi–Ceyhan" və "Bakı–Tbilisi–Ərzurum" boru kəmərləri prezident Buşun dəstəyi sayəsində yaxın vaxtlarda istismara veriləcək, Qara dəniz və Xəzər dənizi hövzəsində həyata keçirilən ən uğurlu layihələr olacaqdır.

Avropa Birliyinin rolunu xüsusi qeyd etməyə bilmərəm. Həmin birlik Böyük İpək Yolu layihəsinə həyat və dəstək verənlərdəndir. Əgər 1990-cı illərdə həmin layihəyə qarşı hökm sürən bədbinlikdən söz açırıqsa, onda onu da deməliyik ki, həmin şübhələrin aradan qaldırılmasında Avropa Birliyinin, onun rəhbərlərinin, onun üzvü olan ölkələrin, ələlxüsus da Almaniya, Böyük Britaniya və Fransanın rolu əvəzsizdir.

Əsas ixrac boru kəmərində iştirak edən şirkətləri salamlayıram. Bugünkü tarixi hadisə onların yorulmadan çalışmalarının və fasiləsiz zəhmətlərinin bəhrəsidir. Yüksək peşəkarlıq nümunəsi göstərən, əsas ixrac boru kəmərinin tikintisinin uğurla başa çatmasının və uğurlu istismarının zəminini təşkil edən şirkətlərin rəhbərlərinə, onların bütün əməkdaşlarına öz dərin təşəkkürümü bildirmək istəyirəm.

Şərq-Qərb enerji dəhlizinə Qazaxıstanın qoşulmasına regional əməkdaşlıq prinsipləri baxımından böyük əhəmiyyət verirəm. Bu barədə həm Heydər Əliyev, həm də Əhməd Sezər qeyd etmişlər. Həmin proses artıq praktiki olaraq başlanmışdır. Onun daha da inkişaf etməsinə Gürcüstan da təkan verəcəkdir. Biz hər cür imkan yaradacağıq ki, qardaş Ukrayna, Rumıniya, Bolqarıstan və Avropanın başqa ölkələri həmin dəhlizin sonrakı inkişafının gözəl bəhrəsini görsünlər.

Bu gün mən təkcə vətənimin və ona dost olan ölkələrin böyük qələbəsinin iştirakçısı olduğuma görə deyil, həm də ona görə xoşbəxtəm ki, hələ 12 il bundan öncə Vladivastokdan Vankuvevrədək vahid Avroatlantik məkanı barədə irəli sürdüyum ideya, Böyük İpək Yolunun Avroatlantik məkanına inteqrasiyasına dair tarixi Bakı sammitinin qərarları göz önündə gerçəkləşərək həyata keçir. Bu yolda biz hamımız ilk qələbəyə indiyədək maneəsiz işləyən Bakı-Supsa boru kəməri işə salınanda nail olduq. Cəsarətlə deyə bilərəm ki, Bakı-Supsa layihəsi Qərb istiqamətinin, xüsusən də Gürcüstandan keçən marşrutun etibarlılığını, sərfəliliyini təsdiq edən "Bakı–Tbilisi–Ceyhan" layihəsinə yol açmışdır.

Xanımlar və cənablar!

Gerçəkləşməsi bu gün başlanan əsrin layihəsi bir irs olaraq bizim nəvə-nəticələrimizə qalacaqdır. Mən fəxr edirəm ki, bizim nəslimiz onlara layiqli miras qoyur. Biz birgə

qüvvəmizlə, razılaşdırılmış ahəngdar fəaliyyətimizlə, azacıq da olsa, möcüzə yaratmağa qadir olduğumuzu dünyaya göstərdik. Arzu edirəm ki, bizim birgə əməkdaşlığımız bir çox belə möcüzələr yarada bilsin.

Diqqətinizə görə təşəkkür edirəm. Sizə xoşbəxtlik arzu edirəm! Qardaş Azərbaycana tərəqqi arzu edirəm!

**ABŞ-İN ENERGETİKA NAZİRİ SPENSER ABRAHAMIN ÇIXIŞI**

Möhtərəm prezidentlər!

“Bakı–Tbilisi–Ceyhan” əsas ixrac boru kəmərinin tikintisinin ilk mərhələsinin başlanmasını bayram etmək üçün burada olmaq mənim üçün çox xoşdur. Bu, vacib tədbirdir. Bu, “Bakı–Tbilisi–Ceyhan” kəmərinin başlanğıcından xəbər verən bir tədbirdir. Prezident Əliyev, prezident Sezər və prezident Şevardnadze ilə bir yerdə olmaq çox xoşdur.

Bu, gözəl kommersiya, ticarət və mühəndis layihəsi, Xəzər dənizindən nefti Gürcüstan vasitəsilə Türkiyənin Aralıq dənizi sahilinə, Ceyhana, oradan da dünyaya daşıyacaq 1760 kilometrlik boru kəməridir.

Prezident Heydər Əliyevin Azərbaycanın əsas ixrac boru kəmərinin işçi qrupunu yaratdığı vaxtdan, yəni 1997-ci il sentyabrın 5-dən bəri bugünkü tədbirin iştirakçıları uzun yol keçmişlər. Ötən müddət ərzində prezident Heydər Əliyev neft və qaz ixrac dəhlizinə verdiyi dəstəkdən geri çəkilməmişdir. Onun boru kəmərlərinin reallığa çevrilməsində göstərdiyi uzaqgörənlik və qətiyyət bu böyük və mühüm işlərin düzgün istiqamətləndirilməsini mümkün etmişdir.

Mən, həmçinin layihənin operatoru kimi, “BP” şirkətinin xidmətlərini qiymətləndirmək istəyirəm. O, “Bakı–Tbilisi–Ceyhan” layihəsinə həyat vermək üçün özəl şirkətlərdən ibarət beynəlxalq qrupun yaradılmasında çox böyük iş görmüşdür. Mən çox məmnunam ki, Amerika Birləşmiş Ştatlarından burada “Yunokal” və “Delta Hess” şirkətləri də iştirak edirlər.

Mən dünən prezident Heydər Əliyev ilə görüşəndə demişəm və indi də bildirmək istəyirəm ki, ABŞ prezidenti cənab Buş da bu layihənin əhəmiyyətindən çox yaxşı xəbərdardır. O, prezident Əliyevə və bugünkü tədbirin iştirakçılarına bir məktub göndəribdir. Mən indi bu məktubu oxuyuram:

**TƏBRİK MƏKTUBLARI**

*"Mən Azərbaycan, Gürcüstan və Türkiyə xalqlarına və prezident Əliyevə, prezident Sezərə və prezident Şevardnadzeyə "Bakı–Tbilisi–Ceyhan" neft boru kəməri layihəsinin açılışı münasibətilə salamlarımı, təbriklərimi göndərirəm.*

*Mən çox məmnunam ki, bu mühüm layihə indi həyata keçirilir və Amerika Birləşmiş Ştatlarından iki şirkət burada iştirak edir. Regionda yerləşən ölkələrin hökumətləri və "BP"nin rəhbərlik etdiyi investorlar qrupu ilə ictimai, özəl səviyyədə sıx əməkdaşlıq qurulmuşdur və onun irəliləməsinə daha fəal töhfə verilmişdir.*

*"Bakı–Tbilisi–Ceyhan" boru kərəmi Şərq-Qərb enerji dəhlizində mərkəzi komponentdir. Buraya regiona yeni sərmayənin cəlb olunması, dünyanın enerji təhlükəsizliyinin gücləndirilməsi, Xəzər hövzəsi ölkələrinin suverenliyi və müstəqilliyinin möhkəmləndirilməsi, bu ölkələrin iqtisadi əməkdaşlığına və dünya iqtisadiyyatına inteqrasiyasına təkan verilməsi daxildir. Bu boru kəməri region ölkələrinə, habelə dünyanın digər yerlərindəki ölkələrə xeyirlər gətirəcəkdir.*

*Mən bugünkü mərasimdə iştirak edən dövlət, hökumət və şirkət rəhbərlərinə onların strateji uzaqgörənliyi və qətiyyətinə görə ən xoş sözlərimi çatdırıram. Amerika Birləşmiş Ştatları Xəzərin enerji ehtiyatlarının üzümüzə gələn uzun illər boyunca təhlükəsizliyinin gücləndirilməsinin təmin olunmasında sizinlə davamlı tərəfdaşlıq etmək əzmindədir.*

**Corc Buş**
*ABŞ prezidenti*

Baxmayaraq ki, bu boru kəməri ilə ilk neftin keçəcəyi vaxta hələ xeyli qalır, ancaq bu layihə regionun gələcəyinə əhəmiyyətli töhfələr vermişdir. Bu layihəni ərsəyə gətirərkən birgə işlədikləri zaman Azərbaycan, Gürcüstan və Türkiyə hökumətlərinin öz aralarında yaratdıqları əməkdaşlıq və etibarlılıq gələcək birgə işlərdə inkişaf üçün, yeni tərəfdaşlar üçün, regionun digər ölkələri üçün bir model ola bilər.

Biz, həmçinin özəl sektor sərmayəsinin gücünü də qiymətləndirməliyik. İnanırıq ki, hökumətlərin və özəl şirkətlərdə çalışanların birliyi qarşıdakı illərdə dünyanın hər yerində enerji ehtiyatlarının uğurlu işlənilməsi üçün mühüm amil olacaqdır. Bu cür tərəfdaşlığa dəstək vermək və onu ruhlandırmaq ABŞ-ın enerji siyasətində əsas yer tutur.

Enerji sahəsində tərəfdaşlığı genişləndirmək imkanları da çox yaxşı haldır. Siz birlikdə işləməklə Xəzərin zəngin enerji ehtiyatlarına daha geniş qapılar açırsınız. Bu boru kəməri hər üç ölkənin xalqına, xüsusilə, Azərbaycan xalqına mənfəətlər gətirməlidir.

Bu kəmər Azərbaycanda enerji ehtiyatlarının istismar sürətini artıracaq və prezident Heydər Əliyevin yaratdığı Neft Fondu kimi tərifəlayiq qurumlara kömək edəcək ki, neftlə bağlı qoyulan xarici sərmayələrdən gələcək gəlirlər yoxsulluğun azaldılmasına, təhsilə və Azərbaycanın kənd yerlərindəki əhalinin yaşayış səviyyəsinin yüksəldilməsinə yönəldilsin.

Amerika Birləşmiş Ştatları Xəzər regionunun hökumətləri ilə birgə işləməyə davam etmək əzmindədir. Dünyanın enerji bazarlarının daha fəal iştirakçısına çevrilməyiniz prosesində, hasilatdan və nəqldən gələcək gəlirlərin artımı üçün çoxşaxəliliyin sürətləndirilməsi prosesində biz sizinlə birlikdə işləməyə davam edəcəyik. İnanırıq ki, bu kimi birgə layihələr yerli, regional və qlobal sülhə, firavanlıq və əmin-amanlığa doğru daha yaxın bir yoldur.

Biz hamımız bu qələbəni qeyd etmək üçün buraya yığışmışıq. Bilirik ki, bu layihədən əldə edilən gəlirlərin hamısı bütün digər layihələrin irəliyə aparılmasına çox yaxşı zəmin yaradır. Bu, qısa müddətdə əldə olunmuş çox böyük irəliləyişdir. Elə bir irəliləyişdir ki, cəmi on il əvvəl buna ancaq xəyal demək olardı. Bizim ümumi təhlükəsizlik, kommersiya maraqlarımız, sülh və firavanlığa olan maraqlarımız bu kəmərin uzunluğu ilə daha da güclənəcəkdir.

Bu tədbirdə hamınızın olması bizi dövlətlərimiz arasında münasibətlərdə yeni, daha böyük ümidlər verən tarixin iştirakçısına çevirir. Tarixin bu bölməsini yazarkən gəlin söz verək ki, biz bu gün burada, bu tədbirdə nailiyyətlərini qiymətləndirdiyimiz adamların belə alicənablıqla irəliyə, bu səviyyəyə gətirib çatdırdıqları işi davam etdirəcəyik. Bu layihənin uğurla həyata keçirilməsi uğrunda işimizi birlikdə davam etdirəcəyik ki, ondan hamımız üçün gəlirlər gəlsin.

Cənab prezident Heydər Əliyev, qonaqpərvərliyiniz üçün Sizə ürəkdən təşəkkür edirəm. Müdrik rəhbərliyinizə görə çox sağ olun.

**Natiq Əliyev:** Zati-aliləri möhtərəm prezidentlər!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Azərbaycanın paytaxtında, Bakı şəhərində keçirilən bugünkü mərasim dünyanın çox ölkələrinin diqqət mərkəzindədir. Bu ölkələr Azərbaycanda həyata keçirilən layihələri daim dəstəkləyiblər və bu gün də bu mərasimə çoxsaylı teleqram və məktublar göndəriblər.

Zati-aliləri, icazənizlə, bız onun bir neçəsini burada oxuyaq. Fransa Respublikasının prezidenti Jak Şirakın təbrik məktubunu oxumaq üçün bu ölkənin Azərbaycandakı səfiri xanım Şantal Puareyə söz verilir.

*"Hörmətli Azərbaycan, Gürcüstan və Türkiyə prezidentləri!*

*Mən bu məktubumda sizlərə, Azərbaycana, Türkiyəyə və Gürcüstana uğurlar arzulayıram, bu layihənin uğurlu və xeyirli olmasını diləyirəm.*

*"Bakı–Tbilisi–Ərzurum" qaz kəmərinə Fransanın şirkətləri də qoşulubdur. Eyni zamanda, "Bakı–Tbilisi–Ceyhan" konsorsiumuna Fransa şirkətlərinin daxil olmasını məmnuniyyət hissi ilə qeyd edirəm. Cənubi Afrikada "Davamlı İnkişaf üzrə" beynəlxalq sammitdə mən ətraf mühitin qorunmasında hamımızın kollektiv məsuliyyətimizi təkidlə vurğuladım. Azərbaycan, Gürcüstan və Türkiyə, eləcə də "BP" şirkəti bu işləri ekoloji cəhətdən məsuliyyətlə həyata keçirəcəkləri barədə öz iradələrini aydın şəkildə ifadə etmişlər. Biz sizinlə bu yolu seçmişik və bu sahədə Fransanın təcrübəsinə etibar edə bilərsiniz.*

*Nəhayət, icazə verin, neftdən və qazdan əldə edilən gəlirlərin ehtiyatla idarə olunması üçün yaradılan Neft Fondunun təsis olunmasını alqışlayım. Bu, Azərbaycan xalqına yalnız xeyir gətirə biləcək uğurlu bir təşəbbüsdür.*

*Azərbaycan Respublikasının hörmətli prezidenti Heydər Əliyev, Gürcüstanın prezidenti hörmətli Eduard Şevardnadze, Türkiyə Respublikasının prezidenti hörmətli Əhməd Necdət Sezər, qoy bu gün açılışında iştirak etdiyiniz layihələr ölkələrinizin inkişafına və hər üç ölkə ilə Fransa arasında dostluq və əməkdaşlıın möhkəmlənməsinə xidmət etsin.*

**Jak Şirak**
*Fransanın prezidenti*

*İngiltərə nümayəndə heyətinin rəhbəri cənab Piter Tibber Böyük Britaniyanın Baş naziri Toni Bleyrin təbrik məktubunu oxudu:*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ CƏNAB HEYDƏR ƏLİYEVƏ**

*Hörmətli cənab Prezident!*

*"Bakı–Tbilisi–Ceyhan" ixrac neft kəmərinin tikintisinin təməlinin qoyulması və bu layihə ilə əlaqədar olaraq "Azəri–Çıraq–Günəşli" neft yataqlarının tammiqyaslı işlənilməsi münasibətilə Sizi təbrik edirəm.*

*Mən "BP"nin, Böyük Britaniyanın digər şirkətlərinin Azərbaycanın neft sənayesində əhəmiyyətli rol oynamasından çox məmnunam. Bu möhtəşəm layihənin müvəffəqiyyətlə həyata keçirilməsi hər iki ölkəyə böyük fayda verəcəkdir. Bu, Britaniya şirkətinin Azərbaycana ən azı daha 20 il cəlb olunması deməkdir.*

Ölkələrimiz arasında siyasi əlaqələr, eləcə də güclü ticarət-iqtisadi əlaqələr getdikcə artır. Avropa Şurasına qəbul olunmaq və eləcə də Avropa Birliyi ilə tərəfdaşlıq və əməkdaşlıq sazişi vasitəsilə nazirlərimiz də bütün səviyyələrdə əlaqələr yaradıblar. Mən

eləcə də Azərbaycanın gələcəkdə Ümumdünya Ticarət Təşkilatının üzvü olmasını arzu edirəm.

*Bu gün Azərbaycan xalqı üçün tarixi bir gündür. Bu hadisə Azərbaycan, Gürcüstan və Türkiyə arasında əməkdaşlığı gücləndirir. Xəzərin yeraltı sərvətlərindən istifadə edilməsinin gerçəkləşdirilməsi artıq uzaq xülya deyildir. Bu, sərvətin müdrikliklə idarə edilməsi, insanların həyat şəraitini yaxşılaşdırmaq üçün saysız imkanlar yaradır.*

*Azərbaycan xoş həyəcan dolu bir gələcəyin astanasındadır. Mən və eləcə də Böyük Britaniya sizə bu yolda müvəffəqiyyət arzulayırıq. Çox sağ olun.*

*Hörmətlə,*

**Toni Bleyr**

*Böyük Britaniyanın Baş Naziri*

*Sonra Norveçin Bakıdakı səfiri Steinar Gilə söz verildi.*

Azərbaycan, Gürcüstan və Türkiyənin hörmətli prezidentləri!

Möhtərəm Baş nazir və nazirlər!

Xanımlar və cənablar!

Bu gün burada Norveçdən təbrik məktubunu oxumaq bizim üçün fövqəladə dərəcədə əhəmiyyətlidir. İcazənizlə, möhtərəm Heydər Əliyevə Norveçin Baş naziri cənab Bundevikin təbrik məktubunu oxuyum:

**"AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HEYDƏR ƏLİYEVƏ**

*Möhtərəm prezident Heydər Əliyev!*

*Mən "Bakı–Tbilisi–Ceyhan" boru xəttinin təməlinin qoyulduğu bu gündə Sizə ən səmimi arzularımı çatdırmaq istəyirəm. Bu boru xətti "Azəri", "Çıraq", "Günəşli" neft yataqlarının istismarı üçün çox önəmli əhəmiyyət kəsb edəcəkdir. Beləliklə, bölgədə neft və qaz hasilatı əhəmiyyətli dərəcədə artacaq, Azərbaycan, Gürcüstan və Türkiyə daha sıx əməkdaşlıq imkanı əldə edəcəklər.*

*Bundan əlavə, biz fəxr edirik ki, Norveçin "Statoyl" firması da belə bir mühüm işdə iştirak edir, onun bir parçasıdır. Beləliklə, Norveç və Azərbaycan, eləcə də Norveç və bölgə ölkələri arasnda əməkdaşlıq qüvvətlənəcək və bu, ölkəmizi bölgəyə daha da yaxınlaşdıracaqdır.*

*Bu mərasimlə bağlı, boru xəttinin uğurlu olması üçün ən səmimi təbriklərimizi Sizə çatdırıram.*

**Xyel Maqne Bundevik**
*Norveçin Baş Naziri*

**AZƏRBAYCAN BEYNƏLXALQ ƏMƏLİYYAT ŞİRKƏTİNİN PREZİDENTİ DEVİD VUDVORDUN ÇIXIŞI**

Zati-aliləri cənab prezidentlər!
Cənab Energetika naziri!
Möhtərəm qonaqlar, xanımlar və cənablar!

Əvvələn, Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətindəki tərəfdaşlarımız – ARDNŞ, "Yunokal", "Lukoyl", "Statoyl", "Eksson-Mobil", TPAO, "Devon", "İtoçu" və "Delta Hess" şirkətləri adından, ikincisi, "Bakı–Tbilisi–Ceyhan" Boru Kəməri Şirkətindəki tərəfdaşlarımız – ARDNŞ, "Yunokal", "Statoyl", TDAO, "Eni", "İtoçu", "Delta Hess", TFE, "İmpeks" şirkətlərinin adından bu gün burada çıxış etmək imkanından çox məmnunam.

Bu gün həqiqətən tarixi bir gündür. Biz bu gün buraya iki böyük layihənin tikinti mərhələsinin başlanmasını bayram etmək üçün toplaşmışıq. Bunlar "Azəri", "Çıraq", "Günəşli" yataqlarının (AÇG) işlənilməsi üzrə Faza–2 və "Bakı–Tbilisi–Ceyhan" boru kəməri layihələridir. Əminik ki, onların hər ikisinin Azərbaycana, Gürcüstana və Türkiyə üçün əhəmiyyətli dərəcədə müsbət təsiri olacaqdır.

Beləliklə, biz hamımız bu gün Azərbaycan, Gürcüstan və Türkiyədə enerji iqtisadiyyatının yeni bir dövrünün yaranması ərəfəsindəyik. Bu, qanunauyğun haldır, dünyanın hələ də öz enerji ehtiyatları üçün arxalanmaqda davam etdiyi bir sənayenin yaranmasına 100 ildən də çox töhfə vermiş bir ölkə olan Azərbaycan bu nəhəng enerji layihələri üçün karbohidrogen ehtiyatlarını təmin edəcəkdir.

1997-ci il noyabrın 7-dən – "Çıraq" yatağından ilkin neftin hasilinə başlanandan bəri bütün maraqlı tərəflərlə əməkdaşlıq şəraitində əldə etdiyimiz mühüm irəliləyişlər barədə əvvəllər də danışmışam.

İlkin neft layihəsi çərçivəsində artıq 165 milyon barreldən çox neft hasil edilmiş və Azərbaycan dövlətinə təxminən 500 milyon dollarlıq mənfəət nefti təhvil verilmişdir.

"Azəri" yatağının mərkəzi hissəsinin işlənilməsi üzrə Faza-1 layihəsinin tikinti işləri də yaxşı gedir. Bu layihəyə sanksiya verilməsindən bir il ötür, irəliləyiş **əladır**

**və layihə cədvələ tam uyğun həyata keçirilir. Faza-1 üzrə** hasilatın 2005-ci ilin əvvəllərində başlayacağı və nəticədə, orta hesabla gündə 375.000 barrel neft çıxarılacağı gözlənilir.

Bu işin icrası bizdə belə böyük inam yaratmışdır ki, Azərbaycan və Gürcüstan uğurlu biznes qurmaq üçün möhkəm özül yaradılmasını təmin edə bilərlər və edirlər. Lakin bu günədək əldə etdiklərimiz nə qədər əhəmiyyətli olsa da, hazırda həyata keçirdiklərimizlə müqayisədə xeyli azdır.

Biz layihələrimizin həcmini və miqyasını genişləndirərək, Türkiyəni də bu işə qoşmaq **ərəfəsindəyik. Biz burada uzun müddət fəaliyyət göstərəcəyik və** ABƏŞ, BTC və "Şahdəniz" dəki tərəfdaşlarımızla birlikdə Xəzər regionundakı neft və qaz layihələrinə bundan sonra əlavə 18 milyard dollar sərmayə qoymağı planlaşdırırıq, bunun da **əksər hissəsi Azərbaycana qoyulacaqdır.**

Faza-2 layihəsinin dəniz obyektləri iki əsas hasilat platformasından ibarət olacaqdır. Onlar "Azəri" yatağının qərb və şərq hissələrində yerləşəcək və hər ikisi Faza-1-in hasilat platforması ilə oxşar olacaqdır.

Yeni hasilat platformasından çıxarılacaq neft uzunluğu 190 kilometr olan 30 düyməlik yeni sualtı boru kəməri vasitəsilə Səngəçal terminalına nəql ediləcəkdir. Səngəçal terminalında Faza-2 layihəsinin əsas hissəsi olaraq, böyük genişləndirmə işləri aparılacaqdır. Bunun nəticəsində terminalın gücü sutkada 800.000 barreldən artıq olacaq, onun ümumi sahəsi 540 hektaradək artacaq və terminal dünyanın bu növ ən böyük obyektlərindən birinə çevriləcəkdir.

AÇG-nin işlənilməsinin üçüncü, yekun fazası 2007-ci ildə tamamlanacaq və bu mərhələ yataqlardan ümumi hasilatı gündə 1 milyon barreldən yuxarı səviyyəyə çatdıracaqdır.

Səngəçal terminalında texniki emaldan keçirilmiş neft Ceyhana ixrac olunmaq üçün "Bakı–Tbilisi–Ceyhan" boru kəmərinə vurulacaqdır.

BTC layihəsinin mahiyyəti nədir? Statistik məlumatlara görə, bu, uzunluğu 1760 kilometr olan, əsasən 42 düyməlik boru kəmərinə, 8 nasos stansiyasına və 98 siyirtməli stansiyaya malik, 2,95 milyard dollar sərmayə tələb edən layihədir. Xəzər dənizindən Aralıq dənizinədək olan yol boyunca boru kəməri bəzi yerlərdə 2700 metrdən də artıq yüksəklikdən və 1500-dən çox çaydan keçəcəkdir.

Lakin BTC təkcə bu demək deyildir. Bu layihə yeni Şərq-Qərb enerji dəhlizini açacaq və bizi yalnız yerli ixrac çözümü olan orta miqyaslı neft hasilatı əməliyyatlarından beynəlxalq ixrac çözümünə malik nəhəng neft istismarı əməliyyatlarına aparacaqdır. Bu elə bir beynəlxalq ixrac çözümüdür ki, onun beynəlxalq standartlara uyğun fəaliyyət göstərən beynəlxalq tərəfdaşları var. Bununla belə, o, yerli tərəfdaşlardan, yerli məhsullardan və

xidmətlərdən istifadə etməklə və əhəmiyyətli sayda yerli işçi qüvvəsi cəlb etməklə yerli ehtiyaclara çox həssas yanaşır.

Gəlin həm də unutmayaq ki, BTC böyük həcmdə xam neftin çox tünlük olan Türkiyə boğazlarından yan keçməklə birbaşa dünya bazarlarına nəqlinə imkan yaradacaq və ətraf mühitin qorunması ilə bağlı Türkiyənin' bütün narahatlıqlarını aradan qaldıracaqdır.

Beləliklə, biz bu gün hansı mərhələdəyik? Bu gün biz artıq gələcək uğurlarımız üçün möhkəm təməl qoymuşuq. Bununla yanaşı, biz yalnız bütün maraqlı tərəflərin fəal dəstəyi, iştirakı və əməkdaşlığı ilə irəli gedə bilərik.

Mən burada bizi bu tarixi günə gətirib çıxaran rəhbərliyinə görə prezident Heydər Əliyevə xüsusi minnətdarlığımı bildirmək istəyirəm. Sizin prezident Şevardnadze və prezident Sezərlə birlikdə regionda yaratmış olduğunuz sülh və sabitlik, imzaladığınız müqavilələrin bütövlüyü bu çoxmilyardlı dollarlıq sərmayələr tələb edən layihələri irəli apara bilməyimiz üçün həlledici əhəmiyyətə malikdir. *"BP"* və tərəfdaşları layihələrimizə gətirmiş olduğunuz gələcəyə tuşlanmış baxışları və uzaqgörənliyi, sizin nazirlərinizin və şəxslərinizin dəstəyini olduqca yüksək qiymətləndirirlər. Əminəm ki, biz bu layihələri irəli apardıqca və bugünkü tarixi günlə son məqsədə çatacağımız dövr arasında üzləşəcəyimiz labüd çətinliklərin aradan qaldırılmasında Sizin daimi dəstəyinizə arxalana bilərik.

Mən, həmçinin digər maraqlı tərəflərin – Azərbaycan, Gürcüstan və Türkiyə xalqlarının, ABŞ və Avropa hökumətlərinin, maliyyə qurumlarının, dövləti təmsil edən tərəfdaşlarımızın – ARDNŞ və Gürcüstan Beynəlxalq Neft Korporasiyasının, çoxsaylı podratçılarımızın və əlbəttə, layihədəki tərəfdaşlarımızın əhəmiyyətli töhfələrini yüksək qiymətləndirmək istərdim. Onların dünyanın bir çox ölkələrindən – Böyük Britaniya, ABŞ, Türkiyə, Norveç, Yaponiya, Rusiya, Səudiyyə Ərəbistanı və İtaliyadan olmaları layihələrin əsl beynəlmiləl təbiətini və bunun nəticəsi kimi, bu layihələrə göstərilən çox geniş dəstəyi əks etdirir.

Biz bu dəstəyə nail olmaq üçün çox ciddi çalışmışıq, bütün aidiyyəti tərəflərlə geniş məsləhətləşmələr aparmışıq. Biz BTC marşrutunun seçilməsinə böyük qayğı ilə yanaşmışıq, məsələn, elə bir əminlik yaratmağa çalışmışıq ki, bircə nəfər də olsa, öz evinin köçürülməməsi barədə xahiş etməsin. Biz mənfi təsirin azaldılması üzrə geniş məsləhətləşmələr aparmışıq ki, nəticədə bu ərazidə tikinti işlərimiz başa çatdıqdan sonra ətraf mühiti işə başladığımız vaxt necə idisə, o cür, yaxud daha yaxşı vəziyyətdə təhvil verə bilək.

Hər bir işi "BP"-nin siyasətinə və tranzit ölkə hökuməti ilə sazişlərdəki öhdəliklərə uyğun olaraq, ən yüksək beynəlxalq standartlarla görməyə söz veririk. Bu öhdəliklərlə bərabər, hər bir hökumətin özünün həyata keçirəcəyi hüquq və tələblər də var və biz hökumətlərarası sazişlərin və tranzit ölkə hökuməti ilə sazişlərin yaratmış olduğu hüquqi

əsaslar çərçivəsində bundan sonra da əməkdaşlıq etmək ümidindəyik ki, bu layihələrin təhlükəsiz, sərfəli və səmərəli yerinə yetirilməsi təmin olunsun.

İnanırıq ki, əldə olunacaq böyük gəlirlərdən yaxşı istifadə təmin edilərsə, bu, regionun əhalisinə əsaslı fayda verə bilər. Neft gəlirlərinin daxil olmasında və onlardan istifadə edilməsində şəffaflığı təmin etmək üçün Azərbaycanda Neft Fondunun yaradılmasından xüsusilə ruhlanmışıq.

Cənab prezidentlər, cənab Energetika naziri, hörmətli qonaqlar, xanımlar və cənablar!

Zənnimcə, biz bu gün bir arzunu bölüşürük – Gürcüstan və Türkiyə ilə əməkdaşlıqda Azərbaycanda dünya səviyyəli neft və qaz layihələri gerçəkləşəcək və bu, ölkələrə, onların vətəndaşlarına sanballı fayda və mənfəət gətirəcəkdir. Elə buna görə də bu gün Faza-2 və BTC layihələrinə sanksiya verilməsinə həsr edilmiş bu mərasimdə olmaqdan məmnunluq duyuram. *"BP"* və onun tərəfdaşları bu arzunun reallığa çevrilməsi üçün sizinlə birlikdə işləmək əzmindədirlər.

Sağ olun.

**ARDNŞ-NİN PREZİDENTİ NATİQ ƏLİYEVİN ÇIXIŞI**

Azərbaycan Respublikasının prezidenti zati-aliləri cənab Heydər Əliyev!

Türkiyə Cümhuriyyətinin prezidenti zati-aliləri cənab Əhməd Necdət Sezər!

Gürcüstanın prezidenti zati-aliləri cənab Eduard Şevardnadze!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

İki gündən sonra müstəqil Azərbaycanın yeni neft strategiyasının əsasını qoyan "Əsrin müqaviləsi"nin imzalanmasının 8 ili tamam olacaqdır. Dünya miqyaslı dahi siyasətçi cənab Heydər Əliyevin uzaqgörənliyi, dövlətin və ölkə iqtisadiyyatının inkişafının əsas qanunları və yolları haqqında ensiklopedik biliyə malik olması, böyük və misilsiz rəhbərlik təcrübəsi, xalqına sədaqəti və Vətənə sonsuz məhəbbəti ona miqyasına görə dünyada analoqu olmayan çox nəhəng layihəni yaratmaq, eyni zamanda, onun həqiqi rəhbəri və bilavasitə əsas icraçısı olmaq imkanı verdi. Bu gün tam qətiyyətlə demək olar ki, Heydər Əliyevin neft konsepsiyası nəinki Azərbaycanın XXI əsrdəki inkişafının əsasını qoydu, həm də Xəzər regionundakı zəngin karbohidrogen potensialını hərəkətə gətirərək, yeni inkişaf mərhələsinə yol açdı və bütövlükdə, regionun dünyanın ən böyük enerji mərkəzlərindən birinə çevrilməsində həlledici qüvvə rolunu oynadı.

Mən öz adımdan, çoxsaylı tərəfdaşlarım və xarici qonaqlar adından bu gün Bakı şəhərində baş verən tarixi əhəmiyyətli hadisələr münasibətilə Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevi və onun yaxın həmkarları Türkiyə və Gürcüstan prezidentlərini təbrik edirəm.

Yeni neft strategiyasının həyata keçirilməsinin indiki mərhələsinin əhəmiyyətini mərasim iştirakçılarına inandırmağa ehtiyac yoxdur, bununla belə, mən bu haqda bəzi rəqəm və faktları sizin nəzərinizə çatdırmaq istərdim.

"Əsrin müqaviləsi"nin imzalanmasından bu günə qədər xarici şirkətlərlə 21 neft müqaviləsi imzalanmışdır və bu layihələrin inkişafına ümumilikdə 6 milyard dollara qədər sərmayə qoyulmuşdur, bunun da təxminən 4 milyardı "Azəri", "Çıraq", "Günəşli" yataqlarının payına düşür. 1996-cı ilin fevral ayında "Çıraq" yatağından ilkin neftin hasilatı haqqında qərar qəbul olundu və uğurla həyata keçirildi. İlkin neft obyektlərinə "Çıraq" yatağında 105 metr dərinlikdə qurulmuş bir dəniz qazma və hasilat platforması, Səngəçaladək 24 düyməlik bir sualtı neft kəməri, Neft Daşlarınadək 16 düyməlik bir sualtı qaz kəməri, Səngəçalda neft terminalı, şimal və qərb istiqamətində iki ixrac boru kəməri və Supsada bir ixrac terminalı daxil oldu. Hazırda "Çıraq1" özülündə 16 quyu qazılmışdır və onların 12-dən nəzərdə tutulduğundan xeyli artıq, gündə orta hesabla 140 min barrel (19 min ton) neft hasil edilir. Bu günədək 22,6 milyon tondan artıq neft çıxarılıb ki, bunun da 3,8 milyon tonu Bakı-Novorossiysk, 18,6 milyon tonu isə Bakı-Supsa boru kəmərləri vasitəsilə dünya bazarlarına çatdırılmışdır.

Lakin neftin hasilatını və ixracını artırmaq üçün Azərbaycanın və xüsusilə, "Azəri", "Çıraq", "Günəşli" yataqlarının imkanları bugünkündən qat-qat çoxdur. Axır zamanlarda aparılan kəşfiyyat işləri göstərmişdir ki, yalnız bu yataqlardan sübut olunmuş və çıxarıla bilən neft ehtiyatları 4,2 milyard barreldən 5,4 milyard barrelə və ya 511 milyon tondan 730 milyon tona qədər artmışdır. Bu imkanlardan səmərəli istifadə etmək məqsədi ilə yataqların tammiqyaslı işlənilməsi proqramı hazırlandı və 2001-ci il avqustun 30-da onun ilk mərhələsi Faza-1 layihəsinin başlanması qərara alındı.

Bu layihə "Azəri" yatağının mərkəzi hissəsinin işlənilməsinə yönəldilmişdir. Layihədə 128 metr dərinlikdə 48 quyuağzına malik olan, sutkada 400 min barrel (ildə təxminən 20 milyon ton) neft hasil etmək gücündə hasilat, qazma və yaşayış platformasının tikilməsi nəzərdə tutulur. Bu platformadan neft uzunluğu 187 kilometr olan yeni sualtı boru kəməri vasitəsilə Səngəçal terminalına, səmt qazı isə 28 düyməlik kəmər vasitəsilə sahilə çatdırılacaqdır. Bu həcmdə nefti və qazı qəbul etmək üçün Səngəçal terminalının genişləndirilməsi böyük əhəmiyyət kəsb edir. Bunun nəticəsində Faza-1 layihəsi çərçivəsində terminal gündə 360 min barrelə (48,6 min tona) yaxın nefti qəbul və emal etmək qabiliyyətinə malik olacaqdır. Neft tutumlarının ümumi saxlanılma gücü 1,6 milyon barrelə və ya 220 min tona çatacaqdır. Bundan başqa, neft laylarının səmərəli işlənilməsini təmin etmək məqsədi ilə hasilat platformasının körpü ilə birləşdirilməsi, bir yeni qaz kompressorunun və suvurma platformasının inşası nəzərdə tutulmuşdur. Faza-1 layihəsinin həyata keçirilməsi nəticəsində 2005-ci ilin birinci rübündə ilkin neftin

hasil olunması gözlənilir və ümumilikdə “Çıraq-1” və “Mərkəzi Azəri” platformasından neft hasilatı gündə 250 min barrelə, 2008-ci ildə isə yalnız bu iki platformadan 500 min barrelə (ildə 25 milyon ton) çatacaqdır.

Möhtərəm cənab Prezident!

Sizə məruzə etmək istəyirəm ki, Faza-1 layihəsi cari ildə çox dinamik inkişaf edir, artıq əsas tikinti-quraşdırma işlərinə Azərbaycanda, Dubayda, Fransada, İtaliyada və İsveçdə başlanmışdır və bu işlərin vaxtında yerinə yetirilməsi üçün ABŞ-ın “MakDermott”, Fransanın “Buyiq”, “Eyfel” və “Enterpoz”, İtaliyanın “Saypem”, İsveçin “Emtunqa”, Türkiyənin “Tekfen” şirkətləri böyük səylər göstərir. Hazırda bu şirkətlərdə Faza-1 layihəsi çərçivəsində 2300-dən artıq Azərbaycan mütəxəssisi və vətəndaşı işə götürülüb və uğurla çalışır.

Faza-1 üzrə qazma proqramı “Dədə Qorqud” qazma qurğusu vasitəsilə “Azəri” yatağında platformanın tikilməsini gözləmədən, 2002-ci ilin mart ayında başlamışdır. Hal-hazırda bir quyu tam qazılıb qurtarıb, ikinci quyu qazılmaqdadır və ümumilikdə dəniz dibində quraşdırılmış qazma dayaq tavasından istifadə edilməklə doqquz quyu qazılacaqdır. Qalan 39 quyu isə platforma istismara verildikdən sonra, 2005–2011-ci illər arasında platformadan qazılacaqdır.

Faza-2 layihəsi “Azəri” yatağının şərq və qərb hissələrinin işlənilməsinə yönəldilmişdir və bu, Faza-1 ilə birlikdə “Azəri” yatağının işlənilməsini tam başa çatdıracaqdır. Faza-2 dəniz obyektləri suyun dərinliyi müvafiq olaraq 120 və 150 metr olan sahələrdə yerləşməklə, “Azəri” yatağının qərb və şərq hissəsində iki ədəd 48 quyuağzına malik platformanı əhatə edəcəkdir. Platformaların texnoloji emal gücü “Azəri” yatağının qərb hissəsində gündə 340 min barrel (ildə 17 milyon ton), şərq hissəsində isə 260 min barrel (ildə 13 milyon ton) olacaqdır. Bunun nəticəsində “Azəri” yatağında neft hasilatı artırılacaq və gündə azı 800 min barrelə (ildə 40 milyon ton) çatdırılacaqdır.

Bu zaman neft Səngəçala iki ədəd 30 düyməlik boru kəməri, səmt qazı isə 28 düyməlik boru kəməri vasitəsilə nəql ediləcəkdir. Səngəçal terminalı alınacaq əlavə hasilatın texnoloji işlənilməsini təmin etmək üçün genişləndiriləcək və 2007-ci ilə qədər texnoloji emal obyektlərinin gücü gündə 1,2 milyon barrelə (ildə 60 milyon tona) çatdırılacaqdır. Bu da Səngəçal terminalını dünyanın ən böyük terminallarından birinə çevirəcəkdir.

Faza-1-in qaz kompressor və suvurma platforması gücləndiriləcək və onun üzərində yerləşdirilmiş dörd qaz və suvurma qurğusuna Faza-2-nin iş həcmi ilə əlaqədar daha iki qazvurma və üç suvurma qurğusu da əlavə ediləcəkdir.

Faza-2 çərçivəsində ilkin qazma işləri 2003-cü ilin 4-cü rübündə “Azəri” yatağının mərkəzi hissəsində ilkin qazma işləri başa çatdırılan kimi, onun qərb hissəsində “Dədə Qorqud” qazma qurğusu işə başlayacaq və platforma quraşdırılmazdan əvvəl doqquz

hasilat quyusu qazılacaqdır. Bundan sonra şərq hissəsində 2006-cı ilin 2-ci rübünədək daha 4 hasilat quyusu təhvil veriləcəkdir. Bundan əlavə, platformalardan, ümumilikdə 70 hasilat və 16 suvurma quyusunun qazılması nəzərdə tutulur.

Beləliklə, Faza-2 layihəsinin iş cədvəlinə və proqramına uyğun "Azəri" yatağının qərb və şərq hissələrindən ilk hasilat 2006-cı və 2007-ci illərdə başlanacaq və həmin ildə yalnız "Azəri" yatağından ümumi gündəlik hasilat 615 min barrelə (ildə 30 milyon ton) çatacaqdır.

Bu baxımdan, bu gün "Bakı–Tbilisi–Ceyhan" əsas ixrac boru kəmərinin ilk borusunun qoyulması, üç ölkənin prezidentlərinin bu təntənəli mərasimdə iştirak etməsi və bu işə xeyir-dua verməsi xüsusi əhəmiyyət kəsb edir, hamımızda bayram əhvali-ruhiyyəsi yaradır. "Bakı–Tbilisi–Ceyhan" Ko şirkəti artıq yaradılmış və fəaliyyətə başlamışdır.

Hazırda boru kəməri sisteminin tikintisini və istismarını təmin etmək məqsədi ilə layihəni maliyyələşdirmək üçün Beynəlxalq Maliyyə Korporasiyası, Avropa Yenidənqurma və İnkişaf Bankı, ixrac kredit agentlikləri, sığorta və kommersiya bankları daxil olmaqla geniş beynəlxalq kreditorlar qrupundan vəsait almaqdan ötrü danışıqlar aparılır. Boru kəmərinin Türkiyədən keçən hissəsi Türkiyə hökuməti ilə BTC Ko səhmdarları arasında bağlanmış Bir dəfəyə Ödənilən Məbləğ Əsasında Açarlı Təhvil Sazişinə uyğun olaraq tikiləcəkdir. BTC Ko Türkiyə ərazisi daxilindəki 1070 kilometrlik hissənin tikintisinə məsul olan "Botaş" şirkətinə işə başlamaq barədə bildiriş təqdim etmişdir və müqavilə sentyabrın 10-dan qüvvəyə minmişdir.

Azərbaycanda və Gürcüstanda tikinti işlərini aparmaq üçün hazırlıq tədbirləri görülür, BTC dəhlizinin torpaq sahibləri müəyyənləşdirilib, lazımi sənədlər təsdiq olunub, müvafiq icazələr və lisenziyalar alınıbdır.

Biz qəti fikirdəyik və əminik ki, Azərbaycan Respublikasının prezidenti möhtərəm Heydər Əliyevin rəhbərliyi ilə bu iki nəhəng layihə qısa bir zamanda uğurla həyatda gerçəkləşəcək və bununla, dövlət müstəqilliyimizin möhkəmlənməsinə, doğma Vətənimizin çiçəklənməsinə, xalqımızın rifah halının yüksək səviyyəyə çatdırılmasına misilsiz xidmətlər göstərəcəklər.

Çıxışımın sonunda mən fürsətdən istifadə edərək, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin rəhbərliyi adından bu layihələrdə iştirak edən çoxsaylı tərəfdaşlarımıza, Bakıya gələn bütün qonaqlarımıza öz dərin təşəkkürümü və minnətdarlığımı bildirmək, iki gündən sonra qarşılayacağımız və Azərbaycan Respublikasının prezidenti möhtərəm cənab Heydər Əliyev tərəfindən bizə bəxş edilən "Neftçilər günü" peşə bayramı münasibətilə Azərbaycan neftçilərini təbrik etmək istəyirəm. Diqqətinizə görə sağ olun!

**Heydər Əliyev:** Hörmətli xanımlar və cənablar!

Burada edilən bütün nitqlərdə bildirildi ki, "Bakı–Tbilisi–Ceyhan" əsas ixrac neft kəmərinin gücünün təmin edilməsi üçün biz "Azəri", "Çıraq", "Günəşli" yataqlarında işləri genişləndirməliyik. Biz Faza-1-in sanksiyasını bir il öncə vermişik, indi isə Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti Azərbaycan Dövlət Neft Şirkəti ilə birlikdə Faza-2-nin başlanması haqqında qərar qəbul etməliyik. Hesab edirəm ki, bu qərarı biz qəbul edirik və hörmətli prezident Sezər də, hörmətli prezident Şevardnadze də və hörmətli nazir də buna etiraz etmirlər. İzin verin cənab Vudvord və Natiq Əliyev sənədləri imzalasınlar.

*ABƏŞ-in prezidenti Devid Vudvord və ARDNŞ-nin prezidenti Natiq Əliyev "Azəri", "Çıraq", "Günəşli" yataqlarının tammiqyaslı işlənilməsinin Faza-2 mərhələsinə sanksiya verilməsinə dair sənədləri imzaladılar.*

**Heydər Əliyev:** Hörmətli xanımlar və cənablar!

Dostlar!

Bizim bugünkü təntənəli mərasimimiz başa çatır. Mən bir daha hamınıza təşəkkür edirəm ki, Azərbaycan, Türkiyə, Gürcüstan üçün və Qərb ölkələrindəki, digər ölkələrdəki həmkarlarımız üçün vacib olan "Bakı–Tbilisi–Ceyhan" əsas ixrac neft kəmərinin inşasına başlanmasının təməlinin qoyulmasında iştirak edirsiniz. Çox sağ olun!

Biz belə qərara almışıq ki, bunun təməlini qoyanda, ilk borunu xəndəyə endirəndə, eyni zamanda, gələcək nəsillərə müraciətimizi də oraya qoyaq. Ona görə təklif var ki, o müraciət üç ölkənin prezidentləri adından burada imzalansın.

*Mərasimdə prezidentlərin müraciətlərinin mətni oxundu:*

## GƏLƏCƏK NƏSİLLƏRƏ

*Azərbaycan Respublikasının paytaxtı Bakı şəhəri, 18 sentyabr 2002-ci il.*

*"Bu gün biz, üç suveren dövlətin rəhbərləri – Azərbaycan Respublikasının prezidenti Heydər Əlirza oğlu Əliyev, Gürcüstan prezidenti Eduard Amvrosiyeviç Şevardnadze və Türkiyə Cümhuriyyətinin prezidenti Əhməd Necdət Sezər "Bakı–Tbilisi–Ceyhan" neft boru kəmərinin təməl daşını qoyaraq, sizə, xalqlarımızın gələcək nəsillərinə müraciət edirik.*

Ölkələrimizin milli mənafelərindən çıxış edərək, böyük qürur duyğusu ilə bütün dünyaya bəyan edirik ki, XXI əsrin ilk illərində regionda ən nəhəng layihə olan, Xəzər və Aralıq dənizlərini birləşdirən neft boru kəmərinin çəkilməsi dövlətlərimizin, hökumətlərimizin birgə uğurlu səyləri nəticəsində artıq reallığa çevrilir.

*Layihənin həyata keçirilməsi və istismar zamanı hazırda bəşəriyyətin bu sahədə əldə etdiyi müasir elmi-texnoloji nailiyyətlərin tətbiq ediləcəyi mütərəqqi mühəndislik üsullarından istifadə olunması nəticəsində Şərq-Qərb enerji dəhlizi keyfiyyətcə yeni mərhələyə qədəm qoyacaqdır. Bu proseslərdə Azərbaycan, Böyük Britaniya, Amerika Birləşmiş Ştatları, Norveç, Türkiyə, Yaponiya, İtaliya, Fransa və Səudiyyə Ərəbistanının neft şirkətləri xüsusi rola malikdirlər.*

*Buna görə, bu tarixi əhəmiyyətli hadisənin ən aparıcı amili ondan ibarətdir ki, müxtəlif dilə, dinə, adət-ənənələrə mənsub olan insanlar dostluq, qardaşlıq və həmrəylik şəraitində qlobal səviyyədə sivil* əməkdaşlıq edirlər.

*Əminik ki, "Bakı–Tbilisi–Ceyhan" boru kəməri layihəsinin gerçəkləşməsi ülvi amallara xidmət edərək, regionun simasını dəyişdirəcək, siyasi iqlim sabitləşəcək, iqtisadi inkişafa ciddi təkan verəcək, xalqlarımızın rifahı yüksələcəkdir.*

*Sizə sülh, əmin-amanlıq və firavanlıq arzulayırıq".*

*Azərbaycan Respublikasının Prezidenti* **Heydər Əliyev**
*Gürcüstan Respublikasının Prezidenti* **Eduard Şevarnadze**
*Türkiyə Cühmuriyyətinin Prezidenti* **Əhməd Necdət Sezər**

**Heydər Əliyev:** Müraciət imzalandı. İndi cənab Vudvord bir dəqiqəlik söz istəyir. Buyurun.

**Devid Vudvord:** Cənab Prezident, dediyimiz kimi, bugünkü layihələrin həm Azərbaycan, həm də Gürcüstan və Türkiyə Cümhuriyyəti üçün çox böyük tarixi əhəmiyyəti var. Bu layihənin reallaşdırılması ilə Azərbaycanın Xəzər nefti dünyanın bütün yerlərinə çatdırılacaqdır. Bu hadisəni qeyd etmək üçün indi mən bizim tərəfdaşlarımız adından Sizə bir hədiyyə təqdim etmək istəyirəm.

*Cənab Devid Vudvord Azərbaycan prezidenti Heydər Əliyevə xatirə hədiyyəsi təqdim etdi.*

### AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN YEKUN SÖZÜ

Hörmətli xanımlar və cənablar!

Dostlar!

Biz bu gün tarixi bir gün yaşayırıq.

Tarixi bir hadisənin şahidiyik. Bu tarixi biz yazırıq. Bugünkü nəsillər, Azərbaycan, Türkiyə, Gürcüstan, Amerika Birləşmiş Ştatları, Böyük Britaniya, Norveç, Fransa, İtaliya və digər dövlətlər – hamımız bir yerdə böyük bir tarix yazırıq. Bunların hamısı

gələcək nəsillər üçündür. Şübhə yoxdur ki, gələcək nəsillər bizim gördüyümüz bu işlərdən bəhrələnərək, daha da firavan yaşayaraq, ölkələrimizdə, Azərbaycanda demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu şəraitində, vətəndaş cəmiyyəti şəraitində yaşayaraq bunların bəhrələrini görəcəklər.

Bu gün burada Amerika Birləşmiş Ştatlarının prezidenti cənab Buşun təbrik məktubunu dinlədik. Mən prezident Buşa bizim bugünkü mərasimimizə göstərdiyi diqqətə görə çox təşəkkür edirəm. Ümidvar olduğumu bildirmək istəyirəm ki, prezident Buş daim bizimlə, "Bakı–Tbilisi–Ceyhan"la olacaqdır.

Fransa prezidenti hörmətli Jak Şirak bizə təbrik məktubu göndərmişdir. Biz onu burada çox diqqətlə dinlədik. Çox mehriban, dostluq ruhunda yazılmış, yəni məzmunca bizə inamla dolu bir təbrik məktubudur.

Mən prezident cənab Jak Şiraka təşəkkürümü bildirirəm və onu əmin etmək istəyirəm ki, biz bu işdə dayanmayacağıq, irəliyə gedəcəyik və Fransanın dəstəyini daim hiss edəcəyik.

Biz Böyük Britaniyanın Baş naziri Toni Bleyrin təbrik məktubunu dinlədik. Mən təşəkkür edirəm. Burada, təbiidir ki, bir çox şirkətlər iş görür. Ancaq bu şirkətlərin içərisində "BP" bildiyiniz kimi, özünəməxsus yer tutubdur və Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinə, eyni zamanda, "Bakı–Tbilisi–Ceyhan" layihəsi ilə əlaqədar yaradılmış şirkətə rəhbərlik edir. Ona görə də burada Böyük Britaniyanın mühüm iqtisadi maraqları var. Əmin ola bilərsiniz ki, o maraqlar yerinə yetiriləcəkdir.

Mən Böyük Britaniyanın Baş naziri cənab Toni Bleyrə təşəkkür edirəm. Onu əmin edirəm ki, Azərbaycan–Böyük Britaniya əməkdaşlığı bundan sonra da davam edəcəkdir.

Biz Norveç Krallığının Baş naziri cənab Xyel Maqne Bundevikin təbrik məktubunu dinlədik. Biz Azərbaycanın neft strategiyasını həyata keçirməyə başlayandan, 1994-cü ildən bəri Norveç və onun "Statoyl" şirkəti bizimlə bərabərdir və çox səmərəli əməkdaşlıq edir. Ona görə bizə göndərdiyi təbrik üçün hörmətli Baş nazirə təşəkkür edirəm və ümidvaram ki, bizim bu əməkdaşlığımız gələcəkdə də davam edəcəkdir.

Nəhayət, sizin hamınıza – "Bakı–Tbilisi–Ceyhan" boru xəttində çalışacaq insanlara, azərbaycanlılara, xarici ölkələrin Azərbaycanda işləyən vətəndaşlarına cansağlığı, xoşbəxtlik və böyük uğurlar arzu edirəm. Sağ olun.

İndi isə təməl daşının qoyulmasında iştirak edəcəyik.

***

Azərbaycan, Gürcüstan və Türkiyə prezidentləri, ABŞ-ın Energetika naziri, mərasimin digər iştirakçıları "Bakı–Tbilisi–Ceyhan" əsas ixrac boru kəmərinin təməlinin qoyulacağı yerə gəldilər. Burada ilk boru təntənəli şəkildə xəndəyə

endirildi. Azərbaycan prezidenti Heydər Əliyev, Gürcüstan prezidenti Eduard Şevardnadze, Türkiyə prezidenti Əhməd Necdət Sezər borunun üstünə ilk torpağı atdılar.

İçərisində "Gələcək nəsillərə" müraciətinin mətni olan dəmir kapsul "Bakı–Tbilisi–Ceyhan" boru kəmərinin başlanğıcından qazılmış quyuya basdırıldı.

Sonra dövlət başçıları boru kəmərinin təməlinin qoyulması münasibətilə ucaldılmış xatirə lövhəsinə baxdılar. Xatirə lövhəsində Azərbaycan, türk və gücrü dillərində bu sözlər yazılmışdır:

*"18 sentyabr 2002-ci il tarixdə Xəzər və Aralıq dənizlərini birləşdirən "Bakı–Tbilisi–Ceyhan" neft boru kəmərinin inşasının təməl daşı Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev, Gürcüstan prezidenti Eduard Şevardnadze və Türkiyə Cümhuriyyətinin prezidenti Əhməd Necdət Sezər tərəfindən qoyulmuşdur".*

Azərbaycan, Gürcüstan və Türkiyə Cümhuriyyətinin prezidentləri xatirə lövhəsinin qarşısında şəkil çəkdirdilər.

**Əliyev Heydər Əlirza oğlu.** *Müstəqilliyimiz əbədidir: 41-ci kitab.*
*Bakı: Azərnəşr, 2012.- S. 90-102*

# "BAKI–TBİLİSİ–CEYHAN" ƏSAS İXRAC BORU KƏMƏRİNİN TƏMƏLİNİN QOYULMASI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN ADINDAN DÖVLƏT BAŞÇILARININ VƏ NÜMAYƏNDƏ HEYƏTLƏRİNİN ŞƏRƏFİNƏ TƏŞKİL EDİLMİŞ RƏSMİ ZİYAFƏT

*"Gülüstan" sarayı,*
*18 sentyabr 2002-ci il*

*Salona toplaşanlar Azərbaycan prezidenti Heydər Əliyevi, Türkiyə Cümhuriyyətinin prezidenti Əhməd Necdət Sezəri, Gürcüstan prezidenti Eduard Şevardnadzeni hərarətlə qarşıladılar.*

*Azərbaycan, Türkiyə və Gürcüstan prezidentləri ziyafətdə nitq söylədilər.*

## AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN NİTQİ

Türkiyə Cümhuriyyətinin prezidenti hörmətli Əhməd Necdət Sezər!

Gürcüstan prezidenti hörmətli Eduard Şevardnadze!

Hörmətli qonaqlar, dostlar!

Bu gün biz tarixi bir gün yaşayırıq. Bu gün bir neçə il üzərində işlədiyimiz və çox həyata keçirmək istədiyimiz "Bakı–Tbilisi–Ceyhan" əsas ixrac boru kəmərinin inşasına başlanılmasının təməlini qoyduq. Mən çox məmnunam ki, bunu biz Türkiyə Cümhuriyyəti ilə, Gürcüstanla və Amerika Birləşmiş Ştatları ilə bir yerdə edirik. ABŞ-ın Energetika naziri bu mərasimdə iştirak etdi, ancaq onun Tokioda təcili işi olduğuna görə ziyafətə qala bilmədi.

Biz bu gün Səngəçalda, Bakı küləyinin əsməsinə baxmayaraq, çox böyük mərasim keçirdik. Yəni kəmərin təməl daşını atdıq, "Bakı–Tbilisi–Ceyhan" əsas ixrac boru kəmərinə yol açdıq. Bununla əlaqədar biz – prezident Əhməd Necdət Sezər, prezident Eduard Şevardnadze, Amerika Birləşmiş Ştatlarının Energetika naziri, mən orada nitqlər söyləmişik və "Bakı–Tbilisi–Ceyhan" haqqında öz fikirlərimizi, sözlərimizi, arzularımızı

demişik. Ona görə də mən indi yemək vaxtı bu barədə danışmaq istəmirəm. İstəyirəm deyəm ki, "Bakı–Tbilisi–Ceyhan" boru xəttinin hazırlanmasında və indi ona həyat verilməsində iştirak edənlərin hamısına ürəkdən təşəkkür edirəm.

Türkiyə Cümhuriyyətinin prezidenti hörmətli Əhməd Necdət Sezərə, Gürcüstan prezidenti hörmətli Eduard Şevardnadzeyə, Amerika Birləşmiş Ştatlarının Energetika naziri cənab Spenser Abrahama xüsusi təşəkkür edirəm. Ancaq bu böyük layihənin hazırlanmasında bizimlə bərabər, bizdən də çox zəhmət çəkənlər var. Birincisi, Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti və onun tərkibində olan şirkətlər, Azərbaycan Dövlət Neft Şirkəti. Mən bu gün onların indiyə qədər gördükləri işi yüksək qiymətləndirərək bəyan edirəm ki, bu işlərin hamısı beynəlxalq standartlara uyğundur və bizim Xəzər dənizində neft hasilatı ilə əlaqədar bütün istək və arzularımızı yerinə yetirə biləcəkdir. Ona görə də bu şirkətlərə təşəkkür edir, onların çox yüksək peşəkarlığını qeyd edirəm. Mən eyni zamanda, bütün neftçilərə, inşaatçılara, bütün fəhlələrə, Azərbaycan övladlarına, müxtəlif ölkələrdən Azərbaycana gəlmiş və bu layihələr üzərində çalışan dostlarımızın hamısına təşəkkür edirəm.

Bu təşəkkürləri edərkən mən yalnız bir adamın, cənab Vudvordun xüsusi səylərini və çox yüksək səviyyəli rəhbərliyini qeyd etmək istəyirəm.

"Bakı–Tbilisi–Ceyhan" əsas ixrac boru kəməri tikilməyə başlandı. Mən sizi təbrik edirəm və "Bakı–Tbilisi–Ceyhan" əsas ixrac neft kəmərinə uğurlu yol arzulayıram.

Bunun üçün qədəhlərinizi qaldırmağı xahiş edirəm.

Hörmətli prezident Əhməd Necdət Sezər!

Hörmətli prezident Eduard Şevardnadze!

Hörmətli qonaqlar, dostlar!

"Bakı–Tbilisi–Ceyhan" neft kəməri üç dövlətin ərazisindən keçir. Neft Azərbaycanda hasil edilir və bundan sonra da hasil olunacaqdır. Amma neftin dünya bazarlarına çıxarılması üçün, təbiidir ki, bizim üçün çox əlverişli marşrut lazımdır. Burada da çox fikirləşmək lazım deyildi. Çünki biz "Bakı–Tbilisi–Ceyhan" layihəsinə 1994-cü ildə Türkiyə Cümhuriyyəti və Gürcüstan ilə bir yerdə başlamışdıq.

Biz əvvəldən Türkiyə Cümhuriyyəti, onun hökuməti ilə, Türkiyənin keçmiş prezidenti mərhum Turqut Özalla, 9-cu prezidenti hörmətli Süleyman Dəmirəllə bu işləri bir yerdə başlamışdıq, bir yerdə çalışırdıq. Bu boru xətti Türkiyəsiz ola bilməzdi. Biz Türkiyədən savayı, başqa ölkədən, regiondan boru xəttini keçirmək istəməmişik. Ona görə də bizim əməkdaşlığımız çox səmərəli olubdur. Türkiyənin şirkətləri burada çox işlər görüblər. Biz daim məsləhətləşdik və təsadüfi deyil ki, "Bakı–Tbilisi–Ceyhan" əsas ixrac kəmərinin inşa olunması haqqında 1998-ci ildə ilk dəfə Ankara bəyannaməsini qəbul etdik. Daha

sonra, 1999-cu ildə İstanbulda, ATƏT-in zirvə görüşündə bu barədə saziş imzalandı. Bu sazişi Azərbaycan prezidenti, Türkiyə prezidenti və Gürcüstan prezidenti imzaladı. Qazaxıstan prezidenti də buna qoşuldu. Ən əhəmiyyətlisi də odur ki, Amerika Birləşmiş Ştatlarının keçmiş prezidenti Bill Klinton da bu sazişi dəstəklədi və biz birlikdə böyük bəyanat verdik və prezident Bill Klinton da həmin bəyanata öz imzasını atdı.

1999-cu ildən sonra əsas işlər başlandı. Bu işlərdə yenə də Türkiyə ilə Azərbaycan sıx əməkdaşlıq edirdi və Türkiyənin prezidenti hörmətli Əhməd Necdət Sezər də bizimlə bərabər bu layihənin həyata keçirilməsi üçün çox səylər qoymuşdur, çox zəhmət çəkmişdir.

Türkiyə bizim üçün dost, qardaş ölkədir. Türkiyə xalqı ilə Azərbaycan xalqı arasında qədim dostluq, qardaşlıq əlaqələri var. Türkiyə bu gün də bizim üçün güvənc yeridir. Türkiyə bizim dostumuzdur. Biz Türkiyə ilə olan bu dostluğumuzu daim, əbədi olaraq davam etdirəcəyik.

Rica edirəm, qədəhlərinizi Türkiyə Cümhuriyyətinin və Türkiyə xalqının şərəfinə, Türkiyənin prezidenti hörmətli Əhməd Necdət Sezərin şərəfinə qaldırasınız.

**TÜRKİYƏ PREZİDENTİ ƏHMƏD NECDƏT SEZƏRİN NİTQİ**

Əziz dostum, cümhur başqanı Heydər Əliyev!

Əziz dostum, cümhur başqanı Eduard Şevardnadze!

Dəyərli qonaqlar!

Bu tarixi bir gündə qardaş ölkə Azərbaycanda olmaqdan böyük sevinc duyuram.

Bu gün ölkələrimiz, xalqlarımız üçün böyük əhəmiyyət daşıyan "Bakı–Tbilisi–Ceyhan" boru xəttinin təməlinin qoyulması mərasiminin gerçəkləşdirilməsində iştirak etməyimiz bizə qürur və məmnunluq verir.

Türkiyə üçün öz qonşuları ilə əlaqələri inkişaf etdirmək hər zaman önəmli olmuşdur. Ətrafdakı və bölgədəki dövlətlərlə sülh və sabitlik yaratmaq məqsədi daşıyan Türkiyənin bu münasibəti böyük öndərimiz Atatürkün "Yurdda sülh, cahanda sülh" sözlərində gözəl şəkildə ifadə olunmuşdur.

Qonşularımız arasında Azərbaycan ilə Gürcüstanın xüsusi və ayrıca yeri vardır. Bu, coğrafi yaxınlıqdan əlavə, xalqlarımız arasındakı güclü mədəni və tarixi əlaqələrdən qaynaqlanır.

Sovetlər Birliyi dağıldıqdan sonra Türkiyə iki dəyərli qonşusu – Azərbaycan və Gürcüstanla əlaqələrini yeni anlayışla canlandırmağa başlamışdır. Xalqlarımız arasındakı qardaşlığa, tarixi və mədəni əlaqələrə söykənən strateji tərəfdaşlığımız hər ötən gün daha da sağlam bünövrə üzərində inkişaf etməkdədir.

Çox hörmətli Cümhur başqanları!

Dəyərli qonaqlar!

Təməlini bu gün qoyduğumuz "Bakı–Tbilisi–Ceyhan" əsas ixrac boru kəməri işbirliyimizin inkişafı yolunda önəmli bir addımdır. Dövlətlərimiz arasındakı işbirliyi yalnız siyasi sahədə əlaqələrin inkişafı ilə məhdudlaşmır. Siyasi sahədə əməkdaşlıq iqtisadi və mədəni işbirliyi ilə dəstəkləndiyi zaman daha da dərinləşir. İndi "Bakı–Tbilisi–Ceyhan" boru xətti iqtisadi maraqlardan əlavə, bu istiqamətdə də əhəmiyyət daşımaqdadır.

Ölkələrimiz arasındakı siyasi və iqtisadi əməkdaşlığın gözəl bir nümunəsi olan bu boru xətti həm də xalqlarımızın əbədi olan ümumi maraqlarına xidmət etməkdədir. Türkiyə bütün sahələrdə Azərbaycana və Gürcüstana öz köməyini əsirgəməmiş, bu dost və qardaş ölkələrin yanlarında olmuşdur. Əlaqələrimiz bundan sonra da ümumi mənafelərimiz və beynəlxalq maraqlarımız istiqamətində davam edəcəkdir.

"Bakı–Tbilisi–Ceyhan" boru xətti bu istiqamətdəki qətiyyətimizi açıq şəkildə ortaya qoymaqdadır. Azərbaycan və Gürcüstanın da öz ölkələrində sülh və sabitlik yaratmaq səylərini dəstəkləməkdə davam edirik. Bu mənada Azərbaycan və Gürcüstanın bölgədə beynəlxalq hüquqa və münasibətlərə zidd olaraq qarşılaşdığı problemləri beynəlxalq hüquq normaları əsasında həll etmələrinə hər cür kömək göstərməyə hazırıq. Qafqazın möhkəm sülhə və sabitliyə nail olması, bu önəmli bölgənin əhəmiyyətli ölkələri olan Azərbaycan və Gürcüstanın demokratik dövlətlər arasında layiq olduqları yeri ən qısa müddətdə əldə etmələri bizə də xoşbəxtlik və qürur verəcəkdir. Türkiyə Azərbaycan və Gürcüstanın bu məqsədə xidmət edən səylərini hər zaman olduğu kimi, bundan sonra da hərtərəfli dəstəkləyəcəkdir.

Hörmətli Heydər Əliyev!

Əziz qardaşım, Azərbaycanda olduğumuz müddətdə Sizin və Azərbaycanın digər vəzifəli şəxslərinin bizə göstərdikləri qonaqpərvərlik üçün təşəkkürlərimi bildirmək istəyirəm. Azərbaycanın öz vətənimiz olduğunu, eyni yurdun övladları olduğumuzu bir daha hiss etdik. Xalqlarımızı gözəl günlər gözləyir. Ölkələrimiz arasındakı möhkəm əməkdaşlığımızı davam etdirməyimiz Qafqazı sülh və sabitliyə qovuşduracaq əməkdaşlıq anlayışının bütün bölgəyə yayılmasını sürətləndirəcəkdir. Bu düşüncələrlə hamınızı hörmətlə salamlayır və qədəhimi dostlarım hörmətli Heydər Əliyevin, hörmətli Eduard Şevardnadzenin sağlığına, xalqlarımızın səadəti və müvəffəqiyyətləri, ölkələrimizin əbədi birliyi şərəfinə qaldırıram.

**AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN NİTQİ**

Hörmətli qonaqlar!
Hörmətli dostlar!
Hörmətli prezident Əhməd Necdət Sezər!
Hörmətli prezident Eduard Şevardnadze!

Azərbaycan ilə Gürcüstan qonşu, dost, qardaş dövlətlərdir. Tale bizim xalqlarımızı Qafqazın gözəl bölgəsində yerləşdiribdir. Sevindirici hal odur ki, əsrlər boyu, tarixin bütün zamanlarında Gürcüstan ilə Azərbaycan arasında heç bir nifaq, münaqişə olmamış və bir-birimizlə dostluq, mehribanlıq, qonşuluq şəraitində yaşamışıq.

Biz "Bakı–Tbilisi–Ceyhan" əsas ixrac boru kəməri layihəsinin, ümumiyyətlə, 1994-cü ildə Azərbaycanın neft strategiyasının həyata keçirilməsinə başlayanda bilavasitə Gürcüstanla və onun prezidenti hörmətli Şevardnadze ilə əməkdaşlıq etmişik. Hasil ediləcək neftin Qərb istiqamətində, Gürcüstan ərazisindən nəqli üçün biz çox çalışdıq, prezident Şevardnadze də çox çalışdı. Çünki bu marşruta çox mane olanlar var idi. Ancaq bunların hamısı aradan götürüldü və artıq onun qarşısını heç kəs ala bilməz.

İlkin neftin ixracı üçün biz Bakıdan Novorossiyskə – Rusiyanın Qara dəniz sahilindəki limanına boru xətti çəkdik və onunla nefti ixrac etməyə başladıq. Ancaq bizim əsas məqsədimiz Qərb istiqamətində Bakı-Supsa xəttini – Gürcüstanın Qara dənizdəki limanına böyük neft kəməri çəkmək idi. Biz buna da nail olduq. 1999-cu ildə bu boru xətti artıq istismara başladı və o vaxtdan indiyə qədər Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti hasil etdiyi neftin hamısını bu xətlə ixrac edir. Bakı-Supsa xətti ilə artıq 23 milyon ton neft ixrac olunubdur.

"Bakı–Tbilisi–Ceyhan" kəməri üçün, təbiidir ki, ən əlverişli marşrut Gürcüstandan, Türkiyədən keçən marşrutdur. Bunun üçün də çox işlər görməli olduq. Ancaq, Allaha şükürlər olsun ki, biz bu gün böyük bayram edirik. Bayram edirik ki, "Bakı–Tbilisi–Ceyhan" boru xəttinin inşasına başlanıbdır və bu boru xətti ilə neft Azərbaycandan, Gürcüstanın ərazisindən, Türkiyənin ərazisindən keçərək Aralıq dənizindəki Ceyhan limanına çatacaqdır.

Beləliklə, prezident Şevardnadze əvvəldən indiyə qədər bu layihənin hazırlanması, həyata keçirilməsi üçün çox səylər qoymuşdur və ümumi səylərimizin, işbirliyimizin nəticəsində də biz indi bu xoşbəxt günə gəlib çatmışıq. Gürcüstan ilə bizim başqa sahələrdə də əməkdaşlığımız var və bu əməkdaşlıq bundan sonra da davam edəcəkdir.

Məlumdur ki, Gürcüstan indi müəyyən səbəblərdən gərgin vəziyyət keçirir. Ancaq biz bilirik ki, gürcü xalqı və onun hörmətli prezidenti böyük iradəyə malikdirlər. Ona görə öz dövlətinin suverenliyinin, ərazi bütövlüyünün qorunması yolunda nə lazımdırsa, edəcəklər.

Təklif edirəm, qədəhlərimizi gürcü xalqının şərəfinə, müstəqil, azad Gürcüstanın şərəfinə və Gürcüstanın prezidenti hörmətli Eduard Şevardnadzenin şərəfinə qaldıraq.

**GÜRCÜSTAN PREZİDENTİ EDUARD ŞEVARDNADZENİN NİTQİ**

Əziz dostum, əziz qardaşım, Azərbaycan dövlətinin prezidenti cənab Heydər Əliyev!

Əziz dostum, bizə qardaş Türkiyənin prezidenti cənab Sezər!

Hörmətli xanımlar və cənablar!

Bu gün tarixi bir gündür. Həqiqətən tarixi bir gün – üç xalqın, millətin, üç dövlətin həyatında tarixi bir gün. Mən məcburam ki, öz çıxışımı qısaldam. Çünki gördüyünüz kimi, iki dilə tərcümə olunur. Mən burada sizə oxumaq üçün yazdıqlarımın hamısını desəm, onda biz səhərə qədər burada oturmalı olarıq. Ona görə də bu gün burada konkret olaraq qarşıma qoyduğum məqsəd ondan ibarətdir ki, Azərbaycan xalqının böyük oğlu, dünyada tanınmış siyasətçi, Azərbaycan xalqının tanınmış lideri cənab Heydər Əliyevə öz səmimi minnətdarlığımı bildirim.

1990-cı illərdən üzü bu yana mən və dostum, qardaşım Heydər Əliyev neft kəmərlərinin, qaz kəmərlərinin problemlərinə dəfələrlə qayıtmışıq, müzakirələr aparmışıq.

Bu gün mən və mənim xalqım xoşbəxtdir. Ona görə xoşbəxtdir ki, bu günü də gördük. "Bakı–Tbilisi–Ceyhan" layihə, ideya deyil, artıq həyata keçirilmiş işdir. Bu layihəyə, həmin ideyaya qarşı ayrı-ayrı dövlətlər və qüvvələr tərəfindən, demək olar ki, fasiləsiz təzyiqlər var idi. Qızğın mübarizələr gedirdi, kənardan müdaxilələr olurdu, göstərişlər verilirdi. Çalışırdılar ki, bu layihənin həyata keçirilməsinə hər cür maneçilik etsinlər. Mən bu gün dediyim sözləri sizin qarşınızda da bir daha təkrar etmək istəyirəm. Heydər Əliyevin şəxsi qəhrəmanlığı, müdrikliyi, cəsarəti olmasaydı, həmin layihə bu gün də həyata keçirilə bilməyəcəkdi. Mən göstərdiyi şücaətə, qəhrəmanlığa və mərdliyə görə bir daha sizin qarşınızda xalqım adından, öz adımdan Azərbaycanın prezidenti cənab Heydər Əliyevə dərin minnətdarlığımı bildirmək istəyirəm. Gürcü, Azərbaycan və türk xalqları üçün etdiklərinə görə mən ona minnətdarlığımı bildirmək istəyirəm.

Mən Bakıya ona görə gəldim ki, bir daha buradan böyük türk xalqını, böyük Türkiyəni, onun rəhbərlərini, böyük mədəniyyətin və böyük tarixin sahibi olan türk xalqını buradan salamlayım. Türkiyənin dəstəyi olmasaydı, Türkiyənin keçmiş prezidenti Süleyman Dəmirəlin, Türkiyənin çağdaş prezidenti cənab Sezərin dəstəyi olmasaydı, beynəlxalq dəstək olmasaydı, sözsüz ki, biz bu layihəni həyata keçirə bilməzdik. Ona görə də türk xalqına bir daha dərin minnətdarlığımı bildirirəm. Ona görə dərin minnətdarlığımı bildirirəm ki, onların dəstəyi ilə biz tarixən qısa müddət olan on il ərzində mümkün

olmayan uğurlar qazandıq. Ona görə də mən cənab Sezərdən xahiş edirəm ki, bizim salamlarımızı, minnətdarlığımızı böyük türk xalqına çatdırsın.

Cənab Heydər Əliyev bu gün artıq qeyd etdi ki, həmin layihənin həyata keçirilməsində Amerika Birləşmiş Ştatlarının misilsiz rolu olmuşdur. Doğrudan da, Amerika Birləşmiş Ştatlarının, onun rəhbərlərinin və prezident Corc Buşun dəstəyi olmasaydı, bu layihə həyata keçirilə bilməzdi.

Xoşbəxtəm ki, bu gün mən burada nəhəng, dünyamiqyaslı neft şirkətlərinin nümayəndələrini görürəm. Həmin şirkətlər əllərindən gələni, nə vaxtlarını, nə də vəsaitlərini əsirgəmirlər ki, Xəzər dənizinin sərvətləri bütün dünyanın sərvəti olsun.

Artıq neçə illərdir bizim dövlətlərimizin xeyrinə fasiləsiz və maneəsiz işləyən Bakı-Supsa neft kəməri təsdiq etmişdir ki, Gürcüstan Sizin, Azərbaycan xalqının, dövlətinin layiqli tərəfdaşıdır. Mən əmin etmək istəyirəm ki, biz həmişə, daim sizin tərəfdaşınız olacağıq.

Bir məsələni də qeyd etmək istəyirəm. Gürcüstanda artıq neçə müddətdir ki, böyük qaz kəmərinin tikintisi barədə düşünürlər, bunu arzu edirlər. Sözsüz ki, bu, təkcə gürcü xalqının yox, həm də Azərbaycan xalqının, başqa dövlətlərin istəyinə uyğundur. Bizim layihəmizə, həyata keçirdiyimiz bu böyük işlərə gələcəkdə qoşulacaq ayrı-ayrı dövlətlərə, ölkələrə indidən minnətdarlığımı bildirmək istəyirəm. Bu işdə Gürcüstana, Azərbaycana, Türkiyəyə qoşulacaq ayrı-ayrı dövlətlərə indidən təşəkkürümü çatdırıram. Mənə belə gəlir ki, gələcəkdə Qazaxıstan, Orta Asiya dövlətləri hökmən həmin ideyaya qoşulacaqlar.

Mən əminəm ki, üç layihə – mən iki ixrac neft kəmərini və qaz kəmərini nəzərdə tuturam – üç dənizsahili dövləti bir-biri ilə daha möhkəm tellərlə bağlayacaqdır. Mən Xəzər dənizini, Qara dənizi və Aralıq dənizini nəzərdə tuturam.

Mən badəni, sözsüz ki, ilk növbədə dostum, qardaşım, Azərbaycan dövlətinin prezidenti Heydər Əliyevin sağlığına və Türkiyə Cümhuriyyətinin prezidenti Əhməd Necdət Sezərin sağlığına və onlar başda olmaqla sizin hər birinizin sağlığına qaldırıram.

**AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN NİTQİ**

Hörmətli xanımlar və cənablar, dostlar!

Bu gün bütün mərasim vaxtı "Bakı–Tbilisi–Ceyhan" neft kəməri layihəsinin hazırlanması və onun həyata keçirilməsi haqqında çox danışıldı.

Bu layihənin həyata keçirilməsinə müqavimət göstərənlər, maneçilik edənlər var idi. Ancaq Amerika Birləşmiş Ştatlarının hökumətinin əvvəldən, 1994-cü ildən Xəzər hövzəsinə, Azərbaycan neftinə göstərdiyi maraq və ümumiyyətlə, Qafqaza, Azərbaycan

bölgəsinə göstərdiyi maraq ABŞ-ı "Bakı–Tbilisi–Ceyhan" neft kəmərinin həyata keçirilməsinə çox yaxından cəlb etdi. Ona görə də biz Amerika Birləşmiş Ştatlarının hökuməti ilə bu barədə çox danışıqlar aparırdıq. Prezidentdən bizə məktublar gəlirdi. Həmin məktublarda bizim apardığımız iş dəstəklənirdi. Deyə bilərəm ki, əgər Amerika Birləşmiş Ştatlarının, onun hökumətinin güclü dəstəyi olmasaydı, "Bakı–Tbilisi–Ceyhan" ixrac neft kəməri bugünkü vəziyyətə gəlib çata bilməzdi.

Amerika Birləşmiş Ştatlarının Energetika naziri mənimlə söhbətdə dedi ki, ABŞ özünün uzunmüddətli neft strategiyasını hazırlayıb və həyata keçirir. Bu strategiyada Xəzər dənizinin sərvətləri, neft sərvətləri, Azərbaycan özünün xüsusi yerini tutubdur. Mən çox məmnunam ki, prezident Buş bu məsələlərə və Azərbaycana çox diqqət yetirir və bizim burada apardığımız işlərin həyata keçirilməsi üçün dəstək verir və güman edirəm ki, bundan sonra da biz bunun şahidi olacağıq.

Prezident Buş bu gün bizə çox dəyərli təbrik məktubu göndəribdir. Ona görə mən bir daha təşəkkür edirəm.

Biz Fransa prezidenti Jak Şirakdan, Böyük Britaniyanın Baş naziri Toni Bleyrdən, Norveçin Baş nazirindən də çox dəyərli təbrik məktubları almışıq. Bunlara görə mən öz minnətdarlığımı və təşəkkürümü bildirirəm.

Mən rica edirəm, qədəhlərinizi dünyanın ən qüdrətli dövləti, ölkəsi olan Amerika Birləşmiş Ştatlarının, onun xalqının şərəfinə, Azərbaycanda böyük işlər görən Amerika vətəndaşlarının şərəfinə, ABŞ-ın prezidenti hörmətli Corc Buşun şərəfinə qaldırasınız.

**Əliyev Heydər Əlirza oğlu.** *Müstəqilliyimiz əbədidir: 41-ci kitab. Bakı: Azərnəşr, 2012.- S. 103-105*

# ATƏT-İN İSTANBUL SAMMİTİNDƏ "BAKI–TBİLİSİ–CEYHAN" ƏSAS İXRAC BORU KƏMƏRİNİN MÜDAFİƏSİ ÜÇÜN DÖVLƏTLƏRARASI RAZILAŞMA

*18 noyabr 1999-cu il*

Noyabrın 18-də İstanbulun "Çırağan sarayı"nda "Xam neftin Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Respublikasının əraziləri ilə "Bakı–Tbilisi–Ceyhan" əsas ixrac boru kəməri vasitəsilə nəql edilməsinə dair Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Respublikası arasında sazişin, "Bakı–Tbilisi–Ceyhan" əsas ixrac boru kəmərinin layihəsini dəstəkləmək, Qazaxıstanın neft Həcmlərini bu layihəyə cəlb etmək üçün ABŞ-ın şahidliyi ilə Azərbaycan Respublikası, Türkiyə Respublikası, Gürcüstan və Qazaxıstan Respublikası arasında "İstanbul bəyannaməsi"nin, Transxəzər qaz kəməri barədə Azərbaycan Respublikası, Türkiyə Respublikası, Gürcüstan və Türkmənistan arasında "Hökumətlərarası bəyannamənin, Azərbaycan qaz layihələrinin inkişafını və Azərbaycan qazının Türkiyə Respublikasına və digər beynəlxalq bazarlara satışını dəstəkləyən sənəd kimi Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Respublikası arasında "Qarşılıqlı anlaşma memorandumu"nun imzalanması mərasimi oldu.

Salona toplaşanlar Azərbaycan Prezidenti Heydər Əliyevi, Türkiyə Prezidenti Süleyman Dəmirəli, ABŞ Prezidenti Bill Klintonu, Gürcüstan Prezidenti Eduard Şevardnadzeni, Qazaxıstan Prezidenti Nursultan Nazarbayevi, Türkmənistan Prezidenti Saparmurad Niyazovu, Norveçin Baş naziri Giyel Maqne, Türkiyənin baş naziri Bülənd Eceviti və bu ölkələrin digər rəsmi şəxslərini alqışlarla qarşıladılar.

"Xam neftin Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Respublikasının əraziləri ilə "Bakı–Tbilisi–Ceyhan" əsas ixrac boru kəməri vasitəsilə nəql edilməsinə dair Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Respublikası arasında" Sazişi prezidentlər Heydər Əliyev, Eduard Şevardnadze və Süleyman Dəmirəl imzaladılar.

"Bakı–Tbilisi–Ceyhan" əsas ixrac boru kəmərinin layihəsini dəstəkləmək, Qazaxıstanın neft həcmlərini bu layihəyə cəlb etmək üçün ABŞ-ın şahidliyi ilə Azərbaycan Respublikası, Türkiyə Respublikası, Gürcüstan və Qazaxıstan Respublikası arasında "İstanbul bəyannaməsi"ni Prezidentlər Bill Klinton, Heydər Əliyev, Süleyman Dəmirəl, Eduard Şevardnadze və Nursultan Nazarbayev imzaladılar.

Sonra Prezidentlər Transxəzər qaz kəməri barədə Azərbaycan Respublikası, Türkiyə Respublikası, Gürcüstan və Türkmənistan arasında "Hökumətlərarası bəyannamə"ni imzaladılar.

Daha sonra Prezidentlər Azərbaycan qaz layihələrinin inkişafını və Azərbaycan qazının Türkiyə Respublikasına və digər beynəlxalq bazarlara satışını dəstəkləyən sənəd kimi Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Respublikası arasında "Qarşılıqlı anlaşma memorandumu"nu imzaladılar.

Amerika Birləşmiş Ştatlarının Prezidenti Bill Klinton Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevi və digər Prezidentləri Bakı-Ceyhan əsas ixrac boru kəməri barədə sənədlərin imzalanması münasibətilə hərarətlə, səmimiyyətlə təbrik etdi.

Mərasimdə Heydər Əliyev nitq söyləmişdir.

**AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN NİTQİ**

– Hörmətli Prezidentlər!

Hörmətli dostlar!

Hörmətli xanımlar və cənablar!

Mən bu gün böyük iftixar hissi keçirirəm. Ona görə ki, beş il bundan öncə, 1994-cü ilin sentyabr ayında Bakıda imzalanmış "Əsrin müqaviləsi" adlı böyük neft müqaviləsinə, Xəzər dənizinin neft və qaz ehtiyatlarından müştərək istifadə etmək üçün yaranmış konsorsiumun tərkibinə Azərbaycan, Amerika Birləşmiş Ştatları, Avropa ölkələri, Türkiyə və Rusiya daxildirlər və bu müqavilənin imzalanmasından beş il keçəndən sonra həmin müqavilə imzalanarkən nəzərdə tutulmuş "Bakı–Tbilisi–Ceyhan" neft kəmərinin həyata keçirilməsi üçün artıq bu gün bu sənədlər imzalandı.

Məlumdur ki, bu, asan iş deyildi. Bizim qarşımızda çox böyük çətinliklər var idi. "Əsrin müqaviləsi"ni imzalayanda da biz böyük çətinliklərlə rastlaşdıq. Sonra da Bakı-Ceyhan neft kəmərini çəkmək üçün bizim qarşımızda çox böyük maneçiliklər, əleyhimizə çıxanlar var idi. Ancaq biz öz iradəmizi itirmədik, başladığımız işi axıra çatdırdıq.

Bu barədə Türkiyə Cümhuriyyəti ilə Azərbaycan arasında olan əməkdaşlıq xüsusi əhəmiyyət kəsb edir. Ona görə də mən Türkiyə Cümhuriyyətini, Türkiyə xalqını və Türkiyə Cümhuriyyətinin Prezidenti, əziz dostum, qardaşım Süleyman Dəmirəli ürəkdən təbrik edirəm.

Biz bu boru xəttini Gürcüstandan keçiririk. Şübhəsiz ki, əgər bu xəttin Gürcüstan ərazisindən keçməsi mümkün olmasaydı bu, baş tutmazdı. Ona görə də Gürcüstan Prezidenti cənab Şevardnadzenin də bu məsələnin həll edilməsi üçün çox böyük səyləri

olmuşdur. Mən gürcü xalqını, Gürcüstanı və əziz dostum, qardaşım Eduard Şevardnadzeni ürəkdən təbrik edirəm.

Ancaq onu da bəyan edirəm ki, əgər bu məsələləri həyata keçirmək üçün Amerika Birləşmiş Ştatlarının dəstəyi olmasaydı biz bunların heç birisini edə bilməzdik.

"Əsrin müqaviləsi"nin imzalanmasından əvvəl müstəqil Azərbaycana qarşı bir il böyük təzyiqlər, göstərildi, Bizim qarşımızı almaq istəyirdilər. Məhz Amerika Birləşmiş Ştatlarının, onun Prezidenti, hörmətli dostum cənab Bill Klintonun dəstəyi nəticəsində biz 1994-cü ilin sentyabrında "Əsrin müqaviləsi"ni imzaladıq. Amma ondan sonra da problemlərimiz çox oldu. Bakı-Ceyhanı başqa ölkələr qəbul etmirdilər. Ancaq hörmətli cənab Prezident Bill Klinton bu məsələ ilə ardıcıl surətdə məşğul olurdu, bizə dəstək, ruh verirdi və Türkiyəni, Azərbaycanı, Gürcüstanı, Xəzəryanı başqa ölkələri bu məsələyə cəlb edirdi, öz hörməti, öz nüfuzu ilə, bu barədə ardıcıl siyasəti ilə biz belə böyük "Əsrin müqaviləsi"nin imzalanmasına nail olduq.

Ona görə də mən, biz hamımız birlikdə Amerika Birləşmiş Ştatlarına, onun Prezidenti, əziz dostumuz cənab Bill Klintona təşəkkürümüzü və minnətdarlığımızı bildiririk. Hörmətli cənab Prezident Bill Klinton, mən Sizi də bu münasibətlə ürəkdən təbrik edirəm.

Bu boru xəttinin, yəni, neft kəmərinin istifadə edilməsi layihəsinə indi Qazaxıstan da qoşulubdur. Qazaxıstan da öz neftinin böyük bir hissəsini bu kəmər vasitəsilə keçirəcəkdir.

Biz Azərbaycan olaraq, – Gürcüstan da bunu qəbul edibdir, – bunu qəbul etmişik və üzərimizə düşən bütün öhdəlikləri həyata keçirəcəyik. Hesab edirəm ki, Qazaxıstan bu yolla, bu boru xətti ilə neftin ixracında böyük uğurlar əldə edəcəkdir. Ona görə də mən qazax xalqını və Qazaxıstan Prezidenti, əziz dostum Nursultan Nazarbayevi ürəkdən təbrik edirəm.

Mən Türkiyə xalqına, Türkiyənin vətəndaşlarına hörmət və ehtiramımı bildirirəm və onları təbrik edirəm. Beş ildir ki, Türkiyəyə hər dəfə gələndə mənə sual verirdilər: Bakı-Ceyhan boru xətti nə vaxt olacaqdır? Mən də hər dəfə deyirdim ki, olacaqdır, olacaqdır, olacaqdır! Artıq bu gün bu oldu və saziş imzalandı. Hamınızı ürəkdən təbrik edirəm!

# "BAKI–TBİLİSİ–CEYHAN" ƏSAS İXRAC BORU KƏMƏRİ LAYİHƏSİNDƏ AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT NEFT ŞİRKƏTİNİN İŞTİRAK PAYININ MALİYYƏLƏŞDİRİLMƏSİ HAQQINDA

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti və dünyanın tanınmış neft şirkətləri arasında 1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanması ilə təməli qoyulmuş Azərbaycan Respublikasının neft strategiyası müvəffəqiyyətlə inkişaf etdirilərək hazırda keyfiyyətcə yeni mərhələyə qədəm qoymuşdur.

Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti tərəfindən "Azəri–Çıraq–Günəşli" yataqlarının tammiqyaslı işlənilməsinə başlanması barədə qərarın qəbul edilməsi, bu məqsədlə 10 milyard ABŞ dollarından artıq sərmayə qoyuluşunun nəzərdə tutulması cari onilliyin sonuna qədər qeyd edilən yataqların istismarından ildə 50 milyon tondan artıq neftin hasil olunmasına imkan verəcək irimiqyaslı xarici sərmayə qoyuluşunu və artan neft hasilatını şərtləndirən əsas amil neftin beynəlxalq bazarlara ixracını təmin edən nəql infrastrukturunun yaradılmasıdır.

Azərbaycan dövlətinin iradəsi və ardıcıl səyləri nəticəsində 1999-cu ilin noyabrında İstanbulda "Xam neftin Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Cümhuriyyətinin əraziləri ilə "Bakı–Tbilisi–Ceyhan" Əsas İxrac Boru Kəməri vasitəsi ilə nəql edilməsinə dair" Saziş imzalanmışdır.

Eyni vaxtda Azərbaycan, Gürcüstan, Türkiyə, Qazaxıstan və Amerika Birləşmiş Ştatlarının dövlət başçıları bu layihəni dəstəkləyən və onun uğurla həyata keçirilməsi üçün möhkəm zəmin yaradan "İstanbul Bəyannaməsi"ni imzaladılar.

Əsas neft ixrac boru kəmərinin inşası irimiqyaslı infrastruktur layihəsi olmaqla yanaşı, həm də yüksək səmərəliliyə malik olan əlverişli kommersiya layihəsidir.

"Bakı–Tbilisi–Ceyhan" Əsas İxrac Boru Kəməri Layihəsinin Azərbaycan Respublikasının neft strategiyasının və xarici neft şirkətləri ilə işgüzar əməkdaşlığın davam etdirilməsi, sərmayəçilərlə bağlanmış sazişlər çərçivəsində hasil edilən neftin dünya

bazarlarına çıxarılması .və xalqımızın sosial-iqtisadi rifahının yüksəldilməsi üçün mühüm siyasi və iqtisadi əhəmiyyətini nəzərə alaraq və Azərbaycan Respublikasının bu layihədə mənafelərini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin "Bakı–Tbilisi–Ceyhan" Əsas İxrac Boru Kəməri Layihəsinin maliyyələşdirilməsinə dair aşağıdakı təklifləri məqbul hesab edilsin:

Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin "Bakı–Tbilisi–Ceyhan" Əsas İxrac Boru Kəməri Layihəsində 25% həcmində iştirak payının 70%-ə yaxın hissəsinin Layihənin digər iştirakçıları ilə birgə xarici maliyyə-bank qurumlarından kreditin cəlb edilməsi yolu ilə, qalan hissəsinin isə dövlətin daxili imkanları hesabına maliyyələşdirilməsi barədə;

"Bakı–Tbilisi–Ceyhan" Əsas İxrac Boru Kəməri Layihəsinin digər iştirakçıları ilə yanaşı, Layihədə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin iştirakını təmin etmək məqsədi ilə onun törəmə şirkətinin təsis edilməsi və bu şirkət vasitəsi ilə Layihə üzrə bütün mülkiyyət hüquqlarına və idarəetmə səlahiyyətlərinə malik olacaq layihə üzrə konsorsiumda 25% həcmində müvafiq payın əldə edilməsi barədə;

xarici maliyyə-bank qurumları tərəfindən veriləcək kredit vəsaitlərinin müqabilində "Bakı–Tbilisi–Ceyhan" Əsas İxrac Boru Kəmərinin istismara verilməsinədək dövrü əhatə edən və bu qurumların məqbul saydığı tamamlama zəmanətlərinin layihə iştirakçıları tərəfindən təqdim edilməsi şərtini nəzərə alaraq Britiş Petroleum, Statoyl və Yunokal şirkətləri tərəfindən bu şirkətlərlə Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə razılaşdırılmış şərtlərə uyğun olaraq Dövlət Neft Şirkətinin əvəzinə onun iştirak payına mütənasib cəlb edilən kredit vəsaiti üzrə əks-zəmanətin verilməsi və bunun müqabilində boru kəmərinin istismara verilməsindən sonra 2 mln. barel həcmində xam mənfəət neftinin Britiş Petroleum, Statoyl və Yunokal şirkətlərinə təqdim edilməsi barədə;

2. Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin "Bakı–Tbilisi–Ceyhan" Əsas İxrac Boru Kəməri Layihəsində iştirakının dövlətin daxili imkanları hesabına maliyyələşdirilməsini təmin etmək məqsədi ilə:

Azərbaycan Respublikası Milli Bankı Bankın xarici valyuta ehtiyatlarının formalaşma mənbələrindən birini 2000-ci ilədək neft sazişləri çərçivəsində xarici sərmayəçilər tərəfindən Azərbaycan Respublikasına ödənilmiş bonusların təşkil etdiyini nəzərə alaraq, bu valyuta ehtiyatlarından 118 milyon ABŞ dolları məbləğində vəsaiti Azərbaycan Respublikasının Dövlət Neft Fonduna köçürsün;

Azərbaycan Respublikasının Dövlət Neft Fonduna tapşırılsın ki, Azərbaycan Respublikası Dövlət Neft Şirkəti tərəfindən "Bakı–Tbilisi–Ceyhan" Əsas İxrac Boru Kəməri Layihəsində iştirak payının maliyyələşdirilməsi üçün hal-hazıradək edilmiş

ödənişlər nəzərə alınmaqla, iştirak payının qalan 30%-ə yaxın hissəsi üzrə tələb olunan vəsaitin bu Fərmanın 1-ci bəndində göstərilmiş Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinin törəmə şirkətində müvafiq pay əldə edilməsi məqsədi ilə həmin törəmə şirkətə uzunmüddətli investisiya edilməsini təmin etsin.

3. Müəyyən edilsin ki, Azərbaycan Respublikası Dövlət Neft Fondunun Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinin törəmə şirkətinə investisiyasının məcmu məbləği "Bakı–Tbilisi–Ceyhan" Əsas İxrac Boru Kəməri Layihəsindəki 25%-lik iştirak payının 30%-ə yaxın hissəsinin maliyyələşdirilməsi üçün kifayət edəcək həcmdə olmalı, lakin bu Fərmanın 1-ci bəndinə müvafiq olaraq cəlb ediləcək kredit vəsaitləri üzrə öhdəlikləri əhatə etməməlidir.

4. Bakı-Tblisi-Ceyhan Əsas İxrac Boru Kəmərinin istismara verilməsi üçün onun Azərbaycan Respublikası Dövlət Neft Şirkəti və Layihənin digər iştirakçıları tərəfindən iştirak paylarına mütənasib həcmlərdə xam neftlə ilkin doldurulması zərurətini nəzərə alaraq, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinə hasilatın pay bölgüsü barədə sazişlər çərçivəsində Azərbaycan Respublikasının payına düşən mənfəət neftinin müvafiq həcmindən bu məqsədlə istifadə etməyə icazə verilsin.

5. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə və Azərbaycan Respublikasının Dövlət Neft Fonduna tapşırılsın ki, xarici sərmayəçilərlə bağlanan neft-qaz ehtiyatlarının kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü, ixrac boru kəmərləri haqqında və bu qəbildən olan digər sazişlər çərçivəsində Azərbaycan Respublikasının və ya onu təmsil edən hüquqi şəxslərin (şəxslərin) strateji əhəmiyyətli neft-qaz kəmərlərinin inşasına və Azərbaycan Respublikası Dövlət Neft Fonduna yönəldilən gəlirlərinin vergilərdən azad edilməsi ilə bağlı Azərbaycan Respublikasının vergi qanunvericiliyinə dəyişikliklərin edilməsi barədə təkliflərini 15 (on beş) gün müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsinlər. Mənfəət neftinin Britiş Petroleum, Statoyl və Yunokal şirkətlərinə təqdim edilməsi barədə.

6. Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi və Azərbaycan Respublikasının Milli Bankı bu Fərmanın icrası ilə bağlı olan müvafiq xüsusi icazələrin 15 gün müddətində verilməsini təmin etsinlər.

7. Azərbaycan Respublikası Nazirlər Kabinetinə tapşırılsın ki, bu Fərmanın icrası ilə bağlı mütəmadi olaraq Azərbaycan Respublikası Prezidentinə məlumat versin və Fərmandan irəli gələn digər məsələləri həll etsin.

8. Bu Fərman imzalandığı gündən qüvvəyə minir.

**Heydər** Əliyev
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 30 iyul 2002-ci il, № 739*

# İXRAC NEFT VƏ QAZ BORU KƏMƏRLƏRİNİN TƏHLÜKƏSİZLİYİNİN TƏMİN EDİLMƏSİ HAQQINDA

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

"Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında" Sazişə uyğun olaraq, hasilat və nəqletmə üçün bir sıra mühüm obyektlər tikilib istismara verilmişdir. Hasil olunan ilkin neftin ixracı Bakı-Novorossiysk və Bakı-Supsa ixrac neft kəmərləri ilə həyata keçirilir.

Bununla əlaqədar ixrac boru kəmərlərinin təhlükəsizliyinin təmin edilməsi, boru kəmərlərinin fasiləsiz və etibarlı işinin təşkili və uzunmüddətli kompleks tədbirlərin işlənib hazırlanması və həyata keçirilməsi mühüm əhəmiyyət kəsb edir.

Xam neftin ixracı ilə bağlı obyektlərlə yanaşı tikilməsi nəzərdə tutulan "Bakı–Tbilisi–Ceyhan" Əsas İxrac Boru Kəmərinin və qaz ixrac kəmərlərinin təhlükəsizliyinin təmin edilməsi məqsədi ilə **qərara alıram:**

1. İxrac neft və qaz boru kəmərlərinin təhlükəsizliyinin təmin edilməsi üzrə aşağıdakı tərkibdə Komissiya təşkil edilsin:

| | |
|---|---|
| **Artur Rasizadə** | Azərbaycan Respublikasının Baş Naziri (sədr) |
| **Abid Şərifov** | Azərbaycan Respublikası Baş nazirinin müavini (sədr müavini) |
| **Vaqif Axundov** | Azərbaycan Respublikası Ali Dövlət Hakimiyyəti və İdarəetmə Orqanlarının Baş Mühafizə İdarəsinin rəisi |
| **Məcid Kərimov** | Azərbaycan Respublikası yanacaq və energetika naziri |
| **Hüseynqulu Bağırov** | Azərbaycan Respublikası ekologiya və təbii sərvətlər naziri |
| **Nadir Əhmədov** | Azərbaycan Respublikası rabitə naziri |
| **Elman Qənbərov** | Azərbaycan Respublikası Hərbi Əks-Kəşfiyyat Xidmətinin rəisi |

| | |
|---|---|
| **Natiq Əliyev** | Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti |
| **Xələf Xələfov** | Azərbaycan Respublikası xarici işlər nazirinin müavini |
| **Tofiq Babayev** | Azərbaycan Respublikası milli təhlükəsizlik nazirinin müavini |
| **Elçin Quliyev** | Azərbaycan Respublikası milli təhlükəsizlik nazirinin müavini – Sərhəd Qoşunlarının Komandanı |
| **Oruc Zalov** | Azərbaycan Respublikası daxili işlər nazirinin müavini |
| **Məmməd Beydullayev** | Azərbaycan Respublikası müdafiə nazirinin müavini |
| **Aydın Əliyev** | Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini |
| **Tofiq Əliyev** | Azərbaycan Respublikası Dövlət Sənayedə İşlərin Təhlükəsiz Görülməsinə Nəzarət və Dağ-Mədən Nəzarəti Komitəsi sədrinin müavini |

2. Komissiyaya tapşırılsın ki, ixrac boru kəmərlərinin təhlükəsizliyinin təmin edilməsi məqsədi ilə Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti ilə birlikdə bir ay müddətində kompleks tədbirlər planını hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

3. Azərbaycan Respublikası Ali Dövlət Hakimiyyəti və İdarəetmə Orqanlarının Baş Mühafizə İdarəsi, Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi və Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi xam neftin ixracı üçün istifadə olunan boru kəmərlərinin təhlükəsizliyinin təmin edilməsi məqsədi ilə xüsusi xidmət yaratsınlar və Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti ilə sıx qarşılıqlı əlaqə şəraitində boru kəmərinin səmərəli mühafizəsini təşkil etsinlər.

4. Azərbaycan Respublikası Ali Dövlət Hakimiyyəti və İdarəetmə Orqanlarının Baş Mühafizə İdarəsi, Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və Azərbaycan Respublikasının Dövlət Sənayedə İşlərin Təhlükəsiz Görülməsinə Nəzarət və Dağ-Mədən Nəzarəti Komitəsi rayon və şəhər icra hakimiyyəti orqanlarının rəhbərləri ilə birlikdə ixrac boru kəmərlərinin və onların infrastruktur obyektlərinin təhlükəsizliyinin təmin edilməsi məsələsini respublikanın inzibati ərazi bölgüsü prinsipi əsasında təşkil etsinlər.

5. Rayon və şəhər icra hakimiyyətlərinə tapşırılsın ki, ərazilərindən keçən Bakı-Supsa və Bakı-Novorossiysk neft kəmərlərinin mühafizə zolağında hər hansı qurğunun yerləşdirilməsinə və tikintinin aparılmasına yol verməməklə həmin kəmərlərin mühafizəsini təmin etsinlər.

6. Respublikanın nazirlik, idarə və təşkilatları ixrac boru kəmərlərinin fasiləsiz işləməsi və təhlükəsizliyi ilə əlaqədar məsələlərin həlli üçün Komissiyaya lazımi kömək göstərsinlər.

7. Komissiya görülən işlər haqqında mütəmadi olaraq Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

8. Bu Fərman imzalandığı gündən qüvvəyə minir.

**Heydər Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 15 aprel 2002-ci il, № 685*

# “BAKI–TBİLİSİ–CEYHAN” ƏSAS İXRAC BORU KƏMƏRİNİN TİKİLMƏSİ VƏ İSTİSMARA VERİLMƏSİ TƏDBİRLƏRİ HAQQINDA

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Dövlət Neft Şirkəti və tərkibinə dünyanın ən böyük neft şirkətlərinin daxil olduğu konsorsium arasında 1994-cü ildə imzalanmış “Əsrin müqaviləsi”nin uğurla həyata keçirilməsi Azərbaycan Respublikasının inkişafı ilə bağlı neft strategiyasının düzgünlüyünü bir daha təsdiq edir.

Ən qısa bir müddətdə “Çıraq-1” ilk hasilat platforması istismara verilmiş, Bakı–Novorossiysk neft kəməri bərpa edilmiş, Bakı–Supsa kəməri tikilmiş, Səngəçal və Supsa terminalları inşa edilmiş, illik neft hasilatının həcmi 5 milyon tona qədər çatdırılmışdır.

2003–2004-cü illər üçün xam neft hasilatı həcminin 20 milyon tona qədər artırılması, sonradan isə onun 40-50 milyon tona çatdırılması gözlənilir, Azərbaycan Respublikasının quru ərazisində və Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən perspektiv strukturlara dair digər müqavilələr də uğurla həyata keçirilir və bu müqavilələrə əsasən xam neftin illik ixrac potensialı 2010-2015-ci illər üçün ən azı 60-70 milyon ton təşkil edəcəkdir. Bu həcmdə neftin beynəlxalq bazarlara etibarlı və dayanmadan nəql edilməsinə dair məsələləri həll etmək çoxvariantlı ixrac kəmərləri sisteminin yaradılması ilə təmin ediləcəkdir ki, bunun da əsasını tikintisi ətrafında 1998-ci ilin may ayından başlayaraq danışıqlar aparılan “Bakı–Tbilisi–Ceyhan” marşrutu üzrə əsas ixrac boru kəməri təşkil edəcəkdir. Bu danışıqların ən mühüm mərhələləri əsas ixrac boru kəməri ilə bağlı işçi qrupunun yaradılmasına və ona danışıqların aparılması üçün lazım olan bütün səlahiyyətlərin verilməsinə dair Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 5 sentyabr tarixli 658 nömrəli sərəncamı və Azərbaycan Respublikası, Gürcüstan, Türkiyə Respublikası, Qazaxıstan Respublikası, Özbəkistan Respublikası Prezidentləri və Amerika Birləşmiş Ştatlarının energetika naziri tərəfindən 1998-ci il oktyabrın 29-da imzalanmış Ankara bəyannaməsi olmuşdur.

Son beş il müddətində aparılan tədqiqatlar və danışıqlar 1999-cu il noyabrın 18-də ATƏT-in İstanbul zirvə görüşü zamanı Azərbaycan Respublikası, Gürcüstan, Türkiyə

Respublikası Prezidentləri tərəfindən xam neftin “Bakı–Tbilisi–Ceyhan” əsas ixrac boru kəməri vasitəsilə nəql edilməsinə dair hökumətlərarası sazişin və Amerika Birləşmiş Ştatları Prezidentinin şahidliyi ilə Azərbaycan Respublikası, Qazaxıstan Respublikası, Gürcüstan, Türkiyə Respublikası Prezidentləri tərəfindən Azərbaycan Respublikasının və digər Xəzəryanı ölkələrin zəngin neft ehtiyatlarının beynəlxalq bazarlara uğurlu ixracının təşkil edilməsi üçün başlıca mərhələ sayılan “Bakı–Tbilisi–Ceyhan” əsas ixrac boru kəməri layihəsinin qısa bir müddət ərzində həyata keçirilməsinə yönəlmiş İstanbul bəyan-naməsinin imzalanması ilə müvəffəqiyyətlə başa çatmışdır.

Yuxarıda adı çəkilən sənədlərin müddəalarına əsaslanaraq və “Bakı–Tbilisi–Ceyhan” əsas ixrac boru kəməri layihəsinin vaxtında həyata keçirilməsi məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Nazirlər Kabineti, Azərbaycan Respublikasının nazirlik, komitə, təşkilat və idarələri “Bakı–Tbilisi–Ceyhan” əsas ixrac boru kəməri layihəsi ilə bağlı məsələlərin həllinə üstünlük versinlər.

2. “Bakı–Tbilisi–Ceyhan” əsas ixrac boru kəməri layihəsinin həyata keçirilməsi üzrə aşağıdakı tərkibdə komissiya təşkil edilsin:

**Abid Şərifov** – Azərbaycan Respublikası Baş nazirinin müavini – komissiyanın sədri

**Natiq Əliyev** – Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti

**İlham Əliyev** – Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti

**Əli Əsədov** – Azərbaycan Respublikası Prezidentinin köməkçisi

**Rasim Dadaşov** – Azərbaycan Respublikası Nazirlər Kabinetinin İşlər idarəsinin şöbə müdiri

**Valeh Ələsgərov** – Azərbaycan Respublikası Dövlət Neft Şirkəti Xarici sərmayələr idarəsinin rəisi

3. Bu Sərəncamın 2-ci bəndinə müvafiq olaraq yaradılmış komissiyaya “Bakı–Tbilisi–Ceyhan” əsas ixrac boru kəməri layihəsi ilə bağlı danışıqların aparılmasına və müvafiq sazişlərin hazırlanmasına, həmçinin onun maliyyələşdirilməsinə, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin və xarici neft şirkətlərinin nümayəndələrindən ibarət təşəbbüs qrupunun yaradılmasına, beynəlxalq boru kəməri şirkətinin təsis edilməsinə və layihənin həyata keçirilməsi ilə əlaqədar müvafiq tədbirlərin icrasına aid səlahiyyətlər verilsin.

4. “Bakı–Tbilisi–Ceyhan” əsas ixrac boru kəməri layihəsinin həyata keçirilməsi üçün komissiyaya tapşırılsın ki, əsas ixrac boru kəmərində Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin iştirak payının maliyyələşdirilməsini təşkil etmək üçün müəyyən olunmuş

qaydada beynəlxalq səviyyədə tanınmış qurumlardan maliyyə məsləhətçisini seçsin və təyin etsin.

5. Azərbaycan Respublikası Nazirlər Kabineti, Azərbaycan Respublikasının müvafiq nazirlik, təşkilat və idarələri "Bakı–Tbilisi–Ceyhan" ƏİBK-nin və tikintilərin verilməsi, ƏİBK layihəsinin maliyyələşdirilməsi, vergi-qoyma, ətraf mühitin mühafizəsi və sair məsələlərin həllində köməklik göstərsinlər.

6. Azərbaycan Respublikası Nazirlər Kabineti, Dövlət Əmlak Nazirliyi və Bakı Şəhər İcra Hakimiyyətinə tapşırılsın ki, yaradılan yeni Beynəlxalq Boru Kəməri Şirkəti üçün inzibati binanın ayrılması məsələsini həll etsinlər.

7. "Bakı–Tbilisi–Ceyhan" ƏİBK-nin istismara veriləcəyi vaxta qədər yaradılan komissiyanın fəaliyyəti ilə bağlı bütün məsrəflər Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin daxili mənbələri hesabına ödənilsin.

8. Komissiya Azərbaycan Respublikasının Prezidentinə "Bakı–Tbilisi–Ceyhan" ƏİBK layihəsinin həyata keçirilməsinin gedişi ilə bağlı mütəmadi olaraq məlumat versin.

9. Əsas ixrac boru kəməri marşrutunun seçilməsi ilə əlaqədar işçi qrupunun fəaliyyətinin başa çatması ilə bağlı Azərbaycan Respublikası Prezidentinin 5 sentyabr 1997-ci il tarixli 656 nömrəli sərəncamı qüvvədən düşmüş hesab edilsin.

10. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**Heydər Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 29 dekabr 1999-cu il*

# XAM NEFTİN AZƏRBAYCAN RESPUBLİKASI, GÜRCÜSTAN VƏ TÜRKİYƏ CÜMHURİYYƏTİNİN ƏRAZİLƏRİ İLƏ “BAKI–TBİLİSİ–CEYHAN” ƏSAS İXRAC BORU KƏMƏRİ VASİTƏSİLƏ NƏQL EDİLMƏSİNƏ DAİR AZƏRBAYCAN RESPUBLİKASI, GÜRCÜSTAN VƏ TÜRKİYƏ CÜMHURİYYƏTİ ARASINDA SAZİŞİN VƏ HƏMİN SAZİŞƏ ƏLAVƏ EDİLMİŞ SƏNƏDLƏRİN, İSTANBUL BƏYANNAMƏSİNİN VƏ XAM NEFTİN AZƏRBAYCAN RESPUBLİKASI, GÜRCÜSTAN VƏ TÜRKİYƏ CÜMHURİYYƏTİNİN ƏRAZİLƏRİ İLƏ NƏQL EDİLMƏSİNƏ DAİR AZƏRBAYCAN RESPUBLİKASI, TÜRKİYƏ CÜMHURİYYƏTİ VƏ GÜRCÜSTAN ARASINDA SAZİŞƏ DƏYİŞİKLİKLƏR EDİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI, GÜRCÜSTAN VƏ TÜRKİYƏ CÜMHURİYYƏTİ ARASINDA PROTOKOLUN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının dövlət siyasətinin tərkib hissəsi olan neft strategiyası son illərdə uğurla inkişaf etdirilərək, ölkəmizin dünya birliyinə inteqrasiyasını sürətləndirmiş və müstəqilliyinin möhkəmlənməsinə xidmət etmişdir. Məhz buna görə “Əsrin müqaviləsi” və ondan sonra bağlanmış neft kontraktları böyük siyasi və iqtisadi əhəmiyyətə malik olmuş, Azərbaycan xalqının öz təbii sərvətlərinin əsl sahibi olduğunu nümayiş etdirmişdir.

Ölkəmizin neft strategiyasının əsas istiqamətlərindən biri Azərbaycan neftinin dünya bazarlarına nəql edilməsidir. Bu gün Azərbaycan nefti dünya bazarlarına iki marşrutla – Bakı-Novorossiysk və Bakı-Supsa boru xətləri ilə ixrac edilir. Lakin bu sahədə Azərbaycanın mənafelərinin uzunmüddətli təmin edilməsi, genişmiqyaslı beynəlxalq əməkdaşlığın həyata keçirilməsi, Xəzəryanı regionda neft hasilatının artması ilə əlaqədar neftin dünya bazarlarına nəqlinin təmin edilməsi məqsədi ilə strateji əhəmiyyətli, buraxılış imkanı ildə 50 milyon ton neft olan yeni – “Bakı–Tbilisi–Ceyhan” əsas ixrac

boru kəməri layihəsinin gerçəkləşməsi üçün gərgin işlər aparılmış və danışıqlar prosesi uğurla nəticələnmişdir.

Yuxarıda göstərilənlərin Azərbaycan dövləti üçün xüsusi əhəmiyyət kəsb etdiyini nəzərə alaraq, Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

1. Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Cümhuriyyətinin prezidentləri tərəfindən 1999-cu il noyabrın 18-də İstanbul şəhərində imzalanmış Xam neftin Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Cümhuriyyətinin əraziləri ilə "Bakı–Tbilisi–Ceyhan" əsas ixrac boru kəməri vasitəsilə nəql edilməsinə dair Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Cümhuriyyəti arasında saziş təsdiq edilsin.

2. Bu qanunun 1-ci bəndində göstərilən sazişə əlavə edilən aşağıdakı sənədlər təsdiq edilsin:

Azərbaycan Respublikası Hökuməti və Əsas İxrac Boru Kəməri Sərmayəçiləri arasında Tranzit ərazisinə malik ölkənin hökuməti ilə Saziş;

Gürcüstan Hökuməti ilə Əsas İxrac Boru Kəməri Sərmayəçiləri arasında Tranzit ərazisinə malik ölkənin hökuməti ilə Saziş;

Türkiyə Cümhuriyyəti Hökuməti ilə Əsas İxrac Boru Kəməri Sərmayəçiləri arasında Tranzit ərazisinə malik ölkənin hökuməti ilə Saziş;

Əsas İxrac Boru Kəməri İştirakçıları ilə Açarlı Təhvil Podratçısı arasında Açarlı Təhvil Sazişi;

Əsas İxrac Boru Kəməri layihəsinin Türkiyə sahəsinin əvvəlcədən müəyyən olunmuş müddət və qiymət əsasında tikilməsi və istismara verilməsinə təminat verən Türkiyə Cümhuriyyətinin Xəzinədarlıq Katibliyinin Zəmanət Məktubu.

3. Azərbaycan Respublikası, Gürcüstan, Türkiyə Cümhuriyyəti, Qazaxıstan Respublikası və Amerika Birləşmiş Ştatlarının Prezidentləri tərəfindən 1999-cu il noyabrın 18-də İstanbul şəhərində imzalanmış İstanbul Bəyannaməsi təsdiq edilsin.

4. Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Cümhuriyyəti arasında 2000-ci il 9 may tarixində imzalanmış Xam neftin Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Cümhuriyyətinin əraziləri ilə nəql edilməsinə dair Azərbaycan Respublikası, Türkiyə Cümhuriyyəti və Gürcüstan arasında Sazişə dəyişikliklər edilməsi haqqında Protokol təsdiq edilsin.

5. Bu qanun dərc edildiyi gündən qüvvəyə minir.

**Heydər Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 26 may 2000-ci il, № 885-IQ*

# XƏZƏR DƏNİZİNİN AZƏRBAYCAN SEKTORUNDA YERLƏŞƏN "AZƏRİ-ÇIRAQ-GÜNƏŞLİ" VƏ ŞAHDƏNİZ YATAQLARININ İŞLƏNMƏSİ, "BAKI–TBİLİSİ–CEYHAN" ƏSAS İXRAC BORU KƏMƏRİ VƏ "ŞAHDƏNİZ" YATAĞINDAN TƏBİİ QAZIN İXRAC BORU KƏMƏRİNİN LAYİHƏLƏRİNİN HƏYATA KEÇİRİLMƏSİ İLƏ ƏLAQƏDAR TƏXİRƏSALINMAZ TƏDBİRLƏR HAQQINDA

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası 1994-cü ildə "Əsrin müqaviləsi"ni imzalayaraq yeni neft strategiyasını və doktrinasını irəli sürmüş və dünyanın bir çox tanınmış neft şirkətləri ilə Xəzər dənizinin Azərbaycan sektorunda neft və qaz yataqlarının birgə kəşfiyyatı, işlənilməsi və istismarına başlamışdır.

Müstəqil Azərbaycanın iqtisadi suverenliyini əks edən ilk beynəlxalq saziş iqtisadiyyatımızın dinamik inkişafının əsasını qoyan və onun praktiki nəticələri göz qabağındadır.

Neft və qaz müqavilələri üzrə aparılan işlər artıq keyfiyyətcə yeni, həlledici mərhələyə daxil olur. Xüsusilə bu, Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Azəri-Çıraq-Günəşli" yatağının tam miqyaslı işlənilməsi, habelə "Şahdəniz" yatağının işlənilməsi, "Bakı–Tbilisi–Ceyhan" əsas ixrac boru kəmərinin və "Şahdəniz" yatağından təbii qazın ixrac boru kəmərinin tikintisi və istismara verilməsi layihələri ilə bağlı məsələlərə aiddir.

Hazırkı mərhələdə neft və qaz yataqlarının işlənilməsi və hasil edilmiş neftin və qazın dünya bazarlarına boru kəmərləri vasitəsilə nəqli üzrə layihələrin əlaqələndirilmiş şəkildə həyata keçirilməsi təxirəsalınmaz təşkilati və digər tədbirlərin həyata keçirilməsini tələb edir. Layihələr üzrə işlərin bu şəkildə aparılması müvafiq sahələrdə fəaliyyət göstərən dövlət orqanlarının öz səlahiyyətləri daxilində aparılan işlərə hərtərəfli kömək göstərməsi və əlverişli şəraitin yaradılması üzrə daha məqsədyönlü fəaliyyətini zəruri edir.

Yuxarıda göstərilənləri nəzərə alaraq **qərara alıram:**

1. "Azəri-Çıraq-Günəşli" yatağının tam miqyaslı işlənilməsi, habelə "Şahdəniz" yatağının işlənilməsi, "Bakı–Tbilisi–Ceyhan" əsas ixrac boru kəmərinin və "Şahdəniz"

yatağından təbii qazın ixrac boru kəmərinin tikintisi və istismara verilməsi ilə bağlı layihələrin həyata keçirilməsi üzrə aşağıdakı tərkibdə komissiya yaradılsın:

**Məcid Kərimov** – Azərbaycan Respublikasının yanacaq və energetika naziri, komissiyanın sədri;

**Natiq Əliyev** – Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti;

**İlham Əliyev** – Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti;

**Əli Əsədov** – Azərbaycan Respublikası Prezidentinin köməkçisi;

**Valeh Ələsgərov** – Azərbaycan Respublikası Dövlət Neft Şirkəti Xarici Sərmayələr idarəsinin rəisi.

2. Bu sərəncamın 1-ci bəndinə əsasan yaradılmış komissiya göstərilən layihələrin həyata keçirilməsi ilə əlaqədar:

– Azərbaycan Respublikasının ərazisində aparılan işlərin əlaqələndirilməsini, ortaya çıxan məsələlərin operativ həllini təmin edir;

– lazımi şəraitin yaradılması məqsədi ilə müvafiq icra hakimiyyəti orqanlarına təkliflər verir;

– zəruri hallarda həyata keçirilən tədbirlərə dair təkliflər hazırlayıb (o cümlədən, müvafiq icra hakimiyyəti orqanlarının iştirakı ilə) Azərbaycan Respublikasının Prezidentinə təqdim edir;

– işlərin gedişi haqqında mütəmadi olaraq Azərbaycan Respublikasının Prezidentinə məlumat verir.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti, habelə Azərbaycan Respublikasının müvafiq mərkəzi və yerli icra hakimiyyəti orqanları, təşkilat və idarələri bu sərəncamda göstərilən layihələrin icrası ilə əlaqədar məsələlərin həllinə üstünlük verərək kömək göstərsinlər və təxirə salınmadan bütün lazımi tədbirləri görsünlər.

4. Azərbaycan Respublikasının yanacaq və Energetika Nazirliyinə tapşırılsın ki, bu sərəncamda göstərilən layihələrin icrası, habelə bu sərəncamın 5-ci bəndində göstərilən sərəncamlarda nəzərdə tutulmuş və icra olunmamış məsələlərlə əlaqədar müvafiq dövlətlərin hökumət orqanları ilə və xarici şirkətlərlə danışıqlar aparsın, müvafiq sazişlərin layihələrini hazırlasın, habelə digər tədbirləri Azərbaycan Respublikasının yanacaq və Energetika Nazirliyi haqqında əsasnaməyə uyğun olaraq həyata keçirsin və gördüyü işlər barədə Azərbaycan Respublikasının Prezidentinə mütəmadi olaraq məlumat versin.

5. Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 17 avqust tarixli 218 nömrəli “Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən “Şahdəniz”yatağından qazın dünya

bazarlarına ixracının təşkil edilməsi ilə əlaqədar məsələlərin həll olunması üçün işçi qrupun yaradılması haqqında" və 1999-cu il 29 dekabr tarixli 300 nömrəli ""Bakı–Tbilisi–Ceyhan" əsas ixrac boru kəmərinin tikintisi və istismara verilməsi tədbirləri haqqında" sərəncamları qüvvədən düşmüş hesab edilsin.

6. Bu sərəncam imzalandığı gündən qüvvəyə minir.

**Heydər Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 15 may 2001-ci il*

# "BAKI–TBİLİSİ–CEYHAN" ƏSAS İXRAC BORU KƏMƏRİ LAYİHƏSİNİN MALİYYƏLƏŞDİRİLMƏSİ İLƏ ƏLAQƏDAR SƏNƏDLƏRİ AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN İMZALAMAQ SƏLAHİYYƏTİNİN VERİLMƏSİ HAQQINDA

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

"Bakı–Tbilisi–Ceyhan" Əsas İxrac Boru Kəməri Layihəsinin maliyyələşdirilməsilə əlaqədar aşağıda göstərilən sənədləri Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Baş nazirinin müavini Abid Qoca oğlu **Şərifova** verilsin:

Azərbaycan Respublikası Hökuməti, "Bakı–Tbilisi–Ceyhan" Boru Kəməri Şirkəti və Sitibank, N.A. arasında Azərbaycan Təminat Sazişi;

Azərbaycan Respublikası Hökuməti, "Bakı–Tbilisi–Ceyhan" Boru Kəməri Şirkəti, "Bakı–Tbilisi–Ceyhan" Boru Kəməri Maliyyə B.V. və Sitibank, N.A. arasında Hüquq və Vəzifələrin Ötürülməsi haqqında Bildiriş; Hökumət Öhdəlikləri;

Azərbaycan Respublikası Hökuməti, Azərbaycan Respublikası Dövlət Neft Şirkəti və Əks-Zaminlər qismində "BP" İnterneşnl Limited, Statoyl BTC Gaspian AS, yunion Oyl Gompani of Kaliforniya arasında Əks-zəmanətlərin Təqdim edilməsi haqqında Saziş.

**İlham Əliyev**

*Azərbaycan Respublikasının Prezidenti*

*Bakı şəhəri, 29 yanvar 2004-cü il, № 65*

# HEYDƏR ƏLİYEV ADINA BAKI–TBİLİSİ–CEYHAN ƏSAS İXRAC NEFT BORU KƏMƏRİ: FAKTLAR VƏ RƏQƏMLƏR

**TEXNİKİ GÖSTƏRİCİLƏR:**

* Ümumi uzunluğu 1768 kilometrdir: 443 km Azərbaycanda; 249 km Gürcüstanda; 1076 km Türkiyədə.

* Kəmərin diametri 42 düymdür, bu ölçü Gürcüstanda və Türkiyə hissəsinin əvvəlində 46 düymə qədər artır. Türkiyədə kəmərin əksər hissəsinin diametri 42 düymdür və Ceyhan yaxınlığında 36 düymə qədər daralır.

* Boruların divarının qalınlığı 8,74 mm-dən 23,80 mm-ə qədərdir.

* Kəmərin 8 nasos stansiyası vardır: ikisi Azərbaycanda, ikisi Gürcüstanda, dördü Türkiyədə.

* Kəmərin gündəlik nəqletmə gücü 1 milyon barreldir. Xam neft boru kəmərinin bir başından o biri başına 10 günə çatır.

* Səngəçalda (Azərbaycan) və Ceyhanda (Türkiyə) nəhəng terminallar tikilib.

* Kəmərin tikintisinə 2003-cü ilin aprelində, onun neftlə doldurulmasına 2005-ci il mayın 18-də başlanmışdır. Neft kəmərin Gürcüstan hissəsinə 2005-ci il avqustun 10-da, Türkiyə hissəsinə 2005-ci il noyabrın 18-də daxil olmuş, Ceyhan terminalına 2006-cı il mayın 28-də çatmışdır.

* Kəmərin tikintisinə 110 milyon adam-iş saatı sərf olunmuşdur.

* Tikinti ilə bağlı 206 milyon kilometr məsafə qət olunub ki, bu da layihənin icrasının ən qaynar çağında bir gündə yer kürəsinin ətrafında 10 dəfə dövr etməyə bərabərdir.

* Kəmərin əvvəlindən sonunadək 220 min boru hissəsi qaynaqlanıb və 2 milyon borunun qaldırılması əməliyyatı yerinə yetirilmişdir.

* Kəmər dəhliz boyunca 1.500-dən çox çay və 13 seysmik lay xətti ilə kəsişir. Kəmərin keçdiyi ən hündür sahə Türkiyə ərazisində dəniz səviyyəsindən 2800 metr hündürlüyündədir.

* Boru kəməri bütün marşrut boyunca torpağa basdırılıb, 500 yaşayış məntəqəsinin ərazisindən keçib və tikinti zamanı heç bir ev başqa yerə köçürülməyib.

* Əsas podratçılar: Azərbaycanda CCIC, Gürcüstanda Spi Petrofak, Türkiyə hissəsinin tikintisi üzrə əvvəlcədən təsbit olunmuş qiymətə "açar" təhvili müqaviləsi əsasında BOTAŞ şirkətləridir. BTC kəməri ildə 50 milyon ton Azərbaycan nefti nəql etmək üçün nəzərdə tutulmuşdur. Hazırda kəmərlə gündə 400 min barreldən çox neft nəql olunur. 2008-ci ildə bu rəqəm 1 milyon barrelə çatacaqdır.

**KOMMERSİYA GÖSTƏRİCİLƏRİ:**

* BTC-nin inşası 4 milyard ABŞ dollarına başa gəlmişdir. Bu, yalnız tikinti işlərinin xərcidir, boru kəmərinin doldurulması, maliyyə xərcləri və bank faizlərinin ödənilməsi buraya daxil deyildir.
* Ümumi maliyyə kreditinin məbləği 2,6 milyard dollardır. Maliyyə kreditləri verən qurumlar bunlardır:
* Beynəlxalq Maliyyə Korporasiyası və AYİB;
* Altı ölkədən (Böyük Britaniya, ABŞ, Almaniya, Yaponiya, Fransa, İtaliya) ixrac kredit agentlikləri və siyasi risklər üzrə sığorta qurumları;
* ABN Amro, Citigroup, Mizuho və Societe Generale başda olmaqla 15 kommersiya bankı;
* "BP", Statoil, Total və KonokoFilips də, həmçinin baş sponsor kimi kredit vermişlər.

Məşğulluq üzrə göstəricilər

* Tikintinin ən qaynar çağında təqribən 22 min adam işə cəlb olunmuşdur ki, onların da 70-80 faizini yerli əhali təşkil etmişdir.
* Boru kəməri istismara veriləndən sonra təqribən 850 nəfər daimi işçi çalışacaqdır.

İctimaiyyətlə əlaqə

* Birbaşa təsirə məruz qalan, başqa sözlə, boru kəməri marşrutunun hər iki tərəfində iki kilometr dəhliz boyunca 450 icma (təqribən 750 min adam) qeydə alınmışdır. Təqribən 100 min torpaq sahibi birbaşa təsirə məruz qalmışdır.
* 2003-cü ilin sonuna qədər torpaq sahiblərinə 133 milyon ABŞ dolları məbləğində vəsait ödənilmişdir ki, bu məbləğə vergilər, hökumət ödənişləri və hüquqi xərclər daxil deyildir.
* Torpaqayırma üzrə 22 min saziş imzalanmışdır.
* Boru kəməri boyunca İctimai Sərmayə Proqramı üzrə 25 milyon dollar vəsait xərclənmiş, bundan 115-i Azərbaycanda olmaqla, 500 icma faydalanmışdır.
* Vəsait qoyuluşuna 2003-cü ilin iyulunda başlanmış və bu iş 2006-cı ilin sonunadək davam edəcəkdir.
* Azərbaycanda İctimai Sərmayə Proqramını həyata keçirən tərəfdaşlar bunlardır: İcma Yardım Fondu, Beynəlxalq Xilasetmə Komitəsi, Uşaqların Xilası, İnternəşnl Medikal Ko.

* Proqram çərçivəsində 32 tibb məntəqəsi, 43 məktəb bərpa edilib, 110 kilometr yol təmir olunub, 314 tibb işçisinə təlim keçilib, 184 min insan birbaşa tibbi yardım alıb, 15.800 mikrokredit verilib, 2.700 fermerə təlim keçilib.

* Gürcüstan: "Keər İnternəşnl" və "Mersi Ko".

* Türkiyədə: Atatürk Universiteti, SURKAL, İnternəşnl Blu Kresçent.

Ətraf mühit:

* Boru kəməri marşrutunun üç ölkə hökuməti ilə razılaşdırılması və ƏMSSTQ (Türkiyədə ƏMTQ) sənədləri ilə müəyyənləşdirilmiş şərtlər 11 min səhifədən artıqdır. Ətraf mühit və mədəni irs baxımından həssas olan ərazilərdən yan keçmək üçün marşrutda 100 dəyişiklik edilmişdir.

* Aşağıda göstərilən həssas ərazilərlə kəsişmələrdə xüsusi ehtiyat tədbirləri və əlavə tədbirlər görülmüşdür:

Borjomi Milli Parkının (Gürcüstan) yardımçı zonası

Ərzurum ovalığı (Türkiyə)

Posof (Türkiyə)

Ktsia-Tabatskuri qoruğu (Gürcüstan)

Qobustan mədəniyyət qoruğu (Azərbaycan)

* Ətraf Mühit üzrə Sərmayə Proqramı, o cümlədən dəniz tısbağaları, qara tetra quşları, dağ ayıları, dəniz suitilərinin qorunması layihələri üçün 9 milyon dollar vəsait xərclənib.

* Arxeoloji müşahidələr üçün 5 milyon dollar vəsait sərf edilib.

**MONİTORİNQ:**

* "Onqa" monitorinqin aparılması bu layihəni dünyada həmin qəbildən olan ən çox təhqiq olunmuş layihələrdən birinə çevirmişdir.

* Kənar monitorinqə aşağıdakılar daxildir:

Kreditorlar adından DtA™Appollonia tərəfindən ətraf mühit və sosial sahə ilə bağlı rüblük monitorinq.

Kreditorlar adından müstəqil ekspertlər şurası tərəfindən aparılmış yarımillik sosial və torpaqayırma planının monitorinqi.

Müstəqil məsləhətçilərdən ibarət şuranın – birbaşa "BP" qrupunun prezidentinə hesabat verən Xəzərin İşlənməsi üzrə Məşvərət Şurasının illik monitorinqi.

QHT-lərin monitorinqi və təhqiqat: Azərbaycanda Açıq Cəmiyyət İnstitutu tərəfindən; Türkiyədə TESEV-in yardımı ilə əhalinin cəlb olunması proqramı vasitəsilə; Gürcüstanda TBC.

"Foley Hoag" təşkilatı tərəfindən insan hüquqları üzrə monitorinq.

**BTC KO.-NUN SƏHMDARLARI:**

"BP" (30,1 faiz); AzBTC (25 faiz); Şevron (8,90 faiz); Statoyl (8,71 faiz); TPAO (6,53 faiz); ENİ (5 faiz); Total (5 faiz), İtoçu (3,40 faiz); İNPEKS (2,50 faiz), KonokoFillips (2,50 faiz) və Amerada Hess (2,36 faiz) şirkətləridir. Tarixin yaddaşına yazılan əlamətdar günlər 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi" imzalanmışdır.

1999-cu il noyabrın 18-də İstanbulda Azərbaycan, Türkiyə və Gürcüstan prezidentləri tərəfindən xam neftin "Bakı–Tbilisi–Ceyhan" əsas ixrac boru kəməri vasitəsilə nəql edilməsinə dair saziş imzalanmışdır.

2002-ci il avqustunda Londonda kəmərin tikintisini və gələcək istismarını aparmaq üçün BTC Ko şirkəti yaradılmışdır.

2002-ci il sentyabrın 18-də Bakıda Azərbaycan, Gürcüstan və Türkiyə prezidentlərinin, ABŞ-ın energetika nazirinin iştirakı ilə "Bakı–Tbilisi–Ceyhan" əsas ixrac boru kəmərinin təməli qoyulmuşdur.

2005-ci il mayın 25-də kəmərin Azərbaycan ərazisindən keçən hissəsinin istifadəyə verilməsi mərasimi keçirilmiş, Səngəçal terminalından boru xəttinə ilk neft vurulmuşdur.

2005-ci ilin oktyabrında kəmərin Gürcüstan hissəsi istifadəyə verilmişdir.

2006-cı il mayın 28-də Azərbaycan nefti Ceyhan limanına çatmışdır.

2006-cı il iyunun 16-da Qazaxıstanın paytaxtı Astanada "Azərbaycan Respublikası ilə Qazaxıstan Respublikası arasında neftin Qazaxıstan Respublikasından Xəzər dənizi və Azərbaycan Respublikasının ərazisi ilə "Bakı–Tbilisi–Ceyhan" sistemi vasitəsilə beynəlxalq bazarlara nəql edilməsinə dəstək verilməsi və şərait yaradılması haqqında" müqavilə imzalanmışdır. Müqaviləni Azərbaycan Prezidenti İlham Əliyev və Qazaxıstan Prezidenti Nursultan Nazarbayev imzalamışlar.

2006-cı il iyunun 4-də Xəzər nefti ilə yüklənmiş ilk tanker Ceyhan limanından Avropaya yola salınmışdır.

2006-cı il iyulun 13-də Ceyhanda kəmərin təntənəli açılış mərasimi keçirilmişdir. Həmin günədək Ceyhan limanından 4,8 milyon barrel neft yüklənmiş 7 tanker dünya bazarlarına yola salınmışdır.

**AzərTAC**

## BAKI-TBİLİSİ-CEYHAN (BTC) İXRAC BORU KƏMƏRİ

### Xronika
*(sentyabr 1994 – iyul 2006)*

**1994-cü ilin sentyabrında Xəzərin Azərbaycan sektorunda neft yataqlarının birgə işlənilməsi haqqında xarici neft şirkətləri konsorsiumu ilə danışıqların yekunları barəsində Azərbaycan Respublikası Prezidenti Heydər Əliyev fərman imzaladı, Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin fərmanı ilə Azərbaycan Dövlət Neft Şirkətinə bu Beynəlxalq Şirkətlər Konsorsiumu ilə müqavilə imzalamağa icazə verildi. Bu beynəlxalq konsorsiuma "AMOKO Kaspian Si Petroleum Ltd", "Britiş Petroleum Eksploreyşn (Kaspian Si) Ltd", "Den Norske Stats Olyeselskap A.S.", "LUKoyl səhmdar cəmiyyəti", "Mak-Dermott Azərbaycan, İNK", "Pennzoyl Kaspian korporeyşn", "Remko Xəzər enerci Ltd", "Türkiyə Petrolleri A.O." və "YUNokal Xəzər Ltd" şirkətləri daxildir. Müqaviləyə əsasən neft yataqlarının 30 il müddətində işlədilməsi nəzərdə tutulur.**

*20 sentyabr 1994-cü il*

Bakının "Gülüstan" sarayında Xəzər dənizinin Azərbaycan bölməsində yerləşən və neft ehtiyatları 500 milyon tondan çox olan **"Çıraq", "Azəri" və "Günəşli"** yataqlarının birgə istismarı haqqında Beynəlxalq Şirkətlər Konsorsiumu ilə müqavilənin təntənəli imzalanması mərasimi keçirildi.

*2 dekabr 1994-cü il*

Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin **birgə işlənməsi və neft hasilatının pay bölgüsü** haqqında Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə "AMOKO Kaspian Si Petroleum Limited", "BP Eksploreyşn (Kaspian Si) Limited", "Delta Himir

Xəzər Limited", "Den Norske Stats Olyeselskap A.S.", "LUKoyl Səhmdar Cəmiyyəti", "Mak-Dermott Azərbaycan İNK.", "Pennzoyl Kaspian Korporeyşn", "Remko Xəzər Enerci Limited", "Türkiyə Petrolleri A.O.", "YUNokal Xəzər Ltd" arasında sazişin qəbul və təsdiq edilməsi, onun həyata keçirilməsinə icazə verilməsi barədə Azərbaycan Respublikasının qanunu imzalandı.

*20 iyun 1995-ci il*

Xəzər dənizinin "Azərbaycan" sektorunda "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənilməsi və hasilatın pay bölgüsü haqqında Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə xarici neft şirkətlərinin konsorsiumu arasında 1994-cü il sentyabrın 20-də bağlanmış saziş ilə əlaqədar Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə "Türkiyə Petrolferi A.O." arasında 1995-ci il

12 aprel tarixli alqı-satqı haqqında müqavilənin və ona əlavə edilmiş sənədlərin bəyənilməsi və **qanunun qüvvəyə minməsi haqqında** Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev fərman imzaladı.

*29 dekabr 1995-ci il*

Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlarından və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsindən çıxarılan **ilkin neftin ixracına aid sənədlərin bəyənilməsi və təsdiq olunması haqqında** Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev sərəncam imzaladı.

*24 avqust 1996-cı il*

Birinci nəhəng **"Dədə Qorqud"** üzən yarımdalma qazma qurğusu fəaliyyətə başladı.

*5 sentyabr 1997-ci il*

Əsas ixrac neft kəməri marşrutunun seçilməsi ilə əlaqədar işçi qrupunun yaradılması və ona danışıqların aparılması üçün lazım olan bütün səlahiyyətlərin verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı imzalandı.

İşçi qrup əsas ixrac neft kəməri marşrutunun seçilməsi, onun idarə edilməsi üzrə müvafiq şirkətin yaradılması barədə təkliflər hazırlamaq və sərmayəçilərin, digər əlaqədar təşkilatların iştirakı ilə neft kəmərinin çəkilişi zamanı ortaya çıxan məsələlərin operativ həll edilməsini təmin etmək məqsədilə yaradılır.

*12 noyabr 1997-ci il*

Xəzər dənizinin Azərbaycan sektorundakı "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərin hissəsinin birgə işlənməsi haqqında ARDNŞ ilə 11 xarici neft şirkəti arasında 20 sentyabr 1994-cü ildə Bakıda imzalanmış "Əsrin müqaviləsi" üzrə **ilkin neft hasilatına** başlandı. Bu münasibətlə "Çıraq-1" platformasında təntənəli mərasim keçirildi.

*31 mart 1998-ci il*

**"BP/Statoyl"** alyansının Bakıda ofisinin açılışı oldu. Mərasimdə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev və "BP" qrupunun baş icraçı direktoru Con Braun iştirak etdilər.

*2 sentyabr 1998-ci il*

Tam modernləşdirilmiş **"İstiqlal"** üzən yarımdalma qazma qurğusu işə salındı. Bununla əlaqədar keçirilən təntənəli mərasimdə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev iştirak etdi.

*29 oktyabr 1998-ci il*

Türkiyə Böyük Millət Məclisində Türkiyə prezidenti Süleyman Dəmirəl, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev, Gürcüstanın prezidenti Eduard Şevardnadze, Qazaxıstan prezidenti Nursultan Nazarbayev, Özbəkistan prezidenti İslam Kərimov, habelə ABŞ-ın energetika naziri Bill Riçardson Xəzər regionunun enerji ehtiyatlarının, xüsusən Azərbaycan neftinin dünya bazarlarına çatdırılması üçün "Bakı–Tbilisi–Ceyhan" marşrutunun müəyyənləşdirilməsini nəzərdə tutan **Ankara** bəyannaməsini imzaladılar. **Tarixi sənəd olan bu bəyannamə "Bakı–Tbilisi–Ceyhan" magistral boru xəttini çəkmək əzmini bütün dünyaya bəyan etdi.**

*20 noyabr 1998-ci il*

ARDNŞ-nin I vitse-prezidenti, Milli Məclisin deputatı İlham Əliyev ABŞ-da səfərdə olmuş, **"Avrasiya nəqliyyat dəhlizi: əfsanə və reallıq"** mövzusunda konfransda iştirak etmişdir. ABŞ Dövlət Departamentinin nümayəndəsi İlham Əliyevin Azərbaycan hökumətinin Bakı-Ceyhan marşrutuna sadiq olduğu barədə bəyanatlarını yüksək qiymətləndirmişdir. Digər rəsmilərlə görüşlərdə tərəflər əsas ixrac neft kəmərinin marşrutu ilə bağlı qəti qərar qəbul olunmasında mövcud çətinlikləri və qeyri-müəyyənliyi müzakirə edərək Bakı-Ceyhan boru kəmərinin perspektivliyini məmnunluqla təsdiqləmişlər.

*17 aprel 1999-cu il*

Qərb neft kəməri və Supsa terminalı işə başladı. **Bakı-Supsa neft kəməri açıldı.**

*18 noyabr 1999-cu il*

İstanbulun "Çırağan sarayı"nda "Xam neftin Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə respublikalarının əraziləri ilə "Bakı–Tbilisi–Ceyhan" əsas ixrac boru kəməri vasitəsilə nəql edilməsinə dair Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Respublikası arasında saziş"in, "Bakı–Tbilisi–Ceyhan" əsas ixrac boru kəmərinin layihəsini dəstəkləmək, Qazaxıstanın neft həcmlərini bu layihəyə cəlb etmək üçün ABŞ-ın şahidliyi ilə Azərbaycan Respublikası, Gürcüstan və Qazaxıstan respublikaları arasında **"İstanbul bəyannaməsi"nin,** Transxəzər qaz kəməri barədə Azərbaycan Respublikası, Türkiyə Respublikası, Gürcüstan və Türkmənistan arasında "Hökumətlərarası bəyannamə"nin, Azərbaycan qaz layihələrinin inkişafını və Azərbaycan qazının Türkiyə Respublikasına və digər beynəlxalq bazarlara satışını dəstəkləyən sənəd kimi Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Respublikası, Gürcüstan və Türkiyə Respublikası arasında **"Qarşılıqlı anlaşma memorandumu"nun** imzalanması mərasimi oldu.

***

İmzalanmış sənədlərin həqiqətən tarixi mənası var. Bu sənədlər regionun inkişafı və təhlükəsizliyini ön plana çəkir. Bu isə dünyanın bütün qalan hissəsi üçün də əhəmiyyətlidir.

*29 dekabr 1999-cu il*

BTC əsas ixrac boru kəməri layihəsinin vaxtında həyata keçirilməsi məqsədilə **BTC əsas ixrac boru kəmərinin tikintisi və istismara verilməsi tədbirləri haqqında** Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev sərəncam imzaladı.

*29 dekabr 1999-cu il*

Neft ehtiyatlarının istismarından ilk gəlirlərin əldə edilməyə başlaması onların səmərəli istifadəsi məsələsini gündəmə gətirdi. Məhz belə bir mexanizmin yaradılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə **Dövlət Neft Fondu** təsis edildi.

Ölkənin neft yataqlarının xarici şirkətlər ilə birgə işlənməsindən əldə edilən mənfəət neftinin satışından daxil olan valyuta vəsaitlərinin və digər gəlirlərin toplanması və səmərəli idarə edilməsi, həmin vəsaitlərin öncül sahələrin inkişafına və sosial-iqtisadi baxımdan mühüm əhəmiyyət kəsb edən layihələrin həyata keçirilməsinə yönəldilməsini təmin etmək əsas məqsəddir.

Qısa müddətdə Neft Fondunun fəaliyyəti üçün münbit normativ-hüquqi baza yaradıldı. Belə ki, Azərbaycan Respublikası Prezidentinin fərmanları ilə Neft Fondu haqda əsasnamə, Neft Fondunun valyuta vəsaitinin idarə edilməsi və büdcə qaydaları təsdiq edildi.

*22 avqust 2001-ci il*

Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə qaçqınların və məcburi köçkünlərin məskunlaşdırılması problemlərinin həlli məqsədilə Dövlət Neft Fondundan 167 milyard manat vəsaitin ayrılması qərara alındı.

*30 avqust 2001-ci il*

Azəri-Çıraq-Günəşli yataqlarının tammiqyaslı işlənməsinə dair **Faza-1** layihəsinə sanksiya verildi.

*7 sentyabr 2001-ci il*

Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə qaçqınların və məcburi köçkünlərin məskunlaşdırılması problemlərinin həlli məqsədilə Dövlət Neft Fondundan xeyli miqdarda vəsaitin ayrılması qərara alındı.

*27 dekabr 2001-ci il*

Dövlət Neft Fondunun fəaliyyətinə ümumi nəzarətin həyata keçirilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin sərəncamı ilə **Neft Fondunun müşahidə şurası** formalaşdırıldı.

*13 may 2002-ci il*

Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə Biləsuvar rayonu ərazisində çadır düşərgələrində məskunlaşmış məcburi köçkünlərin sosial-məişət vəziyyətinin yaxşılaşdırılması ilə bağlı tədbirlərin maliyyələşdirilməsi məqsədilə Dövlət Neft Fondundan 192 milyard manat vəsaitin ayrılması qərara alındı.

*16 iyul 2002-ci il*

Prezident Sarayında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin yanında **ARDNŞ Müşahidə Şurasının I iclası** keçirildi.

*30 iyul 2002-ci il*

BTC əsas boru kəmərinin layihəsinin Azərbaycan Respublikasının neft strategiyasının və xarici neft şirkətləri ilə işgüzar əməkdaşlığın davam etdirilməsi, sərmayəçilərlə bağlanmış sazişlər çərçivəsində hasil edilən neftin dünya bazarlarına çıxarılması və xalqımızın sosial-iqtisadi rifahının yüksəldilməsi üçün mühüm siyasi və iqtisadi əhəmiyyətini nəzərə alaraq və Azərbaycan Respublikasının bu layihədə mənafelərini təmin etmək məqsədilə BTC əsas ixrac boru kəməri layihəsində ARDNŞ-in iştirak payının maliyyələşdirilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti fərman imzaladı.

*12 sentyabr 2002-ci il*

“Azəri-Çıraq-Günəşli” yataqlarının tammiqyaslı işlənməsinə dair Faza-2 layihəsinə sanksiya verildi.

*29 noyabr 2002-ci il*

ABƏŞ-in prezidenti Devid Vudvord Tbilisidə Gürcüstan Beynəlxalq Neft Korporasiyasının (GBNK) prezidenti Georgi Çanturiya və Təbii Ehtiyatlar Nazirliyinin “Yaşıllar”

hərəkatının nümayəndələri ilə keçirilən görüşdə qəti şəkildə bəyan etdi ki, BTC əsas ixrac boru kəmərinin marşrutu dəyişməyəcəkdir. Qarşılıqlı razılıq əldə olundu.

*24 iyul 2003-cü il*

"Lider" yarımdalma üzən qazma qurğusu istifadəyə verildi.

*7 avqust 2003-cü il*

Azərbaycan Respublikasının Baş naziri İlham Əliyev **"Lider"** yarımdalma üzən qazma qurğusu ilə yaxından tanış oldu.

*11 avqust 2003-cü il*

Baş nazir ilham Əliyev BTC əsas ixrac neft boru kəmərinin Azərbaycan hissəsində, ölkəmizin paytaxtı yaxınlığındakı Umbakı ərazisində aparılan tikinti işləri ilə tanış oldu.

*11 noyabr 2003-cü il*

Avropa Yenidənqurma və İnkişaf Bankı İdarə Heyəti BTC boru kəməri tikintisinin layihəsinə 250 milyon dollar kredit qərarını təsdiqlədi.

*3 fevral 2004-cü il*

Bakıda "Gülüstan" sarayında "Bakı–Tbilisi–Ceyhan" (BTC) ixrac boru kəmərinin tikintisinin maliyyələşdirilməsi üçün layihənin **son maliyyələşmə** sənədləri paketi imzalandı. Maliyyələşmə sazişləri Azərbaycan Respublikası və Türkiyə Respublikasının nümayəndələri və BTC kreditorlar qrupundan olan nümayəndələr tərəfindən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə imzalandı.

*20 sentyabr 2004-cü il*

"Azəri-Çıraq-Günəşli" yataqlarının tammiqyaslı işlənməsinə dair **Faza-3** layihəsinə sanksiya verildi.

*16 oktyabr 2004-cü il*

Azərbaycanın Ağstafa rayonunun Böyük Kəsik kəndində – Gürcüstanın Qardabani rayonu ilə sərhəddə Heydər Əliyev adına "Bakı–Tbilisi–Ceyhan" (BTC) neft ixrac boru kəmərinin Azərbaycan və Gürcüstan hissələrini birləşdirməsi mərasimi keçirildi. **"Qızıl qaynaq"** adlanan bu mərasimdə hər iki ölkənin dövlət başçıları – Prezident ilham Əliyev və prezident Mixail Saakaşvili boru kəmərinin Azərbaycan və Gürcüstan hissələrini rəmzi olaraq qaynaqlayaraq birləşdirdilər.

*10 may 2005-ci il*

Operatoru "BP" olan BTC Ko şirkəti Səngəçal terminalındakı **BTC baş nasos stansiyasını neftlə doldurmağa** başlamışdır və bu, "Bakı–Tbilisi–Ceyhan" (BTC) ixrac boru kəmərinin neftlə doldurulmasının birinci mərhələsidir.

*25 may 2005-ci il*

Heydər Əliyev adına "Bakı–Tbilisi–Ceyhan" əsas ixrac boru kəmərinin Azərbaycan hissəsi istifadəyə verilmişdir.

*12 oktyabr 2005-ci il*

Heydər Əliyev adına BTC əsas ixrac boru kəmərinin Gürcüstan hissəsi istifadəyə verilmişdir. Bu münasibətlə Gürcüstanın Qardabani rayonunda yerləşən 1 №-li nasos stansiyasının ərazisində təntənəli mərasim keçirilmişdir.

*28 may 2006-cı il*

Azərbaycan nefti Türkiyənin Ceyhan terminalına çatmışdır.

*16 iyun 2006-cı il*

Azərbaycan Respublikası ilə Qazaxıstan Respublikası arasında neftin Qazaxıstan Respublikasından Xəzər dənizi və Azərbaycan Respublikasının ərazisi ilə "Bakı–Tbilisi–Ceyhan" sistemi vasitəsilə beynəlxalq bazarlara nəql edil-məsinə dəstək verilməsi və şərait yaradılması haqqında müqavilə imzalanmışdır.

*13 iyul 2006-cı il*

# "BAKI–TBİLİSİ–ƏRZURUM" BORU XƏTTİ

Əsas İxrac Boru Kəməri layihəsinə uyğun olaraq **Transxəzər qaz kəməri** 2,5 milyard dollardan 3,1 milyard dollara qədər qiymətləndirilmiş və onun tikintisi 2 ilə başa çatması nəzərdə tutulurdu. Qaz kəməri Türkmənistandan Xəzər dənizinin dibinə qədər Azərbaycana, sonra isə quru ilə Gürcüstana, oradan da Ərzuruma (Türkiyəyə) uzanması nəzərdə tutulurdu. Türkiyədən isə qaz Avropaya veriləcəkdi.

**"Bakı–Tbilisi–Ərzurum" Boru Xətti** – Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Şahdəniz" yatağından çıxarılan qazın Gürcüstan və Türkiyəyə nəqli üçün inşa edilmişdir. Kəmərin uzunluğu 980 kilometr, diametri 42 düymdür.

Boru kəməri ildə 20 milyard kubmetrədən artıq ötürmə gücünə malikdir.

2007-ci il iyulun 3-də isə "Şahdəniz" qaz-kondensat yatağından hasil edilən təbii qaz "Bakı–Tbilisi–Ərzurum" marşrutu üzrə Cənubi Qafqaz qaz boru kəməri ilə Türkiyə sərhədlərini aşaraq, qardaş ölkənin qaz kəmərləri sisteminə daxil olmuşdur.

**Ölkələr:** Azərbaycan, Gürcüstan, Türkiyə
**İstismarı:** 2006-cı il
**Tərəfdaşlar:** "BP" (28.8%), SOCAR (16.7%), Statoil (15.5%), LUKoyl (10%), Total (10%), Naftiran Intertrade (10%), Türkiye Petrolleri Anonim Ortaklığı (9%)
**Operatoru:** "BP"
**Başlayır:** Bakı (Səngəçal terminalı), Azərbaycan
**Bitir:** Ərzurum, Türkiyə
**Uzunluğu:** 980 km
**Diametri:** 42 düym
**Ötürücülüyü:** 25 milyard $m^3$/il


QARA
DƏNIZ
GÜRCÜSTAN
Tibilisi
XƏZƏR
DƏNİZİ
Bakı
Türkmənistan
AZƏRBAYCAN
Baki Tblisi Ceyhan
Boru Kəmə
AZ
TÜRKİYƏ

# XƏZƏR DƏNİZİNİN AZƏRBAYCAN SEKTORUNDA YERLƏŞƏN ŞAHDƏNİZ YATAĞINDAN TƏBİİ QAZIN DÜNYA BAZARLARINA İXRACININ TƏŞKİL EDİLMƏSİ İLƏ ƏLAQƏDAR MƏSƏLƏLƏRİN HƏLL OLUNMASI ÜÇÜN İŞÇİ QRUPUNUN YARADILMASI HAQQINDA

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən Şahdəniz yatağında böyük qaz kondensat ehtiyatlarının kəşf olunmasını nəzərə alaraq, həmin yataqdan təbii qazın dünya bazarlarına ixracının təşkil edilməsi üçün potensial imkanların öyrənilməsi, qazın nəqli və bununla əlaqədar digər məsələlərin araşdırılması və operativ həlli məqsədi ilə **qərara alıram:**

1. Aşağıdakı tərkibdə işçi qrupu yaradılsın:

**Abid Şərifov** – Azərbaycan Respublikası Baş nazirinin müavini *(qrupun sədri)*

**Natiq Əliyev** – Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti

İlham **Əliyev** – Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti

Əli **Əsədov** – Azərbaycan Respublikası Prezidentinin köməkçisi

**Valeh Ələsgərov** – Azərbaycan Respublikası Dövlət Neft Şirkəti Xarici Sərmayələr İdarəsinin rəisi

**Endi Hopvud** – BiPi AMOKO Eksploreyşn Azərbaycan (Şah Dəniz) Ltd. şirkətinin prezidenti

**Torivar Pedersen** – Statoyl Azərbaycan şirkətinin prezidenti

**Jan Fransua Daqano** – Elf Petroleum Azərbaycan B.V. şirkətinin Baş meneceri.

2. Bu Sərəncamın 1-ci bəndinə müvafiq olaraq yaradılmış işçi qrupuna xarici dövlətlərin, şirkətlərin və maliyyə institutlarının səlahiyyətli nümayəndələri ilə qaz ixracı kəmərinin tikintisi və istismarı, Azərbaycan təbii qazının potensial bazarlarının

öyrənilməsi ilə əlaqədar olaraq danışıqların aparılması və müvafiq sazişlərin layihələrinin hazırlanması səlahiyyəti verilsin.

3. İşçi qrupuna tapşırılsın ki, Şah Dəniz yatağından təbii qazın dünya bazarlarına ixracı ilə əlaqədar sazişlər hazırlandıqdan sonra, onları baxılmaq üçün Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

4. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**Heydər Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 17 avqust 1999-cu il, № 218*

# TƏBİİ QAZIN AZƏRBAYCAN RESPUBLİKASI VƏ GÜRCÜSTAN ƏRAZİLƏRİNDƏ VƏ BU ƏRAZİLƏRİN HÜDUDLARINDAN KƏNARDA CƏNUBİ QAFQAZ BORU KƏMƏRİ SİSTEMİ VASİTƏSİ İLƏ TRANZİT, NƏQL EDİLMƏSİ VƏ SATIŞINA DAİR AZƏRBAYCAN RESPUBLİKASI VƏ GÜRCÜSTAN ARASINDA SAZİŞİN VƏ HƏMİN SAZİŞƏ ƏLAVƏ EDİLMİŞ SƏNƏDLƏRİN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasında neft hasilatının kəskin surətdə artırılması ilə bərabər qaz hasilatının artırılması üçün də zəmin yaradılmışdır. Belə ki, kəşf olunmuş zəngin Şahdəniz qaz-kondensat yatağının qəti dəyərləndirilməsi sübut etmişdir ki, qaz ehtiyatlarının potensialı 1 trilyon kubmetrdən artıqdır. Dünya miqyaslı yataq hesab olunan Şahdəniz yatağı nəinki Azərbaycanın, həm də bütün regionun energetika kompleksinin inkişafı üçün böyük əhəmiyyətə malikdir. Burada aşkar olunmuş ehtiyatlar Azərbaycanı iri qaz ixracatçısına çevirir.

Şahdəniz yatağının kəşfi Şərq-Qərb enerji dəhlizinin inkişafı və fəaliyyətinin həyata keçirilməsində yeni mərhələ açmış, bu sahədə beynəlxalq əməkdaşlığa geniş imkanlar yaratmış və mühüm sazişlərin bağlanmasına təkan vermişdir.

2001-ci il 29 sentyabr tarixində Bakı şəhərində Azərbaycan Respublikasının Prezidenti və Gürcüstanın Prezidenti iki ölkə arasında "Təbii qazın Azərbaycan Respublikası və Gürcüstan ərazilərində və bu ərazilərin hüdudlarından kənarda Cənubi Qafqaz Boru Kəməri sistemi vasitəsi ilə tranzit, nəql edilməsi və satışına dair Azərbaycan Respublikası və Gürcüstan arasında Saziş"i imzalamışlar.

Yuxarıda göstərilənlərin Azərbaycan dövləti üçün xüsusi əhəmiyyət kəsb etdiyini nəzərə alaraq, Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

1. Azərbaycan Respublikasının Prezidenti və Gürcüstanın Prezidenti tərəfindən 2001-ci il 29 sentyabr tarixində Bakı şəhərində imzalanmış "Təbii qazın Azərbaycan

Respublikası və Gürcüstan ərazilərində və bu ərazilərin hüdudlarından kənarda Cənubi Qafqaz Boru Kəməri sistemi vasitəsi ilə tranzit, nəql edilməsi və satışına dair Azərbaycan Respublikası və Gürcüstan arasında Saziş" təsdiq edilsin.

2. Bu Qanunun 1-ci bəndində göstərilən Sazişə əlavə edilən aşağıdakı sənədlər təsdiq edilsin:

Azərbaycan Respublikası Hökuməti və Cənubi Qafqaz Boru Kəməri iştirakçıları arasında tranzit ərazisinə malik ölkənin hökuməti ilə Saziş;

Gürcüstan Hökuməti və Cənubi Qafqaz Boru Kəməri iştirakçıları arasında tranzit ərazisinə malik ölkənin hökuməti ilə Saziş.

3. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

**Heydər Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 26 oktyabr 2001-ci il, № 211-IIQ*

# "ŞAHDƏNİZ" YATAĞINDAN ƏLDƏ OLUNACAQ TƏBİİ QAZIN "BAKI-TBİLİSİ-ƏRZURUM" MARŞRUTU İLƏ NƏQLİNƏ DAİR AZƏRBAYCAN RESPUBLİKASI İLƏ GÜRCÜSTAN ARASINDA SAZİŞİN İMZALANMA MƏRASİMİNDƏ AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN BƏYANATI

*26 oktyabr 2001-ci il*

– Hörmətli Prezident cənab Eduard Şevardnadze!

Hörmətli qonaqlar!

Xanımlar və cənablar!

Biz Gürcüstan Prezidenti Zati-aliləri cənab Eduard Şevardnadzenin Azərbaycana rəsmi səfərinə yekun vuran sənədləri imzaladıq. Bu gün biz səmərəli görüş keçirdik. Gürcüstan Prezidenti ilə Azərbaycan Prezidenti arasında təkbətək görüş oldu. Gürcüstanın və Azərbaycanın nümayəndə heyətləri arasında görüşlər və danışıqlar oldu. Onların hamısı dostluq, qarşılıqlı anlaşma ruhunda, qardaşlıq şəraitində keçmişdir. Bu sənədlər çox böyük əhəmiyyətə malikdir.

Cənubi Qafqaz qaz kəməri haqqında yəni "Şahdəniz" yatağından çıxarılacaq Azərbaycan qazının Gürcüstan vasitəsilə Türkiyəyə nəqli haqqında, daha doğrusu, "Bakı–Tbilisi–Ərzurum" qaz kəməri haqqında sənəd Azərbaycanın 1994-cü ildən başlayaraq Gürcüstan və Türkiyə ilə birlikdə həyata keçirdiyi neft strategiyasının, neft doktrinasının mühüm tərkib hissəsidir. Təbiidir ki, Azərbaycanın bu neft strategiyasının əsasını 1994-cü ilin sentyabrında Azərbaycanın neft şirkəti ilə Amerika Birləşmiş Ştatlarının, Böyük Britaniyanın, Fransanın, Norveçin, Rusiyanın və digər ölkələrin ən iri neft şirkətləri arasında imzalanmış "Əsrin müqaviləsi" təşkil edir.

Əlbəttə, birinci müqavilə imzalandıqdan sonra vəzifə onu həyata keçirməkdən ibarət idi. Lakin biz onu həyata keçirməklə yanaşı, şübhəsiz, xarici şirkətlərin və Azərbaycan Dövlət Neft Şirkətinin birgə səyləri ilə çıxarılacaq neftin dünya bazarlarına ixracı barədə də düşünməli idik. Ona görə də hələ o vaxt biz neftin ixracının müxtəlif variantlarını nəzərdən keçirirdik. İndi, müəyyən vaxt ötəndən sonra belə hesab edirəm ki, biz çox düzgün yol tutmuşduq. Neftin nəqlinin Şimal marşrutu adlandırılan Bakı-Novorossiysk

boru kəməri, Qərb neft kəməri – Bakı-Supsa neft kəməri bu gün artıq reallığa çevrilmişdir. Əlbəttə, əsas niyyəti – "Bakı–Tbilisi–Ceyhan" neft kəməri layihəsini gerçəkləşdirmək üçün qarşıda böyük iş dururdu.

Bunların hamısı artıq arxada qalmışdır. Biz bu vəzifələri yerinə yetirdik, özü də uğurla yerinə yetirdik. Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin və Azərbaycan Dövlət Neft Şirkətinin birgə səyləri ilə Azərbaycanda 1997-ci ildə ilkin neft çıxarılmağa başlandı, noyabrda biz bunu böyük bir hadisə kimi qeyd etdik, yeri gəlmişkən yenə də dostlarımızla birlikdə. Bu mərasimdə dostumuz Prezident Eduard Şevardnadze də iştirak edirdi. Bakı-Supsa neft kəmərini çəkdik. 1999-cu ilin aprelində bu neft kəmərinin açılışını təntənə ilə qeyd etdik. Artıq bu günədək Xəzər dənizinin Azərbaycan sektorundakı "Çıraq" yatağından 16 milyon tona qədər neft çıxarılmışdır. Bu neftin 14 milyon tonundan çoxu Bakı-Supsa neft kəməri ilə ixrac olunmuşdur.

Biz "Bakı–Tbilisi–Ceyhan" əsas ixrac neft kəməri proqramının gerçəkləşdirilməsi məsələsi ilə bir çox illər ərzində məşğul olduq və bunu edə bildik. 1998-ci ildə Ankara bəyannaməsini, 1999-cu ildə isə İstanbulda son sazişi imzaladıq. Sonra Azərbaycanla Türkiyə və Azərbaycanla Gürcüstan arasında sazişin imzalanmasına çalışmaq lazım gəldi. Bu da edildi. İndi "Bakı–Tbilisi–Ceyhan" əsas ixrac neft kəmərinin tikintisinə dair layihə əməli surətdə həyata keçirilir.

Lakin biz daha da irəli gedirik. Xəzər dənizinin Azərbaycan sektorundakı "Şahdəniz" sahəsində çox böyük qaz yatağı kəşf etmişik. İlkin hesablamalara görə onun ehtiyatları 1 trilyon kubmetrdir. Təbii ki, yenə də qarşıya qazın ixracı məsələsi çıxdı. Lakin bizim əvvəlki xəttimiz davam edir. Biz qazı Türkiyəyə Gürcüstan vasitəsi ilə ixrac etməyi qərara aldıq. Biz bunun üzərində xeyli işlədik və bu gün o işi başa çatdırdıq. Yəni qaz kəmərinin şərtləri haqqında danışıqlar apardıq. Qazın Türkiyəyə Gürcüstan vasitəsilə göndərilməsi haqqında martın 12-də Ankarada Türkiyə hökuməti ilə Azərbaycan arasında saziş imzalandı.

Bundan sonra Gürcüstanla Azərbaycan arasında iş davam etdirildi. Deməliyəm ki, bu, çox çətin iş idi. Lakin Gürcüstan və Azərbaycan nümayəndələri bu sazişin hazırlanması ilə, məncə, gərgin və layiqincə məşğul oldular. Saziş hazırlandı və bu gün biz onu imzaladıq.

Cəsarətlə deyə bilərəm ki, bu, tarixi əhəmiyyətli hadisədir. Bu hadisənin ölkələrimiz üçün böyük əhəmiyyəti var. Cənubi Qafqaz üçün əhəmiyyəti var. Avropa regionu üçün də əhəmiyyəti var. Ölkələrimizin Qərb ölkələri ilə iqtisadi inteqrasiyası baxımından əhəmiyyəti var.

İndi mətbuat konfransında təfərrüata xüsusi olaraq varmağa lüzum yoxdur. Lakin, hər halda, demək olar ki, Azərbaycanın neft strategiyası uğurla həyata keçirilir, – hərçənd biz

bu yolda çox çətinliklərlə, maneələrlə qarşılaşdıq, – Türkiyə, Gürcüstan və Azərbaycan arasında üç iri saziş imzalanmışdır və proqramımızın artıq bir hissəsi gerçəkləşdirilir.

Heç bir şübhə yoxdur ki, "Bakı–Tbilisi–Ceyhan" neft kəməri də, "Bakı–Tbilisi–Ərzurum" qaz kəməri də müəyyən edilmiş müddətdə uğurla çəkiləcək və Xəzər dənizindən, Azərbaycandan neft, qaz Gürcüstan vasitəsilə Türkiyəyə və oradan digər ölkələrə axacaqdır. Təbii ki, Gürcüstanın da bu çox qiymətli ehtiyatlardan istifadə etmək hüququ var.

Eduard Amvrosiyeviç, bu yeni mühüm tarixi addım və qazandığımız uğurlar münasibətilə mən Sizi təbrik edirəm, qonaqlarımızı təbrik edirəm, Azərbaycanın bütün vətəndaşlarını təbrik edirəm. Əminəm ki, biz, bundan sonra da inamla irəliləyəcək və yeni uğurlara nail olacağıq.

Bu proqramların ölkələrimiz üçün çox böyük iqtisadi əhəmiyyəti var. Onlar eyni zamanda son dərəcə böyük siyasi əhəmiyyətə malikdir. Bu əhəmiyyət ondan ibarətdir ki, əvvəla, Cənubi Qafqaz, Avropa və Qərb arasında sıx inteqrasiya gedir, ikincisi, bu neft və qaz kəmərləri regionumuzda təhlükəsizliyə, sabitliyə və sülhə mühüm təminatdır.

Biz bütün bunlara son dərəcə böyük əhəmiyyət verir və inanırıq ki, gördüyümüz bütün işlərin iqtisadi və siyasi nəticələri ölkələrimizin iqtisadiyyatını möhkəmlədəcək, regionumuzda sabitliyi, təhlükəsizliyi, sülhü təmin edəcək və bizi Avropa birliyinə, qabaqcıl, demokratik dünya birliyinə getdikcə daha da yaxınlaşdıracaqdır.

Şadam ki, Gürcüstan Prezidenti dostum Eduard Şevardnadzenin bir çox əvvəlki səfərləri kimi, bu səfəri də belə mühüm tarixi hadisələrlə əlamətdardır. Mənə elə gəlir ki, biz Gürcüstanla Azərbaycan arasında dostluq münasibətlərinin inkişaf etdirilməsi binasının möhkəmlənməsinə hər dəfə yeni bir davamlı daş qoyuruq.

Bir daha təbrik edirəm və bu gün imzalanmış sazişin uğurla həyata keçirilməsini arzulayıram.

# AZƏRBAYCAN RESPUBLİKASI İLƏ GÜRCÜSTAN ARASINDA BİRGƏ BƏYANATIN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

I. 2001-ci il sentyabrın 29-da Bakı şəhərində Azərbaycan Respublikası ilə Gürcüstan arasında imzalanmış Birgə Bəyanat **təsdiq edilsin.**

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

**Heydər Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 4 dekabr 2001-ci il, № 225-IIQ*

### BİRGƏ BƏYANAT

Azərbaycan Respublikasının Prezidenti H.Əliyevin dəvəti ilə Gürcüstan Prezidenti E.Şevardnadze 29 sentyabr 2001-ci ildə Azərbaycan Respublikasında rəsmi səfərdə oldu.

Tərəflər öz ölkələrindəki siyasi və sosial-iqtisadi islahatların gedişi haqqında informasiya mübadiləsi apardılar, strateji tərəfdaşlığa əsaslanan ikitərəfli əlaqələrin yüksək səviyyəsini məmnunluqla qeyd etdilər, bu tərəfdaşlığın gələcək inkişafı və möhkəmləndirilməsi məsələlərini, qarşılıqlı maraq doğuran aktual regional və beynəlxalq problemləri müzakirə etdilər.

8 mart 1996-cı il tarixli "Azərbaycan Respublikası və Gürcüstan arasında dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizliyin möhkəmləndirilməsi haqqında Müqavilə", 8 mart 1996-cı il tarixində Tbilisi şəhərində imzalanmış "Qafqaz regionunda sülh, təhlükəsizlik və əməkdaşlıq haqqında Bəyannamə", 18 fevral 1997-ci il tarixli" Azərbaycan Respublikası və Gürcüstan arasında strateji əməkdaşlığın daha da dərinləşdirilməsi haqqında

Bəyannamə"nin qarşılıqlı münasibətlərin möhkəm bazasını təşkil etdiyi, Qafqazda təhlükəsizliyin və sabitliyin başlıca prinsiplərinin formalaşmasına və münaqişələrin hərtərəfli nizama salınmasına əsas kimi xidmət etdiyi qeyd olundu.

Tərəflər 11 sentyabr 2001-ci ildə ABŞ-dakı misli görünməmiş terror aksiyalarını pislədilər, bu hadisələrin bütün dünyada sülh, təhlükəsizlik, sabitlik və demokratiya üçün təhlükə yaratdığını qeyd edərək, beynəlxalq terrorçuluqla mübarizədə dünya ölkələrinin səylərinin birləşdirilməsində fəal iştirak etməyə hazır olduqlarını bildirdilər.

Tərəflər region dövlətlərinin beynəlxalq tanınmış sərhədlərinin zorla dəyişdirilməsinə yönəlmiş təcavüz aktlarını, təcavüzkar separatizmi, ekstremizmi və terrorçuluğu bütün forma və təzahürlərində pislədilər və bu təhlükələrə qarşı mübarizədə birgə fəaliyyəti davam və inkişaf etdirmək arzusunu bildirdilər.

Tərəflər Dağlıq Qarabağ münaqişəsi və Abxaziya, Gürcüstan münaqişəsi üzrə BMT və ATƏT-in qərarlarının və bu təşkilatlar çərçivəsində qəbul olunmuş digər sənədlərin tezliklə həyata keçirilməsinin zəruriliyini təsdiq etdilər. Tərəflər bu münaqişələrin dövlətlərin suverenliyinə, ərazi bütövlüyünə və sərhədlərinin toxunulmazlığına hörmət və şərtsiz əməl olunma prinsipi əsasında nizama salınmasının Cənubi Qafqaz dövlətləri arasında sülhün, sabitliyin və etimadın əldə olunması üçün etibarlı zəmin yaradacağına qəti əmin olduqlarını bildirdilər.

Tərəflər BMT, ATƏT, Avro-Atlantik Tərəfdaşlıq Şurası, Avropa Şurası, Avropa Birliyi, QDİƏT və digər beynəlxalq təşkilatlar və forumlar çərçivəsində əməkdaşlığın gələcəkdə də davam etdirilməsinə və dərinləşdirilməsinə hazır olduqlarını bildirdilər.

Tərəflər GUÖAM çərçivəsində tərəfdaşlıq münasibətlərinin möhkəmlənməsi və qarşılıqlı faydalı əməkdaşlıqdan məmnun olduqlarını bildirdilər və 7 iyun 2001-ci ildə imzalanmış Yalta Xartiyasının vacibliyini qeyd etdilər.

Tərəflər Avropa-Asiya nəqliyyat dəhlizinin tammiqyaslı fəaliyyət göstərməsinin, Böyük İpək yolunun bərpasının, TRASEKA proqramlarının həyata keçirilməsinin sürətləndirilməsi məqsədi ilə birgə praktiki tədbirlər görülməsinin müstəsna əhəmiyyətini qeyd etdilər.

Tərəflər Azərbaycan və Gürcüstandan keçən nəqliyyat-kommunikasiya yollarının dinamik inkişafını məmnuniyyətlə qeyd etdilər.

Tərəflər 28 oktyabr 1998-ci il Ankara Bəyannaməsinin prinsipləri və 19 noyabr 1999-cu ildə ATƏT-in İstanbul Zirvə görüşü zamanı neft və qazın nəqlinə dair imzalanmış

sənədlərin Şərq-Qərb enerji dəhlizi layihələrinin uğurla gerçəkləşdirilməsinin davamlı əsasını təşkil etdiyini bir daha təsdiqlədilər.

Tərəflər Şərq-Qərb enerji dəhlizi layihələrini dəstəklədiklərini bildirdilər və qarşılıqlı faydalı əməkdaşlıq prinsiplərinə uyğun olaraq göstərilən layihələrin həyata keçirilməsi məqsədi ilə səylərini davam etdirməyə hazır olduqlarını bildirdilər.

Tərəflər Azərbaycan qazının Türkiyəyə, gələcəkdə isə Türkiyə vasitəsi ilə Avropa ölkələrinə nəql edilməsini həyata keçirəcək Cənubi Qafqaz qaz kəməri layihəsinin gerçəkləşdirilməsi üzrə Hökumətlərarası Saziş paketinin imzalanmasının zəruriliyini qeyd etdilər. Cənubi Qafqaz qaz kəməri layihəsinin sürətlə gerçəkləşdirilməsinin təmin edilməsinə yönəlmiş danışıqlar prosesinin vaxtında və uğurla başa çatmasında Azərbaycan və Gürcüstan Prezidentlərinin iradə və qətiyyətinin xüsusi rol oynadığı qeyd edildi.

Tərəflər iqtisadi layihələrin hazırlanması və həyata keçirilməsi üzrə çoxillik və çox zəhmət tələb edən birgə işlərinin mühüm mərhələsinin uğurla başa çatdırılmasından məmnun olduqlarını bildirdilər. Buna bariz nümunə Bakı-Supsa neft kəməri tikintisinin və istismarının həyata keçirilməsi, habelə dəqiq nəzərdə tutulmuş müddətlər çərçivəsində gerçəkləşdiriləcək "Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəməri" layihəsinin işlənib hazırlanmasıdır.

Tərəflər beynəlxalq birlik, xüsusilə ABŞ və Avropa İttifaqının fəal dəstək və yardımının enerji layihələrinin uğurla işlənib hazırlanmasının və reallaşdırılmasının rəhni olduğunu qeyd etdilər.

Tərəflər Azərbaycan Respublikası və Gürcüstan arasında dövlət sərhədinin delimitasiyası və demarkasiyasının mühüm əhəmiyyətini vurğuladılar və dövlət komissiyalarının işinin davam etdirilməsinin zəruriliyini təsdiq etdilər.

Tərəflər təhsil, elm və mədəniyyət məsələləri və bu sahələrdə hərtərəfli mübadilələr üzrə əməkdaşlığın inkişafı və dərinləşdirilməsi üzrə səylərə tərəfdar olduqlarını bildirdilər.

Tərəflər iqtisadiyyatın bütün sahələrində qarşılıqlı faydalı əməkdaşlığın əlverişli əsaslarını yaratmaq üçün bundan sonra da qətiyyətli tədbirlər görmək əzmində olduqlarını bildirdilər və iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın potensialından istifadə olunmasının əhəmiyyətini qeyd etdilər.

Tərəflər hüquqi demokratik dövlət qurmaq məqsədi ilə demokratik dəyişikliklərə, insan hüquqlarının və əsas azadlıqlarının, o cümlədən milli azlıqların nümayəndəsi sayılan şəxslərin hüquqlarının müdafiəsinə, Azərbaycan və Gürcüstanın üzv olduqları

beynəlxalq müqavilələrə uyğun şəkildə öhdəliklərin yerinə yetirilməsinə tərəfdar olduqlarını bir daha təsdiq etdilər.

Tərəflər bununla əlaqədar eyni zamanda Azərbaycanda yaşayan gürcülərin və Gürcüstanda yaşayan azərbaycanlıların hüquq və azadlıqlarına riayət edilməsinin və maraqlarının qorunmasının təmin olunmasını və onlara qayğı göstərilməsini hər iki dövlətin dövlət siyasətinin mühüm sahəsi hesab etdiklərini təsdiq etdilər.

Tərəflər keçirilmiş səfərin nəticələrini müsbət qiymətləndirdilər və danışıqların səmərəli xarakter daşıdığını qeyd etdilər.

Bakı şəhərində 29 sentyabr 2001-ci ildə, hər biri Azərbaycan və gürcü dillərində olmaqla iki əsl nüsxədə imzalanmışdır, hər iki mətn eyni qüvvəyə malikdir.

**Azərbaycan Respublikasının Prezidenti**
**HEYDƏR ƏLİYEV**

**Gürcüstan Prezidenti**
**EDUARD ŞEVARDNADZE**

## AZƏRBAYCAN RESPUBLİKASININ 1996-CI İL 4 OKTYABR TARİXLİ 160-IQ QANUNU İLƏ QƏBUL VƏ TƏSDİQ EDİLMİŞ, HƏYATA KEÇİRİLMƏSİNƏ İCAZƏ VERİLMİŞ 1996-CI İL 4 İYUN TARİXLİ "XƏZƏR DƏNİZİNİN AZƏRBAYCAN SEKTORUNDA ŞAHDƏNİZ PERSPEKTİV SAHƏSİNİN KƏŞFİYYATI, İŞLƏNMƏSİ VƏ HASİLATIN PAY BÖLGÜSÜ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT NEFT ŞİRKƏTİ İLƏ ARDNŞ KOMMERSİYA ORTAQ ŞİRKƏTİ, BP EKSPLOREYŞN (AZƏRBAYCAN) LİMİTED, ELF PETROLEUM AZƏRBAYCAN B.V., LUKOYL İNTERNƏŞNL LTD, OYL İNDASTRİZ İNCİNİRİNQ ƏND KONSTRAKŞN, STATOYL AZƏRBAYCAN A.S., TÖRKİŞ PETROTEUM OVERSİZ KOMPANİ LİMİTED ŞİRKƏTLƏRİ ARASINDA SAZİŞ"İN VƏ CƏNUBİ QAFQAZ BORU KƏMƏRİ ("BAKI–TBİLİSİ–ƏRZURUM") LAYİHƏSİNİN HƏYATA KEÇİRİLMƏSİ İİƏ ƏLAQƏDAR SƏNƏDLƏRİ İMZALAMAQ SƏLAHİYYƏTİNİN VERİLMƏSİ HAQQINDA

**Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

1. Azərbaycan Respublikasının 1996-cı il 4 oktyabr tarixli 160-IQ Qanunu ilə qəbul və təsdiq edilmiş, həyata keçirilməsinə icazə verilmiş 1996-cı il 4 iyun tarixli "Xəzər dənizinin Azərbaycan sektorunda Şahdəniz perspektiv sahəsinin kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə ARDNŞ Kommersiya Ortaq Şirkəti, BP Eksploreyşn (Azərbaycan) Limited, Elf Petroleum Azərbaycan B.V., LUKoyl İnternəşnl LTD, Oyl İndastriz İnciniring ənd Konstrakşn, Statoyl Azərbaycan A.S., Törkiş Petroteum Oversiz Kompani Limited şirkətləri arasında Saziş"in və Cənubi Qafqaz Boru Kəməri (Bakı–Tbilisi–Ərzurum)

Layihəsinin həyata keçirilməsi ilə əlaqədar sənədləri imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının yanacaq və energetika naziri Məcid Zahid oğlu Kərimova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən sənədlərin Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının yanacaq və energetika naziri Məcid Zahid oğlu Kərimova verilməsi barədə xarici tərəfdaşlara müvafiq bildiriş göndərsin.

**Heydər Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 7 fevral 2003-cü il, № 1141*

## CƏNUB QAZ DƏHLİZİ: TANAP, TAP

**Trans-Anadolu Qaz Boru Kəməri (Trans-Anatolian Natural Gas Pipeline, ixtisarla TANAP)** – təbii qazı Türkiyənin Şərq sərhədindən Qərb sərhədinə daşıyacaq, bütün ölkədə sabit tranziti təmin edəcək. Layihə Azərbaycandan başlayan genişlənmiş Cənubi Qafqaz boru kəmərini Avropa Birliyində bir neçə kəmərlə əlaqələndirəcək. 5 il ərzində reallaşması nəzərdə tutulan layihənin dəyəri 7 mlrd. ABŞ dollarıdır. Dörd mərhələdə həyata keçiriləcək layihənin ilk mərhələsi 2018-ci ildə başa çatıb. 2020-ci ildən kəmərin buraxılış qabiliyyəti ildə 16 mlrd., 2023-cü ildə 23 mlrd., 2026-cı ildə isə 31 mlrd. kubmetrə çatdırılacaq. İlk dövrdə TANAP kəməri ilə nəql olunacaq 16 mlrd. kubmetr Azərbaycan qazının 10 mlrd. kubmetri Avropaya, 6 mlrd. kubmetri isə Türkiyəyə satılacaq. Avropa üçün nəzərdə tutulan qaz Türkiyə–Bolqarıstan və ya Türkiyə–Yunanıstan sərhədində təhvil veriləcək. TANAP layihəsində Cənub Qaz Dəhlizi QSC 51%, STEAŞ 7%, "BP" 12% və Türkiyənin BOTAŞ şirkəti 30% paya malikdir. TANAP layihəsi üzrə saziş 2012-ci il iyunun 26-da İstanbulda imzalanıb. Boru kəmərinin diametri Eskişehrədək 56 düym, ondan sonra 48 düym, dəniz dibində isə 36 düym nəzərdə tutulub. TANAP layihəsinin Eskişehrədək hissəsinin işə düşməsi Şahdəniz-II layihəsi üzrə qaz hasilatına başlanması vaxtı ilə uzlaşdırılıb və 2018-ci ildə baş tutub, 30 iyun 2018-ci il tarxində ilk kommersiya qazı çatdırılmışdır. 2019-cu ilin aprel ayında "Cənub Qaz Dəhlizi" layihəsinin bir hissəsi olan Trans-Anadolu qaz kəmərinin (TANAP) 1-ci mərhələsi çərçivəsində sınaq qaz tədarükü başlayıb.

**Ölkə:** Azərbaycan, Türkiyə
**Tikilmə ili:** 2014-cü ildə başlanılıb
**İstismarı:** 2018-ci il
**Sahibi:** TANAP project company
**Tərəfdaşlar:** SOCAR, BOTAŞ, Türkiye Petrolleri Anonim Ortaklığı, "BP"
**Operatoru:** SOCAR
**Uzunluğu:** 1.839 km
**Ötürücülüyü:** 16× 109 $m^3$/il

**Trans Adriatik Boru Xətti (TAP)** – Xəzərin Azərbaycan sektorundan təbii qazı Yunanıstandan Albaniya və Adriatik dənizindən keçərək İtaliyaya və daha sonra qərbi Avropaya nəql edəcək boru xətti proyektidir. Cənub Qaz Dəhlizi layihəsinin bir hissəsi olan TAP kəməri ilə "Şahdəniz-2" layihəsi çərçivəsində hasil olunan qazın ilkin olaraq ildə 10 mlrd. kubmetrinin Avropaya nəqli nəzərdə tutulur, bununla Avropada təxminən 7 milyon ailə enerji ilə təmin ediləcək. Bu boru kəməri Türkiyə-Yunanıstan sərhədində TANAP (Trans-Anadolu) boru kəmərinə qoşularaq Yunanıstan, Albaniya və Adriatik dənizindən keçməklə İtaliyanın cənubuna qədər uzanacaq. 2019-cu il iyunun sonuna Trans-Adriatik Boru Kəməri (TAP) üzrə işlərin 88,5%-i tamamlanıb.

**Ölkələr:** Azərbaycan, Türkiyə, Yunanıstan, Albaniya, İtaliya
**Tikilmə ili:** 2016-cı ildə başlanılıb
**İstismarı:** 2020-ci il
**Tərəfdaşlar:** "BP" (20%), SOCAR (20%, Snam (20%), Fluxys (19%), Enagás (16%), Axpo (5%)
**Operatoru:** Trans Adriatic Pipeline AG
**Başlayır:** Türkiyə
**Bitir:** İtaliya
**Uzunluğu:** 867 km
**Diametri:** 48
**Ötürücülüyü:** 10-20 milyard $m^3$/il

**"Xəzər dənizinin Azərbaycan sektorunda Şah Dəniz perspektiv sahəsinin kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında Saziş"in və Cənubi Qafqaz boru kəməri ("Bakı–Tbilisi–Ərzurum") layihəsinin həyata keçirilməsində operativ idarəetmənin təkmilləşdirilməsi haqqında**

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI**

"Xəzər dənizinin Azərbaycan sektorunda Şah Dəniz perspektiv sahəsinin kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında Saziş"in və Cənubi Qafqaz boru kəməri ("Bakı–Tbilisi–Ərzurum") layihəsinin (bundan sonra birlikdə "Şah Dəniz və CQBK layihəsi" adlandırılacaq) həyata keçirilməsində operativ idarəetmənin təkmilləşdirmək məqsədilə **qərara alıram:**

1. Şah Dəniz və CQBK layihəsinin həyata keçirilməsi ilə əlaqədar Azərbaycan Respublikasını təmsil etmək səlahiyyəti Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinə verilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bir ay müddətində:

2.1. qüvvədə olan normativ hüquqi aktların bu Fərmana uyğunlaşdırılması barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

3. Bu Fərman dərc edildiyi gündən qüvvəyə minir.

**İlham Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 7 mart 2007-ci il, № 540*

# CƏNUB QAZ DƏHLİZİ HAQQINDA BİRGƏ BƏYANNAMƏNİN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndinə uyğun olaraq, Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

2011-ci il yanvarın 13-də Bakı şəhərində imzalanmış Cənub Qaz Dəhlizi haqqında Birgə Bəyannamə təsdiq edilsin.

**İlham Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 4 mart 2011-ci il, № 72-IVQ*

### CƏNUB QAZ DƏHLİZİ HAQQINDA BİRGƏ BƏYANNAMƏ

Biz, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Avropa Komissiyasının Prezidenti Jose Manuel Durao Barroso, enerji təhlükəsizliyinin və enerjinin nəqlinin təhlükəsizliyinin vacibliyini vurğulayırıq;

Biz Xəzər regionundan Avropaya qaz təchizatı marşrutlarının şaxələndirilməsinin enerji təhlükəsizliyini şərtləndirən faktorlardan biri olduğunu qeyd edirik;

Biz Azərbaycanın və Xəzər regionunun digər ölkələrinin enerji ehtiyatlarının nəql edilməsində Bakı-Tiflis-Ceyhan neft və Bakı-Tiflis-Ərzurum qaz kəmərlərinin xüsusi əhəmiyyətini xatırlayırıq,

Biz Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Avropa Komissiyasının Prezidenti Jose Manuel Durao Barroso tərəfindən 2006-cı ilin noyabr ayında Brüsseldə imzalanmış "Azərbaycan Respublikası və Avropa İttifaqı arasında enerji sahəsində strateji tərəfdaşlıq haqqında Anlaşma Memorandumu"nda, 2008-ci ilin noyabr ayında imzalanmış Bakı Bəyannaməsinin əlaqədar müddəalarında, 2009-cu ilin may ayında

keçirilmiş Praqa Zirvə Görüşünün müvafiq Enerji Bəyannaməsində təsbit olunmuş Azərbaycan-Avropa İttifaqı enerji münasibətlərinin vacibliyini bir daha təsdiq edirik;

Bununla biz:

1. Bəyan edirik ki, bizim ümumi məqsədimiz mümkün qədər tez bir zamanda Cənub Dəhlizinin yaradılmasına və fəaliyyətdə olmasına nail olmaq və Azərbaycan Respublikasını Cənub Qaz Dəhlizinə mühüm töhfə verən və onu mümkün edən qismində müəyyən etməkdir.

2. Şah Dəniz 2 layihəsində və Azərbaycandakı digər quyulardakı mövcud qaz ehtiyatlarının bölüşdürülməsi prosesini sürətləndirməyə çağırır və biz investorları həmin qazın vaxtında birgə bölüşdürülməsi üçün bütün mümkün tədbirləri görməyə təşviq edirik.

3. Bildiririk ki, Azərbaycandakı və ondan kənarda olan təbii qazın nəqlinə nail olmaqla bu strateji dəhliz Avropa İttifaqının mövcud qaz dəhlizlərini tamamlayır. Xəzər regionundan Avropa bazarına kimi olan bu marşrutun yaradılması Azərbaycan Respublikası və Avropa İttifaqının qaz daşınması marşrutlarının şaxələndirilməsi və birbaşa enerji və nəqliyyat əlaqələrinin yaradılması üzrə birgə strateji məqsədinə uyğun gəlir.

4. Cənub Qaz Dəhlizini Avropa Enerji Təhlükəsizliyinin artırılmasında dayaq nöqtəsi kimi və Azərbaycan ərazisində ehtiyatların hasil edilməsinin bu qaz həcmlərinin qəbul edilməsi üçün kifayət qədər infrastruktur və bazarların, o cümlədən kommersiya şərtlərinin mövcud olmasına istinadən zəmanəti kimi nəzərdən keçiririk. Bu, hamının uzunmüddətli faydalana biləcəyi etibarlı və genişlənən bazar olacaq və Xəzər regionunun qaz təchizatçıları bu etimada əsaslana biləcəkdir.

5. Qeyd edirik ki, bu strateji dəhliz Azərbaycanda hasil olunan qaz ilə bütün kontraktların fiziki olaraq təmin olunmasına imkan verəcək və bu məqsədlə qurulan kifayət qədər infrastrukturun yaradılmasına səbəb olacaq, bununla da Avropa İttifaqında və Cənub-Şərqi Avropa ölkələrində Azərbaycandan olan təbii qazın nəqli və satışı paylanmasını mümkün edəcək, Komissiya ayrı-seçkiliyə yol verməyən zəruri hüquqi, tənzimləyici və kommersiya şərtlərinin yaradılmasında köməklik göstərməyə hazır olacaqdır.

Prezidentlər indiyədək əldə edilmiş irəliləyişi alqışlayır və təchizatçı və ya istehlakçı qismində olan digər maraqlı tərəfləri Cənub Qaz Dəhlizinin növbəti inkişaf mərhələlərində iştirak etmək imkanlarından istifadə etməyə dəvət edirlər.

13 yanvar 2011-ci ildə Bakıda, Azərbaycan və ingilis dillərində olmaqla iki nüsxədə imzalanmışdır.

**Azərbaycan Respublikasının Prezidenti**
**İlham ƏLİYEV**

**Avropa Komissiyasının Prezidenti**
**Jose Manuel Durao BARROSO**

# AZƏRBAYCAN TƏBİİ QAZININ DÜNYA BAZARINA CƏNUB QAZ DƏHLİZİ VASİTƏSİLƏ NƏQLİ İLƏ ƏLAQƏDAR TƏDBİRLƏR HAQQINDA

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

"Şahdəniz" perspektiv strukturunda Azərbaycanın müasir neft tarixində ilk dəfə olaraq zəngin qaz-kondensat yatağının kəşf edilməsi və 1996-cı ildə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin bu yataq üzrə dünyanın tanınmış neft şirkətləri ilə Saziş imzalaması ölkə iqtisadiyyatına irihəcmli xarici sərmayə cəlb edilməsinə imkan yaratmışdır.

2006-cı ildə "Şahdəniz" yatağının istismarının birinci mərhələsinin başlanmasından sonra təbii qazın Cənubi Qafqaz Qaz Boru Kəməri vasitəsilə Gürcüstan və Türkiyə bazarlarına çıxarılması Azərbaycanın enerji sənayesi tarixində yeni səhifə açaraq ölkəmizi qaz ixracatçısına çevirmişdir.

Hazırda "Şahdəniz" yatağının istismarının ikinci mərhələsinin həyata keçirilməsi həcmi artmaqda olan qazın Türkiyə və Avropaya ixracını təmin edəcək müvafiq infrastrukturun yaradılmasını nəzərdə tutur.

2012-ci il iyunun 26-da "Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında Trans-Anadolu təbii qaz boru kəməri sisteminə dair" Saziş imzalanmış və hər iki dövlətin qanunverici orqanları həmin Sazişi ratifikasiya etmişlər.

Trans-Anadolu Qaz Kəməri təkcə "Şahdəniz" layihəsi çərçivəsində hasil olunan qazı deyil, Azərbaycanın digər yataqlarından hasil edilən təbii qazı da dünya bazarına çatdırmaq potensialına malik olması ilə mühüm siyasi və iqtisadi əhəmiyyət daşıyır.

Böyük sərmayə qoyuluşu tələb edən təbii qaz yataqlarının işlənilməsinə və hasil edilmiş qazın boru kəmərləri vasitəsilə nəqlinə dair layihələrin əlaqələndirilmiş şəkildə həyata keçirilməsi təxirəsalınmaz təşkilati və digər tədbirlərin görülməsini tələb edir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, göstərilən layihələrdə Azərbaycan Respublikasının mənafeyini qorumaq, Azərbaycan dövləti tərəfindən layihə iştirakçılarına hərtərəfli kömək göstərilməsini və əlverişli şərait yaradılmasını təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan qazının dünya bazarına nəqli ilə əlaqədar Cənub Qaz Dəhlizinin fəaliyyətini təmin etmək məqsədi ilə "Şahdəniz"qaz-kondensat yatağının tammiqyaslı işlənilməsi, Cənubi Qafqaz Boru Kəmərinin (SCP) genişləndirilməsi, Trans-Anadolu Boru Kəməri (TANAP) və Trans-Adriatik Boru Kəməri (TAP) layihələrinin həyata keçirilməsi üzrə aşağıdakı tərkibdə Dövlət Komissiyası yaradılsın:[1]

***Komissiyanın sədri***
*Azərbaycan Respublikası Baş nazirinin birinci müavini*

***Komissiyanın üzvləri***
*Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri*
*Azərbaycan Respublikasının energetika naziri*
*Azərbaycan Respublikasının iqtisadiyyat naziri*
*Azərbaycan Respublikasının maliyyə naziri*
*Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri*
*Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti*
*Azərbaycan Respublikası Dövlət Neft Fondunun icraçı direktoru.*

2. Müəyyən edilsin ki, bu Sərəncamın 1-ci hissəsi ilə yaradılmış Dövlət Komissiyası:

2.1. aparılan işlərin layihə iştirakçıları ilə əlaqələndirilməsini, ortaya çıxan məsələlərin Komissiyanın müəyyən etdiyi aidiyyəti qurumlar tərəfindən operativ həllini təmin edir;

2.2. Komissiya tərəfindən müəyyən olunan hallarda həyata keçirilən tədbirlərə dair təkliflər hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim edir;

2.3. işlərin gedişi haqqında mütəmadi olaraq Azərbaycan Respublikasının Prezidentinə məlumat verir.

**İlham Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 29 oktyabr 2013-cü il, № 15*

**İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI**

**1.** 16 avqust 2016-cı il tarixli **1023** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Respublika" qəzeti, 17 avqust 2016-cı il, № 178, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 8, maddə 1384**)

**2.** 23 iyun 2018-ci il tarixli **214** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 6, maddə 1297**)

**3.** 13 dekabr 2019-cu il tarixli **1694** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Xalq" qəzeti, 14 dekabr 2019-cu il, № 278, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 12, maddə 1694**)

**SƏRƏNCAMA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI**

[1] 23 iyun 2018-ci il tarixli **214** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 6, maddə 1297**) ilə 1-ci hissənin ikinci bəndin birinci yarımbəndində "**köməkçisi, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbərinin müavini**" sözləri "**iqtisadi məsələlər üzrə köməkçisi – şöbə müdiri**" sözləri ilə əvəz edilmişdir.

23 iyun 2018-ci il tarixli **214** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 6, maddə 1297**) ilə 1-ci hissənin ikinci bəndin ikinci yarımbəndində "**Natiq Əliyev**" sözləri "**Pərviz Şahbazov**" sözləri ilə əvəz edilmişdir.

16 avqust 2016-cı il tarixli **1023** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Respublika" qəzeti, 17 avqust 2016-cı il, № 178, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 8, maddə 1384**) ilə 1-ci hissədən "**və sənaye**" sözləri çıxarılmışdır.

23 iyun 2018-ci il tarixli **214** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 6, maddə 1297**) ilə 1-ci hissənin ikinci bəndin beşinci yarımbəndində "**Hüseynqulu Bağırov**" sözləri "**Muxtar Babayev**" sözləri ilə əvəz edilmişdir.

[2]13 dekabr 2019-cu il tarixli **1694** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Xalq" qəzeti, 14 dekabr 2019-cu il, № 278, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 12, maddə 1694**) ilə 1-ci hissəsi ilə təsdiq edilmiş Dövlət Komissiyasının tərkibi yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

**Komissiyanın sədri**

Yaqub **Eyyubov** – Azərbaycan Respublikası Baş nazirinin birinci müavini

**Komissiyanın üzvləri:**

Əli **Əsədov** – Azərbaycan Respublikası Prezidentinin *iqtisadi məsələlər üzrə köməkçisi – şöbə müdiri*

Pərviz **Şahbazov** – Azərbaycan Respublikasının energetika naziri

Şahin **Mustafayev** – Azərbaycan Respublikasının iqtisadiyyat və sənaye naziri

Samir **Şərifov** – Azərbaycan Respublikasının maliyyə naziri

Muxtar **Babayev** – Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri

Rövnəq **Abdullayev** – Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti

Şahmar **Mövsümov** – Azərbaycan Respublikası Dövlət Neft Fondunun icraçı direktoru

**İlham Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 25 fevral 2014-cü il, № 287*

# "ŞAHDƏNİZ"QAZ-KONDENSAT YATAĞININ İSTİSMARININ İKİNCİ MƏRHƏLƏSİ VƏ CƏNUB QAZ DƏHLİZİNİN YARADILMASINA DAİR DİGƏR LAYİHƏLƏRLƏ BAĞLI BƏZİ TƏDBİRLƏR HAQQINDA

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Şahdəniz"qaz-kondensat yatağının istismarının ikinci mərhələsi, Cənubi Qafqaz Boru Kəmərinin genişləndirilməsi, Trans-Anadolu Boru Kəməri və Trans-Adriatik Boru Kəməri layihələrində (bundan sonra – Layihələr) Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin iştirak payı və digər maliyyə öhdəliklərinin dövlət vəsaiti hesabına maliyyələşdirilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 29 oktyabr tarixli 15 nömrəli Sərəncamı ilə yaradılmış Dövlət Komissiyasının təklifini nəzərə alaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti:

1.1. Nizamnamə kapitalı 100 (yüz) milyon ABŞ dolları təşkil edən və səhmlərinin 51 faizi dövlət mülkiyyətində, 49 faizi isə *SOCAR-a* məxsus olan qapalı səhmdar cəmiyyətini (bundan sonra – Cəmiyyət) təsis etməklə Layihələrin səmərəli idarə olunmasını təmin etsin;[1]

1.2. Layihələrdəki iştirak paylarının Cəmiyyətə keçməsini təmin etsin.

2. Azərbaycan Respublikasının Dövlət Neft Fondu:

2.1. Cəmiyyətin birbaşa dövlət mülkiyyətində olan səhmlərinin maliyyələşdirilməsini təmin etsin;

2.2. Cəmiyyətə Layihələr üzrə bu Sərəncamın 1.2-ci bəndinə əsasən keçən iştirak paylarının maliyyələşdirilməsi üçün tələb olunan vəsaitin, geri qaytarılmaq şərti ilə Cəmiyyətə uzunmüddətli investisiya edilməsini təmin etsin.

3. Dövlət Komissiyası təyin etdiyi nümayəndələr vasitəsi ilə Cəmiyyətin Müşahidə Şurasında təmsil olunsun.

4. Cəmiyyətin birbaşa dövlət mülkiyyətində olan səhmlərinin sahibliyi və idarə edilməsi Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi tərəfindən həyata keçirilsin və həmin səhmlər üzrə dividendlər Azərbaycan Respublikasının Dövlət Neft Fonduna köçürülsün.[2]

5. Bu Sərəncamın 2.2-ci bəndinə əsasən Cəmiyyətə investisiya edilən vəsait tam geri qaytarılanadək Cəmiyyətin bütün Layihələrdən əldə etdiyi gəlir Azərbaycan Respublikasının Dövlət Neft Fonduna köçürülsün.

6. Dövlət Komissiyası bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 25 fevral 2014-cü il, № 287*

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

**1.** 20 aprel 2015-ci il tarixli **1180** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, № 4, maddə 437**)

1. 16 avqust 2016-cı il tarixli **1023** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Respublika" qəzeti, 17 avqust 2016-cı il, № 178, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 8, maddə 1384**)

## SƏRƏNCAMA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

[1] 20 aprel 2015-ci il tarixli **1180** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, № 4, maddə 437**) ilə 1.1-ci bəndində "**ARDNŞ-ə**" sözü "**SOCAR-a**" sözü ilə əvəz edilmişdir.

[2] 16 avqust 2016-cı il tarixli **1023** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Respublika" qəzeti, 17 avqust 2016-cı il, № 178, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 8, maddə 1384**) ilə 4-cü hissədən "**və Sənaye**" sözləri çıxarılmışdır.

# “AZƏRBAYCAN TƏBİİ QAZININ DÜNYA BAZARINA CƏNUB QAZ DƏHLİZİ VASİTƏSİLƏ NƏQLİ İLƏ ƏLAQƏDAR TƏDBİRLƏR HAQQINDA” AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 2013-CÜ İL 29 OKTYABR TARİXLİ 15 NÖMRƏLİ SƏRƏNCAMINDA DƏYİŞİKLİK EDİLMƏSİ BARƏDƏ

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. “Azərbaycan təbii qazının dünya bazarına Cənub Qaz Dəhlizi vasitəsilə nəqli ilə əlaqədar tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 29 oktyabr tarixli 15 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 10, maddə 1188; 2016, № 8, maddə 1384; 2018, № 6, maddə 1297) 1-ci hissəsi ilə təsdiq edilmiş Dövlət Komissiyasının tərkibi aşağıdakı redaksiyada verilsin:

**“Komissiyanın sədri**

Azərbaycan Respublikası Baş Nazirinin birinci müavini

**Komissiyanın üzvləri**

Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri

Azərbaycan Respublikasının energetika naziri

Azərbaycan Respublikasının iqtisadiyyat naziri

Azərbaycan Respublikasının maliyyə naziri

Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri
Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti
Azərbaycan Respublikası Dövlət Neft Fondunun icraçı direktoru".

2. Dövlət Komissiyasına tapşırılsın ki, bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 13 dekabr 2019-cu il, № 1694*

## SƏNGƏÇAL TERMİNALINDA CƏNUB QAZ DƏHLİZİNİN RƏSMİ AÇILIŞ MƏRASİMİ KEÇİRİLİB PREZİDENT İLHAM ƏLİYEV MƏRASİMDƏ İŞTİRAK EDİB

### Prezident İlham Əliyevin Nitqi

*(29 may 2018-ci il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 29-da Səngəçal terminalında Cənub Qaz Dəhlizinin rəsmi açılış mərasimində iştirak edib.

Həmçinin XXV yubiley Beynəlxalq Neft və Qaz sərgisinin də açılışı olub, mərasim sərginin keçirildiyi Bakı Ekspo Mərkəzində canlı yayımlanıb.

Dövlətimizin başçısı mərasimdə nitq söylədi.

***

– Hörmətli xanımlar və cənablar.

Əziz dostlar.

Bu gün ölkəmizin tarixində çox əlamətdar bir gündür, tarixi bir gündür. Bu gün Cənub Qaz Dəhlizinin rəsmi açılışı günüdür. Bu münasibətlə sizi və bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm.

Biz bu günü burada – Səngəçal terminalının ərazisində qeyd edirik. Səngəçal terminalı dünyanın ən böyük neft-qaz terminalıdır və məhz burada dörd il bundan əvvəl Cənub Qaz Dəhlizinin təməli qoyulmuşdur. Eyni zamanda, onu da qeyd etməliyəm ki, bu gün Bakı Ekspo Mərkəzində XXV Xəzər Neft-Qaz Sərgisi öz işinə başlayır və sərgidə iştirak edən yoldaşlar bu gün bu mərasimdə də iştirak etmiş kimi sayıla bilərlər. Mən onları da salamlayıram. Bildirmək istəyirəm ki, 25 il ərzində ilk dəfədir ki, Xəzər Neft-Qaz Sərgisinin açılışı sərgi yerində yox, Səngəçal terminalında baş verir.

Xəzər Neft-Qaz Sərgisinin Azərbaycanın enerji siyasətinin reallaşmasında çox böyük rolu olmuşdur. İlk sərgi 1994-cü ildə keçirilmişdir. O vaxt Azərbaycan gənc müstəqil dövlət idi və riskli dövlət kimi sayılırdı. Bu sərginin Azərbaycana investisiya qoyuluşu

üçün çox önəmli rolu olmuşdur. Ötən 25 il ərzində bu sərgi dünya miqyasında çox mötəbər sərgi kimi tanınır və sərgidə iştirak edən şirkətlərin, ölkələrin sayı getdikcə artmaqdadır.

Qeyd etdiyim kimi, 4 il bundan əvvəl bu ərazidə Cənub Qaz Dəhlizinin təməli qoyulub. O zaman mən tam əmin idim ki, bu layihə uğurla, vaxtında icra ediləcək, baxmayaraq ki, bu, çox nəhəng və texniki-iqtisadi cəhətdən çox mürəkkəb bir layihədir. Bu layihə geniş beynəlxalq əməkdaşlıq tələb edən bir layihə idi. İlk dəfə olaraq Azərbaycan belə genişmiqyaslı beynəlxalq iqtisadi və siyasi əməkdaşlığı tələb edən layihəyə start vermişdir, onun təşəbbüskarı olmuşdur. Cənub Qaz Dəhlizinin rəsmi açılışı onu göstərir ki, biz qarşımıza qoyduğumuz bütün hədəflərə çatdıq və bu gün ölkəmizin həyatında neft-qaz sənayesinin inkişafında yeni dövr başlayır.

Dünən Azərbaycan xalqı Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyini təntənəli şəkildə qeyd etmişdir. Bu da tarixi hadisə idi. Çünki ilk dəfə olaraq 1918-ci ildə müsəlman aləmində demokratik respublika yaradılmışdır. Biz haqlı olaraq fəxr edirik ki, bu respublikanı məhz Azərbaycan xalqı yaratmışdır. Dünən təntənəli mərasimdə çıxış edərkən bildirdim ki, əgər 1920-ci ildə müstəqillik əldən verilməsəydi və Azərbaycan Xalq Cümhuriyyəti süqut etməsəydi, bu gün Azərbaycan bəlkə də dünyanın ən inkişaf etmiş və ən zəngin ölkələrindən biri ola bilərdi. Çünki bizim təbii ehtiyatlarımız, zəngin neft ehtiyatlarımız çox böyük imkanlar açırdı. Ancaq Azərbaycan müstəqilliyini itirdi və ondan əvvəlki dövrdə Azərbaycan müstəqil olmadığı üçün Azərbaycan xalqı öz təbii ehtiyatlarından bəhrələnə bilməmişdir.

Dünya neftinin tarixi Azərbaycandan başlayır. 1846-cı ildə dünya miqyasında ilk dəfə olaraq sənaye üsulu ilə neft məhz Azərbaycanda, Bakıda hasil edilmişdir. O tarixi anı əks etdirən abidə şəhərimizin mərkəzində bir neçə il bundan əvvəl ucaldılıb. O vaxt – XIX əsrin ikinci yarısında və XX əsrin əvvəlində Azərbaycan dünya neft hasilatının əksəriyyətini təmin edirdi. Ancaq Azərbaycan xalqı bundan bəhrələnə bilibmi?! Əlbəttə ki, yox. O illərin şəkillərinə, statistik məlumatlarına baxmaq kifayətdir ki, hər kəs görsün ki, xalq səfalət içində yaşayırdı, yoxsulluq hökm sürürdü, heç bir sənaye inkişafından söhbət getmirdi. Sadəcə olaraq, Azərbaycan resurs mənbəyi idi və Azərbaycandan çıxarılan "qara qızıl" Azərbaycan xalqının inkişafına xidmət etmirdi. Bizim neftimiz tükənirdi. Neftdən əldə edilən gəlir Azərbaycan xalqının rifahına yönəlmirdi və eyni zamanda, biz Abşeron yarımadasında böyük ekoloji problemlərlə üzləşmişdik. Bu problemləri bu gün müstəqil dövlət həll edir.

Bu gün müstəqil Azərbaycan və bizim uğurlu neft-qaz siyasətimiz göstərir ki, ancaq müstəqillik şəraitində, müstəqillik dövründə Azərbaycan xalqı öz təbii ehtiyatlarından

istifadə edə bilər, ancaq müstəqillik dövründə Azərbaycan uğurla inkişaf edə bilər. Bu gün biz müstəqil dövlət kimi ayaqda möhkəm dayanmışıq, ölkə qarşısında duran bütün vəzifələri uğurla icra edirik, belə nəhəng layihələri tərəfdaşlarımızla birlikdə icra edirik və Avropanın enerji xəritəsini yenidən tərtib edirik.

Sovet İttifaqı dağılanda Azərbaycan 1991-ci ildə öz dövlət müstəqilliyini bərpa etdi. Ancaq müstəqilliyimizin ilk iki ili çox ağır keçmişdir. Ölkə demək olar ki, idarəolunmaz vəziyyətdə idi, xaos, anarxiya, böhran hökm sürürdü, neft sənayesi tamamilə tənəzzülə uğramışdı, vətəndaş müharibəsinə start verilmişdi. Yəni, ölkə çox böyük təhlükələrlə üzləşmişdi və müstəqilliyimizin ilk iki ili formal xarakter daşıyırdı. Çünki Azərbaycan müstəqil siyasət apara bilmirdi.

1993-cü ildə Azərbaycan xalqı Heydər Əliyevə müraciət edərək onu hakimiyyətə dəvət etdi, Prezident vəzifəsinə seçdi və ondan sonra Azərbaycanın uğurlu inkişaf dövrü başlamışdır. Biz əgər tarixə baxsaq görərik ki, məhz o vaxtdan bu günə qədər Azərbaycan inamla inkişaf edir, ölkə qarşısında duran bütün vəzifələr uğurla icra edilir və ölkə iqtisadiyyatının əsas hissəsini təşkil edən neft-qaz sektorumuz da inkişaf edir.

Qeyd etdiyim kimi, 1994-cü ildə birinci Xəzər Neft-Qaz Sərgisi təşkil edilmişdir. Azərbaycanın dünyada zəngin resurslara malik ölkə kimi tanıdılmasında bu sərginin çox böyük rolu olmuşdur. 1994-cü il sentyabrın 20-də "Əsrin kontraktı" imzalanmışdır. "Azəri-Çıraq-Günəşli" neft yataqları dünyanın ən böyük neft yataqlarından biridir və 24 il bundan əvvəl imzalanmış "Əsrin kontraktı"nın müddəti keçən il 2050-ci ilə qədər uzadıldı. Yəni, bu, özlüyündə onu göstərir ki, bu yataqda nə qədər böyük neft ehtiyatları var. "Əsrin kontraktı" Azərbaycana nəfəs verdi, ölkəmizin canlanmasına xidmət göstərdi. İlk dəfə olaraq Xəzər dənizi xarici şirkətlər üçün açıldı. Biz o xarici şirkətləri dəvət etdik və bu gün "Əsrin kontraktı"nın icrası çox uğurla gedir və bu kontraktın imzalanmasından sonra Azərbaycanın yeni neft strategiyası icra olunmağa başlamışdır.

Mən o tarixi günləri yaxşı xatırlayıram. Çünki o vaxt mən Dövlət Neft Şirkətinin vitse-prezidenti kimi bu işlərlə bilavasitə məşğul idim. O vaxt Azərbaycanın neft strategiyası müəyyən olundu və bu gün biz bu strategiyanın, görülən işlərin bəhrəsini görürük.

1994-cü ildən sonra ikinci böyük kontrakt "Şahdəniz" qaz yatağı üzrə imzalanmışdır. Onu da qeyd etməliyəm ki, bu kontrakt 1996-cı il iyunun əvvəlində məhz Xəzər Neft-Qaz Sərgisinin keçirildiyi gündə imzalanmışdır. Beləliklə, Azərbaycan dünyaya özünü nəinki neft ölkəsi, həm də qaz ölkəsi kimi təqdim etdi. Onu da yaxşı xatırlayıram ki, o vaxt dünyada enerji təhlükəsizliyi məsələlərində qaz amili o qədər də ciddi rol oynamırdı. Hətta qaz yataqlarının işlənilməsi o qədər də böyük maraq doğurmurdu. Çünki mənfəət

neft yataqları ilə müqayisədə daha aşağı idi. Ona görə bu layihəyə investorları cəlb etmək o qədər də asan məsələ deyildi. Ancaq bu gün, bu tarixi gündə Cənub Qaz Dəhlizinin açılışını qeyd edərkən biz görürük ki, bu, nə qədər vaxtında atılmış və müdrik addım idi. “Şahdəniz” qaz yatağı Cənub Qaz Dəhlizinin əsas resurs bazasıdır.

1997-ci ildə isə “Əsrin kontraktı”nın icrası nəticəsində “Çıraq” platformasından ilk neft çıxarılmışdır. O tarixi videokadrlar artıq göstərilir və doğrudan da tarixi bir gün idi. İlk dəfə olaraq xarici şirkətlər tərəfindən Xəzərdə yeni yataqdan neft hasil edilmişdir.

Azərbaycan açıq dənizlərə çıxışı olmayan bir ölkədir. Ona görə neft kəmərləri tikilməli idi və 1999-cu ildə artıq birinci neft kəməri – Bakı-Supsa kəməri istifadəyə verilmişdir. Yəni, bu, onu göstərir ki, biz bu böyük işləri nə qədər qısa müddət ərzində görmüşük. Bu işlər həm böyük maliyyə vəsaiti tələb edirdi, həm də texniki cəhətdən çox çətin layihələr idi. Onu da deməliyəm ki, 1999-cu ildə bizim hələ böyük vəsaitimiz də yox idi. Ondan sonra “Bakı–Tbilisi–Ceyhan” neft kəməri istifadəyə verildi. Ona görə bu layihələrin həyata keçirilməsi doğrudan da böyük səylər, böyük müdriklik tələb edirdi. Bakı-Supsa neft kəmərinin istifadəyə verilməsi ilə biz tarixdə ilk dəfə Xəzər dənizini Qara dənizlə neft kəməri ilə bağlamışıq.

Ondan sonra 2002-ci ildə artıq biz “Azəri-Çıraq” yatağından böyük neft gözləyərkən məhz burada – Səngəçal terminalının ərazisində “Bakı–Tbilisi–Ceyhan” neft kəmərinin təməlini qoyduq. Bu kəmər 2006-cı ildə istifadəyə verildi və bu gün Azərbaycan xalqına, bütün dost ölkələrə xidmət edir. Bu gün “Bakı–Tbilisi–Ceyhan” neft kəməri vasitəsilə nəinki Azərbaycan nefti, eyni zamanda, digər ölkələrin nefti də nəql edilir. Xəzərin şərq sahilində digər ölkələr tərəfindən hasil edilən neft artıq bu kəmər vasitəsilə dünya bazarlarına çıxarılır. Azərbaycan bu gün, eyni zamanda, etibarlı tranzit ölkə kimi qonşu ölkələrə öz imkanlarını təqdim edir.

2007-ci ildə isə “Bakı–Tbilisi–Ərzurum” qaz kəməri istifadəyə verildi. Bu da çox önəmli layihədir. Bu layihə olmadan “Şahdəniz” yatağının işlənməsi mümkün deyildi. Beləliklə, ilk dəfə olaraq 2007-ci ildə Azərbaycan qazı Gürcüstana və Türkiyəyə nəql edilməyə başlamışdır. O günü də mən çox yaxşı xatırlayıram. Ceyhandakı mərasimi də yaxşı xatırlayıram. Bu gün buraya gələrkən bütün o tarixi anlar, o günlər bir daha mənim yaddaşımda oyandı və bir daha mən demək istəyirəm ki, doğrudan da bunlar tarixi nailiyyətlərdir.

“Şahdəniz” yatağının gələcək işlənilməsi ilə bağlı addımlar atılmağa başlanıldı. Əlbəttə, biz hamımız yaxşı bilirdik ki, böyük həcmdə Azərbaycan qazını dünya bazarlarına çıxarmaq üçün qaz kəməri lazımdır. Beləliklə, Cənub Qaz Dəhlizinin yaradılması ilə bağlı praktiki işlərə start verildi. Çox ciddi işlər, danışıqlar aparıldı və nəhayət, 2012-ci

ildə Azərbaycan ilə Türkiyə arasında TANAP – Transanadolu qaz kəməri üzrə müqavilə imzalandı. Beləliklə, Cənub Qaz Dəhlizinin reallaşmasına güclü təkan verildi. TANAP layihəsi Cənub Qaz Dəhlizinin önəmli hissəsidir. Biz gələn ay TANAP layihəsinin istifadəyə verilməsini də qeyd edəcəyik. Qeyd etdiyim kimi, 2014-cü il sentyabrın 20-də, – o da çox rəmzi məna daşıyır, çünki "Əsrin kontraktı" 1994-cü il sentyabrın 20-də imzalanmışdır, – 20 ildən sonra Cənub Qaz Dəhlizinin təməli qoyulmuşdur. Bu gün biz bu layihənin rəsmi açılışını qeyd edirik və bu, doğrudan da böyük və tarixi hadisədir.

Cənub Qaz Dəhlizi nəhəng infrastruktur layihəsidir. Bu layihənin icra edilməsinə 40 milyard dollardan çox sərmayə qoyulubdur və qoyulur. Azərbaycanın təsdiq edilmiş qaz ehtiyatları 2,6 trilyon kubmetrə bərabərdir. Əminəm ki, bundan böyük həcmdə resurslarımız var. Gələcək kəşfiyyat və istismar işləri əminəm ki, bunu təsdiqləyəcək.

Bu layihələrin həyata keçirilməsi beynəlxalq əməkdaşlıq olmadan mümkün olmazdı. Mən, ilk növbədə, regional əməkdaşlıq haqqında danışmaq istərdim. Azərbaycan, Gürcüstan və Türkiyə "Bakı–Tbilisi–Ceyhan", "Bakı–Tbilisi–Ərzurum" və digər önəmli layihələri, o cümlədən nəqliyyat sahəsində "Bakı–Tbilisi–Qars" layihəsini icra edərkən artıq çox güclü üçtərəfli regional əməkdaşlıq formatı yaratmışlar. Ona görə bu layihələrin icra edilməsində bu üç ölkənin birgə səyləri xüsusi yer tutur. Mən bu gün fürsətdən istifadə edərək həm Türkiyə, həm Gürcüstan rəhbərliyinə əməkdaşlığa görə təşəkkürümü bildirmək istəyirəm. Mən bu gün Amerika Birləşmiş Ştatlarının hökumətinə təşəkkürümü bildirmək istəyirəm. Çünki Amerika Birləşmiş Ştatları bütün layihələrimizdə bizə böyük dəstək olub, bizə kömək göstərib, həm siyasi dəstək, həm mənəvi dəstək. Əlbəttə, bu layihələr böyük resurslar tələb edir və maliyyə resurslarının böyük hissəsi banklar tərəfindən verilir. Amerika hökumətinin bu işdə çox böyük səyləri olub. Biz bu dəstəyi, o cümlədən "Bakı–Tbilisi–Ceyhan", "Bakı–Tbilisi–Ərzurum" və "Cənub Qaz Dəhlizi" layihələrinin reallaşmasında həmişə hiss etmişik və hiss edirik. Bu dəstək bu layihələrin icra edilməsində çox böyük rol oynamışdır.

Böyük Britaniya hökuməti də həmişə bizim yanımızda olub. Bildiyiniz kimi, "BP" şirkəti energetika sahəsində bizim əsas investorumuzdur. Böyük Britaniya hökuməti bu layihələrin reallaşmasında həmişə bizə dəstək göstərmişdir, biz bu dəstəyi bu gün də hiss edirik. Keçən ay Londonda Baş nazir xanım Mey ilə mənim iştirakımla "BP" ilə SOCAR arasında növbəti kontrakt imzalanmışdır. Bu, bizim strateji əlaqələrimizi bir daha əks etdirir.

Avropa İttifaqı bu layihənin icrasında çox önəmli rol oynamışdır. Hələ 2011-ci ildə Bakıda Avropa İttifaqı ilə Azərbaycan arasında Cənub Qaz Dəhlizi haqqında Birgə Bəyannamə imzalanmışdır. Bu illər ərzində biz daim Avropa İttifaqının dəstəyini hiss

etmişik. Azərbaycanın və Avropa İttifaqının təşəbbüsü ilə son dörd il ərzində Bakıda hər il Cənub Qaz Dəhlizinin Məşvərət Şurasının iclasları keçirilir. 2015-ci ildən bu günə qədər Avropa İttifaqı bu toplantılarda ən yüksək səviyyədə təmsil olunur. Avropa İttifaqı ilə Azərbaycanın əməkdaşlıq formatında energetika sektoru təbii ki, çox böyük yer tutur.

Bu layihələrin həyata keçirilməsi maliyyə institutlarının maliyyəsi olmadan mümkün olmazdı. Mən bugünkü mərasimdə bizə dəstək olan beynəlxalq səviyyədə tanınmış banklara da öz təşəkkürümü bildirmək istəyirəm. Onlar da bizə inanıb və öz maliyyə resurslarını ayırıblar. Onlar da əmindirlər, biz də əminik ki, Azərbaycan etibarlı tərəfdaş kimi bütün borcları vaxtında qaytarır və qaytaracaq.

Bir sözlə, geniş beynəlxalq əməkdaşlıq çərçivəsində həyata keçirilən bu layihə əminəm ki, gələcəkdə nəinki energetika sahəsində, bütün başqa sahələrdə Avropada və bizim bölgədə əməkdaşlığın dərinləşməsinə xidmət göstərəcək.

Cənub Qaz Dəhlizinin icrasında yeddi ölkə iştirak edir. Mən o ölkələrin adlarını bu gün çəkmək istərdim –- Azərbaycan, Gürcüstan, Türkiyə, Bolqarıstan, Yunanıstan, Albaniya, İtaliya. Bax, geniş beynəlxalq əməkdaşlıq yaradılıb.

Eyni zamanda, üç Balkan ölkəsi – Bosniya və Herseqovina, Xorvatiya və Monteneqro tərəfdaşlar kimi əminəm ki, növbəti mərhələdə bu layihəyə qoşulacaqlar. Cənub Qaz Dəhlizinin qolları olmalıdır. Biz ixrac imkanlarımızı genişləndirmək istəyirik. Bilirik ki, Avropada da Azərbaycan qazına tələbat var. Biz də istəyirik daha çox qazı Avropaya sataq, çünki Avropa bazarı bizim üçün ən əlverişli bazardır.

Cənub Qaz Dəhlizi enerji təhlükəsizliyi məsələlərinin həllinə də kömək göstərəcək. Bu gün enerji təhlükəsizliyi ilə bağlı məsələlər dünya gündəliyində çox ciddi dayanır və ölkələrin milli təhlükəsizliyi, o cümlədən enerji təhlükəsizliyindən böyük dərəcədə asılıdır.

Cənub Qaz Dəhlizi enerji resurslarının şaxələndirilməsi işində də çox önəmli layihədir və hesab edirəm ki, əvəzolunmaz layihədir. Bu layihədə biz həm mənbələrin, həm marşrutların şaxələndirilməsini görürük. Çünki ancaq bu təqdirdə biz tam mənada enerji resurslarının şaxələndirilməsi haqqında danışa bilərik. Sadəcə olaraq, yeni marşrutların açılması və eyni mənbədən qidalanması tam mənada enerji şaxələndirilməsi məsələsi deyil. Biz isə, sözün əsl mənasında, enerji şaxələndirilməsi layihəsini icra edirik. Azərbaycan qazı yeni mənbədir və Cənub Qaz Dəhlizi yeni enerji damarıdır, Avropanın enerji xəritəsini yenidən tərtib edən layihədir. Bu layihənin həyata keçirilməsində iştirak edən bütün tərəflərin maraqları təmin edilib. Bu da çox önəmlidir. Burada maraqlar balansı gözlənilib.

Hasilatçı ölkə Azərbaycan, tranzit ölkələr, o cümlədən Azərbaycan və başqa ölkələr və istehlakçı ölkələr, - hansılar ki, Azərbaycan qazını alternativ qaz kimi alacaqlar, -

beləliklə, onlar üçün enerji təhlükəsizliyi məsələləri daha da dolğun şəkildə, tam şəkildə təmin ediləcək. Yəni, maraqlar balansı olmasaydı, bu layihə həyata keçirilə bilməzdi. Bizim enerji siyasətimizlə bağlı yanaşmamız məhz bundan ibarətdir. Biz qarşılıqlı faydalı əməkdaşlığı təmin etməliyik.

İştirak edən bütün tərəflər, şirkətlər, ölkələr öz mənfəətini götürməlidirlər – həm siyasi, həm təhlükəsizlik, həm iqtisadi. Şirkətlər öz mənfəətini götürməlidirlər və Azərbaycan resursların sahibi kimi, əlbəttə ki, öz mənfəətini götürür və götürəcək.

Çıxışımın sonunda bu layihələrin ölkəmiz üçün nə qədər böyük fayda gətirdiyini qeyd etmək istərdim. Bu gün Azərbaycan ayaqda möhkəm duran bir ölkədir, müstəqil ölkədir, müstəqil siyasət aparan ölkədir, güclü iqtisadiyyata malik olan bir ölkədir. Son 15 il ərzində Azərbaycan iqtisadiyyatı, ümumi daxili məhsul üç dəfədən çox artmışdır. Ölkə iqtisadiyyatına son 15 il ərzində 230 milyard dollardan çox sərmayə qoyulmuşdur.

Azərbaycanda xarici dövlət borcu çox aşağı səviyyədədir, ümumi daxili məhsulumuzun cəmi 20 faizini təşkil edir. Bizim valyuta ehtiyatlarımız xarici borcumuzdan 4-5 dəfə çoxdur. Yəni, biz istənilən vaxtda bütün borcları rahatlıqla ödəyə bilərik. Azərbaycanda son 15 il ərzində yoxsulluq səviyyəsi təxminən 50 faizdən 5,4 faizə düşüb, işsizlik 5 faiz səviyyəsindədir. Bu, onu göstərir ki, qara qızıl, neft və qaz insan kapitalına çevrilib. Onu göstərir ki, bizim siyasətimiz ondan ibarət olmuşdur ki, biz neft-qaz əməliyyatlarından əldə olunan gəlirləri cəmiyyətdə bərabər, ədalətli şəkildə bölək və ölkə iqtisadiyyatının inkişafı üçün lazım olan layihələrə yönəldək. Dünya Davos İqtisadi Forumu Azərbaycan iqtisadiyyatını dünya miqyasında rəqabətqabiliyyətliliyinə görə 35-ci yerə layiq görüb. Bu, onu göstərir ki, biz iqtisadi şaxələndirmə siyasətini uğurla aparırıq. Neftdən əldə edilmiş gəlirlər iqtisadiyyatın qeyri-neft sektoruna yönəlib. Davos Forumunun hesablamalarına əsasən inkişafda olan ölkələr arasında inklüziv inkişaf indeksinə görə Azərbaycan üçüncü yerdədir. Bu işlərin təməlində bizim uğurlu neft-qaz siyasətimiz dayanır. Ancaq, eyni zamanda və böyük dərəcədə bu işlərin təməlində düşünülmüş siyasət dayanır. Bir çox ölkələr var ki, onların bizdən qat-qat böyük neft resursları, neft hasilatı var. Ancaq ölkələrin uğurlu inkişafını təbii resurslar həll etmir. Düşünülmüş siyasət, xalq-iqtidar birliyi, şəffaflıq, bütün azadlıqların təmin edilməsi, düzgün iqtisadi siyasət və regional əməkdaşlıq uğurlu inkişafın əsas amilləridir.

Bu gün bu tarixi gündə mən bu tarixi məqamları bir daha sizin və Azərbaycan xalqının diqqətinə çatdırmaq istərdim. Çünki bugünkü günün təməli məhz o illərdə qoyulub. Sadəcə olaraq, biz bütün bu işləri ardıcıllıqla görmüşük. Bu gün bizim ölkəmizin həyatında çox əlamətdar tarixi bir gündür. Bu gündə mən Cənub Qaz Dəhlizinə uzun və uğurlu ömür arzulayıram.

Sağ olun.

***

Sonra mərasimdə çıxışlar oldu.

**ABŞ Dövlət katibinin köməkçisinin enerji məsələləri üzrə müavini xanım Sandra OUDKİRK çıxış edərək dedi:**

– Cənab Prezident Əliyev.

Energetika naziri Şahbazov.

Nazir müavini Çikovani.

Hörmətli cənab Məhəmməd Barkindo.

Baronessa Nikolson, səfirlər, xanımlar və cənablar.

Bugünkü mərasim – Cənub Qaz Dəhlizinin açılışı tarixi hadisədir.

Mən bu münasibətlə Prezident İlham Əliyevi təbrik edirəm.

Bu mühüm layihəni reallığa çevirmək üçün yorulmaz fəaliyyətinə görə burada təmsil olunan bütün ölkələrə və şirkətlərə təşəkkürümü bildirirəm.

Amerika Birləşmiş Ştatları Xəzər hövzəsi regionunun daha böyük iqtisadi inteqrasiyasında, Avropanın enerji təchizatının şaxələndirilməsində bu layihənin mühüm rolunu xüsusi qeyd edərək, 10 il bundan əvvəl təklif olunan Cənub Qaz Dəhlizi barədə təşəbbüsü qəti surətdə dəstəkləyib.

Prezident Tramp Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə Prezident İlham Əliyevə bu günlərdə göndərdiyi məktubda Cənub Qaz Dəhlizinin inanılmaz nailiyyət olduğunu və bunun Avropanın enerji təhlükəsizliyini təmin edəcəyini vurğulayaraq, bu layihəyə güclü dəstəyini ifadə edib.

Təbii ki, Cənub Qaz Dəhlizi birgə çalışmaq, sülh şəraitində inkişaf etmək, Aralıq dənizinin şərq hissəsindən – İraq, Mərkəzi Asiya və Qafqazdan daha böyük həcmdə təbii qazın Avropadakı istehlakçılara çatdırmaq baxımından region ölkələri üçün yaxşı imkandır və o, şaxələndirmə məqsədilə yaradılmışdır. Ümid edirik ki, həmin ölkələr bu imkandan səmərəli istifadə edəcəklər. Birləşmiş Ştatlar bütün tərəfdaşlarla, eləcə də layihənin uzunmüddətli uğurunu təmin etmək üçün bu layihəyə qoşulacaq digər ölkələrlə işin davam etdirilməsini səmimiyyətlə arzulayır. Sizi bir daha təbrik edirəm. Sağ olun.

***

**Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş nazirinin Azərbaycan üzrə ticarət elçisi Baronessa Emma NİKOLSON çıxış edərək dedi:**

– Zati aliləri, Prezident Əliyev.

Hörmətli qonaqlar, xanımlar və cənablar.

Birləşmiş Krallığın Baş nazirinin Azərbaycan üzrə ticarət elçisi və Azərbaycana tez-tez səfər edən insan kimi mən XXV Xəzər Neft-Qaz sərgi və konfransına dəstək vermək üçün Bakıda olmağımdan məmnunam. Azərbaycana səfər etmək hər zaman böyük məmnunluq doğurur və bu səfərimdə mən 1918-ci ildə yaradılan Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi ilə əlaqədar ən səmimi təbriklərimi çatdırmaqdan şadam. Bu respublikanın yaradıcıları vaxtı qabaqlayaraq qadınlara seçib-seçilmək və digər hüquqları vermişlər. Bu səbəbdən mən gender bərabərliyi sahəsində Azərbaycanın nailiyyətlərini qeyd etmək üçün mayın 30-da Beynəlxalq Qadınlar Forumunda iştirak etməkdən çox şadam.

Neft və qaz sənayesi Birləşmiş Krallığın Azərbaycanla ticari münasibətlərinin təməl daşı olaraq qalır. İlk Xəzər Neft-Qaz sərgi və konfransının keçirilməsindən sonra biz birgə böyük uğurlara imza atmışıq.

Bu il enerji əməkdaşlığında növbəti mühüm hadisə baş verir. "BP"nin "Şahdəniz-2" platformasından ilk qaz Cənub Qaz Dəhlizi şəbəkəsi ilə Türkiyəyə gedən boru kəmərlərinə daxil olacaq. Layihə Avropa üçün daha etibarlı enerji təhlükəsizliyinin təmin edilməsi istiqamətində atılmış mühüm addımdır. Biz birgə uğurlu tərəfdaşlıq qurmuş, gələcək üçün möhkəm bünövrə yaratmışıq.

Mən aprelin 26-da Prezident Əliyevlə və Baş nazirimizlə onun Londondakı iqamətgahında olmaqdan şərəf hissi duydum və o vaxt "BP" ilə SOCAR gözəl uğurlu tərəfdaşlığın növbəti sazişini imzaladılar. Əməkdaşlığımızın dərinləşdirilməsi ölkələrimizə daha böyük iqtisadi fayda gətirəcək. Bu baxımdan Birləşmiş Krallıq bizim ticari əməkdaşlığımıza xüsusi diqqət yetirir. Mən Baş nazir xanım Tereza Meyin "Xəzər Neft və Qaz – 2018" sərgi və konfransı münasibətilə Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə təbrik məktubunu oxumaq istərdim:

"Bakıda keçirilən "Xəzər Neft-Qaz – 2018" sərgi və konfransının açılışı münasibətilə məktub göndərməkdən böyük məmnunluq hissi duyuram.

Tam müstəqil və suveren ölkə olan Azərbaycanın 1918-ci ildə yaradılmış Xalq Cümhuriyyətinin 100 illik yubileyini qeyd etməsi bu ilə xüsusi əhəmiyyət verir.

Bu il həm də ilk dəfə 1994-cü ildə keçirilmiş Xəzər Neft-Qaz Sərgi və Konfransının 25-ci ildönümüdür. Hər iki yubiley münasibətilə Prezident İlham Əliyevə ən səmimi təbriklərimi çatdırmaq istəyirəm.

Neft və qaz sənayesindən əldə olunan gəlirlər Azərbaycanın müasir və müstəqil ölkəyə çevrilməsinə kömək etmişdir.

"BP"-nin Azərbaycanın iqtisadi inkişafında belə mühüm rol oynaması sevindirici haldır. 1994-cü ildə imzalanmış "Azəri–Çıraq–Günəşli" müqaviləsi Azərbaycanın neft tarixində, eləcə də ikitərəfli əlaqələrimizdə yeni bir dövrün başlanğıcını qoyan tarixi dönüş nöqtəsi idi.

O vaxtdan bəri Britaniya şirkətləri Azərbaycanın neft və qaz sektorunu bütün dünyanın qibtə edəcəyi müasir texnologiya və dünya səviyyəli istehsalat müəssisələri vasitəsilə inkişaf etdirmək üçün on milyardlarla funt-sterlinq investisiya yatırıb.

Biz tərəfdaşlığımızı daha da genişləndirmək istəyirik. Məhz buna görə mən aprelin 26-da Prezident İlham Əliyevi Dauninq Stritdə qarşılamaqdan böyük məmnuniyyət hissi keçirdim. Bizim iştirakımızla "BP" və SOCAR arasında hasilatın pay bölgüsü üzrə altıncı Saziş imzalandı. Bu Saziş son iyirmi beş il ərzində iki şirkət arasında qurulmuş möhtəşəm tərəfdaşlığın təcəssümüdür.

Birləşmiş Krallıq və Azərbaycan energetika sahəsindən başqa bir çox digər sahələri də əhatə edən güclü və ikitərəfli faydalı əlaqələr qurublar. Ümid edirəm ki, bu əlaqələr qarşıdakı illərdə də yüksələn xətlə inkişaf edəcək.

Sonda builki Xəzər Neft-Qaz Sərgi və Konfransının iştirakçılarına uğurlar arzulayıram.

Tereza Mey

Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri"

Baronessa Emma Nikolson çıxışına davam edərək dedi: Cənab Prezident, xanımlar və cənablar, bu gün bu konfransda iştirak etməkdən şərəf hissi duyuram və bu səfərimdən çox razıyam. Sizi əmin edirəm ki, bundan sonra da səylərimi göstərəcəyəm ki, ölkələrimiz arasında ticari münasibətlər daha da güclənsin və xalqlarımız bundan bəhrələnsin. Sizə uğurlar arzulayıram.

***

**Türkiyənin Azərbaycandakı səfiri Erkan Özoral Prezident Rəcəb Tayyib Ərdoğanın Prezident İlham Əliyevə və Cənub Qaz Dəhlizinin rəsmi açılış mərasiminin iştirakçılarına məktubunu oxudu. Məktubda deyilir:**

"Cənab Prezident, əziz qardaşım İlham Əliyev.

Hörmətli qonaqlar.

Sizi səmimi qəlbdən salamlayıram.

Türkiyəyə və Avropanın digər ölkələrinə Azərbaycan qazını çatdıracaq Transanadolu təbii qaz boru kəmərinə ilk qazın verilməsi münasibətilə keçirilən bu mərasimin xeyirli olmasını diləyirəm.

İstər Azərbaycan ilə ikitərəfli, istərsə də regional əməkdaşlığımız baxımından örnək bir layihə olan TANAP-ın tamamlanması hamımız üçün qürur mənbəyidir.

Bundan əvvəl uğurla həyata keçirdiyimiz "Bakı–Tbilisi–Ceyhan", "Bakı–Tbilisi–Ərzurum" boru kəmərləri və nəqliyyat sahəsində "Bakı–Tbilisi–Qars" dəmir yolundan sonra TANAP da bölgənin taleyini dəyişdirəcək əhəmiyyətə malik əməkdaşlığımızın bir başqa bəhrəsidir.

TANAP-ın reallaşmasında ABŞ-ın və Avropa İttifaqının dəstəyi də əhəmiyyətli olmuşdur.

Birlikdə atdığımız addımlar bu tarixi layihənin sürətlə və problemsiz başa çatdırılmasında önəmli rol oynamışdır.

Bundan sonrakı müddətdə Avropaya yeni bir mənbədən qaz nəqlini mümkün edəcək Cənub Qaz Dəhlizinin digər layihələrinin də vaxtında başa çatdırılması mühüm əhəmiyyət daşıyır.

Bu gün TANAP boru kəmərinə ilk qazın verilməsindən sonra iyunun 12-də Əskişəhərdə böyük bir mərasimlə kəmərin açılışını edəcəyik.

Bu tarixi anın şahidi olmaq üçün sizləri də Əskişəhərdə qarşılamaqdan böyük məmnunluq duyacağıq.

Digər tərəfdən, bu il 25-ci dəfə keçirilən "Xəzər Neft və Qaz" sərgi və konfransının təşkilində əməyi olanları təbrik edir, bu mühüm tədbirin uğurlarının artmasını və davamlı olmasını diləyirəm.

Bu xoş fürsətdən istifadə edərək TANAP-ın başda Türkiyə və Azərbaycan olmaqla, bölgəmiz üçün xeyirli olmasını bir daha arzu edir, bütün iştirakçıları səmimi qəlbdən salamlayıram.

Rəcəb Tayyib Ərdoğan

Türkiyə Respublikasının Prezidenti"

***

**Neft İxrac Edən Ölkələr Təşkilatının (OPEC) baş katibi Məhəmməd BARKİNDO çıxış edərək dedi:**

– Zati-aliləri, möhtərəm cənab Prezident.

Hörmətli mərasim iştirakçıları, sənaye liderləri, əssalamü aleykum.

Ramazan ayınız mübarək olsun.

Xəzər dənizinin sahilində – Səngəçal terminalında yalnız 25-ci ildönümü qeyd olunan "Xəzər Neft və Qaz" sərgi və konfransının açılışında iştirak etdiyim üçün yox, eyni zamanda, qlobal və möhtəşəm layihənin açılışı və istismara verilməsi mərasiminə qatıldığım üçün böyük şərəf və məmnunluq hissi keçirirəm.

Cənab Prezident, "Şahdəniz" Sizin müdrik rəhbərliyinizin, səy və qətiyyətinizin, bu böyük ölkədə fəaliyyət göstərən sənaye şirkətlərinin hamıya nümayiş etdirdiyi əzmkarlığın parlaq sübutudur. Bu layihə və onun artıq sürətlə inkişaf etməkdə olan fazası çoxmilyardlı kapital qoyuluşu layihəsidir. Bu layihə dünya miqyasında ən böyük enerji layihələrindən biridir. Bu layihə bir ilham mənbəyidir, bütün Azərbaycan, eləcə də region və dünya

bu layihədən qürur hissi duymalıdır. Bu layihə Azərbaycan iqtisadiyyatına əhəmiyyətli şəkildə əlavə dəyər verir və karbohidrogen sektorunun genişlənməsinə imkan yaradır. Bu layihə bizim razılığa gəlməyimiz üçün Sizin təşəbbüskarlığınız və rəhbərliyiniz sayəsində OPEC-ə üzv olan və üzv olmayan neft hasil edən 24 ölkə arasında tarixi əhəmiyyət daşıyan əməkdaşlıq bəyannaməsində, "BP" tərəfindən idarə olunan "Şahdəniz" layihəsi və bir neçə ölkədən olan çoxsaylı neft və qaz şirkətlərinin timsalında böyük tərəfdaşlığın sübutudur. Biz Sizin bir neçə il bundan əvvəl ifadə etdiyiniz və ən yüksək hökumət dairələri səviyyəsində bunu etməyə çağırdığınız OPEC-ə üzv olan və üzv olmayan ölkələrin bir araya gəlməsinin vacibliyini bildirən baxışınıza görə Zati-alinizə minnətdar olmaqda davam edəcəyik. Əlbəttə ki, buraya Sizin dövlət neft şirkətiniz olan SOCAR, habelə digər iştirakçı şirkətlər də daxildir. Bu, eyni zamanda, istehsalçı və istehlakçılar arasında səmərəli və uzunmüddətli əməkdaşlığın bir nümunəsi olan tərəfdaşlıqdır. Bu tərəfdaşlıq Cənub Qaz Dəhlizi ilə Xəzər dənizindən daha çox qaz ehtiyatlarının nəql olunmasına imkan yaradacaq və bununla da qlobal enerji təhlükəsizliyinə, xüsusilə Avropanın enerji təhlükəsizliyinə töhfə verəcək.

Zati-aliləri, icazə verin, sitat gətirim. Dahi Henri Ford demişdir: "Əgər hamı birlikdə hərəkət edirsə, onda uğur özü sizə gələcək".

Keçən il mən Sizin ölkənizdə olmuşdum. Lakin iki ay bundan əvvəl, cənab Prezident, mənə Sizinlə görüşmək şərəfi nəsib oldu. Bu görüşdə biz neft bazarlarına dayanıqlı əsaslarla sabitliyi bərpa etmək işində kömək göstərmək üçün fikir mübadiləsi apardıq və qət etdiyimiz yolu qiymətləndirdik.

Mən Sizin müdrik fikirlərinizi, işlərin necə irəliləməsi ilə bağlı tövsiyələrinizi özümlə Vyanaya apardım. Mən Azərbaycanın davamlı surətdə ən çox neft hasil edən ölkələr arasında olduğunu nəzərə alaraq hasilatın könüllülük prinsipi əsasında uyğunlaşdırılması ilə bağlı OPEC-lə davamlı əməkdaşlıq apardığınıza, göstərdiyiniz dəstəyə və üzərinizə götürdüyünüz öhdəliyə görə təşəkkürümü bir daha ifadə etmək istəyirəm. Əməkdaşlığımızın daha da genişləndirilməsi üçün mümkün imkanlarla bağlı müzakirələrimizin davam etdirilməsi də məndə böyük məmnunluq hissi doğurur. Mən bilirəm ki, OPEC-ə üzv olan və üzv olmayan ölkələr arasında Sizin dəstəklədiyiniz belə bir möhtəşəm əməkdaşlıq formatının yaradılmasında hamımız bir dəyər görürük. Bu, həmişəkindən daha çox mürəkkəb, qarşılıqlı asılılığı və qlobal bazarda, sənayedə olan bütün maraqlı tərəflərin dayanıqlı sabitliyə nail olmaq üçün birlikdə çalışmasını əhəmiyyətli edir. Bu, həm hasilatçıların, həm də istehlakçıların maraqlarına xidmət edir. Bu qlobal layihənin istismara verilməsi Sizin bütün dünyaya ölkələr, regionlar, həm beynəlxalq, həm də milli neft şirkətləri arasında əməkdaşlıq üçün hansı addımların atılmasının zəruriliyi barədə çağırışınızın vacibliyini bir daha təsdiqləyir.

Cənab Prezident, mən bu dialoqu növbəti iki gün ərzində Sizin nümayəndələrinizlə davam etdirməyi, "Xəzər Neft və Qaz" sərgi və konfransında iştirakımı səbirsizliklə gözləyirəm. Təşəkkür edirəm.

***

**Qaz İxrac Edən Ölkələr Forumunun baş katibi Yuri SENTYURİN çıxış edərək dedi:**

– Zati-aliləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev.

Möhtərəm mərasim iştirakçıları, xanımlar və cənablar.

Cənub Qaz Dəhlizinin açılışını bildirən belə bir mötəbər tədbirin iştirakçısı olmaq mənim üçün böyük şərəfdir. Sənaye, neft və qaz, mədəniyyət, elm mərkəzi olan, lakin ən önəmlisi təmsil etdiyim qurumun – Qaz İxrac Edən Ölkələr Forumunun üzvü kimi Azərbaycanın gözəl paytaxtında – Bakıda olmaq məndə böyük məmnunluq hissi oyadır.

Azərbaycan Foruma 2015-ci ildə üzv olub. Cənub Qaz Dəhlizinin rəsmi açılışı ilə bağlı bu mərasim beynəlxalq qaz mərkəzi kimi Azərbaycanın yeni önəmli mövqeyini vurğulayır. Enerjiyə gələcək tələbatın qarşılanmasında təbii qaz böyük rol oynayacaq.

Azərbaycan Respublikasının Prezidenti, Zati-aliləri İlham Əliyevin müdrik rəhbərliyi ilə aparılan siyasət nəticəsində Azərbaycan bir mərkəz kimi mühüm mövqe əldə etmişdir. Fürsətdən istifadə edərək prezident seçkilərində inamlı qələbəniz münasibətilə Qaz İxrac Edən Ölkələr Forumunun səmimi təbriklərini Sizə çatdırmaq istəyirəm.

Qaz yataqlarının işlənilməsi ilə bağlı ən böyük layihələrdən biri kimi Cənub Qaz Dəhlizi Xəzər hövzəsindən təbii enerji resurslarının nəqlində mühüm rol oynayacaq. Gözlənildiyi kimi, Xəzər və Avropa regionunda bir çox ölkələrdən keçən belə bir nəhəng layihə xüsusilə dövlət və özəl sektor arasında genişmiqyaslı əməkdaşlığa xidmət edəcək. Texnologiyanın əsas komponent rolu oynamasını nəzərə alsaq, bu böyük layihəni həyata keçirmək üçün 7 hökumət və 11 müstəqil şirkətin birlikdə çalışması faktı heç də təəccüblü deyil. Öz nəhəngliyi ilə seçilən Cənub Qaz Dəhlizi Xəzər dənizinin qaz resurslarını ilk dəfə birbaşa Avropa bazarlarına çıxararaq, bütöv regionun enerji xəritəsini dəyişəcək. Avropada yerli qaz istehsalının yaxın iyirmi il ərzində azalacağı gözlənilir. Artan idxal çatışmazlığı ilə əlaqədar Avropa İttifaqı gələcək enerji tələbatını qarşılamaq üçün öz idxal imkanlarını daha da şaxələndirməlidir. Cənub Qaz Dəhlizi mövcud təchizat marşrutlarına əlavə olacaq və artan mayeləşdirilmiş təbii qaz daşımaları, "Şimal axını" kimi yeni əlavələrlə birlikdə idxal çatışmazlığını azaltmağa kömək edəcək. Həmçinin Azərbaycanın maliyyə və siyasi öhdəliyi enerji dayanıqlılığının təmin olunması üçün ölkənin oynadığı və oynamağa davam edəcəyi vacib rolu vurğulayır.

Enerji təhlükəsizliyi və dayanıqlı inkişaf haqqında danışarkən deməliyik ki, bunlar dünyanın müxtəlif regionlarını təmsil edən, qaz hasilatçısı və ixracatçısı olan 19 ölkədən ibarət Qaz İxrac Edən Ölkələr Forumunun məqsədləri ilə tamamilə uzlaşır. Bu ölkələr birlikdə dünyanın sübut olunmuş qaz ehtiyatlarının 70 faizinə, qaz boru kəmərlərinin 63 faizinə və mayeləşdirilmiş təbii qaz ehtiyatlarının 58 faizinə malikdir. Qazın gələcək mənzərəsi kifayət qədər müsbətdir. Təbii qaz 2040-cı ilə qədər ildə 1,5-1,8 faiz artaraq ən tez hasil edilən yanacaq növü olacaqdır. Həmin dövrdə qlobal ümumi təbii qaz ixracı 50 faiz artacaqdır. Avropa bazarı bu artımın çoxunu özünə cəlb edəcəkdir və bu da Cənub Qaz Dəhlizi infrastrukturunun önəmini bir daha artıracaq.

Zati-aliləri, möhtərəm qonaqlar, Qaz İxrac Edən Ölkələr Forumunun sadiq olduğu əsas dəyər hasilatçı, istehlakçı və tranzit ölkələr arasındakı əməkdaşlıqdır. Belə bir əməkdaşlıq etimad doğurur. Bu da öz növbəsində tərəflərə bütün maraqlı tərəflər arasında risklərin bərabər şəkildə paylanılması prinsiplərinin qəbul olunmasını unutmamaqla təchizatın və tələbatın təhlükəsizliyi üçün qaza tələbatı və təchizatı stimullaşdırmaq potensialı olan təcrübələrə cəlb olunmaq imkanı verir. Təbii qaz Paris razılaşmasının hədəflərinin tələblərini, habelə Birləşmiş Millətlər Təşkilatının dayanıqlı inkişaf məqsədlərini mükəmməl şəkildə qarşılayan insanların seçdiyi enerjidir. Bu dəyərlər, enerji təhlükəsizliyinə sadiqlik, əməkdaşlıq Cənub Qaz Dəhlizinin özəyində durur. Bununla da Cənub Qaz Dəhlizinin və Qaz İxrac Edən Ölkələr Forumunun məqsədlərinin bir nöqtədə üst-üstə düşdüyünü xüsusi vurğulamaq lazımdır.

Zati-aliləri, möhtərəm mərasim iştirakçıları, bizim mərasim beynəlxalq səviyyədə tanınan, nüfuzlu tədbir olan XXV "Xəzər Neft və Qaz" sərgi və konfransı ilə eyni zamanda keçirilir. Hər iki tədbirin çox əlamətdar hadisə olan Azərbaycan Xalq Cümhuriyyətinin 100-cü ildönümünün qeyd olunması ilə paralel keçirilməsi çox mühüm əhəmiyyət kəsb edir.

Bu imkandan istifadə edərək, çox əlamətdar yubiley ilə əlaqədar, icazə verin, Sizə səmimi təbriklərimi çatdırım və qardaş Azərbaycan xalqına ən xoş arzularımı ifadə edim. Diqqətinizə görə təşəkkür edirəm.

***

**Mərasimdə çıxış edən "BP Group Upstream"in baş icraçısı Bernard LUNEY dedi:**

– Zati-aliləri, cənab Prezident.

Nazirlər, SOCAR-dan olan dostlarımız, xanımlar və cənablar.

Bu gün burada, bu tarixi anda "BP"ni və "Şahdəniz" konsorsiumunu təmsil etməkdən şərəf duyuram. Cənab Prezidentin də dediyi kimi, bugünkü tarix bir çox səbəblərdən

əlamətdardır. Hər şeydən əvvəl biz Cənub Qaz Dəhlizinin rəsmi açılışını qeyd edirik. Mən "Şahdəniz" konsorsiumunun adından, həmçinin SOCAR-a və digər tərəfdaşlara – TPAO, "Petronas", "Lukoil", NICO və Cənub Qaz Dəhlizinə "Şahdəniz-2" layihəsinin reallaşdırılmasında göstərdikləri dəstəyə görə təşəkkür etmək istəyirəm. Biz bu layihəni birlikdə reallaşdırdıq. Biz Xəzər hövzəsinə dair öz təcrübə və dərin bilikləri ilə layihəyə verdiyi töhfəyə görə SOCAR-a xüsusi minnətdarlığımızı bildiririk.

"Şahdəniz-2" həqiqətən də transformasiyaya yol açan inqilabi bir layihədir. Dünyanın ən böyük qaz layihələrindən biri kimi, bu layihənin Azərbaycanın qaz hasilatını ildə 16 milyard kubmetr artıracağı gözlənilir. Layihənin pik dövründə təkcə Azərbaycanda "Şahdəniz-2"də 24 min nəfərdən çox insan işləyib. "BP" şirkətində 2 min 500 nəfər Azərbaycan vətəndaşı işləyir ki, bu da ölkədəki ixtisaslaşmış heyətimizin 90 faizini təşkil edir. Həmçinin yerli vətəndaşlar üçün iş yerləri yaratmaqla bu layihə infrastrukturun inkişafına əhəmiyyətli töhfə verir. Bakı yaxınlığında modernləşdirilmiş dünya səviyyəli istehsalat sahələri, Xəzər dənizində analoqu olmayan "Xankəndi" qabaqcıl sualtı tikinti gəmisinin inşası, yerli resurslardan maksimum istifadə və ilk dəfə olaraq bütün dəniz qurğularının, o cümlədən dünya səviyyəli iki platformanın yerli resurslarla Azərbaycanda inşa edilməsi buna əyani misaldır. Əlbəttə ki, bu gün Cənub Qaz Dəhlizinə qazın vurulmasını rəsmi olaraq qeyd etdiyimiz bu Səngəçal terminalında aparılmış əsaslı genişləndirilmə işləri qeyd olunanların bariz nümunəsidir.

Buradan Cənub Qaz Dəhlizi Azərbaycan və Gürcüstan əraziləri ilə uzanan genişləndirilmiş Cənubi Qafqaz Boru Kəmərini izləyir və oradan isə TANAP xəttinə qoşulur. Bütün bunlar ölkə üçün böyük nailiyyətlərdir. Əlbəttə ki, 2020-ci ilə qədər Cənub Qaz Dəhlizi ilə Xəzərdən çıxan Azərbaycan qazının ilk dəfə olaraq birbaşa Avropanın qaz bazarlarına nəql ediləcəyi gözlənilir. Mənim dediyim transformasiya məhz budur. Bu isə yalnız sizin və hökumətin, cənab Prezidentin, habelə SOCAR və bütün digər "Şahdəniz" tərəfdaşlarının dəstəyi sayəsində və əlbəttə ki, Azərbaycanın ümummilli lideri Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində mümkün olmuşdur.

Bu gün biz, həmçinin Xəzər Neft və Qaz Sərgisinin 25 illiyini qeyd edirik. Bu sərginin ilk dəfə 1994-cü ildə açılışı neft-qaz hasilatı üzrə uzunmüddətli və uğurlu ənənələrə söykənən müasir sənayenin dirçəlişi ilə əlamətdar olmuşdur.

Cənab Prezident, mən Sizə və Azərbaycan xalqına "BP"-nin səmimi təbriklərini çatdırmaq istəyirəm. Biz həmişə bu sərgidə iştirak etmək, ötən bir il ərzində nəyə nail olduqlarımızı nümayiş etdirmək və bölüşmək, burada qurduğumuz davamlı tərəfdaşlığı qeyd etmək, neft və qazın Azərbaycanda sosial, mədəni və iqtisadi sahələrə verdiyi əsaslı töhfəni təqdir etmək imkanına malik olmaqdan məmnunluq duymuşuq.

1994-cü ildə "Əsrin kontraktı"nın imzalanması Azərbaycanda böyük sərmayələr və inkişaf dövrünün təməlini qoydu.

Cənab Prezident, məhz Sizin uzaqgörən siyasətiniz sayəsində ötən ilin sentyabr ayında "Azəri-Çıraq-Günəşli" üzrə yeni "Əsrin kontraktı" imzalandı.

Cənab Prezident, Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyini qeyd edərkən, hesab edirəm ki, Siz "İlk demokratik respublikanın qurucuları bugünkü Azərbaycanı görsəydilər, onunla qürur duyardılar" deməklə bütün bu nailiyyətləri bir cümlə ilə gözəl ifadə etmiş oldunuz. Qürur duyulmalı və perspektivdə gözlənilən çox nailiyyətlər var.

"BP" və "Şahdəniz" tərəfdaşlarının adından qeyd etmək istəyirəm ki, bu ölkənin növbəti yeni bir uğur yolunda Sizinlə əməkdaşlıq etməyi səbirsizliklə gözləyirik. Təşəkkür edirəm.

***

Sonra "Şahdəniz-2" və "Cənub Qaz Dəhlizi" layihələri haqqında videoçarx təqdim olundu.

Qeyd edək ki, Xəzərin Azərbaycan sektorunda yerləşən "Şahdəniz" yatağı bu vaxtadək Azərbaycanda aşkar edilmiş ən böyük qaz yatağıdır. Bu nəhəng yataq təxminən 860 kvadratkilometr ərazini əhatə edir və onun ilkin geoloji qaz ehtiyatı 1,2 trilyon kubmetrdir. "Şahdəniz 2" layihəsi çərçivəsində hasil olunacaq qaz Cənub Qaz Dəhlizi ilə ötürüləcək. Qaz təxminən 3500 kilometr uzunluğunda boru kəməri vasitəsilə Gürcüstan, Türkiyə, Yunanıstan, Bolqarıstan, Albaniya və İtaliya ərazisinə nəql olunacaq. Türkiyəyə ilk qaz bu il, Avropaya isə 2020-ci ildə çatacaq.

Prezident İlham Əliyev Cənub Qaz Dəhlizinin rəsmi açılışını etdi.

Bununla da Azərbaycan daha bir tarixi nailiyyətə imza atdı. Cənub Qaz Dəhlizinin əsas seqmentlərindən olan TANAP boru kəməri gələn ay istismara veriləcək. Qaz ixracı nəticəsində ölkəmizin gəlirləri artacaq, Azərbaycanın beynəlxalq mövqeyi daha da güclənəcək.

Sonda xatirə şəkilləri çəkdirildi.

**AzərTAC**

*29 may 2018-ci il*

## TÜRKİYƏNİN ƏSKİŞƏHƏR ŞƏHƏRİNDƏ TANAP LAYİHƏSİNİN AÇILIŞ MƏRASİMİ KEÇİRİLİBAZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MƏRASİMDƏ İŞTİRAK EDİB

**Prezident İlham Əliyevin çıxışı**

*(12 iyun 2018-ci il)*

İyunun 12-də Türkiyənin Əskişəhər şəhərində TANAP qaz kəmərinin istifadəyə verilməsi münasibətilə təntənəli mərasim keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak edib.

TANAP qaz kəmərinin istifadəyə verilməsi mərasimi bu möhtəşəm layihə haqqında videoçarxın nümayişi ilə başladı.

Qeyd edək ki, TANAP layihəsi Xəzər dənizinin Azərbaycan sektorundakı "Şahdəniz-2" yatağından və Xəzərin digər sahələrindən hasil edilən təbii qazın Türkiyəyə və Avropaya nəqlini nəzərdə tutur. Cənub Qaz Dəhlizinin əsas seqmentlərindən biri olan TANAP Gürcüstandan və Türkiyənin 20 vilayətindən keçərək Yunanıstan sərhədinə qədər uzanır. Layihə ilə bağlı Azərbaycan ilə Türkiyə arasında Anlaşma Memorandumu 2011-ci il dekabrın 24-də, Trans-Anadolu təbii qaz boru kəməri sisteminə dair Saziş isə 2012-ci il iyunun 26-da İstanbulda imzalanıb və hər iki ölkənin müvafiq qanunverici orqanları tərəfindən təsdiqlənib. TANAP layihəsi təbii qazın "Şahdəniz", eyni zamanda, Azərbaycanın digər yataqlarından Avropa bazarlarına nəql edilməsi potensialına görə mühüm siyasi və iqtisadi əhəmiyyətə malikdir.

Mərasimin əvvəlində SOCAR-ın prezidenti Rövnəq Abdullayev və Türkiyənin enerji və təbii sərvətlər naziri Berat Albayrak çıxış etdilər.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev çıxış etdi.

**PREZİDENT İLHAM ƏLİYEVİN ÇIXIŞI**

– Əziz qardaşım, hörmətli Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan.

Hörmətli prezidentlər.

Xanımlar və cənablar.

İlk növbədə, qardaş Türkiyə torpağında yenidən olmağımdan məmnunluğumu ifadə etmək istərdim. Biz Azərbaycanda Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğanın liderliyi ilə əldə edilmiş uğurlara çox sevinirik. Prezident Ərdoğanın yorulmaz fəaliyyəti nəticəsində Türkiyə dünya çapında böyük gücə çevrildi. Türkiyə o ölkədir ki, dünya gündəliyini müəyyən edir. Biz Azərbaycanda buna sevinirik. Türkiyənin gücü bizim gücümüzdür və bizim gücümüz birliyimizdədir. Biz uzun illərdir ki, bu birliyi nümayiş etdiririk. Bu gün dünyada bir-birinə bu qədər yaxın olan, bir-birini bu qədər dəstəkləyən ikinci ölkələr tapmaq çox çətindir. Türkiyə-Azərbaycan birliyi, qardaşlığı həm ölkələrimiz üçün, həm xalqlarımız üçün, bölgəmiz üçün, Avrasiya üçün önəmli amildir.

Bu gün TANAP-ın istismara verilməsi Türkiyə-Azərbaycan qardaşlığının növbəti təzahürüdür. TANAP Türkiyə ilə Azərbaycanın növbəti zəfəridir. TANAP tarixi layihədir. Bu gün biz XXI əsrin enerji tarixini birlikdə yazırıq. Bu tarix işbirliyi tarixidir, bu tarix sabitlik tarixidir. Enerji layihələrimiz bölgəmizə sabitlik gətirir. Bu layihələrdə iştirak edən bütün ölkələr, bütün şirkətlər fayda görür, xalqlar fayda görür. TANAP kimi nəhəng layihənin həyata keçirilməsi Türkiyə-Azərbaycan liderlərinin birgə güclü siyasi iradəsi nəticəsində mümkün olmuşdur.

Bu, birgə həyata keçirdiyimiz birinci layihə deyil. Biz bundan əvvəl – 2006-cı ildə "Bakı–Tbilisi–Ceyhan" neft kəmərinin açılışını qeyd etdik. 2007-ci ildə "Bakı–Tbilisi–Ərzurum" qaz kəmərinin açılışını birlikdə etdik. Keçən il "Bakı–Tbilisi–Qars" dəmir yolunun açılışını birlikdə etdik. Bütün bu açılış mərasimlərində əziz qardaşım Rəcəb Tayyib Ərdoğanla birlikdə iştirak etmişik. Bu gün bu tarixi gündə də biz birlikdəyik. Bu, onu göstərir ki, bizim təşəbbüsümüzlə irəli sürülən istənilən layihə həyatda öz əksini tapır. Çünki bunun arxasında düşünülmüş siyasət, güclü iradə və bizim qardaşlığımız dayanır.

Azərbaycan qazının Avropa qitəsinə böyük həcmdə ötürülməsi haqqında son illər ərzində bir çox müzakirələr aparılmış və bir çox tədbirlər keçirilmişdir. Ancaq əfsuslar olsun ki, onların heç bir nəticəsi olmamışdır. Belə olan halda Türkiyə və Azərbaycan qərara gəldilər ki, biz özümüz yeni bir layihəni irəli sürək və bunun adını da biz birlikdə qoyduq – TANAP. TANAP üzrə anlaşmanı 2012-ci ildə İstanbul şəhərində Rəcəb Tayyib Ərdoğan və mən imzaladıq. O gün həmin imzalanma mərasimində biz bugünkü günü görmək arzumuzu ifadə etdik və Allah bizə bunu nəsib etdi. Biz bu illər ərzində böyük işlər gördük. TANAP layihəsinin icrası həm texniki, həm maliyyə cəhətdən çox mürəkkəb bir işdir. Ancaq bunu biz çox böyük müvəffəqiyyətlə icra etdik. Bu gün TANAP-ın istismara verilməsi qonşu və dost ölkələr üçün gözəl imkanlar yaradır. TANAP yeddi ölkəni, bir çox şirkətləri birləşdirir. Cənub Qaz Dəhlizinin ayrılmaz hissəsi olan TANAP bu gün və gələcəkdə enerji təhlükəsizliyi məsələlərinin həlli üçün əvəzolunmaz infrastruktur

layihəsidir. Cənub Qaz Dəhlizinin rəsmi açılış mərasimi iki həftə bundan öncə – mayın 29-da Bakıda təşkil edilmişdir. Cənub Qaz Dəhlizi dörd böyük layihədən ibarətdir. "Şahdəniz-2" qaz yatağının işlənilməsi, – o yatağın ehtiyatları 1,2 trilyon kubmetrdir, – Cənubi Qafqaz Kəməri, TANAP və TAP layihəsi. Bu dörd layihənin üçü artıq reallaşıb, başa çatıb. TAP da 72 faiz icra olunub. Əminəm ki, yaxın iki il ərzində TAP layihəsi də tamamlanacaq və beləliklə, Avropanın 40 milyard dollar sərmayə tələb edən ən böyük infrastruktur layihəsi olan "Cənub Qaz Dəhlizi" icra edilmiş olacaqdır. Bu tarixi nailiyyət bizə imkan verəcək ki, Azərbaycanın zəngin qaz ehtiyatları Türkiyə və Avropa bazarlarına qısa və təhlükəsiz yolla, şaxələndirilmiş formada çatdırılsın.

"Cənub Qaz Dəhlizi" enerji təhlükəsizliyi layihəsidir. Enerji təhlükəsizliyi isə hər bir ölkənin milli təhlükəsizliyi məsələsidir. Cənub Qaz Dəhlizinin önəmi məhz bundadır – enerji təhlükəsizliyi və enerji resurslarının şaxələndirilməsi. Cənub Qaz Dəhlizi vasitəsilə Azərbaycan qazı yeni yollarla Türkiyəyə və Avropa bazarlarına çıxarılacaqdır. "Cənub Qaz Dəhlizi" həm yeni yollar, həm də yeni mənbə layihəsidir. Bu, sözün əsl mənasında, enerji şaxələndirilməsi məsələsinə xidmət göstərir.

Bu böyük işlərin icrasında SOCAR, BOTAŞ və "BP" şirkətləri iştirak ediblər, onlar TANAP-ın səhmdarlarıdır. Mən onlara öz təşəkkürümü bildirmək istəyirəm. Bu işlərdə iştirak etmiş bütün şirkətlərə təşəkkürümü bildirmək istəyirəm ki, onlar bu böyük işi yüksək keyfiyyətlə və qısa müddət ərzində görə bildilər. Cənub Qaz Dəhlizi Avrasiyada yeni əməkdaşlıq, işbirliyi formatını təşkil edir. Əgər işimizin əvvəlində – 2000-ci illərin əvvəllərində Azərbaycan-Gürcüstan-Türkiyə üçtərəfli əməkdaşlıq formatı yaranmışdırsa, bu gün qeyd etdiyim kimi, yeddi ölkə bu layihədə iştirak edir. Daha üç ölkə bizim gələcək tərəfdaşlarımız kimi bu layihədə iştirak edəcək. Biz çalışmalıyıq ki, Azərbaycan qazının Avropa qitəsinə çatdırılması istiqamətində daha böyük işlər görək və bizim əhatə dairəmiz daha geniş olsun.

Bir daha demək istəyirəm ki, bu gün tarixi bir gündür. Bu günün mümkünlüyü ancaq və ancaq güclü siyasi iradə nəticəsində olmuşdur. Türkiyə-Azərbaycan birliyi, qardaşlığı olmasaydı, bu layihə kağız üzərində qala bilərdi. Əlbəttə, bir daha demək istəyirəm, Türkiyənin xarici sərmayə üçün çox gözəl ölkə kimi özünü təqdim etməsi imkan verdi ki, Türkiyəyə böyük yatırımlar qoyulsun. Son illər ərzində təkcə Azərbaycan tərəfindən Türkiyə iqtisadiyyatına 13 milyard dollardan çox sərmayə qoyulubdur, növbəti illərdə bu rəqəm 20 milyard dollara çatacaqdır.

Bu gözəl hadisə münasibətilə sizi, xalqlarımızı, bizim bütün dostlarımızı ürəkdən təbrik etmək istəyirəm, TANAP-a yaxşı yol arzulayıram. Sağ olun.

***

Daha sonra Şimali Kipr xalqının lideri Mustafa Akıncı, Serbiya Prezidenti Aleksandr Vuçic, Ukrayna Prezidenti Petro Poroşenko və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan çıxış etdilər.

Sonra TANAP kəmərinə qazın verilməsi mərasimi oldu.

Xatırladaq ki, uzunluğu 1805 kilometr olan TANAP boru kəmərinin diametri 56 və 48 düym, Mərmərə dənizi boyunca isə 36 düym təşkil edir. Kəmərin dəniz səviyyəsindən maksimal hündürlüyü 2700 metr yüksəklikdə yerləşir. Kəmərdən Türkiyə qazpaylama sisteminə iki qol ayrılıb və onun maksimum illik ötürücülük qabiliyyəti 31 milyard kubmetrdir. Layihənin ilkin mərhələsində illik ötürücülük qabiliyyəti 16 milyard kubmetr qaz təşkil edəcək.

Sonda birgə foto çəkdirildi.

***

Şimali Kipr xalqının lideri Mustafa AKINCI TANAP-ın əhəmiyyətindən danışaraq bu cür nəhəng layihələrin Türkiyə ərazisindən keçməsinin regional təhlükəsizliyə və sabitliyə töhfə verdiyini bildirərək dedi:

– Cənab Prezident Əliyevin çıxışını dinlədikdən sonra mən öz çıxışımda kiçik bir dəyişiklik edirəm. Azərbaycan Prezidenti Türkiyə və Azərbaycanın qardaşlığından çox gözəl bəhs etdi. Mən də deyirəm ki, daha bir qardaşınız var: Şimali Kipr xalqı. Bu qardaşınız Türkiyədə və Azərbaycanda bir faciə olduqda Şimali Kiprdə yaşayan qardaşlarınız bu ağrını Sizin kimi ürəklərində hiss edirlər. Bir sevinc olduqda Sizinlə birlikdə sevinirlər. Buna görə bu gün həm Azərbaycan, həm də Türkiyə üçün çox mühüm olan bu gözəl tarixi tədbirdə Sizinlə birlikdə olmaqdan duyduğum xoşbəxtliyi ifadə etmək istəyirəm. Bu gözəl tədbirin Türkiyəyə və Azərbaycana, bütün insanlığa xeyirli olmasını diləyirəm.

İnanıram ki, TANAP layihəsi zamanımızın mütərəqqi əməkdaşlığına yaxşı bir nümunədir. Xəzər dənizindəki təbii ehtiyatların ən münasib marşrutlarla daşınaraq Türkiyəyə və oradan da Avropa bazarlarına nəql edilməsi bölgədə iqtisadi inkişafa və təhlükəsizlik mühitinin yaranmasına da töhfə verəcək.

***

Serbiya Prezidenti Aleksandr VUÇİÇ çıxış edərək strateji bağlantı funksiyasını yerinə yetirən TANAP layihəsinin təbii qaz dəhlizinin mühüm amili olduğunu bildirdi. O, Avropanın enerji təhlükəsizliyinin təmin olunmasına xidmət edən bu layihənin Cənub-Şərqi Avropanın tərəqqisində mühüm rol oynayacağını, bu regiona yeni investorların

gəlişinə təsir göstərəcəyini, Serbiyanın da inkişafına töhfə verəcəyini vurğulayaraq dedi:

– Fürsətdən istifadə edərək əvvəla, bu müstəsna layihəni həyata keçirənlərə, eyni zamanda, bu layihənin reallaşmasına öz baxışları ilə stimul verənlərə təbriklərimi çatdırmaq istəyirəm. Möhtərəm Prezident Ərdoğan, möhtərəm Prezident Əliyev və bu gün bizim burada toplaşmağımıza səbəb olan digər tərəflər, xahiş edirəm, mənim təbriklərimi qəbul edin.

Bu gün Türkiyənin Əskişəhər şəhərində keçirilən mərasimdən əvvəl - Bakıda may ayının sonunda "Cənub Qaz Dəhlizi" layihəsinin açılış mərasimi keçirilmişdir. TANAP bu layihənin əsas təməl daşlarından biridir. Bu layihə Avropada digər regionların da enerji təhlükəsizliyinə verdiyi töhfə baxımından çox mühüm əhəmiyyət kəsb edir. Məndə məmnunluq doğuran fakt odur ki, bu yaxınlarda Prezident Əliyevin qonağı qismində Azərbaycana rəsmi səfər etmişdim və bununla da Serbiya beynəlxalq arenada uğurlu dostluq körpüləri yaradan ciddi və etibarlı tərəfdaş kimi təsdiq edilmişdir.

***

Ukrayna Prezidenti Petro POROŞENKO çıxışında Avropa üçün son dərəcə önəmli olan TANAP qaz xəttinin açılışının enerji qaynaqlarının şaxələndirilməsi istiqamətində atılan mühüm addım olduğunu dedi. Türkiyənin və Azərbaycanın birgə səyləri sayəsində Cənub Qaz Dəhlizinin önəmli seqmentinin artıq tamamlandığını vurğulayan Petro Poroşenko bu layihənin uğurla icra olunmasında Azərbaycan və Türkiyə prezidentlərinin xidmətlərini qeyd edərək dedi:

– Azərbaycanın və Türkiyənin birgə qətiyyəti, eləcə də digər Avropa ölkələrinin töhfəsi sayəsində Cənub Qaz Dəhlizinin bu aparıcı seqmenti tamamlanıb. Bundan sonra bütün region enerji təhlükəsizliyi perspektivlərinin genişlənməsindən faydalana biləcək.

TANAP enerji təhlükəsizliyi deməkdir. TANAP Azərbaycan xalqının böyük lideri, mənim böyük dostum İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın enerji təhlükəsizliyi, türk xalqının böyük lideri, Ukraynanın böyük dostu və mənim böyük dostum Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi ilə Türkiyənin enerji təhlükəsizliyi, eyni zamanda, iki böyük liderin – Prezident Əliyevin və Prezident Ərdoğanın misilsiz birliyi sayəsində Avropanın enerji təhlükəsizliyi, Avropanın qaz təchizatının şaxələndirilməsi və Avropanın rəqabətliliyi deməkdir. Bu, Ukraynanın enerji təhlükəsizliyi, Ukraynanın qaz təchizatının şaxələndirilməsi və Ukraynanın rəqabətliliyi deməkdir. Mən Ukrayna xalqı adından bu mühüm TANAP layihəsinin müəllifləri olan Prezident Əliyevə və Prezident Ərdoğana təşəkkürümü bildirmək istəyirəm.

***

Qeyd edək ki, TANAP layihəsi Xəzər dənizinin Azərbaycan sektorundakı "Şahdəniz-2" yatağından və Xəzərin digər sahələrindən hasil edilən təbii qazın Türkiyəyə və Avropaya nəqlini nəzərdə tutur. Cənub Qaz Dəhlizinin əsas seqmentlərindən biri olan TANAP Gürcüstandan və Türkiyənin 20 vilayətindən keçərək Yunanıstan sərhədinə qədər uzanır. Layihə ilə bağlı Azərbaycan ilə Türkiyə arasında Anlaşma Memorandumu 2011-ci il dekabrın 24-də, Trans-Anadolu təbii qaz boru kəməri sisteminə dair Saziş isə 2012-ci il iyunun 26-da İstanbulda imzalanıb və hər iki ölkənin müvafiq qanunverici orqanları tərəfindən təsdiqlənib. TANAP layihəsi təbii qazın "Şahdəniz", eyni zamanda, Azərbaycanın digər yataqlarından Avropa bazarlarına nəql edilməsi potensialına görə mühüm siyasi və iqtisadi əhəmiyyətə malikdir. Uzunluğu 1850 kilometr olan TANAP boru kəmərinin dəniz səviyyəsindən maksimal hündürlüyü 2700 metr yüksəklikdə yerləşir. İlkin mərhələdə layihənin illik ötürücülük qabiliyyəti 16 milyard kubmetr qaz təşkil edəcək.

***

Sonra Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan çıxış etdi.

**PREZİDENT RƏCƏB TAYYİB ƏRDOĞANIN ÇIXIŞI**

– Çox hörmətli dövlət başçıları.

Hörmətli nazirlər, deputatlar, enerji ictimaiyyətinin təmsilçiləri.

Əziz qonaqlar, xanımlar və cənablar.

Sizi dərin səmimiyyətimlə salamlayıram. Bu gün bölgəmiz və ölkələrimiz üçün tarixi bir addım atırıq. Cənub Qaz Dəhlizinin bel sütunu olan və "Enerjinin İpək yolu" adlandırdığımız Trans-Anadolu təbii qaz boru kəmərinin açılışını edirik. Siz dostlarımı belə bir strateji layihənin açılışı ilə əlaqədar Əskişəhərdə qonaq qəbul etməkdən şəxsən öz adımdan və millətim adından böyük məmnunluq duyuram. Bu nəhəng layihənin nəzərdə tutulan tarixdən əvvəl həyata keçirilməsində əməyi olanları ürəkdən təbrik edirəm.

Bu layihənin reallaşması hər şeydən əvvəl Türkiyə ilə Azərbaycan arasındakı qarşılıqlı etimada əsaslanan münasibətlər sayəsində mümkün olub. Bundan başqa, istehsalçı, tranzit və istehlakçı ölkələrlə şirkətlər arasındakı uzlaşma və qarşılıqlı anlaşma birliyi prosesin sürətləndirilməsinə töhfə verib. Bu baxımdan TANAP, eyni zamanda, çoxtərəfli əməkdaşlığın nümunəsidir. Enerjini münaqişə deyil, əməkdaşlıq zəmini olaraq görən

anlayışımız TANAP sayəsində bir daha təsdiqini tapdı. Bununla əlaqədar xüsusilə qardaşım İlham Əliyevə çox təşəkkür edirəm.

Dəyərli dostlar, TANAP ilə Xəzər qazı ilk dəfə Avropaya çatacaq. Şübhəsiz, Xəzər hövzəsindəki zəngin enerji ehtiyatlarının Avropaya nəqli fikrinin yeni olmadığını hamımız bilirik. Daha əvvəl bu məqsədlə bir sıra nəhəng layihələr həyata keçirmişik. Bu yola "Bakı–Tbilisi–Ceyhan" xam neft boru kəmərinin inşası ilə başladıq. "Əsrin layihəsi" adlandırılan "Bakı–Tbilisi–Ceyhan" kəməri daha sonrakı fəaliyyətlərin də başlanğıcı oldu. Azərbaycan və Gürcüstan ilə strateji tərəfdaşlığımız ölkəmizə ilk dəfə Azərbaycan qazını gətirən "Bakı–Tbilisi–Ərzurum" təbii qaz boru kəməri layihəsi ilə davam etdi.

Əməkdaşlığımız enerji ilə məhdudlaşmadı. Son olaraq nəqliyyat sahəsində strateji əhəmiyyətə malik "Bakı–Tbilisi–Qars" dəmir yolu layihəsinin açılışını da dəyərli qardaşımla bərabər reallaşdırdıq. Beləliklə, Londondan Çinə birbaşa dəmir yolu əlaqəsini qurmağa nail olduq.

TANAP ortaq baxışımızın ən son bəhrəsidir. Enerji bazarında yaşanan dəyişikliyə və ehtiyaca cavab verən TANAP, eyni zamanda, qarşıdakı illərdə həyata keçirəcəyimiz yeni layihələrin də müjdəsidir. Layihə ilə bağlı rəqəmlər bu həqiqəti açıq-aşkar ortaya qoyur. Diametri 56 düymlük borulardan ibarət olan 1850 kilometrlik TANAP Türkiyə, Yaxın Şərq və Avropanın ən uzun təbii qaz boru kəməridir. TANAP 20 vilayət, 67 rayon və Çanaqqala boğazını keçən marşruta sahibdir. Bu layihənin ilkin ötürücülük qabiliyyəti ildə 16 milyard kubmetr təbii qazdır. Bunun 6 milyard kubmetri Türkiyəyə, 10 milyard kubmetri isə Avropaya nəql olunacaq. Tələbdən asılı olaraq, ötürücülük qabiliyyətini əvvəlcə 22 milyard kubmetrə, daha sonra əlavə sərmayələrlə 31 milyard kubmetrə çatdırmağı hədəfləyirik. Yunanıstan sərhədinə ilk qazın çatdırılmasını 2019-cu ilin iyununda həyata keçirməyi nəzərdə tuturuq.

TANAP təkcə enerji təhlükəsizliyi baxımından deyil, Xəzər bölgəsindən Avropaya qədər marşrut üzərindəki bütün ölkələrin rifahına və məşğulluq probleminə də töhfə verəcək. Bunun bəhrələrini hələ sərmayə mərhələsində almağa başladıq. Sərmayə dövründə boru kəməri marşrutundakı 20 vilayətdə təxminən 10 min nəfərə bilavasitə və ya dolayısı ilə məşğulluq imkanı yaratdıq. Eyni zamanda, bu vilayətlərdə başda kiçik və orta sahibkarlıq subyektləri olmaqla çoxlu sayda müəssisəyə yeni iş imkanı təmin etdik. Bundan başqa, Türkiyə TANAP-ın reallaşması ilə tranzit ölkə olmaqdan çıxaraq istehsalçıdan son istehlakçıya uzanan dəyər zəncirinin hər mərhələsində rol oynayan əhəmiyyətli bir mövqeyə gəlib. Ölkəmiz regional enerji xətlərinin mərkəzinə çevrilmək missiyasına TANAP vasitəsilə bir addım da yaxınlaşdı.

Dəyərli qonaqlar, TANAP siyasi iradə ilə yanaşı, iqtisadi sabitliyin də məhsuludur. TANAP kimi böyük beynəlxalq infrastruktur layihəsinin qısa müddətdə həyata

keçməsində Türkiyənin son 16 ildə təmin etdiyi siyasi və iqtisadi sabitliyin çox önəmli rolu var. Ölkəmiz bölgədəki bütün gərginliklərə, münaqişələrə, terror hadisələrinə, hətta FETÖ xəyanət dəstəsinin qanlı dövlət çevrilişi cəhdinə baxmayaraq, 16 ildir sabitliyini qorumağı bacarmışdır. Bu illərdə Türkiyə nəqliyyat, ticarət, sərmayə, enerji kimi müxtəlif sahələrdə xeyli sayda mühüm layihə həyata keçirib.

Xüsusilə enerji təhlükəsizliyinə nail olmaq və öz enerji mənbələrimizdən səmərəli şəkildə istifadə etmək üçün ciddi sərmayələr qoyduq. Milli enerji və mədən siyasətimizi formalaşdıraraq, enerji təhlükəsizliyi və proqnozlaşdırıla bilən bazar şərtləri ilə ölkəmizin sərmayələr üçün etibarlı bir liman və sabitlik adası olduğunu göstərdik. İki ədəd üzən LNG (mayeləşdirilmiş təbii qaz) qurumu və qurudakı LNG müəssisələrimizin imkanlarının genişləndirilməsi ilə son iki il yarımda ölkəmizin LNG-dən təbii qaz əldəetmə qabiliyyətini gündəlik 36 milyon kubmetrdən 113 milyon kubmetrə çatdırdıq.

Enerji təminatı üçün infrastrukturun gücləndirilməsi layihələri ilə yanaşı, təbii qaz və neft axtarışında da yeni bir dövrü başlatdıq. İlk milli qazma gəmimiz olan "Fatih"i Aralıq dənizinə yola saldıq. Dünyanın ən yeni texnologiyası ilə təchiz edilən bu gəmi ilə ölkəmizin mühüm bir çatışmazlığını da həll etmiş olduq.

Bundan başqa, son 16 ildə elektrik enerjisi gücümüzü 31 min 845 meqavatdan 87 min meqavata yüksəltdik. Bərpaolunan enerji qaynaqları gücümüzü 12 min 305 meqavatdan 40 min 838 meqavata çatdırdıq. Külək, geotermal və Günəş enerjisi mühüm elektrik mənbələrimizə çevrildi. Yeni bir enerji mənbəyi olaraq atom enerjisini də şəbəkəmizə daxil edəcəyik. Akkuyu və Sinop atom elektrik stansiyaları layihələrini, inşallah, önümüzdəki illərdə mərhələ-mərhələ həyata keçirəcəyik.

Hörmətli qonaqlar, biz tarix boyunca rəqabətin, gərginliyin əsas səbəbi olmuş enerji məsələsini əməkdaşlıq sahəsinə çevirərkən Avropada din, inanc və ibadət azadlığının yeni bir münaqişə sahəsinə çevrilməsi cəhdlərini görürük. Avropa ölkələrində son illərdə artan irqçilik, ksenofobiya və islamofobiya meyilləri təəssüf ki, get-gedə sosial və siyasi həyatı daha çox zəhərləyir. Qısamüddətli maraqlar naminə bəzi avropalı siyasətçilər də adətən yanğını körükləyirlər. Altı milyondan çox vətəndaşı Avropa dövlətlərində yaşayan bir ölkə olaraq açıq deyirəm, bu mənfi gedişatdan son dərəcə narahatıq. Müsəlmanları hədəf göstərməyin, ksenofobiyanı qızışdırmağın, ibadət yerlərinin qapısına kilid vurmağın heç kimə faydası yoxdur. Gərginlik platformalarından siyasi maraqlar naminə istifadə etməyə çalışmaq bəsirətsizlikdir, odla oynamaqdır. İkinci Dünya müharibəsində yəhudilərin və qaraçıların çəkdiyi zülmlər, yaşadıqları qətliam və işgəncələr belə məsuliyyətsiz siyasətin necə utancverici səhnələrə səbəb ola biləcəyini açıq göstərib. Avropadakı naşı siyasətçilər insanların həssas dəyərlərinə toxunan manevrlər etməzdən əvvəl öz tarixlərindəki dərsə bir daha baxsınlar və ondan nəticə çıxarsınlar.

Qanuni, leqal qurumların qapısına kilid vurmaqla, radikalizmlə mübarizə aparmaq olmaz. Müsəlmanların inanc və ibadət azadlıqlarını məhdudlaşdırmaqla, terrorla

mübarizə aparmaq olmaz. Belə təhrikedici addımlar ancaq İŞİD, "Əl-Qaidə" kimi terror təşkilatlarına yeni fəaliyyət sahələri təqdim edər. Terror təşkilatı PKK-nın Avropa paytaxtlarında meydan suladığı, hər il milyonlarla avro xərac topladığı bir şəraitdə cami və məscidləri terror yuvası kimi göstərmək, sözün əsl mənasında, ağılsızlıqdır. Türkiyə olaraq Avstriya hökumətinin yanlış mövqedə israr etməsi əvəzinə dərhal doğru yola dönməsində fayda görürük. Vətəndaşlarımızın haqq, hüquq və mənfəətlərinin qorunması məsələsində səbrimizin sonsuz olmadığını bilmələrini istəyirik.

Dəyərli dostlarım, bilirsiniz ki, TANAP ilk dəfə gündəmə gələndə bəzi dairələr, - İlham qardaşım bunu çox yaxşı bilir, - buna xülya dedilər, həyata keçirilməsi mümkün deyil dedilər. Amma biz səbir etdik, dözüm göstərdik. Doğru bildiyimiz yolla qətiyyətlə irəlilədik və israr etdik. Nəticədə isə bu gün bərabər yaşadığımız qürur tablosuna şahid oluruq. İndi qarşımızda daha böyük hədəflər, yeni layihələr var. İndi qarşımızda buradan aldığımız ilhamla yeni uğur hekayələri yazmaq var.

Bu hisslərlə sözlərimi bitirərkən dəyərli qardaşım Əliyevə göstərdiyi liderliyə görə bir daha təşəkkür edirəm. Bu tədbirimizdə iştirak edən dəyərli dostlarım Poroşenkoya, Vuçiçə, Şimali Kiprin lideri Mustafa bəyə və bu tədbirdə aramızda olan bütün nazirlərə, deputatlara və hörmətli xalqımıza çox təşəkkür edirəm. Bu prosesdə Avropa İttifaqı və Amerika Birləşmiş Ştatları tərəfindən göstərilən dəstəkdən də məmnunluq duyduğumuzu xüsusi ifadə etmək istəyirəm. Bu tarixi açılış mərasimində bizi tək qoymayan, sevincimizə ortaq olan bütün dövlət və hökumət başçılarına bir daha təşəkkürlərimi çatdırıram. Sağ olun, var olun, salamat qalın.

***

Sonra TANAP kəmərinə qazın verilməsi mərasimi oldu.

Sonda birgə foto çəkdirildi.

Bununla da Azərbaycanın və Türkiyənin birgə səyləri nəticəsində daha bir dünya əhəmiyyətli tarixi layihə həyata vəsiqə aldı. Ölkəmizin reallaşdırdığı "Cənub Qaz Dəhlizi" layihəsinin ən vacib seqmentlərindən olan TANAP qaz kəmərinin istifadəyə verilməsi ilə artıq regiona və tərəfdaş ölkələrin həyatına yeni bir nəfəs gəlir. Bu isə Azərbaycanın və Türkiyənin birgə formalaşdırdığı regional inkişaf, tərəqqi və özünəinam mühitinin qələbəsidir.

**AzərTAC**

*12 iyun 2018-ci il*

## BAKIDA CƏNUB QAZ DƏHLİZİ MƏŞVƏRƏT ŞURASI ÇƏRÇİVƏSİNDƏ NAZİRLƏRİN BEŞİNCİ TOPLANTISI KEÇİRİLİB

*20 fevral 2019-cu il*

### Azərbaycan Prezidenti İlham Əliyev toplantıda iştirak edib

Fevralın 20-də Bakıda, Heydər Əliyev Mərkəzində Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin beşinci toplantısı keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev toplantıda iştirak edib.

Tədbirdə Cənub Qaz Dəhlizinin iştirakçısı olan ölkələrin energetika nazirləri və müxtəlif qurumların təmsilçiləri, o cümlədən Avropa Komissiyasının büdcə və insan resursları üzrə komissarı, Məşvərət Şurasının fəaliyyətdə olan həmsədri Günter Ottinger iştirak ediblər.

Əvvəlcə birgə foto çəkdirildi.

Azərbaycan Prezidenti İlham Əliyev toplantıda nitq söylədi.

#### PREZİDENT İLHAM ƏLİYEVİN NİTQİ

– Hörmətli xanımlar və cənablar.

Hörmətli qonaqlar, hörmətli dostlar.

Azərbaycana xoş gəlmisiniz, sizi görməyə çox şadam, Cənub Qaz Dəhlizi Məşvərət Şurasının beşinci toplantısında iştirakınıza görə sizə təşəkkür edirəm.

Biz 2015-ci ildə bu mühüm prosesə start verdik və Azərbaycan belə bir əməkdaşlıq formatının təşəbbüskarı oldu. Bu təşəbbüs Avropa Komissiyası tərəfindən də dəstəkləndi və beləliklə, bu proses başlandı. Biz belə toplantıların və bu nəhəng layihənin irəli aparılması ilə bağlı görülməli işlərə dair geniş müzakirələrin faydasını görürük. Mən Avropa Komissiyasına bu prosesdə fəal iştiraka görə təşəkkürümü bildirmək istəyirəm. Azərbaycan və Avropa Komissiyası bu şuranın həmtəşkilatçılarıdır və bizim

sıx əməkdaşlığımız yaxşı nəticələr verir. Böyük məmnuniyyətlə komissar Ottingeri salamlayıram. O, vaxtilə Avropa İttifaqının enerji məsələləri üzrə komissarı olub və Avropa İttifaqı ilə Azərbaycan arasında enerji məsələləri üzrə əməkdaşlığın möhkəmlənməsi və Cənub Qaz Dəhlizi layihəsinin irəliləməsində mühüm rol oynayıb. Bu, həqiqətən də vahid komanda işidir və ildən-ilə biz bunun nəticəsini görürük.

Mən Azərbaycanın təşəbbüskarı olduğu bütün enerji layihələrinin, xüsusilə də Cənub Qaz Dəhlizinin reallaşdırılmasında göstərilən davamlı dəstəyə görə Amerika Birləşmiş Ştatları hökumətinə minnətdarlığımı bildirirəm. Mən ABŞ və Böyük Britaniyanın yüksək səviyyəli nümayəndələrini salamlayıram. Əminəm ki, sizin töhfəniz sayəsində bu toplantının gözəl nəticələri olacaq. Mən, eyni zamanda, Cənub Qaz Dəhlizi layihəsinin həyata keçirilməsində iştirak edən qonşularımız Türkiyə və Gürcüstan, habelə Avropa ölkələrindən Bolqarıstan, Yunanıstan, Albaniya və İtaliyadan olan nümayəndələri salamlayıram. Biz artıq bu layihənin reallaşdırılmasına məsul olan bir komandayıq.

Bildiyiniz kimi, Azərbaycan Bosniya və Herseqovina, Xorvatiya və Monteneqro ilə Avropada enerji sahəsində əməkdaşlığın genişləndirilməsinə dair anlaşma memorandumu imzalayıb. Bunun nəticəsində biz Azərbaycanın enerji resurslarının nəqlinin şaxələndirilməsi üçün müasir və yeni infrastruktur şəbəkəsi yaradacağıq və mən həmin dövlətlərin nümayəndələrini də burada salamlayıram. İllik toplantılarımızda iştirak edən qonaqlarımızın sayı artır. Mənə verilən məlumata görə, burada Macarıstan, Rumıniya, Serbiya, San-Marino və Türkmənistandan olan nümayəndələr iştirak edirlər və şadam ki, bu layihəyə maraq göstərən dövlətlərin sayı artmaqdadır.

Əlbəttə, burada şirkətləri də qeyd etmək lazımdır, çünki onların fəal iştirakı olmadan bu nəhəng layihəni reallaşdırmaq mümkünsüz olardı. Mən SOCAR və "BP" arasında olan sıx strateji tərəfdaşlığı xüsusi qeyd etmək istəyirəm. "BP" şirkəti bizim strateji tərəfdaşımız və investorumuzdur, o, Azərbaycanda 25 ildir ki, fəaliyyət göstərir. "BP" Azərbaycanda enerji layihələrinin icrası ilə bağlı böyük səylər göstərir və onun yatırdığı sərmayələr tərəfimizdən yüksək qiymətləndirilir. Biz Azərbaycanda enerji sahəsinin inkişafı ilə bağlı bir sıra vacib layihələr üzərində çalışırıq.

Beynəlxalq maliyyə qurumlarının güclü dəstəyi olmadan bizim birgə səylərimiz faydalı olmazdı. Bu gün toplantımızda dünyanın aparıcı maliyyə qurumlarının - Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnkişaf Bankı və Avropa İnvestisiya Bankının nümayəndələri iştirak edirlər. Fürsətdən istifadə edərək, bu layihə ilə bağlı maliyyə töhfəsinə və bizə olan etimada görə sizlərə təşəkkür edirəm. Bizim nə qədər böyük təşəbbüs və nəhəng layihəni həyata keçirdiyimizi təsvir etmək üçün, zənnimcə, bu toplantıda iştirak edənlərin siyahısını səsləndirmək kifayət edər.

Cənub Qaz Dəhlizi ümumi marağımızı əks etdirən və qarşılıqlı surətdə əhəmiyyətli layihədir. Bu, Azərbaycanın 1994-cü ildə təməli qoyulmuş enerji strategiyasının tərkib

hissəsidir. O zaman Azərbaycan nəhəng "Azəri–Çıraq–Günəşli" neft yatağı ilə bağlı beynəlxalq neft şirkətlərindən ibarət konsorsiumla müqavilə imzaladı. Bu, bizim beynəlxalq enerji şirkətləri ilə əməkdaşlığımızın başlanğıcı idi. O vaxt Azərbaycan öz təbii resurslarını beynəlxalq əməkdaşlıq üçün əlçatan etdi. İlk dəfə beynəlxalq sərmayələr Xəzər dənizinə yatırıldı və 1994-cü il, əslində, Azərbaycanın inkişafı baxımından da dönüş nöqtəsi oldu. Azərbaycan o zaman yalnız üç il idi ki, gənc müstəqil dövlət idi və iqtisadi vəziyyət çox çətin idi. Ölkəni xarici sərmayə üçün açaraq biz milyardlarla dollarlıq sərmayə cəlb edə bildik. On minlərlə yeni iş yerləri açdıq, Azərbaycanın münbit sərmayə mühitinə malik dövlət olduğunu nümayiş etdirdik. Bunun nəticəsində neftdən gələn gəlirləri iqtisadiyyatın şaxələndirilməsi və müasir infrastrukturun yaradılmasına yönəltdik. Bu gün isə biz artıq qeyri-neft sektorunun inkişafına diqqət yetiririk. Bu, bizim üçün prioritetdir. Ancaq enerji sektoru bundan sonra da Azərbaycanın iqtisadiyyatının aparıcı sahəsi və regional əməkdaşlığın mühüm komponentlərindən biri olacaq.

1996-cı ildə "Şahdəniz" qaz yatağı ilə bağlı müqavilə imzalanmışdır ki, həmin yataq Cənub Qaz Dəhlizinin əsas resurs mənbəyidir. Ümidvaram ki, bu, yeganə mənbə olmayacaq, ancaq hazırda bu, belədir. Bu, nəhəng bir qaz yatağıdır və onun təbii ehtiyatları artıq hasil və ixrac olunur.

Bizim enerji sahəsinin xronologiyasına nəzər salsaq görərik ki, tədricən məqsədimizə çatmışıq. Məqsəd enerji resurslarının nəqlinin şaxələndirilməsi və bunun üçün müasir infrastrukturun yaradılması idi. Bu baxımdan 1990-cı illərin sonlarında Xəzər və Qara dənizləri birləşdirən Bakı-Supsa neft kəmərinin istifadəyə verilməsi enerji resurslarının nəqli və şaxələndirilməsi üçün vacib məsələ idi. Daha sonra 2006-cı ildə "Bakı–Tbilisi–Ceyhan" kəməri istifadəyə verildi. Bu, tarixi hadisə idi. Bu nəhəng layihə sayəsində şirkətlər daha çox sərmayə qoymaq və daha çox neft çıxarmaq imkanı əldə etdi. Biz isə ixracımızı mümkün qədər artırdıq və bu gün "Bakı–Tbilisi–Ceyhan" vasitəsilə digər ölkələrə də neft nəql edilir.

Azərbaycan neft ehtiyatlarının nəqli baxımından vacib tranzit ölkədir və əlbəttə ki, Azərbaycanın regiondakı rolu artmaqdadır. 2007-ci ildə "Bakı–Tbilisi–Ərzurum" qaz kəmərinin açılışı oldu və ilk dəfə olaraq Azərbaycan beynəlxalq bazarlara təbii qaz nəql edən dövlətə çevrildi. Çünki o vaxta qədər biz təbii qazı idxal edirdik. Yəni, biz əsas enerji layihəsi olan Cənub Qaz Dəhlizi istiqamətində davamlı olaraq irəliləmişik və bu gün bu layihənin icrası artıq reallıqdır. Xatırlayıram ki, 2012-ci ildə Azərbaycan və Türkiyə TANAP layihəsi ilə bağlı müqavilə imzaladı və bu, Cənub Qaz Dəhlizinin başlanğıc nöqtəsi idi. Bir il sonra, 2013-cü ildə "Şahdəniz-2" layihəsi üzrə sərmayə qərarı qəbul edildi və elə həmin ildə Trans-Adriatik boru kəməri TANAP-ın davamı olaraq seçildi. Bütün bunlar onu nümayiş etdirir ki, biz tərəfdaşlarımızla sıx əməkdaşlıq edirik. Biz vahid komanda şəklində çalışmağımız nəticəsində uğurdan bəhs edə bilərik.

Ötən ilin fevral ayındakı sonuncu görüşümüzdən sonra iki mühüm tədbir keçirildi – biri Azərbaycanda, digəri isə Türkiyədə. May ayında Cənub Qaz Dəhlizinin, iyunda isə TANAP-ın rəsmi açılışları baş tutdu. Bunlar “Şahdəniz” yatağının istismarı və Cənub Qaz Dəhlizinin həyata keçirilməsi baxımından mühüm hadisələr idi. Bu gün biz bu nəhəng enerji layihəsinin yekunlaşdırılmasına yaxınıq. Onun dörd elementindən üçü artıq hazırdır və istifadə olunur. TANAP layihəsinin istifadəyə verilməsindən sonra 1 milyard kubmetr qazın Türkiyə bazarına ixracı bizi məmnun edir.

Trans-Adriatik boru kəmərinin inşasında da böyük irəliləyiş var. Ötən ilin fevral ayında şura qarşısında çıxışımda TAP-ın hazırlığının 67 faiz səviyyəsində olduğunu qeyd etmişdim. İndi isə son göstəricilərə görə bu rəqəm 87 faizdir. Yəni, bir ildə biz böyük irəliləyişə nail olmuşuq, işlər uğurla gedir və ümidvaram ki, gələn il biz yeni nəticələr haqqında danışacağıq.

Cənub Qaz Dəhlizi enerji şaxələndirilməsi layihəsidir. Enerji resurslarının şaxələndirilməsi istehsalçı, istehlakçı və tranzit ölkələr üçün çox vacibdir. Hesab edirəm ki, biz burada yaxşı balans tapa bilmişik, yəni istehsalçı olan Azərbaycan və istehlakçı və tranzit dövlətlər arasında. Maraqların balansı bu layihənin uğurunu şərtləndirir. Çünki biz bir-birimizin ehtiyac və narahatlıqlarını anlamağa çalışırıq. Çalışmışıq ki, bir-birimizi dəstəkləyək, zənnimcə, bu işdə uğurlu olmuşuq və belə toplantıların əhəmiyyəti olduqca böyükdür. Çünki biz il ərzində görülən işləri nəzərdən keçirir, eyni zamanda, gələcək addımlarımızı planlaşdırır və işimizin irəlilədilməsi məqsədilə il ərzində isə ikitərəfli və çoxtərəfli görüşlər, məsləhətləşmələr və konfranslar keçiririk. Bir daha qeyd edirəm ki, Cənub Qaz Dəhlizi enerji şaxələndirilməsi layihəsidir. Çünki o, həmçinin nəqliyyat marşrutlarını və mənbələri şaxələndirir. Azərbaycan Avropaya enerji resurslarının nəqli baxımından yeni mənbədir və təbii ki, yeni kəmərlər inşa etməklə biz enerji marşrutlarını şaxələndiririk. Yəni, bu, tam şaxələndirmədir, əslində, bu, Avropanın enerji xəritəsini dəyişdirir və beləliklə, Cənub Qaz Dəhlizinin əhəmiyyəti artır.

Əlbəttə ki, Cənub Qaz Dəhlizi enerji təhlükəsizliyi layihəsidir. Biz yaxşı anlayırıq ki, enerji təhlükəsizliyi olmadan milli təhlükəsizliyin təmin edilməsi çətinləşir. Enerji təhlükəsizliyi hər bir dövlətin milli təhlükəsizliyinin ayrılmaz bir hissəsidir. O dövlətlər ki, xarici enerji mənbələrindən asılıdır, onlar əmin olmalıdırlar ki, bu marşrut dayanıqlı və uzunmüddətli olacaq. Onlar özlərinin gələcəyini və sənaye inkişafını planlaşdırmalıdır. Eyni zamanda, təbii sərvətlərlə zəngin olan istehsalçı dövlətlər etibarlı bazarlar olmadan öz məqsədlərinə çata bilməzlər. Beləliklə, bu, enerji təhlükəsizliyi, enerji şaxələndirilməsi və geniş beynəlxalq əməkdaşlıq layihəsidir.

Bu gün toplantının formatı onu nümayiş etdirir ki, biz çox geniş beynəlxalq əməkdaşlıq formatını yarada bilmişik. Maliyyə qurumları, şirkətlər və ölkələrin bir amalı

var. Biz bu layihənin reallaşdırılmasına inanırıq və hesab edirik ki, hər birimiz üçün bu, uzunmüddətli uğur hekayəsi olacaqdır.

Azərbaycanın qaz ehtiyatlarına gəldikdə, təsdiq edilmiş ehtiyatlarımız 2,6 trilyon kubmetrdir. Əlbəttə ki, "Şahdəniz" Azərbaycanın əsas qaz yatağıdır. Lakin, eyni zamanda, hazırda istismar prosesində olan digər yataqlar da var və düşünürəm ki, tezliklə biz "Abşeron" yatağından yaxşı nəticələr əldə edəcəyik. Əminəm ki, ən yaxın gələcəkdə biz oradan qaz hasil etməyə başlayacağıq. Böyük qaz ehtiyatına malik "Ümid", "Babək" yataqları və digər yataqlar da çox ümidvericidir. Ona görə də mən əminəm ki, "Şahdəniz" Cənub Qaz Dəhlizi üçün yeganə resurs mənbəyi olmayacaq və yataqlarımızdan nə qədər çox qaz hasil edilsə, tərəfdaşlarımızı təchiz etmək və haqqında danışdığımız təchizat şəbəkəsini şaxələndirmək üçün daha çox potensial olacaq.

Əlbəttə ki, enerji əməkdaşlığı layihələri digər sahələrdəki əməkdaşlıqda da çox mühüm rol oynayır. Mən xüsusilə nəqliyyatı qeyd edərdim. Bu gün Azərbaycan Avrasiyanın nəqliyyat mərkəzinə çevrilir. Şərq-Qərb, Şimal-Cənub nəqliyyat dəhlizləri bizim ölkəmizin ərazisindən keçir. Biz müasir nəqliyyat infrastrukturuna böyük həcmdə investisiya yatırmışıq. Bakı dəniz limanı, Avropa ilə Asiyanı birləşdirən "Bakı–Tbilisi–Qars" dəmir yolu, magistral yollar, Xəzər dəniz gəmiçiliyi, hava limanları - bütün bunlar bizim neft və qaz satışından əldə etdiyimiz gəlirlər sayəsində mümkün olub. Beləliklə, biz gəlirləri əlavə gəlir gətirəcək və ümumi işə xidmət edəcək sektorlara yönəltmişik. Çünki nəqliyyat layihələri, eləcə də enerji layihələri ölkələri birləşdirir. Ölkələr əlaqəli, qarşılıqlı şəkildə bir-birindən asılı olur və hər kəs mənfəət əldə edir. Ona görə də biz enerji təhlükəsizliyi layihələrinin faydasını digər sahələrdə görürük.

Əlbəttə ki, Azərbaycanın uğurlu enerji inkişafı bizə özümüzü dünyaya etibarlı ölkə, etibarlı tərəfdaş, xarici investisiyaları 100 faiz qoruyan ölkə kimi təqdim etməyə imkan verib. Bizim enerji şirkətləri ilə bütün müqavilələrimiz parlament tərəfindən ratifikasiya olunur və qüvvəyə minir. Bu səbəbdən də investorlar 100 faiz əmin olurlar ki, bu müqavilələrdə bir söz belə dəyişdirilməyəcək. Bu, etimad yaradır. Bu, həmçinin bizə digər sektorlara milyardlarla investisiya cəlb etməyə imkan verib.

Azərbaycana yatırılmış investisiyaların ümumi həcmi 250 milyard dollara yaxındır. Bunun yarısı xarici investisiyalardır. Bu, bizə iqtisadiyyatımızı şaxələndirməyə, islahatları uğurla həyata keçirməyə, yaxşı biznes mühiti yaratmağa imkan verib. Dünya Bankının sonuncu "Doing Business" hesabatına əsasən Azərbaycan 25-ci yerdədir. Beləliklə, biz möhtəşəm uğur qazanmışıq və biznes mühiti nöqteyi-nəzərindən 10 ən islahatçı ölkədən biriyik.

Enerji resursları və gəlirlərindən düzgün istifadə sayəsində biz infrastruktura, sosial infrastruktura böyük həcmdə investisiya yatırmağa, əhalinin yaşayış səviyyəsini qaldır-

mağa nail olmuşuq. Ona görə də bu layihə bizim üçün, əminəm ki, hamımız üçün olduqca mühüm əhəmiyyət kəsb edir.

Şadam ki, bu gün biz uğurlar, nəticələr barədə danışa bilirik və sözsüz ki, bu gün biz gələcək planlar barədə də danışacağıq.

Sizə uğurlar arzulayıram. Bizimlə birgə olduğunuza görə sizə təşəkkür edirəm.

***

Azərbaycanın energetika naziri **Pərviz Şahbazov** dedi:

– Cənab Prezident, icazə verin, Məşvərət Şurasının üzvləri adından Sizə bizim prioritetlərimiz və vəzifələrimizə bir daha diqqət çəkən əhatəli çıxışınıza görə dərin minnətdarlığımızı ifadə edim. Məşvərət Şurasının iclaslarında Sizin daimi iştirakınız və davamlı dəstəyiniz bu qurum yaranandan onun işinə istiqamət verib. İnanıram ki, Sizin rəhbərliyinizlə Məşvərət Şurasının hazırkı iclası həm də Cənub Qaz Dəhlizi layihəsi ilə bağlı mühüm məsələlərin müzakirə olunacağı forum kimi xidmət edəcək.

Cənab Prezident, icazə verin, iştirakınıza və çıxışınıza görə bir daha Sizə minnətdarlığımı bildirim və çıxış etmək üçün sözü Avropa Komissiyasının büdcə və insan resursları üzrə komissarı cənab Günter Ottingerə verim.

***

Avropa Komissiyasının büdcə və insan resursları üzrə komissarı Günter Ottinger çıxış etdi.

**KOMİSSAR GÜNTER OTTİNGERİN ÇIXIŞI**

– Zati-aliləri, hörmətli Prezident Əliyev.

Hörmətli nazir Şahbazov, nazirlər, həmkarlar, xanımlar və cənablar.

2019-cu il bizim Cənub Qaz Dəhlizi layihəsinin qalan hissələrinin maliyyələşməsi baxımından əhəmiyyətli il olacaq. Mən ötən ilin mayında baş tutmuş ilk qaz mərasimindən sonra Bakıda keçirilən neft-qaz konfransında Avropa İttifaqı adından iştirak etmək şərəfinə nail olmuşam. Azərbaycan qazı TANAP vasitəsilə artıq buradan Türkiyəyə nəql edilir. Biz Azərbaycan qazının yaxın gələcəkdə, – ümidvarıq ki, gələn il, – Avropa İttifaqına çatmasını səbirsizliklə gözləyirik. Avropa İttifaqı Cənub Qaz Dəhlizi layihəsinin mümkün qədər tez tamamlanması üçün əlindən gələni edəcək.

Bu dəhliz strateji əhəmiyyətə malikdir, çünki o, təkcə təchizat marşrutlarının deyil, həm də təchizat mənbələrinin şaxələndirilməsinə imkan verəcək. Təchizat mənbələri deyəndə "Şimal Axını 2" və ya "Türk Axını", yeni mənbələr deyəndə isə Cənub Qaz Dəhlizi – Azərbaycan və Avropa İttifaqı nəzərdə tutulur. Gələcəkdə təchizat səviyyəsinin təhlükəsizliyini əhəmiyyətli dərəcədə inkişaf etdirmək üçün hər iki element bərabər şəkildə vacibdir.

Bu gün biz təkcə geriyə baxmaq istəmirik, biz gələcəyə baxmalıyıq. Cənub Qaz Dəhlizi təkcə Avropanın enerji şaxələndirilməsi üçün xüsusi əhəmiyyət kəsb etmir. O, həm də dəhliz boyunca yerləşən ölkələrdə və onların hüdudlarından kənarda dinamik proseslərə start verib. Söhbət təkcə qazdan deyil, daha çox məsələlərdən – qonşuluq və tərəfdaşlıqdan gedir. Bu, Məşvərət Şurasının beşinci toplantısıdır. Fürsətdən istifadə edərək, mən 2014-cü ildə həmkarım, vitse-prezident Şefçoviçlə birgə Şuranı təsis etdiyinə görə Prezident Əliyevə və bu illər ərzində hər il keçirilən tədbirə ev sahibliyi etməklə Azərbaycanın nümayiş etdirdiyi möhtəşəm qonaqpərvərliyə görə minnətdarlığımı bildirmək istərdim. Mən səmimi qəlbdən inanıram ki, Məşvərət Şurası bu layihənin inkişaf etdirilməsində mühüm rol oynayıb. O, çağırışlarla birlikdə məşğul olunmasını təmin etmək üçün bütün tərəfləri bir araya gətirib. Bugünkü uğur həm də layihədə iştirak edən, onun tikintisinə maliyyə vəsaiti ayıran şirkətlərin, eləcə də maliyyə institutları – Avropa İnvestisiya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı və başqalarının peşəkarlığı sayəsində mümkün olub. Biz tezliklə deyə biləcəyik ki, 3500 kilometr uzunluğunda kəmər rekord zaman kəsiyində, müxtəlif ölkələrdən keçməklə və smetada nəzərdə tutulandan az vəsait sərf olunmaqla tikilib. Bu cür iddialı infrastruktur layihələri çox deyil. Bu, tarixi layihədir.

Cənub Qaz Dəhlizi sayəsində, – lakin təkcə bunun sayəsində deyil, – Azərbaycan Avropa İttifaqı üçün əsas strateji tərəfdaşdır. Bu il biz Şərq Tərəfdaşlığının 10 illiyini qeyd edirik. Azərbaycan hələ də bir sıra iqtisadi çətinliklərin öhdəsindən gəlməyə çalışan Şərq Tərəfdaşlığı regionunda öz inkişafı ilə mayak rolunu oynayan, inkişaf etməkdə olan, orta gəlir səviyyəli ölkədir. Azərbaycan güclü artım tempinə malik ölkədir və çağırışların öhdəsindən inamla gəlir. Azərbaycan, həmçinin öz iqtisadiyyatının şaxələndirilməsi ilə fəal şəkildə məşğul olur. Bu, açıq-aşkar sizin əməkdaşlığı genişləndirə biləcəyiniz sahədir.

Həqiqətən, ötən ilin iyulunda Azərbaycan birgə tərəfdaşlıq prioritetlərini irəli sürüb, onlar artıq ratifikasiya olunub və 2018-ci ilin oktyabrında qüvvəyə minib. Hazırda Avropa İttifaqı Avropa qonşuluq aləti çərçivəsində prioritetlərin birgə həyata keçirilməsini dəstəkləmək üçün maliyyə mexanizmi hazırlayır. Tərəfdaşlıq prioritetləri

həm də mühüm enerji fəslini əhatə edən, hazırda haqqında danışıqlar apardığımız genişləndirilmiş razılaşmanın gələcək icrası üçün zəmin yaratmağa kömək edəcək. Biz artıq bu danışıqlarda əhəmiyyətli irəliləyişə nail olmuşuq. Bu həftə Məşvərət Şurasına paralel olaraq, səmərəli ticarət danışıqları aparılır.

Azərbaycan enerjini istehsal və ixrac edən mühüm ölkədir. Avropa İttifaqı bunu yaxşı bilir. SOCAR Cənub Qaz Dəhlizi kontekstində təkcə öz müasir texnologiyasını və "nou-hau"sunu təklif etmir, eyni zamanda, Cənub Qaz Dəhlizində və onun hüdudlarından kənarda, həm Avropa İttifaqında, Qərbi Balkan ölkələrində və həm də bizim tərəfdaşımız olan Türkiyədə çox vacib bir sərmayədardır. Onun biznes modeli neft və qazın hüdudlarını aşaraq hazırda emal fəaliyyəti və neft-kimya sənayesinədək genişlənir. Ona görə də Azərbaycan ortaya böyük enerji təcrübəsi qoyur ki, Avropa İttifaqı bundan yalnız faydalana bilər.

Biz başa düşürük ki, enerji məsələsi bu gözəl ölkə üçün xüsusilə həssas məsələdir və öz narahatlıqlarımızı və sizin narahatlıqlarınızı nəzərə almağa hazırıq. Lakin biz həm də yeni tərəfdaşlıq razılaşması kontekstində Avropa İttifaqının normativ-hüquqi bazasına hörmət etməliyik. Mən eşitməyə məmnunam ki, dünənki enerji danışıqları mahiyyət etibarilə irəliləyişə imkan verdi. Enerji sahəsində irəliləyiş hər iki tərəfə, həmçinin qalan digər sahələrdə danışıqları yekunlaşdırmağa imkan verməlidir. Bu, bizə əhəmiyyətli hissəsi ticarət üzrə aparılan danışıqları tamamlamağa və 2019-cu ilin sonlarına yaxın komissiyamızın səlahiyyət müddətinə kömək etmək imkanını verəcək.

Avropa İttifaqı və Azərbaycan arasında yeni saziş üzrə danışıqlara dair yanaşmanın Cənub Qaz Dəhlizi layihəsinə dair yanaşmaya bənzər olması, əməkdaşlıq və qarşılıqlı etimad ruhunda aparılması mühüm əhəmiyyət kəsb edir. Mən əminəm ki, biz hər iki tərəfi qalibə çevirən zəruri kompromisləri tapa biləcəyik və güclü tərəfdaşlar arasında bu, belə də olmalıdır.

Azərbaycanın enerjidən savayı, çox mühüm geosiyasi rolu da var və ölkənin yerləşdiyi məkan ona nəinki beynəlxalq enerji qovşağı kimi, eyni zamanda, mühüm nəqliyyat qovşağı kimi də fəaliyyət göstərmək imkanı verir. Azərbaycan öz limanlarına və dəmir yolu şəbəkələrinə sərmayə yatırır. Azərbaycan Avropa İttifaqına Mərkəzi Asiyaya və Çinə çıxış əldə etmək üçün mühüm bir yol açır.

Məşvərət Şurası müxtəlif ölkələri və təşkilatları öz işinə cəlb edən nadir çoxtərəfli bir platformadır. Təşkilatçılar arasında maraqların vaxtaşırı dəyişə bilməsinə baxmayaraq,

onların hamısı Cənub Qaz Dəhlizi Məşvərət Şurasına ehtiyac duyur və ümumi həllər naminə çalışır. Hesab edirəm ki, Cənub Qaz Dəhlizi layihəsinin tamamilə işlək vəziyyətdə olmasına baxmayaraq, bu cür uğurlu regional əməkdaşlıq formatını tərk etməzdən öncə düşünmək lazımdır. Məşvərət Şurası, yəni, biz hamımız çevik dəyişən enerji aləmində vacib müzakirə forumunu təşkil etməyə davam edə bilərik. Biz hamımız enerji keçidinin çoxsaylı çağırışları ilə üz-üzə qalmışıq. Avropa İttifaqı Azərbaycan kimi, Paris İqlim Sazişinə qoşulub və burada səbəb bütün Avropa üçün təmiz enerji mənbələrinin qəbul edilməsidir. Beləliklə, Avropa İttifaqı nəinki özünün 2030-cu ilə qədər enerji və iqlim hədəflərinə çatmaq üçün töhfə verir və təmiz enerjiyə keçid dönəmində rəhbərlik nümayiş etdirir, eyni zamanda, yeni enerji sistemlərimizin gələcəkdə necə fəaliyyət göstərəcəyinə dair dəyişiklikliyə hazır olmaq üzərində çalışır. Fakt etibarilə Avropa İttifaqı artıq 2030-cu ildən sonrakı dönəmə nəzər yetirir.

Ötən ilin noyabr ayında komissiya müasir, rəqabətədavamlı və iqlimə münasibətdə neytral olan iqtisadiyyat üzrə özünün uzunmüddətli strategiyasını dərc edib. Uzunmüddətli baxış 2050-ci ilə qədər iqtisadiyyatımızın necə dekarbonizasiya edilməsi üçün müxtəlif ssenariləri nəzərdən keçirir, bu da iqlim dəyişikliyinə qarşı səmərəli mübarizə aparmaq istədiyiniz təqdirdə zəruridir. Təmiz enerjiyə keçid kontekstində qaz gələcək illər və onilliklər ərzində mühüm əhəmiyyət kəsb edən keçid enerjisi olaraq qalacaq. Avropa İttifaqında biz orta və uzunmüddətli perspektivdə qaza tələbatımızın vaxt getdikcə demək olar ki, sabit qalacağını gözləyirik. Çünki bizim yerli resurslarımız gözləndiyindən daha tez tükənir. Məsələn, Niderlandı götürək. Tədricən baş verən dekarbonizasiya üçün yeni və innovativ konsepsiyalar tələb olunacaq. Nəqliyyat və istilik təchizatı sektorları üçün elektrofikasiyanın artacağı gözlənilir. Lakin biz, eyni zamanda, daha ənənəvi enerji mənbələrinin hidrogen, yaşıl qaz, yeni enerji mənbələrinə konvertasiyanı müşahidə etməkdəyik və bu da bizə mövcud enerji infrastrukturlarına arxalanmağa davam etmək imkanını yarada bilər. Biz nəinki Paris İqlim Sazişi üzrə üzərimizə götürdüyümüz öhdəlikləri yerinə yetirmək üçün qanunlarımızı dəyişirik, Avropa İnvestisiya Bankı kimi, Avropa maliyyə institutları bu transformativ dəyişikliyin önündə gedirlər.

Biz Azərbaycanın enerji resurslarından başqa sahələrdə də bu təşkilatlarla əməkdaşlıq etmək marağında olduğunu anlayırıq. Kənd təsərrüfatı məhsullarının emalına, ağıllı şəhərlərə, su idarəetməsinə, yol, dəniz və dəmir yolu dəhlizlərinə, habelə ölkənin rəqəmsal infrastrukturuna sərmayə yatırmaqla Azərbaycan iqtisadiyyatının gələcək şaxələndirilməsi ilə bağlı böyük imkanlar mövcuddur. Avropa İttifaqı enerji məsələlə-

rində, məsələn, neft və qaz üzrə əməkdaşlığa sadiq olduğu qədər Azərbaycanın şaxələndirmə planlarını da dəstəkləyir.

Biz öz tərəfdaşımız və qonşu ölkələrimiz üçün enerji daşıyıcıları üzrə etibarlı enerji tərəfdaşı olmağa hazırıq. Bu tərəfdaşlığa görə sizə təşəkkür edirik. Burada çox etibarlı komandamız var. Gəlin, birlikdə işləməyə davam edək. Mən bu gün məhsuldar müzakirələr və fikir mübadilələrinin aparılmasını səbirsizliklə gözləyirəm. Avropa İttifaqı burada olmaqdan şaddır. Sağ olun.

***

Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin beşinci toplantısı işini plenar sessiya ilə davam etdirib.

**AzərTAC**
*20 fevral 2019-cu il*

# TÜRKİYƏNİN İPSALA QƏSƏBƏSİNDƏ TANAP QAZ KƏMƏRİNİN AVROPA İLƏ BİRLƏŞƏN HİSSƏSİNİN AÇILIŞ MƏRASİMİ KEÇİRİLİB

*30 noyabr 2019-cu il*

## Prezident İlham Əliyev mərasimdə iştirak edib

Noyabrın 30-da Türkiyənin Ədirnə vilayətinin İpsala qəsəbəsində TANAP qaz kəmərinin Avropa ilə birləşən hissəsinin açılış mərasimi keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak edib.

Əvvəlcə Cənub Qaz Dəhlizinin ən mühüm seqmentlərindən biri və Avropanın enerji təhlükəsizliyində mühüm amil olan TANAP – Trans-Anadolu qaz boru kəməri layihəsinin icrasına həsr olunmuş videoçarx nümayiş etdirildi.

SOCAR-ın prezidenti Rövnəq Abdullayev və Türkiyənin Enerji və Təbii Sərvətlər naziri Fatih Dönməz TANAP layihəsinin əhəmiyyətindən danışdılar.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə çıxış etdi.

### PREZİDENT İLHAM ƏLİYEVİN ÇIXIŞI

Hörmətli Türkiyə Respublikasının Prezidenti, əziz qardaşım Rəcəb Tayyib Ərdoğan.

Hörmətli dövlət və hökumət başçıları.

Əziz dostlar.

İlk növbədə, qardaşım Rəcəb Tayyib Ərdoğana məni bu tarixi mərasimə dəvət etdiyi və göstərdiyi qonaqpərvərlik üçün dərin təşəkkürümü bildirmək istəyirəm. Qardaş Türkiyə torpağında yenidən olmağımdan çox məmnunam.

Bu gün tarixi gündür. Bu gün dörd il bundan əvvəl birlikdə təməlini qoyduğumuz TANAP Avropa sərhədinə çatdı. Bu münasibətlə hamımızı ürəkdən təbrik edirəm. Əminəm ki, TANAP-ın ömrü uzun olacaq, TANAP Türkiyə və Azərbaycan xalqlarına, digər qonşu xalqlara fayda və tərəqqi verəcəkdir.

Dörd il əvvəl Qars şəhərində əziz qardaşım Prezident Ərdoğanla birlikdə TANAP-ın təməlini qoyduq. Ancaq TANAP-a aparan yol 2012-ci ildə başlamışdır. Tarixi İstanbul sazişi nəticəsində TANAP-ın yaşıl işığı yandırıldı. Tarixi İstanbul anlaşması Türkiyə və Azərbaycanın birgə siyasi iradəsi nəticəsində mümkün olmuşdur. Çünki TANAP haqqında bu qərarın qəbul edilməsinə qədər Azərbaycan qazının Türkiyə və ondan sonra Avropaya nəql edilməsi ətrafında bir neçə il çox böyük mübahisələr və müzakirələr aparılmışdır, ancaq heç bir nəticə verməmişdir. Belə olan halda əziz qardaşım Rəcəb Tayyib Ərdoğanla birlikdə qərara gəldik ki, bizə lazım olan bu nəhəng layihəni özümüz həyata keçirək və belə də oldu. Bu gün bu layihəyə qoşulan "BP" şirkəti bizim tərəfdaşımızdır. Ancaq əsas texniki və maliyyə yükünü Azərbaycan və Türkiyə öz üzərinə götürmüşdür.

TANAP-a qədər apardığımız birgə işlər TANAP-a yol açdı. Çünki əgər 2006-cı ildə "Bakı–Tbilisi–Ceyhan" neft kəməri istismara verilməsəydi, bu gün TANAP haqqında danışmaq mümkün olmazdı. "Bakı–Tbilisi–Ceyhan" neft boru xəttinin təməlini çağdaş Azərbaycan dövlətinin lideri Heydər Əliyev öz əlləri ilə qoymuşdur və 2006-cı ildə əziz qardaşım, Prezident Ərdoğanla birlikdə Ceyhanda "Bakı–Tbilisi–Ceyhan" neft boru xəttini istismara verdik. Bu günə qədər "Bakı–Tbilisi–Ceyhan" boru xətti ilə Türkiyə və dünya bazarlarına Azərbaycanın və başqa dövlətlərin 450 milyon tondan çox nefti nəql edilmişdir. Bunun böyük hissəsini – 400 milyon tondan çoxunu Azərbaycan, 27 milyon tonunu Türkmənistanın, 12 milyon tonunu Qazaxıstanın, 7 milyon tonunu Rusiya nefti təşkil edir. Yəni, bir sözlə, "Bakı–Tbilisi–Ceyhan" nəinki Azərbaycanın, digər ölkələrin nefti üçün də gözəl bir infrastruktur layihəsi oldu və bu gün də uğurla fəaliyyət göstərir. 2007-ci ildə yenə də əziz qardaşımla "Bakı–Tbilisi–Ərzurum" qaz boru xəttinin açılışını etdik və bu da TANAP-a yol açan digər layihə idi. Qeyd etdiyim kimi, 2015-ci ildə Qarsda TANAP-ın inşası başlamışdır. Fürsətdən istifadə edərək, TANAP-ın inşasında iştirak etmiş bütün insanlara dərin təşəkkürümü bildirmək istəyirəm. Onların fədakarlığı və peşəkarlığı bu nəhəng layihənin vaxtında istismara verilməsində böyük rol oynamışdır.

TANAP Cənub Qaz Dəhlizinin bir hissəsidir. Cənub Qaz Dəhlizi nəhəng infrastruktur layihəsidir, maliyyə dəyəri 38 milyard dollardır və dörd layihədən ibarətdir. Onlardan üçü – "Şahdəniz" və Cənubi Qafqaz Boru Kəməri istifadəyə verilib, bu gün isə TANAP tam istifadəyə verilir. Dördüncü layihə olan TAP-ın icrası artıq 90 faizi keçib. Əminəm ki, TAP da vaxtında istismara veriləcək. Beləliklə, Avrasiyada ən böyük infrastruktur layihələrindən biri olan Cənub Qaz Dəhlizi vaxtında istismara veriləcəkdir.

Bildirməliyəm ki, bu layihələrin həyata keçirilməsi Türkiyə-Azərbaycan birgə siyasi iradəsinin məhsuludur, eyni zamanda, biz bunu digər ölkələrin iştirakı və özəl şirkətlərin maliyyə dəstəyi ilə reallaşdırdıq. Bu gün Cənub Qaz Dəhlizi özündə 7 ölkəni birləşdirir

və bu, artıq beynəlxalq əməkdaşlıq layihəsidir. Bu layihə ölkələr arasında körpülər yaradacaq və daha böyük anlaşmaya yol açacaq. Bu layihədə iştirak edən 7 ölkə, – onlardan üçü Avropa İttifaqının üzvüdür, – bundan sonra uzun illər birlikdə çalışacaq və bunun faydasını bölüşəcəklər. Yəni bu layihə əməkdaşlıq, sabitlik, uzunmüddətli anlaşma gətirir. Yəni, bu layihələrə, sadəcə olaraq, enerji layihələri kimi baxmaq düzgün olmaz. Onu da bildirməliyəm ki, bizim enerji layihələrimiz digər layihələrə də yol açdı. İki il bundan əvvəl əziz qardaşım, Prezident Ərdoğanla birlikdə Bakıda "Bakı–Tbilisi–Qars" dəmir yolunun açılışını qeyd etdik. Hazırda "Bakı–Tbilisi–Qars" dəmir yolu vasitəsilə həm Azərbaycanın, həm Orta Asiya ölkələrinin, həm də Əfqanıstanın və Çinin yükləri daşınır. Bu dəmir yolu qitələri birləşdirir. Necə ki, bizim boru xətlərimiz. Digər layihə elektrik enerjisinin ötürülməsidir. Artıq Azərbaycan Gürcüstana və Türkiyəyə elektrik enerjisini ixrac edir. Əgər enerji layihələri, yaşadığımız bölgədə sabitlik, qarşılıqlı dəstək, anlaşma olmasaydı bunların biri də həyata keçməzdi.

Türkiyə–Azərbaycan dostluğu, qardaşlığı gündən-günə möhkəmlənir. Mən bu gün dünya miqyasında ikinci belə ölkələr tanımıram ki, Türkiyə və Azərbaycan qədər bir-birinə yaxın olsun. Bizim aramızdakı ticarət dövriyyəsi artır. Bu ilin 9 ayında ticarət dövriyyəmiz 40 faizdən çox artıb və 3,4 milyard dollara çatıbdır. Qarşılıqlı yatırımlar bizim qardaşlığımızı göstərir və eyni zamanda, onu göstərir ki, biz bir-birimizə güvənirik. Bir-birimizin iqtisadiyyatına dəstək veririk. Türkiyə bu günə qədər Azərbaycan iqtisadiyyatına 12 milyard dollardan çox vəsait yatırıb. Azərbaycan isə Türkiyəyə 17,5 milyard dollar sərmayə qoyub və bu yatırımlar bizim xalqlarımızın rifah halını yaxşılaşdırır.

Eyni zamanda, Türkiyə bu gün xarici sərmayələr üçün açıq ölkədir və çox məqbul yerdir. Əziz qardaşım, Prezident Ərdoğanın liderliyi sayəsində Türkiyə həm iqtisadi, həm də siyasi sahədə böyük uğurlara imza atıb. Biz əvvəlki dövrü yaxşı xatırlayırıq. O vaxt Türkiyə Beynəlxalq Valyuta Fondunun və başqa maliyyə qurumlarının borcundan yaxa qurtara bilmirdi, asılı vəziyyətdə idi. İqtisadi asılılıq istər-istəməz siyasi asılılığa gətirib çıxara bilər. Məhz Prezident Ərdoğan tərəfindən aparılan düşünülmüş iqtisadi siyasət nəticəsində Türkiyə bu asılılıqdan yaxasını qurtara bildi və bu gün çox güclü iqtisadiyyat kimi dünya miqyasında öz sözünü deyir. Bu gün Türkiyə dünya miqyasında güc mərkəzidir. Nəinki yerləşdiyi bölgədə, dünyada Türkiyənin sözünün çəkisi artır, imkanı genişlənir və hər kəs bilməlidir, heç kim unutmamalıdır ki, bu qardaş ölkə buna görə kimə borcludur.

Tarixdə liderlərin rolu haqqında kifayət qədər kitablar yazılıb, elmi əsərlər yaradılıb və müxtəlif fərziyyələr, fikirlər var. Onların hər biri qəbuldur. Ancaq tarix göstərir ki, liderin rolu bir çox hallarda həlledici olur, bu, danılmazdır. Bu gün möhkəm Türkiyə və onun lideri inkişafı, sabitliyi təcəssüm etdirir və gələcəyə nikbinliklə baxmaq üçün imkan

yaradır. Biz buna sevinirik. Çünki Türkiyənin gücü bizim gücümüzdür, Türkiyənin uğuru bizim uğurumuzdur və biz birlikdə bundan sonra da iki qardaş ölkə kimi çiyin-çiyinə irəliyə gedəcəyik. Bizim qarşımızda bütün üfüqlər açıqdır. Həyata keçirdiyimiz bu nəhəng layihələr bizim gücümüzü göstərir və bizim gücümüzü artırır. İqtisadi güc nəticədə siyasi gücə çevrilir.

TANAP və Cənub Qaz Dəhlizi, eyni zamanda, enerji təhlükəsizliyi layihəsidir. Bu gün dünya miqyasında enerji təhlükəsizliyi haqqında danışılır və bu məsələ dünyanın gündəliyini zəbt etmişdir. Hesab edirəm ki, burada çox gözəl əməkdaşlıq formatı yaradılıb. İstehsalçı ölkə Azərbaycan, tranzit ölkələri və istehlakçı ölkələr birlikdə çalışır. Bizim mənafeyimiz də birdir, gəlirimiz də ədalətli şəkildə bölünür. Bir daha demək istəyirəm ki, bütün bu layihələr bölgədəki sabitliyi möhkəmləndirir.

Mən əminəm ki, bundan sonra da birgə həyata keçirəcəyimiz bütün layihələr TANAP kimi, "Bakı–Tbilisi–Ceyhan" kimi, "Bakı–Tbilisi–Ərzurum" kimi, "Bakı–Tbilisi–Qars" kimi uğurlu olacaq, Türkiyə və Azərbaycan birlikdə gələcəyə inamla addımlayacaq.

Yaşasın Türkiyə–Azərbaycan dostluğu, qardaşlığı!

***

Sonra Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan çıxış etdi.

**PREZİDENT RƏCƏB TAYYİB ƏRDOĞANIN ÇIXIŞI**

– Azərbaycan Prezidenti, çox hörmətli qardaşım İlham Əliyev.

Gürcüstanın Baş Naziri hörmətli Giorgi Qaxariya.

Bosniya və Herseqovinanın Rəyasət Heyətinin üzvü cənab Şefik Caferoviç.

Serbiya Milli Məclisinin sədri xanım Maya Qoykoviç.

Hörmətli nazirlər, səfirlər, enerji ictimaiyyətinin təmsilçiləri.

Sizi ən səmimi hislərimlə, sevgi və ehtiramla salamlayıram.

Cənub Qaz Dəhlizi layihəsinin bel sütununu təşkil edən Trans-Anadolu təbii qaz boru kəməri – TANAP-ın Avropa ilə birləşən hissəsinin xeyirlərə səbəb olmasını diləyirəm. Sizi bu mühüm açılış mərasimi münasibətilə ölkəmizdə qəbul etməkdən böyük məmnunluq duyuram. Sevincimizi bölüşmək məqsədilə Ədirnəyə gəldiyiniz üçün hər birinizə təşəkkür edirəm.

Bu gün hamımız birlikdə ölkələrimiz və bölgəmiz üçün həqiqətən də tarixi bir ana şahidlik edirik. Hər mərhələsi səbirlə, diqqətlə, Türkiyə, Azərbaycan və Gürcüstanın

ortaq səyləri ilə ərsəyə gələn yeddi il yarımlıq uzun və çətin bir prosesi uğurla başa çatdırmağın haqlı qürurunu yaşayırıq.

Birincisi, TANAP Azərbaycan, Gürcüstan, Türkiyə marşrutundan Avropaya – TAP xəttinə birləşir və təbii ki, oradan davam edərək Bolqarıstan, Yunanıstan, Makedoniya, Albaniya, Serbiya, Bosniya və Herseqovina marşrutu üzərindəki ölkələr də ondan faydalanır. Təbii ki, bütün bu addımları atarkən bunun bir regional layihə, bir sülh layihəsi olduğunu da xüsusilə vurğulamaq lazımdır. Gürcüstan ərazisindən Anadoluya giriş reallaşarkən Gürcüstanın buradakı səylərini əsla inkar etmək olmaz. Bu, bir həmrəylikdir və bu həmrəyliyin adı da sülhdür.

Bu layihə hər şeydən əvvəl ölkələrimiz arasındakı köklü dostluğun rəmzidir. TANAP bu mərhələyə Türkiyə və Azərbaycanın qarşılıqlı inama söykənən əlaqələri sayəsində gələ bilmişdir. Layihənin uğur qazanmasında istehsalçı, tranzit və istehlakçı ölkələrlə bu layihədə pay sahibi olan şirkətlər arasındakı uzlaşma da həlledici rol oynayıb. Xatırlatmaq istərdim ki, TANAP-la bağlı ilk addımı 2012-ci ilin iyun ayında İstanbulda hökumətlərarası müqavilələrin imzalanması ilə atmışdıq.

“Şahdəniz 2” yekun investisiya Sazişini isə 2013-cü ilin dekabr ayında Bakıda təşkil edilən mərasimlə başa çatdırdıq. Bundan sonra 2015-ci il martın 17-də Qarsda Türkiyə, Azərbaycan və Gürcüstan prezidentlərinin iştirakı ilə TANAP-ın təməlqoyma mərasimi keçirildi. Bu tarixdən üç il sonra – 2018-ci il iyunun 12-də isə dost və qardaş ölkələrin də iştirakı ilə Əskişəhərdə TANAP-ın açılış mərasimini keçirdik. 2012-ci ilin iyunundan ötən müddətdə TANAP layihəsinin reallaşdırılması üçün həqiqətən böyük əmək sərf etdik. Xüsusilə, daxildə və xaricdə dəf etdiyimiz bir neçə təhlükəli vəziyyətə, regional gərginliyə, hətta silahlı toqquşmalara qədər gedib çıxan qeyri-sabitliklərə baxmayaraq, TANAP-ı planlaşdırıldığı kimi həyata keçirdik.

Çox dəyərli qardaşım Əliyevin şəxsən diqqəti, istər Gürcüstanın aidiyyəti qurumları ilə əməkdaşlıq, istərsə də bu layihədə əməyi olan qardaşlarımızın səyləri ilə, şükür olsun, TANAP-ı bugünkü səviyyəyə gətirdik. Bu gün hamımız birlikdə sərf etdiyimiz əməyin hədər getmədiyini görürük. “Enerjinin İpək yolu” adlandırılan bu möhtəşəm layihənin nəzərdə tutulan təqvimə, hədəflərimizə və öhdəliklərimizə uyğun şəkildə ölkələrimizlə bağlı hissəsini bu gün tamamlayırıq.

Bu layihə ilə sahib olduğumuz zənginlikləri öz vətəndaşlarımızın, onlarla yanaşı, bütün bölgə xalqlarının, bütün insanlığın xidmətinə verməklə bağlı iradəmizi bir daha ortaya qoyduq. Biz TANAP ilə ölkəmizin enerji ehtiyacını təmin etməklə yanaşı, Avropanın enerji təhlükəsizliyinə də töhfə verməyi hədəflədik.

Siz də bildiyiniz kimi, TANAP Azərbaycandan Avropaya uzanan 3500 kilometrlik enerji dəhlizinin ən önəmli hissəsidir. Bu gündən etibarən Azərbaycanın təbii qazı

ölkəmizin 20 vilayətindən, 67 rayonundan və 600 kəndindən keçərək artıq Avropanın qapısına, yəni, buraya çatmışdır. TANAP ilə 16 milyard kubmetr Azərbaycan təbii qazının Türkiyənin və Avropanın istifadəsinə verilməsi əfsanədən həqiqətə çevrilib. Bu 16 milyard kubmetr qazın 6 milyardını biz, 10 milyardını isə Avropa ölkələri istifadə edəcək.

Həqiqətən də 2019-cu il noyabrın 18-dək TANAP vasitəsilə Türkiyəyə daşınan qazın həcmi 3,23 milyard kubmetrə çatdı. Qarşıdakı illərdə TANAP-ın nəqletmə qabiliyyətini əvvəlcə 24 milyard kubmetrə, daha sonra 31 milyard kubmetrə çatdırmağı planlaşdırırıq. Bundan sonra əsl məsuliyyət sərhədin o biri tərəfindəki qonşularımızın üzərinə düşür. Avropaya qaz nəqlinin başlaması üçün Trans-Adriatik təbii qaz boru kəməri – TAP qısa müddətdə başa çatdırılmalıdır. İnşallah, TAP-ın 2020-ci ildə başa çatdırılmasını gözləyirik.

Əziz dostlar, bəşəriyyət son iki əsrdə enerji mənbələrinə nəzarət uğrunda müharibələr, mübarizələr aparmış, nəticədə milyonlarla insan həyatını itirmişdir. Xüsusilə, yerləşdiyimiz coğrafiya enerji mənbələri ilə bağlı yaşanan ağır rəqabətə bilavasitə səhnə olub. Yaxın Şərqin on illər boyunca qeyri-sabitliklə mübarizə aparması planının arxasında məhz bu məsələ vardır. Bir damcı nefti insan qanından, insan həyatından daha qiymətli hesab edən düşüncə dünyaya sülh və əmin-amanlıq gətirə bilməmişdir. Yaşanan bu qədər acıya, ölümə, fəlakətə baxmayaraq, təəssüf ki, bu düşüncənin müəyyən qüvvələr tərəfindən davam etdirildiyini görürük. Xüsusilə, Aralıq dənizinin şərqində mövcud karbohidrogen ehtiyatlarının bölüşülməsi məsələsində bəziləri ədalətli bölgü əvəzinə, gərginliyi körükləməyə çalışırlar. Ədalətli bölgü imkanı var ikən, təhdid dilinə və şantaj siyasətinə əl atırlar. Halbuki heç bir ölkə beynəlxalq hüquqdan üstün deyil. Zor gücü ilə bir nəticənin hasil ola bilməyəcəyi artıq dərk edilməlidir. "Mən etdim, oldu" məntiqi ilə heç kəs öz istəyinə çata bilməz. "Əba altından dəyənək" göstərərək heç bir ölkə başqasını öz haqlarından əl çəkməyə məcbur edə bilməz. Xüsusilə, Türkiyə belə bir düşüncəyə əsla boyun əyməz.

Ölkəmiz nə öz hüququnun, nə də Kipr türkünün maraqlarının tapdanmasına icazə verməz. Aralıq dənizinin şərqində uzun dəniz sahillərinə sahib olan bir ölkəni kənarlaşdıraraq layihələr həyata keçirməyə çalışmaq onsuz da mümkün deyil. Hazırda ən son texnologiyalara sahib iki qazma gəmimiz – "Fateh" və "Yavuz" ilə iki seysmik araşdırma gəmimiz bölgədə fəaliyyətlərini davam etdirir. Biz onların çığır-bağırı ilə bu gəmilərimizi oradan çəkməyəcəyik. Onlar hazırda orada öz vəzifələrini yerinə yetirirlər və yetirməkdə davam edəcəklər. Gəmilərimizin və heyətlərimizin təhlükəsizliyi isə Dəniz Qüvvələrimiz tərəfindən ən yüksək səviyyədə təmin edilir. Bu gəmilərin həyata keçirdiyi fəaliyyətlərin qısa müddətdə bəhrə verəcəyinə inanıram. Bilirsiniz, indi Liviya ilə də anlaşma əldə etdik.

Liviya ilə əldə etdiyimiz bu anlaşma parlamentimizdə təsdiq olunduqdan sonra həmin işi xeyli fərqli səviyyəyə çatdıracağıq. İndi nə edirlər? Liviyanı təhdid etməyə başlayıblar. Bu anlaşma əldə edildi. İndi bu anlaşmanın digər hissələri də eyni qaydada tətbiq ediləcək. Bizim qazma işlərimizdən münaqişə və qan deyil, sülh və rifah püskürəcəkdir.

Mən bu inamla sizin vasitənizlə Aralıq dənizindəki bütün tərəflərə səmimi bir çağırış etmək istəyirəm: Gəlin, enerjini münaqişə vasitəsi əvəzinə, əməkdaşlıq zəmininə çevirək. Diplomatiyanın imkanlarından istifadə etmək var ikən, bölgəyə yeni qurbanlar verdirəcək yollara əl atmayaq!

Əziz dostlar, artan əhali və böyüyən iqtisadiyyat nəticəsində enerjinin çox ciddi bir qlobal məsələ olaraq qarşımızda durduğunu bilirik. Eyni qaydada dünya enerji xəritəsinin dəyişdiyini, bu sahədə yeni aktorların, yeni layihələrin məhz bu gün burada olduğu kimi, yeni əməkdaşlıq modellərinin ortaya çıxdığını görürük. Enerji təhlükəsizliyinin təmin edilməsində istehsalçı, tranzit və istehlakçı ölkələr arasındakı möhkəm əməkdaşlığın vacib olduğuna inanırıq.

Türkiyə strateji mövqeyi ilə enerjini hasil və istehlak edən ölkələrin tam qovuşuğunda yerləşir. Bu gün Yer kürəsində mövcud təbii qaz ehtiyatlarının 70 faizi, neft ehtiyatlarının isə 60 faizi qonşularımızın torpaqlarındadır. Bundan başqa, ölkəmiz Avropanın dördüncü, dünyanın isə 18-ci ən böyük təbii qaz bazarıdır. 2002-ci ildə beş vilayətimizdə təbii qaz var idisə, artıq 81 vilayətimizin hamısına təbii qazın çatdırılmasını təmin etdik. 2019-cu il avqustun sonuna olan rəqəmlərə əsasən, 144 min kilometrdən çox təbii qazpaylama şəbəkəsinə nail olmuşuq. Ölkəmizin əhalisinin 81 faizinə, yəni, 66,5 milyon insanımıza təbii qazı çatdırdıq. 2018-ci ildə təbii qaz tələbatımız isə 49,3 milyard kubmetrə çatıb. Təbii qazsaxlama potensialımızı 4 milyard kubmetrdən 11 milyard kubmetrə çatdırmağı planlaşdırırıq. İki üzən qazsaxlama və qazlaşdırma gəmisini istifadəyə verdik. İnşallah, bunlara daha birini də əlavə edəcəyik. Ümumilikdə 5,4 milyard kubmetr tutumu olan Duz gölü yeraltı qaz anbarlarının sonuncusunun təməlini bu il qoyduq. Onun 2023-cü ildə istifadəyə verilməsi ilə dünyanın ən böyük yeraltı qaz anbarlarına sahib olacağıq.

Bütün bu statistik rəqəmlərin ölkəmizə təmin etdiyi imkanlarla yanaşı, çox ciddi bir məsuliyyət də tələb etdiyini bilirik. Həqiqətən də bu günə qədər bu məsuliyyətimizi dərk edərək hərəkət etdik. Qarşılaşdığımız bir çox ikili standartlara baxmayaraq, dialoqdan, diplomatiyadan, beynəlxalq hüquqdan əsla geri çəkilmədik. Rəqabət əvəzinə əməkdaşlığın, gərginlik əvəzinə müzakirənin, münaqişə əvəzinə məsələlərimizi danışaraq həll etmək yolunu seçdik. Bizə bir addım atana biz qaçaraq getdik. Bu gün də, sabah da eyni xoş niyyətlə hərəkət etməyə davam edəcəyik. Nə öz haqlarımızdan, nə Şimali Kiprin haqqından vaz keçəcəyik, nə də haqqımız olmayana əl uzadacağıq. Ədalət, sabitlik və regional əməkdaşlıq üçün səylərimizi davam etdirəcəyik.

Bu gün hamımız birlikdə Avropa ilə birləşməsinin açılış mərasimini qeyd etdiyimiz TANAP ölkəmizin sülhpərvər baxışının konkret nümunəsidir. Dünya gündəmini ticarət müharibələrinin, terrorun, etirazların, qeyri-sabitliyin zəbt etdiyi bir dövrdə biz bu gün Avropa ilə Asiyanı TANAP vasitəsilə birləşdiririk. Buradan bölgəmizlə yanaşı, bütün dünyaya əməkdaşlıq və tərəfdaşlıq mesajları veririk. Türkiyəni üç qitənin enerji və ticarət mərkəzinə çevirmək yolunda yeni bir addım atırıq.

Çıxışımı bu düşüncələrlə yekunlaşdırarkən, TANAP-ın Avropa ilə birləşən hissəsinin açılış mərasimində iştirak etdiklərinə, görülən işlərdə əməyi olan memarından mühəndisinə qədər bütün qardaşlarıma, bütün rəhbər şəxslərə, xüsusilə qardaşım İlham Əliyevə, Gürcüstandakı dostlarımıza səylərinə görə şəxsən öz adımdan, millətim adından bir daha təşəkkürlərimi bildirirəm.

Təbii ki, qardaşım İlham Əliyevin liderliyini unutmaq əsla mümkün deyil. Qonşumuz Gürcüstana əməkdaşlığı ilə bu layihəyə həyat verdikləri üçün minnətdarlığımızı xüsusilə ifadə edirəm. Qarşıdakı dövrdə “Hamımız qazanaq” prinsipi ilə yeni layihələrə imza atacağımıza inanır, hamınızı sevgi və ehtiramla salamlayır, “Yaşasın Azərbaycan-Türkiyə qardaşlığı!” deyirəm.

***

Daha sonra Azərbaycan Prezidenti İlham Əliyev, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan, Gürcüstanın Baş Naziri Georgi Qaxariya və digər rəsmi şəxslərin iştirakı ilə TANAP kəmərini TAP kəməri ilə birləşdirilməsi mərasimi oldu.

Mərasim xatirə şəklinin çəkdirilməsi ilə başa çatdı.

***

Qeyd edək ki, Cənub Qaz Dəhlizinin əsas seqmenti olan TANAP Xəzərin Azərbaycan sektorundakı “Şahdəniz-2” qaz-kondensat yatağından çıxarılan qazı avropalı istehlakçılara çatdıracaq. TANAP Türkiyənin Ərdahan vilayətinin Posof qəsəbəsindən başlayaraq qardaş ölkənin ərazisi boyunca 20 şəhərdən, 67 qəsəbə və 600 kənddən keçən və Ədirnənin İpsala qəsəbəsində Avropaya çatan 1850 kilometrlik boru kəməridir. Azərbaycan qazını Türkiyəyə və Avropaya çatdıran TANAP Türkiyə-Gürcüstan sərhədində Cənubi Qafqaz Boru Kəmərinə, Türkiyə-Yunanıstan sərhədində isə TAP qaz boru kəmərinə birləşib. TANAP-ın Gürcüstan-Türkiyə sərhədi-Əskişəhər hissəsinin uzunluğu 1350 kilometr, Əskişəhər-Türkiyə-Yunanıstan sərhədi boyunca uzanan hissəsi isə 480 kilometrdir.

TANAP layihəsi ilə bağlı Azərbaycan ilə Türkiyə arasında anlaşma memorandumu 2011-ci il dekabrın 24-də, Trans-Anadolu təbii qaz boru kəməri sisteminə dair saziş 2012-ci il iyunun 26-da İstanbulda imzalanıb və hər iki ölkənin müvafiq qanunverici orqanları tərəfindən təsdiqlənib. Layihə üzrə yekun investisiya qərarı isə 2013-cü il dekabrın 17-də qəbul edilib. 2015-ci ildə Azərbaycan və Türkiyə Prezidentlərinin iştirakı ilə Qarsda keçirilən təməlqoyma mərasimindən sonra boru kəmərinin inşasına başlanılıb.

Boru kəmərinin quru hissəsinin diametri 56 və 48 düym, Mərmərə dənizi boyunca isə 36 düym təşkil edir. Kəmərin dəniz səviyyəsindən maksimal hündürlüyü 2700 metr yüksəklikdə yerləşir. TANAP-dan Türkiyə qazpaylama sisteminə iki qol ayrılıb və onun maksimum illik ötürücülük qabiliyyəti 31 milyard kubmetrdir.

"Enerjinin İpək yolu" adlandırılan TANAP-ın birinci fazası keçən il iyunun 12-də Türkiyənin Əskişəhər şəhərində istifadəyə verilib. Türkiyəyə ilk qaz həcmlərinin nəqli planlaşdırıldığı kimi, həmin il iyunun 30-da başlayıb.

**AzərTAC**
*30 noyabr 2019-cu il*

# BAKIDA "ƏSRİN MÜQAVİLƏSİ"NİN 20 İLLİYİNƏ VƏ "CƏNUB" QAZ DƏHLİZİNİN TƏMƏLİNİN QOYULMASINA HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİM KEÇİRİLİB

*20 sentyabr 2014-cü il*

Sentyabrın 20-də Bakıda, Heydər Əliyev Mərkəzində "Əsrin müqaviləsi"nin 20 illiyinə və "Cənub" qaz dəhlizinin təməlinin qoyulmasına həsr olunmuş təntənəli mərasim keçirilib.

Mərasimdən əvvəl Prezident İlham Əliyev, dövlət və hökumət başçıları, digər qonaqlar birgə foto çəkdirdilər.

Dövlətimizin başçısı mərasimdə çıxış etdi.

## PREZİDENT İLHAM ƏLİYEVİN ÇIXIŞI

– Hörmətli dövlət və hökumət başçıları.

Hörmətli qonaqlar.

Xanımlar və cənablar.

Mən sizin hamınızı ürəkdən salamlayıram. Bu gün ölkəmizin həyatında çox əlamətdar bir gündür, tarixi bir gündür – "Cənub" qaz dəhlizinin təməli qoyulur. Bu münasibətlə sizi və bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm.

İyirmi sentyabr ölkəmiz üçün tarixi bir gündür. İyirmi il bundan əvvəl – 1994-cü il sentyabrın 20-də "Əsrin kontraktı" imzalanmışdır. O, tarixi bir hadisə idi. Çünki gənc, müstəqil Azərbaycan dünyada o qədər də tanınan ölkə deyildi. Azərbaycan çox böyük problemlərlə üzləşmişdi. Erməni işğalı, vətəndaş müharibəsi, iqtisadi və siyasi böhran - bütün bu amillər ölkəmizin inkişafına böyük problemlər yaradırdı, böyük maneə idi.

Bu gün Ulu öndər Heydər Əliyevin adını daşıyan bu Mərkəzdə Prezident Heydər Əliyevin fəaliyyətini bir daha yüksək qiymətləndiririk. Məhz onun uzaqgörənliyi, cəsarəti, müdrikliyi sayəsində "Əsrin kontraktı" imzalanmışdır. Beləliklə, Azərbaycanın inkişafı üçün yeni imkanlar yaranmışdır. Azərbaycana böyük həcmdə investisiyalar

qoyulmağa başlanmışdır. Xəzər dənizində tarixdə ilk dəfə olaraq beynəlxalq əməkdaşlıq prosesi başlamışdır. Azərbaycan öz zəngin neft resurslarını dünya bazarlarına çıxarmaq üçün imkan əldə etmişdir. Ölkəmizin ümumi iqtisadi və siyasi inkişafı məhz "Əsrin kontraktı"ndan başlamışdır. Yeni neft strategiyamız 20 ildir ki, icra edilir. Ölkəmiz üçün böyük fayda gətiribdir. Bu illər ərzində Azərbaycan öz imkanlarını ardıcıl şəkildə genişləndirmişdir. İlk dəfə olaraq o illərdə Xəzər dənizini Qara dənizlə və Aralıq dənizi ilə neft kəmərləri birləşdirdi. Bu da tarixi nailiyyətdir. Deyə bilərəm ki, 1994-cü ildən başlayaraq bu günə qədər bütövlükdə neft-qaz sahəsində bir neçə önəmli mərhələ olmuşdur. Onların bir neçəsini mən indi sadalamaq istəyirəm. 1994-cü il sentyabrın 20-də "Əsrin kontraktı"nın imzalanması, 1996-cı ildə "Şahdəniz"qaz kontraktı üzrə Sazişin bağlanması. O da çox önəmli hadisə idi. Çünki bu gün "Cənub" qaz dəhlizinin resurs mənbəyi "Şahdəniz"qaz yatağıdır. "Şahdəniz"dünyanın ən böyük qaz yataqlarından biridir ki, orada qaz ehtiyatları 1 trilyon kubmetrdən çoxdur.

1999-cu ildən Xəzər dənizini Qara dənizlə birləşdirən Bakı-Supsa neft kəməri tikilmişdir. Bu da yeni bir ixrac marşrutu idi. 2003-cü ildə isə "Bakı–Tbilisi–Ceyhan" neft kəmərinin təməl daşı qoyuldu. O kəmər ki, Xəzər dənizini Aralıq dənizi ilə birləşdirdi. O, bu gün nəinki Azərbaycan üçün, eyni zamanda, Xəzər sahilinin şərq hissəsində yerləşən ölkələr üçün də bir ixrac boru kəməri kimi fəaliyyət göstərir. Ondan sonra 2007-ci ildə "Bakı–Tbilisi–Ərzurum" qaz kəmərinin tikintisi də tarixi hadisə idi. Çünki o hadisədən sonra Azərbaycan dünyada artıq özünü qaz ölkəsi kimi göstərməyə başlamışdır.

Bu kəmərin yeni xəttinin tikintisi əslində bu gün başlayır. Azərbaycan artıq "Cənub" qaz dəhlizinin birinci hissəsini 2007-ci ildə istifadəyə vermişdir. Ondan sonrakı dövr ərzində biz böyük layihə üzərində işləyirdik. Bildiyiniz kimi, bir neçə variant var idi. 2012-ci ildə Türkiyə və Azərbaycan siyasi rəhbərliyinin fəaliyyəti nəticəsində Trans-Anadolu kəmərinin tikintisi ilə bağlı razılıq əldə edilmişdir. TANAP layihəsi və onun həyata keçirilməsi tarixi hadisədir. Məhz TANAP layihəsinin razılaşdırılmasından sonra artıq "Cənub" qaz dəhlizinin konturları görünməyə başlamışdır. 2013-cü ildə TAP layihəsi - Trans-Adriatik kəmərinin əsas ixrac marşrutu kimi seçilməsi də tarixi hadisə idi. Eyni zamanda, keçən il artıq qazın satışı ilə bağlı kontraktlar imzalanmışdır. Yəni, bu gün bizim önümüzdə bütün üfüqlər açıqdır, yollar aydındır. Sadəcə olaraq, biz birgə səylərlə "Cənub" qaz dəhlizinin tamamlanmasını təmin etməliyik və bunu edəcəyik.

Bir sözlə, son illər ərzində Azərbaycan öz enerji siyasətini ardıcıl şəkildə irəliyə aparır. Yəni, bugünkü mərasim sadəcə olaraq görülən işlərin zirvəsidir. Əgər əvvəlki dövrlərdə dediyim məsələlər öz həllini tapmasaydı, bu gün "Cənub "qaz dəhlizindən söhbət belə gedə bilməzdi. Hazırda layihə tam hazırdır. Bu gün dəhlizin tikintisi başlayır. Əlbəttə,

biz gələcəkdə çalışmalıyıq ki, bütün bu işləri tərəfdaş ölkələrlə birgə edək, əlaqələndirmə yüksək səviyyədə olmalıdır.

Bu layihə Azərbaycana əlavə dividendlər gətirəcək. Ölkə iqtisadiyyatı daha da sürətlə inkişaf edəcək. Baxmayaraq ki, son on il ərzində Azərbaycan iqtisadiyyatı dünya miqyasında ən sürətlə inkişaf edən iqtisadiyyat olmuşdur. Bu layihə bizim üçün yeni imkanlar açır. Son 10 il ərzində bizim ümumi daxili məhsulumuz 3 dəfədən çox, büdcə xərcləri 20 dəfə artmışdır. Xarici dövlət borcu ümumi daxili məhsulumuzun cəmi səkkiz faizini təşkil edir. İşsizlik 5 faizə düşmüşdür, yoxsulluq 5 faizdən bir qədər çoxdur. Bu yaxınlarda Davos Dünya İqtisadi Forumunun hesablamalarına görə, Azərbaycan iqtisadiyyatı rəqabət qabiliyyətliliyinə görə dünyada 38-ci yerdədir. Bu, bizim üçün çox böyük nailiyyətdir və onu göstərir ki, Azərbaycan iqtisadiyyatı çoxşaxəli şəkildə inkişaf edir.

Neft-qaz resurslarımız sadəcə olaraq bizim üçün əlavə bir imkandır, dəstəkdir. Bu, bizə imkan verir ki, öz investisiyalarımızı bu layihələrə qoyaq. TANAP layihəsində Azərbaycan əsas səhmdardır və əsas maliyyə yükünü Azərbaycan öz üzərinə götürəcəkdir. "Şahdəniz"də, TAP-da və digər layihələrdə Azərbaycan öz payını özü maliyyələşdirir və beləliklə, vaxtilə əldə olunmuş iqtisadi mənfəət bu gün bizim ümumi maraqlarımıza xidmət edir.

Bu layihə, eyni zamanda, tərəfdaş ölkələrimiz üçün də çox faydalıdır. Bu layihənin icrası nəticəsində uduzan tərəf olmayacaq. Hər bir tərəf fayda götürəcək. Tranzit ölkələri, onlar, eyni zamanda, istehlakçı ölkələrdir. İstehlakçı ölkələr də qaz mənbələrinin şaxələndirilməsinə nail olacaqlar. Bu layihə Avropanın enerji təhlükəsizliyini təmin edən layihədir. Təsadüfi deyil ki, üç il bundan əvvəl Avropa Komissiyası ilə Azərbaycan arasında imzalanmış sənəd məhz bu amili diqqət mərkəzinə qoyur ki, Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində çox önəmli rol oynayan bir ölkədir. Bu gündən sonra bu rol daha da artacaq.

Enerji təhlükəsizliyi əslində hər bir ölkənin milli təhlükəsizliyi məsələsidir. Bu gün enerjini siyasətdən, iqtisadiyyatdan ayırmaq qətiyyən mümkün deyil. Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində biz hamımız tərəfdaşlarımızla iştirak edəcəyik. "Şahdəniz"qaz yatağı əsas resurs mənbəyidir. Ancaq Azərbaycanın qaz ehtiyatları daha da böyükdür. Təsdiq edilmiş qaz ehtiyatlarımız 2,5 trilyon kubmetrə bərabərdir. Ehtimal olunan, proqnozlaşdırılan ehtiyatlarımız 4-5 trilyon kubmetr səviyyəsindədir.

Xəzər qazı Avropa üçün yeganə yeni mənbədir. Digər mənbələr var. Avropa o mənbələrdən qidalanır. O mənbələrin həcmi arta bilər, ancaq yeni mənbə hazırda Azərbaycandır. Enerji təhlükəsizliyi marşrutlarının şaxələndirilməsi, hasilatçı, tranzit və istehlakçı ölkələrin birgə fəaliyyəti əminəm ki, uğur gətirəcək. Çünki bu işlərdə çox ciddi

əlaqələndirmə aparılmalıdır. Bu günə qədər bizim qaz və neft layihələrimizdə ancaq 3 ölkə iştirak edirdi - Azərbaycan, Gürcüstan və Türkiyə. Bu gündən sonra biz geniş beynəlxalq əməkdaşlıq prosesinə qədəm qoyuruq. Azərbaycan qaz istehsalçısı kimi öz resurslarını dünya bazarına çıxaracaq. Ondan sonra Gürcüstan, Türkiyə, Yunanıstan, Bolqarıstan, Albaniya, İtaliya, gələcək mərhələdə Monteneqro, Xorvatiya və digər ölkələr bu layihəyə qoşula bilərlər. Ona görə, burada əlaqələndirmə işləri çox yüksək səviyyədə aparılmalıdır.

Mən hesab edirəm ki, bu gün bu sahədə - neft-qaz sahəsində yeni beynəlxalq komanda formalaşır. Komandanın bütün üzvləri bu gün salondadırlar. Əminəm ki, bizim birgə fəaliyyətimiz uğurlu olacaq və komandamız qələbə qazanacaqdır. Qoy yolumuz açıq olsun!

***

**Bolqarıstan Respublikasının Prezidenti Rosen PLEVNELİEV çıxış edərək dedi:**

– Zati-aliləri.

Xanımlar və cənablar.

Əziz dostlar.

Cənab Prezidentə və Azərbaycan xalqına minnətdarlığımı bildirmək istəyirəm ki, bizi də bu tarixi layihənin iştirakçısına çeviriblər. Beş il bundan əvvəl Avropaya bir daha xatırladılmışdır ki, bizim ən həssas, zəif yerimiz haradadır. Bu da enerjidən asılılıqdır. Bolqarıstan bu baxımdan ən zərər çəkmiş ölkə olmuşdur. 2009-cu ilin qaz böhranından söhbət gedir. Bizim ölkə bir kəmərdən asılı idi və heç bir alternativimiz yox idi. Bolqarıstan iqtisadiyyatı ayda yüzlərlə milyon avro zərər çəkirdi. Alternativ mənbələrin təmin edilməsi bizim üçün milli maraq əhəmiyyətli məsələ və enerjinin şaxələndirilməsi başlıca prioritet idi.

Ukraynada baş vermiş böhran bir daha onu nümayiş etdirdi ki, Avropa nə dərəcə qazdan asılıdır və bu, bizim Avropa İttifaqının gündəliyinin ən başlıca məsələsinə çevrilib və burada müdrik siyasətin nə dərəcədə əhəmiyyətli olduğu vurğulanıb. “Cənub” qaz dəhlizi bu illər ərzində yaşanmış asılılığın sonu olacaq. Bizim regionu və daha geniş məkanı – Avropanı asılılıqdan azad edəcək. Burada rəqabətlilik, bazarların azad olması və ədalətli qiymətlərin təklif edilməsi baxımından da irəliləyiş olacaq. Türkiyə-Bolqarıstan, Yunanıstan-Bolqarıstan əlaqələndirici kəmərlər də “Cənub” qaz dəhlizinin əhəmiyyətli tərkib hissəsi olacaq. Bu, Bolqarıstanı da, Rumıniya, Serbiya və digər ölkələri də qazla təmin edəcək. Bu birləşdirici kəmərlər gələcəkdə Bolqarıstanın qaz anbarlarının genişləndirilməsinə xidmət edəcək, bizi regionumuzda bir növ qaz qovşağına çevirəcək.

Bu səbəbdən Bolqarıstan bu layihələrin - Türkiyə, Yunanıstan, Serbiya və Rumıniya ilə birləşdirici kəmərlərin inşasına sadiqdir. Tezliklə bu layihələr həyata keçəcək və 2016-cı

ilə qədər biz Yunanıstan ilə birləşdirici kəmərin inşasını başa çatdıracağıq. Burada bütün zəruri maliyyə resursları cəlb edilib. Biz türkiyəli həmkarlarımızla çalışırıq ki, Türkiyə ilə Bolqarıstanı birləşdirən kəmər ən qısa vaxtda inşa edilsin.

Cənab Prezident, Azərbaycan bütün dövrlərdə çox etibarlı və dəyərli tərəfdaş olub. Sizə buna görə təşəkkür edirəm ki, "Bolqarqazneft" şirkəti ilə ARDNŞ arasında müvafiq saziş imzalanıb. Bu sazişə əsasən 2019-cu ildən Bolqarıstana ildə 1 milyard kubmetr qaz nəql ediləcək. Biz, eyni zamanda, Azərbaycandan əlavə qaz həcmlərinin alınması üçün əlimizdən gələni edəcəyik. Biz fərəhlənirik ki, bu layihənin tərkib hissəsiyik və buradan qaz alacağıq. Azərbaycan qazını toplayaraq onu paylamaq nəticəsində tranzit ölkəyə çevriləcəyik. Eyni zamanda, Azərbaycanın xarici bazarlara çıxışını təmin edəcəyik. Biz təbii ki, burada NABUCCO-nu unutmamalıyıq. Çünki bu, NABUCCO layihəsinin digər komponentlərindən biridir. Bu, "Cənub" qaz dəhlizinin ikinci fazası ola bilər.

Xanımlar və cənablar, əziz dostlar. Avropaya yenidən heç bir xəbərdarlıq lazım deyil, biz artıq dərslərimizi öyrənmişik. Biz artıq real işə başlamalıyıq.

Bu gün tarixi bir addım atılır ki, Avropanın enerji təhlükəsizliyi təmin edilsin. Bu, yalnız əlavə qaz kəmərinin, dəmir yolu xətlərinin inşası deyil. Bu gün biz regional əməkdaşlığı genişləndiririk. Bu gün biz bir araya gələrək sərmayə yatırırıq, birlikdə inşaat işləri aparırıq, şəbəkələrimizi, iqtisadiyyatlarımızı birləşdiririk. Bir növ nümunə göstəririk ki, sülh şəraitində bir çox ölkələrin iştirakı ilə əməkdaşlıq necə təmin edilə bilər. Burada hər bir tərəf mənfəət əldə edir. Bu gün biz xalqlarımızın istəyini, onların iradəsini, arzularını həyata keçirdiyimizi nümayiş etdiririk ki, regionumuzda dostluq və etibarlı tərəfdaşlıq bərqərar olsun. Çox təşəkkür edirəm.

***

**Gürcüstanın Baş naziri İrakli QARİBAŞVİLİ çıxış edərək dedi:**

– Cənab Prezident Əliyev.

Hörmətli dövlət və hökumət başçıları.

Xanımlar və cənablar, əziz dostlar.

Əvvəlcə cənab Prezidenti bu tədbir – "Əsrin kontraktı"nın 20 illiyi münasibətilə təbrik etmək istərdim. Mənim üçün burada olmaq böyük məmnunluq doğurur. "Şahdəniz"qaz yatağının ikinci fazasının inşasının başlaması ilə bağlı tədbirdə iştirak etməkdən böyük şərəf duyuram və cənab Prezident, Sizə təşəkkür edirəm ki, məni buraya dəvət etmisiniz.

Sizin vaxtınızı çox almayaraq əməkdaşlığımızın müəyyən aspektləri ilə bağlı fikirlərimi bölüşmək istərdim. Azərbaycan Gürcüstanın ən yaxın dostlarından və tərəfdaşlarından biridir. Enerji əməkdaşlığı burada müstəsna əhəmiyyət kəsb edir. Birgə səylərimiz

nəticəsində biz "Bakı–Tbilisi–Ceyhan", "Bakı–Tbilisi–Ərzurum" kimi çox mühüm layihələri icra etmişik. Bu gün tarixi qərarla bağlı yeni planlar qurulur və həmin kəmərlərin genişlənməsi qərarları verilir. Trans-Anadolu qaz kəmərinin inşasına başlanılacaq. Beləliklə, Gürcüstan ərazisindən Yunanıstan, Albaniya və İtaliyaya qədər uzanacaq kəmər inşa ediləcək. Bu, Avropanın enerji xəritəsini dəyişdirəcək, – cənab Prezident bunu çox düzgün qeyd etdi, - Avropada istehlakçılar üçün Xəzər dənizinin neft və qaz ehtiyatlarına yeni imkanlar açacaq. Qara dəniz və Xəzər dənizi hövzələrinin dövlətləri üçün yeni imkanlar açılacaq. Biz mövcud infrastrukturu – "Bakı–Tbilisi–Ceyhan", "Bakı–Tbilisi–Ərzurum", "Bakı–Tbilisi–Supsa" layihələrini genişləndirərək regional əməkdaşlığı və inkişafı təmin edəcəyik. İqtisadi inkişafa mühüm töhfə veriləcəkdir. Əlavə iş yerləri yaranacaqdır və bununla da yoxsulluğun səviyyəsi azalmış olacaqdır. Bunlar bizim üçün çox mühüm layihələrdir. Ancaq onlar enerji sahəsində Avrasiya regionunun nəhəng potensialının yalnız kiçik bir hissəsidir. Bu səbəbdən də biz Trans-Xəzər kəmər layihəsini dəstəkləyirik ki, Qazaxıstan və Türkmənistandan olan təbii qaz ehtiyatları Avropaya nəql edilə bilsin.

Onu da əlavə etmək istərdim ki, Azərbaycan və Türkiyə ilə birlikdə biz daha bir mühüm layihə üzərində çalışırıq - "Bakı–Tbilisi–Qars" dəmir yolu layihəsi. Bu, çox ümidverici bir layihədir. Geniş əhatə sahəsinə malik olan bir layihədir. Əminik ki, bizim üçtərəfli əməkdaşlığımız Əfqanıstanla bağlı bütün təşəbbüslərdə öz rolunu oynayacaqdır. Buraya Türkmənistanı da əlavə etmək olar. Nəqliyyat sahəsindəki bu inkişaf həm qlobal ticarətin liberallaşmasına, eyni zamanda, davamlı tərəqqinin təmin olunmasına xidmət edəcək. Ticarətin liberallaşması məsələsində dəmir yolu nəqliyyatı infrastrukturunun, körpülərinin və nəzarət-keçid məntəqələrinin inşası mühüm əhəmiyyət kəsb edir.

Vahid milli gömrük sistemlərinin inteqrasiyası çox vacib bir məsələdir. Bununla biz regional qonşularımızı bürokratik maneələrdən azad edərək beynəlxalq təsisatlara inteqrasiya etmiş olacağıq. Türkiyə, Gürcüstan və Azərbaycan arasında gömrük sahəsində olan əməkdaşlıq bunun bariz nümunəsidir. Gürcüstan bu prosesi qəti şəkildə dəstəkləyir. Bununla biz qlobal bazarlara inteqrasiya edirik. Bu, bizim ölkələrimiz üçün prioritet məsələdir. Qonşu dövlətlər üçün azad ticarət çox nəhəng bir töhfə olacaq. Bu baxımdan Avropa İttifaqı ilə azad ticarət sazişinin əhəmiyyətini digər ölkələrə də şamil etmək istərdik.

Xanımlar və cənablar, sonda onu da vurğulamaq istəyirəm ki, mənim hökumətim, mənim dövlətim və mənim xalqım əlindən gələni edəcək ki, Gürcüstan gələcəkdə də etibarlı tranzit ölkə və iqtisadi tərəfdaş olsun. Əminəm ki, bu tarixi layihə istər regional, istərsə də qlobal səviyyədə uğurlu olacaqdır. Diqqətinizə görə çox sağ olun.

***

**Yunanıstanın Baş naziri Antonis SAMARAS çıxış edərək dedi:**

– Hörmətli cənab Prezident.

Hörmətli dövlət və hökumət başçıları, dəyərli qonaqlar.

Bu gün bu mərasimdə iştirak etmək mənim üçün böyük şərəfdir. Həqiqətən də tarixi bir hadisədir. “Cənub” qaz dəhlizi yalnız infrastruktur layihəsi deyil, bu, gələcəyə olan bir baxışdır və bu baxış artıq reallığa çevrilir. Bu baxış nəticəsində Avropa və Asiya birləşir. Enerji təminatı və enerji təhlükəsizliyi baxımından bu, gələcək illər ərzində müxtəlif dövlətlər və xalqlar arasında davamlı əməkdaşlığı təmin edəcək layihədir. Bu, nümunəvi bir əməkdaşlıq modelidir. Burada rəqabət qabiliyyətli qiymətlər təklif olunacaq. Əlavə inkişaf və ətraf mühitin qorunması məsələləri də diqqətdə saxlanılıb.

Yunanıstan ilk gündən bu layihəni dəstəkləyən ölkə olmuşdur. Yunanıstan elə bir ölkədir ki, həmin kəmər bizim ərazimizdən keçəcəkdir. TAP və TANAP layihələri “Cənub” qaz dəhlizinin tərkib hissələridir. Bu, Türkiyədən Yunanıstana keçərək 543 kilometr boyu ölkəmizin ərazisindən keçəcəkdir və daha sonra Makedoniya və Albaniyaya çatacaqdır.

Bizim ölkədə bildiyiniz kimi, çətin vaxtlar yaşanılır. Buna baxmayaraq, Yunanıstan əlindən gələni edir ki, bu layihənin həyata keçirilməsi vaxtında və keyfiyyətlə icra olunsun. Biz ətraf mühitə dəyə biləcək zərərlə bağlı dəyərləndirmə sənədini imzaladıq. Bununla da artıq tikinti prosesinə başlayacağıq. Bu, mənim hökumətimin prioritet mövzusudur.

Nazir Maniatis ilə bərabər biz bunu diqqət mərkəzində saxlayacağıq. Bu, o deməkdir ki, “Cənub” qaz dəhlizi məhdud layihə deyil. Çünki bu dəhlizi TAP layihəsi gələcəkdə digər şəbəkələrlə birləşdirə bilər. Təbii ki, bu fikirlərin həyata keçirilməsi üçün yekun rəylər verilməlidir. Amma əminəm ki, TAP layihəsi gələcəkdə daha geniş imkanlar açacaq. Beləliklə, biz irəliyə baxsaq görərik ki, Yunanıstan, Bolqarıstan birləşdirici kəmərləri də inşa edilə bilər. Bir qədər əvvəl Bolqarıstan Prezidenti bu barədə danışdı. Bu birləşdirici kəmərlər, bu layihə vasitəsilə biz daha şimala çata, Mərkəzi Avropanı əhatə edə bilərik. Maye qaz təchizatı baxımından da Yunanıstan Avropanın tələbatını ödəyə bilər. Yunanıstanın layihədə iştirakı ölkəmizin beynəlxalq arenada rolunu gücləndirəcək. Yunanıstan Cənubi Avropa və kontinental Avropa üçün bir qovşaq rolu oynaya biləcək. Təbii ki, bu layihə TAP ilə məhdudlaşmır. Bunu diqqətinizə çatdırmaq istəyirəm.

Ölkəmizdə hazırda maye qaz terminallarının imkanları artırılır. Biz bu imkanı 73 faiz artıracağıq və 225 min kubmetrə çatdıracağıq. Bundan əlavə, limanların infrastrukturu və ölkənin qazla təmin edilməsində müvafiq işlər aparılır və gələcəkdə kəmərlər də inşa edilə bilər. Artıq bizim sahillərdə 20-dən çox saziş imzalanacaq. Burada söhbət 20 müxtəlif blokdan gedir.

Çıxışımın sonunda qeyd etmək istərdim ki, bundan böyük rəmzi əhəmiyyət daşıyan layihə ola bilməz. Burada həm sahibkarlar, həm digər iştirakçılar da bəhrə görəcək. Bu əməkdaşlıq sərhədlər tanımır və əminəm ki, bu layihə belə bir əməkdaşlığın gözəl nümunəsi olacaq.

İllər öncə enerji təminatı ölkələr arasında münasibətləri pozan bir amil olub. Amma bu gün bu layihə vasitəsilə biz enerji təminatı və təhlükəsizliyinin uzunmüddətli və davamlı inkişafın təməlində duran bir məsələ olduğunu görürük. Biz yalnız kəmər inşa etmirik. Biz körpülər inşa edirik. Bu körpülər xalqları və ölkələri bir araya gətirir. Bu, həqiqətən də qlobal bir baxışdır və bu, artıq bir reallığa çevrilir.

Cənab Prezident, məni dəvət etdiyinizə görə bir daha təşəkkür edirəm.

***

**Monteneqronun Baş naziri Milo CUKANOVİÇ çıxış edərək dedi:**

– Cənab Prezident Əliyev, Zati-aliləri.

Xanımlar və cənablar.

Əvvəlcə cənab Prezidentə və azərbaycanlı dostlarımıza belə gözəl bir tədbirin təşkil olunmasına və Monteneqronun bu tədbirə dəvət edilməsinə görə təşəkkürümü bildirirəm. “Cənub” qaz dəhlizinin tikintisinin başlanılması istər “Əsrin müqaviləsi”, istərsə də digər məsələlər baxımından çox vacibdir. Bu dönəm ərzində Azərbaycan həqiqətən də çox möhtəşəm inkişaf yolu keçib. Enerji sahəsindəki dinamik dəyişikliklər həm ölkədaxili, həm də qlobal səviyyədə aydın hiss olunur.

Monteneqro bu layihənin tərkib hissəsi olub. Tiranada imzalanan Anlaşma Memorandumu və ondan sonra Bakıda təşkil edilmiş konfrans nəticəsində biz bu layihədə iştirakımızla bağlı qərar vermişik. Beləliklə, TANAP və TAP layihələrinin reallığa çevrilməsinin tərkib hissəsi olmuşuq. Adriatik hövzəsi ölkələri – Albaniya, Monteneqro, Bosniya və Herseqovina və Xorvatiyanı birləşdirəcək kəmər çox əhəmiyyətli bir məsələdir. Bizim və qonşularımız üçün bu, yeni enerji imkanları açmaqdadır. Qərbi Balkanlarda bu layihələrin əhəmiyyəti çox böyükdür. İstənilən halda enerji məsələsi milli maraqlarla məhdudlaşmır. Bu sahədə əməkdaşlıq çox vacibdir və biz buna böyük əhəmiyyət veririk.

Mənim ölkəm Avropa İttifaqının enerji siyasətinə sadiqdir. Bu baxımdan enerji təminatı, rəqabətli enerji bazarının və davamlı enerji inkişafının təmin edilməsi mühüm əhəmiyyətə malikdir. Enerji təminatının şaxələndirilməsi bu məqsədlərə nail olunması üçün başlıca şərtlərdəndir. Regional yanaşma bu layihələrin reallaşdırılmasının perspektivlərini artırır. Qərbi Balkanlarla bağlı Berlin konfransında da “Cənub” qaz layihəsi Avropa üçün ən əhəmiyyətli bir layihə kimi vurğulanmışdır.

Monteneqro üçün qazlaşdırma inkişafın yeni mərhələsi olacaq. Bu, ölkəmizdə sərmayə üçün münbit şərait və yeni iş yerləri, təbii ki, Monteneqronun dəniz akvatoriyasında da neft və qaz hasilatı üçün yeni imkanlar yaradacaq. Birgə səylərimiz nəticəsində TANAP və TAP layihələri beynəlxalq əməkdaşlıq baxımından Avropa enerji strategiyasına uyğundur. Əminəm ki, biz ölkələrimiz üçün yeni gələcək yaradırıq. Ölkələrimizə və şirkətlərimizə uğurlar arzulayıram. Diqqətinizə görə çox sağ olun.

***

**Avropa Komissiyasının sədri Joze Manuel BARROZUNUN videomüraciəti göstərildi:**

– Hörmətli cənab Prezident Əliyev.

Baş nazirlər, nazirlər, icraçı direktorlar.

Hörmətli qonaqlar, xanımlar və cənablar.

Bugünkü tədbir həm Azərbaycan üçün, həm də Avropa İttifaqı ilə münasibətlər baxımından tarixi hadisədir. Biz Azərbaycanın inteqrasiyasını, xüsusilə Avropa ilə əlaqələrin təməlində duran layihənin icrasını qeyd edirik. İyirmi il bundan öncə bu gündə mərhum Prezident Heydər Əliyev 11 şirkətdən ibarət konsorsiumla hasilat pay bölgüsü üzrə tarixi müqavilə imzalamışdır. Bunun həqiqətən də "Əsrin müqaviləsi" adlandırılması tamamilə düzgün olmuşdur. Prezidentin və iştirakçı şirkətlərin gələcəyə baxışı "Azəri-Çıraq-Günəşli" neft yataqlarının istismarı və "Bakı–Tbilisi–Ceyhan" boru kəmərinin inşası ilə nəticələndi. Bu gün Azərbaycan Avropanın neft ixracatında mühüm rol oynayır. Eyni zamanda, "Cənub" qaz dəhlizinin reallaşdırılması ilə bağlı irəliləyişi də qeyd edirik.

Üç il bundan əvvəl – 2011-ci ilin yanvarında mən və Prezident İlham Əliyev Bakıda "Cənub" qaz dəhlizi ilə bağlı Birgə Bəyannamə imzaladıq. O gündən Avropa Komissiyası, tərəfdaş ölkələr və şirkətlər bu planları reallaşdırmaq üçün birgə çalışmışlar. Bütün kəmərlərin inşasının başa çatdırılması üçün əlavə 5 il tələb olunacaq. Bu dəhliz başa çatdıqdan sonra Qafqazdan Türkiyəyə, Yunanıstan və Albaniya ərazilərindən keçərək 2000 kilometrlik məsafəni qət edəcək və Xəzər dənizini Avropa İttifaqının mərkəzi ilə birləşdirəcək. Lakin bu layihə yalnız kəmər deyil, XXI əsrin mühüm strateji, enerji dəhlizidir. Bu, sözün əsl mənasında, geostrateji bir layihə olacaq. Bu münasibətlə Prezident Əliyevə, "Şahdəniz"konsorsiumunun üzvlərinə, "Azəri–Çıraq–Günəşli" yatağının və "Bakı–Tbilisi–Ceyhan" kəmərinin səhmdarlarına, Azərbaycan ilə Avropa İttifaqı arasında güclü əməkdaşlığın qurulmasında gələcəyə baxışlara malik olan hər bir kəsə səmimi təbriklərimi çatdırıram.

Siz bizim birgə enerji təhlükəsizliyimizə töhfə verirsiniz. Əminəm ki "Cənub" qaz dəhlizi XXI əsrin layihəsi olacaq. Bu xüsusda layihənin hər mərhələsində Prezident İlham Əliyevin rəhbərlik qabiliyyətini vurğulamaq istərdim.

Azərbaycan Avropa İttifaqına heç bir vaxt bu qədər yaxın olmayıb. Onun iqtisadiyyatı Avropa bazarları ilə sıx inteqrasiya olunub və bizim əlaqələrimiz daha geniş, təmaslarımız isə daha fəaldır.

Bir daha qeyd edim ki, Avropa İttifaqı müasirləşmə islahatları ilə bağlı Azərbaycanın bütün təşəbbüslərini dəstəkləyir və müxtəlif sahələrdə daha da dərin münasibətlər yaratmaq istəyir. Şübhə etmirəm ki, bundan sonra da Avropa İttifaqı və xüsusilə Avropa Komissiyası bu layihəni mənim və enerji məsələləri üzrə komissar Günter Ottinger qədər dəstəkləyəcəkdir.

Şəxsən mən artıq Avropa Komissiyasının sədri kimi deyil, Azərbaycanın dostu qismində "Cənub" qaz dəhlizi ilə bağlı irəliləyişi və ümumən münasibətlərin inkişafını məmnuniyyətlə izləyəcəyəm.

Diqqətinə görə sağ olun.

***

**Türkiyənin energetika və təbii sərvətlər naziri Taner YILDIZ çıxış edərək dedi:**

– Azərbaycanın dövlət başçısı hörmətli Əliyev.

Dövlət başçıları, hökumət başçıları, nazirlər, dövlət və özəl sektorun hörmətli təmsilçiləri, əziz qonaqlar.

"Əsrin müqaviləsi"nin 20-ci ildönümü və "Cənub" qaz dəhlizinin təməlqoyma mərasimi ilə bağlı burada, Azərbaycanda olmaqdan məmnunluq duyduğumuzu ifadə edərək sözlərimə başlamaq istəyirəm.

Köklü bağlarımızın olduğu Cənubi Qafqaz Türkiyə baxımından vazkeçilməz əhəmiyyətdədir. Şərq ilə Qərb, Şimal ilə Cənub arasındakı ticarət, enerji və nəqliyyat dəhlizlərinə əlavə olaraq mədəniyyətlərin qarşılıqlı təsirini təmin edən və bölgənin sülh, sabitlik və rifah qovşağına çevrilməsi geniş Avrasiya coğrafiyası ilə bağlı baxışımızın əsasını təşkil edir.

Bu gün təməlini qoyacağımız "Cənub" qaz dəhlizi layihəsi yalnız bir enerji və ya nəqliyyat layihəsi deyildir. "Əsrin müqaviləsi"ndən bəri qardaş Azərbaycan ilə inkişaf etdirdiyimiz layihələr bütün ətraf ölkə və bölgələrə sülh gətirmək məqsədi daşıyan layihələrdir. "Bakı–Tbilisi–Ceyhan" layihəsi ilə Qafqazı Aralıq dənizinə bağladıq. "Bakı–Tbilisi–Ərzurum" layihəsi ilə Qafqazı Anadoluya bağladıq. "Cənub" qaz dəhlizi layihəsi və onun onurğa sütunu olan TANAP ilə Avropanı və Qafqazı bir-birinə bağlayır və sanki

bir sülh dəhlizi açırıq. Bu, iki ölkənin ən azı 10 ildən bu yana gecə-gündüz çalışaraq birlikdə ortaya qoyduğu böyük bir hədəfin göstəricisidir. Türkiyə Respublikasının Hökuməti olaraq, həm Türkiyə Böyük Millət Məclisində hökumətlərarası müqavilələrin və eyni zamanda, ev sahibliyi müqavilələrinin təsdiqi də tamamlanmışdır.

İcazə verin, açıq şəkildə söyləyim ki, Türkiyə və Azərbaycanın tərəfdaşlarımızla əməkdaşlıq şəraitində reallaşdırdığı bu layihələr, bir az əvvəl dediyim kimi, yalnız bölgəyə deyil, eyni zamanda, geniş bir coğrafiyaya sülh və sabitlik gətirəcək layihələrdir. Kaş ki, hər ölkə bu gün burada olanlar kimi, bu layihələrin dəyərini anlaya və bu xoşniyyətli səylərimizə ortaq ola biləydi.

Hörmətli qonaqlar, son illərdə qlobal enerji sahəsində genişmiqyaslı dəyişikliklər dünyanın enerji xəritəsini dəyişdirir, enerji sahəsində yeni aktorların ortaya çıxmasına səhnə olur, yeni texnologiyalar ortaya çıxır və sözün qısası, enerji arenasında böyük dəyişikliklər yaradan bir çox proseslər meydana gəlir. Digər tərəfdən, təhlükəsizliyin, rifahın və sülhün mübahisə mövzusu olmadığı bir şəraitdə qarşılıqlı maraqların qorunduğu beynəlxalq əməkdaşlıq və həmrəylik indiyədək olmadığı qədər əhəmiyyət kəsb edir.

Bu dəyişikliklərə paralel olaraq, enerji təhlükəsizliyi xarici siyasət, milli təhlükəsizlik, iqtisadi və davamlı inkişaf kimi anlayışlarla əlaqələndirilməyə başlanmışdır. Bu mənada enerji təhlükəsizliyi mövzusu qlobal gündəmin üst sıralarına çıxır və hazırkı müzakirələrin əsas mövzularından birini təşkil edir. Türkiyə olaraq, müsbət mövqeyimizi davam etdirəcəyik. Türkiyə olaraq, enerji təhlükəsizliyinin təmin edilməsində istehsalçı, tranzit və istehlakçı ölkələr arasındakı sıx əməkdaşlığı və dialoqu inkişaf etdirməyə davam edəcəyik. Bu baxışımıza əsaslanaraq dost və qardaş ölkələr - Azərbaycan və Gürcüstan ilə birlikdə bütün bu ölkələrin Şərq-Qərb enerji dəhlizini reallaşdırırıq.

Böyük dövlət xadimi mərhum Heydər Əliyev "Azəri-Çıraq-Günəşli" yataqlarının TPAO-nun da daxil olduğu beynəlxalq bir konsorsium vasitəsilə işlənməsinə imkan yaradan "Əsrin müqaviləsi"nin 1994-ci ildə imzalanmasına nail olmuşdu. Beləliklə, "Bakı–Tbilisi–Ceyhan" əsas neft boru kəmərinin həyata keçməsinə rəhbərlik etmiş oldu. Bu münasibətlə hörmətli Heydər Əliyevi rəhmətlə yad edirik.

"Bakı–Tbilisi–Ceyhan" əsas neft boru kəməri ilə birlikdə bu günə qədər 2 milyard bareldən çox neftin nəqli reallaşıb. Şərq-Qərb enerji dəhlizinin ikinci qovşağını təşkil edən "Bakı–Tbilisi–Ərzurum" boru kəməri ilə də 2007-ci ildən bu yana təbii qaz axını davam etməkdədir.

Bu gün isə ortaq hədəfimiz başda Xəzər və sonra Yaxın Şərq təbii qaz qaynaqlarının Qərbə daşınması və bir az əvvəl hörmətli Barrozunun da dediyi kimi, Avropa İttifaqının üzvü olan ölkələrin təbii qaz probleminin həllinə töhfə vermək baxımından bu işlərin

daha da inkişaf etdirilməsidir. Bu qaz 2018-ci ilin sonunda Türkiyə, 2019-cu ildə də Avropaya, inşallah, axacaq.

Bu dəhlizin onurğa sütununu meydana gətirən layihələrdən biri də təbii ki, TANAP-dır. TANAP layihəsi baxımından böyük əhəmiyyət daşıyan bir məsələ də "Şahdəniz-2" yekun investisiya qərarına dair müqavilənin ötən il dekabrın 17-də məhz bu salonda imzalanmasıdır. Bu məsələdə BOTAŞ TANAP layihəsində 30 faizlik paya, TPAO isə istər "Şahdəniz"yatağında, istərsə də "Cənubi Qafqaz" boru xəttindəki hissəsini 19 faizə çatdırmışdır və ikinci böyük ortaq olmuşdur. Məlum olduğu kimi, TANAP ilk mərhələdə "Şahdəniz"yatağının işlənilməsi ilə birlikdə hərəkətə keçəcək, amma, eyni zamanda, şərqindəki qaynaqların da bərabər işlənilməsi ilə birlikdə bu, daha da böyük uğur qazanacaqdır.

Daha sonrakı mərhələlərdə müxtəlif əlavə qaynaqların da bu boru xəttinə daxil olacağına ümid edirik. Yalnız ticarət investisiyası kimi dəyərləndirmədiyimiz TANAP layihəsinin Türkiyə ilə Azərbaycan arasında olduğu qədər Avropa ölkələri ilə də uzun illər davam edəcək güclü, sağlam və təbii əlaqələr yaradacaq bir vasitə olduğuna inanırıq.

Bu münasibətlə hörmətli Prezident İlham Əliyevə, bu layihənin reallaşmasında zəhməti olan bütün təşkilatlara, dövlət və özəl sektora təqdir və təşəkkürlərimi bildirirəm.

Hamınızı hörmətlə salamlayıram.

***

**Norveçin Azərbaycandakı səfiri Bard İvar Svendsen çıxış edərək dedi:**

– Möhtərəm cənab Prezident, Zati-aliləri.

Xanımlar və cənablar.

Norveç Krallığının Baş naziri Erna Solberqin məktubunu diqqətinizə təqdim edirəm:

"Bu gün, Azərbaycan üçün mühüm, əhəmiyyətli bir gündə Sizi salamlayıram. 1994-cü ildə imzalanmış kontrakt Azərbaycanın tarixində dönüş nöqtəsi oldu. Beynəlxalq şirkətləri və sərmayəçiləri Azərbaycana dəvət etməklə "Azəri–Çıraq–Günəşli" neft yatağı beynəlxalq bazarlar üçün açıldı və ölkənin firavanlığı, beynəlxalq bazarlara inteqrasiyası təmin edildi. 1994-cü ildə, eyni zamanda, ticari əlaqələr başlandı. Norveçin "Statoil" şirkəti ölkəyə dəvət edildi. 20 ildən sonra Norveç ilə Azərbaycan enerji sahəsində daha yaxın tərəfdaş olublar. Bu, istər Norveç, istərsə də Azərbaycan üçün böyük mənfəətlər verib və bizim müvafiq şirkətlər də bundan bəhrələniblər. Ümid edirəm ki, əlaqələrimiz gələcəkdə də davam edəcəkdir.

Bugünkü gün yalnız tarix deyil, eyni zamanda, bu, gələcəyə bir baxışdır. "Cənub" qaz dəhlizinin təməlqoyma mərasimi ilə münasibətlərimizin yeni mərhələsi, eyni zamanda, Azərbaycan və tərəfdaşlar üçün yeni mərhələ başlanır.

Bu gün enerji və təhlükəsizlik bir-biri ilə sıx bağlı məsələdir. Norveç “Cənub” qaz dəhlizi layihəsini dəstəkləyir və bu baxımdan enerji təhlükəsizliyi məsələsinə onun verəcəyi töhfəni alqışlayır. Azərbaycan və Norveç Avropa bazarı üçün etibarlı tərəfdaşlardır.

Cənab Prezident, xahiş edirəm “Əsrin müqaviləsi”nin 20 illiyi ilə bağlı təbriklərimi qəbul edəsiniz. Sizə gələcək uğurlar arzulayıram.

Xanım Erna Solberq

Norveç Krallığının Baş naziri”

***

**Albaniya Respublikasının energetika naziri Damian GİKNURİ çıxış edərək dedi:**

– Hörmətli cənab Prezident, zati-aliləri.

Xanımlar və cənablar.

Burada olmağımdan böyük məmnunluq duyuram. Bu, çox mühüm və Avropanın enerji xəritəsini dəyişdirəcək bir tədbirdir. Bu layihə mənim ölkəm üçün çox vacib bir layihədir. Nəyə görə? Çünki Avropa etibarlı və alternativ enerji mənbəyi ilə təmin edilir. Bu, Avropa İttifaqının gələcəyi üçün vacibdir, onun təhlükəsizliyi üçün mühüm əhəmiyyət kəsb edir. Çünki alternativsiz qitənin gələcəyi təmin edilə bilməz.

Bu, eyni zamanda, müxtəlif ölkələr arasında əməkdaşlığı təmin edir. Vaxtilə münaqişədə olan ölkələr – Albaniya, Monteneqro bu gün bir yerdə çalışırlar və Azərbaycandan gələn kəməri digər kəmərlərlə birləşdirmək üçün əllərindən gələni edirlər. Eyni zamanda, bunun həm mənim ölkəm, həm Cənub-Şərqi Avropanın digər dövlətləri üçün böyük iqtisadi təsiri olacaqdır.

Bu, bizim üçün çox əhəmiyyətli bir layihədir. Bu, Albaniyaya böyük həcmdə qaz verəcəkdir. Əvvəllər bizim çox məhdud imkanlarımız var idi və zənnimcə, bu, istər iqtisadi inkişaf, istərsə də təhlükəsizlik baxımından çox böyük töhfə olacaqdır. Biz hazırda master-plan üzərində çalışırıq. Dost Azərbaycana və ARDNŞ-ə təşəkkürümüzü bildiririk ki, bu imkanları Albaniya üçün yaratmaqdadır.

Eyni zamanda, əminəm ki, bu layihə Albaniyanı və Cənub-Şərqi Avropanı enerji xəritəsi üzərinə qoyacaqdır. Çünki biz artıq enerji qovşağına çevriləcəyik. Bizim hökumətimiz bunu prioritet məsələ kimi müəyyən edib. Əlimizdən gələni edirik. Hökumət daxilində müvafiq komanda yaradılmışdır ki, TAP-ın mümkün qədər sürətlə həyata keçirilməsini təmin edəcək.

Təəssüflər olsun ki, Roma papasının səfəri ilə bağlı Baş nazirimiz burada ola bilmədi. Amma bu, layihəyə verdiyimiz əhəmiyyəti heç də azaltmır. Bu, bizim üçün, Avropa

üçün, Azərbaycan üçün çox mühüm layihədir. Sizə qarşıdakı illərdə uğurlar və uğurlu əməkdaşlıq arzulayıram.

***

**Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının ticarət və investisiyalar üzrə dövlət naziri Lord LİVİNQSTON çıxış edərək dedi:**

– Cənab Prezident, Zati-aliləri.

Hörmətli dövlət və hökumət başçıları, qonaqlar.

Artıq məşhur olan "Əsrin müqaviləsi"nin imzalanmasının ildönümü ilə əlaqədar Britaniya hökuməti adından Prezident İlham Əliyevi və Azərbaycan xalqını təbrik edirəm. Dəvətə görə təşəkkür edirəm və icazənizlə bir neçə kəlmə söyləmək istərdim.

Çox şadam ki, bu gün qarşınızda məhz britaniyalı memar Zaha Hadidin müəllifi olduğu möhtəşəm Heydər Əliyev Mərkəzinin səhnəsindən çıxış edirəm. Con Pol Getti dediyi kimi, uğuru şərtləndirən üç amil bunlardır: erkən oyanmaq, gecəyə qədər çalışmaq və neft tapmaq. Bunu Azərbaycanın uğuru haqqında da demək olar. Lakin buraya müdrik rəhbərlik amilini əlavə etmək çox vacibdir. Ölkəniz gərgin əməyi və enerji ehtiyatları sayəsində Avropa və dünya iqtisadiyyatında mühüm rol oynayır. Böyük Britaniya bu uğurun tərkib hissəsi olmaqdan qürur duyur.

"Azəri–Çıraq–Günəşli" yataqlarının operatoru olan "BP" ARDNŞ ilə birlikdə dünyanın dənizdəki ən nəhəng neft komplekslərindən birini və Azərbaycanın iqtisadiyyatına töhfə verən ən iri müəssisəni yaradıb.

Xanımlar və cənablar, "Azəri–Çıraq–Günəşli" Azərbaycanda enerji inkişafının təntənəsidir. "BP" və Böyük Britaniya hökumətinin Azərbaycan ilə əməkdaşlığı bu layihələrlə məhdudlaşmır və biz gələcək layihələr də gözləyirik. Bu mənada mən fəxr edirəm ki, biz yalnız "Azəri–Çıraq–Günəşli"nin 20 ilini deyil, 20 illik möhkəm Britaniya-Azərbaycan münasibətlərini qeyd edirik və bu layihə əməkdaşlığımızın təməlində durub. İyirmi il əvvəl Bakıda və Londonda səfirliklərimiz açıldı və o vaxtdan bu günə qədər münasibətlərimiz sürətlə inkişaf edib. Bizim davamlı ticarət əlaqələrimiz güclü ikitərəfli münasibətlərin özəyini təşkil edib və bu istiqamətdə münasibətlər davam etməkdədir.

Britaniya şirkətləri ölkənizdə birbaşa xarici sərmayənin ən böyük mənbəyidir. Neft və qaz sahəsi daxil olmaqla 500-dən artıq Britaniya şirkəti burada çalışır və gələcəkdə bu rəqəmi artırmaq niyyətindəyik. Təbii ki, Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi və infrastrukturun yaxşılaşdırılması üçün enerjidən başqa, digər sahələrə də sərmayə qoyur. Britaniya bu işlərdə Azərbaycana yardım etməyə hazırdır. Məsələn, Azərbaycan yüksək texnologiyalar sahəsində böyük potensiala malikdir və mən böyük məmnuniyyətlə iyun

ayında Londonda nazir Əli Abbasovun rəhbərlik etdiyi texnologiya şirkətlərindən ibarət olan heyəti qəbul etdim.

Azərbaycan hökumətinin sənaye üçün münbit biznes mühitinin yaradılması ilə bağlı qətiyyəti uğurumuzu şərtləndirən amil olub. Uğurun digər elementi isə insan kapitalının inkişafıdır. Gələcəyə baxdıqda biz "Şahdəniz"yatağının istismarını və "Cənub" qaz dəhlizinin inşasını alqışlayır və bu işi tamamilə dəstəkləyirik. Həqiqətən də "Cənub" qaz dəhlizi Avropa İttifaqının qaz bazarının şaxələndirilməsində mühüm rol oynayacaq və bununla da qitənin enerji təhlükəsizliyini artıracaq. Onun tikintisi dünyada ən iri və ən mürəkkəb infrastruktur layihəsi olacaq. Lakin onun əhəmiyyətini qiymətləndirməyə bilmərik. Tikinti zamanı və təhvil verildikdən sonra belə bu dəhliz marşrut üzrə bütün ölkələr üçün çox faydalı olacaq.

Bu gün qeyd edə biləcəyimiz nailiyyətlər çoxdur. Ancaq bundan sonra da birlikdə daha böyük işlər görə bilərik. Sonda bir daha bütün iştirakçılara uğurlar arzu edirəm. Onlara və Azərbaycana uğurlar və firavanlıq diləyirəm.

***

**İtaliya Respublikasının iqtisadi inkişaf nazirinin müavini Klaudio de VİNSENTİ çıxış edərək dedi:**

– Zati-aliləri, cənab Prezident İlham Əliyev.

Xanımlar və cənablar.

Mən çox məmnunam ki, bu gün "Əsrin müqaviləsi"nin 20 illiyinə həsr edilmiş bu mötəbər mərasimdə iştirak edirəm. Mənim üçün böyük şərəfdir ki, bu gün bu mühüm məqamda Sizinlə bir yerdəyəm. Bu, enerji sərvətlərinin hasilatı baxımından çox əhəmiyyətli bir tədbirdir. Bu, 20 il ərzində həyata keçirilmiş əməkdaşlığın təntənəsidir. Burada Azərbaycanın bir sıra neft şirkətləri ilə 1994-cü ildə imzaladığı "Əsrin müqaviləsi"ndən söhbət gedir. Bu müqavilə həm Azərbaycanın beynəlxalq əməkdaşlıq baxımından inkişafını təmin edib, eyni zamanda, ölkəyə külli miqdara xarici sərmayə cəlb edib. Bu baxımdan "Cənub" qaz dəhlizi heç şübhəsiz ki, "Əsrin müqaviləsi"nin qaz baxımından təkamülü olub.

Bu fürsətdən istifadə edərək ölkəmizin oynadığı rolu vurğulamaq istəyirəm. İlk gündən İtaliya TAP layihəsini dəstəkləyib və onun həyata keçirilməsi üçün beynəlxalq əməkdaşlığı təşviq edib. Çox şadam ki, bu gün rəsmi olaraq elan edə bilərəm: İtaliya hökuməti TAP layihəsinə razılığını verib və 2015-ci ildə bu layihə reallaşacaq. İtaliya hökuməti qərar qəbul edib ki, TAP layihəsi bizim ölkənin inkişafı üçün beş prioritet layihə sırasındadır. Bununla da əminəm ki, icra ilə bağlı bütün tədbirlər uğurla həyata keçiriləcək.

Zənnimcə, TAP layihəsinin Avropa və İtaliya üçün qaz nəqlinin şaxələndirilməsi baxımından çox mühüm əhəmiyyəti var. Bu, bizim enerji strategiyamızın tərkib hissəsidir. Bu, bizə imkan verəcək ki, xüsusilə neft sahəsində təhlükəsizliyi və etibarlılığı təmin edək. Bu səbəbdən də Avropa ölkəsi olan İtaliya hökuməti TAP layihəsinin həyata keçirilməsinə öz sadiqliyini vurğulayır. Çünki şaxələndirmə və yeni tranzit marşrutları bizim enerji təhlükəsizliyimiz baxımından çox vacib bir məsələdir. Bu, ötən ilin iyun ayında da Avropa İttifaqının Şurası tərəfindən vurğulanıb.

Bundan əlavə bu, təkcə Cənubi Avropanın enerji şaxələndirilməsinə xidmət etməyəcək. Burada Balkan regionlarının enerji təhlükəsizliyi təmin ediləcək. Xüsusilə də digər qonşu ölkələr də bu layihəyə qoşularaq TAP layihəsinin əhəmiyyətini daha da artıracaq və Balkan regionunda olan dövlətlərə müvafiq mənfəət verəcək. Bununla bağlı Monteneqronun Baş naziri artıq öz fikirlərini söylədi.

Vurğulamaq istərdim ki, Avropa İttifaqı Komissiyası tərəfindən TAP layihəsi də vahid maraq kəsb edən layihələr sırasına daxil edilib. Bununla da müvafiq lisenziyaların verilməsi ilə bağlı proses sürətləndiriləcək və müvafiq maliyyə dəstəyi göstəriləcək. Dediyim kimi, İtaliya TAP layihəsinin həyata keçirilməsində öz texniki təcrübəsini təqdim etməyə hazırdır ki, bu təcrübə nəticəsində işlər sürətlə və keyfiyyətlə görülə bilsin.

Sonda cənab Prezident, xanımlar və cənablar, bir daha vurğulamaq istərdim ki, bu gün mənim burada iştirakım İtaliya hökumətinin bu strateji layihəni nə dərəcədə dəstəklədiyinin göstəricisidir. Bu, həm də bizim üçün bir stimul olacaqdır ki, enerji tələbatımızı ödəyək və gələcəkdə enerji qovşağı rolunu oynaya bilək.

Cənab Prezident, bu şərəfi mənə verdiyinizə və buraya dəvət edildiyimə görə bir daha təşəkkür edirəm. Diqqətinizə görə çox sağ olun.

***

**Amerika Birləşmiş Ştatları Dövlət Departamentinin beynəlxalq enerji məsələləri üzrə xüsusi nümayəndəsi Amos HOKSTAYN çıxış edərək dedi:**

– Cənab Prezident İlham Əliyev.

Hörmətli nazirlər, xanımlar və cənablar.

Bugünkü tədbirdə iştirakımdan qürur duyuram. Bu gün biz "Əsrin müqaviləsi"nin – "Azəri–Çıraq–Günəşli" neft yataqları bloku üzrə hasilatın pay bölgüsü kontraktının imzalanmasının 20 illiyini qeyd edirik. "Əsrin müqaviləsi" həqiqətən də tarixi hadisə olub. Bu layihə ötən 20 il ərzində zamanın sınağından keçib. Biz fəxr edirik ki, "Bakı–Tbilisi–Ceyhan" layihəsinin inkişafı və həyata keçirilməsi istiqamətində Azərbaycana mühüm dəstək vermişik. Sabiq Prezident Klintondan Prezident Obamaya qədər hər bir ABŞ Prezidenti bu layihənin qəti tərəfdarı olub.

Bu gün biz 20 il bundan öncə başladığımız mərhələni başa çatdırırıq. O zaman biz XX əsrin müqaviləsini imzaladıq. Bu gün Xəzər dənizindən Avropaya qaz nəql edəcək yeni layihənin təməlqoyma mərasimində iştirak edirik. Bununla da biz XXI əsrin monumental əhəmiyyətə malik yeni layihəsinin başlanğıcını qeyd edirik.

Bu tədbir çox münasib vaxtda təşkil edilib. Bizə bir daha xatırladılır ki, dövlətlər enerji təhlükəsizliyi ilə bağlı fundamental hüquqa malikdirlər və dünyada heç bir ölkə yeganə enerji mənbəyindən asılı olmaq məcburiyyətində qalmamalıdır. Burada çıxış yollarından biri şaxələndirmədir - mənbələrin, yanacaq növlərinin və ixrac marşrutlarının şaxələndirilməsi.

"Bakı–Tbilisi–Ceyhan" layihəsinin başa çatdırılması, Cənubi Qafqaz kəmərinin genişləndirilməsi, TANAP və TAP boru kəmərlərinin inşası nəticəsində Azərbaycan Avropanın enerji təchizatının şaxələndirilməsi məsələsində getdikcə artan vacib rol oynayacaq. Azərbaycan Prezidentinin dediyi kimi, bu dəhlizin açılışı Avropanın enerji xəritəsini dəyişib. Digər natiqlərin dediyi kimi, burada söhbət yalnız TAP-ın üç ölkəsindən getmir. Bu layihə Bolqarıstanı, daha sonra isə Balkanları, yəni Monteneqro və Xorvatiyanı, oradan isə Macarıstanı və Ukraynanı əhatə edə biləcək.

İyirmi il öncə "Bakı–Tbilisi–Ceyhan" kəmərinin inşa ediləcəyinə inanmayanlar var idi. Son ildə "Cənub" qaz dəhlizinə skeptik yanaşanlar da var idi. Lakin biz bir şeyə əmin ola bilərik ki, skeptiklər heç vaxt qalib olmur və heç nəyə nail olmurlar. Azərbaycan xalqının iradəsi, ABŞ, Türkiyə və Avropadan olan tərəfdaşların əzmkarlığı skeptiklər üzərində qalib gəldi. Artıq yeni mərhələnin başlanğıcındayıq və bunun təsiri regionda, Avropada və Şərqi Aralıq dənizi hövzəsində hiss ediləcək.

Azərbaycan ilə bizim enerji tərəfdaşlığımız güclüdür və yeni layihələr meydana çıxdıqca daha da güclənəcək. İyun ayında Prezident Obama məktubunda dediyi kimi, bu layihənin icrası Avropanın qaz təchizatının genişləndirilməsi baxımından mühüm addımdır və ABŞ onu dəstəkləməyə hazırdır.

Təəssüflər olsun ki, dövlət katibi Con Kerri tədbirdə şəxsən iştirak edə bilmədi. Ancaq məndən xahiş edilib ki, bu tarixi hadisə ilə bağlı Prezident İlham Əliyevə ünvanlanmış məktubu diqqətinizə çatdırım:

"Hörmətli Prezident Əliyev. "Əsrin müqaviləsi"nin 20 illiyi və "Cənub" qaz dəhlizinin təməlinin qoyulması ilə bağlı Azərbaycan xalqına səmimi təbriklərimi bildirirəm. Bu tarixi hadisə keçmiş Sovet İttifaqında ilk böyük Qərb sərmayəsi olub. Son 20 il ərzində ABŞ enerji ehtiyatlarının istismarı, Avropa və dünya enerji təchizatına töhfə, güclü və müstəqil dövlətə çevrilməsi istiqamətində Azərbaycanın əsl mənada tərəfdaşı olub. "Bakı–Tbilisi–Ceyhan" kəmərinin inşası ilə yanaşı, Azərbaycan Xəzər və Aralıq dənizləri arasında birbaşa əlaqə yaradaraq dünya bazarında mühüm neft təchizatçısına çevrilib.

Azərbaycan "Cənub" qaz dəhlizi vasitəsilə Avropa bazarlarının əlavə enerji təchizatı marşrutlarında və regionun enerji təhlükəsizliyinin möhkəmlənməsində mühüm rol oynayıb.

Son 20 il ərzində Azərbaycan və ABŞ bir yerdə böyük işlər görüblər. "Əsrin müqaviləsi" gələcək naminə səylərimizi birləşdirərək mühüm layihələrə nail ola biləcəyimizi nümayiş etdirdi. Bu, digər sahələr üzrə də belədir: enerji təchizatının davam etdirilməsindən Şərq-Qərb ticarət dəhlizinin yaradılmasına, terrorçuluqla mübarizədən Azərbaycanda demokratik inkişafın davam etdirilməsinədək.

Azərbaycan 96 il öncə universal dəyərlərə sadiqliyini ifadə edən ilk müsəlman ölkəsi kimi insan hüquqları və fundamental azadlıqların təmin edilməsində xalqın və hökumətin nümayiş etdirdiyi lider rolunu yenidən üzərinə götürüb. Əlaqələrimizin üç sütunu - təhlükəsizlik, enerji və iqtisadi inkişaf, demokratiya və vətəndaş cəmiyyəti daha sadiq və daha firavan Azərbaycan ilə bağlı baxış üçün eyni dərəcədə əhəmiyyətlidir.

ABŞ bu məqsədlərə nail olmaq üçün Sizinlə və Sizin hökumətinizlə yaxından əməkdaşlıq etməyə hazırdır. Bu mühüm hadisənin ildönümü ilə əlaqədar Sizə bir daha ən səmimi təbriklərimi çatdırıram.

Səmimiyyətlə, Con Kerri".

Cənab Prezident, cənab Kerrinin beynəlxalq enerji məsələləri üzrə xüsusi elçisi qismində burada olmağımdan qürur duyuram. Məndən əvvəlki həmkarlarım kimi, mən də gözəl ənənəni davam edərək "Cənub" qaz dəhlizinin inkişafı ilə bağlı əlimdən gələni etməyə hazıram. Enerji təhlükəsizliyi Azərbaycan, Türkiyə və Avropa üçün mühüm maraq kəsb edir və bu mövzu ABŞ-ın milli təhlükəsizlik maraqlarına uyğundur.

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra enerji sahəsində lider olub. Əminəm ki, Siz bundan sonra da bu işləri cəsarət və əzmkarlıqla, açıq, ədalətli və şəffaf şəkildə davam etdirəcəksiniz. Firavanlığın təmin edilməsində ABŞ Sizin yanınızda olacaq.

Bir daha təbrik edirəm.

***

**"BP" şirkətinin baş icraçı direktoru Robert DADLİ çıxış edərək dedi:**

– Cənab Prezident, Zati-aliləri.

Baş Nazirlər.

Möhtərəm qonaqlar və həmkarlar.

Sabahınız xeyir olsun, təbrik edirəm. Bu gün Azərbaycan və enerji sektoru üçün əlamətdar bir gündür. Burada 1994-cü ildən indiyədək son dərəcədə böyük nailiyyətlər əldə olunub. Buna görə də mən Prezident Əliyevə və onun hökumətinə dərin minnətdarlığımı

bildirmək istəyirəm. Mən, həmçinin Rövnəq Abdulayevə və onun ARDNŞ-dəki heyətinə və bu gün burada iştirak edən bütün tərəfdaşlara da minnətdarlığımı bildirirəm.

Biz birlikdə tərəfdaşlığın nəyə qadir olduğunu nümayiş etdiririk. Bugünkü tarix sadəcə bir müqavilənin imzalanmasının ildönümü deyil. Bu, həm də Azərbaycanın neft sənayesinin dirçəlişində əlamətdar bir gündür. Bu il mənim dünyanın enerji sənayesini təmsil edən çoxsaylı insanların qarşısında çıxış etmək imkanım oldu. Mən həmin çıxışımda bildirdim ki, əksər insanlar müasir neft sənayesinin başlanğıcını 1859-cu ildə Pensilvaniyada qazılmış neft quyusu ilə əlaqələndirirlər. Lakin qeyd etdim ki, neft quyusu ilk dəfə 1848-ci ildə Azərbaycanda qazılıb. Odlar yurdu Azərbaycan həqiqətən də neft və qaz sənayesinin beşiyidir və 1994-cü ildə ölkə həmin sənayenin yenidən dirçəlişinin şahidi oldu. Həmin vaxt imzalanan kontrakt haqlı olaraq "Əsrin müqaviləsi" adlandırıldı. Altı müxtəlif ölkədən olan 11 şirkət ARDNŞ ilə bir araya gələrək ölkənin enerji sektorunda çıxdığı uzaq yolda yeni mərhələnin başlanğıcını qoydu. Bu yolda Azərbaycanın təbii ehtiyatlarının "Bakı–Tbilisi–Ceyhan" vasitəsilə beynəlxalq bazarlara nəqli mümkün oldu. Bakıdan başlanan bu kəmər Gürcüstan ərazisindən keçərək Ceyhana qədər uzanır və Bosfor vasitəsilə 1 milyon barel neftin nəql edilməsi zərurətini aradan qaldırır. Dünyanın başqa yerində bu məsafə Hyustondan Çikaqoyadək və ya Londondan Madridədək olan məsafə qədərdir. Bu proqram çərçivəsində 2,5 milyard barel neft hasil olunub və təxminən 30 milyard dollar dəyərində sərmayə yatırılıb.

Burada üç əsas məqamı qeyd etmək istəyirəm. Ən əhəmiyyətli amil buraya cəlb olunmuş insanlardır. Bu, həqiqətən də dünyanın müxtəlif yerlərindəki minlərlə əzmkar insanın əməyi olan beynəlxalq bir səydir. Lakin işin əsas hissəsi burada azərbaycanlı işçilər tərəfindən həyata keçirilib.

Sizi burada salamlayıram. Əminəm ki, bu gün əməyinizin nəticəsini görürsünüz. Bir çox insanlar dərk etmir, amma Səngəçal terminalı həqiqətən də dünyada ən nəhəng neft terminalıdır. Bu tərəfdaşlığın uğurlu olmasına gətirən ikinci səbəb Azərbaycanın təchiz etdiyi enerjinin strateji əhəmiyyət daşımasıdır. Enerji təchizatına son dərəcə böyük tələbat var və biz təbii sərvətlərlə zəngin olan qapalı hövzədən dünya bazarlarına tam yeni bir marşrut açdıq. Bu gün biz yalnız geriyə nəzər salaraq ötən 20 ili qeyd etmirik. Həm də irəliyə baxaraq Azərbaycanın enerji tarixinə yeni səhifə açırıq. Biz Xəzər dənizindəki nəhəng "Şahdəniz"yatağından hasil olunan qazı Gürcüstan, Türkiyə, Yunanıstan, Bolqarıstan Albaniya, İtaliya və digər ölkələrə nəql edəcəyik.

Bu mərasimdən sonra möhtərəm Prezident bizimlə birgə Səngəçal terminalında "Cənub" qaz dəhlizinin rəsmi təməlqoyma mərasimində iştirak edəcək. Biz birlikdə 3600 kilometr məsafədə uzanacaq, yəni "Bakı–Tbilisi–Ceyhan" boru kəmərinin uzunluğundan iki dəfə uzun olacaq boru kəməri sisteminin ilk mərhələsinin təməlini qoymağa

gedirik. On illərlə davam edəcək 45 milyard dollar dəyərində olan bu layihə milyonlarla istehlakçıya xidmət edəcək və minlərlə iş yerinin açılmasına səbəb olacaq. İnnovasiya uğurun üçüncü şərtidir. Bu, ənənələrə söykənən investisiya ola bilər. Lakin eyni zamanda, texnologiya baxımından zamanı qabaqlayıb. Biz "Çıraq" platformasından 6 kilometr məsafəyə bir quyu qazmaqla uzaq məsafəyə maili qazma texnologiyasının nəyə qadir ola biləcəyini nümayiş etdirdik. "Şahdəniz"hazırda bir çox texnologiyalar sayəsində aparıcı kimi "Azəri-Çıraq-Günəşli" layihəsinin addımladığı yolu izləməyə hazırdır.

Cənab Prezident, enerji sahəsi böyük qayğı, əzmkarlıq və səbir tələb edən uzunmüddətli bir sahədir. İndi biz daha uzun illər davam edəcək hasilat üçün gələcəyə baxa bilərik. Bununla yanaşı, biz "Şahdəniz"yatağında hasilatın pay bölgüsü haqqında müqavilənin müddətini 2048-ci ilə qədər uzatmışıq. Bu, həqiqətən də uzun müddətdir. Bu gün biz 20 illiyi qeyd edirik. Lakin 2048-ci ildə dünyada ilk neft quyusunun Azərbaycanda qazılmasının 200 ili tamam olacaq. Tədbirlər günbəgün, ilbəil bir-birini əvəz edir. Lakin iri layihələr, möhtəşəm texnologiyalar və yüksək ixtisaslı və əzmkar insanların əməyi qalır.

Fürsətdən istifadə edərək bu işə özünü həsr etmiş və "Azəri–Çıraq–Günəşli"nin 20 illik uğurlu tarixçəsinə töhfə vermiş bütün insanlara təşəkkürümü bildirirəm. "BP" şirkəti bu uzunmüddətli layihənin bir hissəsi olmaqdan çox qürur duyur. Ümid edirəm ki, biz hamımız qarşıdan gələn uzun illər boyunca birgə əməkdaşlığımızı davam etdirəcəyik. Hamınıza təşəkkür edirəm.

Cənab Prezident, bir daha sağ olun. Gəlin, bu mühüm gündən həzz alaq.

***

**Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti Rövnəq ABDULLAYEV çıxış edərək dedi:**

– Möhtərəm cənab Prezident, Zati-aliləri.

Hörmətli xanımlar və cənablar.

Hamınızı salamlayıram. Azərbaycan Prezidenti dünən neftçilərin böyük bir qrupunu yüksək dövlət təltiflərinə layiq görüb. Bu, möhtərəm Prezidentimizin neftçilərə göstərdiyi daimi diqqət və qayğısının növbəti təzahürüdür. Mən neftçilər adından, tərəfdaş şirkətlər adından Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə dərin minnətdarlığımızı bildirirəm.

Azərbaycanın qədim neft tarixi var. Neftin sənaye üsulu ilə çıxarılmasının, tankerlər, dəmir yolu, boru kəməri ilə nəql edilməsinin, ofşor qazmasının erasının əsası Azərbaycanda qoyulub.

XX əsrin əvvəllərində dünyada hasil edilən neftin yarısını Azərbaycan neftçiləri çıxarırdı. 1990-cı illərdə isə şirkətimiz "Əsrin müqaviləsi" üzrə öz işlək payını belə ödəyə bilmirdi. Ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulan və möhtərəm Prezidentimiz İlham Əliyev cənablarının rəhbərliyi ilə uğurla davam etdirilən enerji strategiyası nəticəsində Azərbaycan böyük yüksəliş yoluna qədəm qoydu və ötən 20 ildə ölkənin siması dəyişdirildi, iqtisadiyyatı şaxələndirildi, neftdən gələn gəlirlər insan kapitalına çevrildi, SOCAR-ın imkanları genişləndi.

Bu gün "Cənub" qaz dəhlizinin təməli qoyulur. Bu layihə Avropanın enerji təhlükəsizliyinə yönəlib. Biz dünyanın ən böyük, eyni zamanda, ən mürəkkəb qaz-kondensat yataqlarından biri olan "Şahdəniz"yatağının işlənilməsini uğurla həyata keçiririk. İşlənilmənin ikinci mərhələsində tərəfdaşlarımızla birlikdə "Cənubi Qafqaz" boru kəmərini genişləndirəcək, TANAP və TAP kimi nəhəng qaz kəmərlərini inşa edəcəyik. Bu layihələrə 45 milyard ABŞ dolları məbləğində sərmayə qoyulacaq.

SOCAR artıq dünyanın neft-qaz bazarına inamla daxil olmuşdur. Biz bu gün "Cənub" qaz dəhlizi marşrutu boyunca böyük investisiya layihələri həyata keçiririk. Bu ölkələrin bəzilərində isə ən iri sərmayəçiyik. Qazanılmış nailiyyətlər də təsdiq edir ki, bu inkişaf davamlı olacaq, neftçilərimiz XXI əsrin layihələrini də vaxtında və yüksək keyfiyyətlə yerinə yetirəcəklər. 2018-ci ildə Azərbaycan qazı Türkiyəyə, 2019-cu ildə isə Avropaya çatdırılacaq. 2020-ci ildə isə biz bir böyük Avropa ailəsi kimi Bakıda möhtəşəm futbol bayramını birlikdə qeyd edəcəyik. Diqqətinizə görə sağ olun.

***

Sonra Azərbaycanın təşəbbüsü ilə reallaşan enerji layihələrindən bəhs edən videoçarx nümayiş etdirildi.

***

Daha sonra dövlət və hökumət başçıları, digər rəsmi şəxslər "Cənub" qaz dəhlizinin təməlinin qoyulması mərasimində iştirak etmək üçün Səngəçal terminalına yollandılar.

Azərbaycan Prezidenti İlham Əliyev və təməlqoyma mərasiminin digər iştirakçıları rəmzi olaraq xüsusi qəliblərin üzərində əl izlərini qoydular.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev, Gürcüstanın Baş naziri İrakli Qaribaşvili, Türkiyənin energetika və təbii sərvətlər naziri Taner Yıldız, Yunanıstanın Baş naziri Antonis Samaras, Bolqarıstan Prezidenti Rosen Plevneliev, Albaniyanın energetika naziri Damian Giknuri, İtaliyanın iqtisadi inkişaf nazirinin müavini Klaudio de Vinsenti,

Monteneqronun Baş naziri Milo Cukanoviç, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının ticarət və investisiyalar naziri Lord Livinqston, ABŞ Dövlət Departamentinin beynəlxalq enerji məsələləri üzrə xüsusi nümayəndəsi Amos Hokstayn, "BP" şirkətinin baş icraçı direktoru Robert Dadli, Azərbaycanın energetika naziri Natiq Əliyev və ARDNŞ-in prezidenti Rövnəq Abdullayev "Cənub" qaz dəhlizinin təməlinə qoyulacaq ilk borunu imzaladılar.

Daha sonra "Cənub" qaz dəhlizinin təməli qoyuldu.

Sonda dövlət və hökumət başçıları, digər qonaqlar xatirə şəkli çəkdirdilər.

*Xalq qəzeti.-2014.- 21 sentyabr.-№ 206.-S.1-4*

## PREZİDENT İLHAM ƏLİYEV BAKIDA CƏNUB QAZ DƏHLİZİ MƏŞVƏRƏT ŞURASI ÇƏRÇİVƏSİNDƏ NAZİRLƏRİN GÖRÜŞÜNDƏ İŞTİRAK EDİB

*12 fevral 1915-ci il*

Fevralın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakıda Cənub qaz dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin görüşündə iştirak edib.

Dövlətimizin başçısı Məşvərət Şurasının ilk iclasında nitq söylədi.

### AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

– Xanımlar və cənablar, aziz dostlar.

Əvvəlcə sizin hamınızı Azərbaycanda salamlamaq istərdim. Bu gün biz Cənub qaz dəhlizi Məşvərət Şurasının ilk toplantısını keçiririk. Fürsətdən istifadə edib ölkələrinizin rəhbərliyinə Bakıda bu görüşün keçirilməsi təşəbbüsümüzə verdikləri dəstəyə görə təşəkkürümü çatdırmağınızı xahiş edirəm. Bu görüşün keçirilməsi üçün çox münasib bir vaxtdır. Çünki bu il "Cənub" qaz dəhlizi layihəsinin praktiki olaraq həyata keçirilməsi başlayır. Bu layihə bizi birləşdirir və onunla bağlı əlavə əlaqələndirmə, fikir mübadiləsi lazımdır. Əminəm ki, bugünkü görüş ərzində fikir mübadiləsi, müzakirələr bu layihənin uğurla həyata keçirilməsinə töhfə verəcəkdir.

Azərbaycan dünyada neft hasil edən ilk ölkə kimi tanınır. Bu, XIX əsrin ortalarında baş verdi. Eyni zamanda, XX əsrin ortalarında dənizdə neft hasil edən ilk ölkə də Azərbaycandır. Bu səbəbdən Azərbaycanın neft sənayesinin tarixi çox zəngindir. Onu da bildirmək istəyirəm ki, İkinci Dünya müharibəsində Azərbaycanda istehsal olunan neft Sovet İttifaqının hasil etdiyi neftin 80 faizini təşkil edirdi. Azərbaycan neftçiləri faşizm üzərində Qələbənin əldə edilməsinə böyük töhfə veriblər. Ola bilsin ki, Azərbaycan nefti olmasaydı, İkinci Dünya müharibəsinin nəticələri başqa cür olardı.

Lakin Sovet İttifaqının süqutu zamanı neft sənayesindəki vəziyyət ürəkaçan deyildi. Quruda olan yataqlar əsasən tükənmişdi. 1991-ci ildə Azərbaycan müstəqilliyini bərpa

etdikdə neft sənayesi böhran içərisində idi. Nəinki neft sənayesi, bütövlükdə biz ciddi hərbi, siyasi, iqtisadi böhranla üzləşdik. Vətəndaş müharibəsi, Ermənistanın işğalı baş verdi. Nəhəng neft yataqlarımızın işlənməsi üçün nə maliyyə ehtiyatlarımız, nə də ki texniki imkanlarımız vardı.

Yalnız Heydər Əliyev 1993-cü ildə Prezident seçildikdən sonra vəziyyət sabitləşdi, vətəndaş müharibəsi dayandı, biz islahatlara başladıq. İslahatların mühüm elementlərindən biri Azərbaycanı dünyaya açıq etmək idi. Biz xarici sərmayələri cəlb etməyə başladıq və Azərbaycanda çox yaxşı sərmayə mühitini yaratdıq. Bu fakt sayəsində Azərbaycanın indiki iqtisadiyyatı davamlıdır, sabitdir. Birbaşa xarici sərmayələrin adambaşına olan həcminə görə Azərbaycan keçmiş sovet məkanında aparıcı yerdədir.

1994-cü il Azərbaycanın yeni enerji strategiyasının başlanğıc ili idi. Hökumətimiz ilə dünyanın əsas neft şirkətləri konsorsiumu arasında müqavilə imzalandı. 1994-cü ildə imzalanan müqavilə dərhal "Əsrin müqaviləsi" adını aldı. Bu, sərmayələrin həcmi və resurs əsası kimi götürülən "Azəri–Çıraq–Günəşli" yatağının dünyadakı ən böyük neft yataqlarından biri olması faktı ilə bağlı idi. İyirmi ildən çoxdur ki, həmin yataq işlənilir və ölkəmizdə neft hasilatının əsas özəyi hesab olunur. Buna görə də 1994-cü il enerji strategiyasının başlanğıc ili oldu. Beləliklə, Xəzər dənizi ilk dəfə olaraq xarici sərmayələr üçün açıq elan edildi.

Lakin Azərbaycanın açıq dənizə çıxışı olmayan ölkə olduğunu nəzərə alaraq bizim neftimizi nəql etmək üçün boru kəmərləri şəbəkəsinə ehtiyacımız var idi. Birmənalı olaraq, Azərbaycan, Gürcüstan və Türkiyə arasında regional əməkdaşlığa əsaslanan əlaqələndirilmiş səylər beynəlxalq bazarlara neft və qazın nəqli üçün başlanğıc mərhələdə müasir boru kəmərləri sistemini mümkün etdi.

Azərbaycanın enerji siyasətinin həyata keçirilməsində bu gün haqqında danışdığımız Cənub qaz dəhlizi üçün vacib olan vəziyyəti mümkün edən bir neçə mühüm mərhələləri sizə xatırlatmaq istərdim. Çünki "Cənub" qaz dəhlizi layihəsi burada – Azərbaycanda son 20 il ərzində tərəfdaşlarımızla apardığımız işə əsaslanır. 1996-cı ildə Azərbaycanla "BP"nin rəhbərlik etdiyi xarici şirkətlər konsorsiumu arasında "Şahdəniz"yatağına dair saziş imzalandı. "Şahdəniz"qaz yatağı Cənub qaz dəhlizi üçün ən mühüm resurs bazasıdır. 1997-ci ildə "Çıraq" platformasında ilk neft hasil edildi. Bu, ola bilsin ki, neft sənayesi tarixində rekord idi. Yəni, müqavilənin imzalanması ilə ilk neftin hasil edilməsi arasında vaxt fərqi cəmi üç il oldu. 1999-cu ildə Xəzər dənizi ilə Qara dənizi birləşdirən Bakı-Supsa boru kəməri çəkilmişdir. Beləliklə, Azərbaycan nefti Gürcüstanın Qara dənizdəki Supsa limanına nəql edilməyə başlandı. Bu, şaxələndirilmənin vacib elementi idi. İlk dəfə olaraq Qara dənizlə Xəzər dənizi xam nefti nəql edən boru kəməri ilə birləşdi. 2006-cı ildə "Bakı–Tbilisi–Ceyhan" neft boru kəməri istismara verildi. Xəzər və Aralıq dənizləri

ilk dəfə olaraq boru kəməri ilə birləşdi. 2007-ci ildə Bakı, Tbilisi və Türkiyənin Ərzurum şəhərini birləşdirən Cənubi Qafqaz qaz kəməri çəkildi.

Bütün bu mühüm mərhələlər Azərbaycanın enerji siyasətinin həyata keçirilməsində olduqca əhəmiyyətli idi. Biz Gürcüstan və Türkiyədəki tərəfdaşlarımızla birgə qarşımızda duran bütün məqsədlərə və hədəflərə nail olduq. Bu, həmçinin məhsuldar regional əməkdaşlığın gözəl nümunəsi idi. Bu halda bir-birini dəstəkləyən və bir-biri ilə əməkdaşlıq edən üç ölkə çox iddialı məqsədlərə nail oldu. Lakin bu, demək lazımdır ki, planlarımızın yalnız başlanğıcı idi. Çünki nəhəng "Şahdəniz"yatağı və Azərbaycanın digər qaz yataqları təbii qazı Azərbaycandan beynəlxalq bazara nəql edəcək Cənub qaz dəhlizinin çəkilməsinin zəruriliyini diktə edirdi. Bu layihənin də həyata keçirilməsində mühüm mərhələlər var. 2011-ci ildə mənimlə Avropa Komissiyasının sədri cənab Barrozu arasında Bakıda Cənub qaz dəhlizi haqqında Birgə Bəyannamə imzalandı. Bu sənəddə Azərbaycan Cənub qaz dəhlizinə əsas töhfə verən və həyata keçirən ölkə kimi göstərilir.

2012-ci ildə TransAnadolu – TANAP qaz boru kəmərinin tikintisi ilə əlaqədar Azərbaycan ilə Türkiyə arasında saziş imzalandı. Bu saziş Cənub qaz dəhlizinin həyata keçirilməsində mühüm rol oynadı. Çünki Azərbaycan qazının nəql edilməsində əsas olacaq layihənin uzun illər ərzində müzakirəsi zamanı bizim tərəfimizdən TANAP layihəsi təqdim edildi, dərhal bütün tərəfdaşlarımızın güclü dəstəyini qazandıq. Bir sözlə, TANAP Cənub qaz dəhlizinin həyata keçirilməsində mühüm yer tutur. Siz yəqin ki, bilirsiniz, artıq TANAP-ın praktiki həyata keçirilməsinə başlanıb. 2013-cü ildə TransAdriatik boru kəməri Avropaya əsas ixrac marşrutu kimi seçildi və 2014-cü il sentyabrın 20-də isə Cənub qaz dəhlizinin təməlqoyma mərasimi burada - Bakıda keçirildi. Bu, 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi"nin imzalanmasından düz 20 il sonra baş verdi. Bu, görülmüş işlərin qısa tarixçəsi idi. Buna görə bir daha demək istəyirəm ki, artıq Azərbaycanda və qonşuluqda yaradılan həmin mühüm elementlər olmadan bu gün "Cənub" qaz dəhlizi layihəsi yalnız yaxşı bir ideya və ya istək kimi səslənərdi. Lakin bu gün bu layihə artıq həyata keçirilmə mərhələsində olan layihədir.

Qeyd etmək istəyirəm ki, Dövlət Neft Şirkəti ilə əsas investorumuz olan "BP" arasında tərəfdaşlıq neft-qaz layihələrimizin həyata keçirilməsində olduqca mühüm rol oynadı. Artıq 20 ildir ki, bu tərəfdaşlıq davam edir və gələn illərdə də davam edəcək.

Bir daha deyim ki, Cənub qaz dəhlizi üçün resurs bazası "BP"-nin əməliyyatçı olduğu "Şahdəniz"yatağıdır. "Şahdəniz"dən başqa digər nəhəng qaz yataqlarını da götürsək, – yeri gəlmişkən, hesablamalarımıza görə Azərbaycanın təsdiqlənmiş qaz ehtiyatları 2,5 trilyon kubmetrdən çoxdur, - "Abşeron", "Ümid" və digər yataqlar "Cənub" qaz dəhlizi layihəsinə birmənalı olaraq töhfə verəcək. Çox güman ki, bu gün proqnozlaşdırdığımız rəqəmləri üstələyən daha çox hasilatımız və ixracımız olacaq.

Əməkdaşlığımızın vacib elementi, əlbəttə ki, səylərimizin əlaqələndirilməsidir. Fikrimcə, Məşvərət Şurasının bu gün keçirilən toplantısı bu məqsədi daşıyacaq. Görülmüş və planlaşdırılmış işlər barədə təqdimat olacaq. Lakin bu layihədə iştirak edən bütün ölkələr və şirkətlər arasında əlaqələndirmə və səmərəli ünsiyyət uğurun əsas ilkin şərtlərindən biri olacaq. Əvvəlcə olduğu kimi, Gürcüstan, Türkiyə və Azərbaycan arasında aparılmış üçtərəfli əməkdaşlığa bənzər qaydada işləməliyik. Həmin üçtərəfli əməkdaşlıq və yüksək səviyyədə olan qarşılıqlı etimad, dəstək artıq qeyd etdiyim layihəni həyata keçirməyə imkan yaratdı. Hazırda isə daha mürəkkəb vəziyyətdir. Çünki iştirakçıların və tərəflərin sayı çoxdur. Buna görə bizə maksimal səviyyədə qarşılıqlı etimad lazımdır və bir-birimizi dəstəkləməliyik. Hamımız bu layihənin həyata keçirilməsinə töhfə verməliyik ki, onu vaxtında icra edək.

Cənub qaz dəhlizi enerji təhlükəsizliyi layihəsidir. Bu, bizim üçün enerji təhlükəsizliyidir. Çünki Azərbaycan beynəlxalq bazarlara böyük həcmdə təbii qazı ixrac etmək imkanı qazanacaq. Bu, həm də istehlakçı və tranzit ölkələr üçün enerji təhlükəsizliyidir. Çünki bu gün enerji təhlükəsizliyinə istənilən ölkənin milli təhlükəsizliyindən ayrı baxıla bilməz. Enerji resursları nəinki çiçəklənmə, proqnozlaşdırma və sabitlik mənbəyi ola bilir, həmçinin bəzən rəqabət və düşmənçilik mənbəyinə də çevrilir. Fikrimizcə, bizim fəlsəfəmiz ondan ibarətdir ki, enerji resursları sabitliyə, proqnozlaşdırmaya, əməkdaşlığa və qarşılıqlı dəstəyə töhfə verməlidir. Əminəm ki, hasilatçı, tranzit və istehlakçı ölkələr üçün uduşlu vəziyyət, layihənin 3 komponenti arasındakı maraqlar balansı layihəmizin uğurla həyata keçirilməsinin başlıca səbəbi olacaq.

Enerji resurslarının şaxələndirilməsi hazırda beynəlxalq təşkilatların əsas arenasında müzakirə olunan məsələdir. Azərbaycan şaxələndirmədə öz rolunu oynayır. Şaxələndirmə haqqında danışanda biz yalnız marşrutların deyil, həm də mənbələrin şaxələndirilməsini nəzərdə tuturuq. Marşrutların da şaxələndirilməsi vacibdir, lakin mənbə eyni olanda vəziyyət çox dəyişmir. Mənbələrin şaxələndirilməsi vacibdir. Bu halda, Xəzər dənizində çıxan qaz - Azərbaycan qazı növbəti illər ərzində Avropa istehlakçıları üçün yeganə yeni qaz mənbəyi olacaq.

Əlbəttə ki, bu, tamamilə başqa vəziyyət yaradır. Bu gün qarşımızda ölkələrdən ibarət komanda var. Avropa Komissiyası güclü dəstəyini verir. Çox şadam ki, bugünkü görüşdə cənab Şefçoviç iştirak edir. Bu, planlarımızda nikbinliyi artırır. Çünki əminəm ki, bu layihənin həyata keçirilməsi məqsədilə nəzərdə tutduğumuz bütün məsələlər öz həllini tapacaq. Layihə vaxtında icra olunacaq və hamımız Cənub qaz dəhlizinin baş tutmasını qeyd edəcəyik. Lakin buna nail olmaq üçün əlaqələndirmə, qarşılıqlı etimad və bu prosesə qoşulmuş bütün ölkələr arasında sıx qarşılıqlı əlaqə lazımdır.

Bu gün bizimlə olduğunuza görə sizə bir daha minnətdarlığımı bildirirəm və Məşvərət Şurasına uğurlar arzulayıram. Sağ olun.

***

Azərbaycanın energetika naziri **Natiq ƏLİYEV** çıxış edərək dedi:

– Zati-aliləri, cənab Prezident.

Cənub qaz dəhlizi Məşvərət Şurasının üzvləri adından ilk iclasda iştirak etdiyinizə görə Sizə minnətdarlığımı bildirmək istəyirəm. Sağ olun.

Sizin nitqinizi yüksək dəyərləndiririk və dərin təşəkkürümüzü bildiririk. Hamımız bilirik ki, Azərbaycanın müasir neft tarixinə təsiriniz, "Cənub" qaz dəhlizi layihəsi istiqamətində aparılan işlərə verdiyiniz töhfə çox böyükdür. Buna görə, bizimlə olduğunuz üçün Sizə bir daha "Çox sağ olun" deyirik.

İcazənizlə, mən sözü Avropa Komissiyasının sədr müavini cənab Maroş Şefçoviçə vermək istəyirəm.

***

**Avropa Komissiyasının enerji birliyi üzrə sədr müavini Maroş ŞEFÇOVİÇ çıxış edərək dedi:**

– Zati-aliləri cənab Prezident.

Əvvəlcə gözəl Bakı şəhərinə, bu cür möhtəşəm iclas zalına səmimi dəvətinizə görə hamımızın adından Sizə minnətdarlığımı bildirmək istəyirəm. Açılış nitqinizdə böyük təəssürat bağışlayan tarixçəni xatırlatdığınıza görə minnətdarıq. Ən böyük təəssürat isə ondan ibarətdir ki, Siz heç vaxt nitqinizi kağızdan oxumursunuz. Siz bu tarixçəni əzbər bilirsiniz, çünki şəxsən iştirak etmisiniz. Siz ölkənizə, regionun gələcəyinə və bu layihəyə bağlısınız. İki ay əvvəl keçirdiyimiz görüş zamanı anladıq ki, keçmişdə buraxdığımız səhvləri öyrənməliyik. Həmin vaxt regionla bağlı olan böyük layihələr maddi formasını tapmadı, çünki kifayət qədər siyasi dəstək yox idi. Biz siyasi baxımdan bu məsələlərə kifayət qədər əhəmiyyət vermədik və əlaqələndirmə mexanizmi çatışmırdı. Bilirdim ki, belə miqyaslı layihə üçün problemlərin həllinə yönəlmiş yanaşmadan istifadə etməliyik. Bilirik ki, bu qədər təəssürat bağışlayan, belə bir əhəmiyyətə malik olan "Cənub" qaz dəhlizi kimi layihəni həyata keçirdikdə, əlbəttə ki, bir çox məsələlər həll olunmalı, onlar vaxtında, lazımi qaydada və konstruktiv yanaşma əsasında aradan qaldırılmalıdır. Bu səbəbdən deməliyəm ki, Xəzər qazının Avropaya çatdırılması bizim uzunmüddətli arzumuz idi. Lakin biz bunu hazırda nəinki düşünmürük, görülmüş işlər sayəsində bu layihəyə artıq yaxınıq.

Bildiyiniz kimi, mən Avropa İttifaqında enerji birliyinin qurulması ilə məşğulam. İstəyirik ki, bu layihə Avropa məkanında gözəçarpan keçid yaratsın. Müxtəlif nöqteyi-

nəzərdən götürsək, bu müzakirə siyasi gündəlikdə daha yüksək səviyyəyə qaldırılıb. Çünki bu məsələ Sizin də qeyd etdiyiniz kimi, enerji təhlükəsizliyi ilə bağlıdır. Səmimi desək, biz Avropa İttifaqında yayda yox, qışda nəyin baş verəcəyi haqqında düşünməkdən artıq yorulmuşuq. İnanırıq ki, Avropa kimi böyük iqtisadiyyata və etibarlı istehlakçıya xoş münasibət bəslənilməlidir. Onun ardı kəsilməyən qaz təchizatına hüququ olmalıdır. Buna görə də biz vəziyyətin yaxşılaşması üçün əlimizdən gələni etməliyik. Nail olmaq istədiyimiz həmin şaxələndirilmənin əsas vasitələrindən biri mənbələrin və resursların şaxələndirilməsidir.

Dediyiniz kimi, Cənub qaz dəhlizi Avropa istehlakçılarına yeni təchizat marşrutu ilə yeni qazı nəql edəcək birinci əsas layihədir. Bu gün Avropa İttifaqında apardığımız hesablamalara görə, istifadə etdiyimiz qazın 66 faizi, neftin isə 90 faizi idxal edilir. Gələcəkdə isə Avropa İttifaqına idxal etdiyimiz qazın həcmi 84 faiz, neftin həcmi isə 94 faiz olacaq. Yaxşı bilirsiniz ki, idxal edilən neft və qazın əsas hissəsi üç qonşumuzdan - Rusiya, Norveç və Əlcəzairdən daxil olur. Lakin onu da açıq söyləməliyik ki, Ukraynadakı hazırkı böhran vəziyyəti daha da mürəkkəbləşdirdi. Biz mütləq olaraq şaxələndirməni əvvəlkindən daha çox genişləndirməliyik. Elə indicə mən bolqar həmkarlarımızı salamladım, birinci gün Sofiyada onlarla görüş keçirdik. Bu toplantı şuranın qərarı ilə keçirildi. Çünki uzun illər ərzində müzakirə olunan ən iri layihələrdən biri olan "Cənub axını" layihəsinin təxirə salınması ilə bağlı qərar qəbul edilmişdir. Bu layihə baş tutmadı və bu baxımdan Cənub-Şərqi Avropanın həssaslığını göstərdi. Bu problemi biz həll etməliyik. Avropa İttifaqının üzvü olan bütün dövlətlərin enerji təhlükəsizliyinə, Avropa enerji sisteminə real inteqrasiyasını təmin etməliyik. Belə qərara gəldik ki, Avropanın cənub-şərq hissəsindəki üzv dövlətlərin ən azı üç müxtəlif enerji mənbələrinə çıxışına zəmanət verəcək tədbirlər planı iyunda hazırlansın. Bu halda şaxələndirmə və sabit enerji platforması haqqında danışmaq olar.

Əlbəttə ki, biz hazırda həyata keçirilən "Cənub" qaz dəhlizi layihəsinin uğuruna və tempinə böyük ümidlər bəsləyirik. Buna görə də hesab edirəm ki, bu layihə üçün Məşvərət Şurası ideyası əla ideyadır. Şadam ki, bu gün biz konsorsiumdakı biznes tərəfdaşlarımızla da konkret məsələləri müzakirə edəcəyik.

Çox şadam ki, Avropa Yenidənqurma və İnkişaf Bankının nümayəndəsi cənab Puliti buradadır. Digər təsisatlara - Avropa İnvestisiya Bankının, Dünya Bankının nümayəndələrinə də söz veriləcək. Çünki hesab edirəm ki, bu layihə digər beynəlxalq maliyyə təsisatları üçün də maraqlıdır. Ona görə ki, biz Avropa İttifaqı olaraq öz enerji qurğularımızı bu layihəyə qoşaraq onun müəyyən hissələrinə artıq dəstək vermişik.

Cənab Prezident, çıxışımın sonunda Sizə təşəbbüsünüzə və Bakıya səmimi dəvətinizə görə bir daha minnətdarlığımı bildirirəm. Fikrimcə, bugünkü görüşün ən yaxşı nəticəsi

yol xəritəsinin tərtibi ola bilər. Biz hansı işlərin görülməsini, hansı problemlərin olduğunu aydın şəkildə bilməliyik. Onları həll edə biləcəyikmi və nə vaxt həll edəcəyik? Cədvələ uyğun işləyəcəyik və proqnozlaşdırdığınız kimi, Xəzər qazını bu onilliyin sonuna qədər Avropada görəcəyik. Çox sağ olun.

***

Sonra Məşvərət Şurası öz işini davam etdirdi.

Azərbaycanın energetika naziri **Natiq ƏLİYEV** bir daha qonaqları salamladı və iclasın yüksək səviyyədə keçəcəyinə əminliyini bildirərək dedi:

– Biz bu gün buraya "Cənub" qaz dəhlizi layihəsinin həyata keçirilməsi ilə bağlı hazırkı vəziyyəti, çağırışları, məsələləri müzakirə etmək və müvafiq həll yollarını işləyib hazırlamaq üçün toplaşmışıq. Ötən illər 2011-ci ilin yanvarında imzalanmış Birgə Bəyannamə ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Avropa Komissiyasının sədri Joze Manuel Barrozu tərəfindən irəli sürülmüş "Cənub" qaz dəhlizi layihəsi üçün çox məhsuldar illər olmuşdur. Azərbaycan Prezidenti bugünkü açılış nitqində "Cənub" qaz dəhlizi layihəsinin reallaşmasına cəlb olunmuş bütün ölkələrin, o cümlədən Türkiyə, Gürcüstan, Avropa İttifaqının və aparıcı şirkətlərin xüsusi rolunu qeyd etdi.

Gəlin bir anlıq geriyə baxaq, görək biz bu günədək birlikdə nələrə nail olmuşuq? Qarşımızda hansı vəzifələr durur və nazirlər səviyyəsində bu məsələlərin həlli ilə bağlı nə kimi işlər görülə bilər?

Natiq Əliyev "Cənub" qaz dəhlizi layihəsi çərçivəsində görülən işlərdən danışdı, bu məsələdə Azərbaycanın tərəfdaş ölkələrlə uğurlu əməkdaşlıq etdiyini dedi, layihə ilə bağlı hazırlıq işlərinin uğurla həyata keçirildiyini diqqətə çatdıraraq bildirdi:

– Bizim məqsədimiz dəyişməz qalır. Məqsədimiz bütün bu infrastruktur layihəsinin nəzərdə tutulduğu kimi, 2019-cu ildə fəaliyyətə başlamasından ibarətdir. Bu, ölkələrimizin gələcək iqtisadi inkişafı, eyni zamanda, Avropanın enerji təhlükəsizliyi üçün də vacibdir. Artıq bizim əməkdaşlığımızın bəzi nümunələri mövcuddur. 2014-cü il sentyabrın 19-da Azərbaycan və Bolqarıstan prezidentləri tərəfindən Birgə Bəyannamə imzalanmış və bu Bəyannamədə Azərbaycan tərəfindən Bolqarıstanın, eləcə də Bolqarıstanın qaz şəbəkəsi vasitəsilə Avropa bazarlarına gedən boru kəmərlərinin Azərbaycan qazı ilə təchiz olunmasının önəmi öz əksini tapmışdır. Bolqarıstan tərəfi Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə "Bulgargas" arasında 2013-cü ilin sentyabrında imzalanmış və 2020-ci ildən başlayaraq 1 milyard kubmetr qazın Bolqarıstana çatdırılmasını nəzərdə tutan müqavilənin əhəmiyyətini xüsusi vurğulamışdır. 2014-cü il dekabrın 19-da Azərbaycan Respublikası və Albaniya Respublikası hökumətləri arasında Albaniya

üçün qazla bağlı baş planın işlənib hazırlanması sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanmışdır. Tərəflər Cənub-Şərqi Avropa regionu və ümumilikdə Avropa İttifaqı üçün strateji maraq doğuran TransAnadolu, TransAdriatik, İonAdriatik boru xətlərinin əhəmiyyətini qeyd etmişlər.

***

Sonra Türkiyənin energetika və təbii sərvətlər naziri **Taner YILDIZ** çıxış etdi. O, Cənub qaz dəhlizini Avropa İttifaqı ölkələrinin təbii qazla təminatında ən önəmli layihə kimi dəyərləndirdi. Nazir layihənin həyata keçirilməsi üçün Türkiyə tərəfinin götürdüyü öhdəlikləri şərəflə yerinə yetirəcəyini vurğulayaraq dedi:

– Türkiyə həmişə olduğu kimi, xüsusilə belə bir layihədə qətiyyətini həm siyasi, həm də iqtisadi cəhətdən davam etdirəcək. Bu layihə Avropa İttifaqına üzv ölkələrin təbii qazla təmin olunması baxımından çox mühüm layihələrdən biridir. "Cənub" qaz dəhlizi layihəsində, xüsusən "Şahdənz-2"də öz payını artıran Türkiyə olaraq bu layihəyə davam edirik.

Əlbəttə, Türkiyə yerləşdiyi coğrafiyadan qaynaqlanan bütün imkanlardan həm qonşu ölkələr, həm də Avropa İttifaqının üzvü olan ölkələr üçün istifadə edəcək. Türkiyə öz coğrafiyasından qaynaqlanan imkanlardan yararlanmaqda davam edəcək.

Mən burada səslənən və səslənəcək çıxışlarla yanaşı, bəzi ikitərəfli görüşləri də qeyd edərək bu iclasın bölgəmizə və ölkələrimizə xeyirli olacağını arzu edirəm. Azərbaycanın ev sahibliyi ilə Məşvərət Şurasının bu iclasının işlərin daha yüksək səviyyəyə çatmasına töhfə verəcəyinə əminliyimi bildirir, hamınızı sevgi və ehtiramla salamlayıram.

***

Gürcüstanın Baş nazirinin müavini, energetika naziri **Kaxa KALADZE** "Cənub" qaz dəhlizi layihəsinin əhəmiyyətinə toxunaraq onun iqtisadi və sosial səmərəsindən danışdı:

– Bu möhtəşəm tədbirin təşəbbüskarlarına və tərəfdaşlarımıza dərin hörmət və ehtiramımı bildirirəm. Bugünkü tədbir Cənub qaz dəhlizinin həyata keçirilməsi ilə bağlı bütün uğurlu hadisələrin məntiqi davamıdır.

Əziz həmkarlar, "Cənub" qaz dəhlizi layihəsi çərçivəsində gedən işlər çox genişmiqyaslıdır, eyni zamanda, bizim və layihədə iştirak edən başqa ölkələr üçün də çox vacibdir. Biz bu layihədən investisiyalar, işsizliyin aradan qaldırılması, enerji təhlükəsizliyi və iqtisadi inkişafın, sabitliyin təmin edilməsini gözləyirik.

***

Sonra Yunanıstanın məhsuldar istehsal, ətraf mühit və enerji naziri **Panagiotis LAFAZANİS** çıxış edərək dedi:

– Hər şeydən əvvəl, Cənub qaz dəhlizi Məşvərət Şurasının birinci iclasının keçirilməsi ilə bağlı Azərbaycan Hökumətinin təşəbbüsünə görə minnətdarlığımı bildirmək istərdim. Biz burada göstərdiyiniz qonaqpərvərlik və tədbirin yüksək səviyyədə təşkil olunmasına görə minnətdarlığımızı bildiririk. Mən inanıram ki, bu Şuranın fəaliyyəti Cənub qaz dəhlizinin reallaşması başa çatana qədər önəmli rol oynayacaq. Belə ki, bu, bizə, bütün maraqlı tərəflərə və səhmdarlara eyni templə irəliləməyimizi və ümumi məqsədlər istiqamətində fəaliyyətimizi müzakirə etmək və əlaqələndirmək üçün yaxşı imkan yaradacaq. Bu, doğrudan da "Cənub" qaz dəhlizi layihəsi ilə bağlı işlərin hazırkı vəziyyətini müzakirə etmək üçün yaxşı imkan yaradır.

Panagiotis Lafazanis də çıxışında "Cənub" qaz dəhlizi layihəsinin əhəmiyyətinə toxunaraq bildirdi:

– Cənub qaz dəhlizi ilə bağlı mühüm amil ondan ibarətdir ki, bu layihə sürətlə həyata keçirilir və heç şübhəsiz, 2020-ci ildən başlayaraq, Cənubi və Cənub-Şərqi Avropa və daha geniş məkanın enerji xəritəsini dəyişəcək. Mən burada həm Yunanıstanı, eyni zamanda, bir neçə həftə bundan əvvəl islahatlar və yeniliklərin reallaşdırılmasını qarşısına məqsəd qoymuş yeni formalaşmış hökuməti təmsil edirəm. Biz ölkə iqtisadiyyatının müxtəlif sahələri, o cümlədən enerji sektorunda, xüsusilə təbii sərvətlərimizin işlənilməsi ilə bağlı milli planlarımız və ictimai korporasiyaların fəaliyyəti ilə bağlı işlərdə yeniliklər həyata keçirmək əzmindəyik. Bununla belə, çox aydın şəkildə bildirmək istəyirəm ki, TAP və "Cənub" qaz dəhlizi layihələrinin dəstəklənməsi ilə bağlı bizim milli siyasətimiz dəyişməzdir. Biz TAP layihəsinin Yunanıstanda nəzərdə tutulmuş vaxt çərçivəsində, bütün tərəflərin hüquqlarına hörmət etməklə və layihənin keçdiyi bütün ölkələrin yerli icmaları və iqtisadiyyatlarına fayda verəcək şəkildə reallaşmasını təmin etmək üçün bütün maraqlı tərəflərlə sıx və səmərəli şəkildə işləməyə sadiqik.

***

Məşvərət Şurasının iclasında Albaniyanın energetika və sənaye naziri **Damian QJİKNURİ** də çıxış edərək dedi:

– Azərbaycan Hökumətinə bu mühüm tədbirin təşkilinə görə minnətdarlığımı bildirirəm. Azərbaycan bir daha bu strateji layihənin tam şəkildə irəli aparılması işində öndə durduğunu nümayiş etdirir.

Damian Qjiknuri "Cənub" qaz dəhlizi layihəsinin Albaniya üçün gətirəcəyi faydalardan danışaraq bildirdi:

– Albaniya Hökuməti daha çox Albaniya şirkətlərinin bu layihəyə cəlb edilməsində maraqlıdır. Göründüyü kimi, bu layihə çətin maliyyə böhranı dövründə iqtisadiyyatı inkişaf etdirməyə təkan verəcək bir layihədir və bir çox ölkələrin iqtisadi inkişaf imkanlarını daha da genişləndirəcək.

***

Sonra söz Bolqarıstanın energetika naziri **Temenujka PETKOVAYA** verildi. Nazir dedi:

– Hörmətli xanımlar və cənablar.

Hər şeydən əvvəl, Cənub qaz dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin görüşünə bizi ev sahibi olaraq dəvət etdiyinə görə Azərbaycana təşəkkürümü bildirmək istərdim. Bolqarıstan Hökuməti adından iki ölkə arasında enerji tərəfdaşlığımızın strateji əhəmiyyətini təsdiqləmək istəyirəm. Bolqarıstan dövləti həmişə Azərbaycanı dəstəkləyib və Avropada ikinci ölkə olaraq Azərbaycanın müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü tanıyıb. Mənim üçün Bolqarıstanı Cənub qaz dəhlizi Məşvərət Şurasında təmsil etmək böyük şərəfdir.

Temenujka Petkova çıxışında "Cənub" qaz dəhlizi layihəsinin həyata keçirilməsində Azərbaycanın xüsusi rolunu vurğulayaraq bildirdi:

– Bolqarıstan Respublikası Cənub qaz dəhlizinin həyata keçirilməsi və inşasında bir daha Azərbaycanın həlledici rolunu vurğulayır. Bolqarıstan Cənub qaz dəhlizinin inkişafını həmişə dəstəkləyib. Biz bu layihənin həyata keçirilməsinə qüvvə və imkanlarımızı cəlb etmişik.

***

İtaliyanın İqtisadi İnkişaf Nazirliyinin baş direktoru **Gilberto DİALUSE** "Cənub" qaz dəhlizi layihəsinin əhəmiyyətindən danışaraq dedi:

– Müasir şəraitdə İtaliya üçün "Cənub" qaz dəhlizi layihəsinin strateji əhəmiyyəti daha da artır.

Gilberto Dialuse çıxışında vurğuladı ki, Cənub qaz dəhlizi İtaliyanın qaz təchizatının şaxələndirilməsində mühüm rol oynayacaq. Baş direktor bildirib:

– Bu layihə rəqabətin daha da artırılması məqsədilə İtaliya və Avropa bazarlarının qazla təchiz olunmasının şaxələndirilməsi imkanlarını daha da genişləndirir. Cənub dəhlizinin TAP boru xətti vasitəsilə fəaliyyətə başlaması təchizatın təhlükəsizliyi, marşrutların və

mənbələrin şaxələndirilməsi, eləcə də İtaliya və Avropa bazarlarında rəqabət aparan bir sıra qaz təchizatçılarının sayının artırılmasının təmin edilməsi işinə xidmət edəcək. İtaliya Hökuməti həqiqətən də Azərbaycanla və bu layihəyə cəlb olunmuş digər ölkələrlə yüksək səviyyədə münasibətlər çərçivəsində Cənub qaz dəhlizinin fəaliyyətə başlaması işinə öz töhfəsini verməyə sadiqdir. Beləliklə, təkcə İtaliya üçün deyil, ümumilikdə Avropa üçün qaz təminatının təhlükəsizliyinin möhkəmləndirilməsi, sədr müavini Şefçoviçin qeyd etdiyi kimi, enerji ittifaqının əsas sütunlarından biridir.

***

ABŞ Dövlət Departamentinin enerji ehtiyatları bürosunun xüsusi nümayəndəsi **Amos HOÇSTEYN** çıxışında bildirdi:

– Çox sağ olun. Bu tədbirdə Amerika Birləşmiş Ştatları Hökuməti adından iştirak etməkdən məmnunluq hissi keçirirəm. Eyni zamanda, Azərbaycan Hökumətinə belə bir mühüm zamanda bu vacib tədbirin – Cənub qaz dəhlizi Məşvərət Şurasının iclasının təşkilinə görə minnətdarlığımı bildirirəm. Mən Prezident İlham Əliyevə “Bakı–Tbilisi–Ceyhan” layihəsindən başlayaraq həyata keçirilən bütün bu işlərə rəhbərlik etdiyinə görə təşəkkürümü bildirirəm. Bugünkü açılış nitqində Prezident Əliyevin söylədikləri bəzi fikirləri bir daha vurğulamaq istəyirəm. Cənab Prezident bu gün şaxələndirmə və şaxənləndirmənin əhəmiyyətindən danışdı. Eyni zamanda, Prezident İlham Əliyev qeyd etdi ki, marşrutların şaxənləndirilməsi vacib olmaqla bərabər, bu marşrutlar yalnız təchizat mənbələrinin şaxələndirildiyi təqdirdə mühüm əhəmiyyət kəsb edir. Bu iki amildən biri olmadıqda, enerji təhlükəsizliyi mümkün deyil. Cənub qaz dəhlizi bu iki amilin hər ikisini özündə birləşdirir və buna görə də Avropa enerji təhlükəsizliyinə dəstək verilməsi ABŞ Hökumətinin həmişə strateji məqsədi olub və bundan sonra da olacaq.

ABŞ nümayəndəsi çıxışında enerji təhlükəsizliyi məsələlərinə də toxunaraq vurğuladı:

– Enerji təhlükəsizliyi məsələsi təkcə enerji ilə bağlı deyil. Bu, sabitlik deməkdir. Geosiyasi sabitlik bu regionların iqtisadi firavanlığı deməkdir. Cənub dəhlizi bizim üçün, eyni zamanda, fikirləşirəm ki, burada əyləşən hər bir insan üçün Avropa enerji təhlükəsizliyinin təməl daşıdır. Cənub dəhlizi təkcə tranzit ölkələr və son nöqtə olan İtaliya üçün deyil. “Şahdəniz”konsorsiumunun 2-ci və 3-cü fazaları işə düşən zaman bu layihəyə əlavə qaz resursları cəlb oluna və beləliklə, bu layihənin potensialı daha da arta bilər.

***

Daha sonra söz Böyük Britaniyanın Azərbaycandakı səfiri **İrfan SİDDİQƏ** verildi. Diplomat dedi:

– Birləşmiş Krallıq Azərbaycanın strateji tərəfdaşı və Cənub qaz dəhlizini güclü şəkildə dəstəkləyən ölkədir. Biz bu təşəbbüsün – Məşvərət Şurasının iştirakçısı olmaqdan və bu layihəyə və layihənin uğurla həyata keçməsi işinə davamlı dəstək verməyimizdən çox məmnunuq.

Səfir Böyük Britaniyanın biznes, müəssisə və energetika üzrə dövlət naziri Mətyu Hənkokun tədbirlə bağlı ünvanladığı məktubu oxudu. Məktubda deyilir: "Birləşmiş Krallıq Azərbaycanla güclü münasibətləri yüksək qiymətləndirir. Bu, özünü energetika sahəsində çox aydın göstərir. Ötən 20 illik bir müddətdə uğurlu əməkdaşlıq həyata keçirməklə Birləşmiş Krallıq Azərbaycan ilə münasibətləri daha da möhkəmləndirmək və qarşılıqlı səmərəli layihələrlə bağlı əməkdaşlığı bundan sonra da davam etdirmək əzmindədir. Bu baxımdan biz Cənub qaz dəhlizini ciddi şəkildə dəstəkləyirik. "Cənub" qaz dəhlizi layihəsi mühüm strateji layihə olmaqla Avropa İttifaqının qaz təchizatında yeni mənbəni təmin edəcək və Azərbaycanın, Birləşmiş Krallığın və digər tərəfdaş ölkələrin iqtisadiyyatlarına böyük fayda verəcək. Bu baxımdan bu layihə ilə bağlı mən Azərbaycan rəhbərliyinə dərin minnətdarlığımı ifadə etmək istəyirəm. Azərbaycan hər zaman Cənub qaz dəhlizinə dəstək verilməsi işində aparıcı rol oynamışdır".

Məktubda "Cənub" qaz dəhlizi layihəsinin uğurla həyata keçirilməsi istiqamətində Prezident İlham Əliyevin fəaliyyətinin yüksək qiymətləndirildiyi qeyd olunub və layihənin strateji əhəmiyyəti vurğulanıb: "Birləşmiş Krallıq Avropa enerji bazarlarının Azərbaycan qazı ilə təmin olunması işinə güclü dəstək verilməsi üçün əlindən gələni əsirgəməyəcək".

***

"BP" şirkətinin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti **Qordon BİRRELL** "Cənub" qaz dəhlizi layihəsi ilə bağlı görülən işlər və qarşıda duran vəzifələrlə bağlı təqdimat etdi.

Qordon Birrell layihənin əhəmiyyətini bir daha vurğulayaraq dedi:

– Bu layihə neft və qaz sənayesi sahəsində meqalayihədir. Hazırda bu, ola bilsin, dünyanın 3 və ya 4 ən iri enerji layihələrindən biridir. Bu, Avropa və Türkiyə üçün yeni enerji mənbəyidir.

***

Məşvərət Şurasının iclasında TransAnadolu qaz kəməri layihəsinin baş meneceri Saltuk DÜZYOL və TransAdriatik qaz kəməri layihəsinin icraçı direktoru İn BRADŞAV

həmin layihələr çərçivəsində görülən işlər barədə ətraflı məlumat verdilər. Avropa Yenidənqurma və İnkişaf Bankının enerji və təbii ehtiyatlar üzrə icraçı direktoru Rikkardo PULİTİ isə "Cənub" qaz dəhlizi layihəsinin iqtisadi səmərəliliyi və maliyyələşdirilməsi məsələləri barədə danışdı.

Avropa İnvestisiya Bankının Mərkəzi və Cənub-Şərqi Avropada kredit əməliyyatları üzrə direktoru Flavia PALANZA investisiya qoyuluşu baxımından layihənin cəlbedici olduğunu bildirərək onun əhəmiyyətindən bəhs etdi:

– Avropa Komissiyası ilə birlikdə Avropa İnvestisiya Bankı Avropa üçün təhlükəsiz enerji mənbəyinin şaxələndirilməsi və qaz bazarında rəqabətliliyin təmin edilməsi baxımından mühüm insfrastruktur sayılan Cənub qaz dəhlizinin reallaşdırılması işinə böyük önəm verir. Avropa İnvestisiya Bankı TAP və TANAP layihələri ilə bağlı hadisələrin inkişafını yaxından izləyirdi. 2013-cü ildə TAP layihəsi Cənubi İtaliyaya, Bolqarıstana və Qərbi Balkan ölkələri kimi bütün potensial tranzit ölkələrə Azərbaycan təbii qazının nəql edilməsi üçün üstünlük verilən marşrut kimi seçilmişdir. Avropa İnvestisiya Bankı TAP layihəsini bu gün Avropa Komissiyasının sədr müavininin də qeyd etdiyi kimi, ümumi maraqlar layihəsi statusuna malik bir layihə kimi alqışlayır.

***

Beynəlxalq Maliyyə Korporasiyasının Neft, Qaz və Mədən Məsələlərinə dair Avropa, Orta Şərq və Şimali Afrika üzrə regional sektor müdiri Karsten FUELSTER beynəlxalq aparıcı maliyyə qurumlarının nümayəndələrinin bu tədbirdə iştirakının əhəmiyyətini vurğuladı və dünya maliyyə institutlarının "Cənub" qaz dəhlizi layihəsinin icrası ilə bağlı uğurlu əməkdaşlıq həyata keçirdiklərini bildirərək dedi:

– Heç şübhəsiz, "Cənub" qaz dəhlizi layihəsi Azərbaycan qazının dünya bazarlarına çıxarılması və beləliklə, regionun, həmçinin Avropanın enerji təhlükəsizliyinin təmin olunması baxımından mühüm strateji layihədir. Beynəlxalq Maliyyə Korporasiyası Dünya Bankı Qrupunun üzvüdür və Dünya Bankı Qrupu həmişə bu layihəyə, həmçinin əvvəllər "Bakı–Tbilisi–Ceyhan" boru xətti kimi layihələrə uzun müddət dəstək vermişdir və bu baxımdan biz bu regiondakı qazın dünya bazarlarına çıxarılmasının önəmini yüksək qiymətləndiririk.

***

Avropa Komissiyasının Enerji Birliyi üzrə sədr müavini **Maroş ŞEFÇOVİÇ** tədbirin yüksək səviyyədə keçirildiyinə görə bir daha Azərbaycan tərəfinə və Prezident İlham Əliyevə təşəkkür edərək bildirdi:

– Biz bu böyük layihənin müxtəlif aspektləri barədə çox danışa bilərik. Yeni iş yerlərinin yaradılması, enerji təhlükəsizliyinin təmin edilməsi, layihənin keçdiyi ərazilərə yeni biznes imkanlarının gətirilməsi və digər aspektlər. Bu layihə enerji təhlükəsizliyi və təminatı işini gücləndirir.

Mən bu gün bu tədbirin səmimi dostluq şəraitində keçməsini yüksək qiymətləndirirəm. Biz bu gün bu layihəni birgə həyata keçirmək üçün özümüzü bir komanda kimi hiss etdik. Bu, həqiqətən də, bizim hamımız üçün çox önəmlidir. Burada iştirak edən nazirlər və şirkətlərin nümayəndələri bu layihəni strateji layihə, meqalayihə, hamımız üçün prioritet olan bir layihə kimi dəyərləndirdilər. Fikirləşirəm, hamı razılaşar ki, bu layihə hazırda reallaşmaqda olan ən böyük layihədir və biz bunun həyata keçirilməsi üçün məsuliyyət daşıyırıq. Çünki bu layihə, doğrudan da, marşrutların keçdiyi bütün ölkələrin inkişafına təkan verə bilər. Eyni zamanda, bu layihə Avropa İttifaqının enerji təhlükəsizliyinin möhkəmləndirilməsi üçün mühüm əhəmiyyət kəsb edir.

***

Türkiyənin energetika və təbii sərvətlər naziri **Taner YILDIZ** da çıxışında tədbirin yüksək səviyyədə baş tutduğunu dedi, bir daha bu iclasın önəminə toxunaraq layihənin strateji əhəmiyyətini vurğuladı:

– İndiyə qədər ərsəyə gətirdiyimiz "Bakı–Tbilisi–Ceyhan" neft, "Bakı–Tbilisi–Ərzurum" qaz boru kəmərləri və digər layihələrimiz kimi, son dərəcə əhəmiyyətli olan bu layihənin də uğurla reallaşacağına heç kimdə şübhə yoxdur. Artıq bu layihə siyasi, texniki, iqtisadi və maliyyə baxımından bütün tərəflərin dəstəyini alıb və ortaq faydaya əsaslanan bir layihə halına gəlib.

Bu, çox sevindirici haldır. Bu layihə ilə bağlı burada verilən bütün məlumatlar üçün istər şirkətlərimizə, istərsə də maliyyə qurumlarına, qeyri-hökumət təşkilatlarının hamısına təşəkkür edirik.

***

Tədbirin yekununda Cənub qaz dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin görüşünün iştirakçıları tərəfindən mətbuat üçün Birgə Bəyanat imzalandı.

**AzərTAC**

*13 fevral 2015-ci il*

## BAKIDA "CƏNUB QAZ DƏHLİZİ" MƏŞVƏRƏT ŞURASI ÇƏRÇİVƏSİNDƏ NAZİRLƏRİN İKİNCİ TOPLANTISI KEÇİRİLİB

*29 fevral 2016-cı il*

Azərbaycan Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Fevralın 29-da Bakıda "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin ikinci toplantısı keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev toplantıda iştirak edib.

Dövlətimizin başçısı tədbirdə nitq söylədi.

**PREZİDENT İLHAM ƏLİYEVİN NİTQİ**

– Hörmətli xanımlar və cənablar.

Hörmətli qonaqlar.

Sizin hamınızı Azərbaycanda salamlamaq istərdim və "Cənub Qaz Dəhlizi" layihəsi Məşvərət Şurasının ikinci toplantısında iştirak etdiyinizə görə sizə minnətdarlığımı bildirirəm.

Bu gün keçirilən görüş böyük əhəmiyyətə malikdir. Biz ötən il görülmüş işləri nəzərdən keçirəcəyik və 2016-cı il üçün proqramımızı planlaşdıracağıq.

Bakıda bir il əvvəl keçirilmiş "Cənub Qaz Dəhlizi" layihəsi Məşvərət Şurasının birinci toplantısı bütün layihə üzvləri arasında əlaqələndirməni yaratmaq məqsədilə göstərilmiş səylərin təzahürü idi. Həmin səylər böyük uğurla nəticələndi.

Bir il ərzində ikitərəfli və çoxtərəfli formatda çoxsaylı görüşlərimiz olub. Bu gün aparılan əlaqələndirmənin və əməkdaşlığın səviyyəsi bizim düzgün yolda olduğumuzu nümayiş etdirir. 2015-ci ildə əldə edilmiş mühüm nailiyyətlərdən biri təməlqoyma mərasimi və TANAP layihəsinin həyata keçirilməsinin başlanması oldu. Ötən il Türkiyənin Qars vilayətində Türkiyə, Gürcüstan və Azərbaycan prezidentlərinin iştirakı ilə TANAP-ın təməlqoyma mərasimi keçirildi. Bildiyiniz kimi, TANAP layihəsi "Cənub Qaz Dəhlizi"

layihəsinin reallaşmasında olduqca əhəmiyyətli idi.

Hər şey cədvələ uyğun gedir. Biz düzgün istiqamətdəyik. Eyni zamanda, mən 2015-ci ilin nailiyyətləri sırasında səylərimizin əlaqələndirilməsini qeyd etmək istərdim. Hazırda biz böyük komanda kimi çalışırıq. Bu heyət bir çox ölkələrdən ibarətdir. Əlbəttə, əməkdaşlıq və əlaqələndirmə səviyyəsi, qarşılıqlı etimad həmin genişmiqyaslı layihənin həyata keçirilməsində vacibdir.

"Cənub Qaz Dəhlizi" layihəsi Avropanın genişmiqyaslı infrastruktur və enerji layihəsidir. Azərbaycanın nəhəng qaz ehtiyatları, xüsusən də "Şahdəniz"yatağı hazırda "Cənub" qaz dəhlizi üçün yeganə resurs mənbəyidir. Həmin yataq dünyada ən iri qaz yataqlarından biridir.

Lakin ümidvaram ki, təchizatın digər mənbələri də olacaq. Biz böyük həcmdə təbii qazı nəql edəcək boru kəmərini çəkirik. Zənnimcə, gələcək planlar və nailiyyətlər aramızda qarşılıqlı etimadın səviyyəsindən asılı olacaq.

Hesab edirəm ki, bu gün bizim artıq olduqca möhkəm əməkdaşlıq formatımız var. Mən layihədə iştirak edən bütün ölkələrin hökumətlərinə minnətdarlığımı bildirmək istəyirəm. Avropa Komissiyasına, Birləşmiş Ştatların hökumətinə bu layihənin həyata keçirilməsinə verdikləri dəyərli töhfəyə görə təşəkkürümü bildirmək istəyirəm.

"Cənub Qaz Dəhlizi" layihəsi enerji təhlükəsizliyi layihəsidir. Bu gün enerji təhlükəsizliyi haqqında danışanda, biz anlayırıq ki, o, ölkələrin milli təhlükəsizliyinin bir hissəsidir. Enerji resursları, şaxələndirmə hər hansı ölkənin sənaye və iqtisadi inkişafında əsas amillərdir. Zəngin təbii ehtiyatları olan ölkələr, əlbəttə ki, təhlükəsiz vəziyyətdədirlər, çünki onlar kənar təchizatdan asılı deyillər. Lakin, eyni zamanda, onların bazarlara ehtiyacı var. Onlara qanunvericiliklə tənzimlənən, hasilatçıların təmin etdiyi həcmləri qəbul edə biləcək uzun perspektivli bazarlar lazımdır.

Fikrimcə, biz burada "Cənub Qaz Dəhlizi" layihəsi çərçivəsində hasilatçılar, tranzit ölkələr və eyni zamanda, istehlakçılar arasında maraqların çox yaxşı tarazlığına malikik. Həmçinin hesab edirəm, gələn iki-üç il ərzində planlarımızın uğurla həyata keçirilməsi göstərəcək ki, bu layihənin gələcək üçün çox yaxşı potensialı var.

Xatirimdədir, Azərbaycan hələ 1994-cü ildə "Azəri–Çıraq–Günəşli" kimi böyük neft yatağının işlənilməsi ilə bağlı dünyanın əsas neft şirkətləri ilə müqavilə imzalayanda hesab edirdik ki, bu layihənin həyata keçirilməsi, Qara və Aralıq dənizlərinə neft boru kəmərinin çəkilməsi ilə biz öz işimizi başa çatdıracağıq.

Lakin indi - həmin tarixi gündən 22 il keçəndən sonra görürük ki, proses yenə də davam edir. Nailiyyətlərimiz çoxdur. Hətta deyərdim ki, enerji sektorunda Azərbaycan hökuməti bütün vədlərini yerinə yetirdi və planlaşdırdıqlarının hamısına nail oldu. Lakin bu proses yenə də davam edir. Çünki bir layihənin arxasınca digər layihə yaranır. Biz artıq

dəhlizi yaratmışıq və ondan, həmçinin digər layihələr üçün istifadə edirik. Gürcüstan və Türkiyəyə təbii qazın nəqlini nəzərdə tutan layihə məhz belə başladı. Biz bu layihəyə Azərbaycan, Gürcüstan və Türkiyə arasında dəmir yolu xətti layihəsini əlavə etmişik. Ümid edirəm ki, həmin layihənin bu il açılışı baş tutacaq. Bütün bunlar Avrasiyanın müxtəlif ölkələri arasında regional əməkdaşlığa, geniş işbirliyinə yol açır.

Enerji təhlükəsizliyi bu gün dünya siyasətinin, eləcə də beynəlxalq təşkilatların əsas gündəliyində yer tutur. Cari ilin əvvəlində mən Davos İqtisadi Forumunda və Münxen Təhlükəsizlik Konfransında iştirak etdim. Enerji təhlükəsizliyi məsələsi hər iki tədbirdə - dünyanın həmin iki ən mühüm toplantısının gündəliyində idi.

Əlbəttə ki, öz enerji siyasətinə qəti surətdə sadiq qalan, hər zaman azad rəqabəti, bazar iqtisadiyyatını, enerji sahəsində toqquşmanı deyil, əməkdaşlığı təşviq edən Azərbaycan enerji şaxələndirilməsində, enerji təhlükəsizliyində mühüm rol oynayır. Eyni zamanda, hesab edirəm ki, ölkəmiz bu layihənin həyata keçirilməsində düşünülmüş siyasət nümayiş etdirir.

Enerji amili heç zaman siyasi təşəbbüs və ya siyasi tələb vasitəsi olmalı deyil. Biz enerji əməkdaşlığını siyasi formatdan ayırmalıyıq. Yalnız bu halda biz uğur qazana bilərik. Fikrimcə, bu şəkildə qurduğumuz əməkdaşlıq bunu nümayiş etdirir. Biz “Cənub Qaz Dəhlizi” layihəsinin həyata keçirilməsinə sadiqik. Azərbaycan üçün bu, o deməkdir ki, gələn bir neçə il, onilliklər ərzində ölkəmiz hasil edə biləcək həcmə uyğun təbii qazın satışından yararlanacaq. Eyni zamanda, biz layihə üzvləri arasında olduqca möhkəm əməkdaşlıq quracağıq və bu işbirliyi iqtisadiyyatın digər sektorlarına aid olan sahələrdə də nailiyyətlərə imkan açacaq.

Bu layihə, həmçinin Avropa İttifaqı ilə Azərbaycan arasında münasibətlər baxımından vacibdir. Enerji təhlükəsizliyi əməkdaşlığımızın mühüm elementidir.

Beləliklə, ölkəmiz üçün bu layihənin faydası aydındır. Əminəm ki, bundan, həmçinin bu zalda təmsil olunan bütün ölkələr faydalanacaqlar. Biz istədiyimizə yaxşı dostluq və tərəfdaşlıq şəraitində nail olacağıq. Fikrimcə, dostluq və tərəfdaşlıq dəhlizin reallaşması üçün olduqca vacibdir.

Eyni zamanda, əminəm ki, Məşvərət Şurasının bu gün keçirilən toplantısında siz, həmçinin 2016-cı ildə həllini gözləyən məsələləri qaldıracaqsınız. 2016-cı il bu layihənin həyata keçirilməsində mühüm ildir. Biz, əlbəttə ki, layihənin həyata keçirilməsində bu məsələlərə vaxt baxımından diqqət yetirməliyik. Bəzi yubanmalar, daxili maneələr ola bilər. Lakin hesab edirəm ki, ölkələrimizin hökumətləri bu maneələri keçmək üçün bütün imkanlarından istifadə edəcəklər.

Hər ölkə layihənin öz ərazisində reallaşmasında məsuliyyət daşıyır. Fikrimcə, 2016-cı il bu baxımdan mühüm il olacaq. Ötən il biz artıq gözəçarpan irəliləyişə nail olduq.

Hesab edirəm ki, ölkələrimizdəki ictimai rəy bu layihənin vacibliyini bütövlükdə müsbət dəyərləndirir. Hesab edirəm ki, biz güclü tərəfdaşlıq və əməkdaşlıqla bu məqsədlərə nail olacağıq. TANAP layihəsinin həyata keçirilməsi hazırda olduqca fəal mərhələdədir. Əminəm ki, o, vaxtında, hətta cədvəldən əvvəl icra ediləcək. Əlbəttə, istərdim ki, eyni yanaşma Trans-Adriatik layihəsinin həyata keçirilməsində də olsun. Ümid edirəm ki, bu il tikinti işləri başlayacaq və hasilatçılarla əlaqələndirmə sayəsində "Cənub" qaz boru kəmərinin çəkilməsində məqsədlərimizə nail olacağıq.

Biz bu layihənin həyata keçirilməsində həmrəyik. Qonaqlarımızın tərkibi, bu gün burada yüksək siyasi səviyyədə təmsil olunma göstərir ki, bütün hökumətlər və tərəfdaşlarımız eyni məqsədə xidmət edirlər. Biz XXI əsrin tarixi layihəsini – "Cənub" qaz dəhlizini vaxtında və bütün iştirakçılar üçün maksimal fayda ilə icra edəcəyik.

Mən bu gün keçirilən toplantıya verdiyiniz töhfəyə və iştirakınıza görə sizə bir daha minnətdarlığımı bildirmək istəyirəm. Ümidvar olduğumu bildirmək istəyirəm ki, biz bu gün böyük uğurlara və gözəçarpan irəliləyişə imza atacağıq.

Sağ olun.

***

Azərbaycanın energetika naziri Natiq Əliyev Prezident İlham Əliyevin "Cənub Qaz Dəhlizi" layihəsinin reallaşmasına verdiyi dəstəyin işlərin daha səmərəli həyata keçirilməsinə imkan yaradacağını vurğuladı.

***

Xəzər dənizinin təbii resurslarının Avropa bazarlarına çatdırılmasının əhəmiyyətindən danışan **Avropa Komissiyasının enerji birliyi üzrə vitse-prezidenti Maroş ŞEVÇOVİÇ dedi:**

– Hörmətli Prezident İlham Əliyevə, nazirlərə, xüsusi nümayəndə Amos Hokstayna, beynəlxalq maliyyə qurumlarının nümayəndələrinə, xüsusilə Konsorsiumun nümayəndəsinə təşəkkür edirəm.

Azərbaycan Respublikasının Prezidenti, Zati-aliləri cənab İlham Əliyevə bizi Bakıda Məşvərət Şurasının ikinci toplantısına dəvət etdiyinə görə minnətdarlığımızı bildirmək istərdik. Çünki cənab Prezidentin qeyd etdiyi kimi, ötən il bir çoxlarımız üçün olduqca çətin il olub. Lakin buna baxmayaraq, biz bu çox strateji layihə ilə bağlı olduqca yaxşı nəticələr əldə etmişik. Düşünürəm ki, nələri tamamladığımıza nəzər salmaq və bu çox iddialı layihənin başa çatdırılmasında, əminəm, həlledici olacaq bu il üzrə planlar hazırlamaq üçün yaxşı vaxtdır.

Prezident İlham Əliyev artıq ötən ilin bəzi nailiyyətlərini qeyd etdi. Mən vurğulamaq istərdim ki, bizim üçün Xəzər dənizinin karbohidrogen ehtiyatlarının Avropa bazarına çıxışına nail olunması uzun illər müzakirə mövzusu olub. Lakin biz heç vaxt buna indiki qədər yaxın olmamışıq. Müqavilə üzrə Azərbaycan, Gürcüstan və Türkiyədə davam edən tikinti işlərinə 10 milyard dollar vəsaitin ayrılması faktı əlamətdar bir hadisədir. Bu, olduqca güclü irəliləyişdir. Mən sizin hamınıza minnətdarlığımı bildirmək istərdim, çünki siz - hökumətlərin burada iştirak edən nümayəndələri, nazirlər, aparıcı şirkətlərin rəhbərləri, xüsusilə də ev sahibliyi edən Azərbaycanın təmsilçiləri bu uğura öz töhfənizi vermisiniz. Çünki onların səyləri, konstruktiv və güclü dəstəyi olmasaydı, layihə bu qədər sürətlə irəli gedə bilməzdi.

Mən ötən il Prezident İlham Əliyev ilə birlikdə Türkiyənin Qars vilayətində idim. Biz layihənin necə konkretləşdiyini, tikintinin necə başlandığını gördük. Mən əminəm ki, biz boru kəmərinin digər hissələrinin tikintisində də eyni irəliləyişin şahidi olacağıq. Bu səbəbdən də inanıram ki, bu il çox həlledici il olacaq.

Prezident İlham Əliyev enerji təhlükəsizliyinin əhəmiyyətini qeyd etdi. Biz də ölkələrimiz, vətəndaşlarımız üçün Avropada enerji təhlükəsizliyini təkmilləşdirməyə ehtiyac olduğunu hiss etdik. Ötən il bizim enerji birliyi layihəsini təqdim etməyimizin səbəblərindən biri məhz bu idi. Biz şaxələndirmə vasitəsilə enerji və təchizat təhlükəsizliyinin təkmilləşdirilməsinə nail olmaq istədik. Buna görə də biz "Cənub" qaz dəhlizini Avropanın öz enerji ehtiyatlarını necə şaxələndirilməsinin bariz nümunəsi kimi görürük. Söhbət yeni ünvandan gələn yeni təchizatçı, yeni marşrut, yeni qazdan gedir. Bu, Avropanın enerji təhlükəsizliyinə həqiqətən yeni elementlər gətirir və bu da Avropa İttifaqına üzv ölkələr üçün çox vacibdir.

Maroş Şevçoviç Cənub-Şərqi Avropa, həmçinin Balkan ölkələrində layihəyə böyük marağın olduğunu dedi. Beynəlxalq maliyyə təşkilatlarının bu layihəyə marağını və dəstəyini yüksək qiymətləndirən Maroş Şevçoviç "Cənub Qaz Dəhlizi" layihəsinə Avropa İttifaqının dəstəyini ifadə etdi.

***

Qısa fasilədən sonra Məşvərət Şurası çərçivəsində nazirlərin ikinci toplantısı öz işini davam etdirdi.

Energetika naziri Natiq ƏLİYEV texniki cəhətdən mürəkkəb layihə olan "Cənub Qaz Dəhlizi" ilə bağlı ötən dövrdə görülən işlərdən danışdı, tədarük olunacaq qazın Avropa ölkələrinin təchizatında mühüm rol oynayacağını dedi. Fransa, İspaniya, İtaliya,

Yunanıstan kimi iri Avropa ölkələrinin layihəyə böyük maraq göstərdiyini deyən Natiq Əliyev bu layihənin reallaşmasının yeni iş yerlərinin açılmasına imkan yaratdığını bildirdi.

Türkiyənin enerji və təbii sərvətlər naziri Berat ALBAYRAK TANAP layihəsinin əhəmiyyətindən danışdı. O, "Cənub Qaz Dəhlizi" layihəsinin mühüm qolu olan TANAP-ın reallaşmasında Türkiyənin siyasi, iqtisadi və texniki dəstəyinin davam etdiriləcəyini bildirdi.

ABŞ Dövlət Departamentinin beynəlxalq enerji məsələləri üzrə xüsusi elçisi və əlaqələndiricisi Amos HOKSTAYN bu layihənin Avropanın enerji təhlükəsizliyində mühüm rol oynadığını dedi. Amos Hokstayn enerji təhlükəsizliyi sahəsində mövcud çətinliklərdən və onların aradan qaldırılması yollarından danışdı. ABŞ təmsilçisi Birləşmiş Ştatların "Cənub Qaz Dəhlizi" layihəsini dəstəkləməkdə davam edəcəyini diqqətə çatdırdı.

Böyük Britaniyanın Enerji və İqlim Dəyişikliyi Nazirliyinin beynəlxalq enerji departamentinin baş direktoru Edmund HOSKER bu toplantını təşkil etdiyinə görə Azərbaycan hökumətinə təbriklərini çatdırdı. Ölkəsinin "Cənub Qaz Dəhlizi" layihəsini dəstəklədiyini deyən Edmund Hosker Birləşmiş Krallıq ilə Azərbaycan arasında uğurlu işbirliyindən danışdı, bu layihənin reallaşmasında ölkəmizin rolunu vurğuladı.

"BP"nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qordon BİRRELL "Cənub Qaz Dəhlizi" layihəsinin icrası ilə bağlı bütün işlərin cədvələ uyğun yerinə yetirildiyini bildirdi, 2016-cı ilin layihənin icrasında mühüm dövr olacağını diqqətə çatdırdı.

Trans-Anadolu qaz kəməri layihəsinin baş meneceri Saltuk DÜZYOL TANAP kəməri üçün ilk qazın 2018-ci ildə tədarük olunacağını, 2020-ci ildən isə qazın axınının başlanacağını bildirdi. TANAP-ın baş direktoru layihənin texniki göstəriciləri barədə toplantı iştirakçılarına ətraflı məlumat verdi.

Sonra TANAP layihəsi ilə bağlı qazanılan nailiyyətləri əks etdirən videoçarx nümayiş olundu.

Trans-Adriatik qaz kəməri layihəsinin icraçı direktoru İn BRADŞAV TAP-ın tikintisinə 2016-cı ildə başlanılacağını bildirdi. O, slaydlar vasitəsilə layihə çərçivəsində görülən işlərdən danışdı.

"Cənub Qaz Dəhlizi" QSC-nin baş direktoru Əfqan İSAYEV, Asiya İnkişaf Bankının özəl sektor əməliyyatları üzrə baş direktoru Tod FRİLYAND, Avropa İnvestisiya Bankı Qrupunun nümayəndəsi Massimo DEUFEMİA, Avropa Yenidənqurma və İnkişaf Bankının baş rezident-əlaqələndiricisi Nil MAKKEYN, Beynəlxalq Maliyyə Korporasiyasının Cənubi Qafqaz üzrə regional meneceri Jan Van BİLSEN "Cənub" qaz dəhlizinin strateji baxımdan önəmindən danışdılar.

Növbəti fasilədən sonra toplantı öz işini davam etdirdi.

Gürcüstanın Baş nazirinin müavini, energetika naziri Kaxa KALADZE layihənin həyata keçirilməsində bu toplantının əhəmiyyətindən danışdı, ölkəsinin "Cənub" qaz dəhlizinə dəstək verdiyini bildirdi.

Türkiyənin enerji və təbii sərvətlər naziri Berat ALBAYRAK qısa vaxtda layihə ilə bağlı müəyyən uğurlara nail olunduğunu və ölkəsi tərəfindən növbəti addımların atılacağını dedi.

Yunanıstanın Ətraf Mühit və Energetika Nazirliyinin enerji və mineral ehtiyatlar üzrə baş katibi Mixail VERROİOPOULOS əsas diqqəti layihə çərçivəsində şirkətlər arasında əlaqələrə çəkdi, layihənin icrası zamanı ətraf mühitin qiymətləndirilməsinə dair işlərdən danışdı.

Albaniyanın energetika və sənaye naziri Damian GJİKNURİ bildirdi ki, ölkəsi enerji strukturunu təkmilləşdirmək və müasirləşdirmək niyyətindədir, bu baxımdan "Cənub" qaz dəhlizi Albaniya üçün xüsusi önəm daşıyır.

İtaliya Nazirlər Şurasının dövlət katibi Klaudio De VİNÇENTİ ölkəsinin bu layihəyə dəstəyindən məmnunluğunu ifadə etdi, "Cənub" qaz dəhlizinin reallaşmasının Avropa qaz siyasəti üçün önəmini vurğuladı.

Bolqarıstanın energetika naziri xanım Temenujka PETKOVA birləşdirici kəmərlər, texniki-iqtisadi əsaslandırmalar barədə danışdı, ölkəsində və Yunanıstan ərazisində ətraf mühitin və mülkiyyət məsələlərinin qiymətləndirilməsi ilə bağlı işlərin görüldüyünü dedi. Layihənin icrasına dair Türkiyə ilə müştərək qrupun yaradılacağını deyən bolqarıstanlı nazir "Cənub Qaz Dəhlizi" layihəsinin reallaşmasının ölkəsinə öz təbii ehtiyatlarını şaxələndirməyə imkan yaradacağını diqqətə çatdırdı.

Monteneqronun iqtisadiyyat naziri Vladimir KAVARİÇ Albaniya və Monteneqro ərazisində texniki dəstək məsələlərinin müzakirəsindən və bu layihənin Avropa Komissiyasının maraqlarına cavab verməsi üçün lazımi işlərin həyata keçirilməsindən danışdı.

Xorvatiyanın iqtisadiyyat naziri Tomislav PANENİÇ enerji təhlükəsizliyinin milli təhlükəsizliyin ayrılmaz hissəsi olduğunu deyərək bildirdi ki, bu layihə Xəzər dənizinin təbii ehtiyatlarının bir çox ölkələrə çatdırılmasına mühüm töhfə verəcək.

***

Avropa İttifaqının xarici məsələlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti xanım Federika MOQERİNİ bu tədbirin təşkilinə görə Azərbaycan Prezidenti İlham Əliyevə təşəkkürünü bildirərək dedi:

- İcazə verin, Sizə və Azərbaycan tərəfinə, cənab Prezidentə bu çox vacib toplantının təşkilinə və ona ev sahibliyi etməsinə görə minnətdarlığımı bildirim, hamınıza üzərinizə götürdüyünüz öhdəlik və bu səhər görülmüş yaxşı işlərə görə ünvanlanmış alqışlara mən də qoşulum.

Bu, mənə bütün işlərin görülməsi üçün "gəlin, yolumuza davam edək" fikrini söyləmək imkanı verir. Bu təşəbbüsə və həmçinin bu toplantıya Avropa İttifaqında verdiyimiz dəyər açıq-aşkardır. Həm Maroş Şevçoviç, həm də mən bu layihənin Avropa İttifaqının enerji təhlükəsizliyi strategiyasının zəruri elementi olduğunu və energetika diplomatiyasının bizim xarici işlər və təhlükəsizlik siyasətimizin əsas hissəsini təşkil etdiyini bildirmək üçün buradayıq.

Biz keçən il Maroş Şevçoviç ilə birlikdə fəaliyyətə Avropa İttifaqı daxilində enerji siyasətinin heç də həmişə xarici siyasətlə bağlı olmamasına dair fikirlərimizi paylaşmaqla başladıq. Biz Komissiya daxilində bütün 28 üzv ölkə ilə bu siyasətləri bir-birinə daha da bağlamaq üçün çalışırıq. Çünki bu gün dünyada biz enerjinin pisə və yaxşıya doğru aparmasına baxmayaraq, təhlükəsizliyin və bizim xarici əlaqələrimizin, regional şəbəkənin bir hissəsi olduğunu görürük.

Ötən ilin iyul ayında Maroş Şevçoviç ilə birlikdə mənim Avropa İttifaqının xarici işlər nazirlərinin görüşü oldu. Bu toplantıda biz bütün üzv ölkələrin bir-biri ilə paylaşdığı nəticələr dəstini qəbul etdik. Eyni zamanda, biz burada energetika diplomatiyası üzrə tədbirlər planı üzərində razılığa gəldik. Razılaşdıq ki, Avropa İttifaqının xarici siyasətində bizim enerji mənbələrimizin daha da şaxələndirilməsi üçün əhəmiyyət kəsb edən tərəfdaşlarımıza və təşəbbüslərimizə xüsusi prioritet verilsin.

"Cənub" qaz dəhlizinin və Xəzər regionunun bizim əsas prioritetlərimiz sırasında olması açıq-aşkardır. Beləliklə, buraya açıq, yaxşı müəyyən olunmuş bir mandatla gəlmişəm. Bu isə ondan ibarətdir ki, biz "Cənub" qaz dəhlizinə ciddi şəkildə dəstək göstəririk və layihənin vaxtında tamamlanması, daha da irəliləməsi üçün hamımızın birgə hərəkətini təmin etməkdən ötrü üzərimizə düşən və xüsusilə şəxsən mənim üzərimə düşən öhdəliyi mümkün olduğu qədər yerinə yetirmək əzmindəyik.

"Cənub" qaz dəhlizi layihəsi bizim üçün enerjinin şaxələndirilməsindən daha böyük anlam kəsb edir, eyni zamanda, bu layihə Avropa İttifaqının enerji təhlükəsizliyindən daha böyükdür. Bu layihə daha geniş regionda onun icrasına töhfə verə bilən bir sıra tərəfdaşlarla siyasi, iqtisadi və sosial əlaqələrin genişlənməsi və dərinləşməsindən ibarətdir.

Xanım Federika Moqerini "Cənub" qaz dəhlizinin Avropa İttifaqı ilə Azərbaycan arasında yeni mərhələ olduğunu bildirdi. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinin vacibliyini vurğulayan Federika Moqerini dedi ki, regionda sabitliyin bərqərar olunması zəruridir və Avropa İttifaqı Cənubi Qafqazda davamlı sülhün qorunmasındakı səyləri davam etdirir.

***

Avropa Komissiyasının enerji birliyi üzrə vitse-prezidenti Maroş ŞEVÇOVİÇ aparılan müzakirələrin səmərəli olduğunu bildirdi. Qeyd etdi ki, bütün ölkələrdə layihənin gedişatı ilə bağlı tərəqqi var. "Cənub" qaz dəhlizinin çox vacib regionda reallaşdırıldığını deyən Maroş Şevçoviç bu toplantını növbəti dəfə təşkil etdiyinə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi.

**AzərTAC**

*29 fevral 2016-cı il*

## BAKIDA CƏNUB QAZ DƏHLİZİ MƏŞVƏRƏT ŞURASI ÇƏRÇİVƏSİNDƏ NAZİRLƏRİN ÜÇÜNCÜ TOPLANTISI KEÇİRİLİB

*23 fevral 2017-ci il*

Fevralın 23-də Bakıda, Heydər Əliyev Mərkəzində Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin üçüncü toplantısı keçirilib.

Əvvəlcə birgə foto çəkdirildi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev toplantıda nitq söylədi.

**PREZİDENT İLHAM ƏLİYEVİN NİTQİ**

– Hörmətli xanımlar və cənablar.

Hörmətli qonaqlar.

Əvvəlcə bütün qonaqlarımızı salamlayır və Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin üçüncü toplantısında iştiraka görə minnətdarlığımı bildirmək istəyirəm. Sizin iştirakınız olduqca vacibdir, çünki bu, sizin təmsil etdiyiniz hökumət və təşkilatların "Cənub Qaz Dəhlizi" layihəsinin həyata keçirilməsinə çox böyük əhəmiyyət verdiyinin göstəricisidir.

Bu gün qonaqlarımız arasında "Cənub Qaz Dəhlizi" layihəsinin iştirakçı dövlətlərinin müvafiq nazirləri, ABŞ və Böyük Britaniya hökumətlərinin yüksək nümayəndələri, Avropa Komissiyasının vitse-prezidenti, şirkətlərin, beynəlxalq maliyyə təşkilatlarının təmsilçiləri var. Avropa Komissiyasının vitse-prezidenti cənab Şefçoviçi xüsusilə salamlamaq istərdim. Mən bu il ərzində onunla artıq dörd görüş keçirmişəm. Bu isə belə bir mühüm layihənin reallaşdırılmasında Azərbaycan və Avropa Komissiyasının yaxından əməkdaşlıq etdiyini göstərir.

Hesab edirəm ki, biz nadir və xüsusi beynəlxalq əməkdaşlıq formatını yaratmağa müvəffəq olmuşuq. Əlbəttə ki, müxtəlif dövlət, şirkət və maliyyə qurumları arasında əməkdaşlıq təcrübəsi Cənub Qaz Dəhlizinin uğurla həyata keçirilməsinin əsas səbəbi

olmaqla yanaşı, gələcəkdə də özünün əhəmiyyətli rolunu oynayacaq. Çünki bu qlobal layihənin icrası başa çatdırıldıqdan sonra bizim əməkdaşlığımız müxtəlif sahələr üzrə davam edəcəkdir.

Beynəlxalq əməkdaşlıq haqqında danışarkən təbii ki, sizin diqqətinizi Azərbaycanın enerji siyasətinin tarixinə yönəltmək istərdim, çünki onsuz bugünkü toplantı mümkün olmazdı. Müstəqilliyimiz bərpa olunandan sonra Azərbaycan mühüm enerji şirkətlərini ölkəmizdə fəaliyyət göstərməyə dəvət etdi. Tarixdə ilk dəfə Xəzər dənizi beynəlxalq əməkdaşlıq məkanına çevrildi və dünyanın əsas neft və qaz şirkətləri buraya çox böyük həcmdə sərmayələr yatırdı. 1994-cü ildə biz Xəzər dənizinin Azərbaycan sektorunda nəhəng neft ehtiyatlarının istismarı ilə bağlı "XX əsrin müqaviləsi" adlanan kontraktı imzaladıq. Bu, faktiki olaraq, Xəzər dənizinin xarici sərmayələr üçün açılması, ölkəmiz üçün isə transformasiya və inkişaf istiqamətində atılmış ilk vacib addım idi.

Bugünkü Azərbaycan böyük mənada həmin siyasətin nəticəsidir. Milyardlarla ölçülən xarici sərmayələrin cəlb edilməsi və Azərbaycana məxsus neft yataqlarının işlənilməsi uğurlu inkişaf üçün əhəmiyyətli ilkin şərait yaratdı. Neft satışından əldə olunan vəsait infrastruktur və sosial layihələrə, insan kapitalının inkişafına yönəldilmişdir və biz bunun nəticəsində ölkə iqtisadiyyatının şaxələndirilməsinə nail olmuşuq. Sərmayələr və beynəlxalq əməkdaşlıq olmasaydı, 1990-cı illərin ortalarında bunların heç birini etmək mümkün olmazdı.

Bu səbəbdən biz dövlətlər və şirkətlər arasında beynəlxalq əməkdaşlığa böyük dəyər veririk. Ölkəmizdə bütün sərmayələr zəruri səviyyədə qorunur, hasilatın pay bölgüsünə dair Azərbaycanın beynəlxalq neft şirkətləri ilə imzaladığı bütün müqavilələr parlamentimiz tərəfindən ratifikasiya olunur və qanun formasında Prezident tərəfindən imzalanır. Yəni, həmin müqavilələrin mətninin bir sözünün belə dəyişdirilməyəcəyi ilə bağlı 100 faiz zəmanət var. Bu, sərmayəçilərdə əminlik yaradır və hesab edirəm ki, Azərbaycanın sərmayələrə dəyər verən və onları müvafiq şəkildə qoruyan etibarlı tərəfdaş olmasında mühüm rol oynayır.

Cənub Qaz Dəhlizinin resurs bazasını nəhəng "Şahdəniz"qaz yatağı təşkil edir. "Şahdəniz"yatağının istismarı ilə bağlı müqavilə 1996-cı ildə imzalanmışdır. Bunun özü də tarixi hadisə idi, çünki həmin vaxta qədər Azərbaycan yalnız neft hasil edən ölkə kimi tanınırdı. Lakin "Şahdəniz"layihəsi sayəsində biz özümüzü nəhəng qaz ehtiyatlarına malik ölkə kimi təqdim etdik. Bu gün Azərbaycanın, – "Şahdəniz"və digər yataqlarının, – təsdiq edilmiş qaz ehtiyatı 2,6 trilyon kubmetr təşkil edir. Bu, nəhəng ehtiyatdır və şübhəsiz ki, "Şahdəniz"yatağının birinci mərhələdəki istismarı "Cənub Qaz Dəhlizi" layihəsinin təməlini qoydu.

Bu regional və daha sonra beynəlxalq əməkdaşlığın yaranmasında iki mühüm mərhələ oldu. Regional əməkdaşlığa gəldikdə, bu regionda üç ölkə - Azərbaycan, Gürcüstan və Türkiyə uzun illərdir ki, uğurla əməkdaşlıq edir və bu üç ölkə dəhlizlər yaratmağa müvəffəq olmuşdur. Bu, ən vacib olan məsələ idi. Xəzər dənizini Qara dəniz ilə bağlayan neft kəməri mövcud deyildi. Biz ilk olaraq buradan Gürcüstanın Qara dəniz sahillərinədək uzanan Bakı-Supsa neft kəmərini inşa etdik. Daha sonra Azərbaycan, Gürcüstan və Türkiyəni birləşdirən "Bakı–Tbilisi–Ceyhan" əsas neft kəməri və nəhayət "Bakı–Tbilisi–Ərzurum" qaz kəməri inşa edilmişdir. Cənub Qaz Dəhlizinin tərkib hissəsi olan həmin kəmər bu gün genişləndirilməkdədir.

Bütün bunlar Azərbaycan, Gürcüstan və Türkiyə arasında regional əməkdaşlıq, habelə beynəlxalq maliyyə qurumlarının və bu layihələri strateji hesab edən ABŞ hökumətinin dəstəyi nəticəsində ərsəyə gəlmişdir. Layihələr həqiqətən də strateji idi, çünki onlar regionumuzun enerji xəritəsini dəyişməyə başlamışdır. Beləliklə, Azərbaycan dünya bazarlarına neft tədarük edən etibarlı tərəfdaşa çevrilmişdir və bu gün bəzi Avropa dövlətlərinin enerji balansında Azərbaycan neftinin payı 30-40 faiz təşkil edir.

Bunları deməkdə məqsədim bugünkü inkişafın olduqca möhkəm təməl, fəal iş, qarşılıqlı etimad və əməkdaşlıq tarixinə malik olmasını nümayiş etdirməkdir. Eyni zamanda, yüksək riskli sahə hesab olunan bu sahədə həmin layihələri maliyyələşdirən beynəlxalq maliyyə qurumlarına da minnətdaram.

Cənub Qaz Dəhlizi bu gün artıq reallıqdır. Bu gün burada layihə ilə bağlı mövcud çağırışları nəzərdən keçirəcəyik. Öz növbəmdə bu layihənin həyata keçirilməsində Azərbaycan və Türkiyə arasında olan əməkdaşlığın xüsusi əhəmiyyətini vurğulamaq istərdim. 2012-ci ildə İstanbulda Prezident Ərdoğan və mən Transanadolu qaz kəmərinə dair tarixi müqaviləyə imza atdıq. Əslində, Cənub Qaz Dəhlizinin icrası məhz həmin gündən başlayır, çünki o vaxta qədər müxtəlif layihələr, seçimlər və müzakirələr mövcud idi. Potensial qaz layihəsinin reallaşdırılması ilə bağlı bir çox konfrans və seminarlar təşkil edilmişdir. Ancaq İstanbuldakı imzalanma mərasimi dönüş nöqtəsi oldu.

Bundan sonra "Şahdəniz"layihəsinin ikinci mərhələsinə sərmayə qoyulması ilə bağlı qərar qəbul edildi və TANAP sazişi bağlanmasa idi, həmin qərar verilməzdi. Daha sonra TANAP layihəsinin davamı olaraq, Transadriatik qaz kəməri layihəsi seçildi. Beləliklə, 2012-ci ildə İstanbuldakı mərasim dönüş nöqtəsi oldu, tərəfdaşlarımız bizi dəstəklədi və bu gün həmin sazişin nəticəsi göz qabağındadır.

Bizim tərəfdaşlarımıza, – müxtəlif dövlət, şirkət və təşkilat nümayəndələrinə, - bu gün bizimlə birlikdə olduqlarına görə öz dərin minnətdarlığımı bildirirəm. Bu, Məşvərət Şurasının üçüncü toplantısıdır və bu yığıncaq artıq yaxşı bir ənənəyə çevrilmişdir. Həyat sübut etmişdir ki, belə toplantının çox vacib mənası var. Biz yalnız görülmüş

işləri nəzərdən keçirmirik. Ən əsası odur ki, gələcəklə bağlı planlar qurur və səylərimizi əlaqələndiririk. Əlaqələndirmə olmazsa biz uğur əldə edə bilmərik. Cənub Qaz Dəhlizinin bütün dörd seqmenti paralel şəkildə həyata keçirilir. Buna görə də layihənin dəqiq icrası və vaxt qrafikinə riayət olunması ən vacib məsələlərdəndir.

Son dəfə biz ötən il ərzində Bakıda görüşmüşük. Həmin vaxtdan bəri bir çox hadisələr baş vermişdir, layihənin icrası ilə bağlı yaxşı irəliləyiş var. Mənə verilən son məlumata görə, "Şahdəniz-2" layihəsi üzrə işlərin təqribən 90 faizi, Cənubi Qafqaz boru kəməri üzrə 80 faizə yaxını, TANAP 65 faiz və Transadriatik kəməri üzrə isə 34 faizi icra edilmişdir. Bu, yaxşı irəliləyişin göstəricisidir. Ötən ilin fevralında nazirlər səviyyəsində keçirilmiş ikinci toplantı zamanı mövcud olan vəziyyəti götürsək, bu gün böyük irəliləyişin şahidi olarıq. Bu, layihənin uğurlu icrasının vacib göstəricisidir.

Bununla yanaşı, Bakıdakı sonuncu görüşümüzdən bəri, növbəti, böyük Abşeron qaz layihəsi üzrə işlərə başlanılmışdır. Biz yataqla bağlı praktiki işlərə, yəni, qazma işlərinə başlamağı planlaşdırırıq və Abşeron yatağının birinci mərhələsi üzrə qaz potensialı artıq hesablanıb. Abşeron yatağı Azərbaycanın qaz potensialının əlavə mənbəyi olacaqdır.

Bu, ilk növbədə, bizim qaz potensialımızın "Şahdəniz"ilə məhdudlaşmadığını nümayiş etdirir. Halbuki "Şahdəniz"dünyanın ən nəhəng qaz yataqlarından biridir və onun ehtiyatı 1,2 trilyon kubmetrdir. Ancaq bu, "Şahdəniz-2" layihəsinin icrasının digər layihələrin reallaşdırılması baxımından nə dərəcədə əhəmiyyətli olduğunu nümayiş etdirir. Müasir nəqletmə infrastrukturu olmadan digər qaz yataqlarına sərmayələrin cəlb edilməsi çətin olardı. Bütün bunlar hamımızın mənafeyinə xidmət edir. Çünki yaradılmaqda olan şəbəkə vasitəsilə nə qədər çox qaz nəql edilsə, biz - dövlətlər və şirkətlər bundan bir o qədər bəhrələnəcəyik.

Cənub Qaz Dəhlizi XXI əsrin layihəsi hesab oluna bilər. Şadam ki, TANAP-ın icrası ilə bağlı xərclər azalıb. Aldığım son məlumata görə, bu rəqəm 11,8 milyard dollardan 8,5 milyard dollara enmişdir. Bir sıra ölkələrdəki iqtisadi vəziyyətin narahatlıq doğurduğu belə bir vaxtda xərclərin azalması olduqca vacib məsələdir. Beləliklə də TANAP-ın səhmdarları külli miqdarda vəsaitlərinə qənaət edəcəklər.

Biz layihənin icrası üçün maliyyə vəsaitinin cəlb edilməsinə nail olmuşuq. Burada xüsusi olaraq Dünya Bankını qeyd etmək istərdim. Bu qurum layihəyə böyük məbləğdə vəsait ayırmaqla yanaşı, digər maliyyə institutlarına da siqnal vermiş oldu. "Cənub Qaz Dəhlizi" layihəsinin icrasının dəstəklənməsi üçün böyük məbləğdə maliyyə vəsaitlərinin ayrılmasına görə Asiya İnkişaf Bankına və Asiya İnfrastruktur və İnkişaf Bankına da minnətdarlığımı bildirirəm.

Burada xüsusi əhəmiyyət daşıyan məqam ondan ibarətdir ki, Azərbaycan qazı Asiyaya deyil, Avropaya nəql ediləcəkdir. Lakin gördüyümüz kimi, layihəyə verilən maliyyə

dəstəyi baxımından Asiya maliyyə qurumları Avropa təşkilatlarından öndədir. Ümid edirik ki, Avropa Yenidənqurma və İnkişaf Bankı, Avropa İnvestisiya Bankı da maliyyə dəstəyinin verilməsi və asiyalı tərəfdaşlarından geridə qalmamaq məsələlərini nəzərdən keçirəcəkdir. Əks təqdirdə bunu anlamaq çox çətin olacaqdır.

Azərbaycan öz növbəsində dövlət büdcəsi və Dövlət Neft Fondunun vəsaiti hesabına layihəyə böyük maliyyə dəstəyi göstərir. Bu gün Azərbaycanın maliyyə imkanları regionda istənilən layihənin həyata keçirilməsinə imkan verir və biz bunu uğurla edirik. Cənub Qaz Dəhlizi enerji təhlükəsizliyi layihəsidir və dəfələrlə dediyim kimi, enerji təhlükəsizliyi dövlətlərin milli təhlükəsizliyinin tərkib hissəsidir. Bu, şaxələndirmə layihəsidir. Şaxələndirmə isə yalnız istehlakçılara deyil, biz istehsalçılara da lazımdır. Çünki bizim çoxşaxəli nəqletmə şəbəkəsinə ehtiyacımız var. Bu gün ehtiyatlarımızın müxtəlif təyinat məntəqələrinə nəql edilməsi üçün bizim 7 kəmərimiz var ki, bunlardan 3-ü neft, 4-ü isə qaz kəməridir. Səkkizincisi isə Cənub Qaz Dəhlizidir ki, o da tezliklə istifadəyə veriləcəkdir.

Biz enerji şaxələndirilməsi haqqında danışanda nəqletmə marşrutları ilə yanaşı, mənbələr barəsində də danışırıq. Xəzər dənizinin Azərbaycan sektorunda olan mənbələr yeni mənbələrdir və bu, regionun və Avropa istehlakçılarının qaz ilə təchizatında yeganə yeni mənbədir. Bu baxımdan, regional və artıq beynəlxalq əməkdaşlıq, qarşılıqlı etimad və dəstək bu layihənin həyata keçirilməsinin ən vacib elementlərindəndir.

Bu gün nazirlər səviyyəsində üçüncü toplantıda biz artıq əmin ola bilərik ki, heç bir maneə bu layihənin həyata keçirilməsinin qarşısını ala bilməz. Layihənin icrası ilə bağlı sizə təqdim etdiyim rəqəmlər bizim layihənin icrasının yekun mərhələsində olduğumuzu nümayiş etdirir. Buna baxmayaraq, biz birgə səylərlə bu layihənin icrasının müəyyən seqmentləri üzrə süni gecikdirmələrin qarşısını almalıyıq və əminəm ki, bu mövzu burada ətraflı müzakirə olunacaqdır.

Bilirik ki, burada müəyyən müdaxilə və kənardan təzyiq halları olacaq. Müəyyən ekoloji və digər bəhanələr ortaya atılacaq. Ancaq burada biz reallığı nəzərə almalıyıq. Reallıq isə ondan ibarətdir ki, Azərbaycanın tərəfdaşları, ölkəmizin strateji tərəfdaşı və bizim bütün neft və qaz layihələrimizin operatoru olan “BP” şirkəti ilə birlikdə həyata keçirdiyi heç bir layihə ilə bağlı, istər Azərbaycanda, istərsə də buradan başlayan nəqletmə marşrutu boyu hər hansı bir ekoloji problem baş verməmişdir.

Yadımdadır ki, biz “Bakı–Tbilisi–Ceyhan” kəmərini inşa edəndə də layihənin icrasının əleyhinə olan müəyyən dairələrin sponsorluğu ilə ““Bakı–Tbilisi–Ceyhan” kampaniyası” adlanan kampaniya başlanılmışdır. Onlar həmin layihənin nüfuzdan salınması üçün geniş fəaliyyətə başladılar. Layihəni regionun ekoloji fəlakəti adlandırdılar. Təəssüf ki, o zaman bəzi maliyyə qurumları da prosesi ləngitdilər. Ancaq “Bakı–Tbilisi–Ceyhan” artıq

11 ildir ki, fəaliyyət göstərir və o zamandan bəri burada xırda narahatlıq belə doğuracaq epizod olmamışdır. Bizim "BP" və digər tərəfdaşlarımızla həyata keçirdiyimiz bütün layihələr ən yüksək ekoloji standartlara cavab verir.

Bu səbəbdən eşidəndə ki, yenidən Cənub Qaz Dəhlizi və onun hansısa seqmenti ilə bağlı kimlərdəsə və haradasa narahatlıq var, biz dərhal 10 il bundan əvvəl baş verənləri xatırladıq. Həmin ssenari, həmin üsul və əminəm ki, nəticəsi də elə həmin cür olacaqdır. Biz "Cənub Qaz Dəhlizi" layihəsini həyata keçirəcəyik. Biz bu uğura birgə nail olacağıq. Burada yeganə itirə biləcəyimiz zamandır. Biz isə nəyə görə vaxt itirməliyik? Vaxt pul deməkdir. Biz bu layihəni vaxtında icra etməliyik. Dediyim kimi, layihənin bütün seqmentləri – "Şahdəniz-2", Cənubi Qafqaz qaz kəməri, TANAP və TAP paralel şəkildə icra olunmalıdır.

Təfərrüatına varmaq istəmirəm. Əminəm ki, bu mövzu ətraflı müzakirə olunacaq. Belə toplantıların əhəmiyyəti burada yalnız uğur və nailiyyətlərdən deyil, eyni zamanda, problem, çağırış və onların həlli yolları haqqında danışmaqdan ibarətdir.

Toplantının işinə uğurlar diləyir və bu gün bizimlə birlikdə olduğunuza görə bir daha minnətdarlığımı bildirirəm.

***

Azərbaycanın energetika naziri **Natiq ƏLİYEV** çıxış edərək dedi:

– Çox sağ olun, cənab Prezident. Mən Məşvərət Şurasının bütün iştirakçıları adından dərin məzmunlu nitqinizə, çox dəyərli tövsiyələriniz və göstərişlərinizə görə Sizə dərin minnətdarlığımızı bildirmək istərdim. Nazirlərin toplantısında Sizin iştirakınız bütün ölkələr, bütün iştirakçılar üçün çox vacibdir. Bundan əvvəlki iki toplantıda olduğu kimi, biz indicə eşitdiyimiz göstərişlərinizi, baxışlarınızı və fikirlərinizi çox yüksək qiymətləndiririk. Bir daha təkrar etmək istərdim ki, bu, bizə kömək edir. Sizin "Cənub Qaz Dəhlizi" layihəsinə dəstəyiniz, Sizin göstərişləriniz və dediyim kimi, səyləriniz bütün iştirakçıların öz öhdəliklərini yerinə yetirmələri üçün böyük əhəmiyyət kəsb edir. Çünki hazırda biz "Cənub Qaz Dəhlizi" layihəsini tamamlamağa çox yaxın mərhələdəyik. Bilirsiniz ki, çox böyük irəliləyişə nail olmuşuq. Lakin bəzi ölkələrdə bəzi maneələrin olduğunu hiss edirik və düşünürəm ki, nazirlərin bu toplantısı bizə layihəni uğurla tamamlamaq üçün doğru yolu tapmağa kömək edəcək.

Cənab Prezident, Sizə bir daha təşəkkürümü bildirmək və icazənizlə salamlama nitqi üçün sözü dostumuz, hörmətli qonağımız Maroş Şefçoviçə vermək istərdim.

***

**Avropa Komissiyasının enerji birliyi üzrə vitse-prezidenti Maroş ŞEFÇOVİÇ çıxış edərək dedi:**

–Hörmətli cənab Prezident.

Təşəkkür edirəm cənab nazir.

Hörmətli nazirlər, beynəlxalq və maliyyə institutlarından olan həmkarlarım, konsorsiumun nümayəndələri, xanımlar və cənablar.

Mən artıq üçüncü dəfə mehriban ev sahibi olduğuna, memarlığın əsl şah əsəri hesab etdiyim bu gözəl binada bu gün nazirlər toplantısını təşkil etdiyinə görə cənab Prezidentə dərin təşəkkürümü bildirmək istəyirəm. Əminəm ki, bu, bizim danışıqlarımız üçün gözəl ab-hava yaradacaq, ötən görüşümüzdən indiyədək "Cənub Qaz Dəhlizi" layihəsinin həyata keçirilməsində müşahidə etdiyimiz əhəmiyyətli irəliləyişə nəzər salmaq və hələ qarşıda gördüyümüz çağırışları müzakirə etmək üçün kifayət qədər vaxtımız olacaq.

İcazənizlə mən Prezident Əliyevi Brüsselə çox uğurlu səfəri münasibətilə də təbrik etmək istərdim. Çünki hesab edirəm ki, bu, həqiqətən də bizim əlaqələrimizdə yeni səhifə açdı. Səfər zamanı biz Azərbaycan ilə Avropa İttifaqını bir çox aspektlərdə, bir çox sahələrdə bir-birinə daha da yaxınlaşdıracağını hesab etdiyim yeni hərtərəfli çərçivə sazişi ilə bağlı danışıqlara başladıq. Əminəm ki, bu razılaşmanın yeni çərçivəsini müzakirə edəcəyimiz zaman enerji, enerji təhlükəsizliyi, bir çox digər sahələrdə əməkdaşlıqla bağlı məsələlər, sözsüz, diqqət mərkəzində olacaq.

Cənab Prezident öz nitqində Cənub Qaz Dəhlizinin bütün dəyər zəncirində, bu kəmərin bütün mühüm hissələrində tikinti prosesinin gedişatını çox yaxşı təsvir etdi. Düşünürəm ki, irəliləyişə təkcə kəmərin keçdiyi ölkələrdə göstərilən böyük səylər, görülən işlər sayəsində deyil, həm də bu masa ətrafında yaradılmış yaxşı yaradıcı mühit, mütəmadi məlumat mübadiləsi, bu cür genişmiqyaslı layihə ilə bağlı davamlı olaraq ortaya çıxan problem və çağırışları həll etmək üçün göstərilən səylər sayəsində nail olunub. Ona görə də, zənnimcə, iki günlük görüşümüz bizə layihənin irəliləyişini, qarşıda duran bütün çağırışları müzakirə etməyə daha bir imkan yaradacaq. Mən bu layihənin Avropa İttifaqı üçün, Avropanın enerji təhlükəsizliyi və şaxələndirmə planlarımız, rəqabətliliyi və Avropanın enerji təchizatının şaxələndirilməsini dəstəkləyən açıq likvid bazar kimi qalmasını təmin edən planlarımız üçün strateji əhəmiyyətini və bu çox mühüm region - Xəzər hövzəsi ilə yeni əlaqəyə və Azərbaycan kimi güclü tərəfdaşa malik olmaq imkanını nə dərəcədə qiymətləndirdiyimizi bir daha vurğulamaq istərdim. Əminəm ki, Sizin qeyd etdiyiniz kimi, bu, bizim son bir neçə ildə qəbul etdiyimiz bütün strateji sənədlərdə, təhlükəsizlik strategiyasından tutmuş enerji birliyinə qədər, Avropa İttifaqının strateji

layihəsindən tutmuş, bizim bir neçə həftə bundan əvvəl qəbul etdiyimiz enerji birliyinin vəziyyəti ilə bağlı ikinci hesabata qədər sənədlərdə öz əksini tapıb.

Mən, həmçinin beynəlxalq maliyyə institutlarının iştirakını və onlarla yaxşı əməkdaşlığı, o cümlədən Dünya Bankı, Asiya İnfrastruktur İnvestisiya Bankı və Asiya İnkişaf Bankının layihəyə maliyyə dəstəyini yüksək qiymətləndirirəm. Mən çox şadam ki, bizim Avropa İnvestisiya Bankı və Avropa Yenidənqurma və İnkişaf Bankından olan həmkarlarımız da bu gün bizimlə buradadırlar. Mən onları - Avropanın maliyyə institutlarını da qitənin enerji təhlükəsizliyinin gələcəyi üçün strateji əhəmiyyət kəsb edən bu çox mühüm layihənin maliyyələşdirilməsini dəstəkləməyə cəlb etmək üçün yollar axtarmağa çağıracağam.

Biz cənab Prezidentlə bu il artıq dörd dəfə görüşmüşük. Həmçinin Qarsda təməlqoyma mərasimində iştirak etmişik. Salonikidə də təməlqoyma mərasimi olub. Düşünürəm ki, bu təməlqoyma mərasimlərinin İtaliyada tikilməli və çəkilməli olan yekun seqmentə doğru necə irəliləməsini görmək çox mühüm əhəmiyyət kəsb edirdi. Ona görə də mən xüsusilə çox şadam ki, nazir Kalenda buradadır. Çünki mən mərkəzi hökumətin ciddi dəstəyi ilə həyata keçirilən bütün bu böyükhəcmli işlərin, buradan başlayan və İtaliyada başa çatan bu uzun boru kəmərinin tikintisinin vaxtında yekunlaşmasının təmin edilməsi, uzun illərdən sonra bu qədər dəstəklədiyimiz şaxələndirmə vasitəsilə Avropaya yeni mənbədən yeni marşrutla yeni qazın çatdırılması üçün göstərilən səylərin tamamlanması məqsədilə bu layihənin uğurla həyata keçirilməsi üzərində Karlonun nə qədər səylə çalışdığını bilirəm.

Mən, həmçinin Cənub-Şərqi Avropadan, Balkan ölkələrindən olan həmkarlarımızın burada iştirak etdiyini bildirmək istəyirəm. Çünki biz onlarla CESEC təşəbbüsü çərçivəsində çox sıx işləyirik. Bu qısaltma Mərkəzi və Cənub-Şərqi Avropada daha yaxşı qaz bağlantısı üzrə yüksək səviyyəli qrupun adını ifadə edir. Biz bu əməkdaşlığa iki il bundan əvvəl başladıq, çünki biz Avropanın bu önəmli regionunda daha güclü enerji təhlükəsizliyinin təmin olunmasını, onların ən azından 3 fərqli qaz mənbəyinə çıxış əldə etməsini, bir qaz təchizatçısından həddən artıq asılılığın aradan qaldırılmasını istəyirdik. Qeyd etməliyəm ki, bu qrupda olan ab-hava çox gözəldir və biz çox qısa müddət ərzində bu əhəmiyyətli məqsədə nail olacaq prioritet təşkil edən layihələr üzərində razılığa gələ bildik.

Mən yunan və bolqar tərəfdaşlarımıza bu ölkələr arasında olan bağlantı ilə əlaqədar gördükləri möhtəşəm işlərə görə minnətdarlığımı ifadə etmək istəyirəm. Çünki bu işlər nəinki bu iki tərəf üçün, həm də region üçün, digər Avropa ölkələri ilə və əlbəttə ki, Cənub Qaz Dəhlizi və Azərbaycan ilə daha yaxşı bağlantı nöqteyi-nəzərindən böyük əhəmiyyət kəsb edəcəkdir.

Beləliklə, cənab Prezident, nitqimin sonunda mən bizi Bakıda qəbul etdiyiniz və bu layihəyə güclü rəhbərlik etdiyiniz üçün Sizə bir daha təşəkkürümü bildirmək istəyirəm. Biz hamımız əldə olunmuş bu böyük tərəqqini vurğulamaq üçün fikir mübadiləsinin aparılmasını və layihənin vaxtında tamamlanmasını, Xəzər dənizindən hasil olunan qazın 2020-ci ilə qədər Avropaya çatdırılmasını təmin etmək üçün siyasi iradə və hazırlığın, eyni zamanda, biznes tərəfdaşlarımızın bu işə sadiqliyinin açıq şəkildə nümayiş etdirilməsini səbirsizliklə gözləyirik. Çox sağ olun, cənab Prezident.

*Xalq qəzeti.-2017.-24 fevral.- № 42.-S.1-2.*

## BAKIDA CƏNUB QAZ DƏHLİZİ MƏŞVƏRƏT ŞURASI ÇƏRÇİVƏSİNDƏ NAZİRLƏRİN VI TOPLANTISI KEÇİRİLİB

*28 fevral 2020-ci il*

### Azərbaycan Prezidenti İlham Əliyev toplantıda iştirak edib

Fevralın 28-də Bakıda, Heydər Əliyev Mərkəzində Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin VI toplantısı keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev toplantıda iştirak edib.

Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin toplantısına hər dəfə Azərbaycan ev sahibliyi edir, bu isə ölkəmizin layihədə aparıcı rolunu təsdiqləyən mühüm amillərdən biridir. Dörd seqmentdən – "Şahdəniz Mərhələ-II", Cənubi Qafqaz Boru Kəməri, TANAP və TAP qaz boru kəmərlərindən ibarət olan layihə çərçivəsində 2018-ci ilin mayında Səngəçal terminalında Cənub Qaz Dəhlizinin rəsmi açılışı olub. Həmin ilin iyununda isə TANAP qaz boru kəməri istifadəyə verilib, ötən il isə TANAP Avropa sərhədinə çatdırılıb. Beynəlxalq maliyyə qurumlarının, ABŞ, Böyük Britaniya və Avropa İttifaqının dəstək verdiyi bu layihənin sonuncu seqmenti olan TAP-ın inşası isə davam edir. Yeddi ölkənin - Azərbaycan, Gürcüstan, Türkiyə, Albaniya, Yunanıstan, Bolqarıstan və İtaliyanın iştirak etdiyi, uzunluğu 3500 kilometr, ümumi dəyəri isə təxminən 40 milyard dollar olan Cənub Qaz Dəhlizi Avropanın enerji təhlükəsizliyində strateji amildir.

Əvvəlcə toplantının iştirakçıları birgə foto çəkdirdilər.

Azərbaycanın Energetika naziri **Pərviz Şahbazov** dedi:

– Zati-aliləri cənab Prezident.

İcazə verin, biz – Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin altıncı toplantısının iştirakçıları Cənub Qaz Dəhlizi layihəsinə göstərdiyiniz davamlı dəstəyə görə Sizə dərin minnətdarlığımızı bildirək. Sizin təşəbbüsünüz sayəsində təsis edilmiş Məşvərət Şurası rəhbərliyiniz və tövsiyələriniz əsasında səmərəli və çoxtərəfli əməkdaşlıq formatı kimi illər ötdükcə Cənub Qaz Dəhlizi layihəsinin icrasına mühüm töhfələr vermişdir. Məşvərət Şurasının toplantılarında tərəfinizdən qaldırılan məsələlər, Sizin

aydın strateji baxışınız və qətiyyətli mövqeyiniz 2020-ci ilin sonunadək Cənub Qaz Dəhlizini tamamlamaq üçün bizim əlaqələndirilmiş işimizdə əsas amillər olaraq qalmağa davam etmişdir.

Cənab Prezident, Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin altıncı toplantısında açılış nitqi ilə çıxış etmək üçün Sizə söz vermək bizə böyük şərəfdir. Buyurun, söz Sizindir.

Dövlətimizin başçısı toplantıda nitq söylədi.

**PREZİDENT İLHAM ƏLİYEVİN NİTQİ**

– Təşəkkür edirəm.

Hörmətli xanımlar və cənablar, hörmətli qonaqlar, Azərbaycana xoş gəlmisiniz. Mən Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin altıncı toplantısında iştirak etmək üçün buraya təşrif buyurmuş bütün qonaqları görməyimə çox şadam. Əvvəla, mən bu gün bizimlə birlikdə bu toplantıda iştirak edən nümayəndələrin hökumətlərinə illik altıncı toplantıda iştirak etmək məqsədilə yüksəksəviyyəli nümayəndələrini göndərdiyi üçün təşəkkürümü bildirmək istəyirəm.

Bu əməkdaşlıq formatının təşəbbüskarı olaraq Azərbaycan böyük qürur hissi keçirir ki, illər ərzində Məşvərət Şurası nəhəng Cənub Qaz Dəhlizi layihəsinin icrasında bizim səylərimizi gücləndirən çox səmərəli işçi mexanizmə çevrilmişdir. Biz bütün tərəfdaşlarımıza, ilk növbədə, Cənub Qaz Dəhlizinin üzvləri olan tərəfdaş ölkələrə - Gürcüstan, Türkiyə, Yunanıstan, Bolqarıstan, Albaniya və İtaliyaya minnətdarıq. Bu ölkələr Azərbaycana çox yaxındırlar və mən bu ölkələrin dövlət və hökumət başçıları ilə çoxsaylı görüşlərimi xatırlayıram. Yalnız bu ilin iki ayında Türkiyə, İtaliya və Gürcüstanın dövlət və hökumət başçıları ilə görüşlərim, həmçinin bizim yaxın əməkdaşlığımızı nümayiş etdirir. Üç gün bundan əvvəl Türkiyə Prezidenti bizim qonağımız idi. Biz bu baxımdan nələrə nail olduğumuzu və gələcək planları müzakirə etdik. Bir həftə bundan əvvəl İtaliyaya dövlət səfəri çərçivəsində bu ölkənin Prezidenti və Baş Naziri ilə görüşlərim zamanı biz bu mühüm layihəni müzakirə etdik. Yanvar ayının sonunda Gürcüstanın Baş Naziri ilə keçirdiyim görüş bizə nailiyyətləri nəzərdən keçirməyə və gələcək addımlarımızı planlaşdırmağa imkan yaratmışdır. Hesab edirəm, Cənub Qaz Dəhlizi layihəsinin üzv ölkələrindən ibarət bu nadir tərkib onu nümayiş etdirir ki, ümumi amal ölkələri birləşdirə bilər. Əminəm ki, Cənub Qaz Dəhlizi layihəsi tamamlanandan sonra bizim çoxtərəfli əməkdaşlığımız digər sahələrdə davam edəcək.

Mən, həmçinin Birləşmiş Krallıq və Amerika Birləşmiş Ştatları hökumətlərinə

Azərbaycanın təşəbbüskarı olduğu layihələrə davamlı dəstək göstərdiklərinə görə təşəkkürümü bildirmək istəyirəm. Bu proses 1990-cı illərin ortasından başlamışdır. O zaman Azərbaycan öz neft və qaz potensialını xarici investorlar üçün açıq elan etdi. Azərbaycan Xəzər regionunda xarici şirkətlərə sərmayə yatırmaq və Xəzər dənizində neft əməliyyatlarını aparmaq imkanını verən ilk ölkə idi. Ötən 25 ildən artıq müddət ərzində Amerika Birləşmiş Ştatları və Birləşmiş Krallığın hökumətləri Azərbaycanla sıx tərəfdaşlıq edərək “Bakı–Tbilisi–Ceyhan” neft kəməri, “Bakı–Tbilisi–Ərzurum” qaz xətti və Cənub Qaz Dəhlizi kimi nəhəng layihələrin icrasına böyük töhfələr vermişdir.

Mən tərəfdaş ölkələrimizin yüksəksəviyyəli nümayəndələrini görməyə çox şadam. Mən, həmçinin Avropa Komissiyasına minnətdarlığımı bildirmək istəyirəm. 2011-ci ildə Avropa Komissiyası və Azərbaycan burada – Bakıda Cənub Qaz Dəhlizi layihəsi üzrə Birgə Bəyannamə imzaladılar və bu, faktiki olaraq həmin layihənin icrasının başlanğıc mərhələsi oldu. Həmin Bəyannamədə biz açıq-aydın bəyan etdik ki, bu, strateji layihədir və layihənin icrası üçün səylərimizi əsirgəməyəcəyik. Mən 2011-ci ildə Bakıda bu sənədi birgə imzaladığımız Avropa Komissiyasının sabiq prezidenti cənab Barrozuya şəxsi minnətdarlığımı bildirmək istəyirəm. O, Azərbaycana iki dəfə səfər etmişdir. Həmçinin Azərbaycana iki dəfə səfər etmiş və sonuncu dəfə keçən ilin iyulunda təşrif buyurmuş, Avropa İttifaqı ilə Azərbaycan arasında enerji sahəsində əməkdaşlığın gücləndirilməsində çox önəmli rol oynamış Avropa İttifaqı Şurasının sabiq prezidenti cənab Tuska da təşəkkürümü bildirmək istəyirəm. Həmçinin Avropa Komissiyasının sabiq komissarı cənab Ottingerə də çox minnətdar olduğumuzu qeyd etmək istəyirəm. O, bu layihənin icrasına yaxından cəlb edilmiş Avropa İttifaqının ilk komissarı olmuşdur. Həmçinin vitse-prezident Şevçoviçi qeyd etmək istəyirəm, o, indi vitse-prezident vəzifəsində işini davam etdirir, lakin digər sektorlara cəlb olunub. Amma Cənub Qaz Dəhlizi üzərində işləyərkən o, həmişə illik toplantılarda bizimlə birlikdə idi və əməkdaşlığımız konkret nəticələrə gətirib çıxarmışdır. Əlbəttə ki, mən bizə bu layihəni icra etməyə kömək göstərmiş beynəlxalq maliyyə institutlarını da qeyd etmək istəyirəm. Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnkişaf Bankı, Avropa İnvestisiya Bankı və digər banklar, həmçinin özəl banklar. Onların dəstəyi olmadan layihənin icrası mümkünsüz olardı. Başqa sözlə, biz çox nadir əməkdaşlıq formatını müəyyən etdik. Əlbəttə ki, Azərbaycan layihənin təşəbbüskarı, investoru və ev sahibi olaraq bu təşəbbüsə start verdi. Bu təşəbbüs bizim qonşularımız Türkiyə və Gürcüstan tərəfindən dəstəklənmişdir. Bu ölkələrlə biz əvvəllər enerji resurslarının nəqli və infrastrukturu üzrə mühüm layihələr icra etmişik. Sonra bu təşəbbüs yeni tərəfdaşlar - onlardan üçü Avropa İttifaqının üzvü olan İtaliya, Yunanıstan və Bolqarıstan, həmçinin Albaniya tərəfindən dəstəklənmişdir. Sonra isə yeni və potensial tərəfdaşlar - anlaşma memorandumlarını imzaladığımız ölkələr olan Bosniya və

Herseqovina, Xorvatiya və Monteneqro bu təşəbbüsə qoşulmuşdur. Həmçinin bu gün bu masada biz Macarıstan, Rumıniya, Serbiya və Türkmənistanın nümayəndələrini görürük və onların burada iştirakı bu layihəyə maraqlarının olduğunu nümayiş etdirir. Hesab edirəm ki, qarşıdan gələn illərdə biz əməkdaşlığımızı gücləndirəcəyik və ola bilsin, bütün ölkələr arasında daha geniş əməkdaşlıq formatını yaradacağıq və hətta, ola bilsin, burada iştirak etməyən ölkələr gələn ilin fevral ayında bizə qoşulacaq.

Fürsətdən istifadə edərək hamınızı gələn ilin fevralında qonağımız olaraq buraya dəvət etmək istəyirəm. Çünki hesab edirəm ki, TAP-ın tikintisinin tamamlanması bizim komanda işimizin sonu demək deyil. Düşünürəm ki, gələn ilin fevral ayında burada - Bakıda bir çox məsələləri nəzərdən keçirmək lazımdır. Sonra da biz gələcək üçün strategiyamızı hazırlayacağıq. Keçən ilin fevral ayında biz 2018-ci ilin iyununda Türkiyə bazarına çatan TANAP-ın hissəsinin uğurla tamamlanması barədə məlumat verdik. Bu dəfə isə biz qürur hissi ilə artıq Türkiyə–Yunanıstan sərhədinə çatmış TANAP-ın tamamlandığını bildiririk. Bu, bizim meqalayihəmizin icrasında çox mühüm mərhələdir. Bu gün Cənub Qaz Dəhlizi layihəsinin tamamlanması vəziyyətinin çox yüksək olduğu və sizə də yaxşı məlum olduğu kimi, TAP layihəsinin təqribən 92 faiz tamamlandığı bir vaxtda ümid edirəm ki, bu ilin sonuna kimi biz Cənub Qaz Dəhlizi layihəsinin açılışını qeyd edəcəyik.

Əlbəttə, bütün səylərimiz çox konkret nəticələr verdikdən sonra geriyə baxdıqda bizim qarşımızda – Azərbaycanın qarşısında müstəqillik illərimizin əvvəlində hansı çağırışların olduğunu hətta təsəvvürümüzə gətirmək belə çətindir və bir gün, 30 ildən daha az müddətdə ölkənin beynəlxalq tərəfdaşları ilə birlikdə belə böyük uğura nail olacağını və dünya ölkələrini maraqlandıran, dünya miqyasında layihələrin təşəbbüskarı olacağını, tərəfdaşları ilə birlikdə onları uğurla icra edəcəyini təsəvvür etmək mümkün deyildi. Bu layihələrin hər biri – "Bakı–Tbilisi–Ceyhan", "Bakı–Tbilisi–Ərzurum", "Azəri–Çıraq–Günəşli", "Şahdəniz", digər kəşfiyyat və hasilat layihələri, Cənub Qaz Dəhlizi, – mən, həmçinin "Bakı–Tbilisi–Qars" kimi nəqliyyat layihəsini də buraya əlavə edərdim, - onların hər biri strateji əhəmiyyətə malikdir. Onların hər biri ölkəmiz və xalqımız, bu layihədə iştirak edən bütün ölkələr üçün dayanıqlı, uğurlu və əminəm ki, çiçəklənən inkişafı təmin edəcəkdir.

Lakin 1991-ci ildə vəziyyət tamamilə fərqli idi. Sovet İttifaqının dağılması nəticəsində Azərbaycan müstəqilliyini bərpa etmişdi. Lakin əfsuslar olsun ki, ölkə öz xalqı üçün normal həyat şəraitini təmin edə bilməmişdir. Tam yoxsulluq var idi, iqtisadiyyat durğunluq vəziyyətində idi. Bir çox mürəkkəbliklərə və böyük itkilərə gətirib çıxaran xaotik bir vəziyyət var idi. 1992-ci ildə vəziyyət daha da pisləşdi. O zaman hərbi çevriliş nəticəsində Xalq Cəbhəsi hakimiyyətə gəldi. Deyərdim ki, o zaman fəlakət vaxtı idi. Çünki birillik

hakimiyyət Azərbaycanı uçuruma gətirdi. İqtisadiyyat tamamilə məhv edilmişdi, geniş vüsət almış korrupsiya faktiki olaraq bizim yeni əldə etdiyimiz dövlətçiliyimizi pozan amil idi. İnflyasiyanın səviyyəsi 1000 faizdən artıq idi. Ermənistanın işğalı, 1 milyondan çox qaçqın və məcburi köçkün - hesab edirəm ki, o zaman biz adambaşına düşən qaçqınların sayına görə birinci yerdə idik. Ermənistan qüvvələrinin bizim ərazilərimizin bir hissəsini işğal etdiyi zaman Xalq Cəbhəsi hökuməti vətəndaş müharibəsinə, bu korrupsioner rejim azərbaycanlılar arasında müharibəyə başladı. Əldə edilmiş dövlətçilik yenidən risk altında idi. Azərbaycan xalqı bu antimilli rejimi məhv edəndə və Heydər Əliyevi Bakıya dəvət edəndə müdriklik və cəsarət nümayiş etdirdi. 1993-cü ilin oktyabrından, Heydər Əliyev prezident seçiləndən sonra Azərbaycan sabitlik, inkişaf və tərəqqi yoluna qədəm qoymağa başladı. Beləliklə, həmin vaxtdan bəri ölkəmiz siyasi, iqtisadi və sosial sabitik vəziyyətində yaşayır. Regionumuzda və dünyadakı vəziyyətə nəzər yetirərkən, biz yeni münaqişələr, yeni qarşıdurmalar görürük. Əfsuslar olsun ki, münaqişələrin sayı artmaqdadır. Hesab edirəm ki, sabit və təhlükəsiz mühitdə yaşayış bizim siyasətimizin əsas nailiyyətlərindən biridir.

Əlbəttə ki, dövləti qurmaq üçün əsas yollardan biri güclü iqtisadiyyatın yaradılması idi və xarici investisiyalar olmadan bu mümkün deyildi. Ona görə də investisiya yatırmaq üçün xarici şirkətləri cəlb etməyimiz çox aydın idi, lakin haraya investisiya yatırılmalı idi? Xarici şirkətlərin maraq göstərə biləcəyi yeganə sahə neft sahəsi idi. Lakin Azərbaycan çox riskli ölkə hesab olunurdu, burada xarici şirkətlərin nümayəndələri özlərini çox narahat hiss edirdilər, onlar üçün hətta qala biləcəkləri normal otellər mövcud deyildi. Əlbəttə ki, bu vəziyyətdə investisiyaları cəlb etmək asan vəzifə deyildi. Lakin biz bunu edə bildik və 1994-cü ilin sentyabr ayında “Azəri-Çıraq-Günəşli” yataqları üzrə müqavilə Azərbaycan və xarici şirkətlərdən ibarət konsorsium tərəfindən imzalandı. Bu, bizim tərəqqiyə, çiçəklənməyə və inkişafa doğru yolumuzun əvvəli idi.

Ona görə də Azərbaycanın müasir tarixində neft amili həlledici rol oynayıb. Keçmişdə - Azərbaycan müstəqil olmadığı zaman, bildiyiniz kimi, ilk dəfə neft Bakıda çıxarılıb və dünyadakı ilk quyu bəlkə də buradan 10 kilometr məsafədə yerləşir. Lakin xalqımız bundan faydalana bilmirdi. Çünki Azərbaycanın müstəqil olmadığı zamanlarda 1 milyard tondan çox neft hasil edilmişdir. Əgər həmin vaxt Azərbaycan müstəqil olsa idi, biz bu gün dünyada ən varlı və çiçəklənən ölkələrdən biri ola bilərdik. Lakin həmin təbii sərvətlər Azərbaycan xalqının maraqlarına xidmət etmirdi. Yalnız biz müstəqil olduqdan sonra bu, baş verdi. Bu günün Azərbaycanı bunun aydın nümunəsidir. Ona görə də 1994-cü ildə “Əsrin müqaviləsi”nin imzalanması təkcə kommersiya layihəsi deyildi. Bu, bizim üçün həyatda qalmaq layihəsi idi. Bu, bizim üçün dövlətçiliyimizi, iqtisadiyyatımızı gücləndirmək, insanlarımızın daha yaxşı həyatını təmin etmək

layihəsi idi. Bunlar hamısı baş verdi. Bizim nümunəmizdə neft lənət deyildi. Neft uğur qazanmaq, güclü ölkə qurmaq, insanlara normal həyat vermək, sabitlik, təhlükəsizlik, qonşularımızla harmoniyada yaşamaq üçün vasitələrdən, ən vacib vasitələrdən biri idi. Bundan sonra Azərbaycana maraq artdı və 1996-cı ildə "Şahdəniz"sazişi imzalandı. Həmin vaxt qaz ölkələrin enerji təhlükəsizliyində o qədər də vacib amil deyildi. Ona görə də "Şahdəniz"sazişinin imzalanması 1994-cü ildə "Azəri–Çıraq–Günəşli" kontraktının imzalanması qədər vacib hesab olunmurdu. Lakin bu günün reallıqları onu göstərir ki, onu vaxtında etmək necə də müdrik addım olub. Daha sonra 1997-ci ildə müqavilədə müəyyən edilmiş ərazidən ilk neft çıxarıldı. Bu baxımdan, düşünürəm ki, bu da rekord idi. Çünki adətən xarici investorlarla müqavilənin imzalanması ilə ilk karbohidrogen ehtiyatlarının çıxarılması arasında vaxt 3 ildən çox olur. Bizdə isə bu, 3 il oldu və bu, bizə imkan verdi ki, iqtisadiyyatın digər sektorlarına investisiya yatırmağa başlayaq. 2002-ci ildə əsas neft boru kəmərinin tikintisi ilə bağlı qərar artıq həyata keçirilmişdi. Çünki "Bakı–Tbilisi–Ceyhan" kəmərinin praktiki tikintisi başlamışdı. Bundan əvvəl bizim neftimizi Rusiya, Gürcüstan və Qara dəniz limanlarına çatdıran iki boru kəməri Bakı–Novorossiysk və Bakı–Supsa artıq istifadəyə verilmişdi. Ona görə də "Bakı–Tbilisi–Ceyhan"ın 2006-cı ildə açılışı ölkəmizin inkişafında digər bir mərhələ idi. Çünki ondan sonra biz gəlirlər əldə etməyə, infrastruktura və insan kapitalına investisiya yatırmağa başladıq. 2007-ci ildə isə Azərbaycan ilk dəfə beynəlxalq qaz ixracatçısına çevrildi, "Bakı–Tbilisi–Ərzurum" qaz boru xətti açıldı. Biz hesab edirik ki, planlaşdırdıqlarımızın əksəriyyəti uğurla yerinə yetirildi. Lakin qarşımızda yeni çağırışlar var idi. Biz "Şahdəniz"in, "Şahdəniz-2" layihəsinin tam miqyasda işlənilməsinə başlamalı idik. Əsas qaz boru xətti sistemi olmadan bu, imkansız idi. Ona görə də konsorsium tərəfdaşlarla razılığa gəlmək, yekun investisiya qərarı vermək üçün bizi gözləyirdi və biz buna nail olduq. 2012-ci ildə Azərbaycan və Türkiyə Trans-Anadolu boru kəmərinin – TANAP-ın tikintisi ilə bağlı müqavilə imzaladı. Bundan əvvəl qeyd etdiyim kimi, biz 2011-ci ildə Avropa Komissiyası ilə birgə bəyannamə imzaladıq. Bundan sonra beynəlxalq konsorsium "Şahdəniz-2" ilə bağlı yekun investisiya qərarını verdi və uğurla aparılmış tikintiyə praktiki olaraq start verildi. 2018-ci ildə biz artıq Bakıda – Səngəçal terminalında Cənub Qaz Dəhlizinin rəsmi açılışını etdik və iyunda TANAP-la qaz Türkiyə bazarına çatdı. Artıq dediyim kimi, ötən ilin noyabrında TANAP Avropa sərhədlərinə çatdı. TAP-ın icrası artıq 92 faiz tamamlanıb. Beləliklə, bu, bizim hamımızın uğur hekayəsidir.

Düşünürəm ki, Məşvərət Şurası bu layihənin həyata keçirilməsində çox vacib rol oynayıb. Çünki biz hər il təkcə Bakıda görüşmürük. İl ərzində çoxsaylı görüşlər, məsləhətləşmələr keçirilir və layihəni irəliyə aparmaq üçün vacib qərarlar verilir. Azərbaycan bu müddət ərzində həm də etibarlı tranzit ölkəyə çevrildi. Təkcə təchizatçı deyil, həm də

tranzit ölkəyə çevrildi. Xəzərin şərq sahillərində yerləşən ölkələr beynəlxalq bazarlara öz karbohidrogen ehtiyatlarını Azərbaycan ərazisindən nəql edirlər. Həmçinin Rusiya şirkətləri tərəfindən bu ölkənin Xəzər dənizi sektorundan çıxarılan neft bizim sistemimiz – "Bakı–Tbilisi–Ceyhan" vasitəsilə beynəlxalq bazarlara nəql edilir. Beləliklə, biz artıq tranzit ölkəyik. Tranzit ölkə kimi rolumuz əminəm ki, artacaq. Bu, həmçinin Azərbaycanın nəqliyyat sektorunun sürətli inkişafını stimullaşdırmışdır. Bu gün bu sektor çox müasir və səmərəlidir, Avrasiya nəqliyyat qovşağı kimi mövqelərimizi gücləndirməyə kömək edəcək. Xəzərdəki ən böyük donanma bizə məxsusdur, 200-dən çox gəmimiz var. Hazırda həm bizim, həm də konsorsium üçün zəruri gəmilər istehsal edən çox müasir gəmiqayırma zavodumuz var. Biz 6 beynəlxalq hava limanı tikmişik. Onlardan biri – Heydər Əliyev Beynəlxalq Aeroportu 5 ulduza layiq görülmüş hava limanıdır. Bu, dünyadakı beşulduzlu 10 hava limanından biridir. Biz dəmir yolu sistemimizi müasirləşdirmişik və bu proses davam etməkdədir. Davos Dünya İqtisadi Forumunun qiymətləndirməsinə əsasən, Azərbaycan dəmir yollarının səmərəliliyinə görə dünyada 12-ci yerdədir. Azərbaycan hava yollarının səmərəliliyinə görə dünyada 11-ci yerdədir. Yolların keyfiyyətinə görə biz dünyada 27-ci yerdəyik. İnfrastrukturun keyfiyyətinə görə isə 34-cü yerdəyik. Beləliklə, nəqliyyat sektorunun inkişafı çox sürətli olub.

Hazırda Azərbaycan Şərq-Qərb, Şimal-Cənub nəqliyyat dəhlizlərinin yaradılmasında iştirak edən və fəal investisiya yatıran yeganə ölkədir. Əslində, bu gün biz artıq ölkəmizdən keçən Şimal-Qərb nəqliyyat dəhlizi və hələ ki, istismara verilməyən, lakin potensialı olan Cənub-Qərb nəqliyyat dəhlizi barədə danışırıq. Həmçinin demək istərdim ki, "Azəri–Çıraq–Günəşli" və "Şahdəniz"Azərbaycanın yeganə böyük sərvəti deyil. Baxmayaraq ki, onlar həqiqətən də böyük sərvətdir. Çünki Azərbaycanın və "BP"nin müqavilənin müddətinin 2024-ci ildən 2050-ci ilə qədər uzadılması ilə bağlı müqaviləni imzalaması faktı onu göstərir ki, "Azəri–Çıraq–Günəşli"nin potensialı həqiqətən də böyükdür. Əgər əvvəllər yatağın neft potensialını 500 milyon ton ehtimal edirdiksə, hazırda bu, 1 milyard tondan qat-qat çoxdur. Əminəm, yeni texnologiyalar imkan verəcək ki, biz daha çox neft hasil edə bilək.

Bizim təsdiqlənmiş qaz ehtiyatlarımız 2,6 trilyon kubmetrdir. Proqnozlaşdırılan ehtiyatlar 3 trilyon kubmetr civarındadır. Ona görə də Azərbaycan 100 ildən çox müddət üçün karbohidrogen ehtiyatlarının etibarlı təchizatçısı olacaq. Bu gün ənənəvi tərəfdaşlarımızla, – "Şahdəniz", "Azəri–Çıraq–Günəşli" konsorsiumlarına rəhbərlik edən və strateji tərəfdaşımız olan "BP" ilə "D 2030" adlandırılan layihə üzərində çalışırıq. Bu, 2018-ci ildə qüvvəyə minib. "BP" ilə birlikdə biz "Şəfəq– Asiman" qaz yatağı üzərində çalışırıq və ilk quyu çox tezliklə qazılmalıdır. Biz "BP" ilə, həmçinin "Dayazsulu" adlandırılan layihə üzərində çalışırıq. Bu layihənin aşkar edilməyən yataqlar baxımından böyük

potensialı var, çünki o, sahilə çox yaxın yerləşir və bizim ənənəvi hasilatımız dənizdə aparılırdı. Gələn il biz "Total"la 300 milyard kubmetr qaz potensialı olan "Abşeron" yatağından qaz hasilatına başlayacağıq. SOCAR fəal şəkildə "Ümid-Babək" yatağının işlənilməsi ilə məşğuldur. Hazırda "Ümid" yatağının gündəlik hasilatı 3 milyon kubmetr qazdır. Bu yatağın potensialı 200 milyard kubmetrdən çoxdur. "Equinor"la birlikdə biz "Qarabağ yatağı" üzərində çalışırıq. Mənə verilən məlumata görə, kəşfiyyat quyusu çox tezliklə qazılmalıdır. Beləliklə, bunların hamısı Azərbaycanın gələcək potensialının göstəricisidir. Üstəgəl, "Azəri–Çıraq–Günəşli"də böyük həcmdə dərin qaz yataqları var və SOCAR ilə "BP" arasında bu istiqamətdə danışıqlar çox uğurla gedir. Ümid edirəm ki, tezliklə biz razılığa gələ biləcəyik. Beləliklə, bunlar hamısı, beynəlxalq bazarlarda iştirakımızın genişləndirilməsi, şaxələnmiş üsullarla karbohidrogen ehtiyatlarımızın ixracı və xalqımız üçün daha yaxşı şəraitin yaradılmasından ibarət olan strateji məqsədlərimizin həyata keçirilməsinə töhfə verəcək. Bu, bizim məqsədimizdir və dövlətçiliyimizin gücləndirilməsidir.

Biz, həmçinin sərvətlərin ədalətli bölgüsü üzərində fəal işləyirdik. Çünki neft hasil edən bir sıra ölkələrdə varlı və yoxsullar arasındakı fərq çox yüksəkdir. Ona görə də bizim əsas məqsədimiz dediyimiz kimi, nefti – "qara qızıl"ı insan kapitalına çevirmək olub. Son 16 ildə Azərbaycanda yoxsulluq səviyyəsinin təxminən 50 faizdən 4,8 faizə düşməsi faktı onu göstərir ki, iqtisadi inkişaf və neft-qaz layihələri insanlara daha yaxşı həyat sürməyə kömək edib. Bu müddət ərzində bizim iqtisadiyyatımız 3,4 dəfə artıb. Bu, dünya rekordudur. Son 16 ildə xarici ticarətimiz 6,4 dəfə artıb. Bizim birbaşa xarici borcumuz ümumi daxili məhsulun yalnız 17 faizini təşkil edir. Sərbəst konvertasiya olunan valyuta ehtiyatlarımız xarici borcdan 6 dəfə çoxdur. Başqa sözlə, biz xarici borcu istədiyimiz vaxt bağlaya bilərik.

Beləliklə, bunlar əsas iqtisadi məlumatlardır. Sonda onu əlavə etmək istərdim ki, Dünya Bankı "Doing Business" hesabatında Azərbaycanı ən islahatçı 20 ölkədən biri hesab edir. Bu ilin yanvarında Azərbaycan ilə Davos Dünya İqtisadi Forumu arasında Bakıda "Davos Dördüncü Sənaye İnqilabı Mərkəzinin yaradılması haqqında niyyət protokolu" imzalandı. Bu, Qafqaz və Mərkəzi Asiyanı əhatə edəcək regional mərkəzdir. Azərbaycan ona görə seçildi ki, çünki bizim sənayemiz, qeyri-neft sənayemiz sürətlə inkişaf edir. Təkcə ötən il qeyri-neft sənayesində inkişaf təxminən 14-15 faiz idi. Bu il ümid edirik ki, artım daha çox və ya eyni səviyyədə olacaq.

Əlbəttə, neft və qaz layihələrindən danışarkən biz həmişə enerji təhlükəsizliyindən danışırıq. Azərbaycan özü və qonşuları üçün enerji təhlükəsizliyini təmin edən ölkədir. Enerji resurslarının şaxələndirilməsi ən vacib məsələlərdən biridir. Burada, əlbəttə, mənbələrin şaxələndirilməsi ən vacib məsələdir. Bizim nümunəmizdə isə mənbələrin

və marşrutların şaxələndirilməsindən söhbət gedir. Həmçinin düşünürəm ki, bizim uğurumuzun əsas səbəblərdən biri maraqların balansıdır - hasilatçılar, tranzit ölkələr və istehlakçılar arasındakı balans. Əminəm ki, aramızdakı bu müsbət əməkdaşlıq formatı davam edəcək. Məşvərət Şurasına uğurlar arzu edirəm. Çox sağ olun.

***

Azərbaycanın Energetika naziri **Pərviz Şahbazov** dedi:

-Cənab Prezident, icazə verin, Məşvərət Şurasının üzvləri adından ətraflı və məzmunlu nitqinizə görə bir daha Sizə dərin minnətdarlığımızı bildirək. İndi mən çıxış üçün sözü Avropa Komissiyasının nümayəndəsi, Avropa Komissiyasının Enerji Məsələləri üzrə Baş Direktorluğunun baş direktorunun müavini, doktor Klaus-Diter Borxardta vermək istərdim.

***

**AVROPA KOMİSSİYASININ NÜMAYƏNDƏSİ KLAUS-DİTER BORXARDTIN ÇIXIŞI**

– Çox sağ olun. Hörmətli Prezident Əliyev, nazir Şahbazov, nazir Petkova, nazir Tunova, nazir Ançiç, nazir müavinləri, zati-aliləri, xanımlar və cənablar.

Bu çox mühüm toplantıda – Məşvərət Şurası çərçivəsində nazirlərin altıncı iclasında Avropa İttifaqı adından çıxış etmək mənim üçün şərəf və böyük məmnuniyyətdir. Bilirəm ki, hamınız burada aranızda enerji məsələləri üzrə yeni komissar xanım Simsonu görəcəyinizi gözləyirdiniz. Təəssüf ki, o, Avropa Komissiyası və Afrika İttifaqı arasında keçirilən kollegiyalararası görüşə görə Əddis-Əbəbədə qalmağa məcbur olmuşdur. O, buraya gəlməyi çatdıra bilmədi. Lakin o, sizin hamınıza ən səmimi salamlarını göndərir və həmçinin məndən xahiş etdi sizə çatdırım ki, onun Cənub Qaz Dəhlizinə sadiqliyi sələflərininki qədər güclüdür. Mənim fikrimcə, Məşvərət Şurasının bu altıncı toplantısı tamamilə özəl bir iclasdır. Çünki bir tərəfdən bizim qeyd ediləsi işlərimiz var və Prezident Əliyevin Cənub Qaz Dəhlizinin böyük mərhələləri ilə bağlı bizə verdiyi məlumatdan görə bilərsiniz ki, bütün bunlara 2011-ci ildə start verilib. Biz indi, sadəcə, 2020-ci ildəyik və buna nail olunması özlüyündə tamamilə inanılmazdır. Düşünürəm ki, "Şahdəniz-2" yatağından hasil edilən qazın ilin sonunadək Avropa İttifaqına – İtaliyaya qədər nəqli ilə bağlı sadə fakt bizim hamımız üçün fantastik nailiyyət olacaq. Prezident Əliyevin indicə qeyd etdiyi kimi, Avropa İttifaqı üçün əlbəttə ki, bu layihə həyati əhəmiyyət kəsb edir.

Çünki bu, bizim enerji təhlükəsizliyimizi gücləndirir, həmçinin bizim şaxələndirmə strategiyamızın bir hissəsidir, yeni mənbədir və eləcə də daha mühümü olan Avropa bazarına yeni marşrutdur. Burada mən bütün bu illər ərzində bu layihələrə göstərdiyi idarəçiliyə və rəhbərliyə görə Prezident Əliyevə və onun hökumətinə təşəkkürümü bildirmək istərdim. Əlbəttə ki, mən eynilə tərəfdaş ölkələri – Türkiyə, Gürcüstan, Albaniya, Yunanıstan, İtaliya və Bolqarıstanı qeyd etmək istərdim. Mən, həmçinin Amerika Birləşmiş Ştatlarını da unutmaq istəmirəm. Prezidentin qeyd etdiyi kimi, siz hər zaman çox dəstək vermisiniz. Hər bir tərəfin bu layihə ilə bağlı baxışları və konkret səylər olmasaydı, bu layihə heç vaxt həyata keçməzdi. Sonuncu, lakin heç də az əhəmiyyət kəsb etməyən məsələ ondan ibarətdir ki, şirkətlər, kreditorlar olmasaydı, bu, mümkün ola bilməzdi. Ona görə də bunun baş verməsi üçün mənim çox sıx, mükəmməl şəkildə birgə çalışdığım şirkətlərə də böyük təşəkkür edirəm.

Beləliklə, bizim bu toplantıda nailiyyətlərimizi qeyd etmək üçün bütün səbəblərimiz var. Lakin biz həm də fürsətdən istifadə edib bir qədər gələcəyə baxmalıyıq, mən toplantımızın bir məqsədini də bunda görürəm. Bundan sonra nə olacaq? Bu məqamda mən, ilk növbədə, istərdim Cənub Qaz Dəhlizini necə genişləndirə biləcəyimizə nəzər salaq. Çünki bu elə gözəl layihədir ki, siz onu, sadəcə, 10 milyard kubmetr üçün istifadə edə bilməzsiniz. Beləliklə, ilk sual belədir: Bizim yeni istiqamətlərimiz varmı? Bəli, bizim yeni istiqamətlərimiz var. Qərbi Balkan ölkələri var. Onlardan bəzilərinin nümayəndələri buradadır. Digər Avropa ölkələrinin – Macarıstanın, Rumıniyanın marağı var və başqaları da olacaq. Beləliklə, istiqamət aydındır və imkan var. Sual yaranır: Qazı haradan əldə edək? Bu məqamda, Prezident Əliyev, Sizin son kəşfiyyatlarla bağlı dedikləriniz çox ümidvericidir. Əgər bütün bunlar həyata keçsə, onda düşünürəm ki, bizim Cənub Qaz Dəhlizini 10 milyard kubmetrdən 20 milyard kubmetrədək və daha çox genişləndirmək üçün artıq çox yaxşı imkanımız var, çünki bu dəhlizin imkanı, texniki imkanı artıq mövcuddur.

İkincisi, mən bunu da qeyd etmək istəyirəm. Yəqin eşitmisiniz ki, - mən onu leytmotiv adlandırardım, - yeni komissiya Avropa üçün yeni yaşıl pakt işləyib hazırlayıb. İcazə verin, ondan başlayım ki, Avropa yaşıl paktı Cənub Qaz Dəhlizinin inkişafı və ya hətta genişlənməsinə zidd deyil. Avropa yaşıl paktı qazı bizim gələcək enerji sistemimizin əsas komponentlərindən biri kimi ehtiva edir. Siz neytral emissiyalı iqtisadiyyatı yalnız o halda inkişaf etdirə bilərsiniz ki, onu keçidin iqtisadi səmərəliliyini təmin etmək üçün təsirin ciddi qiymətləndirilməsinə əsaslandırasınız. Bizim indiyədək apardığımız müşahidələr və təhlillər tamamilə aydın şəkildə göstərir ki, bu keçid qazı ehtiva etməklə həyata keçirilməlidir. Hələ bir müddət bu, bizim ən yaxşı tanıdığımız qaz – təbii qaz olacaq. Lakin daha uzunmüddətli perspektivdə bu təbii qaz da neytral

emissiyalı qaza çevrilməlidir. O, karbohidrogensiz olmalıdır. Bu, bizim hamımızın – qazı bizim gələcək enerji sistemimizin komponentlərindən biri kimi saxlamaqda maraqlı olanların və Avropa İttifaqının Paris sazişi çərçivəsində üzərinə götürdüyü öhdəliklərə həqiqətən əməl etməsini istəyənlərin qarşılaşa biləcəyi bir çağırışdır. Avropa İttifaqı bu mənada əməkdaşlıq üçün açıqdır. Biz Avropa yaşıl paktını qonşu ölkələrdən təcrid olunmuş şəkildə həyata keçirmək istəmirik. Biz uzunmüddətli perspektivdə təbii qazı dekarbonlaşdırmaq və iqlim dəyişikliyi ilə mübarizədən ibarət olan həllin bir hissəsinə çevirmək üçün tələb olunan texnologiyaların inkişafı sahəsində gələcək əməkdaşlığı səbirsizliklə gözləyirik. Beləliklə, ümumilikdə, əməkdaşlıq, eləcə də Cənub Qaz Dəhlizi ilə bağlı gələcək əməkdaşlıq Cənub Qaz Dəhlizinin bizim hamımızın qürur duyduğu layihə olaraq qalmasını təmin etmək baxımından həyati əhəmiyyət kəsb edir. Təşəkkür edirəm.

Azərbaycanın Energetika naziri **Pərviz Şahbazov**: Doktor Borxardt, çıxışınıza görə Sizə təşəkkür edirik. Mən bir daha bu səhər bizimlə birlikdə olduğuna görə Prezident Əliyevə minnətdarlığımızı bildirmək istərdim.

***

Toplantı işini panel sessiyalarla davam etdirib.

**AzərTAC**
*28 fevral 2020-ci il*

# PREZİDENT İLHAM ƏLİYEV CƏNUB QAZ DƏHLİZİ MƏŞVƏRƏT ŞURASI ÇƏRÇİVƏSİNDƏ NAZİRLƏRİN VİDEOKONFRANS FORMATINDA VII İCLASINDA ÇIXIŞ EDİB

*11 fevral 2021-ci il*

Fevralın 11-də Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin videokonfrans formatında VII iclası keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iclasda çıxış edib.

## PREZİDENT İLHAM ƏLİYEVİN ÇIXIŞI

– Hörmətli komissar Simson.

Hörmətli komissar Varhelyi.

Xanımlar və cənablar.

Əziz dostlar.

Cənub Qaz Dəhlizi Məşvərət Şurasının VII iclası videokonfrans vasitəsilə keçirilir. Bu, pandemiyanın nəticəsində yaranmış yeni reallıqdır. Buna baxmayaraq, əminəm ki, bizim birgə fəaliyyətimizin nəticəsi hər zaman olduğu kimi əhəmiyyətli olacaqdır. Məşvərət Şurasının ilk iclası mənim xatirimdədir. O zaman biz birgə işimizə yeni başlamışdıq və bu gün keçmişə nəzər saldıqda mühüm nailiyyətlərin şahidi oluruq. Yeri gəlmişkən, hər il Bakıda toplaşarkən biz görülən işləri nəzərdən keçirir və gələcək addımlarımızı planlaşdırırıq.

Şadam ki, bugünkü iclasda iştirak edən ölkələrin sayı əvvəlkindən artıqdır. Hazırda burada 18 ölkə, 19 şirkət və 5 aparıcı beynəlxalq maliyyə təsisatı iştirak edir. Biz vahid komanda olaraq çalışırıq və hesab edirəm ki, bu, bizim uğurumuzun başlıca səbəbidir.

Əlbəttə, əvvəlcə hər birimizi Cənub Qaz Dəhlizinin inşasının başa çatdırılması münasibətilə təbrik etmək istəyirəm. Ötən ilin sonuncu günü əlamətdar olmuşdur. Cənub Qaz Dəhlizinin sonuncu seqmenti olan TAP layihəsinin yekunlaşdırılması tarixi nailiyyətdir. Əminəm ki, bizim birgə fəaliyyətimiz davam edəcəkdir, çünki yeni plan və ideyalarımız var. Həmin plan və ideyalar bugünkü iclasda mütləq müzakirə ediləcəkdir.

Mən bütün tərəfdaşlarımıza təşəkkürümü bildirmək istəyirəm. Bu nəhəng layihənin inşasında iştirak edən dövlətlər – Gürcüstan, Türkiyə, Bolqarıstan, Yunanıstan, Albaniya və İtaliya hökumətlərinə minnətdaram. Avropa Komissiyasına təşəkkür edirəm, çünki Azərbaycan və Avropa Komissiyası 10 il əvvəl Bakıda Cənub Qaz Dəhlizinə dair Birgə Bəyanat imzalamışdır. Bu, bizim fəaliyyətimizin başlanğıc nöqtəsi idi. Bu 10 il ərzində biz Avropa Komissiyası ilə fəal şəkildə əməkdaşlıq etmişik və Azərbaycan və Avropa Komissiyası Məşvərət Şurasının həmsədrləridir.

Mən ABŞ və Böyük Britaniya hökumətlərinə təşəkkürümü bildirmək istəyirəm. Tərəfdaşlarımız olan hər iki ölkənin hökuməti bizim bütün təşəbbüslərimizi hər zaman dəstəkləmiş, Azərbaycan və onun qonşuları və tərəfdaşları ilə birlikdə əvvəllər də uğurla həyata keçirdiyi müxtəlif nəhəng layihələrin icrası zamanı bizə çox güclü dəstək vermişdir.

Əlbəttə, şirkətlər bu layihəyə güclü sadiqlik nümayiş etdirməsə idi, onun reallaşması mümkünsüz olardı. Burada həqiqətən də bu nəhəng enerji layihəsinin həyata keçirilməsi ilə bağlı vahid ideya ətrafında toplaşmış şirkətlərdən ibarət böyük bir qrup mövcuddur. Bu mənada mən Azərbaycan və “BP” arasında strateji tərəfdaşlığın əhəmiyyətini xüsusi vurğulamaq istəyirəm. “BP” bizim strateji tərəfdaşımızdır, 27 ildir ki, Azərbaycanda fəaliyyət göstərən şirkətdir və qarşıda hələ neçə onilliklər ərzində əməkdaşlığımız var. Buraya Azərbaycanda neft və qaz sahəsi, o cümlədən resursların nəqli ilə bağlı bütün əhəmiyyətli layihələr daxildir.

Buradan aparıcı beynəlxalq maliyyə təsisatlarına – Dünya Bankına, Avropa Yenidənqurma və İnkişaf Bankına, Asiya İnkişaf Bankına, Avropa İnvestisiya Bankına və Asiya İnfrastruktur İnvestisiya Bankına təşəkkürümü bildirmək istəyirəm. Bu beş böyük beynəlxalq maliyyə institutu layihədə iştirak etmiş və onun həyata keçirilməsinə mühüm töhfələr vermişdir.

Bu, bir daha onu nümayiş etdirir ki, komanda şəklində aparılan iş yaxşı nəticə verir. Biz əhəmiyyətli irəliləyişə nail olmuşuq. Cənub Qaz Dəhlizi enerji təhlükəsizliyi və enerjinin şaxələndirilməsi layihəsidir. Bu gün enerji təhlükəsizliyi bütün ölkələrin milli təhlükəsizlik məsələsidir. Enerjinin şaxələndirilməsi də istehlakçı və istehsalçı ölkələr üçün vacibdir. Beləliklə, zənnimcə, biz misilsiz əməkdaşlıq formatına nail olmuşuq. Düzgün hesablanmış maraqlar balansı var ki, burada istehsalçı olan Azərbaycanın maraqları tranzit və istehlakçı ölkələrin maraqları ilə üst-üstə düşür. Məhz bunun nəticəsində bəzilərinin o qədər də real hesab etmədikləri bir layihənin həyata keçirilməsi mümkün olmuşdur.

Cənub Qaz Dəhlizi layihəsinə nəzər saldıqda, onun bir çox parametrlər üzrə çox nadir olduğunu görə bilərik. Onun uzunluğu 3500 kilometrdir və layihə 7 ölkəni birləşdirir. Həmin ölkələr arasında sıx əməkdaşlıq olmasa idi, onu reallaşdırmaq mümkünsüz olardı. Boru xətti çox mürəkkəb coğrafi məkanlardan, hündürlüyü 2500 metr olan dağlardan, 100 kilometrdən artıq hissəsi isə Adriatik dənizinin dibindən keçir. Cənub Qaz

Dəhlizi mövcud olan ən yüksək ekoloji standartlara cavab verir və bu, həmin layihənin planlaşdırılması və icrası zamanı bizim üçün başlıca şərt olmuşdur.

Layihənin dəyərinə gəldikdə, ilkin olaraq dəyər 44,6 milyard dollar məbləğində hesablanmışdı. Lakin səmərəli idarəçilik və düzgün planlaşdırma nəticəsində layihənin dəyəri 33 milyard dollara enmişdir. Bunun özü əhəmiyyətli bir nailiyyətdir. Çünki adətən tikinti layihələrinin icrası zamanı dəyər azalmır, əksinə, artır. Onu da qeyd etmək istəyirəm ki, Azərbaycan layihəyə 10 milyard dollar həcmində əhəmiyyətli maliyyə töhfəsi vermişdir və biz Cənub Qaz Dəhlizinin həyata keçirilməsinin hər dörd seqmentində – "Şahdəniz", Cənubi Qafqaz boru kəməri, TANAP və TAP-da iştirak etmişik. Bunların hamısı bizim komanda şəklində işləməyimizin təzahürüdür.

Bir daha 10 il əvvəl Bakıda Avropa Komissiyasının o zamankı prezidenti cənab Barrozu və mənim tərəfimdən imzalanmış Birgə Bəyanatın əhəmiyyətini vurğulamaq istərdim. Cənub Qaz Dəhlizinə dair Birgə Bəyanatın imzalanması həqiqətən də əlamətdar hadisə idi. Ancaq həmin bəyanatın imzalanması artıq əldə edilmiş irəliləyişə görə mümkün olmuşdur. O zaman – 1994-cü ildə Azərbaycan fəal şəkildə dünyanın aparıcı enerji şirkətləri ilə işləməyə başlamış və "Əsrin müqaviləsi" imzalamışdır. Bu, bizim enerji strategiyamızın reallaşdırılması istiqamətində atılmış vacib addım idi.

Tərəfdaşlarımıza bəzi mühüm tarixi nailiyyətləri xatırlatmaq istəyirəm. 1994-cü il bizim bütün nəhəng layihələrimiz üçün başlanğıc nöqtəsi hesab oluna bilər. 1996-cı ildə Azərbaycan və beynəlxalq enerji şirkətlərindən ibarət konsorsium "Şahdəniz"yatağı ilə bağlı müqavilə imzalamışdır. Hazırda həmin yataq Cənub Qaz Dəhlizinin yeganə təbii ehtiyat mənbəyidir, ancaq əminəm ki, digər yataqlardan da əlavə qaz həcmləri olacaqdır. 1997-ci ildə xarici şirkətlər tərəfindən Xəzərdə ilk neftin hasil edilməsi reallığa çevrilmişdir. Azərbaycan Xəzər dənizində fəaliyyət göstərmək üçün xarici neft şirkətlərini dəvət edən ilk ölkə olmuşdur. Daha sonra 1999-cu ildə biz Bakıdan Gürcüstanın Supsa liman şəhərinədək uzanan boru kəmərini istifadəyə verdik. Bu, gələcək sərmayə qoyuluşu baxımından çox vacib idi, çünki buna qədər bizim dünya bazarına çıxışımız yox idi. Azərbaycan dənizə çıxışı olmayan ölkədir. Bu səbəbdən bizim boru kəmərlərinə ehtiyacımız var idi və beləliklə, 1999-cu ildəki nailiyyətimiz əhəmiyyətli dəyişiklik yaratdı.

Daha sonra biz 2006-cı ildə istifadəyə verilmiş "Bakı–Tbilisi–Ceyhan" əsas neft boru kəməri ilə bağlı işlərimizi planlaşdırmağa başladıq. Bu, Xəzər dənizinin Aralıq dənizi ilə birləşdirilməsi demək idi. Biz artıq təchizat marşrutlarının şaxələndirilməsinə nail olduq. 2007-ci ildə biz Azərbaycandan Gürcüstana, oradan isə Türkiyəyə uzanan qaz boru kəmərinin inşasını başa çatdırdıq. Bunun özü də tarixdə bir ilk idi – Azərbaycan qonşu ölkələri təbii qaz ilə təmin etməyə başladı. Nəhayət, 2012-ci ildə, Avropa İttifaqı

ilə bəyanatın imzalanmasından bir il sonra, biz Azərbaycan və Türkiyə arasında TANAP layihəsinin inşası ilə bağlı müqavilə imzaladıq. Bu, Cənub Qaz Dəhlizinin həyata keçirilməsi baxımından çox mühüm hadisə idi. 2018-ci ildə TANAP-ın icrası başa çatdıqdan sonra, 2020-ci ildə TAP layihəsi də yekunlaşdırılmışdır.

Bunların hər biri əhəmiyyətli nailiyyətlərdir. Bu gün keçmişə nəzər saldıqda görürük ki, bütün bu nailiyyətlər olmasa idi, bir-birimizi təbrik etdiyimiz bugünkü mərasim mümkünsüz olardı. Ancaq biz gələcəyə baxmalıyıq. Biz böyük nailiyyətlər əldə etmişik, lakin əminəm ki, bu gün Məşvərət Şurasının toplantısı çərçivəsində iştirakçılar gələcək planlarımızı müzakirə edəcəklər. Azərbaycana gəldikdə, biz enerji resurslarımızı inkişaf etdirməyə davam edəcəyik. Hazırda kəşfiyyat və hasilat mərhələsində olan bir neçə yataqla bağlı çox ümidverici perspektivlər var. Xüsusilə 400 milyard kubmetr qaz ehtiyatına malik olan "Babək" yatağını qeyd edə bilərəm. "Abşeron" qaz-kondensat yatağının 350 milyard kubmetr ehtiyatı var və ümid edirəm ki, orada hasilat gələn il başlayacaqdır. Digəri isə "Ümid" yatağıdır ki, orada ən azı 200 milyard kubmetr təbii qaz ehtiyatı mövcuddur. Bunlar təsdiqlənmiş ehtiyata malik olan yataqlardır ki, onlar Xəzər dənizinin Azərbaycana məxsus sektorunda qaz hasilatına töhfə verəcəkdir. Kəşfiyyat mərhələsində olan digər layihələr də var və biz növbəti illərdə yeni kəşflərin olacağına ümid edirik. Beləliklə, şaxələndirilmiş bu neft-qaz kəmərləri şəbəkəmizin hasilat gücünün artırılmasına xidmət edəcəkdir.

Birgə planlarımıza gəldikdə, əminəm ki, bu gün siz İonik-Adriatik boru kəmərinə dair məsələləri müzakirə edəcəksiniz. Əlbəttə, TAP-ın başa çatdırılması İonik-Adriatik boru kəmərinin inşasına imkan yaradır. Biz Qərbi Balkan ölkələri ilə anlaşma memorandumlarını artıq imzalamışıq. İonik-Adriatik boru kəməri həyata keçirildikdən sonra biz təchizat marşrutlarımızı şaxələndirmək imkanı əldə edəcəyik və Qərbi Balkan dövlətləri üçün də yeni imkanlar yaradacağıq.

Şaxələndirmə haqqında danışarkən qeyd etməliyik ki, bizim layihə yalnız marşrutların deyil, həm də mənbələrin şaxələndirilməsindən ibarətdir. Bu, olduqca vacib məsələdir və real şaxələndirmə deməkdir. Azərbaycan qazı Avropa üçün yeni, etibarlı və uzunmüddətli mənbədir. Çünki bizim təsdiqlənmiş təbii qaz ehtiyatımız 2,6 trilyon kubmetr təşkil edir və yeni məlumatlara görə bu həcm daha da artıq ola bilər. "Azəri-Çıraq-Günəşli" yatağında "dərin qaz" adlanan layihəni də nəzərə alsaq, bizim potensialın mənzərəsi daha da aydın olar.

Sizlərə daha bir vacib tədbirlə bağlı məlumat vermək istərdim. Bu da Azərbaycan və Türkmənistan arasında "Dostluq" yatağına dair Anlaşma Memorandumunun imzalanmasıdır. Bu yataq azərbaycanlı geoloq və neftçilər tərəfindən sovet dövründə kəşf edilmişdir. Yəni, kəşf edilmiş yataqdır. Bu yatağın işlənilməsinə dair baza prinsiplərinin hazırlanması üçün çox vaxt tələb edildi və biz onu "Dostluq" adlandırdıq. Bu, Xəzər

hövzəsində çox əlamətdar hadisədir. Bu ilin yanvar ayında həmin memorandum imzalandı və əminəm ki, tezliklə biz bütün şərtləri razılaşdıraraq yekun müqaviləni imzalayacağıq. Bu, Xəzər dənizi və onun hüdudlarından kənarda gələcək enerji əməkdaşlığı üçün də çox faydalı olacaqdır.

Onu da qeyd etmək istəyirəm ki, Azərbaycan artıq Xəzər dənizinin şərq sahilində olan enerji ehtiyatlarının nəqli üçün etibarlı tranzit ölkəyə çevrilib. Uzun illərdir ki, biz Xəzərin şərqində yerləşən tərəfdaşlarımız üçün "Bakı–Tbilisi–Ceyhan" boru kəməri və ölkəmizin dəmir yolu sistemi vasitəsilə vacib nəqliyyat marşrutları üzrə təchizatı təmin edirik. Yəni, Azərbaycan özünü etibarlı tranzit ölkə kimi təsdiq etmişdir.

Diqqətinizə çatdırmaq istədiyim digər bir məqam, bizim bərpa edilən enerjiyə dair planlarımızla bağlıdır. Biz hazırda dünyanın aparıcı enerji şirkətləri ilə danışıqlar mərhələsindəyik. Biz artıq onların ikisi ilə inşaat üçün zəruri sənədləri imzalamışıq. Bunların biri günəş, digəri isə külək enerjisi stansiyalarıdır ki, onların toplam gücü 440 meqavatdır. Bu layihələr 100 faiz xarici sərmayə hesabına icra olunacaq. Azərbaycanın sərmayə mühiti olduqca münbitdir. Dünya Bankının hesabatına görə, Azərbaycan biznes fəaliyyəti üçün imkanlar baxımından 30 aparıcı dövlət sırasındadır. Bərpa olunan enerji sahəsinə sərmayələrin cəlb edilməsi bizim bərpa olunan enerji mənbələrinə dair strategiyamıza və potensialımıza uyğundur.

Bununla yanaşı, işğal edilmiş ərazilərimizin azad olunmasından sonra həmin ərazilərdə günəş, külək və su ehtiyatları vasitəsilə elektrik enerjisinin istehsalı üçün yeni imkanlar yaranmışdır. Bu baxımdan mən ölkələrinizdən olan şirkətləri bizim tərəfdaşlarımız olmağa dəvət edirəm. Mən artıq rəsmi olaraq azad edilmiş əraziləri "yaşıl enerji" ilə təmin ediləcək bölgə elan etmişəm. Biz artıq master-plan üzərində çalışırıq və nəhəng su, günəş və külək potensialından istifadə edərək həmin layihələri icra edəcəyik.

Daha bir layihə bütün azad olunmuş ərazilərdə "ağıllı şəhərlər"in yaradılmasıdır ki, bununla bağlı da hazırlıq işləri gedir. İşğaldan azad olunmuş ərazilərin Ermənistan tərəfindən darmadağın edilməsini nəzərə alsaq, bu, böyük bir çağırışdır, lakin biz bunun öhdəsindən qısa müddət ərzində gəlmək və keçmiş köçkünlərimizi doğma torpaqlarına qaytarmaq məsələsinə sadiqik. Bununla da ölkənin imkanlarını, əzmini və gələcəyə baxışını nümayiş etdirmək niyyətindəyik.

Hesab edirəm ki, böyük neft və qaz potensialına sahib, xam neft və neft məhsullarının, təbii qaz və elektrik enerjisi ixracatçısı olan Azərbaycan böyük məsuliyyət nümayiş etdirməli və "yaşıl enerji"yə fəal şəkildə sərmayə yatırmalıdır. Biz məhz bununla məşğuluq. Bununla bağlı planlarımı bölüşdüm və əminəm ki, onlar həyata keçiriləcəkdir. Sadəcə olaraq, tərəfdaş və dostlarımızı məlumatlandırmaq istədim ki, belə imkanlar da mövcuddur.

Artıq dediyim kimi, Cənub Qaz Dəhlizinin başa çatdırılmasını qeyd etdiyimiz bir vaxtda biz gələcəyə baxmalı, yeni plan və ideyalar üzərində işləməliyik. Ümid edirəm ki, pandemiya bitdikdən sonra biz yenidən Bakıda görüşə biləcəyik, çünki Bakı ənənəvi olaraq Məşvərət Şurasının toplantılarının keçirildiyi şəhərdir. Fürsətdən istifadə edərək, birgə fəaliyyətimizi davam etdirmək üçün sizi gələn il Bakıya səfərə dəvət edirəm. Diqqətinizə görə sağ olun.

***

**Azərbaycanın energetika naziri Pərviz Şahbazov dedi:**

-Zati-aliləri, cənab Prezident, biz Sizə Məşvərət Şurasının bugünkü iclasının bütün iştirakçıları adından dərin minnətdarlığımızı bildiririk. Siz çox əhatəli və təfərrüatlı çıxış etdiniz. Təbii ki, Sizin dəstəyiniz Cənub Qaz Dəhlizinin uğurlu olmasını şərtləndirdi.

İndi isə sözü Avropa Komissiyasının enerji məsələləri üzrə komissarı xanım Kadri Simsona vermək istəyirəm.

**Avropa Komissiyasının enerji məsələləri üzrə komissarı xanım Kadri Simson dedi:**

– Zati-aliləri Prezident Əliyev, nazir Şahbazov, Brüsseldən sizə salamlar. Məşvərət Şurasının builki iclası xüsusidir. Çünki bizim bu günü qeyd etmək üçün əsasımız var. Cənub Qaz Dəhlizi başa çatıb. Məşvərət Şurası siyasi liderləri, şirkətləri və maliyyə təsisatlarının hamısını bir masa arxasında toplayıb. Bu cür digər forumlardan fərqli olaraq, bu, görünməmiş hadisədir. Bu uğurun miqyasını əslində anlamaq üçün biz layihənin üzləşdiyi iki gözəçarpan çətinliyi qavramalı idik. Birincisi, inam. Şura hamımızı vahid ideya ətrafında birləşdirdi. O, hamımız üçün çox istənilən etimadı qurmağa, icra olunacaq məsələlər ətrafında konsensus əldə etməyə və həyata keçiriləcək layihələrlə bağlı razılığa gəlməyə yardım etdi. İkincisi texniki tərəfdir. Burada nəinki "Şahdəniz-2" yatağının işlənilməsi, eləcə də çoxsaylı ərazilərdə, fərqli coğrafi məkanlarda, həm quruda, həm dənizdə boruların yerləşdirilməsi və birləşdirilməsində üzə çıxan çətinliklər nəzərdə tutulur. Bütün bunlara baxmayaraq, biz qalib gəldik. Bu gün biz fərəhlə deyə bilərik ki, mandatımız icra olunub.

Cənub Qaz Dəhlizi Avropa İttifaqına öz enerji təchizatını şaxələndirmək, vətəndaşlarımıza daha çox seçim və rəqabəti təmin etməkdə kömək edir. Faktiki olaraq, biz İtaliyada bu ilin əvvəlində qaz qiymətlərinin artıq aşağı düşdüyünü görürük. Bu, uğurumuzun, həmçinin yeni tərəfdaşlığın başlanması deməkdir. Bu dəhliz vasitəsilə Avropa İttifaqı və Azərbaycan hazırda strateji enerji tərəfdaşlarıdır. Biz bu nöqtəyə təsadüfən, yaxud hansısa şərtlərlə gəlməmişik. Tam əksinə. Biz bu nöqtəyə bu gün ona görə çatmışıq ki, bu iclasda

iştirak edən hər bir şəxs yorulmadan çalışıb və sadiqliyini nümayiş etdirib. Mən, əvvəlcə, Prezident Əliyevə bütün bu illər ərzində nümayiş etdirdiyi mövqeyinə, qətiyyətinə və strateji idarəçiliyinə görə təşəkkürümü bildirmək istəyirəm. Mən, həmçinin Gürcüstan, Türkiyə və Albaniyaya təşəkkürümü bildirmək istəyirəm. Dəhlizimiz Sizin ərazilərdən keçir. Siz olmadan Cənub Qaz Dəhlizi layihəsi olmazdı. Siyasətə dəstək bu cür layihələrdə hər hansı boru kəməri çəkilmədən təməl rolunu oynayır. Bir sözlə, mən bu müddət ərzində verdiyi siyasi dəstəyinə görə Amerika Birləşmiş Ştatlarına və Birləşmiş Krallığa təşəkkürümü bildirmək istəyirəm. Biz bu illər ərzində işinizə və dəstəyinizə görə Sizə minnətdarıq. Sonuncu, lakin mühüm məqam maliyyələşmədir. Maliyyələşmə bu layihənin icrasında çox vacib idi. Mən layihənin maliyyələşdirilməsinə töhfə vermiş Avropa İnvestisiya Bankına, Avropa Yenidənqurma və İnkişaf Bankına, Dünya Bankına və bütün özəl qurumlara minnətdarlığımızı bildirmək istəyirəm. Məhz beləcə biz bu nöqtəyə çatdıq.

İndi isə gəlin, işi necə davam etdirəcəyimizə nəzər salaq. Hamımız bilirik ki, Avropa iqlim neytrallığına doğru qlobal keçiddə aparıcı cərgədədir. "Yaşıl razılaşma" əsasında aydın məqsədlər dayanır. 2050-ci ilə qədər Avropada iqlim neytrallığı olmalıdır və gələn 10 il ərzində emissiyaların azaldılması ən azı 55 faizə çatmalıdır. Bu, de-karbonlaşmış enerji sisteminə doğru hərəkət etmək deməkdir. Əlbəttə, iqlim neytrallığına doğru yol uzundur. Müxtəlif başlanğıc nöqtələrində fərqli yanaşmaları tələb edir. Bu baxımdan biz qazın rolunu əvəzedici yanacaq kimi görürük. Avropa İttifaqı Şurası bu yaxınlarda etiraf etmişdir ki, qaz keçid yanacağa kimi enerji təhlükəsizliyini və əlçatanlığı saxlanmaqla qara kömür kimi havanı çirkləndirən enerji mənbələrindən tədricən uzaqlaşmanın təmin edilməsində öz rolunu oynayacaqdır. Eyni zamanda, gələcək "yaşıl razılaşma" ilə dünyada qaz de-karbonlaşdırılmalıdır və öz yerini hidrogenin və digər de-karbonlaşmış yanacağın tətbiqi üçün təhvil verməlidir. Təmiz enerjiyə keçid zamanı qazın rolunu etiraf etdiyimiz zaman biz, həmçinin aydın anlayırıq ki, bu rol yeni məsuliyyəti ehtiva edir. Bu səbəbdən Avropa İttifaqı metan emissiyaları sayəsində tədbirlərə xüsusi önəm verir. Biz bilirik ki, metan qısa perspektivdə CO2-dən qat-qat zərərlidir. Metan emissiyaları bütün istilik qazların emissiyasının 50 faizə yaxın hissəsini təşkil edir. Lakin biz, həmçinin bilirik ki, qaz hasilatı nəticəsində havaya qalxan metan demək olar ki, sıfır xərclə azaldıla bilər. Bu, elə bir sahədir ki, Avropa İttifaqı sürətlə addımlamağı çox arzu edir. Mənə məlumdur ki, Azərbaycanın Dövlət Neft Şirkəti artıq BMT-nin Ətraf mühit proqramı ilə ilk təmasları qurub. Biz Avropa İttifaqında metanın aradan qaldırılması ilə əlaqədar, həmçinin BMT-nin Ətraf mühit proqramı ilə yaxından əməkdaşlıq edirik. Böyük işin bir hissəsi olaraq ötən ilin oktyabrında biz antropogen metan emissiyalarını azaltmaq üçün Avropa İttifaqının strategiyasını qəbul etmişik və bu məsələdə əməkdaşlığı genişləndirmək arzusundayıq. Qısa perspektivdə biz emissiyaların monitorinqi, yoxlanılması və məruzə edilməsində

boşluqları doldurmaq, eləcə də metan emissiyalarını azaltmaq üçün təşəbbüsləri həvəsləndirmək istəyirik. Növbəti addımımız BMT-nin Ətraf mühit proqramı ilə beynəlxalq metan emissiyası abservatoriyasını yaratmaq və metan emissiyalarının azaldılması ilə əlaqədar Avropa İttifaqının qaydalarını hazırlamaqdan ibarət olacaq. Biz qlobal peyklə monitorinq məlumatlarınızı bölüşməyə hazırıq və onlar bu gün artıq ən çox emissiya tərəflərini müəyyən edə bilir.

Bu cür dəyişkən enerji xəritəsində bugünkü iclasda, həmçinin Cənub Qaz Dəhlizinin uğurunu necə davamlı etmək və onun perspektivlərini təmin etmək kimi məsələləri də nəzərdən keçirəcəyik. Sual olunur: Bu layihə Qərbi Balkan regionu üçün etibarlı və enerji çıxışının təmin edilməsinə necə töhfə verə bilər? Çünki həmin region dekarbonlaşmış sistemə doğru tədricən addımlayır, kömürdən uzaqlaşır və öz güclü potensialını inkişafda olan, bərpaolunan enerji üçün istifadə edir. Avropa İttifaqı Qərbi Balkanlara enerji keçidi zamanı praqmatik formada əsl tərəfdaşlıq ruhunda kömək etmək üçün yardım əlini uzadır. Biz enerji və bağlantını ötən il qəbul olunmuş Qərbi Balkanlar üçün iqtisadi və investisiya proqramının əsas hissəsində əks etdirdik. Əlbəttə, Azərbaycan qazının günlərin bir günündə Qərbi Balkanlara çatması bir sıra aspektlərdən asılı olacaq. Əsas aparıcı qüvvə bazara əsaslanan investisiya qərarları olacaq. Bu yay TAP Konsorsiumu ilkin icbari bazar tədqiqatını planlaşdırır. İnfrastruktur da nəzərdən keçirilir. Hər bir yeni infrastruktur layihəsi ayrıca olaraq qiymətləndirilməlidir. Onun dayanıqlığa təsiri nəzərdən keçirilməlidir. Bütün bunlar mühüm texniki işi tələb edir. Fikrimizcə, bu iş enerji birliyi, Mərkəzi və Cənub Şərqi Avropada enerji bağlantısı kimi regional forumlardan istifadə edərək aparılmalıdır. Beləliklə, bugünkü görüşümüz nəinki hazırkı uğuru qeyd etmək, eləcə də perspektivlər və çağırışlar ətrafında fikir mübadiləsi aparmaq baxımından vacibdir.

Xanımlar və cənablar, mən bugünkü iclasda nümayiş etdirilən kollektiv səylərdən fərəh hissi duyuram. Biz bu uğurdan qarşımızda olan iş zamanı ruhlandırıcı amil kimi istifadə etməliyik. Sağ olun.

***

**Nazir Pərviz Şahbazov dedi:**

– Xanım Simson, xoş sözlərə və ətraflı çıxışınıza görə sağ olun.

İndi isə mən sizin hamınızı nazirlərin VII iclasının birinci sessiyasına dəvət edirəm.

Zati-aliləri, cənab Prezident.

Hörmətli komissarlar.

Hörmətli nazirlər.

ABŞ, Birləşmiş Krallıq və İtaliya hökumətinin yüksək rütbəli nümayəndələri.

Xanımlar və cənablar.

Məşvərət Şurası beynəlxalq əməkdaşlığın nümunəvi bir formatı kimi öz məqsədinə nail oldu. Cənub Qaz Dəhlizi hazırda Avropanı Xəzər dənizi ilə bağlayır və bu, dünya miqyaslı infrastruktur vasitəsilə baş tutur, enerji təhlükəsizliyini gücləndirir, eyni zamanda, iqlim, iqtisadi və kommersiya məqsədlərimizə nail olunmasına töhfə verir. İlk dəfə olaraq Azərbaycan qazı Avropa bazarına 3500 kilometrlik məsafəni qət edərək daxil olub. Cənab Prezidentin qeyd etdiyi kimi, layihə vaxtında tamamlandı və büdcəyə də qənaət edildi. Mən sizin hamınızı belə bir ümumi tarixi nailiyyət münasibətilə təbrik edir və strateji məqsədlərimizə doğru daimi olaraq irəliləməyimizi arzulayıram, səmərəli tədbirlər arzu edirəm. Biz yüksək səviyyədə dəstəyin və çoxtərəfli əməkdaşlığın tərəfdarıyıq.

Hörmətli iştirakçılar, belə bir meqalayihə öz şaxələndirmə missiyasının da nəticələrini artıq göstərdi. Cari ildə Azərbaycandan Gürcüstana təxminən 1 milyard kubmetr, Türkiyəyə ən azı 8 milyard kubmetr, Avropaya 5 milyard kubmetrdən çox təbii qazın ixrac edilməsi gözlənilir. Növbəti ildə Cənub Qaz Dəhlizinin əsas seqmentlərindən biri olan TAP vasitəsilə bizim İtaliyaya 13 faiz, Yunanıstana 20 faiz, Bolqarıstana isə 33 faiz təbii qazımız çatdırılacaq. Həm TANAP-ın, həm də TAP-ın 2023-cü ilə qədər tam buraxılış qabiliyyəti ilə istifadə olunması nəzərdə tutulur. Artıq "Şahdəniz"yatağından 137 milyard kubmetrlik qaz hasil edilmişdir və hazırda bu, əslində, Cənub Qaz Dəhlizinin əsas mənbəyidir. Beləliklə, Cənub Qaz Dəhlizi Azərbaycanın enerji təhlükəsizliyini gücləndirir, bazarları, istehlakçı ölkələr üçün mənbələri və marşrutları şaxələndirir. Xüsusi olaraq məhz Avropa İttifaqının Karbon Neytrallığı Prioriteti çərçivəsində Cənub Qaz Dəhlizi yanacağın iqlimə ən az təsir göstərərək təchiz edilməsi imkanlarını açır. Bu, karbohidrogenin nəqlini nəzərdə tutur və bununla bağlı Cənub Qaz Dəhlizi sisteminin seqmentinə artıq tətbiq edilir.

Xanımlar və cənablar, TAP-ın istismara verilməsi Cənub Qaz Dəhlizi layihəsinin sonu deyil, əksinə, bu, yeni imkanların başlanması deməkdir. Biz öz tərəfdaşlarımızla birgə yeni geoiqtisadi mühiti və dayanıqlı inkişafı, qlobal əməkdaşlığı təşviq edən Avrasiyanın yeni xəritəsini yaradırıq. Həmçinin qeyd edilməlidir ki, Azərbaycan enerji dəhlizinin fiziki təhlükəsizliyini artırmışdır və bu layihəyə hərbi hədələri aradan qaldırmışdır, öz ərazilərini Ermənistan Respublikasının 30 illik işğalından azad edərək ərazi bütövlüyünü bərpa etmişdir.

İndi isə biz Cənub Qaz Dəhlizinin birinci fazasını başa çatdırdıqdan sonra növbəti faza üzərində düşünürük. İkinci faza nəticəsində Azərbaycan qazının işlənilməyən

yataqlardan hasilatı təmin ediləcəkdir və bu da artıq yeni təchizatçılar üçün yeni tranzit imkanları yaradacaq. Əminəm ki, Məşvərət Şurasının bugünkü iclasında biz nəinki ümumi nailiyyətlərimizi qeyd edəcəyik, o cümlədən gələcək imkanlarla bağlı birgə müzakirələr aparacağıq. Çox sağ olun.

İndi isə mən sözü cənab Oliver Varhelyiyə vermək istəyirəm.

**Avropa Komissiyasının qonşuluq siyasəti və genişlənmə danışıqları üzrə komissarı Oliver Varhelyi dedi:**

– Çox sağ olun.

– Hörmətli cənab Prezident.

– Hörmətli nazirlər, xanımlar və cənablar.

Bu gün sizin aranızda olmaqdan çox şadam. Biz belə çox mühüm bir qaz şaxələndirmə layihəsinin iclasını qeyd edirik. Ümid edirəm ki, bu, həmçinin bizim üçün yeni bir səhifədir və bizim Qərb tərəfdaşlarımızla apardığımız əməkdaşlığın genişləndirilməsi deməkdir. Biz bu il uğuru qeyd edirik, lakin, eyni zamanda, yeni planları tərtib edirik. İcazə verin, əsas məsələləri diqqətinizə çatdırım. Bu, Şərq tərəfdaşlığı çərçivəsində olan əməkdaşlıqdır və bizim Balkanlarda olan tədbirlərlə bağlı planlarımızdır. Əvvəlcə, icazə verin, Trans-Adriatik boru kəmərinin tamamlanması münasibətilə sizi təbrik edim və Azərbaycanda hasil edilən təbii qazın Avropaya daxil olmasını xüsusi olaraq qeyd edim. Bildiyiniz kimi, bu layihə ötən il başa çatdırıldı. Bu, böyük bir nailiyyətdir. Bu, əslində, bizim qətiyyətimizin, dövlətlərimizin və özəl iştirakçıların əməkdaşlığının təzahürü oldu. Çünki bu real şaxələndirilmə Avropaya gətirildi və bizim qonşuluğumuzda bu imkanları açdı. Bir sözlə, hamınızı təbrik edirəm və minnətdaram.

Cənub Qaz Dəhlizi bizim Şərq tərəfdaşlığı gündəliyimizin bir hissəsi idi və 2020-ci ildə onun başa çatdırılması nəzərdə tutulurdu. Əlbəttə ki, sonuncu dəfə ötən ilin martında biz bu istiqamətdə - Şərq tərəfdaşlığı prioritetləri ilə bağlı iclas keçirdik. Bu, bizim əməkdaşlığımızın müxtəlif məsələlərini, tərəflərini nümayiş etdirdi, biz iqtisadiyyatlarımızın müqavimət gücünü müzakirə etdik. Hazırda biz bu prioritetlərin icrası ilə bağlı planları tərtib etmək üzrəyik. Bizim qarşımızda reallaşdırılan məqsədlər dayanır. Əlbəttə ki, bu baxımdan dəhliz bizi ruhlandırır və enerji bağlantısı, təchizatın təhlükəsizliyi bizim iqtisadiyyatlarımızın müqavimət gücünü artırır. Təbii qaz Avropada və onun qonşularında dekarbonlaşmış iqtisadiyyata keçiddə vacib rol oynayır. Təbii ki, bu, bizim məqsədimizdir, həmçinin siyasətimizdə mövcuddur, burada həm də ədalətlilik prinsipi var. İndi sərmayələr davam etməlidir və Avropa İttifaqı bu baxımdan Azərbaycana və digər region ölkələrinə enerji bağlantısı məsələlərində öz dəstəyini verib. Biz bu istiqamətdə işimizi bundan sonra da davam etdirəcəyik və "yaşıl enerji"yə keçiddə,

çirklənmənin aradan qaldırılmasında yardım edəcəyik.

COVID-19 pandemiyası bütün iqtisadiyyatlarımıza böyük təsir göstərdi, biz bu şəraitdə müqavimət gücümüzü artırmalıyıq və bərpa işləri üzərində işləməliyik. İnvestisiyalar üçün yollar açılmalıdır və onlar reallaşmalıdır ki, xalqlarımızın həyatı daha da yaxşılaşsın.

İcazə verin, indi digər bir aspektə toxunum. Bu da bizim əməkdaşlığımızda çox vacib bir məqamdır və mənim üçün şəxsən çox vacibdir ki, ötən ilin oktyabrında Avropa Komissiyası Qərbi Balkan regionu üzrə iqtisadi investisiya planını qəbul etdi. İqtisadi bərpa planlarının tərtibatı, onun icrası ilə bağlı yönəldilən 9 milyon avro və əlavə 20 milyon avro Avropa Komissiyasının yardımıdır. Burada enerji bağlantısı, daşımalar və digər sahələr nəzərdə tutulur. Bu sənədin məqsədi həmin regionun istifadə olunmamış iqtisadi potensialından istifadə etməkdən ibarətdir və həmin dövlətlərin hökumətlərinə bu işlərin icrasında onlar üçün dəstək olmaqdır. Təbii ki, daşımalar sahəsi bu planın bir hissəsidir. Bu da bizim bir sıra təşəbbüslərimizə gətirib çıxarır. Birincisi, bərpa olunan enerji mənbələri, ikincisi, dekarbonlaşma, üçüncüsü isə innovativ yolların tətbiqi. Bütün bunlar Avropa İttifaqının enerji siyasətini əks etdirir və Qərbi Balkanlar üçün gələn illərin artımında real gündəliyi ehtiva edir. Hamınız bildiyiniz kimi, təbii qazın Qərbi Balkanlarda faydalı enerjiyə keçid sahəsində mühüm rolu var. Hazırda həmin regionda bununla bağlı çətinliklər mövcuddur, bu da regionun iqtisadi inkişafını əngəlləyir. Qaz istehlakına gəldikdə, əgər bu məsələlər həmin regionda həll olunarsa, belə bir keçid daha asanlıqla baş tutacaq. Buna görə də iqlim dəyişikliyi məqsədlərindən əlavə olaraq, həmçinin çirklənmənin qarşısı dayandırılacaq və həmin regionda sağlamlıq səviyyəsi də artacaq. Təbii ki, qaza əsaslanaraq biz regionda 60 faizədək emissiyaları azalda bilərik. Bunun baş verməsi üçün bizə infrastruktur lazımdır. Bu səbəbdən iqtisadi investisiya planı bir-biri ilə bağlı 5 sahəyə yönəlib və orada Qərbi Balkanlara qazın təchizatı xüsusi yer tutur. Təbii ki, burada təchizatın təhlükəsizliyi və rəqabət nəzərdən keçiriləcək, müvafiq bazarlarda daha etibarlı və qiymət baxımından daha əlçatan şərait yaradılacaq. Eyni zamanda, kömürdən tədricən imtina etmək imperativdir. Yeni qaz təchizat mənbələri həmin regionda qaz bazarının canlanması deməkdir. Gələn aylar ərzində biz bu istiqamətdə müzakirələrimizi davam etdirəcəyik. Biz istəyirik azərbaycanlı tərəfdaşlarımızla bu yay bununla bağlı müzakirələr aparaq ki, müvafiq infrastruktur yaradılsın və Azərbaycan qazı mümkün qədər tez zaman ərzində Qərbi Balkanlara da çatdırılsın.

Yekun olaraq icazə verin onu bildirim ki, bu şərtlərlə biz irəliyə doğru gedəcəyik və bu qaz layihəsi bizdə uzunmüddətli dekarbonlaşma strategiyasının icrasına əsas yaradacaq. Təbii ki, bu strategiyaya dəqiq planlar daxil edilməlidir, dekarbonlaşma, etibarlı enerji təchizatı Qərbi Balkanlarda həmin planların icrasına şərait yaradacaq və bizim planları-

mız tam aydın şəkildə təmin ediləcək. İnanıram ki, bu il bu işlər davam edəcək. Bu məqsədlə mən bizim hamımıza müraciət edərək sizi iqlim dəyişikliyi ilə bağlı öhdəliklərin icrasına daha ciddi şəkildə yanaşmağa dəvət edirəm. Mən, həmçinin bildirmək istəyirəm ki, Prezidentin verdiyi mesaj bizi ruhlandırdı. Həmsədr də burada bildirdi ki, Azərbaycanın regionu təchiz etmək potensialı var. Bu da şaxələndirmə deməkdir. Qarşımızdakı yol uzundur, lakin aydındır. Mən inanıram ki, biz hamımız mümkün qədər qısa müddət ərzində bunun öhdəsindən gələcəyik. Çox sağ olun.

Pərviz Şahbazov: Komissar Varhelyi, çıxışınıza görə çox sağ olun. Cənab Prezidentin bildirdiyi kimi, Avropa Komissiyasının Cənub Qaz Dəhlizinə verdiyi dəstək lap başlanğıcdan çox vacib idi. Biz arzu edirik ki, gələcəkdə də dialoqu davam etdirək.

***

Sonra konsorsium üzvləri tərəfindən Cənub Qaz Dəhlizinin tamamlanması hesabatı təqdim olundu.

**TAP-ın icraçı direktoru Luka Şerpatti** TAP-ın vaxtında istismara verilməsini mühüm hadisə adlandırdı. Bildirdi ki, məhz bu layihə Azərbaycan təbii qazını Avropaya çatdırır. O dedi:

– Fürsətdən istifadə edərək, Trans-Adriatik boru kəmərinin vaxtında reallaşmasını təmin etmək üçün üzərinə qəti öhdəlik götürdüyünə görə Zati-aliləri Prezident Əliyevin rəhbərliyi ilə Azərbaycan hökumətinə, eləcə də Avropa İttifaqına, layihədə iştirak etmiş hökumətlərə, səhmdarlarımıza, kreditorlara və tərəfdaşlarımıza təşəkkürümü bildirmək istəyirəm. Həqiqətən TAP-ın bu cür uğurlu olması məhz Sizin yorulmadan verdiyiniz dəstək sayəsində mümkün olmuşdur.

Trans-Anadolu qaz boru kəmərinin baş icraçı direktoru Saltuk Düzyol layihənin mövcud statusu barədə məlumat verdi.

**"BP" şirkətinin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Conz** tarixdə ilk dəfə olaraq Azərbaycan qazının Xəzər dənizindən birbaşa Avropaya nəql olunduğunu bildirdi, bu strateji uğur münasibətilə təbriklərini çatdıraraq dedi:

– Prezident Əliyevin liderliyi, eləcə də ölkəsi və bütün region üçün gələcəyə baxışı bu tarixi nailiyyətin gerçəkləşməsinə böyük təkan verdi. Onun şəxsi səyləri dünya neft və qaz sənayesində ən mürəkkəb layihələrdən birinə çevrilmiş bir layihənin uğurla həyata keçməsi üçün həlledici rol oynayıb. "BP" şirkəti olaraq biz qarşıdan gələn onilliklər boyunca regiondakı və Avropadakı insanlara fayda gətirəcək bu layihənin bütün hissələrində iştirak etməkdən böyük qürur duyuruq.

Sonra nazirlər və nümayəndə heyətlərinin rəhbərləri çıxış etdilər.

**Türkiyənin enerji və təbii sərvətlər naziri Fatih Dönməz** vurğuladı ki, Cənub Qaz Dəhlizi bütün regiona fayda gətirir və bu enerji dəhlizi regional əməkdaşlığın onurğa sütunudur. Fatih Dönməz dedi:

– Hörmətli iştirakçılar, belə bir yüksək səviyyəli VII iclasda iştirak göstərir ki, ölkələr bu işə qətiyyətlə yanaşır və regionlar arasında əməkdaşlığa sadiqlik var, baxmayaraq ki, biz çətin dövrdə yaşayırıq. Qeyd etmək lazımdır ki, Türkiyə və Azərbaycan arasında siyasi dəstək olmadan Cənub Qaz Dəhlizi reallığa çevrilməzdi. Azərbaycandan Avropaya gedən bu boru kəməri siyasi dəstək olmadan həyata keçirilə bilməzdi. Nəticədə biz bütün regiona fayda gətirdik.

**ABŞ dövlət katibinin enerji diplomatiyası üzrə müavininin müşaviri Kurt Donelli** tədbirdə iştirak etməkdən fərəh hissi duyduğunu bildirdi. ABŞ-ın Cənub Qaz Dəhlizinin strateji əhəmiyyətini vurğuladığını qeyd edən Kurt Donelli dedi:

– Xəzər dənizi karbohidrogenlərinin Qərb bazarlarına nəqli onilliklər boyu icra edilmişdir. Məmnunam ki, Birləşmiş Ştatların hökuməti və enerji şirkətləri həmin davamlı səylərdə mühüm rol oynayıblar. Cənub Qaz Dəhlizi enerji sahəsində həqiqətən çoxölçülü və çoxtərəfli nailiyyətdir. Burada bu gün təmsil olunan bütün ölkələr öz rolunu oynayıb. O cümlədən layihədə iştirak edən bütün ölkələrin çoxsaylı şirkətləri də var. Bu baxımdan İtaliya, Yunanıstan və Bolqarıstanda Avropa istehlakçıları hazırda bu qış ilk dəfə olaraq Azərbaycanın təbii qazından istifadə edirlər. Biz bu ilin sonrakı mərhələsində başlanması gözlənilən Trans-Adriatik boru kəməri üçün bazarda sınaqları alqışlayırıq və 2021-ci ilin sonuna qədər nəticələri görməyi səmimiyyətlə arzulayırıq.

Xəzər dənizinin karbohidrogen ehtiyatlarının nəqlində ABŞ şirkətlərinin də iştirak etdiyini deyən Kurt Donelli Azərbaycanla Türkmənistanın Xəzərdə "Dostluq" yatağının karbohidrogen resurslarının birgə kəşfiyyatı, işlənilməsi və mənimsənilməsi haqqında Anlaşma Memorandumunun imzalanması münasibətilə təbriklərini çatdırdı.

**Böyük Britaniya Baş nazirinin Azərbaycan üzrə ticarət elçisi Baronessa Emma Nikolson** bu tədbirdə Birləşmiş Krallığı təmsil etməkdən məmnun olduğunu bildirdi. İndiyədək Məşvərət Şurasının beş iclasında iştirak etdiyini deyən Baronessa Emma Nikolson layihənin uğurla başa çatması münasibətilə Prezident İlham Əliyevi və tərəfdaşları təbrik edərək dedi:

– Azərbaycan və onun tərəfdaşlarının birgə işi nəticəsində Cənub Qaz Dəhlizi bütün Avropada enerjinin şaxələndirilməsi, təhlükəsizlik və güclü olmağın rəmzinə çevrildi. Fəxr edirəm ki, "BP" bu layihədə aparıcı rol oynayır və Birləşmiş Krallıq bu layihəyə tam dəstəyini davam etdirəcək.

Baronessa Emma Nikolson Prezident İlham Əliyevin elan etdiyi "yaşıl enerji" konsepsiyasının əhəmiyyətini vurğulayaraq dedi:

- Azərbaycanın bu sahədə qəbul etdiyi təlimatlara gəldikdə, bu, onu göstərir ki, hökumətin öhdəliyi və marağı aydın şəkildə göz qabağındadır. Birləşmiş Krallıq Azərbaycanın enerji keçidini fəal şəkildə dəstəkləyir və eyniliklə biz son üç onillik ərzində Cənub Qaz Dəhlizini və Azərbaycanın digər enerji prioritetlərini dəstəkləmişik.

**İtaliyanın İqtisadi İnkişaf Nazirliyinin infrastruktur və enerji sistemləri üzrə baş direktoru Gilberto Diyaluçe** Cənub Qaz Dəhlizi layihəsinin qlobal əhəmiyyətindən danışdı və onun enerji təhlükəsizliyinin təmin olunmasındakı rolunu vurğulayaraq dedi:

– Bu gün şadam ki, Cənub Qaz Dəhlizinin açılışı artıq reallıqdır və o qaz təchizatının təhlükəsizliyini və şaxələndirilməsini təmin edən, istehlakçılara qaz qiymətlərini azaltmaq üçün rəqabəti gücləndirən və pik saatlarda istismar olunan qaz enerji stansiyaları vasitəsilə elektrik şəbəkəsinə tədricən müxtəlif bərpa olunan enerjinin daxil edilməsinə töhfə verən əsas infrastrukturdur. Dekabrın 31-də TANAP boru kəməri ilə qaz interkonnektor vasitəsilə həm Yunanıstana, həm Bolqarıstana çatdırılıb, bu iki ölkəni keçərək TAP ilə "Snam Rete Gas" arasında interkonnektor nöqtəsində İtaliyaya daxil olub. Hazırda İtaliya və Avropa üçün Azərbaycan kimi yeni qaz təchizatı mənbəyinin işə düşdüyünü və ilk dəfə olaraq qədim qitəni Türkiyə və Balkanlar vasitəsilə Xəzərlə birləşdirən Cənub Qaz Dəhlizi kimi yeni marşrut olduğunu nəzərə alaraq bu, qaz sektoru üçün tarixi gündür. Axın həcmi gündəlik təxminən 11 milyon kubmetr təşkil edir. Yanvarda TAP ilə İtaliyaya 340 milyon kubmetr qaz idxal edilmişdir. Onun təxminən 70 milyon kubmetri revers axın formasında interkonnektor nöqtəsi ilə Avropaya ixrac olunmuşdur.

**Gürcüstanın iqtisadiyyat və dayanıqlı inkişaf naziri Natela Turnava** bu tədbiri regional əməkdaşlığın göstəricisi kimi qiymətləndirdi. O bildirdi ki, Gürcüstan öz tərəfdaşları, o cümlədən Azərbaycanla birgə Cənub Qaz Dəhlizi konsepsiyasını daha da inkişaf etdirməkdə qərarlıdır, bu da ölkələrimizin uzunmüddətli tərəfdaşlığından qaynaqlanır. Nazir Natela Turnava dedi:

– Müxtəlif platformalardan və əldə etdiyimiz hər imkandan istifadə edərək biz həmin genişmiqyaslı nəqletmə təşəbbüsünə yekdil dəstəyi bəyan etdik. Mən qlobal maraq doğuran bu cür çox vacib layihənin icrası üçün diqqətli, addım-addım yanaşmanı tətbiq etmiş Azərbaycan Respublikasının rəhbərliyini və hər bir iştirakçını alqışlayıram. İndi isə ilk dəfədir ki, artıq sözlərə ehtiyac qalmır. Bu vaxtdan etibarən bizim adımızdan artıq rəqəmlər danışacaq. Avropa ölkələrində yenicə əldə edilmiş bazarlara və bu marşrut boyunca minlərlə yeni istehlakçıya milyardlarla kubmetr qaz çatdırılacaq. Daha böyük Avropa ailəsinə inteqrasiyanı arzulayan Gürcüstan hər zaman öz rolundan fərəhlənib və tranzit ölkə kimi belə bir strateji vacib layihədə iştirak edib.

**Türkmənistanın dövlət naziri, "Türkmənqaz" Dövlət Konserninin sədri Batır Amanov** Cənub Qaz Dəhlizinin Avropa İttifaqı üçün enerji təchizatının şaxələndiril-

məsində mühüm rol oynadığını bildirdi. Cənub Qaz Dəhlizi ilə bağlı əməkdaşlığın uğurla həyata keçirildiyini qeyd edən Batır Amanov dedi:

– Cənub Qaz Dəhlizi Avropa İttifaqı ölkələri üçün enerji təchizatının şaxələndirilməsində xüsusi rol oynayır. Bildiyiniz kimi, Xəzər dənizindən Türkiyəyə, daha sonra Avropa İttifaqı ölkələrinə qaz nəql olunur. Bildirmək istəyirik ki, hazırkı səylər və bizim davamlı, məqsədəuyğun addımlarımız bugünkü beynəlxalq əməkdaşlığımızın xüsusi formatının yaradılmasına əsas kimi xidmət etdi. Bu əməkdaşlıq müxtəlif dövlətlər, şirkətlər və maliyyə strukturları arasında uğurla həyata keçirilir. Hazırda həmin qaz boru kəməri və bütün seqmentlər gələcəkdə Türkiyənin və Avropa ölkələrinin enerji təhlükəsizliyinin artırılmasında mühüm rol oynaya bilər. Türkmənistan beynəlxalq münasibətlər sisteminin fəal iştirakçısı kimi qlobal enerji əməkdaşlığının inkişafına öz tərəfindən layiqli töhfə verir.

**Bolqarıstanın energetika naziri xanım Temenuşka Petkova** Məşvərət Şurasının budəfəki iclasının son illərdə görülən işlərə nəzər salmaq baxımından əhəmiyyətli olduğunu dedi:

– Bolqarıstan Cənub Qaz Dəhlizinin inkişafından olduqca məmnundur. Biz Yunanıstanla interkonnektor vasitəsilə həmin dəhlizə çıxa bilirik. Biz bunu Bolqarıstana qaz təchizatının şaxələndirilməsinin, regionda bu şaxələndirmənin əks olunmasının vacib meyarı hesab edirik. Bu, bizim üçün qaz təchizatını etibarlı şəkildə təmin edəcək ki, gələn üç il ərzində "Şahdəniz"yatağında hasil olunan qazı ildə bir milyard kubmetr həcmində qəbul edək.

**Yunanıstanın ətraf mühit və energetika naziri Kostas Skrekas** tədbirin çox böyük əhəmiyyət daşıdığını vurğuladı. Qeyd etdi ki, Cənub Qaz Dəhlizinin tamamlanması Azərbaycan qazının ilk dəfə Avropa İttifaqına daxil olmasına imkan verib. O dedi:

– Bu, həm Yunanıstan, həm Azərbaycan, həm Avropa İttifaqı və müvafiq tərəflər üçün vacib bir hadisədir. Yunanıstan Cənub Qaz Dəhlizi strategiyasının tərəfdarı olub. 2013-cü ildə əlindən gələni etdi ki, Trans-Adriatik boru kəməri vaxtında və uğurlu şəkildə tamamlansın və xüsusən də Şimali Makedoniya Respublikasına və Albaniyaya çıxış olsun. Təbii ki, biz bununla enerji təhlükəsizliyimizi gücləndiririk və enerji mənbələrimiz də şaxələndirilir.

**Albaniyanın infrastruktur və energetika nazirinin müavini İlir Betiya** bildirdi ki, ölkəsi Cənub Qaz Dəhlizindən faydalanır. O, Albaniyada müasir qaz təchizatının qurulması istiqamətində görülən işlərdən danışdı, ölkəsinin bundan sonra da regional enerji sektoruna töhfə verməyə hazır olduğunu bildirərək dedi:

– Albaniya bu Məşvərət Şurasının üzvüdür və eyni zamanda, çox vacib olan Cənub Qaz Dəhlizindən faydalanan ölkələrdən biridir. Tam inteqrasiyanı təmin etmək üçün

biz vacib addımlar atmışıq. Avropa Enerji Birliyinin müqavilə tərəfi kimi və enerji xartiyasını imzalayan tərəf kimi biz Avropa İttifaqı çərçivəsində 2005-ci ilin müqaviləsini imzalamaqla enerji birliyinin qurulmasını əsasən Balkan ölkələrini əhatə edən müqavilə tərəflərinin enerji sektorunun inkişafında və Avropa İttifaqı səviyyəsində bu sektorun inteqrasiyasında mühüm əhəmiyyət kəsb edən hadisə hesab edirik.

Sonra Serbiya Baş nazirinin müavini, mədən və energetika naziri Zorana Mihayloviç, Macarıstanın xarici işlər və ticarət naziri Peter Siyarto, Rumıniyanın energetika naziri Virgil Daniel Papesku, Monteneqronun kapital investisiyalar naziri Mladen Boyaniç, Şimali Makedoniya Respublikasının iqtisadiyyat naziri Kreşnik Bekteşi, Xorvatiyanın İqtisadiyyat və Dayanıqlı İnkişaf Nazirliyinin dövlət katibi İvo Milatiç və Avropa Komissiyasının energetika məsələləri üzrə baş direktorunun nümayəndəsi Kristina Lobillo çıxış etdilər.

Qeyd edək ki, iclasda dünyanın 5 aparıcı beynəlxalq maliyyə qurumunun və 18 aparıcı şirkətinin rəhbərləri də iştirak ediblər.

**AzərTAC**
*11 fevral 2021-ci il*

# BAKIDA CƏNUB QAZ DƏHLİZİ MƏŞVƏRƏT ŞURASI ÇƏRÇİVƏSİNDƏ NAZİRLƏRİN VIII TOPLANTISI KEÇİRİLİB AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TOPLANTIDA İŞTİRAK EDİB

*4 fevral 2022-ci il*

Fevralın 4-də Bakıda, "Gülüstan"sarayında Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin VIII toplantısı keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev toplantıda iştirak edib.

XXI əsrin ən böyük layihələrindən biri olan Cənub Qaz Dəhlizi dörd seqmentdən – "Şahdəniz Mərhələ-II", Cənubi Qafqaz Boru Kəməri, TANAP və TAP qaz boru kəmərlərindən ibarətdir. Prezident İlham Əliyevin təşəbbüsü ilə yaradılan Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin toplantısına hər dəfə Azərbaycan ev sahibliyi edir. Bu isə ölkəmizin layihədə aparıcı rolunu təsdiqləyən mühüm amillərdən biridir.

Ötən il toplantı pandemiya səbəbindən videokonfrans formatda keçirilsə də, bu dəfə müvafiq şərtlərə əməl etməklə Avropa İttifaqının komissarları, ABŞ, Böyük Britaniya, Türkiyə, Gürcüstan, İtaliya, Yunanıstan, Bolqarıstan, Albaniya, Xorvatiya, Macarıstan, Monteneqro, Rumıniya, Serbiya, Şimali Makedoniya, Moldova, Bosniya və Herseqovina, Ukrayna və Türkmənistanın yüksək səviyyəli nümayəndələri Bakıda bir araya gəldilər.

Azərbaycanın energetika naziri **Pərviz Şahbazov** çıxış edərək dedi:

– Zati-aliləri cənab Prezident.

Hörmətli komissarlar.

Hörmətli nazirlər, xanımlar və cənablar.

Bakıda Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin VIII toplantısında sizi salamlamaqdan məmnunluq hissi keçirirəm. Azərbaycan Respublikasının Prezidenti, cənab İlham Əliyevin giriş nitqi ilə çıxış etmək üçün bizimlə bir arada olması bizim üçün böyük şərəfdir. Cənab Prezident, söz Sizindir.

***

Azərbaycan Prezidenti İlham Əliyev tədbirdə çıxış etdi.

**PREZİDENT İLHAM ƏLİYEVİN ÇIXIŞI**

– Sabahınız xeyir, əziz dostlar, hörmətli komissar Simson, hörmətli komissar Varhelyi. Hörmətli qonaqlar, xanımlar və cənablar.

Hamınızı Azərbaycanda salamlamaq istəyirəm və bizi ziyarət etdiyiniz üçün sizə təşəkkürümü bildirirəm.

Bildiyiniz kimi, keçən il iclasımız videokonfrans vasitəsilə olmuşdu. Lakin pandemiya ilə bağlı bəzi narahatçılıqlara baxmayaraq, çox şadam ki, siz iclasda şəxsən iştirak etmək qərarını verdiniz. Eyni zamanda, təəssüf hissi ilə demək istəyirəm ki, iclasın bəzi iştirakçılarının koronavirusa yoluxması aşkar olunub və buna görə də onlar bu gün fiziki olaraq burada iştirak edə bilmirlər. Mən onlara möhkəm cansağlığı, tezliklə sağalmalarını arzulayıram. Əminəm ki, Azərbaycan həkimləri onların mümkün olduğu qədər tez normal həyata qayıtması üçün hər şey edəcəklər.

Qeyd etdiyim kimi, keçən il iclas videokonfrans formatında keçirildi. Bu gün biz qarşılıqlı əlaqəmizin ənənəvi formatını bərpa edirik. Əlbəttə ki, belə format təkcə önümüzdə olan əhəmiyyətli məsələləri həll etmək üçün yox, eyni zamanda, ikitərəfli və çoxtərəfli təmaslar qurmaq üçün daha yaxşı imkanlar yaradır. Hər ilin fevral ayında biz ənənəvi olaraq əvvəlki ildə görülmüş işləri nəzərdən keçiririk və gələcək addımlarımızı planlaşdırırıq.

Qeyd etmək istəyirəm ki, Məşvərət Şurasının hər bir iclasında müəyyən nailiyyətlər əldə edilmişdir. Hər il biz müəyyən yeni nailiyyətlər haqqında məlumat verirdik. Biz çox şadıq və özümüzü təbrik edə bilərik ki, bu dəfə biz Cənub Qaz Dəhlizinin uğurla tamamlanması haqqında məlumat verə bilərik. Biz çox şadıq ki, 2020-ci ilin sonuncu günü - dekabrın 31-də, - yeri gəlmişkən, bu, Dünya Azərbaycanlılarının Həmrəylik Günüdür, - azərbaycanlılar üçün mühüm olan bu gündə biz Cənub Qaz Dəhlizinin sonuncu hissəsi olan TAP layihəsinin tamamlanması haqqında məlumat verdik. Əlbəttə ki, mən layihədə iştirak edən bütün tərəflərə minnətdarlığımı bildirmək istəyirəm, ilk növbədə, Avropa Komissiyasına. Avropa Komissiyası və Azərbaycan həmtəşkilatçı olaraq və bütün ölkələr, şirkətlər və beynəlxalq maliyyə institutlarının Məşvərət Şurasının iclasında səylərinin koordinatorları olaraq il ərzində bu layihənin həyata keçirilməsində çox mühüm rol oynamışdır. Bu gün iki komissarın burada olması faktı buna dəlalət edir. Həmçinin mən regionda enerji təhlükəsizliyi layihələrinə dəstək verdiyi üçün Prezident Şarl Mişelə minnətdarlığımı bildirmək istəyirəm və minnətdarlığımı ona çatdırmağınızı xahiş edirəm. Eyni zamanda, Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşdırılması prosesində şəxsən iştirak etdiyinə görə də ona minnətdarlığımı bildirirəm. Həmçinin Cənub Qaz Dəhlizi layihəsinin iştirakçıları olan ölkələrin hökumətlərinə də təşəkkürümü

bildirmək istəyirəm: Türkiyəyə, Gürcüstana, Yunanıstana, Bolqarıstana, Albaniyaya və İtaliyaya. Biz həqiqətən də bir komanda olaraq çalışdıq.

Hesab edirəm ki, milli səviyyədə koordinasiya bizə bu nəhəng layihəni – XXI əsrin ən böyük layihələrindən biri olan Cənub Qaz Dəhlizini icra etməyə kömək etdi. Onun dəyəri 33 milyard ABŞ dollarıdır. Eyni zamanda, əlbəttə ki, biz enerji şirkətlərinin, tikinti şirkətlərinin, investorların fəal iştirakı olmadan uğur qazana bilməzdik. Bu gün onlar buradadırlar. Əlbəttə, onların, eləcə də beynəlxalq maliyyə institutlarının töhfəsi çox dəyərli idi. Cənub Qaz Dəhlizi layihəsi həm də müasir tarixdə çox azsaylı layihələrdən biridir ki, onun icrasına bütün aparıcı beynəlxalq maliyyə institutları öz töhfəsini vermişdir – Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnkişaf Bankı, Avropa İnvestisiya Bankı, Asiya İnfrastruktur və İnvestisiya Bankı. Beləliklə, aparıcı beynəlxalq maliyyə institutları bu layihənin icrası üçün kredit və maliyyə vəsaiti ayırdı. İndi biz bütün nöqteyi-nəzərlərdən mürəkkəb olan bu layihənin yüksək səmərəliliklə tamamlanmasına görə həqiqətən də fərəhlənə bilərik.

Əlbəttə, biz gələcəyə baxmalıyıq və mən əminəm ki, bugünkü iclasda iştirakçılar ənənəvi əməkdaşlıq sahələrini, gələcək planlarımızı müzakirə edəcək. Çünki hamımızın bildiyi kimi, əlavə qaz mənbəyinə tələbat artmaqdadır. Eyni zamanda, bərpa olunan enerji mənbələri ilə bağlı məsələlər də müzakirə olunacaq. Azərbaycan öz "yaşıl enerji" siyasətinə münasibətdə çox işlər görür. Dediyim kimi, yeni mənbələrdən qaz üçün tələbat artır. Cənub Qaz Dəhlizi layihəsinin tamamlanmasından sonra Azərbaycan beynəlxalq bazarlara, o cümlədən Avropa bazarlarına ixracı artıra bilib. Keçən il Azərbaycan 19 milyard kubmetr təbii qaz ixrac edib – Türkiyəyə 8,5 milyard, İtaliyaya demək olar ki, 7 milyard kubmetr. Yerdə qalan həcm komandanın başqa üzv ölkələrinə – Gürcüstana, Yunanıstana və Bolqarıstana ixrac olunub. Əminəm ki, komandamızın üzvü olan Albaniya da öz qazpaylayıcı şəbəkəsini tamamlayan kimi Azərbaycan qazını əldə edəcək.

Həmçinin o faktı vurğulaya bilərik ki, bugünkü iclasda keçən illə müqayisədə daha çox sayda ölkə və şirkətlər iştirak edir. Yeni iştirakçılarımız var və bu da onu göstərir ki, yeni bazarlarda Azərbaycan qazına ehtiyac var. Biz hazırıq, çünki Azərbaycan həmişə beynəlxalq bazarlara enerji resurslarının etibarlı təchizatçısı olmuşdur.

Biz neft ixracatına 2006-cı ildən başlamışıq, artıq uzun illərdir. Təchizatda heç bir fasilə olmamışdır, müqavilə şərtləri pozulmamışdır, enerji siyasəti arxasında heç bir siyasi gündəm yox idi. Bizim enerji siyasətimiz həmişə çox açıq, şəffaf, biznes və nəticələrə hesablanmış olub, əməkdaşlığa və qarşılıqlı dəstəyə gətirib çıxarıb. İndi isə mən qaz alan ölkələrin bazarlarında Azərbaycan qazının payı ilə əlaqədar son məlumatlara baxanda görürəm ki, bu ölkələrin bəziləri qaz istehlakının 80 faizini, digərləri isə 15-20 faizini Azərbaycandan alırlar və bu göstəricilər artır. Çünki biz hasilatı artırmağı planlaşdırırıq.

Bu il biz keçən illə müqayisədə daha çox ixrac edəcəyik – böyük potensial var, xüsusilə indi, qaz bazarındakı vəziyyətin sabit olmamasını nəzərə alaraq. Həmçinin qiymətlər də çox dəyişkəndir.

Hesab edirəm ki, yeni nəticələrin necə əldə olunması üçün biz gələcəyimizi koordinasiya və xoşməramlı şəkildə birlikdə planlaşdırmalıyıq. Azərbaycanın isbat edilmiş qaz ehtiyatı məlumdur: 2,6 trilyon kubmetr. Əlbəttə ki, ən böyük yataq "Şahdəniz"dir – bir trilyon kubmetr. Əminəm ki, daha çox olacaq. Çünki neft və qaz yataqlarının işlənilməsi ilə bağlı təcrübəmizə baxsanız görərsiniz ki, biz həmişə yolumuzun əvvəlində gözlənildiyindən daha böyük həcmdə ehtiyatları görürük. Bunlar yeni yataqların kəşfi və yeni texnologiyalar sayəsində mümkün olmuşdur. Çünki bu gün bu sahədə texnologiya sürətlə inkişaf edir. Buna görə də mən əminəm ki, Azərbaycanın isbat edilmiş qaz ehtiyatları daha da çox olacaq. Dediyim kimi, "Şahdəniz" Azərbaycanda əsas qaz yatağıdır və bu vaxtadək Cənub Qaz Dəhlizinə töhfə verən yeganə yataqdır. Lakin digər layihələr üzərində də iş gedir. Ümid edirik ki, ən böyük qaz kondensatı yataqlarından biri olan "Abşeron"da tezliklə hasilata başlanılacaq. Ola bilsin, bir ildən də az müddətdə. İş mərhələlərlə aparılacaq. "Abşeron"da birinci mərhələdə 1,5 milyard kubmetr qaz hasil olunacaq. Bu, böyük bir həcm deyil. Lakin düşünürəm ki, bəzi ölkələr üçün əhəmiyyətli göstəricidir. Bu, bizim də artan tələbatımızı qarşılaya bilər və həmçinin ixrac imkanlarını da təmin edə bilər.

Yaxşı nəticə verəcəyinə ümid bəslədiyimiz digər böyük bir yataq "Babək"dir. Onun təxmin olunan qaz ehtiyatı 400 milyard kubmetrdir. "Ümid" yatağının qaz ehtiyatı ən azından 200 milyard kubmetrdir. Əlbəttə ki, bizim çoxdan istismarda olan neft-qaz yataqlarımızdan biri – "Azəri-Çıraq-Günəşli"dən böyük gözləntilərimiz var. Onun tezliklə istismara veriləcəyinə ümid etdiyim dərin qaz hissəsində yüz milyardlarla kubmetr qaz olacaq və düşünürəm ki, qısa zamanda hasil edilə biləcək. Beləliklə, bu, bizim bugünkü potensialımızdır. Bizi 4 ölkə, 4 qonşumuzla birləşdirən şaxələndirilmiş qaz nəqli şəbəkəsinə malik olmaqla, əsas ixrac marşrutu – Cənub Qaz Dəhlizi tamamlanandan sonra, düşünürəm ki, bizim planlarımız həyata keçiriləcək. Lakin əlbəttə ki, biz bu komanda işini davam etdirməliyik. Cənub Qaz Dəhlizi layihəsi başa çatıb, bizim işimiz isə davam edir. Əminəm ki, biz yeni nəticələr əldə edəcəyik.

Həmçinin demək istərdim ki, ilk növbədə, əhalinin sayının artması ilə əlaqədar bizim daxili tələbatımız da artır. Azərbaycanın demoqrafik vəziyyəti çox müsbətdir. Eyni zamanda, sənaye artır. Ötən il bizdə qeyri-enerji əsaslı sənayedə rekord artım göstəricisi qeydə alınıb. Sənayemizin bu sektoru demək olar ki, 20 faiz artıb. Əlbəttə ki, bizim öz tələbatımızı qarşılamaq üçün daha çox qaza ehtiyacımız var. Həmçinin ümidvaram ki, 2020-ci ildə Vətən müharibəsi ərzində işğaldan azad edilən ərazilərimizi qazlaşdırmaq üçün çox tezliklə bizim əlavə həcmdə qaza ehtiyacımız olacaq. Bu, tamamilə dağıdılmış

böyük bir ərazidir. Bütün infrastruktur dağıdılıb. Bu ərazi 10 min kvadratkilometrdən çoxdur. Siz bizim qarşımızda necə çağırış olduğunu təsəvvürünüzə gətirə bilərsiniz. Biz artıq bu ildən etibarən keçmiş məcburi köçkünlərimizi geri qaytarmağı planlaşdırırıq. Ona görə də, bizim öz istehlakımız üçün əlavə qaza ehtiyacımız olacaq. Burada biz bərpaolunan enerji mənbələri ilə bağlı diqqətimizi cəmləşdirdiyimiz çox mühüm bir məqama gəlirik. Yeri gəlmişkən, Azərbaycan dünyanın xam neft, təbii qaz, neft-kimya məhsulları, neft məhsulları və elektrik enerjisi ixrac edən az sayda ölkələrindən biridir. Azərbaycanın elektrik enerjisi potensialı əsasən daxili istehlaka hesablanıb.

Biz elektrik enerjisi infrastrukturuna böyük həcmdə investisiya yatırmışıq və deyə bilərəm ki, Davos Dünya İqtisadi Forumunun qiymətləndirməsinə əsasən, enerjiyə əlçatanlıq reytinqində biz dünyada ikinci yerdəyik. Beləliklə, biz böyük həcmdə vəsait yatırmışıq və elektrik enerjisi xətlərini demək olar ki, tamamilə müasirləşdirmişik, yeni elektrik stansiyaları tikmişik. Misal üçün, tezliklə biz Qobu qəsəbəsində demək olar ki, 400 meqavat gücündə yeni elektrik stansiyasının açılışını edəcəyik. Ötən ay bu zalda biz tamamilə əcnəbi investor, enerji bazarında tanınmış, Səudiyyə Ərəbistanının "ACWA Power" şirkəti tərəfindən maliyyələşdiriləcək ilk böyük bərpaolunan enerji mənbəyi layihəsinin – 240 meqavat gücündə külək elektrik stansiyasının təməlqoyma mərasimini qeyd etdik.

Mən, həmçinin demək istərdim ki, bizim elektrik enerjimizə regional bazarda da ehtiyac var, bəlkə də, biz daha uzağa, Avropaya qədər gedə bilərik. Çünki bu gün biz dörd qonşu ölkəyə – Türkiyə, Rusiya, Gürcüstan və İrana elektrik enerjisi ixrac edirik. Həcm artır. Bizim Azərbaycanda bərpaolunan enerji mənbəyimiz nə qədər çox olsa, biz ixrac üçün daha çox qaza qənaət edəcəyik. Məsələn, mənim indicə qeyd etdiyim elektrik stansiyası – külək elektrik stansiyası ilə biz 200 və ya 300 milyon kubmetr qaza qənaət edəcəyik. Bu, yaxşı göstəricidir və istehlakı böyük olmayan ölkələr üçün ciddi dəyişiklik ola bilər. Beləliklə, bizim "yaşıl enerji" strategiyamız hazırda təkcə qiymətləndirilmə deyil, həm də planlamanın yekun mərhələsindədir.

Bizim işğaldan azad edilmiş ərazilər üçün xüsusi proqramımız var. Energetika Nazirliyimiz aparıcı beynəlxalq şirkətlərlə birlikdə artıq Qarabağ və Şərqi Zəngəzurda "yaşıl enerji" zonası üçün konseptual proqnoz hazırlayıb. Biz artıq Qarabağ və Şərqi Zəngəzurda bərpaolunan mənbələrin potensialının beynəlxalq qiymətləndirməsini aparmışıq və ilkin rəqəmlər çox ümidvericidir. Külək enerjisində potensial təxminən 7200 meqavat, Günəş enerjisində potensial isə 2000 meqavatdan çoxdur. Yeri gəlmişkən, sizi məlumatlandırmaq istərdim ki, bizim neft-qaz sahəsində strateji tərəfdaşımız olan "BP" işğaldan azad edilmiş ərazilərdə, xüsusilə Cəbrayıl rayonunda işləməyə böyük maraq göstərir. Biz artıq orada 200 meqavatdan çox gücə malik bərpaolunan enerji mənbəyinin tikintisi ilə bağlı "BP" ilə danışıqlar mərhələsindəyik.

Mən, həmçinin demək istərdim ki, hazırda bizim Energetika Nazirliyi bərpaolunan enerjiyə investisiyaların yatırılması ilə bağlı aparıcı beynəlxalq enerji şirkətləri ilə fəal danışıqlar mərhələsindədir. Bizdə bununla bağlı böyük ruh yüksəkliyi var. Düşünürəm ki, bu, Azərbaycanda "yaşıl enerji"nin inkişafına dair bizim daxili strategiyamızın bir hissəsi olmaqla yanaşı, ixracdan əldə olunan gəlirlər üçün əlavə mənbə ola bilər və enerji mənbələri idxal edən ölkələr üçün də faydalı olacaq. Bizim, həmçinin Xəzər dənizinin qiymətləndirilməsinə dair xüsusi proqramımız var. İlkin rəqəmlər göstərir ki, Xəzər dənizinin texniki potensialı 150 min meqavatdan çoxdur. Artıq biz bu potensialın inkişafı ilə bağlı aparıcı beynəlxalq enerji şirkətlərindən müəyyən ilkin təkliflər almışıq. Düşünürəm ki, bu, çox təbii olacaq. Çünki Azərbaycan artıq uzun illərdir özünü etibarlı enerji mənbəyi kimi sübut edib.

Qeyd etdiyim kimi, biz hər növ enerji mənbələri ixrac edirik. Biz ölkə daxilində olan və bizi bütün qonşularımızla birləşdirən elektrik xətlərini şaxələndirmişik. Bizim yaxınlığımızda ixrac bazarları, özü də artan ixrac bazarları var. Məsələn, iqtisadiyyatı artan, əhalisi artan Türkiyə kimi ölkə, düşünürəm ki, bizim üçün əsas bazardır, həmçinin əhalisi eynilə artan İran. Mən Qara dənizin dibi ilə Mərkəzi Avropanı bizim regionumuzla birləşdirən elektrik xətlərinin çəkilməsi ilə bağlı müəyyən planlardan xəbərdaram. Azərbaycan Gürcüstanın elektrik enerjisi təchizatçısı olaraq burada iştirak edə bilər. Bizim burada həqiqətən də böyük potensialımız var.

Biz çox fəal işləyirik, üzərimizə düşəni edirik. Eyni zamanda, şadam ki, Avropa Komissiyası ilə bizim Energetika Nazirliyimiz arasında buna həsr olunmuş xüsusi sessiya keçirilməsi üçün razılıq əldə olunub. Bunu həqiqətən də təqdir etməyə dəyər. Başqa sözlə, Cənub Qaz Dəhlizi tamamlanıb, lakin bizim işimiz davam edir. Biz bir komanda kimi işləməyə davam etməliyik.

Mən bir daha məmnunluğumu ifadə etmək istərdim ki, bu dəfə daha çox iştirakçımız var. Enerji təhlükəsizliyi və enerji şaxələndirilməsi ilə bağlı məsələlərin nə dərəcədə mühüm olduğunu sübut etməyə ehtiyac yoxdur. Biz hamımız bunu başa düşürük. Əlbəttə ki, Azərbaycan nəhəng neft-qaz ehtiyatları və bərpaolunan enerji potensialına malik ölkə olduğundan, sözsüz ki, biz öz məsuliyyətimizi başa düşürük. Sizə deyə bilərəm ki, biz daha yaxşı imkanlar yaratmaq üçün gələcəkdə də məsuliyyətli şəkildə davranacağıq. Bundan əlavə, həmçinin demək istərdim ki, bizim birgə yürütdüyümüz enerji siyasəti enerji şaxələndirilməsi və enerji təhlükəsizliyi məsələlərinin də hüdudlarını aşır. Çünki bu, ölkələr arasında yeni bağlantılar yaradır və əlaqələrin inkişafına kömək edir, bu prosesə cəlb olunmuş bütün ölkələr arasında qarşılıqlı etimad səviyyəsinin artırılmasına kömək edir.

Beləliklə, bizim gördüyümüz işlərin çox sayda müsbət nəticələri var. Bir daha qeyd edim ki, biz bu yola çıxanda işlərin necə olacağı çox aydın deyildi. Biz əməkdaşlığın

yeni formatına qədəm qoymuşduq, bu ölkələrin bəziləri ilə bizim heç vaxt bu formatda əməkdaşlığımız olmamışdı. Lakin bu, uğurlu oldu. Çünki biz səmimi, açıq və vicdanlı idik və eyni məqsədimiz var idi. Məqsədimiz budur, layihələr müxtəlif ola bilər, lakin əməkdaşlığın ruhu bizə planlaşdırdığımız hər şeyə nail olmağa kömək edəcək.

Bir daha bizimlə birlikdə olduğunuz üçün təşəkkür edirəm. Məşvərət Şurasının iclasına uğurlar arzulayıram. Sağ olun.

***

Azərbaycanın energetika naziri **Pərviz Şahbazov:** Cənab Prezident, dərin məzmunlu çıxışınıza görə Məşvərət Şurası iştirakçıları adından Sizə minnətdarlığımızı bildiririk. Sizin təşəbbüsünüzlə yaradılmış Məşvərət Şurası çoxtərəfli əməkdaşlığın uğurlu nümunəsi olaraq, Sizin rəhbərliyiniz və tövsiyələrinizlə Cənub Qaz Dəhlizi layihəsinin reallaşmasına mühüm töhfələr verdi. Məşvərət Şurasının budəfəki iclasında da səsləndirdiyiniz fikirlər, aktuallaşdırdığınız məsələlər Cənub Qaz Dəhlizi üzrə gələcək fəaliyyətimiz üçün aydın istiqamətlərdir. Cənub Qaz Dəhlizi layihəsinə davamlı dəstəyinizə görə Sizə bir daha dərin təşəkkürümüzü bildiririk.

İndi isə mən sözü Avropa Komissiyasının enerji məsələləri üzrə komissarı xanım Kadri Simsona vermək istəyirəm. O, həmçinin bizim Məşvərət Şurasının həmsədridir. Buyurun, xanım, söz sizindir.

***

**Avropa Komissiyasının enerji məsələləri üzrə komissarı xanım Kadri Simsonun çıxışı**

– Sağ olun.

Hörmətli Prezident Əliyev.

Hörmətli nazir Şahbazov.

Zati-aliləri, xanımlar və cənablar.

Bu gün sizinlə Məşvərət Şurasının iclasını açıq elan etməkdən olduqca məmnunam. Çıxışıma təşəkkür bildirməklə başlamaq istərdim. İlk olaraq, bu gün tədbirə ev sahibliyi edən Prezident Əliyevə və nazir Şahbazova təşəkkürümü bildirirəm. Artıq ikinci dəfədir ki, mən bu tədbirdə iştirak edirəm. Birbaşa isə, ilk dəfədir.

Görürəm ki, bu gün Məşvərət Şurasının toplantısında Qərbi Balkanlardan bir çox nazir və təmsilçilər iştirak edir. Sizin burada olmağınız Cənub Qaz Dəhlizinin Avropa İttifaqı

və region üçün nə dərəcədə əhəmiyyətli olmasının kifayət qədər sübutudur. İkincisi, mən Cənub Qaz Dəhlizi ilə Avropa İttifaqına nəql edilən qazın artırılmasında Azərbaycanın göstərdiyi səylərə görə Sizə təşəkkürümü bildirmək istəyirəm. Bu, bizim qaz təchizatı təhlükəsizliyi baxımından çox vacib bir məqamdır və Azərbaycan Avropa İttifaqı üçün etibarlı tərəfdaşdır.

İndi isə keçək bugünkü müzakirələrimizə.

Bu günün gündəliyi qarşımızdakı çağırışları və imkanları aydın şəkildə əks etdirir. Onlardan bəziləri Cənub Qaz Dəhlizinin istismarına aiddir. Biz onları birinci sessiyada müzakirə edəcəyik. Digər məsələlər enerji sistemlərimizin uzunmüddətli planlarına aiddir. Buna ikinci sessiyada baxılacaq. İcazə verin, bu məsələlərin hər biri üzrə bəzi fikirləri bölüşüm.

İlk olaraq, bu gün keçirilən iclas Cənub Qaz Dəhlizinin bir il ərzində tam istismarından sonra ümumi işləməsinə nəzər salmaq imkanıdır. Biz bunu hər dəfə görüşdüyümüz zaman etiraf etməliyik. Həmin dəhliz altı ölkədən keçərək, 3500 kilometr məsafə qət edərək və tərəfdaşlar arasında əməkdaşlığın nəticələrinin bariz nümunəsidir. Ötən ilin dekabrından Trans-Adriatik boru kəməri ilə Avropa bazarına təxminən 10 milyard kubmetr qaz nəql edilib.

Hamımız bu layihə zamanı dəf etdiyimiz çətinlikləri və maneələri yaxşı xatırlayırıq. Lakin bu gün hətta ən skeptik yanaşan insanlar onun baş tutmasına görə minnətdarlıq bildirir. Etibarlı, rəqabətcil və qəbul edilən qiyməti olan qaz Cənub-Şərqi Avropaya yol tapmaqdadır. Evlər qazla təchiz olunur, binalar isidilir və vətəndaşlar ehtiyac duyduğu enerjini alırlar. Artan enerji qiymətləri və sərt qaz təchizatı ilə dəhlizin rolu Avropa İttifaqı üçün heç vaxt görünməyən strateji əhəmiyyət kəsb edir. Fikrimizcə, Cənub Qaz Dəhlizi davamlı uğur hekayəsidir. Əlbəttə, bütün uğur hekayələri kimi, bu məsələ növbəti mərhələyə çıxır və biz baxmalıyıq ki, dəhliz öz ötürücülük qabiliyyətini artıra, yaxud hətta coğrafi baxımdan genişləndirə bilərmi? Ötən il nazirlərin iclasında bu məsələlərin öyrənilməsinə başlandı.

Ötənilki iclasdan sonra dəhlizlə bağlı siyasi söhbətlər və qazla əlaqədar geniş müzakirələr aparıldı. Avropa İttifaqı qazın keçid dövründə rolu, onun tənzimləyici və infrastruktur təsiri ilə əlaqədar öz mövqeyini aydınlaşdırdı.

Biz ötən ilin dekabrında hidrogen və dekarbonlaşmış qaz bazarlarına aid paketi qəbul etməklə qaz sektorunun dekarbonlaşmış gələcəyə doğru çərçivəsini müəyyən etdik, hidrogen və bioqaz sahəsində yeni imkanlar yaratdıq. Bu paketə gəldikdə o, həmçinin bugünkü qaz bazarının yaxşı formalaşdırılmasına xidmət edir. Onu daha müqavimətli, istehlakçıları nəzərə alan bazara çevirir. Biz, həmçinin mühüm və tarazlaşdırılmış qaydaları qəbul etmişik ki, enerji sektorunda metan emissiyaları azaldaq. İki gün öncə

komissiya taksonomiya ilə bağlı ümumi bir aktı qəbul edib. Orada qaz sektoruna aid olan fəaliyyətlər müəyyən edilir və onlar iqlim dəyişməsinin qarşısının alınmasına töhfə verməlidir. Bu, əslində, özəl sektoru həvəsləndirməlidir ki, onlar birbaşa bu kimi layihələrə sərmayələr yatırsınlar. Çünki Avropaya təmiz enerji keçidi lazımdır və biz hər bir üzv ölkə ilə bunu həyata keçirəcəyik. Hazırda biz Trans-Avropa Şəbəkəsini yaratmışıq və o sahədə maliyyə vəsaitlərini ayırırıq ki, Avropa İttifaqında hidrogen şəbəkələri daha da genişlənsin. Bununla bağlı biz Avropa İttifaqının qonşuluğunda, həmçinin iqtisadi və sərmayə planı çərçivəsində qaz infrastrukturuna sərmayə yatırmağa açığıq.

Bizim tənzimləyici və infrastruktur çərçivəmiz, əslində, qarşıdakı illər ərzində qazın rolunu etiraf edir. Eyni zamanda, biz hidrogen və aşağı karbonlu qazlara keçidi də nəzərdə tuturuq. Biz hesab edirik ki, 2030-cu ilə qədər qaz Avropanın ümumi enerji istehlakının 22 faizini təşkil edəcək. Bu gün enerji qiymətləri artdıqca, geosiyasi gərginlik olduqca Avropada da həmin bu şaxələndirilmənin əhəmiyyətini daha yaxşı anlayırlar.

Təbii qaz təchizatı, o cümlədən maye qaz boru kəmərləri vasitəsilə nəql edilməlidir. Qazın öz marşrutumuzla nəqlinə və xalis sıfır karbona keçidə gəldikdə biz bunu təşviq edirik. Biz istərdik ki, bu, həm bizim qonşularımızda olsun, həm də Qərbi Balkanlarda. Bu region üçün aydın bir prioritet var ki, biz kömürdən daha çox dekarbonlaşdırılmış sistemə keçməliyik. Bizim bu gün kömürdən istifadə edən stansiyalarımızın istismar müddəti bitib, onlar artıq standartlara cavab vermir və bu da ətraf mühitə təhlükədir.

Biz çalışırıq ki, enerji birliyimiz vasitəsilə dekarbonlaşma planlarına dəstək verək, bütün region ölkələrinə kömək edək. Hər bir ölkənin enerji sistemində o ölkənin unikallığı nəzərə alınmalıdır. Bu, o deməkdir ki, hər bir ölkənin öz gedəcəyi istiqamət var və qaz ənənəvi, yəni, çirkləndirici enerji mənbələrini əvəz etməlidir.

Qərbi Balkan ölkələrinə gəldikdə, mən onların buradakı təmsilçilərini salamlayıram. Onlar da öz enerji keçidlərinin təmin edilməsi üçün gələcək qaz planlarını tərtib edirlər. Gələn aylar ərzində onların etdikləri seçim bu regionda yeni layihələrə imkan yaradacaqdır. Lakin, həmçinin deməliyəm ki, biz regiona dəstək verdiyimiz zaman onların seçimləri müvafiq olmalıdır. Biz onlarla əhatəli strategiya çərçivəsində əməkdaşlıq edəcəyik ki, daha yaşıl və daha dayanıqlı enerji sistemləri qurulsun və region üçün investisiya planları tərtib edilsin. Cənub Qaz Dəhlizi daha aydın şəkildə bu tənzimləyici kontekstdə oturur və bu gün bazar imkanları əsas hesab olunur. Bu kontekstdə, biz hesab edirik ki, Trans Enerji Konsorsium tərəfindən həyata keçirilən bu sınaq vacib bir addımdır. 2022-ci ilin iyulunda artıq nəticələri bilinəcək ki, bu da Avropa İttifaqı üçün əhəmiyyətlidir. Bu, elə bir məsələdir ki, biz komissiya çərçivəsində buna diqqət yetiririk. Bütün bu elementlər bu gün müzakirə olunacaq. Cənub Qaz Dəhlizinə gəldikdə, inanıram ki, biz bu gün bunu daha yaxşı anlayacağıq.

İndi isə, icazə verin, təmiz enerjiyə keçidlə bağlı ikinci sessiyamız haqqında danışım. Bu sessiya çərçivəsində vacib məsələlər nəzərdən keçiriləcək. Təmiz enerjiyə keçid yeni imkanlar yarada bilər, yeni gəlir mənbələrini formalaşdıra bilər və bizim sistemlər adi ənənəvi enerji mənbələrindən azad olunar. Bu baxımdan bir neçə mövzu artıq müəyyən edilib. Lakin bizim qarşımızda vahid bir sual dayanır: biz sabit enerji təchizatının təmin edilməsi ilə iqlim neytrallığına necə nail olmalıyıq?

Mən metanın atmosferə atılmalarının azaldılmasının vacibliyini xüsusilə qeyd etmək istəyirəm. İstəyirəm ki, bu, bizim debatlarımızda xüsusi yer tutsun. Çünki iqlimə gəldikdə metan potensial olaraq təhlükəli maddədir və onun ətraf mühitə təsiri sürətlə arta bilər. Bu baxımdan Avropa İttifaqı bu gün məhz innovativ texnologiyalara daha çox sərmayə yatırılmasını vacib hesab edir ki, karbon qazının təsiri azalsın.

Bərpaolunan enerji mənbələrinə gəldikdə, onlar Avropanın uzunmüddətli planlarının təməl daşını təşkil edir. Bu, nəinki bizə dekarbonlaşmanı təmin etməyə, o cümlədən daha böyük bərpaolunan enerji mənbələrinin təmin edilməsinə yardım göstərəcək.

Bizim bilik və təcrübəmiz, bu sahədə atdığımız addımlar tərəfdaşlarımıza açıqdır. Məsələn, Azərbaycandan başlayaq. Hörmətli cənab Prezident, mən maraqla onu öyrəndim ki, hazırda Xəzər dənizindəki bu potensial qiymətləndirilir. Yəni, aydındır ki, həmçinin "Küləklər şəhəri" kimi tanınan Bakıda bu, Azərbaycan üçün çox böyük imkandır.

Avropa, eləcə də növbəti onillik ərzində tam genişmiqyaslı hidrogen bazarının formalaşdırılmasına diqqət yetirir. Biz istərdik ki, güclü hidrogen sənaye sektorumuz olsun. Avropa böyük hidrogen bazarıdır və biz üçüncü ölkələrdən idxala açığıq. Bərpaolunan enerji mənbələrinə, o cümlədən hidrogenə gəldikdə, hesab edirəm ki, regional strateji əməkdaşlıq üçün imkanlar çox genişdir.

Onu da bildirməliyəm ki, biz öz gələcəyimizi karbondan azad gələcək kimi formalaşdırırıq. Bunun üçün Azərbaycanla enerji sahəsində uzunmüddətli strateji əməkdaşlığa ehtiyac var. Biz bu gün fikir mübadiləsi aparmalıyıq ki, qısa və uzunmüddətli əməkdaşlığımız necə formalaşdırılmalıdır. Gələcəkdə bizim Məşvərət Şuramız həm də ümumi təmiz enerji məsələlərinin həllində fikir mübadiləsi aparmaq üçün faydalı platformaya çevriləcək.

Xanımlar və cənablar, nazirlər, cənab Prezident, mən bununla öz çıxışımı bitirirəm və ümid edirəm ki, siz fikir mübadiləsi əsnasında bəzi ideyalarla çıxış edəcəksiniz. Ümid edirəm ki, bu gün bizim maraqlı müzakirələrimiz olacaq. Sağ olun.

***

**Pərviz Şahbazov:** Xanım komissar Simson, Cənub Qaz Dəhlizinin enerji təhlükəsizliyində roluna dair fikirlərinizə və ətraflı çıxışınıza görə təşəkkür edirəm. İndi isə mən təşəkkürümü bildirirəm ki, siz bizimlə bu layihə üzrə əməkdaşlıq istəyinizi bildirdiniz və bununla bu açılış sessiyamız başa çatır.

Cənab Prezident, çox sağ olun ki, bizimlə oldunuz.

***

Toplantı işini panel sessiyalarla davam etdirib.

**AzərTAC**
*4 fevral 2022-ci il*

# “XƏZƏRNEFTQAZ”
## Beynəlxalq sərgi və konfransların xronologiyası

| № | Adı | Təşkilatçılar | Keçirilmə tarixi | İştirakçıların sayı |
|---|---|---|---|---|
| 1 | “Xəzərneftqaz–94” | Britaniyanın “Spirhed Eksibişnz LTD” şirkəti, Azərbaycan Ticarət – Sənaye Palatası | 1994, 24–28 may | 180 şirkət |
| 2 | “Xəzərneftqaz–95” | Britaniyanın “Spirhed Eksibişnz LTD” şirkəti, Azərbaycan Ticarət – Sənaye Palatası | 1995, 23 may | 20 ölkədən 165 şirkət |
| 3 | “Xəzərneftqaz–96” | Britaniyanın “Spirhed Eksibişnz LTD” şirkəti, Azərbaycan Ticarət – Sənaye Palatası | 1996, 4 iyun | 20 ölkədən 190 şirkət |
| 4 | “Xəzərneftqaz–97” | Britaniyanın “Spirhed Eksibişnz LTD” şirkəti, Azərbaycan Ticarət – Sənaye Palatası | 1997, 3 iyun | 25 ölkədən 250 şirkət |

| | | | | |
|---|---|---|---|---|
| 5 | "Xəzərneftqaz–98" | Britaniyanın "Spirhed Eksibişnz LTD" şirkəti, Azərbaycan Ticarət – Sənaye Palatası | 1998, 2 iyun | 29 ölkədən 400-dən çox şirkət |
| 6 | "Xəzərneftqaz–99" | Britaniyanın "Spirhed Eksibişnz LTD" şirkəti, Azərbaycan Ticarət - Sənaye Palatası | 1999, 1 iyun | 28 ölkədən 320-dən artıq şirkət |
| 7 | "Xəzərneftqaz–2000" | Britaniyanın "Spirhed Eksibişnz LTD" şirkəti, Azərbaycan Ticarət – Sənaye Palatası | 2000, 6 iyun | 27 ölkədən 300 şirkət |
| 8 | "Xəzərneftqaz–2001" | Britaniyanın "Spirhed Eksibişnz LTD" şirkəti, Azərbaycan Ticarət - Sənaye Palatası | 2001, 5 iyun | 25 ölkədən 337 şirkət |
| 9 | "Xəzərneftqaz–2002" ("Xəzər neft, qaz, neftayırma və neft kimyası– 2002" IX) | Britaniyanın "Spirhed Eksibişnz LTD" şirkəti, Azərbaycan Ticarət – Sənaye Palatası | 2002, 4 iyun | 31 ölkədən 300-dən çox şirkət |
| 10 | "Xəzərneftqaz–2003" ("Xəzər neft, qaz, neftayırma və neft kimyası – 2003" X) | Britaniyanın "Spirhed Eksibişnz LTD" şirkəti, Azərbaycan Ticarət – Sənaye Palatası | 2003, 3 iyun | 29 ölkədən 320-dən çox şirkət |

| | | | | |
|---|---|---|---|---|
| 11 | "Xəzərneftqaz–2004" ("Xəzər neft, qaz, neftayırma və neft kimyası – 2004" XI) | Britaniyanın "Spirhed Eksibişnz LTD" şirkəti, Azərbaycan Ticarət – Sənaye Palatası | 2004, 1 iyun | 30 ölkədən 338 şirkət |
| 12 | "Xəzərneftqaz–2005" ("Xəzər neft, qaz, neftayırma və neft kimyası – 2005" XII) | Britaniyanın "Spirhed Eksibişnz LTD" şirkəti, Azərbaycan Ticarət – Sənaye Palatası | 2005, 8 iyun | 29 ölkədən 331 şirkət |
| 13 | "Xəzərneftqaz–2006" ("Xəzər neft, qaz, neftayırma və neft kimyası – 2006" XIII) | Britaniyanın "Kaspian İnvest Limited" şirkəti, Azərbaycan Ticarət - Sənaye Palatası | 2006, 6–9 iyun | 30-dan çox ölkədən 360 şirkət |
| 14 | "Xəzərneftqaz–2007" ("Xəzər neft, qaz, neftayırma və neft kimyası – 2007" XIV) | Azərbaycan Ticarət - Sənaye Palatası, İTE Group Pic Britaniya Sərgi şirkəti | 2007, 5–7 iyun | 32 ölkədən 360 şirkət |
| 15 | "Xəzərneftqaz–2008" ("Xəzər neft, qaz, neftayırma və neft kimyası – 2008" XV) | Azərbaycan Ticarət – Sənaye Palatası, İTE Group Pic Britaniya Sərgi şirkəti | 2008, 3–6 iyun | 30-dan çox ölkədən 400 şirkət |
| 16 | Xəzərneftqaz–2009" ("Xəzər neft, qaz, neftayırma və neft kimyası – 2009" XVI) | Azərbaycan Ticarət – Sənaye Palatası, Böyük Britaniyanın "İTE Group PLC" şirkəti | 2009, 2–5 iyun | 22 ölkədən 300-ə yaxın şirkət |

| | | | | |
|---|---|---|---|---|
| 17 | "Xəzərneftqaz–2010" ("Xəzər neft, qaz, neftayırma və neft kimyası – 2010" XVII) | Azərbaycan Ticarət – Sənaye Palatası, Böyük Britaniyanın "İTE Group PLC" şirkəti | 2010, 1–4 iyun | 26 ölkədən 280-ə yaxın şirkət |
| 18 | "Xəzərneftqaz–2011" ("Xəzər neft, qaz, neftayırma və neft kimyası – 2011" XVIII) | Azərbaycan Ticarət – Sənaye Palatası, Böyük Britaniyanın "İTE Group PLC" şirkəti | 2011, 7–10 iyun | 27 ölkədən 285 şirkət |
| 19 | "Xəzərneftqaz–2012" ("Xəzər neft, qaz, neftayırma və neft kimyası – 2012" XIX) | Azərbaycan Ticarət – Sənaye Palatası, Böyük Britaniyanın "İTE Group PLC" şirkəti | 2012, 5–8 iyun | 35 ölkədən 304 şirkət |
| 20 | "Xəzərneftqaz–2013" ("Xəzər neft, qaz, neftayırma və neft kimyası – 2013" XX) | Böyük Britaniyanın "İTE Group Plc" şirkəti və onun tərəfdaşı "İteca Caspian" Məhdud Məsuliyyətli Cəmiyyəti, baş sponsoru isə Azərbaycan Respublikasının Dövlət Neft Şirkətidir. | 2013, 4–7 iyun | 28 ölkədən 386 şirkət |
| 21 | "Xəzərneftqaz–2014" ("Xəzər neft, qaz, neftayırma və neft kimyası – 2014" XXI) | Böyük Britaniyanın "İTE Group Plc" şirkəti və onun tərəfdaşı "İteca Caspian" Məhdud Məsuliyyətli Cəmiyyəti, baş sponsoru isə Azərbaycan Respublikasının Dövlət Neft Şirkətidir. | 2014, 3–6 iyun | 30 ölkədən 500-dən artıq şirkət |

| | | | | |
|---|---|---|---|---|
| 22 | "Xəzərneftqaz–2015" ("Xəzər neft, qaz, neftayırma və neft kimyası – 2015" XXII) | Böyük Britaniyanın "İTE Group Plc" şirkəti və baş sponsoru Azərbaycan Respublikasının Dövlət Neft Şirkətidir. | 2015, 2–5 iyun | 20-dən artıq ölkədən<br>320 şirkət |
| 2 | "Xəzərneftqaz–2016" ("Xəzər neft, qaz, neftayırma və neft kimyası – 2016" XXIII) | Azərbaycan Respublikasının Energetika Nazirliyi, Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR), Böyük Britaniyanın "İTE Group", "İTECA Caspian" şirkətinin təşkilatçılığı ilə | 2016, 1–3 iyun | 30-dan artıq ölkədən<br>240 şirkət |
| 24 | "Xəzər Neft və Qaz–2017" (XXIV Beynəlxalq "Xəzər Neft və Qaz – 2017" sərgi və konfransı və VII Xəzər Beynəlxalq energetika və alternativ enerji sərgisi) | Azərbaycanın Energetika Nazirliyinin və Dövlət Neft Şirkətinin - SOCAR-ın dəstəyi, "ITECA Caspian" və "ITE Group" şirkətlərinin təşkilatçılığı ilə | 2017, 31 may–3 iyun | 30 ölkədən<br>300-dən artıq şirkət<br>(37 yeni şirkət qatılıb) |
| 25 | XXV yubiley Beynəlxalq "Xəzər Neft və Qaz–2018" sərgisi | Azərbaycanın Energetika Nazirliyinin və Dövlət Neft Şirkətinin – SOCAR-ın dəstəyi, "ITECA Caspian" və "ITE Group Plc" şirkətlərinin təşkilatçılığı ilə | 2018, 29 may–1 iyun | 38 ölkədən<br>312 neft-qaz şirkəti iştirak edib. |

| | | | | |
|---|---|---|---|---|
| 26 | XXVI Beynəlxalq "Xəzər Neft və Qaz–2019" sərgi və konfransı | Azərbaycanın Energetika Nazirliyinin və Dövlət Neft Şirkətinin – SOCAR-ın dəstəyi, "ITECA Caspian" və "ITE Group Plc" şirkətlərinin təşkilatçılığı ilə | 2019, 29 may–1 iyun | 34 ölkədən 290 şirkət iştirak edib. |
| 27 | XXVII Beynəlxalq Xəzər Neft və Qaz Sərgisi | Azərbaycanın Energetika Nazirliyinin və Dövlət Neft Şirkətinin – SOCAR-ın dəstəyi və "ICA Group" şirkətlərinin təşkilatçılığı ilə | 2022, 1 iyun–3 iyun | 30 ölkədən 249 şirkət iştirak edib. |
| 28 | XXVIII Beynəlxalq Xəzər Neft və Qaz – "Caspian Oil&Gas" və 11-ci Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji – "Caspian Power" sərgiləri | Azərbaycanın Energetika Nazirliyinin və Dövlət Neft Şirkətinin – SOCAR-ın dəstəyi və "ICA Group" şirkətlərinin təşkilatçılığı ilə | 2023, 31 may–5 iyun | 35 ölkədən 320 şirkət iştirak edib. |
| 29 | XXIX Beynəlxalq Xəzər Neft və Qaz – "Caspian Oil&Gas" və 12-ci Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji ("Caspian Power") sərgisi | Azərbaycan Respublikasının Energetika Nazirliyi dəstək göstərir, Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) isə baş tərəfdaş qismində çıxış edir. | 2024, 4–6 iyun | 37 ölkədən 300-dək şirkət iştirak edib. |

# İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT


**Əliyev İlham.** İnkişaf – məqsədimizdir / İ.H.Əliyev; 1–140-cı kitab. – Bakı: "Azərnəşr". 2008–2024

**İlham Əliyev bu günün və gələcəyin uğur faktorudur** / bur. məsul F.R.Ağamalı. II kitab. – Bakı: "Azərbaycan" nəşriyyatı, 2001. 552 s.

**Heydər Əliyev**. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar / H. Ə. Əliyev;. 1-45 kitab. - Bakı: Azərnəşr, 1997-2013

**İlham Əliyev.** İnkişaf məqsədimizdir / İ. H. Əliyev; 1-140-cı kitab. - Bakı: Azərnəşr, 2008-2024

**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu** .-1997–2024

**https://e-qanun**

**azwww.socar**

**azwww.preslib**

**azhttps://azertag.az/**

## QEYD

Sadiq Qurbanov

# Neft və davamlı inkişaf:
## Azərbaycanın enerji strategiyası

*3 cilddə*

# III cild

*"Əsrin müqaviləsi"nə dair rəsmi sənədlər*

**Nəşriyyat rəhbəri: Vüsal Əliyev**
**Buraxılışa məsul: Ülkər Zeynal**
**Korrektor: Aliyə Cavadzadə**
**Dizayner: Xəyalə Şirinova**

**Yığılmağa verilmişdir: 01.08.2025**

**Çapa imzalanmışdır: 10.10.2025**

**Format fiziki çap vərəqi: 62 x 90**

**Tiraj: 300**

**"İZƏ" Nəşriyyatında çapa hazırlanıb,**
**"İnci Group of Companies" QSC mətbəəsində**
**hazır fayldan ofset üsulu ilə çap olunub.**